AQİL ƏLİYEV

ARİF ŞƏKƏRƏLİYEV

İDRİS DADAŞOV

# DÜNYA İQTİSADİYYATI: MÜASİR DÖVRÜN PROBLEMLƏRİ

B A K I - 2003

**Elmi redaktor: akademik Əli Abbasov**

**Rəyçilər: i.e.d., prof.M.X.Meybullayev**
**i.e.d., prof.F.A.Nəsrullayev**
**AQİL ƏLİRZA OĞLU ƏLİYEV**
**i.e.d.,prof.MEA-nın müxbir üzvü, əməkdar elm xadimi**
**ARİF ŞƏKƏRƏLİ OĞLU ŞƏKƏRƏLİYEV**
**i.e.d.,prof.,əməkdar elm xadimi**
**İDRİS ŞABANƏLİ OGLU DADAŞOV**
**i.e.n.,dosent**

**Dünya iqtisadiyyatı: müasir dövrün problemləri . (Monoqrafiya).Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2003.- 455 səh.**

Kitabda müasir dünya iqtisadiyyatı və onun əsas cəhətləri,dünya təsərrüfatının yarımsistemləri və onların inkişaf qanunauyğunluqları , planetimizdə fəaliyyət göstərən iqtisadi inkişaf modelləri, ölkələrin tərəqqisində region amili, ölkə və dünya iqtisadiyyatında optimal inkişafında biliyin həlledici rolu, qlobal problemlərin və qloballaşma proseslərinin milli iqtisadiyyatlara təsiri, milli iqtisadiyyatların tərəqqisində dövlətin rolu, inkişaf etmiş ölkələrin iqtisadiyyatının hərəkətverici qüvvələri və s. bu kimi məsələlər kompleks şəkildə araşdırılır. "Azərbaycan dünya təsərrüfat sistemində" bölməsində respublika iqtisadiyyatının dünəninə, bu gününə və sabahına elmi şərh verilir.

Kitab ali məktəb tələbələri, aspirantlar və magistrantlar, elmi işçilər, müəllimlər və ümumiyyətlə, dünya iqtisadiyyatında baş verən proseslərlə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

0240130000 21-2003 Qrifli nəşr
658(07)-021

© "Bakı Universiteti" nəşriyyatı -2003
© "İqtisad Universiteti" nəşriyyatı -2003.

**M Ü N D Ə R İ C A T**

**GİRİŞ ...........................................................................................5**

**I FƏSİL.“DÜNYA İQTİSADİYYATI” NIN MƏZMUNU, PREDMETİ VƏ FƏRQLİ CƏHƏYLƏRİ 12-22**

§ 1. “Dünya iqtisadiyyatı” elmi obyektiv zəruriyyətdən meydana gələn elmdir.
§ 2. Fənnin mahiyyəti və fərqli cəhətləri
§ 3.”Dünya iqtisadiyyatı” fənninin predmeti və vəzifələri

**II FƏSİL. DÜNYA İQTİSADİYYATI İNKİŞAF EDƏN BİR SİSTEM KİMİ 23-48**

§ 1.Müasir dünya iqtisadiyyatı və onun əsas cəhətləri
§ 2.Dİ-nin inkişaf pillələri
§ 3. Dünya təsərrüfatının yarımsistemləri və onların qruplaşdırılması
§ 4.Dünya iqtisadiyyatının inkişaf şərtləri və tipləri
§ 5.Dünya təsərrüfatı və onun yarımsistemlərinin göstəriciləri
§ 6. İqtisadi inkişaf modelləri

**III FƏSİL. MÜASİR DÜNYA İQTİSADİYYATINI FORMALAŞDIRAN AMİL VƏ ŞƏRTLƏR 49-65**

§1.Ölkələrin sosial-iqtisadi quruluşu və müasir dünya iqtisadiyyatının formalaşmasında onun rolu
§2.Elmi-texniki tərəqqi və onun nailiyyətlərinin geniş miqyasda istehsala tətbiqi
§3.Təsərrüfat əlaqələrinin intensivləşməsi və istehsalın beynəlmiləlləşməsi
§4.Qlobal beynəlmiləlləşmə və iqtisadi inkişaf

**IV FƏSİL. YARADICILIQ, TƏŞƏBBÜSKARLIQ VƏ DÜNYANIN İQTİSADİ İNKİŞAFI 66-90**

§ 1. **Dünya iqtisadiyyatının inkişafında biliyin rolu**
1.1. Bilik və iqtisadiyyat
1.2. Biliyin iqtisadiyyata təsiri mexanizmi və bu haqda dünya təcrübəsi
1.3. “Yaşıl inqilab” biliyin məhsuludur

1.4. Biliyin əldə edilməsi, yayılması və hərtərəfli istifadə edilməsi prosesinin gücləndirilməsi
1.5. Biliyin rolunun artmasının obyektiv əsası

**§ 2. İqtisadi inkişafda region amili**
**§ 3. Transmilli korporasiyalar (TMK) və dünya iqtisadiyyatı**
3.1. TMK-ın mahiyyəti
3.2. TMK-ın hərəkətverici qüvvələri
3.3. TMK –ın başlıca xüsusiyyətləri və səmərəli fəaliyyətinin səbəbləri
3.4. Dünya iqtisadiyyatı və TMK
3.5. TMK-ın coğrafiyası

**V FƏSİL. DÜNYA İQTİSADİYYATI VƏ QLOBAL PROBLEMLƏR 91-137**
§ 1. Qlobal problemlər və onların əsas əlamətləri
1.1. Problemin mahiyyəti
1.2.Qlobal problemlərin meydana çıxma səbəbləri
1.3.Qlobal problemlərin qruplaşdırılması
**§ 2. Dünya okeanından istifadə edilməsi problemi**
2.1. Problemin mahiyyəti
2.2. Problemin yaranma səbəbləri
2.3. Dünya okeanının iqtisadiyyata təsir imkanları
2.4.Dünya okenının mənimsənilməsi istiqamətləri və problermin həlli yolları
**§3. Qlobal ekoloji problemlər**
3.1. İnsan –təbiət –iqtisadiyyat
3.2. Ekoloji problemin qloballığı
3.3. Problemin qruplaşdırılması
3.4.Ekoloji böhranın dərinliyi,təsir istiqamətləri və nəticələri
3.5.İqtisadiyyata dəyən zərər və yaxud ekoloji vəziyyət kapital tələb edir.
3.6.Problemin həllində beynəlxalq təşkilatların rolu

**§ 4. Qlobal ərzaq problemi**
4.1. Problemin qloballığı

4.2. Problemin yaranma səbəbləri
4.3. Aclıq , onun mahiyyəti və ölçülməsi
4.4.Ərzaqla təmin olma səviyyəsinə görə regionların və ölkələrin qruplaşdırılması
4.5.Müasir texnoloji sivilizasiyanın ziddiyyətləri
4.6.Ərzaq təhlükəsizliyi konsepsiyası
**§5. Qlobal urbanizasiya problemi**
5.1.Urbanizasiya bəşəriyyətin qlobal problemləri sistemində
5.2.Urbanizasiyanın genezisi və onun əsas səbəbləri
5.3.Urbanizasiya və iqtisadiyyat
5.4.Problemin həlli yolları
**§6.Demoqrafik problem**
6.1. Problemin qloballığı
6.2.Əhali artımının dinamikası və proqnozu
6.3.Demoqrafik partlayışların əsas səbəbləri
6.4.Demoqrafik qlobal problem və iqtisadiyyat
6.5.Problemin həlli yolları

**VI FƏSİL. BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN MÜHÜM FORMALARININ MAHİYYƏTİ VƏ İNKİŞAFI 138-173**
**§1. Beynəlxalq ticarət. Dünya və ölkə iqtisadiyyatının inkişafında onun rolu**
1.1.Beynəlxalq ticarətin yaranmasının obyektiv əsası
1.2.Beynəlxalq ticarətin dünya iqtisadiyyatına təsiri
1.3.Dünya ticarətinin öyrənilməsi aspektləri
1.4.Xarici ticarət və ölkənin iqtisadi təhlükəsizliyi
1.5.Dünya ticarətinin dinamikası
1.6.Dünya ticarətinin strukturu
**§2.Kapitalın beynəlxalq hərəkəti**
2.1. Məsələnin qoyuluşu
2.2.Kapitalın beynəlxalq hərəkətinin amil və şərtləri
2.3.Kapitalın ölkələrarası hərəkəti və onun formaları
2.4.Kapitalın beynəlxalq hərəkətinin həcmi və coğrafiyası
**§3.İşçi qüvvəsinin beynəlxalq miqrasiyası**
3.1.Miqrasiyanın obyektiv əsası və əhatə dairəsi
3.2.Beynəlxalq miqrasiyanın strukturu

3.3.Miqrasiyanın motivləri
3.4.Beynəlxalq miqrasiyanın kateqoriyaları
3.5.İnsanların beynəlxalq miqrasiyasının nəticələri
3.6.Beynəlxalq miqrasiyanın tənzimlənməsi

**VII FƏSİL. ÖLKƏ VƏ REGİONLAR DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNDƏ 174-233**

**§1. İnkişaf etmiş ölkələrin (İEÖ) dünya iqtisadiyyatında tutduqları mövqe**

1.1. İEÖ –in coğrafi quruluşu
1.2. İEÖ-in dünya iqtisadiyyatında yeri
1.3. İEÖ-in təsərrüfat mexanizmi
1.4. İEÖ-də dövlət tənzimlənməsi və yenidən tənzimləmə
1.5. İEÖ-in iqtisadi inkişafında ölkə başçısının rolu
1.6. İEÖ-in xarici iqtisadi fəaliyyəyinin əsas xüsusiyyətləri
1.7. İEÖ-daxili bazarı
1.8. Daxili bazarın göstəriciləri
1.9. İEÖ-in daxili bazarlarının xüsusiyyətləri

**§2. Yaponiyanın iqtisadiyyatı**

2.1. Dünya iqtisadiyyatında yeri
2.2. Dünya iqtisadiyyatına təsiri və onun əsas istiqamətləri
2.3. Yapon iqtisadiyyatının daxili enerjiləri
2.4. Yapon elmi-texniki siyasətinin mahiyyəti
2.5. İnsan amili Yapon iqtisadi inkişaf modelinin başlıca xüsusiyyətidir.
2.6. Yapon iqitisadi inkişaf modeli və onun əsas cəhətləri
2.7. Yapon bank sisteminin fərqləndirici cəhətləri

**§3.Amerika iqtisadiyyatı**

3.1.Amerika iqtisadiyyatının əsas xüsusiyyətləri
3.2.Amerika və dünya iqtisadiyyatı
3.3.Amerika iqtisadiyyatının hərəkətverici qüvvələri
3.4.Yeni iş yerləri yaratmaq –dövlətin iqtisadiyyata təsiretmə göstəricisidir.

**§4.Qərbi Avropa və dünya iqtisadiyyatında onun rolu**

4.1.Qərbi Avropa –vahid təsərrüfat kompleksi kimi
4.2.Qərbi Avropa ölkələrinin qruplaşdırılması
4.3.İqtisadi inkişaf göstəriciləri

4.4.Qərbi Avropanın iqtisadi inkişafının hərəkətverici qüvvələri
4.5.Qərbi Avropanın iqtisadi inkişafında AFR-nın rolu
4.6.Qərbi Avropanın iqtisadi inkişafında Böyük Britaniyanın rolu
4.7.Qərbi Avropanın iqtisadi inkişafında dövlət tənzimlənməsi
**§5. İnkişafda olan ölkələr və dünya iqtisadiyyatında onların mövqeyi**
5.1.İnkişafda olan ölkələr və onların əsas əlamətləri
5.2.İnkişafda olan ölkələrin qruplaşdırılması

**VIII FƏSİL. DÜNYA SƏNAYESİ VƏ İQTİSADİYYATIN İNKİŞAFINDA ONUN ROLU 234-280**

§1.Sənaye –iqtisadiyyatın xüsusi bölməsidir
§2.Sənayenin aparıcı rolunun mahiyyəti
§3.Sənayenin coğrafiyası
**§4.Dünya sənayesinin sahə strukturu**
4.1.Dünya sənayesinin sahə strukturuna təsir edən amillər
§5.Emal sənayesinin inkişafı
§6.Sənayedə müəssisələrin ölçüləri
§7.İstehsalın səmərəliliyinin yüksəldilməsində kiçik müəssisələrin rolu
§8.Dünya maşınqayırma sənayesi
§9.Maşınqayırma sənayesinin coğrafiyası

**IX FƏSİL. ELMİ-TEXNİKİ TƏRƏQQİ VƏ DÜNYA İQTİSADİYYATI 281-312**
§1.Elmi-texniki tərəqqinin məzmunu
§2.Elmi-texniki tərəqqinin xüsusi istiqamətləri
§3.Elmi-texniki tərəqqi və istehsalın səmərəliliyi
§4.Elmi-texniki tərəqqinin idarə edilməsi sahəsində dünya təcrübəsi

**X FƏSİL.DÜNYA İQTİSADİYYATINDA KƏND TƏSƏRRÜFATI 313-328**
§1.Dünya təsərrüfat sistemi və aqrar bölmə
§2.Kənd təsərrüfatı istehsalının strukturu
§3.Kənd təsərrüfatının inkişafına təsir edən amillər

§4.Kənd təsərrüfatı məhsulları istehsalının coğrafiyası
§5.Aqrar-sənaye kompleksləri

**XI FƏSİL.İNSAN RESURSLARI VƏ ONLARDAN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASI YOLLARI 329-352**

§1.İnsan resursları və iqtisadi inkişaf
§2.İnsan amili və sosial-iqtisadi inkişafda onun rolu
§3.Bazar və dövlət mexanizmlərinin uyğunlaşdırılması

**XII FƏSİL. AZƏRBAYCAN DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNDƏ 353-453**

**§1. İqtisadi inkişafın ümumi mənzərəsi**
**§2.Xarici iqtisadi fəaliyyət**
2.1.Xarici iqtisadi əlaqələrin göstəriciləri
2.2.İxracın və idxalın əmtəə strukturu və XİƏ-in saziş növləri
2.3.Xarici iqtisadi əlaqələrin coğrafiyası
2.4.Dünya təsərrüfat sisteminə inteqrasiya və onun gücləndirilməsi
2.5.İqtisadiyyatın açıqlılıq səviyyəsi

**§3.Azərbaycan Respublikasının sənayesi**
3.1.Sənayenin ümumi xarakteristikası
3.2.Sənayenin sahə strukturu
3.3.Sənayenin ərazi stukturu
**§4.Azərbaycan Respublikasının kənd təsərrüfatı**
**§5.Respublika iqtisadiyyatının bəzi inkişaf perspektivləri**

**ƏDƏBİYYAT SİYAHISI 554**

# G İ R İ Ş

Artıq on ildən çoxdur ki, Azərbaycan xalqı öz milli iqtisadiyyatının səmərəli formalaşması uğrunda əzmlə mübarizə aparır və qalib gəlir. Respublikamızın Prezidenti Möhtərəm Heydər Əliyev cənabları demişkən : "Müstəqil Azərbaycan dövləti yaşayır, bundan sonra da əbədi,uğurla yaşayacaqdır."

Azərbaycan dövləti qarşıda qoyulan məqsədlərə çatmaq üçün əsas vasitə kimi bazar iqtisadiyyatı sistemi seçmişdir.Belə bir ciddi sistemin seçilməsi idarəetmənin bütün pillələrində isə yaradıcı yanaşmağı,bütün daxili və xarici imkanları ortaya çıxartmağı,onlardan bacarıqla istifadə etməyi, sonra isə elmin,texnikanın və texnologiyanın son nailiyyətlərinə əsaslanaraq dünya standartlarına uyğun məhsullar istehsal istehsal etməyi və xidmət göstərməyi tələb edir.

Onu da qeyd edək ki, rəqabətin gücləndiyi indiki dövrdə istər sosial və istərsə də sırf iqtisadi məsələlərin həlli insanlardan və xüsusən də iqtisadçılardan və iqtisadiyyatı idarə edənlərdən hərtərfli bilik tələb edir. Bu heç də asan iş deyil.Mütəxəssislər və iqtisadiyyatı idarə edənlər yüksək biliyə malik olmalı, dünyada gedən qloballaşma proseslərindən baş çıxarmalıdırlar. Dünyada isə olduqca mürəkkəb proseslər cərəyan edir.Bu proseslər özünün çevikliyi,mütəhərrikliyi, çoxsürətliliyi və bəzən də dağıdıcılığı ilə fərqlənirlər. Belə bir şəraitdə məlumatsızlıq və biliksizlik ciddi səhvlərin baş verməsinə və ölkə iqtisadiyyatının zəifləməsinə səbəb ola bilər.Mənfi halların baş verməməsi üçün həm ölkə daxilində və həm də digər ölkələrdə baş verən iqtisadi inkişaf meylləri dərindən öyrənilməlidir. (heç olmasa ona görə ki, dünaynın digər ölkələrinin bazar iqtisadiyyatı sahəsində geniş və müsbət təcrübələri vardır). Tədqiqat göstərir ki, bu cür təcrübələri mənimsəmədən dövlətin sosial-iqtisadi inkişaf üçün optimal planlar tərtib etmək mümkün olmur. Gənc nəsil və xüsusən də gənc iqtisadçı – mütəxəssislər dünya təsərrüfatının formalaşması və inkişaf etməsi problemlərini, dünyada və onun yarımsistemləri olan ayrı-ayrı dövlətlərdə baş verən dəyişiklikləri , ölkələr arasında yaranan əlaqələri və onların başlıca xüsusiyyətlərini,dünyanın aparıcı (sənaye cəhətdən

inkişaf etmiş)ölkələrinin hərəkətedici qüvvələrini,"Yeni sənaye" ölkələrinin inkişaf sirlərini dərindən və hərtərəfli bilməlidirlər.

Müasir dövrün səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, milli təsərrüfatların qarşılıqlı əlaqədə olması faktının və dünyanın tamlığının getdikcə daha çox mütəxəssis və ekspertlər tərəfindən dərk edilməsi prosesi güclənmişdir.Buna görə də müasir sivilizasiyanın demoqrafik, ərzaq, təbii resurslar, ekoloji, beynəlxalq təhlükəsizlik, dünya okeanı və s. bu kimi problemlərinin mahiyyətini hər kəs bilməlidir. Onu da yaddan çıxarmaq olmaz ki, ölkə iqtisadiyyatını inkişaf etdirmək üçün ilk növbədə beynəlxalq iqtisadi əlaqələrin mühüm formaları olan beynəlxalq ticarəti, kapitalın və əməyin beynəlxalq miqrasiyası proseslərini dərindən dərk etmək, onların sirlərini ortaya çıxartmaq lazımdır.

Məhsuldar qüvvələrin beynəlmiləlləşməsi və qloballaşması prosesi özünün yeni yüksək nöqtəsinə çatmışdır. Bunun əsasında isə sahibkarlıq kapitalı və onun üzvi şəkildə birləşməsi durur.Transmilli korporasiyalar və transmilli banklar ölkə və dünya təsərrüfatlarının struktur cəhətdən yenidən qurulması amilinə çevrilmiş sənaye cəhətdən inkişaf etmiş ölkələrlə inkişafda olan ölkələr arasında münasibətləri birmənalı şərh etmək çətinləşmişdir. İnkişaf etmiş ölkə və regionların öz aralarında baş verən proseslər də insanı düşündürməyə vadar edir. İstər bütün dünya miqyasında və istərsə də ayrı-ayrı ölkələrdə məhsuldar qüvvələrin mahiyyəti, tərkibi dəyişmişdir. Hazırki dövrdə insan, insan amili, elm, bilik bacarıq, sahibkarlıq fəaliyyəti məhsuldar qüvvələrin tərkib hissələri kimi çıxış edirlər.Ölkələrdə sosiallaşma prosesi güclənir, demokratiya vüsət alır, azad sahibkarlıq inkişaf etdirilir.

Təxminən eyni təbii-coğrafi şəraitə malik olan ölkələr müxtəlif sosial-iqtisadi inkişaf dərəcələri əldə edirlər.Səbəb nədir? Bu sualın cavabı heç də sadə deyildir.Ona cavab vermək üçün ölkələrin seçdikləri inkişaf modellərini mənimsəmək lazımdır.Hər bir dünya ölkəsi seçdiyi modelə,həyata keçirdiyi struktur dəyişikliklərinə uyğun inkişaf edir.Məsələyə bu baxımdan yanaşdıqda dövlətin rolunun artması zərurəti meydana çıxır. Dövlət həmişə güclü olmalıdır.İslahatların müvəffəqiyyətlə keçirilməsi üçün bu,əslində bir nömrəli məsələdir.

Lakin bəziləri elə zənn edirlər ki, guya bazar iqtisadiyyatı şəraitində dövlətin rolu azalmalıdır,əslində isə bu heç də belə deyildir.Güclü dövləti olmayan ölkə zəif sükanı olan gəmi kimi qəzaya

uğraya bilər.Dövlət güclü olmalı və ölkənin sosial-iqtisadi inkişafına lazımi təsir göstərə bilməlidir. Bu sahədə dünya ölkələrinin zəngin təcrübəsi vardır. Belə təcrübələri öyrənmək və konkret bir məsələnin həllində ondan bacarıqla istifadə etmək bütün dövlət strukturlarının başlıca vəzifəsi olmalıdır.

Bütün bu məsələlər kitabda öz əksini çox əyani şəkildə tapmışdır.Kitabın müəllifləri MEA-nın müxbir üzvü, i.e.d., prof.,əməkdar elm xadimi Aqil Əlirza oğlu Əliyev, i.e.d., prof.,əməkdar elm xadimi Arif Şəkərəli oğlu Şəkərəliyev və i.e.n., dosent İdris Şabanəli oğlu Dadaşov kitabı təkmilləşdirmək istiqamətində təkliflərini vermək istəyən oxuculara əvvəlcədən öz minnətdarlığını bildirirlər.

# I FƏSİL. "DÜNYA İQTİSADİYYATI" NIN MƏZMUNU, PREDMETİ VƏ FƏRQLİ CƏHƏTLƏRİ

## §1. "Dünya iqtisadiyyatı" elmi obyektiv zəruriyyətdən meydana gələn elmdir

**"Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi, regionlaşma XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətlərindəndir."**

**H.Ə.ƏLİYEV**

Təbiətin və cəmiyyətin üzdə görünən və üzdə görünməyən sirlərinin, qanunauygunluqlarının öyrənilməsinin çox qəribə bir xüsusiyyəti vardır. Uzun illər boyu üzərində tədqiqatlar apararaq, böyük əmək sərf edərək əldə edilən nəticələr sonralar çox sadə və hamının dərk edə biləcəyi adi həqiqətə çevrilir. Milli iqtisadiyyatların dünya təsərrüfat sistemindəki rolunun, dünya sisteminin və iqtisadiyyatını vəhdətliyinin dərk edilməsi, dünya iqtisadiyyatının milli iqtisadiyyatlara və əksinə, güclü təsir göstərməsinin mənimsənilməsi, qlobal problemlərin ancaq bütün ölkələrin birgə səyi nəticəsində həll edilə

bilməsi faktının dərk edilməsi və s. bu kimi indi çoxlarının başa düşdüyü problemlər də bu prosesi keçmişlər... Bu cür indi sadə görünən məsələlərin dərk edilməsi insanlara böyük bəşəri ideyaların həyata keçirilməsinə yol göstərdi, dünya və onun iqtisadiyyatı haqqında düçüncələri dəyişdirdi və saglam dünya iqtisadiyyatının formalaşdırılması zərurətini meydana çıxartdı.

Ümumiyyətlə, götürdükdə insan fəaliyyəti olduqca mürəkkəb, çoxcəhətli və qarmaqarışıqlıqdır. Bu fəaliyyət ilk vaxtlar bir dövlətin sərhədləri çərçivəsində baş verirdi və birinci növbədə maddi nemətlər və xidmətlər istehsal edilməsində, elmdə və mədəniyyətdə, siyasətdə və ideologiyada öz əksini tapırdı. Belə fəaliyyətlə ortaya çıxan və insanlar arasında baş verən müxtəlif xarakterli münasibətlər və yaşayış tərzləri də bir dövlət daxilində baş verirdi.

Dünya miqyasında məhsuldar qüvvələrin sürətli inkişafı nəticəsində insan fəaliyyəti ölkədaxili çərçivədən ölkələrdaxili çərçivəsinə keçir, bütün ölkələri bütöv bir halda əhatə etməyə başlayır. Belə olan halda insanlar arasında meydana çıxan siyasi, iqtisadi, mədəni və s. əlaqələr, dövlətlər və regionlar arasında meydana çıxan yeni münasibətlərlə zənginləşir. Nəticədə insan fəaliyyəti mürəkkəbləşir, qarşılıqlı ziddiyyətlərlə zəngin olur. Bu ziddiyyətlərin həll edilməsi yolu isə bir ölkə daxilində baş verən ictimai istehsaldan yox, bütün planeti əhatə edən dünya istehsalından - **beynəlxalq iqtisadiyyatdan keçir.**

İnsanlar öz tələbatlarını ödəmək üçün maddi nemətlər istehsal edirlər və çoxdan məlumdur ki, bir ölkə daxilində istehsalın genişləndirilməsi ilk növbədə təbii resurslardan asılı olur. Hava şəraiti, təbii resurslar, torpağın yararlılığı ciddi şəkildə ölkələrin iqtisadi inkişafına təsir göstərir. Lakin hər bir ölkədə və dünya miqyasında baş verən daxili proseslərin məğzini təbii amillərlə izah etmək həmişə doğru nəticə çıxarmağa imkan vermir. Təbii şərtlər bu və ya digər səviyyədə daimidir. İqtisadi inkişaf isə dinamikdir. Təxminən eyni təbii şəraitdə ayrı-ayrı cəmiyyətlər tam müxtəlif nəticələr əldə edirlər. Digər tərəfdən təbii şəraiti müxtəlif olan ölkələrin iqtisadi inkişafının ümumi və oxşar şəkildə olması halı heç də nadir hal deyil.

İqtisadi proseslərin intensivliyində təbii amillər nə qədər güclü qüvvəyə malik olsalar da sonda iqtisadiyyatın inkişafında həlledici rolu sosial-iqtisadi quruluş və dövlətin seçdiyi iqtisadi model oynayır. Çoxlu sayda dünya təcrübəsi, alimlərin müşahidələri bəşəriyyətin fikrini belə

bir məsələyə yönəltmişdir ki, özü-özlüyündə maddi istehsal da, insanların rifah halı da hansısa çox güclü, lakin ilk baxışdan nəzərə çarpmayan ictimai və dünyəvi amil və qanunauyğunluqlara tabedir. Bu qanunauyğunluqları aşkarlamaq və təcrübədə onlardan istifadə etmək üçün bir elm sahəsi tələb olunurdu. Məhz belə bir elmlə Dünya iqtisadiyyatı elmi məşğul olmalı idi.

İnsanların iqtisadi proseslərin sirlərini öyrənmək istəyini təkcə özünüdərketmə, dünyəvi problemlərin dərinliklərinə müdaxiləetmə xüsusiyyətləri kimi daxili can atmalar ilə izah etmək düzgün olmazdı.Bu həm də onların iqtisadi həyatın müxtəlif- həm lokalvə həm də qlobal-miqyaslarda tənzimlənməsinə yönələn maraqlarından doğur və insanların obyektiv tələbatlarının ödənilməsi ilə əlaqədardır. İnsanlar həmişə çalışmışlar ki, iqtisadi proseslərə təsir göstərsinlər və mümkün qədər onları öz istədikləri istiqamətə yönəldə bilsinlər. Bu istək subyektlərin istəyi olsa da onun obyektiv əsası vardır və daha güclüdür. Məhz bu obyektiv tərəf insanları getdikcə belə bir nəticəyə gəlməyə vadar etdi ki, iqtisadiyyat dünya miqyasında inkişaf etməlidir. Bundan başqa, qapalı iqtisadiyyatların meydana gəlməməsi üçün də dünya iqtisadiyyatının optimal inkişafı tələb olunurdu.

Qapalı iqtisadiyyat ilik növbədə milli hökumətin (dövlətin) iqtisadiyyatını durğunluğa düçar edir, dünya elmindən, təcrübəsindən vaxtında və səmərəli istifadə edilməsinə əngəl törədir. Bizim öz respublikamız da daxil olmaqla digər keçmiş sosialist dövləti adlanan ölkələrin hazırda düşdükləri vəziyyət bunu bir daha sübut edir. Məlumdur ki, Rusiya kimi böyük bir dövlət də daxil olmaqla keçmiş postsovet ölkələri hələ də transmilli korporasiyaları ilə məşhur olan, bazar iqtisadiyyatı sahəsində dərin təcrübəyə malik olan inkişaf etmiş ölkələrlə rəqabətdə uduzurlar. Təbii resurslarla zəngin, sənayeni inkişaf etdirməyə daxili imkanları və böyük hərbi gücü olan Rusiya XX əsrdə öz iqtisadiyyatını ABŞ, Yaponiya və Qərbi Avropa ölkələri səviyyəsinə qaldıra bilmədi. Milli iqtisadiyyatın strukturunu zaman-fəza daxilində operativ dəyişməyi bacarmayan Rusiya bu gün təkcə inkişaf etmiş ölkələrdən geri qalmır. Ən mühüm göstəricilər üzrə o heç kiçik ölkələrlə də yarışa girə bilmir. Məsələn, 1997-ci ildə Rusiyada adambaşına düşən ümumi milli məhsulun dəyəri Estoniyanın həmin ildə əldə etdiyi eyni göstəricidən az olmuşdur. Bunun əsas səbəbi Rusiyanın uzun müddət dünya iqtisadiyyatına inte qrasiyasının zəif olması idi.

Hərtərəfli sosial-iqtisadi inkişaf ərazi iqtisadiyyatının dərindən öyrənilməsini tələb edir. Heç olmasa ona görə ki, istehsal sahələri də bu ərazilərdə fəaliyyət göstərir. Lakin çox zaman biz iqtisadiyyatı onun sahələri üzrə xarakterizə edirik və öyrənirik. Bazar iqtisadiyyatı şəraitində isə iqtisadiyyatın ərazi baxımından öyrənilməsinin əvəzolunmaz əhəmiyyəti vardır. Axı son nəticədə istehsal olunan məhsula və ümumiyyətlə, məhsuldar qüvvələrin inkişafına ərazinin mühiti güclü təsir göstərir. Ekoloji təmiz məhsul istehsalı isə bilavasitə texnika və texnologiyadan deyil ərazidən, ətraf mühitdən asılıdır. Ərazinin istehsalda rolunu qeyd etdikdən sonra ərazilərin bir-biri ilə əlaqədar olması və bir-birinə təsir etməsi haqqında danışmaq olar. Məlum oldugu kimi, biz kənd, şəhər, ölkə, cənub, şərq və şimal və s. kimi əraziləri fərqləndirsək də bunlar hamısı bir-biri ilə əlaqədardırlar və sonda vəhdətlik təşkil edən Yer kürəsində yerləşirlər. Yəni bütün ərazi vahidləri tamın - Yer kürəsinin bir hissələridir. Eynilə hər bir ərazi vahidinin iqtisadiyyatı da Yer kürəsi (dünya) iqtisadiyyatının bir hissəsidir.

Deməli, milli iqtisadi sistemlər ilə dünya iqtisadiyyatı arasında olan münasibətlərin tənzimlənməsi, inkişaf qanunauygunluqlarının öyrənilməsi məsələsi ortaya çıxır ki, bunun da obyektiv əsası vardır. Bu obyektiv əsas fəlsəfi cəhətdən də izah oluna bilər. Söhbət burada ümuminin (dünya iqtisadiyyatının) təkin və xüsusinin (milli iqtisadiyyat sistemlərinin) qarşılıqlı əlaqəsindən, oxşarlığından və fərqli əlamətlərindən gedir. Dünya iqtisadiyyatı elminin (fənninin) meydana gəlib inkişaf etməsinin obyektiv əsasını da burada axtarmaq lazımdır. Lakin bir şey nəzərə alınmalıdır ki, dünya iqtisadiyyatının öyrənilməsinin son məqsədi milli iqtisadi yarımsistemlərin optimal inkişafını təmin etməkdir. Lakin bu optimallığa nail olmaq üçün birincisi, ümumi ilə xüsusi və təkərlərin oxşar əlamətlərinin, ikincisi, tama daxil olan komponentlərin (subyektlərin, ölkələrin) arasında fəaliyyət göstərən qanunauyğun əlaqə formalarını dərindən öyrənmək, aşkar etmək və prosesi idarə etmək lazımdır. Bu məsələlərin həllinin zəruriliyi isə dünya iqtisadiyyatı fənninin bir elm kimi meydana gəlməsinə səbəb olmuşdur.

Beləliklə də, "Dünya iqtisadiyyatı" fənninin meydana gəlib inkişaf etməsinin əsas obyektiv səbəbi ayrıca götürülmüş dövlətin öz sərhədləri daxilində lazımi səviyyədə inkişaf edə bilməməsi faktı və

milli iqtisadiyyat sistemlərinin dünya təsərrüfatı sisteminə qovuşması tələbatının meydana çıxmasıdır. Belə bir tələbat əslində həmişə olmuşdur, lakin keçən əsrin ortalarında bu daha aydın görünməyə başlamışdır. XX əsrin sonu XXI əsrin əvvəlində isə bu problem qlobal qanunauyğunluq şəklini almışdır.

Bu gün fəaliyyət göstərən dünya təsərrüfat sistemi 50-100 il bundan öncə mövcud olmuş dünya iqtisadiyyatından özünün mürəkkəbliyi, dinamikliyi, daim dəyişikliklərə məruz qalması ilə fərqlənir. Dünya iqtisadiyyatı bu gün daha çox tam görünür, hər bir ayrıca götürülmüş ölkə üçün daha cəlbedicidir. Bu dəyişikliklərin meydana gəlməsində aparıcı rolu yüksək sürətlə inkişaf edən məhsuldar qüvvələrin beynəlmiləlləşməsi və qloballaşması prosesi oynayır. Transmilli korporasiyalar və banklar dünyanın və onun yarımsistemlərinin iqtisadiyyatında struktur dəyişikliklərinin günün tələblərinə uyğun formada getməsinə kömək edirlər.

## §2. Fənnin mahiyyəti və fərqli cəhətləri

Dərc edilmiş elmi və tədris-metodik ədəbiyyatlarda "Dünya iqtisadiyyatı"nın mahiyyəti, izahı müxtəlif şəkildə verilir və əlavə olaraq "Dünya təsərrüfatı", "Dünya təsərrüfat sistemi", xarici və tərcümə ədəbiyyatlarda isə "Beynəlxalq iqtisadiyyat" terminlərindən istifadə edilir. Demək olar ki, bütün müəlliflər "Dünya iqtisadiyyatı" ilə "Dünya təsərrüfatı" və "Dünya təsərrüfat sistemi" terminlərinin izahı arasında ciddi bir fərq qoymurlar. "Beynəlxalq iqtisadiyyat" termini isə müasir çap materiallarında istifadə edilir və onun əsas məzmununu bugünkü dünya iqtisadiyyatı ilə yanaşı dünya iqtisadiyyatının nəzəri məsələləri və beynəlxalq iqtisadi əlaqələr təşkil edir.

Sadə şəkildə dünya iqtisadiyyatı milli iqtisadiyyatların cəmi kimi qiymətləndirilir. Lakin bu mexaniki toplu olmaqdan çox uzaqdır. Təəssüflə qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatına aid olan ədəbiyyatlarda bu cəhətə çox fikir verilmir və "Ölkə iqtisadiyyatı" və "Dünya iqtisadiyyatı" anlayışlarının oxşar və fərqli cəhətləri geniş oxucu kütləsinə lazımi səviyyədə çatdırılmır.

Adətən "Ölkə iqtisadiyyatı" dedikdə, konkret bir ölkənin tərkib hissələrinin (kəndlərin, qəsəbələrin, rayonların, regionların) iqtisadiyyatlarının cəmi başa düşülür. Bu cür yanaşma eynilə dünya iqtisadiyyatı ölkə iqtisadiyyatının cəminə bərabər olmalıdır.

Ölkə və dünya iqtisadiyyatlarının özünəməxsus xüsusiyyətləri vardır. Dünya iqtisadiyyatının xüsusiyyətləri isə daha çoxdur, daha mürəkkəbdir, daha gec dərk olunandır. Bir ölkə iqtisadiyyatının inkişafı ilə dünya iqtisadiyyatının inkişafı istiqamətlərində, amillərində və şərtlərində müəyyən oxşar əlamətlər olsa da onları fərqləndirən cəhətlər daha çoxdur.

"Dünya iqtisadiyyatı" anlayışının mahiyyətini açan əsas cəhətlər 1 saylı cədvəldə verilmişdir.

**Cədvəl 1**

**Ölkə və dünya iqtisadiyyatlarının fərqləndirici cəhətləri**

| Ölkə (bir dövlətin) iqtisadiyyatı | Dünya iqtisadiyyatı |
|---|---|
| Sərhədlə məhdudlaşır | Bütün dünyanı əhatə edir |
| Ölkədaxili iqtisadi rayonların iqtisadiyyatının cəmidir | Dövlətlərin iqtisadiyyatının cəmidir |
| Dövlətin və dövlət strukturlarının fəaliyyətindən asılıdır | Dünyanın aparıcı ölkələrinin və dünya əhatəli strukturların fəaliyyətnidən asılıdır |
| Fərdi, xüsusi və ümumi əmək bölgüsü inkişaf etdikcə inkişaf edir | Beynəlxalq əmək bölgüsü inkişaf etdikcə inkişaf edir |
| Beynəlxalq vəziyyətin güclü təsiri yoxdur | Beynəlxalq vəziyyətin güclü təsiri var |
| Daxili bazarın qanunauyğunluqlarına görə inkişaf | Dünya bazarının qanunauyğunluqlarına görə inkişaf |

| | |
|---|---|
| edir | edir |
| Bazar iqtisadiyyatının obyektiv qanunlarından kənarlaşa bilər | Bazar iqtisadiyyatının obyektiv qanunlarına maksimum tabe olur |
| Qarşılıqlı ziddiyyətlər çox da güclü deyil | Qarşılıqlı ziddiyyətlər çox güclüdür |
| Qarşılıqlı əlaqələr sadədir, tez həll olunandır | Qarşılıqlı əlaqələr çox mürəkkəbdir. Çətin həll olunandır |
| Sadə tərkibə malikdir | Mürəkkəb tərkibə malikdir |
| İnkişafa əsasən bir dövlətin siyasətindən asılıdır | İnkişafı bütün dövlətlərin siyasətindən asılıdır |
| Ölkə (bir dövlətin) iqtisadiyyatıdır | Dünya iqtisadiyyatı-bütün ölkələrin iqtisadiyyatıdır |
| Əsasən bir dövlətin maraqlarına xidmət edir | Bütün dünyanın maraqlarına xidmət edir |
| Bir ölkədə yaşayanların tələbatlarının ödənilməsi qayğısına qalır | Dünya əhalisinin tələbatlarının ödənilməsi qayğısına qalmağa meyillidir |
| Lokal problemlərin həlli yollarını axtarır | Qlobal problemlərin həlli yollarını axtarır |
| Zəif, epizodik, dinamik inkişafa malikdir | Güclü daimi dinamik inkişafa malikdir |
| Əsasən ölkə ticarətinin təsiri altındadir | Dünya ticarətinin təsiri altındadır |
| Əsasını maddi və mənəvi milli istehsal, onun bölgüsü, mübadiləsi və istehlakı təşkil edir | Əsasını maddi və mənəvi varlığın beynəlxalq istehsalı, onun bölgüsü, mübadiləsi və istehlakı təşkil edir |
| Vahid bir sistemdir | Nisbətən vahid sistemdir (vahid sistemə çatmağa can atan sistemdir) |
| Lokal təfəkkürlər üzərində qurulur | Qlobal təfəkkürlər üzərində qurulur |
| Məhsuldar qüvvələri bir ölkə daxilində formalaşdırır və inkişaf etdirir | Planetar səviyyədə məhsuldar qüvvələri formalaşdırır və inkişaf etdirir |

| | |
|---|---|
| Beynəlxalq vəziyyətə güclü təsir göstərmir | Beynəlxalq vəziyyətə güclü təsir göstərir |

## §3. "Dünya iqtisadiyyatı" fənninin predmeti və vəzifələri

Hazırki dövrdə, üçüncü minilliyin başlangıcında artıq məlum olmuşdur ki, hər bir ölkənin daxili və xarici iqtisadi fəaliyyəti dar çərçivədə baş vermir, ölkələrarası əlaqələr güclənir və sayca yeni-yeni fəaliyyət sahələrini əhatə edir.

Hər bir ölkənin beynəlxalq əmək bölgüsündə fəal iştirak etməsi obyektiv xarakter daşısa da, ayrı-ayrı ölkələrin beynəlxalq əmək bölgüsündə daha səmərəli iştirak etməsi üçün konkret bir dövrdə dünya təsərrüfat sistemində yaranmış mühiti realistcəsinə qiymətləndirmək və köhnə ideyalardan can qurtarmaq tələb olunur. İlk növbədə dünyada fəaliyyət göstərən bütün ölkələrin iqtisadi inkişaf meyllərini, inkişafa təsir göstərən amil və şərtləri mənimsəmək məsələsi qarşıya çıxır. Bütün bu məsələlərin həlli istiqamətləri "Dünya iqtisadiyyatı" fənninin problemınə daxildir.

Müasir dövrdə ayrıca götürülmüş bir ölkə üçün vacib məsələlərdən biri dünya təsərrüfat sistemində baş verən hadisələri və yaranmış şəraiti nəzərə almaqdan və onların uçotunu aparmaqdan, qanunauygunluqları ortaya çıxarmaqdan ibarətdir. Bu işin elmi şəkildə həyata keçirilməsi dünya təsərrüfat sistemində və beynəlxalq əmək bölgüsündə baş verən obyektiv proseslərin dərindən öyrənilməsini tələb edir.

Dünya təsərrüfat sistemi ilə yanaşı onunla həmahəng inkişaf etmək eyni zamanda hər bir ölkədə daxili bazarın həcminin artırılması yollarının öyrənilməsini tələb edir. Bu yollar da yenə beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsindən keçir."Dünya iqtisadiyyatı" fənni bu sahədə də baş verən konstruktiv dəyişiklikləri dərindən öyrənir və konkret iqtisadi məsələnin həllində onları nəzərə alır. Dünyada baş verən və iqtisadi inkişafa təsir göstərə bilən hər bir hadisənin uçotu və öyrənilməsi "Dünya iqtisadiyyatı" fənninin əsas məsələlərindəndir. Bu cəhət ilk növbədə inkişaf etməkdə olan bizim respublika kimi dövlətlər üçün çox vacibdir. Məsələ burasındadır ki, hər bir ölkənin gələcək inkişafı onun dünya bazarına yol tapmasından və müəyyən ərzaq,

sənaye məhsulları və yaxud da xidmət göstərilməsi sahəsində orada dayanıqlı mövqe əldə etməsindən və bu mövqeni uzun müddət əldə saxlamasından asılıdır. Bu baxımdan dünya iqtisadiyyatı elmi hər iki tərəfin imkanlarını aşkara çıxara bilər. Məhz buna görə də dünya və yaxud da son zamanlar deyildiyi kimi beynəlxalq iqtisadiyyat fənni dünya təsərrüfat sistemini vahid bir obyekt kimi öyrənməklə yanaşı, eyni zamanda ayrı-ayrı ölkələrin bir qrup və region ölkələrinin də təsərrüfatını hərtərəfli öyrənir, təhlil edir, üstün cəhətləri ortaya çıxarır, mənfi halları göstərir, inkişaf istiqamətlərini təyin edir.

Dünya iqtisadiyyatı fənninin məqsədləri çoxdur, ümumdünyavidir. Lakin bu məqsədlərin həm qlobal və həm də lokal cizgiləri vardır. Hazırki dövrdə bir sıra məsələlərin həllində, şərhində, öyrənilməsində "Dünya" sözü işlədilsə də, mahiyyətcə onlar hələ dünyəvilik dərəcəsində çatmamışlar. Elə götürək "dünya bazarı"nı. Diqqətlə nəzər salsaq, əslində bu günün dünya bazarı planetimizin bütün ölkələrinin bazarı olmaqdan uzaqdır. O inkişaf etmiş kapitalist ölkələrinin bazarıdır. Bu bazarda əsasən Amerika, Qərbi Avropa, Yaponiya və bir də onlarla sıx əlaqədə olan bir qrup ölkə fəaliyyət göstərir. Belə şəraitdə Dİ elminin əsas məqsədlərindən biri dünya bazarını həqiqi dünya bazarına çevirmək, orada bütün ölkələrin iştirak etməsi üçün şəraitlərin yaradılmasına metodik köməklik göstərməkdir. Ölkələrin maddi-texniki bazalarının möhkəmlənməsi onlara imkan verir ki, öz təsərrüfatlarını dünya təsərrüfatlarına nisbətən daha "açıq" etsinlər, dünya bazarında öz yerlərini tuta bilsinlər. Sonda bu dünya iqtisadiyyatının inkişafı üçün də şərait yaradır.

Üçüncü minilliyin əvvəlində bütün dünyanın və ayrı-ayrı ölkələrin qarşısında xüsusi ciddiliyi ilə duran problem insanların normal yaşamasını təmin etmək problemidir. Bunun üçün isə prinsipcə yeni siyasi və iqtisadi təfəkkürlər tapmaq və istifadə etmək zərurəti ortaya çıxmışdır. Eyni təfəkkürlərin, məsələlərin həllinə yeni yanaşmaların mahiyyəti ondadır ki, indiki dövrdə ümumbəşəri (dünyəvi) maraqlar bütün digər maraqlardan üstün tutulmalıdır .Dünyəvi inkişaf hər hansı bir dövlətin, yaxud da region ölkələrinin inkişafından geri qalmamalıdır. Dİ fənni bir elmi fənn kimi bu cəhətləri dərindən, hərtərəfli öyrənir və göstərir ki, bəşəri maraqların üstünlüyü müasir dövrün obyektiv-ictimai qanunudur. Bu qanun nəzərə alınmadıqda iqtisadiyyat və bütövlükdə bəşəriyyət insanların xeyrinə inkişaf edə bilməz və əksinə elə bir

vəziyyət yarana bilər ki, bu vaxta qədər əldə edilmiş sivilizasiya da məhv olar. Buna görə də Dİ fənni bütün bu və ya digər tipli çətin və paradoks xarakterli məsələləri ortaya atır, təhlil edir və əməli nəticələr çıxarır.

"Dünya iqtisadiyyatı" fənninin öyrəndiyi məsələlər çoxdur. Ümumi şəkildə burada iqtisadiyyatı və iqtisadi inkişafı formalaşdıra bilən bütün məsələlərə toxunmaq zərurəti vardır. Lakin bir dərslik və ya dərs vəsaitində kompleks məsələlərin hamısını dərindən və hərtətəfli açmaq mümkün olmadığına görə "Dünya iqtisadiyyatı" fənnində əsas fikir dünya təsərrüfatı sisteminin formalaşması və hərtərəfli açmaq mümkün olmadığına görə "Dünya iqtisadiyyatı" fənnində əsas fikir dünya təsərrüfatı sisteminin formalaşması və tədrici inkişafı problemlərinə, bu sferada baş verən daimi dəyişikliklərə ayrı-ayrı ölkələrin, regionların iqtisadi inkişaf dinamikasına onların bir-birləri ilə formalaşmış iqtisadi münasibətlərinə, qarşılıqlı asılılıqlarına verilir. Bütün məsələlərin öyrənilməsində "Dünya iqtisadiyyatı" fənni obyektiv iqtisadi qanunları əsas götürür və bu qanunlara söykənərək, onlardan irəli gələn, dünya təsərrüfat sisteminin inkişafını təmin edə bilən fərdi qanunauygunluqları ortaya cıxarır və öyrənir. Bu əslində "Dünya iqtisadiyyatı"fənni predmetinin əsasını təşkil edir.

Bu gün formalaşmış dünya təsərrüfat sistemi və mütəxəssislərin və dövlət başçılarının ona olan münasibətləri qabaqkılardan fərqlənir. Hazırda milli təsərrüfatların qarşılıqlı asılılığı və dünya iqtisadi sistemin tam olması hamı tərəfindən dərk edilir. Buna görə də "Dünya iqtisadiyyatı" fənni müasir sivilizasiyanın və elmi-texniki inqilabın ortaya çıxardıqları qlobal problemləri də dərindən şəhr edit, öyrənir və əməli nəticələr çıxarır.

İstər dünya təsərrüfatının inkişafında və istərsə də bəşəriyyəti təhlükə altına salmış qlobal problemlərin həllində dünyanın bütün ölkələri eyni mövqe tutmur və ən başlıcası isə eyni imkana malik deyildirlər. Buna görə də "Dünya iqtisadiyyatı" fənni ayrı-ayrı ölkələrin iqtisadiyyatının başlıca xüsusiyyətlərini ortaya çıxarır, öyrənir və bu sahədə qabaqcıl, mütərəqqi halların bütün dünyaya yayılması yollarını tədqiq edir. Bu cəhətdən ölkələrin qrup şəklində öyrənilməsinin, yenicə dirçəlmiş və inkişaf etmiş ölkələrlə bir sırada ayaqlaşmaq iqtidarında olan "Yeni sənaye ölkələri" kimi ölkələrin dərindən öyrənilməsinin böyük əhəmiyyəti vardır.

"Dünya iqtisadiyyatı" fənni inteqral xarakterə malikdir. Burada bəşəriyyət miqtasında iqtisadi inkişafa təsir göstərən bütün amil və şərtləraraşdırılır, öyrənilir və təcrübə üçün lazımi nəticələr çıxarılır. Məhz buna görə də "Dünya iqtisadiyyatı" fənninin öyrəndiyi məsələlər dairəsinə dünya ticarəti, kapitalın və işçi qüvvəsinin miqrasiyası kimi ən mühüm beynəlxalq iqtisadi əməkdaşlıq formaları da daxildir.

"Dünya iqtisadiyyatı" fənni eyni zamanda beynəlxalq təsərrüfat sistemi mexanizmini, onun problemlərini, ümumdünya iqtisadiyyatının potensial imkanlarını, bəşəriyyətdə baş verən qloballaşma proseslərini dərindən araşdırır, təhlil edir, inkişaf səviyyəsini təyin edir, proqnozlaşdırır və qabaqcıl təcrübəni yaymaq, mənfi meylləri aradan qaldırmaq sahəsində əməli təkliflər irəli sürür.

## II FƏSİL. DÜNYA İQTİSADİYYATI İNKİŞAF EDƏN BİR SİSTEM KİMİ

### § 1. Müasir dünya iqtisadiyyatı və onun əsas cəhətləri

"Müasir dunya iqtisaiyyatı"... İndi bu ən çox işlənən terminlərdəndir. Terminin bu şəkildə işlənməsinin obyektiv əsası vardır.Hazırda fəaliyyət göstərən dünya iqtisadiyyatı uzun bir dövr uzun bir dövr keçmiş, keyfiyyət və kəmiyyətcə dəyişmiş,təkmilləşmişdir. "Müasir dünya iqtisadiyyatı"termini də məhz dünya təsərrüfat sistemində baş vermiş yeni dəyişiklikləri xarakterizə etmək və onları oxuculara, tədqiqatçılara əyani şəkildə göstərmək üçün işlədilir.

Dünya iqtisadiyyatı siyasi-iqtisadi kateqoriya olduğu kimi həm də tarixi kateqoriyadır.Bu ona görə belədir ki, hər hansı bir tarixi dövrün öz xüsusiyyətləri olub və dünya iqtisadiyyatı da həmin dövrlərdə müxtəlif miqyasda, həcmdə ,səviyyədə fəaliyyət göstərib.Müxtəliflik isə təkcə iqtisadiyyatın səviyyəsində öz əksini tapmayıb.O həm də insanların dünya iqtisadiyyatına olan münasibətində və "Dünya iqtisadiyyatının" dünyəvilik səviyyəsində öz əksini tapmışdır.

Əgər dünya iqtisadiyyatına bir sıra dərslik və dərs vəsaitlərində göstərildiyi kimi, milli iqtisadiyyatların (təsərrüfatların)məcmuu kimi baxsaq onda cürətlə deyə bilərik ki, dünya iqtisadiyyatı həmişə mövcud olmuşdur.Lakin bu əsas məsələ deyil.Əsas məsələ müasir dünya iqtisadiyyatını fərqləndirən cəhətləri ortaya çıxartmaq və təcrübədə onlardan məqsədyönlü istifadə etməkdir.

Keçmiş dünya iqtisadiyyatı (dünya təsərrüfatı) uzun illər boyu ayrı-ayrı ölkə və regionların qeyri-bərabər inkişafı, rəqabət mübarizəsinin daim kəskinləşməsi, kapitalın və elmi-texniki potensialın rəqabət mərkəzində cəmlənməsi, əsasən əmtəələrin ixrac edilməsi kimi xarakterik cəhətləri ilə fərqlənmişdir.Müasir dünya iqtisadiyyatında (təsərrüfatında) xarakterik cəhətlər daha güclü və daha qlobaldır. İctimai istehsalın və kapitalın sosiallaşdırılması, humanistləşdirilməsi , müasir elmi-texniki inqilabın misli görünməmiş nailiyyətlərindən istifadənin hərtərəfli genişləndirilməsi, prosesləri belə qlobal cəhətlərdəndir.İndiki dövrdə xarici iqtisadi əlaqələr sahələrdən, məsafədən, millətindən asılı olmayaraq təsərrüfatçılıqla məşğul olan müxtəlif subyektlərin arasında yaranan və inkişaf edən

kontaktlara çevrilmişdir. Beynəlxalq istehsal, kapitalın beynəlxalq bazarı,işçi qüvvəsinin beynəlxalq bazarı kimi xarakterik xüsusiyyətlər isə tam gücü ilə formalaşmaqdadır.Müasir dünya iqtisadiyyatının fərqləndirici cəhətləri arasında beynəlxalq məlumat fəzasının sürətlə formalaşmasını xüsusi qeyd etmək lazımdır.

## § 2. Dİ-nin inkişaf pillələri

Özünün bütün cəhətləri və qarmaqarışıqlıqları ilə baxıldıqda belə dünya iqtisadiyyatının formalaşmasını bir neçə pillələrə bölmək olar.İqtisadi ədəbiyyatlarda rüşeym şəklində olsa da birinci pillə kimi Roma imperiyası dövründə yaranmış dünya təsərrüfat sistemi göstərilir.Doğurdan da tarixi mənbələrin öyrənilməsi nəticəsində məlum olmuşdur ki, ilk ümumdünya imperiyası olan Roma imperiyasında bütöv bir iqtisadi münasibətlər formalaşmışdı və xüsusi mülkiyyətin toxunulmazlığı müəyyən səviyyədə təmin olunmuşdu.

Sonrakı dövrlərdə dünya iqtisadiyyatı tədricən inkişaf etmiş, təkmilləşmiş və onun dünyəvilik səviyyəsi artmışdır.Əksər tədqiqatçıların fikrincə dünya iqtisadiyyatının vahid bir tam kimi formalaşmağa başlanması tarixi XX əsrin əvvəli hesab edilməlidir.Bu tarixin göstərilməsinin bir neçə güclü arqumentləri məlumdur.Faktiki olaraq , məhz bu dövrdə dünyanın ərazi cəhətdən bölüşdürülməsi başa çatmış, istehsalın ümumiləşdirilməsi prosesi dünyəvi xarakter almış, dünya bazarı ssuda kapitalı ilə xüsusi kapitalın birləşməsi nəticəsində daha da zənginləşmişdi.

XX əsrin əvvəlinə olan dövrdə dünya təsərrüfatı sənaye cəhətdən irəliyə çıxmış Qərb ölkələrindən və onların əlaltılarına çevrilmiş, ucuz aqrar-sənaye xammalına malik koloniyalardan ibarət idi. Ümumiyyətlə götürdükdə

Isə dünya təsərrüfat sisteminin tədricən formalaşması həmişə dünya bazarı ilə həmahəng olmuşdur.Dünya bazarının meydana gəlməsi XV-XVII əsrlərdə baş verirdi.Maşınlı istehsalın Qərb ölkələrində üstünlük təşkil etdiyi dövrlərdə - XIX əsrin ortalarında isə dünya bazarı daha da intensiv şəkildə inkişaf edirdi. Başlıca amil isə burada kütləvi istehsalın sürətlə inkişafı idi.Kütləvi istehsallar geniş şəbəkəli bazar tələb edirdi.Belə bazar ancaq dünya bazarı da ola bilərdi. Kütləvi şəkildə istehsal edilən məhsullar hər hansı bir ölkənin daxili bazarının tələbatından çox idi və onlar adətən digər ölkələrdə münasib bazarın formalaşmasına təkan verirdi. Lakin bu məsələnin ancaq bir tərəfi idi. Dünya bazarının dünya təsərrüfatının formalaşmasına həlledici təsiri son məhsulun istehsalına yönələn beynəlxalq istehsal əlaqələrinin güclənməsi yolu ilə də baş verirdi. Müxtəlif ölkələrin əməkdaşlığının sürətlə artmasına isə kapitalın getdikcə güclənən miqrasiyası prosesi təsir edirdi.

İndi də müasir dünya iqtisadiyyatının təkamül prosesini nəzərdən keçirək.Qeyd edək ki, dünya iqtisadiyyatına aid olan mənbələrdə birinci pillə XX əsrin 10-30-cu illərinə aid edilir. Məhz bu illərdə dünya təsərrüfat sistemində böhran (krizis) vəziyyətlər olmuşdur.İlk növbədə 1917-ci ildə Rusiyada gedən proseslər və ondan da qabaq birinci Dünya müharibəsi dünya təsərrüfat sisteminə güclü mənfi təsir göstərmişdi.Məlum səbəblərə görə Rusiya kimi böyük bir dövlətin dünya təsərrüfat əlaqələri zəifləmiş və faktiki olaraq o özünü iqtisadi blokadaya məruz qoymuşdu.Birinci dünya müharibəsinə qədər ölkələr arasında iqtisadi əlaqələr dayanıqlı deyildi ki, bu da dünya iqtisadiyyatının inkişafına çox mənfi təsir göstərirdi.Bundan başqa milli iqtisadiyyatların hərbi istiqamətə yönəldilməsi, müharibə nəticəsində istehsal və insan resurslarının böyük bir hissəsinin məhv olması da dünya iqtisadiyyatına mənfi təsir göstərirdi. Ən xoşagəlməz hal ondan ibarət idi ki, belə bir şəraitdə hər bir ölkə öz sərhədləri daxilində inkişaf etməyə can atmalı olurdu.Bunun nəticəsində dünya miqyasında ixracın həcmi xeyli aşağı düşürdu. Dünya iqtisadiyyatı üçün ən mənfi cəhət isə ölkələrin bir-birinə olan inamlarına getdikcə azalması idi.

Keçən əsrin 20-30-cu illəri ərzində "böyük depressiya"adını almış dünya iqtisadi böhranı ölkələrdə avtarkiya əhval-ruhiyyəsini daha da gücləndirirdi və nəticədə əmtəə və kapitalın ixracı xeyli azaldı.Aparıcı dövlətlərin ümumi daxili məhsulunda ixracın kvotası 20 –ci illərə nisbətən 30-cu illərdə 1,5-2,0 dəfə azalmışdı.Məsələn, 1913-1938-ci illərdə ABŞ-da bu kvota 61%-dən 3,6 % -ə qədər azalmışdı.

Müasir dünya iqtisadiyyatının növbəti böyük mərhələsi ikinci dünya müharibəsi qurtardıqdan sonra baçlandı.Bu dövr keçən əsrin 70 – ci illərinə qədər bir vaxtı əhatə edir. Bu dövrün dünya iqtisadiyyatının formalaşması və inkişaf etməsi nöqteyi-nəzərincə aşağıdakı xüsusiyyətləri var idi.

**Birinci.** Ümumdünya təsərrüfatı strukturunun zəifləməsi.

Bu ilk növbədə ikinci dünya müharibəsindən sonra dünya sosializm sistemi adlanan bir qrup dövlətin meydana gəlməsinin nəticəsində baş verirdi. Məlum olduğu kimi başda Rusiya olmaqla, sosializm ölkələri dünyanın əksər ölkələrindən fərqli olaraq sosial-iqtisadi əsasda inkişaf etdirilirdi ki, bunun da əsasını xalq təsərrüfatının bütün sahələrinin maksimum dövlətləşdirilməsi təşkil edirdi. Milli dövlətlər çərçivəsində isə ciddi mərkəzləşdirilmiş idarəetmə sisteminin tətbiq edilməsi dururdu. Rusiyanın iqtisadiyyatı isə paradokslarla zəngin sovet iqtisadiyyatı idi.Əvvəllər yüksək inkişaf sürəti göstərən sovet iqtisadiyyatı sonralar obyektiv iqtisadi qanunlara və xüsusən dünya miqyasında hökm sürən qanunlara məhəl qoyulmaması sayəsində getdikcə zəifləməyə başladı. Belə vəziyyətin səbəblərdən ən başlıcası əldə edilən nəticələrin "nəyin bahasına olursa olsun" prinsipinə uyğun əldə edilməsi idi. Məhsulun dünya bazarında rəqabət dözümlü olması məsələsi sosializm sistemi ölkələrində ön planda olmadığına görə iqtisadiyyat əsasən bir admın mütləq hakimiyyətinin, bir ideyanın, bir partiyanın, bir "vahid" planın həyata keçirilməsinə köklənirdi.

Bu da çox zaman istehsalı istehsal üçün günişləndirməyə , material,enerji,əmək resurslarının israfçılıqla istifadəsinə gətirib çıxarırdı. Nəticədə Rusiyanın və onun başçılıq etdiyi sosializm ölkələrinin məhsulları yüksək material,əmək və fond tutumluqları və çox aşağı elm tutumluqları ilə fərqlənirdilər.Bütün bunlar dünya iqtisadiyyatına mənfi təsir göstərirdi.

**İkinci.** Bu dövrlərdə xarici-iqtisadi münasibətlər əksər halda sinfi_yanaşma mövqeyindən qurulurdu ki, bunun nəticəsində də vahid

qlobal təsərrüfatın əhatə dairəsini daraldırdı.Lakin istər dünya bazarının və istərsə də dünya iqtisadiyyatının inkişafı yavaş olsa da inkişaf edirdi. İqtisadi münasibətlərin mürəkkəbliyinə,ziddiyiyyətliyinə baxmayaraq iki ictimai sistemin ölkələri arasında iqtisadi əlaqələr müəyyən tələbatların ödənilməsi nöqteyi nəzərincə inkişaf etdirilirdi.

**Ücüncü.** Müasir dünya iqtisadiyyatının bu pilləsində qlobal təsərrüfata təsir etməsi baxımından müsbət proses kimi, yəni kapitalist dünya iqtisadiyyatında sahibkar kapitalının ixracını və onun inkişaf etməsini göstərmək olar.Sahibkar kapitalına sərbəstlik verilməsi və onun ixracı istehsal əlaqələrində prinsipcə yeni strukturların meydana gəlməsinə və inkişaf etməsinə təkan verdi. Nəticədə transmilli korporasiyalar (TMK) sürətlə inkişaf etməyə başladı. TMK öz mahiyyəti nöqteyi-nəzərincə beynəlxalq xarakterə malik, xarici ölkələrdə aktvləri olan iri firmalardır.TMK beynəlmiləl firmalardır ki, onlar da öz fəaliyyətini əsasən ölkələrindən kənarda – digər xarici ölkələrdə qururlar. Onlar hər hansı məhsulun yaradılması, istehsalı ,reallaşdırılması, maliyyələşdirilməsi, kreditləşdirilməsi, yayılması ilə məşğul olan beynəlxalq istehsalları formalaşdıra bildilər və bununla da dünya iqtisadiyyatının inkişafına və istehsalın dünyəvilik səviyyəsinin yüksəlməsinə şərait yaratdılar.

**Dördüncü.** Sosializm yolu ilə getməyən ölkələr arasında getdikcə genişlənməyə başlayan hərtərəfli iqtisadi əlaqələr. Onların genişlənməsinə müsbət təsir göstərən amil ABŞ-ın iqtisadi gücü idi.İkinci dünya müharibəsi vaxtı daha da güclənən ABŞ Qərb ölkələrinə və digər ölkələrə iqtisadi yardımını həyata keçirməyə başladı. Bu real kömək idi və tarixə "Marşall planı" kimi düşən xüsusi planlar həyata keçirilirdi. Köməyin ümumi həcmi 17 milyard dollar (indiki qiymətlə 90 milyard) təşkil edirdi. Bu məbləğin yarısından çoxunu Böyük Britaniya, Fransa və Qərbi Almaniya dövlətləri aldı.Qərbi Avropa ölkələrinə Amerikanın xüsusi kapitalı birbaşa kapital qoyuluşu və kredit şəklində yönəldilirdi.

Qərbi Avropa ölkələrinə maliyyə köməyi ikitərəfli razılaşmalar əsasında edilirdi və Amerikanın qoyduğu əsas şərt bu ölkələrdə azad sahibkarlığa diqqəti artırmaq və onlara həqiqi mənada azadlıq vermək idi. Köməyin ümumi məbləğinin 70% -ini ərzaq, yanacaq,gübrə kimi mallar təşkil etməsinə baxmayaraq, " Marşall planı" Qərbi Avropa sənayesinin inkişafına, ölkələrarası ticarətin

genişlənməsinə və onların valyutalarının möhkəmlənməsinə yaxşı təsir göstərdi. Bütün bunlar dünya iqtisadiyyatını gücləndirirdi.

"Marşall planı" üzrə göstərilən kömək 1951-ci ilə qədər davam etdi. Bundan sonra kömək proqramları inkişafda olan ölkələrə yönəldildi. Bunun iki səbəbi var idi: birincisi, kolonializmin dağılması,ikincisi, bazar iqtisadiyyatlı ölkələrinin sayının artması.

**Beşinci.** Keçən əsrin 60-cı illərinin ortalarında koloniya sisteminin dağılması dünyada bu günə qədər xüsusi yer tutan bir qrup ölkələrin –inkişafda olan ölkələrin meydana gəlməsinə səbəb oldu. Kolonial münasibətlər getdikcə iqtisadi münasibətlərlə əvəz olunurdu. İnkişaf etmiş Qərb ölkələri bu ölkələrə köməklik göstərmək yolu ilə onları özlərinin təsir dairəsində saxlayırdılar.Lakin buna baxmayaraq, prosesin özü dünya iqtisadiyyatının inkişafı üçün müəyyən şərait yaradırdı.

1970-ci il bu cəhətdən əlamətdar idi. Məhz bu ildə Qərbi Avropanın Almaniya, İngiltərə və s.bu kimi inkişaf etmiş ölkələrinin ümumi daxili məhsulu ABŞ-nın müvafiq göstəricisinin səviyyəsini aşdı. Belə ki, əgər 1960-cı illərdə bu ölkələrin ÜDM –nin həcmi ABŞ-nın ÜDM –nın 74% -ni təşkil edirdisə, 1970-ci ildə bu faiz artıq 114-ə çatmışdı. Ayrı-ayrı ölkələrin iqtisadi inkişafındakı gerilik isə davam edirdi.Lakin Amerika ilə rəqabətə girə bilən qütblərin meydana gəlməsi prosesi demek olar ki, başa çatmışdı.Dünyada bir-biri ilə rəqabət aparmaq üçün böyük mərkəz (ABŞ-Yaponiya-Qərbi Avropa )yaranmışdı...Keçən əsrin son üç onilliyini dünya iqtiadiyyatı baxımından **yeni dövr adlandırmaq** olar. Bu dövrün əsas fərqləndirici cəhətlərinə beynəlxalq məhsuldar qüvvələrin formalaşması, iqtisadiyyatın dünyəvilik səviyyəsinin yüksəlməsi, dünya istehsalının genişlənməsi və beynəlmiləlləşməsi, bütün iqtisadi sferalarda qarşılıqlı təsirlərin və asılılığın güclənməsi daxildir.Qeyd edək ki, proses keçən əsrin 70 –ci illərindən başlayaraq güclənmiş və insanların psixologiyasında və onların dünyagörüşündə inqilabi dəyişikliklər etmişdir və bu cür proses indi də davam edir.

Dünya iqtisadiyyatının təkamül yolu ilə formalaşması etaplarından danışarkən keçən əsrin 90-cı illərinin əvvəlini xüsusi qeyd etmək lazımdır. SSRİ adlanan bir qrumun dağılması ilə əlamətdar olan bu dövrü haqlı olaraq dünya təsərrüfatının yeni inkişaf dövrü adlandırmaq lazımdır. Bu dövrün əsas xüsusiyyəti onda idi ki,dünya

iqtisadiyyatının dünyəvilik əmsali ilk dəfə olaraq özünün ən yüksək səviyyəsinə çatmağa kurs götürmüşdü.Dünya sosializm sistemi yox oldu və onun guya özü üçün yaratdığı "sosializm bazarının" fəaliyyəti dayandı. Dünya bazarı bütövləşdi,daha da beynəlmiləlləşdi (bəlkə elə buna görə "dünya iqtisadiyyatı"nı indi "beynəlxalq iqtisadiyyat" adlandırmağa meyl göstərilir.)

Hazırkı dövrdə bütün ölkələrin inkişafında müəyyən oxşarlıqlar vardır.

Dünya iqtisadiyyatının vahidliyi bir də ona görə yüksəlir ki, Qərbi Avropada çoxdan yaranmış iqtisadi və siyasi strukturlara oxşar stukturların digər ölkələrdə yaranması sürətlənir. Bu da planetimizdə məcmuu ictimai məhsulun təkrar istehsalının səmərəliliyi üçün şərait yaradır.

## § 3.Dünya təsərrüfatının yarımsistemləri və onların qruplaşdırılması

Dünya iqtisadiyyatını tam spektləri ilə öyrənmək, onun qanunauyğunluqlarını dərk etmək üçün ilk növbədə onu təşkil edən yarımsistemləri bilmək lazımdır. "Yarımsistem" məfhumu hər hansı bir idarə olunan tam obyektin hissələrini ifadə etmək üçün işlədilir.Əgər dünya təsərrüfatı bir vahid sistemidirsə onun yarım (dörddə bir, üçdə bir və s.)sistemləri də vardır.Dünya iqtisadiyyatı fənni baxımından "yarımsistem" anlayışı ayrı-ayrı ölkələri və qrup ölkələri ifadə etmək üçün işlədilir.

Dünya iqtisadiyyatı ayrı-ayrı ölkələrin iqtisadiyyatından bilavasitə asılı olduğuna görə ilk növbədə milli təsərrüfatlar dərindən öyrənilməli və təhlil edilməlidir. Lakin planetimizdə çoxlu sayda ölkə və vilayətlər,region və qitələr vardır. Dünya iqtisadiyyatının sürətlə inkişaf etdirilməsi, onun düzgün idarə edilməsi dünya təsərrüfatının oxşar əlamətlərinə görə təsnifləşdirilməsini tələb edir. Təsnifləşdirmə ölkələrin oxşar əlmətlərinə görə qruplaşdırılması üçün şərait yaradır ki, bu da dünya iqtisadiyyatının inkişaf meyllərini, dinamikasını və perspektivini təmin etmək üçün çox vacibdir.

Dünya təsərrüfatını yarımsistemlərə bölərkən müxtəlif əlamətlərdən, göstəricilərdən və kriteriyalardan istifadə edilir. Dünya

iqtisadiyyatını yarımsistemlərə ayırarkən müxtəlif əlamətlərdən istifadə edilsə də bir cəhət nəzərdən qaçırılmamalıdır ki, təsnifləşdirmənin əsas məqsədi yarımsistemin iqtisadi inkişaf səviyyəsini təyin etmək və konkret yarımsistemin dünya iqtisadiyyatında tutduğu yerini təyin etməkdir. Ona görə də göstərici və kriteriyalardan istifadə edərkən diqqətli olmaq lazımdır. Təyin etmək lazımdır ki, qəbul edilən kriteriya yarımsistemi hansı tərəfdən (cəhətdən) xarakterizə edəcək. Belə yanaşma dünya təsərrüfatını qruplara ayırarkən obyektivliyi təmin etməyə imkan verir.

Dünya iqtisadiyyatı ilə məşğul olan əksər alimlərin və tədqiqatçıların ümumi fikrinə görə ölkələrin qruplaşdırılmasında “Təsərrüfatın sosial strukturu”, “Xarici iqtisadi əlaqələrin səviyyəsi və xarakteri”, “İqtisadi inkişafın tipi”, “İqtisadi potensialın həcmi (səviyyəsi)”, “Adambaşına düşən ümumi daxili məhsulun miqdarı” kimi göstəricidən istifadə etmək olar. Bunlardan başqa digər müxtəlif göstəricilərdən, ölkədə hansı sahənin daha da inkişaf etməsi haqda məlumatlardan da istifadə etməklə ölkələr qruplaşdırıla bilər.

Dünya təsərrüfatını yarımsistemlərə bölərkən ən çox istifadə edilən kriteriya kimi ölkələrin iqtisadi inkişaf səviyyəsi götürülür. Bu kriteriya üzrə ölkələrin qruplaşdırılmasında “Əhalinin hər bir nəfərinə düşən ümumi məhsul” göstəricisindən istifadə edilir. Bununla yanaşı dövlətlərin qruplaşdırılmasında milli gəlirin yaradılmasında mühüm rol oynayan sənayeləşmənin səviyyəsi və istehsalın strukturundan da istifadə edilir.

Əhalinin hər birinə düşən ümumi məhsulun miqdarına görə dünya ölkələri bir neçə qrupa bölünürlər. İqtisadi və siyasi ədəbiyyatlarda və beynəlxalq təşkilatlarda bu göstəriciyə görə dünya təsərrüfatı yüksək inkişaf etmiş ölkələrə, orta inkişaf etmiş ölkələrə və digər ölkələrə bölünür. Təhlil etmək və dövlətləri bu və digər qrupa aid etmək üçün müqayisə obyekti kimi ABŞ-ın əldə etdiyi adambaşına ümumi məhsulun həcmi götürülür. Bu göstəriciyə görə yüksək inkişaf etmiş ölkələr qrupuna o dövlətlər daxil edilir ki,onların ölkələrində adambaşına düşən ümumi məhsulun miqdarı ABŞ-da əldə edilən bu göstəricinin yarısından çox olsun. O ölkələrdə ki, bu göstərici ABŞ-ın müvafiq göstəricisinin 30-50% -ni təşkil edir, o ölkələr orta inkişaf səviyyəli ölkələr qrupuna, 30 %-dən aşağı təşkil edirsə digər ölkələr

qrupuna daxil edilir. Əlbəttə, bu normalar şərtidir və sonralar dəyişilə bilər.

Hər bir ölkə səmərəli inkişaf etmək üçün tarix boyu özünün məhsuldar qüvvələrini (məcmu əmək cismini, əmək alətini, ixtisaslı əməyin özünü və elmi potensialını) formalaşdırır. Məhsuldar qüvvələrin səviyyəsindən asılı olaraq konkret olaraq götürülmüş dövlət müəyyən məhsul istehsal etmək, ya da xidmət göstərmək və sonradan,yəni öz tələbatlarını ödədikdən sonra, onların ixracı ilə məşğul olmaq qabiliyyətində ola bilər. Burada məhsuldar qüvvələr ölkənin iqtisadi inkişafı üçün faktor rolunu oynayır. Lakin dünya təsərrüfatı yarımsistemlərinin fəaliyyətinin təhlili göstərir ki, eyni səviyyəli məhsuldar qüvvələrinə malik dövlətlər belə müxtəlif inkişaf mərhələsndə olurlar. Bunun əsas səbəbi məhsuldar qüvvələrin hansı istehsal münasibətləri şəraitində fəaliyyət göstərməsidir. Sağlam, elmə söykənən, demokratik istehsal münasibətləri yaradılan ölkələrdə məhsuldar qüvvələrin tam səmərə verməsi üçün şərait yaranmış olur və belə ölkələr daha yüksək inkişaf əldə edirlər. Dünya iqtisadiyyatına aid iqtisadi ədəbiyyatlarda da bu cəhət nəzərə alınır və dövlət qruplaşdırılarkən **iqtisadiyyatın sosial strukturası kriteriyasından** da istifadə edilir. Məsələ burasındadır ki, bir dövlət daxilində təsərrüfatın ayrı-ayrı fazaları müxtəlif sürətlərlə inkişaf etdirilə bilər. Bəzən növbə ilə inkişaf baş verir və məhz bundan asılı olaraq gələcəkdə dövlətlər üçün inkişaf perspektiv yarana bilər. Məsələn, vaxtı ilə ABŞ-ın düzgün struktur siyasətinin nəticəsidir ki, bu gün o, yüksək kompüter texnologiyasından bu qədər bəhrələnə bilir...

Təkrar istehsalın strukturunda prioritet istiqamətlərin yerini dəyişməklə və deməli, milli gəlirin bölüçdürülməsində bunları nəzərə almaqla da ölkənin gələcək inkişaf perspektivlərini və istiqamətlərini təyin etmək olar. Bunları nəzərə alaraq **“sənaye cəhətdən inkişaf etmiş ölkələr”**, **“aqrar tipli ölkələr”** və s.qruplar fərqləndirilir.

**İqtisadi inkişafın səviyyəsi kriteriyasına** əsasən qruplaşdırma aparıldıqda ölkələrdə bərqərar olmuş sənaye istehsalının strukturu nəzərə alınır. Məlumdur ki, sənaye istehsalını “A”-istehsalı vasitələri istehsalı və “B”-istehlak şeyləri istehsalı kimi iki böyük qruplara ayırmaq qəbul olunmuşdur.Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə uzun müddət istifadə edilən istehlak şeylərinin istehsalı

mühüm yer tutur və “A” və “B”qruplarının xüsusi çəkiləri təxminən bərabər olur, yəni hərəsi təxminən 50% təşkil edir.

Ölkələr daxilində istehsal edilən sənaye məhsulları çoxlu miqdarda xammal və yanacaq tələb edir.Sənaye məhsulunun maya dəyərində material-enerji xərcləri 60-90% təşkil edə bilər.Buna görə də istehsalın rəqabətdözümlü olmasında material-enerji xərclərinin azaldılması xüsusi əhəmiyyət kəsb edir.Tədqiqat göstərir ki, ölkələrin inkişaf səviyyəsini təyin etdikdə və onları qruplaşdırdıqda **istehsal olunmuş məhsul vahidinə düşən xammal və yanacaq sərfinin səviyyəsi** göstəricisindən istifadə edilməsi yaxşı nəticə verir. Məsələ burasındadır ki, bir qayda olaraq ölkə iqtisadi cəhətdən intensiv inkişaf etdikcə istehsal olunan məhsul vahidinə daha az miqdarda xammal – enerji tələb olunurvə təbii materialların əvəzinə süni materiallardan daha çox istifadə edilir. Bu göstəriciyə görə də dünya ölkələrini yüksək inkişaf etmiş, orta səviyyədə inkişaf etmiş və s. bu kimi ölkələr qrupuna bölmək olar. Ölkələrin bu və ya digər qruplara aid edilməsi dünya miqyasında məhsul vahidinə düşən xammal –yanacağın sərfinin orta qiymətini ölkənin əldə etdiyi müvafiq göstərici ilə tutuşdurmaqla həll edilir. Orta qiymətdən aşağı göstərici əldə edən dövlət yüksək inkişaf etmiş ölkələr qrupuna daxil edilir və əksinə, göstərici orta qiymətdən yuxarı olduqda ölkə zəif inkişaf edən ölkələr qrupuna daxil edilir.

Dünya təsərrüfatını yarımsistemlərə bölərkən istifadə edilən kriteriyalardan biri də “iqtisadi inkişafın tipidir”. Bu kriteriya görə bütün dünya ölkələrini iki böyük yerə-intensiv və ekstensiv yolla inkişaf edən ölkələrə bölmək olar. Bu kriteriya ilə qruplaşdırmada nəzərə almaq lazımdır ki, təcrübədə “təmiz” intensiv və yaxud da “təmiz” ekstensiv inkişaf edən ölkəyə çox çətin rast gəlmək olur.Buna görə də qruplaşmada “əsasən intensiv”, “əsasən ekstensiv ” inkişaf kriteriyalarından da istfadə edilir. Bir cəhəti də yadda saxlamaq lazımdır ki, istər intensiv və istərsə də ekstensiv inkişaflar tipi daimi olmurlar.Eyni bir ölkədə müəyyən dövr intesiv, sonra isə ekstensiv inkişaf tipi ola bilər. Məsələn, tədqiqatçıların göstərdiklərinə görə keçən əsrdə sənaye cəhətdən inkişaf etmiş ölkələrin iqtisadi inkişafında iki mərhələ-1960-cı ilin ortalarına qədər ekstensiv inkişaf, keçən əsrin son 30 ilində isə intensiv inkişaf tipləri qeydə alınmışdır.

Ayrı-ayrı yarımsistemlərin dünya təsərrüfatında tutduqları mövqe onların xarici iqtisadi əlaqələrdə iştirakı ilə təyin edilə

bilər. Bu kriteriya ilə ölkələri qruplaşdırdıqda əmtəə və xidmətlər və kapitalın hərəkəti üzrə idxal və ixracın həcmi əsas götürülür.Eyni zamanda ölkənin beynəlxalq əmək bölgüsündə iştirak forması, istiqaməti,dərəcəsi nəzərə alınır. Müasir dövrdə dünyada çox mürəkkəb proseslər baş verir.Məhsuldar qüvvələrin inkişaf səviyyəsi elədir ki, heç bir dövlət və ya dövlətlər qrupu ayrıca, qapalı şəkildə inkişaf edə bilmir. Lakin beynəlxalq mübadilələr vasitəsilə hər bir ölkə özünə daha çox sərf edən əmtəə, kapital və bazar tipləri tapa bilər.

Hər bir ölkənin xarici iqtisadi əlaqəsini bir sıra göstəricilərlə səciyyələndirmək olar. Mühüm göstərici kimi "ixrac və idxal "kvotalarını", "xarici ticarətin əmtəə strukturunu", "kapitalın, texnologiyanın,əməyin beynəlxalq hərəkəti"ndə ölkənin iştirakını xarakterizə edən göstəricilər belə göstəricilərdəndir.

"Ölkə təsərrüfatlarının açıqlıq səviyyəsi" də xarici iqtisadi əlaqələri xarakterizə edə bilən göstərici ola bilər. Açıq iqtisadiyyat dedikdə elə təsərrüfat sistemi başa düşülür ki, onun inkişaf parametrləri dünya təsərrüfatında da qəbul edilmiş meyllərə uyğun təyin edilsin və xarici iqtisadi əlaqələr durmadan genişlənsin. Mütəxəssislər hesablamışlar ki, xarici ticarət dövriyyəsi ölkənin ümumi daxili məhsulunun 25%-ni təşkil etdikdə, "iqtisadiyyatın açıqlıq siyasəti" ümumi iqtisadi inkişafın stimullaşdırılmasına kömək göstərir. Qapalı iqtisadiyyata malik ölkənin inkişafı iki cəhətdən –daxili bazarın çərçivəsi və ölkənin resurslarının miqdarı ilə məhdudlaşa bilər. Bu da öz növbəsində iqtisadi inkişafı ləngidər.Açıq iqtisadiyyatda isə vəziyyət dəyişilir: ölkə çatışmayan hər cür resursları digər ölkələrdən əldə edə bilər.

Yarımsistemlər qruplaşdırılarkən istifadə edilən növbəti kriteriya "ölkələrin iqtisadi potensialı"dır. İqtisadi inkişaf səviyyəsindən fərqli olaraq iqtisadi potensial həm də məhsuldar qüvvələrin miqyasından, əhalinin ümumi sayından , ölkənin ərazisindən, təbii sərvətlərin ümumi həcmindən və strukturundan asılı olur. Məhz elə buna görə də "Çin Xalq Demokratik Respublikası və Hindistan kimi dövlətlər ayrıca yarımsistemə daxil edilməlidir" fikrini irəli sürən tədqiqatçılar haqlıdırlar.

Müasir dövrdə beynəlxalq təcrübədə dünya ölkələrini üç böyük qrupa bölmək geniş yayılmışdır. 1980-cı ildən başlanan bu təsnifləşməyə görə birinci qrup ölkələrə sənaye **cəhətdən inkişaf etmiş**

**ölkələr,** ikinci qrupa **“keçid iqtisadiyyatlı” ölkələr ,** üçüncü qrupa isə **“inkişafda olan ”ölkələr** daxil edilir və müvafiq olaraq “sənaye cəhətdən inkişaf etmiş”, “keçid iqtisadiyyatlı” və “inkişafda olan” ölkələr qrupları fərqləndirilir. Lakin bu təsnifləşdirməyə yenidən baxılır və dəyişikliklər edilməkdədir. BMT bu sahədə daha fəallıq göstərir. Hazırda birinci qrupa 24-ölkə daxil edilir ki, onların da içərisindən 7 ölkə (Almaniya, İtaliya, Kanada, Böyük Britaniya Birləşmiş Krallığı, ABŞ, Fransa, Yaponiya kimi ölkələr) “ayrıca qrup”a daxil edilir və bu ölkələr qrupu nəhəng sənaye ölkələri qrupu adlanır. İnkişaf etmiş ölkələrin içərisindən Qərbi Avropa qrupu, Avropa Birliyi qrupu və Şimali Amerika qrupu fərqləndirilir. Qeyd edək ki, inkişaf etmiş ölkələr bir çox birliklər,ümumi bazarlar, assosiasyalar və s.digər qruplarda cəmlənmişlər.

Keçid iqtisadiyyatlı ölkələr də iki qrupa bölünürlər – Şərqi Avropa ölkələrinə (Albaniya ,Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya,Çexoslovakiya,Slovakiya) və SSRİ dağıldıqdan sonra meydana çıxan yeni dövlətlər (Rusiya və bizə məlum olan və MDB-yə daxil olan dövlətlər) qrupuna.

Ücüncü qrupa daxil olan –“inkişafda olan ölkələr” qrupu bir sıra qrup və qarımqruplara bölünürlər. Bu qrupda “aktiv tədiyə balansı olan ölkələr”, “kapital idxal edən ölkələr”, “enerji resursları ixrac edən ölkələr”, “enerji resursları idxal edən ölkələr” və s.kimi ölkələr qrupu fərqləndirir. Qeyd edək ki, dünya ölkələrinin , yəni dünya təsərrüfatlarının yarımsistemlərinin qruplaşdırılması müəyyən mənada nisbidir. Məsələn, 1988-ci ildə Dünya Bankı dərc etdiyi materiallarında da keçmiş sosializm ölkələrini unkişafda olan ölkələr qrupuna daxil edirdi...

Dünya təşkilatlarında maliyyə əməliyyatlarının həyata keçirilməsi və analitik işlərinin görülməsi zamanı ölkələrin qruplaşdırılması çox vaxt “adambaşına düşən ümumi milli məhsul ” (ABDÜMM) göstəricisinə görə aparılır və az gəlirli”, “orta gəlrli” (o cümlədən, iki yarımqrup: orta gəlirdən aşağı və yuxarı gəlirli ölkələr qrupu) və “yüksək gəlirli” ölkələr qrupları fərqləndirilir. Bu əlamətə görə ölkələr dörd qrupa bölünüb(1997-ci il).

1.Az gəlirli ölkələr (ABDÜMM= 785 dollar və ondan aşağı).

2.Gəlirləri orta gəlirdən aşağı olan ölkələr (ABDÜMM=785-2125 dollar).

3.Gəlirli orta gəlirdən çox olan ölkələr (ABDÜMM=2126-9655 dollar).

4.Yüksək gəlirli ölkələr (ABDÜMM=9655 dollar və ondan çox).

Aşağı və orta gəlirli ölkələr çox zaman "inkişaf etməkdə olan" ölkələr qrupu altında birləşdirilir. Bu termin sadələşdirmək baxımından istifadə edilir və o demekdir ki, bu qrupa daxil edilən ölkələrin inkişafı ya eynidir ya da bir ölkə digərlərinə nisbətən yüksək inkişaf pilləsindədir.

Qeyd edək ki, adambaşına düşən ÜMM göstərici vasitəsilə qruplaşdırma ölkənin iqtisadi inkişafı haqqında həmişə dəqiq məlumat vermir. Daha dəqiq məlumat almaq üçün bir sıra digər göstəricilərindən (sənayenin inkişaf xüsusiyyətlərindən , iqtisadiyyatın strukturundan, elmi-texniki tərəqqini, mədəniyyəti,psixoloji mühiti xarakterizə edən göstəricilərdən ) də istifadə olunmalıdır.

Ölkələr eyni zamanda coğrafi mövqelərinə, ixracın həcminə və xarici borcların səviyyəsinə görə də qruplaşdırılır.

## § 4. Dünya iqtisadiyyatının inkişaf şərtləri və tipləri

Dünya iqtisadiyyatının inkişaf şərtləri də məhsuldar qüvvələrin inkişafı ilə dəyişir. Bu gün dünya təsərrüfat sisteminin inkişafının əsas şərtlərinə əməkdaşlığa olan meyllərin güclənməsi, qarşılıqlı anlaşıqların reallaşması, dünya iqtisadiyyatının bütün yarımsistemlərinin inkişaf etdirilməsi zərurəti, vahid , humanist , məcburi olmayan sosial-ictimai formasiyanın bərqərar olması, ölkələr və dünya miqyasında demokratik institutların yaradılması kimi yüksək dəyərlər dacildir. Bu şərtlərin nə qədər əhəmiyyətli olduğunu ABŞ, Qərbi Avropa ölkələrinin əksəriyyəti və Yaponiya çoxdan başa düşmüşlər və böyük sosial – iqtisadi yüksəlişə nail olmuşlar. Təəssüflər olsun ki, bizim respublikamızın da yerləşdiyi regionda,Rusiya, İran və onların əlaltısı olan Ermənistan kimi dövlətlərin təqsiri üzündən insan zəkasının irəli sürdüyü bu cür dünyəvi şərtlər indiyə qədər lazımınca nəzərə alınmır. Nəticəsi də göz qabağındadır.Rusiya və Qafqaz ölkələri zəngin təbii sərvətlərə, əlverişli

coğrafi məkana malik olmalarına baxmayaraq onlar Dünya Bankı tərəfindən XXI əsrdə belə ancaq "inkişafda olan ölkələr" qrupuna daxil edilirlər. Eyni vəziyyəti və eyni nəyicəni biz balkanlarda da görürük. Bu misallar bir daha sübut edir ki, dünya iqtisadiyyatının və ayrı-ayrı regionların və ölkələrin iqtisadi inkişafı problemlərə yeni mövqedən yanaşmağı tələb edir ki, bunun da başında **əməkdaşlıq,insan amili** və ona hörmət durur.

Dünya iqtisadiyyatını dərindən mənimsəmək üçün amil və şərtlərlə yanaşı onun əsas inkişaf istiqamətlərini də bilmək lazımdır.Məsələ burasındadır ki, eyni amil və şərtlər daxilində müxtəlif inkişaf istiqamətləri seçilə bilər və alınan nəticələr də müxtəlif ola bilər. Səmərəli dünya iqtisadiyyatına aparılan yol isə müəyyən amil və şərtlər daxilində münasib inkişaf istiqamətlərinin təyin və inkişaf etdirilməsindən keçir. İndi bu istiqamətlərin bir neçəsini nəzərdən keçirək.

Dünya təsərrüfat sisteminin inkişaf istiqamətləri bu və ya başqa şəkildə **xarici iqtisadi əlaqələrlə** bağlıdır.Belə iqstiqamətlərdən biri müəyyən ölkəyə nisbətən xarici bazarın yaradılması və inkişaf etdirilməsidir.Təcrübə göstərir ki, xarci bazar genişləndikcə dünya iqtisadiyyatı inkişaf edir.Bu obyektiv prosesdir. Ona görə ki, xarici bazarın yaranması zərurətinin özu-özlüyündə obyektiv əsası vardır.Məsələ burasındadır ki, feodalizm dağıldıqdan, natural təsərrüfatdan əmtəə-pul münasibətlərinə keçildikdən və deməli, kapitalizm üsuli-idarəsi formalaşdıqdan sonra beynəlxalq ticarətin inkişafı üçün çox əlverişli şərait yarandı. Eyni zamanda kapitalizmin bərqərar olması milli dövlətlərin, milli bazarların və milli təsərrüfatların formalaşması prosesini sürətləndirdi. Bu ilk dövrdə yaxşı nəticələr verdi və ölkələrin daxilində iqtisadi əlaqələrin genişlənməsinə səbəb oldu.Məhsuldar qüvvələrin sonrakı inkişafı milli təsərrüfatların qarşılıqlı iqtisadi əlaqələrinin genişlənməsi üçün şərait yaratdı və beynəlxalq əlaqələr genişlənməyə başladı.Belə əlaqələrin genişlənməsininin hərəkətverici qüvvəsi isə iri sənayenin və çox sürətlə inkişaf etməsi idi. İri sənaye böyük xərc tələb edirdi.Səmərəni yüksəltmək üçün istehsalın həcmi çoxalmalı idi ki, bunun üçün də maşınlı istehsal prosesi şərait yaradırdı. Nəqletmə vasitələrinin də sürətlə inkişaf etməsi xarici iqtisadi əlaqələrin genişləndirilməsinə müsbət təsir göstərirdi.Bu da öz növbəsində dünya iqtisadiyyatının

inkişafını təmin edirdi. Qeyd edək ki, bu cür proseslər indiyə qədər davam edir və xarici iqtisadi əlaqələrin genişləndirilməsinə, dünya iqtisadiyyatının irəliyə doğru fəaliyyət göstərilməsinə səbəb olur.

Bu cəhətdən keçən əsr əlamətdar olmuşdur. Beynəlxalq iqtisadi əlaqələr daha da genişlənmiş və istər dərininə və istərsə də əhatə dairəsinə görə inkişaf etmişdir. Belə inkişafın əsas məğzini dünya iqtisadiyyatı inkişafının yeni istiqamətinin meydana gəlib tərəqqi etməsi təşkil etdirdi.Bu istiqamət nəhəng inhisarçı birliklər olan transmilli korporasiyaların (TMK) meydana gəlməsi və fəaliyyət göstərməsi ilə bağlı idi.

Təsərrüfatçılıq sahəsində dünyanın qabaqcıl təcrübəsi sübüt etmişdir ki, əlverişli mühit yaradılan ölkələrdə sahibkarlar böyük iqtisadi müvəffəqiyyət qazana bilirlər və onların müəyyən qisminin əlində külli miqdarda kapital cəmləşir.Bu kapitalın bir hissəsini özünə mənsub olduğu ölkədə sərmayə kimi işlətmək sahibkar üçün səməmərli olmur. Yaranmış əlavə kapital digər, xüsusən də inkişaf etməkdə olan ölkələrdə yerləşdirildikdə daha çox mənfəət gətirir. Xarici ölkələrdə kapital qoyuluşunu sürətləndirən amil isə sənayecə ən yüksək şəkildə inkişaf etmiş ölkə rəhbərlərinin bu prosesi müdafiə etmələri və onun üçün əla şərait yaratmaları oldu. Bu şəraitin mahiyyətini sahibkarların əlində toplanmış əlavə kapitala “azadlıq” verilməsi təşkil edirdi. Bunun nəticəsində Amerikanın, Yaponiyanın, İngiltərənin, Almaniyanın və s. daha çox inkişaf etmiş ölkələrin sahibkarları öz kapitallarını digər ölkələrdə sərbəst istifadə etmək hüququ qazandılar və keçən əsrin 60-cı illərindən başlayaraq bu günə qədər öz fəaliyyətlərini bu günə qədər öz fəaliyyətlərini gün-gündən gücləndirirlər.

TMK –ın dünya iqtisadiyyatı inkişafının mühüm istiqaməti kimi aşağıdakı üstünlükləri var. TMK istehsalın beynəlmiləllik səviyyəsini artırır, beynəlxalq əmək bölgüsünü sürətləndirir, dünya təsərrüfat sistemini rəngarəngləşdirir və dünya iqtisadiyyatının dünyəvilik səviyyəsinin artırır. TMK –ın kapitalları öz ölkələrində baş verən proseslərdən nibətən uzaqdırlar, yəni daha çox sərbəst hərəkət edə bilərlər. Ümumilikdə götürdükdə TMK dünya miqyaslı münasibətləri daha obyektiv formada tənzimləyirlər, kapitalı daha çox mənfəət gətirən istehsal sahələrinə və regionlara tərəf meylləndirmək bacarığına malikdirlər.

Onu da qeyd edək ki, TMK öz hökümətlərindən maliyyə, diplomatik və hərbi himayədarlıq alırlar və inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın strukturunu **özlərini istədikləri kimi tənzimləməyə nail olurlar.** Lakin buna baxmayaraq TMK dünya iqtisadiyyatı inkişafının mühüm istiqaməti kimi fəaliyyət göstərib və XXI əsrin əvvəlində də müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir.

Beynəxalq siyasi vəziyyətin yaxşılaşması dünya iqtisadiyyatı inkişafına güclü təsir göstərir və son nəticədə ölkələr arasında illər uzunu müxtəlif səbəblər üzündən yaranmış əngəllərin aradan qaldırılmasına gətirib çıxarır ki, bu da onu dünya təsərrüfat sistemi inkişafının başlıca istiqamətlərindən birinə çevirir. Tarixə nəzər salsaq görərik ki, əslində dünya iqtisadiyyatının inkişafı həmişə beynəlxalq siyasi vəziyyətlə şəraitləşib.Beynəlxalq siyasi vəziyyət dünya iqtisadiyyatının inkişafına üç cür təsir göstərə bilər. Birincisi, ona **müsbət** təsir göstərə bilər. Dünya təcrübəsinin təhlili göstərir ki, beynəlxalq siyasi vəziyyət yaxşılaşdıqca dünya təsərrüfat sisteminin güclənməsi üçün şərait yaranır.İkincisi, ona **mənfi** təsir göstərə bilər. Bu o zaman baş verir ki, beynəlxalq siyasi vəziyyət müxtəlif səbəblər üzündən pisləşir və dövlətlər və regionlar arasında iqtisadi əməkdaşlıq mümkün ola bilən gücü və imkanı daxilində fəaliyyət göstərə bilmir. Üçüncüsü, neytral vəziyyətdədir. Yəni beynəlxalq siyasi vəziyyət sabit olduqda dövlətlərarası münasibətlər də ona uyğun formalaşır və müəyyən mənada sabit qalır.Dünya iqtisadiyyatının inkişafı da sabitləşir. Beləliklə də, siyasət , siyasi amil dünya iqtisadiyyatını həmişə təsir etmişdir və indi də etməkdədir.

Dünya iqtisadiyyatının, dünya iqtisadi əlaqələrinin inkişaf meyllərini dərindən öyrəndikdə məlum olur ki, beynəlxlq siyasi vəziyyətlə beynəlxalq iqtisadiyyat arasında əlaqəni və qarşılıqlı əlaqəni dərindən bilməklə dünya təsərrüfat sisteminin inkişaf qanunauyğunluqlarını dərk etmək, prosesi düzgün idarə etmək , ona təsir göstərmək mümkündür. Sonda dünya iqtisaiyyatının inkişaf perspektivlərini də düzgün proqnazlaşdırmaq mümkün olar. Buradan da elə nəticə çıxarmaq lazımdır ki, **beynəlxalq siyasi durumu proqnozlaşdırmadan, dünya iqtisadiyyatının inkişafı haqqında fikir söyləmək çətindir.** Bunun əsas səbəbini iqtisadi münasibətlərin özünəməxsus xüsusiyyətində axtarmaq lazımdır. Bu xüsusiyyətlər nədən ibarətdir?

Birincisi dünya iqtisadi münsaibətləri ilk növbədə bütün planet ölkələrinin iqtisadi əməkdaşlıq sahəsində ümumi dil tapması səviyyəsini xarakterizə edir. Ümumi dilin tapılmasında isə bütün dünya miqyasında, ya da konkret bir region çərçivəsində fəaliyyət göstərən ölkələrin rolu həllediciidir. Öz siyasi ambisiyasına malik olan ölkələr sayı artdıqca ümumi dil tapmaq prosesi çətinləşir və **siyasət iqtisadiyyata üstün gəlir.** Buna misal kimi keçmiş SSRİ, indi isə MDB adlanan ölkələr qrupunu göstərmək olar. Rusiya ,İran və onların əlaltısı olan Ermənistanın mühüm siyasi ambisiyaları bu regionda iqtisadi inkişafı həmişə ləngitmişdir və çox təəssüf ki, indi də bu mənfi hal davam edir.

İkincisi, dünya iqtisadi münasibətləri həm də dünya ölkələrinin iqtisadi_əməkdaşlıq sahəsində təsir və qarşılıqlı təsirlər üsuludur.Bu üsul mextəlif ola bilər. Müvafiq olaraq dünya iqtisadiyyatının da inkişaf səviyyəsi müxtəlif formada təşəkkül tapır. İqtisadi əlaqələrin bir sıra üsulları məlumdur.Dünya iqtisadiyyatına təsir etməsi nöqteyi-nəzərincə onları iki qrupa bölmək olar:

**Iqtisad** yönümlü üsullar və **güc** işlətmə üsulları İqtisadi üsullarla təsiretmə baş verdikdə prosesə cəlb olunan ölkələrin iqtisadi maraqları ön planda durur və son nəticədə tərəflərin hamısı iqtisadi səmərə əldə edir və inkişaf edirlər.Elə iqtisadi üsulların mahiyyəti də bundadır. İqtisadi üsul dünya iqtisadiyyatının inkişafı üçün çox zəruridir və təcrübədə bu sübut olunmuşdur.Bu gün Qərbi Avropa ölkələrinin, ABŞ-ın və Yaponiyanın səmərəli inkişaf etmələrinin əsasını yaxın və uzaq ölkələrlə öz iqtisadi əlaqələrini məhz iqtisadi üsullardan geniş və hərtərəfli istifadə etmələri təşkil edir.Rusiya Federasiyası isə özünə yaxın və uzaq ölkələrlə qarşılıqlı əlaqələrində əsasən güc üsullarından istifadə tətbiq edir. Belə münasibətlərin nətcəsidir ki, Rusiyanın nə özü, nə də onun yaxın qonşuları inkişaf etmiş ölkələr sırasına cıxa bilməmişdir. Deməli, istər qlobal miqyasda və istərsə də lokal miqyasda ölkələrarası əlaqələrin hansı üsulla qurulması dünya iqtisadiyyatının inkişafı üçün əsas şərtlərdən biridir. İqtisadi üsullar üstünlük təşkil etdikdə ticarət, istehsal-tikinti, texnoloji kooperasiya, əmək bölgüsü, ixtisaslaşma, elm tutumlu məhsul istehsalı və innovasiya əlaqələrinin həyata keçirilməsi üçün şərait yaranır ki, bu da yarımsistemlərin –dövlətlərin və bütün sistemin dünya iqtisadiyyatının inkişafına səbəb olur.

## §5.Dünya təsərrüfatı və onun yarımsistemlərinin göstəriciləri

Hər hansı bir öyrənilən obyektin vəziyyətini müxtəlif istiqamətlərdə təhlil etmək olar və bu zaman qarşıya qoyulan məqsəddən və təhlilin çərçivəsindən və dərinliyindən asılı olaraq müxtəlif göstəricilər sistemindən istifadə edilir.Ölkələrin, regionların və dünyanın iqtisadi vəziyyətinə iriləşdirilmiş şəkildə (yəni məsələləri xırdalamadan) qiymət verilməsinə dünya təcrübəsində çox tez-tez rast gəlmək olar. Bu zaman makroiqtisadi göstəricilərdən istifadə edilir . Belə göstəricilərdən ən başlıcası ümumi milli məhsul (ÜMM) və yaxud da ümumi daxili məhsul (ÜDM) göstəricisidir.

ÜMM (ÜDM) göstəricisindən dünya miqyasında iqtisadi inkişafa qiymət vermək üçün geniş istifadə edilir. Bu gösrərici son ictimai məhsuldar və adətən bir il ərzində baxılan obyektin son nəticəsini göstərir.İqtisadi təhlildə bu göstərici ayrı-ayrı ölkələr, regionlar, ölkə qrupları və planet üçün tam şəkildə hesablanır. Məqsəd – baxılan obyektdə iqtisadiyyatın inkişaf sürətinə qiymət verməkdir. Hər iki göstəricinin istehsal olunan həcmini və istifadə edilən həcmini hesablamaq olar.

İstehsal edilən ÜDM mahiyyətcə bu və ya digər ölkənin ərazisində yerləşən və kimə məxsus olmasından asılı olmayaraq fəaliyyət göstərən bütün müəssisələrin bir ildə istehsal etdikləri əmtəə və xidmətlərini qəbul edilmiş qiymətlərlə son həcmidir. Son həcm material xərclərini özündə əks etdirmir və əslində bütün sahələr üzrə ödənilən əmək haqqının, mənfəətin və amortizasiyanın cəmi kimi hesablanır. Əslində bu bütün sahələrdə istehsal edilən əlavə dəyərlərin cəmidir.

İstifadə edilən ÜDM isə mahiyyətcə ölkədə həyata keçirilən kapital qoyuluşlarının, istehlakın (əhalinin və dövlətin) və xarici iqtisadi əlaqələrin saldosunun cəmidir. Əslində bu millətin ümumi ictimai məhsuludur və dünya təcrübəsində müqayisəli təhlillərdə cox zaman bu göstəricidən istifadə edirlər. Qeyd edək ki, ÜMM-da ÜDM –in hesablama üsulu ilə hesablanır. Fərq ondadır ki, ÜDM hesablanarkən xarici iqtisadi əlaqələrin saldosu çixilir, ÜMM –a hesablandıqda isə bu saldo toplanır. Adətən bu iki göstərici arasında fərq çox kiçik olur.

Lakin ABŞ və bir neçə digər ölkələrdə ÜMM-u xaricilərə məxsus olan müəssisələrin yatratdıqları əlavə dəyər daxil edilmir. Bu halda ÜMM –i hesablamaq üçün ÜDM –dən xaricilərin əldə etdikləri əlavə dəyəri çıxmaq və bu ölkənin vətəndaşlarının xaricdə əldə etdikləri əlavə dəyəri əlavə etmək lazımdır.

Bu iki göstəricilərdən başqa milli gəlir (MG) göstəricisi də hesablana bilər. MG-in hesablanma üsulu da ÜDM –in hesablanması kimidir, MG-i tapmaq üçün ÜDM –dən amortizasiya ayırmalarının və dolayısı ilə tutulan vergilərin məbləği çıxılır, subsidiyaların məbləği isə əksinə ona əlavə edilir. Adətən vergilərin həcmi çox olur. Məlum oldugu kimi, vergilər pərakəndə satış qiymətlərinə daxil edilir və son istehlakçı tərəfindən ödənilir.Subsidiya əksinə, qiymətləri aşağı salır.Təcrübə göstərir ki, uzunmüddətli dövr üçün müqayisə etdikdə MG-in və ÜDM –in ümumi dəyişmə sürətləri demək olar kİ, eyni olur. Məhz buna görə də bütün dünya statistikasında çox zaman ÜDM göstəricisindən istifadə edilir.

ÜDM –in hesablanma metodologiyası göstərir ki, onun vasitəsi ilə ölkə və dünya iqtisadiyyatı haqqında ümumi vəziyyəti öyrənmək olar. Lakin burada qiymət amilini hökmən nəzərə almaq lazımdır . Cari qimətlərlə hesablanan ÜDM **nominal** ÜDM, hər hansı bir baza qəbul edilmiş dövrün (ilin) dəyişməyən qiyməti ilə hesablandıqda isə o **real** ÜDM adlanır. Real vəziyyətləri tədqiq etmək və yanlış nəticələrin baş verməməsi üçün dünyanın ÜDM-i Amerika dolları (cari və daimi qiymətlərlə) vasitəsi ilə hesablanır.Ümumiyyətlə, məsələyə bu cür yanaşmaq metodoloji cəhətdən düzgün olsa da , ayrı-ayrı hallarda vəziyyəti tam aydınlaşdırmağa imkan vermir. ÜDM göstəricisinin yaxşılaşması (artması) iqtisadi inkişafın olduğunu, onun artım sürətinin dayanıqlığı ölkənin iqtisadi gücünu xarakterizə edir. Lakin ÜDM göstəricisi geniş və yaxud sadə təkrar istehsalın hansı xərclər hesabına başa gəldiyi, iqtisadi artımın intensiv və ya ekstensiv yolla baş verdiyi, iqtisadiyyatın strukturunun necə dəyişdiyi və s. haqda tədqiqatçıya heç bir məlumat vermir. Buna görə də dünya iqtisadiyyatına və onun yarımsistemlərinin iqtisadi inkişafına daha dərindən qiymət vermək üçün digər göstəricilərdən istifadə edilir.

Belə göstərilənlərdən ən geniş yayılması ölkə və dünya təsərrüfatının strukturunu xarakterizə edən göstəricilərdir.Bir sahə orta göstəriciyə nisbətən çox və az inkişaf edə bilər. Məsələn, ümumi

təsərrüfatda sənayenin və onun aparıcı sahəsi olan maşınqayımanın xüsusi çəkisinin artması da dünya iqtisadiyyatının və ölkələrin iqtisadiyyatının intensiv inkişafından xəbər verir. Bir qayda olaraq inkişaf etmiş ölkələrin sənayesi yüksək xüsusi çəkiyə, sənayenin strukturunda isə maşınqayırma yüksək xüsusi çəkiyə malik olur. Məsələn, ABŞ və Yaponiyada maşınqayırmanın xüsusi çəkisi sənayenin ümumi məhsulunda 50% -ə çatdığı halda Rusiyanın da daxil olduğu MDB-də bu göstərici heç 20% -də təşkil etmir. Azərbaycanda isə bu göstərici 1-2 faizdir. Keçən əsrin son iki-üç onilliklərində dünya təsərrüfatı yarımsistemlərinin iqtisadi inkişafı onlarda mikroelektronika, kompüter texnikası, biotexnologiya, gen mühəndisliyi , məlumat texnikası ilə bağlı olan yüksək texnoloji sahələrin inkişafı ilə səciyyələnmışdir. Məhz bu sahələrin üstün inkişafına nail olan ABŞ dünya liderliyini bir çox sahələrdə ələ ala bilmişdır. Yaponiyanı və Almaniyanı da irəliyə çəkən amillər bunlardır.

Hər hansı bir ölkənin təsərrüfatında fəaliyyət göstərən sahələri onların istifadə etdikləri xammal və materialların xarakterinə görə üç qrupa bölmək olar: ilkin sahlərə, sonrakı sahələrə və üçüncü qrup sahələrə.İlkin sahələrə kənd təsərrüfatı ilə hasilat sahələri daxil edilir.Sonrakı sahələrə (bunlara ikinci sahələr də deyilir) emal sənayesi, elektroenergetika və tikinti daxildir.Üçüncü adlanan sahələrə isə bir çox sahələr daxildir.Xidmət sferasına daxil olan sahələr, maliyyə, sığorta, təhsil, mədəniyyət , elm , tibbi sahələri və ənənəvi nəqliyyat , ticarət və rabitə sahələri belə sahələrdəndir.

Ayrı-ayrı sahəllərin ÜDM-də yeri “xüsusi çəki” göstəricisi ilə təyin edilir. Təhlil göstərir ki, ilkin sahələrin və xüsusən kənd təsərrüfatının xüsusi çəkisi keçən əsrdə sürətlə azalmışdır. Bu meyl inkişaf etmiş ölkələrdə daha kəskin gözə çarpır. Məsələn, ABŞ-ın ÜDM-də kənd təsərrüfatı 1913-cü ildə 39,3% “paya” malik idi. 1993-cü ildə isə bu göstəricinin səviyyəsi cəmi 2 faiz təşkil etmişdir. Qeyd edək ki, kənd təsərrüfatının xüsusi çəkisinin bu cür yüksək dərəcədə aşağı düşməsi kənd təsərrüfatı məhsularının mütləq həcminin daim artması ilə baş vermişdir.Belə ki, bu gün ABŞ kənd təsərrüfatı məhsulları ilə öz əhalisini yüksək səviyyədə təmin etməklə yanaşı xaricdə də çoxlu miqdarda kənd təsərrüfatı məhsulu ixrac edir. Bu cür vəziyyət ABŞ –ın ÜDM –də mütərəqqi struktur dəyişmələrinin baş verdiyinə dəlalət

edir.Əyanilik üçün 2№li cədvəldə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin ÜDM-nin dörd qrup sahələr üzrə strukturu verilmişdir.

Cədvəl 2

| **Əsas sahələr** | **1913** | **1960** | **İllər**<br>**1970** | **1975** | **1985** | **1989** | **1993** |
|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 39,3 | 6,3 | 3,9 | 4,1 | 3,2 | 2,8 | 2,0 |
| Sənaye | - | 36,4 | 31,9 | 29,9 | 29,9 | 27,1 | 31,0 |
| Tikinti | - | 5,7 | 6,2 | 6 | | 6,1 | 6,0 |
| Xidmət | - | 51,6 | 58,0 | 59,5 | 61,3 | 64,2 | 61,0 |

ÜDM göstəricisi, qeyd etdiyimiz kimi, baş makroqitisadi göstəricidir və iqtisadiyyatın vəziyyətinə qiymət verərkən bu göstəricinin bir il (və yaxud baxılan hər hansı bir dövr) ərzində artım sürəti faizlə və ya əmsalla götürülür.Lakin bu göstərici bir sıra keyfiyyət göstəriciləri olmadan iqtisadiyyatın vəziyyətini xarakterizə etmək üçün yaramır. Buna görə də ÜDM göstəricisi ilə yanaşı aşağıdakı göstəriciləri də hesablamaq lazımdır.Belə göstəricilərdən ən mühümləri ÜMM-in əmək, fond və material tutumluğunu xarakterizə edən göstəricilərdir.

Əmək tutumu göstəricisi ümumi milli məhsulun tərkibində əmək haqqınan xüsusi çəkisini göstərir.Ayrı-ayrı məhsulların əmək tutumundan fərqli olaraq ümumi milli məhsulun əmək tutumu son onilliklərdə artmaqdadır.Dərc olunmuş materiallara görə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə bu göstəricinin xüsusi çəkisi çox sürətlə yüksəlir. Məsələn, ABŞ-da bu göstərici 1990-cı illərin axırında 80% olmuşdur. Müqayisə üçün göstərək ki, 1929-cu ildə ABŞ-ın ümumi milli məhsulunun tərkibində əmək haqqı 60%-dən də aşağı idi.

Qeyd edək ki, "Ümummilli məhsulun əmək tutumu" göstəricisi bir çox cəhətdən iqtisadiyyatın sosial yönümlüyünü göstərir(əslində burada söhbət istehsal texnologiyasında əməlyyatların əmək tutumunun yüksəldilməsindən yox, fəhlə və qulluqçuların əmək haqlarının artırılmasından gedir. Buna görə də göstəricinin adı "Ümummilli məhsulun əmək haqqı tutumu "olmalıdır.)

Materialtutumu ümummilli məhsulu əldə etmək üçün istifadə edilən bütün qəbildən olan material xərclərinin ümumilli məhsula görə nosbətini göstərir. Təhlil göstərir ki, bu göstəricinin səviyyəsi bütün inkişaf etmiş ölkələrdə aşağı düşür və material-enerji resurslarından daha səmərəli istifadə edilməsini səciyyələndirir. Bu göstəricini material-enerji xərclərinin digər ünsürlərinə görə də hesablamaq olar. Məsələn, enerji tutumu, yanacaq tutumu, metal tutumu və s.

Mühüm göstəricilərdən biri də ümummilli məhsulun elm tutumu göstəricisidir. Bu göstəricini faizlə hesablamaq üçün baxılan dövrdə elmin inkişafına ,prinsipcə yeni məhsulun layihələndirilməsinə, mənimsənilməsinə və istehsalına çəkilən xərclərin ÜMM –ün həcminə bölüb 100-ə vururlar.Son illərdə bu göstəricinin səviyyəsi ABŞ-da 2,7 , İngiltərədə -2,3 , Fransada -2,4 , Yaponiyada – 2,8, İtaliyada -1,4 faiz təşkil etmişdir.Mütləq planda bu faizlər böyük miqdarda vəsait təşkil edir. Məsələn, 1996-cı ildə ABŞ-ın elmi inkişafına çəkdiyi xərcin məbləği 185 milyard dollar təşkil etmişdir ki, bu da dünya uzrə həmin xərclərin 47%ni təşkil edir.

Növbəti keyfiyyət göstəricilərindən biri istehsalın fond tutumudur.Bu göstəricisi əsas kapitalın dəyərini ÜMM -ə bölməklə hesablanır. Dünya təsrübəsi göstərir ki, bu göstərici müxtəlif dövrlərdə müxtəlif səviyyədə olub. Onun səviyyəsinə ən çox təsir göstərən amil iqtisadi artımın tipidir. İqtisadi artımın **ekstensiv** tipi üstünlük təşkil etdiyi mərhələlərdə fondtutumu yüksəlr(səmərəlilik aşağı düşür), əksinə iqtisadi artım əsasən **intensiv** yolla baş verdikdə fondtutumu aşağı düşür (səmərəlilik isə yüksəlir). Bu göstərici sahəsində ABŞ keçən əsrin 20-ci illərinin ortalarından, Qərbi Avropa ilə Yaponiya isə 70-ci illərdə dönüş yarada bildilər və yüksək nəticə əldə etdilər.

Dünya iqtisadiyyatına qiymət verərkən fondtutumu göstəricisinin əksi olan fondverimi göstəricisindən də geniş istifadə edilir.

## §6.İqtisadi inkişaf modelləri

Hər bir ölkə öz iqtisadiyyatını inkişaf etdirmək istəsə də sonda müxtəilf nəticələr əldə edilir. Bazar iqtisadiyyatı yolu ilə gedən ölkələrin iqtisadi inkişafının amil və şərtlərinin dərindən öyrənilməsi göstərir ki, bu məsələnin həllində qəbul edilmiş **iqtisadi inkişaf modelləri** həlledici rol oynaya bilər. Mülkiyyətin müxtəlif formalarının fəaliyyət göstərdiyi bir şəraitdə də inkişaf modelləri müxtəlif olur.

Rusiya Federasiyasının İqtisad Elmləri və Sahibkarlıq fəaliyyəti akademiyasının akademiki V.M.Kudrovun yazdığı "Dünya iqtisadiyyatı" dərsliyində kapitalist iqtisadiyyatının beş tipik modeli verilir. Onun gəldiyi nəticəyə görə **birinci model** ABŞ-da istifadə edilən modeldir. Bu model özünütənzimləyən bazar mexanizimінə malik, dövlət mülkiyyətinin xüsusi çəkisi azlıq təşkil edən və məhsul istehsalı və xidmət göstərilməsi prosesinə dövlətin müdaxiləsi zəif olan iqtisadiyyata əsaslanan modeldir. Modelin əsas üstünlüklərinə dəyişilən bazar konyukturasına tez uyğunlaşa bilən nəhəng uyuşqan iqtisadi mexanizmin olması və kapitalın daha sərfəli şəkildə istifadə edilməsi sahəsində geniş imkanları ilə şərtləşən yüksək səviyyəli innovasiyaya istiqamətləndirilmiş sahibkarlıq aktivliyidir. Məhsuldar qüvvələrin yüksək səviyyədə inkişaf etdiyi, daxili və xarici bazarın həcminin böyük olduğu və əhalinin həyat səviyyəsinin yüksək olması şəraitində bu model daha da səmərəli olur.

**İkinci model** birinci dünya müharibəsindən sonra Almaniyada, İsveçdə və Fransada formalaşdırılıb. Bu model dünyada sosial yönümlü
bazar iqtisadiyyatı adı altında məşhurdur. Modeli xarakterizə edən əlamətlərə dövlətin milli bazar təsərrüfatına aktiv təsir göstərməsi, güclü sosial təminatlılıq, ÜMM-də dövlət mülkiyyətinin xüsusi çəkisinin çoxluğu daxildir. Bu modelin yüksək və səmərəli nəticə verməsi üçün əmək və və kapital arasında çox ciddi balans saxlanılmalıdır. Bu cür balans təmin edilmədikdə modelin səmərəsi azala bilər.Bundan başqa, ikinci modelin uyuşqanlığı nisbətən aşağıdır və iqtisadi konyukturaya zəif köklənir.

Bazar iqtisadiyyatının **üçüncü modeli** Yapon modeli adlanır. Onun əsas xüsusiyyətlərinə milli məqsədlərin əldə edilməsi xatirinə əməyin, kapitalın və dövlətin (həmkarların,sənayeçilərin, maliyyəçilərin və dövlətin)dəqiq və səmərəli qarşılıqlı əlaqəsi, istehsalda kollektivlik və patriotluq, insan amilinə güclü arxalanmaq daxildir. Bu model Cənubi-Şərqi Asiyada və Uzaq Şərqdə və xüsusilə də Asiyanın cavan "pələngləri" adlanan Hon-Konqun , Sinqapurun,Tayvanın, Cənubi Koreyanın iqtisadi inkişaf təcrübələrində geniş yayılmışdır.

**Dördüncü model** Latın Amerikasının modeli adlanır ki, bunun da əsas fərqləndirici xüsusiyyətlərinə dövlətin iqtisadiyyata güclü və heç də həmişə savadlı olmayan birbaşa müdaxiləsi, təsərrüfat əlaqələri də daxil olmaqla cəmiyyətin kriminallaşması və korrupsiya, istehsalın təbii resusrlara, ucuz işçi qüvvəsinə və qabaqcıl ölkələrin irəli sürdükləri tələblərin ilk növbədə yerinə yetirilməsini nəzərdə tutan istiqamətlərə yönəldilməsi daxildir.

Kapitalist iqtisadiyyatının **beşinci modeli –** Afrika modeli adlanır. Bu modelin əsasını mülkiyyətin müxtəlif formada olması və bazar münasibətləri təşkil edir. Bu modeli istifadə edən Afrika ölkələrində hər şeydən əvvəl savadsızlıq və hətta istər müəssisə və firmalar miqyasında və istərsə də bütövlükdə dövlət səviyyəsində təsərrüfat proseslərinin idarə edilməsi və tənzimlənməsində acizlik gözə dəyir. Hiss olunur ki, inkişaf etmiş kapitalist ölkələrinin köməyi olmasa onlar özlərinin müasir iqtisadiyyatını qurmaqda çətinlik çəkirlər.Afrika iqtisadi modelinin xarakterik cəhətlərinə ixtisassız əməyin israfçılıqla istismarı, "yuxarıları"n güc işlətmə üsulları ilə əməyə və istehsala birbaşa müdaxiləsi , əmək münasibətlərinin və demokratiyanın inkişaf etməməsi, həddinnən aşağı səmərəlik və s. daxildir.

## III FƏSİL. MÜASİR DÜNYA İQTİSADİYYATINI FORMALAŞDIRAN AMİL VƏ ŞƏRTLƏR

### §1. Ölkələrin sosial-iqtisadi quruluşu və müasir dünya iqtisadiyyatının formalaşmasında onun rolu

Müasir dünya iqtisadiyyatının indiki durumu müxtəlif amil və şərtlərin təsiri altında formalaşmışdır. Onların içərisində konkret bir dövlətin və dövlətlərqrupunun təsiri heç də az əhəmiyyət kəsb etməmişdir. Dövlətin hansı üsullarla idarə edilməsi, onun sosial-iqtisadi

vəziyyəti, demokratiyaya, insan amilinə, korrupsiyaya, istehsal-alət və vasitələrinə olan münasibəti və bu kimi cəmiyyətin bir dövlət daxilində idarə rdilməsilə baglı digər məsələlər dövlətin öz iqtisadiyyatına təsir göstərdiyi kimi dünya iqtisadiyyatına da güclü təsir göstərmişdir. Bu deyilənlərə parlaq misal keçmiş SSRİ dövləti ola bilər. 1917-ci i0ldə Rusiyada baş verən məlum inqilab ölkənin sosial-iqtisadi simasını dəyişdi, onu dünya iqtisadiyyatından demək olar ki, təcrid etdi. Bütövlükdə bu dünya iqtisadiyyatına mənfi təsir göstərdi. 70 ildən də çox bir dövrdə əsasən subyektiv mühakimələr əsasında yaradılmış və subyektiv əsasda şəxsiyyətə pərəstiş mövqeyindən idarə olunan SSRİ adlanan bir nəhəng dövlət özünütəcrid mövqeyində dayanmaqla dünya iqtisadiyyatına hərtərəfli neqativ təsir göstərirdi. Bu təsir ilk növbədə beynəlxalq iqtisadi əlaqələrin inkişafını, beynəlxalq əmək bölgüsünün sürətləndirilməsini, istehsalın beynəlmiləlləşdirilməsini, istehsalın səmərəliliyinin yüksəldilməsini, insan amilindən düzgün və səmərəli istifadə edilməsi prosesini və hətta qlobal problemlərin həllini ləngidirdi. Obyektiv özül üzərində formalaşmamış SSRİ 1992-ci ildə dagıldı. Lakin bu gün də Rusiyanın və MDB adlanan quruma daxil olan ölkələrin iqtisadi, sosial, mənəvi, psixoloji, siyasi, milli durumları dünya iqtisadiyyatının sürətləndirilməsinə kömək göstərməkdən uzaqdırlar. Bunu da əsas səbəblərindən biri Rusiyanın və digər MDB ölkələrinin uzun müddət obyektiv iqtisadi qanunlara biganə münasibət bəsləyən SSRİ məkanında fəaliyyət göstərmələri və bu ölkələrdə köhnəyə əsaslanan psixoloji baryerin güclü olmasıdır.

Bəs konkret olaraq SSRİ adlanan nəhəng bir dövlətin dünya iqtisadiyyatina mənfi təsiri hansi kanallarla, hansi mexanizmlə baş verirdi. Bu mexanizmin dərk edilməsinin gənc oxucu üçün böyük əhəmiyyət kəsb etməsini nəzərə alaraq onun bir neçə rıçaqlarını qısaca şərh edək.

Keçmiş SSRİ-nin dünya iqtisadiyyatına təsiri ilk növbədə ölkənin idarə edilməsində və iqtisadi inkişafında özünəməxsus xüsusiyyətin olması idi. Başlıca xüsusiyyətin mahiyyəti onda idi ki, iqtisadi artım ölkənin sosial-iqtisadi inkişafı tələb və təklifin nisbətlərini təyin edə bilən obyektiv qanunlarla bazar kriteriyaları ilə yox, rəsmi şəkildə hazırlanmış, yuxarılarda tərtib edilmiş tapşırıqlara, direktiv göstərişlərə uygun təyin edilirdi. Lakin bu üsul özü-özlüyündə o qədər də mənfi,

yararsız üsul deyildi. Beşillik, üçillik müddətlərə proqnozlaşdırmalar hazırda da bir sıra ölkələrdə (məs: Yaponiyada) tətbiq edilir və yaxşı nəticələr verir. SSRİ-də istifadə olunan direktiv planlaşdırmanın mənfi təsir buraxmağının əsl səbəbi isə onda idi ki, göstəricilər bir çox cəhətdən siyasi və ideoloji baxışları, tərtib edilən planlar və xalqın yox, monopol yolla idarə edən bir qrup şəxsin maddi və mənəvi maraqlarını nəzərə almaqla işlənib hazırlanırdı. Şəxsiyyətə pərəstiş, ölkədə ancaq bir şəxsə (baş katibə) baş eymək və onu hər şeyin bilicisi kimi qələmə vermək vərdişi bunun üçün gözəl şərait yaradırdı. Partiyanın lap yuxarı eşalonlarında qəbul edilən üsuli-idarə iyerarxiya üzrə bütün ölkə ərazisində tətbiq edilirdi ki, bu da iqtisadi inkişafda obyektiv yanaşmalar üçün demək olar ki, yer saxlamırdı.

Əyanilik üçün qeyd edək ki, SSRİ-nin iqtisadi inkişafında dörd mərhələ ayırmaq olar və onların dünya iqtisadiyyatına nə verə biləcəyi aydınlaşar.

Rusiya inqilabının ilk 10 ilə yaxın bir dövründə iqtisadiyyatda baş verənləri belə ifadə etmək olar: ilk illərdə iqtisadiyyata nə varidisə ya tam dağıdıldı, ya da güclü zərbələrə məruz qaldı. Bu dövrün axırlarına yaxın (1928-ci ilə qədər) subyektiv amillər altında Sov İKP ancaq inqilabaqədərki iqtisadiyyatı, struktur dəyişiklikləri aparmadan bərpa edə bildi. Deməli, iqtisadi in kişafda 10 il itirildi. Yəni bu 10 ildə həm Rusiyanın və həm də dünyanın iqtisadiyyatı heç bir şey əldə etmədi.

İkinci pillədə SSRİ iqtisadiyyatı olduqca yüksək sürətlə inkişaf etdi və bu dövr, İkinci Dünya müharibəsinin mənfi təsirinə baxmayaraq 25 ilə yaxın bir dövrü (1929-1953) əhatə edirdi. Yüksək iqtisadi inkişafa baxmayaraq məhs bu illərdə ölkə iqtisadiyyatını gələcəkdə dağıda bilən amilin fundamenti formalaşırdı. Bu ondan ibarət idi ki, baxılan dövrdə normal bazar iqtisadiyyatından qeyri-bazar iqtisadiyyatına keçid prosesi demək olar ki, tam başa çatdı. O, dövrdə çox işlədilən terminlərlə desək, geniş miqyaslı yenidən qurmalar xalq təsərrüfatının aparıcı sahələrində həyata keçirilirdi. Bunun nəticəsində ölkədə sənayeləşmə, mülkiyyətdə dövlətləşdirmə, kənd təsərrüfatında kollektivləşmə və dövlətləşmə, iqtisadiyyatda millitarizasiyalaşma sürətlə bütün ölkəni bürüyürdü. Nəticədə eybəcər bir struktura malik iqtisadiyyat formalaşdı və əslində iqtisadiyyat iqtisadiyyat üçün, istehsal istehsal üçün meyli güclü təsirə malik bir prosesə çevrildi. “Ağır sənayenin üstün inkişaf etdirilməsi” sənayenin “A” və “B”

qrupları arasında obyektib nisbətləri darma-dağın etdi və nəticədə paradoks bir vəziyyət yarandı: bir tərəfdən xüsusi çəkiyə görə 72-805 malik nisbətən inkiçaf etmiş ağır sənaye, digər tərəfdən 20-25% malik olan yeyinti və yüngül sənaye dururdu. Kənd təsərrüfatı çox geri qalırdı. Bu dövrdə dünyanın bir sıra ölkələrində kənd təsərrüfatında bir neçə dəfə yüksək məhsuldarlıq əldə edildiyi halda, SSRİ kənd təsərrüfatında əmək məhsuldarlığı beş on dəfə geri qalırdı.

Beləliklə də, 1929-1953-cü illərdə SSRİ-nin əldə etdiyi "müvəffəqiyyətlərin" nəticəsində qeyri-bazar iqtisadiyyatının klassik modeli formalaşdırılmış oldu ki, onun da əsas əlaməti dünya iqtisadiyyatından təcridlilik idi.

1954-1978-ci illəri əhatə edən dövr Sovet iqtisadiyyatında geriləmə dövrü idi. İkinci pillədə formalaşmış qeyri-bazar iqtisadi modeli bunun üçün gözəl şərait yaratmışdı və totalitarizm, bir şəxsi ideallaşdırmaq, bürokratik idarə etmə, obyektiv qanunlarla hesablaşmamaq, mərkəzləşdirilmiş planlaşdırma demək olar ki, öz gücünü , imkanlarını itirmişdi.

1980-1990-cı illər keçmiş SSRİ-nin iqtisadiyyatında xüsusi yer tutur. Məhz bu illərdə iqtisadçıların əksəriyyəti və bir sıra partiya və dövlət funksionerləri başa düşməyə başladılar ki, 1980-ci ilə qədər formalaşdırılmış iqtisadiyyta və ona uyğun təsərrufat mexanizmi ölkənin sosial-iqtisadi problemlərini həll etməyə qadir deyil. Bu illərdə iqtisadi inkişafın sürəti çox aşağı idi sonra bu aşağı sürət də dayandı, iqtisadiyyatda durğunluq dövrü başladı, iqtisadiyyatı böhran bürüdü. Belə vəziyyət, əlbətdəki, dünya iqtisadiyyatına müsbət təsir göstərməyə qadir deyil.

MDB-yə daxil olan ölkələr öz iqtisadiyyatlarını bazar qanunlarına görə formalşadırmağa başlamışlar. Bu müsbət hal yaxın illərdə öz bəhrəsini verə bilər və dünya iqtisadiyyatının daha sürətlə inkişaf etməsi üçün müəyyən şərait yaratmış olar.

Qısaca olaraq keçmiş SSRİ deyilən nəhəng bir inperiyanın timsalında biz göstərməyə çalışdıq ki, hər bir ayrıca götürülmüş ölkədə baş verən sosial-iqtisadi dəyişikliklər bilavasitə dünya iqtisadiyyatına təsir göstərir.

Dünya iqtisadiyyatı sisteminin əsasını maddi və mənəvi neymətlərinin beynəlxalq və dövlətlərin sərhədləri hüdüdunda məhdudlaşan milli istehsalın bölüşdürülməsi, mübadiləsi və istehlakı

təşkil edir. FDövlətlərin iqtisadiyyatında, sosial-iqtisadi quruluşunda, hərbi müdafiə sistemində baş verən hər hansı dəyişikliklərin dünya iqtisadiyyatına təsiri də bunula izah olunmalıdır. Lakin bu cür quruluş dəyişkən, müvəqqəti xarakterdə ola bilər, ona görə ki, daha gclü və həyata uyğun yarım sistemlər digər yarım sistemləri dəyişdirə və yaxudda öz məqsədinə tabe etdirə bilər. Əks halda sistem dağıla bilər. Dünya iqtisadiyyatının bir sistem kimi vahid, tam, son məqsədi var. Bu-yer kürəsində yaşayan insanların tələbətlarının ödənilməsidir. Lakin müxtəlif yarım sistemlərdə bu modifikasiyalaşa bilər və həqiqətdə də belə olur. Ona görə ki, ayrı-ayrı dövlətlərdə müxtəlif sosial iqtisadi şəraitlər formalaşır.

## §2. Elmi-texniki tərəqqi və onun nailiyyətlərinin geniş miqyasda istehsalat tətbiqi.

Dünya iqtisadiyyatının inkişafına və səmərəliliyinin yüksəldilməsinə təsir göstərən proseslər, hadisələr olduqca çoxdur. İqtisadi araşdırmalarda onların hamısını nəzərə almaq lazımdır. Lakin bundan öncə dünya iqtisadiyyatına təsir göstərən proses və hadisələrin özlərinə elmi yanaşma tələb olunur. Ümumi şəkildə hər bir inkişaf edən və idarə oluna bilən obyekt kimi dünya iqtisadiyyatına təsir göstərən proses və hadisləridə 2 qrupa bölmək lazımdır: amillər və şərtlər qruplarına.

Amil və şərtlər bir-birləri ilə sıx və qarşılıqlı əlaqədə olsalarda amil birincidir. Dünya iqtisadiyyatının təkamül tapıb inkişaf etməsində amil rolunu həmişə elmi-texniki tərəqqi (ETT) oynamışdır. Elm və texnika inkişa və tərəqqi etdikcə dünya iqtisadiyyatıda inkişaf etmişdir. Ümumi halda isə dünya iqtisadiyyatı ilə ETT arasında da qarşılıqlı əlaqə mövcuddur.

ETT yüksək məhsuldarlıqlı və səmərəli texnikaların və texnologiyaların meydana gəlməsinə səbəb olur. Belə texnikanın tam səmərə verməsi üçün o istehsala geniş miqyasda tətbiq olunmalıdır. Çox vaxt yüksək məhsuldarlığa malik texnika və texnologiyalar milli dövlət daxilində tələbatları ödəməklə yanaşı dünya miqyasında tələbatların ödənilməsinə də imkan verir.

Elmin və texnikanın tərəqqisi bir qayda olaraq, dünya miqyasında istehsalın tərəqqisinə səbə olur. Bu isə o deməkdir ki, yeni texnika və texnologiya hər tərəfli geniş dairədə, bütün planetdə yayılır. Yeni

texnika və texnologiya  geniş ( qlobal) miqyada yayıldıqda onların səmərəli istifadə edilməsi məsələsi beynəxlalq əlaqələrin, ölkələr arasında iqtisadi münasibətlərin inkişafından aslı olur.

Müasir dövrün xarakterik cəhəti elmi və texniki inqilabların intensivliyinin artmasıdır. Elmi özünü tam mənada məhsuldar qüvvə kimi göstərir və dünya iqtisadiyyatına və onun yarım sistemlərinə güclü müsbət təsir göstərir. elm məhsuldar qüvvədir. Bu öz əksini  əmək cisimlərinin və əmək alətlərinin yeni növlərinin yaradılması, fəaliyyətdə olanlarının təkmilləşdirilməsində və istehsalın texnologiyasına  aktiv təsir etməsində tapır.

Elmi-texniki tərəqqinin  yer kürrəsi  miqyasında yayılması nəzəri baxımdan və həmdə praktiki cəhətdən ümumi xarakter daşıyır və bu yaılma hazır məhsulların xarici ölkələrə satılması, patentlərin  və lisenziyaların alınması və bir-başa kapital qoyuluşlarının həyata keçirilməsi yolu ilə baş verir.

Bu günə qədər dünya miqyasında toplanmış təcrübənin öyrənilməsi  göstərir ki, məhz texnologiya və elm tutumlu texnikanın mübadilə edilməsi yolu ilə yarımsistemlər miqyasında istehsalların texniki silahlanmasını və səmərəliliyinin yüksəldilməsini təmin etmək mümkündür.  Bundan başqa, konkret götürülmüş bir ölkənin ixrac imkanlarının artırılmasında və idxalın həcminin azaldılmasında, ixtisaslaşma və kooperasiyalaşma nəticəsində müxtəlif və rəqabət dözümlü məhsullar istehsal edib reallaşdırmaq yolu ilə ölkələr arasında texniki-iqtisadi  əlaqələrin genişləndirilməsi də bilavasitə ETT-nin sürətləndirilməsindən asılı olur. İndiki dövrdə texnologiya dünya bazarında xüsusi əmtəədir.Bu da xarici iqtisadi əlaqələrin intensivləşməsinə, dünya iqtisadiyyatının isə genişlənməsinə səbəb olur.

Müasir dövrdə elmi-texniki tərəqqinin inqilabi fazası daha  sürətlə inkişaf edir və buna görə də “elmi-texniki tərəqqi” ilə yanaşı “elmi-texniki inqilab” terminlərindən geniş istifadə edilir. Lakin burada söhbət heç də terminlərdən getmir. Bu prosesi elmin sənayeləşməsi adlandırırlar. Bunlardan başqa, müasir ETT-nin kollektivlik xüsusiyyəti meydana çıxmışdır. Bu cəhətin mahiyyəti ondadır ki, elmin inkişafı hazırda, ancaq  elmin müxtəlif sahələri ilə məşğul olan kollektivlər tərəfindən inkişaf etdirilə bilər. Bir ölkə daxilində  bu məsələlərin tekbaşına  həll edilməsi çox vaxt qeyri-mümkün və səmərəsiz olduğuna görə dövlətlərarası elmi əlaqələrin artması zəruriliyi ortaya çıxır.

Elmi-texniki tərəqqinin bir xüsusi və çox əhəmiyyətli cəhəti də dünya iqtisadiyyatının formalaşıb inkişaf etməsinə müsbət təsir göstərməsidir. Bu da ondan ibarətdir ki, ETİ-ilə zəngin olan müasir ETT hər hansı bir məhsulun həcmini istənilən qədər artırmağa imkan verir. Buna görə də xarici iqtisadi əlaqələrdə, mübadilə çox işlənən mallarla yanaşı, texnologiya , idarəetmə, bilik, təcrübə, elmi-texniki informasiya və yaxud da "cisimlənmiş" bilik (təcrübə, elm) olan müasir tipli maşın və avadanlıqlar, yüksək xüsusi, çəkiyə malik olurlar.Nəticədə dünya iqtisadiyyatı da inkişaf edir.

Müasir elmi-texniki inqilabın müasir xüsusiyyətlərindən biri də elmi-texniki fəaliyyətin nəticələrindən istifadənin beynəlmiləşməsidir. Elmi-texniki nailiyyətlərdən istifadənin beynəlmiləşməsi ixtiraların, səmərələşdirci təkliflərin, "Nouhau"ların istehsala tətbiqini sürətləndirməyə, beynəlxalq münasibətləri genişləndirməyə və dünya iqtisadiyyatının intensiv yolla yüksəlməsinə imkan verir.

Yeniliklərin istehsal tətbiqinə tələb olunan vaxt müxtəlif ölkələrdə müxtəlifdir. Məsələn Yaponiyada bunun orta müddəti, 2- 3,5 il, ABŞ-da 5-7 il, Almaniyada 8-10 il təşkil edir.Qeyd edək ki, elmi-texniki təcrübə sahəsində mübadilə bir sıra formalarda həyata keçirilir.

Yüksək texnologiyanın ixracı baxımından ABŞ dünyada liderdir. Dünya miqyasında satılan liseniyalarda ABŞ-ın payı 70% təşkil edir. Lisenziyanı idxal edən ölkələr də yüksək səmərə əldə edirlər. Məsələn, Yaponiya keçən əsrin 50-ci illərində texniki səviyyəyə görə ABŞ-dan 20-30 il geri qalırdı.Hazırda Yaponiya bu geriliyi aradan qaldıran bilmişdir və hətta bir sıra sahələrdə dünyada liderliyi əlində saxlayır. Geriliyi qısa bir müddətdə aradan qaldıran Yaponiya lisenziya almaqda davam edir.

Beləliklə, elmi-texniki tərəqqinin ayrı-ayrı ölkələrdə sürətlə inkişaf etməsi, elmi-texniki nailiyyətlərin qlobal masştabda istehsala tətbiqi və bunlarla əlaqədar və paralel olaraq lisenziya-parent mübadiləsinin hər sahədə və hər cür yenilikləri özündə cəmləşdirən "Nou-hau"ların intensivləşməsi, bütün bunlarla əlaqədar olan digər bir prosesin-əmtəə, xidmət və maliyyə dövriyyəsinin sürətlənməsi yeni beynəlxalq əmək bölgüsünün formalaşmasına səbəb olmuşdur, bu da öz növbəsində dünya iqtisadiyyatının sürətlə inkişafı üçün şərait yaratmışdır.

## §3. Təsərrüfat əlaqələrinin intesivləşməsi və istehsalın beynəlmiləlləşməsi

Dünya iqtisadiyyatı çoxukladlı və keçid strukturuna malikdir. Onun ayrı-ayrı yarımsistemlərində məhsuldar qüvvələr və istehsal münasibətləri müxtəlif şəkildə olur. Bunun nəticəsində dünyada bütün cəhətləri özündə cəmləşdirən təkrar istehsalın vahid qanunlar sistemi olmur.

Bunula yanaşı dünya təsərrüfatının inkişaf qanunauyğunluqları və meylləri elmi-texniki tərəqqi və beynəlxalq əmək bölgüsünün təsiri altında dünya təsərrüfat strukturundakı dəyişmələr nöqtəyi-nəzərincə baxılmalıdır. Bu proseslərdəki pillələr isə dünya iqtisadiyytının inkişaf pillələrini göstərir. Bu proseslərin obyektiv əsasını beynəlxalq əmək bölgüsünün gedişi zamanı özünü göstərən istehsalın və ümümiyyələ, millətlərin təsərrüfat fəaliyyətinin beynəlmilləşməsi təşkil edir.

İndiki dövrdə, XXİ əsrin başlanğıcında ayrıca götürülmüş, heç bir, hətta çox inkiaşf etmiş böyük ölkə belə, tam açıq və yaxud da tam bağlı sistem şəkildə inkişaf edə bilmir. Yəni o, öz iqtisadiyyatını tamamilə daxili bazara və əksinə, tamamilə xarici bazara iqstiqatləndirə bilmir. Buna görə də inkişafın sərfəli strategiyası ancaq daxili və xarici amillərin, təsərrüfatdaxili və beynəlxalq əmək bölgüsünün uyğunlaşdırlmasəna əsasən seçilə bilər. Lakin uyğunlaşdırma bir prinsip kimi rədd edilə bilməz, əks halda təsərrüfatdaxili və beynəxlalq əmək bölgüsünün üstünlüklərindən bacarıqla istifadə edilmədiyinə görə iqtisadi inkişaf və səmərəlilik aşağı düşə bilər.

Baxmayaraq ki, ölkələrdə istehsal edilən məhsulun əksinər hissəsi daxili bazarlarda reallaşdırılır, məhsulların beynəlxalq miqyasda mübadiləsi prosesi getdikcə güclənir. Bu təsadüfi hal deyil, obyektiv prosesdir və hazırkı dövrdə məhsulda qüvvələrin inkişafının daxili qanunauyğunluqların əks etdiri. Bu inkişafın başlıca meyli beynəlxalq əmək bölgüsünün dərinləşməsdir ki, onun gedişində də ölkə məhsuldar qüvvələri daha çox dünya məhsulda qüvvələri formasında fəaliyyət göstərməyə başlayırlar.

Son onilliklərdə biliyin gücü ilə yaradılan və əmək məhsuldarlığının çoxqat yüksəldiləməsinə qadir olan texnoloji inqilablar təsərrüfatların beynəlmiləlləşməsi prosesinə güclü təkan verdi. Qabaqcıl və məhsuldar texnologiyalar istənilən məhsulu istənilən

miqdarda və keyfiyyətdə istehsal etməyə imkan yaradır.Bunun nəticəsində həcmin artması əlavə iqtisadi səmərə verir.

Dünya miqyasında təsərrüfat fəaliyyətinin beynəlmiləlləşməsinə güclü təsir göstərən digər amillər sırasına ilk növbədə istehsalların ümumilləşməsi prosesi və qlobal problemlərin kəskinləşməsi daxildir.

İqtisadiyyatın beynəlmiləlləşməsi prosesi yavaş da olsa həmişə baş vermişdir. Müasir dövrdə baş verən beynəlmiləlləşmənin əsas və fərqləndirici xüsusiyyətləri vardır. Məsələ burasındadır ki, dünya təsərrüfatı inkişafının hazırkı mərhələsində çox böyük əhəmiyyət veriləsi proselər gedir. Son nəticədə onlar beynəlxalq əmək bölgüsünün və dünya əmtəə-mal mübadilələrinin parametlərinə güclü təsir göstərir. dünya iqtisadiyyatında gedən beynəlmiləlləşmə prosesi baxımından çox əhəmiyyətli xüsusiyyətlərə, birincisi beynəlxalq əmək bölgüsünün bu vaxta qədər görülməmiş dərəcədə dərinləşməsi, əhatəli olması, beynəlxalq mübadilənin yüksəlməsi sürətinin istehsalı artım sürətindən çox olması daxıldır. İkincisi, dünya mübadiləsi strukturunda dəyişikliklərin baş verməsidir. Üçüncüsü, təkrar istehsal prosesində xarici iqtisadi əlaqələrin rolunun artması və onların ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi amilinə çevrilməsidir.

Bu xüsusiyyətlər və müasir elmi-texniki inqilabın yaratdığı şərait XXİ əsrin ilk illərində istehsalın və mumiyyətlə, milli təsərrüfatların beynəlmiləllik dərəcəsini prinsipcə yeni səviyyəyə qaldırmışdır. Keyfiyyətcə yeni olan bu səviyyəsi fərqləndirən cəhətlər bunlardır.Keyfiyyətcə yeni olan bu səviyyəsi fərqləndirən cəhətlər bunlardır: 1. İstehsalın ümumiləşməsində xüsusi kapitala söykənən transmilli korporasiyların rolu artmışdır. Keçən ərin 60-70-ci illərinə qədər beynəlmiləlləşmə prosesində əsas rolu dövlət-manapoliyasında oln firmalar həyata keçirirdisə, indi bu rposesdə aparıcı rolu TMK-lar oynayırlar. 2. Beynəlxalq əmək bölgüsünün formalarında böyük dəyişikliklər baş verir. Fərdi əmək bölgüsü isə əvvəlcə müəssisə və firmaların çərçivəsindən çıxaraq emal sənayesində, hasilat sənayesində, kənd təsərrüfatında və nəhayət, xidmət sferasında əmək bölgüsünün əss formasına çevrilmişdir. 3. TMK-nın çoxsaylı və elmi-texniki komplekslərində elmi-texniki məhsul üzrə kooperasiya əlaqələri xeyli güclənmiş və ümumiyyətlə, xarici iqtisadi əlaqələrin tam sistemində elmi-texniki komponentlərin xüsusi çəkisi artmışdır. Bu, ilk növbədə xüsusi kapitalın daha çox qeyri-istehsal sahələrinə yönəldilməsi və

xarici əməliyyatlardan əldə olunan gəlirlərin həcmində texnologiyanın ötürülməsi, idarəetmə, mühəndis-məsləhət və idarəetmə xarakterli qeyri-kapital formalı fəaliyyətdən əldə edilən gəlirin xüsusi çəkisinin durmadan yüksəldilməsində öz əksini tapır. 4. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi prosesinə getdikcə daha çox və daha sürətlə yeni ölkələri və hətt inkişafda olan ölkələr cəlb olunur. Əlamətdar hal budur ki, bu ölkələr təkcə beynəlxalq əmək bölgüsündə inkişaf etmiş ölkələrin istehsal etdikləri hazır məhsulun istehlakçısı və xammal ixrac edən ölkə kimi yox, həm də hazır, keyfiyyətli sənaye məhsulu və yüksək ixtisaslı mütəxəssislər ixrac edən ölkələr rolunda çıxış etməyə başlamışlar.

Beləliklə də beynəlmilləşmənin müasir xüsusiyyəti ümumi şəkildə belə ifadə oluna bilər: millətlərin qarşılıqlı iqtisadi asıllığı prosesi güclənir. İnkişaf etmiş ölkələr istər-istəməz bu prosesin baş verməsi üçün uzun müddətə də olsa, müəyyən zəruri hazərlayırlar.

Lakin, ümumiyyətlə götürdükdə, beynəlxalq əmək bölgüsünün və ölkələrin iqtisadi fəaliyyətlərinin beynəlmilləşməsinin ikinci və üçüncü dövlətlər qrupları hesabına dərinləşməsi hər şeydən əvvəl bu ölkələrin özlərindən daha çox asılıdır. Biliyə, bilikli adamlara daha çox fikir verməyə başlayan, korrupsiya ilə mübarizəni gücləndirməyə marağı olan, öz millətinin inkişafını öz şəxsi maraqlarından üstün tutmağı bacaran dövlət orqanları inkişaf etmiş ölkələrdə iqtisadiyyatda struktur dəyişikliklərini sürətləndirməyə, sosial yönümlü inkişaf modellərinə üstünlük verməyə başlamışlar.korrupsiya yolu ilə ölkə iqtisadiyyatının inkişafına nail olmağın qeyri-mümkünlüyü getdikcə hamıya aydın başlayır və bu həqiqətin dərk edilməsi prosesi intensuivləşdikcə milli fəaliyyətlərin beynəlmilləşmə prosesi də güclənir.

Beynəlmilləşmə prosesinin güclənməsinə birgə müəssisələr və ən başılıca isə transmilli korporasiyalar güclü təsir göstərir, prosesin özünü isə dönməz edirlər. Beynəlxalq ticarətin əhəmiyyətinin artması, transmilli korporasiyaların fəaliyyətinin güclənməsi, investisya axını divensifikasiyasının intesivləşməsi milli iqtisadiyyatların qarşılıqlı əlaqələrini sıxlaşdırır. Lakin onların hamısı bir-biri ilə əyani görünən və ilk baxışdan görünməyən incə tellərlə bağlı olurlar.

XXİ əsrin ilk illərində dünya iqtisadiyyatın qlobal, inteqrasiyanın və beynəlmilləşmənin yeni xassələrə malik olan, dərk edilməsi yüksək

bilik tələb edən yeni bir mərhələyə daxil olmuşdur. Normal fəaliyyət daxilində milli iqtisadiyyatlar arasında qarşılıqlı asılılıqların yeni keyfiyyələri ilk baxışda "görünmür". Lakin hər hansı bir ölkədə, regiona baş verən normadan kənarlaşmalar bütün dünya iqtisadiyyatına təsir göstərir və bütün ölkələr onun təsirini hiss edirlər.

Qloballaşmış beynəlmilləşmənin bir mühüm xüsusiyyəti ilə dövlətlərin bu dövlətlər, dövlət monopoliyası beynəlxalq iqtisadi əlaqələrdə fəal rol oynamışdır. Bu gün isə beynəlmiləlliyi inkişaf etdirən aparıcı qüvvə bütün dünyanı bürümüş TMK-dır. Bu cəhətdən dünya istehsalının beynəlmilləşməsini daha da sürətləndirir və intensivləşdirir.

## §4. Qlobal beynəlmilləşmə və iqtisadi inkişaf

Millətlərin iqtisadi həyatının beynəlmilləşməsi obyektiv bir prosesdir və son nəticədə yüksək iqtisadi səmərə verməsi üzündən dünya iqtisadiyyatının inkişafı üçün şərait yaratmaqla, milli iqtisadiyyatların da mühüm amilinə çevrilir. Doğrudur, XXİ əsrin əvvəli olsa da millətlərarası iqtisadi anlaşmazlıqlar və müxtəlif xarakterli narazlıqlar və əks təsirlər qalmaqdadır və ola bilsin ki, bu cür qarşıdurmalar uzun illər davam edəcək. Lakin hazırkı qarşılıqlı asılılığın səviyyəsi o dərəcədə çatmışdır ki, heç bir ölkə öz iqtisadi maraqlarını dünya iqtisadiyyatına qarşı qoymaq gücündə deyillər. Bu yolla getmək fikrinə düşən hər bir ölkənin böyük iqtisadi itki gözləyir. Bu çox mühüm məsələdir. Məhz bu cəhət iqtisadi səmərənin əldə edilməsi və dünya iqtisadiyyatının optimal idarə olunması və inkişaf etdirilməsi üçün lazımi şərait yaradır.

Beləliklə də beynəlmilləşmə və onun qloballaşması dünyada iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrilmişdir. Bu prosesin iqtisadiyyata təsiri təkcə iqtisadi qollarla baş vermir. Beynəlmiləlləşmə qlobal xarakter aldıqca o siyasətə təsir edən güclü milə çevrilir. Dünya iqtisadiyyatı o dərəcədə qarşılıqlı əlaqədar və asılılıqlardan ibarət olur ki, dövlətlərin heç biri sonda iqtisadi tarazlığın siyasət baxımından pozulmasına maraq göstərmirlər. Bu cür yanaşmanın əsasını isə son onilliklərdə iqtisadi, siyasi və hərbi proseslərin tam bir vahid kimi fəaliyyət göstərməsi meylini ortaya çıxmasıdır. Məhz buna görə də inkişaf etmiş ölkələr qloballaşmadan və beynəlmiləlləşmədən daha çox faydalana bilirlər.

Beynəlmiləlləşmə və bu prosesin genişlənməsi istər birbaşa və istərsə də müxtəlif istiqamətlərdə iqtisadi və sosial səmərə verir. Xarici kapital, yeni texnologiya, inteqrallaşma imkanları və iqtisadi inkişaf təmin etmək xatirinə dünya bazarına çıxış səmərəni yaradan amillər rolunu oynayır. Digər bir cəhəti ilə qeyd etmək lazımdır. Bu qlobal beynəlmiləlləşmə prosesində bütün ölkələr üçün müəyyən və bərabər olan qanunlar paketinin hazırlanıb həyata keçirilməsidir. Məhz bu qanun və qaydalar toplusu imkan verir ki, qabaqlar ancaq TMK üçün mümkün ola bilən xarici əməliyyatlar, eyni zamanda milli ölkələrin kompaniyaları tərəfindən də həyata keçirilə bilsin.

# IV FƏSİL. YARADICILIQ, TƏŞƏBBÜSKARLIQ VƏ DÜNYANIN İQTİSADİ İNKİŞAFI

## § 1.Dünya iqtisadiyyatının inkişafında biliyin rolu

### 1.1.Bilik və iqtisadiyyat

Dünya təsərrüfatı yarımsistemlərinin iqtisadi fəaliyyətinin öyrənilməsi göstərir ki, son onilliklərdə biliyə, insanın hərtərəfli inkişafına diqqət artmışdır.Xüsusən də inkişaf etmiş ölkələrdə bu məsələ daha qabarıq şəkildə həll olunmaqdadır. Əldə edilən nəticələr heyrətamizdir. Bu gün ABŞ kimi nəhəng bir dövlətin ÜDM –nın 20%-dən çoxu elmtutumlu məhsullar hesab edilən informasiya, onun texnoligiyası, komputer , elektronika kimi məhsulların payına düşür. ABŞ, Yaponiya, Almaniya və s. bu kimi inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, insanın inkişafına,beyinlərin məhsulunun istifadəsinə yönəldilən kapital xərclərinin səmərəsi digər ənənəvi istiqamətlərə yönəldilən kapitalın səmərəliliyindən qat-qat yüksək olur. Bu gün dünya iqtisadiyyatının liderlərindən biri olan Yaponiya kimi bir dövlətin əldə etdiyi müvəfəqiyyətllər əslində biliyə, insan zəkasına verilən düzgün qiymətin nəticəsidir.

Bilik ən sərfəli və ən çox səmərə verən resursdur.İkinci dünya müharibəsində min cür mənfi təsirlərə məruz qalan, torpağlnda nüvə silahı partladılan, 1945-1953-cü ilə qədər kənar qüvvələr tərəfindən idarə olunan Yaponiya sərbəstlik əldə etdikdən sonra iqtisadiyyatın

inkişafını biliyə, insan amilinə bağladı və hamıya məlum dünya miqyaslı inkişafa nail oldu. Bu misal dir daha göstərir ki, insan resurslarından dünya miqyasında səmərəli istifadə edilsəidi bir çox qlobal problemlər ya heç olmazdı, ya da heç olmazsa hazırki bəşər sivilizasiyasının məhv edə bilən səviyyəsinə çatmazdı.

Müsbət hal kimi, onu qeyd etmək olar ki, dünya təşkilatları bilik amilinə diqqəti artırmışlar. Ümumdünya Bankının 1988/1999-cu illərdə dünyanın inkişafı haqqında hesabat sənədlərində bu məsələyə xüsusi fikir verilmişdir. Dünya Bankının dünya inkişafı haqqında Hesabatının 21-ci buraxılışında iqtisadi və ictimai rifahın yaxşılaşmasında biliyin həlledici roluna xüsusi yer ayrılmış və buraxılışın özünə isə “Bilik inkişafın xidmətində” adı verilmişdir. Hesabatın müəllifləri göstərirlər ki, iqtisadiyyatın inkişafı təkcə fiziki kapital yığımı və professional bacarıqla təyin edilmir , o həm də informasiyanın dəqiq və vaxtında əldə edilməsindən, işlənilməsindən,ötürülməsindən, yeniliklərin öyrənilməsindən biliklərin mənimsənilməsindən asılıdır. Bilik həlledici əhəmiyyətə malikdir və buna görə də dünya miqyasında insanların və xüsusən də ən kasıb təbəqələrin həyat səviyyəsinin yüksəldilməsi üçün biliyin yığılması, istifadəsi və ona mane olan amillər mexanizminin ayrı-ayrı adamlar(xüsusən də rəhbər kadrlar) və cəmiyyət tərəfindən dərk edilməsi çox zəruridir.

Bu gün informasiya inqilabi şəraitində bilik və inkişaf arasında olan qarşılıqlı əlaqələri dərindən anlamaq və real həyatda onları nəzərə almaq və istifadə etmək xüsusi aktuallıq kəsb edir. Yeni informasiya texnologiyalarının meydana gəlməsi, komputer texnikasının qiymətlərinin aşağı düşməsi fəza və vaxt arasında olan sərhədləri pozur, müddət isə qısaldır. Hətta kiçik bir kənd “böyük” məlumatları çox qısa bir müddətdə və çox az xərclə əldə edə bilmək imkanına malik olur. “Məsafədən” öyrənməyin inkişafı isə milyon-milyon insanlar üçün təhsil almaq imkanı yaradıb.Bunlar hamısı yaxşıdır. Yaxşıdır, əgər həqiqətən də konkret götürülmüş bir dövlətdə biliyə və bilikli insanlara inkişafın başlıca amili kimi münasibət bəslənilir.Əks halda informasiya inqilabının yaratdığı yeni imkanlar istənilən səmərəni verə bilməz və hətta ölkə iqtisadiyyatının inkişafına mənfi təsir göstərər bilər.Məsələ burasındadır ki, ticarətin, maliyyənin, informasiyanın qloballaşdığı bir şəraitdə rəqabət güclənir və elmə, biliyə fikir verməyən, əhalisinin

savadlandırılması qayğısına qalmayan dövlətlərdə elmtutumlu məhsul istehsalını təmin edə bilmədikləri üçün iqtisadi gerilik daha da arta bilər.Bu cür halın baş verməməsi ehtimalı inkişafda olan ölkələrdə daha böyükdür. Dünya Bankı iqtisadi inkişafa təsir etməsi baxımından biliyin iki tərəfini fərqləndirir. Birinci tərəf "biliyin çatışmazlığı " adlanır və bir çox cəhətdən texniki biliklərin qeyri-bərabər yayılması və əldə edilməsi nəticəsində meydana gəlir.Mahiyyəti ondadır ki, məsələn, sənayedə , kənd təsərrüfatında , səhiyyədə, mühasibat uçotunda və s.istifadə olunan texnika haqqında məlumat olsa da, müxtəlif səbəblərdən istehsalda tətbiq edilmir. İkinci tərəf "informasiya problemi" adlanır və innovasiyalar haqqında məlumatların vaxtında əldə edilməməsi nəticəsində meydana çıxır.

Dünya təcrübəsi göstərir ki, bu gün biliyin bütün istiqamətləri üzrə çatışmazlıqlara inkişaf etmiş ölkələrdə isə çox az,geri qalmış və inkişaf etməkdə olan ölkələrdə çox tez-tez rast gəlmək olur.Məhz buna görə də biliklə iqtisadiyyatın qarşılıqlı əlaqəsini dərk edib təcrübədə və xüsusən iqtisadiyyatın inkişafında ondan istifadə etmək üçün Beynəlxalq Bank inkişafda olan ölkələrə aşağıdakıları tövsiyə edir.

Birincisi, onlar inkişaf etmiş ölkələrlə öz ölkələri arasında yaranmış bilik çatışmazlığın fərqini azaltmağa yönələn siyasət həyata keçirməlidirlər.Belə siyasətin əsasını insanların savadlandırılmasına dövlət investisiyasının artırılması, iqtisadiyyatın açıqlıq səviyyəsinin yüksəldilməsi telekommunkiasiya sahəsində rəqabətə mane olan baryerlərin götürülməsi təşkil etməlidir.

İkincisi, inkişaf etməkdə olan ölkələrin dövlət orqanları, beynəlxalq idarələr,qeyri-dövlət təşkilatları və şəxsi bölmə bir-birləri ilə informasiya probleminin həlli ilə məşğul olan institutların xeyrinə əməkdaşlıq etməlidirlər.Bu cəhətdən əsas diqqət mühasibat uçotunun standartlaşdırılmasına, informasiyanın açılma qaydalarına, kredit reytinqi sistemi mexanizmlərinin yaradılmasına yönəldilməlidir. Bunlardan başqa,müqavilə öhdəliklərinin yerinə yetirilməsini təmin edə bilən səmərəli qanunçuluq və məhkəmə sistemləri formalaşdırmaq tələb olunur.

Üçüncüsü, bilik çatışmazlığının tam aradan qaldırılmasının qeyri-mümkünlüyünü nəzərə almaq lazımdır. Lakin biliyin iqtisadi inkişafda həlledici rolunu dərk etməklə çox zaman elə optimal nəticələr

meydana çıxarmaq olar ki, onların vasitəsilə ilk baxışda həlli mümkün olmayan problemlərin belə həll olunmasına çox gözəl şərait yaratmaq olar.

### 1.2.Biliyin iqtisadiyyata təsir mexanizmi və bu haqda dünya təcrübəsi

Bilik iqtisadiyyata və insanların həyat şəraitinə güclü təsir göstərir. Lakin bu təsirin əsas xüsusiyyəti ondadır ki, onu bilikli adamlar görə bilirlər.Deməli, biliyin bir mühüm və həlledici amil kimi iqtisadiyyata təsirini gücləndirmək üçün cəmiyyət üzvlərinin savadlılığını və hökumət orqanlarının isə bu sahədə məsuliyyətliliyini artırmaq lazımdır.

Bilik çatışmazlığı istər ayrıca götürülmüş bir şəxsin, ailənin, müəssisənin və istərsə də bütövlükdə ölkənin iqtisadiyyatına güclü təsir göstərir və onun təsiretmə mexanizmi çox müxtəlifdir. Bu mexanizm fəaliyyətə subyekt və strukturların yaşamaq üçün həyata keçirdikləri "əməliyyatlardan" başlayır. Əməliyyatlarda iki tərəf iştirak edirsə və onlar bir-biri haqqında biliyə malik deyillərsə,sonda iqtisadiyyat zəifləyir. Sadə, lakin böyük iqtisadi əhəmiyyəti olan bir neçə misal gətirək.Bir neçə il bundan qabaq "Vahidbank" və digər bu tipli banklar haqqında həqiqi informasiyanın olmaması, yəni əhalinin bu sahədə biliklərinin zəif olması hər bir vətəndaşın və dövlətin iqtisadi vəziyyətinə güclü mənfi təsir göstərdi.Bazar iqtisadiyyatına tərəf addımlar atılarkən boğazlarından kəsdikləri "artıq" pullarını öz əlləri ilə fırıldaqçılara verdilər və dövlət orqanlarının da məsuliyyətsizliyi üzündən bir daha geri ala bilmədilər.Təkcə bu biliksizliyin üzündən Azərbaycan Respublikası iqtisadiyyatınamilyard dollarla zərər dəydi. Mağazalarda satılan ərzaq mallarının, dərman preparatlarının keyfiyyəti, saxlama müddəti, satış müddəti haqqında dəqiq məlumatın olmaması əhalinin geniş təbəqəsinin vaxtı keçmiş ərzaqlarla qidalanmasına, sonradan xəstələnməsinə, müalicələrə coxlu pulların xərclənməsinə və deməli, həm fərdinin (sahibkarın) və həm də ölkə iqtisadiyyatının zəifləməsinə səbəb olur.Düzgün qidalanma və saxlam həyat tərzi haqqında insanların biliyinin az olması da eyni mexanizmi ilə iqtisadiyyatı zəiflədir.

Bilik təsərrüfat münasibətlərini də işıqlandırır, tərəflərin üstünlüyünü və çatışmazlıqlarını ortaya çıxarır. İnformasiyanın olmaması və yaxud da onun qıtlığı bazarların dağılmasına və yenilərinin yaradılmasına mane olur. Bazar iqtisadiyyatının səmərəliliyi bilavasitə malların keyfiyyəti haqqında, işçinin məsuliyyətsizliyi haqqında, firma və müəssislərin maliyyə vəziyyəti və kredit bacarıqları haqqında geniş və hərtərəfli məlumatın olmasını tələb edir. Bunlarsız elmdən, iqtisadi inkişafdan danışmaq ən azı cəfəngiyyatdır. Ona görə ki, informasiyasızlıq və deməli, biliksizlik şəraitində ayrı-ayrı hesabat dövründə bir-iki göstəricinin yaxşılaşmasından söhbət gedə bilər, cəmiyyətin, ölkənin iqtisadi inkişafından, orta təbəqənin formalaşması haqqında isə məlumat əldə edilməz.

**Biliyin iqtisadi səmərəsi**. Hərtərəfli bilik əldə etməklə inkişafa nail olmaq çoxlu səmərə verir. Bu səmərə birbaşa və dolayı yolla əldə oluna bilər.Xəstəliklər haqqında düzgün məlumat milyonlarla insanların həyatını xilas edər və səhiyyəyə çəkilən xərcləri azalda bilər. Ətraf mühitin təmizliyi haqqında və suyun,havanın,torpağın, məhsulların çirklənməsi haqqında məlumatlılıq yaşayış yerlərinin insan üçün təhlükəli olmasının qabağını ala bilər.Mikromaliyyələşmə proqramları və bu barədə insanların məlumatlılığı uşaqların gələcəyinin parlaq olmasına səbəb ola bilər.

Bilik çatışmazlığının və informasiya qıtlığının olmasını dövlət dərk etməli və problemin həlli üçün ölçü götürməlidir. Lakin məhz bu məsələ inkişaf etməkdə olan ölkələrdə çox pis həll olunur. Bu da onların inkişaf etmiş ölkələrdən geriliyini daha da çoxaldır.Sonda onlar asılı ölkə olaraq qalırlar və dünya iqtisadiyyatının inkişaf sürətini zəiflədirlər.

Dünya Bankının hesabatlarında da göstərilir ki, varlı və kasıb dövlətlərin arasındakı fərq təkcə pulun (vəsaitin) çatışmamasında deyil, o həm də biliyin azlığındadır.Biliyin yaradılması isə çoxlu əlavə xərclər tələb edir.İnkişaf etmiş ölkələr özlərinin maliyyə imkanlarından və istehsal güclərindən istifadə edib arasıkəsilmədən yeni biliklər yaradırlar və bu prosesin dönməz olması üçün çoxlu vəsait xərcləyirlər (cədvəl 3).

**Cədvəl 3**

**Elmi-tədqiqat və təcrübə-layihə işlərinə çəkilən xərclər və adambaşına düşən ümumi daxili məhsulun həcmi (1998-ci il)**

| | Ölkə qrupları | ETTLİ-nə çəkilən xərclər (1 mln. nəfərə görə ABŞ dol-lari ilə) | Adambaşına düşən ÜDM (ABŞ dolları ilə) |
|---|---|---|---|
| 1 | Yüksəkgəlirli ölkələr (Asiyanın yeni sənaye ölkələrindən başqa) | 218 | 16048 |
| 2 | Asiyanın yeni sənaye ölkələri | 108 | 6369 |
| 3 | Orta gəlirli ölkələr (Rusiyadan başqa) | 6 | 1563 |
| 4 | Rusiya | 29 | 2069 |
| 5 | Azgəlirli ölkələr (Çindən başqa) | 1 | 328 |

Cədvəlin materiallarından göründüyü kimi, kasıb ölkələrin yeni biliklər yaratmaq üçün varlı ölkələrlə rəqabət aparmasına maliyyə imkanları mane olur. Lakin yaranmış biliklərin alınmasna onların imkanları çatar. İlk növbədə ona görə ki, dünya bazarında kompüter texnikasının qiyməti çox aşağı düşüb və Nou-hau (know-how)-ların dəyəri isə buna imkan verir.

Dünyada varlı dövlətlər tərəfindən yaradılmış bilikləri əldə etmək (satın alıb tətbiq etmək) üçün isə bir məsələnin həlli lazımdır. Bu məsələ biliyin və bilikli insanlann iqtisadiyyatdakı aparıcı rolununu dövlət və onun müvafiq orqanları tərəfindən dərk edilməsidir. Biliyin həlledici amil olmasını dərk edən ölkələrin sürətlə inkişaf etməsi haqqında çoxlu təcrübə toplanmışdır. Buna misal olaraq Dünya Bankı Qana və Koreya Respublikasını misal göstərir. 40 il bundan qabaq adambaşına düşən ümumi daxili məhsulun həcmi bu ölkələrdə təxminən eyni səviyyədə idi. Lakin artıq 1990-cı illərin əvvəllərində bu göstəricinin səviyyəsi

Koreyada 6 dəfə yüksək olmuşdu. Tədqiqatçıların fıkrincə Koreyanın bu müvəffəqiyyətinin yarısı ölkədə biliklərin toplanması və istifadə olunması nəticəsində əldə edilmişdir.

### 1. 3. "Yaşıl inqilab" biliyin məhsuludur

Biliyin gücü, onun verdiyi iqtisadi və sosial səmərəyə parlaq misal kimi dünya-iqtisadi inkişafında "Yaşıl inqilab" adı ilə məşhur olan ümumdünya hərəkatını göstərmək olar. Biliyə əsaslanan bu ümumdünya hərəkatı artıq bir çox onilliklərdir ki, kənd təsərrüfatı sahəsində yeni biliklər yaratmaq, onları dünya miqyasında yaymaqla məşğuldur. İnkişaf məqsədi ilə bilikdən istifadəni əyani olaraq göstərən bir modelə çevrilmiş “Yaşıl inqilab" hərəkatı həm də özünün beynəlmiləlliyi ilə fərqlənir. Bu hərəkatda çoxlu dövlətlər, qeyri-kommersiya təşkilatları, çoxtərəfli kompaniyalar, fərdi fırmalar, banklar, torpaq becərənlər, torpaqsız muzdlu kəndlilər iştirak etmişlər. Bunlar hamısı birgə çalışıb bilik məhsulu yaradırdılar və konkret kənd təsərrüfatı sahələrində onu tətbiq edirdilər ki, məhsuldarlığı artırsınlar.

İlk vaxtlar yaşıl inqilab texniki gerilik ilə mübarizə aparmırdı. O inkişafda olan dövlətlərdə informasiya problemini həll edirdi. Bitkilərin genetikası haqqında əhalinin biliklərini artırmağa can atırdı. Nəticədə müxtəlif, daha yüksək məhsuldarlığı əldə etməyə imkan yaradan toxumlar tapılır və istehsalda sınaqdan çıxarılırdı. Sonradan bir çox inkişaf etmiş ölkələrdə müvafıq elmi-tədqiqat institutları yaradıldı, elm inkişaf etdirildi və yeni biliklər toplandı. Keçən əsrin ikinci yarısından başlayaraq kənd təsərrüfatı sahəsində əldə edilmiş biliklərdən kütləvi surətdə istifadə edildikdə böyük müvəfəqiyyətlər əldə edildi. Dərc olunmuş məlumatlara görə inkişaf etmiş ölkələrin çoxunda məhsuldarlıq iki dəfədən də çox yüksəldi. Nəticədə XX əsrin ikinci yarısında ərzağın artım sürəti əhali artım sürətini ötürdü. Bu nəticə eyni zamanda XVIII əsrdə yaşamış ingilis iqtisadçısı Robert Maltusun məşhur nəzəriyyəsinin elmi əsasının olmamasını bir daha sübut etdi.

Biliyin verdiyi iqtisadi səmərə ilə yanaşı bilavasitə sosial səmərə də əldə edilir. Məsələn, Dünya Bankının Hindistanın cənub ştatlarında apardığı tədqiqatlar sübut edib ki, «yaşıl inqilab» həqiqətən də ilk növbədə, yaşayış səviyyəsi aşağı olan əhali təbəqəsi üçün böyük sosial səmərə verib. Hesabatda göstərilir ki, 1973-1994-cü illər orzində «yaşıl

inqilab» xırda fermerlərin orta real gəlirlərini 90 faiz, torpaqsız işçilərin-kəndlilərin ən kasıb təbəqəsinin real gəlirlərinin isə 125% artmasına səbəb olmuşdur. Yüksək məhsuldarlıqlı toxumların becərilməsi çoxlu ağır əmək tələb etdiyindən az təmin olunanların əınəyinə olan tələbat artdı. Onların qida məhsulları daha koloriyalı oldu (koloriyalılıq 58-81 faiz, zülal birləşmələrinin qəbulu isə 103-115 faiz artmışdı).

### 1. 4. Biliyin əldə edilməsi, yayılması və hərtərəfli istifadə edilməsi prosesinin gücləndirilməsi

Bilik yaradılır, yayılır və istifadə edilir. Bu tsikl daim təkrar olunur və proses yeni əsas üzrə davam edir. Daha doğrusu, əgər hər hansı bir dövlət iqtisadiyyatının inkişafını və əhalinin yaşayış səviyyəsini yüksəltmək istəyirsə bilik tsiklini daim intensivləşdirməlidir.

Dünya iqtisadiyyatı baxımından bilik tsiklinin sürətlənməsi ümumi şəkildə iki istiqamətdə gedə bilər. Birinci istiqamət beynəlxalq təşkilatlar və qurumların bu sahədəki fəaliyyətləri ilə bağlıdır. Beynəlxalq təşkilatlar birliklərin yaradılması, toplanması, yayılması və onlardan istifadə olunması sahəsində elə problemləri həll etməlidirlər ki, onların həlli fərdi (capital sahibləri üçün o qədər də cəlbedici görünmür. Buna görə də beynəlxalq təşkilatların institutları, ilk növbədə, texnoloji geriqalmanın ləğv edilməsi sahəsində fəaliyyətini daha da mütəşəkkil edib, dünya iqtisadiyyatını beynəlxalq ictimai məhsullarla təmin etmək və biliyin ötürülməsində vasitəçilik funksiyasını yerinə yetirməklə məşğul olurlar. Burada idarəetmənin yaxşılaşdırılması tələb olunur ki, bunun üçün də dünyada baş verən informasiya inqilabi şərait yaradır.

İkinci istiqamət dövlət orqanlarının rolu ilə əlaqədardır. Dövlətlər rəhbərlik etdikləri ölkədə biliyin meydanagəlmə mənbələrini (ölkənin öz gücü ilə yaradılan biliklər və kənardan "gətirilən" biliklər) və onların arasındakı nisbəti düzgün istiqamətləndirməlidirlər. Bundan başqa, biliyə olan bazar tələbatı aşağı düşə bilər, onda dövlətin bu işə qarışması zəruridir. Ona görə ki, ölkədə-ki texniki biliksizliyi aradan qadırmaq üçün dövlətin həmişə imkanları tapıla bilər. Məsələn, dövlət əhalinin savadlanmasını insanların bütün ömrü boyu həyata keçirə bilən təhsil sistemi işləyib hazırlaya bilər. Dövlət biliklər üzrə informasiyaları da idarə etməli, onların keyfıyyətinə nəzarəti gücləndirməlidir.

Dövlət bilik çatışmamazllğı ilə mübarizənin milli strategiyasını işləyib hazırlamalı və həyata keçirməlidir. Ümumiyyətlə götürdükdə, hər bir ölkə biliyin əldə edilməsinə, onun yayılmasma və istifadəsinə yönələn siyasət işləyib hazırlamalıdır. Bu proqramların məğzini yerli biliklərlə dünya biliklərinin optimal uyğunlaşdırılması və iqtisadiyyatın məqsədyönlü inkişafı təşkil etməlidir.

## 1. 5. Biliyin rolunun artmasının obyektiv əsası

Bu gün dünya miqyasında biliyin çəkisinin əhəmiyyətli dərəcədə artması bir sıra obyektiv reallıqlardan doğur. Onların arasında ETT xüsusi yer tutur. İntensiv elmi-texniki inqilablarla müşahidə olunan müasir elmi-texniki tərəqqi istehsalda prinsipial köklü dəyişikliklər yaradır. İstehsalın texnikası, texnologiyası, istehsalın təşkili formaları çox qısa müddətdə təkmilləşmələrə məruz qalır, emalın sürəti artır, istehsal daha cox mexanikləşir və avtomatlaşır, istehlakın kimyalaşması yüksəlir. Belə bir şəraitdə istehsalın aktiv elementi olan insana, ixtisaslı fəhləyə, mühəndisə qoyulan tələblər də artır. İnsanlardan daha çox bilik tələb olunur. Onlar yüksək texniki təşkilati səviyyəyə malik uyuşqanlı istehsaldan baş çıxarmağı, keyfıyyətli məhsul istehsal etməyi və onu bütün dünya ölkələrində reallaşdırmağı bacarmalıdırlar.

Müasir dövrdə biliyin yeni iqtisadi rolu peşə və ümumi təhsilin yeni iqtisadi rolu ilə şərtlənir. İşçi qüvvəsinin ixtisas səviyyəsini yüksəltmək tələb olunur. Bu problemin əhəmiyyətini başa düşən ölkələr təhsilə yönəldilən kapitalın həcmini artırırlar. Məsələn, hazırda ABŞ-da hər il təhsilə çəkilən xərc 40,0 milyard dolları ötüb keçir. Müqayisə üçün qeyd edək ki, 1940-cı ildə bu rəqəm 3,2 milyard dollar, 1950-ci illordo isə 8,8 milyard dollar təşkil edirdi. Təhsilə bu cür yüksək qayğının nəticəsində işçi qüvvəsinin keyfiyyət səviyyəsi yüksəlir, əmək daha məhsuldar olur, onun nəticəsi daha çox səmərə verir.

Məşhur Amerika iqtisadçısı E.Depisonun apardığı tədqiqata görə İkinci Dünya müharibəsindən sonrakı dövrdə ABŞ vo QA ölkələrində əldə edilən iqtisadi inkişafın 10-32%-i texnika və texnologiyanın müxtəlif sahələrində elmi tədqiqatların nəticələrini istehsala tətbiq etməklə əldə etmişlər. ETT-nin sürətləndirilməsi insanların biliyinə də müsbət təsir göstərir. Son illər iqtisadi inkişafda biliyin böyük rol

oynamasını dünyanın əksər ölkələrinin iqtisadçıları təkidlə qeyd edirlər. E.Denisonun verdiyi məlumata görə ABŞ və QA-da əldə edilən iqtisadi artımın 2-15%-i təhsilin səviyyəsinin yüksəldilməsi hesabına baş vermışdir. Yeni biliklərin meydana gəlib inkişaf etməsi əslində istehsal prosesinin ayrılmaz hissəsinə çevrilmişdir. Yeni biliklər təcrübədə öz əksini maşın və mexanizmlərin yeni konstruksiyasında, işçi qüvvəsinin keyfiyyətində, səmərəli təşkilatıi qərarlarda, konyukturanın dərk edilməsində, sərfəli iqtisadi inkişaf modellərinin seçilməsində tapır. Bilik artımı material-enerji resurslarına qənaət etməyə, məhsulun enerji, materail, fond və əmək tıtumunun aşağı düşməsinə tam reallığı ilə səbəb olur. İstehsal resurslarından bilik resursunun fərqləndirici cəhətlərindən biri ondan ibarətdir ki, maşın və ava-danlıqlardan fərqli olaraq bilik bir ölkədon dünyanın digər ölkələri-nə daha tez yayıla bilir: müasir informasiya inqilabı buna şərait ya-radır. Maşın və mexanizmlər kimi bilik də patentlər, lisenziyalar, məsləhətlər, "Nou-hau"lar şəkində satılır və alınır.

## §2. İqtisadi inkişafda region amili

Dünya iqtisadiyyatı ölkələrin və regionların iqtisadiyyatıdır. Buna görə də regionlar dünya iqtisadiyyatına, onun inkişaf sürətinə, səmərəliliyinə, tələbatları ödəmə qabiliyyətinə güclü təsir göstərir. Bu təsir mənfi, müsbət və neytral ola bilər.

Regionun dünya iqtisadiyyatına təsiri burada baş verən iqtisadi, sosial və siyasi proseslərdən bilavasitə asılı olur. Bu proseslər elmi əsasda, insan amilini nəzərə almaqla baş verdikdə və ən başlıcası region ölkələrinin iqtisadi inkişafı əsas götürüldükdə regionda sosial-iqtisadi yüksəliş baş verir və onun təsiri dünya iqtisadiyyatına bir qayda olaraq müsbət olur.

Dünya iqtisadiyyatına müsbət təsir göstərən regionlara misal Şimali Amerika regionu ola bilər. Bu regionun ən qüdrətli ölkəsi ABŞ-dır. Hazırda isə Kanada da inkişaf etmiş ölkədir və o da ABŞ-la birlikdə inkişaf etmiş "böyük ölkələr" qrupuna daxildi. Bu regionun inkişaf etməsində aparıcı amil rolunu həmişə ABŞ oynayır. Kanadanın inkişaf etmiş ölkələr sırasına çıxmasında da məhz ABŞ həlledici rol oynamışdır.

ABŞ və Kanadanın inteqrasiyalı iqtisadi əlaqələri öz başlanğıcını XX əsrin 20-ci illərindən götürür. Bu Kanadanın iqtisadi əlaqələrinin

İngiltərə ilə zəiflədiyi və ABŞ-la isə möhkəmlənməyə başladığı bir dövr idi. Regionun güclü dövləti olan ABŞ iqtisadi üsullardan istifadə edib həm özünə və həm də Kanadanın maraqla-

rına uyğun tədbirlər həyata keçirdi. Amerika sahibkarları dövlətin dəstəyi ilə Kanadanın zəngin təbii resurslannın mənimsənilməsinə başladılar. Keçən əsrin 20-ci illərinin axırında ABŞ Kanada iqtisadiyyatının qabaqcıl sahələrində aparıcı mövqeyə malik idi. 1930-cıı illərin axırında Kanadada ABŞ-ın TMK-na məxsus 309 kompaniya fəaliyyət göstərirdi.

İllər keçdikcə qarşılıqlı iqtisadi maraqlara əsaslanan əməkdaşlıq Kanadanın inkişafına da səbəb olurdu. İkinci Dünya müharibəsinin sonlarında ABŞ-ın  Kanadada yerləşdirdiyi investisiyaların həcmi 5 milyard dollara çatırdı.Bunun nəticəsi idi ki, ABŞ kompaniyaların Kanadadakı filialların sayı 1957-ci ildə 630-a 1967-ci ildə isə 962-ə çatırdı.Bu dövrdə əks istiqamətdə də kapital axını başladı. Bu dəfə Kanadanın iqtisadi nəhəngləri tərəfindən Amerika və Kanada sahibkarlan kapitalının qarşılıqlı hərəkəti böyük iqtisadi səmərə verirdi. Nəticədə hər iki ölkə arasında ticarət özünün yüksək səviyyəsinə çatmışdı. Şimalı Amerika regionunda iqtisadi əməkdaşlığı genişləndirmək tələb olunurdıı. Bu məqsədlə 1970-ci illərdən başlayaraq ABŞ kapitalı digər ölkəyə də yönəldildi. 1992-ci ildə ABŞ, Meksika və Kanada tərəfındən imzalanmış Şimali Amerika sərbəst ticarət assosiasıyası bu ölkələr arasında əməkdaşlığa mane ola bilən amilləri maksimum aradan qaldırırdı. Burada söhbət təkcə ticarətdəki maneələrdən getmirdi, eyni zamanda söhbət xarici investisiya, işçi qüvvəsinin miqrasiyası rejiminin və üç ölkə sərhədlərinin şəffaflığının təmin edilməsi sahəsindəki digər aspektlərində həll edilməsindən gedirdi. Qeyd edək ki, bu üç Şimali Amerika regionu ölkələri arasında bağlanmış həmin saziş artıq 1994-cü il yanvarın 1-dən həyata keçirilir. Gələcəkdə bütün maneələrin aradan qaldırılması və üç milli bazanın üzvi şəkildə birləşməsi proqnozlaşdırılır. XXI əsrin əvvəlində üç dövlətdən olan 375 mln. nəfəri əhatə edən azad ticarət zonalarının yaranacağı və 8 trilyon dollar həcmində  məhsul istehsalı gözlənilir.

Şübhə yoxdur ki, region ölkələrinin bu cür sağlam niyyət üzərində qurulmuş iqtisadi əlaqələrinin genişlənməsi həm regionun iqtisadiyyatına və həm də dünya iqtısadiyyatına güclü müsbət təşir

göstərir. Belə sazişlərə getdikcə daha çox ölkə birləşə bilər. Dərs vəsaiti yazılan zaman aldığımız məlumata görə Latın Amerikası

ölkələri də (məsələn. Çili) yuxarıda göstərdiyimiz Şimali Amerika azad ticarət assosiasiyasına qoşulmaq fıkrindədirlər.

Onu da nəzərə almaq lazımdır ki, hər bir regionda lider ölkə olur. Bu mətndə baxdığımız regionun lideri ABŞ-dır. O özünün düzgün sosial-iqtisadi inkişafını  çoxdan təyin edib və böyük müvəffəqiyyətlər əldə edib. Onun təsiri altında regionda iqtisadi yüksəlişə nail olunub. Belə regionlar yer kürəsində var. Yaponiya və onun yerləşdiyi region da Yaponiyanın başçılığı altında böyük nailiyyətlər əldə etmişdir. Lakin çox təəssüflə qeyd etmək lazımdır ki, yer kürəsinin elə regionları da mövcuddur ki, onlar dünya  iqtisadiyyatına mənfı təsir göstərirlər. Belə regiona parlaq misal Rusiya Federasiyasının yerləşdiyi regiondur.

Rusiya liderdir. Lakin bu regionun iqtisadi inkişafı qənaətbəxş deyildir. Həmişə güclü hərbi qüvvəyə malik olduğuna görə iqtisadi zəifliyi Rusiyanı regionda liderlikdən uzaqlaşdıra bilməmişdır. Daha doğrusu, Rusiya özü iqtisadi cəhətdən güclü olmadığı üçün özünün yaxın və uzaq region qonşularının iqtisadi inkişafını da istəməmiş və əgər, kiçik və böyüklüyündən asılı olmayaraq Rusiyanın təsir dairəsində olan həг hansı bir ölkə inkişaf etməк istəmişsə də Rusiya ona mane olmuşdur. İqtisadi inkişaf modellərinin düzgün seçilməməsi, bütün iqtisadiyyatın bir hakimə (liderə) və ya dövlətə tabe edilməsi, xüsusi təsərrüfatın inkişafı üçün şəraitin yaradılmaması, bürokratik idarəetmə üsulları, şəxsiyyətə pərəstiş və sairə bu kimi qeyri-iqtisadi və subyektiv amil və şərtlər Rusiyanın özünü dəfələrlə çox çətin vəziyyətlərə salıb. Vəziyyətdən çıxmaq mümkün olmayanda sosial-iqtisadi quruluşu dəyişməyi üstün tutublar. Məhz 1917-ci ildə belə bir hadisə Rusiyada baş verdi. Heç bir elmi, obyektiv əsası olmayan «sosialist dövləti» deyilən dövlət formalaşdı. Bu cür sosial-ictimai dəyişikliyin siyasi köklərini, səbəblərini dərindən açmadan iqtisadi nəticələrini və dünya iqtisadiyyatına təsirini qısaca nəzərdən keçirsək, görərik ki, Rusiyanın bir lider kimi özünü səmərəli idarə edə bilməməsi və obyektiv iqtisadi qanunlara tabe olmaması üzündən regionun iqtisadi inkişafı olduqca çox geri qalmış və region ölkələrinin iqtisadiyyatına və dünya iqtisadiyyatına mənfı təsir göstərmişdir.

Belə mənfi təsirin bir neçə aspektlərini nəzərdən keçirək. Elə götürək 1917-1992-ci illəri. Göründüyü kimi bu 70 ildən də çox bir

dövrü əhatə edir. Rusiyada iqtisadiyyatın inkişafı və onun dünya iqtisadiyyatına təsiri baxımından bu dövrün özünü bir neçə mərhələlərə bölmək olar. 10 ildən də çox bir dövrü (1917-1928) əhatə edən birinci mərhələdə Rusiyanın iqtisadiyyatı daxili çəkişmələr və düzgün iqtisadi inkişaf proqramının olmaması nəticəsində əvvəlcə iqtisadiyyatın dağılması, mərhələnin axınında isə heç bir ciddi struktur dəyişiklikləri etmədən bərpası baş verirdi. Bu ölkədə dünya iqtisadiyyatında görünməyən proseslər baş verirdi:

"Hərbi kommunizm" adlanan illərdə iqtisadiyyat çox yüksək sürətlə aşağı düşürdüsə, sonrakı illərdə iqtisadiyyat eyni yüksək sürətlə də inkişaf edirdi. Lakin bu inkişaf ekstensiv xassəli idi və dünya iqtisadiyyatına heç bir şey bəxş etmirdi. Əksinə, bütün iqtisadiyyatın dövlətin əlində cəmləşdirilməsi prosesi gələcək iqtisadi çətinliklərin yaranması üçün şəraiti formalaşdırırdı.

İkinci mərhələ 24 ildən artıq bir dövrü (1929-1953) əhatə edirdi. Bu dövrdə İkinci dünya müharibəsi də baş verdi və onun baş verməsində də Rusiyanın seçdiyi sosial-ictimai quruluşun az günahı olmadı. 1928-1939-cu illərdə xalqın qanı bahasına əldə edilmiş iqtisadi yüksəliş müharibə nəticəsində dağıdıldı. Lakin qələbədən ruhlanan Rusiya rəhbərləri iqtisadiyyatı özlərinə məxsus üsullarla və özlərinin istədikləri kimi inkişaf etdirə bildilər. Bu inkişafın xarakterik cəhətlərinə istehsalın təmərküzləşməsi, onun tamamilə dövlətləşdirilməsini, qeyri-bazar iqtisadiyyatnın bərqərar olması, ağır sənayenin üstün inkişafı, sənayenin militarizasiyası, təbii resursların talan edilməsi, ekologiyanın pisləşməsi, xarici iqtisadi əlaqələrin qeyri-rasional olması, kənd təsərrüfatında kəndli təsərrüfatlarının ləğv edilməsi, iqtisadiyyatın ağır sənayenin xeyrinə birtərəfli inkişafını aid etmək olar. Bu mərhələ iqtisadiyyatın gələcəkdə dağılması üçün zəmin hazırladı. Dünya iqtisadiyyatı isə bu mərhələdə heç bir şey əldə etmədi. Heç olmasa ona görə ki, əldə edilən iqtisadi və hərbi irəliləyişlər "nəyin bahasına olursa olsun prinsipinə əməl etməklə qazanılımşdı. Elə buna görə də üçüncü mərhələdə (1954-1979) iqtisadi inkişafın sürəti azaldı və komanda iqtisadi inkişaf modeli ilə gələcək inkişafın mümkün olmaması hamı üçün aksiomaya çevrildi. Baxılan dövrün dördüncü mərhələsi (1980-1992) son on iki ili əhatə edirdi və özündən əvvəlki pillələrin üzvi nəticəsi kimi sosialist ölkəsi adlanan bir ölkənin dağılması ilə başa çatdı. SSRİ deyilən ölkə parçalandı, yeni dövlətlər

meydana gəldi, iqtisadiyyat isə sözün tam mənasında dağıdıldı və talan edildi. İqtisadi əlaqələrin pozulması yeni yaranmış ölkələrin iqtisadiyyatına ölümcül təsir göstərdi.

Beləliklə də, əslində həm özünün və həm də yaxın və uzaq qonşularının iqtisadiyyatının pisləşməsinin müəllifi, səbəbkarı Rusiyanın özüdür. Artıq 10 ilə yaxındır ki, SSRİ deyilən bir dövlət yoxdur.

Lakin iqtisadiyyatı idarə edərin psixologiyasında, dünyagörüşündə köklü, müasir dünyanın qəbul etdiyi dəyişikliklər baş vermədiyinə, siyasət və hərbi gücə malik olmaq psixologiyası qaldığına görə Rusiyada iqtisadi inkişaf zəif gedir. Uzun illər boyu dövlətlərin iqtisadi inkişaf göstəriciləri müqayisə edilərkən Rusiyanın deyil SSRİ-nin göstəriciləri müqayisə edilirdi. Buna görə do Rusiyada iqtisadi vəziyyətə qiymət vermək üçün fərdi şəkildə aparılan tədqiqatların məlumatlarından istifadə etməyi üstün tutduq. Rusiyanin İqtisadiyyat Elmi və Sahibkarlıq Fəaliyəti Akademiyasının akademiki, REA-nın Avropa İnstitunun beynəlxalq iqtisadi müqayisələr mərkəzinin rəhbəri i.e.d., professor A.M.Kudrovun şəxsi hesablamalarına görə 1990-cı ildə, yəni SSRİ-nin dağılmasından bir il qabaq, Rusiyanın ÜDM-nun həcmi ABŞ-ın ÜDM-nun 17,7%-ni təşkil edirdi. 1992-ci ildə, yəni Rusiyanın müstəqilliyinin birinci ilində bu göstəricinin səviyyəsi aşağı düşmüş və cəmi 12,0% təşkil etmişdir. Sonrakı illərdə Rusiyanın iqtisadiyyatında geriləmələr davam etmiş və 1996-cı ildə RF-nın ÜDM-nın həcmi ABŞ-ın ÜDM-ni cəmi 8,6 faizi qədər təşkil etmişdir. Deməli, 1990-cı illə müqayisədə ÜDM-un ABŞ-ın ÜDM-na görə nisbəti 2 dəfədən də çox pisləşmişdir. Bunun səbəbi nədir? Keçid dövrü altında bunu pərdələmək olmaz. Əsas və başlıca səbəb Rusiyanın, Ermənistandan başqa öz qonşularına qarşı apardığı hərbi və kolonial siyasətdir. Rusiya nə özü inkişaf edir, nə də qonşu ölkələrin inkişafını istəmir, onlara bütün yollarla mane olmağa çalışır. Ölkələri bir-birinə qarşı qoymaqla "Parçala və hökm sür" prinsipindən əl çəkmir. Elə buna görə də Rusiya 1991-1994-cü illərdə Ermənistana 1 milyard dollar dəyərində silah-sursat məhsulu bağışlamaqla Qafqazda gərginliyin artmasına səbəb oldu. Lakin, əgər bu qədər böyük məbləğ Rusiyanın özünün iqtisadi inkişafına yönəldilmiş olsa idi, iqtisadi səmərə əldə edilərdi. Rusiyada iqtisadi inkişafın geriliyi ətraf ölkələrə ikiqat, üçqat mənfi " təsir göstərir. MDB deyilən quruma daxil olan ölkələrin hamısında iqtisadi

gerilik var. Azərbaycanın iqtisadiyyatı buna parlaq misaldır. Bir tərəfdən keçmiş SSRİ-də və sonradan Rusiya Federasiyasında və onun dostu Ermənistanda gedən proseslərin bilavasitə təsiri nəticəsində, digər tərəfdən, rus-erməni qoşunları tərəfindən 20%-dən də çox torpaqlarımızın zəbt edilməsi nəticəsində Azərbaycanın iqtisadiyyatı lazım və mümkün olan səviyyədə inkişaf edə bilmir. Burada əsas səbəb - region amilidir.

## §3. Transmilli korporasiyalar (TMK) və dünya iqtisadiyyatı

### 3.1. TMK-nın mahiyyəti

Bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş kapitalist ölkələrinin əsas liderləri keçən əsrdə böyük müvəfəqiyyətlər əldə edə bildilər. Nəhəng monopolist fırmaların əlində çoxlu miqdarda maliyyə resursları toplanmışdı. Ölkə daxilində onlardan tam və səmərəli istifadə etmək limiti tükənməkdə olduğuna görə kapital sahibləri pulu ölkənin xaricində yerləşdirmək və daha yüksək gəlir əldə etmək ideyalarını öz hökumətlərinin dəstəyi ilə reallaşdırmağa başladılar. Bu cür ideyaların ortaya çıxması və reallaşmağa başlaması tarixi keçən əsrin birinci yarısına təsadüf edir. Lakin kapitalın xarici ölkələrdə yerləşdirilməsi işinin dünya iqtisadiyyatına güclü təsiri əsrin ikinci yrasında əyani nəzərə çarpmağa başladı. Məhz bu dövrdə inkişaf etmiş ölkələrin xaricdə fəaliyyət göstərən sənaye, bank və digor strukturlarının sayı 10 mini ötmüşdü. Getdikcə onların içərisindən çox da böyük olmayan qruplar daha fəallaşmağa başladılar və özlərinin istifadə etdikləri yeni stil və üsulların hesabına böyük müvəffəqiyyətlər əldə etdilər. Bunları sonralar transmilli korporasiya (TMK) adlandırmağa baş-ladılar.

Bu gün TMK-lar çox inkişaf etmişlər və bir çox cəhətdən dünya bazarının strukturunu və məhsulların rəqabət qabiliyyətliliyini, beynəlxalq kapitalın hərəkətini və texnologiyanın ötürülməsini təmin edə bilirlər. Yüksək idarəetmə və təşkilati struktura malik olan TMK-ın baş qərargahlarının beşdə dördü ABŞ-da, Yaponiyada, Böyük Britaniyada, Almaniyada və Fransada yerləşmişdir. Bütün iri TMK-ın

30%-ə qədəri ABŞ-ın payına düşür. 1987-ci ilin məlumatına görə dünyanın 500 fəaliyyət göstərən nəhəng sənaye kompaniyalarının 183-ü ABŞ-ın, 97-si Yaponiyanın, 52-si İngiltərənin, 36-sı Almaniyanın, 27-si Fransanın, 16-sı Kanadanın və 13-ü İsveçrənin payına düşürdü.

Dünya iqtisadiyyatının inkişafında, istehsalların beynəlmiləlləşməsində, kapitalın səmərəli dövr etməsində, beynəlxalq miqyasda elmi və texniki nailiyyətlərin istehsala kompleks tətbiq edilməsində, iş yerlərinin yaradılmasında, iqtisadi inteqrasiya proseslərinin güclənməsində və sairə bu cür texniki, texnoloji, təşkilati iqtisadi və sosial məsələlərin həll edilməsindən TMK-nın rolu böyükdür.

TMK-nın bir mühüm cəhəti də vardır. Onlar nəyin bahasına olursa-olsun mənfəət (təmiz mənfəət) əldə etməyə yox, nəyin bahasına olursa-olsun istehsalın və xidmətlərin həcminin artırılmasına çalışırlar və bu yolla da, həqiqətən, mütəmadi olaraq çoxlu mənfəət əldə edirlər. Bir fikir verin: ABŞ-ın "Ceneral motoros" avtomobil korporasiyası 1988-ci ildə 4,9 milyard dollar təmiz mənfəət əldə etməyə nail olmuşdur. Bəs dünya iqtisadiyyatının "qazancı" nə olmuşdu? 4,9 milyard dollar təmiz mənfəət əldə edən korporasiya 121,1 milyard dollarlıq avtomobil məhsulu istehsal edib sata bilmişdir....

Həcmdən qazanmaq, məhsulun keyfiyyətini yüksəltmək, çevik idarəetmə sistemi yaratmaq, elmin, texnikanın, texnologiyanın inkişafını sürətləndirmək, istehsalın elm tutumluluğunu durmadan yüksəltmək TMK-nın başlıca iş üsullarındandır. Bütün bunların fonunda satışa görə rentabellik demək olar ki, bütün transmilli korporasiyalarda çox aşağıdır. Məsələn, baxılan dövrdə "Ceneral motors» korporasiyasının rentabelliyi satış həcminə görə cəmi 4| faizdən bir qədər çox (4,05) təşkil etmişdir (çədvəl 4).

Cavan və inkişafda olan dövlətlərdə TMK-nın yaratdıqları müəssisələrdə 1985-ci ildə 6,3 milyon nəfər işçinin işlədiyi göstərilir.

**Cədvəl 4.**

**TMK-nın satış həcmi və təmiz mənfəəti (1988)**

| Adı | Əsas fəaliyyət sahəsi | Satış həcmi (mlrd. dol.) | Təmiz mənfəət | |
|---|---|---|---|---|
| | | | Mlrd. dol. | Satışa görə %-lə |
| "Ceneral motors" ABŞ | avtomobil | 121,1 | 4,9 | 4,05 |
| "Ekson" ABŞ | neft | 79,6 | 5,3 | 6,6 |
| "Royyal dat-Şell" Böyük Britaniya, Niderland | neft | 78,4 | 5,2 | 6,6 |
| "Toyota", Yaponiya | avtomobil | 50.8 | 2,3 | 4.5 |
| "Mobiloyl" ABŞ | neft | 48,2 | 2,1 | 6,8 |
| "Britiş petrolium" Böyük Britaniya | neft | 46,2 | 2,2 | 4,7 |
| "Daymler-Vepts" AFR | avtomobil | 41,8 | 1,0 | 2,4 |
| "Folksvagen verk" AFR | avtomobil | 33,7 | 0,4 | 1,2 |
| "Nissan motor" Yaponiya | Avtomabil | 29.1 | 0,5 | 1,7 |
| "Samson" Cənubi Koreya | elektronika | 37,4 | 0,5 | 1,8 |

| | | | | |
|---|---|---|---|---|
| "Nestle" İsveçrə | ərzaq (yeyinti) | 27,8 | 1,4 | 5,0 |

Bu İspaniya kimi bir ölkədəki fəhlələrin sayından da çoxdur. İsveçrənin "Nestle" kimi ərzaq (yeyinti) korporasiyasının müəssisələri, filialları və qız filialları bütün qitələrin 65 ölkəsində fəaliyyət göstərirlər. 292 müəssisəsi olan bu monopolist dünyanın 43 ölkəsində süd məhsulları, 31-də kofe, 30-da какао və şokolad, 20-də uşaq süd yeməyi istehsal edir. Kompaniyada çalışan 163 min nəfərin cəmi 4,3% İsveçrənin öz payına düşür. Qalan 95,7%-i xarici ölkələrdə fəaliyyət göstərirlər. 1988-ci ildə korporasiyanın təmiz

mənfəəti 1425 milyon dollar təşkil etmişdir. Rentabellik isə cəmi 5,0% olmuşdur. Göründüyü kimi TMK-lar həm özləri yaxşı qazanırlar, həm dünya iqtisadiyyatının inkişafına səbəb olurlar və həm də əhalini nisbətən ucuz əmtəə və xidmətlərlə təmin edirlər. Lakin mahiyyətcə onlar sovet dövrünün şüarları ilə desək, əsl kapitalistlərdirlər və ilk növbədə, onlar öz maraqlarını, fırmanın maraqlarını qoruyurlar və özlərinə xidmət edirlər. Lakin nəticəsi dünya iqtisadiyyatının və əhalinin xeyrinədir. Bu paradoksdur. Onun izahını, mahiyyətini isə dünyanın ən məşhur iqtisadçılarından olan Adam Smit vermis və açmışdır: "Satış üçün məhsul istehsal edən hər hansı bir adam (sahibkar) yalnız öz şəxsi marağını güdür, xüsusi mənfəətindən çıxış edir. Lakin bu zaman o, "gözəgörünməz əl" vasitəsi ilə öz məqsədinə tamamilə dəxli olmayan məqsədə doğru yönəldilir, yəni bəzən özü də bilmədən daha əməli surətdə cəmiyyətin mənafeyinə xidmət etmiş olur".

TMK-lar həm sayca və həm də istehsalın həcmi baxımından sürətlə inkişaf etməkdə davam edirlər. BMT-nın tədqiqatçıları hesab edirlər ki, bu gün 35 minə qədər TMK fəaliyyət göstərir. Müqayisə üçün göstərək ki, 1939-cu ildə onların sayı cəmi 30-a bərabər idi. İndi TMK-də birbaşa xarici kapital qoyuluşunun 90%-nə nəzarət edirlər.

### 3.2. TMK-ın hərəkərverici qüvvələri

Beynəlxalq iqtisadi əlaqələr inkişaf etdikcə təsərrüfatçılığın yeni strukruru kimi meydana çıxan TMK-lar özlərində beynəlxalq biznesi cəmləşdirirlər. Adətən, TMK deyəndə, biz çox nəhəng monopolist bir strukrur başa düşürük. Əvvəllər bu belə də var idi. Läkin müasir dövrdə vəziyyət dəyişmişdir. İndi müxtəlif ölçüdə kiçik, orta, iri, nəhəng TMK-lar fəaliyyət göstərir. Lakin onların hamısının oxşar əlamətləri vardır. Onlar bir qayda olaraq səmərəli fəaliyyət göstərirlər və müvəffəqiyyət qazanırlar. Bəs bunların hərəkətverici qüvvələri hansılardır? İlk növbədə bura kompaniyalarla dövlətin sıx əməkdaşlığını aid etmək lazımdı. Bu əməkdaşlığın əsasında qarşılıqlı maraqların reallaşdırlması, dövlətin güclü maliyyə, diplomatik, siyasi, hərbi qüvvəsi durur. Öz növbəsində TMK-lar öz işlərinə yaradıcı, elmtutumlu münasibət

bəsləməklə dövlətin möhkəmlənməsinə kömək göstərirlər. TMK-nın dövlət aparatı üçün kadrların seçilməsində də fəal iştirak edirlər və çox zaman da bu yola öz dövlətlərində beynəlxalq fəaliyyətlərinə mane olmayan münasib qanunların qəbul edilməsinə nail olurlar. Bununla da onlar öz dövlətlərinin daxilində korrupsiyanın, rüşvətvermənin, yersiz yoxlamaların, qorxutmaların qabaqcadan qarşısını almış olurlar. Nəticəsi də göz qabağındadır. TMK-lar olan ölkələrin hamısında həm dövlət və həm də sahibkarlar kifayət qədər varlıdırlar, əhali də yaxşı yaşayır.

TMK-nın ilkin vəsaitinin məğzini sərbəst kapital təşkil edir. Öz ölkəsində yığılan ("artıq" qalmış) kapitala sərbəstlik verildiyinə görə o sərhədləri aşa bilmiş və sahibkarlar və dövlət üçün yeni mənfəətlər gətirməyə başlamışdır. Kapitalın sərbəstlik alması TMK-nın səmərəli işinin növbəti hərəkətverici qüvvəsidir. TMK-lar müəssisələrini, filiallarını, qız filiallarını, nəvə filiallarını özlərinə sərf edən ökələrdə aça bilirlər. Növbəti hərəkətverici qüvvə scçdikləri ölkələrdə nisbətən ucuz işçi qüvvəsindən, ucuz torpaqdan və yerli xammaldan istitadə etmək nəticəsində meydana gəlir. Bir qayda ilə xarici ölkələrdə tikilən müəssisə və sexlər nisbətən az kapital xərcləri tələb edir və nəticədə kapitalın səmərəlilik əmsalı orta dünya səviyyəsindən bir neçə dəfə yüksək ola bilər. Kapitalın geri alınması vaxtı isə qısa olur.

TMK-nın fəaliyyəti müxtəlif və rəngarəngdir. Onlar avtomobil, neftçıxarma, elektronika, metallurgiya, maşınqayırma, kimya, yeyinti ve s. məhsulların istehsalı, satışı və tədqiqatı ilə məşğul olurlar. Dünya iqtisadiyyatına aid olan ədəbiyyatlarda verilən məlumatlara görə beynəlxalq kompaniyaların fəaliyyət dairəsinin 60%-ni istehsal təşkil edir. Xidmət sferasının payına 37 faiz düşiir. Qalan 3% isə hasilat və kənd təsərrüfatını əhatə edir.

TMK-nın hərəkətverici qüvvələrindən biri də, onların son dövrlərdə meydana gəlmiş transmilli banklara arxalanmalarıdır. Bu banklar TMK-nın inkişafının maliyyə əsası kimi, özləri isə istehsal ın və maliyyənin beynəlmiləlləşdirilməsinin yeni təzahürü kimi çıxış edirlər. Belə bankların minlərlə filialları dünyanın bütün nöqtələrində fəaliyyət göstərir və beynəlxalq firmaların inkişaf etməsinə və çiçəklənməsinə kömək göstərirlər.

### 3.3.TMK-nın başlıca xüsusiyyətləri və səmərəli fəaliyyətinin səbəbləri

TMK-nın dünya təsərrüfat sistemində tutduğu yer və oynadığı rol onlann spesifık xüsusiyyətlərindən irəli gəlir. Belaə xüsusiyyətlərdən biri onların fəaliyyətinin **universal** olmasıdır. TMK həm ticarətçi (tacir, kommersant), həm investor, həm də müasir texnologiyanı yayan və beynəlxalq əmək miqrasiyasını stimullaşdıran strukturlardır. Onlar istənilən məhsulu istehsal etmə, reallaşdırma, ticarətə nəzarət etmə , dünya və region bazarlarına təsir göstərməyə qadirdirlər.

TMK-lar **monopol** birliklərdir, fəaliyyət dairəsinə görə beynəlxalq miqyaslıdırlar. Onlar bir çox cəhətdən dünya bazarında əmtəələrin və xidmətlərin dinamikasını və strukturunu, onların rəqabətə dözümlüyünü təyin edirlər. Kapitalın beynəlxalq miqyasda hərəkətinə və biliyin və texnologiyanın ötürülməsinə güclü təsir göstərirlər.TMK-lar öz mahiyyətləri nöqteyi-nəzərincə beynəlmiləldirlər və dünya iqtisadiyyatının vahid orqanizm kimi formalaşmasında mühüm rol oynayırlar.Müxtəlif ölkələrin müəssisələri arasında istehsal əlaqələrinin dərinləşməsində və genişlənməsində onların rolu getdıkcə artır.

TMK-nın ən başlıca xüsusiyyətlərindən biri fəaliyyətin mənsub olduğu ölkədən kənarda xarici ölkələrdə keçirilməsidir. Baş (valideyn, ana) kompaniya adətən "doğma" ölkədə, müxtəlif ölçüdə olan fılиallar isə xarici ölkələrdə fəaliyyət göstərir. TMK-lar tam bir təsərrüfat imperiyasını xatırladırlar. Onların özlərinin səlahiyyətləri, hakimiyyəti, müxtəlif orqan və strukturları, çoxlu ölkələrdə müştəriləri vardır. TMK-ın yaxşı təşkil olunmuş nəqliyyatı, kommersiya sirrini qorumağa, rəqiblərinin istehsal sirlərini öyrənməyə qadir xüsusi aparatları, tərkiblərində bank strukturları fəaliyyət göstərir. Yüksək səviyyədə təşkil olunmuş maliyyə imkanlarına malik olan ayrı-ayn TMK-nın sərəncamında olan maliyyə vəsaitlərinin məbləği çox vaxt bir neçə inkişafda olan ölkələrin üst-üstə maliyyə imkanlarından çox ola bilər. Bir qayda olaraq dövlət TMK-nın iqtisadi, siyasi, hüquqi maraqlarını müdafıə edir.

Dünya iqtisadiyyatına təsiri, geri qalmış ölklərin iqtisadi inkişafı baxımından TMK-nın fəaliyyətində ziddiyyətlər görmək olar. Bır tərəfdən TMK-lar fəaliyyət göstərdiyi ölkələrin inkişaf etməsi üçün

şərait yaratmağa (elmi-texniki nailiyyətlərin təsərrüfatlarda tətbiqini sürətləndirməyə və s.) nail olurlar, digər tərəfdən ölkənin iqtisadi asılılığını artırırlar.TMK-lar bütün dünyada və xüsusən zəif inkişaf etmiş ölkələrdə fəaliyyət göstərir və bir qayda olaraq bu ölkələrdə iqtisadiyyatın əsas sahələrini öz nəzarətlərinə götürürlər.

İqtisadiyyatın monopollaşması prosesi, məlum olduğu kimi uzun illər bundan qabaq XIX-XX əsrlərdə başlamışdır. Kartellər bunun ən çox yayılmış forması idi. Müəyyən dərəcədə beynəlxalq xassələri olsa da, kartellər əsasən daxili bazara işləyirdilər. Müasir dövrün monopolistləri olan TMK-nın isə əsas fəaliyyət dairələri xarici dövlətlərdir. Əsas məqsədləri isə istehsalı özlərinə münasib ölkələrin ərazilərində yüksəltmək və bu yolla da özlərinə mənfəət, əhaliyə isə keyfiyyətli məhsul vermək və xidmət göstərməkdir.

TMK-nm əsas xüsusiyyətlərindən və səmərəli fəaliyyət göstərmələrinə təsir edən amillərdən biri də onların dünya miqyasında maliyyə resurslarından öz xeyirləri üçün istifadə etmələridir. ABŞ-ın Maliyyə Nazirliyinin məlumatlarına görə Amerika korporasiyalarının xaricdə yerləşən filiallarının aktivlərində olan vəsaitin məbləği keçən əsrin 90-cı illərinin ortasında 2 trilyon dollar təşkil edib. Onların maliyyələşdirilməsində vəsaiti qəbul edən dövlətlərin və üçüncü dövlətlərin fiziki və hüquqi şəxslərinin vəsaiti ABŞ-da yerləşən baş kompaniyaların onlara yönəltdiyi vəsaitdən çox olmuşdur.

TMK-lar bir cəhətdən də diqqəti cəlb edir. Bu strukturlar elmi, texnikı və texnoloji yenilikləri qısa müddətdə istehsala tətbiq etmək, innovasiya mühitləri yaratmaq, bütün səviyyələrdə bazarı öyrənmək, onların sektorlarını araşdırmaqda dünyada fəaliyyət göstərən ən qabaqcıl kompaniyalarla yarışa girə bilir və qalib gəlirlər. Ən əlamətdar cəhət ondadır ki, TMK-lar istehsalın səmərəli olmasına kompleks yanaşırlar və xüsusən istehsalın sosial iqtisadi və təşkilati cəhətlərinə çox fikir verirlər. Onlar beynəlxalq menecment sənətinə ustalıqla yiyələnirlər və bu sahədə böyük və əməli təcrübə toplamışlar.

Fəaliyyətin diversifikasiyalaşdırılması, dinamikliyi, cevikliyi və uyuşqanlı olması hər hansı süni şəkildə meydana gəlmiş və yaxud da obyektiv səbəblər üzündən yaranmış vəziyyətlərdən "üzü açıq" çıxmaları TMK-lara xas olan xüsusiyyətdir.Bu cəhətlə imkan verir ki,

onun təşkilatçıları istehsalı və satışı vaxtında optimallaşdıra və firmanın şöhrətini saxlaya bilsinlər.

### 3.4.Dünya iqtisadiyyatı və TMK

Dünya iqtisadiyyatının inkişaf və tərəqqi etməsində TMK-ların rolu çox böyükdür. Beynəlxalq korporasiyalar məhsuldar qüvvələrin beynəlmiləlləşməsinə səbəb olurlar ki, bu da öz növbəsində bazar münasibətlərində meydana gəlmiş məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dünya miqyasında (beynəlxalq miqyasda) təşəkkül tapmasına çox gözəl şərait yaradırlar və dünya iqtisadiyyatının inkişafına və rezonans səmərə əldə etməyə imkan verir: ayrı-ayrı milli kapitalların birləşdirilməsinə əsaslanan monopollaşma fəaliyyət göstərdiyi ölkələrdə məhsuldar qüvvələrin inkişafı üçün yeni şərait yaradır. Elə şəraitlə ki, TMK-sız bəlkə də heç yaranmayacaqdı, ya da ki, yaranması üçün uzun illər tələb olunacaqdı.

TMK-lar yüksək mənfəət əldə etmələri üçün hərtərəfl çalışırlar və bu yolda istər-istəməz beynəlmiləlləşirlər. Bu prosesin özü bütün dünya iqtisadiyyatına müsbət təsir göstərir. Beynəlmiləl status almış belə korporasiyaların ilk maraqları çoxlu mənfəət əldə etməkdirsə, sonrakı maraqları (öz iradələrindən asılı olmadan dünya iqtisadiyyatının inkişafını təmin etməkdir. Onlar mənfəət "əldə etmək xatirinə dünyada baş verəcək neqativ (etnik çəkişmələr müharibələr) hallara da çox pis yanaşırlar və deməli, dünya iqtisadiyyatının inkişafı üçün şərait yaranmasının "mübarizlərinə” çevrilirlər. Xarici ölkələrdə fəaliyyət göstərən filialların istehsal təsərrüfat fəaliyyəti TMK-nın öz ölkəsində yerləşən baş qərargahından idarə edilir və istehsal edilən məhsul çox vaxt dünya bazarı üçün nəzərdə tutulur. TMK- beynəlxalq əmək bölgüsünün sürətlənməsinə şərait yaradır. Kompaniyalar arasında, ölkələr arasında baş verən əmək bölgüsü bir fırma daxilində beynəlxalq əmək bölgüsü ilə tamamlanır. Bu cür çoxmillətli kompaniyalar son illər müəyyən xidmət növlərinin həyata keçirilməsi ilə də məşğul olmağa başlamışlar.

TMK-nın dünya iqtisadiyyatına təsirinin digər tərəfı elmi-texniki tərəqqi və onun nailiyyətlərinin istehsala gecikmədən tətbiq edilməsi ilə

bağıldır. Bu sahədə TMK-ı əvəz edən başqa struktur tapmaq cətindir. TMK-ların özləri beynəlxalq təsərrüfat strukturu olmaqla mahiyyətcə innovasiya növlü strukurlardır. Onlar öz filialları vasitəsilə elmi-texniki tərəqqi nailiyyətlərinin digər ölkələrə də yayılmasına səbəb olurlar. Toxuculuq və elkektronika sahəsində bu proses daha çox nəzərə çarpır. Məhz TMK -ların dünyanın bir çox ölkələrindəki firma və kompaniyalarda əlaqəyə girmək, birgə müəssisə yaratmaq, fundamental və priklad tədqiqatlar həyata keçirmək, lisenziya almaq, əməkdaşlıq etdiyı müəssisələrin texniki-istehsal bazalarını müasir səviyyədə qaldırmaq üçün imkanları daha çox olur.

## 3.5.TMK-ın coğrafiyası

İnkişaf etmiş ölkələrdən dünyanın digər ölkələrinə axan kapitalın həcmi gctdikcə artır. Ölkələr sərbəst kapital toplandıqca bu prosesə qoşulurlar. Lakin yeni nəhənglərin meydana gəlməsində yüksək sürət nəzərə çarpmasa da, xaricə axan kapitalın ümumi həcmində ənənəvi olaraq bu prosesdə iştirak edən ölkələrin xüsusi çəkiləri və yerlərinin dəyişməsi tez-tez baş verir. Məsələn, keçən əsrin 80-cı illərinin birinci yarısında İngiltərədən xaricə axan kapitalın həcmi ABŞ-dan axan kapitalın göstəricisindən çox olmuşdur. TMK-nın inkişafında Yaponiyanın rolu getdikcə artır.

Keçən əsrin 80-ci illərinin axırında 90-cı illərinin əvvəlində Yaponiya xaricə kapital çıxaran nəhəng investor statusu almışdı.

Dünya təsərrüfat sistemində baş verən dəyişikliklər, dərindən baxanda, elə transmilli korporasiyların özləri tərəfindən stimullaşdınlır. Digər tərəfdən, dünya iqtisadiyyatında baş vermiş dəyişikliklərin özü TMK-ın sayında, strukturunda, ölçülərində və fəaliyyət sahələrində müəyyən dəyişikliklərin baş verməsinə səbəb olur. Son illər kapitalın və istehsalın transmilliləşməsi prosesinə orta ölçülü kompaniyalar da qoşulur. Xaricə kapital ötürən ölkələrin coğrafiyası da dəyişir. İnkişaf etmiş ölkələrin və yeni dövlətlərin də prosesə qoşulmaları nəzərə çarpır.

Lakin TMK-ın yaradıcıları olan ölkələr öz mövqelərini əldən vermirlər. Hazırda əsas və nəhəng transmilli korporasiyalar planetimizin üç nəhəng qütblərinin iqtisadi mərkəzlərinin - ABŞ Avropa Şurası və Yaponiyanm ixtiyarındadır. Onlar dünya iqtisadiyyatının inkişafına müsbət təsir etməkdə davam edirlər.

# V FƏSİL.DÜNYA İQTİSADİYYATI VƏ QLOBAL PROBLEMLƏR

## §1.Qlobal problemlər və onların əsas əlamətləri

### 1.1.Problemin mahiyyəti

Yer kürəsinin hansı tərəfində yeləşməsindən və inkişaf səviyyəsindən asılı olmadan bütün dövlətləri özləriin daxili sosial – iqtisadi inkişafı ilə bağlı məslələrlə yanaşı dünyanın qlobal adlandırılan məsələləri də bu və ya başqa səviyyədə maraqlandırır.Qlobal problemlərə maraqların artmasının obyektiv əsası vardır. İlk növbədə, bu, "qlobal" sininfinə aid edilən problemlərin ümmubəşəriliyi ilə izah edilə bilər.

"Qloballıq" anlayışı özü-özlüyündə çox mürəkkəb və dərin, əhatəli və mahiyyətcə gec dərk edilən anlayışdır.Qlobal sözünü bir adam, bir qrup adam və yaxud bir dövlət hətta dövlət qrupları üçün çox çətin olan, həlli ilk baxışda mümkün olmayan, böhran vəziyyətdə olan halları ifadə etmək üçün işlətmək qəbul olunmuşdur.İlk növbədə dünya iqtisadiyyatı üçün bunun mənasını aydımlaşdırmaq lazımdır.

Dünya iqtisadiyyatında işlədilən "qlobal problem" özünün bir neçə əlamətlərinə görə də digər, heç az əhəmiyyətə malik olmayan iqtisadi və sosial problemlərdən fərqlənirlər. Bu əlamətlər hansılardır?Birincisi,onların ümumibəşəri məzmuna malik olmalarıdır. Bu əlamət qlobal problemi bəşəriyyətin gələcəyi ilə formalaşmış sivilizasiyasının saxlanılması və inkişafetdirilməsi amilinə və qarantına çevirir. İkinci əlamət qlobal problemlərin əhalisinin sayından, sosial-iqtisadi qurluşundan, iqtisadiyyatınınvəziyyətindən, coğrafi mühitindən, elmi-texniki inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlər üçün səviyyədə universal və kəskin olmalıdır.Qıobal problemlərin üçüncü əlaməti onların kompleksliliyidir. Bu əlamət hər bir problem daxilində təbii-coğrafi, elmi-texniki, sosial-iqtisadi və siyasi aspektlərin xüsusi

qarşılıqlı təsirdə olmasını xarakterizəı edir.Dördüncü əlamət problemlərin dinamik lomasıdır. Bu o deməkdir ki, hər hansı konkret problemlərin digər problemlər daxilində yeri və tutuduğu mövge dəyişkəndir.Belə hal ola bilər ki, dünya dövlətlərinin birgə əməkdaşlığı nəticəsində hər hansı bir ixtiyari götürülmüş problemin kəskinliyi azalsın və hətta heçə ensin və yaxud da əksinə, ümumi dil tapmadıqda lap elə xırda görünən problem şaxələnsin və bütün bəşəriyyəti bürüsün.

Bu göstərdiyimiz əlamətlər qlobal problemləri digər problemlərdən (bir ölkə və yaxud region üçün aktual olan problemlərdən) fərqləndirən əlamətlərdir. Lakin bu əlamətlər qlobal problemlərin genezisini başa düşmək üçün kifayət deyildir. Qlobal problemlərin genesizi bilavasitə ayrı-ayrı ölkə, və öıkələr qrupunda baş verən siyasi, sosial-iqtisadi və təbii problemlərlə sıx əlaqədar olan bir perosesdir. Hansı əlamətə malik olmalarında asılı olmayaraq qlobal problemlər spesifik və əlahiddələşmış qrup problemlərdirki, bunların hamısında ümumibəşərilik koloriti birinci yerdə durur.

Beləliklə, qlobal problem elə problemdir ki, o bütün bəşəriyyətin həyatı maraqlarına toxunur və həlli üçün müxtəlif ölkələrin,bütün dünya cəmiyyətlərinin birgə əməkdaşlığını, səyini tələb edir.Qlobal problemlər öz təbiətlərinə görə kompleks xarakterlidirlər, insanı hərtərəfli və dərindən düşündürmək xüsusiyyətlərinə malikdirlər. Həllini təcili tələb problemdirlər.Onların həm beynəlxalq,həm siyasi və həm də sosial-iqtisadi aspektləri vardır.

## 1.2.Qlobal problemlərin meydana çıxma səbəbləri

Dünya iqtisadiyyatının müasir dövrünün xarakterik xüsusiyyətlərindən ən başlıcası keyfiyyətcə yeni və bir-birilə sıx əlaqədə olan qlobal problemlərin meydana gəlməsi və kəskinləşməsidir. Onların ortaya çıxması da dünya ictimaiyyətinin və bütün ölkələrin diqqətini cəlb etməsi, istehsalın maddi əsasının genişlənməsi və dünya əhalisinin durmadan artması kimi obyektiv prosesla bağlıdır. Kəskinləşməsinin səbəbi isə yüksək templə sürətlənən elmi texniki inqiıabdır. Onu da almaq lazımdır ki,elmi texniki inqilab bütün ölkələrdə eyni templə,eyni səviyyədə inkişaf etmir.Bundan başqa, ölkələrin bu məsələyə münasibəti də müxtəlifdir.Elmi-texniki

nailiyyətlərdən istehsalda istifadə edərkən problemlərə kompleks münasibətin olmması və yaxud da imkanlı ölkənin digər ölkələrdə məhsuldar qüvvələrin inkişaf etdirlimısi şüarı altında əks nəticələri nəzərə almadan elmi-texniki inqilabın nailiyyətlərini tətbiq etməsi son nəticədə onları dünyada qlobal problemlərin meydana gəlməsi və kəskinləşməsi müəllidlərinə çevirir.

Deməli, bir və bir qrup ölkənin texniki və elmi nailiyyətlərdən düzgün istifadə etməməsi bütün bəşəriyyət üçün problemlər yarada bilər.

Bu və digər səbəblər üzündən dünyada yaranmış qlobal problemlərə xammal-mineral və enerji,ətraf mühitin qorunması, aclıqla və ən qorxulu xəstəliklərlə nübarizə, səmərəli demoqrafik siyasətin işlənib hazırlanması, kosmosun və dünya okeanının mənimsənilməsi, yeni meydana gəlmiş dövlətlərin iqtisadi və elmi-texniki gərginliyinin aradan qaldırılınası, sülhün və beynəlxalq əməkdaşlığın bərqərar olub möhkəmlənməsi, sivilizasiyasını məhv etməyə qadir qızğın silahlanmanın dayandırılması,urbanizasiya prosesinin idarə olunması, planetin qlobal istilənməsi kimi digər problemlər daxildir.

## 1.3.Qlobal problemlərin qruplaşdırılması

Göründüyü kimi problemlər çoxdur. Dünya iqtisadiyyatında onların rolunu, yerini və həlli yollarını düzgün təyin etmək üçün qlobal problemləri üç qrup şəklində öyrənmək məqsədyönlüdür.

Birinci qrup problemlər öz mahiyyətlərinə görə ictimai-siyasi xarakter daşıyır və dövrümüzün hazırkı pilləsinin siyasi reallıqları ilə şərtləşirlər.Belə problemlərə müharibə sülh, etnik çəkişmələr, tərksilah uğrunda mübarizə, hərbi texnikanın gündəlik tələbat məhsulları istehsalına uyğunlaşdırılması, müxtəlif növ əsarətlərdən azad olmuş ölkələrin iqtisadi və elmi-texniki gerilik problemi və müəyyən mənada demoqrafik problemlər daxildir.

İkinci qrup problemlər cəmiyyətlə təbiət arasında baş verən münasibətlərdən doğur və elmi-texniki inqilabların təsiri altında kəskinləşirlər. Mineral-xammal və enerji problemləri,ətraf mühitin qorunması,kosmosun və Dünya okeanı resurslarının mənimsənilməsi, qlobal istiləşmə bu qəbilədən olan problemlərdir.

Üçüncü qrup problemlərin meydana çıxma fazası şəxsiyyət və cəmiyyət arasındakı qrşılıqlı münasibətlərdir. Belə problemlərə ilk növbədə aclıq və xəstəliklərlə mübarizə, sosial tərəqqi naminə elm və texnikanın tərəqqəsinə nail olmaq, ondan hərtərəfli və səmərəli istifadə etmək, təhsilin və kadr hazırlığının yaxşılaşdırması kimi problemlər daxildir. Göründüyü kimi qrupa aid olunan problemlərin səbəblərinin kökündə dövlətlər və bu dövlətlərdə yaşayan insanların münasibəti durur. Öz xalqının gələcəyi haqqnda düşünən dövlət xadimləri olan ölkələrdə bu qrup problemlərin meydana çıxması ehtimalı da azalır.Korrupsiyaya, rüşvətxorluğa qurşanmış dövlətlərdə isə əksinə, bu problemlər yaranır, kəskinləşir, qloballaşır, cəmiyyəti iflic edir.

XXI əsrin əvvəlində dünya təsərrüfatı yarımsistemləri və bütövlükdə dünya iqtisadiyyatı inkişafının yollarına və ümumiyyətlə, iqtisadi fəaliyyətə daha çox yaradıcılıqla yanaşmaq zərurəti mydana gəlmişdir. Planetar miqyasda ictimai inkişaf konsepsiyası işlənib hazırlanmalı və iqtisadi inkişaf isə ancaq bu konsepsiya çərçivəsində aparılmalıdır. Qlobal problemlərin meydana gəlməsi, sürətlənməsi, zəifləməsi, nə dərəcədə əhəmiyyət kəsb etməsi,onların prioritetliyi məsələlərinə də çox ehtiyatla yanaşmaq tələb olunur.Keçən əsrin 70-ci, 80-cı və xüsusən 90-cı illərində elmdə, texnikada,istehsalda baş verən inqilabi dəyişiliklər qlobal problemlərin prioritetliyinə güclü təsir göstərə bildi. Məsələn 60-cı illərdə nüvə müharibəsinin qarşısının alınması ən prioritet qlobal hesab edilirdisə, indiki dövrdə ekoloji, demoqrafik aclıq, zəif inkişaf etmiş ölkələrin olması, qlobal istiləşmə problemləri ön plana çəkilir.

## §2.Dünya Okeanından istifadə edilməsi problemi

### 2.1. Problemin mahiyyəti

Müasir dövrün qlobal problemlərindən olan Dünya okeanından istifadə edilməsi probleminin fərqləndirici xüsusiyyətləri vardır. İlk növbədə Dünya okeanı vahid təbii mühit,ümimi əmək cismidir. Dəniz təsərrüfatının məhsuldar qüvvələri kompleks xarakterə malikdir. Son nəticədə Dünya okeanı insanlar üçün həm iqtisadiyyat, həm sosial inkişaf, həm qurunu yaşamaq üçün lazımi şəklə, lazımi

vəziyyətə gətirən bir təbii varlıqdır. Elmi əsaslar üzrə, ağılla istifadə etdikdə okean sənayenin demək olar ki, tükənməyən xammal bazasıdır, enerji mənbəyidir.Bütün bunlarla yanaşı Dünya okeanı ölkələrin həm də siyasi maraq dairəsidir. Onu da qeyd edək ki, bu günə qədər Dünya okeanının səthinin və dibinin öyrənilməsi tam başa çatmamışdır.

Çox qiymətli faydalı qazıntılar və xüsusən də, qeyri-ənənəvi minerallar Dünya okeanının 4000-6000 m dərinliklərində yerləşirlər. Onların mənimsənilmə- si üçün tələb olunan kapitalın öhdəsindən isə ancaq dövlətlərin birgə səyləri ilə gəlmək olar.Mütəxəssislərin fikrincə suyun dərin qatlarının mənimsənilməsi okean filiz hasilat komplesksinin və metallurqiya kombinatının yaradılmasını,geniş şəbəkəli infrastrukturların və xammalın sahilə daşınmasının təşkil edilməsini tələb edir ki, bu cür texniki vasitələrin həyata keçirilməsi minimum-maksimum diapazonda 400-1300 milyard dollar vəsait tələb edir. Belə xərcin özü də Dünya okeanının mənimsənilməsini və istifadə edilməsini qloballaşdırır, ümumbəşəri edir.

Təkcə bu deyilənlər göstərir ki, təbiət özü okeanı insanlar üçün "ümumi" yaradıb və tək-tək götürdükdə hər hansı bir səviyyədə yaradılmasından asılı olmayaraq müxtəlif milli, regional və digər mexanizimlər onun problemlərini tam həll edə bilməz. Lakin indiki dövrdə məsələyə diqqətlə yanaşdıqda görmək olar ki, çox əsrlər boyu hamının ümumisi olan və maneəsiz istifadə olunan Dünya okeanı bir qrup ölkənin təsir dairəsinə düşə bilər. Getdikcə daha çox tədqiqatçılar bu fikirlə həmrəydilər ki, bu cür halın da qabağını dünya dövlətlərinin hamısının birgə əməyi ala bilər. Həm də burada söhbət təkcə iqtisadi amillərin vəhdətliyi zəruriliyindən yox,eyni zamanda siyasi razılıqlardan da gedir.

## 2.2.Problemin yaranma səbəbləri

Ümumiyyətlə götürdükdə, Dünya okeanı probleminin qlobal şəki alması bir neçə kompleks, bir-biri ilə sıx bağlı olan səbəblər üzündən baş vermişdır.Dünya miqyasında xammal, energetika, ərzaq böhranlarının meydana gəlib qlobalaşması, texniki tərəqqinin sürətlə inkişafı və bunun nəticəsində kilometrələrlə ölçülən dərinliklərdə tədqiqat aparmağa və təssərrüfatla məşğul olmağa imkan yaradan əmək vasitələrinin meydana gəlməsi, dəniz təsərrüfatında dövlətarası mülküyyətlərin, istehsalların və idarəetmə mexanizimlərinin

(strukturların) meydana gəlməsi bu cür səbəblərdəndir. Bunlar okeanın ümumibəşəriliyinin hüquqi səndlərlə təsdiq edilməsində mühüm rol oynadılar,okeanın birgə öyrənilməsini və istifadəsini siyasi zərurilik həddinə çatdırdılar.

Dünya okeanı probleminin dünyəvi problem statusu almasında dəniz və okeanların, sosial-iqtisadi inkişafda oynaya biləcək rolunun hamı tərəfindən və xüsusən də inkişaf etməkdə olan dövlətlər tərəfindən dərk edilməsi prosesinin başa çatması və ekoloji problemin qloballaşması məsələləri də rol oynamamışdır.Iakin problemin digər tərəfi ondadır ki, inkişafda olan ölkə və regionların tələb olunan qədər vəsaitləri, siyasi fəallıqları yoxdur ki, Okeanın sərvətlərini mənimsəməyə, özünü isə qoruya bilsinlər. Bunun üçün ölkələrin birgə səyi və bu sahədə onların məhsuldar əməkdaşlığı tələb olunur.

## 2.3.Dünya okeanının iqtisadiyyata təsir imkanları

Dünya okeanının iqtisadi baxımdan bütün sirri açılmasa da onun zəngin resurslara malik olması bəşəriyyətə çoxdan məlumdur. Elm və texnika inkişaf etdikcə isə bilkilərimiz daha da zənginləşir.Aydın olur ki, quruda yaşayan insanların gələcək sosial –iqtisadi inkişafı bilavasitə Dünya okeanı ilə bağlı olacaqdır.

İqtisadiyyatı inkişaf etdirmək üçün əsas komponentlərin cəmləşdiyi yer Dünya okeanının dibidir. Burada çoxlu mənimsənilmiş və mənimsənilməmiş neft və qaz yataqları, dəmir filizi,kömür mis, nikel, qurğuşun,limiti olmayan qədər tikinti materialları,sənayenin və iqtisadiyyatın digər sahələrinin inkişafı üçün zəruri və qiymətli olan digər komponentlər toplanmışdır.

Minerallar ehtiyatı həll olunmuş şəkidə dəniz suyunun tərkibində bundanda çoxdur.Məsələn, dünya okeanı sularında həll olunmuş şəkildə uranın miqdarı 4-5 milrd.ton, litiumda isə 170-200 milyard ton göstərilir .Dənizin dalğaları, dəniz cərəyanları ,istilik qradientləri və bu kimi dəniz “amilləri ” iqtisadiyyatı inkişaf etdirmək üçün mühüm potensial imkandır və dünya iqtisadiyyatı öz tələbatlarını ödəmək üçün onlardan istifadəni təmin etməlidir.

Dünya okeanı planetimizdə yaradılan biokütlənin 43%-ni verir. yerin quru hissəsində bitən bitki növlərinin əksəriyyəti(50%-dən çoxu),heyvan növlərinin demək olar ki, hamısı hidrosiferada məskunlaşmışlar.Ənənəvi olraq insanlar nektondan istifadə etmişlər və indi də edirlər. Lakin dəniz ovu ilbəil çoxalmış və keçən əsrin axrıncı onilliklərində 70 milyon tonu ötüb krçmişdir. Müqayisə üçün qeyd edək ki, göstərilən əsrin əvvəlində dəniz ovu cəmi 7 milyon ton təşkil edirdi.Dünya okeanının iqtisadiyyat üçün imkanları içərisində onun vahidliyi, əksər ölkələri əhtə etməsi və bu səbəbdən də nəqliyyat imkanına malik olması böyük əhəmiyyət kəsb edir. Dəniz nəqliyyatı ilə daşınan yüklərin çəkisi milyard tonlarla ölçülür.

Dünya okeanı bütün deyilənlərdən başqa Yer kürəsində həyat üçün lazimi şəraitin formalaşmasında həlledici rol oynayır:Yer kürəsinin bitki örtüyünün vziyyəti,heyvanat aləminin müxtəlifliyi, göl və cayların axarlılılğı, təbiətin saflığı, havanın yumşağlığı və tərkibindəki oksigenin miqdarı Dünya okeanından bilavasitə asılıdır. Bunlardan başqa, quruda əmələ gələn tullantıları qəbul edən, onların çoxunu zərərləşdirən və belliklə də Yer kürəsi ekosisteminin nisbi də olsa tarazlıq vəziyytdə olmasını təmin edən tutum da Dünya okeanıdır.

Dünya okeanından istifadənin yaxşılaşdırmaq və onun imkanlarını bəşəriyyətin sosial-iqtisadi inkişafına yönəltmək üçün ölkələr üç böyük sahədə-iqtisadi fəaliyyət sahəsində, dəniz dibinin mineral resurslarının kəşfi və mənimsənilməsi sahəsində balıqçılıq və balıq təsərrüfat tədqiqatları və ticarət gəmiciliyi sahəsində əməkdaşlığı gücləndirməlidirlər.

Keçmiş zamanlarda insanlar Dünya okeanından istifadənin hər cür genişləndirilməsinə çalışmışlar. Müasir dövrdə vəziyyət dəyişmişdir.İndi bəşəriyyətin düşünən beyinlərini onun qorunması və səmərəli istofadə edilməsi daha çox maraqlandırır.

Dünya okeanının qorunmasının və resurslarından səmərəli istifadə olunmasının hər şeydən əvvəl iqtisadi əhəmiyyəti vardır. Qlobal problem kimi məsələnin həlli sosial-iqtisadi problemlərin həllinə iki istiqamətdə təsir göstərə bilər. Birinci istiqamətdə Dünya okeanının sərvəti (məsələn balıq) insanların qidalanmasını yaxşılaşdırır. Bu birbaşa istiqamətdir.İkincisi okean dünya sənayesinin inkişafı üçün xammal bazasını genişləndirir. Qeyri-ənənəvi minerallar (dəmir-

manqan, fosforitlər,sulfidlər, titan maqnitlər, tikinti qazıntıları və.s.) zəngin olan Dünya okean eyni zamanda quruda fəaliyyət göstərən qara və əlvan metallurgiya kimya və tikinti sənayeləri üçün potensial xammal bazasıdır.

Mineralların dünya təssərrüfatı dövrüyyəsinə cəlb edilmıəsinin iqtsadi səmərəsi "hasilat- yenidənişləmə- daşınma" tsikilinin texniki-iqtisadi göstəriciləri çıxarılan komponentlərin dünya və dövlətlərarası qiymətləri və metal tikinti materialları bazarının vəziyyəti ilə təyin edilir və tənzimlənir. Təcrübə göstərir ki, bir qayda olaraq okean sərvətlərinin dövriyyəyə cəlb edilməsi iqtisadi cəhətdən srəfəli olur.Ekoloji cəhətdən sərfəli olmaq üçün isə geniş miqyasdda və hərtərəfli ekoloji təmiz texnika və texnologiyalar işlənib hazırlanmalı və tətbiq edilməlidir.

## 2.4. Dünya okeanının mənimsənilməsi istiqamətləri və problemin həlli yolları

Dünya okeanının mənimsənilmsəinin mühüm istiqamətlərindən biri dünya təssərüfat əlaqələrinin nəqliyyat nöqteyi –nəzərincə təmin edilməsidir. Dəniz təsərrüfatı fəaliyyətinin bütün qalan növləri olduqca sıx və mürəkkəb şəkildə dəniz nəqliyyatı ilə bağlı olur.

Dünya okeanı resurslarının mənimsənilməsi ilə əlaqədar olan digər siyasi-coğrafi, ekoloji və.s. kimi problemlərin də həll edilməsinin müxtəlif cəhətləri haqqında bu sözləri demək olar. Məhz dəniz nəqliyyat və onun fəaliyyət dairəsini təşkil edən dünya gəmiçiliyi, tərsanələrininkişafı, daxili nəqliyyat növləri ilə təmasın yaradılması məslələri Dünya okeanı resurslarının mnimsənilməsi, dünya təsərrüfat sisteminin fasiləsiz fəaliyyət göstərməsi coğrafi və təsərrüfat cəhətdən əmək bölgüsünün dərinləşməsi və mürəkkəbləşməsi dünya miqyasında təsərrüfatın beynəmiləlləşməsi prosesinin təmin olunması kimi qlobal problemlərin həllini bir düyündə birləşdirir.

Bununla yanaşı bır cəhəti də qeyd etmək lazımdır ki, dəniz yük nəqliyyatının alternativi yoxdur. Halbuki dəniz təsərüfat fəaliyyətinin mineral balıqçılıq və.s. kimi növləri haqında bunları söyləmək olmaz. Onların inkişafının "quru" variantı vardır. Texniki tərəqqinin nəticəsi kimi son dövrlərdə dəniz neft və qaz kəmərləri, trankoninental konteyner "körpüləri"nin, hava daşınmalarının meydana gəlməsi isə dəniz nəqliyyatı ilə yük daşınmasının rolunu zalda bilməmişdir.

Müasir elmi-teniki tərəqqi Dünya okeanının hər tərəfli öyrənilməsinə və resurslarından istifadə edilməsinə əsasən imkan verir. Lakin bu reallıq çoxdan məlum olsa da bu sahədə görülən işlərin həcmi sürəti bəşəriyyətin artan tələbatları və xüsusən də, xammal,energetika və ərzaq problemlərinin həlli baxımından qənaətbəxş sayıla bilməz. Məsələnin həllinə mane olan birinci amil Dünya okeanının mənimsənilməsində bütün ölkələrin fəal iştirakının təmin olunmasıdır.Bu səbəbin meydana gəlməsi ilk zamanlar Dünya okeanı potensialına bir neçə sənaye cəhətdən inkişaf etmiş ölkələrin tam sahib olmaları ilə bağlı olub və demək olar ki, proses müxtəlif forma və səviyyələrdə indi də davam edir. İkinci amil okeanın mənimsənilməsinin böyük xərc və mürəkkəb texnika və texnologiya tələb etməsidir. Təsadüfü deyildir ki,çox zaman dəniz texnikasını aviasiya və kosmik sənayesinin məhsulu ilə müqayisə edirlər. Məhz bu səbəbdən dünya əhalisinin böyük əksəriyyətinin məskunlaşdığı inkişafda olan ölkələrin dünya okeanından istifadə etmək imkanları ya çox azdır, ya da sıfra bərabərdir ki. Deməli qlobal Dünya okeanı probleminin həlli də bir çox cəhətdən  digər qlobal problemin-dövlətlərin iqtisadi cəhətdən geri qalmalarının aradan qaldırılması probleminin həllindən çox asılıdır.

Dünya okeanından istifadənin yaxşılaşdırmaq və onun resurslarını insanların artan tələbatlarının ödənilməsinə yönəltmək məsələsidir. Məhz buna görə də Dünya okeanı probleminin həlli yolları bütün ölkələrin səmərəli əməkdaşlarını təmin etməkdən keçir.Dünya okeanının tədbiqi və mənimsənilməsi sahəsində beynəlxalq əməkdaşlığın  iqtisadi və hüquqi aspektlərinin sıx qarşılıqlı əlaqədar olması təkcə əldə edilmiş nailiyyətlərin nəzərə alınması deyil,həm də iqtisadçıların və hüquqşünasların birgə hazırladıqları bir sıra iri texniki, texnoloji, istehsal, ekoloji və.s. problemləri nəzərdə tutur.

Dünya okeanı sərvətlərinin mənimsənilməsi probleminin həllində bütün ölkələrin maksiimum iştirakının aktuallığı gün-gündən artır və prosesi izləsək, tam qətiyyətlə demək olar ki, Dünya okeanı problemi gələcəkdə daha aktual bir problemə çevriləcəkdir. Okeanın resurslarından və fəzasından elmi-texniki tərrəqini sürətləndirməklə daha səmərəli istifadə edilməsi zərurəti ölkələrin əməkdaşlığını da birinci plana çəkir. Hər hansı bir şəkildə olursa-olsun kean problemi

ölkələrin iqtisadi siyasətinin tərkib hissəsinə və ölkələrin daxili və xarici problemlərinin həlli vasitəsinə çevrilir

Okean probleminin həllinin aktuallığını və bu problemin həllində ortaya çıxan hüquqi məsələlərin yoluna qoyulmasının vacinbliyini nəzərə alan BMT və onun müvafiq strujturları bir sıra tədbirlər həyata keçirirlər. Belə tədbirlərdən biri 1973-1982- ci illərdə keçirilən və başa çatan BMT-nin III konfransı idi. Bu konfransda okean dibindən istifadənin hüquqi əsasaları işlənib haırlanmış və demək olar ki, bütün ölkələr tərəfindən qəbul edilmişdi. Bundan başqa, dünyada qəbul edilmiş bir sıra mühüm sənədlər (məsələn, iqtisadi zonalar konsepsiyası)Dünya okeanından istifadənin hüquqi əsaslarını təyin edir və bütün ölkələrin maraqlarını qorumaqla dənizlrdən səmərəli istifadə olunması üçün şərait yaradır.

BMT-nin Dünya okeanına həsr edilmiş sonrakı konfranslarında və iqtisadi zonalar konsepsiyasında dənizlərdə canlı resursların kəşfi və işlənməsi işlərinin həyata keçirilməsi, iqtisadi zonalarda dəniz dibi resurslarının işlənilməsi, dəniz tədqiqat işlərinin həyata keçirilməsi,dəniz mühitinin qorunması, dənizdə süni adacıqların və qurğuların yaradılması və istifadəsi, gəmiçilik əməliyyatlarının həyata keçirilməsi, uçan aparatların hərəkəti, dənizaltı kabel və boru kəmərlərinin yaradılması və.s. kimi Dünya okeanından istifadə edilməsinə aid olan məsələlərin hüquqi əsasları işlənib hazırlanmışdır. Bu məsələlər üzrə dünyada qəbul edilmiş qaydalara əməl olunması Dünya okeanının mənimsənilməsinə və düzgün istifadə olunmasına müsbət təsir göstərə bilər.

## §3.QLOBAL EKOLOJİ PROBLEMLƏR

### 3.1.İnsan-təbiət-iqtisadiyyat

İqtisadiyyat və ətraf mühit. Bunların ikisi də yer kürəsində yaşayanlar və ilk növbədə insanlar üçün lazımdır.Ətraf mühit,təbiət birincidir.Təbiət son nəticədə biz insanların həm maddi və həm də mənəvi varlığının mənbəyidir. İqtisadiyyatı meydana gətirən və inkişaf etdirən insanlardır. Məqsəd daha yaxşı yaşamaqdır. Təbiətə toxunmadan iqtisadiyyatı inkişaf etdirmək mümkün deyil. Təbiətdən istifadə edib

iqtisadiyyat yaradanda biz eyni zamanda təbiətə təsir göstəririk, onu bir növ "yaralayırıq".Bu yara da sonradan insanlar üçün yeni xoşagəlməz problemlər ortaya çıxarır.Yaralı təbiət özü insan üçün böyük təhlükəyə çevrilir və hətta onun bir canlı kimi fəaliyyət göstərə bilməsi bacarığını, lap sadə desək yaşamağını təhlükə altına qoyur.

Təbiətdə vurduğumuz zərərlə və bunun nəticəsində əmələ gələn yaralar müalicə olunmadıqca pisləşir, dərinləşir, ətraf mühiti yaşamaq mümkün olmayan həddə çatdırır.Bu zaman biz "böhran"sözünü işlədirik.Deyirik ki, ekoloji böhran vəziyyətindədir yəni insan və digər canlılar üçün təhlükəlidir. Bu cür hal yer kürəsinin bir şəhərini, məsələsini, ölkəsini, regionunu və qitəsini əhatə edə bilər. Belə vəziyyət bütün planetimizi bürüyəndə, bütün insanların taleyi təhlükə altında qalanda qlobal sözündən istifadə edirik. İnsanlar və xüsusən özlərinin sırf milli maraqlarını qoruyan ölkələrin rəhbərləri təbiəti çox ağır bir vəziyyətə salıblar. Bu vəziyyəti xarakterizə etmək üçün müasir dövrdə biz belə deməyə məcburuq: "Planetimizin ekologiyası böhran vəziyyətindədir və Qlobal xarakter daşıyır"

Bu gün ekoloji problem dünya təsərrüfatı yarımsistemlərinə və bütövlükdə dünya iqtisadiyytaının inkişafına ən güclü mənfi təsir göstərən amilə çevrilmişdir.

### 3.2. Ekoloji problemin qloballığı

Ekologiya problemi bu və ya başqa səviyyədə coxdan mövcuddur. Lakin ətraf mühitin nəzərə çarpan dərərcədə pisləşməsi XIX əsrdə baş vermiş və böhran həddinə çatmışdır. Bu böhran özünün əyani təzahürünü torpaqların zəhərlənməsində, planetdə gedən meşəsizləşmə proseslərində, suyun çatışmazlığında cay dəniz, okeanların çirklənməsində, azon təbəqəsini dağılmasında havada daha çoxzərərli komponentlərin meydana gəlməsində və.s.bu kimi insanın sağlam yaşamasına mane olan halların meydana gəlib sürətlə inkişaf etməsində tapır.

Bu gün ekoloji problemin əhatə dairəsi genişlənmişdir və qlobal xarakter daşıyır. Problemin qlobal "status" alması aşağıdakılarla izah oluna bilər.Birincisi, insanların fəaliyyət nəticəsində mənfi təsirə məruz qalan obyektlərin sayı kəmiyyət və dərinlik nöqteyi-nəzərincə çoxalmış

və sözün tam mənnasında yer kürəsinin bütün təbii sferalarını əhatə edir. İkincisi, iqtisadiyyat və ekologiya arasında yaranmış ziddittətin mənfi təsirinə bu və ya başqa səviyyədə bütün ölkələr məruz qalmışdır. Ücüncüsü, insanların fəaliyyəti elə səviyyəyə çatmışdır ki, onlar planetdə gedən təbii proseslərə ölümcül təsir göstərə bilərlər və əgər istilik nüvə müharibəsi olarsa uzun illər boyu yaranmış sivilizasiyanı məhv edə bilərlər. Nəhayət, dördüncüsü, ekoloji problemin həlli labüd olaraq bütün ölkələrin iştirakını tələb edir.

## 3.3. Problemin qruplaşdırılması

Əhatə miqyasına görə ekoloji problemləri üc qrupa bölmək olar:

1.Bütün planeti əhatə edən ekoloji problemlər.(bura yer kürəsinin azon təbəqəsində baş verən, mineral yanacaqların yandırılması üzündən atmosferdə karbon qazının miqdarında baş verən dəyişikliklər, meşə zolaqlarının azalması, bitki və heyvan aləmində genetik müxtəlifliyin zəifləməsi üzündən ətraf mühitdə oksigenin miqdarında baş verən dəyişikliklər daxildir).

2.region və regionlararası ekoloji problemlər. (bura Dünya okeanının çirklənməsi, səhraların çoxalması, təbii resursların tükənməsi daxildir).

3. bir dövlət çərçivəsində baş verən və sonralar qonşu dövlətlərə və bütün dünya ölkələrində təkrarlanan, lakin mahiyyətcə milli olan ekoloji problemlər (bura şəhərlərin böyüməsi, urbanizasiya proseslərinni güclənməsi, avtomobillərin çoxalması, daxili ərazilərin və təbii suların çirklənməsi və.s daxildir).

Lakin qeyd edək ki, dövlətlərarası iqtisadi əlaqələrin və beynəlxalq bölgüsünün indiki yüksək səviyyəsi baxılan üç qrup ekoloji problemlərin qloballığını azaltmır, əksinə göstərir ki, qloballıq hansı mənbələrdən doğur.

## 3.4.Ekoloji böhranın dərinliyi, təsir istiqamətləri və nəticələri

Ekoloji böhranın miqyasını təyin etmək üçün Yerin torpaq qatının, atmosferin, biosferanın və hidrosferanın vəziyyətini və bir neçə acı nəticələri nəzərdən keçirək.

**<u>1.Torpaq shələrinin itirilməsi</u>.** Bəşər tarixində dünya kənd təsərrüfatı üçün yararlı olan, lakin itirilmiş torpaq sahələri 20 milyon

kv.km.ə çatır.Müqayisə edək ki, hal-hazırda istifadədə olan torpaqlardan (təxminən 15 min.kv.km) çoxdur.Qeyri kənd təsrrüfatı işlərinin (tikintilər, dağ-mədən işləri, yol tikintisi) görülməsi nəticəsində ətraf mühitə atılan texnogen maddələrlə də bağlıdır və belə tullantıların miqdarı çoxaldıqca, ətraf mühitin pislənməsi səviyyəsi yüksələir. Dünya təsərrüfatının bütün sahələrində istehsal prosesləri zamanı atmosferə bə və ya başqa şəkildə zəhərli maddələr düşə bilər, lakin bu cəhətdən sənaye birinci yerdə gedir. Xaricə atılan tullantı və cirkləndiricilərin 55%-i bu sahənin payına düşür (energetikanın 45%) və sənayenin digər sahələrinin 10%). İkinci yerdə kənd təsərrüfatı (40%) üçüncü yerdə isə məişət və kommunal təsərrüfatı (5%)durur.

Atmosferin çirklənməsi sürətlə baş verir. 60-cı illərin əvvəllərində başlayaraq atmosferdə karbon qazının miqdarı daha intensiv şəkildə çoxalmağa başlamış və mütəxəssislərin hesablamalarına görə bu qazın atmosferdə tərkibi hazırda, 1200 il bundan qabaqkına nisbətən 30% artmışdır.Bundan başqa iqtisadiyyatı və hərbi istehsalı inkişaf etdirərkən atmosferəqayğının az olması nəticəsind planetimizin orta illik hərarəti yüksəlir və dərc oluanan materiallara görə 2050-ci ildə həırarət 1.5-4.5 dərəcə selsiya qədər arta bilər. Azon təbəqəsinin də zəifləməsini yada salsaq məslənini nəqədər ciddi olması göz qabağındadır. Qlobal istiləşmənin mənbəyi də burdadır.

Atmosferin tolanması dərəcəsi də sürətlə artır. Son 50 ildə tozlanmanın 70% pisləşmişdir. Bunun əsas səbəbi istehsal zamanı atmosferə buraxılan texnogen hissəciklərdir (aerozollardır) ki, onun da həcmi mütəxəssislərin müxtəlif səpgilərdən qiymətləndirməlkərinə görə ildə 1,0-2.6 milyard ton təşkil edir.

**3.Yerin biotasının yoxsullaşması.** Ekologiyaya təsir edən bütün istiqamətlər bioloji varlığa da güclü mənfi təsir göstərir.İlk növbədə biokimyəvi tsiklllər korlanır, energetik və termodinamik proseslər normal baş vermir. Nəticədə planetin canlı və bitki örtüyünün müxtəlifliyi azalır, bir çox canlı və bitki tamamilə aradan çıxır. Özü dəı bu proses qlobal miqyasda baş verir. Dünya miqyasında hər bil 11min. hektar meşənin məhv edilməsi isə biosferanı lap pisləşdirir. Meşəsizləşmə və xüsusən tropik meşələrin hesabına baş verən meşəsizləşmə, atmosferdən qaz, yerdəki su balanslarına və onların vasirəsi ilə də canlı bitkilərə ölümcül təsir göstərir.

**4.Hidrosferanın çirklənməsi və zəhərlənməsi.** (Yerin su qat).İqtisadiyyatı inkişaf etdırən nsanların, öz siyasi ambisiyalarını həyata keçırən dövlətlərin “səyləri” nəticəsində çayların göllərin, dənlizlərin, okeanların, yeraltı suların keyfiyyəti pisləşir və hətta istifadə etmək üçün zərərli vəziyyətə düşür.Bir sıra ölkələrdə artıq icməli su problemi yaranmışdır (bunu bizim respublikamızın timsalında da aydın görmək olur). BMT-nin hesablamalarına görə hər il Dünya okeanına 50 min ton pestisid, 5 min ton civə, 10 mln tona yaxın neft və çoxlu miqdarda digər çirkləndiricilər düşür. İnkişaf etmiş ölkələr isə “mənəvi köhnəlmiş” və zəhərli hərbi maddələri dərin suların basdırmaqla hidrosfera üçün böyük təhlükələr yaradırlar.

Qeyd edək ki, iqtisadiyyatın birtərəfli inkişaf etdirilməsi nəticəsində planetimizin ekologiyasının korlanması istiqamətləri göstərdilyimiz istiqamtlərə bitmir. Lakin digər istiqamətlər də bu göstərdiyimiz dörd istiqamətlərlə sıx əlaqə-

dar olur və onlardan doğur.

## 3.5.İqtisadiyyata dəyən zərər və yaxud ekoloji vəziyyət kapital tələb edir

Son onilliklərdə yeni xarakteristik xüsusiyyətlər “əldə etmiş” ekoloji problemin cəmiyyətə və iqtisadiyyata təsiri də dəyişmiş, qloballaşmışdır.İndi o öz yaralarını heç olmasa bir qədər sağaltmaq üçün çoxlu vəsait tələb edir.

İlk növbədə sosial məsələlərin həllində ekoloji böhran çox mənfi rol oynayır. Hətta sosial yönümlü iqtisadiyyat yaratmağa nail olmuş dövlətlər belə ekoloji təsirdən can qurtara bilmirlər. Bunu da əsas səbəbi ondadır ki, əgər uzaq keçmişlərdə insan fəaliyyətinin mənfi təsirləri təbiətin bu və ya digər komponentlərinə yönəlmişdirsə, indi bu fəaliyyətin mənfi təsirlərini, foksunda insanın özü, onun səhhəti, uzun illər boyu bəşəriyyətin əldə etdiyi sivilizasiya durur. Bundan başqa, cəmiyyətin və təbiətin qarşılıqlı əlaqəsi indi çox sıx və üzvi şəkildə təsərrüfatçılıqla cildlənir, onlar bir-birindən ayrı, təcrid olunmuş halda faliyyət göstərə bilmirlər. Bugünkü ekoloji problemin digər fərgləndirici cəhəti ondadır ki, indi insanlar təbii resurslara olan tələbatlarını keçmiş dövrlərdəki səviyyədə ödəyə bilmirlər. İndinin özündə enerji və.s. kimim problemlər dünyanı bürüyüb. Mümkün olan resursların da

əksəriyyəti bə və ya digər səviyyədə zəhərlənmişdir. Belə hal məhsuldar qüvvələrin inkişafını dayandıra bilən amilə çevrilməkdədir.

Dünya təsərrüfatı baxımından yaranmış qlobal-ekoloji anlaşılmazlıq o deməkdir ki, indi istər hər bir dövlətin və istərsə də dünya iqtisadiyyatının inkişafı bilavasitə ümumi qitə təbii şəraitindən , orada baş verən proseslərdən bilavasitə asılı vəziyyətə düşmüşdür.

Dünya iqtisadiyyatını öyrənərkən ekoloji problemin diqqət mərkəzində olmasının siyasi, bioloji, sosial-iqtisadi,psixoloji, mənəvi əhəmiyyəti vardır. Lakin son nəticədə ekoloji krizis iqtisadiyyata ən pis təsir, göstərir. Ekoloji trazlığın pozulması iqtisadiyyata birbaşa təsir göstərən proseslərdəndir. Məslən, təkcə əkin üçün yaralı sahələrin azalması, səhraların çoxalması dünya miqyasında iqtisadiyyata ildə milyard dollar dəyərində itki verir. Bu birbaşa itkidir. Dövlətlərin səhlənkarlığı və xüsusi ambisiyaları nəticəsində itirilmiş meşələrin, su mənbələrinin heç olmasa bir hissəsinin bərpa olunması üçün də əlavə xərclər tələb olunur. Bu ekoloji problemin iqtisadiyyata təsirinin ikinci istiqamətidir. Ətraf mühitin korlanmasının iqtisadiyyata təsirinin üçüncü istiqaməti canlıların və xsusən də insanların səhhətinin pisləşməsi,mxtəlif xəstəliklərin yayılması,bitgi vəeyven aləminin məhv olması ilə əlaqədar çəkilən xərclərləəlaqədardır.

Bir qayda olaraq ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün milyard və trillionlarla ölçülən miqdarda vəsaitlər tələb olunur. Hələlik isə dünya ölkələri ekologiya üçün çox cüzi miqdarda lakin getdikcə artan tempdə birbaşa vəsait ayıra bilirlər.BMT-nin hesabamalarına görə bəşəriyyət ekoloji sağaltma tədbirlərinə 1970-ci ildə 40-milyard, 1980-ci ildə -75 milyard dollara yaxın 1990-cı ildə təxminən 150 milyard vəsait xərclənmişdir. 2000-ci ildə isə bu vəsaitin məbləği təxminən 250-milyard dollar təşkil etmişdir.

1992-ci ildə BMT-nin Rio-de-Janeryoda ətraf mühitin qorunmasına həsr etdiyi beynəlxalq konfransda qəbul edilən "XXI əsr üçün gündəlik məsələ" adlı sənədlərə görə ekologiyanın qorunmasına, yaxşılaşdırılmasına çəkilən vəsaitin ortaillik məbləği təkcə inkişafda olan üzrə 600 milyard dollar təşkil etməlidir.

Onu da qeyd edək ki, planet üzrə ekoloji gərginliyin yaranmasında əsas və birinci rolu inkişaf etmiş ölkələr oynayırlar. Onlar iqtisadi cəhətdən geri qalmış ölkələrə yüksək texnologiyaları gətirirlər.

Lakin bu məsələyə kompleks yanaşmırlar. Nəticədə qabaqcıl texnologiya  tətbiq etməklə bu ölkələrin ərailərində istehsal prosesləri həyata keçirirlər, pul qazanırlar. Proseslər zamanı tullantıları, çirkli suları, zəhərli qazları lazımi səviyyədə zərərələşdirməyib təbiəti zərərləşdirməkdə davam edirlər. Burada əsas səbəb xarici invesotrlar tərəfindən öz ölkələrindən fərqli olaraq bu ölkələrdəətraf mühitin qorunmasına laz;mi vəsaitin ayrılmamasıdır. Məsələn, dünya iqtisadiyyatından yazan ədəbiyyatların verdiyi məlumatlara görə inkişaf etmiş ölkələr ətraf mühitin qorunmasına ÜMM-un 1-2%-i qədər vəsait sərf edirlər. Eyni zamanda inkişaf etməkdə olan ölkələrə ekologiyanın pisləşməsi nəıticəsində inkişaf etmiş ölkələrə dəyən zərərin məbləği onları ÜMM-nın 4-6%-ə qədər təşkil edir.

Deməli inkişaf etmiş ölkələr ekoloji məsələlərin həlli üçün vəsaitlər artırmalıdır.Lakin ekoloji tarazlığın iqtisadiyyata vurduğu birbaşa iqtisadi zərərlər çoxşaxəlidir, mürəkkəb məzmuna malikdir. Burada daha çevik təsir göstərən tədbirlər görmək lazımdır. Məsələn, iqtisadiyyat –ekologiya sxemindən ekologiya iqtisadiyyat sisteminə(sxeminə)keçmək vaxtı çatmışdır. Yəni məsələ belə qoyulmalıdır-ekoloji təhlükəsizliyi tam təmin edən iqtisadiyyata yaşıl işıq verməlidir. Qeyd edək ki, bu sahədə Yaponiyanın gözəl təcrübəsi vardır.Onlarda təbiətə münasibət digər ölkələrlə müqayisədə qat-qat yaxşıdır. Bu təcrübənin mahiyyəti ondadır ki, hər hansı bir, hətta çox məhsuldar olan texnologiya ilk növbədə **təbiətin qorunmasını** təmin edən texnologiya olmalıdır.

## 3.6.Problemin həllində beynəlxalq təşkilatların rolu

Digər qlobal problemlər kimi ekoloji problem də ancaq bütün ölkələrin birgə səyi nəticəsində həll edilə bilər. Buna görə də milli hökümətlərin həyata keçirdikləri tədbirlərə yanaşı dünya miqyasında işləri təşkil etmək üçün beynəlxalq təşkilatlardan geniş istifadə olunmalıdır.

XXI əsrin əvvələrində beynəlxalq təşkilatların işinin dügün qurulması, idarə olunması, istiqamətləndirilməsi və bu yolla ekoloji

problemin həllinə nail olmaq üçün bir zərurətə çevrilmişdir. Ekoloji problemlərin həllinə bynəlxalq təşkilatların cəlb edilməsinin əsas üstünlüyü ondadır ki, bu zaman beynəlxalq təşkilatlar ümumbəşəri tədbirlərlə məşğul ola bilərlər və ümumbəşəri nəticələr əldə etməyə can atarlar. Beynəlxalq təşkilatların bu sahədə əsas məqsədi bütün dünya miqyasında ekoloji vəziyyəti yaxşılaşdırmağa kömək və bu yolla da dövlətlərin səylərini birləşdirmək və planetimizdə ekoloji təhlükəsizliyi təmin etməyə olmaqdır.

Beynəlxalq təşkilatlar aşağıdakı istiqamərlərlə qlobal ekoloji problemin həllinə müsbət təsir göstərə bilərlər.

1.Ölkələrin maliyyə vəsaitlərini səfərbər etməklə;

2.Milli dövlətlərin tək-tək planlarını üzvi şəkildə koordinatlaşdırmaqla;

3.Dünya miqyasında məqsədli ekoloji proqramlar tərtib etmək və həyata keçirməklə;

4.Ekologiya haqqında dəqiq məlumatları dünya ictimaiyyətinə çatdırmaqla;

5.Ekoloji problemin həllinin iqtisadi və hüquqi asektlərini işləyib hazırlamaqla;

Hazırda bir çox təşkilatlar ekoloji problemlərlə məşğul olurlar. lakin əsas təşkilatlar BMT-nin xətti ilə fəaliyyət göstərirlər. BMT-nin bir çox regional komissiyaları da fəaliyyət göstərir. Bunlardan başqa, müxtəlif xarakterli dövlətlərarası əməkdaşlıq sazişləri, proqramları da mövcuddur. Keçən əsrin son onilliklərində ekologiya ilə məşğul olan qeyr-dövlət təşkilatlarının sayı artmışdır.Belə təşkilatların müsbət çəhəti onların beynəlmiləl xarakter daşımalarıdır.

Dünya təcrübəsi göstərir ki, hansı səviyyədə və hansı məkanda yaradılırsa-yaradılsın səmərəlilik nöqteyi-nəzərincə BMT-nin nəzdində fəaliyyət göstərən təşkilatlar daha münasib olurlar. Onları nəzərdən keçirək.

1.BMT-nin iqtisadi və sosial şurası soveti (İQTİSOŞ)və bu sovetin yanında fəaliyyət göstərən orqanlar. Bu təşkilat BMT-nın 6 əsas oqrqanlarından biridir və onun fəaliyyətində ətraf mühitin qorunması başlıça ter tutur.

2.İQTİSOŞ-un köməkçi orqanları.Bura müxtəlif hökümətlərarası daimi və funksional komissiyalar daxildir.

3. İQTİSOŞ sistemində fəaliyyət göstərən beş regionlar üzrə iqtisadi komissiyalar. Bu komissiyalara Avropa İqtisadi Komissiyası (AİK), Asiya və Sakit Okean iqtisadi və sosial komissiyası (İSKASO),Afrika üçün iqtisadi komissiya(İKA),Latın Amerikasıüçün iqtisadi komissiya (İKLA), Qərbi Afrika üçün iqtisadi komissiya (İKQA).

4.Ətraf mühit zrə proqramma (ƏMÜP).

ƏMÜP 1972-ci ildə BMT-nin səyi ilə Stokholmda keçirilmiş və ətraf mühitin qorunması ürə əməıkdaşlıq məsələlərinə hısr edilmiş beynəlxalq konfransın təklifləri əsasında yaradılan və fəaliyyət İQTİSOŞ tərəfindən kordinantlaşdırılan avtonom orqandır. Hazırda ƏMÜP BMT-nin orqanlarıarasında ən sürətlə inkişaf edən orqandır. Onun öünün fondu formalaşıb. Bu orqan üç mühüm funksiyanı keçirir.1) Ətraf mühitin qiymətləndirilməsi (vəziyyətin qiymətləndirliməsi, monitorinq, informasiya mübadiləsi), 2) Təbiəti qoruyan idarəetmə(məqsədlərin aid edilməsi, planlaşdırma beynəlxalq məsləhətləşmələr və razılaşmalar), 3)Köməkçi tədbirlər (təhsil, ictimaiinformasiya,texniki əməkdaşlıq).

Keçən dövr ərzində bu beynəlxalq təşkilatın ətraf mühitin qorunmasında mühüm rolunu bütün dünya ölkələri qeyd eirlər. Bu məsələlər bir daha 1992-ci ildə BMT-nin Rio-de Janeyroda keçirdiyi və ətraf mühitin qorunmasına həsr edilmiş beynəlxalq konfrnsın materiallarında öz əksini tapdı və ətraff mühitin qorunması məsələlərinə özündə əks etdirən “XXI əsr üçün gündəlik məsələ” adında qəbul etdi. Bu sənədin məğzini, dayanıqlı inkişaf konsepsiyası təşkil edir. Sənəddə 27 tövsiyyə xarakterli prinsip göstərilmişdir ki,bu da bütün ölkələri “iqtisadiyyat-ekologiya” sistemi üzrə yox “ekologiya iqtisadiyyat”sistemi üzrə fəaliyət göstərməyə çağırır və onlardan insanların sağlam yaşaması üçün münasib ətraf mühitin yaradılmasını tələb edir.

Ekoloji problem ayrı-ayrı dövlətlərin çərçivəsindən çıxıb sözün tam mənasında qlobal, ümümbəşəri və müasir dövrüm ən kəskin probleminə çevrilmişdir. O həm dövlətlər çərçivəsində və həm də planetdə iqtisadiyyatın və siyasətin və həmdə müasirlərimizin mənəviyyatının tərkib hissəsinə daxil olmuşdur. Başqa sözlə, ekologiya ümumbəşər mədəniyyətinin bir hissəsinə çevrilmişdir.Buna görə də

biosferanın və ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlıq təkcə bir tədqiqatçının, elmi-tədqiqat institutunun, ayrıca götürülmüş dövlətin problemi yox, eyni zamanda o cəmiyyətlə təbiətin qarşılıqlı təsir problemidir.

Ətraf mühitin problemlərinin əksəriyyəti mahiyyətcə sosial xarakterlidir. Buna baxmayaraqonlar eyni zamanda beynəlxalq əməkdaşlıq proseslərində ciddi ideoloji gərginliklər də yarada bilir. Ekoloji problemlərin həlli yolları axtarılanda süni istifadə etməyə və başqa ölkələrin işlərinə qarışmağa cəhd göstərənlər dəolub.Bu da problemlərin həllini mürəkkəbləşdirir.

Ətraf mühitin çirklənməsinin qarşısını almaq və yaxud da onu insan və təbiət üçün zərərsiz dərəcəyə qədər azaltmaq prinsip etibarı ilə mümkündür. Bunun üçün ilk növbədə güclü iqtisadiyyat və dövlətlərdən yüksək məsuliyyət hissi tələb olunur. Kompleks texnologiyalar geniş tətbiq edilməsi, elmi-texniki və təşkilati idarəetmə xarakterli məqsədli proqramlar işlənib hazırlanmalı və həyata keçirilməlidir.

## §4. QLOBAL ƏRZAQ PROBLEMİ

### 4.1. Problemin qloballığı

XX əsr başa çatdı. Dünya təsərrüfat sistemi XXI əsrə qədəm qoydu. Bəşəriyyət illəri arxada qoyub, yeni əsrə heç də əli boş gəlməyib. Dünya miqyasında götürdükdə elm, texnika, texnologiya, iqtisadiyyat, mədəniyyət və sosial-mənəvi sahələrdə misli görün-məmiş nailiyyətlər əldə edilib. İrəliyə doğru inkişaf dünya iqtisa-diyyatının, dünya təsərrüfatının demək olar ki, bütün sahələrində əldə edilmişdir. Lakin buna baxmayaraq bəşəriyyət XX əsrdə yer kürəsi əhalisini ərzaqla təmin etmək məsələsini tam həll edə bilmədi. Kəskin aclığa məruz qalanların sayı ilbəil artır. BMT struktur bölməsi olan FAO (Dünya kənd təsərrüfatı və Ərzaq təşkilatı) verdiyi məlumatlara görə 1970-ci ilin əvvəlləri üçün bu kateqoriyadan olan əhalinin sayı 400 milyona catırdısa, bu rəqəm 1980-cı ildə 500 milyon nəfər, 1990-cı ildə 600-700 milyon nəfərə, 2001-ci ilin ilk aylarında isə 800 milyon nəfərə çatmışdır.

Dünya iqtisadiyyatından yazan mütəxəssislərin hesablamala-rına görə dünyada aclıqdan əziyyət çəkən və kifayət qədər qidalana bilməyənlərin sayı 1,5 milyard nəfərə çatır. Bu rəqəm 2000 il bundan əvvəlki dünya əhalisinin bir neçə mislinə bərabərdir. Bundan başqa, "görünməyən aclıq" deyilən aclığa (söhbət doyunca yeməməkdən gedir) inkişaf etməyən ölkələrin uşaqlarının dörddə biri məruz qalmışdır. Dünya üzrə 240 milyon insanın müxtəlif xəstəliyə tutulması və ölümə məruz qalmasının birbaşa səbəbi də aclıq və doyunca yeməməkdir.

Beləliklə, ərzaq problemi artıq uzun illərdir ki, öz dar çərçivəsindən çıxmış, dünya əhalisinin xeyli hissəsini əhatə etmiş, qloballaşmışdır. Proqnoz məlumatlarına görə problemin kəskinləşəcəyi və 2050-ci ildə dünya əhalisinin ərzağa olan tələbatı 3 dəfə artacağı gözlənilir. Beləliklə, həlli uzadılarsa ərzaq problemi

$100 milyonlarla insanın yaşayıb fəaliyyət göstərməsini sual altına da qoya bilər. Ümumiyyətlə isə ərzaq problemi bir qlobal problem kimi yaxın gələcəkdə dünya iqtisadi sisteminin tarazlığını daha da poza bilər.

### 4.2.Problemin yaranma səbəbləri

Qlobal problem kimi ərzaq problemi bir sıra səbəblər üzündən meydana gəlir. Çoxsəbəblilik ərzaq probleminin coxşaxəli bir hal olması ilə izah olunur. Bir qayda olaraq ərzaq probleminin məzmununda iqtisadi, sosial, siyasi aspektlərin kökləri aydın görünür.

Təbii ki, dünya təsərrüfatının yarımsistemləri səviyyəsində və bütövlükdə bəşər miqyasında insanların tələbatlarının ödənilməsi məsələlərinın həllinə təbii resursların olması, onların həcmi, keyfiyyəti təsir göstərir. Yəni ümumilikdə təbii amil problemin həllində başlıca rola malikdir. Məsələnin bu günkü kimi qloballaşmasında ayrı-ayrı ölkələrdə tez-tez baş verən təbii fəlakətlər, quraqlıqların baş verməsi, daşqınlar, epidemiyalar və bu kimi digər insanların fəaliyyətlərindən bilavasitə asılı olmayan amillərin də rolu çoxdur. Deməli, ərzaqla təmin olunmaq üçün təbii amilə iki tərəfdən yanaşmaq lazımdır: birincisi, ölkənin yerləşdiyi ərazidə faydalı qazıntıların, münbit torpağın, əlverişli

təbii mühitin olması baxımından, ikincisi isə təbii fəlakətlərin tezlikləri, sıxlığı baxımından.

Qeyd edək ki, təbii amil bütün ölkələrə öz təsirini göstərir. Dünyada toplanmış təcrübə göstərir ki, hətta ən yüksək səviyyədə inkişaf etmiş ölkələrdə belə təbii amil insanları müəyyən dövrlərdə çətin vəziyyətə sala bilər.

Ərzaq probleminin meydana gəlməsi ilk növbədə iqtisadi bir hal kimi qiymətləndirilməlidir. Onun əsasını əhalinin yüksək artım sürəti, alıcılıq qabiliyyətinin sürəti, alıcılıq qabiliyyətinin yaxşılaşması ilə kənd təsərrüfatı bölməsində məhsuldar qüvvələrin zəif inkişafı arasında yaranmış uyğunsuzluq təşkil edir. İnkişaf etmiş ölkələrdə də bu hal keçən əsrlərdə baş vermis və aclıq problemləri meydana gəlmişdi. Lakin bu ölkələrə kənardan müdaxilə olmadığına görə məsələni həll edə bilmişlər. Lakin uzun müddət koloniya dövrü keçmiş indiki inkişafda olan Latın Amerikası, Asiya, Afrika və s. ölkələrində bu uyğunsuzluq uzun müddət davam etmiş və indi də davam edir. Əsas səbəb isə onların ölkələrinə olan müdaxilələrdir.

İnkişaf etmiş ölkələrdən başqa dünyanın əksər ölkələrində Birinci dünya müharibəsinə qədər ərzaq problemini yaradan üç səbəbi xüsusi qeyd etmək lazımdır. Birincisi - əhalinın üstün artımı, ikincisi - kənd əhalisinin şəhərə axını (kənddə iş tapmayan bir parça çörək üçün şəhərə üz tuturdu) və üçüncüsü – kənd təsərrüfatında elmi-texniki inkişafın sənayedən qat-qat geri qalması. Sonuncu amil inkişaf etmiş ölkələrdə geri qalmış ölkələrdən az olsa da uzun müddət "fəaliyyət" göstərib. Təsadüfı deyildir ki, bu ölkələrin kənd təsərrüfatında lazımi səviyyədə mexanikləşdirmə (yəni kənd təsərrüfatının sənayeləşdirilməsi) dövrü keçən əsrin 60-70-ci illərinə təsadüf edir.

Kolonial dövr başa çatdıqdan sonra geri qalmış dövlətlərdə nisbi inkişaf baş verdi ki, bu da əhalinin alıcılıq qabiliyyətini yüksəltdi və elə bu yüksəlişin də özü ərzaq probleminin yaranmasına yeni təkan verdi. Tələb təklifi üstələdiyinə görə ölkələr inkişaf etmiş ölkələrdən ərzaq gətirmək zərurətində qaldılar. Ərzaq probleminin şiddətlənməsinin digər səbəbı inkişafda olan ölkələrin xalq təsərrüfatının birtərəfli inkişaf etdirilməsi olmuşdur. Bunun da əsas səbəbi həmin ölkələrdə bir qrup xalqını soyan qruplasmalann (keçmişin ənənəvi termini ilə desək kapitalistlərin və mülkədarlann, indiki dildə desək korrupsionerlərin və

rüşvətxorların) və inkişaf etmiş ölkələrin kapital sahiblərinin çox asan və özlərinə sərfəli yolla qazanc götürmək istəkləri olmuşdur. Bu məqsədlə onlar ölkələrin yeraltı sərvətlərindən istifadə edirdilər və kapitalı hasilat sahələrin inkişafına yönəldirdilər. Kənd təsərrüfatında isə xaricə satılası olan məhsullar istehsalı üçün torpaqlar aynlırdı. Beləliklə də əksər kondlilor torpaqsız qalır və taxıl istehsalçısı da, taxıl istehlakçısna çevrilirdi. Bu da ərzağın çatışmamasına səbəb olmaya bilməzdi.

Qlobal problemlər bir-biri ilə əlaqədardır. Ərzaq probleminin şiddətlənməsində bu cəhətdən güclü rol oynayan qlobal problem "demoqrafik böhran" idi. Elə bunun da kökünü cəmiyyətin içərisində görmək olar. Uzun illər geri qalmış ölkədə yaşayan insan özünün mənəvi, əxlaqi, dini dünyagörüşünü dəyişmədən inkişaf etmiş ölkələrdə yaradılmış texnika, texnologiya, dərman və s. ilə üzləşir və bunların vasitəsilə bir problemi həll edirlərsə, digər problemlər qalırdı və yaxud da yeni problemlər yaranırdı. Məsələn, inkişaf etnıiş ölkələrdəki səhiyyə sahəsində əldə olunan nailiyyət-lərin gətirilməsi ölümün səviyyəsini azaltdı, doğuşa isə (geri qalmış ölkələrədə) təsir etmədi. Nəticədə əhalinin sayı çoxaldı və ərzağa olan tələbat artdı.

### 4.3.Aclıq, onun mahiyyəti və ölçülməsi

Aclıq müasir qlobal problemlərdən olan ərzaq probleminin böhran vəziyyətini izah etmək üçün işlədilir. Belə hal dünyanın bıı və ya digər ölkələrində müxtəlif dərəcədə daim baş verir. Son aclıq və keyfiyyətsiz və yarımçıq qidalanma dalğası 1980-cı illərdə Afrikada baş vermişdir. O vaxt bu qitənin ölkələrində aclıq 150 milyon insanı əhatə edirdi və onlar inkişaf etmək haqqında yox, yaşamaq, ölməmək uğrunda mübarizə aparmalı olmuşdular. Qeyd edək ki, bu proses indi də bu və ya başqa səviyyədə müxtəlif yerlərdə davam edir.

Dünya Bankının qrup prezidenti D.Vulfensonun məruzəsində göstərilir ki, 1998- ci ildə dünyada 1,3 milyard nəfərin gündəlik xərci bir dollardan, əlavə 3 milyard nəfər insanın isə xərci 2 dollardan aşağı olmuşdur. Dünya əhalisinin 1,3 milyard **nəfəri içməli** su ilə, 3 milyard ***nəfəri kanalizasiya ilə, 2 milyard nəfəri*** **elektrik** enerjisi ilə təmin

olunmamışdır. Dünyanın bir çox yerlərində - Afrikada, Saxarada və Hindistanda, Latin Amerikasında əziyyət çəkən və çox kasıb yaşayan insanlar istənilən qədərdir.

Aclığı və onun dərəcəsini necə təyin etmək olar? BMT-nin müvafiq orqanları "aclıq" anlayışını işlətdikdə onun son həddini nəzərdə tuturlar.

Son hədd isə orqanizmin energetik tələbatının “kritik səviyyəsinə” görə təyin edilir ki, bu da insanın bir biloji vücud kimi ancaq ölməməsini nəzərdə tutan səviyyədir. 1980-cı illərin axırında insanın qidalanma yolu ilə əldə etdiyi lazımi energetik tələbatı gün ərzində 2700:(o cümlədən, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə - 3400, inkişafda olan ölkələrdə -2470)kalori hesab olunurdu. BMT-nin kənd təsərrüfatı və ərzaq təşkilatının (FAO) qiymətləndirilməsinə görə aclığın və yaxud normadan az yeməyin həddi ayrı-ayrı regionlar nəzərə almaqla gündə 1761-1836 kalori təşkil edir. (dünya üzrə orta qiymət 1784 kalori): BMT-nin digər məlumatlarına görə gündə 1 dollar xərcləyə bilməyənlər aclıq həddindən aşağı səviyyədə yaşayanlar hesab edilirlər.

## 4.4. Ərzaqla təmin olma səviyyəsinə görə regionların və ölkələrin qruplaşdırılması

Təhlil göstərir ki, İkinci dünya müharibəsindən sonrakı dövrdə planetimizin işlədilən ərzağın həcmi artmışdır. Lakin regionlar və ayrı-ayrı dövlətlər üzrə ərzaq qeyri-bərabər səpələnmişdir.Buna görə də probelmin mahiyyətini dərindən başa düşmək üçün ölkələri ərzaqla təmin olma nöqteyi-nəzərincə dörd qrupa bölürlər.

**1.Ərzağın tələbatdan çox olduğu ölkə və regionlar .** Bu qrupa dünyanın sənaye cəhətdən inkişaf etmiş regionları , ilk növbədə isə Qərbi və Şimali Avropa, Şimali Amerika, Avstraliya və Yaponiya daxildirlər.

**2.Ərzaq təminatı BMT-nın tələblərinə uyğun təyin edilmiş normaya çox yaxın olan ölkə və regionlar.** Bu qrupa Avropanın Cənub rayonları , Orta Asiya və həmçinin Latin Amerikası ölkələri, Maqrib və ASEAN ölkələri daxildirlər.

**3.Ərzaqla təminat BMT- in standartlarında nəzərdə tıtulan kənarlaşmaya "uyğun" gələn səviyyədə olan dövlətlər .** Bu ölkələr qrupuna Şərqi Avropa, MDB və Pribaltika ölkələri, həmçinin Hindistan, Misir, İndoneziya dövlətləri daxil edilirlər.

Qeyd edək ki, bu qrupa daxil olan ölkələrdə yaranan ərzaq probleminin subyektiv cəhətləri çoxdur. Məsələn, Şərqi Avropa, MDB və Pribaltika ölkələri müasir dövrdə öz imkanlarından çox aşağı ərzaq məhsulları istehsal edir və buna görə də müvafıq məhsulları idxal etmək zərurəti meydana gəlir. Elə götürək respublikamızın ən böyük şimal qonşusu olan Rusiyanı. Bu ölkənin sərəncamında olan münbit torpaq sahələri imkan verir ki, Rusiya öz xalqının tələbatlarından da çox kənd təsərrüfatı məhsulları (dənli bitkilər, heyvandarlıq məhsulları və s.) istehsal etsin və digər ölkələrə ixrac etsin. Buna baxmayaraq MDB və Pribaltika ölkələri hər il milyonlarla vəsaiti kənardan ərzaq malları almağa sərf edirlər. Yada salaq ki, 1980-cı illərdə keçmiş SSRİ dövləti hər il orta hesabla 5 milyard dollarlıq taxıl idxal edirdi ki, bu da dünya bazarında buğdanın qiymətinə güclü təsir göstərirdi.

Qərbi Avropa ölkələrindən Macarıstanda ərzaqla təmin olunmaq yaxşı vəziyyətdədir. Çexiya və Slovakiya bu və ya başqa səviyyədə ərzaqla təmin olunmuş ölkələrdirlər. Bolqarıstan, Polşa, Rumıniya kimi ölkələr isə mütəmadi olaraq taxıl, ət və ət məhsullarını idxal edən ölkələrdirlər. MDB ölkələri qrupuna daxil olan Azərbaycan Respublikası da dayanıqlı şəkildə taxıl və digər kənd təsərrüfatı məhsullarının idxalçısıdır.

Rusiyada və MDB-nin digər ölkələrində ərzaq çatışmamazlığının subyektiv amillərinə iqtisadi islahatların yarıtmaz aparılması, ixtiyari olaraq iri kollektiv təsərrüfatlarının dağılması və münasib texniki-iqtisadi bazanın və mənəvi-psixoloji mühitin yaradılmaması haqqında düşünmədən fermer təsərrüfatlarını yaratmaq cəhdi kimi hərəkətlərə birinci növbədə daxil etmək lazımdır. Məhz bu və buna oxşar "islahatlar" ərzaq problemini gücləndirirlər.

4.Ərzaq probleminin əsas ağrı-acısını çəkən ölkələr dördüncü qrupu təşkil edirlər. Bu ölkələrə inkişafda olan ölkələr daxildirlər ki, onlann da əhalisinin əksəriyyəti ərzaq cəhətdən çox acınacaqlı vəziyyətdə yaşayırlar. Problem bu ölkələrdə çox kəskindir. Əhali

artımının inkişafda olan ölkələrdən daha yüksək olması ərzaq məsələsinin həllini çətinləşdirir.

----------------------------------

[1] Mütəxəssislərin proqnozuna görə 2025-cı ildə əhalinin 80%-dən çoxu inkişafda olan ölkələrdə yaşacaqlar.

BMT-nin ətraf mühit və inkişaf problemlərinə həsr edilmiş konfranslarında dəfələrlə qeyd edilmişdir ki, inkişaf etməkdə olan ölkələrin hazırkı resurs, texnoloji, idarəetmə, təşkilati imkanları sürətlə artan əhlini ərzaqla təmin etmək iqtidarında deyil. Belə şəraitdə inkişafda olan ölkələr kənd təsərrüfatının inkişafını düzgün idarə etməyə çalışmalıdırlar. İlk növbədə çalışmaq lazımdır ki, əldə olan əkinə yararlı torpaqların sahəsi azalmasın və məhsuldarlıq artsın. Bu sahədə inkişaf etməkdə olan ölkələrdə istifadə edilməyən imkanlar çoxdur. Müqayisə edək: dərc olunmuş məlumatlara görə inkişafda olan ölkələrin kənd təsərrüfatında çalışan bir nəfər özünü və ailəsini güclə saxlaya bilirsə, ABŞ-ın bir fermeri 59 nəfəri, Qərbi Avropanın və Yaponiyanın bir kənd təsərrüfat işçisi isə müvafiq olaraq 19 və 14. nəfəri ərzaqla təmin edə bilir. Bu rəqəmlər göstərir ki, inkişaf etməkdə olan ölkələrdə ərzaq problemini həll etmək üçün ilk növbədə kənd təsərrüfatnda sosial-iqtisadi, texniki-təşkilati tədbirlər həyata keçirməklə əmək məhsuldarlığını yüksəltmək lazımdır.

## 4.5.Müasir texnoloji sivilizasiyanın ziddiyyətləri

İkinci dünya müharibəsindən keçən onilliklər ərzində kənd təsərrüfatında çox böyük nailiyyətlər əldə edilmiş və nəticəsi də bu olmuşdur ki, ərzaq problemi ancaq sənaye cəhətdən inkişaf etmiş ölkələrdə həll edilmişdir. Lakin elmi-texniki inqilabın şaxələndiyi indiki dövrdə bəşəriyyətin məhsuldar qüvvələri, o cümlədən kənd təsərrüfatında cəmlənmiş məhsuldar qüvvləri, çox yüksək səviyyədə inkişaf edə bilər. Dünyanın aparıcı ölkələri özlərinin uzun illik təcrübələri ilə bunu sübut etsələr də, müasir dövrün ziddiyyətləri buna imkan vermir və hazırda dünya əhalisinin böyük bir hissəsi aclığa məruz qalmışdır.

Ərazilər və regionlar üzrə müxtəlif səviyyədə inkişaf baş versə də mütəxəssislərin fikrincə proses düzgün idarə edilərsə dünya kənd

təsərrüfatı sahəsində bərqərar olmuş məhsuldar qüvvələr bütün dünya əhalisini yedizdirməyə qadirdir. İngilis tədqiqatçıları rəqəm də göstərirlər. Qeyd edirlər ki, hətta torpaqların bugünkü üsullarla işlənməsi yolıı ilə belə 10 milyard nəfərdən çox əhalini ərzaqla təmin etmək olar. Bunun üçün ilk növbədə ziddiyyətlərdən maksimum can qutarmaq lazımdır.

Müasir dövrdə elm və texnika sahəsində əldə edilən naliyyətlərə baxmayaraq, dünya miqyasında yararlı torpaqlardan çox aşağı məhsuldarlıqla istifadə edilir. Qeyd etdiyimiz kimi ərzaq problemi inkişaf etməkdə olan ölkələrdə özünü daha kəskin şəkildə göstərir. Burada ənənəvi səbəblərlə bərabər yerli, yəni bilavasitə bu ölkələrin tarixi inkişafından doğan səbəblər də az rol oynamamışdır. Söhbət ondan gedir ki, keçən əsrin ortalarında siyasi sərbəstlik olan bu ölkələr iqtisadi sərbəst ola bilməmişlər. Uzun müddət inkişaf etmiş ölkələrin təsiri altında qalmaq, onlarla qeyri-ekvivalent əmtəə mübadiləsində olmaq, dövlətin özünün uyuşqanlı iqtisadi siyasətinin olmaması, etnik və dini toqquşmalar, transmilli korporasiyaların fəaliyyəti, demoqrafik partlayış və s. bu kimi amillər bu ölkələrin iqtisadi vəziyyətini gərginləşdirmiş, ərzaq məsələsini isə böhran səviyyəsinə çatdırmışdır. Göründüyü kimi, dünyada baş verən elmi-texniki inqilabın nailiyyətlərini bu ölkələrin kənd təsərrüfatlarına çox qısa bir müddətdə tətbiq etmək mümkün olarsa belə, əgər "yerli" adlandırdığımız amillər həll edilməzsə ərzaq probleminin bu ölkələrdə həll edilməsindəki çətinlikləri aradan qaldırmaq asan iş olmayacaqdır. Təbii amilləri su, münbit torpaq quraqlıqları və s. nəzərə alsaq məsələnin çox mürəkkəb olması aydın olur.

### 4.6.Ərzaq təhlükəsizliyi konsepsiyası

Dünya əhalisinin aclıq içərisində yaşayan və normadan az qidalana bilən hissəsi həmişə olmuşdur və yuxarıda göstərdiyimiz kimi yenə də vardır. Lakin müasir sivilizasiya keçmişdən fərqlənir. Bu fərqlənmənin biri də ondan ibarətdir ki, indi dünya təşkilatları, alim və mütəxəssisləri "ərzaq təhlükəsizliyi" konsepsiyası irəli sürürlər. Bu konsepsiyaya görə dünya, regionlar, ölkələr miqyasında ərzaq

mallarının müəyyən səviyyəsi təyin edilməli və nəzarətdə saxlanılmalıdır. Bu səviyyə bütün insanların aktiv və sağlam həyat keçirməsini təmin etməli, insanlar isə ərzaq mallarını əldə etmək üçün iqtisadi və fiziki imkanlara malik olmalıdırlar.

Ərzaq təhlükəsizliyi bir neçə səviyyədə nəzərdən keçirilir və təhlil edilir: a) **Dünya ərzaq təhlükəsizliyi.** Dünya ərzaq təhlükəsizliyi konsepsiyası nəzərdə tutur ki, planetimiz vahid bir orqanizm kimi kifayət miqdarda ərzaq malları istehsal etməli və insanların artan tələbatını ödəməlidir. Ərzaq mallan üzrə dünya ticarəti elə təşkil olunmalıdır ki, iddialı ölkə istədiyi qədər qida məhsullarını münasib qiymətlə əldə edə bilsin. Bunun üçün ərzaq ehtiyatları yaratmaq və gözlənilməz hallar baş verdikdə ondan istifadə etmək lazımdır.

Ərzaq təhlükəsizliyi günlərin sayı və ortagünlük tələbata əsasən hesablanır. FAO-nun hesablamalarına görə ərzaq təhlükəsizliyini təmin etmək üçün tələb olunan ehtiyatın minimum səviyyəsi keçmiş məhsula görə təyin edilməli və dünya istehlakı həcminin 17%-nə bərabər olmalıdır. Bu ehtiyat təxminən dünyanın iki aylıq tələbatına uyğun gəlir və həmişə nəzarətdə saxlanılmalıdır. Lakin 1970 və 1990-cı illərdə bu ehtiyatın səviyyəsi 14% (40 günə) qədər asağı düşmüşdür ki, bu da taxılın qiymətinin dünya bazarında xeyli yüksəlməsinə səbəb olmuşdur. Bütövlükdə götürdükdə mütəxəssislər bu fikirdədilər ki, dünyada əhalinin tələbatlarını ödəyə bilən həcmdə ərzaq istehsal edilir. b) **Dünya səviyyəsində ərzaq təhlükəsizliyi.** yarımsistemləri Dünya miqyasında ərzaq probleminin həlli ayrı-ayrı milli dövlətlərin və regionların bu məsələyə ciddi münasibət bəsləyib-bəsləməməsindən çox asılıdır. Milli dövlətlər, region və iqtisadi zonalar miqyasında ərzaq təhlükəsizliyi konsepsiyasının məqsədi də bu ölkələrin və regionların ərzaqla təmin olunmasına kömək göstərməkdir. Lakin milli dövlətlər səviyyəsində ərzaq təhlükəsizliyini özünütəminetmə kimi başa düşmək olmaz. Burada ərzaq təhlükəsizlyi birincisi, dövlətin özünün ərzaq istehsalını artıra bilmək və ikincisi, çatışmayan hissənin kənardan almağa qadir olmaq qabiliyyəti başa düşülür. Problemin təhlili zamanı "əhalinin bir nəfərinə düşən ərzaq məhsullannın miqdarı" və "özünütəminetmə əmsalı" kimi mühüm göstəricilərdən istifadə edilir.

Dünya təsərrüfatının yarımsistemləri səviyyəsində ərzaq təhlükəsizliyi insanların ərzaqla təmin olunmasına təzminat vermir, o ancaq milli dövlətin və yaxud da müəyyən bir regionın ərzaq əldə etmək imkanını və bu imkanın səviyyəsini müəyyən edir. Məhz bu imkanı reallaşdırmaq üçün dünya miqyasında ərzaq təhliikəsizliyi normativlərinə həmişə əməl olunmalıdır. Yəni dünya bazarında müəyyən miqdarda və münasib qiymətdə ərzaq mallarının olması, (FAO-nun normativlərinə görə iki aylıq ehtiyatın olması) və ancaq bu halda lokal səviyyədə ərzaq əldə etmək imkanı reallaşa bilər. Dərc olunmuş məlumatların təhlili göstərir ki, inkişafda olan ölkələrin 15-20 faizində ərzaq təhlükəsizliyi çox aşağı səviyyədədir. Bu ölkələrin də əksəriyyəti Afrikada yerləşir. **v) Ailə və ev təsərrüfatı səviyyəsində ərzaq təhlükəsizliyi.** Aclıqla mübarizədə qalib gəlmək, yer kürəsi əhalisini ərzaqla təmin etmək üçün ərzaq təhlükəsizliyi konsepsiyası cəmiyyətin ilk və əsas həlqəsi olan ailəni və ev təsərrüfatçılığını da əhatə etməlidir. Bu təhlükəsizlik əhalinin hər nəfərinə düşən orta gəliri ilə sıx bağlı olur. Aşağı gəlirli ailələrin ərzaq təhlükəsizliyi bir qayda olaraq çox aşağı olur və qiymətlərin dəyişməsi həm şəhər və həm də kənd sakinlərini aclıq təhlükəsi altında qoya bilər. Ailələrin ərzaq təhlükəsizliyi onların alıcılıq qabiliyyətləri ilə şərtləşir. Dövlətin burada başlıca rolu əhalinin alıcılıq qabiliyyətini yüksəldə bilən tədbirlər həyata keçirməkdən ibarət olmalıdır.

## §5. QLOBAL URBANİZASİYA PROBLEMİ

### 5.1.Urbanizasiya bəşəriyyətin qlobal poblemləri sistemində

Urbanizasiya, çox sadə yanaşdıqda cəmiyyətin inkişafında şəhərlərin rolunun yüksəldilməsi prosesini ifadə etmək üçün işlədilən latın mənşəli sözdür (urbs - şohər deməkdir). Şəhərlər sayı artdıqca və ölçülərinə görə böyüdükcə urbanizasiya prosesi güclənır və hətta qarşısıalınmaz bir prosesi xatırladır. Urbanizasiyanın sürətlə inkişaf etməsi öz əksini şəhərlərdə yaşayan insanların xüsusi çəkisinin artmasında tapır.

Müasir dünya getdikcə daha kəskin şəkildə urbanizasiyalaşır. Əslində kənd yerlərində də şəhər yasayış tərzləri sirayət etmə

baslamışdır. Deməli, urbanizasiyanın şaxələnməsi ənənəvi yolla şəhərlərin sayının və ölçülərinin artması və kənd yerlərinin "şəhərsayağılaşması" nəticəsində daha sürətlə inkişaf edir. Məsələnin qloballığı bir də ondadır ki, urbanizasiya dünyanın bütün regionlarını əhatə etməkdə davam edir və sanki bu qarşıalınma bir prosesə çevrilmişdir. BMT və bir sıra region və dövlətlərin *xətti* ilə urbanizasiya prosesi haqqında çoxlu məlumatlar dərc olunur. Göstərilir ki, XIX əsrin əvvəllərində dünya üzrə iri (əhalisi 100 min nəfərdən çox olan) şəhərlərin sayı 400-dən də az olub, **əsrin** ortaları bu rəqəm 1000-ə çatıb. İndi isə dünyada bu cür şəhərlərin sayı 2500-ü ötüb.

Urbanizasiya prosesi çox vaxt şəhərlərin sayının cəmiyyətin bütün fazalarında onlann rolunun artması kimi edilir. Lakin iqtisadi baxımdan məsələ daha qlobal görünür. Urbanizasiya artıq şəhər çərçivəsindən çıxıb iri regionlarə əhatə etməyə başlamışdır. Dünya miqyasında çoxlu insanın məskunlaşdığı regionlar meydana gəlmişdir ki, burada da bir qayda olaraq külli miqdarda emal obyektləri, sənaye kompleksləri cəmlənmiş nəticədə yer kürəsi səthinin qeyri-proporsional məskunlaşması istehsalların yerləşməsində disproporsionallıqlar baş vermişdir. Belə hal bu ərazilərdə və bütövlükdə dünyada ekoloji, demoqrafık və s. bu kimi problemlərin daha da kəskinləşməsinə gətirib çıxarır.

Mütəxəssislərin hesablamaları göstərir ki, yer kürəsinin quru hissəsinin cəmi 1%-ində qərarlaşmış şəhərlərdə və urbanizasiyalaşmış ərazilərdə dünya əhalisinin 50%-ə qədəri məskunlaşmışdır. ÜDM-in 4/5-ü onların payına düşür və eyni zamanda ekologiyanın çirklənməsinin də səbəbkarı yenə onlardır (atmosferin və ümumiyyətlə təbiətin çirklənməsinin 5/4-i belə zonaların payına düşür).

Deməli, urbanizasiya nəticəsində insanların həddindən çox sıx formada cəmlənmiş ərazilərin və demək olar ki, heç kəsin yaşamadığı ərazilərin meydana gəlməsi baş verir. Bu cür kontrastlılığın mənfi iqtisadi nəticələri çox yüksək olur. Belə hal əslində cəmiyyətin obyektiv iqtisadi qanuni olan "Ölkələrin və dünya təsərrüfatının proporsional və bərabər ölçüdə inkişaf etdirilməsi" qanunun əleyhinə olan bir hal kimi qiymətləndirilməlidir. Obyektiv iqtisadi qanunların nəzərə alınmamasının dünya iqtisadiyyatına vurduğu iqtisadi ziyanlar isə tarixdən hamıya yaxşı məlumdur.

Urbanizasiyanın və xüsusən kortəbii inkişaf edən urbanizasiyanın təsiri altında bir tərəfdən idarə olunması çətinləşən, boşluq şəklinə düşən iri şəhərlərin yerləşdiyi ərazilər, digər tərəfdən boşalmış, səmərəsiz və yaxud tam istifadə olunmayan ərazilər meydana gəlir. Son illər isə transmilli urbanizasiyalaşmış zonalar meydana gəlmişdir. Bu zonalar ölkələrin sərhədləri qovşaqlarında yaranır və əhalini maqnit kimi özünə "çəkir". Belə zonalara misal olaraq ABŞ ilə Kanadanın sərhəd zolağındakı ərazini, AFR, Fransa, Hollandiya, Belçika ölkələri sərhədləri yaxınlığında, Yuqoslaviya və Macarıstan, Bolqarıstan və Rumıniya vo s. ölkələrinin sərhədyanı zolaqlarında yaranmış zonaları göstərmək olar. Keçmişdə insanların ağlına belə gəlməyən miqyasda şəhərlərin və areallann böyüməsi özü-özlüyündə urbanizasiya prosesinin nəticəsidir. Lakin hazırkı dövrdə yaranmış iri şəhərlərin özləri urbanizasiya proseslərini sürətləndirən amilə çevrilmişidr.

1900-cü ildə əhalisi daha çox olan şəhərlərin hamısı Avropada və Şimali Amerikada yerləşirdi. XX əsrin sonunda əhalisi 10 milyondan çox olan şəhərlər: Tokio, Nyu-York, Los-Anceles və s. daxil edilirdi və bunlar sənaye cəhətdən inkişaf etmiş ölkələrdə yerləşirdi. Lakin proqnoz məlumatlarına görə dünyanın nəhəng şəhərlərinin sayı artmaqla yanaşı onların coğrafıyası da dəyişir.

Məsələn, ABŞ mütəxəssislərinin tədqiqatlarına əsasən, 2020-ci ildə Bombey dünyanın ən çox əhalisi olan şəhər olacaq. Vaşinqtondakı Əhali İnstitutunda aparılan hesablamalara görə 20 ildən sonra Bombeyin əhalisi 28,5 milyona çatacaq. Tokionun əhalisi isə 2020-ci ildə 27,3 milyon olacaq. Dünyanın ən çox əhalisi olan şəhərləri arasında Nyu-York və Los-Anceles birinci onluqdan sıxışdırılacaq, onlann yerini Dakkə və Karaçinin tutacaqları gözlənilir.

## 5.2.Urbanizasiyanın genezisi və onun əsas səbəbləri

Dünya miqyaslı hadisə kimi qiymətləndirilən urbanizasiya öz başlanğıcını kiçik kapitalist şəhərlərinin meydana gəlməsindən götürür. Məhz kapitalizm inkişaf etdikcə şəhərlər dayanıqlı iqtisadi, sosial, siyasi və mədəni mərkəzlərə çevrilməklə yanaşı həm də ənənvi kəndlərə güclü təsir göstərən amilə çevrilməyə başladı. Buna görə də urbanizasiyanı bir proses kimi kapitalizmə qədərki dövrdə yaranmış şəhərlərlə əlaqələndirməklə, onun genezisini izah etmək olmaz. Bu cəhətdən demək olar ki, bir nəzərə çarpan proses kimi urbanizasiya öz başlanğıcını XVIII əsrdə götürmüş, XIX əsrin əvvəllərində isə dünyada baş verən və insanların diqqətini özünə cəlb edən bir prosesə çevrilmişdir. Məhz XIX əsrin əvvəllərində nəhəng "Şəhər" ölkələri olan ABŞ, İngiltərə, Almaniya, İtaliya, Fransa və Yaponiya kimi ölkələr birlikdə dünya sənaye məhsulunun 9/10-nu istehsal edirdilər. Qlobal urbanizasiya fəza cəhətdən inkişaf edirdi və Qərbi Avropa, Şimali Amerika-Avstraliya və Okeaniya, Şərqi Avropa - Latin Amerikası - Asiya-Afrika istiqamətləri ilə bütün dünaya yayılırdı. Urbanizasiya özü-özlüyündə məhsuldar qüvvələrin inkişafına təsir etməsi cəhətdən mütərəqqi bir proses idi

Fəza cəhətdən urbanizasiyanın inkişafında apancı rolu ölkələrin sənaye cəhətdən inkişafı, şəhərlərdə sənayenin, qeyri-kənd təsərrüfatlı işlərin və əhalinin təmərküzləşməsi, kənd təsərrüfatı sahələrində isə əmək məhsuldarlığının yüksəldilməsi oynamışdır və indi də oynamaqdadır. Bunlardan başqa, urbanizasiya prosesi ilə əhalinin öz rifah halını yaxşılaşdırmaq istəyi, mədəni inkişafını təmin etmə istəyi arasında olan əlaqəni də nəzərə almaq lazımdır. Ümumi şəkildə məsələyə yanaşdıqda isə görərik ki, cəmiyyətin artan və çoxsaylı tələbatlarının ortaya çıxması və bu tələbatların maksimum ödənilməsi zərurəti əhalinin münasib ərazilərdə cəmlənməsini ortaya qoyur vo urbanizasiya prosesinin fəzada yayılmasını dönməz edir.

Dünya miqyasında urbanizasiyanın sürətlənməsi prosesini üç pilləyə ayırmaq olar.**Birinci** və yaxud da ilkin pillədə (XVIII-XIX əsrlər) proses əsasən lokal xarakter daşımış, Qərbi Avropanı və Şimalı Amerikanı əhatə etmişdir. Hələ bu lokal urbanizasiya döv-ründə şəhər

əhalisinin xüsusi çəkisi 1800-cü ildoki 5,1%-dən, 1900-cü ildə 13,3%-ə çatdı. **İkinci** pilləni planetar pillə adlandırmaq olar. Dövr cəhətdən XIX əsrin birinci yarısını əhatə edir. Bu pillənin səciyyəvi xüsusiyyətlərinə şəhərlərin sürətlə böyüməsi, şəhər əhalisinin əksər regionlarında artması, proscsin dayanıqlı və irəliyə doğru gedən şəkil alması və qloballaşmanın əyaniləşməsi daxildir. Qanunauyğun hal kimi dünya sənaye istehsalının artım sürətinin də çox yüksək olması bu pillənin xarakterik cəhətlərindən idi. Bundan başqa onu da göstərmək lazımdır ki, bu pillədə şəhərlər əsasən istehsal cəhətdən inkişaf edirdilər. Xidmət və qeyri-istehsal profılli sahələrin fəaliyyəti şəhərin böyüməsinə və əhalinin çoxalmasına nəzərə çarpan təsir etmirdi. Şəhərlərin böyüməsi tipi isə əsasən ekstensiv tip idi. **Üçüncü** pillə qlobal etapdır. Elmi ədəbiyyatlarda bu pillə müasir qlobal urbanizasiya dövrü adlanır. Bu pillə üzvi şəkildə Elmi-texniki inqilabla bağlıdır ki, onun nəticəsində nəinki sənayenin, eyni zamanda insanlara xidmət göstərən müxtəlif və çoxlu sayda qeyri-istehsal sahələrinin sürətli inkişafı üçün şərait yarandı. Bu pillə öz başlanğıcını təxminən keçən əsrin (XX) ikinci yarısından götürür. Onun başlıca xarakterik cəhətlərinə dünya şəhər əhalisinin iri şəhərlərdə cəmlənməsinin artması, urbanizasiyanın əsasən intensiv tipli baş verməsi, şəhər həyat tərzinin cazibədarlığını

yüksəlməsi və əhalini özünə daha sürətlə cəlb etməsi, şəhər həyat tərzinin digər ərazilərə yayılması və s. aid edilir. Bu pilləni ümumilikdə intensiv yolla genişlənən urbanizasiya adlandırmaq da olar.

Beləliklə, urbanizasiyanın meydana gəlməsinin, inkişaf edib qlobal prosesə çevrilməsinin başlıca amil və şərtləri aşağıdakılardır,

-kapitalizmin meydana gəlməsi;

-cəmiyyətin tələbatlarının ödənilməsi;

-elmi-texniki tərəqqi;

-iqtisadi və sosial sferada köklü struktur dəyişmələrinin baj verməsi;

-obyektiv iqtisadi qanunların tam dərk edilməməsi və onlardan səmərəli istifadə mexanizminin tapılmaması;

-sosial-mədəni amillərin lazımi səviyyədə nəzərə alınmaması;

-prosesin düzgün idarə olunmaması.

## 5.3.Urbanizasiya və iqtisadiyyat

Urbanizasiya sosial-iqtisadi cəhətdən ölkələr və dünya təsərrüfatı üçün çoxlu problemlər yarada bilər. Belə mənfi hallar zəif inkişaf etmiş ölkələrdə daha qabarıq formada özünü göstərir. Bunun əsas səbəbi isə urbanizasiyanın sənaye inkişafı ilə üzvi şə-kildə əlaqələndirilməməsidir. İş qabiliyyətli kişilərin şəhərlərə axını kənd təsərrüfatında istehsalın inkişafına güclü mənfı təsir göstərir və nəticədə ərzaq problemi ölkədə daha da şiddətlənir. Ölkəyə gətirilən taxılın miqdarı artır. Urbanizasiya meşələrin qırılmasına da səbəb olur. Xüsusən zəif inkişaf etmiş ölkələrdə kənd yerlərinin meşə materialları uzun yollar qət edərək şəhərə gətirilir və sobalarda yandırılır.

Urbanizasiya ilə ölkələrin və dünya təsərrüfatının ərazi strukturu arasında qarşılıqlı əlaqə mövcuddur. İnsanlar müəyyən amil və şəraiti olan ərazilərdə məskunlaşmağa başlayırlar və məqsəd də o olur ki, bu ərazinin təbii resurslarından istifadə edib öz tələbatlarını maksimum ödəyə bilsinlər. Deməli şəhərin özülu bu ərazinin amil və şəraitlərindən istifadə edilməsinə başlanan andan qoyulur. Sonra bu proses elmi cəhətdən idarə olunmadıqda genişlənir və şəhərin həddindən çox böyüməsinə, sosial-iqtisadi proseslərin meydana gəlməsinə səbəb olur. Burada iqtisadi cəhətdən bizi bir məsələ daha çox maraqlandırmalıdır: şəhərin böyüməsi istehsal tiplidir, yaxud da qeyri-istehsal. İstehsal tipli inkişaf maddi istehsal sahələrinin genişləndirilməsi nəticəsində baş verir və öz əksini, ilk növbədə, rəqabət dözümlü məhsullar istehsalının artırılmasında tapır. Qeyri-istehsal tipli inkişafda isə şəhərlərin böyüməsi əsasən qeyri-istehsal sahələrinin (bankların, birjalarm, tikinti və nəqliyyatın və bu kimi istehsal və sosial infrastrukturların) inkişafı nəticəsində baş verir. Təhlil göstərir ki, şəhərlərin inkişafının birinci pilləsi əsasən istehsal tipli olur. İkinci pillədə isə şəhər adətən müxtəlif xidmət, təhsil, səhiyyə, nəqliyyat və s. sahələrin inkişafı və yaxud da başqa ərazidən gətirilən xammal və materiallardan istifadə etməklə yaradılan istehsal sahələrinin inkişafı hesabına baş verir. Göründüyü kimi şəhərlərin böyüməsinin birinci pilləsi yerli xammal və maleriallann həcmi ilə limitləşə bilər. İkinci pilədə isə inkişafi limitləşdirən bir şey yoxdur. Əksinə, şəhərdə və şəhər ətrafında birinci tip inkişaf vaxtı bərqərar olmuş infrastrukturalar (mühəndis tikililəri, kanalizasiya,

elektrik şəbəkələri, ixtisaslı işçi qüvvəsi, təhsil nəqliyyat, səhiyyə sahələri və s.) yeni-yeni, ərazinin təbii və iqlim şəraiti ilə heç bir əlaqəsi olmayan istehsaların şəhərdə cəmləşdirilməsi üçün şərait yaradır. Əgər istehsalın artması və qeyri-istehsal sahələrinin inkişafı nəticəsində şəhərin böyüməsi elmi yolla idarə olunmursa onda urbanizasiya mənfi prosesə çevrilir, şəhərin böyüməsi ekstensiv, iqtisadi və sosial cəhətdən səmərəsiz olur.

Deməli, istehsalların ərazi üzrə düzgün yerləşdirilməsi nəticəsində urbanizasiyanın mənfi amilə çevrilməsinin qarşısını almaq olar. Urbanizasiya ölkənin və dünya təsərrüfatının ərazi üzrə formalaşmasına, formalaşmış ərazi isə əksinə, urbanizasiyanın daha da inkişaf etməsinə səbəb olur. Bu prosesi "özbaşına" buraxdıqda urbanizasiya şaxələnir, genişlənir, daha böyük ərazilərə yayılır və ortaya çox mürəkkəb, həlli çoxlu vəsait tələb edən yeni problemlər çıxır. Müasir dövrdə biz məhz bu cür halla qarşılaşmışıq. Nəticəsi də budur ki, urbanizasiya kiçik bir lokal məsələdən böyüyüb olub dünyanı bürüyən qlobal problem...

Deməli, urbanizasiyalaşmanın qlobal bir problem kimi subyektiv əsası obyektivlikdən çoxdur. Konkret olaraq urbanizasiyanin iqtisadiyyata təsirini aşağıdakılarla izah etmək olar.

1. **Əhalinin iri mərkəzlərdə sıx şəkildə məskunlaşması ilə.** Bir qayda olaraq bu cür mərkəzlərdə təsərrüfatın idarə olunması çətinləşir. Şəhərəmələgətirən amillərin rolu azalır, şəhərdə xidmət sahələri çoxalır. Bu proses nəticəsində ərazinin özünü təminetməsi pisləşir, dövlətdən kömək tələb olunur. Ekologiyaya böyük ziyan dəyir. Öz tələbatlarını daha dolğun ödəmək məqsədi ilə şəhərlər salan insan sonralar özünün yaratdığı sosial-iqtisadi, mənəvi-psixoloji, təbii-ekoloji mühitdə məhv olmaq təhlükəsində qalır. Bütün bu qeyd etdiyimiz və kitabın həcmini nəzərə alaraq göstərmədiyimiz insanın inkişafına əngəl törədən səbəbləri aradan ya heç qaldırmaq mümkün olmur, ya da ki, onların həlli külli miqdarda əvvəllər qazanılmış vəsaitin xərclənməsini tələb edir.

2.Təsərrüfatların , mədəni ocaqların, istehsal güclərinin ölkələr və dünya ərazisində disproporsional yerləşirilməsinə səbəb olması ilə, şəhər tipli fəaliyyətin təmərküzləşməsi, intensivləşməsi, difersifikasiyalaşması və bu cür fəaliyyətlərin şəhərətrafı yerlərə və hətta kənd yerlərinə yayılması insan yaşayışı üçün yararlı ərazilərin

istifadə səmərəsini aşağı salır. Yeni ərazilərin mənimsənilməsi isə çoxlu maddi və maliyyə vəsaiti tələb edir.

## 5.4.Problemin həlli yolları

Urbanizasiyanin şaxələnməsinin qarşısnı almaq, onun insanın sosial-iqtisadi və mədəni inkişafına və yaşayış tərzinə mənfı təsirini azaltmaq bir sıra tədbirlərin bəyata keçirilməsini tələb edir.

İlk növbədə elmi-texniki tərəqqinin kompleks şəkildə sürətləndirilməsinə səylər artırılmalıdır. Təhlil göstərir ki, məsələyə yaradıçı şəkildə yanaşdıqda, urbanizasiya prosesləri düzgün idarə edildikdə, əhalinin həyat tərzinin yaxşılaşması baxımından iqtisadiyyatı inkişaf etdirdikdə əldə edilən nəticələr qənaətbəxş olur. Dünya miqyasında götürdükdə bu sahədə müsbət təcrübə vardır.

Təhlil göstərir ki, XIX əsrin 80-cı illərindən başlayaraq urbanizasiya prosesində yeni və elm üçün çox maraqlı dəyişikliklər hiss olunmaga başlamışdır. Bir tərəfdən şəhər əhalisinin sayı getdikcə artır, digər tərəfdən inkişaf etmiş ölkələrdə şəhərlərin böyüməsi prosesinin dayanması və əks prosesin - iri şəhərlərdən əhalinin çıx-ması, kiçik və orta şəhərlərdə, digər qeyri-itsehsal fəaliyyəti üstün-lük təşkil edən ərazilərdə cəmlənməsi müşahidə olunur. Bu proses ABŞ-da daha çox gözə dəyir. Burada sənayedə çalışan fəhlələrin xüsusi çəkisi, bütün işləyənlərin cəmi 25%-ni təşkil edir, qalan 75% işçilər isə sosial-məişət, tibbi, nəqliyyat, təhsil, idman və s. bu kimi xidmət sahələrində çalışırlar. Əldə edilmiş bu müsbət halın başlıca səbəbi ETT-ni məqsədyönlü sürətləndirmək, yüksək səmərəli istehsalların yaradılması, məhsuldarlığın yüksəldılməsi ən başlıcası isə iqtisadi inkışafın sosial yönümlü (insan naminə, insan üçün) modelinin seçilməsidir. Bu bir daha ona sübutdur ki, insan həmişə fəaliyyəti üçün münasib və sərfəli yerdə yaşamaq istəyır. Məsələyə bu cür yanaşmağın nəticəsidir ki, ABŞ-da, İngiltərədə. Hollandiyada, İveçrədə və digər ölkələrdə suburbanizasiya prosesləri artıq başlanmışdır.

Ümumilikdə məsələyə yanaşanda təyin etmək olar ki, urbanizasiyanin şaxələnməsi iki amillə baş vermişdir: iqtisadi və sosial,

iqtisadi amil şəhərlərdə sənayenin inkişafı ilə bağlı olur. Yeni yara-dılan iş yerlərində işləmək üçün demoqrafık artıma malik kənd yerlərindən əhalinin şəhərə axını baş verir. Sosial amilin iqtisadiy-yatın inkişafı ilə əlaqəsi, demək olar ki, çox zəifdir. Əhalinin kənd yerlərindən şəhərlərə axınına səbəb, bir qayda olaraq, oradakı yük-sək yaşayış səviyyəsi, iş tapmaq, ixtisas artırmaq, dünyagörüşünü yaxşılaşdırmaq imkanları və s. olur. Buna görə də urbanizasiyanin qloballaşmasının qabağını almaq üçün kiçik və böyük şəhərlərin meydana gəlməsi və onların sosial inkişafının qayğısına qalmaq lazımdır. Bu yolla urbanizasiya prosesinin zəiflədilməsi inkişaf etmiş ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Bu ölkələrdə XXI əsrin əvvəlində də urbanizasiya əsasən sosial amilin təsiri altındadır. Digər yerlərdə yaxşı şərait görməyən əhali, şəhərlərə üz tutur və urbanizasiyanın şiddətlənməsinə səbəb olurlar.

Bir qlobal problem kimi urbanizasiyanin həlli eyni zamanda prosesin ölkələr və dünya miqyasında düzgün idarə olunmasından da cox asılıdır.

## §6. DEMOQRAFİK PROBLEM

### 6.1.Problemin qloballığı

Müasir dövrün on qaynar qlobal problemlərindən biri demoqrafik problemdir. İndi bu məsələyə dünyanın demək olar ki,bütün qəbildən olan alimləri, mütəxəssisləri, dövlət və siyasət xadimləri diqqət yetirmək zərurəti ilə üzləşmişlər. Dünya təşkilatlarını da bu məsələ ciddi narahat edir.

Bu narahatlığın əsas səbəbi də odur ki, təxminən XIX əsrin ikinci yarısından başlayaraq dünya əhalisinin sayı tarixdə görünməmiş sürətlə artmağa başlamışdır. Dünya iqtisadiyyatna aid dərc olunmuş məlumatlara görə bizim eramızın əvvəlində dünya, əhalisinin sayı 256 milyon nəfər təşkil edirdi. 1000-ci ildə bu rəqəm 280 milyona, 1500-ci ildə isə cəmi 427 milyona qədər artmışdı. 300 ildən sonra, yəni 1800-cü ildə isə yer kürəsinin əhalisi artıq 952 milyon nəfər təşkil edirmiş. XIX əsr ərzində dünya əhalisinin sayı 700 milyon nəfər çoxaldı və 1900-cü ildə 16521 milyona çatdı. XX əsrin birinci yarısında isə əhalinin mütləq

artımı 845 mln. nəfər təşkil etdi və 1950-ci ildə dünya əhalisinin sayı 2,5 milyard nəfər oldu. Bu dövrdən sonrakı 30 ildə əhalinin mütləq artımı nə az, nə çox - 2 milyard nəfərə bərabər oldu və 1980-cı ildə dünya əhalisnin sayı 4,432 milyard nəfərə çatdı. Sonrakı 20 ildə əhalinin artımı təxmini hesablamalara görə 1,5 milyard nəfərdən çox artmış və 2001-ci ilin astanasında 5,5 milyard nəfərə çatmışdır.

Müasir demoqrafik vəziyyət bir də ona görə qlobal xarakter daşıyır ki, əhalinin güclü artımı dünya əhalisinin çox hissəsinin (2/3 hissəsindən çoxunun) məskunlaşdığı Asiya, Afrika və Latın

Amerikasında baş verir. Problemi kəskinləşdirən bir də odur ki, məhz bu ölkələr iqtisadi, sosial və mədəni cəhətdən geri qalırlar. Bu ölkələrdə əhalinin sayının hər 20-30 ildən bir-iki qat artmasını da bura əlavə etsək, onlarda ərzaq, mədəni inkişaf və təhsil məsələlərinin həllinin nə dərəcədə ağır olması aydın olar.

Demoqarfik siyasət hər bir suveren ölkənin öz səlahiyyətlərinə daxil olsa da, son nəticədə konkret bir ölkədə yaranan gərginlik bütün dünya iqtisadiyyatna təsir göstərir. Lakin bu məsələnin bir tərəfidir. Məsələnin ikinci tərəfi iqtisadi inkişafı dərindən başa düşmək və onun həllinə kompleks yanaşmaq zəruriyyətinin ortaya çıxması ilə bağlıdır. Təcrübə göstərir ki, yer kürəsində fəaliyyət göstərən insanlar uzun illər və əsrlər boyu təbiətdən qidalanıb, iqtisadiyyat yaradıblar, sonra iqtisadiyyatı daha da inkişaf etdirmək haqqında düşünüblər. Bir sıra ölkələrdə buna nail də olublar. Lakin XX əsrin son onilliklərində məlum olub ki, məsələyə kompleks münasibət demək olar ki, olmayıb. Ancaq iqtisadi nəticələr uğrunda mübarizə aparılıb. Lakin bu nəticələrin təbiətə münasibət və sosial inkişaf baxımından nə dərəcədə səmərəliliyi bütün ölkələrdə eyni dərəcədə nəzərə alınmamışdır. Keçən əsrin son onilliklərində əksər tədqiqatçılar, dövlət xadimləri və hətta siyasətçilər başa düşməyə başlamışlar ki, iqtisadi fəaliyyət ümumbəşəri fəaliyyətin bir hissəsidir və iqtisadi inkişaf konsepsiyasına hərtərəfli yanaşmaq zəruriyyəti meydana çıxmışdır və hər hansı bir iqtisadi məsələ bütün qlobal problemləri və ilk növbədə də demoqrafik problemi maksimum nəzərə almaq şərtilə həll edilməlidir. Əks təqdirdə əldə edilən iqtisadi nəticələr həll olunmamış və getdikcə kəskinləşən digər məsələlərin təsiri altında öz əhəmiyyətini itirə bilər. İctimai inkişafın daha geniş konsepsiyasının mahiyyəti də bundadır.

## 6.2.Əhali artımının dinamikası və proqnozu

Hesablamalar göstərir ki, əhalinin artım sürəti əsrlər boyu dəyişmişdir. Son meyl artım sürətinin çoxalması ilə müşahidə edilir. Bu artımı əyani surətdə göstərmək üçün bir neçə üsullar yanaşmalardan istifadə edilir. Dünya əhalisi sayının sürətlə artmasını əyani şəkildə göstərmək üçün "ikiqat artım müddəti” göstəricisindən istifadə edilir. Təsdiq edilmişdir ki, dünya əhalisi ikiqat artması birinci dəfə 1500 ilə (1-1500-ci illər), ikinci dəfə 300 ilə (1500-1800-ci illər), üçüncü dəfə 120 ilə (1800-1920-ci illər) dördüncü dəfə ısə cəmi 50 ilə (1920-1970-ci illər) baş vermişdir.

BMT-nin apardığı tədqiqatlar və irəli sürdüyü proqnoza görə dünya əhalisinin növbəti ikiqat artması müddəti 40-45 il təşkil edəcək.

**Dünya əhalisinin sayı və onun artması əmsalı (fakt və proqnoz)**

| **İllər** | **Bütün dünya üzrə** | | **İnkişaf etmiş ölkələrlə** | | **İnkişafda olan ölkələrlə** | |
|---|---|---|---|---|---|---|
| | **Əhalinin sayı (mln.n)** | **5 il müd - dətinə artım əmsalı** | **Əhalinin sayı (mln.n)** | **5 il müddətinə artım əmsalı** | **Əhalinin sayı (mln.n)** | **5il müddətinə artım əımsalı** |
| 1980 | 4432 | 1,72 | 1131 | 0,71 | 3301 | 2,08 |
| 1990 | 5242 | 1,65 | 1206 | 0,61 | 4036 | 1,98 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2000 | 6119 | 1,50 | 1272 | 0,48 | 4847 | 1,77 |
| 2010 | 6998 | 1,27 | 1321 | 0,35 | 5667 | 1,49 |
| 2020 | 7813 | 1,07 | 1360 | 0,27 | 6451 | 1,24 |
| 2025 | 8195 | 0,96 | 1377 | 0.24 | 6818 | 1,10 |

BMT-nin məlumatlarına görə əhali sayı dinamikasının əsas pillələri özünün yüksəklişi ilə fərqlənir, lakin XXI əsrin astanasında azalma əyani olaraq görünür. XXI əsrin əvvəllərində artım sürəti azalacaq və proqnoza görə XXI əsrin axırında dünya əhalisinin sayı sabitləşəcək və təxminən 10-12 milyard nəfər təşkil edəcəkdir. Proqnozlarda o da qeyd edilir ki, əhalinin illik artımının mütləq səviyyəsinin aşağı düşməsi inkişaf etmiş ölkələrdə keçən əsrin 60-cı illərinin ikinci yarısından başlamışdır. İnkişaf etmiş ölkələrdə isə bu prosesin 2005-ci ildən baş verəcəyi gözlənilir.

## 6.3.Demoqrafık partlayışların əsas səbəbləri

Tarixi baxımdan demoqrafık artım bioloji cəhətdən yox, sosial-iqtisadi qanunauyğunluq nöqteyi-nəzərincə qiymətləndirilir. Burada bir neçə dövr fərqləndirilir. Birinci dövr neolit dövrü adlanır. Bu dövr aşağı səviyyədə doğum, yüksək səviyyədə ölümlə fərqlənirdi. Bu dövrdən sonra ikinci dövrdə sosial-iqtisadi şərait dəyişmiş və əhalinin yüksək doğum və yüksək ölümlə səciyyələnən təkrar istehsalı baş vermişdir. Üçüncü dövr əhalinin təkrar istehsalı aşağı səviyyədə doğum və aşağı səviyyədə ölüm prinsipi üzrə baş vermişdir.

İndiki dövrün özünəməxsus xüsusiyyəti yüksək iqtisadi, elmi-texniki, mədəni yüksəliş əldə etmiş ölkələrdə əhali sayının artım sürətinin çox aşağı və bəzən sıfıra yaxınlaşmasından və əksinə, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə əhali sayının çox sürətlə (demoqrafık partlayışla) artmasından ibarətdir. Zəif inkişaf etmis ölkələrdə əhalinin sürətlə artmasına "partlayış" kimi qiymət verilməsinin əsasını, ayrı-ayrı ölkələrdə əhalinin yüksək artımı yox,

dünya əhalisinin 2/3-nin bu ölkələrdə yaşaması, ölənlərin sayının güclü sürətdə azalması və bu ölkələrin çox kasıb olması təşkil cdir. Dərində fikirləşəndə görmək olur ki, problemin mahiyyəti heç də əhalinin artmasında deyil. Əsas məsələ bu ölkələrdə dövlətin səriştəsizliyidir. Səriştəsiz idarəetmə üzündən məhsuldar qüvvələrin zəif inkişafı, ictimai əmək məhsuldarlığının, aşağı olması, təsərrüfat strukturunun geri qalması, sosial-mədəni inkişafın zəifliyi ailədə uşaqların sayının artmasına müsbət təsir göstərir.

Demoqrafik proseslərdə mühüm rol oynayan amillərdən biri həyatın, yaşayışın keyfiyyətidir. Həyatın (yaşayışın) keyfıyyəti de-dikdə ilk növbədə hər bir insanın (fərdinin) yaşayıb yaratması üçün ətraf mühitə olan tələbatının ödənilməsi səviyyəsi başa düşülür. Bu tələbat dünyada qəbul olunmuş və insanın və canlıların normal yaşamasını təmin edən standartlara görə təyin edilir. Həyat (yaşayış) keyfiyyəti anlayışı həm təbii, təbii-sosial və həm də təmiz sosial-iqtisadi aspektləri nəzərə alır. Yəni insanın keyfiyyətli yaşayışını sosial-iqtisadi vəziyyət ilə yanaşı düşdüyü təbii və sosial-psixoloji mühit də təmin edir. Tədqiqatçılar sübut etmişlər ki, yaşayışın keyfiyyəti aşağı düşdükcə doğum artır.

## 6.4.Demoqrafik qlobal problem və iqtisadiyyat

Bütün ərazilər və ölkələr səviyyəsində sosial-iqtisadi inkişafın demoqrafik toplananlarının rolu böyükdür. Demoqrafik proseslər bütün ölkələrdə həm iqtisadi və həm də siyasəti formalaşdıran amillərdəndir. Lakin fərqləndirici cəhət ondadır ki digər amillərlə müqayisədə demoqrafik amil daha çox dayanıqlı və daha az idarə olunandır. Digər tərəfdən demoqrafıya, iqtisadiyyat və siyasət arasında əlaqələr çoxplanlıdır. Bu əlaqələrin öyrənilməsi idarəetmədə və iqtisadi inkişafı təmin etməkdə hər şeydən mühüm olsa da, asan iş deyil. Elə qlobal problemlərin meydana gəlməsi və getdikcə kəskinləşməsinin əsas səbəbi də budur.

"Demoqrafik inkişaf" anlayışı "artım" anlayışından genişdir və digər komponentlərlə yanaşı özündə həm təbiətdən, onun resurslarından düzgün istifadə edilməsi, ətraf mühitin çirklənmədən qorunması,

ərazilərə görə əhalinin sayının artması və strukturunun dəyişməsi kimi prosesləri də özündə cəmləşdirir. Son nəticədə bu komponentlərin planlaşdırmada, idarəetmədə lazımi səviyyədə nəzərə alınmaması çox mənfi iqtisadi nəticələrə gətirib çıxarır və dünya iqtisadiyyatı mümkün ola bilən templə inkişaf edə bilmir.

Demoqrafik qlobal problemin həll edilməsi dünya iqtisadiyyatına güclü təsir göstərir. Bu təsir aşağıdakı istiqamətlərlə bas verə bilər.

**1.Problemin həlli çətinləşdiyinə və getdikcə çoxlu vəsait tələb etdiyinə görə.** Demoqrafik qlobal problemin həll edilməməsi ölkələrin iqtisadi inkişaf məsələsinə çox mənfi təsir göstərir və əksinə. Birinci dünya müharibəsindən sonra hər adambaşına düşən ÜDM göstəricisi inkişaf etmiş ölkələrlə inkişafda olan ölkələr arasrada 10:1 nisbətində idi. XIX əsrin 70-ci illərində bu nisbət inkişaf etmiş ölkələrin xeyrinə 13:1 nisbətində dəyişdi. Buna səbəb inkişafda olan ölkələrdə əhalinin sayının yüksək sürətlə artması idi.

Əgər əhalinin artım sürəti müqayisə etdiymiz ölkələrdə eyni olsa idi onda baxılan göstəricinin nisbəti 8:1 təşkil edərdi.

Bundan başqa, əhalinin artması ilə ekoloji və energetika problemləri də həmişə qarşılıqlı əlaqədə olurlar. İnkişaf etməkdə olan ölkələrdə əhalinin və xüsusən kənd təsərrüfatında çalışan əhalinin sayının artması yerin təkinə, bitki örtüyünə, heyvanlar aləminə, təmiz suya və s. elə mənfi təsir göstərir ki, onlar yenidən meydana gəlmə xassələrini (qabiliyyətlərini) itirmək həddinə çatırlar. Digər tərəfdən iqtisadi cəhətdən geri qalmanın özü, digər qlobal problemlərin (demoqrafiya, okeanlardan istifadə, ekologiya və s.) həilinə də mane olan amildir.

**2.Həddindən artıq kasıblıq şəraitində yaşayanların sayının artması.** Təhlil göstərir ki, illər keçdikcə həm inkişaf etmiş və həm də inkişafda olan ölkələrdə müəyyən səviyyədə iqtisadi və sosial inkişaf olur. Lakin əhali artımı idarə olunmadığına və yaxud da pis idarə olunduğuna görə insanların mütləq sayı artır və nəticədə yoxsulların da xüsusi çəkisi artır. Bu hal ölkələr üçün və xüsusən geri qalmış ölkələrin özlərinin əsas inkişaf problemlərini həll etməkdə güclü maneəyə çevrilir: sürətli əhali artımında ölkə bəzən heç onları yedizdirməyə, təhsil verməyə belə imkanı olmur.

**3.İşsizlər ordusunun yaranması**. Əhalinin sayı artdıqca iş yerlərinə olan tələbat artır. Yeni iş yerlərinin yaradılması isə çoxlu vəsait tələb edir. Bəzi regionlarda isə kapital xərcləri münbit torpaqlar, təbii resursların məhdudluğu üzündən bu heç mümkün belə olmur. Bütün bunlar iqtisadi və sosial çətinliklər meydana gətirir, beynəlxalq münasibətlərə təsir göstərir, dünya iqtisadiyyatını zəiflədir.

**4.Dünya və regionlar, ölkə və şəhərlər miqyasında savadsız insanların sayı artır.** Məsələn, YUNESKO-nun məlumatlarına görə dünyada savadsızların sayı 1970-ci ildə 783 milyon nəfər təşkil edirdisə, 1980-ci ildə bu rəqəm 800 mln. nəfərə, 1990-cı ildə 994 mln. nəfərə, 2000-ci ildə isə 954 mln. nəfərə çatmışdır. Bu məsələni həll etmək üçün inkişafda olan ölkələrdə məktəblərin sayını 2 dəfə çoxaltmaq tələb olunur ki, bu da xeyli vəsaitlərin dövriyyəyə buraxılması deməkdir.

**6.5.Problemin həlli yolları**

Məsələ burasındadır ki, göstərdiyimiz bu istiqamət üzrə problemlər həll edilmədikdə əksinə əhali artımı daha da sürətlənir və demoqrafiyanın bir qlobal prolem kimi dünya iqtisadiyyatına mənfi təsiri artır. Sadəcə olaraq dünyanın böyük bir hissəsində "inkişaf problemi" "məhv olmamaq problemi" ilə yerini dəyişir, insanlar sadəcə olaraq yaşamaq, xilas olmaq, kütləvi sürətdə ölməmək uğrunda mübarizə aparmalı olurlar, onların inkişaf etmək haqqında düşünməyə belə vaxtları qalmır.

Dünyadakı ekoloji gərginlik müxtəlif alim və mütəxəsisləri düşündürür. Dünya elmində elə istiqamətlər meydana gəlmişdir ki, onların müəlliflərinə görə təbiətdə baş verən deqradasiya hallarının əsas amili də yer kürəsində insanların sayının çoxalmasıdır. (insan populyasiyasının partlayışıdır). Məsələn, Stenford Universitctinin biologiya üzrə professoru Pol Erlixə görə demoqrafik meyllər ictimai əlaqələrdə sərbəst dəyişənlərdir və əgər onun qarşısı alınmazsa ekologiyanın pisləşməsi davam edəcək. Buna görə də onun fikrincə ekoloji tədbirdə ilk növbədə sterilizasiya yolu ilə eyni şəkildə doğuşu azaltmaq lazımdır. Bir sıra digər Amerika təşkilatları prezidentlərinə ünvanladıqları məruzələrində də bu məsələyə digər formada toxunur. Qeyd edilir ki, əhalinin artması nəticəsində "yer kürəsini"n saxlamaq qabiliyyəti azalır.

Qeyd edək ki, insanlann sayı artdıqca onların tələbatlarının ödənilməsi sahəsində problemlər yaranır. Məlum "tələbatların getdikcə artması" qanunu da fəaliyyət göstərir. Lakin bunun üçün heç də süni surətdə doğuşun azaldılması yolunu yeganə və birinci dərəcəli tədbir kimi seçmək düzgün deyildir. Biz ilk növbədə iqtisadiyyatı ölkələr və dünya miqyasında intensiv yollarla inkişaf etdirməliyik. Burada isə hələ çoxlu istifadə edilməmiş daxili imkanlar vardır.

Problemin həlli insana olan münasibətlə həll edilə bilər. Buna iqtisadiyyatda «insan amili» deyilir. Əgər insana ancaq istehlakçı kimi baxılarsa onda Maltus nəzəriyyəsinin yeni təmsilçiləri müəyyən dərəcədə haqlıdırlar. Lakin insan ilk növbədə yaradıcılığı sevən canlıdır. Onların əməyi və fəaliyyəti kəndlər, qəsəbələr, rayonlar, şəhərlər, ölkələr və dünya miqyasında düzgün təşkil edildikdə və istiqamətləndirildikdə bütün məsələləri həll etmək mümkün olar. Müasir ictimai istehsal, elmi-texniki tərəqqi mühitində insan təbii sərvətləri genişləndirər və ümumiyyətlə, onların düzgün təşkil olunmasını təmin edə bilər. Bu deyilənləri BMT-nin əldə etdiyi dünya əhalisinin məşğulluq strukturunun proqnozları da təsdiq edir. Proqnoz məlumatlarında göstərilir ki, nəzərdə tutulan istiqamətdə iş aparılarsa 2025-ci ildə və ondan da sonra işləmək istəyənlər üçün iş yeri tapılacaq. Bunun üçün əlbəttə ki, ilk növbədə sənayeləşdirmə, kənd təsərrüfatında əmək məhsullarının  yüksəldilməsi və torpağın münbitliyinin artırılması, əlavə itkilərin qarşısının alınması sahəsində gərgin iş aparılmalıdır. Ən başlıcası isə hər bir ölkənin ərazi vahidlərində sağlam, korrup-siya və rüşvətxorsuz sosial-psixoloji və mədəni mühüt yaratmaq lazımdır. Əhalinin sürətlə artmasında fərdlərin və xüsusən də cə-miyyətin ilk həlqəsi olan ailənin rolu böyükdür. İnsana hörmət ar-tarsa, onun sosial, iqtisadi, mədəni, psixoloji inkışafına dövlət qayğısı güclənərsə, problemin həllində ciddi dönüş yaratmaq olar. İnsanlara qiymət verilərsə, onlar öz problemlərini həll edə bilərlər.

## VI FƏSİL. BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN MÜHÜM FORMALARININ MAHİYYƏTİ VƏ İNKİŞAFI

### §1. Beynəlxalq ticarət. Dünya və ölkə iqtisadiyyatının inkişafında onun rolu

## 1.1.Beynəlxalq ticarətin yaranmasının obyektiv əsası

Əvvəllər qeyd etdiyimiz kimi, dünya iqtisadiyyatı, çox sadə şəkildə yanaşdıqda ayrı-ayrı ölkələrin iqtisadiyyatının toplusudur. İndi belə təsəvvür edək ki, bütün ölkələr özləri öz sərhədləri daxilində iqtisadiyyatlarını yaradırlar və heç bir dövlətlə iqtisadi münasibətdə olmurlar. Belə olan halda "dünya iqtisadiyyatı" məvfumu doğrudan da ölkələrin iqtisadiyyatının bəsit, mexaniki toplusunu ifadə edəcəkdir. İndi məsələni başqa cür qoyaq, yəni dövlətlərin bir-biri ilə yaranmış iqtisadi əlaqələrini nəzərə alaq. Onda dünya iqtisadiyyatı ölkələrin iqtisadiyyatının mexaniki cəmi kimi yox, bürün ölkələrin iqtisadi potensialının, beynəlxalq və iqtisadi əlaqələrinin, onlann qarşılıqlı münasibətlərinin təzahürü, nəticəsi və eyni zamanda həm dünya sivilizasiyasının və həm də; ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi çıxış edəcək. Dünya iqtisadiyyatının dünyəvi problemlərini həll edə bilən, yarım-sistemlərin iqtisadiyyatlarına təsir edə bilən bir amilə çevrilməsi üçün, deməli, ilk növbədə ölkələr arasında qarşılıqlı iqtisadi, sosial, texniki, siyasi münasibətləri inkişaf etdirmək lazımdır. Bu münasi-bətlərin əsasını beynəlxalq ticarət təşkil edir. Bunun da öz obyektiv əsasları vardır.

## 1.2.Beynəlxalq ticarətin dünya iqtisadiyyatına təsiri

Dünya iqtisadiyyatının bütün ölkələr üçün sərfəli inkişafı bir sıra amil və şərtlərdən asılıdır. Onların içərisində ticarət mühüm və həlledıci rol oynayır. Ticarətin özünün isə iqtisadiyyata təsiri çoxşaxəlidir. Dünya iqtisadiyyatının bir vahid orqanizm kimi inkişaf edib genişlənməsi üçün ölkələr arasında hərtərəfli əməkdaşlığın yaranması və sürətlənməsi tələb olunur. Tarixən bu cür məsələlərin həlli beynəlxalq ticarətin inkişaf etdirilməsi ilə asanlaşır. Ticarət dünya təsərrüfatı yarımsistemlərinin inkişafı üçün çox zəruri məsələ olan “biliklərə yiyələnmə” məsələsinin həllini asanlaşdırır, bilikləri bütün ölkələr tərəfindən əldə edilə bilən şəklə "salır". Dünya ticarəti ticarətdə iştirak edən ölkələrin dünya miqyasında yaradılmış yeni texnika, texnologiya, elmi kəşflər, qabaqcıl

təcrübə, intensiv yaradılan «Nou-hau»-larla tanış olmaq imkanları yaradır.

Dünya yarımsistemlərinin beynəlxalq ticarətdə iştirak etmə dərəcəsi son nəticədə iki mühüm göstəricidə - idxal və ixracın həcmində öz əksini tapır. Bu göstəricilərin ikisinin də yaxşılaşması optimal nisbətdə inkişaf etdirilməsi, həm ixrac edən və həm də idxal edən dövlətlərin iqtisadiyyatının keyfiyyətcə yaxşılaşmasına şərait yarada bilər. İxrac və idxal şərait yaradır ki, qabaqcıl texnika, texnologiya, iş üsulları və s. haqqında məlumatlar alıcılar və mal göndərənlər vasitəilə əldə edilsin.

## 1.3.Dünya ticarətinin öyrənilməsi aspektləri

Dünya ticarəti (beynəlxalq ticarət) dedikdə, müxtəlif ölkələr arasında ticarət başa düşülür. Bu cür ticarət çox qədimdən mövcuddur. Quldarlıq və feodalizm dövrlərində beynəlxalq müba-dilə olub, lakin çox dar cərçivədə və məhdud şəkildə natural tə-sərrüfatdan əmtəə-pul münasibətlərinə keçilməsi və deməli, kapı-talizmin inkişafı ilə beynəlxalq ticarət sürətlə artmağa, genişlən-məyə, zənginləşməyə başladı və bu proses indi də davam cdir.

Dünya ticarəti və onun durmadan inkişaf edib zənginləşməsi obyektiv xarakter daşıyır. Dünya təsərrüfat sisteminin yarımsis-temləri bu prosesi müvəqqəti ləngidə və yaxud da sürətləndirə bilərlər. Məsələyə bu cür yanaşmağın dünya iqtisadiyyatını və ona təsir edən amilləri dərindən başa düşmək üçün böyük əhəmiyyəti vardır. Ona görə ki, dünya iqtisadiyyatının inkişafında və səmərəliliyinin yüksəldilməsində beynəlxalq ticarət aparıcı amil -rolunu oynayır. Əslində dünya ticarəti beynəlxalq münasibətlərin ən geniş yayılmış formasıdır. Lakin geniş yayılmasına baxmayaraq

onun üç aspektdə öyrənilməsi həmişə aktual olmuş və indi də çox aktualdır.

**Birinci aspekt** dünya ticarətinin obyektiv əsasının və qanunauyğunluqlarının öyrənilməsini nəzərdə tutur. Dünya ticarətinin bu aspektdə öyrənilməsi demək olar ki, tam başa çatmış və prosesin obyektiv və qanunauyğun xarakterdə olması isbat edil-mişdir. Bunun əsasını kapitalist cəmiyyətinin meydana gəlməsi və bununla əlaqədar olaraq natural təsərrüfatçılığın əvəzinə əmtəə-pul münasibətlərinin meydana gəlməsi, məhsuldar qüvvələrın sürətli inkişafı, milli təsərrüfatların qapalı çərçivə daxilində inkişafının mümkün olmaması, təbii resursların , yüksək iqtisadi fəhlə və qulluqçuların , qabaqcıl təcrübənin və s. bu kimi amil və şərtlərin dünya ölkələri arasında bərabər olmaması, texnik və texnologiyaların vahid güclərinin artması və məhsuldarlıqlarının çoxalması və bu əsaslar üzərində bir dövlətin tələbatlarından artıq məhsullar istehsal etməyə qadir olan kütləvi istehsalların meydana gəlməsi, beynəlxalq ixtisaslaşmanın və kooperasiyalaşmanın sürətlə inkişafı, istehsalın beynəlmiləlləşməsi və qloballaşması təşkil edir.

**İkinci aspektdə** dünya ticarətinin səmərəsi və bu səmərəni meydana gətirən mexanizm öyrənilir. Bu sahədə tədqiqatların əsası XVIII əsrin axırında və XIX əsrin əvvəlində görkəmli ingilis iqtisadçıları Adam Smit və David Rikardo tərəfindən qoyulmuşdur. İqtısad elminin nəzəri və praktiki aspektlərinin əsasını qoyan A.Smit öz fikir və mülazihələrini, elmi təkliflərini 1776-cı ildə dərc etdirdiyi "Xalqların (millətlərin) varlı olmasının təbiəti və səbəbləri" adlı kitabında verirdi. İqtisadi fəaliyyətin ixtisaslaşması nəticəsində əmək bölgüsündə dar çərçivədə (ailədə və ailələr arasında) lokal çərçivədə (təsərrüfatlar arasında, ölkə daxilində) və qlobal çərçivədə (dünya miqyasında) ciddi fikir verən iqtisadçı alim **mütləq üstünlük nəzəriyyəsini** işləyib formalaşırdı və göstərdi ki, bütün baxılan səvıyyələrdə (ailə, müəssisə, dövlət və dövlətlərarası) kənardan alınan əşya özün hazırladığından ucuz başa gəlirsə kənardan olmağa üstünlük verilməlidir. Beləliklə, A.Smitin bu sahədə baxışlarının mahiyyti belə idi: beynəlxalq mübadilə inkişafının əsasını istehsal xərclərinin mütləq səviyyəsinin eyni işlər (əşyalar) üçün ayrı-ayrı ölkələrdə müxtəlif olmasıdır. Gətirilən

(idxal edilən) məhsulun iqtisadi səmərəsi o zaman ola bilər ki, nə vaxt onu istehsal edən ölkədə bu məhsula çəkilən istehsal xərclərinin mütləq səviyyəsi aşağı olsun.

Sonralar, 1817-ci ildə D.Rikardo özünün "Siyasi iqtisadın başlanğıcı və vergi qoyma" əsərində isbat etdi ki, mütləq istehsal xərcləri prinsipi umumi qaydanın ancaq xüsusi halıdır və nisbi üstünlük nəzriyyəsini əsaslandırdı. O, göstərirdi ki, dünya ticarəti inkişafını təhlil edərkən əmək və təbii resursların ölkələr arasında bərabər yerləşməməsini və məhsul istehsal etmə texnologiyasının müxtəlif ölkələrdə eyni səviyyədə mütərəqqi inkişaf etməməsini nəzərə almaq lazımdır. Vaxt keçdikcə müxtəlif ölkələr üzrə məhsullar istehsalının istər mütləq və istərəsə də nisbi səmərəlilıyı dəyişə bilər və dəyışır. Buna görə də beynəlxalq mübadilə arzu olunandır və bütün ölkələr uçün xeyirli ola bilər. D.Rikardo elə bir qiymət tapmağa çalışırdı ki, mübadilə həqiqətən də hamı üçün xeyirli olsun.

Dünya ticarətinin nəzəri məsələlərinə sonrakı illərdə (1848) Djon Stuart Mill nəzər yetirmiş və özünün "Siyasi iqtisadın əsasları" əsərində mübadilənin baş verdiyi qiymət zonasının meydanagəlmə mexanizmini izah etdi və göstərdi ki, mübadilə qiyməti tələb və təklifə əsasən formalaşır. Beləliklə də, beynəlxalq dəyər nəzəriyyəsi formalaşırdı. Bu nəzəriyyəyə görə ölkələr arasında mübadiləni optimallaşdıran qiymət mövcud olur. Bu qiymət isə hər hansı bır baxılan dövrdə tələb və təklfin təsiri altında formalaşır.

Dünya ticarəti şaxələndıkcə, inkişaf etdikcə onun nəzəri məsələlərinə yanaşma tərzi də dəyişmişdir. Getdikcə iqtisadçı alimləri və xarici ticarətlə məşğul olanları istehsal amilləri, ixracın və idxalın həcmi, onların əmtəə strukturu, ticarətə təsir edən amillər və onların təsnifləşdirilməsi, azad mübadilənin əsasları və şərtləri daha çox maraqlandırmağa başladı. Məsələn, beynəlxalq ticarət axını istiqamətinin və strukturunun nə ilə təyin olunması haqqındakı müasir təsəvvürlər İsveç alimləri olan Eli Hekşer və Bertil Olinin apardıqları tədqiqatlara və gəldikləri nəticələrə əsaslanır. Onlar bu və ya digər ölkənin konkret məhsul istehsal etmək və istehsal amillərinə məxsus olması sahəsində üstünlüynü irəli sürmüşlər və onun izahını vermişlər. Öz tədqiqatlarına əsasən onlar “istehsal faktoruna (amilinə) uyğun qiymətlərin hamarlanması teoremini irəli sürdülər. Bunun mahiyyəti

ondadır ki, milli istehsalların müxtəlifliyi ölkədə formalaşmış əmək, torpaq, kapital və bu və ya digər məhsula olan daxili tələbat kimi istehsal amillərinin müxtəlif və rəngarəng olması ilə təyin edilir.

Amerika iqtisadçıları N.Samuelson və V.Stolper Yekşer-Olin teoremini təkmilləşdirdilər (1948). Rus mənşəli Amerika iqtisadçısı V.Leontyev isə bu teoremdən istifadə edərək özünün məşhur "'Leontyevin paradoksu" əsərini hazırladı. Bu əsərində o, nisbi üstünlük nəzəriyyəsini daha da inkişaf etdirdi.

Dünya ticarətində hazır məhsullar üzrə mübadilə həmişə xüsusi yer tutmuşdur. İnkişaf etmiş sənaye ölkələri bir qayda olaraq hazır məhsul ixrac edirlər. Yüksək rəqabətin olması mühiti tədqiqatçıları dünya ticarətının daha konkret aspektləri ilə məşğul olmaga vadar edir. "Əmtəələrin həyat tsikli" konsepsıyasının tərəfdarları hesab edirlər ki, ölkələr arasında müasir ticarət əlaqələrini izah etmək üçün tsiklin pillələrindən istifadə etmək olar. Məsələ burasındadır ki, ETT nəticəsində yeni məhsullar meydana gəlir və bu proses aramsız davam edir. Yeni məhsul meydana gəlir, "yaşayır" mübadilədə olur, sonradan bu məhsul daha mükəmməl məhsulla əvəz olunur. Bu proses dünya ticarətinə, beynəlxalq mübadiləyə də güclü təsir göstərir. "Əmtəənin həyat (yaşama) tsikli" nəzəriyyəsinə görə bazarda ilk dəfə görünən əmtəə nə vaxtsa bazarı tərk edir və bu dövr ərzində 4 və ya 5 pilləni keçir. R.Vemov, Ç.Kindelberqer vo P.Uels öz doktrinalarında bu dəyışmələrin sxemini veriblər və göstəriblər ki, "tətbiq" pilləsində yeniləşmə işlənib hazırlanır, yeni məhsulun istehsalı və daxili və xarici bazarlarda satışı təşkil edilir. "İnkişaf” pilləsində satışın həcmi daxili bazarda artmaqla yanaşı, məhsulun, yenıləşməni yaradan ölkədən, digər ölkələrə ixracı da çoxalır. Sonradan rəqabət güclənir, istehsalın kapitaltutumu artmağa meyl göstərir, istehsalın əvvəlcə inkişaf etmiş ölkələrdə, sonradan isə digər ölkələrdə təşkil edilməsi üçün ilkin şərtlər yaranır. Yekunlaşdırıcı dövrdə hir neçə rəqabətçilər qiymətləri aşağı salmağa başlayırlar. Yetişmə pilləsi olan üçüncü (həm də dördüncü) pillədə həmin məhsulun istehsalı bir çox ölkələrdə təşkil edilir və istehsalın həcmi artır. Bazarlarda və xüsusən də yeniliyin müəllifi olan ölkənin bazarında məhsul bolluğu müşahidə olunur. Tələb dayanıqlaşır, qiymət siyasətin rolu güclənir, iriseriyalı istehsala mənsub olan yüksək standartlaşma əldə edilir və nisbətən aşağı ixtisaslı işçi qüvvəsi cəlb

edilir. Nəhayət, enmə adlanan sonuncu pillədə inkışaf etmiş ölkələrdə bazar çərçivəsinin daralması və inkişafda olan ölkələrdə isə istehsan təmərküzləşməsi müşahidə edilir. Bu nəzəriyyə bir daha sübut edir ki, yüksək səviyyədə inkişaf etmiş ölkələrin həqiqətdə də texnoloji üstünlükləri var və beynəlxalq ticarətdə onlar bundan olduqca çox faydalanırlar.

Göstərdiyimiz bıı nəzəriyyələrdən başqa problemə digər baxışlar da mövcuddur. Lakin müəlliflərin və baxışların çox və az olmasından asılı olmayaraq bircəhət hamı tərəfindən vurğulanır ki, o da beynəlxalq ticarətin, eyni dərəcədə olmasa da, hamı üçün müəyyən xeyrı olmasıdır. Lakin gənc oxucular üçün bir mühüm cəhəti qeyd etmək lazımdır. Bu da ondan ibarətdir ki, son vaxtlar nəzəriyyçilər diqqəti mikroiqtisadıyyata yönəltməyi təklif edirlər və təhlilləri firma və müəssisələr səviyyəsində gücləndirməyi tövsiyə edirlər. Bunun üçün əsas kimi firmalararası beynəlxalq mübadilə həcminin artmasını (dərc olunmuş bəzi materiallara görə firmalararası mübadilənin həcmi dünya ticarətinin ümumi həcminin 70%-ə çatır) göstərirlər. Qeyd edək ki, bu faktın özü də eyni səviyyədə inkişaf etmiş ölkələrin arasında belə əmtəə **mübadiləsinin** üstünlüklərini təsdiqləyir. Beynəlxalq ticarət məhz özünün qarşılıqlı xeyirli olması ilə dünya iqtisadiyyatına güclü təsir göstərir. Beynəlxalq ticarət nəzəriyyəsi isə mübadilələrin xeyirli olması mexanizmini açır və xarici ticaret axınlarının hansı səbəblərdən meydana gəlməsini öyrənir.

**Üçüncü aspektdə** ticarət edən ölkələrin iqtisadi təhlükəsizliyi məsələləri nəzərdən keçirilir. Müasir dövrdə çox böyük praktiki əhəmiyyətə malik olmasını nəzərə alaraq bu məsələ ayrıca olaraq növbəti paraqrafda şərh edilir.

## 1.4.Xarici ticarət və ölkənin iqtisadi təhlükəsizliyi

Əslində bu problem bütün ölkələri çox dərindən maraqlandıran problemdir. Hamısı beynəlxalq mübadilənin xeyirli olmasından danışsalar da öz ölkələrinin təhlükəsizliklərinə, millətinin çiçəklənməsinə ciddi yanaşan dövlətlər ilk növbədə özləri haqda düşünürlər, öz daxili bazarlarının qorunmasına, ölkədə iş yerlərinin yaradılmasına çalışırlar və məqsədlərinə çatmaq üçün bütün

vasitələrdən (hətta hərbi güclərindən) istifadə edirlər. Yəni söhbət burada paradoksdan gedir: bir tərəfdən beynəlxalq ticarətə qoşulmaq, digər tərəfdən isə ölkənin daxili bazarını qorumaq lazımdır. İlk baxışda bu bir-birinə zidd görünür. Lakin əslində bu tam şəkildə belə deyildir. Korrupsiyadan uzaq olan, demokratiyanı inkişaf etdirən dövlətlər problemi optimal həll etmək imkanına daha çox malik olurlar və müvəffəqiyyət əldə edirlər. Əks halda ölkənin dünya bazannda asılılığı güclənir. Bu deyilənlərin Azərbaycan üçün də əhəmiyyəti böyükdür. Hazırda respublikaımzın iqtisadiyyatı çox yüksək dərəcədə dünya bazarından asılı vəziyyətə düşüb. Belə ki, xarici ticarət dövriyyəsinin ÜDM-də xüsusi çəkisi 1997-ci ildə 41,0% təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici Yaponiya və ABŞ kimi dövlətlərdə 15-16% təşkil edir.

Beynəlxalq mübadiləni inkişaf etdirdikdə hər hansı bir ölkənin qarşısında duran əsas məsələlərdən biri də xarici tıcarət əlaqələrinin coğrafi quruluşudur. Dövlət yaxşı bilməlidir hansı dövlətlə və nə səviyyədə ticarət əlaqələrinə girməlidir ki, özünün iqtisadi təhlükəsizliyi qoruna bilsin. Dünya ticarətinə üçüncü aspektdən yanaşmaq müasir dövrdə o qədər aktuallaşmışdır ki, demək olar ki, bütün ölkələr və hətta beynəlxalq təşkilatlar bu haqda daha ciddi düşünməyə başlamışlar. BMT bu sahədə "Beynəlxalq iqtisadi təhlükəsizlik" adlı 42/165 saylı qətnamə qəbul etmişdir. Bundan başqa, BMT Baş katibi «Beynəlxalq iqtisadi təhlükəsizlik konsepsiyası" adlı məruzə ilə çıxış etmişdir. Bu dünya əhəmiyyətli sənədlərdə iqtisadiyyatın əsas problemləri araşdırılmış, iqtisadi təhlükəsizliyin beynəlxalq və milli mənbələri təsnifləşdirilmişdir.

İqtisadi təhlükəsizlik nisbətən yeni iqtisadi anlayışdır. Mahiyyəti odur ki, dövlət beynəlxalq əlaqələri genişləndirərkən, iqtisadiyyatın açıqlıq səviyyəsini yüksəldərkən həmişə çalışmalıdır ki, digər dövlətlərdən tam asılı vəziyyətə düşməsin. Bəs bunun üçün nə etmək lazımdır? Məhz bu suala müxtəlif alimlər müxtəlif cavab verirlər, ölkələr də buna müxtəlif cür yanaşırlar.

1980-ci illərdə Yaponiya kimi yüksək inkişaf etmiş sənaye ölkəsi bu məsələyə çox ciddi fikir verməyə başladi. Yapon alimləri iqtisadi təhlükəsizliyın təmin olunmasını beynəlxalq amillərin ölkə iqtisadiyyatına dağıdıcı təsirlərinin qarşısının alınması kimi qəbul

edirdilər. Onların fikrincə, baxılan dövrdə Yaponiyanın iqtisadi təhlükəsizliyi dörd amillə: iqtisadi və enerji ehtiyatları, ərzaq məhsulları ilə təmin olunma və dəniz nəqliyyatının təhlükəsizliyinin səviyyəsi ilə müəyyənləşməli idi.

Rus alimi L.Abalkının fikrincə, ölkənin iqtisadi təhlükəsizliyi üçün, birincisi iqtisadi sərbəstlik (yəni dövlətin bütün milli ehtiyat-lara və istehsala tam nəzarəti və sərbəst iqtisadi qərar qəbul edə bilməsi), milli iqtisadıyyatın dayanıqlığı və stabilliyin təmin edil-məsi; ikincisi yəni milli iqtisadiyyatın bütün formalarının qorun-ması və fəaliyyətinə şərait yaradılması, vəziyyətin dayanıqlığını poza biləcəκ addımların qarşısının alınması və üçüncüsü iqtisa-diyyatın inkişafetmə qabiliyyətinin olmasi sərtlərinin ödənilməsi lazımdır.

Bir sıra digər alimlər isə iqtisadi təhlükəsizliyi səmərəli iqtisadiyyat, daxili iqtisadi dayanıqlıq, iqtisadiyyatın tarazlı inkişafi, xarici əlaqələrin idarə olunması dərəcəsi, texnoloji yeniliklərin tətbiq edilməsı imkanları ilə əlaqələndirirlər. Lakin problemin həlli yollarının müxtəlif olmasına baxmayaraq məqsəd birdir: beynəlxalq amillərdən yaradıcılıqla istifadə etmək lazımdır. Bunun üçün ilk növbədə iqtisadiyyata müsbət təsir göstərən amillərin fəaliyyəti üçün münasib şərait yaradılmalı, iqtisadiyyatı digər ölkələrdən asılı edən amillərdən xilas edə bilən və yaxud da onların təsirlərini neytrallaşdıra bilən texniki, təşkilati, iqtisadi və sosial tədbirlər işləyib hazırlamalı və həyata keçirilməlidir.

İqtisadi təhlükəsizlik və onun təmin olunması məsələsi hər bir ayrıca götürülmüş ölkədə müxtəlif cür qoyula bilər. Burada bir sıra amil və şərtlər irəli sürmək olar. Lakin təcrübə göstərir ki, dövlətin yerləşdiyi region, onun qonşularının kim olması aparıcı və əsas şərt ola bilər. Bu fikri Azərbaycanın yerləşdiyı geofiziki mövqe və onun qonşularının maraq dairələri təsdiq edir. Qonşu amili kimi Azərbaycan həmişə Rusiyanı, İranı və Ermənistanı nəzərdən qaçırmamalıdır. Bu üç ölkə istədikləri vaxt orta məxrəcə gələ bilərlər və regionda iqtisadi proseslərin gedişinə mane ola bilərlər. Belə şəraitdə ölkənin iqtisadi təhlükəsizliyi məsələsinə daha ciddi və bütün incəlikləri ilə yanaşmaq lazımdır.

## 1.5.Dünya ticarətinin dinamikası

Dünya ticarəti daim inkişaf edən irəliyə doğru hərəkət edən bir prosesdır. Onun sürətli inkişafına əvvəllər maşınlı istehsalların (İngiltərə, Hollandiya və b. ölkələrdə) meydana gəlməsi və inkişaf etməsi güclü təsir göstərirdisə, müasir dövrdə dünya ticarəti dinamikasına (inkişaf sürətinə) güclü təsir edən amil və şərtlər çoxdur və toplu şəkildə əsasən aşağıdakılardan ibarətdir:

-beynəlxalq əmək bölgüsünün inkişafı və istehsahn beynəlmiləlləşməsinin sürətlənməsi;

-əsas kapitalın yeniləşməsinə, iqtisadiyyatın yeni struklurlarının yaradılmasına, köhnələrin yenidən qurulmasına imkan verən elmi-texniki tərəqqi və onun bu vaxta qədər görünməmiş sürətliliyi və şaxələnməsi;

-transmilli korporasiyaların dünya bazarında aktıv fəaliyyəti;

-beynəlxalq ticarətin ümumdünya ticarət təşkilatı (ÜTT) tərəfindən hazırlanmış tədbirləri üzrə tənzimlənməsi;

-beynəlxalq ticarətin liberallaşdırılması, bir çox ölkələrin ixracı məhdudlaşdırmayan, gömrük dərəcələrini aşağı salan, sərbəst iqtisadi zonaların yaradılmasını nəzərdə tutan rejimləri qəbul etmələri;

-regional maneələri aradan qaldırmağa, ümumi bazarı formalasdırmağa, azad ticarət zonaların yaradılmasına kömək göstərməyə qadir olan ticarət -iqtisadi inteqrasiya proseslərinin inkişafı;

-keçmiş müstəmləkə ölkələrinin siyasi müstəqillik əldə etməsi, onların arasında iqtisadiyyatı xarici bazara səmtlənmiş "yeni sənaye ölkələri" qrupunun meydana gəlməsi;

-dünya sosialist sisteminin dağılması və MDB ölkələrinin bazar iqtisadiyyatı istiqamətində inkişafa başlamaları.

Bütün bu və digər amil və şərtlərin təsiri altında dünya ticarəti sürətlə inkişaf etməkdədir. Cədvəl 5-də dünya ixracının və ticarətinin artım sürəti verilmişdir.

**Cədvəl 5**

**Dünya ticarətinin həcmi və ixracın orta illik artım sürəti**

| Dünya ticarətinin həcmi | | Dünya ixracının orta artım sürəti | |
|---|---|---|---|
| illər | trilyon ABŞ dolları ilə | İllər | %-lə |
| 1970 | 0,3 | 1950 | 6 |
| 1980 | 1,9 | 1960 | 8,2 |
| 1996 | 5,1 | 1970-1980 | 9,0 |
| 1997 | 5.4 | 1990-1997 | 6 |
| 1999 | ... | | |
| 2000 | ... | 1997-2000 | ... |
| 2003 (proqnoz) | 7,0 | 2000-2003 | ... |

Göründüyü kimi 1950-ci ildən baslayaraq 1997-ci ilə qədər dünya ixracatı dayanıqlı sürətdə artmış və artım sürəti 6,0%-dən aşağı olmamışdır. 1970-1980-cı illərdə isə hətta 9% təşkil etmışdir. Bu cür artım dünya ticarətinin ümumi dövriyyəsinə də müsbət təsir göstərmiş və nəticədə dünya ticarətinin həcmi 1970-ci ildəki cəmi 0,3 trilyon ABŞ dollarından 1997-ci ildən 5,4 trilyon ABŞ dollarına qədər yüksəlmişdir. Deməli, baxılan 27 il müddətində dünya ticarətinin həcmi 18 dəfə artmışdır. Bu çox yüksək göstəricidir.

Əyanilik üçün cədvəl 6-da dünya ixracının əmtəə strukruru verilmişdir.

cədvəl 6

Proqnoza görə 2003-cü ilə qədər artım davam etməli və dünya

/

Əsas əmtəə qrupları üzrə diinya ixracının struktuıu (%-lə).

| Məhsul növlərinin əsas **qrupları** | I l l ə r | | | | |
|---|---|---|---|---|---|
| | 1937 | 1960 | 1975 | 1985 | 1995 |
| Ərzaq (içki və tütün də daxil olmaqla) | 22,8 | 18.2 | 12,2 | 10,7 | 8,1 |
| Xammal | 31,0 | 16,7 | 7.5 | 5,9 | 7,4 |
| Mineral yanacaq | 7,6 | 10.1 | 19,5 | 12,3 | 7,2 |
| Emal sənayesinin məhsulları | 38,6 | 55.0 | 59.7 | 70,9 | 77,3 |
| 0 cümlədən: | | | | | |
| Avadanlıq, nəqliyyat vasitələri | 10,6 | 21,2 | 27,9 | 35,1 | 43,5 I |
| Kimyəvi məhsullar | 4,6 | 6,2 | 7,2 | 9,0 | 9,4 |
| Qara vo əlvan metallar | 10,9 | 9.0 | 7,3 | 5,3 | 7,2 |
| Toxculuq məmulatları (iplik, parça, paltar) | 8,7 - | 5,4 | ,9 | 6,8 | 7,1 |

ticarətinin həcmi 7,0 trilyon ABŞ dollarına çatmışdır.

Beynəlxalq iqtisadi münasibətlərdə də dünya ticarəti xüsusi mövqeyə malikdir. Tədqiqatçılann fıkrincə bu gün beynəlxalq iqtisadi münasibətlərin ümumi həcminin 4/5-ü dünya ticarətinin payına düşür.

### 1.6.Dünya ticarətinin struktıru

Dünya iqtisadiyyatına qiymət verərkən mühüm məsələlərdən biri də dünya ticarətinin müəyyən dövr tiçün formalaşmış struktu-rudur. Dünya ticarətinin bir neçə əlamətlərə görə strukturunu öy-rənmək olar. Onların geniş yayılmışlarını qısaca nəzərdən keçirək.

**Dünya ticarətinin əmtəə strukturu.** Bu strukturun öyrənilməsində məqsəd əmtəələrin əsas qruplannı təyin etmək (sayca və həcmcə) və onların ümumi ticarətdə tutduqları yeri, onlar arasında formalaşmış nisbətləri təyin etmək və nisbətlərin dəyişmə meyllərini və

səbəblərini öyrənməkdir. Hər hansı bir struktur tədqiqatlarında olduğu kimi, burada da öyrənilir ki, hansı məhsullar ticarət dövrəsindən çıxırlar (tələbat olmadığına görə) hansı məhsullara tələb dayanıqlıdır və hansı məhsullar yenidir və perspektivlidir. Struktur tədqiqatlar hər bir ölkə üçün qiymətli məlumatlar əldə etməyə imkan verir. Nəticələr milli iqtisadiyyatın strukturunun təyin edilməsində istifadə edilir. Məsələn, Amerika və Yaponiya kimi iqtisadi cəhətdən nəhəng dövlətlərin dünya bazarında üstün yer tutumalarının əsas səbəblərindən biri də onların dünya ticarəti strukturunu və onun dəyişmə meylini digər ölkələrə nisbətən daha qabaqcadan proqnozlaşdıra bilmələridir. Bu onlara imkan verir ki, ixracın və idxalın əmtəə strukturunu düzgün, öz ölkələrinin xeyrinə təyin etsinlər.

Dünya ticarətinin əmtəə quruluşuna (strukturuna) ilk növbədə çox sürətlə inkişaf edən ETT və beynəlxalq əmək bölgüsii güclü təsir göstərir. Bu amillərin təsiri altında ölkələr xammal ixrac etməkdən çəkinirlər (bu Azərbaycan üçün də örnək olmalıdır. Lakin təəssüflər olsun ki, biz indi əsasən xammal ixrac edirik). Nəticədə dünya ixracı həcmində xammalın xüsusi çəkisi baxılan dövürdə 31,0 faizdən 7,4 faizə qədər azalmışdır. Əksinə, emal sənayesinin məhsullan 38,6 faizdən 77,3 faizə qədər yüksəlmişdir.

Müasir dövrdə dünya ticarəti dövriyyəsinin strukturcasına öyrənilməsi yeni-yeni prinsiplər əsasında aparılır. Dünya iqtisadiyyatının inkişafı və ölkələrin iqtisadi təhlükəsizliyi baxımından əmtəələrin keyfiyyət göstəricilərindən və xüsusən də böyük əhəmiyyət kəsb edən məhsulun material-əmək-fond-enerji-elm-texnologiya tutumları kimi göstəricilərdən istifadə edib -idxalın və ixracın strukturlannı öyrənmək son illərdə beynəlxalq təşkilatlar tərəfindən tez-tez istifadə edilir.

Məsələn, Dünya bankı beynəlxalq ticarətdə mal dövriyyəsinin texnoloji tutumuna görə strukturunu öyrənməyi əhəmiyyətli hesab edir və mübadilə edilən məhsulları "Təbii resurslara əsaslanan mal dövriyyəsi", "Yüksək texnoloji mürəkkəbliyi ilə fərqlənən real dövriyyəsi", "Orta səviyyəli texnoloji mürəkkəb əmtəələr", "Aşağı səviyyəli texnoloji mürəkkəb məhsullar", "Digər ilkin məhsullar" və sair məhsullar kimi 6 qrupa bölür və struktur araşdırmalrı aparır. Qeyd edək ki, bu cür qruplaşdırmada məhsulun elm tutumluluğu əsas götürülür. Elə

məlumatlara orta və yüksək texnoloji mürəkkəb məmulatlar deyilir ki, onun hazırlanması ETTLİ üzrə intensiv iş tələb edir və bu da ETTLİ-nə çəkilən xərclərin ümumi məbləği ilə qiymətləndirilir.

Dünya iqtisadiyyatına və xüsusən beynəlxalq ticarətin inkişafına aid dərc olunan materiallar göstərir ki, dünyada əmtəə mübadiləsi artır və ən başlıcası isə burada cox müsbət struktur dəyişmələr baş verir. Məsələ burasındadır ki, mübadilədə iştirak edən bütün məhsul növləri iqtisadiyyatın inkişafına eyni səviyyədə təsir göstərmir. Məsələn, təbii resurslarını ixrac edən ölkəyə demək olar ki, "quru" puldan başqa bir şey qalmır.Təbii resurslara əaslanan idxal da idxal edən ölkəyə bilik baxımından da köklü bir şey bəxş etmir. Lakin təbii resursların idxalı ilə məşğul olan ölkələr əldə etdikləri resurslardan son məhsul hazırlayır və çoxlu səmərə əldə edir. Təbii resursları ixrac edən dövlət isə ümumi konteksdə uduzur. Yüksək texniki səviyyəyə malik olan elm tutumlu məhsullar üzrə ticarət isə həm idxalçı və həm də ixraçraccçı ölkə üçün sərfəli olur.

Dünya bankının verdiyi məlumatlara görə beynəlxalq ticarətin strukturunda mütərəqqi dəyişikliklər elm tutumlu məhsulların xüsusi çəkisinin yüksəlməsi hesabına baş verir. Bu proses dünya miqyasında keçən əsrin 70-ci illərində başlayıb və indiyə qədər davam edir. Gələcəkdə isə hər bir ölkənin iqtisadi təhlükəsizliyi bu məsələnin həllindən bilavasitə asılı olacaq. Tələsib elm tutumlu məhsul istehsalını mənimsəmək lazımdır.

**Cədvəl 7**

**Beynəlxalq ticarətdə mal dövriyyəsinin texnoloji tutumuna görə strukturu (ümumi mal dövriyyəsinə görə faizlə)**

| | Mal qrupları | İllər 1976/1996 | |
|---|---|---|---|
| | Təbii resurslara əsaslanan mal dövriyyəsi | 1 1 | 11 |
| | Yüksək texnoloji mürəkkəbliyi ilə fərqlənən mal | 1 | 22 |

| | | | |
|---|---|---|---|
| | dövriyyəsi | 1 | |
| | Orta səviyyəli texnoloji mürəkkəb əmtəələr | 22 | 32 |
| | Aşağı səviyyəli texnoloji mürəkkəb məhsullar | 21 | 18 |
| | Digər ilkin məhsullar | 34 | 13 |
| | Sair məhsullar | 1 | 4 |

Beynəlxalq ticarətin mal dövriyyəsində yüksək texnoloji mürəkkəbliyi ilə fərqlənən məhsulların xüsusi çəkisi baxılan 10 ildə 11 faizdən 22%-ə qədər artmışdır. Dünya ticarəti mal dövriyyəsinin strukturunun təbii resurslara və ilkin məhsullara əsaslanan əmtəə mübadiləsinin xüsusi çəkisi isə getdikcə azalır.

Yüksək texnoloji mürəkkəbliyi ilə fərqlənən əmtəələr üzrə dünya ölkələri ilə mübadiləyə girmək də hər iki tərəf üçün xeyirlidir və son nəticədə bu proses dünya iqtisadiyyatının inkişafı üçün zəmin hazırlayır. İxrac firmalara dünya standartları və keyfiyyət sertifikatları ilə tanış olmağa, istehsalın genişlənməsi hesabına əlavə mənfəət əldə etməyə, dünya bazarında rəqabət aparmaq qabiliyyətini artırmağa imkan yaradir.

Dünya ticarətinin əmtəə strukturu ilə yanaşı **ümumi strukturu** da öyrənilir. Bu struktura yuxarıda şərh etdiyimiz əsas əmtəə qruplarından başqa beynəlxalq xidmət mübadiləsinin həcmi də daxil edilir. Keçən əsrin ikinci yansindan bu günə qədər beynəlxalq xidmət mübadiləsi çox yüksək sürətlə inkişaf edir. Nəqliyyat, maliyyə-kredit, turist və s. bu kimi ənənəvi xidmətlərlə yanaşı beynəlxalq mübadilədə məlumat-hesablama, lisenziya, kosaltinq, «Nou-hau»,

injinirinq və s. kimi ETT-i ilə bilavasitə əlaqədar olan xidmətlərin xüsusi çəkisi sürətlə artır (1996-cı il bu xüsusi çəki ümümdünya ixracının 20%-ni təşkil edirdi).

Əhəmiyyətli olan məsələlərdən biri də dünya ticarətinin ərazi və regionlar, dövlət və dövlət qrupları üzrə strukturudur. Qısaca olaraq bu "beynəlxalq mübadilənin coğrafı strukturu" adlanır və ərazi və ya istehsal əlamətləri ilə qruplaşdırılan əmtəə axınları ilə xarakterizə olunur.

Dünya ticarətinin coğrafı strukturunun öyrənilməsi göstərir ki, inkişaf etmiş ölkələrin payı burada da yüksəkdir. 1990-cı illərin axırında bu ölkələrin ixracı dünya ixracının 75%-ə qədərini təşkil etmişdir. Uzun müddət bu sahədə liderlik ABŞ-ın tərəfində olub. Lakin dünya ticarətinin irəliyə doğru hərəkəti ABŞ-ın mövqeyinə mənfi təsir göstərmiş və onun dünya ixracındakı 30-33% payının (1950-ci il) 12,0-12,5 (1999) faizə qədər azalmasına səbəb olmuşdur. Almaniyanın isə, əksinə, dünya ixracındakı payı getdikcə artır. Ümumiyyətlə, Qərbi Avropa ölkələrinin iqtisadi yüksəlişi nəticəsində Qərbi Avropanın dünya ixracında tutduğu yer möhtəşəmləşir. Keçən əsrin son onilliyi bu cəhətdən avropalılar üçün əlamətdar olub və ixracın həcmi ABŞ-ın eyni göstəricisindən 4 dəfə çox olub. Bundan başqa, 1980-ci illərdə beynəlxalq mübadilədə Yaponiyanın rolu kifayət qədər yüksəldi və maşın və avadanlıq üzrə ixracda ilk dəfə dünyada birinci yerə çıxdı. Ölkə qrupları və onların dünya ixracındakı faktiki payı cədvəl 8-də verilmişdir.

**Cədvəl 8**

**Ölkələr qrupları üzrə dünya ixracının strukturu (son 20 ildə)**

| Ölkə qrupları | Texniki pay intervalı (% -lə) |
|---|---|
| Sənayecə inkişaf etmiş ölkələr | 70-76 |

| | |
|---|---|
| İnkişafda olan ölkələrin regionları | 20-24 |
| Keçmiş sosialist ölkələri | 6-10 |

Beynəlxalq mübadilənin coğrafi strukturu tez-tez dəyişir.lakin ümumi meyllər, təkrar olunan proseslr mövcuddur. Məsələn, inkişaf etmiş ölkələr çox vaxt bir-birilə ticarət edirlər və inkişafda olan ölkələrin ixracı da əsasən onları özləri üçün nəzərdə tutulur. Keçmiş sosialist ölkələrinin, (MDB ölkələrinin və Rusiyanın) dünya xarici ticarətində rolu azalır. Çinin payı isə artır.Neft ixrac edən ölkələrin də dünya ticarətindəki payı getdikcə azalır. "Yeni sənaye ölkələri"nin rolu isə artmaqdadır. ABŞ yenə də liderliyi ələ almışdır, lakin onunla dabandabana hərəkət edən Sinqapuru, Honkonqu və Yaponiyanı yaddan çıxarmaq olmaz.

## §2.Kapitalın beynəxalq hərəkəti

### 2.1. Məsələnin qoyuluşu

Dünya iqtisadiyyatının inkişafı və səmərəliliyinin yüksəldilməsi hər şeydən əvvəl dünya təsərrürat əlaqələrinin durmadan genişlənməsini tələb edir. Məhsuldar qüvvələr inkişaf etdikcə, hökumətlər rəhbərlik etdikləri ölkə əhalisinin qayğısına daha çox qalmağa və özlərinə yaxın bir qrup adamın şəxsi və qərəzli maraqlarını kənara qoyub ümumi milli inkişafa diqqəti artırdıqca, dövlətlərin

iqtisadi və siyasi sərbəstlikləri artdıqca, milli iqtisadiyyatların aciqlıq səviyyəsi yüksəldikcə, beynəlxalq əmək bölgüsü dərinləşdikcə dünya təsərrüfat əlaqələrinin sürətlə inkişafı üçün yaxşı şərait yaranır. Sadaladığımız amil və şərtlər XX əsrdə daha güclü olmuş, əsrin əvvəlindən və xüsusən onun ikinci yarısından bu günə qədər dünya təsərrüfat əlaqələri misli görünməmiş səviyyədə inkişaf etmişdir. Dünyada formalaşmış uzun bir tarixə malik olan təsərrüfat əlaqələri həmişə dəyişikliklərə məruz qalmış, təzələnmiş, mürəkkəbləşmiş və müxtəlifləşmişdir. Müasir dövrdə dünya təsərrüfat əlaqələri müxtəlif istiqamətlərdə və xüsusən kapitalın beynəlxalq hərəkəti və işçi qüvəsinin beynəlxalq miqrasiyası sferalarında diversifıkasiyaya məruz qalır. Bütün bunlar "Beynəlxalq iqtisadi münasibətlər" fənnində öyrənilir. Lakin biz dünya iqtisadiyyatının inkişaf parametrlərini və daxili enerjisini başa düşmək və təcrübədə istifadə etmək üçün onları bu kitabda da qısaca nəzərədən keçirməyi məsləhət bildik.

## 2.2.Kapitalın beynəlxalq hərəkətinin amil və şərtləri

İstehsahn beynəlmiləlləşməsi və qloballaşması nəticəsində ölkələr arasında əmtəə və xidmətlərin hərəkəti ilə yanaşı kapitalın da hərəkəti baş verir. Kapitalın ölkələrarası hərəkətinin səbəbi, onun iqtisadi əsaslandırılması əmtəə və xidmətlərin hərəkətinin iqtisadi əsaslandınlmasında işlədilən üsul və yanaşmaların vasitəsilə həyata keçirilə bilər. Buna baxmayaraq dünya miqyasında iqtisadçı alimlər kapitalın ölkələrarası hərəkətinin nəzəri əsaslarını işləməkdən çəkinməmişlər və bu məsələni həll etməyə çalışmışlar. Belə alimlərdən biri ingilis alimi Core S.Milldir. 0, ilk dəfə XIX əsrdə kapitalın ölkələr arasında hərəkəti məsələlərini araşdırmağa başladı və D.Rikardonun əmtəələrin hərəkəti üçün irəli sürdüyü "nisbi üstünlük" prinsipini kapitalın hərəkətinə də aid etdi və göstərdi ki, kapital ölkələr arasında ona görə hərəkət etdirilir ki, kapital cəhətdən varlı olan ölkədə kapitalın verə biləcəyi səmərə mənfəət norması getdikcə aşağı düşür. Belə vəziyyətdə kapital sahibi (dövlət və yaxud da sahibkar) öz vəsaitini

mənfəət norması çox olan ölkəyə çıxarmağa calışır. Deməli, C.S.Millın nəzəriyyəsinin əsasını mənfəət norması təşkil edir ki, bunun nəticəsində də kapital aşağı mənfəət norması olan ölkədən yüksək mənfəət norması olan ölkəyə hərəkət etdirilməli olur. İstər neoklassik nəzəriyyə deyilən nəızəriyyənm nümayəndələri (C.S.Mill, E.Hekşer, B.Olin, R.Nurkse, K.İversen) və istərsə də neokeysian nəzəriyyə deyilən nəzəriyyənin nümayəndələri (Sam Keyns, R.Xarrod və s.) kapitalın bir ölkədən digər ölkələrə hərəkətinin iqtisadi mexanizmini açmışlar və qiymətli nəticələr çıxarmışlar. Bu nəticələrə əsasən kapitalın ölkələrarası hərəkəti asağıdakıları tələb edir:

-ölkələr arasında "mənfəət norması" fərqi çox olmalıdır ki, xarici investorun özgə ölkədə riskə getməsi mümkün olsun;

-kapitalın beynəlxalq hərəkətinə gömrük maneələri təsir göstərir.

Əmtəə və xidmətləri istədiyi ölkənin bazarına gömrük maneələrinə görə keçirə bilməyən xarici mal göndərən bunun əvəzində kapitalın miqrasiyasına üstünlük verir və bu yolla ölkənin daxili bazarına nüfuz etmək imkanı əldə edir. Gömrük maneələrindən başqa kapitalın ölkələrarası hərəkətinə firmaların kapital qoyuluşunun coğrafi diversifikasiyalaşmasına maraq göstərmələri, ölkələr arasındakı siyasi anlaşılmamazlıqlar, xarici investorun riskləri və onların dərəcələrı kimi amil və şərtlər də güclü təsir göstərır **(B.Olin)**.

-əmtəə ixracı üzrə müvəffəqiyyət qazanan və ixracı artan ölkələrin kapital idxal etmək tələbatı artır və əksinə **(R.Nurkse)**.

-müxtəlif növ kapitalların beynəlxalq mobillik dərəcəsi müxtəlif olur və məhz buna görə də eyni ölkə kapitalın həm idxalı və həm də ixracı isə məşğul ola bilər **(K.İversen)**.

-əmtəə və xidmətlərin ixracı onların idxalından çox olan ölkələrdə kapitalın ixracı baş verir. Əks halda dövlət bu işə qarışmalıdır **(Sanı Keyns)**.

-kapitalı ilə varlı olan ölkədə iqtisadi inkişaf sürəti az olarsa, onda kapitalın xaricə ixrac edilməsi zərurəti meydana çıxır **(R.Xarrod).**

-kapitalın ixracı "kapital artıqlığı" olan ölkələrdə baş verir. Kapital artıqlığı altında elə kapital başa düşülür ki, əgər ölkə bu kapitalı öz ölkəsində sərf etsə idi onda "mənfəət norması" çox aşağı olardı **(K.Marks)**

### 2.3. Kapitalın ölkələrarası hərəkəti və onun formaları.

Dünya təsərrüfat sisteminin meydana gəlib möhkəmlənməsi, genişlənməsi, istehsalın və ümumiyyətlə, iqtisadi həyatın beynəlmiləlləşməsi, qloballaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi nəticəsində əmtəə və xidmətlərin miqrasiyası ilə yanaşı kapitalın da ölkələrarası hərəkəti başlayır və sürətlənir. Kapitalın hərəkəti ən sadə şəkildə onun bir ölkədən çıxıb digər ölkəyə daxil olmasını xarakterizə edir. Xarici iş adamlarına və yaxud da hökumətə kredit verilərkən, xarici banklarda pul saxlayarkən, xarici qiymətli kağızları alarkən və bu kimi və buna oxşar əməliyyatlar həyata keçirərkən biz kapitalı ölkədən çıxarmış oluruq və əksinə. Hazırkı dünyada elə bir ölkə tapmaq olmaz ki, buradan və buraya kapitallar hərəkət etməsin. Fərq ancaq hərəkət edən kapitalların məbləğində, intensivliyində hansı məqsədi güdməsində ola bilər. Dünya iqtisadiyyatına güclü təsiri də kapital hərəkətinin ümumbəşəriliyindədir. Bunsuz hazırda heç bir iqtisadi inkişafdan danışmaq olmaz.

Kapitalın hərəkətə gəlib ölkədən çıxması və özgə ölkədə müəyyən funksiyalar həyata keçirməsi kimi qiymətləndirilən kapitalın miqrasiyasının əsas məqsədi onun daha da şişib çoxalmasıdır. Dünya təcrübəsində kapitalın beynəlxalq hərəkəti bir çox formalarda həyata keçirilir. Xarici kapital qoyuluşunun ən çox istifadə edilən formaları aşağıdakılardır (bu formalarda kapital gətirilə, aparıla və fəaliyyət göstərə bilər).

— 1.Meydana gəlmə mənbəsinə görə **dövlət** və **xüsusi** kapital fərqləndirilir. Xüsusi kapital dövlətin mənbələrindən olmayan kapitaldır. Bu kapital həm hüquqi və həm fıziki şəxslər tərəfındən ya ölkədən çıxarılır, yaxud da ölkədə qəbul edilir. Bura müxtəlif xarakterli investisiyalar, ticarət kreditləri, banklararası kreditləşmələr daxildir. Bunlar birbaşa dövlət budcəsi ilə əlaqədar olmurlar, lakin dövlətqanun-qayda çərçivəsində bura müdaxilə edə bilər.

Dövlət kapital qoyuluşu dövlət tərəfindən həyata keçirilir, yəni kapitalı ölkədən çıxaran da qəbul edən də dövlətin özü olur. Mənbə

dövlət büdcəsidır, yəni pıul vergi ödəyənlərindir.Bu formada kapital qoyuluşu dövlət istiqrazları,

subsidiyalar, qrantlar, (töhfələr, bağışlamalar), köməklər şəklində həyata keçirilir. Beynəlxalq təşkilatlaın vəsaitləri də (məsələn, BVF-nun krediti) dövlət kapital qoyuluşuna aid edilir.

2.Yerləşdirmə müddətinə görə kapital qoyuluşu qısa, orta və uzunmüdətli formalara ayrılır. 15 ildən çox miiddətə nəzərdə tutulan kapital qoyuluşu ən böyük əhəmiyyət kəsb edən qoyuluş hesab olunur və əsasən sahibkarlar tərəfindən həyata keçirilir.

3. İtifadə edilməsi baxımından kapital qoyuluşu suda kapitalı və sahibkar kapitalı ola bilər. Ssuda kapitalında məqsəd faiz şəklində mənfəət əldə etməkdir. Sahibkar kapitalı adətən xüsusilər tərəfındən həyata keçirilir və istehsala yönəldilir. Məqsəd dividend şəklində mənfəət əldə etmək üçün hüquqi məkan əldə etməkdir.

4.Məqsədinə görə sahibkar kapitalı birbaşa və portfel kapital qoyuluşlarına bölünür. BVF-nun vcrdiyi izahata görə birbaşa investisiyanın mahiyyəti ondadır ki, investor pulunun yönəldiyi obyektin (müəssisnin) idarə edilməsində, ona nəzarətin həyata keçirilməsində bilavasitə hüquqa malik olur. Bunun üçün ona müəssisə aksiyajarının 10%-nə sahib olmaq kiiayət edir. Portfel investisiyalar bu cür nəzarət hüququ vermir, investorun əlində müəssisə aksiyalarının 10%-dən azı toplanır. Bu imkan verir ki, investor uzun müddətə gəlirləri əldə etmək hüququ qazansın. Lakin tocrübə göstərir ki, birbaşa və portfel investisiyaları arasında sərhəd bir çox cəhətdən şərtidir. Payçıların sayı çoxaldıqda müəssisəyə nəzarət hüququnu 10% aksiyalara sahib olmadan da həyata keçirmək mümkündr. Ona görə ki, aksiyaların nisbi çoxluğuna malik olan şəxslər cəmiyyətin nizamnaməsinə görə idarəetmə və nəzarət funksiyalarını həyata keçirə bilərlər.

Əyanilik üçün şəkıl 1 və şəkil 2-də kapitalın hərəkətinin müxtəlif formalarının mümkün varinatları göstərilmişdir.

**Şəkil 1. Kapitalın qısa və uzunmüddətli formaları**

Qeyd edək ki, bu dərs vəsaitində şərh edilən investisiya formalrı da özü-özlüyünə pul və əmtəə şəklində ola bilər. Məsələn, kapital xarici ölkədə tikiləcək və yaxud da alınacaq müəssisədə istifadə etmək üçün nəzərdə tutulan maşın və avadanlıq, patent, «Nou-hau» şəklində həyata kcçirilə bilər.

ŞəkiI 2-də isə suda və sahibkarlıq kapitalının müxtəlifliyi göstərilmişdir.

**Şəkil 2. Kapitalın suda və sahibkar kapitalına ayrılması**

Qeyd etmək lazımdır ki, kapitalın beynəlxalq hərəkətinin göstərilən formalarından başqa digər formaları da vardır. Subkontraktlar, idarəetmə razılaşmaları, françayzinq, lisenziya sövdələşmələri, məhsulun bölünməsi və s. belə formalardandır.

## 2. 4. Kapitalın beynəlxalq hərəkətinin həcmi və coğraiıyası.

Kapitalın beynəlxalq hərəkəti daim irəliyə doğru hərəkət edən prosesdir. Yuxarıda göstərdiyimiz formalardan ən geniş yayılmışı birbaşa xarici investisiya formasıdır. İnvestorlar beynəlxalq miqyasda kapitalın miqrasiyasının bu formasına üstünlükverirlər.

Ona görə ki, bu forma investora imkan verir özü üçün dayanıqlı bazar əldə etsin, "ücüncü ölkələrin" bazarlarına yol tapsın, aksiyalann 10%-nin sahibi olsun və müəssisənin idarə edilməsinə səmərəli şəkildə təsir göstərə bilsin, kapital qoyuluşunu coğrafı baxımdan diversifıkasiyalaşdırsın, öz maraqlarını müxtəlif səviyyələrdə həyata keçirilən sahibkarlıq fəaliyyətində qarşıya qoya bilsin.

Dərc olunmuş materiallara görə 1914-cü ildən İkinci dünya müharibəsinə qədər olan dövrdə xarici kapital qoyuluşunun həcmi 1/3-qədər artmışdı. Sonralar, 10 ildən sonra onuın həcmi iki dəfə qalxdı. Növbəti iki dəfə artma daha qısa müddətə 6-7 ilə baş verib. 1950-ci illərin ortasından 1970-ci illərin axrında (təxminən 25 il) olan müddətdə

isə  xarici kapital qoyuluşunun həcmi 4 dəfədən də çox artdı. Növbəti 4 qat artmaq cəmi 10 ilə başa çatdı (1980-1990-cı illər). Məhz bu dövrdə xarici kapital qoyuluşunun məbləği 1,7 trilyon ABŞ dollan həddinə çatdı. 1996-cı ildə bu məbləğ artıq 3,0 trilyon ABŞ dolları  təşkil edirdi. Qeyd edək ki, bu məbləğin onda doqquzuna beynəlxalq korporasiyalar tərəfindən nəzarət edilir. Kapitalın miqrasiyasının bu sürtələ  artmasında dünya təsərrüfat sistemində baş verən mütərəqi dəyişikliklərin rolu olsa da əsas amil rolunu TMK-lar oynamışlar. Onların kapitalı keçmiş ənənəvi formalarda yox, istehsal şəklində ixrac etməsi də burada az rol oynamamışdır.

Artıq qeyd etdiyimiz kimi dünyada çətin bir ölkə tapmaq olar ki, o kapitalın ixracı və idxalı ilə məşğul olmasın. Lakin təhlili dərinləşdirdikdə səhnə dəyişir. Bu sahadə lider ölkələr, regionlar, qitələr mövcuddur. Liderlər sırasında ABŞ, Avropa Birliyi və Yaponiya xüsusi yeri tuturlar. Bu üç nəhənglər kapitalın ixracı və idxalı üzrə ümumi həcmin dörddə beşini öz əllərində saxlayırlar.

1990-cı illərin ortalarında xaricdə kapital yerləşdirən ölkələrin sırası belə olub: ABŞ (706 milyard dollar), Böyük Britaniya (319), Yaponiya (306), Almaniya (225) və Fransa (201). Diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, bu ölkələr kapitalı qəbul etməkdə də liderdirlər. Baxılan dövrdə ABŞ 565 milyard dollar məbləğində kapital idxal edərək birinci yeri tutumuşdur. Sonrakı yerlər belə olmuşdur: Böyük Britaniya (244), Fransa (162), Almaniya (134), Çin (təxminən 129), İspaniya (təxminən 129).

İnvestisiyanın miqrasiyası yer kürəsinin digər yerlərində də müşahidə edilir. İnkişafda olan ölkələrdə yerləşdirilən kapitalın ümumi məbləğinin 65%-i Asiyanın, təxminən 27%-i Latin Amerikasının, qalanı isə (təxminən 8%-i) Afrikanın payına düşür.

Cənubi, Şərqi və Cənubi-Şərqi Asiya külli miqdarda kapital yerləşdirilən regionlardır. 1995-ci ildə bu regiona yönəldilən kapital qoyuluşunun həcmi 65 milyard ABŞ dolları miqdarına olmuşdur ki, bu da həmin ildə inkişaf edən ölkələrin hamısında kapital qoyuluşunun üçdə ikisi demək idi.

1992-ci ildən Çin birbaşa xarici investisiya qəbul edən ölkədir. Bu cür investisiyanın həcmi 1995-ci ildə 38 milyard dollara çatmışdı.

Proqnozlara görə Çin hələ uzün müddət kapital idxal edən ölkə kimi qalacaq.

Afrika həmişə olduğu kimi birbaşa xarici investsiya qəbul edən regionlar arasında axırında yerlərdən birini tutur.1995-ci ildə inkişaf etməkdə olan ölkələrdəki birbaşa xarici investisiyanın ümumi həcmində Afrikanın xüsusi çokisi cəmi 4,7% ləşkil edirdi ki, bu hətta 1994-cü ildəkindən (5,8%) aşağıdır.

1995-ci ildə Mərkəzi və Şərqi Avropaya kapital axını güclənmişdi. Burada Polşa,Çexoslovakiya və Macarıstan ölkələri daha çox fərqlənirlər. Kapital qoyuluşunun həcmi 3,5 trilyon təşkil edirdi.

Ümumiyyətlə, götürdükdə kapitalın beynəlxalq miqrasiyası konkret bir dövrdə müxtəlif təsirlər altında iqtisadiyyatın sahələri, coğrafı yerləşdirilməsi üzrə dəyişilir. Ona görə də kapitalın beynəlxalq miqrasiyasının sahə quruluşunu və coğrafı quruluşunu fərqləndirmək lazımdır. Bu strukturların hər ikisi dünya iqtisadiyyatının və ayrı-ayrı yarımsistemlərin və regionların inikşaf sürətindən asılı olur. Xarici investisiya o regiona (ölkəyə) daha çox istiqamətləndirilir ki, orada iqtisadi oyanma hiss olunur, perspektivdə yaxşı inkişaf gözlənilir. Son illərdə Çin Xalq Respublikasına, Mərkəzi və Şərqi Avropaya, Cənubi, Cənub-Şərqi Avropaya, Cənubi Şərqi Asiyaya kapitalın miqrasiyasının güclənməsi bu amil altında baş verir.

Birbaşa xarici investisiyanın sahə strukturu da dəyişir. Məlum olduğu kimi iqtisadiyyatda əsas sahələrlə yanaşı infrastruktur sahələr də fərqləndirilir. Hər hansı bir inkişafda olan ölkə xaricdən cəlb edilən kapitalı iqtisadiyyatın əsas sahələrinə yönəltməyi sərfəli hesab edir. Buna görə də ümumi şəkildə məsələyə yanaşsaq görərik ki, miqrasiyaya uğramış kapital bir qayda olaraq iqtisadiyyatın əsas sahələrinə yönəldilir. Lakin elə bir danılmaz fakt da mövcuddur ki, hər hansı bir ölkə olursa-olsun müəyyən inkişaf səviyyəsində infrastruktur sahələrinin artırılmsı zərurəti ortaya çıxır. Bu hal XX əsrin ikinci yarısında yer kürəsinin müxtəlif regionlarında yerləşmiş ölkələrdə daha əyani görünməyə başlamış və iqtisadi cəhətdən sərfəli olduqda xarici kapitalın bura yol açmasına şərait yaradılmışdır.Bunun nəticəsində 1990-cı illərin əvvəlindən başlayaraq infrastruktur sahələrə hər il milyardlarla ABŞ dolları məbləğində xarici vəsait qoyulmuşdur. Ümumiyyətlə götürdükdə, 1988-1995-çi illər ərzində infrastruktur

sahələrə 40 milyard dollar cəlb edilmişdir ki, bunun da 50%-dən çoxu birbaşa xarici kapitaldır. Miqrasiya kapitalının sahə quruluşunun dəyişməsində transmilli korporasiyalar fəal rol oynayırlar. Bir sıra ölkələrin elmi ocaqlar yaratmağa, kadr hazırlığını yaxşılaşdırmağa, ixrac üçün nəzərdə tutulan emalla məşğul olan zonalar yaratmağa maraqları artmışdır ki, bu da TMK-ın bundan sonra daha da fəallaşması üçün yaxşı perspektivlər açır.

## §3.İşçi qüvvəsinin beynəlxalq miqrasiyası

### 3.1. Miqrasiyanın obyektiv əsası və əhatə dairəsi

Dünya iqtisadiyyatı son nəticədə əmtəələrin, xidmətin, kapitalın, «nou-hau»ların bir ölkədən digər ölkəyə hərəkətini zəruri etdiyi kimi işçi qüvvəsinin də hərəkətini zəruri etmişdir.İşçi qüvvəsinin ölkələrarası hərəkəti tarixən çox qədimdən baş vermişdir. Bu prosesin baş verməsini izləsək burada iki halın nəzərə çarpdığını aydın görmək olar. Bunlardan biri ondan ibarətdir ki, dünyanın müxtəlif regionlarında güclü inkişaf baş verdiyinə görə sonrada işçi qüvvəsi qıtlığı yaranır və məqsədyönlii olaraq bir ölkədən (və yaxud da ölkələrdən) ora işçi qüvvəsi aparılır. İşçi qüvvəsinin bu cür məqsədyönlü beynəlxalq miqrasiyasına misal XVII əsrlərin ortalarında Afrikadan Amerikaya qara qulların daşınması və orada satılması ola bilər. Tədqiqatçılar göstəiirlər ki, məhz bunun nətıcəsində 1650-1850-ci illər ərzində Afrika əhalisində artım yox, azalma qeydə alınmışdı. Qul satışına qadağan qoyulandan sonra işçi qüvvəsinin beynəlxalq hərəkəti şəxslərin könüllülüyü şəklində baş verməyə başladı.Qullardan sonra ikinci, (lakin könüllülük əsasında) böyük miqrasiya Avropa əhalisinin Amerikaya getməsi ilə bağlı idi. Belə misalları çox göstərmək olar. Bu proses dünyanın hər yerində baş vermis və indi də baş verməkdədir.Prosesin hansı şəkildə, formada getməsinə baxmaya raq əsas məqsəd həmişə bir olmuşdur: daha yaxşı həyat və əməк şəraiti əldə etmək ucün insanlar bir ölkədən digərinə hərəkət etmişlər...

Bütün hallarda olduğu kimi iş qüvvəsinin beynəlxalq miqrasiyasını da kapitalist üsuli-idarəsi olduqca gücləndirmişdi.İndiki dövrdə-dünya iqtisadiy- yatının qloballaşdığı, istehsalın beynəlmiləllik səviyyəsinin yüksəldiyi bir vaxtda iş qüvvəsinin beynəlxalq miqrasiyası bir çox ölkələr üçün iqtisadi, sosial, texnoloji, demoqrafık inkişaf amilinə çevrılmişdir.

Beynəlxalq əmək mübadiləsi prosesi güclənir və getdikcə bütün ölkələri əhatə etməkdədir. Əgər 1970-ci ildə bu prosesə cəlb olunmuş ölkələrin sayı 64-ə bərabər idisə, 1997-ci ildə bu rəqəm 105-ə çatmışdı. Hazırkı dövrdə beynəlxalq əmək miqrasiyası bir ncçə istiqamətlərdə baş verir. İnkişaf etməkdə olan ölkələrdən inkişaf etmiş ölkələrə miqrasiyada məqsəd sənaye cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadiyyatın bəzi sahələrini işçilərlə təmin etməkdir. Son zamanlar infrastruktur, xidmət və tikinti sahələrində gəlmə əməkdən daha çox istifadə edilir. Məsələn, Fransada tikintidə çalışanların dördə birini, avtomobilqayırmada çalışanların üçdə birini, Belçikada şaxtaçıların yarısını, Isveçrədə tikinti fəhlələrinin beşdə ikisini emiqrantlar təşkil edirlər. Belə bir sual da ortaya çıxır ki, inkişaf etmiş ölkələrin özlərində işsizlər olduğu halda onlar nə üçün kənardan işçi qüvvəsi cəlb edirlər. Məsələ burasındadır ki, işçi qüvvəsinin beynəlxalq miqrasiyası azad bazar iqtısadiyyatı şəraitində obyektiv bir prosesə çevrilmişdir. Əmək resursları daha səmərəli olan sahələrdə, ölkələrdə, regıonlarda fəaliyyət göstərməyə və bu yolla daha çox iqtisadi səmərə əldə etməyə meyillidirlər. İnkişaf etmiş ölkənin hər hansı bir kompaniyası, iqtisadi strukturu özünə daha xeyirli (sərfəli) işçı götürmək hüququnu özündə saxlayır və əgər bu mümkündürsə öz tələbatını emiqrantların hesabına ödəməyi üstün hesab edır. ABŞ kimi inkişaf etmiş ölkədə rəsmi olaraq 6%-ə qədər işsiz qeydə alınmışdır (1999-cu il). Lakin eyni zamanda internetdən aldığımız məlumata görə burada yüksək texnologiya tətbiq olunan sahələrdə ışləmək üçün 200000 min işçi tələb olunur.Bu qədər işçını digər ölkələrdən cəlb etmək üçün.ABŞ hökuməti müəyyən güzəştlər edəcəyini də elan etmişdir.

Beynəlxalq miqrasiya prosesləri yüksək səviyyədə inkişaf etmiş ölkələr arasında da baş verir.Lakin təhlil göstərir ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrin arasında baş verən əmək mübadiləsi çox zaman iqtisadi amillərin təsiri altında baş vermir. Qeyri-iqtisadi amillər

üstünlük təşkil edirlər. Məsələn. "beyin axım" inkişaf ctmiş Avropa ölkələrindən inkişaf etmiş ABŞ-a bu amillərin təsiri altında hərəkət edir.

İnkişaf etmiş və coğrafi yaxın olan ölkələr arasında gedən işçi qüvvəsi üzrə mübadilələr mütərəqqilikləri ilə fərqlənirlər. Məsələn Avropa Birliyi (AB) adlanan birliyin ölkələri arasında baş verən əmək mübadiləsi buna parlaq misaldır. Bir ölkədən digərinə köçməyi azad bazar münasibətlərinin obyektiv və ayrılmaz hissəsi hesab edən AB ölkələri 1989-cu ildə qəbul etdikləri "AİB fəhlələrinin əsas sosial hüquqları xartiyası"nın birinci bölməsində göstərirlər ki, birlik ölkələri sakinlərinin AB ölkələrinə sərbəst keçmək və orada normal sosial təminat almaq hüququ vardır. Bu bir daha AB ölkələrinin sivil ölkələr olduğunu təsdiq edir və göstərir ki. AB işci qüvvəsinin beynəlxalq miqrasiyasını nümunəvi idarə edir. AB-nin 2000-ci ildə qəbul etdiyi yeni inkişaf proqramında bu məsələlər daha da inkişaf etdirilmişidr. Birliyin qəbul etdiyı inkisaf proqramında birlik ölkələrinin sürətli inkişafı və 2005-ci ilə qədər 20 milyon yeni iş yerlərinin yaradılması nəzərdə tutulıır. ABİ ölkələrində işci qüvvəsinin beynəlxalq miqrasiyasında baş verən müsbət dəyışikliklər birliyə daxil olan ölkələrin bərabərliyinin qorunması prinisipinə hamılıqla əməl olunmasıdır. Beləliklə də AB ölkələrının qəbul etdiyi sənədlər vahid iqtisadi zonanın yaradılmasını nəzərdə tutur və dünyada demək olar ki, ilk dəfə olaraq sosial müdafiə tədbirləri ilə zəngindir və iş qüvvəsinin ölkələrarası hərəkətini təbii proses kimi istiqamətləndirir. İş qüvvəsinin bu cür miqrasiyası, əlbəttə ki, dünya iqtisadiyyatına müsbət təsir göstərir və dünyanın digər regionları və xüsusən Qafqaz üçün yaxşi nümunədir. Hələlik isə sosial yönümlü siyasət həyata keçirməyən Rusiyanın və Qafqazda dostluq və əmin-amanlığa mane olan Ermənistan və İran kimi dövlətlərin təqsiri üzündən bizim regionda bu cü şərait yaranmamışdır.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyası inkişaf etməkdə olan ölkələr arasında da baş verir. Məlum olduğu kimi Latin Amerikası, Cənubı Afrika, Yaxın Şərq və Cənub-Şərqi Asiya ölkələrində 1950-1970-ci illər ərzində sənayenin inkişafında müəyyən müsbət nəticələr əldə edilmişdir. Birinci olaraq işçi qüvvəsini özünə cəlb edən ölkə Cənubi Afrika idi. ABŞ və Qərbi Avropadan bu ölkələrə yol tapan beynəlxalq kompaniyalar işçi qüvvəsinə tələbatı artırdı və region işçi

qüvvəsini qəbul edən status aldı. Sonralar inkişaf edən regionlar arasında Cənubi Amerika ölkələri və xüsusən də Argentina, Venesuela və Meksika işçi qüvvəsini idxal edən ölkələrə çevrilirdilər. Bura iş dalınca gələn insanlar kontingenti əsasən çox zəif inkişaf emiş ölkələrdən olan fəhlələr idi.

Miqrasiya selinin təbii resurslarla zəngin olan regionlara istiqamətlənməsi halları bu regionun resurslarından kütləvi istifadə edilməsi vaxtlarında başlanır. Bu səbəblərdən Yaxın Şərq 1970-ci illərdə fərqləndi. Artıq onilliyin axırıya Səudiyyə Ərəbistanında, Küveytdə, Omanda, BƏƏ-də 3 milyondan da çox emiqrant çalışırdı. İşçi qüvvəsinin bu regiona axınının səbəbi neft resurslarından istifadə edilməsi idi. Xarici fəhlələr bura nəinki yaxın qonşu ərəb ölkələrindən, hətta Hindistandan, Pakistandan, Cənubi Koreyadan gəlirdi. 1970-ci illərdən sənaye cəhətdən inkişaf etməyə başlayan Cənubi-Şərqi Asiya regionu da sonralar xariciləri özünə cəlb edən regiona çevrildi. Əmək resurslarının beynəlxalq miqrasiyasının bu səbəbdən baş verib güclənməsində xarici kompaniyaların rolu böyük idi. Əslində bu nəhəng regionun sənaye cəhətdən inkişaf etməsində, istehsalın beynəlmiləlləşməsində, miqrasiyanın güclənməsində Amerika, Yaponiya, Avstraliya, Cənubi Koreya, Tayvan mənşəli TMK-lar fəal iştirak ctmişlər.

### 3.2.Beynəlxalq miqrasiyanın strukturu

Əsas məsələlərdən biri əmək resurslarının beynəlxalq miqrasiyasının strukturudur.Tədqiqatçılar miqrantların yaşına, cinsinə, peşəsinə, əmək haqqı səviyyəsinə və s. görə strukturunu öyrənirlər. Ümumiyyətlə götürdükdə, inkişafda olan ölkələrə gedənlər aşağı ixtisaslı və yaxud da heç bir ixtisası olmayan fəhlələr olurlar və inkişaf etmiş ölkələr bundan istifadə edib onları nisbətən az maaşlı işlərdə istifadə edirlər. Lakin xüsusi hallar da olur. Məsələn, ABŞ, AB ölkələri dünyanın bütün ölkələrindən yüksək biliyə malik mütəxəssisləri öz ölkələrində qəbul etməyə, onlara yüksək əmək haqqı verməyə həmişə

meyilli olmuşlar. Bu hal iqtisadi ədəbiyyatlarda "Beyin axını" kimi ad qazanmışdır.

Müasir dövrdə yüksək inkişaf etmiş ölkələrdən zəif inkişaf etmiş ölkələrə işçi qüvvəsinin miqrasiyası müşahidə olunur. Buradakı miqrantların tərkibində yüksək ixtisaslı mütəxəssislər üstünlük təşkil edir. Belə proses həm iqtisadi amillərlə-yüksək əmək haqqı ilə və məişət amilləri ilə baş verir (bəzi inkişaf etməkdə olan ölkələrdə və xüsusən də ərəb ölkələrində müəllimlərə, mühəndislərə, layihəçilərə, təimatçılara və s. bu kimi mütəxəssislərə kifayət qədər yüksək əmək haqqı verilir).

### 3.3.Miqrasiyanın motivləri

Bu gün dünyada nə qədər miqrant var? Bu sualın cavabı mübahisəlidir. Lakin o da tam aydındır ki, onların sayı 10 milyonlarla hesablanır və illər ötdükcə artır. Miqrasiyanı doğuran səbəblər də müxtəlifləşib. Əvvəllər əsas motiv iqtisadi motiv idi. Hazırda ölkəni tərketmə səbəblərinə siyasi, etnik, mədəni, ailə və diger motivlər də əlavə olunub. Ona görə də iqtisadi ədəbiyyatlarda tez-tez işlənən "işçi qüvvəsinin beynəlxalq miqrasiyası" termini prosesin mahiyyətini düzgün açmır, prosesi daha düzgün ifadə edən “Əhalinin beynəlxalq miqrasiyasi" termininden istifadə edilməyə başlanmışdır. Əlbəttə, burada söhbət sadəcə olaraq sözlərin yerini dəyişməkdən, yeni ifadə söyləməkdən getmir, dünyada gedən mütərəqqi bir prosesin başlanğıcmdan gedir: insan azad surətdə özünə məskun seçmək hiiququnu əldə etməyə başlayır.Onu da qeyd edək ki, bu proses hələlik Avropa Birliyi məkanında daha yaxşı gedir. Görünür gələcəkdə çoxda yaxşı təsir bağışlamayan "miqrasiya" sözü daha məzmunlu səslənəcək və insanlar bir ölkədən digərinə işsiz, qaçqın, təhqir olunmuş sifətilə yox, sadəcə olaraq havasını, yaşayış şəraitini yaxşılaşdırmaq, maddi tələbatlarından çox mənəvi tələbatlarını ödəmək üçün hərəkət edəcəklər.

### 3.4.Beynəlxalq miqrasiyanın kateqoriyaları

Hazırda beynəlxalq miqrasiyanın 5-6 kateqoriyası fərqləndirilir. 1) Ölkəyə qanunla buraxılan emiqrantlar. 2) Kontraktlara əsasən ölkədə işləyən emiqrant-işçilər. Bir çox ölkələr xaricə işçi qüvvəsi ötürmək haqqında müqavilə bağlayırlar və işçi qüvvəsi artıq olan dövlət planlı formada digər ökəyə işçi qüvvəsi göndərir. Bu hal daha çox Asiya, Yaxın Şərq, Avropa ölkələrində özünə yer tapmışdır. Qeyd edek ki, bu kateqoriyadan olan emiqrantların sayı 2000-ci illərin əvvəlində 25 milyondan çox təşkil edirdi. 3) Qanunsuz yolla ölkəyə daxil olmuş emiqrantlar. Bu kateqoriyadan olan emiqrantların sayı da az deyil. Baxılan dövrdə (2000-cı ilin əvvəli) onların sayı 30 milyon təşkil edirdi. Qanunsuz emiqrantlara sənaye cəhətdən inkişaf etmiş ölkələrin demək olar ki, hamısında rast gəlmək olar. Onların bir hissəsi sərhəddən keçə bilənlərdir, digərləri viza (icazə vərəqəsi) ilə gəlib qayıtmayanlardır. Bu kateqoriyadan olan emiqrantlar bir qayda olaraq ən çətin və az əmək haqqı verilən iş yerlərində işə düzəlib işləyirlər. 4) Sığınacaq istəyən emiqrantlar. 1980-ci illərdə onların sayı çox az idi. 1990-cı illərin axırı üçün isə 1 milyon nəfərdən də çox olmuşdur. Sığınacaq istəməyin iki geniş yayılmış motivi məlumdur: siyasi və öz ölkəsində ağır iqtisadi vəziyyət. 5) Qaçqınlar BMT-nin verdiyi məlumatlarına görə 1990-cı illərin axırı üçün dünyada 22 milyon qaçqın olub.Qaçqınlığın səbəbləri müharibələr və müxtəlif etnik toqquşmalardır. Qaçqınlar əsasən inkişafda olan ölkələrdə məskunlaşırlar və bir qayda olaraq BMT-nin himayədarlığında olan xüsusi düşərgələrdə yaşayırlar. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə yerləşdirilən qaçqınların xüsusi çəkisi 1%-dən az təşkil edir.

Öz ölkəsindən olan qaçqınlar da məlumdur. Ölkəmizin torpağının 20%-nin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində Azərbaycanda olan 1 milyon qaçqın buna misaldır.

### 3.5.İnsanların beynəlxalq miqrasiyasının nəticələri

Qeyd etdiyimiz kimi beynəlxalq əmək miqrasiyasına uğramamış ölkə demək olar ki, yoxdur. Bu obyektiv proses olduğuna görə sonda dünya iqtisadiyyatına müsbət təsir göstərir.Lakin ayrı-ayrı yarımsistemlərin bu məsləyə yaradıcı yanaşmağı tələb olunur. Ona görə

ki, dünya iqtisadiyyatına dəyən xeyir ölkələrarası xarakterdə olduğuna görə işçi qüvvəsinin beynəlxalq miqrasiyası bir ölkəyə çox, digərinə az xeyir gətirir, başqalarına isə hətta mənfi nəticələr bəxş edir.

İşçi qüvvəsinin beynəlxalq miqrasiyasının hansı ölkə üçün daha xeyirli olması haqqında müxtəlif fikirlər olsa da son nticədə düzgün olanı budur ki, işçi qüvvəsinin ölkələrarası mübadiləsi hər iki tərəf üçün sərfəlidir, lakin müxtəlif dərəcələrdə. Bu asılıdır dövlətlərin özlərindən. Öz ölkəsində özünə lazımi diqqəti görməyən, əmək haqqı almayan, iş tapmayan sərbəst şəxs digər ölkəyə getmək fikrinə düşür.Doğrudur, bir qayda olaraq əmək resurslarını qəbul edən ölkələr, onu ixrac edən ölkələrdən çox iqtisadi səmərə əldə edə bilərlər. Lakin təhlil göstərir ki, işçi qüvvəsini ixrac edən ölkələr də az qazanc əldə etmirlər. Məsələ burasındadır ki, iş qüvvəsinin miqrasiyası beynəlxalq iqtisadi münasibətlərin ayrılmaz hissəsidir. Ölkənin tədavül balansında o dolayısı yolla öz əksini tapır. Qəbul edilmiş qaydaya görə ixracın miqyasına qiymət verərkən emiqrant köçürmələrinin məbləği nəzərə alınır. Burada köçürmələrin məbləği bir növ realizə olunmuş "əmtəənin"-işçi qüvvəsinin dəyərini əks etdirən məbləğ rolunu oynayır, məbləğin həcmi isə milyard dollarla hesablanır. Emiqrantların köçürmələri tədavül balansında "Xüsusi köçürmələr" adlanan maddədə öz əksini tapır və ölkənin ÜMM-u hesablanarkən nəzərə alınır.

İlk növbədə mənimsəmək lazımdır ki, işçi qüvvəsinin miqrasiyası təkcə iqtisadi deyil, o həm də mürəkkəb sosial,siyasi və mənəvi nəticələr verə bilər. Bir obyektiv proses kimi insanların ölkələrarası hərəkəti sonda ixrac və idxal etməsindən asılı olmayaraq bütün dövlətlərin əmək bazarında yeni şərait yaradır. Qəbul edən ölkələrin sosial və siyasi həyatında mənfi və müsbət dəyişikliklər baş verir.

İşçi qüvvəsinin beynəlxalq miqarsiyasının nəticələrindən danışarkən biz hesab edirik ki, prosesi bir necə istiqamətdə öyrənmək lazımdır.

Birincisi, hərəkət edən insanları qəbul edən ölkələrin əldə etdikləri nəticələr. Burada müsbət nəticələrə ilk növbədə boş, ağır, zərərli, az əmək haqqı verilən iş yerlərinin doldurulması və bunların sayəsində iqtisadi səmərə əldə edilməsi daxildir. Lakin emiqrantları qəbul edən və eyni zamanda bu prosesi öz xeyirlərinə uyğun idarə edən

ölkələr daha yüksək, milyardlarla hesablanan əlavə səmərələr də əldə edirlər. Bu cəhətdən ABŞ bütün dünyaya parlaq misal ola bilər. Bu ölkə bütün ölkələrdən alimləri, mütəxəssisləri, texnoloqları öz ölkəsinə cəlb edir və bu yolla elmin bütün sahələrini inkişaf etdirir. Amerika yüksək texnologiya sahəsində liderliyi əlində saxlamaqda davam edir. Burada həlledici rolu emiqrant-mütəxəssislər oynayırlar. Rəqəmlərə nəzər salaq: 1980-ci illoədə ABŞ-ın əmək bazarında iştirak edən elmlər doktorlarının 4%-i, ali məktəblərdə isə texniki fənlərdən dərs deyən müəllimlərin 25%-i emiqrantlar olub. İndi də belədir. 1990-cı ilin axırlarında ABŞ-da 15 milyon emiqrant qeydə alınıb.Mütəxəssislərin hesablamalarına görə ABŞ hökumət və xüsusi strukturları emiqrantlara ildə 240 milyard dollar əmək haqqı verir. Bu məbləğin 90 milyardı gəlir vergisi şəklində dövlət büdcəsinə qayıdır. Yerdə qalan 150 milyard dollar elmdə, tibbdə, incəsənətdə on dəfələrlə iqtisadi səmərə verir və Amerika öz liderliyini qoruyur. "Gəlmə beyinlər" sonradan məhsulun keyfıyyətinin yüksəlməsinə, prinsipial yeni məhsullann yaranmasına, ixtiralara və səmərələşdirici təkliflərə və s. çevrilir.

İkincisi, Donor ölkələr-işçi qüvvəsini ixrac edən ölkələr üçün də insanların ölkələrarası miqrasiyası xeyirlidir, lakin işçi axınını qəbul edən və onu yaxşı idarə edən ölkədəki qədər yox. Donor ölkələrin əsas iqtisadi səmərəsi, artıq qeyd etdiyimiz kimi emiqrantların pul köçürmələrinin məbləği ilə ölçülür. Bir sıra ölkələrdə bu məbləğ çox yüksək olur və ölkənin iqtisadiyyatında samballı yer tutur. Mütəxəssislərin hesablamalarına görə köçürmələrin məbləği 1990-cı illərin ortalarında Banqladeşin ÜDM-nun 4%-i qədər, Yamaykada 5%-dən çox, Pakistanda 3%-, Şri-Lankada 6,2% təkil etmişdir. Bundan başqa, donor-ölkələr xaricdə olan vətəndaşları vasitəsilə qabaqcıl istehsal təcrübəni öyrənmək, bilik əldə etmək və sonradan onlardan öz ölkələrində istifadə etmək imkanı əldə edirlər. Məsələyə yaradıcı münasibət bəsləyən donor ölkələr bundan olduqca çox xeyir götürürlər. Yenə qeyd edək ki, hər şey dövlətin səriştəliyindən asılıdır. Prosesi elmi əsaslarla idarə edən ölkələr daha çox iqtisadi, sosial, siyasi səmərələr əldə edirlər.

Üçüncü nəticə ölkələrarası hərəkət edən insanların əldə etdikləri şəxsi nəticələrdən və bəzi dövlətlərin miqrantlardan özlərinin qərəzli fıkirlərini həyata keçirmək üçün istifadə etməsindən ibarət olur. Öz

ölkəsini tərk eden şəxs özgə diyarda iş tapırsa, ilk növbədə, öz tələbatlarını ödəyir, inkişaf edir, ixtisas qazanır, təkmilləşir. Sonradan artıq pulunu köçürmələr şəklində vətəninə göndərir və yaxud da təcrübəli mütəxəssis və ya bacarıqlı fəhlə kimi ölkəsinə qayıdır və öz bilik və bacanğını istehsala tətbiq edir. Lakin təhlil göstərir ki, bəzi ölkələr məsələyə öz qərəzli ideyalannı həyata keçirmək prizmasından yanaşırlar və hətta ölkəsini tərk etmiş vətəndaşından özgə ölkəsində təxribatlar törətməkdə istifadə edirlər. Bu cür millətlər yüksək inkişaf etmiş ölkələrə işləmək adı altında gedirlər. Sonradan özlərinin müxtəlif təşkilatlannı yaradırlar və diaspora formlaşdırırlar. Kök saldıqlan ölkələrin qanunlarını, adət və ənənələrini, içarisində yaşadıqları millətin zəif cəhətlərini dərindən öyrənirlər və sonradan onları öz xeyirlərinə istifadə edib, həmin dövlətdən əlavə hüquq, muxtariyyət tələb edirlər və maliyyə cəhətdə imkan əldə etdikcə yerli əhalini rüşvətlə ələ ala bilirlər, istədiklərini həyat keçiro bilirlər. Bu proses o qədər inkişaf edə bilir ki, emiqrantlar işçi qüvəsini idxal edən plkələr böyük təhlükələr qarşısında qala bilərlər. Dünyada bu cür dövlətlərin parlaq nümayəndəsi Ermənistan deyilən dövlətdir. Bu ölkə həmişə işçi qüvvəsinin ixracı ilə məşğul olan və onu məqsədyönlü idarə edən kiçik bir dövlətdir. Lakin buna baxmayaraq ABŞ, Rusiya, Fransa və s. kimi yüksək iqtisadi və hərbi gücə malik ölkələrdə erməni menşəli emiqrantlardan istifadə edib özlərinin güclü diasporasını yaratmışlar və Qafqazda öz çirkin məqsədlərini çoxlu ölkələrin torqlarını zəbt etmək ideyalannı həyata keçirməklə bu ölkələrdən bacarıqla istifadə edirlər. Ermənilərin Azərbaycan torpaqlarının 20%-nin zəbt edilməsində erməni diasporasının rolu demək olar ki, həlledici olmuşdur. Onlar özlərinin süni şəkildə yaratdıqları miinaqişəyə Rusiyanı və onun hərbi gücünü cəlb edə bildilər və Azərbaycan torpaqlarını birlikdə zəbt etdtlər. Onu da qeyd edək ki, məqsədə çatmaq üçün Ermənistan Azərbaycana iş tapmaq üçün gəlmiş, sonradan sayı 400 min nəfəri keçən ermənilərdən də bacarıqla istifadə etdi. Azərbaycana işlməyə gələn, özlərini məzlum bir qui kimi göstərən ermənilər sonradan öz təşkilatlarını yaradaraq, maliyyə cəhətdən güclənərək ölkədə korrupsiyanın çiçəklənməsinə güclü təsir göstərmişlər. Dövlət orqanlarında, iqtisadiyyatın qabaqcıl sahələrində özlərinə yer tapandan sonra, Rusiyadakı diasporaların

köməyi ilə Azərbaycanın daxilində muxtar dövlət yaratmaq ideyasına düşdülər və hazirda bu ideya ilə də yaşayırlar.

Bu fakt göstərir ki, hər bir dövlət bilməlidir onun ölkəsinə gələnlər kimlərdir və nə işlə məşğul olurlar. Elə ABŞ-ın özündə diasporalar (xüsusən erməni və yəhudi diasporaları) Amerika konqresinə güclü təsir edə bilirlər, hətta əgər hökümətin özü bunu istəməsə də, bu yolla öz istəklərinə nail olurlar. Buna görə işçi qüvvəsinin beynəlxalq miqrasiyasının hər bir dövlət idarə etməyə çalışır.

### 3.6.Beynəlxalq miqrasiyanın tənzimlənməsi

İş qüvvəsinin beynəlxalq miqrasiyası müxtəlif formalarda qədimlərdən baş versə də müasir dövrdə bir proses kimi sürətlənməsi iki qrup amillərin təsiri altında baş verir. Bunlardan biri dünyada gedən və ümumiyyətlə, dünya iqtisadiyyatına müsbət təsir edən, onun inkişafı üçün yeni-yeni imkanlar yaradan bəşəri həyatın və təsərrüfatların beynəlmiləlləşməsidir.İkinci qrup amillərə kəskin millətlərarası qarşıdurmalar, ölkələr və millətlər arasında birbaşa toqquşmalar, fövqəladə şəraitlər, təbii fəlakətlər aiddir.Hər iki qrupun obyektiv və subyektiv əsasları olsa da, bir cəhəti də nəzərə almaq lazımdır ki, insanların ölkələrarası yerdəyişmələri hər hansı bir dövləti çox çətin vəziyyətə gətirib çıxara bilər. Məhz buna görə də demək olar ki, bütün dövlətlər əmək resurslarının və ümumiyyətlə, əhalinin ölkələrarası hərəkətlərini heç olmasa öz dövlətləri daxilində tənzimləməyə meyillidirlər. Bu meylləri nəzərə alan beynəlxalq təşkilatlar da bu məsələ ilə ciddi məşğul olurlar. Hazırda bir çox dünya miqyaslı təşkilatlar, (əsasən BMT çərçivəsində) və region çərçivəsindəki strukturlar işçi qüvəsinin beynəlxalq miqrasiyasının ortaya çıxan problemlərini həll ctməklə məşğuldurlar. BMT-nin xüsusi komissiyalar yaradılıb və onların sərəncamında olan xüsusi fondlardan ölkələrdə tərtib edilmiş əhalinin miqrasiyasına aid proqramların reallasdırılmasına maliyyə köməkliyi göstərilir. Beynəlxalq Əmək Təşkilatı (BƏT) də ölkələrarası əhali miqrasiyasının tənzimlənməsini özünün əsas fnuksiyalarından hesab edir. YUNESKO-nun sənədlərində miqrant

zəhmətkeşlərin və onların ailələrinin təhsilinin yaxşılaşdırılması haqqında müddəalar vardır. Bunlardan başqa, miqrasiya üzrə beynəlxalq təşkilat mövcuddur ki, o da ölkələrarası miqrasiyanın planlı şəkildə baş verməsi, onun təşkil edilməsi, bu sahədə təcrübə miibadiləsi keçi-rilməsi, məlumatlar əldə edilməsi ilə məşğuldur.

Konkret bir ölkə daxilində miqrasiya prosesləri əsasən həmin ölkənin qanunları ilə tənzimlənir. Belə qanunlar adətən beynəlxalq təşkilatların tövsiyələrini nəzərə alsa da məsələyə iki istiqamətdə yanaşmaq mövcııddıır.

Birinci istiqamət açıq iqtisadiyyat yaratmaq və deməli, əhalinin azad hərəkəti üçün şərait yaratmaq, ikinci istiqamət isə əksinə miqrasiyanı məhdudlaşdırmağa yönəlmişdir. Məsələn. ABŞ-da dövlətin mılli miqrasiya siyasətinə görə 1995-ci ildən ölkəyə buraxılan xaricilərin sayi 675 min nəfərdən çox olmamalıdır.

1990-ci illərdə Qərbi Avropada baş verən siyasi dəyişikliklər, keçmiş Yuqoslaviyadakı müharibə, SSRİ-nin dağılması nəticəsində emiqrantların sayının artmasını nəzərə alan Fransa, AFR. Avstra-liya, İtaliya, İspaniya, Portuqaliya kimi dövlətlər miqrasiyanı məhdudlaşdıran qanunlar qəbul etdilər.

Hər bir ölkənin miqrasiya siyasəti müxtəlif olur və dövlətin qarşısında duran konkret məsələlərin həlli istiqamətində formalasdırılır. Məsələn, daim xaricdən işçi qüvvəsi cəlb etmək istəyi olan idxal ölkə özünün miqrasiya siyasətində əsas diqqəti, bir qayda olaraq, ölkəyə daxil olacaq miqrant-zəhmətkeşlərin sayına və onların tərkibının keytlyyətinə yetirir və prosesi tənzimləmədə emiqrasiya kvotası üsıulundan istifadə edir. İmiqrasıya kvotası hər il üçün təyin edilir və bu zaman ölkənin xarici işcilərə olan tələbatı. daxili əmək bazarı, ölkədəki siyasi və sosial durum nəzərə alınır.

## VII FƏSİL. ÖLKƏ VƏ REGİONLAR DUNYA TƏSƏRRÜFAT SİSTEMİNDƏ

### §1. İnkişaf etmiş ölkələrin (İEÖ) dünya iqtisadiyyatında tutduqları mövqe

#### l.l.İEÖ-in coğrafi quruluşu

Dünyanın iqtisadi gücü ölkələr arasında qeyri-bərabər Şəkidə formalaşmışdır. Məsələn, ABŞ, Yaponiya, Almaniya kimi ölkədə yer kürəsi əhalisinin 9%-i cəmlənməsinə baxmayaraq, ölkələr dünya miqyasında qazanılan gəlirlərin yarısını mənimsəməyə qadirdirlər. Onlar bütün ölkələrin alıcılıq qabiliyyətinin üçdə birinə nəzarət edirlər. Ümumiyyətlə götürdükdə dünya iqtisadiyyatında aparıcı yeri sənaye cəhətdən inkişaf etmiş ölkələr (İEÖ) tutur.

İnkişaf etmiş ölkələr dünya iqtisadiyyatında regionlararası xarakterə malik ölkələrarası təşkilatda qruplaşdırılmış şəkildə öyrənilir. Bu təşkilat "İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı” (İƏİT) adanır və Dünya Bankının qruplaşdırmasına əsasən bura 2 inkişaf etmiş ölkə daxil edilir. Bu ölkələrin regional quruluş aşağıda verilmişdir (bax: cədvəl 9)

**Cədvəl** 9

**İƏIT-na daxil edilən ölkələrin regionlar üzrə quruluşu**

| **Şərqi Asiya və Sakit okean regionu** | | **Avropa** | | **Amerika** | |
|---|---|---|---|---|---|
| Sayı | adı | Sayı | adı | Sayı | adı |
| 4 | Avstraliya | 18 | Avstriya | 2 | Kanada |
| | Koreya | | Belçika | | ABŞ |
| | Yeni Zellandiya | | B.Britaniya | | |

| | | | |
|---|---|---|---|
| | Yaponiya | Almaniya<br>Danimarka<br>İrlandiya<br>İslandiya<br>İspaniya<br>İtaliya<br>Lüksemburq<br>Niderlandiya<br>Norveç<br>Portuqaliya<br>Finlandiya<br>Fransa<br>İsveçrə<br>İsveç | |

Göründüyü kimi inkişaf etmiş ölkələrin coğrafıyası çox da geniş deyil. İƏİT-na daxil edilən ölkələr üç regionda cəmləşmişlər: Şərqi Asiya və Sakit Okean regionunda (4 ölkə), Amerikada (2 ölkə) və Avropada (18 ölkə). İƏİT-i qrupuna daxil olmayan və yüksək gəlirli və inkişaf etmiş ölkələr digər regionlarda da vardır. Məsələn, Yaxın Şərqdə tsrail, Qətər, Küveyt, BƏƏ dövlətləri, Amerikada-Aruba, Bəqam, Vermud və Virqan adaları, Martinika, Nider, Antilli, Qayana kimi kiçik dövlətlər,ŞərqiAvropada- Sloveniya, Şərqi Asiya və Sakit Okean regionunda

Bruney-Darrussalam, Hon- konq, Quam, Makao, Sinqapur, Tayvan, Polineziya kimi kiçik dövlətləri də inkişaf etmiş dövlətlərə aid edirlər. Lakin biz bu fəsildə əsasən İƏİT-na daxil edilən bir пecə ölkəni xarakterizə edən göstəriciləri, onlarda qərarlaşmış təsərrüfat mexanizmini, onlara xas olan ümumi cəhətləri araşdıracağıq.

## 1.2.İEÖ-in dünya iqtisadiyyatında yeri

İƏİT-na daxil olan ölkələrdə yaşayan əhalinin sayı dünya əhalisinin təxminən 15,5%-i təşkil edir, lakin bu təşkilat dünyanın iqtisadi və elmi-texniki potensialının əsas hissəsini özündə cəmləşdirir. Burada baş verən bütün proseslər son nəticədə dünya təsərrütatına, dünya maliyyəsinə, dünya bazarına, dünya ticarətinin strukturu və həcminə güclü təsir göstərir. Bu ölkələrin hamısı Yaponiya müstəsna olmaqla, Avropa mənşəli dövlətlərdir.

İnkişaf etmiş ölkələr son iqtisadi göstəricilərinə görə dünyanın digər ölkələrindən xeyli üstündürlər. Məsələn, İƏİT-i qrupuna daxil edilən ölklərdə yaşayanların adambaşına düşən UDM həcmi dünya üzrə adambaşına düşən ÜDM-in orta qiymətindən beş dəfə çoxdur. 1990-cı illərdə inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatındakı mövqeyi daha da yaxşılaşdı. Bu iki amilin - birincisi, məhsuldar qüvvələrin struktırunda bas vermis mütərəqqi dəyişikliklərin təsiri altında, ikincisi – Şərqi Avropa ölkələrinin dünya təsərrüfat sistemindəki xüsusi çəkisinin azalması nəticəsində baş verdi.

İnkişaf etmiş ölkələr ümumdünya məhsulunun üçdə ikisini istehsal edirlər və elə bu səbəbdən də onlar dünya resurslarının çox hissəsini istehlak edirlər. Dünya iqtisadiyyatının inkişaf etmiş ölkələrdə daha çox asılılığı və qarşılıqlı asılılığı da bununla əlaqədardır.Son 25-30 il ərzində bu asılılıq daha da artmışdır. İqtisadiy- yatın irəliyə doğru inkişafı buna səbəb olmuşdur. Dərc olunmuş göstəricilərin təhlili göstərir ki, hər bir yeni dövrdə, inkişaf etmiş ölkələr yeni nailiyyətlər əldə edə bilirlər. İƏİT-na daxil olan ölkələrdə istehsalın həcmi 1950-1970-ci illərdə 1,5 dəfə artdığı halda, 1971 -1995-ci illər ərzində bu artım 1,9 dəfə təşkil etmişdir. Son 25-30 il ərzində istehsal daim irəliyə

doğru inkişaf etmiş və nəticədə ÜDM-un artımı hər bir dövrdə qeydə alınmışdır. İnkişaf etmiş ölkələrin daxilində də dəyişikliklər baş verir. Demək olar ki, bütün ölkələr ABŞ-dan geri qalma dərəcələrini aşağı salmaqdadırlar. Almaniya və Yaponiya kimi dövlətlər isə bir sıra göstəricilər üzrə ona tam yaxınlaşa və hətta ötə bilmişlər.

Baxılan dövrdə kiçik ölkələrin daha sürətlə inkişafı qeydə alınmışdır.

**Cədvəl 10**

**Sənaye cəhətdən inkişaf etmiş ölkələrin ÜDM-nun dinamikası**
**( % )**

| Ölkələr və ölkə qrupları | 1971-1980 | 1981-1990 | 1990-1995 |
|---|---|---|---|
| İƏİT | 3,3 | 2,9 | 1.9 |
| ABŞ | 2,8 | 2,7 | 2,4 |
| Yaponiya | 4,5 | 4,2 | 1,4 |
| AB ölkələri | 3,0 | 2,3 | 1,5 |

Sənaye cəhətdən inkisaf etmiş ölkələr dünya miqyasında ticarətdə də mühüm yer tuturlar. Dünya ixracında bu ölkələrin xüsusi çəkisi həmişə yüksək olmuşdur. Bu xüsusi çəki 1970-ci ildə 71%, 1981-ci ildə 61%, 1990-cı ildə 75,7%, 1995-ci ildə 69% olmuşdur. Lakin bunlar bütün ölkələrin üzrə ümumi göstəricilərdir. Ayrı-ayrı ölkələrin göstəriciləri ədvəl 11-də verilmişdir.

**Cədvəl 11**

**Sənaye cəhətdən inkişaf etmiş ölkələrin dünya ixracındakı xüsusi çəkisi (%-lə)**

| | 1938 | 1970 | 1980 | 1990 | 1995 | 1 |
|---|---|---|---|---|---|---|
| Cəmi IEO | - | 71,4 | 62,8 | 75,7 | 69,0 | 6 |
| ABŞ | 10,0 | 6,6 | 11,6 | 13,3 | 12,6 | 1 |
| Yaponiya | 4,1 | 6,0 | 6,6 | 7,7 | 8,0 | 8 |
| Almaniva | 9,0 | 10,0 | 9,3 | 10,6 | 9,4 | 9 |
| Fransa | 4,0 | 5,8 | 6,1 | 6,6 | 6,3 | 6 |
| İtaliya | 2,0 | 4,4 | 4,3 | 4,9 | 5,4 | 5 |
| B.Britaniya | 14,0 | 6,5 | 5,5 | 5,6 | 5,0 | 5 |
| Kanada | 3,0 | 4,9 | 3,2 | 3,6 | 3,4 | 3 |

Tədqiqat göstərdi ki, İEÖ-in dünya ixracında apancı rolu təkcə onların burada əldə etdikləri yüksək xüsusi çəki ilə ifadə olunmur. Bu ölkələrin rolu bir də ondadır ki, onlar əsasən yüksək texnologiyalı məhsullar ixrac edirlər. Bu cür məhsullar da digər ölkələrdə ya heç, ya da kifayət qədər istehsal olunmur. Məhz bu cəhət İEÖ-in xeyrinə olur:yüksək texnoloji məhsula tələbatı olan ölkə bu ölkələrdən asılı vəziyyətə düşür və İEÖ-lərə monopol mənfəət əldə etmək imkanı qazandırır. Lakin bu imkanı onlara heç kim və heç bir dövlət könüllü vermir. Bu imkanı həmişə İEÖ-in özləri öz ölkələrində **elmə,**

**texnikaya, texnologiyaya** və onların yaradıcılan olan İNSANA fıkir verdiklərinə, onların qayğısına qaldıqlanna görə əldə etmişlər və indi də etməkdədirlər.

İEÖ dünya ixracında aparıcı rol tutmaqla yanaşı, dünya idxalındä "da mühüm yer tutur. İEÖ qrupuna daxil olmayan ölkələrdə elmi-texniki tərəqqi sürətləndikcə, onlarda istehsal edilen keyfıyyətli məhsulun həcmi də getdikcə artır. Bu da İEÖ-in dünya bazarından daha çox müxtəlif məhsullar almağa zövq edir. Nəticədə İEÖ-in istehsalında idxal məhsullarının xüsusi çəkisi artır.

1970-1990-cı illərdə bu xüsusi çəki 9%-dən 20%-ə qədər yüksəlmişdi. Elə məhsul növləri vardır ki, onların əsas istehlakçıları da İEÖ-in özləridir. 1995-ci ildə İEÖ-lərin dünya idxalındakı xüsusi çəkisi kənd təsərrüfatı xammalı üzrə 68,2%, yanacaq üzrə 61,6%, toxunma malları üzrə 63,8, kimyəvi maddələr üzrə 63,5% təşkil etmişdir. Cədvəl 12-dən görünür ki, digər məhsullar üzrə də lEÖ-lərin xüsusi çəkisı yüksəkdir.

**Cədvəl 12**
**lEÖ-in dünya idxalındakı xüsusi çəkisi**

| Əmtəə qrupları | 1980 | 198<br>5 | 199<br>0 | <br>995 |
|---|---|---|---|---|
| Ərzaq | 61,4 | 63.0 | 71,0 | <br>8,2 |
| Kənd təsərrüfatı xammalı | 68,3 | 67,5 | 66,7 | <br>1,6 |
| Yanacaq | 75,3 | 68,2 | 61,3 | <br>1,4 |
| Metal və filizlər | 79,1 | 73.1 | 71,0 | <br>3,7 |
| Toxunma malları | 69,7 | 70,8 | 71,0 | <br>3,8 |
| Kimyevi maddələr | 63,8 | 65,1 | 67,6 | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | 3,5 |
| Maşınlar və nəqliyyat vasitələri | 59,5 | 65,6 | 67,6 | 5,0 |
| Metallar | 56,3 | 56,9 | 68,1 | 1,0 |
| Digər əmtəələr | 72,2 | 73,9 | 72,9 | 7,5 |

İEÖ-lərin hamısı bazar iqtisadiyyatlı ölkələrdir və bu ölkələrin Dünyanın Ümumi Daxili Məhsulundakı xüsusi çəkisi 1995-ci ildə 85,3% təşkil etmişdir.

## 1.3.İEÖ-IN təsərrüfat mexanizmi

Sənaye cəhətdən inkişaf etmiş ölkələrin başlıca xüsusiyyəti ondan ibarətdir ki, onlar kamil kapitalizim cəmiyyəti formalaşdırmağa nail ola bilmişlər və kamil bazar iqtisadiyyatlı cəmiyyət yaratmışlar.Lakin bu nəticə uzun bir dövr ərzində əldə edilmişdir. XVII əsrin axırları və XX əsrin əvvəllərindəki sənaye inqilabları bu ölkələrdə iqtisadi inkişafda radikal dönüşlərin baş verməsinə səbəb oldu və iqtisadiyyatın 5-6 dəfə yüksəlməsinə gətirib çıxardı. Baxılan dövrdə bu ölkələrdə əhalinin yüksək sürətlə artmasına baxmayaraq adambaşına düşən Ümumi Daxili Məhsulun orta hesabla 7-12 dəfə artması əhalinin gün-gündən artan tələbatlarının tam ödənilməsini təmin edirdi. Təhlil göstərir ki, bütün bu nailiyyətlərin əldə edilməsində İEÖ-də formalaşmış təsərrüfat mexanizmləri mühüm rol oynamışdır.

Təsərrüfat mexanizmi iqtisadiyyatı insanların təlabatlarına uyğun şəkildə təşkil etmək üçün çox mühüm şərt və amil rollarını oynayır. Bu nəticəni indi bütün ölkələr bu və ya digər səviyyədə çıxara bilirlər və dərk edirlər ki, elmi, texnikanı, texnologiyanı, istehsalın təşkilini təkmilləşdirməklə yanaşı idarəetməni də yaxşılaşdırmaq və səmərəli fəaliyyət göstərən təsərrüfat mexanizmi yaratmaq lazımdır. Ən sadə

dildə təsərrüfat mexanizmi dedikdə, bu və ya digər ölkənin təsərrüfatçılıq həyatının tənzimləndirilməsində istifadə edilən üsul və formaların məcmuu başa düşülür. Bu üsul və formaların ölkədə formalaşmasına müxtəlif amillər təsir göstərir. Obyektiv amillər əsasən sosial-iqtisadi quruluşdan və ETT-nin sürətlənməsindən doğan amillərdir. Lakin subyektiv amillər də olur. Onlar bilavasitə hökumətin başında duranlardan, onların dünyagörüşlərindən, psixologiyalarından, demokratiyaya və qanunun aliliyinə münasibətlərindən asılı olur. Qeyd edək ki, obyektiv amillərə üstünlük verən dövlət başçıları iqtisadiyyatda həmişə böyük nailiyyətlər qazana bilmişlər. Belə ölkələlər ilk növbədə inkişaf etmiş ölkələr daxildir.

İnkişaf etmiş ölkələr qrupunda bu gün mövcud olan təsərrüfat mexanizmi kifayət qədər təkmilləşmiş və səmərəlidir və quruluşca mürəkkəbdir. Lakin tarixi baxımdan bu həmişə belə olmamışdır. Qərbi Avropada və ilk növbədə, Niderlandda və Böyük Britaniyada sonralar isə ABŞ-da iri maşınlı istehsal bəraqərar olduqca, ictimai əmək bölgüsü və qarşılıqlı (fırmalararası, regionlararası va dövlətlərarası) əlaqədar inkişaf etdikcə bazar münasibətləri sürətla formalaşırdı. Bu şəraitdə əsas tənzimləyici rolunu **bazar qiyməti** və onun **əmələgəlmə mexanizmi** oynayırdı.

Hazırda İEÖ-də fəaliyyt göstərən təsərrüfat mexanizmi öz başlanğıcını Qərbi Avropada kapitalizm cəmiyyətinin meydana gəlməyə başladığı dövrlərdən götürür. O dövrdə formalaşan təsərrüfat mexanizminın əsasını obyektiv amillər təşkil cdirdi. O daxili səbəblərdən törəyirdi, bir növ özü-özünə dəyişən sosial-iqtisadi mühitə görə meydana gəlirdi. Bu, əslində İEÖ-də hazırda fəaliyyət göstərən təsərrüfat mexanizminin birinci səvivyəsi idi ki, bu da iqtisadi ədəbiyyatlarda təsərrüfatçılıq fəaliyyətinin spontan bazar tənzimləşdirilməsi adlanır.

XIX əsrin axırlarında kapitalist ölkələrində və xüsusən ABŞ və Kanadada istehsalın təmərküzləşməsi sürətlə baş verirdi, yeni iri birliklər yaranırdı. Təsərrüfat mexanizminin ikinci səviyyəsi meydana gəlməyə başlayırdı.İri müəssisələrin istehsal-təsərriifat fəaliyyətində, genişlənməsində, yenidənqurul- masında bir neçə kapitalist sahibkar iştirak edə bilirdi. Bu yolla o dövrdə korporasiya[2] formasında aksioner

cəmiyyətləri gcniş fəaliyyət göstərirdi və bunun birbaşa nəticəsi kimi, кorporativ (qrup) maraqlar cəmiyyətdə möhkəm mövqeyə malik idi. Onlar istehsalın əsas sahələrini özlərində saxlayırdılar, yaxşı mənfəət əldə edirdilər və qiymətlərə nəzarəti ələ keçirə bilırdilər. Kiçik müəssisələrin bu cür hərəkət etmək imkanları ya heç yox idi, ya da çox məhdud idi. Buna görə də kiçik müəssisələr üçün qiymət xarici tənzimləmə rolu oynayırdı.

Təsərrüfat mexanizminin qısaca şərh etdiyimiz birinci və ikinci səviyyələri inkişaf etmiş ölkələrdə 1929-cu ilə qədər fəaliyyət göstərdi. Onların müsbət cəhətləri bazar münasibətlərini formalaşdırmaları və sonralar mükəmməlləşdirmələri idi. Lakin təsərrüfat mexanizmində mərkəzləşdirilmiş tənzimləmələr vaxtaşırı olmadığına görə istehsalda hərc-mərcliklər baş verirdi. Nəhayət, tarixdə mütəxəssislərə yaxşı tanış olan 1929-1933-cü illərin ən dərın "böyük" böhranı baş verdi. Böhran istehsalı təşkil edənlərə, hökuməti idarə edənlərə, sahibkarlara bir daha sübut etdi ki, "iki səviyyəli" təsərrüfat mexanizmi kapitalist iqtisadiyyatının dayanıqlığını və səmərəli inkişafını təmin etmək **iqtidarında deyil** və iqtisadiyyatın **dövlət tənzimlənməsi tələb olunur.** Buna görə də, xüsusilə İkinci dünya müharıbəsindən sonra inkişaf etmiş ölkələrin təsərrüfat mexanizmində "üçüncü təbəqə" (pillə) dövlət tənzimlənməsi təbəqəsi formalaşdırıldı. Beləliklə də, bütün sənaye cəhətdən inkişaf etmiş öklələrin təsərrüfat mexanizmi "üç pilləli" (üç təbəqəli) formalaşmışdır. Onun tərkib hissələrini sponton-bazar tənzimlənməsi, korporativ tənzimlənmə və dövlət tənzimlənməsini təşkil edir.

Bazar iqtisadiyyatlı inkişaf etmiş ölkələrin müasir təsərrüfat mexanizmində əsas məsələ göstərdiyimiz üç təbəqəli sistemdə hər bir təbəqənin yerinin düzgün təyin edilməsidir. İKÖ-in təsərrüfat mexanizmləri də əslində elə bununla fərqlənir. İnkişaf etmiş ölkələrin əksərində təsərrüfat mexanizıninin birinci və ikinci təbəqələri lazımi səviyyədə inkişaf etmişdir və bir-birindən köklü surətdə fərqlənmirlər. Nəzərə çarpacaq dərəcədə fərq isə üçüncü təbəqəyə aiddir. **Dövlət tənzimlənməsi, dövlətin iqtisadi və sosial siyasəti İEÖ-də müxtəlifdir.**

Avstriya, Danimarka, İrlandıya kimi kiçik inkişaf etmış ölkələrdən başqa İEÖ-ın əksəriyyətində iqtisadiyyatın

hərəkətvericilərini iri konsernlər təşkil edirlər ki, bunlar da son onilliklərdə dünya əhəmiyyəti olan güclü TMK kimi fəaliyyət göstərirlər.

İnkişaf etmiş ölkələrdə fəaliyyət göstərən təsərrüfat mexanızminin bir neçə müsbət xüsusiyyəti vardır.Bunlardan ən başlıcası, ölkədə kiçik, orta və iri (nəhəng) bizneslərin inkişafi üçün demək olar ki, eyni şəraitin yaradılmasıdır. Məsələn, İEÖ-nin təsərrüfat mexanizmi imkan verir ki, orta təbəqə daim meydana gəlsin, inkişaf etsin, təkmilləşsin. Məhz bu cəhət kapitalist ölkələri olmalarına baxmayaraq İEÖ-də sosial gərginliyi azaldır, yeni iş yerlərinin yaradılmasına səbəb olur. Burada dövlət həlledici rol oynayır.

Dövlət tənzimləməsinin elmi əsaslar üzərində qurulmasının nəticəsidir ki, İEÖ-də xırda biznesdə həmişə "renessans"[1] baş verir.

### 1.4. İEÖ-də dövlət tənzimləməsi və yenidən tənzimləmə

İEÖ-nin təsərrüfat mexanizmində dövlət tənzimlənməsi dünyanın digər dövlətlərində olduğundan güclüdür. Təsərrüfatçılıq fəaliyyətində dövlət tənzimlənməsinin zəruriliyini həyat özü təsdiq etmişdir. Ənənəvi kapitalizm cəmıyyətinin doğurduğu krizislərin (böhranların) sayının azalması və sosial-iqtisadi təsirlərin nisbətən zəifləməsi sahəsində dövlət tənzimlənməsinin rolu gektdikcə artır.

İqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədi, vasitələri, istiqamətləri, əhatə dairəsi, forma və üsulları müxtəlif dövlətlərdə müxtəlif olsa da bir çox ümumi cəhətləri də vardır. Məqsəd bütün İEÖ-də oxşardır: 1) cəmiyyətdə sabit sosial-iqtisadi durum yaratmaq və 2) kapitalın özünüinkişafını (özüartımını) təmin edə bilən amil və şərtləri inkişaf etdirmək, vasitə kimi dövlət hüquq alətlərindən, dövlət maliyyəsindən, pul-kredit sistemindən, vergi alətlərindən, öz əlində olan mülkiyyətdən istifadə etmək.

Dövlət tənzimlənməsinin səviyyəsi müxtəlif ölkələrdə müxtəlifdir. Dövlətin funksiyaları daha geniş və intensiv şəkildə Qərbi Avropa ölkələrində, nisbətən zəif şəkildə ABŞ və Yaponiyada həyata keçirilir. Lakin bir cəhəti nəzərə almaq lazımdır ki, bütün İEÖ-doə dövlət tənzimlənməsi sosial məsələlərin həllinə kömək məqsədi ilə həyata keçirilir. Ölkələr arasında olan fərq burada da özünü göstərir.

Daha çox sosial yönümlü dövlət tənzimlənməsi Qərbi Avropa ölkələrində müşahidə edilir. Bu ölkələr ənənəvi olaraq sosial yönümlü dövlət yaratmaqda böyük təcrübəyə malikdirlər. Bu cəhətdən ABŞ və Yaponiya nisbətən geri qalır. İnkişaf etmiş ölkələrin bir başlıca xüsusiyyətləri də hər hansı prosesin gedişinə **yaradıcı <u>münasibət</u>** bəsləməkdir. Dövlət tənzimləməsi İEÖ-in təsərrüfat mexanizminin tarixi baxımdan sonuncu qatı (səviyyəsi) olsa da çox çevik xarakterə malikdir və daim təkmilləşdirilir. Bu cəhətdən 1970-ci illərin sonlannda İEÖ-də **<u>yenidən tənzimləmə</u>** üsulunun tətbiqinə başlanması əlamətdar-dır. Bu yolla dövlətlər maliyyə krizislərinin qabağını almağa cəhd göstərirlər.

Məsələn, ABŞ-ın yenidən tənzimlənməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu:

-dövlət mülkiyyətinin bir hissəsinin sahibkarlara satılması;

-büdcə xərclənməsində "ciddi qənaət" rejiminin tətbiq

edilməsi;

-vergi dərəcələrinin aşağı salınması;

1980-ci əvvəllərində həyata keçirilən bu tədbirlər güclü nəticələr əldə etməyə imkan verdi. Bu dövrdə ABŞ hökümətinin dövlət büdcəsinə əlavə olaraq,40 milyard dolllar vəsait daxil oldu. Yenidən tənzimlənmə tədbirləri nəticəsində ABŞ hökuməti 1997-ci ildə büdcə kəsirini ÜDM-ө nisbətən 0,3% çatdırmağa nail oldu. Müqayisə üçün göstərək ki, 1990-cı ildə bu kəsir 3% teşkil edirdi.

## 1.5.**İEÖ-in iqtisadi inkişafında ölkə başçısının rolu**

Dövlət tənzimlənməsində və onun təkmilləşməsində İEÖ-in rəhbərləri mühüm rol oynayır. Belə bir ənənə meydana gəlmişdir: hakimiyyətə gələn yeni partiya (qüvvələr) ölkənin sosial-iqtisadi inkişafını daha da sürətləndirə bilən proqramla çıxış etməlidir. İrəli sürülən proqram elmi cəhətdən əsaslandırılmalı və hakimiyyətə gələn partiya onun üçün cavabdehlik daşımalıdır. Dövlət özünün sosial yönümlü prinsipcə yeni təklifləri və səyləri ilə fərqlənməlidir. Elə yuxarıda qısaca təsvir etdiyimiz "yenidən tənzimləmə" üsullarının bir

çoxu ABŞ prezidenti R.Reyqanın dövründə daha intensiv tətbiq olunmağa başlanmışdı. Məsələ burasındadır ki, 1920-1933-cü illərin məlum iqtisadi krizisindən sonra bir neçə onilliklərə (1970-ci ilin ikinci yansına) qədər dövlət tənzimləmələrində iqtisadiyyata birbaşa müdaxilə elementləri geniş istifadə edilirdi. Bu zaman hətta idarəçilik üsullarının tətbiqi üçün də şərait yaradılırdı.[1]

Lakm R.Reyqanın komandası hakimiyyətə gələndən sonra bu vaxta qədər ABŞ hökumətinin istifadə etdiyi tənzimlənmə üsullarına tənqidi münasibət bəslənildi və göstərildi ki, ingilis iqtisadçısı D.Keynsin dövlət tənzinılənməsi haqqında nəzəri müddəalarının əsas götürülməsi artıq istənilən səmərəni vermir, ona görə ki, bu prinsiplərin rəhbər tutulması dövlət aparatının genişlənməsinə, bürokratik üsulların inkişafına, vergilərin artmasına, əmtəələrin rəqabətə dözümlüyünün zəifləməsinə səbəb olmuşdu. Bunları nəzərə alan R.Reyqan hökuməti "Amerika üçün yeni başlanğıc. İqtisadi dirçəliş proqramı" adında iqtisadi proqram hazırladı və bu proqram əsasını amerika iqtisadçısı M.Fridman tərəfindən irəli sürülmüş monetarist nəzəriyyə təşkil edirdi. Həyata keçirilən bu proqram sonralar **reyqanomika** adı ilə dünyada məşhurlaşdı.ABŞ isə bu proqramdan olduqca çox faydalana bildi.R.Reyqandan sonrakı prezidentlər dövlət tənzimlənməsinin daha da çevik və səmərəli etməyə nail oldular.

İnkişaf etmiş ölkələrin dövlət tənzimləmnəsində insan, onun yaşayışı, onun taleyi həmişə ön planda durur. Məsələn, ABŞ-da dövlət tənzimlənmoəinin təkmilləşdirilməsi iki istiqamətdə böyük nəticələrin əldə edilməsinə imkan verib: birincisi, ÜDM-un müntəzəm artımı (son illərdə bu artım orta hesabla 2,5-3,0% olub), ikincisi, külli miqdarda yeni iş yerləri yaradılıb (1990-cı ilin əvvəllərində 11 milyon). Bu sahədə B.Klinton hökuməti də mühüm rol oynamışdı. İlk növbədə ona görə ki, bu hökumətin əsas məqsədı həmişə aztəminatlı insanların gəlirlərinin artınlması, tibbi xidmətin yaxşılaşdınlması, məktəblərin kompüterləşdirilməsi səviyyəsinin yüksəldilməsi olmuşdur.

Beləliklə də, İEÖ-də dövlət tənzimlənməsi sözün əsl mənasında iqtisadiyyatın mökhəmlənməsi və sosial problemlərin həlli amilinə çevrilmişdir və bu prosesin daha da təkmilləşdirilməsi davam etməkdədir. Yeni yollar axtarılır. Azad sahibkarlıq iıkişaf etdirilir. Xalq

müəssisələri yaratmaqla kiçik və orta sahibkarlıq durmadan tərəqqi etdirilir.

## 1.6.İEÖ xarici iqtisadi fəaliyyətinin əsas xüsusiyyətləri

İEÖ-in hamısında intensiv xarici iqtisadi fəaliyyet müşahidə olunur. Digər ölkələrə nisbətən İEÖ xarici iqtisadi fəaliyyətə daha yaradıcı münasibət bəsləyirlər və optimal variantalr axtarıb tapırlar. Məsələyə bu prizmadan yanaşmağın obyektiv əsası ondadır ki, xarici iqtisadi əlaqələr ölkənin sosial-iqtisadi inkişafına güclü təsir göstərmək xassəsinə malikdir. İEÖ bir qayda olaraq xarici iqtisadi əlaqələri inkişaf etdirməklə istehsal xərclərini azaltmağa, ümumi səmərəliliyi isə yüksəltməyə çalışırlar.Bu baxımdan IEÖ xarici iqtisadi fəaliyyətlərindəki başlıca xüsusiy- yətlərindən biri prınsipcə yeni əməkdaşlıq formaları tapmaq, yeni istiqamətlər təyin etmek yolu ilə istənilən ölkələrlə optimal (ilk növbədə özlərinin xcyrinə) əläqələr yaratmaqdır."Yeni xarici iqtisadi əməkdaşlıq normaları" dedikdə, ilk növbədə aşağıdakıları nəzərə almaq lazımdır.

İlk növbədə onlar, öz ölkələrində prinsipcə yeni məhsulların, xidmət növlərinin istehsalını təşkil etmək və onlan istehlakçı ölkələrə sərfəli şərtlərlə reallaşdırmağa can atırlar. Təhlil göstərir ki, xarici iqtisadi əlaqələri genişləndirmək sahəsində bu üsullardan İEÖ-in demək olar ki, hamısı istifadə edir. Xarici iqtisadi əlaqələrin genişləndirilməsinin bu imkanı digər (inkişafda olan, keçid iqtisadiyyatlı) ölkələr qrupunda ya heç olmıır, ya da çox məhdud şəklində olur. İEÖ-də isə bu imkanı meydana gətirən qüvvə onların iqtisadi, texniki, texnoloji, elmi, hərbi gücləridir. İEÖ-in iqtisadi gücü diger ölkələrə nisbətən həmişə çox yüksək olduğuna görə onlar elmin, texnikanın, texnologiyanın ardıcıl inkişaf etdirilmləsinə milyardlarla vəsait ayıra bilirlər.

Məsələ burasındadır ki, hər hansı bir dövlətin və o cümlədən də İEÖ-in müasir dünya təsərrüfat sistemindəki mövqenin möhkəmliyi, dayanıqlığı onun elmi-tədqiqat və layihə-təcrübə işləri (ETLTİ) sahəsində əldə etdiyi nailiyyətlərə və onların" istehsala tətbiqinin intensivliyinə görə həll edilir. ETLTİ-i isə çoxlu ' vəsait tələb edir. Bu vəsaitin öhdəsindən İEÖ bacarıqla gəlirlər. Derc olunmuş materiallar

göstərir ki, Qərb ölkələrinin hamısında ETLTİ-nə çəkilən xərclərin məbləği ÜDM-un 2%-dən də çox təşkil edir. Məsələn, İtaliya üçün bu 2% təşkil edir (1998-ci il). ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, İsvcçrə, Yaponiya kimi qüdrətli, inkişaf etmiş ölkələrdə isə ETLTİ-nə çəkilən xərclər UDM-ın 3%-nə qədər çatır. Bundan başqa, İEÖ-də qüdrətli kompaniyalar, konsernlər (TMK) fəaliyyət göstərir və onların qazandıqlan çoxlu miqdarda vəsait imkan verir ki, bu məqsədlə daha çox vəsait xərclənsin. Məsələn, elektrotexnika, kimya, avtomobil, clcktron sənayclərində bu cür kompaniyalann ETLTİ-nə çəkdikləri xərcin ümumi xərclərdoki xüsusi çəkisi 15-20% təşkil edir. Bu cür iri masştablı xərclər kompaniyalara imkan verir ki, qısa bir müddətdə uyuşqanlı istehsallar yaradılsm, yeni texnika istehsala kompleks şəkildə tətbiq edilsin. Bu yolla kompaniyalar istehsal texnologiyalarında sözün tam mənasında inqilabi dəyişikliklər etməyə nail olurlar və onların vasitəsilə dünyada ən keyfıyyətli, müxtəlif çeşidli, qənaətcil, az əmək, fond və material tutumlu məhsullar istehsal etmək imkanı qazanırlar. Çox vaxt onlar dünya bazarında analoqu olmayan məhsullar istehsal edib bazara çıxarırlar. Xarici iqtisadi əlaqələrin bu yolla genişləndirilməsi innovasiya yoludur. Bu yol rezonans səmərə verir. Xarici iqtisadi əlaqələrin innovasiya yolu ilə genişləndirilməsi İEÖ-in demək olar ki, hamısında baş verir. Laikn bu cəhətdən daha çox fərqlənən ölkələr - ABŞ, Yaponiya və Almaniyadır.

İEÖ-in xarici iqtisadi fəaliyyətinin bir mühüm xüsusiyyəti də ixrac və idxal edilən əmtəə və xidmətlərin strukturunun mütəmadi oıaraq təkmilləşdirilməsidir.

Burada əsas məqsəd digər ölkələrin istehsal etmək imkanı ya heç olmayan, ya da məhdud imkana malik olan məhsulların istehsalını genişləndirmək və onları digər ölkələrə reallaşdırmaqdır.Bu ideyanı həyata keçirmək üçün İEÖ-də geniş

istifadə edilən bir yol da vardır. Bu da müəyyən ərzaq və ya sənaye məhsulları növlərinin kütləvi şəkildə istehsal etmək və istənilən ölkələrə satmaq yolu ilə ölkənin ixrac potensialını möhkəmləndirməkdən ibarətdir. Bu yolla xarici iqtisadi fəaliyyətin genişləndirilməsinə çoxlu misallar gətirmək olar. Yaponiya bu yoldan geniş istifadə edir. Radio-elektronika məhsullan (rəngli televizorlar, radio qəbuledicilər adi və videomaqnitofonlar və s.) uzun müddətdir ki, Yaponiyada dünya tələbatlarını ödəmək üçün istehsal edilir, 1980-ci ilə qədər dünyada istifadə edilən videomaqnitofonların 75-80%-i Yaponiyanın istehsalı idi və bu meyl indi də o soviyyədə olmasa da, yüksək səviyyədə qalmaqdadir. Digər mütərəqqi, elm tutumlu məhsulların istehsahnda da bu cür meyllər müşahidə olunur.

Amerika kompüter texnikası, proqram təminati məhsulunu bütün diinya ölkələrinə realizə edə bilir. Almaniya və Yaponiya avtomobil sənayesi məhsulları üzrə bu mövqedə dayanan ölkələrdəndir. Yeyinti məhsullarıl sənayesində də çoxlu misallar göstərmək olar. Lakin hamımızın yaxşı tanıdığı broyler (çolpa) məhsullarını misal gətirməklə kifayətlənmək olar. ABŞ bu sahədə fərqlənir və bütün diinya ölkələrinə toyuq budu ixrac edir. Sənaye və ya kənd təsərrüfatı məhsulunun istehsalını mənimsəmək və onu bütün ölkələrə ixrac etmək kompaniyalardan və dövlətdən böyük səy və bacarıq tələb edir. Belə məhsul dünya standartlarına cavab verməli, qiymət yüksək olmamalı, əlavə yüksək keyfıyyət xüsusiyyətlərinə malik olmalıdır. Çoxlu kapital tələb etsədə İEÖ bunun öhdəsindən müvəffəqiyyətlə gələ bilirlər. Əsas şərt isə burada korrupsiyadan uzaqlaşmaq və sahibkarı bürokratik əngəllərdən xilas etməkdir.

Ümumiyyətlə götürdükdə İEÖ-in xarici iqtisadi əlaqlərində yüksək səviyyədə liberallasma özünü göstərir. Xarici ticarət rejiminin liberallaşdırılması İEÖ-in iqtisadi güclərindən və ölkənin iqtisadiyyatının yüksək rəqabətlilik xassəsindən irəli gəlir. Liberallaşdırma ilk növbədə öz əksini dövlət tərəfındən gömrük dərəcələrinin aşağı salınmasında tapır. 1950-ci illərdə tEÖ-də gömrük dərəcələri 30-40% təşkil edirdi. 1970-ci illərdə isə bu dərəcələr 7-10%-ə qədər asağı salınmış və 1997-ci ildə isə özünün ən aşağı səviyyəsinə cəmi 4%-ə bərabər olmuşdur. Eyni zamanda İEÖ-lər arasında mal

mübadiləsi prosesi də liberallaşdırılmışdır ki, bu da onların xarici iqtisadi fəaliyyətlərinin mühüm xüsusiyyətidir.

İEÖ xarici iqtisadi əlaqələrinin başlıca fərqləndirici xüsusiyyətlərindən biri də prosesdə dövlət tənzimlənməsinin yaradıcılıqla həyata keçirilməsidir. Problemin öyrənilməsi göstərdi ki, İEÖ-in hamısında xarici iqtisadi fəaliyyətdə dövlət böyük rol oynayır. Əsas məqsəd ölkədə sosial-iqtisadi inkişafı təmin etməkdir. Dövlət bütün yollardan istifadə etməklə ixracla məşğul olan kompaniyaları müdafiə edir və lazım gələrsə onlara maliyyə, texniki, təşkilati, mənəvi kömək göstərir. Lazım olan vaxt subsidiyalaşdımıa və ixrac kreditlərinə təminat verilməsi üsulları da işə salınır. Qərbin inkişaf etmiş ölkələri xarici kapitalın ölkəyə daxil olması prosesində də çox çevik hərəkət edirlər. Əgər dövlət hesab edir ki, xarici investisiya çox zəruridir onda dövlət liberal rejim yaradır. Liberal rejimin mahiyyəti ondadır ki, dövlət burada icazə-qadağa üsulundan yox, qeydəalma üsulundan istifadə edir. Bu halda da dövlət passivlik göstərmir. Ölkə üçün çox miihüm olan kapitalı cəlb etmək üçün müvafiq infrastrukturlar yaratmaq yolu ilə onu stimullaşdırır.

### 1.7. **İEÖ-İn daxili bazarı**

Daxili bazar dedikdə milli dövlətin daxilində, ancaq onun təsərrüfatında baş verən mübadilə sistemi başa düşülür. Əlbəttə, burada idxal-ixrac bölməsində baş verən proseslər nəzərə alınmır. Ölkələrin iqtisadi inkisafı bir çox cəhətdən ictimai əmək bölgüsünün xüsusiyyətindən və dərinləşməsindən asılı olur və bu prosesin gedişində də daxili bazar formalaşır.

Dünya iqtisadiyyatında ölkələrin daxili bazarları mühüm rol oynayır. Əslində daxili bazarlar dünya təsərrüfat sisteminin inkişafını təyin edirlər. Bu baxımdan inkişaf etmiş ölkələrin daxili bazarları mühüm əhəmiyyətə malikdir. İnkişaf etmiş ölkələrin daxili bazarları digər ölkələrlə müqayisədə daha zəngin, daha həcmli olur. İqtisadi imkanları yaxşı olduğuna görə əhalinin yaşayış səviyyəsini yüksəldə bilən İEÖ-in daxili bazarındakı təklif də çox yüksək olur və son

nəticədə digər ölkələrin iqtisadi inkişafı və ilk növbədə onların istehsal etdikləri məhsulun reallaşdırılması məsələsi məhz bu təklifdən asılı olur.

ÜDM-a nisbətən kiçik daxili bazara malik ölkələr bir qayda olaraq xarici ölkələrdən daha çox asılı olurlar. Belçika, İrlandiy Niderland, Avstriya, İsveçrə, Danimarka kimi kiçik dövlətlərin iqtisadiyyatı güclü şəkildə inkişaf etmiş böyük dövlətlərin daxili bazarlarında qərarlaşmış tələblə şərtləşir. Dərc olunmuş rəqəmlər də bunu sübut edir. 1990-cı illərdə ÜDM-a nisbətən ixrac kvotası orta hesabla Belçikada 70%, ' İrlandiya 67%, Niderlandda 52%, Avstriyada 40% təşkil etmişdir. Deməli, bu ölkələrin iqtisadiyyatı yüksək dərəcədə beynəlmiləlləşmişdir və onlar dünya bazanrının müəyyən seqmentlərindən asılıdırlar. İnkişaf etmiş nəhəng ölkələrdə bu cür şərait hiss olunmur. Onların həcmli daxili bazarları olsa da tələbatlatın çoxunu **öz istehsalları** ilə təmin etməyə çalışırlar və əsasən buna nail də olurlar. Görünür ona görədir ki, ixrac kvotası ABŞ və Yaponiyada cəmi 10-15% təşkil edir. Digər iri və orta ölçülü İEÖ-də bu göstərici 20-30% həddindədir.

Problemin tarixinə nəzər saldıqda aydin olur ki, İEÖ-lərin liderləri daxili bazar amilindən bacarıqlı istifadə edirlər. Onlar çoxdan başa düşmüşlər ki, **birincisi** həm ayrı-ayrı ölkələrin həm də İEÖ-lər qrupunun daxili bazarını inkişaf etdirmək lazımdır və **ikincisi** yaxin və uzaq qonşu ölkələrin iqtisadi inkişafı təmin edilməzsə onların özlərinin daxili bazan inkişaf edə bilməz. Öz daxili bazarın zənginləşdirmək üçün digər, siyasi və iqtisadi cəhətdən özünə daha yaxın olan ölkələrin iqtisadiyyatını məqsədyönlü inkişaf etdirmək siyasəti tarixdə ilk dəfə ABŞ tərəfindən həyata keçirilib. Ikinci dünya müharibəsindən sonra ABŞ özünün inkişaf yolunu təyin etdi. Bu yolun əsasını vətəndaş tələbatlarının maksimum ödənilməsi təşkil edirdi. Bu dövrdə ABŞ istehlak tələbatının rolunu artırmağa və məhz onu iqtisadi inkişafın mühəmkinə çevirməyə çalışırdı. Bu məqsədlə dövlət tənzimlənməsi gücləndirildi və digər bu qəbildən olan tədbirlər həyata keçirildi. Lakin zəngin və həcmli daxili bazar formalaşdırmaq üçün ilk növbədə Qərbi Avropa ölkələrinin iqtisadi inkişafına nail olmaq lazım idi. Bu məqsədi həyata keçirmək üçün tarixdə məşhur olan «Marşall» planı meydana

gəldi və məhz bu planın vasitəsi ilə  QA ölkələri iqtisadiyyatının brpası qısa müddətdə başa çatdı.

Eyni zamanda bu plan ABŞ-ın daxili bazannm daha da möhkəmlənməsinə, zənginləşməsinə və genişlənməsinə səbəb oldu. «Marşall» planı Qərbi Avropa ölkələrində sənayenin inkişafına və ölkələrarası ticarətin genişlənməsinə və ən başhcası  isə İEÖ-in hamısında daxili bazarın formalaşmasına müsbət təsir  etdi. «Marşall» planı bir daha sübut edir ki, güclü ölkə (ABŞ) özündən zəif ölkələri hərbi yolla deyil, iqtisadi yolla da özünə cəlb edə bilər.  Plan göstərdi ki, güclü ölkənin daxili bazarının   genişlənməsi, zənginləşməsi eyni zamanda yaxin, uzaq, dost  ölkələrin daxili bazarının da labüd inkişafını tələb edir. İEÖ-in demək olar ki, hamısı bu prinsipə əməl edirlər (çox təəssüflər ki, respublikamızın da daxili olduğu MDB adlanan qrumda məsələlər heç də bu prinsip üzrə həll edilmir. Qurumun ən güclü ölkəsi olan Rusiya özünün əlaltısı olan Ermənistanın  vasitəsilə   qonşularını

hərb gücü ilə özünə tabe etmək istəyir və nəticədə həm Rusiyada və  həm də onun qonşularında mükəmməl daxili bazar hələ də formalaşmayıb.Qərbi Avropa ölkələrindəki daxili bazar səviyyəsinə çatmaq yolunda isə çoxlu əngəllər hələ də qalmaqdadır).

Daxili bazarın formalaşmasına və səmərəli fəaliyyət göstərməsinə yaradıcı münasibət bəslənməsi son nəticədə ölkənin sosial-iqtisadi problemlərinin inkişafı üçün zəruridir.Onu təcrübədə reallaşdırmaq üçün bazarın əmtəə və xidmətlərlə doldurulması yolları düzgün təyin olunmalıdır. Daxili bazar vətən məhsulları ilə və idxal məhsulları ilə doldurula bilər. İEÖ-in daxili bazarlarının başlıca xüsusiyyətlərindən biri də onlann əsasən vətən məhsulları ilə zənginləşdirilməsidir. Məsələn, İEÖ-in ən güclüləri olan ABŞ-ın və Yaponiyanın daxili bazarlarının əmtəə təchizatının 90%-ə qədəri vətən məhsulları ilə  başa çatır. (yada salaq ki, ABŞ və Yaponiyada ixrac kvotası cəmi 10-15% təşkil edir).

## 1.8.Daxili bazarın göstəriciləri

Dünya iqtisadiyyatı elmində ölkələrin daxili bazarlannın həcmini, inkişaf səviyyəsini qiymətləndirmək üçün bir necə göstəricidən istifadə edirlər. Bunlardan geniş yayılmışı və nisbətən asan hesablanan ölkənin ÜDM-dur. Burada iki gösitəricidən - birincisi "ÜDM-ın ümumi həcmi" göstəricisindən və ikincisi "Adambaşına düşən ÜDM" göstəricisindən istifadə edilir, Bu göstəricilər üzrə dünya statistikası 50 aparıcı daxili bazar müəyyənləşdirir ki, bunun də əksəriyyəti inkişaf etmiş ölkələrdə formalaşıb. Valyutanın alıcılıq qabiliyyətinə görə hesablanan ÜDM-da vəziyyət dəyişir, yəni İEÖ-in mövqeyi nisbətən zəif görünür, lakin bu halda da dünyanın yüksək həcmli daxili bazannın çoxu İEÖ-in payına düşür.

Daxili bazarın həcmini və inkişaf səviyyəsini qiymətləndirmək üçün istifadə edilən "Əhalinin adambaşına düşən gəlir" göstəricisidir. Dünya statistikası bu göstəricinin orta qiymətini hesablayır və ayrı-ayrı ölkelərdə əldə edilən göstərici ilə müqayisə edir. Sonda bu göstərici də ÜMM-da öz əksini tapdığı üçün təhlili bu göstərici ilə davam etdirmək olar. Lakin qeyd edək ki, əhalinin gəlirləri baxımından 30 ölkə fərqləndirilir. İEÖ-in hamısı bura daxildir. Əyanilik üçün 13 saylı cədvəldə adambaşına düşən ÜMM-un səviyyəsi ölkələr qrupu üzrə verilmişdir.

Cədvəl 13

**1997 –ci ildə adambaşına ÜMM**

| Ölkələr və ölkə qrupları | Dünyada tutduqları yer | Adambaşına düşən ÜMM(ABŞ dolları ilə) O cümlədən valyutanın alıcılıq qabiliyyəti A.Nəzərə alınmadıqda B.Nəzərə alındıqda | |
|---|---|---|---|
| Dünya üzrə orta qiymət: | --- | 5130 | 6330 |
| O cümlədən A.Ölkə qrup-da | | | |
| a)Gəliri az olan ölkələrdə | --- | 350 | 1400 |
| b)Orta gəlirli ölkələrdə | --- | 1890 | 4550 |
| v)Yüksək gəlrli ölkələrdə | --- | 25700 | 22740 |
| B.Ölkələrdə | | | |
| Azərbaycan Respublikası | 96 | 510 | 1530 |
| Ermənistan | 95 | 530 | 2280 |
| Gürcüstan | 82 | 840 | 1980 |
| Rusiya Federasiyası | 51 | 2740 | 4190 |

| | | | |
|---|---|---|---|
| **ABŞ** | **6** | **28740** | **28710** |
| **Yaponiya** | **2** | **37850** | **23400** |
| **Almaniya** | **7** | **28260** | **21300** |
| **Fransa** | **11** | **26050** | **21860** |
| **B.Britaniya** | **15** | **20710** | **20520** |
| **İtaliya** | **17** | **20120** | **20060** |

Cədvəlin məlumatlarından görünür ki, inkişaf etmiş ölkələrdə adambaşına düşən ÜMM-ın dəyəri gəliri az olan ölkələrdəkinə nisbətən 6-12 dəfədən də çoxdur. Bu göstəricisi üzrə dünyada birinci yeri tutur. İkincisi yer Yaponiyaya, üçüncüsü – İsveçə , dördüncüsü-Norveçə, beşincisi-Danimarkaya, altıncısı- ABŞ-a,

Yeddincisi- Almaniyaya və s.məxsusdur. Ümumiyyətlə götürdükdə İEÖ-in hamısı dünyanın 50 aparıcı bazarına daxil olurlar.

“ Xidmət edilən istehlakçıların sayı” göstəricisi də bu və ya digər səviyyədə daxili bazarı xarakterizə edə bilər( əslndə burada söhbət ölkə əhalisinin sayından gedir). Lakin daxili bazarın həcmi və zənginliyi ilə əhalinin sayı arasında birbaşa əlaqə müşahidə edilmir. İEÖ-in əksəriyyəti əhalisi o qədər də çox olmayan ölkələrdir. Digər tərəfdən, aydın məsələdir ki, əhalinin sayı istehlakçıların sayını artırır. Söhbət burada adambaşına düşən istehlakdan getməlidir ki, o da İEÖ –də xeyli çoxdur. İstehlakçıların sayı isə bazarın ölçülərinə təsir göstərə bilər , zənginliyinə yox,daxili bazarın tutumu və zə zənginliyi isə ölkənin iqtisadi gücündən , dövlətin sosial siyasətindən asılı olur ki, İEÖ-də yüksək səviyyədədir.

### 1.9.İEÖ-in daxili bazarlarının xüsusiyyətləri.

İEÖ-in daxili bazarlarının bir sıra səciyyəvı xüsusiyyətləri vardır. Onlardan biri daxili bazarların əsasən öz istehsalları ilə və yaxud da inkişaf etmış qonşu ölkənin istehsalları ilə doldurulmasıdır. Bu İEÖ-ri

və xüsusən də Qərbi Avropa ölkələri arasında yaranmış iqtisadi əlaqələrin olması ilə əlaqədardır. İEÖ-de daxili bazara qiymət verərkən ölkə iqtisadiyyatının sahələri və bölmələri arasında formalaşmış nisbətlər, istehsal tələbi, istehlak tələbi, istehlakın tərkibi və xarakteri, bazarın pul münasibətlərinin inkişaf səviyyəsi (ölkə daxilində kredit öhdəlikləri və onların ÜDM-**a** görə nisbəti) də nəzərə alınır. Ölkələr inkişaf etdikcə daxili bazarın zənginləşməsinə, daha da inkişaf etməsinə, səmərəliliyinə prinsipcə yeni amil və şərtlər təsir göstərməyə başlayır. Söhbət burada hansı əmtəələr hesabına, hansı yollarla bazarı daha da inkişaf etdirməyin mümkünlüyündən gedir. Bu cəhətdən istehlakın strukturu, təklifin struktu, tələb və təklifın diversifikasiyalaşdırılması, şəxsi istehlak və onun tərkibi və quruluşunun dəyişməsi meyli, daha əlamətdardır. Məsələn, son dövrlər uzun müddət istifadə edilən istehlak mallarının sayı, tərkibi və quruluşu bazarın inkişafında və təkmılləşməsində həlledici rol oynayır. İEÖ-də avtomobillərə, məişət texnikasına (xüsusən fərdi kompüterlərə), mebellərə, qiymətli daş-qaşlara, idman qurğularına, kitablara olan tələbat artmışdır. Bir sıra İEÜ-də fərdi kompüterlər kütləvi istehlak malları sırasına daxil olmuşdur. Amerikada və İngiltərədə ev təsərrüfatlarının uyğun olaraq üçdə birində və dörddə birində fərdi kompüterlərdən istifadə edılir. Bundan başqa, İEÖ-də istehlak teləbinə mühüm yeri yaşayış evləri tutur. Bu cür yüksək səviyyədə inkişaf edən daxili bazarda istehlak tələbının tərkibində xidmət əmtəəsi sürətlə artır (bax cədvəl 14). Təhlil göstərir ki, xidmət sferasının artması bütün İEÖ-də müşahidə edilir. Qeyd edək ki, istehlak tələbinə, şəxsi istehlakın səviyyəsinə, tərkibinə və strukturuna əhalinin gəlirləri, məşğulluq səviyyəsi, varlanma səviyyəsi kimi amillər güclü təsir göstərir.

**Cədvəl 14**

**İEÖ-də şəxsi istehlakın strukturu (%-lə)**

| | ABŞ | | B.Britaniya | | Yaponiya | |
|---|---|---|---|---|---|---|
| | 1982 | 1995 | 1982 | 1995 | 1982 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qida məhsulları | 19,4 | 15,1 | 26,2 | 19.5 | 23,6 | |
| Geyim, ayaqqabı | 5,8 | 5,2 | 6,4 | 5,8 | 7,0 | |
| Ev-eşik, kommunal xidmətlər | 17,0 | 14,1 | 22,2 | 19,3 | 18,3 ' | |
| Nəqliyyat, rabitə | 8,4 | 8,9 | 4,4 | 5,1 | 10,1 | |
| Mebel, məişət texnikası | 14,6 | 14.5 | 2,1 | 1,8 | 5,8 | |
| Digər məhsullar və xidmətlər | 34,8 | 42,2 | 38,6 | 49,6 | 34,6 | |

## §2. YAPONİYANIN İQTİSADİYYATI

### 2.1 .Dünya iqtisadiyyatında yeri

Dünya ölkələri arasında özünəməxsus xarakterik cəhətləri olan Yaponiya Dünya iqtisadiyyatında mühüm rol oynayır. İkinci dünya müharibəsində məğlub olan Yaponiya ilk illərdən başlayaraq böyük iqtisadi, sosial, texniki, texnoloji, mədəni nailiyyətlər əldə edib. Əhalisi dünya əhalisinin heç 0,5%-ni də təşkil etməyən ölkə dünyanm ÜDM-nun (ahcılıq qabiliyyətinə görə) 7%-ə qədərini istehsal edir. Əhalinin hər nəfərinə düşən məhsul 1999-cu ildə 37850 dollar təşkil etmişdir. Bu göstərici üzrə Yaponiya ancaq İsveçrədən, ABŞ-dan, Luksemburqdan, Sinqapurdan və Norveçdən geri qalır.

Yaponiyada on yüksək məşğulluq əldə edilmişdir. İşsizlik norması 1970-ci illərdə cəmi 2-2,8% təşkil edirdi. XXI əsrin ilk illərində isə bıı göstəricinin səviyyəsi ancaq 3%-i ötə bilib. Bu orta dünya səviyyəsindən 2-8% aşağıdır. Yaponiyanın iqtisadi potensialı ABŞ iqtisadi potensialnın 60%-dən çoxunu təşkil edir. Cari valyuta kursu ilə hesabladıqda Yaponiyanın ÜDM-nın həcmi Çin kimi nəhəng bir dövlətin ÜDM-undan 4 dəfə çoxdur. Şərqi Asiyanın bütün ölkələrinin ÜDM-nun 70%-i Yaponiyanın payına düşür.

Yapon iqtisadi inkişafında bir sıra əlamətdar cəhətlər var ki, ondan bütün dünya ekspertləri və iqtisadçıları maraqla izləyirlər. Məsələn, Yaponiya dünyada yeganə ölkədir ki, burada balanslaşdınlmış inkişaf modeli praktikada reallaşdırılıb. 1952-ci il Yaponiyada ÜMM-ın 5% artım sürəti ilə başa çatmışdı. 1960-ci illərdə ÜMM-ın orta illik artımı 10% qədər çatırdı. Bu cür çox yüksək artım sürətindən • sonra (1973-1990 illər) surət nisbətən azaldı və ÜMM orta illik artımı 5%-ə qədər oldu. 1990-cı ildən başlayaraq ÜMM inkişaf etmiş sənaye ölkələrinə xas olan dayanıqlı, lakin nisbətən aşağı (orta hesabla ***2-3%)*** sürətlə artmağa başladı. Lakin inkişafın bu pilləsində 1990-cı illərin əvvəlində dünya iqtisadiyyatında baş verən dördillik depressiya Yapon iqtisadiyyatına da təsir göstərdi və nəticədə 1992-ci ildə sənaye istehsalı 8% azaldı. 1993-cü ildə Yaponiya iqtisadiyyatında sıfır inkişaf qeydə alındı. 1994-cü ildə inkişaf 0,6% oldu. 1996-cı ildən isə yenidən iqtisadi inkişaf başlamışdır. Beləliklə də, Yaponiya yüksək inkişaf etmiş ölkələrin iqtisadi inkişati iiçiin səciyyəvi olan yüksəliş sürətinə nail olmuşdur və bu inkişaf davam edir.

## 2.2. Dünya iqtisadiyyatına təsiri və onun əsas istiqamətləri

Belə təsirlərdən biri Yaponiyanın bank sistemi vasitəsilə həyata keçirilir. Dünya miqyasında həyata keçirilən təhlil-tədqiqat işlərinin müəllifləri təyin etmişlər ki, aktivin məbləğinə görə dünyanın 10 iri bankının 9-u Yaponiyanındır. Bu banklar biitiin dünya iqtisadiyyatının maliyyə sisteminə güclü (mənfı və müsbət) təsir göstərmək qabiliyyətinə malikdirlər. Dərc edilmiş məlumatlara görə ölkənin qızıl-valyuta ehtiyatı 130 milyard dollara qədərdir. Bu ölçüdə maliyyə ehtiyatı olan ölkədə baş verən hər hansı, hətta kiçik bir maliyyə çatışmamazlıqları digər ölkələrin iqtisadiyyatına güclü mənfı təsir göstərir. 1998-ci ildə kəskinləşən maliyyə krizisi (səbəbi aksiyalann və yapon valyutasının aşağı düşməsi idi), yapon iqtisadiyyatını çox geri saldı. Eyni zamanda bu krizisin mənfi təsiri Cənub-Şərqi Asiyaya dəydi. Bu misal göslərir ki, bir ölkədə gedəıı proseslər həmişə dünya iqtisadiyyatına təsir edir. Söhbət burada ancaq o təsirin mənfı və yaxud miisbət olmasından getməlidir.

Yaponiya insan amilindən (indi bunu insan resursu və kapitalı adlandırmaq meyli giiclüdür) bacarıqla istifadə etmək, məhsulun keyfıyyətini yüksəltmək, mehriban cəmiyyət (125 milyondan çox ehalisi olan Yaponiyanı "böyük və dost ailə" adlandırılır) yaratmaq yolu ilə yüksək sosial-iqtisadi nailiyyətlər əldə etməyin mümkiin olduğu haqda çox gözəl təcriibəyə malik ölkədir. Bu təcrübə vasitəsilə o.diinya iqtisadiyyatına güclü təsir göstərır. Məhz "bu təcrübənin təsiri altında Yaponiyanın uzaq-yaxın qonşuları olan Cənubi Koreya, Tayvan, Tailand, Sinqapıır və s. kimi ölkələr qısa müddətdə böyük iqtisadi nailiyyətlər əldə etmişlər. Ümumiyyətlə götürdükdə dünyanın biitün ölkələri Yapon təcrübəsini öyrənməkdə maraqlıdırlar. Yapon təcrübəsi dünya ölkələri üçün, onların inkişafı üçiin həmişə örnək ola bilər. Hələ 1960-cı illərdə sənayeləşmə prosesi Yaponiyanı ABŞ və Qərbi Avropadan sonra dünyada üçüncü iqtisadi güc mərkəzinə çıxardı. Hazırda bir iqtisadi güc mərkezi kimi Yaponiya Asiya ölkələrini özünə çəkir. Qonşu ölkələr həг vasitə ilə yüksək texnologiyaya, qabaqcıl təcrübəyə yiyələnmək üçün Yaponiyaya üz tuturlar. Faktiki olaraq Yaponiya və Asiya ölkələri arasında dayanıqlı ticarət bloku yaranmışdır.

## 2.3.Yapon iqtisadiyyatının daxili enerjiləri

Məhsulların və xidmətlərin keyfıyyətinin yüksəldilməsi sahəsində demək olar ki, heç bir ölkədə olmayan bacarıq Yaponiyanın daxili enerjilərindəndir. Əslində rəqabət dözümlü məhsul istehsal etmək və onu dünya bazarına çıxarmaq hökumətdən tutmuş firmaların adi işçilərinə qədər bütün yaponların və yapon dövlətinin sosial-iqtisadi inkişaf proqramlarımn məğzini təşkil edir. Məsələyə bu cür yanasmağın əsası Yaponiyada 1953-cü ildən sonra, ölkə müstəqillik əldə etdikdən sonra qoyulmuşdur. İl ərzində yüzlərlə təbii fəlakətlərlə (zəlzələ və s.) qarşılaşan, özünün məhdud təbii resurslan olan Yaponiya öz qurtuluş yolunu insan resursunda, ağılda, zakada, elmdə, qabaqcıl texnika vo texnologiyalar yaratmaqda gördü. Bu məqsədlə ilk növbədə beyinlərdən səmərəli istifadə edilməyə başlanıldı. "Keyfıyyətli məhsuldan da keytiyyətli məhsul istehsal etmək olar" şüarı bütün yaponluların şüarına

çevrildi. Keyfıyyətli məhsul istehsal etmək, onun yaxşı idarə edilməsini tələb edir. Bu ideyanın müəllifı Amerikanın məşhur mütəxəssisi doktor A.Feyqenbaumdur. Yapon professoru İsikova Kaoru isə yapon xalqına məxsus üsul işləyib hazırladı və həyata keçirdi. Keyfıyyətin yüksəldilməsi üzrə qabaqcıl ideyalarına yüksək qiymət verməklə yanaşı o göstərdi ki, yüksək keyfıyyət əldə etmək üçün doktor A.Feyqenbaumun təklif etdiyi keyfiyyət üzrə ixtisaslaşmış mütəxəssislər qruplarının yaradılması və keyfiyyətə nəzarət etməsi dünya bazarında rəqabətə dözə bilən məhsul istehsal etmək üçün kifayət deyildir. Professor İsikovanın təklif etdiyi üsula görə keyfıyyətin idarə edilməsi üsulunun öyrənilməsində, inkişafında, reallaşdırılmasında firmanın bütün strukturları və bütün işçiləri fəal iştirak etməli idilər. Həqiqətdə də belə oldu.

Yaponiyada məhsulun keyfıyyətinin idarə olunmasına bütün yapon xalqı cəlb edildi. Nəticədə bu gün dünyada istehsal edilən hər hansı bir ən keyfiyyətli məhsuldan da keyfıyyətli məhsul istehsal etmək Yaponiya üçün problem deyildir. Yüksək keyfıyyətli məhsul ilə (Yaponiya diinya iqtisadiyyatina digər ölkələrlə müqayisədə daha səmərəli və güclü müsbət təsir göstərir. 1970-ci illərin axırında Yaponiya avtomobil, televizor, foto vo kinotexnika, inteqral sxemləri, məişət elektrotexnikası kimi kütləvi istifadə edilən məhsulların keyfiyyəti cəhətdən dünyada lidecrliyi ələ almışdı. Yüksək keyfıyyətli məhsul istehsalın həcmini artırmağa imkan verirdi. Belə ki, 1980-ci illərdə Yaponiya dünyada istehsal olunan rəngli televizorların 40%-ni, tranzistrli radioqobuledicilərin dörddə birini, videomaqnitofonların 90%-ni istehsal edirdi. Yapon məhsullari hazirda da dünya bazarında Amerikada və Qərbi Avropa ölkələrində istehsal edilən məhsullari sıxışdırmaqda davam edir. «Bu nəticələr necə əldə edilir?» sualı ilə bütün ölkələr , maraqlanırlar, yaponluların üsullarını öyrənirlər və istehsala tətbiq edirlər. Yaponiya hazırda bütün dünya üçün canlı məktəbdir. Bu , insan amilindən istifadə etməklə böyük nailiyyətlər əldə etməyin mümkünlüyünü sübut edən məktəbdir. Bu tək bir mütəxəssisinə güvənib iqtisadi inkişafa nail olmağın qeyri-mümkünlüyünə parlaq misaldır. Yaponiya hökuməti öz təcrübəsində sübut etmişdir ki, ölkənin iqtisadiyyatını burada yaşayanların hamısının əməyini elmi surətdə təşkil etməklə inkışaf etdirmək olar.

İkinci dünya müharibəsindən sonra Yaponiyanın iqtisadi inkişafının başlıca amili ölkənin elmi-texniki potensialı olmuşdur. İqtisadiyyatın bütün sahələrində elmi-texniki potensialın keyfiyyət və kəmiyyətcə inkişaf etdirilməsi nəticəsində Yaponiya diinya iqtisadiyyatmda görkəmli yer tuta bilmişdir. Yaponiyanın bir ölkə kimi xarakteristik cəhəti elmi-tədqiqat və təcrübə-layihə işlərinə çoxlu vəsait xərcləməsidir. 1970-ci illərin birinci yarısında bu xərclərin artım sürəti 2,8% təşkil etmişdir. Həmin dövrün ikinci yarısında bu surət artıb 5,4%, 1980-ci illərdə isə 8%-ə çatdı. Yeni XXI əsrin ilk illərində də bu sürət saxlanılır.

## 2.4.Yapon elmi-texniki siyasətinin mahiyyəti

Hazırda Yaponiya elmi-tədqiqat və təcrübə-layihə işlərinə çəkilən xərclərin miqdarına görə dünya ölkələri arasında ABŞ-dan sonra ikinci yerdə gedir. Bu çox böyük müvəffəqiyyətdir. Onun əldə edilməsində Yaponiyanın ancaq özünə məxsus olan elmi-texniki strategiyası həlledici rol oynamışdır. Yaponiyanın elmi-texniki strategiyasının gücü ondadır ki, elmi və texniki potensial vətənini sevən hüqiqi alimlər tərəfindən hazırlanır, həyata keçirilir. Bir qayda olaraq belə strategiyalar elm tutumluqluları və innovasiyaya söykənmələri ilə fərqlənirlər. Yapon elmi-texniki strategiyasının tərtib edilməsi, Yapon iqtisadiyyatının inkişafı ilk növbədə firmaların çevikliyini, istehsalın uyuşqanlılığını və ən başlıcası ise iqtisadiyatın müxtəlif sahələrinin müəssisələri arasında elmi-texniki və sənaye-satış siyasəti üzrə six əlaqələrin olmasını nəzərdə tıtur. Görkəmli Yapon alimi M.Moritani bu məsələlərdən bəhs edərək strategiyanın formalaşmasında variantlılığa, yəni bütün mümkün variantları ortaya çıxarmaq və sonda hamısını nəzərə almaq və təcrübədə onlardan milli iqtisadiyyatın inkişafı naminə istifadə edilməsinə xüsusi diqqət yetirilməsini təklif etmişdir. Məsələn, dərc edilmiş əsərində M.Moritani hazır məhsul və texnologiya üzrə xarici ticarətin uyğunlaşdırılmasının səkkiz variantmı verir. Variantların çox olması onunla əlaqədardır ki, hər iki ticarət növü "ixrac", "idxal" və “ixalın olmaması” halları ilə xarakterizə oluna bilərlər. Bütün halları nəzərə almaq, ixracın mümkün variantlarını işləyib hazırlamaq və onları praktikada istifadə olunma həddinə çatdırmaq böyük elmi məharət tələb edir. Bu elmin öhdəsindən Yapon alimi M.Moritani bacarıqla gəlib.

Yapon elmi-texniki strategiyasının dünya iqtisadiyyatındakı rolunu nəzərə alaraq bu variantlan qısaca nəzərdən keçirək.

**Variant** 1. Xaricdən ancaq hazır məhsul alınır. Bu məhsulla əlaqədar olan texnologiya (yəni lisenziyalar və digər elmi-texniki və istehsal sənədləri) üzrə alış təşkil edilmir (Yaponiya məhz bu variantdan istifadə edib ABŞ-dan iri sərnişin təyyarələri alırdı).

**Variant** 2. Həm məhsul və həm də bu məhsul ilə əlaqədar olan texnologiya idxal edilir. Bu variantda aydın görünür ki, ölkə hazır məhsul idxalından can qurtarmağa çalışır, öz iqtisadi vəziyyətini yaxşılaşdırmaq və iqtisadi təhlükəsizliyini yüksəltmək istəyir. Özünün poladtökmə və kimya sənayesinin inkişafında sınaqdan keçirilən bu variantda Yaponiya istehsal avadanlıqlarını və onların texnologiyasını almağa Üstünlük verirdi. Nəticədə əldə edilən lisenziyalara əsasən ölkənin özündə müxtəlif sistemlər və komponentlər isteiısal edilərək alınan avadanlıqlar modernləşdirilirdi. Məhz bu yolla Yaponiya 1950-1960-cı illərdə istilik və sonradan atom elektrik stansiyalannın inkişafını təmin edə bildi.

**Variant**3. Xarici ölkələrdən ancaq texnologiya alınır. Hazır məhsul isə idxal edilmir. Əldə edilən texnologiya əsasında istehsal edilən məhsul daxili tələbatların ödənilməsinə yönəldilir və tələbat tam ödənilir. Bu variantdan istifadə edən Yaponiya 1950-ci illərdə bir çox ağ-qara televizorlar, neylon, tranzistr radioqəbulediciləri kimi kütləvi istifadə edilən məhsulların istehsalını mənimsəyə bildi. 'Avtomobilqayırma sənayesində də bu yoldan istifadə edilirdi. Belə ki, "Nissan" firması "Ositin" adlı ingilis fırmasının, "İsuduzu" fırması "Xillman" adlı ingilis firmasının, "Xino" firması "Reno" adlı fransız firnıasının və "Mitsubişi dzukoy" firması "Villis" adlı Amerika firmasının lisenziyalarını alıb onlardan aktiv istifadə edirdilər, istehsal etdikləri avtomobillərin rəqabət dözümlülüyünü artırdılar.

Variant **4.** M.Moritaninin dördüncü variantı əvvəlkindən onunla fərqlənir ki, əldə edilən texnologiyalardan istifadə etməklə istehsal edilən məhsulun getdikcə artan hissəsi ixrac edilir. Burada cəlbedici cəhət daxili bazarın tələbatını ödəyərkən məhsulların keyfıyyətinin yaxşılaşdırılması və onların dünya standartlarına tam cavab verməsi səviyyəsinə çatdırılmasıdır. Məhz bu cəhət ölkəyə imkan yaradır ki, daxili bazarın tələbatından artıq istehsal baş versin və "artıq" məhsul

dünya bazarı rəqabətinə davam gətirsin və satılsın. Bu variantdan istifadə edən Yaponiya televizorların, neylon məhsullarının keyfiyyətini ABŞ və İngiltərədə o vaxtlar qüvvədə ola standartlara çatdıra bildi və artıq 1950-ci illərin axırında dünya bazarında özünəməxsus yer tuta bildi.

**Variant5**. Bu variantda texnologiya üzrə ticarət edilmir. Hazır məhsul isə geniş ixrac edilir. Deməli, bu variant göstərir ki, ölkə elmi-texniki potensial cəhətdən inkişaf etmiş ölkələr səviyyəsinə çatıb və bir sıra məsələlərdə isə onları ötə bilib. Belə olmasa rəqabətin gücü olduğu dünya bazarında yer tutmaq mümkün ola bilməzdi. Məhz bu variantın istifadəsi nəticəsində Yaponiya 1960-cı illərdə mikrokalkulyatorlarm, videomaqnitofonların istehsalı və ixracı sahəsində böyük müvəffəqiyyətlər əldə etmişdi. İnkişaf o səviyyədə idi ki, bu məhsullar üzrə istehsalın 80%-dən çoxu ixrac edilirdi.

**Variant** 6. Bu variantın xarakterik cəhəti ölkənin texnologiya və bu texnologiya ilə istehsal edilən məhsulu ixrac etməsidir. Bu dövrdə Yaponiya artıq poladtökmə müəssisələri üçün avadanlıqları və müvafiq sənədlər ixrac edirdi. Yapon avtomobilləri yığılmamış halda, lakin yığma texnologiyası ilə birlikdə ixrac edilirdi. Robot texnologiyası üzrə texnologiyanın geniş ixrac edilməsi ilə yanaşı 1980-cı illərin əvvəlindən başlayaraq sənaye robotlarının özləri ixrac edilməyə başlandı.

Variant 7. Ancaq texnologiya ixrac edilir. Əvvəllər ölkə sənayesində sınaqdan keçirilmiş texnoloji prosesin sənədləri xarici ölkələrə satılır. Müvafıq məhsul isə ixrac edilmir. Müasir dövrdə Yaponiyanın maşınqayırma sənayesinin və kimya sənayesinin bir çox məhsulları bu varianta uyğun gəlir.

Variant 8. Bu variant bir növ qeyri-adi təsir buraxır. Əsasını texnologiyanın ixracı və ona uyğun məhsulun idxalı təşkil edir. Buna baxmayaraq variant geniş istifadə edilir. Texnologiya adətən inkişafda olan ölkələrə ixrac edilir. İxracı qəbul edən ölkəyə lazım olan bütün texnoloji və istehsal sənədləri təqdim edilir və bu və ya digər məhsulun istehsalı təşkil edilir. Sonra Yaponiya bu məhsulu idxal edir. Bu üsulla alınan məhsullara misal müxtəlif növ poladlar, ayrı-ayrı radioelektrik hissələr və komponentlər, kimya sənayesi' məhsulları kimi məhsullar daxildir. Variantın iqtisadi səmərəsi oradan əmələ gəlir ki, əgər bu məhsullar Yaponiyanın özündə istehsal edilsə idi, onda istehsal xərcləri

çox olardı. Heç olmasa ona görə ki, Yaponiyada əmək haqqı o texnologiyanın ötürüldüyü ölkədəkindən daha yüksəkdir. Bundan başqa, Yaponiya xammal çatışmazlığı və ekologiyanın korlanması problemləri ilə qarşılaşa bilərdi.

## 2.5. İnsan amili Yapon iqtisadi inkişaf modelinin başhca xüsusiyyətidir.

Bu gün Yaponiya mahiyyətini qısaca şərh etdiyimiz bütün variantlardan bacarıqla, vaxtı gələndə, elmi əsaslandırmalarla, müxtəlif üsul və yanaşmaları təcrübədən keçirməklə və ən başlıcası qarşıya qoyulan sosial-iqtisadi məsələlərin həlində insan amilindən bacarıqla istifadə etməklə elmi-texniki tərəqqi sahəsində dünya əhəmiyyətli nailiyyətlər əldə etməkdə davam edir. Lakin Yaponiyanın yaratdığı, dünya iqtisadiyyatına bəxş etdiyi, mütəxəssislərin sözü ilə desək "Yapon möcüzəsi"nin əsasını, mahiyyətini, əsas amilini, iqtisadi inkişafının daxili enerjisini İnsan və ona **QAYĞl** təşkil edir. Yapon hökümətində və yapon kompaniyalarında hər cür texniki, texnoloji, siyasi, mənəvi, iqtisadi və s. məsələlərin həllində insan həmişə ön planda durur. Əməyin ödənilməsi motivləri elə dəqiqliklə və ağılla təyin edilib ki, yaponiyada işindən və əmək haqqı səviyyəsindən narazı qalanlar demək olar ki, yoxdur. Bunu dünya ekspertlərinin apardıqları sosioloji tədqiqatlar da sübut edir. Yaponiyada və ABŞ-da aparılan bir sorğunun nəticəsi göstərib ki, Amerika fəhləsi üçün işlədiyi firma o qədər də əhəmiyyət daşımır, firma ona ögey təsiri bağışlayır. Yapon fəhləsi üçün isə işlədiyi firma hər şeydir və o onu özünə doğma hesab edir. "Siz firmanızın inkişafı haqqında düşünürsünüzmü?" sualına verilən cavab da Yaponiyada insana qayğının yüksək olduğunu təsdiqləyir. Belə ki, Amerikada soruşulan fəhlələrin cəmi 12% sorğu qismində göstəriblər ki, işlədikləri firmanın taleyi həmişə onları düşündürür və çalışırlar ona kömək göstərsinlər. Yaponiyada bu cür cavab verən fəhlələrin xüsusi

çəkisi isə 61 faiz təşkil etmişdir. Təsəvvür edin ki, fırmanın 61 faiz işçisi firmanı özününki hesab edir, öz evi kimi onun qayğısına qalır. Bu cür vəziyyətin iqtisadi və sosial səmərəsi milyonlarla hesablana bilər. İqtisadi səmərə isə işçilərin, fəhlə və qulluqçuların fəallığının artması ilə meydana gəlir: onlar əməliyyatları daha dəqiq yerinə yetirirlər, daha tez-tez əməli səmərələşdirici təkliflər verirlər, ixtiraçılıqla məşğul olurlar, istehsaldaxili ehtiyatlardan maksimum istifadə edirlər. Yaponiya hökumətinin səy və bacarığı, formalaşmış mükkəmməl tənzimləyici mexanizmi nəticəsində firmalar fəhlələrə qayğını artırırlar, əməyi həqiqi mənada düzgün stimullaşdırırlar. Yapon fəhləsi, qulluqçusu, mühəndisi firma basçısının gözündən yayına bilməz. O, hətta illik maaşı qədər mükafat ala biləcəklərinə əmindirlər.

Sənaye biznesinin ictimai təşkilatlarla, dövlət idarələri ilo və bank kapitalı ilə əlaqələri elə dəqiqliklə işlənib hazırlanmışdır ki, əlavə vaxt aparan, insanları əsəbi edən mübahisələrə görə qarşılıqlı İttihamlara yer qalmasın. Məsələn, fırmanın rəhbərliyi sosial-iqtisadi, tərbiyəvi, texniki, texnoloji, istehsal tədbirlərini ictimai təşkilatların (həmkarlar ittifaqları və s.) bilavasitə iştirakı ilə həyata keçirir ki, sonradan heç bir söz-söhbət olmasın. Məsələyə bu cür yanaşmaq bütün tərəflərin istək, arzu və təklifərini nəzəro almağa və istehsalda sağlam sosial-psixoloji mühit formalaşdırmağa imkan verir. Nəticədə işçilərin əmək məhsuldarlığı yiiksəlir, əmək intizamı və istehsal vasitələrindən istifadə yaxşılaşır. Bununla da yapon hökuməti iqtisadi və texniki tərəqqini təmin edə bilən ictimai qüvvələr formalaşdıra bildiyini bütün diinyaya sübut etmişdir.

Yaponiyada iqtisadi inkişafı və texniki tərəqqini sürətləndirən düşünülmüş bir idarəetmə mexanizmi yaradılmışdır. Bütün digər məsələlər də bu mexanizmin əsas məqsədinin – ölkənin yüksək səviyyədə sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasının - həyata keçirilməsinə yönəldilir. Kadr hazırlığında, mülkiyyətin forması məsələsi həll edildikdə, elm və texnika inkişaf etdirildikdə, yeni yaşayış əraziləri salınanda, idarəetmə təkmilləşdirildikdə və s. bu kimi məsələlərin həllində ölkənin əsas məqsədi birinci növbədə nəzərə alınır. Elm Yaponiyada istehsala (xüsusən sənaye istehsalı ilə) six inteqrasiya şəklində inkişaf etdirilir. Təsadüfı deyildir ki, ETLTİ çəkilən xərclərin 70%-ə qədəri sənayenin payına düşür. Bütün qəbildən olan ETİ-i əslində sənayenin sifarişi əsasında işləyirlər.

Yaponiya dövləti dünyanın digər ölkələri üçün nümunədir. Heç ABŞ və Almaniya hökumətləri hələlik belə səmərəli hökumət formalaşdıra bilməmişlər. Ərazi cəhətdən, təbii resurslar baxımından ABŞ-a və Qərbi Avropa ölkələrinə nisbətən çox az xüsusi çəkiyə malik Yapon dövləti dünyada iqtisadi, sosial və texniki inkişafın əsl katalizatoruna çevrilə bilmişdir. Nəticədə mütəxəsislərin adlandırdığı kimi, «yapon korporasiyası» - sənaye firmalarının, bankların, həmkarlar ittifaqlarının və dövlətin birliyi adlanan çox səmərəli mexanizmə malik birliklər - meydana gəlmişdir. Bu cür korporasiyalar dünyanın bütün ölkələri ilə rəqabət aparmağa və qalib cıxmağa qadirdirlər. Bu cür nəhəng korporasiyalarda daxili ziddiyyətlər, çəkişməlrin olması ehtimalları sıfra **ya**xınlaşır. Müvəffəqiyyət də elə buradan meydana çıxır.

Yaponiyanın insan amlindən (insan kapitalından) istifadənin yaxşılaşdırılmasına yönələn tədbirlər içərısində ETLTİ-nə çəkilən xərclər mühüm yer tutur. Bu göstəriciyə görə Yaponiya dünyada ABŞ-dan sonra ikinci yerdə gedir. Elmi işçilərin sayı burada böyük Britaniya, Fransa və Almaniya kimi dövlətlərdəki elmi işçilərin birgə sayından çoxdur. Biznes səyinin dövlət tənzimlənməsi ilə yüksək səviyyədə uyğunlaşdırılması məsələsi də Yaponiyada, demək olar ki, hamıdan yaxşı həll edilib. Bu həm də daxili bazarın savadlı qorunması üçün yaxşı şərait yaradır. Dövlət nə edirsə o ilk növbədə azad və bır-biri ilə rəqabətdə olan sahibkarların maraqlarını qoruyur, sahibkarhğın bütün növlərinin çiçəklənməsi qayğısına qalır, məcmuu əməyin səmərəsi haqqında düşiinür, əhalinin korrupsiya və rüsvətxorluq yolu ilə varlanmasına yox, əməyindən düzgün istifadə edilməsi yolu ilə varlanmasına çalışır.

## 2.6. **Yapon iqtisadi inkişaf modeli və onun əsas cəhətləri**

Yaponiyanın bir yarımsistem kimi dünya iqtisadiyyatında tutduğu yer, əldə etdiyi sosial-iqtisadi inkişaf və onun yüksək sürəti bir çox cəhətdən ölkədə formalaşmış iqtisadi və sosial inkişaf modeli ilə izah edilməlidir. Yaponiyada formalaşmış təsərrüfatçılıq mexanizmini diqqətlə öyrəndikdə əmin olmaq olur ki, burada hər bir kiçik və ya

böyük məsələnin həllinə yaradıcı münasibət bəslənilir. İnkişaf modeli elə diqqətlə qurulmuşdur ki, son noticədə insan tələbatlarının ödənilməsi mümkün olsun, iqtisadiyyat intensiv inkişaf etsin, sosial ədalət bərqərar olunsun.

Yapon iqtisadi inkişaf modelində məşğulluq məsələsi həmişə birinci yerdə durur. Bu məsələnin həllində Yaponiya kiçikə sahibkarlığın dönmədən inkişafı qayğısına qalmaq üsulundar istifadə edir. Ailə tipli xüsusi müəssisələr iqtisadiyyatın bütün sahələrində və hətta emal sənayesində və tikintidə geniş yayılmışdır. Sahibkarlıqda kiçik, orta və iri (nəhəng) müəssisələri fəaliyyət göstərir və onların arasındakı nisbətlər obyektiv amillər və dövlətin apardığı sosial siyasət əsasında formalaşır. Kicik, lakin sosial baxımdan sərfəli olan biznesə hər cür qayğı göstərilməsi məşğulluğu təmin edir və əhalidə sahibkarlıq hissini artırır. Kənd təsərrüfatında xırda kəndli təsərrüfatlarına xüsusi fıkir verilir. Dərc olunmuş ədəbiyyatlarda ölkədə 2 milyon 600 min belə xırda təsərrüfatların olduğu göstrilir. Məhz buna görə də yapon kənd təsərrüfatı muzdlu əməkdən demək olar ki, istifadə etmir.

Iqtisadiyyat elmində və tosərrüfatçıhq təcrübəsində həmişə mühüm məsələlərdən biri xalq təsərrüfatının ayrı-ayrı sahələrində iri, orta və xırda müəssisələrin sayı və onlar arasında nisbətlər, məsələsi olmuşdur. XX əsrin əvvəllərində konsernlər və iri firmaların meydana golməsi və güclü iqtisadi səmərə verməsi nəticəsində bir çox ölkələr iri müəssisələr fermalaşdırmaqla məşğul oldular.Yaponiya 1950-ci illərdə bu yanaşmadan imtina etdi VM məsələyə daha yaradıcı münasibət bəslədi. Bu gün Yaponiya iqtisadiyyatında fəaliyyət göstərən iqtisadi inkişaf modeli xırda; müəssisəİərin iriləri tərəfindən udulmasını (Qərbdə olduğu kimi) yox, onlann iri müəssisələrə tabe edilməsini nəzərdə tutur. Məhz bunun nəticəsində Yaponiyada bu gün əslində bir dənə də olsun vahid hüquqi şəxs statusuna malik iri sənaye kompaniyası yoxdur. Yapon təsərrüfatçılıq sisteminin nəhəngliyi, yenilikçiliyi ölkədə iri kompaiyalarla xırda və orta müəssisələrin üzvi birliyi olan xüsusi qruplann - "keyretsu"ların fəaliyyət göstərməsindədir. İri kompaniyalar xırda vo orta müəssisələrlə müxtəlif xarakterli əlaqələrlə əlbəttə ki, ilk növbədə istehsal əlaqələri ilə bağlı olurlar.

Bu əlaqəlor isə baş firmalar tərəfındən təyin edilir. Nəticədə Qərb ölkələrində fəaliyyət göstərən ikili quruluşun əvəzində (bazar-

müəssisə). Yapon iqtisadi sistemində 4 quruluş (bazar-müəssisələr qrupu- müəssisənin özü) fəaliyyət göstərir. Bu cür quruluş insanları bir-biri ilə dostlaşdırır, sosial gərginliyin meydana gəlməsinə imkan yaratmır, məşğulluğun səviyyəsini yüksəldir. "Keyretsu" tipli iri korporasiyaların fəaliyyət göstərməsi isə Yaponiyada əldə olan əmtəələrin azad bazarda müəssisə qrupları arasında fəaliyyət göstərən qruplararası bazarın meydana gəlməsinə səbəb olmuşdur. Azad bazardan fərqli olaraq qruplararası bazarda uduzan olmur. Qruplararası bazar hamiya sərfəli olan bazardır.

Yapon iqtisadi və sosial inkişaf modelinin fərqləndirici xüsusiyyəti, artıq qeyd etdiyimiz kimi, kiçik və böyüklüyündən asılı olmayaraq bütün məsələlərə yaradıcı münasibət bəslənilməsidir. Biz bu cəhəti dövlət büdcəsinin formalaşdırılmasında, xərclənməsind və vergi ahnmasında da görürük. Dövlət büdcəsinin gəlir hissə[L] sinin əsasını birbaşa vergilər təşkil edir. Verginin strukturunda əsas yeri (bütün vergi daxilolmaların 42%-ə qədəri) əhalinin gəlirlərindən, qəyyumluq və bağışlamalardan əldə edilən gəlirlər tutur. İkıncі yerdə istehsal durur. Müəssisələrin mənfəətindən olan vergi isə Dövlət büdcəsinin 26%-ni təşkil cdir. Bu rəqəmlər iqtisadiyyatın sağlamlığından, müəssisələrin işləməsindən, əhalinin yüksək məşğulluğundan xəbər verir. Yəni burada yanaşma çox sadə "Qazan və dövləti də saxla" prinsipi əsasında qurulmuşdur. Qazanmaq üçün şəraiti isə ilk növbədə Yapon hökuməti yaradır. Yapon möcüzəsinin meydana gəlməsinin əsas səbəblərindən biri və demək olar ki, başlıcası məhz bundan – dövlətin öz _xalqına əsl atalıq qayğısından ibarəidir,

Bütün ölkələrdə problem xarakterli məsələlərdən biri vergilərin vaxtında və tam toplanması məsələsidir. Bu məsələ də Yaponiyada yaradıcılıqla həll edilir. Hökumət calışır ki, könüllülük prinsipi qorunsun. Bundan ötrü Yaponiyda vergi yığmaqla məşğul olanların iş üsulları təyin edilib. Bu üsullara görə vergi departamentində çalışanlar üç hissəyə bölünür. Birinci qrup verginin ölkədə -oynadığı rolunu və hansı istiqamətlərdə xərcləndiyini vergi ödəyənlərə izah etməklə məşğuldurlar. İkinci qrupun vəzifəsinə vergi ödəyənlərə daha sərfəli ola biləcək istehsal təsərrüfat fəaliyyətləri ilə məşğul olmaq və nisbətən az vergi ödəmək yolları haqqında məlumatlarla əsaslandırılmış təklif və məsləhətlər verilməsi daxildir. Bu cür yanaşmalar vergi ödəyənlər

arasında patriotluğu, şüurluluğu, məsuliyyətliliyi artırır və nəticədə vergini könüllü olaraq namusla, vaxtında ödəyənlərin sayı artır. Vergi departamenti işçilərinin ancaq üçüncü qrupu yerdə qalan «çətin adamlardan» vergi toplamaqla məşğul olurlar. Göründüyü kimi bu məsələnin həllində də hökumət vergi daxilolmaları məbləğinin kor-koranə artması haqqmda yox, vergi ödəyən obyektlərin stabil işi və onlann sayının çoxalması haqqında daha çox fikirləşir.

Yaponiya iqtisadiyyatında dövlətin rolu kommersiya fəaliyəti baxımından minimumdur. İqtisadiyyatın inkişafına təsiri baxımından isə maksimumdur. Yerli hakimiyyət səviyyəsində hökumətə su boruları, kanalizasiya, zibillərin yığışdırılması və utilitarizasiyası ilə məşğul olan müəssisələr, məktəblər, xəstəxanalar və s. bu kimi obyektlər tabedir. Mərkəzi hökumət Qərb ölkələrində olduğu kimi sənayedə deyil, infrastrukrur sahələrdə fəaliyyət göstərir. Lakin Yapon hökuməti ölkənin iqtisadiyyatına güclü təsir etməsi ilə digər ölkələrdən fərqlənir. Qanunlann aliliyini qoruyan hökumət öz işində müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinə bilavasitə qarşmamaq prinsipi əsasında qurur və iqtisadiyyata elmi cəhətdən əsaslanmış vergi-büdcə və maliyyə rıçaqları, antimonopoliya siyasəti, xarici ticarətin gömrük-tariflə tənzimlənməsi, bazarda rəqabətin qorunub [1] saxlanılması yolları ilə təsir göstərir. Digər ölkələrdə buna oxşar təsirlərdən istifadə edilsə də Yaponiya hökumətinin iqtisadiyyata təsiri zamanı istifadə etdiyi üsul, yanaşma və tənzimləmə mexanizmlərinin analoqu demək olar ki, bütün dünyada yoxdur. Ona görə ki, Yapon hökumətinin işlətdiyi üsullar və yanaşmalar toplusunda korrupsiyaya və rüşvətxorluğa apara bilən körpülər maksimum ləğv edilmişdir.

Yapon iqtisadi inkişaf modelinin fərqli cəhətlərindən biri də məsələlərin həllində keçmiş təcrübəni nə qədər qabaqcıl olsa da, necə gəldi tətbiq etməmək, prinsipcə yeni təsərrüfat sahələri formalasdırmaq, ETT-ni sürətləndirmək, əməyi düzgün motivləşijirmək yolu ilə stimullaşdırmaq, azad sahibkaılığı həvəsləndirmək və qayğısına qalmaq yolu ilə onu təkmilləşdirməkdir.

Bu prinsiplərə əməl edilməsi və bu yolla misli görünməmiş nəticələrin əldə edilməsi yapon hökumətinə, yapon xalqına heç də ucuz başa gəlməmişdir. Əslində bu nailiyyətlər 140 ilə yaxın bir dövrün ağır əməyinin məhsuludur. Biz burada 1867-ci ildə Meydzinın adı ilə bağlı

olan, basa çatmayan burjua-demokratik inqilabını nəzərdə tuturuq. Bu inqilaba qədər Yaponiya özü-özünü dünyadan təcrid etmişdi. İnqilabdan sonra Yaponiya böyük əmək sərf etdi və iqtisadiyyatın modernləşdirilməsi sahəsində əməli tədbirlər həyata keçirməyə başladı. Yaponiya ÜDM-un həcminə görə dünyada likinci yerə çıxmaqla yanaşı ETT-nin bir sıra prioritet istiqamətləri üzrə isə birinciliyi ələ aldı. İkinci diinya müharibəsi Yaponiyanın iqtisadiyyatına güclü zərbə vurdu. Sənaye məhsulu müharibəyə qədərki həcmin 20%-nı təşkil edirdi. Vəziyyəti düzəltmək üçün Yaponiya iqtisadiyyatının demilitarizasiya edilməsi və demokratikləşdirilməsi sahəsində bir sıra tədbirlər həyata keçirildi. Bunların içərisində iri sənaye və ticarət kompaniyalarının xırdalanması, anti-monopol qanunun qəbulu və realizə edilməsi, radikal büdcə reforması**,** hərbi müəssisələrin konversiyası, dövlət təzimləməsinin elmi yollarla istiqamətləndirilməsi, **bazar xarakterli dövlət planlaşdırılmasının** işə düşməsi kimi tədbirlər xüsusi əhəmiyyət **kəsb** edirdi. Bu cür və buna oxşar sosial, iqtisadi, təşkilati, texniki, texnoloji, mədəni, psixoloji, idarəetmə, planlaşdırma tədbirləri əslində Yaponiyanın bugünki müvəffəqiyyətinin təməl daşlarını qoyurdu.

Yapon iqtisadi modelinin səmərəli olmasında və habelə iqtisadiyyatın inkişafında başlıca rol oynayan şərtlərdən biri də yaponluların bir insan kiıni qənaətcil və zirək olmalarıdır. Yaponiya haqqında dərc olunan materiallarda göstərilir ki, 1950-ci ildən başlayaraq qənaətin və qənaətçiliyin sürəti Yaponiyada digər sənaye cəhətdən inkişaf etmiş ölkələrə nisbətən on yüksək olmağa başla-mışdır. 1970-1972-ci illərdə yapon ailələrinin və кorprasiyalara daxil edilməyən biznesin qənaətləri ÜMM-ın 16,8%-ni təşkil edirdi. Müvafiq rəqəm amerika ailələri üçün 8,5% idi. Yapon korporasiyalarının qənaətləri isə ÜMM-ın 5,8%-ni, Amerikada isə cəmi 1,6% təşkil edirdi. Həmin dövrdə Yaponiya hökumətinin təmiz qənaəti ÜMM-m 7,3%-ni, Amerika hökumətinin qənaiəti isə 0,6% təşkil etmişdir. Yaponiyanın təmiz ümumi qənaeti Amerikanın təmiz qənaətindən 3,5 dəfədən də çox (ÜMM-ə görə Yaponiyada 25,4%, Amerikada - 7,1%) təşkil edirdi. Bütün bunlardan başqa yaponlar çox patriotdurlar. Patriotçuluq hərəkatı Yaponiyada dövlət siyasəti səviyyəsində idarə edilir və tənzimlənir. Məhsulların keyfiyyətli hazırlanmasında bu cəhət bəzən həlledici şərt rolunu oynayır.

## 2.7.Yapon bank sisteminin fərqləndirici cəhətləri

Yapon iqtisadi inkişaf modelinin başlıca xüsusiyyətlərindən biri də xırda müəssisələrdə əmək haqqının ənənəvi (nisbətən) aşağı səviyyədə formalaşdırdmasıdır. Kiçik müəssisələrdə çalışanların əmək haqqı iri müəssisələrdə çalışanların əmək haqqının təxminən 60%-ni təşkil edir. Lakin kiçik müəssisədə çalışanları bu narazı salmır: onlar ürəkləri istədikləri müəssisədə işləyə bilərlər.

Banklar və bank sistemi Yapon iqtisadi inkişaf modelində xüsusi yer tutur. Ölkədə 9 iri kommersiya bankı (Tokio-Mitsubişi, "Sakura", "Fudzi" və s.), 129 regional bank, 33 trast-banklar və üç uzunmüddətli kredit bankı - Sənaye bankı, Uzunmüddətli Kredit Bankı və Yapon kredit bankı fəaliyyət göstərirlər. Bunlardan başqa, çoxlu sayda kənd təsərrüfatı üçün nəzərdə tutulan kooperativ banklar və kiçik kredit assosiasiyalan da təsərrüfat mexanizmi də fəaliyyət göstərir. Dövlətə mənsub olan banklann sayı 13-bərabərdir. Bunlardan da oxucu üçün ən maraqlı olanı ixtisaslaş-dırılmış banklardır ki, onların da əsas vəzifələri kiçik sahibkarlığı maliyyələşdirməkdir. Yapon banklarının özünəməxsus cəhətlərindən ən başlıcası mənfəətin çoxalması uğrunda bankların mübarizə aparmamasıdır. Bankların əsas maraq dairələri müştərilər və onların sağlam istehsal fəaliyyətidir. Baş bank xidmət edəcəyi müştəriyə çox ciddi yanaşır və bir qayda olaraq xidmətə başlamaqdan öncə onun istehsal-təsərrüfat fəaliyyətini təhlil edir və maliyyə vəziyyətini öyrənir. Beləliklə, Yapon baş bankı kompaniyanın diaqnostikası rolunu oynayır. Əməkdaşlıq edəcəyi bankın da gələcəkdə sağlam fəaliyyət göstərməsinə çalışır. Bu cür münasibətlərin yarandığı Yapon dövlətində bankların əsas məqsədi maksimum mənfəət əldə etmək və mənfəəti hansı yolla olursa olsun yüksəltmək deyil. Onlar çalışırlar ki, gəlirlərin stabilliyi təmin edilsin və müflis olmaq təhlükəsi

aradan götürülsün. Yapon iqtisadi inkişaf modelində hökm sürən, ona məxsus olan, təsərrüfatçılığın ümumi prisnipi olan - iri (güclü) strukturların kiçik (zəif) strukturları udub məhv etmək *yox* onlara kömək göstərib özünə tabe etdirmək prinsipi bank sistemində də özünü göstərir. Baş banklar kiçik banklara hər cür kömək göstərib onları müflisləşməkdən qorumağa çalışırlar.

## §3. AMERİKA İQTİSADİYYATI

### 3.1.Amerika iqtisadiyyatının əsas xüsusiyyətləri

Dünya iqtisadiyyatı ayrı-ayrı dövlətlərin iqtisadiyyatından formalaşdığına görə çox çevik xarakterə, dəyişən mühitə malikdir. Planetimizin iqtisadiyyatının formalaşmasında, inkişafında və sosial-iqtisadi səmərəliliyinini yüksəldilməsində Amerika Birləşmiş Ştatlarının (ABŞ) rolu çox böyükdür. Əhalisi nöqteyi-nəzərincə dünya əhalisinin təxminən **1**,7%-ni təşkil edən ABŞ bu gün dünya üzrə ÜDM-un 2**1** - 25%-ni verə bilir.

ABŞ iqtisadiyyatının bir sıra fərqləndirici cəhətləri vardır. Müasir dövr üçün ən əlamətdarı ondadır ki, ABŞ on yeni texnikaya və texnologiyaya daha çox fikir verir, elm tutumlu məhsullar istehsal edir və innovasiya sahəsində uzun illərdir ki, aparıcı yer tutur. Bu hal öz əksini texnologiyanın ötürülməsi üzrə vəsait ödəmələrini və daxil olmalarını xarakterizə edən balansda tapir. Qeyd edək ki, bu balansda "texnologiyanın ötürülməsi" əməliyyatı ilə bağlı, patentllərin qeydiyyatı ilə bağlı, lisenziyaların müəllif hüquqlarının, ticarət markalarının əldə edilməsi ilə bağlı, dizaynların müəllif və sənaye hüqqularının və nümunələrinin işlənməsi ilə bağlı, "nou-hau"-larla və menecment sahəsində xidmətlərin ödənilməsi ilə bağlı hesabatlar göstərilir. Bir çox mənbələrin verdikləri məlumatlara görə ABŞ texnoloji balansı uzun illərdir ki, aktiv saldoya malikdir. Onun məbləği ildə 7-8 mlrd. dollar təşkil edir. Aktiv saldonun mövcudluğu ABŞ üçün yeni imkanlar yaradır və bu imkanlardan istifadə edən sahibkarlar elmtutumlu məhsullar istehsalını genişləndirirlər.

Dünya iqtisadiyyatının tərkib hissəsi olan ABŞ-ın bır mühüm xüsusiyyəti ölkənin daxili bazarının çox geniş və həcmli olmasıdır. ABŞ-da istehsal edilən nə varsa onun 90%-ə qədərini daxili bazar udur. Bundan başqa, xarici ölkələrdən və xüsusən də inkişafda olan ölkələrdən çoxlu miqdarda məhsullar alınır və istehlak edilir. Böyük həcmli daxili bazarın tələblərinin ödənilməsi üçün ABŞ hökuməti məqsədyönlü tənzimləmə tədbirləri vasitəsilə ölkədə güclü istehsal potensialı yarada bilmişdir. Böyük həcmdə müxtəlif məhsullar və xidmətlər istehsal etmək qabiliyyətinə malik olan bu istehsal potensialı əsas rol oynasa da, ABŞ-ın iqtisadiyyatının hərəkətverici qüvvəsi elmi-texniki tərəqqi və onun nailiyyətlərinin istehsala tətbiq sahəsində ölkənin dünya ölkələri arasında liderliyidir. Məhz bunun nəticəsində ABŞ dünya ölkələrini özündən asılı vəziyyətə sala bilir. Elmi-tədqiqat və layihə təcrübə işlərinə dünya miqyasında çəkilən xərclərin 40%-i ABŞ-ın payına düşür. Bilavasitə bunun nəticəsi kimi ABŞ digər ölkələrə elm tutumlu məhsul ixrac edir və çoxlu qazanır. Bir çox mənbələrin məlumatlarından aydın oldu ki, elm tutumlu məhsul üzrə dünya eksportunun 20%-i ABŞ-ın payına düşür.

### 3.2.Amerika və dünya iqtisadiyyatı

Amerika iqtisadiyyatının dünya iqtisadiyyatına təsiri mürəkkəb və çoxşaxəlidir. Bu təsir çox vaxt TMK-nın vasitəsilə daha çox şaxələnir və güclənir. ABŞ-ın TMK-nın digər ölkələrdə yerləsmiş müəssisələri ildə orta hesabla 3 trilyona qədər məhsul istehsal edir və xidmətlər göstərir ki, bu da Amerikanın ÜMM-nın 4-%-dən də çoxdur. TMK-nın müəssiələri yerləşən ölkələrin iqtisadiyyatına bu güclü təsir göstərir. Amerikada formalaşdırılmış iqtisadi, sosialmənəvi, hüquqi, texniki, idarəetmə potensialı imkan verirki, texniki tərəqqinin sürətlənməsi, sosial məsələlərin həlli, sənayenin və kənd təsərrüfatının intensiv yolla inkişaf etdirilməsi məsələsi yüksək səviyyədə həll edilsin. Nəticədə ABŞ bu gün sənaye istehsalının həcminə görə dünyada birinci yeri tutur və super səmərəli kənd təsərrüfatına malikdir. Son illərdə dənli bitkilərin istehsalı ildə orta hesabla 400 milyon tona çatıb. Bu da öz tələbatlarını ödədikdən sonra ABŞ-a imkan verir ki, ildə 200-250

milyon ton dənli bitki ixrac edə bilsin. Dünya əhalisinin cəmi 1,7 faizi yaşayan ABŞ-da sənaye o dərəcədə inkişaf etmişdir ki, dünyada çıxarılan xammalın 30 faizindən çoxunu bu sahə istehlak edir.

Amerikanın dünya iqtisadiyyatına təsiri təkcə iqtisadi potensialının olduqca güclü olması deyil, həm də iqtisadiyyatın sağlam olması ilə şərtlənir.

Sağlam iqtisadiyyatı bir neçə göstərici ilə qiymətləndirmək olar. Ən mühüm göstəricilərdən biri iqtisadiyyatın ilbəil irəliyə doğru inkişafını səciyyələndirən "Ümumi milli məhsulun orta illik artımı" göstəricisidir. Son 20 il ərzində bu göstərici ABŞ-da dayanıqlı olmuşdur (cədvəl 15).

Cədvəl **15**

**ABŞ iqtisadiyyatini xarakterizə edən bəzi göstəricilər**

| **İllər** | **UMM-ın artım sürəti** | **İşsizlərin xüsusi çəkisi %** | **Kapital qoyuluşunun sürəti (-) (+)** |
|---|---|---|---|
| **1990** | **3,0** | **5,6** | **-1,4** |
| **1994** | **3,5** | **6,1** | **+6,5** |
| **1995** | **2,0** | **5,6** | **+4,3** |
| **1996** | **2,8** | **5,4** | **+7,4** |
| **1997** | **3,8** | **4,9** | **+6,5** |
| **1998** | **3,7** | **4,8** | **6,4** |

İqtisadiyyatın dayanıqlı olmasını bu göstəricidən başqa işsizlərın xususı çəkisi, emal sənayesində və xalq təsərrüfatının digər aparıcı sahələrində istehsal güclərinin yüksəlmə əmsalı, iqtisadiyyata kapital qoyuluşu və onun artım sürəti kimi göstəricilər də xarakterizə edir. Təhlil göstərdi ki, işsizlərin iqtisadi fəal əhalinin ümumi sayında xüsusi cəkisi ABŞ-da uzun illər müddətində dayanıqlı və aşağı səviyyədə qalmaqda davam edir. Son illərdə isə mütəmadi olaraq bu göstəricinin səviyyəsi nisbətən aşağı düşmüş və 1997-ci üdə 4,9% təşkil etmişdir. Yuxarıda verilən cədvəldən görünür ki, 1990-cı ildə ABŞ-ın

iqtisadiyyatına kapital qoyuluşunun həcmi 1,4% azalmasına baxmayaraq 1994-cü ildən başlayaraq mütəmadi olaraq artmış və orta illik artım 1994-cü ildə 6,5%, 1995-də 4,3%, 1996-da 7,4% və 1997-də isə 6,5% təşkil etmişdir.

Sağlam iqtisadiyyat ABŞ-a imkan verir ki, dünya miqyasında gedən inteqrallaşma, qloballaşma, beynəlmiləlləşmə proseslərində qarşılıqlı və aktiv iştirak edə bilsin. Özünün çox güclü maşınqayırma sənayesi olan Amerika ölkəyə kənardan çoxlu miqdarda maşın və avadanlıqlar gətirir. Dərc olunmuş materiallara görə 1998-ci ildə ABŞ-da satılan maşın və avadanlıqların ümumi həcmində importun xüsusi çəkisi 50% təşkil etmişdir. Həmin ildə məişət elektronikası və ayaqqabı satışında isə importun xüsusi çəkisi 80%-ə çatırdı. İxrac sahəsində ABŞ-ın digər ölkələrlə iqtisadi əlaqələri aşağıdakı cədvəldə verilmişdir (cədvəl 16, 1991 il).

**Cədvəl6**

| **Ölkələr** | **Ölkənin ixracında ABŞ-ın payına düşən ıxracın xüsusi çəkisi** |
|---|---|
| **Yaponiya** | **27-29** |
| **Almaniya** | **8-10** |
| **Meksika** | **91,1** |
| **Tayvan** | **46,2** |
| **Fillippin** | **40,4** |
| **Cənubi Koreya** | **38,1** |
| **Brazil iya** | **32,0** |
| **Sinqapur** | **21,6** |

### 3.3.Amerixa iqtisadiyyatının hərəkərverici qüvvələri

Qeyd etdiyimiz kimi, ABŞ əhalisi dünya əhalisinin cəmi 1,7% qədərini təşkil edir. Lakin bir çox iqtisadi göstəriciləri bundan 10-15 dəfə çoxdur (məs., ÜMM üzrə xüsusi çəkisi 25%-ə çatır). Oxucular üçün maraqlı olan cəhət Amerika iqtisadiyyatının əldə etdiyi nailiyyətlər və onun əsas səbəbləridir. Bilmək lazımdır ki, Amerika iqtisadiyyatının hərəkətverici qüvvələri hansılardır.

Öncə qeyd edək ki, Amerikanın güclənməsinə dünyada gedən proseslər bir qayda olaraq müsbət təsir göstərib. Məhz burada dünya müharibələrini, müxtəlif regionlarda millətlərin bir-birləri ilə ümumi dil tapmasını və ümumiyyətlə, Amerikanın yerləşdiyi coğrafı mövqeyi-nəzərdə tuturam. Lakin bunları iqtisadi inkişafın hərəkətverici qüvvəsi hesab etmək olmaz. Bunlar və digər bu qəbildən olan amilar (təbii resurslar və s.) iqtisadi inkişaf üçün ancaq potensial imkanlar yaradır. İqtisadiyyatın mütəmadi olaraq irəliyə doğru hərəkət etməsi isə ölkədə yaradılan təsərrüfatçılıq mexanizmi vasitəsilə həyata keçirilə bilər. Amerika məsələyə yaradıcılıqla yanaşaraq belə bir səmərəli mexanizm yarada bilmişdir və onun vasitəsilə ölkənin istənilən problemini həll edir və dünya iqtisadiyyatının da inkişafına müsbət təsir göstərə bilir.

Amerika iqtisadiyyatının ən mühüm hərəkətverici qüvvələrindən biri burada formalasdırılmış elmi-texniki potensialdır. Ölkədə yaşayan və yaratmağa qadir olan milyonlarla yüksək ixtisaslı kadrlar mövcuddur və dövlətin bacarıqlı tənzimləməsinə görə onlar öz tədlqiqatlarını əsasən innovasiya xarakterli problemlərin həllinə yönəldirlər. Bu cür problemlərin ortaya çıxarılması və müvəffəqiyyətlə həll edilməsi isə çoxlu maliyyə vəsaiti tələb edir ki, bunu da ölkədə bərqərar olmuş təsərrüfatçılıq mexanizmi təmin edir. Verilən məlumatlara görə, ABŞ 1996-cı ildə elmi-tədqiqat və təcrübə-layihə işlərinə 184,7 milyard dollar pul xərcləmişdir ki, bu Yaponiyanin, Almaniyanın, Fransanın, Böyük Brtaniyanın, italiyanın və Rusiyanın həmin ildə bu məqsəd üçün birlikdə xərclədikləri vəsaitə təxminən bərabərdir. Amerikada orta hesabla hər adama düşən elmi-tədqiqat və təcrübi-layihə xərclərinin məbləği orta hesabla ildə 680 dollara çatır.

İqtisadiyyatın hərəkətverici qüvvəsi təkcə ölkənin texniki, texnoloji, iqtisadi gücü ilə formalaşmır. Son 10-15 ildə dünya iqtisadçılarını bir mühüm məsələ əməyin, torpağın, kapitalın, biliyin - qlobal miqyasda və əməyin, əmək cisminin, əmək alətinin və biliyin müəssisələr miqyasında - düzgün və səmərəli təşkili, onların arasındakı qarşılıqlı əlaqələri və münasibətləri səmərəli və vaxtında həll edilməsi məsələsi daha çox düşündürür. Və demək olar ki, bu problemi həll edən vəsait tapılıb. Bu ayrı-ayrı dövrlərdə formalaşımş yeni resursdur. Bu resursun adı sahibkarlıq resursudur. Bu resursun digər təyinedici adları da var: sahibkarlıq potensialı, sahibkarlıq bacarığı, yada ki, sadəcə olaraq sahibkarlıq. Dövlətin sərəncamında olan cari **və** potensial resurslardan əhalinin xeyrinə görə səmərəli istifadəni ölkədə formalaşdırılmış sahibkarlıq resursu həyata keçirir. Amerika bu cəhətdə də dünya iqtisadiyyatına müsbət təsir göstərir. Ölkədə qəbul edilən qanunların, çıxarılan qərarların uzun illərdir ki, əsas məqsədi, son nəticədə, azad sahibkarlar ordusunun yaradılması və səmərəli fəaliyyət göstərməsidir. Məhz Amerika hökumətinin qanunlara söykənərək yaratdığı sosial-iqtisadi, psixoloji, mənəvi, mədəni şərait burada güclü sahibkarlar resursunun meydana gəlməsinə səbəb olmuşdur. Resurs roluna çevrilmiş sahibkar özünə güzəşt etmədən, hər cür riskə getməklə lap təzə olan elmi ideyaları, ixtiraları praktikada reallasdırmağa nail olur və innovasiya (yeniləşmə) yaradır. Bu is sonda prinsipcə yeni məhsul, xidmət, misli görünməmiş məhsuldarlıq və qənaətçilik deməkdir. Amerika iqtisadçısı Cozçf Şumpeterin fikrincə sahibkarların bu cür innovasiya fəaliyyəti iqtisadi inkişafın mühərriki effektini verir. Sahibkarlıq resursunun tərtib hissələri olan bazar infrastrukturu və sahibkarlann etikası mədəniyyəti də ABŞ-da yüksək səviyyədə inkişaf etmişdir. Məhz buna görədir ki, ABŞ-da sahibkarlıq fəaliyyəti ilbəil genişlənir, sahibkarların sayı artır və bütövlükdə bu proses özünün bütün atributları ilə birlikdə iqtisadi inkişafın hərəkətverici qüvvəsi rolunu oynayır. Bir resurs kimi sahibkarlıq resursunun üstün cəhəti ondadır ki, maddi resurslar kimi onu dünya bazanndan almaq mümkün deyil.

Təcrübəli, savadlı, bacarıqlı, səriştəli, millətinə xidmət göstərməkdən ruhlanmağı bacaran, yüksək mədəniyyəti olan (aldatmaq və rüşvətdən uzaq) olan sahibkarlar ordusu formalaşdırmağa nail olan

dövlət həmişə güclü olur, başqalarından asılı olmur, əksinə digər ölkələri özündən asılı vəziyyətə sala bilir. ABŞ məhz belə dövlətdir. Onun dünya iqtisadiyyatına güclü təsiri də ilk növbədə bununla izah edilməlidir.

Amerika iqtisadiyyatının hərəkətverici qüvvələri arasında öz resursları ilə yüksək səviyyədə təmin olmaq heç də pis yer tutmur. Resurslarla təmin olmaq xarici ölkələrdən asılılığını minimuma endirir. Bundan başqa, ABŞ-ın böyük həcmli daxili bazarı,

kompaniyların yüksək texniki, təşkilati, elmi potensialları, eksport **və** importun həcminə dünyada birincilik, sosial yönümlü iqtisadi siyasət, sənayenin apancı sahəsi olan maşınqayırmanın üstün inkişafı və mütərəqqi strukturu, yeni tipli yüksək texnologiyaların mənimsənilməsi və **s.** bu kimi cəhətlər də iqtisadiyyatın intensiv inkişafı üçün şərait yaradan amillərdir, ABŞ iqtisadi inkişafının hərəkətverici qüvvəsidir.

Müasir dövrdə TMK-ın şaxələnib genişlənməsi Amerika iqtisadiyyatının hərəkətverici qüvvəsinə çevrilmişdir. Əslində, TMK-lar ABŞ-a özünün "ikinci, ölkə daxilindən kənardakı iqtisadiyyatını formalaşdırmağa imkan yaratmışdır. Dərc olunmuş məlumatlara görə TMK-ın xətti ilə fəaliyyət göstərən müəssisə və firmaların satdıqları məhsulun həcmi ABŞ-ın ÜDM-nin 30-32%-ə qədərini təşkil edir. TMK-ın əsas müəssisələri ABŞ-dan uzaqlarda, digər ölkələrin ərazilərində yerləşdirilmişdir və bu yolla da Amerika xarici ölkələrin iqtisadiyyatına təsirini gücləndirir. Bunlardan başqa, Amerika iqtisadiyyatının hərəkətverici qüvvəsi rolunda onun daxili kredit bazarı oynayır. 1990-cı illərin əvvəlində ABŞ-ın daxili kredit bazarının bölüşdürdüyü kredit resurslarının həcmi 1000 milyard dollara çatırdı ki, bu da inkişaf etmiş ölkələrin heç birinə nəsib olmayıb. Pul bazarının sıx əlaqədə olmasına görə Amerika kredit bazarı dünya iqtisadiyyatına güclü təsir göstərə bilir.

Amerikanın valyutası olan dollar da iqtisadiyyatın hərəkətverici qüvvəsi rolunu müvəffəqiyyətlə oynayır. Dünya ticarət əməliyyatlarının təxminən 2/3-i dollarla həyata keçirilir.

Xarici ölkələrin ipvolyut bankları resurslarının 60%-dən çoxu isə dolar şəklindədir. Dünya miqyasında kredit əməliyyatların da əksər hissəsi (75%-ə qədəri) dollarla həyata keçirilir. Ölkədə aparılan savadlı, elmtutumlu iqtisadi siyasət, iqtısadiyyatın sosial yönümlülüyü, inikşafın strategiya və taktikasının maksimum optimal seçilməsi, xarici iqtisadi əlaqələrin xüsusi təsərrüfatların hesabına genişəndirilməsi, sahibkarlara dövlətin verdiyi sərbəstlik və azadlıq və digər bu qəbildən olan bazar iqtisadiyyatının atributları da bu gün ABŞ iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi rol oynayır.

### 3.4. Yeni iş yerləri yaratmaq - dövlətin iqtisadiyyata təsiretmə göstəricisidir

Amerikanı güclü edən cəhətlərdən biri də ölkədə intensiv olaraq yeni iş yerlərinin yaradılması, məşğulluq səviyyəsinin yüksəldilməsidir. XX əsrin ortalarında həyata keçirilən əməli tədbirlər nəticəsində məşğulluğun 50-ci illərdə 1**1%,** 60-cı illərdə 18%, 70-ci illərdə 25%, 80-ci illərdə **12%,** 90-cı illərdə 8% yüksəldilməsi əldə edilmişdir. Bunun nəticəsində iqtisadiyyat daha da güclənmiş və işləyənlərin sayı və peşə tərkibi mütərəqqi dəyişikliklərə məruz qalmışdır. Bu gün ABŞ-da təxminən 35 milyon işçi ilə təmin edilən iş yeri fəaliyyət göstərir. İşçilərin tərkibində mütərəqqi dəyişiklik öz əksini zehni əməklə məşğul olanların (ABŞ-da deyildiyi kimi, ağ vorotniklilər) xüsusi çəkisinin artmasında və fiziki əməklə məşğul olanların (göy vorotniklilərin) xüsusi çəkisinin isə əksinə azalmasında tapır. Bu cəhət bir daha Amerikanın güclü elm-texniki potensiala və dünya iqtisadiyyatına fəsir etmək imkanına malik olmasını sübut edir.

Amerika hökuməti yaratdığı təsərrüfatçılıq mexanizmi vasitəsilə yeni iş yerlərinin yaradılmasına da yaradıcı münasibət bəsləyir. Yeni iş yerləri elm və texnikanın son nailiyyətlərini özündə cəmləşdirir və belə iş yerlərində çalışanların əmək haqqı səviyyəsinə ciddi fikir verlir. Uzun illər davam edən bu ənənə məhsulun material, fond, enerji tutumlarının daim aşağı salınması tədbirləri ilə birlikdə elə bir mütərəqqi nəticə əldə etməyə imkan vermişdir ki, istehsal xərclərində işçi qüvvəsinə çəkilən

xərclərin xüsusi çəkisi 70%-ə çatmışdır. Bu olduqca mütərəqqi göstəricidir və dövlətin mütəmadi olaraq sosial yönümlü siyasət aparmasının nəticəsidir. Bu həm də sübut edir ki, Amerikada zehni əməklə məşğul olanlann sayı daim artır, yüksək maaş alanlar çoxalır, əhalinin orta təbəqəsi inkişaf edir.

## §4. Qərbi Avropa vo dünya iqtisudiyyatında onun rolu

### 4.1. Qərbi Avropa - vahid təsərrüfat kompleksi kimi

Dünya iqtisadiyyatında özünəməxsus yer tutan regionlardan biri Qərbi Avropa adlanan regiondur. Özünəməxsusluğun birinci əlaməti ondadır ki, bu regionda irili-xırdalı 25 ölkə təmsil olunsa da dünya iqtisadiyyatında Qərbi Avropa çox zaman vahid bir struktıır kimi göstərilir. Dünya əhalisinin 7%-ni özündə cəmləşdirən region dünyada istehsal olunan ÜDM-un 23%-ni verir. Fərqləndirici xüsusiyyətlərdən biri də Qərbi Avropa ölkələrinin daha sivil qanun-qaydalarla əməkdaşlıq etmələridir. Hələ 1957-ci ildə onlar birlik nümayiş etdirib Avropa iqtisadi birliyini yaratdılar. Sonradan 1960-cı ildə Qərbi Avropa ölkələrinin mütləq əksəriyyəti (19 ölkə) Azad ticarət üzrə Avropa Assosiasiyası yaratdılar. Bu sənədə görə onu imzalayanlar sənaye mallarının azad ticarəti haqqında öhdəliklər qəbul etdilər. 1992-ci ildə bu ölkələr Avropa iqtisadi məkanı haqqında razılığa gəldilər və bununla da Qərbi Avropada azad ticarət və regional iqtisadi kompleks formalaşmağa başlandı. Hazırda bu ölkələr arasında əmtəələrin, xidmətlərin, kapitalın və insanların sərbəst hərəkəti demək olar ki, təmin olunub və 380 mln. nəfərin tələbatlarını ödəyə bilən bazar formalaşdırılmışdır. Burada dünya ticarətinin təxminən yarısı baş verir. Beləliklə,

Qərbi Avropanın vahid təsərrüfat kompleksi kimi formalaşması sürətlə baş verməkdədir.

Bu gün Qərbi Avropa ABŞ və Yaponiya ilə birlikdə dünya təsərrüfat sisteminin "üç güc" mərkəzlərindən birinə çevrilmişdir.

## 4.2. Qərbi Avropa ölkələrinin qruplaşdırılması

Qərbi Avropaya daxil olan ölkələr iqtisadi potensialına, ərazisinə, sosial şəraitinə və sair cəhətlərinə görə bir-birindən kəskin şəkildə fərqlənirlər. Bu regionun əsas iqtisadi gücü sənaye cəhətdən yüksək dərəcədə inkişaf etmiş dörd ölkənin AFR, Fransanın, İtaliyanın və Böyük Britaniyanın üzərinə düşür. Bu ölkələrdə yaşayanlar region əhalisinin 50%-ni, istehsal olunan ümumi daxili məhsulun isə 70%-ni təşkil edir. Əslində bu dörd dövlət Qərbi Avropanın təsərrüfatca və sosial- iqtisadi inkişaf baxımdan inkişafının başlıca prinsiplərini və istiqamətlerini təyin edirlər. Bu ölkələr təkcə öz regionlarında deyil, dünya iqtisadiyyatında özlərinə məxsus yer tuturlar (cədvəl 17).

Qərbi Avropanın digər ölkələri sənaye cəhətdən inkişaf etmiş, kiçik dövlətlərdir. Bu ölkələr texniki cəhətdən çox mürəkkəb istehsallar üzrə ixtisaslaşmışlar və yüksək keyfiyyətli məhsul istehsal edirlər. ÜDM-un həcminə görə bu ölkələr bir-birindən köklü surətdə fərqlənirlər.

**Cədvəl 17**

**Qərbi Avropanın 4 əsas ölkəsi və dünya iqtisadiyyatında onların yeri (1997-ci il)**

| Ölkələr | Ümumi milli məhsulun həcmi | | Adambaşına düşən ÜMM | |
|---|---|---|---|---|
| | mlrd. dol. | Dünya ölkələri arasında yeri | Dollar | Dünya ölkələri arasında yeri |
| Almaniya | 2319,5 | 3 | 28260 | 7 |

| | | | | |
|---|---|---|---|---|
| **Fransa** | **1526,0** | **4** | **26050** | **11** |
| **B.Britaniya** | **1220,2** | **5** | **207<br>10** | **15** |
| **İtaliya** | **1155,<br>4** | **6** | **201<br>20** | **17** |

| **Müqayisə üçün:** | | | | |
|---|---|---|---|---|

17

| | | | | |
|---|---|---|---|---|
| **ABŞ** | **7690,0** | **1** | **28740** | **2** |
| **Yaponiya** | **4772,3** | **2** | **37850** | **6** |
| **Azərbaycan** | **3,9** | **101** | **510** | **96** |

Birinci qrupa İspaniya, Niderland, İsveç, Belçika, İsveçrə daxil edilir. Bunlar iqtisadi güclərinə görə iri ölkələrdən 4-5 dəfə geri qalırlar və biriikdə regionun UDM-nun 20%-ni verirlər. İkinci qrupa daxil olan ölkələrin (Avstriya, Danimarka, Norveç, İsveçrə, Finlandıya) isə regionun ÜDM-dakı xüsusi çəkisi 8,1%-dir. Portuqaliya, İrlandiya, Lüksemburq, İslandiya, Kipr və Malta kimi ölkələri üçüıcü qrupa daxil edirlər. Onların da UDM-nun xüsusi çəkisi çox azdır (cəmi 2%-ə qədər). "Cırtdan dövlətlər" adlanan qrupa isə Monako, San-Marino, Andorra, Lintenşteyn kimi çox kiçik dövlətlər daxil edilir.

## 4.3.İqtisadi inkişaf göstəriciləri

Qərbi Avropanın dünya iqtisadiyyatında qabaqcıl yer tutması çoxdan məlumdur. XIX əsrin ortalarına qədər QA dünyada aparıcı mövqc tuturdu. Sonralar bu mövqe ABŞ-ın əlinə keçdi. İkinci dünya

müharibəsindən sonrakı ilk illərdə QA-nın mövqeyi daha da zəiflədi. Lakin yavaş-yavaş QA öz mövqeyini yaxınlaşdıra bildi. Hal-hazırda QA-nın UMM-nun həcmi ABŞ-ın ÜMM-dan çox təşkil edir.

QA-nın ixrac etmək imkanları yaxşıdır. Təsadüfi deyildir ki, dünya ixracının 50% QA regionunun payına düşür. Dünyanın qızıl ehtiyatının 40%-i QA-nın əlindədir ki, bu da ABŞ-da olduğundan xeyli çoxdur. QA ölkələrinin iqtisadi inkişafı demək olar ki, həmişə irəliyə doğru olmuş, hər il artımla səciyyələnmişdir. İkinci dünya müharibəsindən sonrakı dövrü bir neçə pilləyə bölmək olar. 1950-ci ilə qədərki dövr QA ölkələri üçün bərpa dövrü hesab olunur. Bu dövrdə iqtisadiyyatda əldə edilən nailiyyətlər imkan verdi ki, hələ 1949-cu ildə (cəmi 4 ilə) 1936-cı ildəki iqtisadi inkişaf səviyəsi bərpa edilsin. Bu dövrdo QA ölkələrinin həm iqtisadi və həm də siyasi cəhətdən ABŞ-dan asılı olmasına baxmayaraq region inkişaf edirdi. Bu sahədə ABŞ-ın məşhur "Marşall planı" həlledici rol oynayırdı. Amerikanın yaratdığı "Marşall plan"ında məqsəd QA ölkələrində sənayenin intensiv inkişafını, Avropada daxili ticarətin genişlənməsini və QA ölkələri valyutasının möhkəmliyini təmin etmək idi. Qeyd edək ki, "Marşall planı" müvəffəqiyyətlə həyata keçirildi və QA ölkələrinin gələcəkdə irəliyə doğru inkişafı üçün yaxşı zəmin yarandı.

1974-cü ilə qədər 25 illik bir dövrü əhatə edən ikinci pillədə də QA ölkələri müsbət nəticələr əldə etdilər. ÜMM-un artım sürəti 4 dəfədən də çox oldu. İqtisadiyyata kapital qoyuluşunun artıra sürəti də ABŞ-dan yliksək idi. Əməyin fondla silahlanması hər il orta hesabla 3,8% (ABŞ-da cəmi 1%), əmək məhsuldarlığı isə 4,4% (ABŞ 2%) artırdı. Lakin qeyd etmək lazımdır ki, baxılan dövrdə (1950-1974) QA-da ekstensiv inkişaf baş verirdi. Əsas nöqsan ondan ibarət idi ki, ETT-nin sürətləndirilməsinə az fikir verilirdi. Bunun nəticəsi idi ki, elmtutumlu məhsullar istehsalı cəhətdən QA-nın ABŞ-dan geriliyi nəinki azalmırdı, hətta artırdı.

1974-1984-cii illər QA ölkələri üçün nisbətən təzadlı olmuşdur. Bir sıra makro vo mikroiqtisadi göstəricilər üzrə inkişaf sürəti ya heç

olmamışdır, ya da ki, olduqca aşağı səviyydə formalaşmışdı. Məsələn, ÜMM-un artım sürəti 1,7%-ə qədər aşağı düşmüşdü. Müqayisə üçün qeyd edək ki, bu göstərici ABŞ-da 2,3%, Yaponiyada isə 4,2% olmuşdu. Sənayedə isə bu göstəricilərin səviyyəsi QA-da 0,8%, ABŞ-da -1,3% vo Yaponiyada - 2,1% təşkil edirdi. Baxılan dövrdə QA-a üçün müsbət cəhət ondan ibarət idi ki, ölkələr ekstensiv inkişafdan imtina etməyə başlamışdılar. Əsas fikir istehsahn yeniləşdirilməsinə, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinə, ETT-nin sürətləndirilməsinə, mütərəqqi amortizasiya siyasətinə verilirdi. Regionun enerji asılılığını azaltmaq üçün Şimal dənizinin dibindən neft çıxarılmasına da bu etapda başlanıldı və buna külli miqdarda investisiya xərcləndi.

Növbəti güclü iqtisadi inkişaf 1985-ci ilin axırlarında baş verdi və demək olar ki, QA ölkələrinin intensiv inkişaf relsinə keçmələri başa çatdı. QA elmtutumlu məhsullar istehsalının sürətlə artırırdı. Avropa daxili bazarı (ADB) da bu dövrdə formalaşdırıldı. Makroiqtisadi göstəricilər yaxşılaşdırıldı. Baxılan dövrdə QA-nın ÜDM-nun yekun həcmi 22% çoxaldı. Bu dövrdə şəxsi istehsalın həcmi 23%), kapital qoyuluşu 34%, sənaye istehsalı 23% artdı. İşsizlik norması isə 9%-dən 7,1%-ə qədər azaldı. Xarici iqtisadi əlaqələrini genişləndirən və səmərəliliyini yüksəldən QA xarici ticarət sahəsində 200 milyard müsbət saldo əldə edə bildi.

Beşinci etap 1990-2000-ci illəri əhatə edir. Bu etapın birinci üç ilində QA ölkələrində iqtisadi inkişafın zəifləməsi baş verdi. Bu əslində iqtisadi krizis idi. Sənaye istehsalı 1991-ci ildə hətta 0,2% aşağı düşdü. 1992 və 1993-cü illərdə isə enmə faizi artıq 0,9 və 2,6% təşkil edirdi. 1991-1993-cü illər ərzində Region ÜDM-nun həcmi 0,1% azaldı. 1994-cü ildən sorna isə QA iqtisadiyyatında oyanma və inkişaf dövrü başlandı. Müqayisə etmək üçün 1985-1997-ci illər ərzində QA-nın bir neçə makroiqtisadi göstəricilərinin səviyyəsi cədvəl 18-də verilmişdir.

**Cədvəl 18**

**1985-1997-ci illərdə QA-nınmakroiqtisadi göstəricilərinin artımı(%)**

| İllər | ÜDM | Kapital qoyuluşu | ixrac | Sənaye | Məşğulluq | işsizlik norması | |
|---|---|---|---|---|---|---|---|
| 1985 | 2,6 | 2,8 | 4,3 | 3,6 | 0,9 | 9.5 | 5,9 |
| 1990 | 3,3 | 4,2 | 6,3 | 2,4 | 1,8 | 7,6 | 5 5 |
| 1991 | 1,5 | -0,4 | 4,6 | -0,2 | 0,4 | 8,0 | 5,0 |
| 1992 | 1,2 | -0,9 | -4,3 | -0,9 | -1,3 | 8,9 | 4,3 |
| 1993 | -0,1 | -4,9 | 2,3 | -2,6 | -1,7 | 10,2 | 3.5 |
| 1994 | 2,5 | 1.8 | 9,3 | 4,5 | | 10,6 | 2,8 |
| 1995 | 2,7 | 4,1 | 8,0 | 4,0 | 1,0 | 10,1 | 3.0 |
| 1996 | 2,0 | 1,6 | 5,7 | 0,5 | 0,5 | 10,1 | 2,4 |
| 1997 | 2,7 | 2,7 | *9,3* | 4,1 | 0,7 | 9,8 | 2,0 |

Cədvəl məlumatlarından görünür ki, 1994-cü ildə iqtisadi göstərıcılər yaxşılaşmağa başlamıs və 1997-ci ildə də yaxşılaşma davam etmişdır. 1997-ci ildə ÜDM-un artımı, 2,7%, kapital qoyuluşu 2,7%, ixrac 9,3%, sənaye məhsulu 4,1% artmışdı. Lakin mənfi cəhət ondadır ki, QA-da işsizlik bir problem kimi qalmaqdadır. 1997-ci ildə işsizlik norması 9,8% təşkil etmişdır ki, bu da ABŞ və Yaponiyadan yüksəkdir. Təhlil göstərdi ki, QA ölkələri bu sahədə gərgin iş aparırlar. Məsələn, 2000-ci ildə QA birliyi ölkələri öz yığıncaqlarında elan etmişlər ki,

yaxın 5-7 il ərzində regionda 20 milyon iş yeri yaradılmasını nəzərdə tutan perspektiv plan işlənib hazırlanmışdır.

## 4.4.Qərbi Avropanın iqtisadi inkişafının hərəkətverici qüvvələri

Qərbi Avropada müxtəlif dövlətlər fəaliyyət göstərir. Yuxarıdakı şərhimizdən də göründüyü kimi region dövlətlərinin müxtəlifliyi öz əksini ərazinin ölçülərində, əhalisinin sayında iqtisadi və hərbi gücündə tapir. Lakin buna baxmayaraq bu ölkələr öz aralarında birlik yaratmağa, sərhədlərini şəfaf saxlamağa, ürnumi bazar yaratmağa, bir-birinin həmişə qayğısına qalmağa nail olublar. Bunları qeyd etməkdə məqsəd regionun həm region və həm də dünya iqtisadiyyatına təsirini göstərməkdir. Əslində QA regionunun yüksək inkişaf etmiş regionlar qrupuna daxil olmasının birinci hərəkətverici qüvvəsi də məhz bundadır. Bir region daxilində qonşu dövlətlərin mühüm məsələlərdə həmrəy olması, azad ticarət etməsi, iqtisadi əməkdaşlıq etməsi bütün ölkələrin xeyrinədir və məhz bu amil və şərtlər QA-nı inkişaf etmiş regiona çevirmişdir. Bu gün QA region ölkələri arasında yaranmış dostluq və əməkdaşlığa görə bütün dünyaya nümunə ola bilər.

QA ölkələri uzun illər boyu özlərinin sağlam düşüncələri, bir-birlərinə sağlam münasibət bəsləmələri nəticəsində regionda səmərəli, müasir və ilk növbədə insana xidmət etməyə qadir olan, onların tələbatlarına uyğun gələn iqtisadi sistem yarada bilmişlər. Buna görə də, QA iqtisadiyyatının ikinci hərəkətverici qüvvəsi regionda formalaşdırılmış azad sahibkarlıq, sağlam rəqbət, inteqrasiya prosesləri, məqsədyönlü, ağıllı, sosial yönümlü dövlət tənzimləməsidir. Ancaq bu cür amil və şərtlər daxilində müharibələrin ağır nəticələrinə məruz qalmış QA kimi region qısa müddətdə böyük iqtisadi nailiyyətlər əldə edə bildi.

QA-nın iqtisadi inkişafının növbəti hərəkətverici qüvvəsi regionda bərqərar olmuş demokratiya və hüquqi tənzimləmə mexanizmləridir. QA demokratiyasının və hüquqi tənzimləmələrinin bir ali məqsədi var: insanın real azadlığını və suverenliyini təmin etmək, insani dəyərləri qorumaq. Beləliklə də insan amili QA ölkələrinin iqtisadi inkişafına çox güclü təsir göstərir və xüsusən ikinci dünya müharibəsindən sonrakı dövrlərdə iqtisadi inkişafın əsl hərəkətverici qüvvəsinə çevrilmişdir. Əslində hər şey elə insan amilindən başlayır. Axı yüksək texnika da, texnologiya da, keyfiyyətli məhsul da son nəticədə insanlar və onların rifah halının yaxşılaşması üçün yaradılır. İnsan sonradan istehsal vasitələrindən istifadə edib maddi nemətlər yaradır. Lakin əgər istehsal vasitələri və yaradılmış məhsul insanin özündən (əməkdən) ayrı düşürsə, insana ikinci, üçüncü dərəcəli münasibət bəslənirsə, insanın özü həm istehsalın və həm də inkişafın və səmərəliliyin yüksəldilməsi tormozuna çevrilir. Bu keçmiş SSRİ adlarının imperiyanın - Rusiyanın təcrübəsində isbat edilmişdir. Təbii resurslar cəhətdən kifayət qədər zəngin olan nəhəng Rusiyada səmərəli iqtisadiyyatın formalaşmamasının başlıca səbəbi bu ölkədə insan amilinə lazımi diqqətin yetirilməməsi olmuşdur və çox təəssüflər olsun ki, bu meyl indi də qalmaqdadır. QA ölkələri isə uzun illərdir ki, insan amilini əsas tutaraq, insana hörmət edərək, onun tələbatlarının hərtərəfli ödənilməsi qayğısına qalaraq böyuk sosial-iqtisadi nailiyyətlər əldə edə bilmişlər.

Növbəti hərəkətverici qüvvə QA-da iqtisadiyyatının açıqlılıq səviyyəsinin həmişə yüksək olmasıdır. Məhz bu cəhət imkan verirdi ki, ABŞ regiona "Marşall planı" çərçivəsində külli miqdarda maliyyə köməyi göstərsin və birbaşa investisiya formasında QA ölkələrinə xüsusi kapital axınını təşkil edə bilsin.

## 4.5. [illegible]

...un ...

...u...

éàí àøì àëàðäàí, ií ðàëëåêóàë ÿì ÿêäÿí və ümumiyyətlə, insan resurslarından í ÿ äÿðÿúÿäÿ ñÿì ÿðÿèè ...

Ôåäåðàòèâ Ðåñïóáëèêàñûdır (ÀÔÐ). Áó þëêÿíèí ...

... . Ölkənin ... ... Hå...

... (1963-1966) ...

... He ... d ...

... k ... He x ...

... He ...

... H ...

... -ű ì àëëéÿ êþì ÿéè úåäè də stə k oldular.

... 1950- ... ( ... 10 ... )

... -d ...

... iqyas ...

. -23,7%,
27%- -(1997-).
He
-.
1
.

## 4.6.

g
. -
. 1979- d .
həyata êå÷ðèëìèø âÿ ìöñáÿò íÿòè
a -
ðèë àñû èäàðåéàñûíû ùÿéàòà êå÷èðèëìÿñè âÿ áó éîëëà èãòèñàäèééàòäà
-
.

n ,
, d
1 -
, , ,
, olmuşdu.
iqtisadi durumu olan Byk Britaniyada 1979-ju ilin mayında êîíñåðâàòîðëàð ïàðòèéàñû ùàêèì èééÿòÿ ýÿëäè êè, îíóí äà áàøûíäà M.Tetçer dururdu. Hakimiyyə tə gə lə n kimi M.Tetçer hökumə ti èãòèñàäèééàòûí àíëàí äûðû àüà kömə k göstə rə bilə n ïóë
, ,
çÿêèëìÿñè ÿñëèÿ yönə lə n, õöñóñè áþëìÿéÿ äþâëÿò ñóáñèäèéàëàðûíû və

ümumiyyətlə, äþâëýò õýðúëýðëé è àçàëòì àüà éþíýëýí èñòèãàì ÿòëýðäÿ [illegible] áèðëýð həyata êå÷èðì ÿéÿ áàøëàäû Í ÿòèúýäÿ 1982-1983- [illegible] 5,0% [illegible] .[illegible]in [illegible] òÿñÿððöôàòëàðûí və sahibkarların maraqlarını nəzərə alırdı. Onlara rent abelli [illegible] ,d [illegible] v [illegible] d [illegible] r, [illegible]. Əí ÷î õ óäàí èñÿ õöñóñè ñåêòîð, Èí ýèëòÿðÿí è [illegible].

[illegible] .T [illegible]

## 4.7. [illegible]

[illegible] əñèí èí ÷î õ ýöúëö îëì àñû vÿ onun éåíè, [illegible] 100 [illegible] b t n [illegible]

[illegible]. “[illegible]”, “[illegible].” [illegible] þêÿêýðàÿ äþâêÿò ÿí ÷î õ ñî ñèàë ñàùÿäÿ iş ýþðöð âÿ ì öêêèéÿòëÿ [illegible] “H[illegible]”, “[illegible]”, “[illegible]”, “[illegible]” [illegible] A [illegible] ëãäàí óçàãëàş äûðûë à [illegible].

## §5. [illegible] ƏËƏÐ ÂƏ ÄÖÍ ÉÀ Ì ÃÒÈÑÀÄÈÉÀÒÛ ÄÀ Í ËÀÐÛ Ì ÞÂÃÅÉÈ

### 5. 1. [illegible]

[illegible], “[illegible]” [illegible] “[illegible]”, “[illegible]”, “[illegible]”, “[illegible] n [illegible]” (1950-[illegible]) [illegible]. 1980-[illegible]

[illegible] “[illegible]» [illegible] (“[illegible]” [illegible]). [illegible] «[illegible]», [illegible] “[illegible]” [illegible].

“[illegible]” [illegible] þèêýÿëÿðèí ñàéû éöçäÿí ÷îõäóð. Áóðà XIX ÿñðäÿ âÿ Ì êèéúè äöíéà [illegible], b [illegible] âàð êè, îíëàð (Ì ÿñ. Úÿ íóáè Êîðåéà Ðåñïóáëèêàñû, Òàéâàí, Hîíêîíã, [illegible].) [illegible].

“[illegible]” [illegible] ëãòèñàäè éàòûí ÷îõó êèìàäûð ëèûû, Ì ÿùñóëëàð ãöââÿëÿðèí çÿèô ëèêëèêäûð, [illegible], [illegible], pi [illegible], [illegible], [illegible] na [illegible] ëð àðàñûíäà [illegible] i lla [illegible].

[illegible] òÿñÿððöôàòëàðû éåêíÿsë ãäèð. Ì ÿùñóëëàð ãöââÿëÿðè ì öõòÿëèô õàðàêòåð [illegible], [illegible]-[illegible].

## 5.2. [illegible]

[illegible] 100- [illegible] yerdə [illegible]

[illegible]

### 1. [illegible]

[illegible]

ğ àqadir dövlə tlə rdir. Onlar

ñà xëàäûãlàðı ë ùèñàð âÿçèééÿòèÿðè ÿ çÿðáÿ âóða bilə rëə ð.

2. (YS )

Bu

siya

H

YS -

e t

Möòÿõÿññèéÿðè ï ðî ãí î çëàðû à ýþðÿ ÕÕl ÿñðàÿ Asiya və Sàêèò

O n

A

p

T

p j r.

“ ”

, 1980-ji əð É ÑÞ -lər

n

äÿ ðåàë í àì èçÿäàëðÿð. Áó ûöð ë êèøàðãàà î ëàí þëëÿlə rë ñöðÿòëè

ǝ êèəàôû nı n sə bə bi ñî í èëèÿðàÿ î í ëàðû ñÿí àéåì

3.

ox

p

1 ( I )

d . 1920-úè èëàÿ mə lum î ëàó êè, áó

m a .

1929-1933- da

-

.

A

1

.

.

a

. A

, 1940-1950- « è nà ñû-ðàéû, ű", 1960-1970-úè èëèÿðàÿ "Áðàçèëèéà ì þúöçÿñè" baş versə də áöòþâëèöêàÿ

.

1970- ,

.

.

(1920- )

.

di.

[illegible]

nəzə rə alı narsa, èíêèøàôûà îëàí þëèÿëÿðèäèëÿÿð ì öõòÿëèô ãðóïëàðda [illegible]

[illegible] àüûàêû èêèÿëàâÿ ş ÿðèþäÿì ÿëàèð:

**1.** [illegible] 20% [illegible];

**2.** [illegible] 20%-[illegible].

[illegible] 50 [illegible] 1) [illegible] 350 [illegible] 2) [illegible] 20%-[illegible] 3) [illegible] 10%-[illegible] 8 [illegible] 28 [illegible] 5 [illegible]

## VIII FƏSİL. DÜNYA SƏNAYESİ VƏ İQTİSADİYYATIN İNKİŞAFINDA ONUN ROLU

### §1. Sənaye - iqtisadiyyatın xüsusi bölməsidir

Sərlövhədə “xüsusi” sözünü işlətməkdə məqsəd sənayenin iqtisadiyyatda özünəməxsus yer tutmasını qabartmaqdır. Doğrudan da sənaye ölkə iqtisadiyyatını yüksəltmək və ölkədə sosial-iqtisadi məsələlərin həll edilməsi üçün hər şey etməyə qadirdir. Təki dövlət rəhbərləri yaradıcılıqla bütün resursları səfərbər edib sənayeni inkişaf etdirməyə səy göstərsinlər. Populyar şəkildə bu cümləni işlətməkdə məqsədimiz göstərməkdir ki, doğrudan da ölkə var sənayesi yüksək dərəcədə inkişaf edib, baxmayaraq ki, bunun üçün resurs imkanı ya heç yoxdur, ya da məhduddur, ölkə də var ki, təbii resursları ola-ola sənayesi çox zəif inkişaf edib. Bəs bunun səbəbi nədir? Sənayenin aparıcı rolunu dərindən başa düşən dövlət rəhbərləri öz ölkələrində güclü sənaye yarada bilmişlər. Planetimizdə güclü ölkə **sənayesi inkişaf etmiş** ölkələrə deyirlər. Çox məhdud şəkildə təbii resursları olan Yaponiya, Qərbi Avropa ölkələri sənayeni inkişaf etdirməklə dünyanın üç güc mərkəzindən ikisini təşkil edirlər (birinci güc mərkəzi ABŞ-dır ki, onun da sənayesi dünyanın ən nəhəng ölkə sənayesidir).

Sənayenin aparıcı rolunun hərəkətverici qüvvələri nədir?

İriləşdirilmiş şəkildə cəmiyyəti yaşadan iki sahə var - kənd təsərrüfatı və sənaye. Bunlardan da birincisi kənd təsərrüfatıdır. Tarixi baxımdan sənaye iqtisadiyyatın bir sahəsi kimi sonralar meydana gəlib. Lakin buna baxmayaraq böyük daxili imkanlara malik olduğunu göstərib. Sənaye maddi istehsal sferasından əmək bölgüsü nəticəsində ayrılmış və inkişaf etmişdir. Praktiki baxımdan kənd təsərrüfatının inikşafı üçün sənayedən qat-qat çox məhdudiyyətlər var. Sənayenin inkişaf imkanları və sosial-iqtisadi inkişafa təsir dairəsi çox şaxəlidir və ETT ilə üzvi birləşdikdə isə hətta sonsuzdur.

Bu gün dünya miqyasında sənaye şaxələnmiş, onun çoxlu sahələri, yarımsahələri dünyanın bütün ölkələrində fəaliyyət göstərir. Sənayenin inkişafı indi bir çox ölkələrin ÜDM-da üstün xüsusi çəkiyə malik olan və “üçüncü struktur” adlanan xidmət sahəsinin də inkişafına səbəb olmuşdur. Sənaye inkişaf etdikcə ölkələrin ÜDM-da onun xüsusi

çəkisi artır, kənd təsərrüfatının xüsusi çəkisi isə əksinə, həddən çox azalır. Aşağıdakı verdiyimiz cədvəlin məlumatlarından sənayenin ÜDM-da tutduğu yer aydın görünür (cədvəl 19).

**Cədvəl 19**

**Dünyada və ayrı-ayrı ölkələrdə ÜDM-un quruluşu (1997-ci il %-lə)**

| Ölkə və regionlar | Ümumi daxili məhsul | | | |
|---|---|---|---|---|
| | cəmi | O cümlədən mənbələri üzrə | | |
| | | kənd təsər-rüfatı | sənaye | xidmət |
| Bütün dünya | 100 | 6,7 | 37 | 56,3 |
| o cümlədən ölkə və regionlar üzrə | | | | |
| ABŞ | 100 | 3 | 32 | 65 |
| Rusiya | 100 | 7 | 39 | 54 |
| Türkiyə | 100 | 17 | 28 | 55 |
| Yaponiya | 100 | 2,0 | 38 | 60 |
| Azərbaycan | 100 | 22 | 18 | 60 |
| Ermənistan | 100 | 44 | 35 | 21 |
| Gürcüstan | 100 | 35 | 35 | 30 |
| Fransa | 100 | 2 | 26 | 72 |
| Aşağı və orta gəlirli ölkələr | 100 | 16 | 36 | 44 |
| Cənubi Afrika (cənubdan Saxaraya qədər) | 100 | 25 | 36 | 39 |
| Şərqi Asiya | 100 | 19 | 45 | 36 |
| Avropa və Orta Asiya | 100 | 11 | 36 | 53 |
| Cənubi Asiya | 100 | 27 | 28 | 45 |
| Yüksək gəlirli ölkələr | 100 | 3 | 36 | 61 |

## §2. Sənayenin aparıcı rolunun mahiyyəti

Sənaye ölkə təsərrüfatının başlıca və aparıcı sahəsidir. Bu fikrə bütün kitab, monoqrafiya, dərslik və dərs vəsaitlərinin səhifələrində rast gəlmək olur. Sənayenin aparıcı sahə olması isə demək olar ki, hamı tərəfindən təsdiqlənir. Təcrübə də bunu sübut edir. Bəs sənayeni iqtisadiyyatın aparıcı sahəsi edən nədir?

İlk növbədə, bu, sənayenin buraxdığı məhsulun xarakterik xüsusiyyəti ilə bağlıdır. Sənayedə istehsal olunan məhsulun böyük bir hissəsi sonradan əmək aləti kimi istifadə edilir. Sənaye öz məhsulları ilə iqtisadiyyatın bütün sahələrində və eyni zamanda sənayenin özündə istehsalı qabaqcıl texnika və texnologiya ilə silahlandırır. Sənayedə müxtəlif cür (tip) maşın və mexanizmlər, bina və qurğuların ayrı-ayrı elementləri istehsal edilir, neft, filiz, duz, daş kömür, təbii qazdan və s. bu kimi faydalı qazıntılar hasil edilir, yenidən işlədilir, materiallar emal edilir, istehlak malları istehsal edilir.

Sənaye məhsulu bir əmək aləti kimi ölkə iqtisadiyyatının bütün sahələrində istifadə edilir. Buna görə də kənd təsərrüfatının, rabitənin, tikintinin, nəqliyyatın, maddi-texniki təchizatın, ticarətin, tədarükün, ictimai iaşənin iqtisadi inkişafı son nəticədə sənayedən asılı olur. Sənaye iqtisadiyyatın bütün bu sahələrini keyfiyyətli, davamlı, etibarlı, uzunömürlü, münasib qiymətli avadanlıqlarla təchiz etməlidir. Sənayecə istehsal edilən maşın və mexanizmlərin məhsuldarlığı iqtisadiyyatın digər sahələrində də əmək məhsuldarlığını yüksəltmək üçün əsas amil hesab edilir.

Sənaye ölkənin və dünyanın iqtisadi potensialının güclənməsinin ilkin şərtidir. Təsadüfi deyildir ki, dünya iqtisadiyyatına aid olan çap materiallarında "inkişaf etmiş ölkələr" ifadəsi "sənaye cəhətdən inkişaf etmiş ölkələr" ifadəsi ilə əvəz olunmaqdadır. Ona görə ki, inkişaf etmiş ölkə ancaq sənaye cəhətdən inkişaf etmiş ola bilər. Sənaye güclü olarsa iqtisadi potensial da güclü olar. ABŞ, Yaponiya, Böyük Britaniya, Almaniya Federativ Respublikası, Fransa və Qərbin digər ölkələrinin

iqtisadi potensialı ona görə yüksəkdir ki, bu ölkələrdə sənaye lazımi səviyyədə inkişaf etdirilmişdir.

Sənaye ölkənin sosial məsələlərini həll etmək xüsusiyyə-tinə malikdir. İlk növbədə sənaye əhalinin həyat səviyyəsinin yüksəldilməsinə səbəb olur. Sənaye iş yerləri yaradır, məşğul-luğu yaxşılaşdırır, işsizliyi azaldır.

Təxminən 30 il bundan qabaq ETT-nin nəticəsi kimi kompüter inqilabı başladı. Bunun mənfi sosial nəticəsi o idi ki, çoxlu işçi ixtisara düşdü. Belə hal hətta inkişaf etmiş ölkələrdə sosial partlayışların meydana gəlməsinə səbəb ola bilərdi. Lakin demək olar ki, bu baş vermədi. Səbəbi yenə də sənaye idi. Sənaye yeni iş yerləri yaratmaq qabiliyyətini bir daha nümayiş etdirdi. Sənayenin aparıcı sahə kimi mahiyyətinin əsas cəhəti də elə bundadır. Əgər yada salsaq ki, bir əmək aləti olmaqla kompüter texnikası da sənayenin məhsuludur, onda sənayenin sosial-iqtisadi inkişafda aparıcı rolu aydın olar.

İstehsal etmək, sosial-iqtisadi tələbatları ödəmək bütün ölkələrin istək və arzusu olsa da buna hamı eyni dərəcədə nail ola bilmir. İlk növbədə ona görə ki, bu gün dünya bazarında hökm sürən qızğın rəqabət şəraitində potensial alıcılara ancaq keyfiyyətli və xüsusən də az əmək, enerji, material tutumlu, nisbətən az istehsal xərcləri ilə başa gələn və yüksək istehlak göstəricilərinə malik məhsul yol tapa bilir. Deməli, ölkələr sənayedən bir aparıcı sahə kimi bəhrələnmək istəyirlərsə hər hansı bir istehsal yox, ancaq **yüksək səmərə verə bilən** istehsal formalaşdırmağa nail olmalıdırlar. Məhz bu məsələnin də həlli yenə də sənayedən asılı olur. Həqiqətdə burada söhbət sənaye vasitəsilə sənaye istehsalının səmərəliliyinin yüksəldilməsindən gedir. Bu işin öhdəsindən də sənaye cəhətdən inkişaf etmiş ölkə müvəffəqiyyətlə gələ bilər. Bundan başqa, geniş nomenklatura və çeşidlər üzrə məhsul istehsal edən müəssisə və birliklər, firmalar və şirkətlər istehsalı yenidən təşkil edərkən, prinsipcə yeni məhsul istehsal edərkən çoxlu sayda texnoloji avadanlıqları yenisi ilə əvəz etməli olurlar. Bu məsələ də sənayedən və onun sahə quruluşundan asılı olur. Ən yeni maşın,

mexanizm, aqreqat, EHM və s. istehsal edilir. İstehsalın texniki səviyyəsinin innovasiya proseslərinə uyğun gəlməsi üçün sənayedə buraxılan maşın və qurğular, cihaz və ləvazimatlar elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirməli və deməli, mütərəqqi olmalıdır. Bu tələbin ödənilməsi isə bilavasitə sənayenin özündən, orada gedən texniki, texnoloji, təşkilati, sosial-iqtisadi proseslərdən asılı olur. Proseslərin və dəyişikliklərin elmi əsaslar üzərində baş verdiyi dövlət son nəticədə rəqabət dözümlü sənaye məhsulu istehsal etmək imkanı əldə edir və çoxlu iqtisadi səmərə qazanır. Yeri gəlmişkən qeyd edək ki, sənayenin ən səmərəli və onun aparıcı sahə olması, həm də bununla izah olunmalıdır ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə il ərzində yaradılan əlavə dəyərin 35-40 faizi sənayenin payına düşür.

Sənaye məhsulu daha çox elmtutumludur. Bütün ölkələrdə və xüsusən də inkişaf etmiş ölkələrdə fundamental tədqiqatlarla yanaşı tətbiqi tədqiqatlar da həyata keçirilir. Təhlil göstərir ki, fundamental tədqiqatlar ayrı-ayrı institutlar tərəfindən aparılırsa, tətbiqi araşdırmaların əsas hissəsi sənayenin payına düşür. Bu gün öz məhsulları ilə dünya bazarında liderlik edən aparıcı ölkələr sənayedə elmtutumlu məhsul istehsalını artırırlar. Geri qalmamaq üçün sənayedə elmi-tədqiqat işlərinə yönəldilən vəsait ilbəil artırılır. 1996-cı ildə ABŞ elmi-tədqiqat və layihə-təcrübə işlərinə 184,7 milyard dollar vəsait xərclənmişdir ki, bunun da əsas hissəsi (70%-i) birbaşa və ya dolayısı yolla sənayenin payına düşür. Amerika Birləşmiş Ştatları dünyada hərbi və istehsal təyinatlı superkompüterlər, aviasiya və kosmik texnika, lazer, biotexnologiya və s. bu kimi elmtutumlu sənaye məhsulları istehsalı üzrə dünyada lider mövqelərini saxlamaqdadır.

Sənaye istehsalı ilə elmin əlaqələndirilməsi, iqtisadiyyatın digər sahələri ilə elmin əlaqələndirilməsindən daha çox fayda verir. Elmlə sahibkarlıq fəaliyyətinin sənayedə üzvi surətdə birləşməsi müxtəlif formalarda həyata keçirilir. Sürətlə inkişaf edən innovasiya biznesi böyük əhəmiyyət kəsb edir. Onun mərkəzində ərazi elmi-istehsal kompleksləri durur. İnkişaf etmiş ölkələrdə belə komplekslər

“Texnopark”, “texnopolis” kimi adlandırılır və onların əsas məqsədi sənayedə elm tutumlu məhsul istehsalını artırmaqdır. Texnopolislərdə prinsipcə ən yeni texnikalar və texnologiyalar yaradılır, sınaqdan çıxarılır və elmtutumlu məhsulların kiçik seriyalarla buraxılmasını təşkil edirlər. ABŞ-da 100-dən çox texnopolislər fəaiyyət göstərir. Dünya miqyasında elmtutumlu məhsulun 40%-ə qədəri, ABŞ-ın payına düşür. Elmtutumlu sənaye məhsulu iqtisadiyyatın digər sahələrinin də sürətli inkişafı üçün şərait yaradır. Bu da sənayenin iqtisadiyyatda aparıcı rolunun mahiyyətinin nədən ibarət olduğunu göstərir.

İqtisadiyyatın bütün bölmələri bu və ya digər səviyyədə inkişaf edir. Bunu dünyanın həm zəif, həm də güclü ölkələrinin uzunillik təcrübəsi göstərir. Lakin tarixin öyrənilməsi aydın gös-tərdi ki, əmək bölgüsü nəticəsində sənayenin kənd təsərrüfatından ayrılıb sərbəst sahəyə çevrilişindən sonra vəziyyət də-yişmişdir. Sənayenin inkişafı, burada istifadə edilən üsul və yanaşmalar, istifadə olunan prinsiplər, istehsalın təşkili həmişə iqtisadiyyatın digər bölmələri üçün nümunə olmuşdur. “Səna-yeləşmə”, “sənaye üsulu” kimi terminlərin meydana gəlməsi və kütləviləşməsi də sənayenin qabaqcıl sahə olmasını göstərir.

Sənaye ölkə ərazisinin sosial-iqtisadi inkişafına güclü təsir göstərir. İnkişaf etmiş mahal, kiçik və ya böyük ərazi, kənd, qəsəbə, rayon o ərazilərə demək olar ki, orada bu və ya digər səviyyədə sənaye inkişaf etmiş olsun. Sənaye yerləşdiyi ərazinin təbii və insan resurslarından səmərəli istifadə edilməsi üçün obyektiv əsas yaradır, yerli xammal və materialların istehsala cəlb edilməsinə səbəb olur, yeni iş yerləri yaratmaqla əhalinin ölkə ərazisində bərabər və proporsional yerləşməsini təmin edir. Dünya miqyasında çoxlu misal göstərmək olar ki, sənayenin ərazi baxımdan düzgün yerləşdirilməməsi, bir sıra sosial-iqtisadi gərginliklərin meydana çıxmasına səbəb olmuşdur. Bizim respublikamız buna əyani sübutdur. Keçən əsrin əvvəllərindən sənayenin sürətli inkişafı (neft və qazın hesabına) baş verirdi. Lakin Rusiyanın apardığı məqsədyönlü mənfi siyasətin nəticəsində sənaye və onunla əlaqədar olan müəssisələr əsasən Bakı şəhərində

yerləşdirildiyindən, respublikamızın digər rayonlarında məhsuldar qüvvələrin inkişafı çox zəif inkişaf etdirilirdi. Keçmiş SSRİ adlanan dövlət dağıldıqdan son-ra bu mənfi hal daha qabarıq şəklidə özünü göstərdi. Nəticədə iş yeri tapmayan əhali respublikanın sənayesi olmayan rayonlardan getməyə, başqa xarici ölkələrdə və Bakıda iş axtarmağa məcbur oldular. Bu gün əhalinin həddindən çox hissəsi Bakıda məskunlaşmışdır ki, bu da şəhərdə sosial gərginliyi artırmış, nəqliyyatın işi çətinləşmiş, şəhərin ekologiyası pisləşmiş, kriminal vəziyyət gərginləşmiş, işsizlərin sayı artmışdır. Bütün bunların əvəzində respublikanın digər şəhər və rayonlarında əhali seyrəkliyi əmələ gəlmişdir. İşləməyən müəssisələrin istehsal potensialı sıradan çıxmaq üzrədir. Bu böyük itgidir. Hesablamalara görə sənayenin düzgün yerləşdirilməməsi hər il respublikamıza milyardlarla ziyan vururdu.

Sənaye ərazilərdə istehlak mallarına olan tələbatın optimal ödənilməsinə səbəb olur. Təsərrüfatların  yüksək texniki səviyyədə qalması üçün şərait yaradır.

Bazar iqtisadiyyatı şəraitində ən mühüm məsələ ölkənin iqtisadi təhlükəsizliyini təmin  etməkdir. Bu problemin optimal həlli bilavasitə sənayedən asılı olur. İqtisadi təhlükəsizlik tələb edir ki, ölkə bacardıqca çox rəqabət dözümlü məhsul istehsal edib, daxili və xarici bazara çıxara bilsin. Sənaye inkişaf etdikcə dövlətin iqtisadi təhlükəsizliyi yüksəlir, ölkə asılı ölkədən digər ölkələri özündən asılı edən ölkəyə çevrilir. Bunun əksi də baş verir: sənaye cəhətdən geri qalan dövlətin digər ölkələrdən asılılığı artır. ABŞ, Yaponiya, Almaniya Fransa və s. bu kimi inkişaf etmiş digər ölkələrin iqtisadi təhlükəsizliklərinin yüksək olmasının bir amili də sənayedir. Onu da qeyd edək ki, söhbət, burada ümumi sənayedən getmir, sənayenin emal fazasından gedir, o sənayedən ki, harada elm, texnika və istehsal üzvi şəkildə əlaqələndirilmiş və yüksək səmərə əldə etmək üçün məhsuldar mühüt yaranmışdır.

Sənayenin  aparıcı rolu onun elmi-texniki tərəqqiyə müsbət təsir göstərməsi ilə də izah edilir. Elmi-texniki, texnoloji ideyalar öz tətbiqi yerini sənayedə tapır. Sənaye elmi-texniki tərəqqinin

sürətləndirilməsinə bir neçə istiqamətdə təsir göstərə bilir. Birincisi, sənaye elmi-tədqiqat və layihə-təcrübə işlərinin aktiv sifarişçisidir. İnkişaf etmiş ölkələrdə elmi-texniki yüksəliş məqsədyönlü həyata keçirilir, prosesin özü isə kom-mersiyallaşmışdır. Elmin, texnikanın, texnologiyanın inkişafı tələb və təklif iqtisadi qanununa əsasən həyata keçirilməlidir. Sadə dildə desək elmin inkişafına sifariş olmalıdır. Sifarişi isə iqtisadiyyatın ayrı-ayrı sahələri verməlidir. Təcrübə göstərir ki, sənaye burada da birinci yeri tutur. Məsələn, Amerika Birləşmiş Ştatlarında sənaye belə sifarişlərin 50%-dən çoxunu verir. Elmi-tədqiqat və layihə-təcrübə işlərinin keyfiyyətini, vaxtında və kompleks aparılması onların lazımi səviyyədə maliyyələşdirilməsini tələb edir. İnkişaf etmiş ölkələrdə sənaye ETİ-nin maliyyələşməsində, ayrılmış vəsaitlərin mənimsənilməsində həlledici rol oynayır. Elmi-tədqiqat və layihə-təcrübə işlərinə çəkilən xərclərin maliyyələşdirilməsi üç struktur-dövlət, sənaye kompleksləri və ali məktəblər tərəfindən həyata keçirilir. Dərc olunmuş materialların təhlili göstərdi ki, məsələn, ABŞ-da sənayenin payı təxminən 70% təşkil edir. Sənaye bütün elmi-texniki işləmələrin 85%-nə qədərini öz üzərinə götürür. Sənaye tətbiqi elmi-tədqiqat işlərinin, sənaye yeniliklərinin işlənib ortaya çıxarılmasının, ideyaların yayılmasının, yeni məhsulların mənimsənilməsinin, köhnə məmulatların istehsalının dayandırılmasının əsas ağırlıq mərkəzini öz üzərinə götürür. Qalan iki struktur - dövlət və ali məktəblər də sənaye ilə birlikdə, onunla üzvi şəkildə fəaliyyət göstərirlər. Nəticədə bu üç struktur vahid innovasiya sistemi yaradır. Bu konveyer qabaqcıl sahələri ideyalarla, yüksək ixtisaslı kadrlarla, ən yeni məhsul nümunələri ilə təmin edir. İnnovasiya konveyerlərinin əsas aparıcısı, lideri, sifarişçisi, maliyyələşdiricisi, yeniliklərin istehlakçısı isə sənaye kompleksləridir, sənaye sahibkarlarıdır.

Sənayenin aparıcı rolu ölkənin müdafiə qabiliyyətinə təsiri ilə də izah edilir. Sənaye müasir hərbi texnikanın bütün növlərini istehsal etməyə qadir olan yeganə sahədir. İnkişaf etmiş ölkələr güclü sənayeləri vasitəsilə özlərinin yaxşı müdafiəsini təmin etməklə yanaşı digər

ölkələrə də istənilən qədər hərbi texnika sata bilirlər və bu yolla da çoxlu qazanc əldə edirlər.

Müasir dünya təsərrüfat sistemi qlobal problemlərlə üzbə-üz dayanıb. Ekoloji məsələlər, Dünya okeanından istifadə olunması, urbanizasiya, əhali artımı, silahlanma və tərkisilahlanma, xəstəliklər, qlobal ərzaq problemi, qlobal beynəlxalq əməkdaşlıq, enerji problemləri və sair bu kimi qlobal problemlərin tez, optimal, səmərəli həll edilməsi də ilk növbədə səna-yedən və onun inkişaf sürətindən aslıdır. Sadaladığımız bu problemlər ilk növbədə müxtəlif və münasib texnikanın və texnologiyanın yaradılması və tətbiqini tələb edir. Məsələn, münasib texnika olmadan Dünya okeanının kilometrlərlə ölçülən dərinliklərində yerləşən dibindən istifadə etmək mümkün deyil. Ekoloji təmiz texnologiyaların yaradılması isə ətraf mühitin qorunub saxlanması üçün lazımdır. Enerji probleminin həlli sənaye iqtisadiyyatında struktur dəyişikliklərinin həyata keçirilməsinin (az enerji tutumlu məhsulların yaradılması və istehsalının çoxaldılması yolu ilə) və daha səmərəli texnika və texnologiyaların istehsala tətbiqini tələb edir. Sənayedə yaradılan tullantısız texnologiyalar isə bir neçə - ekoloji, enerji, resurs ərzaq probleminin həllinə kömək göstərə bilir.

Beləliklə də iqtisadiyyatın bütün sahələrini qabaqcıl texnika və texnologiya ilə təmin edən, ölkənin iqtisadi və hərbi təhlükəsizliyinin başlıca amili olan, sosial-iqtisadi inkişafda həlledici rol oynayan, səmərəli təsərrüfatçılıq üçün lazımi şərait yaradan sənaye, sözün tam mənasında aparıcıdır və hər bir dövlət onun inkişafı qayğısına qalmalıdır.

## §3. Sənayenin coğrafiyası

Sənaye istehsalı ölkələr və regionlar arasında bərabər və proporsional yerləşməmişdir. 1970-ci illərin əvvəllərində Latın Amerikasında, Afrikada, Asiyada və dünyanın digər regionlarındakı zəif

inkişaf etmiş ölkələr qitənin əsas hissəsini təşkil etsələr də (coğrafi baxımdan) istehsal etdikləri sənaye məhsulunun dünya sənaye istehsalında yeri 10%-i də keçmirdi. Dərc olunmuş məlumatlara görə 1975-ci ildə inkişafda olan ökələrin (Çindən, keçmiş SSRİ və Şərqi Avropa ölkələrindən başqa) sənayesi ümumdünya sənayesinin 11,7%-ini təşkil edirdi.

Sənayenin coğrafi cəhətdən bu cür qeyri-proporsional yerləşməsinin səbəblərindən biri ölkələrin inkişaf səviyyəsinin eyni olmamasıdır. Bu cəhət beynəlxalq təşkilatların da nəzər diqqətindən qaçmamış və onlar Planet miqyasında sənaye istehsalının qeyri-bərabər yerləşməsi dərəcəsinin azaldılması qərarına gəlmişdir. Dünya miqyasında bu problemlə BMT-nin xüsusi strukturu - "Sənaye üzrə Birləşmiş Millətlər Təşkilatı" (YUNİDO) məşğul olur. Bu təşkilatın 1975-ci ildə keçirdiyi top-lantıda qəbul etdiyi deklarasiyada 2000-ci ilin axırları üçün inkişaf etmiş ölkələrin dünya sənaye məhsulunun həcmindəki xüsusi çəkisinin 25%-ə çatdırılmasını nəzərdə tutmuşdu. Dərc olunmuş məlumatlara görə 1994-cü ildə bu faiz artıq 17,8% təşkil edirdi. Deməli, təxminən 20 il ərzində inkişaf etmiş ölkələrin payı dünya sənayesinin 11,7%-dən (1975 il) 17,8%-ə (1994) qədər yüksəlmişdir. Bu proses indi də davam edir və dünya sənayesinin ağırlıq Mərkəzi Cənubi-Şərqi Asiyaya tərəf yerini dəyişməkdədir.

Bizim respublikamızın da daxil olduğu keçmiş SSRİ və habelə Şərqi Avropa dövlətlərinin vəziyyəti isə təəssüf doğurur. Bu region ölkələrinin ümumdünya sənayesindəki xüsusi çəkisi azalır, Birləşmiş Millətlər Təşkilatının Sənaye inkişafı üzrə bölməsinin məlumatlarına görə 1975-1993-cü illər ərzində planetin bu məkanında sənayenin xüsusi çəkisi 13 faiz punkta qədər aşağı düşmüş və 1990-cı illərin əvvəllərində MDB və Şərqi Avropa ölkələrinin dünya sənayesindəki xüsusi çəkisi 11,1 faiz təşkil edirdi. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə Şimali Amerikanın payı 26,5%, Yaponiyanın isə 16,4% təşkil edirdi. Göründüyü kimi MDB və Şərqi Avropa ölkələrinin (onların sayı 20-dir) ümumdünya sənaye məhsulundakı xüsusi çəkisi təkcə

Yaponiyanın payından da təxminən 5 faiz punktu qədər aşağıdır. Bu payın içərisində Rusiya payının nisbətən çox olmasını nəzərə alsaq, yerdə qalan 19 ölkənin sənayesinin nə dərəcədə aşağı səviyyədə olması aydın olar. MDB və Şərqi Avropa ölkələrinin sənayesində digər mənfi meyl də müşahidə olunur: getdikcə elmtutumlu məhsul istehsalı azalır. Məsələn, Rusiyada elmtutumlu məhsulun həcmi 1994-cü ildə 10 dəfə azalmışdı.

Birləşmiş Millətlər Təşkilatının sənaye üzrə bölmələrində aparılan iş öz bəhrəsini verməkdədir: inkişafda olan ölkələrin sənayesi üstün inkişaf edir. Hazırda pambıq parça, pal-paltar, ayaqqabı, neft məhsulları üzrə dünya sənaye istehsal güclərinin 30%-ə qədəri bu ölkələrin payına düşür. Bir sıra ölkələrdə isə daha yüksək nəticələr əldə edilir. Məsələn, Hindistanın iqtisadiyyatında sənaye cəhətdən inkişaf etmiş ölkələrdəki oxşar cəhətlər daha aydın görünməyə başlamışdır. Hazırda Hindistan təkcə pambıq parça ilə əlaqədar olan elementar sənaye məhsulunu ixrac etmir, o həm də getdikcə artan həcmdə hesablayıcı texnika və informasiya vasitələri istehsal edir. Böyük həcmli daxili bazarını nəzərə alan Hindistan Qərbin görkəmli firmaları ilə yüksək texnologiyanın ölkəyə gətirilməsi haqqında müqavilələr bağlamağa nail olmuşdur. 1970-ci ildən bu vaxta qədər Hindistan iqtisadi siyasətin liberallaşması sahəsində ardıcıl və məqsədyönlü iş aparır. Bunun nəticəsində sənayenin və xüsusən də onun aparıcı sahəsi olan maşınqayırmanın üstün inkişafını təmin etmişdir.

Sənayenin istər dünya miqyasında, istərsə də ayrı-ayrı ölkələrdə inkişafının və coğrafi cəhətdən yerləşdirilməsinin obyektiv əsası subyektiv yanaşmalardan çoxdur. Məsələ burasındadır ki, hərtərəfli inkişaf etmiş kənd təsərrüfatı da ölkənin iqtisadiyyatını tələb olunan səviyyəyə qaldıra bilmir. Doğrudur, kənd təsərrüfatının inkişafı iqtisadiyyatı yüksəltmək üçün yaxşı şərait yaradır. Lakin sonda ölkənin sosial iqtisadi məsələlərinin həlli sənayesiz mümkün olmur. Bunu nəzərə alaraq müstəqillik əldə etmiş "üçüncü" dünyanın ölkələri öz

sənayelərini inkişaf etdirməyə başladılar. Bu proses müxtəlif şəkildə indi də davam edir.

Maraqlı və əhəmiyyətli məsələlərdən biri də inkişaf etmiş ölkələrdə sənayenin hansı sahələrinin inkişaf etdirilməsi məsələsidir. Sənayenin və onun ayrı-ayrı sahə və istehsallarının coğrafi cəhətdən yerləşməsi konkret ölkənin seçdiyi sənayeləşdirmə modelindən asılı olur. Dünyada gedən proseslərin təhlili göstərir ki, inkişafda olan ölkələr sənayeləşməni üç prinsip üzrəç aparmağa meyillidirlər.

Birincisi onlar ağır sənayeni üstün inkişaf etdirmək və bu əsasda ölkənin gələcək inkişafına nail olmaq prinsipi götürürlər. Əlcəzair bu prinsipə görə özünün baza (energetika, metallurgiya, kimya) sahələrini inkişaf etdirirdi. Göründüyü kimi bu model keçmiş SSRİ-də istifadə edilən modelə oxşayır. İkinci prinsiplə sənaye idxalın əvəz edilməsi prinsipi üzrə inkişaf etdirilir. Bu prinsiplə Latın Amerikası ölkələri sənayeni inkişaf etdirməyə çalışırdılar. İdxalın strukturu dəyişdirilirdi: istehlak malları idxalı getdikcə bu cür malların istehsalında istifadə oluna bilən müxtəlif avadanlıqların idxalı ilə əvəz olunurdu. Bu cür yanaşma nəticəsində istehlak malları istehsalının coğrafyiası dəyişirdi. Üçüncü prinsip bütün vasitələrlə ixracı artırmaq prinsipi idi. Bu prinsipi seçən ölkələr indi "Yeni sənaye ölkələri" adlandırılır. Müxtəlif nomenklaturada və çeşiddə məhsul istehsal etmək və xarici bazara çıxarmaq bu ölkələrin rəhbərlərindən və ilk növbədə sahibkarlardan işə çox ciddi və məsuliyyətli yanaşmağı tələb edirdi. İxracı artırmaq və bu prosesi dönməz etmək üçün istehsalın səmərəliliyini yüksəltmək lazım idi. Müəyyən mənada onlar bunun öhdəsindən gəlirdilər ki, bu da dərin emal edilmiş məhsulların, nisbətən elmtutumlu məhsudların coğrafi yerləşməsinə müsbət təsir göstərirdi.

Sonda qeyd edək ki, hansı prinsipin seçilməsindən asılı olmayaraq inkişaf etmiş ölkələrdə aparılan sənayeləşmə dünya sənayesinin planet üzrə yerləşməsini yaxışlaşdırır. Dərc olunan rəqəmlər də bunu sübut edir. 1960-cı ildə inkişaf etməkdə olan ölkələr dünya sənaye məhsulunun cəmi 6%-ni verirdilərsə, 1975-ci ildə bu rəqəm 11.7-yə,

1994-cü ildə isə 17,8-ə çatmışdı. Hazırda da bu tendensiya davam edir və təxmini hesablaşmalar görə 2010-cu ildə inkişaf etməkdə olan ölkələrin dünya sənaye istehsalındakı xüsusi çəkisi 20% təşkil etməlidir.

## §4. Dünya sənayesinin sahə strukturu

Dünya iqtisadiyyatının aparıcı sahəsi kimi sənaye bir sıra cəhətlərdən öyrənilir. Sənayenin gücünə, şaxələnmə dərəcəsinə, orada baş verən nisbətlər dəyişikliyinə, məhsul buraxılışı müxtəlifliyinə qiymət vermək üçün o struktur cəhətdən öyrənilir. Elmi-tədqiqat işlərində bu üsul struktur üsulu adlanır. Bu üsulun məqsədi öyrənilən obyekti tam şəkildə deyil, onun hissələri şəklində öyrənməkdir. Tam bir obyekti - bizim misalda sənayeni - struktur cəhətdən öyrənməklə biz iqtisadi araşdırmalar üçün çox mühüm olan əlavə məlumatlar əldə edirik.

Sənayenin tərkib hissələrinin ən əsası və ilk həlqəsi iş yerləridir. Məhsuldar qüvvələr inkişaf etdikcə sənaye yavaş-yavaş kənd təsərrüfatından ayrılıb sərbəst sahəyə çevrilənə qədər o özünü iş yerlərində büruzə verirdi (sənaye haqqında fikirləşmədən insan primitiv üsulla bir neçə iş yerində, məsələn, almadan şirə çəkirdi və s.). Sonradan tələbat yüksəldikcə iş yerlərinin sayı artırıldı. Eyni və ya oxşar əməliyyatları yerinə yetirən bir neçə iş yerinin fəaliyyət göstərdiyi yer istehsalın ikinci həlqəsini - müəssisə daxilində istehsal sahəsini təşkil edir. İstehsal sahəsində buraxılan məhsula olan tələbat artıqda istehsal sahələrinin sayı artır və sexlər, müəssisələr meydana gəlir ...

Lakin elmin indiki səviyyəsində biz sənayenin sahə strukturu dedikdə, onun ayrı-ayrı sahələrinin sayı, tərkibi və qəbul edilmiş göstəricilərə görə onlar arasında formalaşmış nisbətləri başa düşürük. Elmi-texniki tərəqqi sürətləndikcə, yeni məhsullar meydana gəldikcə, onların istehsalı mənimsənildikcə sənayedə sahə differensiallaşması baş verir. Differensiallaşma obyektiv və daimi bir prosesdir. Əsasını

məhsuldar qüvvələrin iknişafı və ictimai əmək bölgüsünün dərinləşməsi təşkil edir.

Sənayenin sahəsi bir qayda olaraq bir neçə eyni tipli, oxşar müəssisələrdən ibarət olur. Bu müəssisələrin oxşarlığı istehsal etdikləri məhsulun iqtisadi təyinatlığında, istifadə etdikləri xammal, materiallarda, texnika və texnologiyada, fəhlə və qulluqçuların peşə tərkibində, xüsusi iş şəraitində, istehsalın təşkilində tapır. Lakin müəyyən bir vaxtda bir neçə müəssisənin norması şərti olmadan da sənayenin tərkibində digər sahələrdə istehsal edilməyən məhsul istehsal edən sahə mövcud ola bilir. Məsələn, bu gün dünya sənayesində 700-ə qədər sahələrlə yanaşı, bir bu qədər də ayrıca növ istehsallar fəaliyyət göstərir.

Sənayenin sahə quruluşu ölkənin iqtisadi gücünü, onun potensial imkanlarını, istehsalın səmərəliliyini, elmi-texniki tərəqqinin səviyyəsini xarakterizə edə bilir. Lakin qrup şəkildə sənayenin sahə strukturu vasitəsilə aşağıdakılar haqqında məlumat almaq olar.

1.ÜDM-da sənayenin xüsusi çəkisinin artması ölkədə sənayeləşmə prosesinin dönməzliyini, iqtisadi inkişafın baş verdiyini, yeni iş yerlərinin yaradıldığını, orta sahibkarlar təbəqəsinin inkişaf etdiyini göstərir.

2.Ölkənin və dünyanın sənaye baxımından inkişaf səviyyəsini, bu səviyyəni sənayenin strukturunda əmək alətləri və digər istehsal vasitələri istehsal edən sahələrin kifayət qədər olması və bu sahələrin istehsal etdiyi məhsulların sənayenin ümumi məhsulundakı xüsusi çəkisi xarakterizə edir. Ölkədə sənayeləşmə intensiv surətdə baş verirsə bu xüsusi çəki artır. İstehsal alət və vasitələr istehsal edən maşınqayırmanın xüsusi çəkisinin inkişaf etmiş ölkələrdə daim artması buna misaldır.

3.Ölkənin iqtisadi sərbəstliyini. Sənayenin tərkibində əmək alətləri, istehsal şeyləri, istehsal edən sahələrin müvafiq emal müəssisələrin fəaliyyət göstərməsi ölkəyə imkan verir: birincisi, xalq təsərrüfatının bütün sahələrinin mütərəqqi texnika ilə təchiz etsin və

belə məhsullarla dünya bazarına çıxsın; ikincisi özünün təbii sərvətlərindən səmərəli, öz xalqının mənafeyi üçün istifadə etsin.

4. Ölkənin müdafiə qabiliyyətinin vəziyyəti. Sənayenin tərkibində hərbi texnika istehsal edən sahələrin sayı, tərkibi ölkənin hərbi texnika istehsal edə bilməsi imkanını göstərir. Bundan başqa, ölkə sənayesində ağır sənayenin və xüsusən maşınqayırmanın kifayət qədər paya malik olması hərbi münaqişələr zamanı sülh məhsullarını hərbi məhsullara qısa müddətdə çevirməyə imkan verir.

5. İxrac potensialı haqqında. Sənayenin sahə strukturu inkişaf etdikcə ölkənin xarici bazara müxtəlif məhsullar çıxarmaq imkanını artırır. İnkişaf etmiş ölkələrin dünya bazarına çox, inkişafda olan ölkələrin isə az məhsul çıxara bilmələri də bununla izah edilməlidir.

6. Elmi-texniki tərəqqinin sürətlənməsi haqqında. Sənayedə mütərəqqi sahələrin xüsusi çəkisinin artması ölkədə elmi-texniki tərəqqinin sürətləndirilməsini və elmi və texniki nailiyyətlərin istehsala intensiv tətbiq edilməsini göstərir.

7.İqtisadi inkişafın tipi haqqında. Sənayenin sahə strukturu mütərəqqi olduqca iqtisadiyyatı intensiv yolla inkişaf etdirmək üçün möhkəm əsas yaranır. Sənayedə məhsuldar, dəqiq, az enerji, material, fond tutumlu texnikanın istehsalı artdıqca maddi-enerji resurslarından, texnoloji avadanlıqlardan, əsas fondlarından və istehsal güclərindən daha səmərəli istifadə etmək üçün şərait yaranır və istehsal artmının intensiv yolla əldə edilməsinə səbəb olur.

Sənayenin sahə strukturu ölkə tələbatlarını ödəmək xassəsinə malik olmalıdır. Belə olarsa onda optimal sahə strukturundan söhbət gedə bilər. Optimal sahə strukturu sənayenin elə bir durumunu xarakterizə edir ki, sənaye istənilən vaxtda, istənilən məhsulu minimum istehsal xərcləri ilə buraxmaq xassəsinə malik olsun. Optimal sahə quruluşu əldə etmək üçün elmi-texniki nailiyyətlər istehsala gecikmədən tətbiq olunmalı, istehsalın yeniləşməsi sürətlənməli, istehsal potensialı elmi-texniki inqilaba uyğun formalaşdırılmalıdır. Optimal sahə quruluşu həm də mütərəqqi olmalıdır. Yəni sənayenin tərkibində müasir elmi-

texniki tərəqqini özündə əks etdirən sahələrin xüsusi çəkisi kifayət qədər olmalıdır.

Sənayenin sahə strukturuna qoyulan tələblərdən biri də onun mütəhərrik və dinamik olmasıdır. Sənaye çevik olmalıdır. Ölkədə müxtəlif səbəblər üzündən yarana bilən tələbatı daha dolğun və öz vaxtında ödəyə bilən sənaye çevik sənaye hesablana bilər. Məsələn, 1970-ci illərdə kompüterləşmə və informatika texnikasına tələbat artanda dünyada ancaq Amerika Birləşmiş Ştatlarının sənayesi bu işin öhdəsindən daha çox gələ bildi və kompüter və onların proqram təminatı vasitələri istehsalı üzrə dünya birinciliyini qazandı. ABŞ bu gün də kompüter, məlumat, informasiya, telemexanika, proqram təminatı vasitələri istehsalı üzrə birinciliyi əldə saxlayır və külli miqdarda qazanc əldə edir. İl ərzində ABŞ-da yaradılan ümumi daxili məhsulun 20 faizindən çoxu bu amilin hesabına əldə edilir.

Sənayenin sahə strukturunu öyrənməkdə əsas məqsədlərdən biri də ayrı-ayrı sənaye sahələrinin yerini təyin etməkdir. Məsələn, ölkə faydalı qazıntıları (qaz, neft, daş kömür, dəmir filizi və s.) çıxarırsa bu artıq sənayeni inkişaf etdirməkdir. Ölkə avtomobil istehsalını mənimsəyirsə, bu da sənayedir. Lakin birinci və ikinci hallar səmərəlilik, bacarıq, iqtisadiyyata təsir etməsi nöqteyi-nəzərincə, iş yerləri yaradılması baxımından, texniki tərəqqi cəhətdən və s. müxtəlif təsir buraxır. Qəbul edilmiş qruplaşdırmaya görə birinci halda sənaye hasilat sənayesi, ikinci halda emal sənayesi adlandırılır. Buna görə də ümumi sənaye məhsulunun həcmi nə qədər olursa-olsun bu çox da önəmli deyil, ölkə üçün daha mühüm məsələ sənayenin hasilat və emal bölmələri arasındakı nisbətidir. Təhlil gös-tərdi ki, emal sənayesi inkişaf etmiş ölkələrdə üstün xüsusi çəkiyə malik olur. Emal sənayesinin iqtisadi cəhətdən faydalı olması onun hazır məhsul buraxması və daxili və xarici bazarlarda reallaşdırılıb əlavə mənfəət əldə etməsidir.

Emal sənayesinin tərkibində iqtisadiyyatın ürəyi adlanan maşınqayırma və metalemalı sənayesi fəaliyyət göstərir. Bu sənaye sahəsi öz-özlüyündə 300 dən çox sahə və istehsallardan ibarətdir və

mütərəqqi sahələr hesab olunurlar. Emal sənayesində dünya maşınqayırmasının xüsusi çəkisi 40%-i ötmüşdür (1975-ci ildə - 37%, 1995-ci ildə - 42%).

Mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq vaxtaşırı olaraq sənayenin sahə quruluşu təhlil edilməli və əməli nəticələr çıxarılmalıdır. Təhlil zamanı istifadə edilən və sənayenin sahə strukturunu bu və ya digər səviyyədə xarakterizə edən göstəricilər bunlardır: sənaye sahələrinin ümumi sayı, sahələrin tərkibi, sahələr üzrə istehsal əlaqələrini xarakterizə edən göstəricilər, sahələrin ümumi sənayedə tutduğu yer (ümumi məhsulun həcminə, işləyənlərin sayına, əsas istehsal fondlarının orta illik dəyərinə, istehsal meydançalarının sahəsinə görə ayrı-ayrı sahələrin xüsusi çəkisi).

Sənaye sahələrinin ümumi sayı sənayenin mütərəqqi inkişaf etdiyini göstərir. Ayrı-ayrı sahələrin sayının artması yeni-yeni sahələrin meydana gəlməsini, elmi-texniki tərəqqinin sürətləndirilməsini və onun nəticələrinin istehsala tətbiq edilməsini xarakterizə edir. Lakin nəzərə almaq lazımdır ki, sənayenin sahə strukturu dinamikdir və burada yeni sahələr meydana gəldiyi kimi bir sıra sahələr sıradan çıxır ki, bu da sənaye sahələrinin ümumi sayını azalda bilər. Onu da qeyd edək ki, hər iki hal mütərəqqi hesab olunur. Hər ikisi elmi-texniki tərəqqinin nəticəsidir; elm, texnika inkişaf etdikcə yeni məhsullar meydana gəlir, yeni istehsallar yaranır, tələbata uyğun gəlməyən məhsullar sıradan çıxır və müvafiq istehsal fəaliyyətini dayandırır.

Sənaye sahələrinin tərkibi göstərir ki, ölkə hansı məhsulları istehsal etmək imkanına malikdir. Ayrı-ayrı sahələrin ümumi sənayedəki xüsusi çəkisi sahələrin tutduqları yeri göstərir. Bu xüsusi çəki ümumi məhsula görə hesablandıqda daha yaxşı məlumat əldə edilir. İşçilərin sayına görə hesablanan xüsusi çəki, müəyyən mənada dürüst məlumat vermir. Məsələ burasındadır ki, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi işçilərin sayını azaldır və əksinə, əmək məhsuldarlığı aşağı olan sənaye müəssisələrində işçilərin sayı çoxalır. Bu da məlumatın yanlış olmasına səbəb ola bilər. Sahələrin istehsal

texniki səviyyəsinə qiymət vermək üçün "sənayenin əsas istehsal fondlarının orta illik dəyərində sahənin xüsusi çəkisi" göstəricisindən istifadə edilir.

Sənayenin sahə quruluşu inkişaf etmiş ölkələrdə birbaşa ETT-i ilə təyin edilir. Bu quruluşu azad bazar, vicdanlı (sağlam) rəqabət formalaşdırır. Bazar iqtisadiyyatlı iqtisadiyyat yaratmaq sahəsində zəngin təcrübəsi olan və bu sahədə böyük nəticələr əldə edən ölkələrdə "qabaqcıl" adını o firmalar, şirkətlər, kompaniyalar qazanırlar, hansılar ki, arasıkəsilmədən yeni məhsul, yeni texnika, yeni texnologiya yarada bilirlər və onların kütləvi istehsalına nail olurlar. Bu cür yanaşma nəticəsində sənayenin sahə strukturunda mütərəqqi dəyişikliklər meydana çıxır, strukturun özü isə yüksək mütəhərrik olur. Texniki yeniliklər yaratmaq və istehsalını təşkil etmək bu gün sənayenin qarşısında duran başlıca məsələlərdəndir.

Müasir dövrdə dünya sənayesinin inkişafına, orada baş verən struktur dəyişikliklərinə qiymət verərkən "ümumi məhsulun həcmi" göstəricisindən istifadə edilməsi təcrübəsindən yavaş-yavaş "məhsulun nomenklaturası və çeşidi", "məhsulun rəqabət dözümlülüyü", "məhsulun elm tutumluluğu", "istehsalın uyuşqanlığı", "istehsalın texniki səviyyəsi", "istehsal potensialı" göstəricilərindən istifadə edilməsi təcrübəsinə keçilməsi tendensiyası müşahidə olunur. Elmi-texniki inqilabların intensivləşdiyi indiki dövrdə yenilikçilik, prinsipcə yeni məhsul buraxıb reallaşdırmaq, yeni texnologiyalar tapıb istehsala tətbiq etmək, istehsalı kompüterləşdirmək, məhsulun əmək, fond və material tutumlarını aşağı olan məhsul istehsal etmək sənayenin inkişafına qiymət verərkən daha yüksək qiymətləndirir. Bu yolla qiymətləndirmənin müsbət cəhəti ondadır ki, məsələyə belə yanaşdıqda sənayedə prinsipcə yeni-yeni istehsallar, yarımsahələr, sahələr və bir-biri ilə sıx istehsal əlaqələri olan istehsal kompleksləri meydana çıxır və sənayenin sahə quruluşunda mütərəqqi sahələrin xüsusi çəkisi təhlil edilir.

Sənaye istehsalını məhsulların iqtisadi təyinatlığı prinsipi üzrə qruplaşdırmaq sənayenin sahə strukturu ilə üst-üstə düşmür, ona görə ki,

sahədə istehsal edilən məhsulun natural forması onun iqtisadi təyinatlığını təyin etmir. Buna görə də milli hesablar sistemində dünya üzrə vahid prinsiplər qəbul edilmişdir. Bu cür qruplaşdırmağın mahiyyəti ondadır ki, sənaye sahələrinin bu və digər qruplarını iriləşdirilmiş kompleks sahələrə daxil edirlər. Bu zaman "istehsal olunan məhsulun məqsədli təyinatlığının eynicinsliyi", "ilkin xammalın ümumiliyi", "istifadə edilən texnologiyanın oxşarlığı" əlamətlərindən istifadə edilir. Dünya iqtisadiyyatında ən çox istifadə edilən əlamət "istehsal olunan məhsulun məqsədli təyinatlığının eynicinliyi"dir. Bu əlamətə görə maşınqayırma, yanacaq, yeyinti, tikinti materialları sənayeləri bir kompleks qrupa daxil edilir. "İlkin xammalın ümumiliyi" əlamətinə görə metalemalı və ağac emalı sənaye qrupu fərqləndirilir. Kimya sənayesi kompleksinə müəssisələri "istifadə edilən texnologiyanın oxşarlığı" əlamətinə görə daxil edirlər.

Emal sənayesini də iki qrupa bölmək olar. Bu asılıdır emal edilən ilkin materialın meydana gəlmə mənbəyindən. Əgər emal müəssisələri kənd təsərrüfatı mənşəli xammalı emal edirlərsə onda onlar birinci qrupa, sənaye mənşəli xammalı emal edirlərsə, ikinci qrupa daxil edilirlər. Kənd təsərrüfat xammalını emal edən sahələrə ət, süd, şəkər, şirə, pambıq-parça və s. bu kimi müəssisələr, sənaye mənşəli xammalı emal edən sahələrə isə qara və əlvan metallurgiya, neftayırma və s. müəssisələr daxil edilir.

## 4.1. Dünya sənayesinin sahə strukturuna təsir edən amillər

Dünya sənayesinin sahə strukturu ölkələrin sənayesindən asılıdır. Bəs hər bir konkret götürülmüş ölkənin sənayesi və onun sahə strukturu nədən aslıdır? Ümumiyyətlə sənayeni, onun strukturunu formalaşdıran amil və şərtlər hansılardır?

İlk mühüm amil ölkənin yeraltı və yerüstü təbii sərvtələridir. Təbii sərvətlərin, faydalı qazıntıların sayı, tərkibi və həcmi ölkədə bu və ya digər sənaye sahəsinin yaradılması üçün potensial şərait yaradır. Yəni

nəzəri cəhətdən dəmir filizi olan ölkə hətta metallurgiya kompleksi yaratmaq imkanında olur... pambığı olan ölkə yüngül sənayeni inkişaf etdirmək imkanı əldə edir. Güclü axına malik çayları olan ölkə isə su elektrik stansiyaları tikə bilər və s. Təbii sərvətlər amili həmişə mövcud ola bilər və indi də mövcuddur. Bu amilin mövcudluğu insanlardan asılı deyil. Lakin bu amil nə qədər mühüm olsa da müasir tipli sənaye yaratmaq üçün həlledici deyil.

Həlledici amil rolunu elmi-texniki tərəqqi oynayır. Elmi-texniki tərəqqi sənayenin inkişafına və onun strukturunun təkmilləşməsinə güclü təsir göstərir. Bu təsir kompleks xarakter daşıyır və demək olar ki, tükənməzdir. Elmi-texniki tərəqqi (ETT) sənayenin sahə strukturuna özünün ümumi, xüsusi və ən yeni istiqamətləri ilə təsir göstərir. ETT yeni məhsul növlərinin meydana gəlməsinə səbəb olur. Bu prosesin təsiri altında cihazqayırma sənayesi, mexanikləşdirmə və avtomatlaşdırma, elektron və radiotexnika vasitələri istehsal edən sahələr, kimya sənayesi vasitələrinin istehsalı sürətilə inkişaf etməyə başlayırlar. ETT-nin mühüm istiqaməti olan mexanikləşdirmə və avtomatlaşdırma maşınqayırmanın sürətli inkişafına səbəb olur. Elektrikləşmə maşınqayırma sənayesində generatorlar, transfarmotorlar və digər bu kimi, o dövrlər üçün yeni olan məhsulların istehsalını zəruri etdi. Məhsul istehsallarında geniş miqyasda kimyəvi materiallardan və kimyəvi texnologiyalardan istifadə edilməsi kimya sənayesinin üstün inkişaf etdirilməsi zərurətini ortaya qoyur. Bununla yanaşı olaraq kimya sənayesi üçün avadanlıqlar istehsal edən xüsusi sahələr, geniş nomenklaturada sintetik məhsullar istehsal edən üzvi sintez sahələri, mineral mənşəli xammalın zənginləşdirilməsi prosesini həyata keçirən sahələr meydana gəlir və inkişaf edir.

Elmi-texnkii tərəqqi sənayenin ağır sahələrinə müxtəlif istiqamətlərdə və səviyyədə təsir edir. Elmi- texniki tərəqqi nəticəsində dünya sənayesində baş verən struktur təkmilləşdirmələrinin ümumi meylini göstərmək olar. Bu meyl əsasən aşağıdakılardan ibarətdir.

I. Maşınqayırma sənayesi, yanacaq-enerji sahələri və kimya sənayesi digər sənaye sahələrinə nisbətən daha üstün inkişaf etdirilir.

Maşınqayırmada struktur təkmilləşdirilməsi nəticəsində aşağıdakılar baş verir:

-maşınqayırmanın özü üstün inkişaf etdiyi üçün sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi durmadan artır.

-maşınqayırmanın üstün inkişafı digər sənaye sahələrinin də (məsələn, qara və əlvan metallurgiyanın, rezin və toxuculuq sənayesinin və s.) üstün inkişafını zəruri edir.

-maşınqayırmanın sahə quruluşu dəyişir. Texniki tərəqqini sürətləndirən sahələr ümumi maşınqayırmaya nisbətən üstün inkişaf etdirilir. Bu xüsusən maşınqayırmanın aparıcı sahəsi olan dəzgahqayırmaya daha çox aiddir.

Maşınqayırma sənayesi öz məhsulları ilə maşınqayırmanın özünü, sənayeni və bütün xalq təsərrüfatını yüksək keyfiyyətli maşın, mexanizm və aqreqatlarla təmin etməlidir. Maşınqayırmada istehsal edilən dəzgahlar onlardan istifadə edən sənaye sahələrində, kənd təsərrüfatında, nəqliyyat və tikintidə əmək məhsuldarlığını yüksəltmək, xammal və yanacağa qənaət etmək, istehsalın avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi üçün şərait yaratmalıdır.

II. Elmi-texniki tərəqqi nəticəsində ağır sənayenin mühüm sahələrindən biri olan kimya sənayesi sürətlə inikşaf edir. Bu ilk növbədə sənayenin elmi-texniki tərəqqinin mühüm istiqaməti olan kimyalaşdırmanın inkişafı ilə əlaqədar olur. Elmi-texniki tərəqqi sürətləndikcə məhsul istehsalı ənənəvi metalların kimyəvi materiallarla əvəz edilməsi prosesi güclənir. Bu da sənayenin ümumi məhsulunda kimya sənayesi məhsulunun xüsusi çəkisini artırır.

Elmi-texniki tərəqqi sürətləndikcə sistematik olaraq sintetik materiallar istehsal edən və çox baha başa gələn bir sıra təbii xammal növlərini əvəz edə bilən süni maddə, yanacaq- enerji istehsalı ilə məşğul olan sahələrin rolu artır. Sürətlə inkişaf edən sənayeni və xalq təsərrüfatının digər sahələrini yüksək keyfiyyətli yanacaq və enerji

növləri ilə təmin etmək məsələsi bu sahələrin sürətlə inkişaf etdirilməsini tələb edir.

Elektroenergetikada atom elektrik stansiyalarının sayı və onların istehsal etdikləri elektrik enerjisinin xüsusi çəkisi artır. ETT nəticəsində üzvi yanacaqlı və istilik neytronları ilə işləyən elektrik stansiyalarının da sayı artır.

ETT-nin əyani nəticəsi olan proses - istehsalın elektrikləşdirilməsi prosesinin sürətlə getməsi elektrik enerjisinə olan tələbatı yüksəldir və elektroenergetikanın sürətli inkişafını tələb edir.

III. Elmi-texniki tərəqqi nəticəsində sənayenin ağır, yüngül və yeyinti sahələri arasında olan əlaqələr və qarşılıqlı əlaqələr artır. Bu ilk növbədə öz əksini onda tapır ki, istehlak malları getdikcə daha çox sənayedə ilkin emala məruz qalmış kənd təsərrüfatı məhsullarından hazırlanır. Buna görə də kənd təsərrüfatı məhsullarını ilkin emal edən, pambıqtəmizləyən, yunyuyan, dəri-gön xammalı hazırlayan istehsallar sürətlə inkişaf edir.

IV. Elmi-texniki tərəqqinin təsiri nəticəsində yüngül sənayenin özündə də köklü dəyişikliklər baş verir. Bu dəyişikliklər ümumi şəkildə aşağıdakılarda öz əksini tapır: əyirmə və toxuma istehsallarının xüsusi çəkisi artır; məmulatların nomen-klaturası və çeşidləri sürətlə və daimi olaraq dəyişir; yüngül və yeyinti sənaye sahələri tərəfindən istifadə edilən yanacağın və enerjinin həcmi artır; qeyri-parça materialları istehsal edən sahələr əmələ gəlir və sürətlə inkişaf etdirilir; sintetik materiallardan və onların qarışığından hazırlanan məhsullar istehsal edən sahələrin xüsusi çəkisi artır. Sənaye həyata keçirilən struktur siyasəti burada güclü elmi-texniki potensialın yaradılmasına yönəldilir. Ona görə ki, elmi-texniki potensial və onun səmərəli fəaliyyəti sənayedə texniki tərəqqi üçün münasib şərait yaradır. Bu proseslər bütün dünyada gedir və kiçik və böyük dövlətləri əhatə edir.

Məsələn, respublikamızın sənayesində hər il onlarla yeni keyfiyyətli maşınlar, mexanizmlər, cihazlar, alətlər yaradılır və istehsala tətbiq edilir. Lakin bütün bunlara baxmayaraq elmi-texniki

tərəqqinin müasir inkişaf sürəti bazar iqtisadiyyatının tələblərinə cavab vermir. Qarşıda duran əsas vəzifələrdən biri elmin, texnikanın və texnologiyanın mühüm istiqamətlərini tə-yin etmək və struktur siyasətində onları nəzərə almaqdır.

Belə mühüm istiqamətlərə aşağıdakılar daxildir:

-elmi-texniki potensialdan daha səmərəli istifadə etmək məsələsinin həll edilməsi;

-elmlə istehsalın əlaqələrinin möhkəmləndirilməsi;

-fərdi maşın və mexanizmlərin yaradılması və tətbiqi təcrübəsindən bir-birilə əlaqədə işləyən maşın, mexanizm, cihaz və alətlər sistemi istehsalına və istehsala tətbiqinə keçirilməsi;

-yeni məhsulların istehsalını tez və az ictimai xərclərlə təmin edən uyuşqanlı istehsallar yaradılması;

-istehsalın avtomatlaşdırılma səviyyəsinin yüksəlməsi;

-az tullantılı və tullantısız texnologiyalar işlənib hazırlanması və istehsala geniş tətbiq edilməsi;

-toz metallurgiyasının inkişaf etdirilməsi; ekoloji təmiz texnologiyaların genişləndirilməsi.

-biotexnologiyanın inkişaf etdirilməsi;

-məhsulun keyfiyyətinin yüksəldilməsində standartların rolunun artırılması;

-metalları əvəz edən yeni, daha mütərəqqi süni materiallar istehsalının artırılması, bu sahədə tədqiqat işlərinin gücləndirilməsi.

Dünya iqtisadiyyatında baş verən proseslərin təhlili göstərir ki, əgər sənayenin sahə strukturu optimaldırsa, onda elmi-texniki tərəqqinin sürətləndirilməsi üçün də şərait yaranır. Sənayenin mütərəqqi sahə quruluşu elmin və texnikanın tərəqqisini sürətləndirməyə imkan verir.

Məsələ burasındadır ki, müasir dövrdə elmin inkişafında sənayeləşmə gedir. Elmi-tədqiqat, layihə-konstruktor və təcrübə (eksperiment) işlərin yerinə yetirilməsi üçün yüksək dəqiqliyə malik cihazların, qurğuların, maşın və avadanlıqların olması vacibdir. Bundan başqa, mütərəqqi üsullarla yeni xammal, material, enerji, yanacaq əldə

edilməsi üçün dərin vakuumlu mühitlər, dərin soyuq mühitlər, yüksək hərarət yarada bilən qurğular lazımdır. Belə mühitlərin (qurğuların) yaradılması müvafiq cihaz və aparatların olmasını tələb edir. Məsələn, ifrat təmiz material (metal) əldə etmək üçün maksimum havasız (dərin vakuum) mühitin olması vacibdir. İfrat təmiz materiallarsız isə çox dəqiq cihazlar və nəzarət-ölçü qurğuları hazırlamaq mümkün deyildir. Digər tərəfdən, dərin vakuumlu mühitin yaradılması üçün havanı təcrübə aparılan qapalı qurğudan maksimum həddə qədər sora bilən nasos qurğuları tələb olunur. Əgər sənayedə belə nasos qurğularını istehsal edə bilən sahə, sex, müəssisə, (birlik) yoxdursa, onda ifrat təmiz metal əldə etməklə məşğul olan elmi-tədqiqat institutlarının fəaliyyəti tormozlana bilər, belə cihazların xaricdən alınması mümkün olmadıqda isə bu fəaliyyət tam dayana bilər. Buradan görünür ki, sənayenin strukturu ilk növbədə elmin tələbatlarını ödəməyə qadir olmalıdır, imkan verilməlidir ki, bütün sosial-iqtisadi tələbatlar maksimum və yüksək keyfiyyətlə ödənilsin.

Hazırda ölkələrin və regionların sosial-iqtisadi məsələlərinin həlli rəqəmli proqramla işləyən dəzgahlarla, EHM-la, emal mərkəzləri ilə və mikroproseslər texnikası ilə təchiz olunmuş uyuşqanla istehsalların tətbiqinin genişləndirilməsini tələb edir. Lakin bu məsələ iqtisadiyyatın strukturunu dəyişmədən mümkün deyildir. Tələb olunur ki, məsələn, sənayenin sahə quruluşunda maşınqayırmanın xüsusi çəkisi artırılsın. İnkişaf etmiş ölkələrin təcrübəsi də bunu sübut edir.

Elmi-texniki tərəqqinin sürətləndirilməsində, xalq təsərrüfatının yeni mütərəqqi səviyyəyə qaldırılmasında maşınqayırmanın rolu böyükdür. İctimai istehsalda inqilabi dəyişikliklər yarada bilən müasir texnika maşınqayırmada yaranır. Sənayenin inkişafı və texnika, texnologiyanın üstünlüyü cəhətdən fərqlənən ölkələrin sənayesinin strukturunda maşınqayırmanın xüsusi çəkisi bir qayda olaraq yüksək olur və təxminən 35-45 faiz təşkil edir. Yaponiyada isə bu rəqəm 47-48 faizə çatır. Müqayisə üçün göstərək ki, maşınqayırmanın xüsusi çəkisi keçmiş SSRİ-də 20 faiz, respublikamızda isə 15-16 faizdən də az təşkil

edirdi. İnkişafda olan ölkələrdə isə maşınqayırmanın xüsusi çəkisi bir qayda olaraq azdır.

Sənayedə iqtisadiyyatın strukturunun yenidən qurulmasında əsas məqsəd elmi-texniki tərəqqini sürətləndirməyə imkan verən prioritet sahələrin üstün inkişafını təmin etməkdir. Bunların nəticəsində məhsulun keyfiyyəti yaxşılaşmalı, əldə edilən nəticənin hər vahidində düşən ictimai xərclər azalmalıdır. Elmi-texniki tərəqqinin qənaət rejiminə əməl edilməsinə, resurslara qənaət edilməsi siyasətinin həyata keçirilməsinə yönəltmək tələb oulnur. Bunu ölkələrin hazırki iqtisadi vəziyyəti çox ciddiliyi ilə iqtisadçıların və istehsalı təşkil edənlərin qarşısında qoyur. Bu sahədə Yaponiya böyük nailiyyətlər əldə edib.

Hazırda zəif inkişaf etmiş ölkələrdə istehsal edilən milli gəlirin hər vahidinə inkişaf etmiş kapitalist ölkələrindəkindən xeyli çox xammal, enerji və digər resurslar sərf edilir. Həyata keçirilən struktur siyasəti bu israfçılığa son qoymalıdır. Elmi-texnikii tərəqinin sürətləndirilməsinə xidmət edən struktur siyasəti elə aparılmalıdır ki, son nəticədə istehsalın enerji tutumu göstəricisi yaxşılaşsın.

Uzun illərin təcrübəsi göstərir ki, iqtisadiyyatın strukturu ilə ETT-i arasında birtərəfli əlaqə yox qarşılıqlı əlaqə mövcuddur. Yeni struktur dəyişiklikləri elmi-texniki tərəqqi üçün münasib şərait yaradırsa, elmi-texniki tərəqqinin sürətləndirilməsi də öz növbəsində iqtisadiyyatın strukturuna təsir göstərir. Bu təsir sənayedə daha əyani nəzərə çarpır. ETT sənayenin sahə quruluşuna güclü təsir göstərir: o getdikcə təkmilləşir və optimal sahə quruluşuna doğru inkişaf edir. Sənayenin sahə quruluşunun təkmilləşdirilməsi istehsalın səmərəliliyinin yüksəldilməsinin intensiv yollarından biridir. Sənayenin sahə quruluşu dəyişən xarakter daşıyır.

Elmi-texniki tərəqqi eyni zamanda sənayenin mikroquruluşunda da dəyişikliklər əmələ gətirir. Məsələn, maşınqayırma özü sənayenin aparıcı sahəsi kimi üstün inkişaf etdirilir. Lakin elmi-texniki tərəqqi maşınqayırmanın sahə quruluşuna ciddi tələblər qoyur. Maşınqayırma sənayesində cihazqayırmanı, elektrotexnika sənayesini,

dəzgahqayırmanı, kosmik texnikanı daha böyük sürətlə inkişaf etdirmək lazım gəlir. Maşınqayırmanın mikro sahə quruluşunun dəyişilməsi şaxələnir, bütün yarımsahələri əhatə edir. Məsələn, dəzgahqayırma sənayesinin sahə quruluşunda dəqiq emal avadanlıqlarının, robot texnikasının, rəqəmli-proqramla idarə edilən dəzgahların xüsusi çəkisi artır. Bir qayda olaraq maşınqayırmanın bu mütərəqqi sahələrinin məhsulu daha sürətlə artır. İstər maşınqayırmanın makro və istərsə də mikro sahə quruluşunun dəyişilməsi ölkələrin həyata keçirdiyi iqtisadi siyasətin tələblərinə cavab verməli və iqtisadiyyatın intensiv yolla inkişafının həyata keçirilməsinə yönəlməlidir. Buna görə də yaxın 10-20 ildə qarşıda duran əsas məsələlərdən biri materiallara, yanacağa, elektrik enerjisinə qənaət edən, onlardan daha səmərəli istifadə edil-məsi üçün şərait yaradan texnikanın, texnologiyaların yaradılmasından və bunların istehsalı ilə məşğul olan sənaye sahələrinin daha üstün inkişaf etdirilməsindən ibarətdir. Yaponiya bu sahədə daha mühüm məsələlərə diqqət yetirir. Onlar təbiəti qoruyan texnologiyalar yaratmağa daha çox fikir verirlər.

İnkişaf etmiş ölkələrdə sənayenin sahə quruluşunun yaxşılaşdırılması da resurs qoruyan siyasətə əsaslanır. Bunun başlıca səbəbi dünya iqtisadiyyatında baş verən xammal və enerji böhranlarıdır. Böhranlar lap yüksək səviyyədə təşkil edilmiş, yaxşıca düşünülmüş, elmtutumlu istehsallara belə ölümcül zərbələr vura bilər. İlk növbədə istehsal xərclərinin artmasına görə. Bundan başqa, xammal və materialların bahalaşması sonda avadanlıqların və tikintinin bahalaşmasına səbəb olur. Bu gün dünya miqyasında investisiya siyasəti gər-ginləşib, istehsal xərcləri artmağa meyllidir. Təkrar istehsal da bahalaşır və prosesin özü gərginləşir. Bunun aradan qaldırılması yeni texnoloji inqilabın meydana çıxmasını stimullaşdırır. İnkişaf etmiş ölkələrin hamısı resurs qoruyan texnologiyaya üstünlük verirlər və bu məsələnin həllində sənayenin sahə strukturunun aparıcı rolunu dərk edirlər. İndi hamı bu strukturun təkmilləşdirilməsi haqda fikirləşir. Təhlil göstərdi ki, bu təkmilləşdirmə əsasən iki yolla: a) sənayenin ənənəvi

aparıcı sahələrinin yenidən qurulması və modernizasiyası və b) yeni elmtutumlu sənaye sahələrində məhsul növlərinin, tiplərinin dəyişdirilməsi, prinsipcə yeniləri ilə əvəz edilməsi yolları ilə həyata keçirilir. Lakin bu istiqamətlərin hər ikisi çoxlu vəsait tələb edir. Xərclərin azaldılması amili rolunu yenə sənaye və onun optimal sahə strukturu oynaya bilər. Birinci növbədə isə maşınqayırma və onun strukturu məqsədyönlü inkişaf etməlidir. Bunu nəzərə alan inkişaf etmiş ölkələrin hökumətləri və sahibkarları pul vəsaitlərini maşınqayırmanın aparıcı sahələrinə və yeni meydana çıxan və XXI əsrin tələblərinə uyğun gələn sahələrə yönəltməyə meyillidirlər. Bu cür yanaşmanın çox mürəkkəb olduğunu qeyd etmək lazımdır. Ən ümumi halda investisiyanın mütərəqqi sahələrə yönəldilməsi ilə sənayenin sahə strukturunun yaxşılaşması arasında asılılıq vardır. Lokal hallar üçün qənaətbəxş sayılan bu asılıq qlobal miqyas üçün çətinlik törədə bilər. Ona görə ki, qlobal miqyasda amillər də-yişə və gözlənilməz hallar baş verə bilər. Bir də ki, ayrıca götürülmüş sahibkar və dövlət üçün maraqlı olan məsələ başqadır. Onlar maraqlanır ki, nə qədər vəsait xərcləsinlər ki, ölkə sənayesinin sahə strukturu bu gün və gələcəkdə mütərəqqi olsun.

Sənayenin sahə strukturuna istehsalın ixtisaslaşması və kooperasiyalaşması da güclü təsir göstərir. Bunun da əsasında əmək bölgüsü, dünya iqtisadiyyatı səviyyəsində isə beynəlxalq əmək bölgüsü durur (BƏB). Milli sənayelərin vahid dünya sənayesinə qovuşmasında BƏB həlledici rol oynayır. BƏB nəticəsində ölkələr hər hansı bir məhsul istehsalı üzrə ixtisaslaşa bilər. Belə olan halda onlar istehsal etdikləri konkret məhsul (əşya, onun bir hissəsi, texnoloji hədd, xidmət) üzrə beynəlxalq kooperasiya əlaqələrinə (BKƏ) girib sənayenin inkişafında iştirak edirlər. BƏB sənayenin şaxələnməsini ölkələrdə sənayenin inkişaf etdirilməsinin obyektiv əsasını təşkil edir. Dünya iqtisadiyyatı baxımından BƏB-nün əvəzolunmaz rolu ondadır ki, bu zaman geri qalmış ölkələrdə belə sənayeni inkişaf etdirmək üçün şərait yaranır. BƏB nəticəsində istehsalda iki proses baş verir, birincisi, əməyin bölünməsi, ikincisi əmə-yin birləşməsi. Bu iki prosesin dinamik

birliyi imkan verir ki, vahid istehsal prosesi ayrı-ayrı sərbəst hissəvi proseslərə parçalansın və bu hissələrin istehsalı daha yaxşı (səmərəli) mühit (şərait) olan ölkədə təşkil edilsin.

Beynəlxalq ixtisaslaşma və kooperasiyalaşma nəticəsində sənayenin inkişafı üçün sanki "yeni mənbə" meydana çıxır: ayrı-ayrı ölkələrdə sənayenin inkişaf etdirilməsi üçün iqtisadi stimul yaranır. BƏB nəticəsində əldə edilən mənfəət onun iştirakçıları arasında dəyər qanununa əsasən "bölünür". Mənfəətin meydana gəlməsi isə əmtəələrin milli və beynəlxalq dəyərləri arasındakı fərq kimi baş verir. İxtisaslaşma bir neçə formada aparılır. Sənayedə ən çox yayılmış formalara əşyalar üzrə, hissələr üzrə, qovşaqlar üzrə, ayrı-ayrı texnoloji hədlər üzrə, yığma üzrə ixtisaslaşma formalar, daxilidr. Bu və ya digər formanın seçilməsi, tətbiqi baş firmanın iqtisadi hesablamalarına əsasən həyata keçirilir. Avtomobil sənayesində yığma sexləri, müəssisələri yaratmaq şirkət üçün daha sərfəli olur. Ona görə ki, hazır avtomobilin daşınması, onun hissələrinin daşınmasından baha başa gəlir. İxtisaslaşmanın hansı formada aparılmasından asılı olmayaraq sənayenin sahə strukturu dəyi-şir, onu daha mütərəqqi şəklə salır, optimallıq səviyyəsini yüksəldir və sonda dünya iqtisadiyyatının inkişafına müsbət təsir göstərir.

Dünya sənayesinin sahə strukturuna ölkələrin daxili bazarlarının həcmi, onların sosial-iqtisadi inkişafı, əhalinin yaşayış tərzi, maddi-rifah halının dəyişməsi, onların mədəni səviyyəsi güclü təsir göstərir. Bu amillər sənayenin əsasən yüngül və yeyinti sahələrinə çox təsir göstərir. Sənayenin sahə strukturuna beynəlxalq vəziyyət, qlobalizasiya prosesləri, istehsalın beynəlmiləlləşməsi səviyyəsi, xarici iqtisadi əlaqələrdəki inteqrasiya prosesləri, yeni sənaye ölkələrinin meydana gəlməsi və inkişaf edən ölkələrdə gedən sosial-iqtisadi proseslər və sairə bu kimi elmi-texniki tərəqqidən bilavasitə asılı olmayan amil və şərtlər də təsir göstərir. Bundan başqa, sahibkarlığın inkişafı, ölkələrin onlara verdikləri hüquqların artması da sənayenin inkişafına və onun sahə və ərazi strukturunun təkmilləşməsinə səbəb olur. Buna parlaq misal

transmilli kompaniyaların fəaliyyətini göstərmək olar. Bu tip kompaniyalar çox vaxt sənaye müəssisələrini öz ölkələrindən kənarda yaratmağa meyilli olurlar və sənayenin həm sahə və həm də ərazi strukturuna təsir göstərə bilirlər.

## §5. Emal sənayesinin inkişafı

Sənaye iqtisadiyyatın aparıcı sahəsidir. Lakin sənayenin tərkib hissələri iqtisadiyyata müxtəlif cür təsir göstərirlər. İqtisadiyyata çox güclü müsbət təsir göstərən sahə emal sənayesidir. Emal məhsulları istehsal etmək, hər il yenidən onların sadə və geniş təkrar istehsalına nail olmaq dünya təsərrüfat sisteminin ən mühüm sferalarından hesab edilir. Uzun illərin təcrübəsi göstərir ki, emal sənayesi bir çox cəhətdən ölkə iqtisadiyyatının prioritet istiqamətlərini təyin edir. O ilk növbədə sosial məsələlərin həlli üçün lazımdır. Yeni iş yerlərinin yaradılması bilavasitə emal sənayesindən, onun sahə strukturundan asılı olur. Bundan başqa, emal sənayesinin məhsulu hazır məhsullardır: avadanlıqlardır, cihazlardır, dəzgahlardır, axın xətləridir, avtomatlardır, kompüterlərdir, elektrik stansiyaları üçün avadanlıqlardır, raketlərdir, müxtəlif yeyinti məhsullarıdır, geyim-ayaqqabı məmulatlarıdır və s. Bütün bu məhsulların sənayenin hasilat sahələrinin məhsulundan (xam neftdən, daş kömürdən, qazdan, torfdan, dəmir filizindən və s.) mühüm fərqli cəhətləri vardır: onlar ilk növbədə ETT-nin daşıyıcılarıdır, son elmi və texniki tərəqqini özlərində təcəssüm etdirirlər və eyni zamanda istehsalın texniki səviyyəsini yüksəltməyə qadirdirlər.

Emal sənayesini inkişaf etdirmək, yaradılan məhsulların davamlılığını, uzunömürlülüyünü, etibarlılığını yüksəltmək, rəqabət qabiliyyətli emal məhsulları istehsal etmək güclü **bilik**, **yaradıcı əmək** və **çoxlu vəsait** tələb edir. Bu şərtləri ödəyən ölkələr emal sənayesini inkişaf etdirə bilirlər və dünya ölkələri arasında özlərinin iqtisadi gücləri ilə fərqlənirlər. Təsadüfi de-yildir ki, inkişaf etmiş ölkələrdə bir qayda

olaraq emal sənayesi yüksək səviyyədə olur. Aşağıda verdiyimiz cədvəl 20-nin məlumatları da bunu bir daha sübut edir.

**Cədvəl № 20**

**ÜDM-ə görə emal sənayesinin dünya istehsalında xüsusi çəkisi (%)**

| | **1960** | **1970** | **1980** | **1990** | **1994** | **1997** | **1998** | **2000** |
|---|---|---|---|---|---|---|---|---|
| Dünya üzrə o cümlədən: | 28,4 | 26,1 | 22,8 | 22,6 | 21,8 | 22,5 | 22,5 | 22,6 |
| Sənaye cəhətdən inkişaf etmiş ölkələr | 31.0 | 27,7 | 24,2 | 23,0 | 22,1 | 22,1 | 22,2 | 22,3 |
| İnkişaf etməkdə olan ölkələr | 15,6 | 17,8 | 17,9 | 20,2 | 19,3 | 19,2 | 19,1 | 19,2 |

Son dövrlərdə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə emal sənayesində istehsalın nisbətən aşağı düşməsi müşahidə olunur. Belə meyl heç də sənayenin bu mütərəqqi sahəsinin rolunun azalması mənasını vermir, əksinə, prosesin bütün dünya ölkələrinə yayılmasından xəbər verir. Keçən əsrin 70-ci illərindən başlayaraq dünya miqyasında belə bir istiqamət diqqəti cəlb edir: Emal sənayesinin ÜDM-dakı xüsusi çəkisi inkişaf etmiş ölkələrdə azalmağa, inkişafda olan ölkələrdə isə

nisbətən çoxalmağa başlamışdır. Dünya iqtisadiyyatına aid dərc olunmuş materiallarda bu proses **desənayeləşmə** adlanır. Bu prosesin həm obyektiv və həm də subyektiv kökləri vardır.

Desənayeləşmənin subyektiv (qeyd edək ki, bunu subyektiv adlandırmaq da nisbi xarakter daşıyır) əsasını dünya miqyasında baş verən beynəlmiləlləşmə, qloballaşma, yarımsistemlər iqtisadiyyatının daha çox açıq olması və beynəlxalq ticarətin sürətlə inkişaf etməsi, biliyin bütün dünyaya yayılması təşkil edir. Dünya miqyasında baş verən elmi-texniki tərəqqi və iqtisadi inkişafın obyektiv xüsusiyyəti obyektiv amil rolunu oynayır. İnkişafda olan ölkələr başa düşməyə başlayıblar ki, təkcə xammal və materiallar ixrac etməklə sosial-iqtisadi inkişafa nail olmaq olmaz, sənayenin bütün sahələrini, o cümlədən də ilk növbədə emal sənayesini tamamilə inkişaf etdirmək lazımdır. Bu prosesin baş verib genişlənməsinə inkişaf etmiş ölkələrin də təsiri olur: çox vaxt emal müəssisələrini "Ətraf" ölkələrdə yerləşdirmək onların özləri üçün də sərfəli olur.

İnkişaf etmiş ölkələrdə emal sənayesinin artım sürətinin nisbətən aşağı düşməsinə hazır məhsulların qiymət indeksinin xidmət sahəsindəki qiymət indeksindən aşağı olması da təsir göstərir. Bütün dünya üzrə emal sənayesinin səviyyəsi isə sahənin inkişafda olan ölkələrdə üstün inkişaf etdirilməsi yolu ilə sabitləşdirilir.

## §6. Sənayedə müəssisələrin ölçüləri

Sənayenin inkişafında burada fəaliyyət göstərən müəssisələr və onların ölçü dərəcəsi böyük rol oynayır. Yəni, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin rəhbərləri firmaların ölçülərinə biganə olmurlar. Dövlət bu prosesi ölkənin sosial-iqtisadi tələbatlarının maksimum ödənilməsi istiqamətində idarə etməyə həmişə səy göstərmişdir və nəticədə ölçülərinə görə iqtisadi inkişafın xeyrinə olan müəssisələrin meydana gəlməsinə nail olmuşlar.

Dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiyanın sənayesində iri, orta və kiçik müəssisələr fəaliyyət göstərir. Kiçik müəssisələr sayca çoxluq təşkil edirlər. Dövlət bunun üçün özünün tənzimləmə rıçaqlarından bacarıqla istifadə edir. Burada məqsəd müxtəlif olsa da əsas məsələlərdən biri monopoliya ilə mübarizə aparmaqdır. Kiçik müəssisələrə dövlət qayğı göstərir ki, onlar nəhənglərin kölgəsində əriyib yoxa çıxmasınlar. Sənayedə kiçik və orta müəssisələrin inkişaf etdirilməsinin həm də sosial mənası vardır: bu əhalinin orta təbəqəsinin meydana gəlməsinə və müvəffəqiyyətlə fəaliyyət göstərməsinə səbəb olur. Bu həm də sənaye istehsalında diversifikasiya proseslərinin tələb və təklifə uyğun baş verməsi üçün yaxşı şərait yaradır. Onu da qeyd edək ki, inkişaf etmiş ölkələrdə kiçik müəssisələr MDB ölkələrində və bizim respublikada fəaliyyət göstərən kiçik müəssisələrdən fərqlənirlər. Onlar elm və texnikanın son nailiyyətlərini özlərində təcəssüm etdirən «vençur» (riskli) tipli müəssisələrdir və sənayenin inkişafında həlledici rol oynaya bilərlər.

Hazırda inkişaf etmiş ölkələrin sənayesində kiçik, orta və iri müəssisələr arasında müəyyən nisbətlər formalaşmışdır. Ümumi kontekstdə kiçik, orta və iri firmalar ETT-nin sürətlənməsində və sənayenin sahə strukturunun təkmilləşdirilməsində mühüm rol oynayırlar. ABŞ-da elmi-tədqiqat və layihə-təcrübə işlərinə çəkilən xərclərin 50%-dən çoxu sənaye korporasiyalarının payına düşür. Yaponiyada isə bu rəqəm 80-a çatır. Bu bir daha sənayenin ölkə iqtisadiyyatında oynadığı aparıcı rolunu sübut edir. Kiçik və orta müəssisələr ABŞ-da çoxsaylıdır. Əldə etdiyimiz məlumatlara görə hər il 600-700 min bu cür müəssisələr yaranır və təxminən 20-40 min isə rəqabətə dözməyib müflisləşir. Onların çoxu ən yeni məhsullar istehsal etmək üzrə ixtisaslaşmış olurlar və bir çox halda iri müəssisələrə nisbətən daha səmərəli fəaliyyət göstərirlər. ABŞ-ın milli elm fondunun məlumatlarına görə kiçik və orta firmalara yönəldilən bir dollar iri müəssisələrə nisbətən 2,4-4 dəfə çox yeniləşmə (innovasiya) (yeniləşməyə lisenziyalar, patentlər və s. daxildir) əldə etməyə imkan

verir. Sənaye yeniləşmələrinin 50%-ə qədərini kiçik və orta (1 min nəfərə qədər işçisi olan) firmalar verir. Kiçik və orta firmalar digər ölkələrdə də səmərəli fəaliyyət göstərirlər və dünya sənayesinin optimal strukturunun formalaşmasına müsbət təsir göstərirlər.

Ümumiyyətlə götürdükdə qeyd etmək lazımdır ki, müəssisələrin ölçüləri məsələsini azad bazar münasibətləri həll etməlidir. Lakin sahibkarların orta təbəqələrinin sosial gərginliyin azalmasında oynadığı rolunu dərk edən ölkələr haqlı olaraq bu prosesi kiçik və orta müəssisələrin qoruyub saxlanması xeyrinə idarə edirlər. Uzun illərin təcrübəsi sübut edir ki, bu cür yanaşma yaxşı nəticə verir. Sənaye cəhətdən inkişaf etmiş ölkələr müəssisələrin ölçüləri arasında optimal nisbətləri saxlamaq üçün hüquqi sənədlər qəbul edib həyata keçirmək üsullarından da istifadə edirlər. Demək olar ki, bütün inkişaf etmiş və ümumiyyətlə iqtisadiyyatı sivilizasiyalı yollarla inkişaf etdirmək istəyən ölkələrin hamısı monopoliya əleyhinə qanunlar qəbul etmişlər. Lakin bu heç də o demək deyildir ki, müəyyən bir məhsul istehsalı üzrə iri və nəhəng müəssisə yaratmaq olmaz. Əgər məsələyə diqqətlə yanaşsaq görərik ki, inkişaf etmiş ölkələrdə nəhəng şirkətlər, firmalar, müəssisələr çoxdur. Bu müəssisələr də monopoliya əleyhinə qanuna əməl edirlər və dövlətin obyektiv nəzarətində olurlar (korrupsiyaya qurşanan dövlətlərdə bu nəzarət subyektlərin marağı baxımından həll edilir və buna görə də iri müəssisənin monopol vəziyyət tutması ehtimalı çoxalır).

Azad bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrdə kiçik, orta, iri, nəhəng müəssisələrin optimal nisbətləri isə əsasən qəbul edilmiş prinsiplərə əməl olunması yolu ilə əldə edilir. Müəssisələrin ölçü strukturu bu ölkələrdə elə formalaşdırılır ki, ölkənin iqtisadi inkişaf səviyyəsi yüksəlsin, sosial gərginliklər azalsın və ya tam aradan götürülsün, istehsalın səmərəliliyi və məhsulun keyfiyyəti yüksəlsin.

## §7. İstehsalın səmərəliliyinin yüksəldilməsində kiçik müəssisələrin rolu

Tədqiqat göstərir ki, sosial-iqtisadi formasiyalardan asılı olmayaraq bütün dövrlərdə insanların və onların qabaqcıl nümayəndələrindən olan iqtisadçıların əsas məqsədi qənaətcil təsərrüfat mexanizmi yaratmaqla ölkəni, ayrı-ayrı sahələri, müəssisələri və iş yerlərini optimal idarə etmək və rezenans səmərə əldə etmək olmuşdur. Lakin bu məqsədə aparan yol həmişə hamar olmamış və bir çox hallarda isə gözlənilən nəticələr əldə edilməmişdir. Buna görə də istehsalın və ona xidmət göstərən sahələrin səmərəli fəaliyyət göstərməsi məsələsi daim mövcud olmuş və bazar iqtisadiyyatına keçidlə səciyyələnən indiki dövrdə öz aktuallığını daha da artırmışdır.

Yüksək səmərəli istehsalların formalaşdırılması kompleks şəkildə texniki, texnoloji, təşkilati, iqtisadi və sosial yönümlü tədbirlərin həyata keçirilməsini tələb edir. Lakin nəzərə almaq lazımdır ki, həyata keçirilən bu cür tədbirlər son nəticədə məhsul istehsalının intensiv yollarla əldə edilməsinə xidmət etməlidir. İstehsalın intensivləşdirilməsi yüksək olduqca o dərəcədə də istehsaln nəticəsini artırmaq üçün şərait yaranır. İntensivləşdirmə burada məqsəd yox istehsalın səmərəliliyinin yüksəldilməsi vasitəsinə çevrilir. İdarəetmə prosesləri və istehsalın intensivləşdirilməsi düşünülmüş şəkildə aparıldıqda sənaye müəssisələrinin səmərəli fəaliyyəti üçün yaxşı imkanlar yaranır və son nəticədə Ümumi Milli Məhsulun təkrar istehsalı nisbətən az material - enerji xərcləri ilə əldə edilir.

İstehsalın intensivləşdirilməsi və sənaye məhsulunun intensiv yollarla çoxaldılması məsələsi keçmiş sovetlər ölkəsində uzun illər tədqiqat obyekti olmuş və bir sıra nəzəri və praktiki əhəmiyyəti olan nəticələr çıxarılmışdır. Lakin müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında çıxarılan nəticələrin əksəriyyəti kağız üzərində qalmış və buna görə də istehsalın intensivləşdirilməsi özünün tam həllini tapmamışdır.

Bazar iqtisadiyyatına keçid dövrü olan indiki dövrdə istehsalın intensivləşdirilməsi və bu yolla onun səmərəliliyinin yüksəldilməsi daha da aktual şəkil almışdır. İlk növbədə ona görə ki, intensiv inkişaf olmadan rəqabət dözümlü məhsul istehsal etmək qeyri-mümkün olan işdir. Bunu dünya ölkələrinin təcrübəsi artıq sübut etmiş və bizim ölkəmizdə bu nəzərə alınmalıdır.

Azad bazar iqtisadiyyatı intensivləşdirməyə yanaşmağın yaradıcı olmasını və yeni üsul və vasitələrin tapılmasını tələb edir. Problem daha dərindən öyrənilməli, təhlil edilməli və onun amil və şəraitləri yenidən işlənilməlidir. Belə mühakimə yürüdülməsinin kökü ondadır ki, indiyə qədər bəzi amil və şərtlərin istehsalın intensivləşdirilməsinə təsiri lazımi səviyyədə öyrənilməmişdir. Bu qəbildən olan amillərə ölkələrdə tikilən və yaxud da tikilməsi nəzərdə tutulan sənaye müəssisələrinin ölçüləri məsələsi ilk növbədə daxildir.

Müəssisələrin ölçüsü iqtisadçılar üçün nəzəri və təsərrüfatçılar üçün praktiki baxımdan həmişə mühüm əhəmiyyət kəsb etmişdir və azad bazar iqtisadiyyatı şəraitində isə bu problemlər daha da kəskinləşmişdir. Məsələ burasındadır ki, iqtisadi ədəbiyyatlarda və təcrübədə iri, kiçik, orta, nəhəng müəssisələr qrupları fərqləndirilsə də əsl iqtisadçıları həmişə müəssisənin optimal ölçüdə olması və optimallığa qiymət vermək üçün münasib meyarların seçilməsi, (tapılması) ətrafında tədqiqatlar aparmağ düşündürmüşdür.

Dünya təsərrüfatının aparıcı sahəsi olan sənayedə müəssisələrin optimal ölçüsü məsələsi daha aktual və eyni zamanda daha mürəkkəb məsələdir: tarixi nöqteyi-nəzərdən müəssisələrin ölçülərinin formalaşması obyektiv və subyetkiv amilərin təsiri altında baş vermişdir. Prosesin özü isə kiçik ölçülü müəssisələrdən iri müəssisələrə doğru evolyusiya etmişdir. Tədqiqat göstərdi ki, keçən əsrin axırlarına qədər müəssisələrin ölçüləri əsasən obyektiv amillərin təsiri altında baş vermişdir. Bu proses iri kartellərin, sindikatların, konsernlərin və s. bu kimi digər monopol müəssisələrin meydana gəlməsinə qədər davam etmişdir. Bu tipli iri və bəzən çox nəhəng müəssisələrin üzdə görünən

üstünlüklərini nəzərə alan kapitalistlər inhisar mənfəəti almaq xatirinə bu proseslərə müdaxilə etməyə başlamışlar və o vaxtlardan başlayaraq müəssiə ölçülərinin formalaşması əsasən subyektiv amillərin təsiri ilə baş vermişdir. Subyektiv amillərin təsiri altında ən çox iri və nəhəng sənaye müəssisələri keçmiş SSRİ məkanında meydana gəlmişdi. Qeyd edək ki, o vaxtlar bu ölkədə istehsalın səmərəliliyinin, intensivliyinin aşağı olmasının səbəblərindən biri də elə bu idi.

Azad bazar iqtisadiyyatı inkişaf etdikcə, prosesin idarə edilməsi təkmilləşdikcə vəziyyət dəyişməyə başlamış və kiçik müəssisələrin mühüm üstünlüklərə malik olmasını dərk edən ölkələrdə onlara diqqət yenidən artmışdır. Dövlətlər iri nəhənglərlə paralel xırda müəssisələr üçün də şərait yaratmağa başlayırdılar və dünya bazarına rəqabət dözümlü məhsullar çıxarılmasında və reallaşdırılmasında böyük müvəffəqiyyətlər qazanırdılar. Məhz bu dövrlərdə Yaponiya dünya bazarında bir çox müasir sənaye məhsulları üzrə birinciliyi əlinə ala bildi. Bunun əsas səbəblərindən biri ABŞ-dan fərqli olaraq Yaponiya hökumətinin kiçik müəssisələri daha çox himayə etməsi və çevik istehsal xarakteristikasına malik xırda və kiçik müəssisələr formalaşdırması idi.

Müəssisələrin ölçüsü və onların tərkibində kiçik müəssisələrin yeri, ilk növbədə, ölkə miqyasında iqtisadiyyatın idarə olunması səviyyəsindən asılı olur. Hazırkı vəziyyət kiçik müəssisələrə diqqətin artırılmasını tələb edir. Ən mühüm məsələ isə iri, orta və kiçik müəssisələrin optimal uyğunlaşdırılması və qarşıya qoyulan məqsədə çatdıra bilən müəssisələr silsiləsi yaratmaqdır.

Kiçik müəssisələrə olan münasibətin yaxşılaşması aşağıdakılarla izah oluna bilər:

1. İri müəssisələrin sərbəst bazar iqtisadiyyatı şəraitində ortaya çıxan çatışmazlıqları ilə təmərküzləşmə nəticəsində meydana çıxmış nəhəng müəssisə bir qayda olaraq böyük həcmdə məhsul istehsal etmək üçün yaradılır və onun səmərəli olması məhsulun satılması ilə şərtləşir. Məhsul satılmadıqda anbarlara yığılır və müəssisəni iflic vəziyyətə salır.

Bu halın baş verməsi çox vaxt nə müəssisə rəhbərlərindən və nə də dövlətdən bilavasitə asılı olmur və azad bazar iqtisadiyyatının idarəolunmaz qanunları ilə şərtlənir.

2.Elmi-texniki inqilabların intensivləşməsi ilə müşahidə olunan elmi-texniki tərəqqinin vaxt (müddət) etibarı ilə sürətli inkişafı baş verir. Bunun nəticəsində dünya sənayesində istehsal edilən məhsulların mənəvi köhnəlmə sürəti də artır. Bu cür vəziyyətdə məhsulun yeniləşdirilməsi problemi iri müəssisələrə nisbətən kiçik müəssisələrdə daha az vaxt, daha az əsaslı vəsait qoyuluşu və material resursları sərf etməklə həll etmək mümkün olur.

3.Müasir dövrdə misli görünməmiş səviyyədə inkişaf edən texnika, texnologiya, kimyəvi, elekrokimyəvi təsir üsulları, istehsal üsulları yaradılır. Bunların vasitəsilə məhsuldarlığı və deməli, istehsalı qısa müddətdə artırmaq olar. Bunun üçün yeni texnika istehsala tətbiq edilməlidir. Azad rəqabət şəraitində isə bu işi çox qısa müddətdə görmək zərurəti yaranır. Bu tələblərə isə kiçik müəssisələr daha çox cavab verirlər.

4. İri müəssisələri uyuşqanlılıq səviyyəsi aşağı olduğundan kiçik müəssisələrin üstün inkişafı üçün obyektiv şərait yaranır.

5. İri müəssisələr kiçik müəssisələrə nisbətən çoxlu miq-darda birdəfəlik kapital xərcləri tələb edirlər ki, bu da kapitalın özünü ödəmə müddətinin uzanmasına səbəb olur.

6.İri müəssisələr inhisarlaşma proseslərinin sürətlənməsi və rəqabətin zəifləməsi üçün şərait yaradır.

Qeyd etmək lazımdır ki, subyektiv amillərin təsiri altında formalaşdırılan iri sənaye müssisələrinin ölkənin sosial-iqtisadi inkişafına vurduğu ziyan çoxşaxəlidir və bizim yuxarıda göstərdiyimizdən başqa digər çoxlu amil və şərtlərin təsiri altında baş verir. İqtisadçıların və iqtisadiyyatı idarə edənlərin bu cəhətdən başlıca məqsədi onları ortaya çıxarmaqdan və prosesi düzgün idarə etmək yolu ilə optimal ölçülü müəssisələrin meydana gəlməsinə nail olmaqdır.

Aparılan tədqiqat işi imkan verir ki, müasir dövrdə kiçik müəssisələrin aşağıdakı üstünlüklərini göstərək:

1.Kiçik müəssisənin tikintisi çox da böyük həcmli əsaslı vəsait qoyuluşu tələb etmir;

2.Tikinti qısa müddətdə başa gəlir, vəsaitin uzun müddətə dondurulması riski azalır;

3.Xammalın, materialın, yanacağın, hazır məhsulun daşınmasına və saxlanmasına çəkilən xərclər azalır;

4.Yerli xammal və materiallardan tam və səmərəli istifadə olunması üçün şərait yaranır. İri müəssisələr isə bu məsələnin həllinə əks-təsir göstərirlər. Belə bir xoşagəlməz halın meydana gəlməsi isə çox sadə izah olunur: kiçik və məhdud bir ərazidə yerləşən nəhəng müəssisə imkan yaratmır ki, ölkənin digər ərazisində və xüsusən də ucqar rayonlarda mövcud olan yerli resurslardan istifadə edilsin. Əsas səbəb burada nəqliyyat xərclərinin artmasıdır. Kiçik müəssisə isə bu problemi aradan qaldırımağa imkan verir: müəssisə resurs olan rayonda tikilir.

5.Kiçik müəssisələr ölkənin məhsuldar qüvvələrinin sürətli inkişafı üçün şərait yaradır; prinsip etibarı ilə, kiçik müəssisəni ölkənin bütün rayonlarında tikmək mümkündür ki, bu da yeni iş yerləri deməkdir.

6.Ölkə ərazisində sənaye müəssisələrinin birqərar və proporsional yerləşməsi üçün şərait yaranır.

7.Rəqabət güclənir.

8.Milli sahibkarlar ordusunun formalaşması sürətlənir.

9.Elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi sürətlənir.

10.Kiçik müəssisələrdə bir qayda olaraq istehsalın çevikliliyi yüksək olur ki, bu da məhsulun qısa müddətdə yeniləşdirilməsini mümkün edir.

Qeyd etmək lazımdır ki, azad bazar iqtisadiyyatı şəraitində “kiçik müəssisə” anlayışının məzmunu dəyişmişdir. İnkişaf etmiş sənaye ölkələrinin təcrübəsi də bunu sübut edir. Bu ölkələrdə çoxlu sayda kiçik

və orta ölçülü müəssisələr inşa edilir və onların qarşısında fəaliyyətdə olan nəhəng müəssisələrlə rəqabətə girmək məqsədi qoyulur. Bu ideyanın həyata keçməsi yüksək yaradıcılıq tələb edir və çox böyük risklə əlaqədardır. Elə məhz buna görə də belə müəssisələrə kiçik müəssisə yox, «riskli» müəssisələr adı verilmişdir.

Tədqiqat işi göstərdi ki, planlaşdırmada və idarəetmədə kiçik müəssisələri iki qrupa bölmək məqsədəuyğundur. Birinci qrupa tarixən meydana gəlmiş müxtəlif kiçik ölçülü emalatxana tipli müəssisələr daxildir. Belə kiçik müəssisələrdə, bir qayda olaraq, əl əməyi üstünlük təşkil edir, texniki səviyyəsi aşağı olur. Onlar kustar tipli müəssisələrdir.

İkinci qrupa daxil etdiyimiz kiçik müəssisələr son illərin məhsuludur və bir qayda olaraq, belə müəssisələr digər müəssisələrdən özlərinin yüksək texniki səviyyələri ilə, çevikliyi ilə və rəqabət dözümlü məhsul istehsal etmələri ilə fərqlənirlər. Qeyd etdiyimiz kimi bunlar riskli müəssisələrdir və bütün inkişaf etmiş kapitalist ölkələri onların sayı ilə fəxr edirlər. Belə müəssisələr əslində elmi-texniki nailiyyətlərin istehsala tətbiqinin güzgüsünə çevrilmiş və iri, nəhəng müəssisələrlə müvəffəqiyyətlə rəqabət aparmaq qabiliyyətində olurlar.

## §8. Dünya maşınqayırma sənayesi

Maşınqayırma sənayenin əsas aparıcı sahələrindəndir. İqtisadiyyatın bütün sahələrini əmək aləti ilə təmin etdiyinə görə mütəxəssislər maşınqayırmanı sənayenin ürəyi adlandırırlar. Maşınqayırma elmtutumlu sahədir və elmi-texniki tərəqqinin bələdçisidir. O eyni zamanda elmi-texniki nailiyyətlərin sınaqdan keçirilməsi poliqonudur. Yeni texniki, texnoloji, təşkilati, estetik, erqonomik ideyalar burada yaranır, burada həyata vəsiqə alır. Əhalinin daha savadlı hissəsi burada çalışır. Maşınqayırma özü-özlüyündə 100-dən çox ayrı-ayrı istehsallar, sahələr, yarımsahələr, elmi-texniki

komplekslərdən ibarətdir. Yeni iş yerlərinin yaradılmasında, yeni məhsulların bazara çıxarılmasında, ölkə iqtisadiyyatının güclənməsində, ölkənin iqtisadi müstəqilliyinin artmasında, hərbi cəhətdən güclü olmasında maşınqayırmaya alternativ sahə yoxdur. Bütün bunlarla yanaşı maşınqayırma ölkənin iqtisadi gücünün barometridir. Maşınqayırmanın səviyyəsinə görə ölkənin sosial-iqtisadi inkişafı haqqında fikir söyləmək olar: maşınqayırması yaxşı olan ölkənin inkişaf səviyyəsi də yüksək olur. Bu gün sənaye cəhətdən inkişaf etmiş ölkələrin iqtisadiyyatında aparıcı mövqe maşınqayırmaya və onunla əlaqədar olan istehsal və sosial infrastrukturlara məxsusdur. Geri qalmış ölkələr bir çox cəhətdən elə ona görə geri qalmış ölkələr adlandırılır ki, onların maşınqayırma sənayesi geri qalmışdır. İnkişaf etmiş ölkələr geri qalmış ölkənin yeraltı sərvətlərini daşıyıb aparırılar, emal sənayesinin inkişafı haqda düşünmürlər. Belə ölkələrdə maşınqayırma bir qayda olaraq ya heç inkişaf etmir, ya da çox zəif səviyyədə olur. Bu cür hal ölkəni, əmək alətləri əldə etmək nöqteyi-nəzərincə inkişaf etmiş ölkələrdən asılı edir. Sonda bu cür asılılıq hərbi münaqişələrə də səbəb olur. İraqla Amerika arasında hərbi münaqişələrin kökündə məhz bu asılılıq və buradan irəli gələn narazılıqlar durur.

Maşınqayırma məhsulunun ticarəti də dünya ticarətində mühüm yer tutur. Dünya ixracının ümumi həcmində maşın və avadanlıqların xüsusi çəkisi 37%-ə çatır. Ümumi ixracda maşınqayıma məhsulunun xüsusi çəkisi Yaponiyada 64%, ABŞ və Almaniyada 48%, İsveçdə 44%, Kanadada 42%, təşkil edir. Maşın və avadanlıqların dünya üzrə ticarətinin 80%-i inikşaf etmiş ölkələrin payına düşür. İnkişafda olan ölkələrin payı 10%, Rusiyanın isə dünya maşınqayırma məhsulu üzrə ixracdakı payı cəmi 1%-dən də az təşkil edir. Bu rəqəmlər bir daha sübut edir ki, maşınqayırma aparıcı sahədir, lakin hər bir istənilən ölkə onu inkişaf etdirmək iqtidarında deyil. İnkişaf etmiş ölkələr isə bu problemin öhdəsindən uzun illərdir ki, bacarıqla gəlirlər. Bir qayda

olaraq, bu ölkələrin sənayesində maşınqayırmanın xüsusi çəkisi yüksək (32-38%) olur.

Dünya maşınqayırmasının sənaye məhsulu həcmindəki xüsusi çəkisi təxminən 35% təşkil edir. Emal sənayesinin də tərkibində maşınqayırma və metal emalı üstün yer tutur. Son illər dünya emal sənayesi məhsulunun həcmində maşınqayırma və metalemalı sahəsinin xüsusi çəkisi 42-44%-ə çatmışdır.

İqtisadiyyatın bütün bölmələrində və maşınqayırmanın özündə texnoloji tərəqqi prinsipcə yeni cihaz, alət, tərtibat tələb edir. Bütün bunlar maşınqayırmada istehsal edilir və elm-tutumlu məhsullardır. İnkişaf etmiş ölkələr elmi-tədqiqat və layihə-təcrübə işlərinə çəkilən xərclərin yarısından çoxunu maşınqayırmaya yönəldirlər. Beynəlxalq statistika maşınqayırma sənayesini beş qrupa bölür: metalyayma, qeyri-elektrik maşınqayırması, elektrik maşınqayırması, nəqliyyat avadanlıqları və dəqiq alətlər. Maşınqayırmanın inkişafına yönəldilən vəsaitin sahələrdaxili bölüşdürülməsində bu bölmələrin inkişafına differensial yanaşılır, tələb və təklif nəzərə alınır.

Son illər elektronika və telekommunikasiya texnikasının inkişafına xüsusi fikir verilir. Elektron məhsullarının dünya ümumi daxili məhsulundakı xüsusi çəkisi getdikcə artmaqda davam edir və hazırda 5%-i ötməkdədir. Bu məhsulun üçdə birini EHM və proqram təminatı vasitələri təşkil edir. Elektron məhsulları istehsalı əsasən inkişaf etmiş ölkələrdə cəmlənmişdir. Onlar həm də bu məhsulların istehlakçılarıdır. Amerika Birləşmiş Ştatlarında hər 100 fəhlənin 60-dan çoxuna fərdi kompüter düşür. Müqayisə üçün göstərək ki, bu rəqəm Almaniyada 30, Yaponiyada isə 20-dir. Üstün sürətlə inkişaf edən digər maşınqayırma sənayelərinə avtomobilqayırma, nəqliyyat vasitələri, kənd təsərrüfatı avadanlıqları istehsalları və nəqliyyat avadanlıqları istehsalı daxildir. Maşınqayırmanın strukturu tələb və təklif, obyektiv iqtisadi qanunlara görə güclü qiymət rəqabətinə görə formalaşır.

Maşınqayırmada struktur dəyişikliklərinin mahiyyətini elmtutumlu sahələrin üstün inkişafı təşkil edir ki, bu da

maşınqayırmanın zəif inkişaf etmiş, korrupsiyaya uğramış ölkələrdə inkişafını çətinləşdirir və hətta qeyri-mümkün edir. Nəticədə sosial yönümlü iqtisadi inkişaf yolu seçən ölkələr çoxlu qazanc gətirən və digər ölkələri özündən asılı vəziyyətə sala bilən maşınqayırma istehsalını öz əllərində saxlaya bilirlər.

Maşınqayırma kompleks sahədir. Onun istehsal etdiyi məhsullar müxtəlifdir. Buna görə də maşınqayırma sosial, iqtisadi, texniki, texnoloji, təşkilati, idarəetmə məsələləri həll etməklə yanaşı silah, avio və kosmik texnika, informasiya vasitələri, okean nəqliyyatı avadanlıqları istehsal etməklə hərbi-siyasi məsələləri də həll edə bilir, qlobal problemlərin həllinə güclü təsir göstərir. Bu cür və buna oxşar dünya (planet) əhəmiyyətli məsələləri həll etmək qüdrətində olan maşınqayırma məhsulunun nomenklaturası artır, assortimenti isə genişlənir. Buna görə də maşınqayırma məhsullarını şərti olaraq iki qrupa - strateji əhəmiyyətə malik olan, ölkənin hərbi və iqtisadi təhlükəsizliyini təmin edə bilən məhsullar qrupuna (ağır maşınqayırma) və məişət texnikası (və ona oxşar) məhsullar qrupuna bölmək olar. Son illər inkişaf etmiş ölkələrdə desənayeləşmə prosesləri baş verməkdədir. Bu əsasən ikinci qrup maşınqayırma məhsulları istehsalının zəif inkişaf etmiş ölkələrdə təşkil edilməsi nəticəsində baş verir. Nəticədə maşınqayırma geri qalmış ölkələrdə nisbətən inkişaf etsə də, əsas strateji məhsulların istehsalı yenə də inkişaf etmiş ölkələrin əlində qalır.

## §9. Maşınqayırma sənayesinin coğrafiyası

Dünya iqtisadiyyatına aid ədəbiyyatlarda planetimizdə dörd əsas maşınqayırma regionu fərqləndirilir.

Birinci region - Şimali Amerikanı əhatə edir. Bu region digər regionlardan özünün aparıcı mövqe tutması ilə fərqlənir. Dünya maşınqayırmasının 30%-ə qədəri bu regionun payına düşür. Ən mütərəqqi maşınqayırma məhsullarının istehsalı (müasir kompüter

texnikası, təyyarə, raket-kosmos texnikası, müxtəlif hərbi texnika və sursatlar) əsasən bu regionda istehsal edilir. Bu regionda baş mövqe ABŞ-a məxsusdur. ABŞ-ın sənayesi dünya sənayesində dayanıqlı yüksək yer tutur.

Amerika sənayesinin strukturunda aparıcı yeri maşınqayırma tutur. Maşınqayırmanın strukturu da mütərəqqidir. Elektron, elektrotexnika, avtomobil sənayeləri maşınqayırmada xüsusi yer tutur. Avio-raket-kosmik texnika istehsalı da ABŞ maşınqayırma sənayesində xüsusi yer tutur. Elektron maşınqayırmasında yüksək xüsusi çəkiyə sənaye və hərbi tə-yinatlı məmulatlar malikdir, məişət tipli əşyalar nəzərə çarpacaq dərəcədə azlıq təşkil edir. Amerika sənayesində maşınqayırmadan sonra ikinci yeri kimya sənayesi tutur. Bu sahənin müəssisələri neft və qaz çıxarılan rayonlarda yerləşdirilmişdir. Kimya sənayesinin zavodları Meksika körfəzində və ABŞ-ın şimalında daha çoxdur. Bunun da səbəbi idxal neftin bu yerlərdən ölkəyə daxil olmasıdır. Amerika sənayesinin digər inkişaf etmiş ölkələrdən fərqli cəhəti hasilat sənayesinin yüksək inkişaf etməsidir. Amerika təbii resurslarla zəngin bir ölkədir. Burada zəngin neft, qaz, daş kömür, əlvan və qiymətli metal yataqlarıı vardır. Neft, qaz sənayesi qabaqcıl mövqelərdə da-yanır. Maşınqayırma sənayenin bütün bu sahələrini yüksək texniki-iqtisadi göstəriciləri olan avadanlıqlarla təmin edir.

Şimali Amerikanın ikinci böyük ölkəsi olan Kanada da sənaye cəhətdən yüksək səviyyədə inkişaf etmişdir. Bu ölkədə sənayenin aktiv hissəsi - emal sənayesi daha çox inkişaf edib. Bununla yanaşı bu gün Kanada nikel, uran, azbest, alüminium kimi xammal materiallarını hasil və istehsal edir və bu sahədə dünya üzrə aparıcı mövqe tutur. İstehsalın artım sürətinə görə Kanada sənayesində “xammal” resursları sənayesi - neft və qaz sənayesi qabağa gedir. Təklifin azalması və qiymətin tez-tez dəyişməsi Kanadanın xammalla əlaqədar olan ənənəvi sahələrinin müəssisələrində mənfəət normasının və kapital qoyuluşunun azalması müşahidə olunur. Eyni zamanda sənayenin aparıcı sahəsi olan maşınqayırmada yüksəliş olur: burada son zamanlar elektron,

elektrotexnika kimi elmtutumlu maşınqayırma sənayesinin məhsulları nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. Ümumi maşınqayırmanın inkişafında, telekommunikasiya vasitələrinin istehsalında, kimya və avtomobil sənayesində inkişaf sürətlə gedir. Kanada sənayesinin başlıca xüsusiyyətlərindən biri də sənayenin aktivində xarici investorların payının 40%-ə çatmasıdır ki, onların da 70%-i ABŞ kompaniyalarına məxsusdur. Sənayenin digər sahələrində isə xarici kapital daha üstün yer tutur. Məsələn, kimya sənayesində fəaliyyət göstərən kompaniyaların aktivlərinin 63%-i, elektrik enerjisi sənayesində - aktivlərin 62%, avtomobil sənayesində isə bu rəqəm hətta 92% təşkil edir.

İkinci region - Qərbi, Mərkəzi və Şərqi Avropanı əhatə edir. Bu region dünya maşınqayırma məhsulunun 30%-ni verir. Bu regionda ənənəvi baza sənaye sahələrindən olan metal-lurgiya, maşınqayırma və metal emalı, kimya sənayesi yaxşı inkişaf etmişdir. Maşınqayırmanın mikroelektronika, robototexnika, optik elektronika kimi müasir və qabaqcıl sahələrinin inkişafına görə Qərbi Avropa dünya güc mərkəzlərinin qalan ikinsindən - ABŞ-dan və Yaponiyadan geri qalır. Yüksək texnoloji məhsullar hələlik əsasən Almaniyada istehsal edilir.

Mərkəzi və Şərqi Avropa ölkələri orta səviyyədə inkişaf etmiş ölkələr qrupuna daxildirlər. İqtisadiyyatın strukturunda sənaye və aqrar sənaye mühüm yer tutur. Lakin sosialist sitseminin dağılması sənayenin bu ölkələrdə inkişafına mənfi təsir göstərdi. Son illərdə bəzi dövlətlərdə (məsələn, Polşada) iqtisadi inkişaf özünü göstərir ki, bu da sənayenin inkişafı üçün yaxşı perspektiv yaradır. Bu ölkələrin Avropa Birliyinə daxil olması prosesi başa çatdıqdan sonra sənayenin inkişafı üçün yeni imkanlar yarana bilər.

Üçüncü region - Şərqi və Cənubi Şərqi Asiyanı əhatə edir. Dünya maşınqayırma məhsulunun təxminən 25%-i bu regionun payına düşür. Region gəmiqayırma, avtomobil sənayesi, məişət elektronikası sənayesi sahəsində irəlidə gedir. Yaponiya bu regionda maşınqayırmanın inkişafını idarə edir. Elmtutumlu maşınqayırma əsasən Yaponiyada

inkişaf edir. Nisbətən çox da mürəkkəb olmayan məhsulların istehsalını isə Yaponiya yeni sənaye ölkələrinə istiqamətləndirir.

Dördüncü region - Rusiya və keçmiş SSRİ-yə daxil olan respublikaların daxil olduğu regiondur. Ümumi kontekstdə bu region maşınqayırmanın demək olar ki, bütün sahələri fəaliyyət göstərən regiondur. Lakin az miqdarda elmtumlu maşınqayırma məhsulu əsasən Rusiyada istehsal edilir. İstər Rusiyada və istərsə də MDB ölkələrində mürəkkəb olmayan maşınqayırma məhsulları istehsal edilir. Ümumdünya maşınqayırma məhsulunda regionun xüsusi çəkisi 12-15%-ə çatır. Regionun maşınqayırma sənayesi əsasən Rusiyada yerləşmişdir. Bu ölkədə raket-kosmik texnika istehsalı, aviasiya, maşınqayırma və məişət elektronikası yüksək səviyyədə inkişaf etmişdir.

Gəmiqayırma sənayesi maşınqayırmanın mühüm sahəsidir. 1960-cı illərdə sənayenin bu sahəsi sürətlə inkişf etməyə başlamışdı. Səbəbi də "ucuz" neftin dənizlə daşınmasının artması və müvafiq olaraq iri tutumlu tankerlərin istehsalının artması idi. Lakin energetik böhran başlayandan sonra yüksək tutumlu tankerlərə olan tələbat azaldı. Bu dövrlərdə gəmiqayırma sənayesi öz coğrafi mövqeyini dəyişmədi. Məhsul daha çox yeni inkişaf etmiş ölkələrdə istehsal edilirdi. Cənubi Koreya bu sahədə dünyada Yaponiyanı geridə buraxıb birinci yerə çıxdı. Gəmiqayırma Braziliyada, Argentinada, Meksikada Çilidə və Tayvanda inkişaf etməkdədir.

Dünya maşınqayırmasını üç qrupa bölmək olar: 1) ümumi maşınqayırma (dünya maşınqayırma istehsalında bu maşınqayırmanın xüsusi çəkisi 37-34%  təşkil edir); 2) nəqliyyat maşınqayırması (33-35%), 3) elektrotexnika da daxil olmaqla elektronika sənayesi (30-31%). Təhlil göstərir ki, son illər bu nisbətlər dəyişilir, nəqliyyat maşınqayırmasının xüsusi çəkisi nisbətən azalır. Elektrotexnika sənayesinin inkişaf tempi isə yüksəlir. Ümumi maşınqayırma sənayesinin həcmi uzun illərdir ki, nisbi dəyişməz vəziyyətdə qalmaqda davam edir. Qeyd edək ki, ümumi maşınqayırma sənayesinin əsas

məhsullarına ilk növbədə müxtəlif avadanlıqlar, dəzgahlar daxildir. Kənd təsərrüfatı üçün maşın və avadanlıqlar istehsalı və bu tipli çox da mürəkkəb olmayan maşınqayırma məhsullarının istehsalı inkişafda olan ölkələrə tərəf istiqamət götürməkdədir.

Avtomobil sənayesi 50 ilə yaxındır ki, dayanıqlı sürətlə inkişaf edir. 1950-ci ildə dünya üzrə istehsal edilən avtomobillərin sayı 10 milyon ədəd təşkil edirdisə 1990-cı illərin ortalarında bu rəqəm 50 milyon ədədə çatmışdır. Avtomobil istehsalının coğrafiyası da dəyişir. 1990-cı ildə avtomobil istehsalında dünyada birinci yerə Yaponiya çıxdı. İkinci yerdə ABŞ durdu. Son illərdə avtomobil istehsalı nəzərə çarpacaq dərəcədə yeni sənaye ölkələrində (Cənubi Koreya, Braziliya) və keçid dövrü keçirən ölkələrdə (Polşa) artmağa başlamışdır.

# IX FƏSİL. ELMİ-TEXNİKİ TƏRƏQQİ VƏ DÜNYA İQTİSADİYYATI

## §1. Elmi-texniki tərəqqinin məzmunu

İstər bütövlükdə dünya iqtisadiyyatının və istərsə də onun yarımsistemləri olan ayrı-ayrı ölkələrin intensiv inkişafında qlobal əhəmiyyətli tədbirlər işləyib hazırlamaq və istehsala tətbiq etmək mühüm rol oynamışdır. Dünya miqyasında elmi-texniki tərəqqi (ETT) sahəsində görülən işlər, aparılan tədqiqatlar bu cür tədbirlərdəndir. Əslində dünya miqyasında ölkələrin iqtisadi inkişaf cəhətdən zəif - güclü, kasıb-varlı, inkişaf etmiş, inkişaf edən kimi qruplaşdırılmasının material əsasını ETT-ni təşkil edir. Bu gün planetimizdə inkişaf elmiş ölkələrin hamısı ETT-ni sürətləndirmək yolu ilə müvəffəqiyyətlər əldə etmiş və getdikcə digər ölkələrə nisbətən üstün inkişaf etmişlər. Müasir dövrdə ETT dünya iqtisadiyyatının xarakterik xüsusiyyətlərini, ticarətin məğzini, ölkələr və regionlar arasında qarşılıqlı əlaqələrin mahiyyətini təyin edir. Ölkələrin güclü və gücsüzlüyünü də ETT ortaya çıxarır.

İxrac və idxalı da o təyin edir. Elmi kəşflər və ixtiralar qlobal miqyasda istehsal elementlərində, məhsul istehsalında, əhalinin istehlakında materiallaşdıqca cəmiyyətdə köklü sosial-iqtisadi dəyişikliklər meydana gətirir, qloballaşma, intensivləşmə, sənayeləşmə, beynəlmiləlləşmə proseslərini sürətləndirir və ən başlıcası isə onları dönməz edir. Rəqabətdə qalib çıxmaq da öz əsasını buradan götürür. İnkişaf etmiş ölkələrin və ilk növbədə Yaponiyanın, ABŞ-ın, Almaniya Federativ Respublikasının və digər ölkələrin dünya bazarında əldə etdikləri müvəffəqiyyətlər də bilavasitə ETT, onun məqsədyönlü sürətləndirilməsi ilə əlaqədardır.

ETT-nin dünya iqtisadiyyatına təsirinin ilk həlqəsi lokal və qlobal miqyasda baş verən sahibkarlıq fəaliyyətidir. ETT-nin istehsala bilavasitə təsiri də sahibkarlıq fəaliyyəti çərçivəsində dünya təsərrüfat miqyasındakına nisbətən daha əyani görünür. Elə buna görə də dünya iqtisadiyyatına aid yazılarda ETT-nin həlledici roluna lazımi diqqət yetirilmir, hesab edilir ki, bu firmaların işidir, sahibkarların fəaliyyət dairəsinə aiddir. Əslində isə dərsliklərdə və dərs vəsaitlərində çox yer verilən "dünya bazarı", "ticarət əlaqələri", "idxal", "ixrac", "beynəlxalq əlaqələr", "Qlobal problemlər", "qlobalizasiya" və digər bu tipli çox əhəmiyyətli və prinsipial məsələlərin hamısı ETT-yə nisbətən ikincidirlər. ETT bu proseslərin meydana gəlməsinə və sürətlənməsinə səbəb olan qlobal amildir. Bunları nəzərə alaraq ETT-nin mahiyyətinə kitabda yer ayırmağı məsləhət bildik.

Dünya miqyasında iqtisadi inkişafı və istehsalın səmərəliliyinin yüksəldilməsi məsələsinin həlli bir sıra amil və şərtlərdən asılıdır. Lakin son nəticədə səmərəli təsərrüfat fəaliyyətinə yol istehsal elementlərindən keçir. Ona görə ki, istehsal elementlərində (əmək alətində, əmək cismində və əməyin özündə) köklü mütərəqqi dəyişikliklər əldə edilmədən səmərəliliyi yüksəltmək mümkün olmür. İstehsalın texniki və texnoloji bazası daim inqilabi dəyişikliklərə məruz qalmalıdır ki, ictimai əmək məhsuldarlığı cəmiyyətin tələb etdiyi səviyyəyə qədər yüksələ bilsin. Buna görə də tarixən elmin və

texnikanın tərəqqisi dünya yarımsistemləri inkişafının bütün pillələrində - istər sosial-iqtisadi və istərsə də siyasi-hərbi məsələlərin həllində başlıca rol oynamışdır.

Keçmiş dövrlərə nisbətən müasir dövrdə elmi-texniki tərəqqi ölkə və regionların inkişafına bu vaxta qədər görünməmiş güclü təsiri və istehsalın səmərəli inkişafında və intensivləşdirilməsində oynadığı həlledici rolu ilə fərqlənir.

Texniki tərəqqi mütərəqqi əmək cismi və əmək alətlərinin yaradılması ilə nəticələnir. Lakin müasir dövrdə yaradılan hər hansı bir yeni texnika mütərəqqi sayılmır. Qabaqcıl Qərb ölkələrinin və xüsusilədə elmdə öz inqilabi nailiyyətləri ilə insanları heyrətə gətirən Yaponiyanın təcrübəsi göstərir ki, indi ancaq elmtutumlu texnika mütərəqqi hesab edilə bilər. Ancaq elmtutumlu texnikanın tətbiqi istehsalda inqilabi dəyişikliklər yarada bilər və bu cür istehsallarda rəqabətə dözümlü məhsullar istehsal oluna bilər. Həm elmi, həm də texnikanın tərərqqisi onların tədricən inkişafı ilə inqilabi inkişafının cəmi kimi baş verir. Buna görə də elmi-texniki tərəqqi anlayışının mahiyyətini açmaq üçün ilk növbədə elmin və texnikanın tərəqqisini bir qanunauyğun proses kimi dərindən mənimsəmək lazımdır.

Elm təbiətin və cəmiyyətin obyektiv qanunları haqqında insanların bilikləri məcmusudur. Bu bilikləri toplayan və sistemləşdirən insanların əməli fəaliyyəti də "elm" anlayışına daxildir. Təbiətin və cəmiyyətin obyektiv qanunları haqqında məlumatları insanlar toplayır və tədricən onları öyrənirlər və müəyyən elmi nəticələr çıxarırlar. Çıxarılan bu nəticələr obyektiv qanunlar haqqında tam və natamam biliklər əldə etməyə imkan verə bilər. Təbiətin və cəmiyyətin obyektiv qanunlarını tam mənada dərk etmək və onlardan təcrübədə istifadə etmək çox mürəkkəb bir məsələdir.

Elm özünün tərəqqisində iki mərhələni keçir. Birinci mərhələdə elm tədricən inkişaf edir, təbiətin və cəmiyyətin bu və ya digər qanunauyğun proseslərini yavaş-yavaş öyrənir. Lakin belə tədrici (evalyusiya) inkişaf müəyyən bir dövrü əhatə edir. Sonrakı inkişaf üçün

yeni əsas (baza) yaranmalıdır. Belə yeni əsas elmin inkişafının ikinci pilləsində - inqilabi pilləsində yaranır. Birinci pilləyə nisbətən ikinci inqilabi pillə qısa bir müddətdə (anda) baş verir. Bunun nəticəsində elmi biliklər daha da zənginləşir. Belə zənginləşmiş əsas üzərində elm yeni inkişaf xəttinə düşür və təzədən elmin (bu yeni əsas üzərində) tədricən (evalyusiya) inkişafı başlayır... Deməli, belə nəticə çıxarmaq olar: elmin tərəqqisi onun tədricən (evalyusiya) və inqilabi inkişafının məcmuudur. Elmin tədricən inkişaf pilləsində onun inqilabi inkişafı üçün zəmin hazırlanır.

Evalyusiya inkişafı qısa müddətdə başa çatırsa elmin tərəqqisi də bir o qədər sürətlənir. Başqa sözlə desək, baxılan dövrdə elmin tərəqqisi bu dövrdə elmdə baş verən inqilabların sayı ilə şərtləşir. Elmi kəşflərin sayı artdıqca elmin tərəqqisinin sürətlənməsi üçün şərait yaranır.

Müasir dövrün xarakterik cəhəti elmi inqilabların intensivliyindədir. Elm özünü məhsuldar qüvvə kimi göstərir və istər dünya miqyasında və istərsə də ayrıca götürülmüş bir dövlətdə sosial-iqtisadi inkişafa güclü təsir göstərir. "İctimai inkişafın ümumi mənəvi məhsulu", "Ümumi ictimai bilik", "Ümumi intellekt" olan elm müasir dövrdə sistemləşdirilmiş biliklər toplusunun qoruyucusundan istehsalın tərəqqisinin mühüm elementinə çevrilmişdir və eyni zamanda bu tərəqqini sürətləndirmək üçün nə lazımdırsa edə bilir. Elm məhsuldar qüvvəyə çevrilmişdir. Bu çevrilmə elmin əmək cisimlərinin və əmək alətlərinin yeni növlərinin yaradılması və fəaliyyətdə olanlarının təkmilləşdirilməsinə və istehsalın texnologiyasına aktiv təsir etməsi ilə xarakterizə olunur.

Bazar iqtisadiyyatına keçid şəraitində elmi-texniki tərəqqini və xüsusən müasir dövrdə elmin başlıca xüsusiyyətlərini bilmək lazımdır. Ona görə ki, bu fərqləndirici cəhətləri bilmədən elmi bazar münasibətləri baxımından inkişaf etdirmək mümkün deyil. Bəs bu fərqləndirici cəhətlər hansılardır.

İlk növbədə göstərmək lazımdır ki, müasir dövrdə elmdə sənayeləşmə gedir. Bu o deməkdir ki, keçmiş dövrlərə nisbətən indiki

zamanda elmin inkişafı çoxlu miqdarda ən yeni cihazlar, qurğular, dəzgahlar, alətlər və tərtibatlar tələb edir. Sadə hesablamalar göstərir ki, indi elmin fondtutumu səviyyəsi sənaye məhsulunun fondtutumu səviyyəsindən çox da geri qalmır. Deməli, buradan belə nəticə çıxır ki, müasir dövrdə güclü və yüksək texniki səviyyəyə malik elmi-texniki potensial olmadan elmi inkişaf etdirmək mümkün deyil.

Fərqləndirici cəhətlərdən biri də elmin kollektivləşməsi, beynəlmiləlləşməsi və qloballaşmasıdır. Bunun əsas mahiyyəti ondadır ki, elm keçmişdə olduğu kimi bir-iki dahi tərəfindən (məsələn, Arximed və Nyutonun məşhur kəşflərində olduğu kimi) yox, elmin müxtəlif sahələrinin tətbiqi ilə məşğul olan müxtəlif kollektivlər tərəfindən bütün ölkələrin iştirakı ilə inkişaf etdirilə bilər. Əyanilik üçün göstərək ki, hazırda Azərbaycan Respublikasında elmin və texnikanın inkişafı ilə məşğul olan onlarla elmi qurumlar fəaliyyət göstərir. Respublikanın elm sahəsində əldə etdiyi nailiyyətlərin səviyyəsi bütün bu qurumların səmərli işindən asılıdır. Ən böyük elmi nailiyyət bütün elmi-tədqiqat ocaqlarının əməli işi nəticəsində əldə edilə bilər. Bu elmin kollektivləşməsinin bir tərəfidir. Onun digər tərəfi bir elmi məsələnin müxtəlif institutlar tərəfindən öyrənilməsi zərurətindən doğur. Məsələn, əldə edilmiş yeni materialların kimyəvi xassələrini Elmlər Akademiyasının Kimya İnstitutu, fiziki xassəsini Fizika İnstitutu öyrənir. Əgər Fizika İnstitutu böyük müvəffəqiyyətlə işləsə belə və məsələn, Uimya institutunun kollektivi öz işinin öhdəsindən vaxtında gələ bilməsə (yeni maddənin bütün kimyəvi xassələrini vaxtında öyrənə bilməsə), onda qarşıya qoyulan ümumi məsələ - yeni materialın əldə edilməsi, mənimsənilməsi və geniş miqyasda istehsala tətbiq edilməsi məsələsi vaxtında həll edilməz.

Göründüyü kimi, elmi nailiyyətləri istehsala gecikmədən tətbiq etmək üçün konkret elmi məsələnin həlli ilə məşğul olan bütün kollektivlərin səylə və yaradıcılıqla işləməsi vacibdir. Əks təqdirdə elmin inkişafı ləngiyə bilər. Elmin kollektivləşməsinin mahiyyəti də bundadır. Bir kollektivin (şəxsin) yaxşı işi elmin tərəqqisi üçün kifayət

etmir. Keçmişdə isə bu kifayət edirdi. Məsələn, Papov radio sahəsində kəşfini özü etmişdir. İndi isə müəyyən elmi nailiyyətin əldə edilməsi üçün əksər hallarda müxtəlif ixtisasa və biliyə malik bir çox şəxslərin (kollektivlərin) iştirakı vacibdir. Proseslərin qloballaşdığı indiki dövrdə isə elmin inkişafı üçün bütün ölkələrin elmi fəaliyyətini məqsədyönlü koordinatlaşdırmaq tələb olunur.

Müasir elmin inkişafının mühüm fərqləndirici cəhətlərindən biri də onun riyaziləşməsidir. Elmin riyaziləşməsi öz əksini onda tapır ki, konkret obyektə malik natural eksperiment getdikcə daha çox varlığı ümumi şəkildə təsvir edən riyazi modellərin tədqiqi ilə əvəz edilir. Riyaziyyatsız elm lazımi səviyyədə inkişaf edə bilməz. Geniş miqyasda elektron - hesablama maşınlarının yayılması elmin riyaziləşməsi prosesini daha da sürətləndirir.

Texniki tərəqqi - əmək vasitələrinin, əmək cisminin və istehsalın texnologiyasının irəliyə doğru, arasıkəsilmədən mütərəqqi dəyişməsi, qanunauyğun obyektiv prosesdir. O istehsalın səmərəliliyinin amilidir.

Elmin inkişafı kimi, texnikanın inkişafı da iki formada - evalyusiya (tədricən inkişaf) və inqilab (keyfiyyətcə dəyişilmə, partlayış, sıçrayış) formalarında baş verir. Texnikanın tədricən inkişaf dövrü müxtəlif ola bilər. Evalyusiya dəyişmələrinin vaxt uzunluğu cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsindən və təsərrüfat mexanizminin vəziyyətindən asılıdır. Məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksək, təsərrüfat mexanizmi isə mükkəməl olarsa, onda texnikanın evalyusiya inkişaf dövrü qısala bilər. Əhatə etdiyi dövrdən asılı olmayaraq evalyusiya müddətində əmək vasitələrində tədricən təkmilləşmələr gedir: texnika daha mükəmməl olur, məhsuldarlığı artır, texniki parametrləri yaxşılaşır və s. Göstərmək lazımdır ki, elmdə olduğu kimi, texnikada da evalyusiya inkişafı inqilabi inkişafla başa çatır, lakin konkret olaraq əmək vasitəsinin tərəqqisi dayanmır: texnikada inqilab baş verdikdən sonra yeni əsas üzərində təzədən onun tədricən inkişafı başlayır və yeni inqilabi dəyişmənin əmələ gəlməsi üçün zəmin hazırlayır. Deməli, elmdə olduğu kimi texnikada da tədrici

inkişaf inqilabi dəyişikliklərlə nəticələnir, sonradan tam yeni, mütərəqqi əsas üzərində yenidən tədricən inkişaf başlayır və yeni inqilabi dəyişikliklər baş verir və bu tsikl daim təkrar olunur.

Müasir dövrdə belə prosesin getməsini çoxlu misallar təsdiq edir. Məsələn, hazırda bütün sənaye sahələrində geniş tətbiq edilən elektron-hesablama maşınların (EHM) dördüncü və beşinci nəsli, onların ilk dəfə yaradılmış birinci nəslinin evalyusiya inkişafının nəticəsidir. Lakin göstərmək lazımdır ki, EHM ilk nümunələri (birinci nəsli) hesabalma texnikasında baş verən inqilabın nəticəsi idi. Lakin EHM birinci nəslinin təkmilləşdirilməsi onların ikinci nəslinin meydana çıxmasına, sonrakı təkmilləşmələr isə üçüncü, dördüncü və s. nəslinin meydana gəlməsinə səbəb olmuşdur.

Əslində EHM yeni modelləri süni intellektə malik çox “savadlı” və “ağıllı” maşınlardı. Bu EHM-də baş verən yeni inqilabi çevrilişdir. Bundan sonra, görünür EHM-nı sonrakı nəsillərin təkmilləşdirilməsindən söhbət getməlidir: yeni əsas üzərində - EHM yeni qəbiləsi əsasında yeni evalyusiya inkişafı başlanacaq və EHM texnikasından yeni inqilabi çevrilişin baş verməsinə qədər davam edəcəkdir.

Göstərdiyimiz bu misal bir daha sübut edir ki, texniki tərəqqi irəliyə doğru aramsız hərəkət edən bir prosesdir ki, onun da əsas tərkib hissələrini texnikanın tədrici (evalyusiya) inkişafı ilə inqilabi inkişafı təşkil edir. Bu prosesi tarixi nöqteyi-nəzərincə izləsək, görərik ki, cəmiyyət miqyasında texnikanın tərərqqisi tsiklik xarakter daşıyır. Bu o deməkdir ki, bəşər tarixində daim belə bir proses baş verir: evalyusiya (tədricən) dəyişikliklər inqilabi dəyişikliklərlə (çevrilişlərlə) əvəz olunur, sonra isə yenə də mütərəqqi əsas üzərində evalyusiya dəyişiklikləri başlayır və tsikl təkrar olunur. Bu qanunauyğun, obyektiv proses cəmiyyətin tələbatlarından və bu tələbatları tam və nisbətən az ictimai xərclərlə ödəmək zərurətindən doğan və sonu olmayan bir prosesdir. Məsələnin tam aydın olması üçün texnika və texnologiyada

baş verən evalyusiya və inqilabi dəyişikliklərə aid bir əyani misal da göstərək.

Məlumdur ki, maşınqayırma sənayesində istehsalın, texnologiyanın əsasını emal əməliyyatları təşkil edir. Müxtəlif mexaniki emaletmə üsulları çoxdan mənimsənilmiş və istehsala tətbiq edilmişdir. Lakin maşınqayırma məhsulunun keyfiyyətinə olan ictimai tələbatların, istehsalın səmərəliliyinin köklü surətdə yüksəldilməsi, emal üsullarının təkmilləşdirilməsini qarşıya aktual bir problem kimi daim qoymuşdur. Məlum texniki emal üsulları tədricən təkmilləşdirilmiş (texnologiyanın evalyusiya inkişafı) və öz son həddinə çatmışdır. Təcrübə göstərir ki, emal üsullarının bundan sonra evalyusiya təkmilləşmələri köklü surətdə iqtisadi nəticə vermir. Buna görə də prinsipcə yeni xüsusiyyətlərə malik emal üsulları yaranması zərurəti meydana gəldi. Fizika, kimya elmlərində baş verən inqilabi kəşflər bu məsələni həll etmək üçün şərait yaratdı və prinsipcə yeni emal üsulları meydana gəldi. Metalların elektroqığılcım, elektroimpuls, elektrokimya, ultrasəs və s. emal üsulları belə üsullardandır. Hazırda maşınqayırma istehsalında elektrolit pardaxlama, kimyəvi frezləmə, elektroboşaltma, elektrokimyəvi, ultrasəs üsulları ilə metalların emal edilməsi xəyal deyil, adi həqiqətə çevrilmişdir. Metalların inqilabi emal üsullarına onların plazma ilə emal edilməsi üsulları da daxildir. Bu göstərdiyimiz emal üsullarının inqilabiliyi ondadır ki, onlar tam yeni elmi-texniki prinsiplərə əsaslanırlar. Deməli, mexaniki emal üsullarının kimyəvi, fiziki, elektrik emal üsullarına keçilməsi texnologiyada baş verən inqilabi dəyişikliklərdir.

Beləliklə də, elmin və texnikanın tərəqqisi evalyusiya dəyişmələri və inqilabi dəyişmələr formasında baş verir. Elmi-texniki tərəqqinin sürətləndirilməsində hər iki formanın əhəmiyyəti böyükdür. İstehsalın səmərəliliyinə təsir etməsi baxımından isə həlledici rol inqilabi dəyişmələrin payına düşür. Ona görə ki, məhz texnikada və texnologiyada inqilabi çevrilişlər ictimai əmək məhsuldarlığını köklü surətdə, cəmiyyətin tələb etdiyi səviyyədə yüksəldə bilir. Lakin elmin

və texnikanın inqilabi çevrilişlərə məruz qalması və bu prosesin intensivləşdirilməsi nöqteyi-nəzərincə onların inkişafının evalyusiya forması və evalyusiya müddəti mühüm rol oynayır. Evalyusiya dövrü qısaldıqca elmdə və texnikada inqilabi çevrilişlər tez-tez baş verir. Deməli, elmin və texnikanın inqilabi çevrilişlərə məruz qalması və bu prosesin intensivləşdirilməsi nöqteyi-nəzərincə onların inkişafının evalyusiya forması və evalyusiya müddəti mühüm rol oynayır. Evalyusiya dövrü qısaldıqca elmdə və texnikada inqilabi çevrilişlər tez-tez baş verir. Deməli, elmin və texnikanın tərəqqisini sürətləndirmək üçün əsas şərt onların tədrici (evalyusiya) inkişaf müddətinin (dövrünün, vaxtının) maksimum qısaldılmasıdır.

Elmin və texnikanın tərəqqisi sonsuz bir prosesdir. Onun obyektiv əsasını insanların tələbatları və bu tələbatların sürətlə artması təşkil edir. Məsələ burasındadır ki, hər hansı bir dövr-də cəmiyyətin öhdəsində olan istehsal vasitələri tələbatları ancaq müəyyən müddətdə ödəyə bilir. Vaxt keçdikcə fəaliyyətdə olan əmək alətləri və əmək cisimləri durmadan artan tələbatları ödəyə bilmir. Cəmiyyətin yeni üstün tələbatlarını dolğun şəkildə ödəmək üçün daha müəkəmməl, daha məhsuldar istehsal vasitələrinin yaradılması zərurəti meydana çıxır. Elə bir dövr yaranır ki, əldə olan istehsal vasitələrinin köməyi ilə cəmiyyətin bu və ya başqa məhsullara olan tələblərini ödəmək mümkün olmur. Yeni texniki vasitələrin tapılmasına, istehsal edilməsinə və sənayenin və xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq edilməsinə ehtiyac artır. Bu da texnikada inqilabi çevrilişləri zəruri edir. Bu zəruriyyət prinsipcə yeni texnikanın yaradılması nəticəsində həll edilir. Bu proses arasıkəsilmədən davam edir. Elə buna görə də bəşəriyyət tarixində çoxlu elm və texniki inqilablar baş vermişdir və bu proses indi də davam edir.

Texnika öz inkişafında çox sadə dildə desək, primitiv daş alətlərdən indi istehsala geniş tətbiq edilən və süni intellektə malik EHM-ə qədər uzun və mürəkkəb yol keçmişdir. Texnikada baş vermiş inqilablara çoxlu misallar çəkmək olar. Öz dövründə daş alətlərin meydana gəlməsi inqilab idi. Sonralar daş alətlərin başqa materiallardan

(dəmirdən, poladdan, müxtəlif bərk alətlərdən və s.) hazırlanan alətlərlə əvəz edilməsi də texnikada baş verən inqilab idi. XVIII əsrin ikinci yarısında buxar mühərrikinin yaranması və istehsala tətbiq edilməsi, XIX əsrin axırı və XX əsrin əvvəllərində elektrik və daxili yanma mühərriklərinin meydana gəlməsi də texnikada baş verən inqilablardır. Müasir dövrdə texnikada baş verən inqilablar mürəkkəb və çoxşaxəli bir prosesə çevrilmişdir. Bu prosesin əsas cəhəti texnikanın kinematik quruluşunun dəyişməsi və prinsipcə yeni həlqələrinin - kibernetik proqramlaşdırılmış qurğuların, idarəedici və nəzarətedici həlqələrinin yaradılması və inkişaf etdirilməsidir. Məhz belə həlqələrin meydana gəlməsi cəmiyyətin çoxdankı arzusunu - avtomatlaşdırılmış istehsalların yaradılmasını reallaşdırmağa imkan vermişdir. Belə texniki inqilabın nəticəsində insan hər cür yekcins, yaradıcı olmayan işləri yerinə yetirməkdən xilas olur.

İnkişaf etmiş və yeni sənaye ölkələrində əldə edilən müvəffəqiyyətlərin əsasında emal sənayesi durur. Xüsusən də maşınqayırma onlar üçün mühüm rol oynayır. Kim dünya bazarına daha çox və daha keyfiyyətli maşınqayırma məhsulu çıxara bilirsə o ölkə daha sürətlə inkişaf edir. Bazara rəqabət dözümlü maşınqayırma məhsulu çıxarmaq, reallaşdırmaq və çoxlu mənfəət əldə etmək isə ilk növbədə elmi-texnika istehsal tsiklindən baş çıxarmağı tələb edir.

Elmin və texnikanın tərəqqisi son nəticədə istehsalın tərəqisinə səbəb olmalıdır. Buna görə də "elmi-texniki tərəqqi" anlayışı ilə yanaşı "elmi-istehsal tərəqi" və "istehsalın tərəqqisi" anlayışları də fərqləndirilməlidir. Bunun böyük əhəmiyyəti vardır. Məsələ burasındadır ki, elmin və texnikanın tərəqqisi cəmiyyətə ancaq o zaman səmərə verə bilir ki, həmin vaxt əldə edilən nailiyyətlər istehsala tətbiq edilmiş olsun. Əgər elmi və texniki nailiyyətlər istehsala tətbiq edilmirsə, onda onlar nailyiyət olaraq qalırlar, səmərə isə vermirlər.

Bundan başqa, elmi və texniki nailiyyətlər istehsala vax-tından gec tətbiq edilə bilər. Bu zaman yeni texnikanın verə biləcəyi səmərə azalır. Ən böyük səmərə elmi və texniki nailiyyətləri istehsala

gecikmədən tətbiq edildikdə əldə edilir. Lakin bu halda da istehsalın tərəqqisindən danışmaq olmaz. Ona görə ki, bir neçə mütərəqqi texnikanın və ya elmi nailiyyətin istehsala tətbiqi hələ orada baş verən dəyişikliklərin hansı formada - inqiabi və yaxud da tədrici (evalyusiya) formalarından getməsi haqqında heç bir rəy söyləməyə imkan vermir. Doğrudan da, əgər maşınqayırma müəssisəsində texnoloji avadanlıqlar parkı 500 müxtəlif avadanlıqlardan ibarətdirsə, onda 5-i, 10-u, 15-i mütərəqqidirsə, bu istehsalın texniki bazasında inqilabi dəyişikliklərin baş verməsi deyildir. İstehsalın tərəqqisindən, orada baş verən elmi-texniki inqilablardan o zaman söhbət gedə bilər ki, birincisi, müəssisə və birliyin sərəncamında olan texnoloji avadanlıqların heç olmazsa yarısından çoxu müasir elmi-texniki tərəqqinin nailiyyətlərinə cavab verən mütərəqqi avdanlıqlardan ibarət olsun və ikincisi, bu müəssisədə istehsal edilən məhsulun yeniləşmə əmsalı yüksək olsun, keyfiyyəti isə ən azı dünya standartlarına cavab versin. Bu şərtlər ödənilməyən bütün hallarda istehsalın inqilabi inkişafından deyil, onun evalyusiya (tədricən) inkişafından söhbət gedə bilər.

Deməli, təcrübə üçün çox əhəmiyyətli olan məsələlərdən biri "elmi-texniki tərəqqi" anlayışı ilə "istehsalın tərəqqisi" anlayışını bir-birindən dəqiq surətdə ayırmaqdır. Əks təqdirdə istehsalın səmərliliyinə təsir edən çoxlu mənfi hallarda qarşılaşmalı oluruq. Keçmiş SSRİ sənayesinin indiki ağır vəziyyətinin səbəblərindən biri və demək olar ki, başlıcası bu olmuşdur ki, ETT ilə "istehsalın tərəqqisi" eyniləşdirilmişdir. Nəticədə ayrı-lıqda elmin və texnikanın tərəqqisi baş versə də istehsalın tərəqqisi baş verməmişdi. İstehsalın tərəqqisi üçün əsas şərt elmi-texniki nailiyyətləri kecikmədən istehsala hərtərəfli, kompleks şəkildə tətbiq etmək və bu yol ilə gedib məhsulun keyfiyyətini bazar iqtisadiyyatı tələbləri səviyyəsinə çatdırmaqdır.

Elmi-texniki tərəqqinin və istehsalın tərəqqisinin mahiyyətini açmağa onun fazalarını öyrənmək kömək edir. Elmi-texniki tərəqqi vax-ta görə baş verən bir proses kimi bir-biri ilə qarşılıqlı surətdə əlaqədar olan yeddi fazanı (sahəni) əhatə edir. Bunlara fundamental tədqiqatlar,

tətbiqi tədqiqatlar, texniki işləmələr və sınaq istehsalı, yeni texnikanın ilkin mənimsənilməsi, yeni texnikanın hərtərəfli (geniş) yayılması, səmərəli istifadə edilməsi, istehsaldan çıxarılması və yenisi ilə əvəz edilməsidir. Qlobal miqyasda götürdükdə fundamental tədqiqatlarda əsas məqsəd cəmiyyətin və təbiətin obyektiv qanunları haqqında ümumelmi məlumatlar əldə etməkdir. Tətbiqi elmi-tədqiqat işlərində fundamental tədqiqatın nəticələrindən təcrübədə istifadə edilməsi yolları araşdırılır və tapılır. Tətbiqi tədqiqatların nəticələrinə əsaslanaraq texniki işləmələr fazasında prinsipcə yeni və yaxud təkmilləşdirilmiş texnikanı (məhsulu, məlumatı) yaratmaq üçün layihə, texnoloji, təşkilati-idarəetmə, təcrübi-eksperiment, yoxlama sənədləri hazırlanır. Bu fazanın mühüm və son pilləsi sınaq istehsalıdır, yəni yeni texnikanın sınaq nümunələrinin hazırlanmasıdır ki, bunun da əsas məqsədi layihə-texnoloji işləmələrin nəticələrini real vəziyyətdə yoxlamaq, onlara lazımi düzəlişlər verməkdir. Bu mühüm fazadan sonra yeni texnikanın ilkin mənimsənilməsi fazası başlayır. Bu fazada texniki və iqtisadi mənimsənilmələr fərqləndirilir. Sonrakı fazalar yeni texnikanın məqsədyönlü miqyasında iqtisadi mənimsənilməsi və hərtərəfli yayılmasını və istehsaldan çıxarılıb yenisi ilə  əvəz edilməsini əhatə edir.

Deməli, elmi-texniki tərəqqi bir proses kimi fundamental tədqiqatlardan tutmuş, yeni texnikanın ümumdövlət və ümumdünya miqyasında mənimsənilməsinə qədər olan bir dövrü (müddəti) əhatə etsə də bu prosesin ancaq beşinci fazasında istehsalda tərəqqi başlayır və yüksək iqtisadi səmərə əldə etmək üçün obyektiv imkan yaranır. Buna görə də səmərəlilik nöqteyi-nəzərincə "İstehsalın tərəqqisi" məfhumu "elmi-texniki tərəqqi" məfhumundan genişdir. Əgər elmi-texniki tərəqqi istehsalın tərəqqisinə gətirib çıxarmırsa, yəni elmi-texniki nailiyyətlər istehsal aparatında inqilabi dəyişikliklərə səbəb olmursa, dünya bazarı rəqabətinə dözümlü məhsul istehsal edilməsi ilə nəticələnmirsə, onda elmi-texniki tərəqqi prosesinin əvvəlki dörd fazalarında çəkilən xərclər lazımi səmərə vermir.

İstehsalda elmi-texniki və iqtisadi tərəqqi baş verməsini təmin etmək üçün elmi-texniki tərəqqinin göstərdiyimiz beş fazalarından başqa daha iki - altıncı və yeddinci fazalarını da göstərmək lazımdır. Elmi-texniki tərəqqinin bir proses kimi altıncı fazası ümumdövlət miqyasında mənimsənilmiş və yeni texnikanın səmərəli, vaxta və gücə görə tam istifadəsini əhatə edir. Bu fazada texnikanın bütün imkanlarından istifadə etmək və mənəvi köhnəlməsinə qədər olan dövrdə ondan daha çox səmərə əldə etmək lazımdır.

Yeddinci - sonuncu faza - yeni texnikanın fiziki və mənəvi köhnəlməsini əhatə edir. Bu dövrdə istifadə edilən texnikadan daha yüksək parametrləri ilə fərqlənən texnika meydana gəlir. Buna görə də fəaliyyətdə olan texnikanın təkmilləşdirilməsindənsə, onu daha yüksək texniki-iqtisadi göstəricilərə malik əmək vasitəsi ilə əvəz etmək daha sərfəli olur. Beləliklə də, elmi-texniki və elmi-istehsal tsikli yeddi fazanı əhatə edir. Ancaq bu halda istehsalın tərəqqisindən söhbət gedə bilər, ancaq bu halda yüksək səmərəli xassəyə malik, uyuşqanlı istehsaldan danışmaq olur.

Həm istehsalın tərəqqisi və həm də texnikanın və elmin tərəqqisi üçün göstərdiyimiz fazalar labüddür. Lakin elmi-texniki tərəqqi üçün birinci dörd fazalar, istehsalın tərəqqisi üçün və deməli, yüksək iqtisadi və sosial səmərə əldə etmək üçün isə axırıncı üç (beşinci, altıncı və yeddinci) fazalar həlledici rol oynayırlar. Başqa sözlə desək, istehsalın tərəqqisi üçün ən vacib şərt elmi-texniki nailiyyətlər nəticəsində meydana gəlmiş yeni texnikaların ümumsənaye (ümumdövlət, ümumdünya) miqyasında iqtisadi mənimsənilməsi, tam və səmərəli istifadə edilməsi və onların vaxtında mütərəqqi texnikalarla əvəz edilməsidir. Elmi-texniki tərəqqi üçün əsas şərt isə fundamental tədqiqatların tətbiqi, tədqiqatların genişləndirilməsi və təcrübi-eksperimental işlərin gücləndirilməsidir.

### §2. Elmi-texniki tərəqqinin xüsusi istiqamətləri

Texniki tərəqqinin xüsusi istiqamətləri sənayenin ayrı-ayrı sahələrində daha çox nəzərə çarpır. Bu istiqamətlər adətən sahənin baş elmi-tədqiqat institutları, aparıcı elm xadimləri, aparıcı kompaniyaları, birlikləri tərəfindən təyin edilir və əsaslandırılır.

Elmi-texniki tərəqqinin xüsusi istiqamətləri içərisində sahə məhsulu kefiyyətinin yüksəldilməsi, assortimentinin (çeşidinin) genişləndirilməsi, məmulatların davamlılığının və etibarlığının yüksəldilməsi məsələsi böyük əhəmiyyətə malikdir. Əlbəttə, ümumi şəkildə götürdükdə məhsulun keyfiyyətinin yüksəldilməsi bütün sənaye sahələri üçün vacib hesab edilən bir məsələdir. Lakin birincisi bu məsələnin həlli yolları müxtəlif sahələrdə müxtəlifdir və ikincisi, sahə məhsullarının keyfiyyətinin yüksəlməsi ictimai istehsalın səmərəliliyinə müxtəlif səviyyədə təsir göstərir. Buna görə də problemin - məhsulun keyfiyyətinin yüksəldilməsi – (onun rəqabət dözümlülüyünün artırılması) sənayenin müxtəlif sahələrində mövcud olduğuna baxmayaraq biz onu elmi-texniki tərəqqinin sahəvi istiqaməti hesab etməyi məqsədyönlü sayırıq.

Əsas konstruksiya materialları və xalq istehlakı malları istehsalı üçün ilkin materiallar istehsal edən sənaye sahələrində məhsulun keyfiyyətinin yüksəldilməsinin xalq təsərrüfatı üçün daha çox əhəmiyyəti vardır. Belə sahələrə qara və əlvan metallurgiya, kimya sənayesi, meşə və ağac emalı sənayesi sahələri ilk növbədə daxil edilməlidir. Məsələ burasındadır ki, elmi-texniki tərəqqinin göstərdiyimiz ümumi və müasir istiqa-mətləri ən yüksək dərəcədə inkişaf etdirilərsə belə (məsələn: əməyin elektriklə silahlanması ən yüksək səviyyəyə çatdırılsa belə) əgər metallurgiya sənayesi istehsal etdiyi məhsulun profillik səviyyəsini yüksəltməsə, çox nazik və davamlı metal təbəqələri istehsalını artırmırsa, leqirləşdirilmiş çox yüksək texniki-iqtisadi göstəricilərə malik polad istehsal etmirsə, ictimai istehsalın səmərəliliyini köklü surətdə yüksəltmək mümkün olmur. Məlumdur ki, keçmiş SSRİ polad istehsalının həcminə görə dünyada

birinci yeri tuturdu. Lakin məhsul istehsalının hər vahidinə düşən metal xərcləri bu ölkədə ABŞ-da çəkilən metal xərclərindən çox idi. Metallurgiya sənayesində istehsal edilən yaymaların keyfiyyətinin pis və çeşidinin dar olması nəticəsində sənaye məhsulunun metal tutumu yüksək idi. Bir qayda olaraq metallurgiya sənayesi məhsulunun keyfiyyəti yüksələndə, çeşidi genişlənəndə maşınqayırmada emal zamanı əmələ gələn yonqarın miqdarı azalır.

Metallurgiyada məhsulun keyfiyyətini yüksəltmək üçün ilk növbədə bu məsələnin həllinə yönələn texniki tərəqqinin sahəvi istiqamətlərindən geniş istifadə edilməlidir. Belə istiqamətlərə metalların termiki emalının təkmilləşdirilməsi, növlərinin, profillərinin nomenklatura və çeşidlərinin çoxaldılması, yüksək keyfiyyətli, nazik təbəqəli metalın xüsusi çəkisinin artırılması daxildir. Texniki tərəqqinin metallurgiyaya məxsus olan bu cür istiqamətləri çoxlu miqdarda material-enerji və əmək resurslarına qənaət etməyə imkan verir.

Məhsulun keyfiyyətinin yüksəldilməsi maşınqayırmada mühüm əhəmiyyət kəsb edir. Bu həm maşınqayırmanın özü üçün və həm də bütövlükdə ictimai istehsalın səmərəliliyini yüksəltmək üçün başlıca şərtdir. Maşınqayırmanın istehsal etdiyi məhsullar sənayenin və iqtisadiyyatının bütün sahələrində əmək aləti kimi istifadə edilir. Buna görə də maşınqayırma məhsulunun davamlılığı, etibarlılığı, uzunömürlülüyü, qənaətcilliyi, məhsuldarlığı ictimai istehsalın bütün sahələrində səmərəliliyə ciddi şəkildə təsir göstərir. Buna görə də maşınqayırmada elmi-texniki tərəqqinin sahəvi istiqamətlərinə maşın və mexanizmlərin məhsuldarlığının yüksəldilməsi, etibarlılığının artırılması, avtomatlılıq səviyyəsinin yüksəldilməsi və s. bu kimi məsələlərin həllinə yönələn tədbirlər daxildir. Maşınqayırma daim öz məhsulunu yeniləşdirməli, istər özündə və istərsə də iqtisadiyyatın digər sahələrində istehsal proseslərini kompleks avtomatlaşdırmağa imkan verən, dünya standartlarına cavab verən əmək alətləri istehsal etməlidir. Maşınqayırma istehsalı uyuşqanlı olmalıdır ki, prinsipcə yeni məhsul istehsalına az vaxt sərf etməklə keçmək mümkün olsun. Deməli,

uyuşqanlı avtomatlaşdırılmış sistemlərin yaradılması və istehsala tətbiqi həm maşınqayırmanın özündə və həm də digər sahələrdə elmi-texniki tərəqqinin sahəvi istiqaməti kimi özünü göstərir. Doğrudan da texniki tərəqqinin ümumi istiqamətləri olan elektrikləşdirmə, mexanikləşdirmə, avtomatlaşdırma və kimyalaşdırma yüksək səviyyədə inkişaf etdirilsə belə, əgər istehsalın uyuşqanlığı, dinamikliyi təmin edilməyibsə, rəqabətə dözümlü maşınqayırma məhsulu istehsal oluna bilməz. Bu, bir daha sübut edir ki, elmi-texniki tərəqqinin ümumi və müasir istiqamətləri ilə yanaşı konkret istehsal üçün spesifik xarakterə malik sahəvi istiqamətlərinə də diqqət artırılmalıdır.

İqtisadiyyatın konkret sahəsində istehsal edilən məhsulun və göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi böyük iqtisadi səmərə verməklə yanaşı texniki tərəqqinin sürətləndirilməsinə də kömək edir. Məsələn, kimya sənayesində fenolun və formalinin keyfiyyətinin yüksəldilməsi fenol-formaldehid qətranın alınması əməliyyatının təxminən iki dəfə qısaldılmasına səbəb olur. Bu da öz növbəsində avtomat xətlərdən istifadə edilməsi yolu ilə məmulatın istehsal prosesini tamamilə avtomatlaşdırmağa imkan verir. Göründüyü kimi, burada elmi-texniki tərəqqinin sahəvi istiqaməti (kimya sənayesində), fenolun və formalinin keyfiyyətinin yüksəldilməsi onun ümumi istiqaməti olan avtomatlaşdırma üçün şərait yaratmış olur. Buradan belə bir mühüm nəticə çıxarmaq olar: elmi-texniki tərəqqinin sahəvi istiqamətləri onun digər istiqamətlərinə güclü təsir göstərir. Elə buna görə də elmi-texniki tərəqqinin ümumi istiqamətləri məqsədyönlü inkişaf etdirilməlidir. Başqa sözlə desək, məsələn, elektrikləşdirmə xatirinə yox, konkret sənaye sahəsinin texniki-iqtisadi probleminin elektrikləşmə həllinə, texniki tərəqqinin sahəvi istiqamətlərinin inkişafına uyğun hə-yata keçirilməlidir.

Elmi-texniki tərəqqinin ictimai istehsalın səmərəliliyini yüksəldən mühüm sahəvi istiqamətlərindən biri də istehsal proseslərinin intensivləşdirilməsidir. Məsələn, metallurgiya və kimya sənayelərində xammalın dərin saflaşdırılması, dəqiq növləşdirilməsi, xammal və

materialların faydalı komponentlərinin artırılması üçün onların ilkin emal edilməsi, bu baxımdan böyük əhəmiyyət kəsb edir. Metallurgiyada oksigen və təbii qazdan, kimya sənayesində isə müxtəlif katalizatorlardan geniş istifadə edilməsi bu sahələr üçün elmi-texniki tərəqqinin sahəvi istiqaməti sayıla bilər. Bunlar texnoloji prosesi intensivləşdirirlər.

Hazırda texnoloji proseslərin intensivləşdirilməsinin maşınqayırmda böyük əhəmiyyəti vardır. Lakin təcrübə göstərir ki. planlaşdırma və idarəetmədə elmi-texniki tərəqqinin bu sahəvi istiqamətinə zəif inkişaf etmiş ölkələrdə az fikir verilir. Buna görə də istehsalın avtomatlaşdırılması, kimyalaşdırılması, elektrikləşdirilməsindən əldə edilən iqtisadi səmərə istehsal proseslərinin müvafiq səviyyədə intensivləşdirilməməsi nəticəsində azala bilər. İnkişaf etmiş bütün ölkələrdə bu məsələyə ciddi fikir verilir. Bir sıra istehsallarda ilkin xammal və materialların digərləri ilə əvəz edilməsi texniki-tərəqqini sahəvi istiqaməti kimi çıxış edir. Bu da böyük iqtisadi səmərə verir. Məsələn, kimya sənayesinin bəzi sahələrində ilkin xammal kimi işlədilən kömürün neftlə və qazla əvəz edilməsi bir neçə texnoloji pillələri ixtisara saldığı üçün istehsalın intensivliyi artır, məhsulun maya dəyəri aşağı düşür.

Tədqiqat göstərdi ki, elmi-texniki tərəqqinin sahəvi istiqamətləri onun ümumi istiqamətləri olan avtomatlaşdırma, mexanikləşdirmə, kimyalaşdırma və elektrikləşdirmədən heç də az iqtisadi səmərə vermir. Onlar ictimai tələbatların ödənilməsində mühüm rol oynayırlar. Məsələn, sintetik spirtin, yuyucu vasitələrin və digər kimya məmulatlarının alınmasında neft və qazdan istifadə edilməsi yeyinti məhsullarından texniki məqsədlər üçün istifadə edilməsinin qarşısını alır və əhalinin yeyinti məhsullarına olan tələbatının daha dolğun ödənilməsinə şərait yaradır.

Yüngül və əlvan metallurgiyada, kimya sənayesində, istehsal aparatlarında, qurğularında, aqreqatlarında təzyiqin və hərarətin yüksəldilməsi elmi-texniki tərəqqinin sahəvi istiqamətlərindəndir.

Ovuntu metallurgiyasının inkişafı və hissə, qovşaqların getdikcə daha çox hissəsinin metal ovuntulardan hazırlanması böyük iqtisadi və sosial əhəmiyyətə malikdir və maşınqayırma və metallurgiya üçün elmi-texniki tərəqqinin xüsusi istiqamətlərindəndir.

Maşınqayırmada elmi-texniki tərəqqinin mühüm xüsusi istiqaməti, metalların elektroqığılcım ilə emal edilməsi, elektrosəs və lazer şüaları ilə metalların qaynaq edilməsi kimi mütərəqqi emal üsullarının geniş tətbiq edilməsidir.

Sənayenin bir sıra istehsallarında texnoloji proseslərin arasıkəsilməməzliyinin təmin edilməsi elmi-texniki tərəqqinin sahəvi istiqaməti rolunu oynayır. Maşınqayırmada, metallur-giyada, meşə və yüngül sənayelərdə proseslərin arasıkəsilməməzliyi istehsala getdikcə daha çox və geniş miqyasda fasiləsiz işləyən aqreqatların, kompleks texnoloji xətlərin tətbiqi nəticəsində təmin edilir ki, bu da onların məhsuldarlığının yüksəldilməsinə, məhsulun keyfiyyətinin yaxışlaşdırılmasına və ən başlıcası isə elmi-texniki tərəqqinin ümumi istiqaməti olan, avtomatlaşdırmanın inkişaf etdirilməsinə səbəb olur.

Təmiz və ifrat təmiz materialların (metalların) əldə edilməsi və istehsala tətbiqi texniki tərəqqinin sahəvi istiqamətlərindəndir. Getdikcə bu istiqamətin əhəmiyyəti artır. Məsələ burasındadır ki, təmiz və ifrat təmiz materiallar yarımkeçiricilərin, atom enerjisinin, lazer texnikasının istehsalı ilə məşğul olan yeni mühüm sahələrin inkişafını təmin edirlər. Digər tərəfdən belə materiallar ənənəvi sənaye sahələri olan metallur-giyada, maşınqayırmada, kimya və yüngül sənayedə də geniş tətbiq edilir.

Elmi-texniki tərəqqinin sahəvi istiqamətləri arasında material resurslarından tam və səmərəli istifadə edilməsi çox mühüm əhəmiyyətə malikdir. Bu istiqamət bütün sənaye sahələrində böyük əhəmiyyətə malikdir. Lakin ağac və ağac emalı sənayesində, neft və filizçıxarma sahələrində texniki tərəqqinin bu istiqamətinin daha çox əhəmiyyəti vardır. Texniki tərəqqinin sahəvi istiqaməti elə inkişaf etdirilməlidir ki,

təbii resurslar yerin atında tam çıxarılsın, kompleks emal edilsin, tullantı (itkilər) olmasın.

Hər bir sənaye sahəsində elmi-texniki tərəqqinin sahəvi istiqamətlərini üzə çıxarıb onları məqsədyönlü şəkildə inkişaf etdirmək onun ümumi və ən müasir istiqamətlərinin inkişafına kömək edir və bütövlükdə elmi-texniki tərəqqinin sürətləndirilməsinə səbəb olur. Əgər elmi-texniki tərəqqinin ümumi istiqamətləri onun sahəvi istiqamətlərinin inkişafı ilə paralel aparılmırsa, onda istehsalın səmərəliliyi mümkün olan yüksək səviyyəyə çatmır. ETT-nin ümumi istiqamətlərinin inkişaf etdirilməsi nəticəsində əldə edilən səmərə, onun sahəvi istiqamətlərinin zəif inikşafının təsiri nəticəsində azalır. Məsələn, elektrikləşdirmə və mexanikləşdirmə, avtomatlaşdırma və kimyalaşdırma meşə sənayesinin və meşə emalı sənayesinin sürətlə inkişaf etdirməyə imkan verir. Lakin ETT-nin sahəvi istiqaməti - xammalın kompleks istifadəsi məsələsi lazımi səviyyədə həll edilməzsə, emal müəssisələrində tədarük olunmuş ağacın yarısına qədəri istehsal tullantısına çevrilə bilər.

ETT-nin sahəvi istiqamətlərini nəzərə almaq müvafiq kompaniyalardan böyük səy və bacarıq tələb edir. Hansı ölkədə sahibkarlar bu cəhətləri vaxtında görə bilirlərsə, onlar da azad bazar sferasında özlərinə uyğun yer tuta bilirlər.

## §3. Elmi-texniki tərəqqi və istehsalın səmərəliliyi

Elmi-texniki tərəqqi istehsalın səmərəliliyinə güclü təsir göstərir. Ən başlıcası isə ondan ibarətdir ki, elmi-texniki tərəqqi istehsalın inetnsiv yolla inkişafını təmin edir. Bu da səmərənin daha yüksək olması üçün zəmin yaradır.

Elmi-texniki tərəqqinin istehsalın intensivləşdirilməsində və səmərəliliyinin yüksəldilməsindəki rolu çox şaxəlidir. Qeyd etmək

lazımdır ki, ETT-i istehsalın səməəliliyinə özünün ümumi, xüsusi və baxılan dövr üçün ən yeni istiqamətləri üzrə təsir göstərir. Elmi-texniki tərəqqi istehsalın bütün ünsürlərinə - əmək vasitələrinə, əmək cisminə və əməyin özünə müsbət təsir göstərir, onları təkmilləşdirir və səmərəli və tam istifadə olunmaları üçün şərait yaradır. Bir qayda olaraq elmi-texniki tərəqqinin sürətləndirilməsi nəticəsində istehsal edilən məhsul vahidinin əmək, fond və material tutumları aşağı düşür, elm tutumu isə artır. Bu da istehsalın səmərəliliyinin yüksəldilməsi ilə nəticələnir.

İstehsalın səmərəliliyinə elmi-texniki tərəqqi müxtəlif istiqamətlər və formada təsir göstərir. Bu imkan verir ki, təcrübədə yaranmış konkret şəraiti nəzərə alaraq elmi-texniki tərəqqinin bu və ya digər istiqaməti və ya forması daha üstün inkişaf etdirilsin.

Dünya iqtisadiyyatı elmində elmi-texniki tərəqqinin bir neçə inkişaf forması fərqləndirilir. İstehsalın hansı elementinə daha çox təsir etməsi baxımından elmi-texniki tərəqqinin əməyə qənaət, fonda qənaət, materiala qənaət və yaxud da fond tutumlu, material tutumlu və əmək tutumlu formaları fərqləndirilir. Çox vaxt konkret istehsallarda yaranmış şəraiti nəzərə alaraq elmi-texniki tərəqqinin göstərdiyimiz formalarının əlaqələndirilməsindən əmələ gələn formalarından da istifadə edilir. Elmi-texniki tərəqqinin belə əlaqələndirilmiş formlarına əmək tutumlu - fondqoruyucu, fondtutumlu - material qoruyucu, material tutumlu - əmək qoruyucu, əmək tutumlu - fond qoruyucu və s. formaları daxildir.

Formalar üzrə elmi-texniki tərəqqinin sürətəndirilməsinin mahiyyəti istehsalın səmərəliliyinin məqsədyönlü yüksəldilməsidir. Əgər sənaye müəssisəsi işçi qüvvəsinin çox olduğu regionda yerləşirsə, müəyyən dövrdə elmi-texniki tərəqqinin əmək tutumlu formasının inkişafı məqsədəuyğun hesab olunur. Digər regionlarda deyək ki, əgər fondlara qənaət etmək daha sərfəlidirsə, onda elmi-texniki tərəqqinin əməktutumlu - fond qoruyucu forması, materiallara qənaət daha sərfəlidirsə, onun əmək tutumlu - material qoruyucu forması daha üstün inkişaf etdirilir. Əgər müəssisənin yerləşdiyi ərazidə əmək ehtiyatları

çatışmırsa, onda elmi-texniki tərəqqinin əməyə qənaət formasını inkişaf etdirmək lazımdır.

Qeyd edək ki, elmi-texniki tərəqqinin bu və ya digər formasının konkret istehsal üçün seçilməsi vaxt etibarı ilə müvəqqəti xarakter daşımalıdır. Məsələn, işçi qüvvəsi artıqlığı aradan götürüldükdən sonra elmi-texniki tərəqqinin forması da dəyişilməlidir. Ümumiyyətlə götürdükdə isə elmi-texniki tərəqqinin daha çox səmərə verən istiqamət və formasına üstünlük vermək lazımdır.

Elmi-texniki tərəqqi istehsalın intensivləşdirilməsinə güclü təsir göstərir. Ümumiyyətlə götürdükdə isə elmi-texniki tərəqqi, intensivləşmə və istehsalın iqtisadi səmərəliliyi qarşılıqlı əlaqədə olurlar. Burada istehsalın səmərəliliyi elmi-texniki tərəqqinin və istehsal proseslərinin intensivləşmənin son nəticəsidir. Elmi-texniki tərəqqi bu nəticənin əldə edilməsində hərəkətverici qüvvə, yəni amil rolunu oynayır. İntensivlşəmə isə yüksək son nəticənin əldə edilməsi üçün şərait, məhsuldar istehsal mühiti yaradır. İntensivləşmənin səviyyəsi yüksəldikcə elmi-texniki tərəqqinin inkişafı üçün, elmi-texniki tərəqqi inkişaf etdikcə intensivləşmənin yüksəlməsi üçün şərait yaranır. Bunun nəticəsində də istehsalın iqtisadi səmərəliliyi yüksəlir.

Qeyd edək ki, intesnviləşmə ilə elmi-texniki tərəqqi arasında sıx və qarşılıqlı əlaqə vardır. Lakin onları eyniləşdirmək olmaz. Çünki onların inkişaf istiqamətləri, yolları bir çox cəhətdən eyni deyildir, bir-birinin üzərinə düşmür.

Elmi-texniki tərəqqi iqtisadiyyatın bütün sahələrini əhatə edən çoxcəhətli və qanunauyğun bir prosesdir. Sənayedə bu proses öz əksini istifadə edilən maşın və mexanizmlərin, ötürücü qurğuların, alət və tərtibatların, ölçü və tənzimləyici vasitələrin hər cür mexanizmlərin sistemdə işləyən maşın mexanizmlərlə əvəz olunmasında, istehsalın robotlaşmasında, uyuşqanlı istehsalların əmələ gəlməsində və s. tapır. Texniki-tərəqqi texnikanın daim irəliyə doğru hərəkəti prosesi kimi özünün elmə məlum olan ümumi və xüsusi istiqamətləri, forma və istiqamətləri üzrə inkişaf edir. Elmi-texniki tərəqqi sürətləndikcə söz

yox ki, istehsalın intensivləşməsi səviyyəsi yüksəlir. Lakin bu o demək deyildir ki, istehsalın intensivləşməsi elmi-texniki tərəqqinin inkişaf qanunları altında avtomatik, özü-özünə formalaşır. İntensivləşdirmənin ETT-nin istiqamətləri ilə üst-üstə düşən istiqamətləri ilə yanaşı təşkilati-iqtisadi və sosioloji amillərlə şərtləşən öz istiqamətləri, elmi-texniki tərəqqi nəticəsində əldə edilmiş istehsal aparatından vaxta və gücə görə tam istifadə edilməsinə və onların vaxtında təzələşdirilməsinə yönələn istiqamətlər və bunun həyata keçirilməsi üçün görülən tədbirlərlə təyin olunur. İntensivləşdirmənin, (səviyyəsinin yüksəlməsinin) öz fərdi istiqamətləri əldə olan material, əmək, enerji və resurslardan daha səmərəli, daha məqsədyönlü, daha qənaətlə istifadə edilməsinə yönəlir.

Real həyatda elmi-texniki tərəqqi öz əksini əmək alətlərində və əmək cismində baş verən dərin və çoxcəhətli dəyişikliklərdə tapır. İstehsalın səmərəliliyini yüksəltmək üçün bu nailiyyətləri geçikmədən istehsala tətbiq etmək lazımdır. Son nəticədə işçi kollektivin sosial-iqtisadi inkişafı bu prosesin intensivliyindən bilavasitə asılı olur. Elmi-texniki tərəqqinin nailiyyətlərini istehsala daha tez tətbiq edənlər yüksək səmərəlilik əldə edirlər. Buna görə də fərdi əmək fəaliyyətinin vüsal tapdığı və ümumiyyətlə, mülkiyyətin dövlətsizləşdirildiyi indiki dövrdə elmin və texnikanın, onların əsas elmentlərinin tərəqqisinin əsas istiqamətlərini və formalarını təyin etməyin zəruriliyi artmışdır. Müəssisəni arendaya götürən və öz istehsal-təsərrüfat fəaliyyətinin son nəticələri üçün tam məsuliyyət daşıyan əməkçi kollektiv hər hansı konkret bir dövr üçün özünün texniki siyasətinin əsas cəhətlərini dərk etməlidir. Ancaq belə olan halda icarəyə götürülən müəssisə rəqabətə dözümlü məhsul istehsal etmək imkanına malik ola bilər.

İlk növbədə ETT-nin hansı istiqamətlər üzrə istehsala və yaxud da idarə edilən hər hansı bir digər obyektə təsir etdiyini araşdırmaq lazımdır. Uzun illərin təcrübəsi sübut etmişdir ki, elmi-texniki tərəqqinin istiqamətlərini üç yerə ayırmaq onun nailiyyətlərinin istehsala tətbiqini sürətləndirir.

Birinci qrupa ümumi istiqamətlər daxildir. Bu istiqamətlərə istehsalın mexanikləşdirilməsi, avtomatlaşdırılması, elektrikləşdirilməsi və kimyalaşdırılması aid edilir. Görüdüyü kimi bu istiqamətlər sənayenin bütün sahələrinə aid ola bilər. Elə buna görə də onlar texniki tərəqqinin ümumi istiqamətləri adlanır.

İkinci qrupa müəyyən dövr üçün həlledici sayılan istiqamətlər aid edilməlidir. Texniki tərəqqinin bu istiqamətləri yuxarıda göstərdiyimiz ümumi istiqamətlərlə əlaqədar olsalar da konkret bir dövr üçün prioritet istiqamət sayılır və istehsalda inqilabi dəyişikliklərə səbəb olur. Bu istiqamətlərə hazırkı dövr-də prinsipcə yeni texnikanın və texnologiyanın yaradılması və istehsala tətbiqi, istehsalın elektronlaşdırılması, kompüterləşdirilməsi, kompleks avtomatlaşdırılması, yeni materialların yaradılması və istehsala tətbiq edilməsi və s. daxildir.

Elmi-texniki tərəqqinin üçüncü istiqamətləri sahəvi xarakter daşıyır. Başqa sözlə desək, bura elə istiqamətlər daxil edilməlidir ki, onlar əsasən konkret sənaye sahəsinə aid olsun. Aydın məsələdir ki, belə istiqamətlər ayrı-ayrı sahələrdə müxtəlif göstəricilərlə xarakterizə olunurlar. Məsələn, sənayenin aparıcı sahəsi olan maşınqayırmada elmi-texniki tərəqqinin xüsusi, yəni bilavasitə ona məxsus istiqamətləri məhsulun təzələnməsinin intensivliyi, istehal edilən ümumi məhsulun həllində müasir texnika və texnologiyanın tələblərinə, dünya (beynəlxalq) standartlarına cavab verən məhsulların xüsusi çəkisinin artması, uyuşqanlı istehsallar yaratmaq üçün istehsal olunan maşın və avadanlıqlar komplekslərinin, emal mərkəzlə-rinin sayı və onların artım tempi göstəricilərin səviyyəsi ilə xarakterizə olunur.

ETT-ni sürətləndirmək, elmi nailiyyətləri gecikmədən istehsala tətbiq etmək, prinsipial yeni məhsulun kütləvi istehsalını təşkil etmək ölkələrdən çoxlu vəsait tələb edir. Artıq qeyd etdiyimiz kimi dərc olunmuş materiallara görə 1996-cı ildə elmin inkişafına ABŞ 185, Yaponiya 82, Avropa Birliyi ölkələri 76 milyard dollar vəsait xərcləmişlər. Buradan qanunauyğun bir sual meydana çıxır. Bu qədər vəsait sonralar ölkələrə hansı səmərəni verir? Bu xərclər özünü

ödəyirmi? Bu suala cavab vermək üçün istehsala, ölkələrin iqtisadiyyatının strukturuna, məhsulların keyfiyyətinə diqqətlə nəzər yetirmək lazımdır. Təhlil göstərir ki, elmi-tədqiqat və layihə-təcrübə işlərinə çoxlu vəsait qoyan ölkələrdə bir qayda olaraq istehsalın texniki səviyyəsi yüksək, istehsalın özü isə çevik (yeni məhsullar istehsalına qısa müddətdə uyğunlaşa bilən) olur, iqtisadiyyatın strukturu maksimum optimal (sosial tələbatları tam və minimum ictimai zəruri xərclərlə ödəyə bilən), məhsul və xidmətlərin keyfiyyəti yüksək olur. Bu deyilənlərin Amerikanın timsalında aydın görmək olur. Texnikanın, elmin inkişafına çoxlu vəsait yönəldə bilən Amerika firmaları istehsal etdikləri məhsulların nomenklaturasını və çeşidini sürətlə dəyişməyə imkan əldə edirlər ki, bu da şirkətlərin istər daxili və istərsə də xarici bazarda möhkəm yer tutması üçün əsas şərtdir. Konkret növ məhsul nümunəsi üçün ETT və onun sürətləndirilməsinə çəkilən xərclər firmalara iki istiqamətdə xeyir götürməyə imkan verir: birincisi bu məhsulun yeni nümunələrinin istehsalını mənimsəməklə, ikincisi istehsal edilən nümunələrin keyfiyyətini yüksəltməklə. Təhilil göstərdi ki, Amerika müəssisələri bu yolla hər il öz daxili bazarlarına ümumi kontekstdə milyonlarla yeni, modernizə olunmuş və yaxud da keyfiyyəti yaxşılaşdırılmış məhsul növləri çıxarırlar. Doğrudur, bazara çıxarılan külli miq-darda yeni və modifikasiya olunmuş məhsulların hamısı özünə şərəfli yer tuta bilmir: tələb və təklifə görə və azad rəqabət nəticəsində onların bir hissəsi istehsaldan çıxarılır. Lakin buna baxmayaraq bazarların intensiv şəkildə yeni məhsullarla zən-ginləşdirilməsi son nəticədə iqtisadiyyatın aparıcı sahəsi olan sənayedə istehsalın təzələnməsi, texnologiyanın intensivləşməsi, firma və şirkətlərin profillərinin mütərəqqi yeniləşməsi, istehsal tsiklinin qısalması baş verir. Bu yollar və üsullardan bacarıqla istifadə edən TMK- isə öz ölkələri sərhədlərindən çox-çox uzaqlarda yüksək sahibkarlıq gəlirləri əldə edə bilirlər və Amerikanın “ikinci” iqtisadiyyatını daha da gücləndirirlər.

ETT-nin sürətləndirilməsinə çəkilən xərclər yüksək səmərə verdiyinə görə, bu xərci çəkən ölkələrə rezenanas səmərə almaq imkanı yaradır. İmkan verir ki, innovasiyalar (yeniləşmə) daha qısa müddətə istehsala tətbiq edilsin və rəqabətdözümlü məhsulun kütləvi istehsalı təşkil olunsun. Belə olan halda yeniləşmənin (innovasiya) verdiyi sosial-iqtisadi səmərə ilə kütləvi istehsalın verdiyi səmərə üst-üstə düşür və rezenans səmərə əldə edilir. ETT-nin birbaşa sosial səmərəsi də olur: bunun nəticəsində yeni iş yerləri yaradılır, işlərin cazibədarlığı yüksəlir, yoruculuğu isə azalır, əmək haqqı yüksəlir.

Bütün bunları nəzərə alaraq ölkələr arasında əslində yeni rəqabət sferası meydana gəlib inkişaf etməkdədir. Buna görə də hazırkı dövrdə həm firmalar və həm də ölkələr arasında gedən əsas mübarizə elmi-texniki tərəqqi uğrunda gedən mübarizədir. Rəqabətin bu sferası getdikcə genişlənir, özünə yeni-yeni ölkələr cəlb edir. Onu da qeyd edək ki, bu yarışda itirənlər də olur: bunlar inkişafda olan və çox zəif inkişaf səviyyəsini saxlayan ölkələrdir. Onların ABŞ, Yaponiya, Almaniya Federativ Respublikası kimi nəhənglərlə rəqabətə girib elmi-texniki tərəqqi sahəsində qalib gəlmək üçün nə iqtisadi və nə də siyasi gücləri istənilən səviyyədə deyildir. Bu ölkələrə ilk növbədə Afrika kontingenti ölkələri, xüsusən də Mərkəzi, Qərbi və Şərqi Afrika ölkələri daxildir. Onlar indiyə qədər optimal iqtisadi inkişaf modeli tapa bilməyiblər və ixtisassız əməkdən necə gəldi istifadə etmək, dövlətin güc üsulları ilə istehsala “yuxarıdan” təzyiq etmək, əmək münasibətləri və demokratiyanı inkişaf etdirməmək, korrupsiyaya imkan yaratmaq yolunu seçməklə özlərini tamamilə inkişaf etmiş ölkələrdən asılı vəziyyətə salıblar. Onlar ETT-nin sürətləndirilməsi sahəsində passivdirlər. Dövlət başçıları bu ölkələrdə potensial imkanlarını işə sala bilən sosial-psixoloji mühüt formalaşdıra bilməmişdir.

### §4. ETT-nin idarə edilməsi sahəsində dünya təcrübəsi

İstər bütövlükdə dünya təsərrüfat sisteminin və istərsə də onun yarımsistemlərinin intensiv inkişafına elmi-texniki tərəqqi ən güclü təsiri göstərir. Lakin bu heç də avtomatik baş vermir. Dünyada toplanmış təcrübə göstərir ki, elmin və texnikanın əldə edilmiş bərabər səviyyəsində belə o ölkələr daha çox müvəffəqiyyət əldə edirlər ki, harada ETT məqsədyönlü idarə edilir.

ETT-nin idarə edilməsi səviyyəsi müxtəlifdir. Ümumi şəkildə biz elmi-texniki tərəqqini firmalar, istehsal sahələri, sexlər və iş yerləri səviyyəsində idarə edə bilərik. Bu sahibkarlara daha çox aiddir. Lakin əgər biz qlobal səviyyələrdə iqtisadiyyatın iknişafına nail olmaq istəyiriksə, onda ETT-nin dövlət, regionlar və dünya miqyasında idarə edilməsi zəruriyyətilə qarşılaşırıq. Buna görə də inkişaf etmiş ölkələrdə ETT dövlət tərəfindən idarə edilir.

Bir neçə dünya ölkələri ETT-nin idarə olunmasında çox sərfəli təcrübə toplamışlar. Bunların arasında Yaponiya xüsusi yer tutur. Elmi-texniki və innovasiya siyasəti Yapon dövləti tərəfindən yaradıcılıqla həyata keçirilir. Sahibkarlara dövlət təsiri buna parlaq misaldır. Hələ 40-50 il bundan qabaqlar Yaponiya hökuməti, xüsusi kompaniyalara göstərə biləcək təsir zonalarını təyin etmiş, dünyada demək olar ki, ilk dəfə bu zonalar vasitəsilə firmalarda ETT-nin sürətləndirilməsinə nail olmuşdur. Hökumət sahibkarlara "təklif", "tələb" və "mühit" zonaları vasitəsi ilə təsir göstərir. "Təklif" zonasında dövlət elmi-texniki tərəqqiyə daha çox maraq göstərən sahibkarlara maliyyə və texniki kömək təklif edir. Elmi-tədqiqat infrastrukturlarının yaradılmasına kömək göstərir. "Tələb" zonasında dövlət firma ilə elmi-tədqiqat işləri aparılması və yeni məhsulların alınması sahəsində kontraktlar bağlayır. "Mühit" sahəsində dövlət çalışır ki, sağlam vergi, patent siyasəti və digər birbaşa olmayan dövlət tənzimləmə rıçaqlarından bacarıqla istifadə etsin və bu yolla da ETT-ni sürətləndirmək üçün firmalarda maraq doğursun.

Yaponiyada dövlətin elmi-texniki və innovasiya siyasəti uzun illərdir ki, sənaye siyasətinin ayrılmaz hissəsi kimi fəaliyyət göstərir.

Prioritet mövqe unikal elmi-texniki işləmələrə verilir. Unikallığın əsas kriteriyası informatika, yeni materialların yaradılması, biotexnologiya, energetika, okean resurslarının mənimsənilməsi və sair bu kimi sahələrdə texniki yeniliklər yarada bilən işləmələrdir. Yapon hökumətinin fikrincə bu cür unikal işləmələri həyata keçirmək üçün güclü stimul lazımdır ki, bunu da bazar mexanizmi sadəcə olaraq yarada bilmir. Əsas səbəb də budur ki, unikal işləmələrin tələb etdiyi vəsait və bununla əlaqədar meydana gələn riskin miqyası kompaniyaların əlində olan vəsaitdən qat-qat çox ola bilər. Vəziyyətdən çıxış yolu dövlət və onun həyata keçirdiyi iqtisadi mexanizmdir, dövlətin vəsaitidir. Dövlət əsasən perspektiv dövrlərdə reallaşa bilən fundamental tədqiqatlara çoxlu vəsait buraxır. Yapon hökuməti əsas gücünü sivil elmi-tədqiqat və layihə-təcrübə işlərinə sərf edir.

ETT-ni dövlət miqyasında idarə etmək təcrübəsi Yaponiyada hələ keçən əsrin 60-cı illərində özünün mükəmməl formasına çatmışdı. Məhz bu illərdə dövlət səviyyəsində elm-tutumlu və intensiv texnologiyalı sənaye sahələrinə dayaq olma sistemi  işlənib hazırlanmışdı və müvəffəqiyyətlə həyata keçirildi. Yaponiyada ETT-nin idarə edilməsi kompaniya xarakteri daşımır. Hər gün, hər ay və hər il bu sahə dövlətin və sahibkarların diqqət mərkəzində  olur. Elmi-texniki siyasət məqsədli proqramlar üzrə layihələndirilir, həyata keçirilir. 1997-ci ildə yapon hökuməti müasir ETİ-a əsaslanan uzunmüddətli (1997-2010-ci illər) iqtisadi reforma proqramı qəbul etdi. Bu proqrama görə ölkədə, sənayedə və xidmət sferasında yeni perspektiv sahələrin yaradılması nəzərdə tutulur. Belə perspektiv sahələrə informasiya texnologiyası, biotexnologiya sənayesi, aviakosmik texnologiyası və texnika, yeni enerji mənbələri və enerji texnologiyası, şəhərlərin planlaşdırılması və yenidən qurulması, ətraf mühitin qorunması kimi sahələr daxildir.

ETT-nin dövlət səviyyəsində idarə edilməsi sahəsində ABŞ-ın da diqqəti cəlb edən təcrübəsi vardır. Ümumiyyətlə götürdükdə, aparıcı kapitalist ölkələrinin hamısında ETT-də dövlət qayğısı məqsədyönlü olaraq həyata keçirilir. Bu ölkələrdə ETT-nin sistemli iqtisadi

mexanizmi yaranmışdır. Bu mexanizmin mərkəzində rəqabət durur. Bazar, istehsalı və istehlakçıya xeyir gətirməyən məhsulu istehsal etməyi məsləhət görmür. Rəqabət elə formalaşdırılır ki, bazarda ETT-nin son nailiyyətlərinə daha çox uyğun gələn məhsul kütləvi formada satıla və xeyir gətirə bilir. Yeniləşməni özündə cəmləşdirən məhsula maraq artdığından ETT-nin də münasib istiqaməti inkişaf etdirilir.

ETT-nin məqsədli-proqram üsuları ilə idarə edilməsi və güclü dövlət qayğısının olması nəticəsində inkişaf etmiş sənaye ölkələrinin hamısında yenilikçi-firmalar meydana gəlib fəaliyyət göstərirlər. Bu cür firmalar əslində biliyə (yeniləşmə və ixtiralara) söykənən monopol strukturlardır. Onları digər firmalardan fərqləndirən cəhət əvvəlcə müəyyən səviyyədə riskə getmələri, sonradan biliyə yiyələnərək prinsipcə yeni məhsulun istehsalı (çox zaman kütləvi) və satışından monopol mənfəət əldə etmələridir. Lakin bu üstünlük uzun müddət davam edə biməz. Bunu dərk edən yenilikçi firmalar məhsulun yeni modelləri üzərində intensiv iş aparırlar. Yaxşı satılan məhsulun "həyat tsikli" başa çatmamış onun bir neçə modifikasiya edilmiş yeni (perspektiv) modelləri düzəldilir. ETT isə perspektiv məhsulun keyfiyyətli istehsal edilməsi istiqamətində sürətləndirilir. Məqsədli-proqram üsulu ilə ETT-ni idarə etməyin mahiyyəti də bundadır.

Əldə edilən biliklərə sahib çıxmaq, ixtiralar, kəşflər, «Nou-hau»lar əsasında formalaşmış sahibkarlıq yeni texnika və texnologiyalar bazarının meydana gəlib fəaliyyət göstərməsinin əsas şərtidir. Kommersiya sirri də burada özünü göstərir. Bu olmasa yenilikçi firmalar yeniləşmədən istifadə etməklə çoxlu xeyir götürə bilməzlər. Lakin dövlət tərəfindən yaradılan sosial-iqtisadi və hüquqi mühit şərait yaradır ki, yenilikçi-firmalar çoxlu mənfəət əldə etsinlər. Bu da onlara elmi-tədqiqat və layihə-təcrübə işlərinə yeni-yeni milyonlar sərf etməyə imkan verir.

İnkişaf etmiş ölkələrdə ETT-nin iqtisadi mexanizminin demək olar ki, ilk pilləsini tələbat təşkil edir. Novator firmanın və yaxud da hər hansı bir «vençur» tipli müəssisənin müəyyən inkişaf pilləsində

prinsipcə yeni texnikaya və texnologiyaya tələbat əmələ gəlir (meydana çıxır). Fundamental tədqiqatlar pilləsində yeni ideyalar meydana çıxır. Əslində bu pillə ilə gələcəkdə istehsalı nəzərdə tutulan yeni texnikanın layihə hazırlığı üzərində iş gedir. Keçmiş SSRİ dövlətindəki layihə hazırlığından fərqli olaraq prosesin bütün pillələrində sifarişçi və icraçı, istehsalçı və istehlakçı iştirak edir və hətta onlar gələcəkdə meydana çıxacaq texnikanın verəcəyi səmərəni də öz aralarında bölüşdürürülər. Belə ki, tətbiqi tədqiqat pilləsində yeni ideya gələcək potensial istehsalçı və istehlakçı arasında bağlanmış müqavilə formasına düşür, yəni keçmişdə deyildiyi kimi, texniki tapşırıq verilir. Sonrakı pillələr yeniliyin nümunələrinin yaradılması, sona çatdırılması, istehsala tətbiq edilməsi işlərini əhatə edir.

ETT-nin iqtisadi mexanizminin növbəti pilləsi yeniliyi istehsal edən firmadır ki, bu da yeniləşmə prosesini maddi, təşkilati baxımdan təmin edir. Onlar çoxlu pul xərcləyirlər. Məsələn, ABŞ-da elmi-tədqiqat və layihə-təcrübə işlərinin tələb etdiyi vəsaitin 50%-dən çoxu bu cür firmaların payına düşür. Yapon firmaları isə xərcin 80%-ni öz üzərlərinə götürürlər.

İnkişaf etmiş ölkələrin əksəriyyətində ETT-nin iqtisadi mexanizminin əsas pilləsini dövlət təşkil edir. Dövlətin rolu - ETT-nin stimullaşdırılmasıdır. Bunun üçün o elmi-tədqiqat və layihə təcrübə işlərinə tələb olunan xərcin müəyyən bir hissəsini öz üzərinə götürür. Dərc olunmuş məlumatlara görə dövlət ETT-nin sürətləndirilməsi üçün lazım olan vəsaitin ABŞ-da və Fransada 50%-ni, Böyük Britaniyada - 37%-ni, AFR-da 33%-ni, Yaponiyada - 19%-ni maliyyələşdirir və eyni zamanda "mühiti"də sahibkarlar üçün xeyirli şəklə salır.

İnkişaf etmiş sənaye ölkələri elə bir təsərrüfat modeli seçmişlər ki, ETT-yə ciddi yanaşmadan sosial, iqtisadi və hərbi-siyasi problemləri həll edə bilmirlər, birinciliklərini itirmək təhlükəsi ilə üzləşirlər. Buna görə də ETT-ni sürətləndirmək dövlətin bir nömrəli vəzifəsi hesab edilir. Müxtəlif ölkələrdə bu məsələ müxtəlif yanaşmalarla həyata keçirilir. Məsələn, əgər Yaponiyada bu məsələ, qeyd etdiyimiz kimi,

prioritetlərin seçilməsi, elmi-texniki liderlik proqramlarının işlənib hazırlanması yolu ilə həyata keçirilsə, Qərbi Avropada hökumətlər sənayedə elmtutumlu məhsul istehsalına və innovasiyalara dayaq dururlar, ABŞ-da isə elmi-tədqiqat və layihə-təcrübə işlərini vergi yolu ilə stimullaşdırmağa üstünlük verirlər, yenilikçi firmaların maraqlarını qoruyan qanunlar işləyib hazırlayırlar və həyata keçirirlər, kiçik biznesin inkişafına diqqəti artırılar.

Dövlətin ETT-ni idarə etməsi təsvir etdiklərimiz yollarla məhdudlaşmır. Yüksək səviyyədə inkişaf etmiş xarici ölkələrdə ETT-nin iqtisadi mexanizminin siyasi mexanizmi də tam gücü ilə fəaliyyət göstərir. Bu mexanizmin tərkib hissələrinə aşkarlıq, elmi-texniki mövzuların mütəmadi olaraq müzakirəsinin bütün informasiya vasitələrində təşkil edilməsi, televizor kanallarında xüsusi şərhçilərin saxlanılması daxildir. İdarəetmənin bütün pillələrində elm və texnikanın taleyi ilə ciddi məşğul olan strukturlar fəaliyyət göstərirlər. Məsələn, ABŞ-ın konqresində, senatın və nümayəndələr palatasının 9 komissiyası fəaliyyət göstərir. Bu komissiyalarda ETT-nin bütün aspektləri müzakirə edilir və konkret elm və texnika sahəsində ekspertlərin köməyi ilə prioritet istiqamətlər təyin edilir. Öz ölkələrinin elmi-texniki inkişafının perspektiv istiqamətlərini xırdalıqları ilə təyin edirlər. ETT-nin iqtisadi mexanizminin siyasi qollarının ən xeyirli cəhəti ondadır ki, bu qollarda yaxın və uzaq gələcək üçün oriyentirlər, istiqamətlər və kriteriyalar hazırlanır. Firmalardan tutmuş müvafiq dövlət orqanlarına qədər ETT-nin idarə olunması ilə məşğul olan şəxslər və strukturlar öz işlərində onları əsas götürülər.

ABŞ-da “Elmi-texniki və layihə-təcrübi işləmələrində milli məqsədlər” quruluşundan tez-tez istifadə edilir. ETT-nin iqtisadi mexanizminin siyasi qolunun əsas məqsədi də “milli məqsədlərin” dürüst və dəqiq seçilməsi və ölkənin iqtisadi təhlükəsizliyinin həmişə yüksək səviyyədə saxlanılmasına nail olmaqdır. ETT-i problemləri ilə ABŞ-da prezident və onun aparatı da ciddi şəkildə məşğul olur. Prezidentin elm və texnika üzrə köməkçisi, prezidentin rəhbərlik etdiyi

“Elm  və texnologiya üzrə milli şura” milli elmi-texniki strategiya hazırlayırlar. ABŞ-da hazırlanmış belə bir strategiya 1996-cı ildən fəaliyyət göstərir və bu strategiyanın milli məqsədlərinə “cəmiyyətin sağlamlığı və savadlılığı”, “İqtisadi inkişaf və iş yerlərinin yaradılması”, “Elm və texnika sahəsində dünya liderliyi”, “Ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması”, “İnformasiya texnolo-giyasının geniş miqyasda istifadəsi”, “Milli təhlükəsizliyin möhkəmləndirilməsi”, kimi qlobal problemlər daxildir. ABŞ-da mülkiyyət formasnıdan, profilindən, maliyyələşdirmə mənbələrindən asılı olmayaraq bütün firma və şirkətlər, elmi-texniki mərkəzlər, TMK-lar və s. digər elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə məşğul olan strukturlar,  göstərdiyimiz milli məqsədləri əsas götürməlidirlər, onlara istinad etməlidirlər. ETT-nin iqtisadi mexanizminin siyasi rıçaqlarının əsl mahiyyəti də bundadır.

# X FƏSİL. DÜNYA İQTİSADİYYATINDA KƏND TƏSƏRRÜFATI

## §1. Dünya təsərrüfat sistemi və aqrar bölmə

Müasir dövrdə ölkələrin iqtisadiyyatı çoxşaxəlidir. Elmi-texniki tərəqqi sürətləndikcə insanın fəaliyyət dairəsi genişlənir, əvvəllər heç ağıla gəlməyən prinsipcə yeni fəaliyyət dairələri meydana gəlir. Lakin iqtisadiyyatın elə bölmələri vardır ki, onlar əsrlər boyu mövcud olub və indi də fəaliyyət göstərirlər. Aqrar bölməsi belə bölmələrdəndir. Min illər bundan qabaq da planetimiz olub. O vaxtlar iqtisadiyyat əsasən kənd təsərrüfatından ibarət olub. Kənd təsərrüfatı və buradan əldə edilən ərzaq, onun istehsalı, bölgüsü, mübadiləsi və istehlakı dünya təsərrüfat sisteminin fəaliyyət dairəsində həmişə aparıcı yer tutmuşdur.

Son dövrlər ölkələrin Ümumi Daxili Məhsulunda kənd təsərrüfatının xüsusi çəkisi azalmağa başlamışdır və inkişaf etmiş ölkələrdə demək olar ki, özünün minimum həddinə çatmışdır (bax cədvəl 21). Lakin buna baxmayaraq dünya miqyasında bu xüsusi çəkinin yüksək (39%-Ruanda, 30%-Pakistan, 17%-Türkiyə və və s.) olduğu ölkələr çoxdur. Onu da qeyd etmək lazımdır ki, xüsusi çəkinin aşağı düşməsi aqrar bölmənin zəifləməsini yox, kənd təsərrüfatı məhsulunun nisbi azalmasını və elmin, texnikanın, texnologiyanın sürətli inkişafı nəticəsində iqtisadiyyatın digər sahələrinin sürətli inkişafını göstərir.

Bu gün kənd təsərrüfatı sosial-iqtisadi inkişafda, iş yerlərinin yaradılmasında, ərzaq təhlükəsizliyi məsələsinin həllində, mühüm rol oynayır və bütün ölkələr aqrar sektorun inkişafı qayğısına qalırlar.

**Cədvəl 21**

**Ümumi Daxili Məhsulda kənd təsərrüfatının xüsusi çəkisi**

| **Ölkələr və ölkə qrupları** | **1980** | **1997** |
|---|---|---|
| Bütün dünya üzrə | 7.0 | 4,9 |
| O cümlədən: onlardan | | |
| Aşağı gəlirli dövlətlərdə | 35 | 31 |
| Orta gəlirli dövlətlərdə, onlardan | 15 | 12 |
| Orta gəlirdən aşağı gəliri olan ölkələr | 18 | 14 |
| Orta gəlirdən yuxarı gəliri olan ölkələr | 9 | 10 |
| Yüksək gəlirli dövlətlər | 3 | 2,6 |
| ABŞ | 3 | 2,7 |
| Pakistan | 30 | 26 |
| Ruanda | 50 | 39 |
| Tanzaniya | 50 | 48 |
| Türkiyə | 26 | 17 |
| Uqanda | 72 | 44 |
| Rusiya | 9 | 7 |
| Fransa | 4 | 2 |
| Latın Amerikası | 10 | 10 |
| Azərbaycan | 21 | 22 |
| Ermənistan | 42 | 44 |
| Gürcüstan | 36 | 35 |

İnkişaf etmiş ölkələr iqtisadiyyatın bütün bölmələrində böyük müvəffəqiyyətlər qazanmışlar və ÜDM həcmini bu sahələrin hesabına yüksək sürətlə artıra bilmişlər. Eyni zamanda kənd təsərrüfatında da böyük müvəffəqiyyətlər əldə olunub. Məsələn, ABŞ nail ola bilmişdir ki, onun ölkəsində fəaliyyət göstərən bir fermer özündən başqa 10-larla digər kəndlini dolandıra bilən qədər kənd təsərrüfatı məhsulu istehsal edə bilsin. ABŞ və digər inkişaf etmiş ölkələrdə əksər kənd təsərrüfatı məhsulları üzrə öz daxili tələbatlarını ödəməklə yanaşı bu məhsulların

ixracı ilə də məşğul olurlar. Deməli, heç cür kənd təsərrüfatının geriliyindən söhbət gedə bilməz. O ki, qaldı aqrar bölmə məhsulunun ÜDM-a görə xüsusi çəkisinin azalmasına bu heç də kənd təsərrüfatının geri qalmasını yox, ÜDM-un həcminin çoxalmasını göstərir. İnkişaf etmiş ölkələrə nə qədər lazımdırsa, o qədər də kənd təsərrüfatı məhsulu istehsal edirlər, yəni həcmi tələb və təklifə görə tənzimləyirlər.

Dünyanın əksər ölkələrində kənd təsərrüfatı insanlar üçün iş yeri, ərzaq mənbəyi kimi fəaliyyət göstərməkdə davam edir. Rəqəmlər də bunu sübut edir. Hər il orta hesabla planetimizin əhalisinin 45%-dən çoxunun həyatı bilavasitə torpaqla bağlı olur. İnsanlar kənd təsərrüfatında özlərinə iş tapırlar. İnkişaf etmiş ölkələrdə əmək qabiliyyətli əhalinin nisbətən az hissəsi (5%) kənd təsərrüfatında çalışsa da, inkişafda olan və ən zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatında çalışanların xüsusi çəkisi 60 və daha çox faiz təşkil edir.

Dünya təsərrüfatı sistemində kənd təsərrüfatının həlledici rolu insanların qida məhsullarına olan tələbatlarının ödəməsindədir. Dünya statistikasının məlumatlarına görə yer kürəsində insanlar qida məhsullarına olan tələbatlarının 56%-ni taxılın, 7%-ni köklü bitkilərin, 10%-ni meyvə və tərəvəzin, 7%-ni şəkərin, 9%-ni yağ və piyin, 11%-ni isə heyvandarlıq məhsullarının hesabına ödəyirlər. Əlbəttə, bunlar iriləşdirilmiş rəqəmlərdir və müəyyən dövrlərdə qidanın tərkibi və quruluşu dəyişə bilər. Lakin bu əsas məsələ deyil. Əsas məsələ odur ki, qida məhsullarının əsas hissəsini kənd təsərrüfatı verir. Dünya üzrə ÜDM-ın tərkibində xidmət sektorunun (bölməsinin) xüsusi çəkisinin artması və artıq 55%-i ötməsi isə iqtisadiyyatın inkişafında üçüncü bölmənin rolunun yüksəlməsini yox, sadəcə olaraq elmi-texniki tərəqqinin nəticəsini göstərir. Xidmətin artması, xidmət bölməsinin inkişafı iqtisadiyyatın amili deyil, yalnız onun fəaliyyət göstərməsi şərtidir. Xidmət sahəsində çalışanlar da ilk növbədə tələbatlarını ödəməlidirlər, qida məhsulları qəbul etməlidirlər. Bu məhsulları isə kənd təsərrüfatı və sənaye verir.

Kənd təsərrüfatı sənayenin inkişafı üçün şərait yaradır - sənayenin xamal bazasını zənginləşdirir. O sənayeni pambıqla, tütün, lifli bitgilər, günəbaxan, kartof, qənd çuğunduru, dərman bitgiləri, meyvə, ağac, ət, balıq, süd, dəri, yun və quş tükü ilə təmin edir. Bu məhsulların həcmi, keyfiyyəti sənayenin inkişafı üçün mühüm şərtdir və ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır.

## §2. Kənd təsərrüfatı istehsalının strukturu

Kənd təsərrüfatında müxtəlif məhsullar istehsal edilir. Dünya iqtisadiyyatı baxımından kənd təsərrüfatı məhsullarının tərkibində bilavasitə ərzaq (qida) üçün nəzərdə tutulan məhsullarının ayrıca öyrənilməsi məqsədəuyğundur. Bilavasitə qidalanmaya yönəldilən kənd təsərrüfatı məhsulları içərisində taxıl xüsusi yer tutur. Buna görə də onun həcmi artır. Dərc olunmuş statistik məlumatlara görə 100 il bundan əvvəl 1900-cü ildə dünyada 500 milyon ton taxıl istehsal edilmişdir. 50 il müddətində bu həcm 300 milyon ton artmış və istehsal olunmuş taxılın həcmi 800 milyon tona çatmışdır. Taxıl istehsalı yüksəlməkdə davam etmiş və 1950-1995-ci illər ərzində 1200 milyon ton artmışdır və onun ümumdünya həcmi 2000 milyon tona çatmışdır.

Dünya miqyasında istehsal olunan taxılın tərkibində buğda 28%, düyü 26%, qarğıdalı 25% təşkil edir. Qalan 20-21 faiz digər dənli bitkilərin payına düşür. Əhalini arasıkəsilmədən ərzaqla təmin etmək üçün taxıl ehtiyatı yaradılır. Taxıl üzrə illik dünya ixrac resursunun həcmi 200 milyon tona çatır ki, bunun da tərkibində buğda 90-100 mln. ton, qarğıdalı 60-70 mln. ton, düyü 15-20 milyon ton təşkil edir. Yerdə qalan 10-35 milyon ton digər dənli bitkilərin payına düşür.

Dünya miqyasında taxılın təxminən 55%-i qida məhsullarına, 45%-i isə mal-qaranı yedizdirmək üçün sərf edilir. Bu nisbət ölkənin inkişafı ilə paralel dəyişə bilər. Hazırda inkişaf etmiş ölkələrdə insanların qidalanmasına gedən taxılın xüsusi çkisi 25%, mal-qaranı

yedizdirmək üçün ayrılan taxılın xüsusi çəkisi ilə 75% təşkil edir, inkişafda olan ölkələrdə isə taxılın 90%-ə qədəri qida məhsullara sərf olunur.

Kənd təsərrüfatı eyni zamanda texniki bitkilər də istehsal edir. Bu cür bitkilər bir çoxu sənayedə emal prosesi keçdikdən sonra yenə də qida məhsulu kimi istifadə olunur. Texniki bitkilərə pambıq, tütün, günəbaxan, kartof, qənd çuğunduru və s. daxildir. Göründüyü kimi, bu cür təsnifləşdirilmə nisbi xarakter daşıyır. Texniki bitkilər və ümumiyyətlə, kənd təsərrüfatı məhsulları sənayenin xammal bazasının əsas hissəsini təşkil edir. Yüngül və yeyinti sənaye sahələri isə kənd təsərrüfatı mənşəli xammal olmadan fəaliyyət göstərə bilməzlər. Buna görə kənd təsərrüfatı məhsullarının tərkibində bu və digər məhsulun optimal xüsusi çəkisi olmalıdır. Bu iqtisadiyyatın kompleks inkişafı üçün lazımdır.

Kənd təsərrüfatı məhsullarının tərkib hissələrindən biri də heyvandarlıq və quşçuluqdur. İnkişaf etmiş ölkələrdə ət-süd məhsulları istehsalı intensiv olaraq inkişaf etdirilir. Bunun səbəbi ilk növbədə qida məhsullarına əhalinin münasibətidir. Dünya miqyasında məsələyə yanaşdıqda belə bir meylin baş verdiyini aydın görmək olur: ölkə inkişaf etdikcə əhali çörəyi az, ət-süd məhsullarını isə daha çox qəbul edir. Nəticədə ətə olan tələbat artır, dənli bitkilərə olan tələbat azalır. İnkişaf etmiş ölkələr burada çıxış yolunu əkin yerlərinin yem üçün nəzərdə tutulan məhsullara görə ixtisaslaşdırılmasında görürülər. Məsələn, ABŞ-da heyvandarlığın tələbatları üçün nəzərdə tutulan qarğıdalı və soya bitgiləri əkilən xüsusi torpaq sahələri bu cür ixtisaslaşdırılmış sahələrdir. Bu bir daha sübut edir ki, kənd təsərrüfatının rolu azalmamış, sadəcə olaraq keçən əsrin ikinci yarısında alimlərin, kənd təsərrüfatı mütəxəssisələrinin, sadə əməkçilərin birgə əməyi nəticəsində kənd təsərrüfatında yüksək əmək məhsuldarlığı əldə edilmiş və bu cür müvəffəqiyyətlər əldə etmiş yüksək dərəcədə inkişaf etmiş ölkələr torpaqdan və aqrar sahənin digər tərkib hissələrindən istifadəni elmi surətdə idarə etməyə başlamışlar. Torpaq da, meşə də,

çay da, heyvandarlıq da bu ölkələrdə elmi əsaslanmış rejimlə istifadə edilir və bütün tədbirlərin kökündə insan amili durur.

Kənd təsərrüfatı məhsullarının strukturu da tələb və təklifə müvafiq formalaşdırılır və lazım gəldikdə dəyişdirilir.

## §3. Kənd təsərrüfatının inkişafına təsir edən amillər

Kənd təsərrüfatının yarımsistemlərdə və bütövlükdə dünyada inkişafına sənayedəki kimi yanaşmaq, burada da intensiv və ekstensiv inkişaf tiplərini bir-birindən ayırmaq lazımdır. İlk növbədə bu cür yanaşma kənd təsərrüfatının inkişafına təsir göstərən amilləri təyin etmək üçün zəruridir. Digər tərəfdən heç bir inkişafın tam intensiv və yaxud da tam ekstensiv yolla baş verməsini söyləmək çətin olduğuna görə təyin edilən amilləri aşkar etmək hər iki tip inkişaf üçün labüddür.

Əgər kənd təsərrüfatının inkişafı ekstensiv yolla baş verirsə onda aqrar bölmənin inkişafında əsas amil rolunu torpaq resursları və onların kənd təsərrüfatına yararlılıq səviyyəsi oynayır. Ümumiyyətlə isə kənd təsərrüfatı məhsullarının həcmi, nomenklaturası, assortimenti ölkələrin iqtisadi inkişaf səviyyəsindən, kənd təsərrüfatına yönəldilən kapital xərclərindən, heyvandarlığın inkişafından və s. asılıdır. Lakin torpaq, meşə, su tutumları, çaylar və s. heç bir şeylə əvəz olunmayan amillərdir və həm intensiv və həm də ekstensiv inkişafın başlıca şərtləridir. Buna görə də bütün bəşəriyyəti düşündürən başlıca məsələ torpağı qorumaq olmalıdır. Hazırda dünyada yaranmış vəziyyətin öyrənilməsi göstərir ki, torpaqlara olan münasibət qənaətbəxş deyildir. Statistik məlumatlara görə əkin sahələri azalmaqda davam edir. Torpaqdan səmərəsiz istifadə edilməsi nəticəsində hər il 6 milyon hektar səhra əmələ gəlir. Deməli, get-gedə yeni torpaq sahələrinin istifadəyə verilməsi imkanı da azalır. Buna görə də əldə olan sahələri qorumaq və onlardan səmərəli və rejimlə istifadə etmək kənd təsərrüfatının inkişafında mühüm amilə çevrilmişdir.

Heyvandarlığın inkişafı da ekstensiv və intensiv tiplərlə baş verə bilər. Heyvanın diri çəkisini artırmaq yolu ilə inkişaf etdirilən heyvandarlıq intensiv inkişaf etmiş olur və əksinə, eyni və ya az fərqli çəkidə olan heyvanların sayını artırdıqda ekstensiv inkişaf əldə edilir. İnkişaf etmiş ölkələrdə heyvandarlığın yüksəldilməsi əsasən intensiv yolla baş verir. Bu ölkələrdə, məsələn, bir inəkdən alınan ət və südün miqdarı geri qalmış ölkələrdəkindən 3-4 dəfə çox ola bilir. Təhlil göstərdi ki, kənd təsərrüfatı məhsulları həcminin artırılmasında ən səmərəli yol intensiv yoldur. Bu yol aşağıdakı istiqamətlərdə həyata keçirilir.

Kənd təsərrüfatının kimyalaşdırılmasında torpağa müxtəlif mineral gübrələrin verilməsi başlıca rol yonayır. Keçən əsrin ikinci yarısında bu sahədə çox işlər görülmüş və nəticədə kənd təsərrüfatında istehsal bir neçə dəfə artmış və əhali artımını üstələmişdi. Bu da dünya əhalisini aclıq təhlükəsindən əsasən qurtara bildi. Onu da qeyd edək ki, məhsul artımının 40%-i gübrənin hesabına baş verirdi. Gübrə vermənin özü çox sürətlə artmaqdadır. Dərc olunmuş materiallara görə 1973-cü ildə dünya üzrə hər istifadə edilən torpağın bir hektarına verilən gübrə orta hesabla 60 kq idi. 1988-ci ildə bu rəqəm 100-ə çatmışdı. Bəzi ölkələrdə torpağa verilən gübrə daha çoxdur və Almaniyada - 418 kq, Niderlandda - 773 kq. , Yaponiyada - 387 kq təşkil edir. Torpağı çox olan ölkələr ekstensiv inkişafa üstünlük verirlər. Məsələn, hər hektar əkin sahəsinə verilən gübrənin miqdarı Kanadada 12, Avstraliyada 28 kiloqramdır.

Dünya miqyasında işlədilən gübrənin 45%-ni ABŞ, 28%-ni Qərbi Avropa, 12%-ni Yaponiya işlədir. Lakin son zamanlar inkişaf etmiş ölkələrdə gübrədən istifadə olunması zəifləməyə başlamışdır. Bu ekologiyanın çirklənməsi qarşısının alınması və ət, süd, meyvə və tərəvəzin tərkibində silikatların azaldılması məqsədi ilə həyata keçirilir. Son vaxtlar dünya bazarında ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarına olan tələbat artmışdır. Gübrədən səmərəli istifadə etmək, yaxud da gübrəsiz kənd təsərrüfatı yaratmaq məsələləri ortaya

çıxmışdır. Bu ideya insanların sağlamlığı üçün nə qədər vacib məsələdirsə, kənd təsərrüfatında əmək məhsuldarlığının aşağı düşməsi üçün o dərəcədə qorxuludur. Buna görə də inkişaf etmiş ölkələrdə torpağa gübrənin az vurulması üzrə tədbirlərin həyata keçirilməsinə baxmayaraq aqrar bölmədə kimyalaşma öz sürətini azaltmır. Əldə edilən nəticələr isə cüzidi. Son 5-10 ildə inkişaf etmiş ölkələrdə hər hektar torpağa vurulan gübrənin miqdarı 123 kq-dan 116-kq-a enmişdir.

Gübrədən istifadənin azaldılması çox çətin bir proses olacağını "Yaşıl inqilab" kimi tədbirlərin həyata keçirilməsini də çətinləşdirir. 1960-cı illərdə o dövr üçün müasir olan kompleks aqrotexniki üsullardan istifadə edərək kənd təsərrüfatını yenidən təşkil etmək proqramı həyata keçirildi və çox güclü nəticələr əldə edildi. Həyata keçirilən tədbirlərin dərinliyi və miqyası o qədər böyük idi ki, tarixə o "yaşıl inqilab" adı altında düşdü. "Yaşıl inqilab" 1960-cı illər və ondan sonrakı dövr üçün kənd təsərrüfatının inkişafında başlıca amil idi. Onun üç əsas istiqaməti var idi: birincisi, yeni toxumların yaradılması, ikincisi, suvarılan torpaq sahələrinin artırılması və kənd təsərrüfatının mexanikləşdirilməsi, üçüncüsü, geniş miqyasda mineral gübrələrdən istifadə edilməsi və bitkilərin kimyəvi üsullarla qorunması "Yaşıl inqilab"ın həyata keçirilməsi nəticəsində taxıl üzrə məhsuldarlıq 2-3 dəfə çoxaldı. Çin, Hindistan, İndoneziya, Pakistan və digər ölkələr "Yaşıl inqilab" nəticəsində taxıla olan ehtiyaclarını özləri ödəməyə başladılar. Göründüyü kimi bu cür kompleks tədbirlərində əsasını geniş miqdarda gübrə işlətmək təşkil edirdi. Ekoloji təmiz məhsul isə əksinə gübrəni və digər kimyəvi üsulları rədd edir. Yaranmış paradoksluluq aydın görünür. Gələcəkdə indi geniş yayılmaqda olan "biotexnoloji inqilab" məsələləri həll etməlidir.

Kənd təsərrüfatı məhsullarının gübrəsiz yolla artırılması bitkilərin norma üzrə suvarılmasını tələb edir. Suvarılan torpaqların genişləndirilməsi yolu özü-özlüyündə aqrar bölmənin ekstensiv inkişaf yoludur. Lakin elmi əsaslarla məsələyə yanaşdıqda suvarılan torpaqlara optimal miqdarda gübrə verildikdə səmərəni yüksəltmək və kənd

təsərrüfatının intensiv yolla inkişafını təmin etmək olar. Deməli, gübrə və digər kimyəvi üsulların zərərliliyindən danışmaqdansa, söhbət onlardan ağıllı, optimal, elmi əsaslarla istifadə edilməsindən getməlidir. Suvarma ilə yanaşı aparılan tədbir elmi seleksiya işləridir. Elmi seleksiyanın əsas məqsədi yeni, konkret mühitə daha davamlı və daha məhsuldar toxumların tapılıb istifadə edilməsi təşkil edir. Bu üsul kənd təsərrüfatının intensivləşdirilməsi prosesini gücləndirir. Məhsuldarlığı orta hesabla 30% yüksəltməyə imkan verir.

Bütün bunlarla yanaşı Birləşmiş Millətlər Təşkilatının müvafiq bölmələrinin təhlillərini, tövsiyələrini, proqnoz məlumatlarını nəzərə almaq lazımdır. Ərzaq və kənd təsərrüfatı təşkilatlarının (FAO) verdiyi məlumatlara görə dünya əhalisinin ərzaqla və kənd təsərrüfatı məhsulları ilə təminatına XXI əsrdə dörd amil: təbii şəraitin pisləşməsi, su və torpağın altındakı enerji resurslarının tükənməsi, torpağın münbitliyinin azalması və iqtisadi liberallıq güclü təsir göstərə bilər.

Kənd təsərrüfatının inkişafına ən çox təsir edən amillərdən biri istehsalın sənayeləşdirilməsidir. Sənaye üsullarının tətbiqi kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsinə, xərclərin aşağı düşməsinə səbəb olur. Onu da qeyd edək ki, bu meyl irəliyə doğru davam etməkdədir. Kənd təsərrüfatında sənaye üsullarının elmi əsaslarla tətbiqi, yem bazasının yaxşılaşması, seleksiya işlərinin vaxtında həyata keçirilməsi, sənaye cəhətdən inkişaf etmiş ölkələrə imkan verir ki, onlar hər baş inəkdən il ərzində zəif inkişaf etmiş ölkələrdəkinə nisbətən 6 dəfə çox süd və 1,5 dəfə çox ət əldə etsinlər. Müqayisə üçün göstərək ki, 1996-cı ilin məlumatına görə ABŞ-da hər inəkdən 6,7 min litr süd sağıldığı halda, Çində bu rəqəm 1,6, Rusiyada 2,8, Monqolustanda 0,35 təşkil etmişdir. Bu rəqəmlər göstərir ki, inkişaf etmiş ölkələrdə heyvandarlıq əsasən intensiv yolla inkişaf etdirilir. Kənd təsərrüfatında sənaye üsullarından istifadə edilməsi hüdudsuz bir proses deyildir. Lazım olan kompleks işlər başa çatdıqdan sonra kənd təsərrüfatının sənayeləşdirilməsində əldə edilən səmərə müəyyən həddən sonra yüksəlmir. Məsələn, sözün tam mənasında kənd təsərrüfatının

sənayeləşməsi ABŞ-da, Kanadada, Böyük Britaniyada hələ İkinci dünya müharibəsinə qədər başa çatmışdı. Qərbi Avropa ölkələrində və Yaponiyada bu proses 1950-ci ildə başa çatdı. Kənd təsərrüfatında mexanikləşdirmə tədbirlərinin həyata keçirilməsi burada istifadə edilən traktorların sayını milyonlara qaldırıb. Keçən əsrin 90-cı illərinin ortalarında dünya kənd təsərrüfatında işlədilən maşın və mexanizmlərin içərisində ancaq traktorların sayı 26-27 milyon ədəd təşkil edirdi. Mexanikləşdirmə dünya üzrə, demək olar ki, öz son həddinə çatmışdır. Buna görə də dünya kənd təsərrüfatında istifadə edilən traktorların ümumi sayı nisbətən stabilləşmişdir. Lakin ayrı-ayrı ölkələrdə bu heç də belə deyildir. Ümumi meyl isə belədir: inkişaf etmiş ölkələrdə istifadə edilən texnikanın sayı ya stabilləşir, ya da nisbətən azalır, geri qalmış və keçid iqtisadiyyatlı ölkələrdə isə texnikanın sayı nisbətən artır.

Gələcəkdə kənd təsərrüfatını daha da sürətlə inkişaf etdirmək üçün inkişaf etmiş ölkələr yeni yollar axtarmaqdadırlar. Belə yollardan biri biotexnologiyaların geniş tətbiqidir. Çox yüksək səviyyədə inkişaf etmiş ölkələr artıq "biotexnoloji inqilab" pilləsindədirlər.

### §4. Kənd təsərrüfatı məhsulları istehsalının coğrafiyası

Heyvandarlıq Yaxın və Orta Şərq ölkələrində daha çox inkişaf etmişdir. Argentina və Uruqvayda da kənd təsərrüfatının bu sahəsi qabaqda gedir. Lakin inkişaf etmiş ölkələrlə müqayisədə bu ölkələrdə heyvandarlığın inkişafı əsasən ekstensiv yolla baş verir. Hər bir sakinə düşən südün miqdarına görə Yeni Zelandiya, Fransa, Belorusiya, Almaniya Federativ Respublikası kimi dövlətlər, ətin miqdarına görə isə Niderland, Avstraliya, Amerika Birləşmiş Ştatları, Argentina, Almaniya, Fransa qabaqda gedirlər. İsveçrə və Finlandiyada kənd təsərrüfatı məhsullarının ümumi həcmində heyvnadarlıq 75-80% təşkil edir. İtaliyada isə bu faiz cəmi 40%-dən bir qədər çoxdur.

Torpaq resursları çox olan ölkələrdən Avstraliyanı, Şimali Amerikanı və Yeni Zelandiyanı göstərmək olar. Ölkələrin sərəncamında nə qədər torpaq sahəsi olması haqda məlumatı "Bir nəfər işçiyə düşən

torpaq" göstəricisi verir. Bu göstərici Avstraliyada 671, Şimali Amerikada 155, Yeni Zelandiyada 69, Qərbi Avropada 12 hektar təşkil edir. Bütün dünya üzrə bir nəfər kənd təsərrüfatı işçisinə düşən torpağın miqdarı cəmi 3,7 hektar, inkişaf edən ölkələrdə isə 2,2 hektar təşkil edir.

Kənd təsərrüfatı məhsulları üzrə dünya ticarəti son illərdə nisbətən azalmağa başlamışdır. Dünya ixracında ərzaq məhsullarının xüsusi çəkisi 1970-ci ildəki 13%-dən, 1996-cı ildəki 9%-ə qədər, həmin dövrdə kənd təsərrüfatı xammalının dünya ixracındakı xüsusi çəkisi isə uyğun olaraq 7%-dən 2,5%-ə qədər azalmışdır. Bu azalmaların başlıca səbəbi kənd təsərrüfatı məhsulları istehsalı coğrafiyasının dəyişməsi olmuşdur. Qərbi və Mərkəzi Avropa, Çin və Hindistanda qidalanmaya yönəldilən kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır. Özünütəminetmə əmsalı bu ölkələrdə yüksəlmiş, idxal azalmışdır. Digər səbəb dünya ticarətində istehlak üçün hazır olan məhsulların xüsusi çəkisinin artmasıdır. Getdikcə ölkələr kənd təsərrüfatı məhsullarının xammal şəklində ixracından, onlardan hazırlanmış hazır məhsulların ixracına daha çox meyl göstərirlər.

Dənli bitkilərdən buğda istehsalı ABŞ-da, Kanadada, Fransada, Avstraliyada, Argentinada yüksək səviyyədə, Çində, Yaponiyada, Braziliyada, Misirdə aşağı səviyyədə inkişaf etmişdir. Düyü istehsalı Tailandda, ABŞ-da, Vyetnamda, Pakistanda daha çox yayılmışdır. Mal əti daha çox Avstraliyada, Braziliyada, Niderlandda, Kanadada, ABŞ-da istehsal edilir. Süd məhsulları istehsalı üzrə isə Niderland, İrlandiya, Danimarka, Fransa liderliyi əllərində saxlayırlar.

### §5. Aqrar-sənaye kompleksləri

Dünya iqtisadiyyatının əsas iki bölməsi vardır: kənd təsərrüfatı və sənaye (üçüncü bölmə - xidmət isə bu bölmə ilə paralel inkişaf edir). Bəşəriyyət tarixində birinci olaraq kənd təsərrüfatı meydana gəlmişdir (məhsuldar qüvvələrin inkişafının təsiri altında). İnsan cəmiyyətinin

müəyyən inkişaf səviyyəsində sənaye kənd təsərrüfatından tədricən ayrılmış və sərbəst fəaliyyət göstərməyə başlamışdır. Birinci bölmə - kənd təsərrüfatı ilk dövrlər meydana gəldiyi vaxtlar belə onun tərkibində əvvəllər nəzərə çarpmaz dərəcədə, sonralar isə aydın görünən dərəcədə sənaye istehsalı olmuşdur. Deməli, iqtisadiyyatın bu mühüm və həlledici bölmələrinin inkişaf prosesini üç pilləyə bölə bilərik.

Birinci pillədə (çox qədimlərdə) o dövrki məhsuldar qüvvələrin səviyyəsinə uyğun olaraq kənd təsərrüfatı meydana gəlir, inkişaf edir. Onun daxilində, fərqli istehsal texnologiyalar, tələb edən emal sənayesi meydana gəlir, lakin sərbəstləşmir. Deməli, birinci pillədə kənd təsərrüfatı ilə sənaye birlikdə fəaliyyət göstərirlər. İkinci pillədə kənd təsərrüfatının tərkibində, onun daxilində meydana gələn sənaye tədricən inkişaf edir, aqrar bölmədən ayrılır və nisbətən sərbəst fəaliyyət göstərməyə başlayır. Üçüncü pillədə yenidən "birləşmə" prosesi labüd baş verir. Kənd təsərrüfatı hərtərəfli sənayeləşdirilir. Hər iki bölmənin vəhdətliyi, birləşməsi zəruriliyi meydana çıxır. Üçüncü pillə dünya üzrə məhsuldar qüvvələrin inkişaf etmiş səviyyəsində baş verdiyi üçün məsələyə müxtəlif formada yaradıcı münasibət göstərməyə başlayırlar. Alimlər, tədqiqatçılar, dövlət xadimləri getdikcə dərk etməyə başlayırlar ki, iqtisadiyyatın bu iki bölməsi sərbəst fəaliyyət göstərərkən yüksək səmərəlilik əldə etmək məsələsinin həlli bir sıra çətinliklərlə rastlaşır. Çətinlikləri aradan qaldırmaq üçün kənd təsərrüfatı və sənaye mümkün olan sahələrdə birgə fəaliyyət göstərməlidirlər. Keçən əsrin 60-70-ci illərində bu ideya reallaşmağa başladı. İnkişaf etmiş ölkələrdə, ilk dəfə olaraq isə ABŞ-da bu sahədə əməli iş görülürdü və baş verən prosesin özü "Aqrarsənaye inteqrasiyası" adlanırdı. Aqrosənaye inteqrasiyası əslində müxtəlif sahələrə məxsus müəssisələrinin birgə fəaliyyəti demək idi. Bu cür birgə fəaliyyət göstərən müəssisələr birliyi çoxdan məlum idi. Lakin belə birliklər adətən iqtisadiyyatın bir bölməsindəki müəssisələri əhatə edirdi. Məsələn, sənayedə yaradılan sənaye istehsal və elmi-istehsal birlikləri buna misaldır. 1960-70-ci illərdə inkişaf etmiş ölkələrdə formalaşmağa başlamış birliklərin fərqləndirici cəhəti onların

müxtəlif sahələrə aid müəssisələr bazasında meydana gəlməsi idi. Əslində aqrosənaye inteqrasiyası da cəmiyyətdə fəaliyyət göstərən sənaye və kənd təsərrüfatı müəssisələri arasında çoxdan yaranmış və obyektiv xarakter daşıyan əlaqələri və qarşılıqlı əlaqələri özündə əks etdirən bir proses idi.

Aqrosənaye inteqrasiyası böyük iqtsiadi səmərə verən bir prosesdir. Kənd təsərrüfatında bir sıra idarə edilməsi çətin olan təbii amilin, məhsulun həcminin, meyvə, tərəvəzin çəkisinin, növünün proqnozlaşdırması kimi amillərin mənfi təsiri aqrarsənaye inteqrasiyası nəticəsində əsasən aradan götürülür. Aqrosənaye inteqrasiya prosesləri öz növbəsində iqtisadiyyatın iki mühüm bölməsi arasında obyektiv olaraq meydana çıxan qarşılıqlı əlaqələri daha da gücləndirir və sənayeni arasıkəsilməz tərzdə kənd təsərrüfatı xammalı ilə təmin edə bilən iqtisadi və kommersiya mexanizmi yaradır. Bu cür mexanizm rezonans səmərə əldə etməyə imkan verir.

Dünya kənd təsərrüfatında keçən əsrin 60-70-ci illərində baş verən dəyişikliklər, onun sənaye ilə qovuşması vaxt keçdikcə təkmilləşdirildi və nəticədə bu gün dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən aqrar sənaye komplekslərin (ASK) meydana gəlməsi ilə nəticələnmişdir. ASK hazırda dünya əhalisini ərzaqla təmin etmək sahəsində mühüm və əvəzolunmaz amilə çevrilmişlər. Ən ümumi halda ASK sənaye, kənd təsərrüfatı və bir sıra infrastruktur sahələri müəssisələrinin vahid sistemi deməkdir. Bu sistemin əsas məqsədi kənd təsərrüfatında məhsuldarlığı yüksəltmək, itkiləri azaltmaq, meyvə-tərəvəzi vaxtında emal etmək, keyfiyyəti saxlamaq, kənd təsərrüfatı üçün istehsal alət və vasitələri istehsal etmək, kənd təsərrüfatı məhsullarının nəql edilməsini və istehlakçılara keyfiyyətli formada çatdırılmasını, hazır məhsulun vaxtında satılmasını təşkil etməkdir.

ASK o dərəcədə inkişaf etmişdir ki, hazırda dünya sənayesinin bir sıra sahələri (kənd təsərrüfatı maşınları istehsalı, gübrə istehsalı, hey-vandarlıq və yem istehsalı üçün texnika istehsalı və s.) bilavasitə kənd təsərrüfatı tələbatlarının ödənilməsi üçün fəaliyyət göstərirlər. İstehsal

prosesinin bütün tərkib hissələrini özündə cəmləşdirən ASK-lər adətən aşağıdakı üç hissədən ibarət olur.

I bölmə - sənayedir. Burada fəaliyyət göstərən müəssisələrin əsas məqsədi kənd təsərrüfatı üçün lazımi texnikanı istehsal etmək və sahəyə istehsal - texniki xidmət göstərməkdir;

II bölmə - kənd təsərrüfatının özüdür. Burada hamıya yaxşı məlum olan bütün kənd təsərrüfatı işləri görülür və məhsulları istehsal olunur. Fərq ondadır ki, nə və nə qədər istehsal olunması məsələsi sənaye ilə yaranmış inteqral əlaqələri nəzərə alınaraq təyin edilir.

III bölmə - kənd təsərrüfatı xammalını və ərzağı vaxtında emal edən, nəql edən, saxlayan, reallaşdıran sahələri özündə cəmləşdirir.

Bu üç bölmənin inkişaf meyllərinin öyrənilməsi göstərir ki, ən çox inkişaf edən üçüncü bölmədir. ASK-in əsas hərəkətverici qüvvəsi ikinci bölmə olsa da birinci və üçüncü bölmələr inkişaf edib şaxələnmişlər. Bu cür inkişafın əsasında da yenə kənd təsərrüfatı və orada istehsal edilən məhsulların taleyi durur. Kənd təsərrüfatında əldə edilən məhsulların həcmini artırmaq, istehsal olunan meyvə-tərəvəzin korlanması qarşısını almaq, məhsulların emalının diversifikasiyası və istehlakçılara çatdırılması məsələlərinin həlli birinci və üçüncü bölmələrin üstün inkişafına səbəb olmuşdur. Yüksək dərəcədə inkişaf etmiş ölkələrdə bu sahədə böyük nailiyyətlər əldə edilmiş və nəticədə kənd təsərrüfatında məhsuldarlıq qat-qat yüksəlmişdir.

Amerika Birləşmiş Ştatlarının ÜDM-da kənd təsərrüfatı bölməsi payının çox az təşkil etməsi də məhz bununla əlaqədardır. 1990-cı illərin ortalarında ABŞ-da ASK-nin bölmələri arasında nisbət 3:1:6 kimi formalaşmışdı. Qeyd edək ki, bu cür nisbətin formalaşması güclü sosial səmərə də vermişdir. Bunun nəticəsində yeni iş yerləri yaranmışdır. Dərc olunmuş statistik məlumatlara görə ABŞ-da ASK-nın ikinci bölməsi ÜDM-un iki faizə qədərin verir və burada işçi qüvvəsinin 2,5%- cəmləşmişdir. Bütövlükdə ABŞ-ın ASK-i isə ÜDM—un 18%-ni verir və burada işçi qüvvəsinin 20%-i özünə iş yeri tapmışdır. Bu sosial-iqtisadi inkişaf nöqteyi-nəzərincə böyük müvəffəqiyyətdir.

ASK həm də ölkənin sosial-iqtisadi inkişafını xarakterizə edir və ilk növbədə kənd təsərrüfatı məhsullarının emal səviyyəsini və əlavə dəyər əldə edilməsini göstərir. Bu deyilənləri bizim qonşumuz Rusiya Federasiyasının timsalında aydın gös-tərmək olar. 1997-ci ilin məlumatlarına görə Rusiyada ASK-nin ÜDM - xüsusi çəkisi 6,7%, burada çalışan işçilərin sayı isə ölkənin işçi qüvvəsinin 30%-ni təşkil edirdi. Rusiyanın kənd təsərrüfatında (ASK-in ikinci bölməsində) ASK-də çalışan işçilərin yarısından çoxu məşğul idi. Bu cəhət ölkənin kənd təsərrüfatında sənayeləşmənin geri qalmasını və ən başlıcası isə yüksək əmtəəli kənd təsərrüfatının hələ də formalaşmadığını göstərir. Bu həm də kənd təsərrüfatı məhsullarının dərin emal olunmasının mənfi iqtisadi nəticəsini göstərir.

Zəif inkişaf etmiş ölkələr ASK-nin inkişafı cəhətdən də geri qalırlar. Bu ölkələrdə kənd təsərrüfatında sənayeləşmə çox zəif gedir. Əksər inkişafda olan ölkələrdə ASK-in inkişafına transmilli korporasiyalar güclü təsir götərirlər. Onlar bir növ inteqrallaşdırıcı rol oynayırlar. Transmilli korporasiyalar öz ölkələrində əldə olunan, təcrübədən çıxmış üsul və formaları inkişaf etməkdə olan ölkələrdə də tətbiq etmək istəyirlər və ümumi şəkildə buna nail də olurlar. Onların köməyi ilə beynəlxalq aqrosənaye inteqrasiyası inkişaf edir. Müasir şəraitdə beynəlxalq aqrosənaye inteqrasiyasının əsas məqsədi dünyada yaranmış ərzaq qıtlığına son qoymaqdır. Dünyanın ərzaq təhlükəsizliyi isə bütün ölkələrdə ASK-nin sürətli inkişafını tələb edir. Bunu əldə etmək üçün inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr inkişaf etmiş ölkələrin əldə etdiyi biliklərə yi-yələnməyi öyrənməlidirlər.

# XI FƏSİL. İNSAN RESURSLARI VƏ ONLARDAN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASI YOLLARI

## §1. İnsan resursları və iqtisadi inkişaf

Dünya iqtisadiyyatının çiçəklənməsi, ictimai tələbatların normal səviyyədə ödənilməsi, qlobal problemlərin həllinin sürətləndirilməsi və sair bu kimi məsələlərin həlli Yer kürəsində mövcud olan resurslardan səmərəli və tam istifadə olunmasını qarşıya qoyur. Dünya iqtisadiyyatı bütün mövcud resurslardan asılı olur. İnsan resursları isə özünəməxsus xüsusiyyətlərə malikdir. Digər resurslar da məhz insan resursları ilə sıx bağlı olur. İnsan amilindən səmərəli istifadə edildikdə təbiətdə mövcud olan digər resurslardan da daha səmərəli və optimal istifadə edilməsi üçün münasib şərait yaranır.

İnsan resurslarının özünəməxsus xüsusiyyətləri var. Buna görə də onları idarə etmək, cəmiyyətin çiçəklənməsi üçün onlardan bacarıqla istifadə etmək olduqca çətindir. Məsələyə yaradıcılıqla yanaşmaq, elmtutumlu tədbirlər həyata keçirmək lazımdır. Bu cür yanaşmanın öhdəsindən hər hansı bir ixtiyarı iqtisadi inkişaf modeli seçən ölkə çox çətinliklə gələ bilir və dünya təcrübəsinin göstərdiyi kimi, bəzən heç gələ də bilmir. Belə olan halda iqtisadiyyatın geriliyini əhalinin yüksək artımı ilə izah edirlər. Bu cür mühakimə yürütməyə əsas kimi dünya əhalisinin çox böyük sürətlə artmasıdır.

Dünyada insanların sayı son 50-60 ildə sürətlə artmışdır. Əhalinin ikiqat artımı indi çox qısa müddətdə 35-40 ilə baş verir (müqayisə üçün yada salaq ki, birinci ikiqat artım 1500 ilə baş vermişdi). XXI əsrin ilk ilində dünya əhalisinin sayı 6,1 milyard təşkil edib (yada salaq ki, 1900-cü ildə bu rəqəm cəmi 1,6, 1950-ci ildə 2,5-ə, 1980-cı ildə isə 4,4-ə bərabər idi).

Əhalinin bu cür artımı və onun iqtisadi inkişafa təsiri ətrafında müxtəlif fikir və mülahizələr mövcuddur. Bir qrup alim və mütəxəssislər həmişə o fikirdə olmuşlar ki, əhali artımı sosial iqtisadi inkişafa mənfi təsir edə bilər. Aclığın, yoxsulluğun səbəbini də onlar əhalinin sayı ilə əlaqələndirməyə səy göstərmişlər və bu fikri müəyyən dövrdə cəmiyyətin şüuruna yeridə bilmişlər. Bu cür fikirləşən şəxslərin nümayəndəsi 1766- 1834-cü illərdə yaşamış ingilis ruhanisi və iqtisadçısı T.Maltus idi. O özünün ilk əsərlərində əhali ilə təbii resursları bir-birinə qarşı qoyurdu. Qeyd edirdi ki, əhali artımının meyli həndəsi silsilə üzrə, ərzağın artma meyli isə hesabi silsilə üzrə baş verir. Lakin 1934-cü ildə bu günə qədər keçən müddət T.Maltusun nəzəriyyəsini təsdiq etmədi və keçən əsrin ikinci yarısında elmdə və texnikada əldə edilən nailiyyətlər və bu cür nailiyyətlərin istehsala geniş miqyasda (xüsusən də kənd təsərrüfatı istehsalında) tətbiqi imkan verdi ki, əhalinin yüksək artımı müqabilində ondan da yüksək artım sürəti ərzaq istehsalı sahəsində əldə edilsin. Məhz bu artım dünya əhalisini aclıqdan qurtara bildi.

Digər qrup alim və mütəxəssislər isə (bunlar çoxluq təşkil edirlər) əksinə əhalinin sayca çoxalmasını sosial-iqtisadi inkişafın əsas funksiyası hesab edirlər. Bu qrupun əsas nüma-yəndəsi A.Smit idi. O, hesab edirdi ki, əhali artımı iqtisadi inkişafı sürətləndirə biər. İlk növbədə ona görə ki, əhali artımı yeniliklərin istehsala tətbiqini sürətləndirir. Varlanmaq ailədə uşaqların sayının artırılmasına meyli gücləndirə bilər. Lakin digər tərəfdən məlumdur ki, əksinə inkişaf etmiş ölkələrdə ailələr kiçik olur, uşaqların sayı orta hesabla 2-3 nəfəri ötmür.

Kasıb ailələr isə əksinə çoxuşaqlılığa meyl göstərirlər və onlarda ölümün səviyyəsi də yüksək olur.Əhalinin sayca artması yaşayışı pislətmir. A.Smit göstərirdi ki, vaxt geçdikcə ərzaq mallarının qiyməti aşağı düşür. Sonralar A.Smitin müddəaları doğru çıxdı və məsələyə bu cür yanaşma daha da gücləndi. 1980-cı illərdə isə dövlət sənədlərində, elmi konfranslarda daha da möhkəmləndi. Məsələn, 1986-cı ildə ABŞ-ın Milli Elmlər Akademiyasının məruzəsində göstərilirdi ki, əhali

artımının iqtisadi inkişafa təsiri kompleks xarakter daşıyır. İşsizlik, aclıq, cəhalət, kasıblıq kimi xoşagəlməz halları təkcə insan artımı yox, bir sıra digər faktorlar meydana gətirir. Əhali və resurslar mühüm dəyişən kəmiyyətdirlər və vaxt keçdikcə onların də-yişməsi, iqtisadiyyata təsir göstərməsi müxtəlif ola bilər. Əhalinin artması nəticəsində cəmiyyətin artan xərcləri, insanların əməyini düzgün təşkil etməklə kompensasiya etmək mümkündür. Yəni hər bir əmək qabiliyyətli insan üçün dövlət münasib şərait yaratmış olarsa o, heç vaxt cəmiyyətə borclu qalmaz. Hər şey insan resurslarına olan münasibətdən asılıdır. Bunu iqtisadi inkişafın insan amili adlandırmaq olar. Əgər insana ancaq istehlakçı kimi baxılarsa onda Maltus və onun nəzəriyyəsinin yeni təmsilçiləri müəyyən dərəcədə haqlı ola bilərdilər. Lakin həqiqətdə belə deyil. İnsan həmişə yaradıcılığı sevən canlı olub və bu gün bizə məlum olan elmi-texniki möcüzələrin hamısını insan yaradıb və bundan sonra da yaradacaq. Bunun üçün yalnız bir şey tələb olunur: insanların əməyi, yaradıcı fəaliyyəti kənd, qəsəbə, rayon, şəhər, ölkə və dünya miqyasında düzgün təşkil edilməli və istiqamətləndirilməlidir. Bunun üçün ölkələrdə insana hörmət edən, onun qayğısına qalmaq naminə korrupsiyadan əl çəkən sosial yönümlü siyasət yeridən dövlətin formalaşması tələb olunur. Xalqını sevən dövlət üstəgəl müasir və demokratik ictimai istehsal və elmi-texniki tərəqqi bütün sosial-iqtisadi məsələləri optimal səviyyədə həll etmək iqtidarında ola bilər. Son 15-20 ildə dünya təcrübəsi artıq bunu sübut etmişdir. Bu gün ÜDM ilə əhali artımı arasındakı nisbət yüksək həyat tərzi və insan kapitalına investisiya qoyuluşu arasında seçim kimi çıxış edir. Dünya əhalisi sürətlə artır, lakin dünya miqyasında ərzaq məhsulları bundan da sürətlə artır. Aclıq isə insan resurslarından istifadənin əhəmiyyətini başa düşməyən, korrupsiya və rüşvətxorluğa qurşanan ölkələrdə müşahidə olunur.

Ümumiyyətlə götürdükdə dünya iqtisadiyyatı ilə məşğul olan alim və tədqiqatçıların çoxunun və ümumdünya ictimai təşkilatlarının gəldiyi qənaət bundan ibarətdir ki, əgər ölkələrdə iqtisadi və sosial dəyişikliklər

vaxtında həyata keçirilərsə, əgər elmi və texniki tərəqqi təmin edilirsə, hökumətlər sosial yönümlü siyasət həyata keçirib, ölkədə korrupsiyaya qarşı mübarizə aparılırsa, əhali artımı təhlükəli bir problemə çevrilə bilməz. İnsan resurslarına yönəldilən kapital xərclərinin, digər resurslara yönəldilən kapitaldan daha səmərəli olması da dünya təcrübəsində təsdiq edilmişdir. İnkişaf etmiş ölkələrin əldə etdikləri nailiyyətlərinin çoxu, bu ölkələrdə insan resurslarına olan diqqət və hörmətlə bağlıdır. İşçi qüvvəsinin məhsuldar potensialı, işçinin psixoloji, fiziki keyfiyyətləri və səhhəti ilə yanaşı onun həyat şəraitindən asılı olan ümumi və xüsusi savadını, istehsal təcrübəsini, mədəni inkişaf səviyyəsini də özündə cəmləşdirir. İşçi qüvvəsinin bütün bu cür və digər mühüm xüsusiyyətləri dünya təsərrüfatının yarımsistemlərində ayrı-ayrı ölkələrdə baş verən sosial, iqtisadi, mənəvi, psixoloji, siyasi proseslərdən bilavasitə asılı olur. Bütün bu xüsusiyyətlərin əsasında isə insanın əmək qabiliyyətini təyin edən fiziki keyfiyyəti durur. Bu keyfiyyətlərin meydana gəlib səmərə verməsi isə dövlətdən asılı olur. Vaxtı ilə K.Marksın "İqtisadi inkişafın hərəkətverci qüvvəsi maşın və mexanizmlər deyil, insanlardır" ideyası bu gün tamamilə özünü doğrultmuşdur. Amerika iqtisadçısı E.Denisonun hesablamalarına görə ÜDM artımının 16% işçi qüvvəsinin təhsilinin yüksəldilməsi, 34% texniki yeniliklər və "nou-hau"ların istehsala tətbiqi nəticəsində əldə edilir. (bu da insanın təhsili və bacarığı ilə əlaqədardır). Deməli, insan amili məhsul artımının 50%-ini təmin edə bilir. E.Denison göstərir ki, maşın və mexanizmlərin kənardan alınıb istehsala tətbiqi isə ÜDM artımının cəmi 12%-ni təmin edə bilir.

İnsan resurslarına yaxşı münasibət sonda daha çox adamın işlə təmin edilməsinə, onların dünyagörüşünün yaxşılaşmasına, biliyin çoxalmasına və bunların nəticəsi kimi əmək məhsuldarlığının yüksəldilməsinə, cəmiyyətin gəlirlərinin artmasına səbəb olur. Keçən əsrin 80-ci illərində aparılan hesablamalar sübut etdi ki, işçi qüvvəsinin təhsili bir il artdıqda bu ÜDM-nın 3% artmasına səbəb ola bilir. İnkişafda olan ölkələrdə isə işçi qüvvəsinin biliyi ilə ÜDM-nın artımı

arasında daha sıx əlaqə müşahidə olunmuşdur. Buna görə də insan resurslarına dövlət tərəfindən olan münasibət həmişə sağlam olmalıdır.

### §2. İnsan amili və sosial-iqtisadi inkişafda onun rolu

Dünya iqtisadiyyatı ayrı-ayrı ölkələrin iqtisadiyyatından formalaşdığına görə ölkələrin iqtisadiyyatına, ayrı-ayrı regionların iqtisadiyyatına, onların daxili imkanlarına, əldə etdikləri nailiyyətlərin səbəblərinə diqqət artırılır. Təhlil göstərir ki, insan resurslarına ciddi fikir verən ölkələr, bir qayda olaraq inkişaf səviyyələrinə görə digər ölkələrdən daha üstün olurlar. İnsan resurslarından səmərəli istifadə etmək yolu ilə öz iqtisadiyyatlarını yüksək inkişaf səviyyəsinə çatdıran ölkələr çoxdur. İlk növbədə bu ölkələr sırasına Yaponiya, Almaniya, ABŞ, Avropa ölkələri və s. daxildir.

İnsan resurslarına ciddi fikir verməyən, ona inkişafın mühüm bir amili kimi yanaşmayan ölkələr isə əksinə əsrlərlə geri qalıblar, indi də inkişaf etmiş ölkələrdən dəfələrlə geri qalmaqda davam edirlər. Belə ölkələrə ilk növbədə həddindən çox təbii resursları olan Rusiya Federasiyası, digər MDB daxil olan ölkələrin əksəriyyəti, Afrikanın, Latın Amerikasının bir sıra dövlətləri və s. daxildir.

İstehsalda insan resurslarından istifadəni ifadə etmək üçün "insan amili" məfhumundan istifadə edilir. Əslində dünya və cəmiyyət (ölkə) miqyasında isə insan resurslarından, müəssisələr miqyasında insan amilindən istifadə edilməsi bir biri ilə əlaqədar olan vahid problemdir. İnsan amili dedikdə konkret bir müəssisədə, birlikdə, şirkətdə çalışanlardan, «insan resursları» dedikdə ölkə əhalisinin tam tərkibindən səmərəli istifadə edilməsi başa düşülür.

İnsan resurslarından istifadə etməyin zəruriliyini, səmərəliliyini ilk dərk edənlər avropalılardır. İkinci dünya müharibəsindən sonra Almaniyanın əldə etdiyi müvəffəqiyyətlərin kökündə də insan və onun taleyi dururdu. İnsan amilindən istifadə edən Almaniyanın müvəffəqiyyətləri o qədər heyranedici idi ki, dünya iqtisadiyyatında onu

“Alman möcüzəsi” adlandırırdılar. “Alman möcüzəsi»nin ideoloqu və həyata keçirəni Münxen Universitetinin professoru L.Herxard idi. İqtisadiyyata aid əsərlərində və praktikada o, sosial bazar iqtisadiyyatını formalaşdırmaq məsələsini irəli sürdü və hökumətdən dəstək aldı. Onun konsepsiyasının əsasında insan resursları və insan haqqında real təsəvvürlər dururdu. O, həmvətənlərini başa salırdı ki, insanın cəmiyyətdə keyfiyyətli və məhsuldar işləməsi üçün onu stimullaşdırmaq lazımdır. L.Herxarda görə insan üçün stimul rolu - onun yaxşı yaşamağa can atmasıdır. İnsan çalışır elə bir qərar qəbul etsin ki, sonra bu qərar onun özünə və ailəsinə xeyir gətirə bilsin. İnsanın əldə etdiyi nailiyyətin səviyyəsi çıxarılan qərarların son nəticələrinin aydınlıq dərəcəsindən asılı olur. Son nəticə insana güzgüdəki kimi aydın görünən, onun həyat tərzinə müsbət təsir göstərən olduqca o daha çox müsbət nailiyyətlər əldə edir. Bunun üçün insan azad olmalıdır.

İnsan amilinin gücü bu amilin kütləviləşdiyi, bütün cəmiyyəti əhatə etdiyi zaman ağlagəlməz dərəcədə artır. Nəticədə sosial gərginlik azalır və yaxud da tam aradan qalxır. Ölkənin idarə edilməsi sadələşir, asanlaşır, idarəetmə xərcləri azalır. Bürokratik üsul və stillər iqtisadi üsul və yanaşmalarla əvəz olunur.

Bizim respublikamız keçid iqtisadiyyatlı dövlətlərdəndir. Gələcəkdə, keçid dövrü başa çatdıqdan sonra hansı nailiyyətlər əldə ediləcəyi dövlətin insan amilinə olan münasibətindən birbaşa asılı olacaqdır. Bunu nəzərə alaraq oxuculara bu haq-da bir az geniş məlumat verməyi məqsədyönlü hesab etdik.

İnsan amili... bu iqtisadiyyatı yüksəltmək, onu sağlamlaşdırmaq, sosial məsələlərin həllinə yönəltmək üçün çox böyük bir vasitədir. Bir çox sosial-iqtisadi məsələlərin həllində insan amili bəlkə də haradasa istehsala, onun səmərəliliyinə elmi-texniki tərəqqidən də güclü təsir göstərir. Axı, elmi də, texnikanı da, istehsalı da insanlar yaradırlar və idarə edirlər. Əgər son nəticədə insanlar onlardan lazımi səviyyədə faydalanmırlarsa və bu mənfi hal uzun müdət davam edirsə, insan özü

texnikanın gələcək inkişafı üçün əngələ çevrilir. Belə olmaması üçün insan öz əməyinin bəhrəsini açıq-aydın görməlidir.

Bazar iqtisadiyyatının bərqərar olmasında və onunla bağlı ümidlərin həyata keçirilməsində insan amilindən bacarıqla istifadə olunmalıdır. Məhz buna görə də bu amildən istifadə edilməsi yollarını dərindən bilmək lazımdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, insan amilindən istifadə edilməsi üçün iki mühüm şərtə əməl olunmalıdır.

Birinci şərt adamın, yaxud da adi bir vətəndaşın cəmiyyətdə yaxşı yaşamasını təmin etməklə əlaqədardır və insanların özlərindən bilavasitə asılı deyildir. Bu şərtə əməl olunması dövlət başçılarından və onların həyata keçirdikləri siyasətdən asılıdır. Birinci şərtdən asılı olaraq ikinci şərt meydana gəlir. Lakin buna baxmayaraq ikinci şərt əsasən insanların özləri ilə bağıdır. İnsan daim özü-özünü tənqid və "tərbiyə" etməyi bacarmalı, bazar qanunlarını daim öyrənməli, ən çətin vəziyyətlərdə belə özünü itirmədən çıxış yolu tapmalıdır. O bilməlidir ki, son nəticədə insanın həyatında baş verən yaxşı və pis hadisələrin bir nömrəli səbəbkarı özüdür. İstehsal etdi-yin məhsul istehlakçıları qane etmirsə, heç kəsi günahlandırmaq lazım deyil. Bu asan yoldur, çətin, lakin müvəffəqiyyət gətirən yol günahı özündə görməkdir. Məsələn, deyək ki, əgər hər hansı bir şəxs və yaxud kollektiv məhsulu istehsal etməzdən əvvəl müəyyən səviyyədə təhlil-tədqiqat işi aparsa idi, tələb və təklifi öyrənsə idi, məhsul şübhəsiz ki, alıcıların zövqünə, maddi vəziyyətlərinə uyğun istehsal edilərdi. Sahibkar böyük dünyagörüşə, zəkaya, işgüzarlığa malik bir şəxs olmalıdır. Bu cəhətlərə malik olan şəxs isə cəmiyyətdə digərlərinə nisbətən yaxşı yaşamalıdır. Deməli, bazar iqtisadiyyatı şəraitində insan amilindən istifadə edilməsi məsələsinin həlli dövlətdən və insanların özündən asılıdır. Lakin burada həlledici rol oynayan subyekt dövlətdir. Dövlət rəhbərləri insan amilindən istifadə edilməsində həlledici rol oynaya bilərlər. Bunun üçün ilk növbədə, dövlət xüsusi təsiredici mexanizm yaratmalıdır. Elə mexanizm ki, insanların sosial-psixoloji vəziyyətləri mütərəqqi dəyişsin.

İnsan amilindən istifadə edilməsindən danışarkən bir mühüm cəhəti nəzərə almaq lazımdır. Məsələ burasındadır ki, insan amilini donmuş, fəaliyyətsiz hesab etmək olmaz. O, daim fəaliyyətdədir və cəmiyyətdə gedən bütün proseslərə təsir göstərir. Bir proses kimi bu təsiretmə obyektiv xarakter daşıyır. Rəhbərlər və yaxud da hər hansı bir digər şəxsiyyət bu təsiretmənin qarşısını ala bilməz. Dövlət bu prosesi idarə etməlidir, işgüzar sahibkarlar ordusunun formalaşdırılması qayğısına qalmalıdır.

Lakin nəzərə alınmalıdır ki, insan amilinin bazar iqtisadiyyatına təsiri həm mənfi və həm də müsbət ola bilər. Bu asılıdır onun düzgün idarə olunub-olunmamasından, əgər insan amili dərindən başa düşülürsə və təmənnasız obyektiv idarə edilirsə, onun təsiri iqtisadiyyatın sağlamlaşdırımasına yönəldilirsə, onda insan amili də cəmiyyətin tərəqqisinə müsbət təsir göstərir. Əks halda insan amili mənfi amilə çevrilir. Məsələn, işçi və ya cəmiyyətin adi üzvü öz əməyinin bəhrəsini görmürsə, o, get-gedə süstləşir və iş zamanı təşəbbüskarlıq göstərib, daha çox iş görmək əvəzinə, oturub iş vaxtının qurtarmasını gözləyir, çox zaman isə özünün bildiyi, bacardığı şəkildə ümumi işin gedişatına mane olur və nəhayət, belə şəxs səmərəli iqtisadiyyat üçün əngələ çevrilir. Təəssüflər olsun ki, biz belə adamlarla dünya və ölkələr miqyasında hər gün rastlaşırıq və belə adamlar içərimizdə hələ çoxluq təşkil edirlər.

Bərabər yaşamağa can atmaqdansa, sahibkar olmağa can atmaq lazımdır. Onda sən də yaxşı yaşayacaqsan. Təki sənin təşəbbüsün olsun və dövlət bu təşəbbüsü alqışlasın. Yenə də təkrar etməyə dəyər ki, insan amili cəmiyyətə, onun iqtisadiyyatına o zaman müsbət təsir göstərə bilər ki, birincisi, insan özü təşəbbüskar, işgüzar, yaradıcı, çalışqan, vaxtın qədrini bilən olsun, ikincisi, dövlət, onun orqanları, müəssisə və təşkilatların rəhbərləri, ailə başçıları bu cür əlamətləri olan şəxsləri qərəzsiz, yerliçilik, tanışbazlıq etmədən axtarıb tapsın, müvafiq işlərdə işləmək üçün yerləşdirsinlər, onları hər cür maddi və mənəvi cəhətdən stimullaşdırsınlar.

İndi hətta, dünya miqyasında az adam tapılar ki, Yaponiyanın əldə etdiyi sosial-iqtisadi inkişafından, onun yüksək səviyyəyə çatmasından bixəbər olsun. Bunu hamı - fəhlə və qulluqçu da, həkim də, mühəndis də, alim də, siyasətçilər də, dövlət başçıları da yaxşı bilirlər. Lakin heç də hamı bilmir ki, əldə edilən sosial-iqtisadi müvəffəqiyyətlərin başlıca səbəbi bu ölkədə insan amilindən bacarıqla və hərtərəfli istifadə edilməsidir. Bu heç də bu gün baş verməmişdir. Yaponiya hökuməti əsrlər boyudur ki, insana hörmətlə yanaşır, insan amilindən istifadə prosesini insani cəhətlərin inkişafına yönəldir. İnsanda ola bilən pis, cəmiyyətə zidd hərəkətlərin azalması qayğısına qalır.

Yaponiya haqqında ətraflı danışmaq istəmirik, ona görə ki, bu haqda çox yazılıb (təəssüf ki, yazıların əksəriyyəti rus və başqa dillərdədir). Təkrar da olsa biz yalnız bazar iqtsiadiyyatı üçün çox dəyərli olan bəzi ştrixləri göstərməyi məqsədəuyğun hesab edirik. Yaponiya hökuməti elə bir ictimai, siyasi, iqtisadi cəhətdən azad mühit yaratmağa nail olmuşdur ki, insan amili istehsalın səmərəliliyinin başlıca səbəbinə çevrilmişdir. Mütəxəssislər Yaponiyanı iri və çox mehriban, bir-birinə hər cür kömək göstərməyə hazır olan böyük bir ailəyə bənzədirlər. Burada öz üzərində gərgin işləməyi sevən, işə yaradıcı münasibət bəsləyən, təvazökar olan, elm və texnikanın son nailiyyətlərini dərindən öyrənən və istehsala onları inamla tətbiq edən hər bir kəsin həyatın ən yüksək zirvəsinə qalxa böilməsi üçün gözəl şərait yaradılmışdır. Əbəs deyil ki, Yaponiyada olan, orada işləyən, yapon adət və ənənələrini öyrənən mütəxəssislər burada hər bir şəxsin yüksəlməsi yolunu hərəkət edən eskalatora bənzədirlər. Bu bənzətmədə bir həqiqət vardır, həyat da eskalator kimi daim hərəkət edir. Onun da birinci - aşağı və sonunda ən yüksək pilləsi vardır.

Yapon yeniyetməsi, gənc mütəxəssisi dövlətin yaratdığı sağlam mühit nəticəsində dərk edir ki, yaradıcı əməklə məşğul olarsa eskalatorun (həyatın, elmin, vəzifənin...) ən yüksək pilləsinə qalxa bilər. Bunun üçün əsas şərt insanın özünün işgüzar olmasıdır.Təki bu

işgüzarlıq dövləti, rayonları, müəssisələri idarə edənlərin nəzərindən qaçmasın, əksinə güclü qollarla stimullaşdırılsın.

Əməyin motivləşdirilməsi bazar iqtisadiyyatı şəraitində insan amilindən bacarıqla istifadə edilməsi üçün ən mühüm şərtdir. İstehsalın texniki, texnoloji səviyyəsi yüksəldikcə əməyin və əmək haqqının təşkilində motivləşdirmə probleminin aktuallığı yüksəlir. İnsanlar nəyə çox həvəs göstərirlərsə, dövlət onları o işə də yönəltməlidir. Nəyisə qadağan etmək, kiməsə hökm göstərmək əmək məhsuldarlığı qazanmağa heç vaxt imkan verməyib, verməyəcək də. Bunu birdəfəlik başa düşən Qərb ölkələri çoxdan insanlara azad fəaliyyət bəxş etmişlər. Lakin onlar heç bir fəaliyyətin gizli qalmasını istəmirlər. Əksinə, mənfəət əldə etməyə imkan verən insan fəaliyyətinin bütün rəngarəngliklərinə hörmətlə yanaşırlar, bu fəaliyyətlə məşğul olan şəxsi başa düşməyə çalışırlar və başa da düşürlər.

Münasib tədbirlər həyata keçirməklə, ayrı-ayrı şəxslərin fərdi əmək fəaliyyətinin cəmiyyətə göstərə biləcək mənfi təsirini azaltmağa, sonralar isə tam aradan qaldırmağa və müsbət təsirini isə əksinə daha da gücləndirməyə nail olmaq lazımdır. Bu çox da asan iş deyil. Lakin dövlət bu məsələni həll etməyə biganəlik göstərməməlidir. Necə deyərlər, həyatda xırda şey olmur. Hər şeyə, hadisəyə, əlamətə, davranışa ciddi fikir vermək insan amilindən istifadə olunması üçün əsas şərtlərdən biridir.

İnsan amilindən dövlət bacarıqla istifadə etməlidir. Bu sahədə nəzərdə tutulan və həyata keçirilən tədbirlərin içərisində insana yaxşı işləmək bacarığı öyrətməyə yönəldilən tədbirlər mühüm əhəmiyyət kəsb edir. Yaxşı və keyfiyyətli işləmək vərdişləri... Bu vərdiş fəhlədə, nazirdə, dövlətin başçısında da olmalıdır. Ədalətli, sağlam cəmiyyətə yol, bu cəmiyyətdə ömür sürən hər bir kəsin öz işinə yaradıcı münasibət bəsləməsi və keyfiyyətli işləmək vərdişini əldə etmək yolundan keçir. Amerikada, Almaniyada, İngiltərədə və digər qabaqcıl Qərb ölkələrində bu sahədə böyük müvəffəqiyyətlər qazanılmasına baxmayaraq, istehsalı idarə edənlər bu problem üzrə işləməkdə davam edirlər. Onların

hamsının fikrinə görə Amerika, ingilis, alman fəhlə və qulluqçuları keyfiyyətli işləmək bacarığın hələ də yapon fəhlə və qulluqçularına çatmamışlar.

Yaponiyanın müvəffəqiyyəti əslində yapon fəhləsinin, mühəndisinin, dövlət işçisinin keyfiyyətli işinin nəticəsidir. Sosial bazar iqtisadiyyatının formalaşmasını bunsuz əldə etmək qeyri-mümkündür. Burada dövlətin rolu böyükdür. O, birinci növbədə, özünün misalında bunu xalqa göstərməlidir. Xalq hər şeyi görür. Hər kəs dərindən bilməlidir: hansı hərəkətinə görə o, dövlətdən cəza, hansı hərəkətinə görə mükafat ala bilər. Deməli, dövlət sosial bazar iqtisadiyyatına uyğun insan tərbiyə edilməsinə daim ciddi fikir verməlidir. Axı, cəmiyyətdə hər şeyi insanlar görürlər. Çox zaman insanlar, daha doğrusu, əllərində imkan olan bir qrup insanlar həyata keçirdikləri siyasətin cəmiyyət və hətta onların özləri üçün sonralar nə ilə nəticələnəcəyini həmin anda başa düşmürlər, dərk edə bilmirlər. Ölkəni idarə edənlər isə bunu dərhal görməlidirlər. İnsanların fəaliyyəti onlar tərəfindən idarə edilməli və son nəticədə sağlam iqtisadiyyatın bərqərar olmasına yönəldilməlidir.

Hər bir insanın arzusu yaxşı dolanmaq, xoşbəxt həyat keçirməkdir. Lakin dövlət imkan verməməlidir ki, bir şəxsin, bir kollektivin yaxşı yaşaması hesabına ölkənin iqtisadiyyatı xəstələnsin, insanlarda mənfi psixologiya formalaşsın. Hər bir kəs öz işini sevməli, onunla fəxr etməlidir, ancaq bu nə vaxt ola bilər? O zaman ki, əməkçi öz əməyinin bəhrəsini görsün. Əgər cəmiyyətin hər hansı bir üzvü varlanmağın mənbəyini gərgin əməkdə görə bilmirsə, onda sağlam psixologiyadan danışmağa dəyməz.

Asan yolla varlanmaq istəyən şəxslərin, cəmiyyət üzvlərinin sayı artdıqca, cəmiyyətin iqtisadiyyatı da getdikcə daha çox pis vəziyyətə düçar olur. Buna görə də dövlət öz-özünü iflic etməmək üçün insanlarda işgüzarlığın, keyfiyyətli və yaradıcılıqla işləmək vərdişinin daim aşılanması qeydinə qalmalıdır. İnsan amilindən istifadə olunmasına münasibət və bu məsələnin həlli yolları sahəsində inkişaf etmiş ölkələrin böyük təcrübəsi vardır. Məsələn, ABŞ-da insan

amilindən istifadə edilməsinin yeni yolları araşdırılıb tapılır. Son illərdə burada əmə-yin təşkilinin və stimullaşdırılmasının, yəni nəzəri və praktiki məsələləri meydana gəlmiş və konkret istehsallarda istifadə olunmağa başlanılmışdır. Söhbət əslində insan amilindən yeni üsullarla istifadə edilməsindən gedir. Burada insan amili əməyin düzgün, konkret istehsal şəraitinə uyğun şəkildə təşkil edilməsi və stimullaşdırılması mexanizmi vasitəsilə reallaşdırılır.

Əməyin düzgün təşkili və stimullaşdırılması insan amilindən istifadə olunmasında ən mühüm yer tutur. İstehsalın texniki səviyyəsi yüksəldikcə, kompüterləşmə inkişaf etdikcə bu problemin aktuallıq dərəcəsi də artır. Eyni zamanda yüksək texniki səviyyəyə malik istehsalın özü insan amilindən daha düzgün istifadə olunmasını tələb edir. Bazar iqtisadiyyatı şəraitində işçi funksiyasının planlaşdırılması və müxtəlif şəklə salınması variasiyası böyük əhəmiyyət kəsb edir. Əməyin funksiyasının planlaşdırılması və variasiyası işçinin ixtisas və savadı nəzərə alınmaqla həyata keçirilməlidir. Bu da əməyin dəqiq motivləşdirilməsini tələb edir.

Hər bir insanın daha məhsuldar işləməsi üçün iki mühüm şərt vacibdir. Birincisi, istehsalın texnologiyasına uyuğn olaraq işçinin əməyinə sərt şəkildə nəzarət edilməsidir. İşçi bu nəzarətin altında çalışır və əgər nəzarət zəif olarsa, onun öz funksiyasını lazımi səviyyədə yerinə yetirməməsi ehtimalı meydana gəlir. Bu ehtimalı azaltmaq üçün əməyin motviləşdirilməsindən istifadə etmək lazımdır. Onu da qeyd etmək lazımdır ki, əməyin motivləşdirilməsinin real şəkildə mənası işçinin ancaq özünəməxsus avtonomiyası (tam istehsal prosesinə nisbətən) olanda vardır. Deməli, əməyin motivləşdirilməsi üçün əsasən onun avtonomlaşdırılması qeydinə qalmaq lazımdır. Bu isə öz növbəsində istehsalın texniki səviyyəsinin yüksəldilməsini, onun kompüterləşməsini tələb edir. Yeni texnika və texnolo-giya çox hallarda işçinin istehsal avtonomiyasını yüksəldir. Onu idarə etməyə cəlb edir. O, müəssisəni öz işçi çərçivəsində idarə etməyə başlayır. Belə işçiyə heç bir bürokratik nəzarət lazım deyil. O, öz funksiyasını yaxşı bilir, öz işini özü idarə

edir. Əgər lazım gələrsə istehsalın idarə olunmasında fəallıq göstərir, səmərəli istehsal mühitinin formalaşması qeydinə qalır və əgər işçilərin böyük əksəriyyəti bu cür hərəkət edirsə, onda işlək, məhsuldar və sağlam istehsal orqanizmi formalaşır və məhsuldarlıq yüksəlir.

Deməli, bazar iqtisadiyyatı əməyin motivləşdirilməsini hökmən tələb edir. Elə şərait yaradılmalıdır ki, insan özü başa düşsün ki, götürülmüş konkret bir işdə o, özünə, işlədiyi müəssisəyə, respublikasına lazımi faydanı verə bilər, ya yox. Ancaq belə olan tərzdə hazırda dövlətlərdə işə və xüsusən vəzifəyə olan münasibətimiz yaxşılaşar, biganəlikdən yaxa qurtarmaq olar. Bu biganəliyin mahiyyəti ondadır ki, hamı işləmək və xüsusən vəzifədə işləmək, çox pul qazanmaq istəyir, öz bilik və bacarıqları haqqında isə düşünən çox azdır.  Çox zaman gözüyumulu bir işin, vəzifənin dalınca qaçan cəmiyyət üzvü nəticədə həm özünə və həm də dövlətinə ziyan vurmuş olur. Dövlət bunun qarşısını almalıdır.

Hər kəsin vəzifə tutmağa can atması cəmiyyətdə yaranan sosial-psixoloji və sosial-mənəvi mühitlə bağlı olur və əməyin motivləşdirilməməsinin nəticəsidir. Bir də ona görədir ki, insanlar firavan həyata keçirməyi vəzifə tutmaqda görürlər. Çünki hamı yaxşı görür ki, qonşusu vəzifə alandan sonra varlanıb. Bazar iqtisadiyyatı şəraitində bu belə olmamalıdır. Vəzifələr xalqa keyfiyyətli xidmət göstərməyi sevən, mənəviyyatca  təmiz olan şəxslərə tapşırılmalıdır. Biz demirik ki, bu şəxslər vəzifələrdə işləyib, kasıb yaşamalıdırlar. Sadəcə olaraq dövlət elə bir mühitin formalaşması qayğısına qalmalıdır ki, insanlar vəzifədən istifadə edib qanunsuz varlanmaq imkanı əldə edə bilməsinlər. Ona görə ki, vəzifəyə görə varlanmaq kütləvi şəkil alanda cəmiyyət sağalmayan xəstəliyə düçar olur. Zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatının indiki acınacaqlı vəziyyətinin səbəbi də elə budur. Sosial bazar formalaşdırmaq istəyən dövlət insanların psixologiyasına təsir etməli, onu bazar iqtisadiyyatı tələblərinə uyğun dəyişməlidir. Bunun üçün isə güclü dövlət proqramları tələb olunur.

Bazar iqtisadiyyatı şəraitində əməyin motivləşdirilməsi vasitəsilə insan resurslarından istifadəni yaxşılaşdırmaq olar. Bunu Qərb ölkələrinin təcrübəsi aydın göstərir. Məsələn, Amerikanın bir sıra iqtisadçıları, sosioloqları və psixoloqları çoxdan bu sahədə əməli iş aparırlar və onlar əməyin təşkili və stimul-laşdırılması sahəsində tam yeni, ənənəvi olmayan prinsiplərə əsaslanan konsepsiya hazırlayırlar. Hazırda Amerikanın dövri mətbuatında, dərs vəsaitlərində geniş işlədilən "Əmək fəaliyyətinin keyfiyyəti", "Əmək məzmununun zənginləşdirilməsi", "Əməyin humanizmləşdirilməsi", "Zəhmətkeşlərin birgə səyi" nəzəriyyələri belə konsepsiyalardandır. Bu konsepsiyalarda qırmızı xətlə gözə çarpan cəhət prinsipcə tam yeni olan tezislərdir. Belə tezislərin mahiyyəti ondadır ki, konsepsiyanın müəlliflərinin fikrincə burada əsas məsələ işçilərin fəallığının yüksəldilməsidir. Fəhlə, mühəndis, hüquqşünas, sex rəisi, direktor, ölkə prezidenti, istehsal və sosial cəhətdən lazımi səviyyədə aktiv olmalıdırlar, Konsepsiya müəlliflərinin fikrincə, ancaq belə olan halda cəmiyyət üzvləri öz bacarıqlarından tam istifadə etməyə can atıb gərgin və səmərəli işləyirlər.

Qeyd etmək lazımdır ki, əməyin təşkili və stimullaşdırılmasına prinsipcə yeni münasibət bəslənilməsi və buna nail olmaq üçün əmək motivlərindən istifadə edilməsi yalnız o zaman istənilən səmərəni verə bilər ki, kadrların seçilib yerləşdirilməsi obyektiv prinsiplərə görə aparılsın. Əslində əməyin motivləşdirilməsi kadrların seçilib yerləşdirilməsindən başlayır. Elə buna görə də əməyin motivləşdirilməsindən danışarkən kadrların seçilib yerləşdirilməsi motivlərindən də danışmaq lazımdır. Niyə? Ona görə ki, kadrların seçilib yerləşdirilməsi dövlət strukturunda çalışan insanların əməyinin son nəticəsidir. Əgər tornaçı müəyyən prosesi (konkret desək yonma prosesini) həyata keçirməklə işçi cizgisinə uyğun maşın hissəsini hazırlayırsa, dövlət strukturunda çalışan şəxs isə özünəməxsus proseslər həyata keçirməklə kadr seçir və yerlərdə işləməyə göndərir. Deməli, kadrların seçilməsi də, tornaçının hazırladığı maşın hissəsi də əmək

proseslərinin nəticəsidir. Hər iki halda son məhsul (kadrın seçilib yerləşdirilməsi və cizgiyə uyğun maşın hissəsinin hazırlanması) keyfiyyətli olmalıdır. Məsələyə bu cür yanaşmağın cəmiyyət üçün böyük əhəmiyyəti vardır. Əgər biz tornaçının əməyinin motivləşdirilməsindən, onun əmək məhsuldarlığından, onun nizam-intizamından danışırıqsa, onda kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxsin (şəxslərin) əməyi haqqında də eyni cür danışmaq lazımdır. Kadrların seçilməsi və yerləşdirilməsi ilə məşğul olan şəxsin də əməyi motviləşdirilməli, məhsuldar və keyfiyyətli olmalıdır.

Lakin həyatda heç də belə olmur. Fəhlənin (tornaçının) əməyinə qoyulan nəzarət rəhbər işçinin əməyinə qoyulan nəzarətdən üstün olur. Məsələn, tornaçı hissəni işçi cizgisinə görə hazırlasa da, onu yığma sexinə verməzdən qabaq həm özü və həm də sexdə fəaliyyət göstərən xüsusi işçilər - nəzarətçilər yoxlayırlar. Ancaq obyektiv yoxlamadan keçən detal və qovşaqlar yığma sexinə verilir. Bəs kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxslərin əməyinə kim nəzarət edir? O, son məhsulunu hazırlayarkən (kadrı seçərkən) hansı "cizgidən" istifadə edir və onun son məhsulunun - seçilmiş kadrın keyfiyyətini hansı nəzarətçi yoxlayır? Və ən başlıcası da budur ki, tornaçı istehsal etdiyi (yonduğu) maşın hissələrinin kəmiyyət və keyfiyyəiinə görə əmək haqqı alır. Kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxslərin aldığı əmək haqqı isə onun əməyinin son nəticəsindən eyni qayda ilə bağlı olmur. Deməli, onların əməyi də motivləşdirilmir. Bazar iqtisadiyyatı, xüsusən sosial bazar iqtisadiyyatı şəraitində isə bu cür hala yol verilməməlidir. Hansı səviyyədə vəzifə tutmasından, hansı peşədə çalışmasından asılı olmayaraq bütün adamların əmə-yinə görə yaşamasını təmin etmək üçün onların zəhmətləri motivləşdirilməlidir.

Burada həll olunması çətin görünən məsələ kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxslərin əməyinə qiymət verilməsi və ona nəzarət edilməsi məsələsidir. Kadrları seçib yerləşdirən şəxslərin (idarə orqanlarının, dövlət strukturlarının) əməyinə qiymət seçilən şəxsin müəyyən dövrdə, təyin edildiyi yerdə (sahədə) əldə etdiyi sosial-

iqtisadi nəticələrə görə verilməlidir. Doğrudan da məsul bir vəzifəyə təyin olunmuş şəxs əgər düzgün seçilibsə, o, təşəbbüskar, işgüzar, mənəvi cəhətdən təmiz olmalıdır. Öz vəzifəsini dərindən başa düşməlidir və məhz bu keyfiyyətlərinə görə də böyük müvəffəqiyyətlər əldə etməlidir.

Bazar iqtisadiyyatı şəraitində əməyin səmərələşdirilməsi və insan amilinin aktivləşdirilməsi müxtəlif yollarla həyata keçirilə bilər. Bu yollar inkişaf etmiş ölkələrdə çoxdan məlum olsa da inkişafda olan ölkələrdə hələ aydınlaşdırılmayıb və onlardan istifadə olunma əhəmiyyətinə fikir verilmir.

Əməyin səmərələşdirilməsi və insan amilinin aktivləşdirilməsində əsas məqsəd fərdi əməyin ictimai xarakter daşımasını istehsal prosesində iştirak edən hər bir şəxsə başa salmaqdır. Hər bir fərdi şəxsin əməyi kollektiv əməyin səmərəlili-yinə və əksinə təsir göstərir. Əməyin motivləşdirilməsi elə həyata keçirilməlidir ki, hər bir şəxs aydın dərk etsin ki, onun gəliri, mədəni inkişafı, ümumi həyat səviyyəsinin yüksəlməsi həm özünün fərdi bacarığından və həm də işlədiyi kollektivin və yaşadığı cəmiyyətin (dövlətin) tərəqqisindən asılıdır. Deməli, bu baxımdan ölkədə yaşayan hər bir şəxs bilməlidir ki, o, üç mənbədən faydalana bilər: öz fərdi əməyindən, işlədiyi kollektivin əldə etdiyi nəticələrdən və yaşadığı ölkənin müvəffəqiyyətindən. Ancaq məsələ belə qoyulduğu halda dövlət kollektivin və fərdinin qayğısına qalmağa və əksinə, fərdilər və kollektivlər də dövətin qayğısına qalmağa səy göstərəcəklər. Bu qarşılıqlı münasibətlərin daim saxlanılması və təkmilləşdirilməsi üçün bütün qüvvələr səfərbərliyə alınmalıdır.

Aparılan tədqiqat işi göstərdi ki, zəif inkişaf etmiş ölkələrin əksəriyyətində yaranmış sosial-iqtisadi və mənəvi-psixoloji mühitdə əhalinin əksəriyyəti özünü təklənmiş hiss edir. Bir qayda olaraq bu cür mənfi hissiyyat isə onunla nəticələnir ki, adamlar ancaq özləri haqqında daha çox fikirləşməli olurlar. İşlədiyi kollektivin və yaşadığı ərazinin müvəffəqiyyətləri onu heç də maraqlandırmır. Bu cür psixologiya əməyin motivləşdirilməsi məsələsinin, fərdi və kollektiv maraqların

uyğunlaşdırılması məsələsinin düzgün qoyulmaması üzündən baş verir. Ümumiyyətlə götürdükdə, zəif inkişaf edən ölkələrdə yuxarıda göstərdiyimiz insanın faydalana biləcəyi üç mənbədən ancaq biri, fərdinin öz bacarığı inkişaf etmiş ölkələrdə isə hər üç mənbə fəaliyyət göstərir.

Deməli, real bazar iqtisadiyyatını formalaşdırmaq üçün növbəti mühüm məsələ fərdilərin maddi və mənəvi maraqlandırılmasının hər üç mənbəyindən bacarıqla istifadə edilməsinə nail olmaqdır. Hər bir ölkədə elə sosial-psixoloji mühit yaradılmalıdır ki, burada hər bir fərd (və ya iqtisadi ərazi) dövlətin, dövlət isə hər bir fərdinin, (iqtisadi rayonun) qayğısını hiss edə bilsin. Dünyanın varlı ölkələri bu atributları çoxdan başa düşmüşlər. Elə onların varlı olmasının bir başlıca səbəbi də budur. Hələ vaxtı ilə Adam Smit demişdir ki, insan normal şəkildə öz tələbatlarını ödəməli və yaşamalıdır və əgər bu ona aldığı əmək haqqı ilə müyəssər olmursa, o, başqa yollar axtarmağa məcbur olur. Ölkədə yaşayan hər bir şəxs əməyinin nəticəsini hiss etməsə, kollektivin və dövlətin müvəffəqiyyətlərindən faydalanmasa, iqtisadiyyatın sağlamlaşdırılmasından söhbət gedə bilməz. Bəs bu problemi necə həll etməli?

Son onilliklərdə bu problem inkişaf etmiş sənaye ölkələrində müvəffəqiyyətlə həll olunur. Bunun üçün müxtəlif üsullardan istfiadə edilir? İşçi kollektivlərində “keyfiyyət dərnəkləri” yaradılır, buna əsasən qrup stimullaşdırılması həyata keçirilir. Fəhlələrin müəssisədə əldə ediləcək mənfəətin formalaşmasına cəlb olunması sistemindən istifadə edilir. Fəhlələrin aksiyaları almağa cəlb olunması üsulu həyata keçirilir və s. Əldə etdiyimiz məlumatlara görə ABŞ-da kompaniyaların 63 faizində kollektiv stimullaşdırmaya əsaslanan “keyfiyyət dərnəkləri” fəaliyyət göstərir, 70 faizində fəhlələrin mənfəətdə iştirakının təmin ounması sistemindən istifadə edilir və 83 faizində isə işçilərin aksiyalara sahib olması üsülunu daha üstün sayırlar. Görünüdüyü kimi, ABŞ sahibkarları əməyin motivləşdirilməsi əsasında stimullaşdırılması məsələsini müxtəlif şəkildə həll etsə də, üsullardan həm ayrı-ayrı

şəkildə və həm də bir neçə üsulun kombinasiyasından istifadə edirlər. Bundan başqa, inkişaf etmiş ölkələrdə dövlət miqyasında böyük sosial əhəmiyyətə malik proqramlar işləyib hazırlayırlar və həyata keçirirlər. “İşçi qüvvəsinin peşə cəhətdən inkişaf proqramı”, “Zəhmətkeşlərin istehsalın idarə olunmasına cəlb edilməsi proqramı”, “Əmək prosesinin özünün yenidən qurulmasına yönələn proqramlar”, “Əməyin maddi stimullaşdırılmasının yeni, qeyri-ənənəvi üsullarının işlənib hazırlanmasına və istehsala tətbiqini nəzərdə tutan proqramlar”, “İş vaxtının təşkilinin yeni formalarını sınaqdan keçirən proqramlar” və s. belə proqramlardandır.

## §3. Bazar və dövlət mexanizmlərinin uyğunlaşdırılması

İnsan resurslarından səmərəli istifadə edilməsi problemi çoxşaxəli və mürəkkəbdir. Məsələ burasındadır ki, problem təkcə insan resurslarından yaxşı istifadəni özündə cəmləşdirmir. Bura eyni zamanda bir-biri ilə sıx əlaqədə olan digər kompleks məsələlərin həlli də daxildir. Daha doğrusu, bunun üçün digər məsələlərin də həlli tələb olunur. Bunlardan ən önəmlisi bazar və dövlət mexanizmlərinin uyğunlaşdırılması və qarşılıqlı əlaqələndirilməsi məsələsidir.

Hətta inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar mexanizmi heç də həmişə və hər yerdə optimal nəticələr əldə etməyə şərait yarada bilmir. Elə dünya miqyasında baş verən müxtəlif böhranlar, planetə öldürücü zərbələr vura bilən qlobal problemlərin tüğyan etməsi buna əyani sübutdur. ABŞ, Yaponiya, Kanada, Almaniya və s. bu kimi dövlətlər çoxdan başa düşüblər ki, bir çox həyati problemlərin həllini ancaq bazara “tapşırmaq” olmaz, dövlətin bu məsələlərə ciddi şəkildə qarışması tələb olunur. Bu cür problemlər çoxdur. İriləşdirilmiş şəkildə onlardan bir neçəsinin üzərində dayanaq.

Birincisi. Müasir istehsalın inkişafı və optimal fəaliyyət göstərməsi rəqabəti gücləndirir. Bununla yanaşı istehsalçılar və istehlakçılar arasında sahibkarlarla fəhlələr arasında kooperasiya və

əməkdaşlıq əlaqələri yaranır. Dövlət mexanizmində bu əlaqələr zamanı ortaya çıxan və yaxud da prosesin başlanması və etibarlı baş verməsi üçün tələb olunan prisipial məsələlərin həll edilməsinə təsir göstərə bilən rıçaqlar nəzərdə tutulmalıdır. Ən sadə halda hökumət bu əlaqələrdə vasitəçi rolunda çıxış etməli olur.

İkincisi. Azad bazar iqtisadiyyatı ETT üçün münasib şərait yaradır. Lakin ETT sosiali-iqtisadi səmərə verməklə yanaşı bir sıra neqativ hallar da baş verir. Sosial bərabərsizliyin artması, işsizlik normasının yüksəlməsi, əməyin gərginliyinin artması və s. belə hallardandır. Bu vəziyyətdə dövlət məsələyə müdaxilə etməli olur. İqtisadi səmərə ilə sosial ədalətsizliyi tarazlaşdırmaq da dövlətin üzərinə düşür. Bundan başqa, gəlirlərin yenidən bölüşdürülməsi də dövlətin funksiyasıdır.

Üçüncüsü. Elm, təhsil, sağlamlıq, ətraf mühitin qorunması kimi ümumbəşəri dəyərlərin əhəmiyyəti son illərdə daha da artmışdır. Bu dəyərlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlətin proseslərə qarışması zərurətini ortaya çıxarır.

Dördüncüsü. ETT hərtərəfli və həcmli şəkildə sürətlənir. Misli görünməmiş miqyasda məhsuldar qüvvələrin mənimsənilməsi və sonradan onlardan sosial iqtisadi inkişaf naminə səmərəli istifadə edilməsi, qısamüddətli məqsədlərin uzun- müddətli məqsədlərlə uyğunlaşdırılması kimi məsələləri azad bazar həll edə bilmir, dövlətin bu məsələlərə müdaxiləsi labud lazım olur və bu cür müdaxilənin obyektiv əsası vardır. Bu deyilənlər bir daha sübut edir ki, müasir sivil dövlət bazar iqtisadiyyatının həll edə bilmədiyi problemləri həll etməlidir. Əsas məsələ təsiretmə üsullarının seçilməsidir. Burada inkişaf etmiş ölkələrin böyük təcrübəsi vardır. Keçən əsrin 60-cı illərində və 70-ci ilin əvvəllərində dövlət mexanizmi əsasən sosial məsələlərin həllinə yönəldilirdi və keçən illərə nisbətən inkişaf edən dövlətlərin sosial sferaya yönəltdikləri vəsait rekord səviyyədə çoxaldı. İnsan resursunun saxlanılmasına, inkişafına və səmərəli istifadə edilməsinə yönələn güclü xidmət bloku dövlət təsərrüfat mexanizmində fəaliyyətə

başladı. Bu mexanizmin təsir etdiyi obyektlərin sırası belə idi: pensiyalar, təhsil, səhiyyə, işsizliyə görə müavinət. Nəticədə inkişaf etmiş ölkələrdə dövlətin sosial sferaya yönəltdiyi vəsaitin dəyəri ÜDM-un 20%-dən də çoxunu təşkil edir və gələcəkdə də təxminən bu səviyyədə qalması gözlənilir. Beləliklə, Qərb ölkələri sahibkarlara azadlıq, rəqabətə yaşıl yol verən sahibkarların orta təbəqəsini yarada bilən bazar mexanizmi ilə müvəffəqiyyətlə uyğunlaşan və sosial tələbatları ödəyə bilən dövlət mexanizmi yarada bilmişlər.

Lakin bu uyğunlaşma heç də düz və hamar yolla baş vermir. Məsələn, 1980-cı ilin əvvəllərində bir neçə inkişaf etmiş ölkələrdə konservatorların hakimiyyətə gəlməsi dövlət mexanizmini nisbətən dəyişə bildi. Dəyişikliklərin əsas səbəbi kimi onlar keçən əsrin 70-ci illərinin ortalarında iqtisadi böhranları və iqtisadi inkişafın qeyri-dayanıqlı olmasını göstərirdilər. Konservativ hökumətlərin fikrincə özlərindən əvvəl formalaşmış dövlət mexanizmi sosial orientiri əsas götürərək nəticədə insan resurslarına hörmət edilməsinə nail olsa da, sonda bürokratik dövlət institutlarının çoxaldılmasına, ölkədə bürokratiyanın kök salmasına, bazarın rəqabət qabiliyyətliliyinin zəifləməsinə, dövlətin iqtisadiyyata müdaxiləsinin güclənməsinə gətirib çıxarmışdır. Buna görə də konservativ hökumətlər dövlət mexanizmi ilə bazar iqtisadiyyatı mexanizminin uyğunlaşmasında bazar mexanizminin güclənməsi tərəfə müəyyən dəyişikliklər etməli oldular. Nəticədə bir neçə sosial proqramların həyata keçirilməsi dayandırıldı. Bütövlükdə bu tədbirlər sosial xərclərin artım sürətini zəiflədə bilsələr də sosial xərclərin azalmasına səbəb olmadı. Buna görə inkişaf etmiş ölkələrdə bu gün də dövlət mexanizmi güclü sosial meylli olaraq qalır.

İnsan resurslarından istifadəni yaxşılaşdırmaq sahəsində məşğulluq və işsizlik və onların səviyyələri mühüm rol oynayır. İnsan resurslarına hörmətlə yanaşan, onların istifadəsindən əldə edilən səmərənin səviyyəsini başa düşən dövlətlər məşğulluq səviyyəsini yüksəltmək və buna müvafiq olaraq işsizliyi azaltmaq istiqamətində idarəetmənin bütün pillələrində və müxtəlif dövrlər üçün tədbirlər

işləyib həyata keçirirlər. Problemin həllinə müsbət və mənfi təsir göstərən amillərə xüsusi fikir verilir. İşsizlik və məşğulluğa mənfi təsir göstərən əsas amillərə 2000-ci illərin birinci yarısında ÜDM sürətinin nisbətən aşağı olması, Şərqi Avropa və inkişafda olan ölkələrdən miqrasiya proseslərinin güclənməsi, qadınların aktivliyinin yüksəldilməsi, ekoloji xərclərin çoxalması kimi amillər daxildir. Bu prosesə əsasən müsbət təsir göstərən amillər isə demoqrafik vəziyyətin dəyişməsi, iş vaxtının getdikcə qısalması meyli kimi amillər ola bilər.

Bütün bunları qeyd etməklə yanaşı onu da göstərmək lazımdır ki, son nəticədə insan resurslarından istifadənin yaxşılaşması yenə də dövlət mexanizmi modelinin seçilməsindən asılı olacaq. Dəyişilən mühitə uyğun dövlət mexanizmi seçilməlidir. Məsələn elə götürək çox sürətlə baş verən kompüterləşməni və geniş yayılan informasiya texnologiyasını. Bu gün dövlət mexanizmi bu prosesi nəzərə alan qollara malik olmalıdır. Ona görə ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrin hamısında yeni yaradılan iş yerlərinin xarakteri ilə işçilərin çox hissəsinin real ixtisas səviyyəsi arasında uyğunsuzluqlar meydana gəlmişdir. Bu uyğunsuzluğun nisbətən qısa müddətdə aradan qaldırılması isə dövlətin həyata keçirəcəyi təhsil, kadr hazırlanması və yenidən hazırlanması və məşğulluq siyasətindən bilavasitə asılı olacaq. Ümumiyyətlə götürdükdə insan resurslarından istifadə edilməsinə və xüsusən də məşğulluq və işsizlik problemlərinin həllinə ETT-in mənfi təsiri 2000-ci illərin birinci 5-7 ilində güclənə bilər. Məsələn, robototexnikanın kütləvi şəkildə istehsala tətbiqi daha mükəmməl kompüter ekspert sistemlərindən istifadə etməklə informatika texnologiyasından hərtərəfli istifadə edilməsi bu gün ən yeni və perspektivli sayılan istehsal sahələrində işləyənləri sıxışdırıb çıxara bilər. Bundan başqa, dövlət mexanizmi iki cəhəti də həmişə nəzərə almalı və bu istiqamətdə təkmilləşdirilməlidir. Birincisi nəzərə alınmalıdır ki, qarşıdakı 5-6 ildə elmi-texniki və sosial-iqtisadi inkişaf bir sıra resursların qıtlığı ilə qarşılaşmalı olacaq və deməli, dövlət mexanizmində qıtlığı yarada biləcək məhdudiyyətləri aradan qaldırmağa

qadir təsərrüfat lingləri olmasa, inkişaf öz sürətini azalda bilər. Bundan başqa, dövlət mexanizmi yaxın 10 ildə əmək bazarında baş verə biləcək peşə və sahə struktur dəyişmələrini, maddi istehsalda işçilərə olan tələbatın azalacağını, informatika sferasında isə əksinə çoxalacağını nəzərə almalıdır.

İkincisi xidmət sahəsinə işçilər cəlb edilməsi öz intensivliyini yavaş-yavaş zəifldədir. Keçən əsrin ortalarından bu günə qədər İnkişaf etmiş ölkələrin ÜDM-da "xidmət"in xüsusi çəkisi 50%-i ötmüşdür. Xidmət sahəsi məhdudiyyətsiz inkişaf edə bilməz. Buna görə də gələcəkdə ETT və digər amillərin təsiri altında maddi istehsalda ixtisara düşən işçiləri xidmət sahələrinə cəlb etmək prosesinin zəifləyəcəyi gözlənilir. Dövlət mexanizmi bunu nəzərə almalıdır.

Son 10-15 ildə bir çox ölkələr elmi-texniki və sosial-iqtisadi inkişafın yeni strategiyasını hazırlamışlar və bunun vasitəsilə insan resurslarından istifadə edilməsinə mane ola biləcək amillərin aktivliyini zəiflətməyə çalışırlar. Bu sahədə dünya miqyasında əldə edilmiş müsbət nəticə var. Yeni strategiyada insan və onun inkişafı haqqında qırmızı xətlə keçən ideya, əsas məqsəd həyatın keyfiyyəti və onun yüksəldilməsidir. Yaşamaq şəraitinin sağlamlaşdırılması, insanın inkişaf və iş şəraitinin yaxşılaşdırılması, ətraf mühitin təkmilləşdirilməsi, ekoloji cəhətdən təmiz məhsulların sayının və həcminin çoxaldılması, şəxsiyyətin özünün inkişafı və s. bu kimi digər məsələr, yeni strategiyada ön planda durur. Bütün ölkələr bu və ya digər səviyyədə, bu və ya digər yollarla iqtisadi inkişafa nail olmaq istəyirlər. İqtisadi inkişaf isə öz növbəsində çoxlu vəsait tələb edir. Digər tərəfdən ölkələr sosial məsələləri də yüksək səviyyədə həll etmək istəyirlər və bu yolla insan resurslarından səmərəli istifadə etməyə çalışırlar. Bu da çoxlu vəsait tələb edir. Deməli, ölkədə fəaliyyət göstərən dövlət mexanizmi bazar qanunlarına maksimum əməl etmək şərtilə vəsaitləri iqtisadi və sosial sferalar arasında optimal bölüşdürməyə qadir olmalıdır.

ETT və sosial-iqtisadi inkişafın yeni modellərində problemləri həll etmək üçün dövlətlər (xüsusən də inkişaf etmiş sənaye nəhəngləri)

aşağıdakı mühüm istiqamətlər üzrə əməli tədbirləri həyata keçirməyi qarşılarına məqsəd qoymuşlar. İlk növbədə texnologiyaların təkmilləşdirilməsi nəzərdə tutulur ki, bu da tullantısız istehsalların miqyasını artırmağa, enerjiyə, materiala, yanacağa qənaət edən emal proseslərinin meydana gəlməsinə, tullantıların utilizasiyasına praktikada imkan verən yeni texnologiyaların yaradılmasına, alternativ enerji mənbələrinin yaradılması və istifadə edilməsinə səbəb olmalıdır.

Yeni ETT və inkişaf strategiyasında sosial-iqtisadi tədbirlərin məqsədi keyfiyyətli iqtisadi yüksəliş üçün, insan resurslarından məhsuldar və tam istifadəsi üçün əməyin humanistləşdirilməsi, əmək həyatı keyfiyyətinin yaxşılaşdırılması və iş vaxtının qısaldılması üçün münasib şəraitin yaradılmasını nəzərdə tutur. ETT sürətləndikcə, istehsalın texniki səviyyəsi yüksəldikcə səmərəli mühüt, səmərəli istehsal-təsərrüfat fəaliyyəti daha çox üzvi şəkildə sosial-psixoloji amil və şərtlərdən asılı olur. Bunu nəzərə alaraq yeni strategiyada, bu vaxta qədər əksər dövlətlərdə lazımi səviyyədə nəzərə alınmayan, şəxsi və ictimai tələbatların quruluşunun dəyişdirilməsi, həddindən çox istehsaldan imtina edilməsi və əhalinin mədəni və intellektual tələbatlarının isə daha dərin ödənilməsi kimi çox mühüm aspektlər geniş yer tutur. ETT və sosial-iqtisadi inkişafın yeni strategiyası ictimai-siyasi tədbirlərin də həyata keçirilməsini nəzərdə tutur. Burada əsas məsələ kimi iqtisadi və ETT siyasətində prioritetləri (üstün tutulan məqsədləri) həyat keyfiyyətinin yaxşılaşdırılması tərəfinə (xeyrinə) dəyişdirmək əsas götürülür. İnsan resurslarından istifadənin yeni modelləri əməyin motivləşdirilməsinin yeni mexanizmlərinin meydana gəlməsini tələb edir.

# XII FƏSİL. AZƏRBAYCAN DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNDƏ

## §1. İqtisadi inkişafın ümumi mənzərəsi

> **«Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır.**
> **Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz».**

**H.Ə.ƏLİYEV**

Keçmiş SSRİ dağıldıqdan sonra özünün dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək və özünün milli iqtisadiyyatını formalaşdırmaq məsələsini qarşısına qoymuşdur. Bunun üçün optimal xarici iqtisadi əlaqələr yaratmaq və praktikada onlardan səmərəli istifadə etmək, respublika iqtisadiyyatının dünya təsərrüfat sisteminə optimal şəkildə inteqrasiyasını təmin etmək tələb olunur. Müasir dövrdə ölkənin xarici ticarət əlaqələrini təyin edərkən baş verən iqtisadi, sosial və siyasi proseslər və eyni zamanda beynəlxalq əmək bölgüsünün yeni əsaslar üzərində dərinləşməsi, qloballaşma prosesinin güclənməsi, elmi-texniki tərəqqinin sürətlənməsi və s. bu kimi köklü keyfiyyət dəyişikliklərinin nəzərə alınması olduqca vacibdir. Bundan başqa, bu gün dünyada baş verən proseslər beynəlxalq iqtisadi inteqrasiyanı ölkələrin iqtisadi inkişafının zəruri şərtinə çevirmişdir. Bu inteqrasiyanın bir mühüm cəhəti də ondadır ki, dünyada iqtisadi sərhədlər öz əhəmiyyətini itirməkdədir və bütün ölkələr üçün həm məcburi həm də eyni olan və əməl olunanda hamısı üçün faydalı olan standart qanunlar fəaliyyət göstərməkdədir. Deməli, ölkə iqtisadiyyatını optimal inkişaf etdirmək üçün hökmən tələb olunan şərt

- xarici və daxili amillərin dialektik vəhdətliyinin təmin edilməsi şərtidir.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatındakı müasir yerinə birmənalı qiymət vermək çətindir. Bir tərəfdən o zəngin təbii sərvətlərə (xüsusən neft ), əmək resurslarına, münasib gücə malik istehsal potensialına malikdir, əlverişli coğrafi mövqedə yerləşir, digər tərəfdən 1990-cı illərin əvvəlində keçmiş SSRİ adlanan dövlətdə və Azərbaycanın özündə baş verən sosial, iqtisadi və siyasi proseslər təzəcə müstəqilliyini bərpa etmiş respublikamız üçün bir sıra obyektiv və subyektiv əngəllər yaratmış və nəticədə onun dünya iqtisadiyyatında tutduğu mövqe əvvəlkilərə nisbətən zəifləmişdi. Lakin görülən tədbirlər nəticəsində vəziyyət nisbətən düzəlmiş və inkişaf başlamışdır.

Azərbaycanda möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının rəhbərliyi ilə uğurla aparılan iqtisadi islahatlar artıq öz müsbət nəticəsini göstərir. Bu isə ilk növbədə ÜDM-un artması və xalqın maddi rifahının yaxşılaşmasına səbəb olmuşdur.

1995-ci ildən sonra iqtisadiyyatdakı geriliyin dayandırılması Ümumi Daxili Məhsul haqqında (ÜDM) Azərbaycan Dövlət Statistika komitəsinin məlumatlarından da aydın görünür. (bax cədvəl 22).

**Cədvəl 22**

**1990-2000-ci illərdə Azərbaycan Respublikasının ÜDM-i və onun dəyişməsi**

| İllər | Cəmi | | Bir nəfərə düşən | | ÜDM-un keçən ilə nisbəti -%-lə (müqayisəli qiymətlər-lə) |
|---|---|---|---|---|---|
| | milyard manat | mln ABŞ dollar | manatla | ABŞ dolları ilə | |
| 1990 | 1,5 | 2443,2 | 207,6 | 346,3 | 88,3 |
| 1991 | 2,7 | 703,1 | 373,6 | 98,3 | … |
| 1992 | 24,1 | 1309 | 3318,6 | 180,4 | … |
| 1993 | 157,1 | 1326,9 | 21302,0 | 179,9 | 76,9 |
| 1994 | 1873 | 1629,3 | 250568,4 | 217,9 | 80,3 |
| 1995 | 10669,0 | 2415,2 | 1410329,3 | 319,3 | 88,2 |
| 1996 | 13663,2 | 3180,8 | 1787651,6 | 416,2 | 101,3 |
| 1997 | 15741,4 | 3960,9 | 2045968,1 | 513,2 | 105,8 |
| 1998 | 17203 | 4446,6 | 2207506,7 | 570 | 110,0 |
| 1999 | 18875,4 | 4583,6 | 2400595,2 | 583 | 107,4 |
| 2000 | 21939,2 | 5267,8 | 2972940,2 | 664 | 109,5 |

Müqayisəli qiymətlərlə hesablandıqda da iqtisadiyyatdakı geriliyin 1995-ci ildə başa çatdığı təsdiq edilir (bax cədvəl 23). Lakin göründüyü kimi, xalq təsərrüfatının bütün sahələrində istehsal ritmi

bərpa olunmamışdır. 2000-ci ildə əldə edilən Ümumi Daxili Məhsulun (ÜDM) həcmi 1989-cu ildəki ÜDM-nun 56,5%-nı təşkil etmişdir. Emal sənayesinin inkişafı da qənaətbəxş hesab edilə bilməz. Bir sıra inkişaf parametrlərinə görə Azərbaycan Respublikası inkişaf etməkdə olan ölkələr qrupuna daxil edilə bilər.

**Cədvəl 23**

**Azərbaycan Respublikasında ÜDM-in müqayisəli qiymətlərlə dinamikası (1990-2000-ci illər. 1989=100%)**

| | ÜDM-in real səviyyəsi |
|---|---|
| 1990 | 88,3 |
| 1991 | 87,7 |
| 1992 | 67,9 |
| 1993 | 52,2 |
| 1994 | 40,8 |
| 1995 | 33,7 |
| 1996 | 34,1 |
| 1997 | 41,4 |
| 1998 | 47,8 |
| 1999 | 49,1 |
| 2000 | 56,5 |

Azərbaycan Respublikasının özünəməxsus sosial-iqtisa-di inkişaf modeli vardır. Bunun başlıca səbəbi də odur ki, respublikamız uzun illər boyu keçmiş SSRİ adlanan imperi-yanın tərkibində olub və

burada baş verən proseslərin təsiri altında fəaliyyət göstərib. Məlum olduğu kimi keçən əsrin 30-cu illərinin başlanğıcından 80-ci ilin lap axırlarına qədər SSRİ-də bürokratik idarəetmə sistemi hökm sürürdü və sosial-inkişaf modelinin əsasını təsərüffat fəaliyyətinin direktiv planlaşdırılması təşkil edirdi. Bu cür sistemin neqativ cizgiləri və cəhətləri 1960-1980-cı illərdə nisbətən zəifləsə də dövlət iqtisadiyyatının böhran vəziyyətini düzəldə bilmədi. Ona görə ki, respublikamızın da daxil olduğu SSRİ iqtisadiyyatında böhran sistem şəkli almışdı. 1980-ci illlərin axırında vəziyyəti xilas etmək üçün bazar sisteminə keçid başlandı və SSRİ-nin dağılmasından sonra bu keçid Azərbaycan Respublikası iqti-sadiyyatının tranformasiya etməsində həlledici amil rolunu oynadı. Azərbaycanda bazar iqtisadiyyatına keçid də SSRİ dağıldıqdan və müstəqilliyimiz bərpa edildikdən sonra –1992-ci ildən başladı. 1992-1995-ci illərin əsasən radikal xarakter daşıyan islahatları getdikcə bazar strukturlarının intensiv meydana gəlməsi ilə əvəz olunmağa başlandı. Dəyişikliklər birinci növbədə dövlətin iqtisadiyyatdakı rolunda baş verdi. Bu dəyişiklikləri dövlətin rolunun azaldılması kimi səciyyələndirmək olmaz. Bazar iqtisadiyyatı modeli ilə əsrlərlə fəaliyyət göstərən ölkələrdə də dövlətin rolu həmişə güclü olub. Lakin bu gücün həyata keçirilməsi üsulları başqadır. Bazar iqtisadiyyatı şəraitində dövlət öz gücünü əsasən iqtisadi və tərbiyəedici üsullarla həyata keçirir. 1992-ci ildən başlayaraq keçid dövrü adlanan dövrdə də Azərbaycan bu yolla getməyə çalışmış və müəyyən mənada ləngimələr baş versə də maliyyə sferasında sabitləşmə əldə edilmiş, özəlləşdirmənin birinci mərhələsi başa çatmış, ikinci pillə isə davam etdirilir, bazar strukturları yaradılıb, dünya təsərrüfat sisteminə inteqrasiya prosesi normal gedir.

Tədqiqat göstərdi ki, bu dövrdə makroiqtisadi göstəricilər MDB ölkələrinin hamısında aşağı düşmüşdür (əyanilik üçün 24 saylı cədvəldə 1990-2000-ci illərdə ÜDM-nun indeksi yaxın (MDB) və bir neçə uzaq xarici ölkər üzrə göstərilmişdir).

**Cədvəl 24**

**Azərbaycanda və bir neçə xarici ölkələrdə Ümumi Daxili Məhsulun indeksi (1990=100)**

| Ölkələr | Cəmi ---------------------------------- İLLƏR | | | | Adam başına --------------------------------- İLLƏR | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 1998 | 1999 | 2000 | 1995 | 1998 | 1999 | 2000 |
| Azərbaycan | 42 | 49,2 | 52,8 | 58,7 | 39 | 45 | 51,9 | 57,2 |
| Rusiya | 62 | 58 | 59 | …. | 62 | 58 | 60,0 | … |
| Ermənistan | 53 | 62 | 64 | … | 50 | 58 | 60,0 | … |
| Belorusiya | 65 | 80 | 83 | … | 64 | 80 | 85,0 | … |
| Qazaxıstan | 61 | 62 | 63 | … | 52 | 66 | 70,0 | … |
| Qırğızıstan | 61 | 61 | 63 | … | 49 | 57 | 57,0 | … |
| Moldova | 68 | 61 | 58 | … | 58 | 60 | 57,0 | |
| Tacikistan | 58 | 52 | 53 | … | 55 | 47 | 49,0 | … |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Özbəkistan | 81 | 91 | 95 | … | 73 | 77 | 80,0 | … |
| Ukrayna | 48 | 41 | 45 | …. | 48 | 42 | 42,0 | … |
| Türkiyə | 117 | 138 | … | …. | 107 | 122 | … | … |
| ABŞ | 111 | 127 | … | … | 105 | 114 | | |
| Fransa | 105 | 113 | | | 103 | 109 | | |
| Almaniya | 108 | 115 | … | …. | 105 | 111 | … | … |
| Yaponiya | 107 | 109 | … | …. | 106 | 107 | … | … |
| Hindistan | 129 | 154 | | …. | 117 | 135 | | |
| Çin | 176 | 227 | 230 | | 166 | 207 | 220 | |
| İtaliya | 106 | 110 | ….. | | 105 | 110 | … | |

Keçid dövründə sanballı əhəmiyyətə malik olan nəticələr əldə edilmişdir. Bunlardan idarəetmənin planlı sistemindən imtina edilməsini, müəssisələrin dövlət tərəfindən sərt şaquli struktur üzrə idarə olunması sisteminin dağılmasını göstərmək olar. Bunun əvəzində hazırda müəssisələr arasında üfiqi istehsal əlaqələri meydana gəlmiş və onların dövlətlə münasibətləri əsasən iqtisadi üsullarla tənzimlənir. Qiymətlərin liberallaşdırılması münasib bazar şəraiti yaradıb. Xarici iqtisadi fəaliyyətin liberallaşdırılması sahəsində də müəyyən iş həyata keçirilib. Bunun nəticəsində daxili və xarici ticarət qiymətləri arasındakı fərq tənzimləndirilmiş və daxili bazarda mal qıtlığı aradan götürülmüşdür. İnformasiya sahəsində yaxşı nəticələr əldə edilmişdir, maliyyə sabitliyi bərqərar olmuşdur.

Özəlləşdirmə həyata keçirilir. Lakin proses başa çatmasa da ÜDM-da qeyri –dövlət strukturunun payı artır (2000 ildə –64%).

Azərbaycan Respublikasında bazarların demək olar ki, bütün növləri yaranmışdır. İndi respublikada əmtəə, xidmət, əmək, kapital, kredit, hərəkət etməyən (daşınmaz) əmlak bazarları formalaşmış və müəyyən səviyyədə fəaliyyət göstərirlər. Bank üzərində dövlətin monopoliyası zəifləmişdir. Dünyanın qabaqcıl ölkələrində fəaliyyət

göstərən bank və maliyyə sistemlərinə uyğun bank və maliyyə sistemləri yaradılır.

Ümumiyyətlə götürdükdə Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində olduğu kimi bazar iqtisadiyyatına keçidin ilk pilləsindədir. Mütəxəssislərin, iqtisadçıların, ekspertlərin bu sahədə müxtəlif fikirləri olsa da göstərmək lazımdır ki, sosial bazar iqtisadiyyatına keçid dövrü nisbətən uzun çəkəcək. Bunun obyektiv və subyektiv səbəbləri olsa da başlıca səbəb respublikanın uzun illər ərzində keçmiş SSRİ tərkibində olması və idarəetmənin bütün pillələrində fəaliyyət göstərən yaşlı nəslin psixologiyasında keçmiş idarəetmə sisteminin kök salmasıdır.

Hazırkı dövrdə Azərbaycanın iqtisadiyyatında dövlətin rolu güclü olmaqda davam edir. Müstəqilliyimizin 10 ili ərzində belə olub və görünür qeyri-müəyyən vaxta qədər bu davam edəcək. Təcrübə göstərir ki, respublikamızın özündən asılı olmadan düşdüyü sosial-iqtisadi və siyasi mühitdə iqtisadiyyata güclü və məqsədyönlü təsir göstərə bilən dövlətin olması zəruridir. Dövlət istehsalın məqsədyönlü inkişafında, yeni iş yerlərinin yaradılmasında, sosial məsələlərin həllində, investisiyanın aparıcı sahələrə yönəldilməsində aparıcı və həlledici rol oynayır. Təcrübə də bunu sübut edir. Respublikamızda Dövlət Büdcəsi kəsirinin 1994-cü ildəki 9,4%-dən 2000-ci ildəki 1%-ə qədər azaldılmasını dövlətin iqtisadiyyatdakı rolunun nəticəsi kimi hesab etmək olar. Nəticənin hansı yollarla əldə edilməsi məsələsi ayrıca bir tədqiqat obyekti olduğuna görə kitabda nəzərdən keçirilmir. Bu gün respublikanın xalq təsərrüfatı keçid dövrünün və eyni zamanda bazar iqtisadiyyatının çoxukladlı pilləsindədir. Belə iqtisadi şəraitdə əmtəə istehsalçıları arasındakı qarşılıqlı münasibət dəyər qanunu, tələb, təklif, rəqabət üzərində – yəni yeni istehlak münasibətləri və prinsipcə yeni idarəetmə şəraitinə uyğun qurulmalıdır. Bundan sonra yaranacaq sosial iqtisadi və siyasi mühit köhnə üsuli-idarənin dəyişməsini labüd tələb edə bilər. Belə olan halda iki istiqamətdə təkmilləşmə aparılmalıdır: birincisi, dövlətin iqtisadiyyatdakı rolu op-

timallaşdırılmalı və ikincisi, iqtisadi və sosial inkişafın yeni, daha mütərəqqi olan sosial yönümlü yollarına üstünlük verilməlidir.

Ölkələrin iqtisadi inkişafına qiymət verərkən beynəlxalq təşkilatlar bir sıra göstəricilərdən istifadə edirlər. Dünya miqyasında iqtisadi inkişafa qiymət verərkən Beynəlxalq təşkilatlar ölkələrin istehsal etdikləri Ümumi Daxili Məhsulun əsas sahələr üzrə strukturunu öyrənirlər. Bu zaman ÜDM üç mənbə-kənd təsərrüfatı, sənaye, xidmət –üzrə təhlil edilir və müvafiq nəticələr çıxarırlar. Üç mənbə ilə təhlilin əsasında sənayeləşmə və sənayeləşmədən sonra gedən proseslərə qiymət verilməsi durur. İqtisadi ədəbiyyatlarda postsənayeləşdirmə terminindən istfadə edilir. Sənayeləşmə prosesi başa çatan ölkələrdə inkişafı xarakterizə etmək üçün istifadə edilən bu terminin mahiyyəti ondadır ki, iqtisadiyyatda üçüncü bölmənin (xidmətin) xüsusi çəkisi artır, ikinci bölmə (sənaye) sabitləşir, birinci bölmənin (kənd təsərrüfatı) isə xüsusi çəkisi azalır. Dünya Bankının məlumatlarına görə ÜDM-un bu mənbələr üzrə strukturu aşağıdakı cədvəldə verilmişdir (bax cədvəl 25).

Məlumatlardan görünür ki, Azərbaycan Respublikasında sənayeləşmə prosesi davam edir. ÜDM-nin strukturunda kənd təsərrüfatının yüksək xüsusi çəkisi (22%) qalmaqdadır. Xidmətin xüsusi çəkisinin Yaponiya dövlətində olduğu səviyyəyə çatması isə (60%) respublikamızın iqtisadiyyatında postsənayeləşmə prosesinin getməsini yox, emal sənayesinin istənilən səviyyədən aşağı formalaşmasının nəticəsidir. Postsənayeləşdirmə prosesi gedən ölkələrin tipik nümunələri, ABŞ, Yaponiya, Fransa kimi dövlətlərdir ki, onların ÜDM tərkibində kənd təsərrüfatı cəmi 2-4% təşkil edir.

**Cədvəl 25**

**Azərbaycan Respublikasında və bir neçə xarici ölkələrdə ÜDM-nin quruluşu (%)**

| ölkələr | 1980 | | | | 1997 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | UDM | | | | UDM | | | |
| | cəmi | O cüml. mənbələr üzrə | | | cə mi | O cüml. mənbələr üzrə | | |
| | | **k/ tə-sər-rü-fatı** | **sə na ye** | **xid mət** | | **K/ tə-sərr ü-fatı** | **sə-naye** | **xid-mət** |
| Azərbaycan müqayisə üçün | 100 | X | X | X | 10 0 | 22 | 18 | 60 |
| ABŞ | 100 | 3 | 33 | 64 | 10 0 | 3 | 32 | 65 |
| Rusiya | 100 | 9 | 54 | 37 | 10 0 | 7 | 39 | 54 |
| Türkiyə | 100 | 26 | 22 | 51 | 10 0 | 17 | 28 | 55 |
| Fransa | 100 | 4 | 34 | 62 | 10 0 | 2 | 26 | 71 |
| Yaponiya | 100 | 4 | 42 | 54 | 10 0 | 2 | 38 | 60 |
| Ermənistan | 100 | 18 | 58 | 25 | 10 0 | 44 | 35 | 20 |
| Gürcüstan | 100 | 24 | 36 | 40 | 10 0 | 35 | 35 | 30 |
| Dünya üzərində orta qiy-mət | 100 | 7 | 38 | 55 | 10 0 | 6,7 | 37 | 56,3 |

Postsənaye ölkələrinin xarakterik cəhətlərindən başlıcası kənd təsərrüfatının xüsusi çəkisinin azalmasıdır. Dünya üzrə bu xüsusi çəki 1980-cı ildə 7,7% təşkil etmişdir. 17 il ərzində kənd təsərrüfatının ÜDM-kı çəkisi azalmış və 6,7%-ə çatmışdır.

1999-cu ilin məlumatları göstərir ki, Azərbaycanda ÜDM-nin quruluşu nisbətən yaxşılaşır (26 saylı cədvəl).

**Cədvəl 26**

**Azərbaycan Respublikasında ÜDM quruluşunun dəyişməsi**

| Sahələr | | Sahənin xüsusi çəkisi | |
|---|---|---|---|
| | | **2000-ci il** | **2002-ci il** |
| 1 | Ümumi Daxili Məhsul istehsalı, o cümlədən sahələr üzrə | 100 | 100 |
| 2 | Sənaye | 32 | 35 |
| 3 | Kənd təsərrüfatı | 18,1 | 17,5 |
| 4 | Tikinti | 4,4 | 5,0 |
| 5 | Xidmət sahələri | 45,3 | 42,5 |
| 6 | Onlardan nəqliyyat və rabitə | 14,5 | 15,3 |
| 7 | Ticarət | 6,1 | 6,8 |
| 8 | Digər sahələr (tədarük, məlumat, mənzil, kommunal təsərrüfatları, səhiyyə, təhsil, elm, idarə, müdafiə, aksizlər və s.) | 24,9 | 20,4 |

Sənayenin xüsusi çəkisi 1997-ci ildəki 18 faizdən (bax cədvəl 25) 2000-ci ildəki 32,0%-ə qədər yüksəlmişdir. Bu mütərəqqi haldır. Lakin nəzərə almaq lazımdır ki, bu artım əsasən xam neftin çıxarılması hesabına baş verib.

Ölkə iqtisadiyyatının inkişafında investisiyaların rolu bö- yükdür. Müstəqillik əldə etmiş Azərbaycan Respublikası üçün isə investisiya

qoyuluşu daha çox əhəmiyyətə malikdir. Təhlil göstərdi ki, iqtisadiyyata yönəldilən investisiya ilbəil artır. 1995-ci ildə iqtisadiyyata yönəldilən investisiyanın həcmi 544,0 milyon ABŞ dolları məbləğində olmuşdur. 2000-ci ildə məbləğ artıq 1 milyard 441,4 milyon dollar təşkil etmişdir. İqtisadiyya- ta həm daxili və həm də xarici mənbələrdən investisiyalar yönəldilmişdir. Xarici investisiyaların bütün mənbələr üzrə investisiya qoyuluşundakı xüsusi çəkisi 1995-ci ildə 68,9%,1996-cı ildə 66,6%,1997-ci ildə 77,1%,1998-ci ildə-76,1%,1999-cu ildə 69,4%,2000-ci ildə isə 64,3% təşkil etmişidir(bax cədvəl 27).

**Cədvəl 27**

**1995-2000-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatına yönəldilən investisiyanın məbləği (mln. ABŞ dolları)**

| İllər | Bütün mənbələr üzrə investisya qoyuluşu | | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | Xarici investisiya | | Daxili investisya | |
| | məbləği | x. çək. % | məbləği | x. çək. % | məbləği | xüs. çəkisi % |
| 1995 | 544,0 | 100 | 375,1 | 68,9 | 168,9 | 31,1 |
| 1996 | 932,5 | 100 | 621,0 | 66,6 | 311,5 | 33,4 |
| 1997 | 1694,5 | 100 | 1307,3 | 77,1 | 387,2 | 22,9 |
| 1998 | 1932,2 | 100 | 1472,0 | 76,2 | 480,2 | 23,8 |
| 1999 | 1571,0 | 100 | 1091,1 | 69,4 | 479,9 | 30,6 |
| 2000 | 1441,4 | 100 | 927,0 | 64,3 | 514,4 | 35,7 |

Müstəqillik illərində ölkədə yaranmış siyasi sabitlik ölkə iqtisadiyyatına investisiya yönəltmək istəyən ölkələrin sayının artmasına, coğrafiyasının nisbətən genişlənməsinə səbəb olmuşdur (bax cədvəl 28). 2000-ci ildə ölkə iqtisadiyyatına investisiya yönəldən ölkələr arasında Türkiyə, Rusiya, ABŞ, Böyük Britaniya, İran, Fransa, Yaponiya kimi ölkələr olmuşdur. Xarici investisiyalar maliyyə-kredit

təşkilatları vasitəsilə əsasən neftçıxarma sənayesinə yönəldilmişdir. Bundan başqa, investisiya birgə müəssisələrin və xarici firmaların yaradılmasına da yönəldilmişdir.

1994-2000-ci illər ərzində ölkə ərazisində fəaliyyət gös-tərən müştərək və tam xarici investisiyalı müəssisələr tərəfindən Azərbaycan iqtisadiyyatına 1237,2 milyon ABŞ dolları məbləğində vəsait qoyulmuşdur ki, bunun da 411,9 milyon dolları sənayenin inkişafına (neft sənayesindən başqa), 344,0 milyon dolları tikintiyə, 251,1 milyon dolları ticarət və xidmət sahələrinə və 131,9 milyon dolları isə nəqliyyat və rabitənin inkişafına yönəldilmişdir. Göründüyü kimi sənayeyə yönələn kapitalın dəyəri, ümumi vəsaitin təxminən 33 %-ni təşkil edir. Bu cür yanaşma sosial-iqtisadi inkişaf baxımından qənaətbəxş hesab oluna bilər. Bundan sonra, xarici investisiyaları sənayenin neftlə əlaqədar olmayan sahələrinə sərmayə qoymağa cəlb etmək üçün stimullaşdırıcı tədbirlər görülmüş və 2002-ci ildən başlayaraq emal sənayesinin üstün inkişafı dövlət tərəfindən nəzərdə tutulmuşdur.

**Cədvəl 28**

**Azərbaycan Respublikası iqtisadiyyatına yönəldilən xarici investisiyalar (milyon ABŞ dolları)**

| | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|
| Cəmi investisiya ondan: | 375,1 | 620,5 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 |
| Maliyyə (kredit neft sənayesinə) | 139,8 | 416,2 | 780,1 | 891,8 | 544,5 | 546,1 |
| Birgə müəssisələr və xarici firmalar Ondan ölkələr üzrə: | 14,9 | 102,8 | 330,9 | 460,2 | 210,4 | 118,0 |
| Türkiyə | 6,8 | 45,3 | 129,6 | 160,3 | 67,8 | 31,6 |
| ABŞ | 2,1 | 41,5 | 97,5 | 56,7 | 29,8 | 11,2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İran | 0,9 | 1 | 2,6 | 40,7 | 9,2 | 2,9 |
| Almaniya | 1,2 | 4,2 | 16 | 2,1 | 6,2 | 1,7 |
| Rusiya | 0,7 | 2,3 | 5,5 | 10,3 | - | - |
| Böyük Britaniya | 0,7 | 0,2 | 47,2 | 47,4 | 48,8 | 6,8 |
| Bolqarsıtan | 0,1 | - | - | - | - | - |
| BƏƏ | 0,7 | 1,7 | 8,0 | 16,6 | 7,6 | 2,8 |
| İsveçrə | 1,2 | 3,9 | 9,5 | - | - | - |
| Macarıstın | - | 0,1 | - | - | - | - |
| İspaniya | 0,1 | 0,4 | 1,5- | - | - | - |
| İrlandiya | - | 0,5 | 2,3 | - | - | - |
| Hindistan | - | 0,2 | - | - | - | - |
| Fransa | - | - | - | - | 25,4 | 39,3 |
| Sinqapur | - | - | 3,4 | 7,6 | - | - |
| Yaponiya | - | - | - | - | - | 16,4 |
| Sair ölkələr | 0,4 | 0,5 | 7,5 | 118,5 | 18,5 | 5,3 |

Hər bir ölkədə olduğu kimi Azərbaycan Respublikasında da iqtisadi inkişaf çoxlu kredit tələb edir. Müstəqillik əldə edildikdən sonra iqtisadiyyata kredit qoyuluşu hər il həyata keçirilir (bax cədvəl № 29).

**Cədvəl 29**

**Azərbaycan iqtisadiyyatına kapital qoyuluşu və müddətə görə quruluşu (milyon manat)**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyata kredit qoyuluşu (cəmi) (mln. man) o cümlədən: | 1448996 | 1819715 | 2041967 | 2133604 | 2215500 | 2321800 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qısamüddətli kreditlər (mln. man.) | 1264830 | 1675804 | 1901083 | 2087661 | 480500 | 1672000 |
| Yekuna görə faizlə (%) | 87,3 | 92,1 | 93,1 | 97,8 | 97,5 | 72,0 |
| Uzunmüddətli kre-ditlər (mln. man.) | 184166 | 143911 | 140904 | 45923 | 55000 | 649800 |
| Yekuna görə faizlə (%) | 12,7 | 7,9 | 6,9 | 2,2 | 2,5 | 28,0 |

Təhlil göstərir ki, kredit qoyuluşunun ümumi həcmi ilbəil artır. İqtisadiyyata təsir etməsi baxımından kreditin müddətinə görə strukturunun böyuk əhəmiyyəti vardır. Azərbaycan Respublikası iqtisadiyyatına qoyulan kreditlərin çox hissəsi qısamüddətli kreditlərdir. 1995-2000-ci illərdə bu sahədə müəyyən irəliləyişlər görünür. Uzunmüddətli kreditlərin xüsusi çəkisi 2 dəfədən çox artmışdır. Lakin buna baxmayaraq 2000-ci ildə qısamüddətli kreditlərin xüsusi çəkisi yüksək olaraq qalmış və 72% təşkil etmişdir. İqtisadiyyatın optimal inkişaf etdirilməsi gələcəkdə uzunmüddətli kredit qoyuluşları həcminin artırılmasını tələb edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən son-ra bazar iqtisadiyyatına keçid istiqamətində işlər bir sıra istiqamətlərdə aparılır. Əsas fikir verilən məsələlərdən biri mülkiyyətin formasının dəyişdirilməsi olmuşdur. Bu sahədə görülən işlər öz nəticəsini kəmiyyət cəhətdən vermişdir və Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə Dövlət sektorunda işləyənlərin sayı ilbəil azalır və əksinə, qeyri-dövlət bölməsində çalışanların sayı artır. 2000-ci ildə iqtisadi fəal əhalinin işləyən hissəsinin cəmi 34,5 % dövlət bölməsində çalışmışlar. Müvafiq olaraq iqtisadi fəal əhalinin işləyən hissəsinin 65,5%-i qeyri-dövlət bölməsində işləmişlər. Müqayisə üçün

qeyd edək ki, 1990-cı ildə iqtisadi fəal əhalinin 70%-dən çoxu dövlət sektorunda çalışırdı (bax cədvəl 30).

**Cədvəl 30**

**İqtisadi fəal əhalinin işləyən hissəsinin bölmələr üzrə sayı və strukturu**

| | Ölçmə vahidi | 1990 | 1995 | 2000 |
|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin işləyən hissəsi | Min nəfər % | 3703,4 100 | 3613,0 100 | 3704,5 100 |
| O cümlədən | - | - | - | - |
| Dövlət sektorunda | Min nəfər | 2618,9 | 2027,2 | 1278,2 |
| Xüsusi çəkisi | % | 70,7 | 56,1 | 34,5 |
| Qeyri–dövlət sektorunda | Min nəfər | 1084,5 | 1585,8 | 2426,3 |
| Xüsusi çəkisi | % | 29,3 | 43,9 | 65,5 |

## § 2. XARİCİ İQTİSADİ FƏALİYYƏT

### 2.1. Xarici iqtisadi əlaqələrin (XİƏ) göstəriciləri

Azərbaycan Respublikasının dünya ölkələri ilə əlaqələri ilbəil genişlənir. 2000-ci ildə ümumi şəkildə, o 123 ölkə ilə iqtisadi əlaqələr yarada bilmiş və ticarət əməliyyatlarının məbləği manatla 2 milyard 923 milyondan çox olmuşdur. Bu müddət ərzində 1752226,7 min ABŞ dolları dəyərində mal ixrac, 1170868,2 min ABŞ dolları dəyərində mal idxal olunmuşdur. İl ərzində ixrac-idxal əməliyyatlarının saldosu müsbət olmuş və 581358,5 (1752226,7-1170868,2) min ABŞ dolları təşkil etmişdir. 2000-ci ildə 131635 ədəd nəqliyyat vasitələrindən istifadə edilmiş və ümumi şəkildə 11559,4 min ton yük daşınmışdır. Bunlardan 8434,8 min tonu ixrac əməliyyatlarının 3124,6 min tonu isə idxal əməliyyatlarının payına düşmüşdür. İxracın həyata keçirilməsi 46753 nəqliyyat vasitəsi, idxalın həyata keçirilməsi isə 84882 nəqliyyat vasitəsi tələb etmişdir (cədvəl 31).

Elektrik enerjisi ilə respublikada qarşılıqlı mübadilə həyata keçirilir. 2000-ci il ərzində elektrik enerjisinin qarşılıqlı köçürülməsi Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə baş vermişdir. Bu əlaqələr də müsbət saldo ilə həyata keçirilmişdir. Bunlardan başqa, 2000-ci il ərzində respublikaya 29255,3 ton humanitar yük daxil olmuşdur ki, onun da ABŞ dolları ilə məbləği 49138,0 min təşkil etmişdir.

Xarici iqtisadi əlaqələrin həyata keçirilməsində seçilən nəqliyyat növü böyük rol oynayır.

Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətdə əsasən dəmir və avtomobil yolları nəqliyyatından istifadə edilir. 2000-ci ildə XİF-i həyata keçirmək üçün müxtəlif yükgötürmə qabiliyyətli 64581 ədəd vaqondan və 47703 ədəd avtomobil yolu nəqliyyatından istifadə edilmişdir. Xam neftin daşınmasında stasionar nəqletmə vasitəsindən – boru kəmərlərindən istifadə edilmişdir.

**Cədvəl 31**

**2000-ci ildə Azərbaycan Respublikasının XİF-nin əsas**

**göstəriciləri**

| | **Ölçü vahidi** | **Göstəricinin məbləği** |
|---|---|---|
| Ticarət əməliyyatları aparılmış ölkələrin sayı | ölkə | 123 |
| Ticarət əməliyyatlarının həcmi | min ABŞ dol | 2923094,9 |
| O cümlədən: | | |
| İxrac | “--“ | 1752226,7 |
| İdxal | “--“ | 1170868,2 |
| İxrac-idxal əməliyyatları üzrə saldo | “--“ | +581358,5 |
| İl ərzində istifadə edilən nəqliyyat vasitələrinin sayı | ədəd | 131635 |
| O cümlədən: | | |
| İxracda | “--“ | 46753 |
| İdxalda | “--“ | 84882 |
| İl ərzində daşınan yüklərin həcmi | min ton | 11559,4 |
| O cümlədən: | | |
| İxracda | “--“ | 8434,8 |
| İdxalda | “--“ | 3124,6 |
| Elektrik enerjisinin ötürülməsi üzrə ticarətin həcmi | min ABŞ dol | 37590,5 |
| O cümlədən: | | |
| İxrac üzrə | “--“ | 22211,8 |
| İdxal üzrə | | 15378,7 |

2000-ci ildə Supsa boru kəməri ilə min ton, Şimal boru kəməri ilə 499,5 min ton xam neft nəql edilmişdir.

Əsasən xam neftin hesabına baş versə də Azərbaycanın xarici iqtisadi əlaqələri inkişaf edir. 2000-ci ildə 1999-cu ilə nisbətən ixrac əməliyyatlarının həcmi 848,66 milyon ABŞ dolları miqdarında, idxal

əməliyyatlarının həcmi isə 160,26 milyon ABŞ dolları miqdarında artmışdır. Lakin ümumiyyətlə götürdükdə xarici iqtisadi əlaqələrdə respublikanın iqtisadi təhlükəsizliyi baxımından çatışmazlıqlar mövcuddur. Belə çatışmazlıqlardan biri idxalın strukturudur. 32 saylı cədvəlin materilları bunu bir daha sübut edir.

**Cədvəl 32**

**2000-ci ildə Azərbaycan Respublikasında idxalın strukturunda əsas yer tutan məhsulların miqdarı və dəyəri**

| № | Məhsulun adı | Ölçü vahidi | Miqdarı | Dəyəri (milyon ABŞ dol) |
|---|---|---|---|---|
| 1. | Ət və ət məhsulları, o cüml. humanitar yardım | min ton<br>ton | 28,1<br>27,4 t | 18,29<br>0,15 |
| 2. | Buğda<br>O cümlədən hum. yardım | min ton<br>ton | 706,8<br>695,0 | 87,93<br>0,055 |
| 3. | Un<br>O cümlədən hum. yardım | min ton<br>ton | 22,95<br>11,56 | 5,06<br>2,72 |
| 4. | Şəkər<br>O cümlədən hum. yardım | min ton<br>ton | 75,83<br>1,46 | 17,51<br>0,97 |
| 5. | Yağ<br>- kərə yağı<br>- bitki və heyvan mənş. yağ.<br>O cümlədən hum. yardım | “----“<br>“----“<br>“----“<br>“----“ | 25,99<br>5,93<br>20,06<br>2,11 | 17,56<br>6,37<br>11,20<br>1,63 |

| | | | | |
|---|---|---|---|---|
| 6. | Çay | min ton | 2,70 | 6,51 |
| 7. | Spirt | min litr | 2175,18 | 1,83 |
| 8. | Spirtli içkilər | min ton | 9,23 | 6,65 |
| 9. | Tütün məmulatı | milyon | 1132,28 | 2,65 |
| 10. | Müxtəlif minik avtomobilləri | ədəd | 9,64 | 41,5 |
| 11. | Toxum | ton | 745,2 | 1,46 |
| 12. | Gübrə | min ton | 40,52 | 3,85 |
| 13. | K/t maşın, ehtiyat his. | | 1,53 | 5,43 |
| 14. | Neft məhsulları | min ton | 66,44 | 16,76 |
| 15. | Elektrik enerjisi | milyon kvt/s | 1595,62 | 34,035 |

Respublikaya yaşayış üçün ən zəruri məhsulların bir hissəsi xaricdən gətirilir (bax cədvəl 32). Bu məhsullara ət və ət məhsulları, buğda, un, şəkər, yağ, çay, spirt kimi respublikada istehsal oluna bilən əmtəələr çoxluq təşkil edir. Yaxın vaxtlarda bu məhsulların yarıdan çox azaltmaq mümkündür ki, bunun nəticəsində də yeni iş yerləri yarada bilərik və iqtisadi təhlükəsizliyimizi artırmış olarıq. İxracda isə emal sənayesi məhsulları olduqca azdır (bax cədvəl 32 və cədvəl 33-ün məlumatlarına).

**Cədvəl 33**

**2000-ci ildə Azərbaycan Respublikasında ixracın strukturunda əsas yer tutan məhsulların miqdarı və dəyəri**

| № | Məhsulların adı | Ölçü vahidi | Miqdarı | Dəyəri (milyon ABŞ dol) |
|---|---|---|---|---|
| 1. | Neft (xam) | milyon ton | 5,51 | 985,45 |
| 2. | Neft emalı məhsulları | ---"--- | 2,11 | 480,04 |
| 3. | Spirtli içkilər | min ton | 14,95 | 6,08 |
| 4. | Tütün | ---"--- | 10,05 | 9,84 |
| 5. | Qara metallar | ---"--- | 152,82 | 6,06 |
| 6. | Alüminium | ---"--- | 26,84 | 16,70 |
| 7. | Çay | ---"--- | 1,23 | 2,63 |
| 8. | Pambıq mahlıcı və tullantıları | ---"--- | 41,70 | 36,48 |
| 9. | Elektrik enerjisinin qarşılıqlı ötürülməsi | milyon kv/s | 1789,34 | 22,21 |

## 2.2. İxracın və idxalın əmtəə strukturu və XİƏ-in saziş növləri

İxrac edilən məhsulların strukturunda xam neftin ixracı xüsusi yer tutur (bax cədvəl 34). 2000-ci ildə ixracın ümumi həcmində xam neftin xüsusi çəkisi 56,24%, neft məhsullarının xüsusi çəkisi isə 27,40% təşkil etmişdir. Deməli, baxılan ildə ixrac əməliyyatlarından alınan vəsaitin 83,64%-i xam neft və neft məhsullarının satışından əldə edilmişdir.

Müqayisə üçün qeyd edək ki, spirtli və spirtsiz içkilərin xüsusi çəkisi 0,45%, pambıq satışı 2,08%, çay isə cəmi 0,15% təşkil etmişdir.

**Cədvəl 34**

**2000-ci ildə Azərbaycan Respublikasında ixracın əmtəə strukturu**

| Əmtəələrin adı | Ümumi ixraca görə %-lə |
|---|---|
| Xam neft | 56,24 |
| Neft məhsulları | 27,40 |
| Qara metallar və onlardan hazırlanan məmulatlar | 0,45 |
| Spirtli və spirtsiz içkilər | 0,35 |
| Kimya məhsulları | 2,06 |
| Pambıq | 2,08 |
| Tütün | 0,67 |
| Əlvan metallar | 1,37 |
| Çay | 0,15 |
| Digər əmtəələr | 9,22 |

İdxalın strukturu cədvəl 35-də verilmişdir. Göründüyü kimi ərzaq məhsulları ilə xalq istehlakı malları ümumi idxalın 20%, qədərini təşkil edir. Bundan başqa, respublikamız çoxlu miqdarda maşın və avadanlıqları idxal edir. Bu tipli məhsulların idxaldakı xüsusi çəkisi 40%-ə çatır.

**Cədvəl 35**

**2000-ci ildə Azərbaycan Respublikasında idxalın əmtəə strukturu**

| Əmtəələrin adı | Ümumi ixraca görə %-lə |
|---|---|
| Ərzaq məhsulları | 17,77 |

| | |
|---|---|
| Xalq istehlakı malları | 1,70 |
| Maşın və elektrik aparatları avadanlıqları və onların ehtiyat hissələri | 30,96 |
| Nəqliyyat vasitələri və onların hissələri | 8,55 |
| Qara metallar və onlardan hazırlanan məmulatlar | 1,95 |
| Toxum | 0,12 |
| Gübrə | 0,33 |
| Digər əmtəələr | 28,53 |

Dünya iqtisadi əlaqələrində müxtəlif saziş növləri mövcuddur. İdxal-ixrac əməliyyatlarının saziş növlərinin öyrənilməsi göstərdi ki, 2000-ci ildə xarici-iqtisadi əməliyyatlarda hesablaşmalar milli valyuta ilə (sazişin növü-1), sərbəst dönərli valyuta ilə (21), dövlət krediti üzrə (23), qapalı dövriyyəli valyuta ilə (41), barter sazişi ilə (51) həyata keçirilmişdir (bax cədvəl 36).

**Cədvəl № 36**

**2000-ci ildə AR-da idxal-ixrac əməliyyatlarının saziş növləri və onların strukturu**

| Sazişin nömrəsi | Saziş növünün adı | Strukturu (%) | |
|---|---|---|---|
| | | ixracda | İdxalda |
| 01 | Milli valyuta ilə hesablaşma | 0,39 | 0,02 |
| 21 | Sərbəst dönərli valyuta | 46,56 | 58,55 |
| 23 | Dövlət krediti üzrə | 0,00 | 4,68 |
| 41 | Qapalı dövriyyəli valyuta | 0,29 | 8,81 |
| 51 | Barter sazişi | 0,70 | 0,92 |
| 78 | Kompensasiyalı öhdəliklər hesabına | 44,34 | 0,00 |
| | Digər saziş növləri | 7,72 | 27,02 |

İxrac əməliyyatlarında kompensasiyalı öhdəliklər hesabına, sərbəst dönərli valyuta ilə hesablaşmalar əsasında malların gətirilməsinə, idxal əməliyyatlarında isə sərbəst dönərli valyutaya daha çox üstünlük verilmişdir. Neft məhsullarının ixracında sərbəst dönərli valyutaya satış 457,45 milyon dollar (ümumi məhsulun 95,30%), barter 5,9 milyon dollar (1,23%), milli valyuta ilə hesablaşma 3,57 milyon dollar (0,74%) və di-gərləri 13,05 milyon dollar (2,73%) təşkil etmişdir.

XİƏ-də barter əməliyyatlarında ixrac əməliyyatlarının həcmi idxaldan 1441,5 min ABŞ dolları qədər çox olmuşdur. MDB ölkələri üzrə ixracda barter əməliyyatları 3961,8 min ABŞ dolları (ümumi ixraca nisbətən 0,23%), idxalda isə 9300,0 min ABŞ dolları (ümumi idxala nisbətən 0,79) təşkil etmişdir. MDB-dən başqa, uzaq xarici ölkələr üzrə ixracda barter əməliyyatları 8275,5 min dollar (ümumi ixraca nisbətən 0,45%), idxalda isə 1495,8 min dollar (ümumi idxala nisbətən 0,13%) təşkil etmişdir.

## 2.3. XİƏ-in coğrafiyası

Azərbaycan Respublikasının XİƏ-nin coğrafiyası müxtəlifdir. Respublika özünün də daxil olduğu Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri ilə və uzaq xarici ölkələrlə ticarət əməliyyatları həyata keçirir. 2000-ci ildə Azərbaycandan (MDB-dən kənar ölkələrə) 1,5 milyard ABŞ dolları dəyərində əmtəə çıxarılmışdır. Eyni zamanda respublikaya bu cür ölkələrdən 792,15 milyon ABŞ dolları qədər mal gətirilmişdir. MDB-dən kənar xarici ölkələrlə ticarət əlaqələrinin saldosu müsbət 716,4 milyon manat təşkil etmişdir. Ticarət əlaqələrində xüsusi çəkisi nisbətən çox olan uzaq xarici ölkələrdən İtaliyanı (ümumi ticarət əlaqələrində xüsusi çəkisi: ixracda – 43,52%, idxalda 2,39%), Türkiyə (5,99 və 10,58), Fransa (11,71 və 1,61), İsveçrə (2,61 və 4,64), ABŞ (0,46 və 8,97), Almaniya (0,45 və 5,80), İran (0,44 və 5,04), Böyük Britaniya (1,06 və 5,03), İsrail (7,71 və 0,52) göstərmək olar (bax cədvəl 37).

**Cədvəl 37**

**Azərbaycan Respublikasının ticarət əlaqələrində xüsusi çəkisi böyük olan ölkələr (2000-ci il)**

| № | Ölkələr | Ticarət əlaqələrində xüsusi çəkisi (%) | |
|---|---|---|---|
| | | **ixracda %-lə** | **idxalda %-lə** |
| 1. | İtaliya | 43,52 | 2,39 |
| 2. | Rusiya | 5,63 | 20,04 |
| 3. | Türkiyə | 5,99 | 10,58 |
| 4. | Fransa | 11,71 | 1,61 |
| 5. | İsveçrə | 2,61 | 4,64 |
| 6. | ABŞ | 0,46 | 8,97 |
| 7. | Almaniya | 0,45 | 5,80 |
| 8. | İran | 0,44 | 5,04 |
| 9. | Böyük Britaniya | 1,06 | 5,03 |
| 10. | Qazaxıstan | 0,37 | 4,91 |
| 11. | Gürcüstan | 4,53 | 1,29 |
| 12. | İsrail | 7,71 | 0,52 |

MDB ölkələri ilə xarici ticarət əlaqələrinin həcmi 622,46 milyon ABŞ dolları məbləğində olmuşdur. Respublikanın rezident və qeyri-rezidentləri MDB ölkələrinə 243,75 milyon dollar məbləğində məhsul göndərmişlər. Bu ölkələrdən respublikamıza gətirilən əmtəələrin ümumi dəyəri isə 378,71 milyon ABŞ dolları məbləğində olmuşdur. Göründüyü kimi MDB ölkələri ilə ticarət əlaqələrinin saldosu mənfi 134,96 milyon (378,71-243,75) təşkil etmişdir.

Ticarət əlaqələrində xüsusi çəkisi nisbətən çox olan MDB ölkələrinə Rusiya (ümumi ticarət əlaqələrində xüsusi çəkisi: ixracda 5,63% və idxalda 20,04%), Qazaxıstanı (0,37 və 4,91), Gürcüstanı (4,53 və 1,29) misal göstərmək olar.

Azərbaycan Respublikasının ərazisindən tranzit formada yük daşınması üçün də istifadə edilir. Respublikamızın ərazisindən bu məqsəd üçün istifadə edən əsas ölkələrə Rusiya Federasiyası, İran, Türkiyə, Gürcüstan və s. kimi ölkələri daxildir. 2000-ci ildə tranzit rejimində Azərbaycan Respublikası ərazisindən 4961,2 min tona qədər müxtəlif xarakterli yük çıxarılmışdır. Tranzit yüklərin əsas hissəsi Gürcüstana göndərilmişdir (4426,6 min ton). Bundan başqa, tranzit rejimində Özbəkistana (100,3 min ton), Rusiya Federasiyasına (94,7 min ton), Türkiyə Respublikasına (63,0 min ton), İran İslam Respublikasına (34,3 min ton) və digər ölkələrə yüklər göndərilmişdir. Dövlət Gömrük Komitəsinin (DGK) statistika və təhsil idarəsinin məlumatlarına görə tranzit yüklərin göndərilmə coğrafiyası cədvəl 38-də verilmişdir. Göründüyü kimi yüklərin 80%-dən çoxu Gürcüstanın payına düşür.

**Cədvəl 38**

**Tranzit rejimində AR ərazisindən çıxarılan yüklərin coğrafiyası (2000-ci il)**

| № | Ölkələr | Tranzit rejimində göndərilən yükün həcmi | |
|---|---|---|---|
| | | min tonla | ümumi həcmə görə %-lə |
| 1 | Gürcüstan | 4426,6 | 80,9 |
| 2 | Özbəkistan | 100,3 | 2,02 |
| 3 | Türkmənistan | 138,8 | 2,15 |

| | | | |
|---|---|---|---|
| 4 | Rusiya Federasiyası | 94,7 | 2,0 |
| 5 | Türkiyə Respublikası | 63,0 | 1,27 |
| 6 | İsveçrə | 66,7 | 1,28 |
| 7 | İran İslam Respublikası | 34,3 | 0,76 |

Respublikada strateji neft məhsullarının xarici ölkələrə satılması iki struktur – Dövlət Neft Şirkəti və "Azneftyağ" İstehsalat birliyi məşğul olmuşlar. İxrac edilmiş neft məhsullarının təxminən 1,02 milyon tonu (48,19%) Dövlət Neft Şirkətinin Xarici İqtisadi Əlaqələr İdarəsinin, 1,06 milyon tonu isə (50,24%) "Azneftyağ"-ın payına düşmüşdür. Ümumiyyətlə götürdükdə 2000-ci ildə xarici iqtisadi əlaqələrdə 7466 hüquqi və fiziki şəxs məşğul olmuşdur. Bunlardan 2789-u dövlət və özəl müəssisə, 4677-i isə fiziki şəxslər olmuşdur.

## 2. 4. Dünya təsərrüfat sisteminə inteqrasiya və onun gücləndirilməsi

***"Игтисади сийасят стратеэийасынын башлыъа***
***истигамятляри сабитляшдирмя, ислащатлашдырма,***
***игтисади артымын тямин едилмяси, дцнйа тясяррцфат***
***системиня игтисади интеграсийасынын эцълянмяси,***
***халгын рифащынын йцксялдилмяси вя с. ибарятдир."***

***Щ.Я.ЯЛИЙЕВ***

Azərbaycan Respublikası dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya ola bilər. Bunun üçün respublikanın əlverişli coğrafi mövqeyi, inkişaf etmiş beynəlxalq əhəmiyyətli olan hava, su, dəmiryolu, avtomobil nəqliyyatı, neft və qaz kəmərləri vardır. Bundan başqa, Azərbaycan ənənəvi olaraq mineral-xammal ehtiyatları, məhsuldar torpaq sahələri, əlverişli təbii-iqlim şəraiti, kifayət qədər münasib işçi qüvvəsinə malikdir. İnfrastrukturanın vəziyyəti də pis deyil. Azərbaycan xarici investorları cəlb edən regiondur. Son illərdə yaranmış siyasi sabitlik isə xarici iqtisadi əlaqələrin genişlənməsi üçün daha yaxşı şərait yaratmışdır.

Azərbaycan Respublikasının dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyası üçün ilk növbədə həm sənayedə və həm də kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri həyata keçirmək lazımdır. Bu əslində günün ən aktual problemlərindəndir. Görüləcək işlər iki mərhələdə aparıla bilər. Birinci mərhələ 2005-ci ilə qədər dövrü, ikincisi isə 2005-ci ildən sonrakı dövrü əhatə etməlidir. Məsələyə bu cür yanaşmağın əsasını AMOK-un respublikada fəaliyyəti və bu fəaliyyətin iqtisadiyyata təsir etməsi nöqteyi-nəzərincə təyin olunmuş pillələri təşkil edir. Məlum olduğu kimi AMOK-un (indiki «BP exploration LTD») fəaliyyətinin genişləndirilməsi proqramı, iqtisadiyyata üçpilləli təsiri nəzərdə tutur. Birinci təsiretmə pilləsi 1994-cü ildən 2000-ci ilə qədər dövrü əhatə edirdi ki, bu pillə artıq arxada qalıb. Bu pillədə əsas investisiya xərclərinə fikir verilib və Azəri-Çıraq-Günəşli yataqlarında neft əməliyyatları üzrə işlərə operativ rəhbərlik etmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılıb. Göstərilən neft yataqlarında əməliyyatların həyata keçirilməsinə ümumi şəkildə 1 milyard 300 milyon ABŞ dolları xərclənmişdir. Bu xərc əsasən quyuların qazılmasına, neft terminallarının tikintisinə və s. sərf edilmişdir. Birinci pillədə çıxarılacaq neftin daşınması üçün bir sıra işlər görülmüşdür. Çıraq yatağından ilkin neft şimal kəməri ilə Novorossiyski terminalına və oradan da dünya neft bazarına çatdırılmışdır. Bakı-Supsa neft kəməri tikilib istismara verilmişdir. Bu kəmərlərlə ildə 20 milyon ton neft ixrac

etmək mümkündür. Beləliklə, birinci pillədə görülən işlərin həcmi və miqyası imkan verir ki, ikinci pillədə nəzərdə tutulan işlər də müvəfəqiyyətlə həyata keçirilsin. İlkin neftin daşınması ilə yanaşı bu pillədə xarici investorların qoyduqları kapitalın ödənilməsi prosesi də başlamışdır.

İkinci pillə 2000-ci ildən başlamışdır. Bu pillədə neft ixracının yüksək sürətlə artması və ölkəyə çoxlu miqdarda mənfəət gəlməsi baş verir. Əldə edilən təmiz mənfəətin 70%-dən çoxu, vergilərin və investisiya borclarının ödənilməsinə sərf edilməsi və yalnız 30%-ə qədərinin Azərbaycana verilməsi nəzərdə tutulmuşdur. Əlbəttə, neftdən əldə edilən mənfəətin bu nisbətdə bölünməsi Azərbaycanın iqtisadiyyatını tezliklə yüksəltməyə imkan yarada bilməzdi və keçən dövr bunu bir daha sübut etdi. Bu hal 2005-ci ilə qədər davam edəcək. Lakin nəzərə almaq lazımdır ki, 2000-ci ildən başlayaraq Azərbaycanın öhdəsində qalan mənfəətin məbləği 2005-ci ilə yaxınlaşdıqca ilbə-il artacaq və respublikanın iqtisadiyyatını inkişaf etdirmək üçün yeni imkanlar yaranacaq.

Üçüncü pillə 2005-ci ildən başlanacaq. AMOKO fəaliyyətinin genişləndirilməsi proqramına görə bu pillədə neft satışından əldə edilən təmiz mənfəətin 5/6-i Azərbaycanın sərəncamında qalacaq. Bu o deməkdir ki, 2005-ci ildən başlayaraq Respublikanın neft dollarının həcmi bir neçə dəfə artacaqdır.

İnkişafın üçpilləli olması göstərir ki, Azərbaycan Respublikasının iqtisadiyyatını kompleks inkişaf etdirmək istiqamətində əməli texniki, təşkilati iqtisadi tədbirlər hazırlamaq üçün 2-3 il vaxt vardır. Görünür 2005-ci ildən sonrakı dövrdə əldə ediləcək nəticələrin xarakteri məhz bu dövrdə görüləcək işlərdən asılı olacaqdır. İlk növbədə çalışmaq lazımdır ki, dünya bazarında qeyri-neft ixracının rəqabətə dözüm- lülük qabiliyyəti artırılsın. Burada sənayenin qeyri-neft sahələrinin və kənd təsərrüfatının məqsədyönlü inkişaf etdirilməsindən və daxili və xarici bazarlarda rəqabətə tab gətirə bilən məhsullar istehsal edilməsindən söhbət gedir. Bunun baş verməsi üçün istər 2005-ci ilə qədər olan dövr

və istərsə də ondan sonra neft dolları ilə bağlı resurslar səfərbər etdiləcək, respublika iqtisadiyyatının inkişafı üçün münasib maliyyə şəraiti yaradılacaq və sonda bütün bunların hamısı üçüncü pilləyə yaxşı hazırlaşmaq üçün istifadə ediləcəkdir.

Onu da qeyd etmək lazımdır ki, bütün bu qeyd etdiklərimiz neftin çıxarılması və daşınması ilə əlaqədar olan siyasi məsələlərin normal həll edilməsi halında baş verə biləcək. Bununla yanaşı nəzərə almaq lazımdır ki, Xəzər dənizinin resurslarından istifadənin hüquqi əsasına aid olan beynəlxalq məsələ hələlik öz həllini tapmamışdır. Neftin daşınması problemlərinin də həmişə ortaya çıxa biləcəyini nəzərə almaq lazımdır. Əlbəttə, bu cür siyasi məsələlərin həlli ilk növbədə dünya təsərrüfat sistemində gedən proseslərdən və Azərbaycan Respublikasının həyata keçirəcəyi daxili və xarici siyasətin səmərəliliyindən asılı olacaqdır. Bundan başqa, bir məsələ də özünə ciddi diqqət tələb edir. Bu neftdən alınan gəlirin xərclənməsi ilə əlaqədardır. Fikrimizcə, neftdən gələn gəlirin ilbəil artan məbləğinin xərclənməsi kriteriyası “maksimum iş yerləri yaratmaq” olmalıdır. İş yerləri sənayenin bütün sahələrində və respublikanın bütün kənd, rayon, qəsəbə və şəhərlərində yaradılmalıdır.

Keçmiş SSRİ dövründə Azərbaycanın iqtisadiyyatı xarici ölkələrlə nisbətən güclü bağlı idi. Xüsusən neftçıxarma avadanlıqlarının istehsalı və satışı üzrə, onlarla xarici ölkələrə mancanaq dəzgahlar, qazma qurğuları, neftçıxarma avadanlıqları, quyu qazma qurğuları üçün müxtəlif ehtiyat hissələri göndərilirdi. Bu məhsulların istehsalı ilə Azərbaycanda iri bir sənaye sahəsi – neft maşınqayırması məşğul idi. Ümumittifaq əmək bölgüsünə uyğun yaradılmış neft avadanlıqları istehsal edən bu sahənin zavodları SSRİ dağıldıqdan sonra iflic vəziyyətinə düşdülər. Xarici ölkələrin maliyyəsi əsasında bağlanılmış məlum neft kontraktları Azərbaycanda neft və qaz hasilatını artırmağı nəzərdə tutduğu üçün belə bir fikir meydana gəlmişdi ki, neft kontraktları neft maşınqayırmasındakı tənəzzülü aradan qaldıracaq. Lakin çox təəssüflər olsun ki, müxtəlif subyektiv və obyektiv səbəblər

üzündən bu baş vermədi. Neftçıxarma sənayesinin neft maşınqayırma məhsullarına olan tələbatı da ixracın hesabına dolduruldu. Nəticədə öz daxili tələbatlarını və keçmiş ittifaq tələbatlarını ödədikdən son-ra belə, dünya bazarına neftçıxarma avadanlıqları və onlar üçün ehtiyat hissələri çıxaran Azərbaycan özü bu məhsulları xarici ölkələrdən almaq məcburiyyətində qaldı. Respublikanın dünya təsərrüfat sisteminə qoşulmasına mənfi təsir göstərən bu cür hallar aradan qaldırılır. Qoyulan məsələnin aktuallığı ona görə qalmaqdadır ki, neft kontraktlarının ömrü uzundur və hələ çoxlu miqdarda və müxtəlif növdə neftçıxarma avadanlıqlarına yüksək tələbat həm daxili və həm də xarici bazarlarda qalmaqdadır.

Son illərdə Respublika hökumətinin də bu sahədə müs- bət addımlarını nəzərə alsaq 2005-ci ilə qədər və ondan son- rakı dövrdə neft maşınqayırmasının inkişafı üçün yaxşı imkan-lar yarandığı haqqında fikir söyləməyə əsas yaranır. Bunun nə-ticəsində Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat siste-minə məqsədyönlü inteqrasiya olunması prosesi güclənəcək-dir.

Keçmiş SSRİ məkanında Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyası xalq təsərrüfatının digər sahələri vasitəsi ilə də nisbətən möhkəm idi və onları yada salmağın və xarici iqtisadi əlaqələri yenidən inkişaf etdirməyin çox mühüm əhəmiyyəti vardır. Söhbət konkret olaraq sənayenin ağır sahələrinin və xüsusən də metallurgiya və kimya sənayelərinin inkişafından gedir. Azərbaycan Respublikasının metallurgiya sənayesini inkişaf etdirmək üçün böyük potensial imkanları həmişə olub və indi də var. Bu imkanlar mütəxəssis və iqtisadçılara keçən əsrin 30-cu illərindən məlum idi. Azərbaycanın məşhur mühəndisi Ç.İldırım (Azərbaycan Texniki Universitet indi onun adını daşıyır) məhz o illərdə respublikada əsasən yerli xammalla (Daşkəsən filizi) işləyə bilən çox güclü metallurgiya kompleksi yaradılmasının texniki-iqtisadi əsaslandırılmasını vermişdi. Bu imkan indi də qalmaq-dadır. 2001-ci ildə Bakıda Yaponiya iş adamları ilə birlikdə istifadəyə verilən və çox keyfiyyətli armatur istehsal edən

“Bakı polad kompaniyası” deyilənləri bir daha təsdiq edir. Bu həm də Ümumdünya Bankı əməkdaşlarının guya ağır sənaye məhsullarının rəqabətə tab gətirə bilməyəcəkləri ehtimallarının düzgün olmadığını sübut edir.

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasını sənaye və kənd təsərrüfatının səmərəli olan bütün sahələrini inkişaf etdirməklə təşkil etmək olar. Bunun üçün ilk növbədə aqrar-sənaye komplekslərinin optimal tərkibini yaratmaq, kənd təsərrüfatı xammalı əsasında müxtəlif çoxişlənən məhsullar istehsal etmək lazımdır.

İqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatının özündə də həm istehsalı və həm də gəlirləri artırmaq imkanı vardır. Məsələ burasındadır ki, ümumilikdə kənd təsərrüfat istehsalı hələ də 1990-cı illərin səviyyəsinə çatmamışdır. Hər hektardan məhsul istehsalı xeyli aşağı düşmüş, bir çox məhsulların fiziki həcmi isə dəfələrlə azalmışdır. Pambıq və üzüm istehsalı bunlara əyani misaldır. Hamıya məlumdur ki, Azərbaycanda bir milyon tona yaxın pambıq istehsal edilən il də olub, 2,0 milyon tondan da çox üzüm yığılan il də. 1990-cı ilə nisbətən indi kənd təsərrüfatında həm məhsuldarlıq və həm də istehsalın həcmi bir neçə dəfə azalmışdır. Çox da mürəkkəb olmayan hesablamalar göstərir ki, Azərbaycanda iqtisadiyyatın kənd təsərrüfatı bölməsində istehsalın yüksəldilməsi üçün böyük imkanlar mövcuddur. Bu imkanları reallaşdırmaq üçün dövlət yaradıcı iş aparmalıdır ki, kənd təsərrüfatında müvafiq iri, orta və kiçik təsərrüfatlar məhsuldar, gəlirli və mənfəətlə işləyə bilsinlər. İdarəetmə, stimullaşdırma və ən başlıcası isə marketinq fəaliyyəti gücləndirilməli, istehsal diversifikasiyalaşdırılmalıdır.

Kənd təsərrüfatında yaranmış daxili imkanları dövriyyəyə cəlb etmək üçün paralel olaraq maliyyə sahəsinə diqqət artırılmalıdır. Təhlil göstərdi ki, dövlət müstəqilliyi əldə etdikdən sonra istər sənaye və istərsə də kənd təsərrüfatı müəssisələrinin inkişafında maliyyə rıçaqlarından istifadə edilməsi istənilən nəticələrin əldə olunmasına tam səbəb olmur. Məsələn, bank kreditləri adətən qısa müddətlər üçün borc

şəklində, yüksək faiz ödənişi şəklində verilir. Bankların özlərinin vəziyyəti də ürəkaçan deyil. Müştərilər öz öhdəliklərini vaxtında, tələb olunan həcmdə ödəyə bilmədikləri üçün bir çox bankların maliyyə vəziyyətləri gərgindir.

Maliyyə sistemi istər sənayedə və istərsə də kənd təsərrüfatında istehsala iki tərəfdən mənfi təsir göstərir. Birincisi, kiçik və orta sahibkarlığa əməli maliyyə dəstəyi verən bank sisteminin yaradılmaması, ikincisi, sahibkarlıq həvəsinə düşüb kredit əldə edən və əldə olunan vəsaitin təyinatına uyğun xərcləməyən subyektlərin meydana gəlməsi. Subyektiv amillər üzrə yaradılmış kiçik və orta maliyyə strukturların əsaslandırılmamış yüksək faizlərlə borc verməsi müştərilərin isə əldə etdikləri vəsaiti bəzən hara gəldi, yəni təyinatdan kənar xərcləməyi üstün tutmaları iqtisadiyyata mənfi təsir göstərir. Pul verilir, pul «xərclənir» nəticədə isə istehsal yerində sayır, bank isə müflisləşir. İstehsalı dirçəltmək, bank işini sağlamlaşdırmaq üçün hər iki tərəfin maraqlarını uyğunlaşdırmaq lazımdır. Elə bir təsərrüfat mexanizmi yaratmaq lazımdır ki, bankların fəaliyyəti istehsalçıların fəaliyyətləri ilə və əksinə blokirovkalansın. Bank fəaliyyəti üzərində və istehsal fəaliyyəti üzərində dövlət nəzarəti gücləndirilməlidir. Üç istiqamətdə iş aparılmalıdır:

1) kiçik və orta sahibkarlığın inkişafına yönəldiləcək kapital vəsaiti yaratmaq;

2) marketinq fəaliyyətini gücləndirmək;

3) qiymət stimulu formalaşdırmaq.

Dövlət öz işini göstərilən bu üç istiqamətdə qurmağı bacarır, nəticədə istehsalda əmək məhsuldarlığı yüksələr və eyni zamanda əməli özəlləşdirmə üçün şərait yaranar. Ən başlıcası isə maraqların uyğunlaşdırılması baş verir. İstehsal iqtisadi yüksəlişin əsas mənbəyi olduğuna görə, dövlət və onun münasib strukturları öz fəaliyyətlərini onun üzərində çalışırlar. Eyni zamanda istehsalı sevən, onun inkişafını təmin edən kollektivlər, sahibkarlar dövlət qayğı və köməyindən istifadə etmək sahəsində üstünlüklərə malik olmalıdırlar.

Beynəlxalq iqtisadi əlaqələrin nəticəsi sonda öz əksini ticarətin genişlənməsində tapır. Lakin bunun üçün ilkin şərt xarici ölkələrlə müvafiq saziş və müqavilələrin bağlanmasıdır. Bunu nəzərə alaraq müstəqillik qazandıqdan sonra respublikamız onlarla xarici ölkə ilə ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş və müqavilələr bağlamışdır. Qədim "İpək yolu» haqqında razılaşmalar da Çin, Özbəkistan, Türkmənistan, Gürcüstan, Rumıniya, Almaniya ilə bağlanmış dövlətlərarası sazişlərin bağlanması nəticəsində mümkün olmuşdur. "İpək yolu"nun çox böyük beynəlxalq əhəmiyyəti var və o Azərbaycanı keçmişdə olduğu kimi beynəlxalq Avropa-Qafqaz-Asiya transmilli nəqliyyat dəhlizinin mərkəzinə çevirəcəkdir.

Xarici kompaniyaların köməyi ilə həyata keçirilən Traseka proqramı başa çatdıqdan sonra "İpək yolu" üzrə işlərin reallaşması sürətlənəcək. Bununla yanaşı, BMT-nin Baş Assambleyasının Ticarət və İnkişaf Konfransı (İMSTD) ilə əlaqələr inkişaf etdirilir və bu təşkilatın geniş imkanlarından tranzit daşımalar sahəsində mövcud olan problemlərin həllində səmərəli istifadə olunması qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikası Beynəlxalq İctimai Təşkilatlarla əlaqələrini möhkəmləndirir. Hazırda ölkəmizin Beynəlxalq Valyuta Fondu (BVF), Ümumdünya Ticarət Təşkilatı (UTT), Dünya Bakı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), İslam İnkişaf Bankı (İİB) kimi görkəmli təşkilatlarla sıx əlaqələri yaranıb və inkişaf etməkdədir. Bundan başqa, respublikamız bir sıra beynəlxalq saziş və müqavilələrə qoşulub, MDB, İqtisadi Əməkdaşlıq Birliyi, Qaradəniz sahili ölkələr birliyi kimi iqtisadi birliklərə daxil olmuşdur. Azərbaycanın da daxil olduğu Xəzərsahili dövlətlərin birliyi, Ümumqafqaz evi, GUAM kimi yeni iqtisadi birliklər də yaradılmışdır. Ölkə iqtisadiyyatında baş verən liberallaşdırma prosesləri ilə yanaşı göstərdiyimiz beynəlxalq sazişlər, birliklər, təşkilatlar Azərbaycana xarici investisiya qoyuluşuna maraqları artırır. Hələlik böyük həcmli, xarici investisiya əsasən neftçıxarma sənayesinin inkişafına yönəldilir.

Neftçıxarma sənayesinə və onunla bağlı digər sahələrə 30 milyard ABŞ dolları həcmində investisiya qoyulması haqqında dünyanın Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, İran, Yaponiya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı, Rusiya və s. kimi aparıcı dövlətlərinin neft şirkətləri ilə kontranktlar bağlanmış və bu iş indi də davam etməkdədir. Məsələ burasındadır ki, Xəzər dənizinin Azərbaycan bölməsi, mütəxəssislərin fikrinə görə dünyanın ən perspektivli neft və qazla zəngin olan hövzələrindən biri sayılır və göstərilir ki, burada neft, qaz və kondensatın ümumi ehtiyatı 8 milyard ton şərti yanacaqdan da çoxdur.

1994-1997-ci illərdə 9 iri beynəlxalq neft kontraktları bağlanmışdır. Onlardan ən irisi "Əsrin kontraktı" adlanır. Bu kontrakt Azəri-Çıraq yataqlarının və Günəşli yatağının dərin su qatlarında yerləşən hissəsinin işlənməsi üçün yeddi xarici ölkələrin neft kompaniyalarını cəlb etməklə 1994-cü il sentyabrın  20-də bağlanmışdır. Ümumi şəkildə bu kontraktda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə yanaşı 11 xarici neft kompaniyası iştirak edir. "Məhsulun pay bölgüsü" tipli bu kontrakta görə 30 il müddətinə yataqlardan 500-600 milyon ton neft və 200 milyard kubmetrdən də çox qaz çıxarılacağı proqnozlaşdırılır (keçən 7-8 il ərzində əldə edilən nəticələr göstərir ki, proqnoz rəqəmlər əldə ediləcək). "Əsrin kontraktı" 7,5 milyard ABŞ dolları məbləğində vəsait tələb edir. Qoyulan şərtlərə görə investisiya xərcləri ilk 8-10 il ərzində ödənilməlidir. Kontraktdan əldə edilən gəlirin məbləğinin 80 milyard olacağı gözlənilir ki, onun da 50%-i respublikanın sərəncamında qalmalıdır. Biz 1994-1997-ci illərdə bağlanmış 9 iri kontraktın biri haqqında geniş məlumat veririk. Hazırda isə bağlanmış beynəlxalq neft kontraktların sayı 20-ni ötmüşdür.

Qeyd etdiyimiz kimi müqavilələr "pay bölgüsü" prinsipinə əsasən bağlanır və hər bir kompaniyanın payı ayrıca olaraq qabaqcadan təyin edilir. Əyanilik üçün cədvəl 39-da 1994-1997-ci illərdə bağlanmış bir neçə neft müqaviləsinin adı, iştirak edən ölkələrin siyahısı və "məhsulun pay bölgüsü"ündə faizlə payı göstərilmişdir.

**Cədvəl 39**

**Azərbaycan Respublikasının 1994-1997-ci illərdə bağlandığı bir neçə neft müqavilələrində xarici kompaniyalar və onların payı (%-lə)**

| Müqavilənin adı və bağlanma tarixi | Ölkələr | Kompaniyalar | Payları (%-lə) |
|---|---|---|---|
| Azəri, Çıraq, Günəşli (20.09.94) (“Əsrin müqaviləsi”) | Norveç<br>Səudiyyə Ərəbistanı<br>ABŞ<br>ABŞ<br>ABŞ<br>ABŞ<br>Böyük Britaniya<br>Böyük Britaniya<br>Türkiyə<br>Rusiya<br>Yaponiya | Statol<br><br>Delta<br>AMOCO<br>Unocal<br>Exxon<br>Pennzoil<br>BP<br>Remco<br>TPAO<br>Lukoil<br>Itochu | 8,56<br>1,68<br><br>17,01<br>10,05<br>8,0<br>4,81<br>17,13<br>2,08<br>6,75<br>10,00<br>3,92 |
| Qarabağ (11.10.96) | İtaliya<br>Rusiya və İtaliya<br>ABŞ<br>Rusiya | Agip<br>Luk Agip<br>Pennzoil<br>Lukoil | 5,0<br>45,0<br>30,0<br>12,5 |
| Lənkəran-Dəniz<br>Talış-Dəniz<br>(01.13.97) | Fransa<br>Fransa<br>İran<br>Almaniya | Elf<br>Acquitaine<br>Total | 20,0<br>10,0<br>10,0<br>10,0 |

| | | | |
|---|---|---|---|
| | Belçika | OIEC<br>Deminex<br>Petrofina | 5,0 |
| Yalama, Samur,<br>D-222<br>(07.04.97) | ABŞ<br>Rusiya | ARCO<br>Lukoil | 27,6<br>32,4 |
| Oğuz (08.01.97) | ABŞ | Mobil | 50,0 |
| Naxçıvan, D3<br>(08.01.97) | ABŞ | Exxon | 50,0 |
| Abşeron (08.01.97) | Fransa<br>ABŞ | Total<br>Şevron | 20,0<br>30,0 |

## 2.5. İqtisadiyyatın açıqlılıq səviyyəsi

***"Азярбайъан дювлятинин стратежи йолу йалныз демократийа, сярбяст игтисадиййат вя сащибкарлыг йолудур"***

***Щ.Я.ЯЛИЙЕВ***

Hər bir ölkənin iqtisadiyyatı açıq olmalıdır. İndi bu fikir hər yerdə səslənir və doğrudanda belədir. İqtisadiyyatı optimal inkişaf etdirmək üçün xarici əlaqələri genişləndirmək, dünya təsərrüfat sisteminə bağlanmaq lazımdır. Lakin bu məsələnin həllində hər bir ölkə öz maraqlarını nəzərə almalıdır. İlk növbədə, daxili bazarı genişləndirmək və onu vətən məhsulları ilə doldurmaq lazımdır. Bunun üçün isə istehsalın strukturu daxili tələbatın strukturuna maksimum uyğun

gəlməlidir. Planlaşdırma və idarəetmədə bu məsələlərin nəzərə alınması üçün istifadə edilən göstərici "Xarici ticarət dövriyyəsinin ÜDM-da xüsusi çəkisi" göstəricisidir. Bu göstərici müəyyən dövr üçün (adətən bir il) əldə edilmiş xarici ticarət dövriyyəsini (ixrac və idxalın cəmini) həmin dövrdə istehsal edilən ÜDM-a bölməklə təyin edilir. Onun normativ qiymətini inkişaf etmiş ölkələrin əldə etdikləri nəticələri nəzərə almaqla tapmaq olar. Məsələn, dünyanın ABŞ və Yaponiya kimi iqtisadi cəhətdən qüvvətli dövlətlərində bu göstərici 15-16 faiz təşkil edir. Cədvəldə 40-da 1990-2000-ci illərdə Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsi ilə Ümumi Daxili Məhsulun həcmi arasında nisbət göstərilmişdir.

**Cədvəl 40**

**1990-2000-ci illərdə Azərbaycanda xarici ticarət dövriyyəsinin ÜDM-da xüsusi çəkisi**

| | Ölçü vahidi | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| UDM | mln ABŞ dol | 3180,8 | 3960,9 | 4446 ,6 | 4583 ,6 | 5267,8 |
| Xarici ticarət dövriyyəsi | --"-- | 1981,3 | 2183,4 | 2601 ,6 | 2458 ,6 | 3397,3 |
| XTD-nin UDM-da | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| xüsusi çəkisi | % | 62,0 | 51,1 | 59,2 | 53,6 | 64,7 |

Göründüyü kimi Azərbaycan Respublikasının Dünya bazarından asılılığı çox yüksəkdir və 2000-ci ildə bu asılılıq 64,7% təşkil etmişdir.

Bu göstəricidən başqa dünya iqtisadiyyatında hər bir ölkə iqtisadiyyatının açıqlılıq səviyyəsinə də qiymət verilir. İqtisadiyyatın açıqlılığını xarakterizə edən göstəricilərə "UDM-da ixracın kvotası" (İxracın UDM-a nisbəti, faizlə); "Ayrı-ayrı məhsul və xidmət növləri istehsalında ixracın kvotası" (məsələn: neftin ümumi hasilatında ixrac olunan neftin xüsusi əçkisi); "İstehlakda idxalın xüsusi çəkisi" (məsələn: ölkədə il ərzində istehlak olunan buğdanın ümumi həcmində idxal olunan buğdanın xüsusi çəkisi) göstəriciləri kimi göstəricilər də aid edilir.

Azərbaycan Respublikasının ixrac kvotası cədvəl 41-də verilmişdir. Göründüyü kimi ölkəmizdə ixrac kvotası çox yüksəkdir. Lakin 1996-cı ilə nisbətən 2000-ci ildə kvota 12,6 faiz punktu aşağı düşmüş və 2000-ci ildə 29,5% təşkil etmişdir. Müqayisə üçün göstərə bilərik ki, Rusiyada bu göstərici 10-15% təşkil edir.

**Cədvəl 41**

**1996-2000-ci illərdə Azərbaycan Respublikasında ixrac kvotasının dəyişməsi**

| | Ölçü vahidi | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| UDM | mln ABŞ dol | 3180,8 | 3960,9 | 4446,6 | 4583,6 | 5267,8 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İxracın məbləği | --"-- | 1337,6 | 1375,2 | 1723,9 | 1433,4 | 1539,0 |
| İxracın kvotası | % | 42,1 | 34,7 | 38,8 | 33,7 | 29,5 |

## § 3. AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYESİ

### 3.1. Sənayenin ümumi xarakteristikası

1990-1995-ci illər Azərbaycan iqtisadiyyatında xüsusi bir dövr olub və bu dövrdə baş verən və əsasən ölkənin özündən asılı olmayan sosial-iqtisadi və siyasi hadisə və proseslər ümumi kontekstdə iqtisadiyyata güclü mənfi təsir göstəriblər. Məhz bu dövr iqtisadiyyatın dərin və uzunmüddətli tənəzzül dövrü olub. Lakin dərin və uzunmüddətli tənəzzül iqtisadiyyatın ürəyi olan sənaye istehsalında özünü daha qabarıq şəkildə göstərmişdir. Bunun nəticəsində sənaye məhsulu istehsalı 2000-ci ildə 1990-cı illə müqayisədə 30% azalmışdır. Emal sənayesində geriləmə daha çox güclü olmuşdur ki, bu da çoxlu sayda iş yerlərinin itirilməsinə səbəb olmuşdur. Sənaye məhsulunun ümumi həcminin indeksi aşağıdakı cədvəldə göstərilmişdir (cədvəl 42)

**Cədvəl 42**

**Azərbaycan Respublikasında sənaye məhsulunun ümumi həcminin indeksi (1990-2000) (1990=100)**

| İllər | Bütün sənaye | O cümlədən | | |
|---|---|---|---|---|
| | | hasilat sənayesi | emal sənayesi | elektrik enerjisi, qaz və su təchizatı |

| | | | | |
|---|---|---|---|---|
| 1990 | 100 | 100 | 100 | 100 |
| 1991 | 91 | 97 | 90 | 99,3 |
| 1992 | 63 | 84 | 61 | 81 |
| 1993 | 51 | 78 | 49 | 77 |
| 1994 | 38 | 72 | 35 | 68 |
| 1995 | 30 | 53 | 28 | 64 |
| 1996 | 28 | 52 | 25 | 67 |
| 1997 | 28 | 52 | 25 | 63 |
| 1998 | 29 | 64 | 22 | 66 |
| 1999 | 30 | 77 | 20 | 67 |
| 2000 | 32 | 78 | 23 | 69 |

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasında 1996-97-ci illəri respublika sənayesində sabitləşmə dövrü kimi qiymətləndirmək olar. 1997-ci ildən başlayaraq bu sahədə inkişaf istiqamətində dönüş ilk növbədə 1994-cü ildə imzalanmış “Əsrin kontraktı”nın praktiki cəhətdən reallaşması, sənayenin bir sıra sahələrinə xarici və daxili sərmayələrin yönəldilməsi, kiçik və orta müəssisələrin özəlləşdirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi, yeni müəssisələrin tikilməsi ilə əlaqədar idi. Həyata keçirilən tədbirlər emal səna-yesini zəif əhatə etdiyinə görə geriləmənin dayandırılması əsasən hasilat (neft və qaz hasilatı) sənayesində və elektrik ener-jisinin istehsalında özünü daha açıq göstərirdi.

Ümumi sənaye məhsulunun artmasını əhatə edən üçüncü pillə 1998-2001-ci illəri əhatə edir. Bu pillədə sənaye məhsulunun ümumi həcmi onun 1990-cı ildəki həcminin 32 faizini (2000-ci il) təşkil etmişdir. Lakin bu illərdə də emal sənayesində geriləmə davam etmişdir və 2000-ci ildəki həcminin cəmi 23%-i qədər məhsul istehsal edilmişdir.

Ümumi sənaye üzrə məhsul istehsalının artımı əsasən elektroenergetika, yanacaq, kimya və neft-kimya sənayesi müəssisələrinin hesabına əldə edilmişdir. Bununla belə ayrı-ayrı

sahələrdə maşınqayırma, yüngül, yeyinti və tikinti materialların sənayesi və digər sahələrdə istehsalın aşağı düşməsi davam etməkdə qalmışdır.

Yaranmış mühütin xüsusiyyətləri sənayedə özünəməxsus yeni müəssisələrin meydana gəlməsinə səbəb olmuş və 2001-ci ilin yanvarın biri vəziyyətinə onların sayı 4835-ə çatmışdır. Bu cür müəssisələrin 90%-i "kiçik müəssisə" statusu almış və sənayenin inkişafında nəzərəçarpacaq bir rol oynaya bilməmişlər.

Sənayedə xarici və müştərək müəssisələrin sayı üç dəfədən çox artmışdır. Hazırda respublika sənayesində 37 dövləti təmsil edən 381 xarici investisiya müəssisəsi fəaliyyət gös-tərir.

Dövlət Statistika Komitəsinin məlumatlarından aşkar olur ki, 1995-ci ildən sonra Azərbaycanda həyata keçirilən və iqtisadiyyatın və xüsusən də onun aparıcı sahəsi olan sənaye istehsalının dirçəlməsinə yönələn tədbirlər öz nəticəsini verir. Bu özünü ilk növbədə sənaye məhsulunun ümumi həcminin indeksində göstərir. Cədvəl 43-ün məlumatlarından görünür ki, 1995-ci ildən sonra sənayedə artım qeydə alınıb.

**Cədvəl 43**

**Azərbaycan Respublikasında ümumi sənaye məhsulunun 1995-2000-ci illərdə indeksi (1995-2000)**

| İllər | Bütün sənaye | O cümlədən | | |
|---|---|---|---|---|
| | | hasilat sənayesi | emal sənayesi | elektrik enerjisi, qaz və su təchizatı |
| 1995 | 100 | 100 | 100 | 100 |
| 1996 | 93 | 98 | 90 | 106 |
| 1997 | 94 | 97 | 91 | 99 |
| 1998 | 96 | 121 | 80 | 104 |
| 1999 | 99,1 | 145 | 73 | 105 |
| 2000 | 105,9 | 147 | 84 | 108 |

Beləliklə, 1995-ci illə müqayisədə sənaye istehsalının ümumi həcmində azalma, 1995-ci ilə nisbətən 1996-cı ildə 6,7%, 1997-ci ildə isə 0,9% təşkil edirdi. Sənaye məhsulunun ümumi həcminin stabilləşməsi 1999-2000-ci ildə baş verib və 2000-ci ildə məhsul istehsalı 1995-ci ilə nisbətən 5,9% artdı. Bu artım xam neft və təbii qaz hasilatı hesabına əldə edilmişdir. 1998-ci ildə bağlanmış neft kontraktları öz bəhrəsini verməyə başladı və 1995-ci ilə nisbətən xam neft və təbii qaz hasilatını 1998-ci ildə 21,1%, 1999-cu ildə 45,3% və 2000-ci ildə 47,0% artırmağa imkan verdi. Sənayenin digər sahələrində məhsul istehsalı həcminin azalması isə 2000-ci ildə də baş vermişdir. Məsələn, yerli xammal bazası, münasib istehsal potensialı, yüksək ixtisaslı kadrları olan toxuculuq məmulatları sənayesinin istehsal həcmi 2000-ci ildə 1995-ci ilə nisbətən 84,3% azalmışdır. Müqayisə olunan dövrdə məhsul istehsalının azalması geyim istehsalında 58,1%, həsir və küləşdən hazırlanan məmulatların istehsalı 66,9%, rezin və plastik kütlə məmulatlarının istehsalı – 84,4%, hesablama maşınlarının istehsalı və s. aşağı düşmüşdür.

Respublikanın sənayesində neft çıxarılması mühüm yer tutur. 1997-ci ilin noyabr ayında “Çıraq” yatağının ilk quyusundan neft fantanı vurduğu andan başlayaraq 2000-ci ilin sonuna qədər 12,2 milyon ton xam neft çıxarıldı. Ümumiyyətlə, Azərbaycanda 2000-ci ildə 14 milyon ton neft hasil edilmişdir. Proqnoz məlumatlarına görə 2002-ci

ildə Azərbaycanda çıxarılan neftin ümumi həcmi 15 milyon ton təşkil etməlidir. Neft hasilatı dənizdə və quruda aparılır. Lakin quruda çıxarılan neftin həcmi sürətlə azalır. Bu azalmanın rəsmi həcmi 1990-2000-ci illərdə 1,1 milyon ton xam neftə bərabər olmuşdur. Quruda və dənizdə çıxarılan neftin həcminin dəyişilməsi 1990-2002-ci illər üzrə cədvəl 45-də verilir.

Azərbaycan Respublikasında həmişə neft hasil edilib. Lakin ayrı-ayrı dövrlərdə neftin ümumi həcmi müxtəlif olub. İkinci dünya müharibəsində (1942-ci il) hasil edilən neftin həcmi rekord səviyyəsinə çatıb və 23 milyon ton neftdən də çox təşkil edib. Sonralar qurudan çıxarılan neftin həcmi getdikcə azalmış, dənizdən çıxarılan neftin həcmi isə artmışdır. Hazırda ARDNŞ və ABƏŞ-i arasında neft hasilatı aşağıdakı nisbətdədir (bax cədvəl 44). Göründüyü kimi ABƏŞ-nin çıxardığı neftin həcmi ilbəil artır.

**Cədvəl 44**

| İllər | Neft hasilatı min ton | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | ARDNŞ | ABƏŞ | | |
| | | min ton | xüsusi çəkisi | min ton | xüsusi çəkisi |
| 2000 | 14016,8 | 9013,4 | 64,3 | 5003,4 | 35,7 |
| 2001 | 14600 | 8900 | 60,9 | 5700 | 39,1 |
| 2002 | 15000 | 8800 | 58,6 | 6200 | 41,4 |

**Cədvəl 45**

**Azərbaycan Respublikasında quruda və dənizdə neft hasilatı (1990-2002)**

| İllər | Dənizdə neft hasilatı | | Quruda neft hasilatı | |
|---|---|---|---|---|
| | milyon tonla | respublika üzrə ümumi hasilata görə, %-lə | milyon tonla | respublika üzrə ümumi hasilata görə, %-lə |
| 1990 | 9,9 | 79,5 | 2,6 | 20,5 |
| 1991 | 9,5 | 80,9 | 2,2 | 19,1 |
| 1992 | 9,1 | 82 | 2 | 18 |
| 1993 | 8,3 | 80,8 | 2 | 19,2 |
| 1994 | 7,8 | 81,3 | 1,8 | 18,7 |
| 1995 | 7,5 | 82,3 | 1,7 | 18,5 |
| 1996 | 7,5 | 82,7 | 1,6 | 17,6 |
| 1997 | 7,5 | 82,4 | 1,6 | 17,6 |
| 1998 | 9,8 | 86,2 | 1,6 | 13,8 |
| 1999 | 12,3 | 89 | 1,5 | 11 |
| 2000 | 12,4 | 89,2 | 1,5 | 10,8 |
| 2001 (göz.) | 13,1 | 89,2 | 1,5 | 9,7 |
| 2002 (proq.) | 13,6 | 90,6 | 1,4 | 9,4 |

Neftayırma məhsullarının bir neçə dəfə artırılması üçün respublika sənayesinin böyük imkanları vardır. Əsas məsələ bu imkanlardan bacarıqla istifadə etməkdən ibarətdir. Qeyd edək ki, bütün imkanlardan yaradıcılıqla istifadə edib sənaye məhsulları istehsalını nizama salmaq sahəsində respublikamız dəyərli təcrübə əldə etmişdir. Məsələn, son illər neft-mədən avadanlıqlarının, sementin, şiferin, gil-torpağın və s.

istehsalının artması müşahidə olunur. Kassa aparatları, mikrokalkulyator, televizor, telefon aparatları, məişət elektrik cihazlarının (kofe üyüdən, ət çəkən, şirə çıxaran) istehsalları mənimsənilmişdir.

Sənaye ölkənin iqtisadi sərbəstliyinin güclənməsinə ən çox təsir edən sahədir. Ayrı-ayrı sənaye və ərzaq məhsullarını istehsal etməklə bir sıra istiqamətlərdə səmərə əldə etmək olar. Bu sahədə də müəyyən təcrübə əldə edilmişdir. Məsələn, əvvəllər xarici ölkələrdən idxal olunan bir neçə malların müəy- yən hissəsi Azərbaycanda istehsal olunur. “Teksun yağ sənaye”, “Koka Kola”, “BM-SUN”, “Azəri-Kastel”, “European-To- bako”, “Nehir”, “Simens”, “DLD”, “Bərəkət”, “Azer-Pen”, “Turk-Baycan” və digər xarici və müştərək müəssisələrin məhsulları buna misal ola bilər. Bu müəssisələrin istehsal etdikləri məhsullar dünya standartlarına cavab verir və daxili bazarın tələ-batlarını ödəyir. Eyni zamanda belə müəssisələrdə yeni iş yer-ləri yaranmış və dövlət büdcəsinə çoxlu vəsait daxil olmuşdur.

Lakin əldə edilən bu müsbət nəticələrlə yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası sənayesinin inkişafında çatışmazlıqlar vardır. İlk növbədə sənayenin sahə strukturunu qənaətbəxş hesab etmək olmaz. Son zamanlar Azərbaycanda həyata keçirilən tədbirlərdə sənayenin neftlə əlaqədar olan və qeyri-neft sektorlarının inkişaf etdirilməsinə fikir verilir. Bunun nəticəsində iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisi nisbətən artırılır. Bu meyillə sənayenin inkişafı 2002-ci ildə də davam etdiriləcək. Görülən tədbirlər nəticəsində UDM-da iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisinin 2002-ci ildə 75,4% təşkil edəcəyi gözlənilir (cədvəl 46).

**Cədvəl 46**

**ÜDM-nun ümumi həcmində neft sektoru payının dəyişməsi**

| | **ölçü vahidi** | **2000-ci il** | **2001-ci il** | **2002-ci il proqnoz** |
|---|---|---|---|---|
| ÜDM: | Mlrd.man. | 23566 | 26460 | 28746 |

| | | | | |
|---|---|---|---|---|
| ondan | % | 100 | 100 | 100 |
| Neft sektoru xüsusi çəkisi | mlrd.man. % | 6186 26,25 | 7133 26,96 | 7076 24,62 |
| Qeyri-neft sektoru xüsusi çəkisi | Mlrd.man. % | 17380 73,75 | 19327 73,04 | 21670 75,38 |

Bütün bunlarla yanaşı ölkənin sənayesində iqtisadi baxımdan iki neqativ hal nəzərə çarpır. Birincisi, sənaye məhsulunun ümumi həcmi keçən əsrin 90-cı illərinin əvvəlində əldə edilmiş səviyyədən çox aşağıdır. İkincisi, sənayedə səmərə- liliyi xarakterizə edən göstəricilər pisləşir. 1990-2000-ci illərdə sənayedə ümumilikdə 215,9 min iş yeri itirilib. Dövlət Statistika Komitəsinin məlumatlarına görə səmərəliliyin ümumi göstərici- si olan fondveriminin səviyyəsi isə müqayisəli qiymətlərlə 1990-cı ildəki 3,07 manatdan 2000-ci ildəki 0,51 manata qədər aşağı düşmüşdür. Göründüyü kimi baxılan göstəriciyə görə səmərəlilik altı dəfədən də çox aşağı düşmüşdür (bax cədvəl 47).

**Cədvəl 47**

**Sənayenin ümumi iqtisadi göstəriciləri**

| | **Ölçü vahidi** | **1990** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|---|---|
| Məhsulun həcmi (qüvvədə olan fakt. qiym.) | milyard man | 1220 | 8855,9 | 1196,4 | 1256,9 | 11619,7 | 12945,2 | 16681,0 |
| Müəssisələrin sayı | ədəd | 3839 | 2984 | 3601 | 4189 | 4637 | 4611 | 4835 |
| SİI-in sayı | min nəf. | 409,1 | 304,3 | 271,7 | 214,6 | 191,8 | 186,0 | 193,2 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| ƏİF (ilin sonuna, 2000-ci ilin müqayisəli qiymətləri ilə) | milyard manat | 14348,0 | 21954,1 | 26915,7 | 26969,6 | 27293,2 | 27648,0 | 28614,9 |
| Fondverimi | manat | 3,07 | 0,83 | 0,59 | 0,52 | 0,52 | 0,51 | 0,51 |

Hər hansı bir ölkə sənayesinə qiymət verərkən adətən ümumi göstəricilərdən istifadə edilir. Bazar iqtisadiyyatı şəraitində ölkənin ayrı-ayrı iqtisadi rayonlarında sənayenin vəziyyəti ən önəmli məsələlərdəndir. İqtisadi ərazilərin sosial-iqtisadi inkişafında sənaye aparıcı rol oynayır. Buna görə də ölkə miqyasında sənayenin inkişaf etdirilməsi paralel olaraq müəssisələrin ölkə ərazisində düzgün yerləşdirilməsini nəzərə almalı və ərazi vahidlərinin sənaye cəhətdən mənimsənilməsini nəzərdə tutmalıdır. 1990-cı ildən başlayaraq regionda baş vermiş siyasi və sosial-iqtisadi hadisələr Azərbaycan Respublikasında sənayenin inkişaf sürətinə mənfi təsir göstərdiyi kimi ayrı-ayrı ərazilərin sənayesinə də mənfi təsir göstərə bildi. Rayon və şəhərlərin iqtisadiyyatı dağılmaq həddinə çatdı. İqtisadiyyatın aparıcı sahəsi olan sənaye müəssisələri tam gücü ilə fəaliyyət göstərə bilmədilər (bax cədvəl 48).

**Cədvəl 48**

**NMR və respublika tabeli şəhərlər üzrə sənaye məhsulunun ümumi həcminin indeksi (1990 = 100 faizi)**

| Rayonlar | 1991 | 1995 | 1997 | 1999 | 2000 |
|---|---|---|---|---|---|
| NMR | 94 | 16 | 4,5 | 3,2 | 3,4 |
| Bakı | 108 | 53 | 54 | 57,4 | 61,4 |
| Gəncə | 98 | 17 | 6 | 6,4 | 13,6 |
| Sumqayıt | 100,7 | 18 | 12 | 10,4 | 10,7 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Mingəçevir | 114 | 41 | 3 | 37,9 | 39,7 |
| Əli Bayramlı | 88 | 63 | 63 | 55,1 | 55,1 |
| Yevlax | 90,5 | 26 | 9 | 2,3 | 3 |
| Lənkəran | 72 | 9,9 | 13,6 | 26,6 | 30,6 |
| Şəki | 105,7 | 12 | 3 | 2, | 1,4 |

Azərbaycan Respublikasının tabeliyində olan şəhərlərdə belə sənaye istehlakı dəfələrlə aşağı düşmüşdür. Tədqiqat göstərdi ki, keçən on il ərzində iqtisadi rayonların sənayesini bərpa etmək mümkün olmamışdır. 2000-ci ildə istehsal edilmiş sənaye məhsulunun ümumi həcmi 1990-cı illə müqayisədə Naxçıvan Muxtar Respublikasında cəmi 3,4%, Bakı şəhərində 61,4%, Gəncədə 13,6%, Sumqayıtda 10,7%, Mingəçevirdə 39,7%, Əli Bayramlıda 55,1%, Yevlaxda 3%, Lənkəranda 30,6%, Şəkidə 1,4% təşkil etmişdir.

Bütün ölkələrdə xarici ticarət əlaqələrinin inkişafında sənaye mühüm yer tutur. Həm daxili və həm də xarici bazarlara hazır məhsul çıxarılması bazar iqtisadiyyatında başlıca şərtdir. Əldə edilən məhsulların həcmi sənayenin bütün sahələrində azaldığına görə respublikanın xarici bazarlardan asılılığı artmışdır. Cədvəl 49-da 1990-1999-cu illərdə Azərbaycan Respublikasında yeyinti sənayesinin ən mühüm məhsul növlərinin adambaşına istehsalının dəyişməsi verilmişdir. 1990-cı ilə nisbətən 1999-cu ildə respublikada sənayedə emal edilmiş ət istehsalı 5 dəfədən çox, kolbasa məmulatı istehsalı 30 dəfədən çox, üzlü pendir – 25 dəfədən çox, bitki yağı istehsalı – 4 dəfə, meyvə və tərəvəz konservləri istehsalı 20 dəfədən çox,

**Cədvəl 49**

**Azərbaycan Respublikasında yeyinti məhsulları sənayesinin ən mühüm məhsul növlərinin adambaşına istehsalının dəyişməsi (1990-1999) (kiloqram)**

| Yeyinti məhsullarının adı | 1990 | 1999 | 1999-cu ilin 1990-cı ilə nisbəti, % |
|---|---|---|---|
| Ət (sənayedə emal edilmiş) | 8,7 | 1,7 | 19,5 |
| Kolbasa məmulatı | 2,4 | 0,08 | 3,3 |
| Üzlü pendir | 2,4 | 0,09 | 3,8 |
| Kərə yağı | 0,5 | 0,6 | 120 |
| Üzlü süd | 28,7 | 21,5 | 74,9 |
| Marqarin məhsulları | 2,7 | - | 0 |
| Bitki yağı | 5,8 | 1,5 | 25,8 |
| Konservlər (banka) | 91,1 | 4,3 | 47,2 |
| Meyvə-tərəvəz konservləri | 87,8 | 4,3 | 4,7 |
| Qənnadı məmulatları | 14,8 | 0,08 | 0,6 |
| Makaron məmulatları | 3,2 | 0,06 | 1,8 |
| Mineral sular (litr) | 11,5 | 0,2 | 1,7 |
| Spirtli içkilər (litr) | 6,8 | 4,1 | 60,3 |
| Duz (hasilat) | 13,9 | 0,4 | 2,8 |

makaron məmulatları istehsalı 50 dəfədən də çox, mineral sular buraxılışı 60 dəfə, duz istehsalı 30 dəfə aşağı düşmüşdür.

Sənayenin mühüm sahələri olan yüngül sənaye də ümumi sənayeyə nisbətən daha çox geri getmişdir. 1990-cı Azərbaycanda hər cür parçalar istehsalı 150,9 min kv.m təşkil edirdi. 1999-cu ildə isə yüngül sənayedə cəmi 0,8 min kvadratmetr bu cür parça istehsal edilmişdir. Deməli, istehsal özünün ən aşağı səviyyəsinə enmişdir və 1990-cı ilə nisbətən 150,1 min kv.metr az parça istehsal edilmişdir. Yüngül sənaye məhsullarının növləri üzrə istehsal həcminin dəyişməsi cədvəl 50-də verilmişdir. Göründüyü kimi corab, trikotaj, ayaqqabı, üst köynəklər, gödəkçələr istehsalı demək olar ki, tam dayanmış, xalça və xalçaçılıq məmulatları istehsalı isə 99 dəfə azalmışdır. 1999-cu ildə

cəmi 20 min kv.metr xalça və xalçaçılıq məmulatları istehsal edilmişdir ki, bu da 1990-cı ildəki həcm-dən 2223 min kv.metr azdır.

Sənayenin ürəyi adlanan maşınqayırmada yaranmış vəziyyət heç də yüngül sənayedə bərqərar olmuş vəziyyətdən yaxşı formalaşmamışdır. 1999-cu ildə respublika üçün çox mühüm əhəmiyyət kəsb edən mancanaq dəzgahları, dərinlik nasoslarının ştanqları, uşaq velosipedləri kimi məhsulların istehsalı tam dayandırılmış, soyuducular, qaz plitələri, fəvvarə armaturları, dərinlik nasosları, kondisionerlər, yuyucu aqreqatlar kimi məhsulların istehsalı isə orta hesabla 95-98 dəfə aşağı düşmüşdür (bax cədvəl 51).

**Cədvəl 50**

**Yüngül sənaye məhsullarının növləri üzrə istehsalın də-yişməsi**

| | Ölçmə vahidi | 1990 | 199 5 | 1997 | 1999 |
|---|---|---|---|---|---|
| Hər cür parçalar | min kv.m. | 150, 9 | 59,5 | 16,9 | 0,8 |
| O cümlədən: | | | | | |
| Pambıq parça | --"-- | 101, 6 | 579 | 16,8 | 0,8 |
| Yun parça | --"-- | 10,7 | 0,6 | 0,04 | 0,06 |
| İpək parça | --"-- | 33,6 | 0,8 | 0,05 | - |
| Qeyri-toxunma | --"-- | 5,1 | 0,2 | 0 | - |

| | | | | | |
|---|---|---|---|---|---|
| mat. | | | | | |
| Corab məmulatları | min cüt | 37,8 | 8,3 | 3,4 | 1,0 |
| Trikotaj məmulat. | min ədəd | 36,7 | 5,8 | 1,4 | 0,5 |
| Ayaqqabı | min cüt | 15,2 | 0,8 | 0,3 | 0,05 |
| Xalça və xalçaçılıq məmulatları | min kv.m. | 2243 | 77 | 40 | 20 |
| Palto və plaş | min ədəd | 518 | 8 | 76 | - |
| Kostyumlar | --"-- | 1301 | 38 | 2 | 6,5 |
| Paltarlar | --"-- | 6363 | 110 | 50 | 9,4 |
| Şalvarlar | --"-- | 4106 | 103 | 204 | 11 |
| Gödəkçələr | --"-- | 515 | 94 | 0 | 1 |
| Üst köynəkləri | --"-- | 6096 | 324 | 1 | 1 |

**Cədvəl 51**

## Maşınqayırma məhsullarının ən mühüm növlərinin istehsalı

| Məhsullar | ölçmə vahidi | 1990 | 1995 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|
| Mancanaq dəzgahlar | min ədəd | 5,2 | 0,06 | 0,07 | 0,04 | - |
| Dərinlik ştanq nasosları | --"-- | 73 | 23,8 | 15,7 | 14,8 | 12 |
| Dərinlik nasos ştanqları | --"-- | 527 | 0,5 | 17,7 | 4,3 | - |
| Dəyişən cərəyan el.mühərrikləri | min. kvt | 4860 | 512 | 416 | 224 | 17 |
| Güc transformatorları | min. kvt | 1996 | 56 | 116,7 | 80 | 23 |
| Fəvvarə armaturları | min dəst | 6,6 | 0,7 | 0,6 | 0,3 | 0,07 |
| Yuyucu aqreqatları | ədəd | 764 | 36 | 51 | 47 | 16 |
| Quyuların təmiri və mənimsənilməsi üçün aqreqatlar və qaldırıcılar | ədəd | 485 | 37 | 60 | 43 | 14 |
| Soyuducular və buzla-yıcılar | min ədəd | 330 | 25 | 0,1 | 3,4 | 0,6 |
| Məişət soyuducuları üçün kondisioner | min ədəd | 1000,4 | 57,8 | 5,6 | 4,1 | 0,5 |
| Kondisionerlər | min ədəd | 309 | 64 | 36,5 | 9,6 | 2,3 |
| Uşaq velosipedləri | min ədəd | 130 | 5 | 0 | 0 | 0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Kassa aparatları | ədəd | - | - | 3643 | 2248 | 987 |
| Qaz piltələri | min ədəd | 45 | 4,4 | 0,4 | 0,662 | 0,86 |

Digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da ÜDM-nun tərkibində sənaye mühüm yer tutmalıdır. Məlum olduğu kimi 1991-ci ildə müstəqillik qazanmış və bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan respublika böyük iqtisadi və siyasi çətinliklərlə qarşılaşmış və bu da ölkənin ÜDM-nun həcminə və strukturuna öz təsirini göstərmişdir. Bazar münasibətlərinə keçid plan iqtisadiyyatı üçün nəzərdə tutulmuş idarəetmə və stimullaşdırma mexanizmlərinin saxlanılması və yaxud da pozularaq yenisinin yaradılması şəraitində baş vermiş və nəticədə 1990-cı illərin əvvəllərindən 1995-ci ilə qədər ölkə iqtisadiyyatında yaranan geriləmə prosesi ÜDM-in həcminin hər il orta hesabla 13-20 faiz azalmasına səbəb olmuşdur. 1990-1995-ci illərdə baş verən gerilik ÜDM-nun strukturunda sənayenin xüsusi çəkisinin azalmasına səbəb olsa da görülən tədbirlər nəticəsində sonrakı illərdə vəziyyət nisbətən yaxşılaşmış və sənayedə yaranmış əlavə dəyərin Ümumi Daxili Məhsulda xüsusi çəkisi 1994-cü ilə nisbətən 11,6% artaraq 2000-ci ildə 32,0% təşkil etmişdir (2001-ci ildə bu faiz 34-ə çatacaq və proqnoz məlumatına görə 2002-ci ildə –35 təşkil edib. İqtisadiyyatın aparıcı sahəsi olan sənayenin payının ÜDM-nun həcmində artması əsasən neft sektorunun hesabına baş verir. ÜDM-in sahə strukturu və onun dəyişməsi cədvəl 52-də verilmişdir.

**Cədvəl 52**

**ÜDM-nun sahə strukturunun dəyişməsi (%-lə)**

| | **2000** | **2001** | **2002 (proqnoz)** |
|---|---|---|---|
| UDM-cəmi | 100 | 100 | 100 |

| | | | |
|---|---|---|---|
| O cümlədən: | | | |
| Sənaye | 32 | 34,2 | 35 |
| Kənd təsərrüfatı | 18,1 | 16,5 | 17,5 |
| Tikinti | 4,4 | 4,6 | 5,0 |
| Xidmət sahələri | 45,5 | 44,7 | 42,5 |
| Onlardan: | | | |
| Ticarət | 6,1 | 6,1 | 6,8 |
| Nəqliyyat və rabitə | 14,5 | 14,5 | 15,3 |
| Digər sahələr | 24,9 | 24,2 | 20,4 |

## 3.2. Ñÿíàéåíèí sahə ñòðóêòóðó

Bazar iqtisadiyyatı şəraitində sənayenin intensiv inkişafına diqqət artırılmalıdır. Bu inkişaf iki mühüm istiqamətdə sənaye sahələrinin inkişaf etdirilməsi və bu sahələrin ölkə ərazisində optimal yerləşdirilməsi istiqamətlərində həyata keçirilməlidir. Hazırda vəziyyət belədir ki, biz əsas diqqəti sənayenin sahə strukturunun inkişafına yönəltmişik və hələlik neft sektorunu inkişaf etdirməyə nail olmuşuq. Neft isə əsasən Bakı şəhərində olduğuna görə istər-istəməz sənayenin ərazi strukturu tələb olunan səviyyədən aşağı formalaşmışdır. Sənayenin ərazi cəhətdən birtərəfli yerləşdirilməsi isə çoxlu əlavə çətinliklər yaradır. İlk növbədə isə bu cür hal məhsuldar qüvvələrin inkişafına mənfi təsir göstərir. Bütün bunlar sənayenin ərazi strukturunun təkmilləşdirilməsini, ölkə iqtisadiyyatını daha da güclü etməyin ən başlıca amilinə çevirmişdir.

Sənaye ölkə iqtisadiyyatında aparıcı mövqe tutur. Burada məsələyə iki cür yanaşmaq olar: kəmiyyət və keyfiyyət baxımından. Kəmiyyət baxımından yanaşdıqda tədqiqatçını sənaye istehsalının ümumi məhsulu, onun illər üzrə həcmi, artım sürəti kimi ümumi göstəricilər maraqlandırır. Keyfiyyət baxımından məsələyə yanaşdıqda isə söhbət sənayeni xarakterizə edən keyfiyyət göstəricilərindən - istehsal olunan məhsulların nomenklatura və çeşidindən, keyfiyyətindən, rəqabət dözümlülüyündən, istehsal xərclərinin

səviyyəsindən, istehsalın rentabelliyindən və s. gedir. Bunlardan başqa, sənayenin ölkə iqtisadiyyatındakı mövqeyini, ölkənin sosial-iqtisadi inkişafındakı, iqtisadi təhlükəsizliyindəki, müdafiə qabiliyyətindəki rolunu tə-yin etmək üçün sənaye struktur cəhətdən öyrənilməlidir.

Sənayenin struktur cəhətdən öyrəniməsində məqsəd çoxşaxəlidir. Burada sənayeni təşkil edən istehsallar, yarımsahələr təyin edilir, xüsusi çəkisi tapılır, istehsal olunan məhsulların ölkənin xammal bazasına uyğunluğu təyin edilir, aparıcı sahələr ortaya çıxarılır və onların inkişaf sürətləri öyrənilir. Bütün bunlarla yanaşı sənayeyə struktur cəhətdən yanaşmağın əsas məqsədi hər bir tərkib hissəsinin sosial-iqtisadi inkişafda və digər məsələlərin həllində yerini təyin etməkdir. Aydınlaşdırılır ki, sənayenin hansı sahəsi sürətlə inkişaf etdirilə bilər. Hansı sahəsinin fəaliyyəti zəifləməli və yaxud da tam dayandırılmalıdır, perspektivdə hansı sahələrin inkişaf sürətləri azala və yaxud da çoxala bilər.

Qeyd edək ki, inkişaf etmiş ölkələr üçün hərəkətverici qüvvə rolunu bir çox cəhətdən məhz sənaye və onun mütərəqqi sahə quruluşu oynayır. Buna görə də ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya və digər inkişaf etmiş ölkələrin sənayesi mütərəqqi quruluşa malikdirlər. Sənayenin sahə strukturunun mütərəqqiliyi onun tərkibində elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirən məhsullar istehsal edə bilən sahələrin xüsusi çəkisi ilə təyin oluna bilər. Bu cür məhsullar əsas etibarilə sənayenin ürəyi adlanan maşınqayırmada istehsal edildiyinə görə bu sahə mütərəqqi sahə hesab edilir. Maşınqayırmanın ümumi sənaye məhsulundakı xüsusi çəkisi çox zaman ölkə sənayesi strukturunun mütərəqqiliyini təyin etmək üçün istifadə edilir. Məsələn, inkişaf etmiş sənaye ölkələrində maşınqayırmanın ümumi sənaye məhsulundakı xüsusi çəkisi 35-45 faiz təşkil edir.

Bundan başqa, sənayenin strukturu həm də optimal olmalıdır. Optimallığa qiymət verilməsi məsələyə yanaşmaqdan asılı olur. Əgər tədqiqatçını istehsal olunan məhsulların cari keyfiyyəti, gələcəkdə keyfiyyətin yaxşılaşdırılması imkanları, məhsulların rəqabət

dözümlüyü, istehsal xərclərinin səviyyəsi və onların aşağı salınması məsələləri, rentabelliyin yüksəldilməsi və s. bu kimi mühüm keyfiyyət göstəriciləri maraqlandırırsa, onda optimal struktur sadaladığımız bu və buna oxşar digər göstəricilərin lazımi səviyyəsini təmin edə bilən struktur olmalıdır. Ümumi şəkildə sənayenin sahə strukturu keyfiyyət baxımından o vaxt optimal hesab edilə bilər ki, əgər sənaye mümkün olan qədər qısa müddətə, minimum istehsal xərcləri ilə rəqabət dözümlü istənilən məhsulu istənilən həcmdə, çeşiddə və nomenklaturada istehsal edə bilsin.

Sənayenin sahə strukturuna, onun optimallıq səviyyəsinə qiymət vermək üçün digər yanaşmalardan da istifadə oluna bilər. Məsələn, əgər tədqiqatçını ölkənin sərəncamında olan maddi-enerji resurslarından, təbii sərvətlərdən, insan resurslarından, ayrı-ayrı məhsullar üzrə əldə olan xammal bazasından istifadə olunması səviyyəsi maraqlandırırsa onda sənayenin strukturuna bu səpgidən yanaşmaq lazımdır. Bu cür yanaşmada ölkə sənayesinin strukturu o zaman optimal hesab oluna bilər ki, ölkə sərəncamında olan resurslardan maksimum istifadə olunmasına imkan yaratsın. Burada söhbət konkret olaraq nədən gedir? Söhbət ondan gedir ki, daxili bazarı zənginləşdirmək, daxili bazarı vətən məhsulları ilə doldurmaq üçün ölkənin bütün yeraltı və yerüstü sərvətlərindən xammal kimi istifadə edib konkret məhsul istehsal etmək lazımdır. Lakin bunun üçün ilk növbədə sənayenin sahə quruluşu təkmilləşdirilməli və müvafiq istehsallar, yarımsahələr və sahələr yaradılmalıdır. Bizim respublikamız üçün bunun nə demək olduğunu çoxlu misalla göstərmək olar. Azərbaycan Respublikası həmişə özünün pambığı, üzümü, tütünü, meyvə-tərəvəzi, mineral suları, faydalı qazıntıları və s. ilə zəngin olub. Deməli, sənaye elə istiqamətdə inkişaf etdirilməlidir ki, bu xammallardan maksimum istifadə edilsin. Azərbaycanda olan xammal bazası imkan verir ki, respublikamızda güclü emal sənayesi inkişaf etdirilsin. Belə sahələrə maşınqayırma, yeyinti və yüngül sənayeləri, neft emalı sənayesi və s. daxildir.

Sənaye iqtisadiyyatının aparıcı sahəsidir və onu ölkənin bütün bölgələrində inkişaf etdirməyə səy göstərilməlidir. Yəni respublikanın sənaye müəssisələri ölkə ərazisində proporsional yerləşdirilməlidir. Bunun çox böyük sosial əhəmiyyəti vardır. İlk növbədə bu hər bir iqtisadi rayonda yerli xammal və materiallardan və insan resurslarından səmərəli istifadə olunması üçün münasib şərait yaratmış olur, əhalinin iri şəhərlərə axını azalır, nəqliyyat xərcləri azalır, insanların mədəni, intellektual və yaşayış səviyyələri yüksəlir. Deməli, əgər tədqiqatçını ölkənin bütün ərazilərinin kompleks inkişaf etdirilməsi məsələləri maraqlandırırsa onda söhbət sənayenin ərazi quruşundan getməlidir. Sənayenin ərazi quruluşu ümumi sənaye məhsulunun və yaxud da bu və ya digər sənaye sahəsi məhsulunun hansı hissəsinin (xüsusi çəkisinin) hansı iqtisadi ra-yonda istehsal olduğunu göstərir.

Cədvəl 53-də Azərbaycan Respublikasında sənayenin ümumi məhsul buraxılışı üzrə sahə strukturu verilmişdir. Göründüyü kimi iriləşdirilmiş şəkildə respublikamızda 9 sənaye sahəsi fəaliyyət göstərir. Yanacaq sənayesi 2000-ci ildə sənayenin ümumi məhsulunun 65,5 faizini istehsal etmişdir. 2001-ci ildə yanacaq sənayesinin ümumi sənaye məhsulundakı xüsusi çəki 64,9%, 2002-ci ildə isə - 58,9% səviyyəsinə çatıb. Yanacaq sənayesində neft və qaz hasilatı üstün xüsusi çəkiyə malikdir.

**Cədvəl 53**

**Azərbaycan Respublikası sənayesinin sahə quruluşu (ümumi məhsula görə faizlə)**

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| Sənaye - cəmi o cümlədən | 100 | 100 | 100 |
| Elektroenergetika | 11,7 | 9,9 | 9,4 |
| Yanacaq sənayesi: | 65,5 | 64,9 | 58,9 |
| O cümlədən: | | | |
| neft, qaz hasilatı sənayesi. | 47,7 | 52,9 | 47,5 |
| Neft emalı sənayesi.... | 17,8 | 12,0 | 11,4 |

| | | | |
|---|---|---|---|
| Qara və əlvan metallurgiya | 0,3 | 1,1 | 2,9 |
| Kimya və neft-kimya sənayesi | 3,2 | 3,4 | 4,3 |
| Maşınqayırma və metal emalı sənayesi | 1.8 | 2,6 | 3,4 |
| Tikinti materialları sənayesi | 0,7 | 0,8 | 1,2 |
| Yüngül sənaye | 1,1 | 1,2 | 12,6 |
| Yeyinti sənayesi | 11,0 | 12,8 | 12,6 |
| Digər sahələr | 4,7 | 3,4 | 5,4 |

Baxılan dövrdə yanacaq sənayesinin həcmində hasilat bölməsinin xüsusi çəkisi 2000-ci ildə 48,7% təşkil etmişdir. 2001-ci ildə bu xüsusi çəki artıb - 52,9%, 2002-ci ildə nisbətən stabilləşib 47,5% təşkil edib.

Xam neftin emalı məsələsi respublika üçün böyük əhəmiyyət kəsb edir. Neft emalı sahəsinin sənayenin ümumi məhsulundakı xüsusi çəkisi 2000-ci ildə 17,8 faiz olmuşdur. Bu xüsusi çəkinin 2001-ci ildə 12,0 faizə və 2002-ci ildə 11,4 faizə qədər enib.

Respublika müstəqilliyini bərpa edən ildə onun sərəncamında 20 milyon tondan çox neft emal etmək imkanında olan neftayırma müəssisələri olmuşdur. Onlar indi də fəaliyyət gös-tərirlər. Lakin ortaya çıxan çətinliklər onların istehsal gücün-dən tam istifadə edilməsinə mane olsa da hazırda benzin, ağ neft, dizel yanacağı, yanacaq mazutu və s. bu kimi neft emalı məhsullarının istehsalı artmağa başlamışdır. Azərbaycanda neftin çıxarılması bilavasitə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən (ARDNŞ) və bağlanmış xarici kontrakt-lara əsasən yaradılan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən həyata keçirilir. ARDNŞ-nin hasil etdiyi neftin çox hissəsi emal edilir. Lakin son illərdə emal edi-lən neftin həcminin azalması meyli vardır (bax cədvəl 54).

**Cədvəl 54**

**ARDNŞ-nin sərəncamında olan quyulardan neft hasilatı və onun istifadə istiqamətləri**

| Göstəricilər | Ölçü vahidi | 2000 | 2001 | 2002 |
|---|---|---|---|---|
| Neft hasilatı | min ton | 9013,4 | 8900 | 8800 |
| O cümlədən:<br>İxrac olunan | min ton | 591 | 2500 | 2500 |
| Xüsusi çəki | % | 6,65 | 28,1 | 28,4 |
| Emal olunan xüsusi çəkisi | Min ton<br>% | 8235<br>91,4 | 6400<br>71,9 | 6300<br>71,6 |

Neftin emalı ilk növbədə respublikamızın tələbatlarını ödəmək üçün çox mühüm məhsulların əldə olunmasını təmin edir. Emal sənayesi 2000-ci ildə 861,8 min ton benzin, (o cümlədən 536,9 min ton avtomobil benzini), 1948,1 mühərrik yanacağı, 175 min ton ağ neft, 25,6 min ton məişət soba yanacağı, 73,6 min ton sürtkü yağları, 11,1 min ton neft koksu, 4072,1 min ton soba mazutu və 18,3 min ton neft vitimumu istehsal etmiş və ölkənin xarici ölkələrdən iqtisadi asılılığını azaltmışdır. Neftin emal edilməsinin iqtisadi səmərəsi çoxşaxəlidi. İlk növbədə bu iş yerlərinin istifadəsi, yenilərinin meydana gəlməsi və bu yolla da ölkədə sosial gərginliyin azalması deməkdir.

Müasir dövrün əsas xüsusiyyəti ondadır ki, Azərbaycan sənayesinin strukturu yeknəsəq xarakterlidir. İstehsal olunan ümumi məhsulun 65 faizi yanacaq sənayesinin payına düşür. Yerdə qalan bütün digər sahələrin payına isə cəmi 35% düşür. Bundan da 11,7% elektroenergetika sənayesinin, 3,2%-i kimya və neft-kimya sənayesinin, 4,7% digər sahələrin xüsusi çəkiləridir. Sənayenin aparıcı sahəsi olan maşınqayırmanın vəziyyəti çox pisdir. 1990-cı illərin əvvəlində baş vermiş sosial-iqtisadi və siyasi proseslərin ən çox təsiri də elə maşınqayırma sənayesinə olub. Yaxşı haldır ki, 2001 və 2002-ci illərdə maşınqayırmanın xüsusi çəkisi nisbətən artmışdır. Maşınqayırma və metal emalı sənayesinin xüsusi çəksi 2002-ci ildə 3,4% təşkil edir. Bəs yaxın keçmişdə necə olub? Statistika məlumatlarına görə 1985-ci ildə maşınqayırma və metal emalı sənayesinin payı sənayenin ümumi məhsulunda 16%-dən çox idi. Respublikanın əldə olan istehsal, elmi-texniki və kadr potensialı imkan verir ki, sənayenin aparıcı və mütərəqqi

sahəsi olan maşınqayırma daha sürətlə inkişaf etdirilsin, ilk növbədə bu sahənin inkişaf etdirilməsi yolu ilə sənayenin sahə strukturu təkmilləşdirilsin. Bu sahədə İqtisadi İnkişaf Nazirliyində əməli iş aparılır.

Ümumiyyətlə götürdükdə Azərbaycan sənayesinin sahə strukturu ölkənin potensial imkanlarına tam uyğun gəlmir. Hələlik respublikanın yanacaq-enerji potensialından normal istifadə edilir. Burada da istehsalın genişləndirilməsi üçün daxili imkanlar mövcuddur. Məsələn, mövcud olan neftayırma za-vodlarının müasirləşdirilməsi və tam gücü ilə işə başlaması ildə 20-25 milyon ton neftin emal edilməsinə imkan verər və sənayenin sahə quruluşunda emal sənayesinin xüsusi çəkisini artırar. Azərbaycan sənayesinin sahə strukturunun yaxşılaşdırılması üzrə real yollardan biri yüngül sənayenin inkişaf etdirilməsidir. Bu sahə ənənəvi olaraq həmişə sənayedə xüsusi yer tutub. Hələ 1985-ci ildə yüngül sənayenin ümumi sənaye məhsulunda xüsusi çəkisi 20%-dən çox idi. 2000-ci ilin statistik məlumatlarına görə isə bu sahənin xüsusi çəkisi cəmi 1,1% təşkil etmişdir. Müsbət hal kimi göstərmək olar ki, dövlətin həyata keçirdiyi texniki, təşkilati, iqtisadi və maliyyə tədbirləri nəticəsində bu sahənin getdikcə canlanması hiss olunur və 2002-ci ildə yüngül sənayenin xüsusi çəkisi 1,1%-dən 1,9% qədər artmışdır.

Sənayenin sahə strukturunda yeyinti sahəsi bütün ölkələrdə mühüm yer tutur. Bu ilk növbədə onunla izah olunur ki, ölkələr çalışırlar qida məhsullarına olan tələbatlar maksimum mümkün olan səviyyədə vətən istehsalçıları tərəfindən ödənilsin. Burada sahibkarlıq inkişaf etdirilir və onlar da daxili bazarı yeyinti məhsulları ilə doldurmağa səy göstərirlər. Azərbaycan Respublikasında yeyinti sənayesini inkişaf etdirmək üçün çox gözəl imkanlar vardır. 2000-ci ildə bu sahənin xüsusi çəkisi 11,0%, 2002-ci ildə 12,6% olub. Yada salaq ki, hələ SSRİ vaxtı, necə deyərlər, durğunluq illərində yeyinti sənayesinin ümumsənaye məhsulundakı xüsusi çəkisi 29%-a çatırdı. Yüngül və yeyinti sənayelərinin üstün inkişafı üçün Azərbaycan Respublikasında imkanlar vardır. Bunun üçün ilk növbədə məqsədyönlü

özəlləşdirmə aparmaq və sahələrdə marketinq fəaliyyətini gücləndirmək lazımdır.

Sənayenin strukturu istehsal olunan məhsulların natural həcminə görə də öyrənilir. Bu cür yanaşmanın müsbət cəhətləri ondadır ki, hər bir sahənin istehsal etdiyi məhsul natural şəkildə öyrənilir və sahənin inkişafına qiymət amilinin təsiri aradan qaldırılır.

Sənayenin sahə strukturu natural məhsullar üzrə öyrənildikdə bir mühüm məsələyə də aydınlıq gətirmək üçün şərait yarana bilər. Konkret məhsulun natural şəkildə faktiki istehsal həcmi, ölkənin daxili və xarici bazarının bu məhsula olan tələbatı və bu məhsulların ölkədə istehsal edilməsi imkanları tutuşdurulduqda perspektiv dövr üçün bu və ya digər məhsul istehsalını artırmaq hesabına sənayenin sahə strukturunun təkmilləşdirilməsi istiqamətlərini təyin etmək üçün yaxşı şərait yaranar. Əslində burada söhbət ölkənin sərəncamında olan təbii və insan resurslarından istifadə dərəcəsindən gedir. Bu cür yanaşmada sənayenin formalaşmış strukturu (natural məhsul şəklində) ilə ölkənin maddi-enerji resurslarından optimal istifadə edilməsi şəraitində formalaşa bilən perspektiv sahə strukturu müqayisə olunar və daxili imkanlar ortaya çıxar. Dərin araşdırmalar aparmadan bu gün biz deyə bilərik ki, əldə etdiyimiz struktur Azərbaycanın maddi-enerji, insan resursları, istehsal, elmi-texniki və intellektual potensialı sahələrində mövcud olan imkanları ilə uyğunlaşmır. Respublikamız xam neftin emalını, pambıqdan, tütündən, meyvə və tərəvəzdən, müalicə sularından və s. hazırlanan müxtəlif məhsullar isteh-salını, maşınqayırma, metallurgiya, şərabçılıq istehsalını bir ne-çə dəfə artırmaq imkanına malikdir. Bütün bu imkanların döv-riyyəyə salınması bir sıra təşkilati tədbirlərin işlənib həyata ke-çirilməsini qarşıya qoyur. Burada sənaye müəssisələrinin respublika ərazisində optimal yerləşdirilməsi yolu ilə sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi həlledici amil rolunu oynaya bilər.

**Cədvəl 55**

**Azərbaycan Respublikası sənayesində məşğul olanların sayına görə müəssisələrin qrupları (2000-ci il).**

| | Cəmi müəs. sayı | | O cümlədən işləyənlərin sayına görə | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | 1-50 nəfər | | 51-199 nəfər | | 200 nəfər və artıq | |
| | | | sayı | xüs.çək | sayı | xüs.çək. | sayı | xüs. çək. |
| Sənaye o cümlədən: | 1559 | 100 | 1096 | 70,3 | 280 | 17,9 | 183 | 11,8 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsi | 101 | | 52 | 51,4 | 13 | 12,9 | 36 | 35,7 |
| Emal sənayesi | 1276 | 100 | 973 | 76,2 | 200 | 15,7 | 103 | 8,1 |
| Elektrik enerjisi, qaz və su təchizatı | 182 | 100 | 71 | 39,0 | 67 | 36,8 | 44 | 24,2 |

Azərbaycan Respublikasının sənayesində iri və nəhəng müəssisələr yoxdur. Dövlət Statistika Komitəsi müəssisələrin ölçülərini orada məşğul olan işçilərin sayına görə qruplaşdırır. Ümumi şəkildə qruplaşma bütövlükdə sənayeni və onun başlıca sahələri oan mədənçıxarma sənayesi və karxanaların işlənməsi, emal sənayesi və

elektrik enerjisi, qaz və su təchizatını əhatə edir. 2000-ci ildə sənaye üzrə 1559 müəssisə qruplaşdırılmış və məlum olmuşdur ki, sənayedə işçilərin sayı 1-50 nəfər olan 1096 müəssisə fəaliyyət göstərir ki, bu da müəssisələrin 70,3%-i deməkdir. Məşğul olanların sayı 51-99 nəfər təşkil edən müəssisələrin xüsusi çəkisi 17,96 (280 müəssisə) və 200 nəfər və ondan artıq təşkil edən müəssisələrin xüsusi çəkisi isə cəmi 11,74%-dir (183 müəssisə). Emal sənayesində fəaliyyət göstərən müəssisələrin 76,3%-ində (973 müəssisə) çalışanların sayı 1-50 nəfər təşkil edir. Tədqiqat göstərdi ki, bu cür kiçik müəssisələr bazar iqtisadiyyatlı ölkələrdə yaradılmış kiçik müəssisələr effektini vermir. İnkişaf etmiş və inkişafda olan ölkələrdə kiçik müəssisələrin yaradılması məqsədləri, üsul və yanaşmaları tam başqadır, xüsusən Avropa ölkələrində, Yaponiyada, ABŞ və Kanadada kiçik müəssisələr yeni texnika və texnologiyaların son nailiyyətləri əsasında yaradılır və əsas məqsəd də ölkədə fəaliyyət göstərən sənaye nəhəngləri ilə rəqabətə girmək, monopoliyanın yayılmasına imkan verməmək və dünya standartlarına uyğun və ondan da yuxarı səviyyədə məhsul istehsal etməkdir. Bu cür yaradılan müəssisələr çoxlu ilkin kapital tələb edir və onlar bir növ bilə-bilə güclü riskə gedirlər. Belə müəssisələr adətən «vençur» müəssisələri adlandırılır ki, bunun da Azərbaycan dilinə tərcüməsi riskli müəssisə deməkdir. Tədqiqat göstərdi ki, bu tipli kiçik müəssisə Azərbaycan Respublikası sənayesində yoxdur. Kiçik müəssisələrin əksəriyyətində 3-7 nəfər adam çalışır, onlar da tam gücü ilə işləyə bilmirlər.

## 3.3. Sənayenin ərazi strukturu

Tədqiqat göstərir ki, iqtisad elmi ölkə iqtisadiyyatının sahə problemlərinə daha çox diqqət yetirir. Burada müəyyən mənada obyektiv yanaşmanın elementləri var. İnsan cəmiyyəti yaşayıb fəaliyyət göstərməsi üçün istehsal etməli və bu yolla da öz tələbatlarını ödəməli-

dir. Lakin fərdi və ictimai istehsal ilk növbədə müəyyən ərazidə - kənddə, qəsəbədə, rayonda, şəhərdə və hər hansı bir digər (başqa cür adlandırılan) ərazi vahidində baş verir. Ərazi vahidi - harada ki, istehsal prosesi həyata keçirilir həmişə konkretdir, müəyyən sərhədlərə malikdir, ölkənin bir hissəsidir, orada ölkə əhalisinin müəyyən hissəsi yaşayır, inkişaf edir, ölkənin sosial-iqtisadi inkişafında, siyasi həyatında iştirak edir. Qəbul edilmiş ərazi vahidləri ölkənin iqtisadi inkişafında həlledici rol oynaya bilər. Lakin elə ərazilər də vardır ki, onlar ölkəni hərbi təcavüzdən qorumaq sahəsində daha mühüm rol oynayır. Bütün hallarda ərazi məsələləri və xüsusən də istehsalın ərazi üzrə təşkili ölkəni idarə edənlərin diqqət mərkəzində olmalıdır .

Bazar iqtisadiyyatı şəraitində ayrı-ayrı ərazilərin inkişafı və xüsusən də iqtisadiyyatın ölkə daxilində elmi əsaslar üzrə təşkili xüsusi əhəmiyyət kəsb edən sosial, iqtisadi, mənəvi-psixoloji, hərbi-siyasi problemdir. Bu eyni zamanda asan problem də deyil. Tədqiqat göstərir ki, ölkə daxilində məhsuldar qüvvələrin inkişaf etdirilməsi problemi ərazi üzrə idarəetmənin bütün pillələrində mühüm məsələdir. Hər hansı bir ərazi indiki şəraitdə bazar iqtisadiyyatının üstünlüklərindən istifadə etməkdə geniş və getdikcə artan daxili imkanlara malikdir. Lakin bu daxili imkanlar avtomatik olaraq özü-özünə, təkcə ərazinin öz qüvvələri vasitəsilə tam şəkildə reallaşa bilən məsələ deyildir. Bu imkanların iqtisadi dövriyyəyə keçirilməsi yüksək yaradıcılıq tələb edir. Ancaq məsələyə elmi yanaşma istənilən nəticəni verə bilər. Bu fikrin doğruluğunu dünyanın inkişaf etmiş ölkələri öz təcrübələrində əməli işlərində təsdiq etmişdilər. Bu gün dünyanın sənaye cəhətdən inkişaf etmiş ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya və digər ölkələrinin sosial-iqtisadi inkişaf sahəsində əldə etdikləri yüksək nailiyyətlər bir çox cəhətdən ölkənin iqtisadi inkişafına kompleks yanaşmaq, ərazilərin inkişafına diqqəti artırmaq və ən başlıcası isə sənaye istehsalının ərazi üzrə düzgün və optimal təşkili nəticəsində əldə edilmişdir. Bu ölkələrdə ərazi vahidlərində özünüidarə, özünütəminetmə prinsipləri istehsalın təmərküzləşməsi, ixtisaslaşdırılması,

kooperasiyalaşdırılması məsələlərinin həllində ön planda durur. Ona görə ki, yalnız bu prinsiplərə əməl olunması sonda istənilən nəticəyə - ölkənin bütün ərazi vahidlərində məhsuldar qüvvələrin inkişafı üçün münasib şəraitin yaradılmasına - müəyyən mənada əldə edilməsinə gətirib çıxarır. Məhz bu prinsiplərə həyatda dönmədən əməl olunması əhalinin ölkə ərazisində qeyri-proporsional yerləşməsi prosesinin güclənməməsinə səbəb ola bilər. Əks halda iqtisadiyyata güclü mənfi təsir edə bilən mühit yaranır. Belə bir mühitin yaranması Azərbaycan Respublikasında əyani şəkildə görünür. Sənaye potensialının əsas hissəsinin Bakı və ona yaxın ərazilərdə yerləşdirilməsi əhalinin bura axınını gücləndirir. Nəticədə həm Bakı və onun ətrafında və həm də ölkənin digər rayonlarında xroniki işsizliyin meydana gəlməsi baş vermişdir.

Sənayenin ərazi üzrə təşkilinə olan tələblərin artması bilavasitə ölkəmizdə baş verən dəyişikliklərlə əlaqədardır. Bazar iqtisadiyyatına keçid, mərkəzləşdirilmiş planlaşdırmanın zəifləməsi, sahibkarlığın inkişaf etdirilməsi, yeni-yeni bazar qanunlarının qəbul edilməsi, rəqabətin güclənməsi, obyektiv iqtisadi qanunlara maksimum əməl edilməsi zəruriliyinin güclənməsi, iqtisadiyyatın inkişaf sürətinin artırılması məsələləri ərazi vahidlərində cəmlənmiş material-enerji və insan resurslarından istifadə səviyyəsini yüksəltməyi ən aktual problem kimi qarşıya qoyur. Bütün bunlar dövlət idarəetmə orqanları və xüsusən də İqtisadi İnkişaf Nazirliyinin qarşısında çox məsul və eyni zamanda asan olmayan məsələlərin həllini qoyur. Bu məsələlərə birinci növbədə respublika sənayesinin tam və səmərəli bir orqanizm kimi inkişafını təmin edə bilən və konkret ərazi vahidinə məxsus olan təbii və iqtisadi amil və şərtləri obyektiv olaraq ortaya çıxarmaq, ərazinin sosial-iqtisadi inkişaf modelini formalaşdırmaq, yerli maddi-enerji və insan resurslarından səmərəli istifadə edilməsi ilə əlaqədar olaraq ərazi vahidlərinin inkişafını təmin edə bilən yolları ortaya çıxarmaq daxildir.

Respublika iqtisadiyyatında 1990-1995-ci illərdə baş vermiş gerilik və 1996-cı ildən sonra gerigetmə prosesinin dayandırılması

nəzərə alınmalıdır. Hazırda respublika sənayesində baş verən və ilk növbədə neft hasilatının artırılması ilə əlaqədar olan müsbət dəyişikliklərin dönməzliyini təmin etmək üçün və digər tərəfdən iqtisadiyyatımızın neft hasilatının və xam neft ixrac etməkdən asılılığını azaltmaq üçün sənaye qov-şaqlarının ərazi cəhətdən təhlilini gücləndirməli, konkret ərazi vahidində mövcud sənayenin fəaliyyət səviyyəsi təyin edilmə- li, ərazilər üzrə mövcud sənaye obyektləri və işləməyən müəssisələrin sayı aydınlaşdırılmalı və onun səbəbləri ortaya çıxarılmalıdır. Ərazilərin hansı konkret məhsul istehsal etməsi sahəsində ixtisaslaşa bilməsi bu sahədə aparılan araşdırmaların əsasını təşkil etməlidir. Ərazi vahidlərində sənayenin inkişaf səviyyəsi öyrənilərkən və ayrı-ayrı sənaye istehsallarının inkişaf perspektivləri aydınlaşdırılarkən paralel olaraq aqrar sənaye komplekslərinin vəziyyəti də öyrənilməli və münasib nəticələr çıxarılmalıdır. Məsələlərin bu istiqamətdə həll edilməsi yeni iş yerlərinin yaradılması və əldə olan iş yerlərindən daha səmərəli istifadə olunmasına səbəb olar və ərazilərin bazar iqtisadiyyatına uyğun inkişaf istiqamət götürülməsinə gətirib çıxarar.

Sənayenin ərazi üzrə təşkilinin yaxşılaşdırılması bazar iqtisadiyyatı şəraitində nə dərəcədə zəruridirsə, o dərəcədə də bunun üçün imkanlar vardır. Burada müxtəlif təbii resursların, iqtisadi şəraitin və Azərbaycan Respublikasının əlverişli coğrafi-nəqliyyat mövqeyində olmasından gedir. Bu imkanlardan və şəraitdən səmərəli istifadə edilməsi nəticəsində ərazi vahidlərinin hamısında münasib istehsallar formalaşdırmaq mümkün olar. Nəticədə ölkənin mənsub olduğu maddi-enerji təbii və insan resurslarından səmərəli istifadə olunmasının əsası qoyular. Bu cür mühakimə yürütməyin obyektiv əsası sənayenin hazırkı vəziyyətidir. Bu vəziyyətin xarakterik cəhəti odur ki, geniş imkanların olmasına baxmayaraq sənaye məhsulunun 2000-ci ildəki həcmi 1990-cı ildə istehsal etdiyimiz ümumi məhsulun həcminin haradasa 62-65 faizini təşkil edir. Bu o deməkdir ki, bu gün respublikamız 1990-cı ildəkindən 35 faiz az məhsul istehsal edir. Yada salsaq ki, istehsal

edilən sənaye məhsulunun 65%-dən çoxu (2000-ci il) yanacaq sənayesinin payına düşür, onda qeyri-neft sənayesinin nə vəziyyətdə olması aydın görünər.

Sənayenin qeyri-neft sahələrinin inkişafı bazar iqtisadiyyatı yaratdığımız indiki şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişafının dönməzliyini təmin etmək üçün ən başlıca məsələdir. Tədqiqat göstərdi ki, bu məsələnin həlli, sənayenin ərazi üzrə təşkilini kökündən yaxşılaşdırmadan mümkün ola bilməz. Bakı və onun ətrafındakı yaşayış yerlərində kifayət qədər işləyən və gələcəkdə işə salınması mümkün olan işləməyən müəssisələr vardır. O da faktdır ki, elə Bakı və onun ətrafında bu gün minlərlə işsizlər ordusu vardır. Lakin bu qədər işsizin olması heç də o demək deyildir ki, Bakı və onun ətrafında sənaye müəssisələri azdır. Bunun başlıca səbəbi respublikanın rayonlarında sənayenin çox zəif inkişaf etməsi, tikilmiş müəssisələrin isə tam gücü ilə işləməməsidir. Öz rayonlarında, qəsəbələrində iş yeri tapmayan iş axtaran məcbur olub Bakıya üz tutur. Deməli, istehsalın ərazi üzrə təkmilləşdirilməsi eyni səviyyədə Bakı və onun ətraf kənd və qəsəbələrində artıq əhalinin toplanması prosesini dayandırmaq üçün də zəruridir.

Sənayenin ərazi üzrə düzgün yerləşdirilməməsi nəticəsində ölkə iqtisadiyyatına güclü ziyan dəyir. Dəyən ziyanın xarakteri, ölçüsü, müddəti müxtəlif amil və şərtlərdən asılı olur. İqtisadiyyatı inkişaf etdirmək baxımından ölkəyə dəyən ziyan qruplaşdırılmalıdır. Ölkənin bir nöqtəsindən (rayonundan) digər nöqtəsinə insan axını öz minimal həddini aşdıqda və proses xroniki xəstəlik şəkli aldıqda iqtisadiyyata dəyən ziyanlar ayrıca qrup şəklində öyrənilməlidir. Ərazi cəhətdən sənayenin birtərəfli yerləşdirilməsi nəticəsində ölkəyə dəyən ziyanın meydana çıxması mexanizminə nəzər salaq. Bunun üçün ilk növbədə yada salaq ki, tarixi baxımdan insanın məskunlaşdığı yer (qəsəbə, kənd, rayon) müəyyən ilkin xüsusiyyətlərinə görə insanların orada toplanmasına və fəaliyyət göstərməsinə səbəb olur. İlkin şərt rolunu həmişə insanların məskunlaşacağı ərazinin təbii resursları oynayır. Təbii

resurslardan istifadə edib öz tələbatlarını ödəmək arzusu ilə konkret əraziyə gəlib burada məskunlaşan ilk insanlar sonradan ərazi inkişaf etdikcə çoxalır. Ərazi əhalisinin artması digər rayonlardan bura gəlmələr hesabına da baş verir. Lakin iqtisadi baxımdan əsas məsələ bu deyil. Söhbət ərazidə məskunlaşan əhalinin iqtisadiyyatın hansı sferasında, hansı iqtisadi fəaliyyətlə məşğul olmasından getməlidir. Məsələn, şəhərlərin salınmasında ilkin şərt ərazinin təbii resurslarından səmərəli istifadə edilməsi olsa da sonradan əhalinin sayı artdıqca xidmət sahələrinin üstün inkişaf etdirilməsi zərurəti ortaya çıxır. Buna görə də hər bir ərazi vahidində fəaliyyət göstərən iqtisadiyyatı iki qrupa bölüb hər qrupu ayrıca öyrənmək lazımdır. Birinci qrupa istehsal sahələri daxildir. Burada söhbət iqtisadiyyatın elə sahələrindən gedir ki, bu sahələrdə ərazinin təbii resurslarından istifadə etməklə cəmiyyətin tələbatlarını ödəyə bilən və yaxud da region üçün əlavə mənfəət qazanmaq məqsədilə qonşu regionlara, yaxud da lap xarici ölkələrə ixrac oluna bilən hər hansı bir məhsulun istehsalı ilə məşğul olan sahələrdən gedir. Bu sahələr elmdə ərazini formalaşdıran sahələr adlanır. Lakin ərazidə istehsal sahələrindən başqa müxtəlif məişət və xidmət sahələri və infrastruktur (nəqliyyat, təmir, təchizat və s.) sahələr də fəaliyyət göstərirlər. İnfrastruktur sahələr də iki qrupa - istehsal və sosial infrastruktur bölmələrinə ayrılır. Lakin buna baxmayaraq bunların hər ikisi regionda formalaşmış və fəaliyyət göstərən iqtisadiyyata xidmət göstərir. Bu sahələrə elmdə əraziyə xidmət göstərən sahələr deyilir.

İqtisadiyyat və onun səmərəliliyi baxımdan insanların məskunlaşdıqları ərazidə (kənd, qəsəbə, şəhər, rayon) istehsal və xidmət sahələrinin nisbəti məsələsi böyük əhəmiyyət kəsb edən məsələdir. Bu sahələr arasında nisbət optimal olmalıdır. Optimallıq isə istehsal sahələrinin mövcudluğu, onların intensiv fəaliyyət göstərməsi, rentabelli işləməsi ilə bilavasitə şərtlənməlidir. Məsələyə bu xür yanaşmağın səbəbləri vardır. İlk obyektiv səbəb ondan ibarətdir ki, əgər nə vaxtsa insanların məskunlaşdığı ərazi dövlət və yerli hakimiyyət orqanları

tərəfindən elmi cəhətdən idarə olunmursa, onda ərazi vahidində məskunlaşmış əhalinin istehsal sahələrində çalışan hissəsi (xüsusi çəkisi) getdikcə azalır və əksinə, xidmət sahələrində çalışanların sayı çoxalır. Belə mənfi prosesin baş verməsinin müxtəlif səbəbləri vardır. Onların içərisində sənaye istehsalının ərazi üzrə düzgün təşkili məsələsi həlledici amil ola bilər. Belə fikir söyləməyin obyektiv əsası vardır. Məsələ burasındadır ki, ərazi vahidləri meydana gələndə və ondan sonrakı ilk dövrlərdə onlarda formalaşn əraziəmələgətirmə və əraziyə xidmət sferaları arasında nisbət bir qayda olaraq istehsal sferasının üstünlüyü ilə səciyyələnir. Sonradan prosesin düzgün idarə edilməməsi nəticəsində tarazlıq pozulur və səmərəlilik azalır. Bu prosesə mənfi təsir göstərən amillərdən başlıcası sənayenin ölkə ərazisində düzgün yerləşdirilməməsidir. Məsələn, fəaliyyət göstərən ərazi vahidinin yanında və yaxud da ondan uzaqda iri bir sənaye müəssisəsi tikildikdə, konkret ərazinin özündə sənaye müəssisələri tam gücü ilə və yaxud da heç işləmədikdə, bir ərazi vahidi digərinə nisbətən sürətlə inkişaf etdikdə, urbanizasiya prosesləri gücləndikdə və qabağı alınmadıqda əhalinin bir rayondan digərinə miqrasiyası prosesi güclənir. Bir müddət keçdikdən sonra isə ölkə ərazisinin bir tərəfində iqtisadi fəaliyyət zəifləyir, digərində güclənir və yaxud da indiki dövr kimi, hər yerdə istehsal prosesi zəifləyir. Belə olan halda əhali arasında işsizlik yayılır və əhali axını nisbətən iş yeri olan ərazilərə tərəf istiqamət götürür. Bu cür hal əhalinin gəldiyi rayonlarda da vəziyyəti gərginləşdirir. Gələnlərin çoxu iş tapa bilmədiklərindən şəhərdə qeyri-istehsal sahələrində fəaliyyət göstərməyə və yaxud da xırda alverlə məşğul olmağa başlayırlar. Konkret bir şəxsin iş tapıb-tapmamasından asılı omayaraq əhalinin gəldiyi ərazi vahidində məskunlaşmaların sayı artır və həmin ərazinin istehsal və xidmət sferaları arasında nisbət əraziyə xidmət sahələrinin xeyrinə, bütövlükdə isə iqtisadiyyatın ziyanına dəyişir.

İqtisadi cəhətdən fəal əhalinin çox hissəsi Bakı və Abşeron yarımadasına cəmlənmişdir. Onların da çoxu işlə təmin edilməmişdir və hərə bir cür dolanır, xırda alverlə məşğul olurlar. Bazarlar da, küçələr

də, meydançalar da, yarmarkalar da adamla doludur. Onlar bir-birilərinə xidmət göstərməklə məş-ğul olurlar. Şəhər əmələgətirən sahələrin sümük və əzələləri olan sənaye müəssisələrinin çoxu isə ya işləmir, ya da layihə güclərindən çox aşağı rejimdə fəaliyyət göstərirlər. Bakıda və onun ətrafında əhalinin sıxlığı artıb, şəhər əhalisinin sayına görə ekstensiv olaraq böyüyüb, nəqliyyat xidməti gərginləşib, avtobus marşrutlarının sayı iləbil artır və yenə də azlıq edir. İndi hər gün şəhərdaxili sərnişin daşıması prosesini digər nəqliyyat növlərindən başqa 2650 avtobusun həyata keçirməsini göstərmək kifayətdir. Müqayisə üçün qeyd edək ki, 1985-90-cı illərdə Bakıda avtobus marşrutlarının sayı iki və üç rəqəmli ədədlərlə göstərilirdi. Şəhərdə avtobus və digər minik maşınlarının artmasının səbəblərindən başlıcası respublikanın digər bölgələrində iş yerlərinin olmaması üzündən əhalinin Bakıya kütləvi axınıdır. Belə bir şərait Bakı kimi bir şəhəri zərərlə işləmək təhlükəsi qarşısında qoyub. Təxmini hesablamalar göstərir ki, Bakıda məskunlaşmış iqtisadi fəal əhalinin çox hissəsi xidmət sahəsində fəaliyyət göstərirlər, yaxud da küçə alveri iə məşğuldurlar.

Sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi bir sıra istiqamətlərdə aparılmalıdır. Təkmilləşdirmə əhatə dairəsinə görə fərqləndirilməli və konkret məsələyə həsr edilmiş məqsədli proqramlar işlənib hazırlanmalıdır. Əhatə miqyasına görə sənayenin ərazi təşkilinin təkmilləşdirilməsi iri şəhərlər miqyasında, rayonlar miqyasında, iqtisadi zonalar miqyasında və bütövlükdə respublika miqyasında aparılmalıdır. Əhatə dairəsinə görə təkmilləşdirmədə qarşıya qoyulan məqsəd müxtəlif ola bilər. Məsələn, iri şəhərlər miqyasında təkmilləşdirmə sosial, iqtisadi və sosial-iqtisad yönlü ola bilər. Əgər sənayenin şəhər miqyasında ərazi cəhətdən təkmilləşdirilməsi sosial yönümlüdürsə onda müəssisələrin yerləşdirilməsi əhalinin sıx yaşadığı məntəqələrə yaxın yerdə, güclü ekoloji çirklənmə yaratmayan yeni, lakin çox da böyük olmayan, qabaqcıl texniki və texnoloji nailiyyətlərə əsaslanan müəssisələr yaradılmalıdır. Bu imkan verər ki, əhalinin daha çox hissəsi

ictimai-zəruri əməyə cəlb olunsun. Bundan dövlət də çox fayda götürər. Büdcəyə əlavə vəsait həm müəssisələrin mənfəətindən tutulan vergilər hesabına və həm də işləyənlərin əmək haqqından tutulan gəlir vergisi hesabına çoxlu vəsait daxil olar. Müəssisələrin şəhər miqyasında düzgün yerləşdirilməsinin sosial-iqtisadi səmərəsi digər kanallar vasitəsi ilə də əmələ gələ bilər. Məsələn, yaşadığı evdən çox da uzaqda olmayan müəssisədə özünə iş tapan sakin ilk növbədə nəqliyyat xərclərini azaltmış olur. Minlərlə sakin bu cür imkan əldə etmiş olarsa onda iqtisadi və sosial səmərə bir sakin üçün yox, bütün şəhər üçün əldə ediləcək: yaxınlıqda iş yeri tapan sakin nəqliyyatdan az istifadə etdiyi üçün sərnişin daşıyan marşrutların sayı azalaraq, xidmət sağlamlaşacaq, şəhərin ekoloji tarazlığının pozulması təhlükəsi azalacaqdır.

Lakin bütün bunlarla yanaşı sənayenin ərazi strukturunun ölkə miqyasında təkmilləşdirilməsi ən çox səmərə verə bilər. Söhbət burada respublikanın hər bir iqtisadi rayonunda daxili imkanlardan və rayonun yerli təbii sərvətlərindən maksimum istifadə edilməsini nəzərdə tutan emal müəssisələrinin yaradılmasından gedir. Məsələ belə qoyulmalıdır: rayon sakini öz rayonunda iş yeri tapmaq imkanına maksimum malik olmalıdır. Bu prosesi icra hakimiyyəti ilə birlikdə bələdiyyələr idarə etməli və bütün yollardan istifadə edib hər il dövlət büdcəsinə əlavə vəsait köçürməyə nail olmalıdırlar.

Sənayenin ərazi strukturunun təkmilləşdirilməsi ərazilərin iqtisadi sərbəstliyinin yüksəldilməsi və eyni zamanda Azərbaycan Respublikasının iqtisadi gücünün artmasında rayonların məsuliyyətinin artırılması üçün labüd şərtdir. Tədqiqat göstərdi ki, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla respublika tabeçiliyində olan rayonların sayı bu gün 67-dir. 2002-ci ildə bu rayonlarda mərkəzləşdirilmiş xərclərdən (büdcə xərclərindən) 813670,3 milyon manat (təxminən 165 milyon ABŞ dolları) pul ayrılması planlaşdırılıb. Bu vəsait yerli gəlir və xərcləri tənzimləmək üçün nəzərdə tutulur. Bəs bu tənzimlənmənin mahiyyəti nədər ibarətdir? Məsələ burasındadır ki, bu gün iqtisadiyyatımızın idarə edilməsinin təsərrüfat mexanizmi elə bir

mühitin yaranmasına səbəb olmuşdur ki, Azərbaycan Respublikasında Dövlət Statistika Komitəsinin təyin etdiyi 67 ərazi vahidlərinin hamısı mərkəzləşdirilmiş xərclərdən daxilolmalarsız fəaliyyət göstərə bilmirlər. Azərbaycanda öz xərclərini öz gəlirləri ilə ödəyən yeganə ərazi vahidi Bakıdır. Bir neçə rəqəmə müraciət edək.

Milli Məclisin qəbul etdiyi müvafiq sənədlərə görə 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının, respublika tabeli şəhər və rayolarının yerli gəlirləri 601707,9 milyon manat, yerli xərclərin isə 1415378,2 milyon manat təşkil edəcəyi planlaşdırılır. Deməli, yerli gəlirlər yerli xərclərin cəmi 42,5 faizini ödəyir. Göründüyü kimi Azərbaycan Respublikası üzrə rayonların mərkəzdən asılılığı ümumi şəkildə 60 faiz təşkil edir. Lakin ayrı-ayrı rayonların mərkəzdən asılılıq əmsalı daha yüksəkdir, cədvəl 56-da respublika tabeli şəhərlər və onların mərkəzdən asılılıq əmsalı göstərilmişdir.

**Cədvəl 56**

| Şəhərlər və rayonlar | Mərkəzdən asılılığı (%-lə) |
|---|---|
| Azərbaycanın bütün bölgələrinin, o cümlədən: | 57,5 |

| | |
|---|---|
| Naxçıvan Muxtar Respublikası | 72,4 |
| Şəhərlər: | |
| Bakı | 0 |
| Əli-Bayramlı | 64,0 |
| Yevlax | 84,2 |
| Gəncə | 51,8 |
| Lənkəran | 81,8 |
| Mingəçevir | 66,8 |
| Naftalan | 82,7 |
| Sumqayıt | 46,4 |
| Xankəndi | ? |
| Şəki | 83,9 |
| Rayonlardan: | |
| Abşeron | 61,4 |
| Ağdaş | 86,3 |
| Ağsu | 87,2 |
| Ağstafa | 82,0 |
| Bərdə | 80,6 |
| Balakən | 84,4 |
| Qəbələ | 83,4 |
| Qobustan | 90,7 |
| Qazax | 86,1 |
| Quba | 81,7 |
| Daşkəsən | 90,2 |
| İmişli | 83,7 |
| İsmayıllı | 83,8 |
| Yardımlı | 93,5 |
| Səlyan | 73,7 |
| Xaçmaz | 80,6 |
| Cəlilabad | 61,4 |

| | |
|---|---|
| Sabirabad | 85,4 |

Göründüyü kimi vəsaitlərin mərkəzləşdirilməsi səviyyəsi çox yüksəkdir. Bu da iqtisadi rayonların təşəbbüskarlığını aşağı salır, onlarda ələbaxımlılıq psixologiyası tərbiyə edir. Əslində 70 ildən də çox bir dövrdə keçmiş SSRİ deyilən bir imperiyada baş verən proses indi Azərbaycan Respublikasında baş verməkdədir. Bu prosesin mahiyyəti ondadır ki, respublikanın 67 bölgəsi il ərzində nə qazanırsa mərkəz onları öz əlində cəmləyir və sonra bir növ bərabərçilik prinsipi ilə rayonlar arasında bölüşdürür. Bunun nəticəsində rayon rəhbərlərinin öz rayonlarında iqtisadiyyatı yüksəltməkdə maraqları azalır ya da ki, heç olmur. Bazar iqtisadiyyatı şəraitində problemə bu cür yanaşmaq yolverilməzdir. Respublika iqtisadiyyatının idarə edilməsi üzrə təsərrüfat mexanizmi elə təkmilləşdirilməlidir ki, ölkənin iqtisadi rayonları yerli resurslardan səmərəli istifadə edilməsində maraqlı olsunlar və ərazi xərclərini maksimum səviyyədə özləri ödəyə bilsinlər.

İqtisadi rayonların mərkəzdən asılılıq dərəcəsinin öyrənilməsi bir daha sübut etdi ki, Azərbaycan Respublikasında sənayenin ərazi üzrə təşkili və deməli, sənaye istehsalının ərazi strukturu bazar iqtisadiyyatının ən mühüm tələblərinə cavab vermir və sənayenin ərazi baxımdan birtərəfli yerləşdirilməsi ölkə iqtisadiyyatının intensiv inkişaf etdirilməsinə mənfi təsir göstərir. Sadə hesablama göstərir ki, əgər iqtisadi rayonların mərkəzdən asılılığını bir faiz azalda bilsək bugünkü şərtlər daxilində respublika büdcəsi xərclərini bu məqsədlər üçün 8136,7 milyon manat azaltmaq olar və onu sosial inkişafa yönəltmək imkanı yaranar. Bu asılılığı 10 faiz azalda bilsək onda Dövlət büdcəsi 81367 milyon manat məbləği qədər sağlamlaşar. Tədqiqat göstərdi ki, bu problemi də bir çox cəhətdən iqtisadi rayonlarda sənayeni və xüsusə də yerli xammal və materiallardan istifadəyə əsaslanan emal sənayesini hərtərəfli inkişaf etdirmək you ilə həll etmək olar. Onu da qeyd edək ki, bu sahədə respublikamızın özünün müsbət təcrübəsi vardır. Məsələn, sənayenin nisbətən inkişaf etdiyi rayonların mərkəzdən asılılığı müvafiq

olaraq zəifləyir. Sənayenin inkişaf etdiyi Bakı şəhərinin mərkəzdən asılılığı heç yoxdur. Sənayenin nisbətən inkişaf etdiyi Sumqayıtda bu asılılığın səviyyəsi 46,4%, Gəncədə - 51,8%, Mingəçevirdə 66,8% təşkil edir. Əksinə səna-yenin çox zəif və yaxud da yox dərəcəsində inkişaf etdiyi Qəbələnin mərkəzdən asılılığı 90,7, Daşkəsənin - 90,2, Yardımlının 0 93,5, Xaçmazın - 80,6, Qazaxın - 86,7% və s. təşkil edir.

Beləliklə, respublikamıza vahid bir orqanizm kimi baxmaq tələb olunur. Bu da özü-özlüyündə ayrı-ayrı ərazi vahidlərində baş verən proseslərə üç tərəfdən yanaşmağı qarşıya qoyur. Birincisi, proseslərin obyektivliyi nəzərə alınmalıdır. İkincisi, proseslərin qarşılıqlı əlaqəli olması və onların qarşılıqlı şərtlənməsi qəbul olunmalıdır. Üçüncüsü, proseslərin tarixi inkişaf prosesinin davamlı olması dərk edilməlidir. Bu üç tərəfli yanaşma iqtisadi rayonların kompleks inkişafına səbəb ola bilər, rayonlarda özünütəminetmə prosesini gücləndirər və nəticədə dövlət büdcəsinə daxilolmalar çoxalar, büdcə xərcləri isə azalar. Lakin burada əsas məsələ rayon və şəhər rəhbərliklərinin ələbaxımlılıq psixologiyasını dağıtmaq olmalıdır. Rayonlarda istehsalı inkişaf etdirmək yolu ilə sənayenin ərazi strukturunun təkmilləşdirilməsi dünyada gedən qloballaşdırma və respublikamızda gedən sabitləşmə və inkişaf prosesləri ilə həmahəng baş verməlidir.

## § 4. AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI

Bir ölkə daxilində baş verən bütün sosial-iqtisadi, siyasi, sosial-psixoloji proseslərin əsasını istehsal təşkil edir. İstehsalın zirvəsində isə ərzaq məsələlərinin həlli durur. Əslində ölkənin təsərrüfat sistemi fəaliyyətinin mühüm, ayrılmaz hissəsini ərzaq, onun istehsalı, bölünməsi, mübadiləsi və istehlakı təşkil edir. Ərzaq problemi ölkə təsərrüfatı fəaliyyətinin həm subyekti və həm də obyekti olan insanların, işçi qüvvəsinin həyat fəaliyyəti ilə bilavasitə bağlı olan problemdir. Dövlət səviyyəsində problemin bu şəkildə qoyulması və həll edilməsi çox vacib məsələdir. Məsələyə bu səpgidən yanaşdıqda, dövləti idarə edənlər istər-istəməz ərzaq əldə etmək haqqında fikirləşməli olurlar və mənbələr axtarırlar. Təcrübə göstərir ki, ərzağın əldə edilməsinin əsas mənbəyi kənd təsərrüfatıdır. Ola bilər hər hansı bir dövlət ərzağı digər dövlətlərdən idxal etsin. Lakin burada söhbət ölkə tələbatının hər hansı bir seqmentinin ödənilməsindən gedə bilər və ikincisi, digər ölkədən gətirilən ərzaq məhsullarının da əsasını o ölkələrin kənd təsərrüfatı təşkil edir. Deməli, söhbət burada beynəlxalq ixtisaslaşmadan gedə bilər ki, bunun nəticəsində də bir ölkə digər ölkəyə ərzaq məhsulu ixrac edir.

Kənd təsərrüfatı ölkə əhalisini ərzaqla təmin etməkdə, məşğulluq məsələlərini həll etməkdə, xarici iqtisadi əlaqələri və xüsusən də xarici ticarəti inkişaf etdirməkdə müstəsna rol oynayır. Əyanilik üçün cədvəl 57-nin məlumatlarını oxucunun nəzərinə çatdırırıq.

**Cədvəl 57**

**İl ərzində adambaşına qida məhsullarının istehlakı (kiloqram)**

| | **Azərbaycan** | **Qaz a-xıstan** | **Rusiya** | **Ya po-niya** | **Gürcüstan** | **A BŞ** | **Almaniya** | **İtaliya** |
|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 1998 | 1999 | 1996 | 1997 | 1997 | 1998 | 1996 |
| Ət və ət məhsulları | 22 | 45 | 41 | 45 | 18 | 114 | 88 | 80 |
| Süd və süd məhsul. | 154 | 206 | 215 | 93 | 218 | 305 | 442 | 280 |
| Yumurta | 112 | 79 | 222 | 320 | 108 | 239 | 226 | 220 |
| Balıq və balıq məh. | 2,7 | 3,6 | 9,9 | 60,5 | 1,4 | 10,0 | 15,1 | 17,3 |
| Şəkər | 16,8 | 20 | 35 | 19,0 | - | 30 | 34 | 26.0 |
| Bitki yağı | 3,1 | 6,8 | 9,3 | 14,8 | 11,2 | 24,0 | 18,3 | 254 |
| Kartof | 47 | 60 | 117 | 102 | 45 | 57 | 77 | 39 |
| Çörək məmulatları | 155 | 137 | 89 | 112 | 154 | 112 | 78 | 126 |
| Meyvə və giləmeyvə | 61 | 70 | 105 | 60 | 60 | 105 | 136 | 174 |
| Tərəvəz və bostan məhsulları | 129 | 70 | 83 | 123 | 93 | 119 | 90 | 214 |

Hər bir insan ildə çoxlu miqdarda qida məhsulları qəbul etməli olur. Məlumatlardan görünür ki, 2000-ci ildə Azərbaycan

Respublikasında hər bir nəfər orta hesabla 22 kq ət və ət məhsulları, 154 kq süd və süd məhsulları, 112 ədəd yumurta, 2,7 kq balıq və balıq məhsulları, 16,8 kq şəkər, 3,1 bitki yağı, 47 kq kartof, 155 kq çörək məmulatları, 61 kq meyvə və giləmeyvə, 129 kq tərəvəz və bostan bitkiləri istehlak etmişdir. İnkişaf etmiş ölkələrdə bu rəqəmlər daha çox yüksəkdir. Məsələn, ABŞ hər adambaşına 114 kq ət və ət məhsulları (Azərbaycandakından 5 dəfə çox), 305 kq süd və süd məhsulları (2 dəfədən çox), 24 kq bitki yağı (8 dəfə çox), istehlak etmişdir.

Yaponiya, Almaniya, İtaliya və s. digər ölkələr də adambaşına qida məhsullarının istehlakı cəhətdən fərqlənirlər. Göründüyü kimi cədvəldə verilən məhsulların hamısı kənd təsərrüfatı ilə bilavasitə bağlıdır.

Digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da kənd təsərrüfatının inkişaf etməsinə onun coğrafi ərazisi, quruluşu və iqlim təsir göstərir. Azərbaycanın ərazisi 86,6 min kvadratkilometrdir. Bunun 11,5 faizi meşələrin, 1,6 faizi su hövzələrinin, 50 faizi becərilən torpaqların, 36,9%-i sair torpaqların payına düşür. Becərilən torpaqların 27%-i otlaqlardır. Azərbaycan Respublikası ərazisi 400 000 kvadratkilometr olan, dünyada ən böyük göl hesab edilən Xəzər dənizinin sahilində yerləşir. Bundan başqa, ümumi sahəsi 212,8 kvadrat kilometr olan 6 iri göl və ümumi sahəsi 3389 kv.m. olan 4 böyük çay da respublika ərazisində mövcuddur. Deməli, meşəçilik və balıqçılıq təsərrüfatlarını inkişaf etdirmək üçün də Azərbaycanda yaxşı imkan vardır.

Azərbaycan Respublikasında kənd təsərrüfatındakı müasir vəziyyət ümumi şəkildə cədvəl 58-də verilmişdir.

**Cədvəl 58**

**1991-2000-ci illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının təsərrüfatların forması üzrə dəyişmə indeksi (1990 = 100 faiz)**

| İllər | Bütün təsərrüfat formaları üzrə | O cümlədən | |
|---|---|---|---|
| | | kənd təsərrüfatı müəssisələri | xüsusi (əhali) təsərrüfatları |
| 1991 | 100,3 | 95,4 | 109,4 |
| 1992 | 76,5 | 68,3 | 91,6 |
| 1993 | 64,7 | 52,0 | 88,0 |
| 1994 | 56,4 | 37,4 | 91,5 |
| 1995 | 52,5 | 32,1 | 90,1 |
| 1996 | 54,1 | 29,8 | 98,9 |
| 1997 | 50,8 | 18,1 | 111,1 |
| 1998 | 53,9 | 7,9 | 138,9 |
| 1999 | 57,7 | 3,9 | 157,2 |
| 2000 | 64,7 | 2,3 | 180,0 |

**Cədvəl 59**

**Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin ümumi yığımı (min ton)**

| Məhsullar | İ L L Ə R | | | |
|---|---|---|---|---|
| | 1990 | 1993 | 1995 | 2000 |
| Taxıl (təmizləmədən sonrakı çəkidə) | 1364,4 | 1100 | 881,5 | 1508,9 |
| Pambıq | 542,9 | 284,5 | 274,1 | 91,5 |
| Tütün | 52,9 | 44,9 | 11,7 | 17,3 |
| Kartof | 185,2 | 152,2 | 155,5 | 489,0 |
| Tərəvəz | 856,2 | 487,8 | 424, | 780,8 |

| | | | | |
|---|---|---|---|---|
| | | | 1 | |
| Bostan məhsulları | 67,5 | 46,9 | 41,9 | 261,0 |
| Üzüm | 1196,4 | 411,3 | 308,<br>7 | 76,9 |
| Meyvə və giləmeyvə | 367,4 | 346,4 | 324,<br>4 | 477,0 |
| Çay yarpağı | 30,7 | 24,0 | 9,4 | 1,1 |

Taxıl istehsalı, bostan məhsulları, kartof istehsalı sahəsində 1990-cı ilin səviyyəsi əldə edildiyi halda, çox mühüm strateji əhəmiyyətə malik pambıq istehsalı, üzüm istehsalı, çay yarpağı və tütün məhsulların istehsalları xeyli aşağı düşmüşdür.

Müstəqillik dövrünün çətinlikləri üzündən kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi bir neçə mühüm məhsullar növü üzrə xeyli aşağı düşmüşdür (bax cədvəl 60).

**Cədvəl 60**

**1990-2000-ci illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkiləri üzrə məhsuldarlıq (hektardan, sentner ilə)**

| Məhsullar | İ L L Ə R | | | |
|---|---|---|---|---|
| | 1990 | 1993 | 1995 | 2000 |
| Dənli bitkilər | 24,2 | 16,8 | 15,1 | 23,8 |

| | | | | |
|---|---|---|---|---|
| Pambıq | 20,6 | 12,7 | 13,0 | 9,1 |
| Tütün | 32,7 | 28,2 | 14,6 | 22,2 |
| Kartof | 78 | 78 | 97 | 84 |
| Tərəvəz | 200 | 158 | 157 | 133 |
| Bostan bitkiləri | 74 | 87 | 73 | 98 |
| Üzüm | 76,5 | 30,9 | 32,6 | 35,8 |
| Meyvə və giləmeyvə | 28,1 | 32,6 | 31,2 | 61,9 |
| Çay yarpağı | 39,0 | 26,6 | 10,3 | 2,0 |

Müasir dövrdə dünya miqyasında kənd təsərrüfatında böyük nailiyyətlər əldə edildiyi halda Azərbaycanda kənd təsərrüfatında əsas məhsullar üzrə məhsuldarlığın aşağı düşməsi tədqiqatçını dərindən düşündürməlidir. 1990-cı ilə nisbətən 2000-ci ildə pambıq yığımında məhsuldarlıq 2,2 dəfədən çox, tütün istehsalında 1,4 dəfə, üzüm yığımında 2,1 dəfədən çox, çay yarpağı toplamaqda 20 dəfəyə yaxın aşağı düşmüşdür. Qeyd etdiyimiz kimi bu cür vəziyyətin obyektiv səbəbləri olmuşdur. Lakin yaranmış vəziyyətdən çıxış yolları tapmaq həmişə mümkündür. Bu fikir respublikamızın öz təcrübəsi ilə də sübut olunur. Məsələn, vəziyyətin hər yerdə əsasən eyni olmasına baxmayaraq tədqiqat dövründə bir neçə kənd təsərrüfatı məhsulları üzrə məhsuldarlıq nəinki dəyişməmişdir, hətta yüksəlmişdir.

Daxili imkanlardan maksimum istifadə etməklə böyük nəticələrin əldə edilməsinin mümkünlüyü bir çox xarici dövlətlərin də təcrübəsi ilə sübut olunmuşdur. Keçən (XX) əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı iqtisadiyyatın əmək tutumlu bölməsi idi. 1940-1960-cı illərdə kənd təsərrüfatı kapital tutumlu sahəyə çevrilmişdi. Hazırda isə kənd təsərrüfatı iqtisadiyyatın mühüm bölməsi kimi elmtutumlu sahəyə çevrilməkdədir. 1960-cı illərdə “Yaşıl inqilab” adı almış elmi-texniki proses nəticəsində dənli bitkilər istehsalında əmək məhsuldarlığı 2-3 dəfə yüksəldi və bir çox ölkələr və o cümlədən də Çin, Hindistan, İndoneziya, Pakistan, Tailand buğda ilə özlərini təmin etməyə nail oldular. Azərbaycan Respublikasında müasir aqrotexniki

nailiyyətlərin istehsala tətbiqi sahəsində məqsədli proqramlar tərtib edib həyata keçirmək yolu ilə kənd təsərrüfatı məhsullarının həcmini bir neçə dəfə artırmaq olar.

Azərbaycan Respublikasının kənd təsərrüfatında heyvandarlıq və quşçuluq xüsusi əhəmiyyətə malikdir. 1990-2000-ci illərdə əsas heyvandarlıq məhsulları istehsalının həcmi cədvəl 61-də verilmişdir.

**Cədvəl 61**

**1990-2000- ci illərdə Azərbaycanda əsas heyvandarlıq məhsulları istehsalının dəyişməsi**

| Məhsullar | Ölçü vahidi | 1990 | 1995 | 2000 | 1990-cı ilə nisbətən 2000-ci ildə %-lə |
|---|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | Min ton | 175,5 | 82,0 | 108,7 | 61,9 |
| Süd | - | 970,4 | 826,5 | 1031,1 | 106,2 |
| Yumurta | Min ədəd | 985,3 | 455,8 | 542,6 | 55,0 |
| Yun (fiziki çəkidə) | Min ton | 11,2 | 9,0 | 10,9 | 97,3 |

1990-2000- ci illər ərzində kəsilmiş çəkidə ət istehsalı –45 %, yun istehsalı 2,7 % aşağı düşmüşdür. Natural ifadədə 1990-cı ilə nisbətən 2000-ci ildə ət istehsalı 66,8 min ton , o cümlədən inək və dana əti istehsalı –19,9 min ton, donuz əti –11 min ton azalmışdır.

Respublikada və onun ətrafında baş vermiş məlum hadisələr heyvandarlıq sahəsində məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdur. Bu haqda məlumatlar cədvəl 62-də verilir.

**Cədvəl 62**

**1990-2000-ci illərdə təsərrüfatların bütün kateqoriyalarında mal-qara və quşların məhsuldarlığı**

| Adı | Ölçü vahidi | 1990 | 1995 | 1996 | 2000 |
|---|---|---|---|---|---|
| 1.İlin əvvəlinə olan hər baş inək və camışdan süd sağımı (Azərbaycan Respublikası) | Kq | 1337 | 1073 | | 1084 |
| Müqayisə üçün digər ölkələrdə | | | | | |
| ABŞ | Kq | | | 6700 | |
| Danimarka | Kq | | | 6300 | |
| İsveçrə | Kq | | | 6200 | |
| Yaponiya | Kq | | | 5200 | |
| Rusiya | Kq | | | 2800 | |
| Argentina | Kq | | | 2600 | |
| Çin | Kq | | | 1600 | |
| 2. Hər qoyundan orta illik yun qırxımı (AR) | Kq | 2,3 | 2,2 | 2,1 | 2,0 |
| 3. Toyuqların orta illik yumurta verimi (AR) | Ədəd | 149 | 74 | 78 | 197 |

Göründüyü kimi dünya miqyasında heyvandarlıq məhsulları sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Məsələn, Azərbaycanda hər inəkdən sağılan südün miqdarı inkişaf etmiş ölkələrdəkindən təxminən altı dəfə azdır. Bunun əsas səbəbi respublikamızın kənd təsərrüfatında sənaye üsullarının tətbiqindəki geriliklərdir. Bundan başqa, yem

bazasının kifayət qədər olmaması və seçmə cinsləşdirmə prosesinin yüksək səviyyədə aparılmaması da kənd təsərrüfatı məhsullarının istehsalında məhsuldarlığı azaldır.

Azərbaycan Respublikasında kənd təsərrüfatı iqtisadiyyatın ən çox diqqət və qayğı tələb edən sahəsidir. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Müstəqillik dövründə meydana çıxan və əvvəlki paraqraflarda şərh edilmiş səbəblərdən əvvəl baş vermiş hadisələr kənd təsərrüfatına da mənfi təsir göstərir. Söhbət SSRİ dövründə Azərbaycan kənd təsərrüfatının başına gətirilən oyunlardan gedir. Azərbaycan Respublikasını milyon tonlarla üzüm istehsalçısına, pambıq becərənə, tütün yığana, bostan bitkiləri yetişdirənə çevirməklə münbit torpaqlara çoxlu ekoloji ziyan dəyib. Bundan başqa, SSRİ dövründə kənd təsərrüfatının mexanikləşdirilməsi səviyyəsi də digər yaxın və uzaq ölkələrə nisbətən xeyli aşağı olub.

Bütün bunlarla yanaşı torpağın özəlləşdirilməsi gətirib ona çıxarmışdır ki, bu gün kənd təsərrüfatında çalışanların sayı 1170 min nəfərə çatır. Bu o deməkdir ki, Azərbaycan Respublikasında iqtisadiyyatını maddi istehsal sahələrində çalışanların 41,6 faizi kənd təsərrüfatında cəmlənmişdir. Dövlət Statistika Komitəsinin dərc olunmuş məlumatlarına görə 2000-ci ildə Azərbaycan Respublikasının kənd təsərrüfatında fəaliyyət gös-tərən kənd təsərrüfatı müəssisələrinin sayı 2158 ədəd təşkil etmişdir. Burada da çalışanların sayı 24 min nəfər olmuşdur. Fəaliyyət göstərən 2158 kənd təsərrüfatı müəssisələrinin işi yaxşı təşkil olunmamış və nəticədə müəssisələrin 52,5 %-i zərərlə işləmişlər (bax cədvəl 63 )

**Cədvəl 63**

**Azərbaycan Respublikasının kənd təsərrüfatında fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin sayı və maliyyə nəticələri**

| | Müəssisələrin ümumi sayı (ədəd) | O cümlədən, zərərlə işləyənlər | | Təsərrüfat-larda çalışan işçilərin sayı (min nəfərlə) | Bir təsərrü-fatda çalışan işçilərin orta sayı |
|---|---|---|---|---|---|
| | | sayı ədəd | xüsusi çəkisi %-lə | | |
| 1990 | 1978 | 156 | 7,9 | 563 | 284,6 |
| 1995 | 2295 | 1079 | 47,0 | 490 | 213,5 |
| 1999 | 3682 | 2583 | 70,5 | 57 | 15,4 |
| 2000 | 2158 | 1132 | 52,5 | 24 | 11,1 |

Azərbaycan Respublikasının təbii iqlimi, yerin quruluşu, göl, çay və dənizin olması imkan verir ki, çox qiymətli qida məhsulu olan balıq istehsalı yaxşı təşkil edilsin. Balıq istehsalının rekord səviyyəsi 1990-cı ildə əldə edilmiş və 41780 kq balıq ovlanmışdır. 1995-ci ilə qədər balıq ovu sürətlə aşağı düşmüş və 1995- ci ildə balıq ovu 4 dəfədən də çox azalmışdır. Başqa sözlə desək, 1990-cı ilə nisbətən 1995- ci ildə 31 min 846 kq az balıq ovlanmışdır. 1996-cı ildən başlayaraq Azərbaycan iqtisadiyyatında baş verən gerigetmə prosesinin dayandırılması bu sahəyə də öz təsirini göstərmiş və 2000- ci ildə balıq ovunun ümumi həcmi 19122 kq–a çatdırılmışdır. Bu da 1990-cı ildəki balıq ovu həcminin 45,7 %- i deməkdir.

**Cədvəl 64**

**1990-2000-ci illərdə Azərbaycan Respublikasında balıq ovu və onun həcminin dəyişilməsi**

| İllər | Cəmi (ton) | O cümlədən Azərbaycan Dövlət Konserni Sənaye Balıqçılığı üzrə | 1990-cı ilə görə faizlə |
|---|---|---|---|
| 1990 | 41784 | 41665 | 100 |
| 1993 | 22564 | 22219 | 54,0 |
| 1995 | 9938 | 9846 | 23,8 |
| 2000 | 19122 | 18982 | 45,7 |

Kənd təsərrüfatı inkişaf etdikcə mütəxəssislərin, alimlərin və ilk növbədə dövlətin ona olan münasibəti dəyişib. Əsrlər boyu kənd təsərrüfatının sənayedən ayrı inkişaf dövrü olub. Lakin XIX əsrin əvvəllərində problemlərin həllinə yaradıcı münasibət bəsləyən ölkələr görməyə başlayıblar ki, kənd təsərrüfatında sənayeləşmə aparmadan, elmi nailiyyətləri iqtisadiyyatın bu mühüm sahəsində tətbiq etmədən və ən başlıcası, sənaye ilə kənd təsərrüfatını üzvi şəkildə birləşdirməyə nail olmadan kənd təsərrüfatını istənilən səviyyədə inkişaf etdirmək mümkün deyildir. Məsələyə bu cür yanaşmağın müsbət nəticələri öz bəhrəsini keçən əsrin ikinci yarısından əyani şəkildə verməyə başladı. 1960-1990-cı illərdə daha çox inkişaf etmiş ölkələrin kənd təsərrüfatında intensivləşmə sürətlə artır və onun sənaye ilə inteqrasiyası baş verirdi. Geniş əhatə dairəsinə malik aqrar-sənaye kompleksləri meydana gəlib inkişaf edirdi. Keçmiş SSRİ tərkibində olan Azərbaycanda da bu proses müəyyən səviyyədə baş vermiş və Respublikanın aqrar-sənaye kompleksi özünün ən yüksək səviyyəsinə

1970-1980-cı illərdə çatmışdı. Bu dövrdə ümumi məcmu məhsulun 45-47 faizi aqrar-sənaye kompleksində istehsal olunurdu. Əmək qabiliyyətli əhalinin 35-40 faizi əsas istehsal fondlarında cəmlənmişdir. Azərbaycan pambıq, tütün, üzüm, şərab, meyvə-tərəvəz konservləri ixrac edən ölkəyə çevrilmişdi. Lakin SSRİ dağıldıqdan sonra aqrar-sənaye kompleksinə də güclü zərbə dəydi və yaranmış vəziyyətin yaxşılaşdırılması prosesi dövlətimizin səyı nəticəsində ancaq 1996-cı ildən başlandı.

2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə ehtiyatlar və onlardan istifadə mənbələrinin (cədvəl 65) təhlili göstərir ki, məhsulların emal edilmədən şəxsi istehlakı üstünlük təşkil edir. Bu emal səna-yesinin zəifliyini və Azərbaycanda aqrar-sənaye kompleksinin inkişaf etmədiyini göstərir. Kənd təsərrüfatı məhsullarının 80-90 faizi birbaşa şəxsi istehlaka sərf olunur. İxraca ancaq bitki yağlarının (15,6%), balığın (7,7%), meyvə və üzümün az bir hissəsi (7,98%) sərf olunur. Bu vəziyyətin yaranması əhalini işlə təmin etməyə, ölkənin iqtisadiyyatını intensiv inkişaf etdirməyə güclü mənfi təsir göstərir. Bazar münasibətlərinə keçid isə kənd təsərrüfatında köklü dəyişikliklər edilməsini tələb edir.

**Cədvəl 65**

**2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə ehtiyatların istifadə mənbələri**

| Məhsulların Adı | Ölçmə vahidi | Cəmi ehtiyatlar | O cümlədən istehlakın növləri üzrə | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | istehsal istehlakı | | ixrac | | şəxsi istehlak | |
| | | | həcmi | xüsusi çəkisi | həcmi | Xüsusi çəkisi | həcmi | xüsusi çəkisi |
| Taxıl və taxıl məhsulları | Min ton | 2445,0 | 592,1 | 24,2 | - | - | 1255,1 | 51,3 |
| Ət və ət məhsulları | Min ton | 148,3 | 1,6 | 1,1 | - | - | 138,9 | 93,7 |
| Süd və süd məhsulları | Min ton | 1195,0 | 22 | 2,0 | - | - | 1146,2 | 95,9 |
| Yumurta | Min ton | 626,9 | 38,7 | 6,2 | - | - | 5845,5 | 93,3 |
| Balıq | Min ton | 22,0 | - | - | 1,7 | 7,7 | 20,2 | 91,8 |
| Kartof | Min ton | 770,1 | 91,6 | 11,8 | 0,5 | 0,08 | 300,9 | 39,1 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Tərəvəz və bostan məhsulları | Min ton | 1134,5 | 7,3 | 0,6 | 4,6 | 0,4 | 1024 | 90,3 |
| Şəkər | Min ton | 81,2 | - | - | - | - | 81,1 | 100 |
| Bitki yağları | Min ton | 29,4 | - | - | 4,6 | 15,6 | 19,8 | 67,4 |
| Meyvə və üzüm | Min ton | 652 | 29,8 | 4,5 | 52,1 | 7,98 | 476,3 | 73,0 |

Torpağın özəlləşdirilməsi həyata keçirilmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 35 minə yaxın fermer təsərrüfatları yaradılıb. Lakin onların işi qənaətbəxş təşkil olunmadığından istənilən nəticələr ləng əldə olunur. Aqrar-sənaye komplekslərini canlandırmaq, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, onların ərzaq məhsullarına olan tələbatlarını ödəmək, daxili bazarı vətən məhsulları ilə zənginləşdirmək, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək bir çox cəhətdən Azərbaycanda həyata keçirilən aqrar islahatların nəticələrinə diqqəti artırmaqdan asılıdır. Sadə şəkildə desək, kəndliyə torpaq vermişiksə, indi də ona torpağı becərmək və əldə etdiyi kənd təsərrüfatı məhsulunu satmaq üçün münasib şəraiti verməliyik. Doğrudur, kəndli (fermer) təsərrüfatlarının inkişaf etdirilməsi, onun hüquqi bazasının yaradılması üzrə bir neçə “Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi”, “Müəssisələr haqqında”, “Aqrar islahatların əsasları”, “Torpaq islahatı haqqında”, “Torpağın icarəyə verilməsi”, “Kəndli (fermer) təsərrüfatları haqqında”, “Torpaq vergisi haqqında” və s. bu kimi Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Lakin yaradılan özəl strukturlar və fərdi kəndli təsərrüfatları məhsuldar fəaliyyət göstərə bilmirlər. Azərbaycan Respublikasında formalaşmış təbii-iqtisadi şəraiti nəzərə almaq yolu hansı təsərrüfat formalarının daha səmərəli olmasını aydınlaşdırmaq lazımdır. Son 4-5 ilin təcrübəsi sübut etmişdir ki, respublikamızda əmək resursları tələb

edən təsərrüfatçılıq formalarının yaradılması müsbət nəticələr verə bilər. Emal müəssisələri yaratmaq yolu ilə kənd təsərrüfatı məhsullarını ixrac edilə bilən əmtəə şəklinə salmaqla xarici iqtisadi əlaqələri genişləndirmək olar.

Dünya üzrə təcrübənin öyrənilməsi göstərdi ki, heyvandarlıq bölməsində ət və ət məhsulları, süd və süd məhsulları istehsalı ilə əlaqədar olan fermer təsərrüfatları səmərəli fəaliyyət göstərə bilirlər. Heyvandarlıqda bilavasitə diri heyvan (qoyun, keçi, inək, camış, donuz və s.) yetişdirilməsi ilə məşğul olan fermerlərin də yaranması sərfəlidir. Bitkiçilikdə fermer təsərrüfatları kartof, dənli bitkilər, tütün, üzüm, meyvə-tərəvəz becərdilməsi sahəsində daha səmərəli olur. Azərbaycanın təbii şəraiti bu bitgilərin bir neçəsi üzrə ildə iki dəfə məhsul əldə etmək imkanı yaradır. Bu imkanları ortaya çıxarıb onlardan istifadə etmək üçün dövlət münasib iqtisadi mühüt yaratmaq sahəsində cürətli addımlar atmışdır. Fermer təsərrüfatlarına güzəştli kreditlərin verilməsi haqqında Respublika hökumətinin çıxartdığı qərarlar bu cəhətdən yaxşı təsir bağışlayır və yaxın 2-3 ildə öz bəhrəsini verməlidir. Lakin əsas iş vergi, güzəşt, konkret məhsul istehsalının stimullaşdırılması, faiz stavkaları, dövlət investisiyası, sağlam pul dövriyyəsi, daxili bazarın qorunması, fermerin əldə etdiyi məhsula hörmət edilməsi və onun qiyməti məsələsi, rəqabət, bazar qanunları təsirləri altında müflisləşməsinə yol verilməməsi sahələrində gərgin iş aparılmalıdır. Elə şərait yaradılmalıdır ki, fermerlər və yaxud da onların birləşmiş qrupları xarici bazarlara bilavasitə çıxa bilsinlər. Fermerləri dövlət orqanlarının təzyiqlərindən xilas etmək vaxtı çatmışdır. Elə bir təsərrüfat mexanizmi formalaşdırmaq lazımdır ki, fermer və kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti dövlətin iqtisadi fəaliyyəti ilə və əksinə uyğunlaşsın və blokirovkalaşdırılsın. Fermer üçün xeyirli olan fəaliyyət dövlət üçün də xeyirli olmalıdır. Dövlət fermerləri və kənd təsərrüfatı müəssisələrini iqtisadi rıçaqlarla idarə etməyə üstünlük verməli və onların işinə güc orqanları, nəzarət-yoxlama orqanları qarış-mamalıdır. Kənd təsərrüfatı strukturlarına təzyiq onların vergidən

yayınmaq halları baş verdikdə üzürlü hesab olunmalıdır. Bu sahədə 2002-ci ilin sonunda Azərbaycan Respublikası Prezidenti möhtərəm H.Ə.Əliyevin məlum sərəncamlarının əhəmiyyəti böyükdür.

Fermer təsərrüfatları formalaşdırmaq, onlara məqsədyönlü və səmərəli təsir göstərmək yolu ilə kənd təsərrüfatı məhsulları üzrə bolluq yaratmaq təcrübəsi ABŞ-da daha qabarıq şəkildə özünü göstərmişdir. Oxucuların nəzərinə ancaq bir cəhəti çatdırmaq istəyirik: dövlətin fermerlərə subsidiya verməsi məsələsini. Fermerlərin subsidiyalaşdırılmasına ciddi fikir verən Amerika hökuməti onlara bir neçə növdə subsidiyalar təklif edir. Məsələn, kompensasiya ödəmələri məqsədli qiymətlərlə bazar qiymətləri arasında yaranmış fərqlər meydana gələndə verilir. Subsidiyanın məbləği də məhsul vahidi üçün yaranan qiymət fərqi ilə həmin vahidlə hesablanan məhsulun həcminin hasili kimi təyin olunur. Subsidiyanın digər növləri fermerlərin məhsuldar işləmələrinə xidmət göstərir. Əgər fermer əkin sahələrinin azaldılmasına yönələn təşəbbüslə çıxış edirsə və bu şəraitdə məhsulun həcminin azaldılmasına yol vermirsə və deməli, təsərrüfatın intensiv inkişafına nail olursa, dövlət ona kömək göstərir. İntensivləşdirmə tədbirlərinə tələb olunan əlavə vəsaitin hamısı və yaxud da müəyyən hissəsi dövlətin subsidiyası nəticəsində ödənilir. Əslində bu halı dövlətin intensivləşdirmənin maliyyələşdirməsi kimi qiymətləndirmək olar. Fermer su təsərrüfatı və torpaq meliorasiya işləri gördükdə də dövlət fermerə maliyyə köməyi göstərir. Bu da subsidiyanın bir növüdür. Bunlardan başqa, Amerika fermeri bilir ki, heç bir maneə olmadan təbii fəlakət baş verdikdə, özündən asılı olmayan digər amillərin təsiri altında rentabellik aşağı düşəndə və bu xarakterli hadisələr baş verdikdə o dövlətdən heç bir maneə olmadan maliyyə köməyi alacaqdır. Maliyyə köməyi isə birbaşa və güzəştli kreditlər şəkildə ola bilər. Bu cür köməklər iqtisadiyyatda gizli subsidiyalar adlanır. Bütün bu subsidiyaların sonda yeganə bir məqsədi var: dövlət əlindən gələni edir ki, fermer məhsul istehsal etməklə məşğul olsun, daxili tələbatları ödəməyə və xaricə məhsul göndərməyə qadir olsun, mənfəətlə işləsin və dövlət büdcəsinə vəsait

köçürə bilsin. Təcrübədə belə hallar da olur: yaradılmış mühit fermerə imkan verir ki, o, həddindən çox məhsul istehsal edir. Bu hal da hökumətin nəzərindən qaçmır. Hər il ABŞ hökuməti fermerlərdən məhsul almağı nəzərdə tutan proqramlar tərtib edir. Bu proqramlar üç məsələnin həll edilməsini nəzərdə tutur. Birincisi, fermer təsərrüfatlarının istehsal etdiyi artıq məhsulu onlar üçün minimum gəlir əldə etməyə imkan verən qiymətlə almağı, ikincisi, fermerin artıq qalan məhsulunu sərfəli ödəmə haqqı almaq şərti ilə dövlət anbarlarında saxlamağı və üçüncüsü, artıq məhsulun ixrac olunmasında fermerlərə kömək göstərilməsini. Dövlətin köməyi ilə tərtib edilən bu cür proqramların sosial əhəmiyyəti bütün cəmiyyət üçün daha güclü olur: əgər bazarda konkret bir məhsulun qiyməti qalxırsa dövlət özünün anbarlarında saxladığı məhsulu bazara çıxarır və qiymətlərin qalxması qarşısını alır. Bununla dövlət digər sahibkarların səmərəli işləməsi üçün əhalinin isə həyat tərzinin yaxşılaşması üçün şərait yaratmış olur. Bu cür elmi əsası olan yanaşmalardan Azərbaycan Respublikasında fermer təsərrüfatlarının inkişaf etdirilməsində geniş istifadə olunmalıdır. Lakin bu gün real vəziyyət belədir ki, Azərbaycan fermeri öz inkişafının başlanğıc mərhələsindədir. Nəticədə Respublika hökuməti əsas kənd təsərrüfatı məhsulları üzrə idxalı azalda bilmir. Cədvəl 66-da bu haqda Dövlət Statistika Komitəsinin məlumatları verilmişdir. 2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə idxalın həcmi və xüsusi çəkisi çox yüksək olmuşdur. Ümumiyyətlə götürdükdə Azərbaycan 2000-ci ildə sosial-iqtisadi tələbatlarını ödəmək üçün 33 min ton ət və ət məhsulları, 780,8 min ton taxıl və taxıl məhsulları, 144,4 min ton süd və süd məhsulları, 81,4 min ədəd yumurta, 49,4 min ton kartof, 81 min ton şəkər, 13,3 min ton tərəvəz və bostan məhsulları, 13,5 min ton bitki yağları, 11,4 min ton meyvə və üzüm idxal etmişdir. Göründüyü kimi bu məhsulların hamısı respublikanın kənd təsərrüfatında istehsal oluna bilər və müəyyən səviyyə və keyfiyyətə qədər yüksəldirilərsə hətta ixrac oluna bilər.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının kəmiyyət və keyfiyyətcə cəmiyyətin tələbatlarına uyğun yüksəldilməsi bir sıra tədbirlər işləyib həyata keçirməyi tələb edir. Belə tədbirlərin müəyyən hissəsi son 4-5 ildə artıq həyata keçirilmişdir. Biz burada aqrar islahat sahəsində həyata keçirilən tədbirləri və ilk növbədə torpağın özəlləşdirilməsini nəzərdə tuturuq. Bazar münasibətlərinə keçid və bu əsasda iqtisadiyyatı möhkəmləndirmək isə mütəxəssislərin və ölkəni idarəedənlərin qarşısında daha ciddi məsələlər qoyur. İlk növbədə tələb olunur ki, ölkədə siyasi sabitliklə yanaşı iqtisadi və sosial sabitlik də davam etsin. Yaddan çıxarmaq olmaz ki, həm siyasi və həm də iqtisadi və sosial sabitliyin mühüm amili ölkənin aqrar bölməsidir. Buna görə də kənd təsərrüfatının inkişaf etdirilməsi müasir Azərbaycan üçün bu gün də mühüm strateji məsələ olaraq qalmaqdadır. Aparılan aqrar islahatların kompleksliлik səviyyəsi yüksəldilməlidir. Dünya miqyasında bu sahədə təcrübənin öyrənilməsi təsdiq edir ki, aqrar islahatlar olduqca mürəkkəb bir prosesdir və ümumi şəkildə iqtisadiyyatın digər sahələri və dövlət strukturları ilə aqrar bölmə arasında hüquqi, iqtisadi, sosial münasibətlərin köklü surətdə və elmi əsaslar üzərində yenidən qurulmasını özündə cəmləşdirir. Həll olası məsələlərdən ən mühümü aqrar-sənaye komplekslərinin bərpa edilməsi və fəaliyyətinin yaxşılaşdırılmasıdır. Bu silsilədən olan məsələlərə özəl emal müəssisələrinin və istehsal infrastrukturunun yaradılması da daxildir.

**Cədvəl 66**

**2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə ehtiyatlar və mənbələri**

| Məhsulun adı | Ölçmə vahidi | Ehtiyatlar | O cümlədən, mənbələr üzrə | | |
|---|---|---|---|---|---|
| | | | idxal | İl ərzində ölkədə | ilin əvvəlinə |

| | | (cəm i) | həc mi | xüs. çə-kisi | istehsal olunmuş du | olan qalıq |
|---|---|---|---|---|---|---|
| Taxıl və taxıl məhsulları | Min ton | 2445,0 | 780,8 | 31,9 | 1508,9 | 155,3 |
| Ət və ət məhsulları | Min ton | 148,3 | 33,0 | 22,3 | 108,7 | 6,6 |
| Süd və süd məhsulları | Min ton | 1195,0 | 144,4 | 12,1 | 1031,1 | 19,5 |
| Yumurta | Min ton | 626,9 | 81,4 | 12,9 | 542,6 | 2,7 |
| Balıq | Min ton | 22,0 | 2,8 | 12,7 | 19,1 | 0,1 |
| Kartof | Min ton | 770,1 | 49,4 | 64,1 | 469,0 | 251,7 |
| Tərəvəz və bostan məhsulları | Min ton | 1134,5 | 13,3 | 1,2 | 1041,8 | 79,4 |
| Şəkər | Min ton | 81,2 | 81,0 | 100,0 | - | 0,2 |
| Bitki yağları | Min ton | 29,4 | 13,5 | 45,9 | 11,1 | 4,8 |
| Meyvə və üzüm | Min ton | 652 | 11,4 | 1,7 | 553,9 | 87 |

## § 5. Respublika iqtisadiyyatının bəzi inkişaf prespektivləri

Azərbaycanın gələcəkdə daha sürətlə inkişaf etməsi üçün çox yaxşı imkanı vardır. İnsan və təbii resursları nisbətən yaxşı şəraitdə yerləşib. Ölkənin yaxşı savadlanmış işçi qüvvəsi formalaşır. Kənd təsərrüfatı istər istehsal və istərsə də əhalinin məşğulluq səviyyəsini

yüksəltmək baxımından iqtisadiyyatın mühüm sektoru kimi qalmaqdadır. Bu sahənin daxili imkanlarından hələlik lazımi səviyyədə istifadə edilmir. Təbii şərait, tələb olunan torpaq sahələrinin olması imkan verir ki, kənd təsərrüfatı xammalı bazasında müxtəlif sənaye məhsulları istehsal edilsin və həm daxili, həm də xarici bazara çıxarılsın. Məhsulların diversifikasiyası imkanları da böyükdür. Məsələyə yaradıcılıqla yanaşılarsa üzümdən, pomidordan, kartofdan, alma və armuddan, ətdən, süddən, qozdan-fındıqdan, texniki bitkilərdən və s. kənd təsərrüfatı məhsullarından müxtəlif orijinal məhsullar hazırlayıb daxili və dünya bazarına çıxmaq olar. Ən önəmlisi budur ki, əhali üçün yeni iş yerləri yaradılar, dövlətin büdcəsinə isə çoxlu əlavə vəsait daxil olar.

Azərbaycan Respublikasının təbii resursları və xüsusən xam neft və qaz resursları vardır. Mütəxəssislərin fikrincə, ölkədə neft və qaz ehtiyatları çoxdur və təxminən 90-100 ilə çatar. XXI əsrdə Azərbaycanın dünyada neftlə zəngin olan 15 ölkəsi sırasına daxil olacağını söyləyənlərin sayı artır. Baxmayaraq ki, 1990- cı illərdə neft hasilatı azaldı, orta və uzaq perspektivdə onun çox sürətlə artacağı, 15-20 il ərzində hasilatın 35-40 milyon ton təşkil edəcəyi gözlənilir. İqtisadi geriliyin 1996-cı ildə dayandırıldığını (əsasən neftin hesabına) nəzər salıb, Beynəlxalq Bankın hesablamalarına görə 2003- cü ildə respublikanın Ümumi Daxili Məhsulu 20 % arta bilər. Lakin istehlakın həcmi çox yavaş sürətlə artacaq. Bunun iki səbəbini göstərmək olar: investisiya normasının yüksək olmasını və alınan kreditlərə görə faizlərin ödənilməsini.

Buna baxmayaraq əhalinin hər nəfərinə düşən istehlakın miqdarının 2003-cü ildə 1996-cı ilə görə 40-45 faiz artacağı gözlənilir. Lakin tədiyə balansının yumşaldılması və büdcə məhdudiyyətlərinin azaldılması baxımından neft kontraktlarından gözlənilən xeyir özünü 2004-2005-ci illərə qədər tam göstərə bilməyəcək. Təxminən 2005- ci ildə neft hasilatı istehsalının nəzərdə tutulan sosial-iqtisadi səmərəsi hərtərəfli özünü göstərə biləcək. İqtisadiyyatın ciddi struktur

dəyişikliklərə məruz qalacağı dövrdə isə Azərbaycanda resurs çatışmazlığı həmişə hiss oluna bilər. Müasir dövrdə və yaranmış sosial-iqtisadi şəraitdə ölkənin neft imkanlarını şişirtmək, onu bütün problemlərinin həlli vasitəsi kimi qiymətləndirmək iqtisadi inkişaf üçün çox qorxuludur. Dünya ölkələrinin təcrübəsi sübut etmişdir ki, nefti və ya digər təbii resursu xammal şəklində ixrac edən ölkələrin əksəriyyəti sonda gözlənilən nəticəni əldə edə bilmirlər. Məsələ burasındadır ki, neftin ixracı nəticəsində ölkəyə daxil olan xarici valyutanın özu ciddi iqtisadi və sosial problemlərin meydana çıxması mənbəyinə çevrilə bilir. Bu o zaman baş verir ki, nə vaxt ölkə neftdən əldə etdiyi mənfəəti xaricdən alınan real resurslara çevirir. Və sonra onlardan investisiya və istehlak üçün istifadə edir. Birbaşa istehlaka gedən xaricdən gətirilmiş çox işlənən ərzaq və sənaye məhsulları aydın məsələdir ki, ən yaxşı halda cari tələbatı ödəyir və iqtisadiyyatın gələcəkdə inkişaf etdirilməsi üçün heç bir zəmin hazırlamır. İnvestisiya üçün ayrılan vəsait bundan fərqli olaraq daha səmərəli görünür. Lakin  sonda bu istənilən nəticəni vermir. Ona görə ki, investisiyadan istifadə edib, istifadəyə verilən müəssisələrin məhsulları əksər halda istər daxili, istərsə də xarici bazarlardakı çox qızğın rəqabətə davam gətirə bilmirlər. Başlıca səbəb yenə də odur ki, xam neftin satışından əldə edilən vəsait hesabına daxili bazar müxtəlif çeşidli, yaxşı keyfiyyətli və hətta ucuz ərzaq və sənaye malları ilə doldurula bilər. Buna görə də çalışmaq lazımdır ki, dünyanın bir neçə xam neft ixrac edən ölkələrində baş verən xoşagəlməz hallar Azərbaycanda da baş verməsin. Bu xoşagəlməz halın mahiyyəti ondadır ki, neftdən daxil olan mənfəətin ilbəil artması ölkələrin sənaye və kənd təsərrüfatı bölmələrində istehsalın geriliyinə və ən yaxşı halda isə stoqnasiya vəziyyətinə düşməsinə gətirib çıxarır. Belə hal isə bir qayda olaraq ölkədə sosial və iqtisadi gərginliklərin meydana çıxması üçün yeni mənbə yaratmış olur. Hesab edirik ki, belə hallar Azərbaycanda baş verməyəcək. Bu sahədə elmtutumlu məqsədli proqramlar işlənib hazırlanmalıdır.

Bəs nə etmək lazımdır ki, neftdən əldə edilən mənfəət (neft dolları) hətta uzunmüddətli perspektivdə cəmiyyətə xeyir gətirsin?

Bunun üçün ilk növbədə iqtisadiyyatın qeyri-neft bölmələrində prioritet sahələr təyin edilməli və onların inkişaf etdirilməsini nəzərdə tutan məqsədli proqramlar tərtib edilməlidir. Əsas güc mərkəzi kimi fikir yüngül və yeyinti sənaye müəssisələri üçün elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirən texnika və texnologiyaların alınmasına verilməlidir. Burada maliyyə mənbəyi kimi neftdən alınan gəlirdən istifadə edilməsi istənilən nəticələr verə bilər. Sənayenin digər sahələrini də məsələn,metallurgiyanı, maşınqayırmanı, kimya sahəsini və s. bu yolla dirçəltmək və onları yeni texnika və texnologiya ilə təsis etmək lazımdır. Yəni çalışmaq lazımdır ki, neft mənfəəti istehlak səmərəsi verən maliyyə mənbəyindən istehsal səmərəsi verən maliyyə mənbəyinə çevrilsin. Bu yolla əldə edilən istehsal sahələri cəmiyyətin üzvlərini iş yerləri ilə təmin edər, büdcəyə samballı vəsait gətirər, tikilən müəssisələr isə neft dollarından gələcək nəsillərə yadigar kimi qalar. Neftdən alınan gəlirin səmərəliliyini neft bölməsinin özündə də artırmaq olar. Bunun üçün:

Birincisi, neft emalı zavodlarından tam istifadə etmək lazımdır. Məlumdur ki, hələ keçmiş SSRİ dövründə respublikamızda 20 milyon ton neftdən də çox xam neft emal edə bilən zavodlar tikilmişdi. Bu gün onların gücündən az istifadə edilir. Bir səbəb də emal etmək üçün xam neftin olmamasıdır. Digər səbəb də var. Texnoloji avadanlıqların modernləşdirilməsi və yaxud da yeniləşməsi zərurəti ortaya çıxıb. Hər iki halda tələb olunan vəsaiti neft dolları hesabına əldə etmək olar. Məsələ bu şəkildə həll edilərsə, biz eyni zamanda xarici investorların diqqətini iqtisadiyyatın qeyri-neft və neft emalı sahələrinə cəlb etmiş olarıq. Bu yolla minlərlə iş yerləri yaranar və ölkənin iqtisadiyyatı güclənmiş olar. Həm dövlət və həm də əhali istehsaldan varlanar.

İkincisi isə respublikanın öz gücü ilə çıxardığı neftin həcmini artırmaq lazımdır.

Neft alınan gəlirdən istifadə edilməsinə yaradıcı münasibət bəslənilməsinin zəruriliyi Birləşmiş Millətlər Təşkilati və Beynəlxalq Bankın təşkil etdikləri tədqiqatların nəticələri də sübut etmişdir. 1970-1989- cu illəri əhatə edən tədqiqat işi ümumilikdə 97 ölkəni əhatə etmiş və aydın olmuşdur ki, təbii resurslar ixrac edən ölkələrin sosial-iqtisadi inkişafı, belə resursları olmayan ölkələrlə müqayisədə daha zəif olmuşdur. Xam neft ixracından əldə olunan mənfəətin xərclənməsi məsələsinin aktuallığını bir cəhət də artırır. Bu da ABŞ dolları ilə milli valyutanın (manatın) məzənnəsidir. Məsələ burasındadır ki, xam neftin ixracının ilbəil artması ilə paralel olaraq xarici valyutanın ölkəyə axını da güclənir. Bunun nəticəsində milli valyutanın (manatın) real məzənnəsi də istər-istəməz aşağı düşür (müxtəlif illərdə söhbət ancaq aşağı düşmənin səviyyəsindən gedə bilər). Manatın real dəyişilmə məzənnəsinin aşağı olması o deməkdir ki, dolların manatla qiyməti malların ümumi qiymətinə nisbətən az qalxar, ya heç qalxmır, ya da ki, hətta aşağı düşər. Nəticədə müəyyən məbləğdə dollar əldə etmək üçün nisbətən daha az miqdarda manat tələb olunur. Düzdür, ilk baxışda bu yaxşı təsir bağışlayır. Lakin məsələyə dərindən yanaşdıqda görərik ki, bu hal milli məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabət dözümlülüyünə güclü mənfi təsir edir. Ona görə manatın məzənnəsinin süni yolla aşağı səviy-yədə saxlanılması idxal mallarının milli pulla qiymətini aşağı salacaq. İstehlakçılar da daha ucuz qiymətli əmtəələri almağa başlayacaqlar. İtirən isə ölkə sahibkarları olacaq. Xarici firmalara nisbətən çətin şəraitdə fəaliyyət göstərən yerli kiçik və orta sahibkarların vəziyyəti öz məhsullarını çətinliklə satdıqlarına (və yaxud heç sata bilmədiklərinə) görə bir az da çətinləşəcəkdir. Çünki onlar istehsal etdikləri məhsulları maya dəyərindən aşağı sata bilməzlər. Belə hal ixracın da həcmini nəzərə çarpacaq dərəcədə azalda bilər. Neft satışından əldə edilən mənfəətin xərclənməsi məsələsinə yaradıcı münasibət bəslənməsə Dünya Bankının hesablamalarına görə ümumi ixracın həcmi 2003- ci ildən sonra azala bilər. Neft dollarının xərclənməsi ilə bağlı göstərdiyimiz mənfi halların iqtisadiyyata təsirini

azalmaq üçün bir səmərəli yol varsa o da pulların çox hissəsini iqtisadiyyatın perspektivli qeyri-neft və neft emalı sahələrinə yönəltmək və bu yolla da yeni və müasir iş yerləri yaratmaqdır. Süni idarəetmə yolu ilə manatın dollara nisbətən məzənnəsinin tənzimləndirilməsi isə ölkə sahibkarlarının nisbətən xeyrinə olsa da sonda əhalinin yaşayış səviyyəsinə mənfi təsir göstərir.

Gələcək dövrlərdə Azərbaycan Respublikasının sənayesi sürətlə inkişaf edə bilər. Bu nəticəni çıxarmağa ölkənin malik olduğu ilkin şərtlər və kifayət miqdarda olan təbii resurslar imkan verir. Təbii məhdudiyyət rolunu isə ancaq suyun nisbətən az olması və quru yanacağın olmaması oynayır. Təbii şərtlərə və resurslara bir neçə aspektdə yenidən baxıla bilər. Yenidən öyrənməkdə məqsəd yaxın gələcəkdə sənayeni istehsal və ərazi cəhətdən optimal inkişaf etdirməkdir. İlk növbədə təbii resursların sənaye üçün istifadə edilməsi mümkünlüyü öyrənilməlidir. Resursların çox kompanentliliyi aşkar edilməli və onların kompleks emal edilməsi imkanları ortaya çıxarılmalıdır. Sənayenin səmərəli strukturunu formalaşdırmaq üçün vacib sayılan məsələ təbii resursların və təbii şəraitin hansı istiqamətdə dəyişəcəklərini qabaqcadan təyin etməyə çalışmaq lazımdır. Bu ilk növbədə sənayenin mütərəqqi strukturunu formalaşdırmaq üçün vacib məsələdir. Ən başlıca məsələlərdən biri sənayeni ərazi üzrə təşkil edən amil və şərtləri öyrənərkən ölkənin sərancamında olan bütün növ resursların həcminin təyin edilməsi və onlardan istifadə edilməsi imkanlarını araşdırmaqdır. Sənaye üç istiqamətdə inkişaf etdirilməlidir.

**Birinci istiqamətin** göstəricisi sənayenin ümumi məhsulunun müqayisəli qiymətlərlə həcmi ola bilər. Yəni hansı yolla olursa-olsun, sənayenin ümumi məhsulunun həcmi artırılır. **İkinci istiqamət** sənayenin sahə strukturunun təkmilləşdirilməsini nəzərdə tutur və bu sahədə həyata keçirilən tədbirlərin nəticəsinə qiymət vermək üçün sahə strukturunu xarakterizə edən sistem göstəricilərdən istifadə olunmalıdır. Sənayedə fəaliyyət göstərən sahələrin sayı, tərkibi, onların arasında formalaşmış nisbətlər, sahələrdə buraxılan məhsulların nomenklaturası,

çeşidi, rəqabət xarakteristikaları və s. bu kimi göstəricilər belə göstəricilərdəndir. Sənayenin sahə strukturunun inkişaf etdirilməsi təbii resurslardan tam və səmərəli istifadə edilməsinə əsaslanmalıdır. **Üçüncü istiqamət** sənayenin ərazi üzrə strukturunun yaxşılaşdırılması olmalıdır.

Əlbəttə, üç istiqamətin üçü də bir-biri ilə qarşılıqlı bağlı olan məsələlərdir. Lakin üçüncü istiqamətin öz xüsusiyyətləri vardır və ölkənin sosial-iqtisadi tərəqqisinə təsir etməsi baxımından digər inkişaf istiqamətlərindən fərqlənir. Sənayenin ərazi üzrə təkmilləşdirilməsi bir neçə istiqamətdə ölkə üçün səmərəli ola bilər: yeni iş yerləri yaranar, əhalinin ölkə daxili miqrasiyası zəifləyər, əhalinin yaşayış tərzi dəyişər, sosial mühit sağlamlaşar. Lakin bazar iqtisadiyyatı şəraitində əsas məsələ vətənimizdə sahibkarlar ordusunu yaratmaq olmalıdır. Bu məsələ də təbii resursdan istifadə edilməsinə əsaslanan iqtisadi siyasətin həyata keçirilməsini, ayrı-ayrı bölgələrin kompleks inkişafını tələb edir. Bunun üçün bütün resurslar ayrıca və kompleks şəkildə iqtisadi cəhətdən qiymətləndirilməlidir.

Azərbaycan Respublikasında sənayeni və xüsusən də onun neftlə əlaqədar olmayan sahələrini gələcəkdə inkişaf etdirmək üçün təbii zəminləri vardır. Bunlardan biri respublikanın münasib relyef şəraitinə mənsub olması (ərazinin 60 %-i dağlıq sahələr olsa da sənayeni inkişaf etdirmək üçün relyef şəraiti vardır) və digəri kifayət qədər yanacaq-enerji və mineral-xammal resurslarının olmasıdır.

Ümumi şəkildə geoloji cəhətdən öyrənilmiş bir sıra faydalı qazıntılar vardır. Bunlardan filiz mənşəli faydalı qazıntıları (dəmir, xrom, mis, qurğuşun, kobalt, alüminium, qızıl, gümüş və s.) qeyri-filiz faydalı qazıntıları (neft, qaz, kömür, torf, daşduz, mineral rənglər, sular, kükürd kolçedanı, əhəng, kvars qumu və s.) nadir elementləri, mineral suları (hidrokarbonlu, hidrokarbon xloridli, hidrokarbon- xlorid- sulfat) və s. göstərmək olar.

Münasib ərazinin və təbii şəraitin olması da sənayenin emal sahələrinin inkişafı üçün yaxşı imkan yaradır.

Dünyada məlum olan iqlim qurşaqlarının çoxunun Azərbaycanda olması, 800 km –dən çox bir məsafədə Xəzər dənizi ilə əhatə olunması sənayenin xammal bazasının genişləndirilməsi üçün yaxşı şərait yaradır.

Azərbaycan Respublikası ərazisinin süni balıq yetişdirilməsi üçün gözəl inkişaf perspektivləri vardır. Bunun başlıca amili havanın yüksək orta illik hərarəti və il ərzində günəşli günlərin çox olmasıdır.

Sənayedə istifadə olunması üçün Azərbaycanın kifayət qədər bitki növləri vardır. Təbii bitki resursları imkan verir ki, respublikada qida məhsulları üzrə bolluq yaradılsın, yüngül və yeyinti sənayelərinin inkişafı üçün xammal bazası genişləndirilsin.

Azərbaycan Respublikasında sənayenin gələcək inkişafını təmin etmək üçün təbii zəminlərdən başqa, iqtisadi, elmi, texniki və texnoloji zəminlər də mövcuddur. Keçmiş SSRİ dövründə mövcud olan müəssisələrin çoxu ya heç ya da tam gücü ilə işləmir. Nisbətən köhnəlsə də Azərbaycan Respublikasında sənayeni inkişaf etdirmək üçün material-texniki baza kifayət qədər vardır. Əsas fondların dəyəri 2000-ci ildə 92,3 trilyon manat təşkil etmişdir ki, bunun da 69,7 faizi əsas istehsal fondlarının payına düşür. Sənayenin sərəncamında olan əsas fondların dəyəri isə baxılan dövr üçün 29,3 trilyon manata bərabər olub. Nəzərə alsaq ki, hazırda bu fondlardan istifadə səviyyəsi tələb olunandan çox aşağıdır, sənayeni gələcəkdə inkişaf etdirmək üçün daxili imkanların olması məlum olar.

Əldə olunan əsas istehsal fondları təbii resurslarla birlikdə sənayenin ərazi cəhətdən təşkilini yaxşılaşdırmaq üçün münasib şərait yaradır. Çatışmayan cəhət odur ki, əsas istehsal fondları Azərbaycanın iqtisadi rayonları arasında qeyri-bərabər şəkildə formalaşmışdır. Abşeron rayonunda əsas istehsal fondlarının əksər hissəsi yerləşdirilmişdir. Əli-Bayramlı–Salyan, Gəncə-Daşkəsən, Mingəçevir-Yevlax kimi sənaye qovşaqlarında əsas istehsal fondlarının çox az hissəsi (12-15%) cəmlənmişdir. Şəki-Zaqatala zonasında, Naxçıvan Muxtar Respublikasında, Lənkəran-Astara zonasında isə əsas istehsal fondları lap azdır.

Bundan başqa, nəqliyyat şəbəkəsi də Azərbaycanda sənayeni inkişaf etdirmək üçün zəmin rolunu oynayır. Demək olar ki, respublikanın bütün sənaye qovşaqlarının dəmir yollarından aralılığı 30 km–ə qədərdir. Relssiz nəqliyyatlar üçün isə bu məsafə orta hesabla 10 km təşkil edir.

Respublikada dövlət mülkiyyətinin özəlləşdirilməsi sürətlə gedir. Bu prosesin özü də sənayenin gələcək inkişafı üçün yaxşı zəmindir. Söhbət burada əsasən özəlləşdirmənin kompleks və səmərəli həyata keçirilməsindən və bu sahədə iqtisadi rayonlara maksimum sərbəstlik verilməsindən gedə bilər.

Bazar iqtisadiyyatı şəraitində ölkənin əhalisi və onun əmək qabiliyyətliliyi sənayenin inkişafı üçün mühüm amildir. Azərbaycan Respublikasında bu cəhətdən çoxlu istifadə edilməyən daxili imkanlar vardır. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2001- ci ilin yanvar ayının 1-nə respublika əhalisinin ümumi sayı 8.081 min nəfərə bərabər olmuşdur. Müqayisə üçün göstərək ki, 2000-ci ildə isə 7.131 min nəfər təşkil edirdi. Deməli, keçən on il ərzində təbii artım bir milyona yaxın olmuşdur. Əhalinin ümumi sayında kişilərin xüsusi çəkisi 49%-ə yaxındır. Əmək ehtiyatlarının xüsusi çəkisi 2000- ci ildə 54%-dən çox təşkil etmişdir ki, bu 5,6 milyon nəfərdən də çoxdur. Bundan başqa, Azərbaycanda iki yüz mindən çox təcrübəli sənaye işçisi var. Onlar işləmirlər. Bu cür vəziyyətin əmələ gəlməsi 1990-cı illərin əvvəlində baş vermiş məlum hadisələrlə bağlıdır.

2000-ci ildə məşğul olan əhalinin ümumi sayının cəmi 7%-i sənayedə cəmlənmişdir. Bu bazar iqtisadiyyatı üçün yaxşı göstərici hesab edilə bilməz. Müqayisə üçün qeyd edək ki, elə dövr olub ki, sənayedə çalışanların xüsusi çəkisi iqtisadiyyatda çalışan fəhlə və qulluqçuların tərkibində 25% təşkil edib.

Ümumiyyətlə götürdükdə yaxın gələcəkdə Azərbaycan Respublikasında işçi qüvvəsinin təbii artımı, müxtəlif səbəblərdən indi faydalı ictimai işlə məşğul olmayan iqtisadi fəal əhalinin istehsala cəlb edilməsi, elmi-texniki tərəqqi nailiyyətlərinin istehsala tətbiq edilməsi

nəticəsində xalq təsərrüfatının digər sahələrində və sənayenin özündə ixtisara düşən fəal və ixtisaslı işçilər üçün yeni iş yerlərinin yaradılması zəruriliyi, səna-yenin həm intensiv (yüksək texniki – texnoloji səviyyədə yeni istehsalların yaradılması, fəaliyyətdə olan müəssisələrin yenidən qurulub texniki silahlandırılması və avtomat müəssisələrinin yaradılması) və həm də ekstensiv (əl əməyi üstünlük təşkil edən, mexanikləşdirilmə və avtomatlaşdırma səviyyəsi nisbətən aşağı olan, hətta ilk vaxtlar yerli tələbatların ödənilməsini nəzərdə tutan və həm də yerli resurslardan istifadəyə və əl əməyinə əsaslanan kiçik və orta müəssisələrin yaradılması və fəaliyyətdə olan müəssisələrin bu istiqamətdə profilinin dəyişdirilməsi) inkişaf etdirilməsi üçün gözəl zəmindir. Bu sahədə İqtisadi İnkişaf Nazirliyinin əsas vəzifəsi məqsədli proqramlar tərtib edib həyata keçirmək və ilk növbədə daxili imkanları səfərbər etməklə ölkədə işsizliyin azaldılmasına, işləyən müəssisələrin səmərəliliyinin yüksəldilməsinə, iqtisadi rayonların kompleks inkişaf etdirilməsinə, iqtisadiyyatın respublika ərazisində proporsional yerləşdirilməsinə və ən başlıcası isə maddi-enerji, təbii və insan resurslarından tam, səmərəli və kompleks istifadə edilməsinə nail olmaqdan ibarət olmalıdır.

Respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri formalaşdırılarkən nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatına keçid şəraitində və ondan sonra respublikanın sosial-iqtisadi inkişafında sənayenin rolu daha da artır. Lakin bu hər hansı bir artım yox, istehsalın səmərəliliyinin qat-qat yüksəlməsi ilə müşahidə olunan artım olmalıdır. Ümumi şəkildə götürdükdə istehsalın səmərəliliyinə təsir edən amil və şərtləri iki mühüm qrupa bölmək olar. Birinci qrupa sənayenin və onun sahələrinin öz xüsusiyyətindən irəli gələn amillər daxildir. İkinci qrup amillərə isə sənayenin ərazilər üzrə təşkilindən irəli gələn amillər daxildir. İstehsalın idarə olunmasında hər iki qrup amillərə ciddi fikir verilməsini bazar iqtisadiyyatının yazılmayan qanunları tələb etsə də bu gün müxtəlif səbəblər üzündən istehsalın səmərəliliyinin yüksəldilməsi-nin ərazi amillərindən zəif istifadə edilir. Bu da istehsalın bazar

iqtisadiyyatı şəraitində tələb olunan səviyyədə yüksəldilməsinə imkan vermir.

Hazırkı dövrdə sənaye istehsalının səmərəliliyinin yüksəldilməsində ərazi amillərinə diqqətin artırılması və bu baxımdan istehsalın regionlar üzrə təşkilinin təkmilləşdirilməsi zəruriliyi aşağıdakılarla izah olunur: mülkiyyətin formasının dəyişilməsi və sahibkarlığın inkişafı; ərazilərin iqtisadi sərbəstliliyinin yüksəldilməsi zəruriliyi; ərazilərin və orada yerləşdirilən sənaye vahidlərinin ixtisaslaşma və kooperasiyalaşma səviyyəsini maksimum mümkün olan həddə qədər yüksəltmək; ərazidə yaşayan əhalini faydalı işlə təmin etmək və elmi-texniki tərəqqi və onun nailiyyətlərinin istehsala gecikmədən tətbiq etmək yolu ilə yüksək əmək məhsuldarlığına nail olmaq zəruriliyi; regionun optimal səviyyədə kompleks inkişafını bazar iqtisadiyyatı tələblərinə uyğun təmin etmək; gündəlik tələbat malları üzrə ərazilərin özünütəminatını genişləndirmək və bu işi bazara keçidlə əlaqədar görülən tədbirlərlə yanaşı yerinə yetirmək zəruriliyi.

Bütün bunları təcrübədə həyata keçirmək üçün istehsalın ərazilərdə optimal təşkil edilməsi yolu ilə respublikanın sosial iqtisadi inkişafını sürətləndirmək proqramı işlənib hazırlanmalıdır. Proqramın bölmələri hər bir iqtisadi rayona həsr olunmalı və onların kooperasiya əlaqələri optimallaşdırılmalıdır.

Azərbaycan Respublikasında əmək resursları artıqlığı mövcud olduğuna görə sənayenin əmək tutumlu sahələrinin üstün inkişaf etdirilməsinə diqqət artırılmalıdır. Nəzərə alınmalıdır ki, qadınların arasında işsizlər daha çoxdur. Qadınların istehsala cəlb edilməsi probleminin də aktuallığı bazar iqtisadiyyatında artır. Qadınlara xoş gələn iş yerlərinin yaradılmasını nəzərdə tutan məqsədli proqramların tərtib edilib həyata keçirilməsi vaxtı çatmışdır.

Sənayenin inkişafı və xüsusən də emal müəssisələrinin kütləvi şəkildə yaradılması zəruriliyi bir mühüm cəhətdən də meydana gəlir. Bu cəhət kənd təsərrüfatı ilə əlaqədardır. Statistik məlumatlara görə iqtisadi fəal əhalinin 40%-dən çoxu kənd təsərrüfatında çalışır. Say etibarı ilə bu

1,6 milyon nəfər deməkdir. Sirr deyildir ki, bunların çoxu özəlləşdirmə nəticəsidə quru torpaq alan və onu becərməyə çətinlik çəkən rayon və kənd əhalisidir. Kənd təsərrüfatında islahatlar öz bəhrəsini hərtərəfli göstərməyə başladıqdan və özəl iri kənd təsərrüfatı müəssisələri yaradıldıqdan sonra, kənd təsərrüfatı proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, istehsalın təşkilinin yaxşılaşdırılması, idarəetmənin optimallaşdırılması nəticəsində yaxın gələcəkdə çoxlu sayda kənd təsərrüfatı işçisi ixtisara düşə bilər. Onların da işlə təmin edilməsi ağırlığı yenə də sənayenin üzərinə düşəcək. Bu təkcə bizim respublikamızda belə deyildir. Bütün dünya ölkələri kənd təsərrüfatında işləyənlərin sayını minimuma (5-10%-ə) çatdırmış və ilk növbədə azad olan iqtisadi fəal əhalini işlə, sənayedə iş yeri yaratmaqla təmin etmişdir.

Sənayenin qeyri-neft bölməsində yüngül sənayenin inkişaf etdirilməsi imkanları daha çoxdur. Belə imkanlar həmişə olub və tarix göstərir ki, dövlət tərəfindən müəyyən qayğı gös-tərilən dövrlərdə Azərbaycanda yüngül sənaye inkişaf etdirilib. Məsələn, keçmiş SSRİ adlanan imperiya dağılmamışdan qabaq 220- dən çox yüngül sənaye müəssisəsi fəaliyyət göstərirdi və yüngül sənayenin ümumi sənaye məhsulundakı xüsusi çəkisi 20%-dən çox təşkil edirdi. Sənayedə işləyənlərin 25,2%-i burada çalışırdılar. Bu o dövrlər üçün (1985-1990-cı illər üçün) 100 mindən çox fəhlə və qulluqçu demək idi. İndi bazar iqtisadiyyatı şəraitində yüngül sənayeni o dövrlərdəkindən də səmərəli inkişaf etdirmək üçün əlverişli şərait yaranmışdır. Məsələ burasındadır ki, o vaxtlar Azərbaycanın yüngül sənayesi əsasən Moskvanın tərtib etdiyi perspektiv planlara uyğun inkişaf etdirilirdi və əsas və başlıca nöqsan o idi ki, yerli xammalın hamısı kompleks emal edilmirdi. Məsələn, pambıq əsasən mahlıc şəkilində reallaşdırılırdı. Digər kənd təsərrüfatı malları da xam material şəkilində mərəkəzə ötürülürdü. Müstəqillik əldə etdiyimiz indiki zamanda problemlərin həllinə yaradıcılıqla yanaşılarsa biz yüngül sənayeni hazır (son) məhsul istehsalı istiqamətində inkişaf etdirə bilərik.

Ümumiyyətlə gələcək dövrlərdə Azərbaycanda yüngül və yeyinti sənayelərini sürətlə inkişaf etdirmək üçün lazımi iqtisadi şərait (yanacaq-enerji bazası) müxtəlif tərkibdə, çeşiddə və həcmdə maddi baza, hazır məhsulun reallaşdırılması üçün daxili və xarici bazar münasib istehsal gücləri və ixtisaslı işçilər vardır. Yeyinti və yüngül sənayeni səmərəli inkişaf etdirmək üçün Azərbaycan ərazisində coğrafi tədqiqatları gücləndirmək, müəssisələrin məqsədyönlü yerləşdirilməsi sxemini tərtib etmək və yerli resurslardan və ilk növbədə insan resurslarından səmərəli və tam istifadə etməklə yüngül və yeyinti sənayelərin sahə komplekslərinin ərazi cəhətdən formalaşmasını elmi cəhətdən formalaşdırmaq lazımdır. Ərazilərin öyrənilməsi yeyinti sənayesinin inkişafında mümkün daxili imkanların da ortaya çıxmasına səbəb olar. Məsələn, balıqçılığı və xüsusən də süni yetişdirmə yolu ilə balıqçılığı və münasib yeyinti sənaye sahəsini inkişaf etdirmək üçün ərazimizdə yaxşı şəraitin olması mütəxəssislər tərəfindən təsdiq edilir. Lakin buna baxmayaraq Azərbaycanda balıq sənayesi yaxşı inkişaf etməmişdir. Bunun bilavasitə nəticəsi də budur ki, il ərzində adambaşına istehlak edilən balıq məhsullarının həcminə görə Azərbaycan Respublikası dünya ölkələri arasında axırıncı yerlərdən birini tutur. Məsələn, əgər respublikamızda adambaşına istehlak edilən balıq və balıq məhsullarının miqdarı cəmi 2,7 kq. təşkil edirsə (2000-ci il) bu rəqəm Rusiyada 9,9 kq (1999), ABŞ-da 10 kq (1987), Almaniyada 15,1 (1998), İtaliyada 17,3 kq (1996) təşkil etmişdir.

Neft emalı, neftin dərin emalı sahəsində daxili imkanlar kifayət qədərdir. Azərbaycanda 22 milyon ton neft emal etmək olar. Hazırda isə 5-6 milyon ton neft emal edilir. İstehsal güclərindən istifadəni layihə səviyyəsinə qaldırmaqla neftayırma sənayesinin intensiv inkişafını təmin etmək olar.

Qeyd edək ki, sənayenin və onun digər sahə və yarımsahələrinin inkişaf etdirilməsi imkanları böyük olduğuna görə, bazar iqtisadiyyatına keçidlə əlaqədar olan bütün texniki, təşkilati, iqtisadi, sosial-psixoloji, struktur tədbirlər sənayenin hərtərəfli inkişaf etdirilməsi baxımından

həyata keçirilməlidir. Məsələ brasındadır ki, sənayenin inkişafı istər-istəməz xalq təsərrüfatının digər sahələrinin və ilk növbədə kənd təsərrüfatının inkişafına da təkan vermiş olacaq. Bu cür yanaşmağın səmərəliliyi sənayecə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi ilə çoxdan sübut edilmişdir. Sənayenin məqsədyönlü inkişafı iqtisadiyyatın digər sahələrinin məqsədyönlü inkişafını təmin etməyə imkan verir. Deməli, proseslər elmi cəhətdən idarə olunmalı və optimal variantlar üzrə həm sənayenin və həm də bütövlükdə iqtisadiyyatın səmərəli inkişafını təmin etmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI


1. A.A.Əliyev, A.Ş.Şəkərəliyev. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002.
2. A.Ş.Şəkərəliyev. Keçid iqtisadiyyatı və dövlət. B., 2000
3. A.Ş.Şəkərəliyev. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. B., 1999
4. Ə.Q.Əlirzayev. Azərbaycanın iqtisadi inkişafının konsepsi-yası və proqramı. B., 1999
5. Ə.Q.Əlirzayev. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları. B., 2000
6. İ.Ş.Dadaşov. Real bazar iqtisadiyyatının atributları. B., 1996
7. İ.Ş.Dadaşov. Elmi-texniki tərəqqinin istiqamətləri və onların səmərəliliyi. B., 1992
8.İ.Ş.Dadaşov. Sənayedə özəlləşdirmə aparılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad elmləri: nəzəriyyə və praktika. B., 2002
9. Azərbaycan nefti dünya siyasətində. B., 1997
10.Azərbaycan sənayesi (statistik məcmuə). B., 2001
11. Azərbaycanın beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələri. B., 1997
12. M.Abdullayev. Azərbaycan-Türkiyə əlaqələri. B., 1998

13. T.Əliyev və b. Azərbaycanda kiçik biznesin təşkili və idarə edilməsinin bəzi səmtləri. B., 2001
14. Доклан ООН. Человеческие развития в Азербайджане. Б., 1996
15. Z.Həsənova. Dağ-mədən sənayesi və ətraf mühit. B., 1996
16. M.Qasımov. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). B., 1997
17. Всемирный Банк. Знание на службы развития: отчет о мировом развитии. 1999
18. Домичев В.И. Международная торговля. М., 2000.
19. Всемирный Банк Азербайджан: Оценка бедности. Доклад №156001 – Аз 27 феврал 1997.
20. Экономика. Учебник. М., 1999
21. Мировая экономика. Учебник, М., 1999
22. Ломакин В.К. Мировая экономика. М., 1998
23. Кудров В.М. Мировая экономика. М., 1999
24. The world Bank Global Economic Prospects and the Developinq Countries. 2002

## 4.5.ÃÀ èãòèñàäè èíêèøàôûíäà ÀÔÐ-íèí ðîëó.

ÃÀ ðåýèîíóíun èãòèñàäè éöêñÿëèşèíè òÿìèí åäÿí ùÿðÿêÿòâåðèúè ãöââÿëÿðèí äèýÿð ùèññÿëÿðè àéðû-àéðû þëêÿëÿðèí èãòèñàäè èíêèøàô ñöðÿòè âÿ äþâëÿò áàø÷ûëàðûíûí èäàðÿ åòìÿ áàúàðûüû èëÿ áèëàâàñèòÿ áàüëûäûð. Áóðààà ñþùáÿò ùþêuìÿòèí þëêÿíè èäàðÿ åäÿðêÿí èñòèôàäÿ åòäèéè öñóë âÿ éàíàøìàëàðäàí, iíòåëëåêòóàë ÿìÿêäÿí vә ümumiyyәtlә, insan resurslarından íÿ äÿðÿúÿäÿ ñÿìÿðÿëè èñòèôàäÿ åäèëìÿñèíäÿí ýåäèð. Ìÿñÿëÿéÿ áó ïðèçìàäàí éàíàøàí äþâëÿòëÿðäÿí áèðè Àëìàíèéà Ôåäåðàòèâ Ðåñïóáëèêàñûdır (ÀÔÐ). Áó þëêÿíèí ùþêóìÿòè ìöòÿõÿññèñëÿðèí áèëèê âÿ áàúàðûüûíäàí ñÿìÿðÿëè èñòèôàäÿ åòìÿêlÿ ôÿðãëÿíèð. Ölkәnin ìöòÿõÿññèñëÿðinäÿí áèðè Ëöäâèã Håðõàðä èäè. ßââÿëëÿð èøüàë çîíàëàðûíûí áèðëÿøìèø òÿñÿððöôàòëàðû èäàðÿñèíèí äèðåêòîðó èøëÿìèø, ñîíðàëàð ÀÔÐ-èí êàíñëåðè îëìóø (1963-1966) áó øÿõñ èãòèñàäèééàòûí èäàðÿ åäèëìÿñè öçðÿ áèð ñûðà ãàáàãúûë èäåéëàðûí ìöÿëëèôè èäè. Îíóí òÿêëèô åòäèéè ðåôîðìà äöíéà èãòèñàäèééàòûíäà “øîê òåðàïèéàñû” àäû àëòûíäà ìÿøùóðäóð. Èãòèñàäè äèð÷ÿëèøèí ÿñàñ

ëèíýëÿðè êèìè, Heðõàðä, ðÿãààáÿòèí ýöúëÿíäèðèëìÿñèíè, dþâëÿòèí èãòèñàäè öñóëëàðëà òÿñÿððöôàòëàðà òÿñèð ýþñòÿðìÿñèíè âÿ àçàä øÿêèëäÿ ìåéäàíà ÷ûõàí ôÿðäè ñÿéëÿðèí äÿñòÿkëÿíìÿñèíè ùåñàá åäèðäè. Ë.Heðxàðäûí èãòèñàäè ðåôîðìàñû ïóë ðåôîðìàñûíû, ãèéìÿòëÿðèí ñÿðáÿñòëÿøäèðèëìÿñèíè, àçàä ñàùèáêàðëûüûí èíêèøàô åòäèðèëìÿñèíè íÿçÿðäÿ òóòóðäó. Ëàêèí Ë.Heðõàðäûí òÿêëèô åòäèéè ðåôîðìàíûí ìàùèééÿòèíè áóíëàð éîõ, ÿñàñÿí èíñàí àìèëè âÿ îíäàí èñòèôàäÿ òÿøêèëè åäèðäè. ßñëèíäÿ Ë.Håðõàðä þç þëêÿñèíäÿ <u>ñîñèàë áàçàð èãòèñàäèééàòû éàðàäà áèëäè</u>. Îíà áó èøäÿ ùÿìêàðëàð èòòèôàãû, ñîë ïàðòèéàëàð, èðè áèçíåñëÿð, ôèðìàëàð, ÿùàëèíèí ýåíèø êöòëÿñè, àëìàí õàëãûíûí ÿìÿêñåâÿðëèéè âÿ áèðëèéè, ñèéàñè ùÿéàòûí äåìîêðàòèêëÿøìÿñè, ÀÁØ-ûí ìàëèééÿ êþìÿéè úèääè dəstək oldular. Àëìàíèéà áó ðåôîðìàíûí éàõøû íÿòèúÿëÿðèíè ÷îõ ãûñà áèð ìöääÿòäÿ ýþðäö. 1950-úè èëëÿðèí îðòàëàðûíäà (ìöùàðèáÿäÿí úÿìè 10 èë ñîíðà) ÀÄÐ ãûçûë åùòèéàòûíà ýþðÿ ÀÁØ-dàí ñîíðà èêèíúè éåðÿ ÷ûõäû. Ùàçûðäà ÀÔÐ Ãÿðáè Àâðîïàíûí ÿí íÿùÿíý äþâëÿòèäèð. ÖÄÌ-óí ùÿúìèíÿ, ñÿíàéåíèí ìiqyasûíà, èãòèñàäè èíêèøàô ýþñòÿðèúèëÿðèíÿ, ÿùàëèíèí éàøàéûø ñÿâèééÿñèíÿ ýþðÿ Àëìàíèéà äöíéà þëêÿëÿðè ñèéàùûñûíäà ö÷óíúö-áåøèíúè éåðëÿðè òóòóð. ÃÀ ðåýèîíóíäà èñòåùñàë åäèëÿí ÖÄÌ-óí 23,7%, ñÿíàéå ìÿùñóëóíóí èñÿ 27%-è ÀÐÔ-íûí ïàéûíà äöøöð (1997-úè èë).

Àëìàíèéàäà ìöâÿôôÿãèééÿòëÿ ùÿéàòà êå÷èðèëÿí âÿ Ë.Heðõàðäûí àäû èëÿ áàüëàíàí ðåôîðìàíûí áöòöí ÃÀ-à ö÷öí õåéðè îëäó. Àâðîïàíûí äèýÿð þëêÿlÿðè äÿ áó òÿúðöáÿäÿí áó âÿ éà äèýÿð øÿêèëäÿ èñòèôàäÿ åòäèëÿð âÿ ìöâÿôôÿãèééÿòëÿð ãàçàíäûëàð.

## 4.6.ÃÀ èãòèñàäè èíêèøàôûíäà Áþéöê Áðèòàíèéàíûí ðîëó

ÃÀ ðåýèîíóí èãòèñàäè èíêèøàôûíäà îíóí äègÿð þëêÿëÿðèíèí äÿ ðîëó êÿñÿðëè îëìóøäóð. Áåëÿ þëêÿëÿðÿ ìèñàë Áþéöê Áðèòàíèéàíû ýþñòÿðìÿê îëàð. Áó þëêÿäÿ 1979-úó èëdÿ Ì.Òåò÷åð ùþêóìÿòèíèí èãòèñàäè ðåôîðìàñû àäëàíàí ðåôîðìà həyata êå÷èðèëìèø âÿ ìöñáÿò íÿòèúÿëÿð ÿëäÿ

åäèëìèøäèð. Ðåôîðìàíûí ÿñàñ ìÿãñÿäè èãòèñàäèééàòûí ëèáåðàëëàøäû-ðìûëìàñû èäåéàñûíûí ùÿéàòà êå÷èðèëìÿñè âÿ áó éîëëà èãòèñàäèééàòäà äþâëÿòèí ðîëóíóí àçàëäûëìàñû âÿ áàçàð ìåõàíèçìëÿðèíèí ýöúëÿíäèðèëìÿñè èäè.

Áó øÿêèëäÿ ùÿéàòà êå÷èðèëÿí èãòèñàäè ðåôîðìàéà ñÿáÿá èñÿ ëåéáîðèñòëÿð ùþêóìÿòèíèí àïàðäûüû èãòèñàäè ñèéàñÿò íÿòèúÿñèíäÿ äþâëÿò ñåêòîðóíón ùÿääÿí àðòûã éöêñÿëìÿñè, áóíóí íÿòèúÿñèíäÿ âÿ þëêÿíèí èãòèñàäèééàòûíäà èíôëéàñèéàíûí ýöúëÿíìÿñè, dþâëÿò ìöÿññèñÿëÿðèíäÿ èñòåùñàë åäèëÿí ìÿùñólëàðûí ãèéìÿòëÿðèíèí ãåéðè-áàçàð öñóëëàðû èëÿ òÿéèí åäèëìÿñè, èñòåùñàë ùÿúìèíèí àçàëìàñû, èøñèçëèéèí àðòìàñû, ÿùàëèíèí éàøàéûø ñÿâèééÿñèíèí àøàüû äöøìÿñè, õàðèúè áîðúóí àðòìàñû olmuşdu. Áåëÿ áèð iqtisadi durumu olan Böyük Britaniyada 1979-ju ilin mayında êîíñåðâàòîðëàð ïàðòèéàñû ùàêèìèééÿòÿ ýÿëäè êè, îíóí äà áàøûíäà M.Tetçer dururdu. Hakimiyyətə gələn kimi M.Tetçer hökuməti èãòèñàäèééàòû úàíëàíäûðìàüà kömək göstərə bilən ïóë êöòëÿñèíÿ íÿçàðÿòè ýöúëÿíäèðÿí, âåðýè äÿðÿúÿëÿðèíè àøàüû ñàëàí, ãèéìÿòëÿðèí âÿ ÿìÿê ùàããûíûí ñÿâèééÿëÿðèíÿ ãîéóëàí íÿçàðÿòëÿðèí çÿèôëÿìÿñèíÿ yönələn, õöñóñè áþëìÿéÿ äþâëÿò ñóáñèäèéàëàðûíû və ümumiyyətlə, äþâëÿò õÿðúëÿðèíè àçàëòìàüà éþíÿëÿí èñòèãàìÿòëÿðäÿ ÿìÿëè òÿäáèðëÿð həyata êå÷èðìÿéÿ áàøëàäû. Íÿòèúÿäÿ 1982-1983-úö èëëÿðäÿ èíôëéàñèéàíûí àðòûì ñöðÿòè èëäÿ 5,0% àøàüû äöøìÿéÿ áàøëàäû âÿ ñîíðàëàð ñàáèòëÿøäè. Ì.Òåò÷åðin èãòèñàäè ðåôîðìàñû õöñóñè òÿñÿððöôàòëàðûí və sahibkarların maraqlarını nəzərə alırdı. Onlara rentabelli èøëÿéÿí äþâëÿò ìöÿññèñÿëÿðè ñàòûëûðäû. Õöñóñè ôèðìàëàðà Øèìàë äÿíèçèíäÿêè çÿíýèí íåôò éàòàãëàðû, dàø êþìöð øàõòàëàðû, ðàäèîàêòèâ èçîòîïëàð èñòåùñàë åäÿí çàâîäëàð vÿ ñ. àç ôàéäà âåðÿí ìöÿññèñÿëÿð ñàòûëûðäû. Íÿòèúÿäÿ dþâëÿòèí âÿñàèòè àðòûr, êàïèòàë ãîéóëóøó èñÿ àçàëûðäû. Əí ÷îõ óäàí èñÿ õöñóñè ñåêòîð, Èíýèëòÿðÿíèí ñàùèáêàðëàðû âÿ ÿùàëèñè èäè.

Ãåéä åäÿê êè, äöíéà èãòèñàäèééàòûíäà Ì.Tåò÷åðèí àäû èëÿ àäëàíàí âÿ Áþéöê Áðèòàíèéàäà ùÿéàòà êå÷èðèëÿí èãòèñàäè ðåôîðìàíûí áöòöí ÃÀ ö÷öí áþéöê ÿùÿìèééÿòè âàð èäè âÿ ñîíðà ðåÿèîíóí èãòèñàäè èíêèøàôûíà

ìöñáÿò òÿñèðè ýþñòÿðèðäè. Ìÿùç áó ðåôîðìàíûí íÿòèúÿñèíäÿ Ëîíäîíóí äöíéààà áèð ìàëèééÿ ìÿðêÿçè êèìè ìþããåéè õåéëè ìþùêÿìëÿíäè.

## 4.7.ÃÀ èãòèñààè èíêèøàôûíäà äþâëÿò òÿíçèìëÿìÿñè

ÃÀ èãòèñààè èíêèøàôûíûí ùÿðÿêÿòâåðèúè ãöââÿëÿðèíäÿí áèðè äÿ þëêÿëÿðäÿ äþâëÿò òÿíçèìëÿìəñèíèí ÷îõ ýöúëö îëìàñû vÿ onun éåíè, ìöòÿðÿããè öñóë âÿ éàíàøìàëàðëà ùÿéàòà êå÷èðèëìÿñèäèð. Óçóí èëëÿð, îí èëëÿð âÿ ùÿòòà 100 èëëÿð ÿðçèíäÿ ÃÀ ðåýèîíó þëêÿëÿðè èãòèñààè âÿ ñèéàñè ìÿñÿëÿëÿðèí ùÿëlèíäÿ ÿñàñ êðèòåðèéà êèìè ñîñèàë èíêèøàôû, èíñàí àìèëèíi, øÿõñèééÿòèí ùÿðòÿðÿôëè èíêèøàôûíû ãÿáóë åòìèøëÿð, áó ñàùÿäÿ ìöáàðèçÿ àïàðìûøëàð âÿ ãÿðàðà ýÿëìèøëÿð êè, ìÿñÿëÿéÿ éàðàäûúû éàíàøäûããà äþâëÿò òÿíçèìëÿíìÿñè bütün ìÿñÿëÿëÿðè äàùà êåéôèééÿòëè âÿ ùÿúìëè ùÿëë åòìÿéÿ ãàäèð îëóð. Àåéä åäÿê êè, åëÿ áó ýöí äÿ ÃÀ-íûí ñîñèàë-èãòèñàäè èíêèøàô ìîäåëèíäÿ ñîñèàë éþíòìëölüê äöíéàíûí áöòöí ðåýèîíëàðûíäà, î úöìëÿäÿí ÀÁØ âÿ Éàïîíèéàäà îëäóüóíäàí ýöúëöäöð. “Ñîñèàë áàçàð èãòèñààèééàòû”, “Ñîñèàë áàçàð òÿñÿððöôàòı” ìÿôùóìëàðû ÿí ÷îõ ÃÀ þëêÿëÿðèíÿ éàðàøûð âÿ îíëàðûí êÿëàìëàðûäûð. Áó þëêÿëÿðäÿ äþâëÿò ÿí ÷îõ ñîñèàë ñàùÿäÿ iş ýþðöð âÿ ìöêêèééÿòèí ôîðìàëàðûíäàí àñûëû îëìàéàðàã áöòöí ìöÿññèñÿëÿðäÿ ìþâúóä îëàí èø éåðëÿðèíèí ôÿàëèééÿò ýþñòÿðìÿñè âÿ þëêÿäÿ éåíè èø éåðëÿðèíèí éàðàäûëìàñû ãàéüûñûíà ãàëûð. ßñëèíäÿ êå÷ìèøäÿ ÑÑÐÈ äåéèëÿí èìïåðèéà ìÿêàíûíäà äþâëÿò âÿ ïàðòèéà ñÿíÿäëÿðèíäÿ òåç-òåç òÿêðàð îëóíìóø ëàêèí ùÿéàòà êå÷èðèëÿìèø, “Hÿð øåé èíñàí ö÷öí”, “Ñîñèàë èíêèøàô”, “Äöâëÿò ïëàíëàøäûðûëìàñû âÿ òÿíçèìëÿíìÿñè”, “Ñîñèàë ÿäàëÿò” êèìè ïðèíñèïëÿð ÃÀ ðåýèîíó þëêÿëÿðèíäÿ áàúàðûãëà ùÿéàòà êå÷èðèëìèøäèð âÿ êå÷èðèëèð. ÃÀ þëêÿëÿðè áó ïðèíñèïëÿðèí ùÿéàòà êå÷èðèëìÿñè éîëëàðûíû, êå÷ìèø ÑÑÐÈ-äÿí ôÿðãëè îëàðàã, èäàðÿåòìÿäÿ èãòèñàäè öñóëlàðûí òÿòáèã åäèëìÿñèídÿ, êè÷èê, îðòà âÿ èðè ñàùèáêàð-ëûüûí ïîòåìàë ñÿâèééÿäÿ èíêèøàô åòäèðèëìÿñèíäÿ, àçàä âÿ ñÿìÿðÿëè ðÿãàáÿòèí ýöúëÿíäèðèëìÿñèíäÿ, ãàíóíëàðûí àëèëèééèíèí òÿìèí åäèëìÿñèíäÿ,

êîððóïñèéàíûí òÿñÿððöôàò÷ûëûãäàí óçàãëàşäûðûëìàñûíäà ýþðìöøëÿð âÿ áþéöê ìöâÿôôÿãèééÿòëÿðëÿð ÿëäÿ åòìèøëÿð.  Èãòèñàäèééàòûí ìÿùç áó éîëëàðëà èíêèøàôûíû òÿìèí åòìÿê ö÷öí ÃÀ þëêÿëÿðèíäÿ ýöúëö äþâëÿò òÿíçèìëÿíìÿñè ìþâúóääóð âÿ áó ñÿìýèäÿ ùÿéàòà êå÷èðèëÿí äþâëÿò òÿíçèìëÿíìÿñè ÃÀ þëêÿëÿðè èãòèñàäèééàòû èíêèøàôûíûí ùÿðÿêÿòâåðèúè ãöââÿñèíÿ ÷åâðèëìèøäèð.

## §5. ÈÍÊÈØÀÔÄÀ ÎËÀÍ ÞËÊƏËƏÐ ÂƏ ÄÖÍÉÀ İÃÒÈÑÀÄÈÉÉÀÒÛÍÄÀ ÎÍËÀÐÛÍ ÌÞÂÃÅÉÈ

### 5. 1. Èíêèøàôäà îëàí þëêÿëÿð âÿ îíëàðûí ÿñàñ ÿëàìÿòëÿðè

Äöíéàíûí áèð ÷îõ äþâëÿòëÿðè, “èíêèøàôäà îëàí þëêÿëÿð” ãðóïóíà äàõèë åäèëèð. Ëàêèí ãàáàãëàð áó þëêÿëÿð “èãòèñàäè úÿùÿòäÿí ýåðè ãàëìûø”, “àçàä îëìóø”, “çÿèô èíêèøàô åòìèø”, “Ö÷öíúö äünéà” (1950-úè èëäÿí ñîíðà) þëêÿëÿðèíÿ àèä åäèëèðäèëÿð. 1980-úè èëëÿðäÿí ñîíðà äöíéà èãòèñàäèééàòûíäà áó þëêÿëÿðè øÿðù åäÿðêÿí “Úÿíóá þëêÿëÿðè» ìÿfùóìóíäàí èñòèôàäÿ åäèëìÿéÿ áàøëàíäû (ìöâàôèã îëàðàã “Øèìàë” ãðóïóíà ñÿíàéå áàõûìäàí èíêèøàô åòìèø þëêÿëÿð äàõèë åäèëèðäè). Ìöàñèð äþâðäÿ èíêèøàô åòìèø þëêÿëÿðè õàðàêòåðèçÿ åòìÿê ö÷öí «ìÿðêÿç», çÿèô èíêèøàô åòìèø þëêÿëÿðè ýþñòÿðìÿê ö÷öí èñÿ “ÿòðàô” òåðìèíëÿðèíäÿí äÿ èñòèôàäÿ åäèëèð.

“Èíêèøàôäà îëàí þëêÿëÿð” àíëàéûøû àëòûíäà ãðóïëàøäûðûëàí þëêÿëÿðèí ñàéû éöçäÿí ÷îõäóð. Áóðà XIX ÿñðäÿ âÿ İêèíúè äöíéà ìöùàðèáÿñèíäÿí ñîíðà ìöñòÿãèlëèê ÿëäÿ åòìèø þëêÿëÿð äàõèë åäèëèð. Ëàêèí åëÿ  áó áàøäàí ãåéä åäÿê êè, bó ìÿôùóì øÿðòè õàðàêòåð äàøûéûð

âÿ ñàäÿúÿ îëàðàã îõøàð ÿëàìÿòëÿðèíÿ ýþðÿ þëêÿëÿðè ãðóïëàøäûðìàã ö÷öí èñòèôàäÿ åäèëèð. Ùàçûðêû äþâðäÿ áó þëêÿëÿðèí è÷ÿðèñèíäÿ åëÿ þëêÿëÿð âàð êè, îíëàð (ìÿñ. Úəíóáè Êîðåéà Ðåñïóáëèêàñû, Òàéâàí, Hîíêîíã, Ñèíãàïóð âÿ ñ.) àðòûã èíêèøàô åòìèø þëêÿëÿð ùåñàá îëóíóðëàð.

“Èíêèøàôäà îëàí þëêÿëÿð” èãòèñàäè èíêèøàô áàõûìûíäàí ìöõòÿëèô îëñàëàð äà îíëàðûí ùàìûñûíûí îõøàð ÿëàìÿòëÿðè âàðäûð. Áó ÿëàìÿòëÿðÿ èãòèñàäèééàòûí ÷îõóêëàälıëûüû, ìÿùñóëäàð ãöââÿëÿðèí çÿèô èíêèøàôû, êÿíä òÿñÿððöôàòûíûí ýåðèëèéè, ÿìÿê ìÿùñóëäàðëûüûíûí àøàüû îëìàñû, ñÿíàéåíèí çÿèô èíêèøàôû, õèäìÿòèí piñ èíêèøàôû âÿ òÿøêèëè, õàðèúè êàïèòàëäàí ýöúëö àñûëûëûã, èíñàí àìèëèíäÿí ñÿìÿðÿñèç èñòèôàäÿ åäèëìÿñè, ÿùàëè àðòûìûíûí éöêñÿê ñöðÿòè, áåéíÿëõàëã ÿìÿê áþëýöñöíäÿ õàììàë èñòåùñàëû öçðÿ èõòèñàñëàøìà êèìè ÿëàìÿòëÿð äàõèëäèð. Áó úöð úÿùÿòëÿðèí îëìàñû èëÿ éànaøû èíêèøàôäà îëàí þëêÿëÿðèí áèð ñûðà öìóìè âÿ õöñóñè ÿëàìÿòëÿðè äÿ ìþâúóääóð âÿ èëëÿð êå÷äèêúÿ þëêÿëəð àðàñûíäà äèôôåðåíñiàllaøìà äà ýöúëÿíèð.

Áööþâëöêëÿ ýþòöðäöêëÿ èíêèøàôäà îëàí öëêÿëÿðèí ÷îõóíó òÿñÿððöôàòëàðû éåêíÿsəãäèð. Ìÿùñóëäàð ãöââÿëÿðè ìöõòÿëèô õàðàêòåðëèäèð. Èñòåùñàë ìöùèòè ãÿíàÿòáÿõø äåéèëäèð. Áööí áóíëàð þëêÿëÿðèí äèíàìèê èíêèøàô åòìÿñèíÿ ìàíå îëóð. Ëàêèí î þëêÿëÿð êè, ýþñòÿðèëÿí ìÿíôè úÿùÿòëÿðè àðàäàí ãàëäûðìàüà ñÿé ýþñòÿðèðëÿð, îíëàð ö÷öí ïðîáëåìëÿð àçàëûð âÿ îíëàð èãòèñàäèééàòäà ìöñáÿò äþíöø éàðàäà áèëèðëÿð.

## 5.2. Èíêèøàôäà îëàí þëêÿëÿðèí ãðóïëàøäûðûëìàñû

Ãåéä åòäèéèìèç êèìè, èíêèøàôäà îëàí þëêÿëÿðèí ñàéû öìóìè êîíòåêñòäÿ 100-ö þööð. Äöíéà èãòèñàäèééàòûíäà îíëàðûí éåðèíè äöçýöí òÿéèí åòìÿê ö÷öí èñÿ îíëàðûn áèð yerdə íÿçÿðäÿí êå÷èðèëìÿñè äöðöñò íÿòèúÿëÿð ÷ûõàðûëìàñûíà èìêàí âåðìèð. Åëÿ áóíà ýþðÿ äÿ èãòèñàä÷ûëàð, òÿäãèãàò÷ûëàð, äöíéà (áåéíÿëõàëã) òÿøêèëàòëàðû èíêiøàôäà îëàí äþâëÿòëÿðè ãðóïëàøäûðırlàð.

Äöíéà èãòèñààèééàòûíà àèä îëàí ÿäÿáèééàòëàðäà, ìÿãàëÿ âÿ ùåñàáàòëàðäà èíêèøàfäà îëàí þëêÿëÿðèí ãðóïëàøäûðûëìàñû ìöõòÿëèô éàíàøìàëàðëà àïàðûëûð. Áó çàìàí ñîñèàë èíêèøàô âÿ îíóí ñÿâèééÿñè, èãòèñàäè ïîòåíñèàë, äöíéà òÿñÿððöôàòûíääêû ðîëó âÿ  èõòèñàñëàøìàñû, éàíàúàãåíåðæè ðåñóðñëàðû èëÿ òÿìèí îëóíób-îëóíìàìàñû, äöíéà èãòèñàäèééàòûíäàí àñûëûëûã ñÿâèééÿñè, èõðàú åäèëÿí õàììàëûí íþâö âÿ ñ. êèìè ìöõòÿëèô êÿìèééÿò âÿ êåéôèééÿò ÿëàìÿòëÿðèídÿí èñòèôàäÿ åäèëèð.

Áó ÿëàìÿòëÿðÿ ýþðÿ èíêèøàôäà îëàí þëêÿëÿðèí àðàñûíäà àøàüûäàêû ãðóïëàð äàùà ÷îõ íÿçÿðÿ ÷àðïûð.

## **1.Íåôò èõðàú åäÿí þëêÿëÿð**

Èíêèøàô åòìÿêäÿ îëàí þëêÿëÿð àðàñûíäà áó ãðóïóí þç éåðè âàðäûð. Áó ãðóïóí þëêÿëÿðè íåôòèí èõðàúûíäàí ÿëäÿ åòäèêëÿðè âÿñàèòèí ùåñààáûíà õàðèúè ìöùÿíäèñ âÿ åëìè êàäðëàðû, éöêñÿê èõòèñàñëû ôÿùëÿëÿðè úÿëá åòìÿê, ìöàñèð òåõíèêàíû èäõàë åòìÿk éîëó èëÿ èãòèñàäèééàòäà ýöúëö ñòðóêòóð äÿéèøèêëèêëÿðè åòìÿéÿ, ÿùàëèíèí ùÿéàò øÿðàèòèíèí âÿ òÿùñèëèíèí nèñáÿòÿí éàõøûëàøìàñûíà íàèë îëìóøëàð. Ëàêèí îíëàð äöíéà òÿñÿððöôàò ñèñòåìèíäÿí àñûëû âÿçèyéÿòäÿ ãàëìàããà äàâàì åäèðëÿð. Ìÿñÿëÿ áóðàñûíäàäûð êè, èãòèñàäè èíêèøàôûíû íåôò èõðàúûíà áàüëàéàí ùå÷ áèð þêÿ ãèéìÿò àìèëèíäÿí úàí ãóðòàðà áèëìèð. Äöíéà áàçàðûíäà íåôò öçðÿ òÿêëèô àðòäûãúà íåôòèí ñàòûø ãèéìÿòè äÿ àøàüû äöøöð êè, áó äà õàììàë èõðàú åäÿí þëêÿíèí èãòèñàäèééàòûíà úèääè ìÿíôè òÿñèð ýþñòÿðèð.

Îíó äà íÿçÿðÿ àëìàã ëàçûìäûð êè, áèð íå÷ÿ èíêèøàô åòìèø þëêÿëÿð (ìÿñ.Èíýèëòÿðÿ, Íîðâå÷) ïðèíñèïúÿ éåíè òåõíîëîýèéàëàðëà íåôò ÷ûõàðìàã âÿ áàçàðäà éåð òóòìàğà qadir dövlətlərdir. Onlar  èíêèøàôäà îëàí âÿ íåôòèí èõðàúûíà öìèä áÿñëÿéÿí þëêÿëÿðèí áèð âàõòëàð ÿëäÿ ñàxëàäûãlàðı èíùèñàð âÿçèééÿòëÿðèíÿ çÿðáÿ âóðà bilərëəð.

## **2. Éåíè  ñÿíàéå þëêÿëÿðè. (YSÖ)**

Òÿùëèë ýþñòÿðèð êè, áó ãðóïà äàõèë åäèëÿí þëêÿëÿðèí ñèéàùûñû àðòûð. Bu þëêÿëÿðèí áàøëûúà õöñóñèééÿòëÿðèíäÿí áèðè îíëàðûí õàììàë èõðàúûíäàí éàâàø-éàâàø èìòèíà åäèá ùàçûð ìÿùñóë èõðàúûíà êå÷ìÿëÿðèäèð. Ãðóïóí þëêÿëÿðèíäÿ èãòèñàäèééàòûí èíêèøàôû äàùà ñöðÿòëÿ áàø âåðèð. Èãòèñàäèééàòûí àðòûì ñöðÿòèíÿ ýþðÿ äèýÿð èíêèøàôäà îëàí þëêÿëÿði ýåðèäÿ ãîéàí äþâëÿòëÿðÿ éåð êöðÿñèíèí áöòöí ÿðàçèëÿðèíäÿ ðàñò ýÿëìÿê îëàð. Ëàêèí Àsiya þëêÿëÿðèíäÿ áó èíêèøàô äàùà ÷îõ íÿçÿðÿ ÷àðïûð. Áåëÿ þëêÿ âÿ ÿðàçèëÿðÿ Úÿíóáè Êîðåéà Ðåñïóáëèêàñû, Òàéâàí, Hîíêîíã, Ñèíãàïóð, Ìàëàéçèéà, Òàèëàíä, Àðýåíòèíà, Áðàçèëèéà, Ìåêñèêà êèìè þëêÿëÿð äàõèëäèð.

YSÖ-è ôåíîìåíèíè ìåéäàíà ýÿëìÿñè äöíéà áàçàð éàðûìñèñòåìëÿðèíèí eêñtåíòèâ èíêèøàôûíà ñÿáÿá îëìóøäóð. Möòÿõÿññèñëÿðèí ïðîãíîçëàðûíà ýþðÿ ÕÕI ÿñðäÿ Asiya və Sàêèò Oêåàí þëêÿëÿðè äàùà äà èíêèøàô åòìÿëèäèðëÿð. ßn ÷îõ äèíàìèê èíêèøàô èñÿ Øÿðãè âÿ Úÿíóáè-Øÿðãè Añèéà þëêÿëÿðè ãðóïóíäà ýþçëÿíèëèð êè, áóíëàðûí äà èíêèøàôûíà èëê íþâáÿäÿ Éàpîíèéà âÿ îíäàí ñîíðà ýÿëÿí Êîðåéà Ðåñïóáëèêàñû, Ñèíãàïóð, Òàéâàí, Ìàëàéçèéà, Tàèëàíä, Ôèëèëèpïèí, Èíäîíåçèéà êèìè äþâëÿòëÿð ýöúëö òÿñèð ýþñòÿðÿjÿêëÿr. Äöíéà èãòèñàäèééàòûíäà áó ñóïåððåýèîí ÷îõ âàõò éåíè "Òåõíîëîæè ôÿçà" ðåýèîíó êèìè òàíûíûð.

Îíó äà ãåéä åäÿê êè, 1980-ji èëëèí îðòàëàðûíà ãÿäəð ÉÑÞ-lər ãðóïónà ÿñàñÿí êè÷èê âÿ îðòà þëêÿëÿð  äàõèë èäè. Ùàçûðäà áó ãðóïà Àðýåíòèíà, Áðàçèëèéà, Ìåêñèêà, Ùèíäèñòàí, Ïàêèñòàí êèìè èðè þëêÿëÿð äÿ  ðåàë íàìèçÿääèðëÿð. Áó úöð èíêèøàôäà îëàí þëêÿlərèí ñöðÿòëè èíêèøàôûnın səbəbi ñîí èëëÿðäÿ îíëàðûí ñÿíàéå ìÿùñóëó èõðàúû öçðÿ àêòèâ ñèéàñÿò àïàðìàãëàðûäûð.

**<u>3. Ëàòûí Àìåðèêàñûíûí èíêèøàôäà îëàí þëêÿëÿð ãðóïó</u>.**

Ãðóïà ×èëè, Óðóãâàé, Àðýåíòèíà, Ïåðó, Âåíåñóåëà, Ïàíàìà, Äîìèíèêàí  âÿ ñ. áó êèìè þëêÿëÿð äàõèëäèð. Áó þëêÿëÿð þçëÿðèíèí òÿñÿððöôàò èíêèøàôûíäà äèýÿð ðåýèîíëàðûí èíêèøàôäà îëàí þëêÿëÿðèíäÿí çox èíêèøàô ñöðÿòèíÿ ìàëèê îëìàãëàðû èëÿ ôÿðãëÿíèðëÿð. Îíëàðûí èíêèøàôûíäà èãòèñàäè ñòðàòåýèéàëàðûí ðîëó ÷îõ îëìóøäóð. Áó ãðópóí þëêÿëÿðè ÿââÿëlÿð (ÕIÕ ÿñðèí èêèíúè éàðûñûíäà) ëèáåðàë âÿ àçàä

òèúàðÿò ñòðàòåýèéàñû ýþòöðìöødüëÿð. Ëàêèí 1920-úè èëëÿ mәlum îëäó êè, áó ñòðàòåýèéà îíëàðû äöíéà áàçàðûíà õàìmàë ÷ûõàðàí þëêÿëÿðÿ ÷åâèðèá. 1929-1933-úü èëëÿðèí äöíéà áþùðàíû áó þëêÿëÿðèí áàø÷ûëàðûíû da èãòèñàäè ñòðàòåýèéàëàðû äÿéèøäèðìÿéÿ âàäàð åòäè - èãòèñàäèééàòûí äþâëÿò òÿíçèìëÿíìÿñèíÿ äîüðó èñòèãàìÿò ýþòöðöëäö. Éåíè èãòèñàäè ñòðàòåýèéà Ëàòûí Aìåðèêàñû þëêÿëÿðèíèí èãòèñàäèééàòûíà ìöÿééÿí ñÿâèééÿäÿ ìöñáÿò òÿñèð ýþñòÿðñÿ äÿ äþâëÿòèí ðîëóíóí àðòìàñû âÿ áóíóíëà éàíàøû áöðîêðàòèê èø öñóëìàðûíûí êÿñêèíëÿøìÿñè èãòèñàäè ïîòåíñèàëûí ýåíèøëÿíìÿñèíÿ ìÿíôè òÿñèð ýþñòÿðèðäè. Äöíéà áàçàðû èëÿ ÿëàãÿëÿðèí çÿèôëÿìÿñè áó ïðîñåñè äàùà äà ýöúëÿíäèðèðäè. Ëàêèí áóíëàðà áàõìàéàðàã èãòèñàäèééàòa äþâëÿò ùèìàéÿäàðëûüû áó þëêÿëÿðäÿ éàðûì ÿñðëèê áèð äþâðö ÿùàòÿ åäÿ áèëäè. Áó äþâðäÿ Ëàòûí Aìåðèêàñûíûí èíêèøàôäà îëàí äþâëÿòëÿðèíèí áÿçèëÿðèíäÿ íèñáÿòÿí éöêñÿê èíêèøàô ãåéäÿ àëûíñà äà, 1940-1950-úè èëëÿðäÿ «Àðýåíòèíà ñû÷ðàéûşû”, 1960-1970-úè èëëÿðäÿ “Áðàçèëèéà ìþúöçÿñè” baş versә dә áöòþâëöêäÿ þëêÿëÿðèí èãòèñàäèééàòûíäà êþêëö äÿéèøèêëèêëÿð íÿçÿðÿ ÷àðïìûðäû âÿ éåíè äþâð ö÷öí éåíè ñòðàòåýèéà òÿëÿá îëóíóðäó. Ìÿùç áóíà ýþðÿ äÿ 1970-úè èëëÿðèí îðòàëàðûíäàí ×èëè, Óðóãâàé âÿ Àðýåíòèíà êèìè þëêÿëÿð éåíè èíêèøàô ñòðàòåýèéàñûíà êå÷äèêëÿðèíè áÿéàí åòäèëÿð. Áó ñòðàòåýèéàíûí äÿ ÿñàñûíû ëèáåðàë ñèéàñÿò òÿøêèë åäèðäè. Ëàêèí ÿâÿëêèíäÿí (1920-úè èëëÿêèíäÿí) ôÿðãëè îëñóí äåéÿ ùàêèìèééÿòÿ ÿÿëìèø õóíòàëàð îíó éåíè ëèáåðàë ñèéàñÿò àäëàíäûðäûëàð. Áó ñèéàñÿòÿ ýþðÿ äþâëÿòèí èãòèñàäèééàòà ìöäàõèëÿñè õåéëè çÿèôëÿéèðdi.

Ýþñòÿðäèéèìèç áó ãðóïëàðäàí ùÿð áèðè ñÿúèééÿ ÷åâðèëèð äÿ ôÿðãëÿíäèðèëèð. Öìóìèééÿòëÿ ýþòöðäöêäÿ, þëêÿëÿrèí ñàéûíûí ÷îõ îëìàñû, ìöõòÿëèô úîüðàôè ìþâãåëÿðè, ñîñèàë-èãòèñàäè èíêèøàô ñÿâèééÿëÿðè nәzәrә alınarsa, èíêèøàôäà îëàí þëêÿëÿðè äèÿýð ìöõòÿëèô ãðóïëàðdà äà àéûðìàã îëàð. Þëêÿëÿð ãðóïëàøäûðûëàðêÿí áó ìÿñÿëÿíè àðàøäûðàí òÿäãèãàò÷ûëûí âÿ éàõóä áåéíÿëõàëã òÿøêèëàòû ìàðàãëàíäûðàí ÿëàìÿòëÿðäÿí äÿ èñòèôàäÿ åäèëèð. Ìÿñÿëÿí, òÿùëèëèí ìÿãñÿäèíäÿí àñûëû îëàðàã “àêòèâ þäÿìÿ áàëàíñëû” þëêÿëÿð, “êàïèòàëû èõðàú åäÿí þëêÿëÿð”, “åíåðæè ðå-

ñóðñëàðûíû èõðàú åäÿí”, “åíåðæè ðåñóðñëàðûíû èäõàë åäÿí” þëêÿëÿð ãðóïëàðû ôÿðãëÿíäèðèëèð. Èíêèøàôäà îëàí þëêÿíè áó âÿ éà äègÿð ãðóïà äàõèë åòìÿê ö÷öí ãðóïëàøäûðûúû ÿëàìÿòÿ ÷îõ âàõò ìöÿééÿí ùÿää ãîéóëóð. Ìÿñÿëÿí, þëêÿíè “åíåðæè ðåñórñëarû èõðàú åäÿí” þëêÿëÿð ãðóïóíà äàõèë åòìÿê ö÷öí î àøàüûäàêû èêè ÿëàâÿ şÿðòè þäÿìÿëèäèð:

**3.** Þëêÿíèí èñòåùñàë åòäèéè èëêèí åíåðæè ðåñóðñëàðûíûí ìèãäàðû þç òÿëÿáàòûíäàí ùå÷ îëìàñà 20% ÷îõ îëñóí;

**4.** Åíåðæè ðåñóðñëàðû öçðÿ èõðàúûí ùÿúìè þëêÿíèí áöòöí èõðàú ùÿúìèíèí ÿí àçû 20%-íè òÿøêèë åòìèø îëñóí.

Áåéíÿëõàëã òÿøêèëàòëàð èíêèøàôäà îëàí þëêÿëÿðè ãðóïëàøäûðäûãäà “ÿí çÿèô èíêèøàô åòìèø þëêÿëÿð” ãðóïó ôÿðãëÿíäèðèëèð âÿ áó ãðópà 50 þëêÿ äàõèë åäèëèð. Áèðëÿøìèø Ìèëëÿòëÿð Òÿøêèëàòû þëêÿëÿðè áó ãðóïà äàõèë åòìÿê ö÷öí ö÷ øÿðòäÿí: 1) àäàìáàøûíà äöøÿí öìóìè äàõèëè ìÿùñóëóí ùÿúìè 350 äîlëàðäàí ÷îõ äåéèëñÿ: 2) éàøëû ÿùàëèíèí ñàüëàìëûûû 20%-äÿí äÿ àøàüûäûðñà: âÿ 3) ÖÄÌ-ûí òÿðêèáèíäÿ åìàë ñÿíàéåñèíèí õöñóñè ÷ÿêèñè 10%-äÿí àøàüûäûðñà, bó ãðóïà Añèéàíûí 8 äþâëÿòè, Àfðèêàíûí 28 äþâëÿòè âÿ Ëàòûí Aìåðèêàñûnûí âÿ Îêåàíèéàíûí 5 äþâëÿòè äàõèë åäèëèð.

## VIII FƏSİL. DÜNYA SƏNAYESİ VƏ İQTİSADİYYATIN İNKİŞAFINDA ONUN ROLU

### §1. Sənaye - iqtisadiyyatın xüsusi bölməsidir

Sərlövhədə “xüsusi” sözünü işlətməkdə məqsəd sənayenin iqtisadiyyatda özünəməxsus yer tutmasını qabartmaqdır. Doğrudan da sənaye ölkə iqtisadiyyatını yüksəltmək və ölkədə sosial-iqtisadi məsələlərin həll edilməsi üçün hər şey etməyə qadirdir. Təki dövlət rəhbərləri yaradıcılıqla bütün resursları səfərbər edib sənayeni inkişaf etdirməyə səy göstərsinlər. Populyar şəkildə bu cümləni işlətməkdə məqsədimiz göstərməkdir ki, doğrudan da ölkə var sənayesi yüksək

dərəcədə inkişaf edib, baxmayaraq ki, bunun üçün resurs imkanı ya heç yoxdur, ya da məhduddur, ölkə də var ki, təbii resursları ola-ola sənayesi çox zəif inkişaf edib. Bəs bunun səbəbi nədir? Sənayenin aparıcı rolunu dərindən başa düşən dövlət rəhbərləri öz ölkələrində güclü sənaye yarada bilmişlər. Planetimizdə güclü ölkə **sənayesi inkişaf etmiş** ölkələrə deyirlər. Çox məhdud şəkildə təbii resursları olan Yaponiya, Qərbi Avropa ölkələri sənayeni inkişaf etdirməklə dünyanın üç güc mərkəzindən ikisini təşkil edirlər (birinci güc mərkəzi ABŞ-dır ki, onun da sənayesi dünyanın ən nəhəng ölkə sənayesidir).

Sənayenin aparıcı rolunun hərəkətverici qüvvələri nədir?

İriləşdirilmiş şəkildə cəmiyyəti yaşadan iki sahə var - kənd təsərrüfatı və sənaye. Bunlardan da birincisi kənd təsərrüfatıdır. Tarixi baxımdan sənaye iqtisadiyyatın bir sahəsi kimi sonralar meydana gəlib. Lakin buna baxmayaraq böyük daxili imkanlara malik olduğunu göstərib. Sənaye maddi istehsal sferasından əmək bölgüsü nəticəsində ayrılmış və inkişaf etmişdir. Praktiki baxımdan kənd təsərrüfatının inikşafı üçün sənayedən qat-qat çox məhdudiyyətlər var. Sənayenin inkişaf imkanları və sosial-iqtisadi inkişafa təsir dairəsi çox şaxəlidir və ETT ilə üzvi birləşdikdə isə hətta sonsuzdur.

Bu gün dünya miqyasında sənaye şaxələnmiş, onun çoxlu sahələri, yarımsahələri dünyanın bütün ölkələrində fəaliyyət göstərir. Sənayenin inkişafı indi bir çox ölkələrin ÜDM-da üstün xüsusi çəkiyə malik olan və "üçüncü struktur" adlanan xidmət sahəsinin də inkişafına səbəb olmuşdur. Sənaye inkişaf etdikcə ölkələrin ÜDM-da onun xüsusi çəkisi artır, kənd təsərrüfatının xüsusi çəkisi isə əksinə, həddən çox azalır. Aşağıdakı verdiyimiz cədvəlin məlumatlarından sənayenin ÜDM-da tutduğu yer aydın görünür (cədvəl 19).

**Cədvəl 19**

**Dünyada və ayrı-ayrı ölkələrdə ÜDM-un quruluşu (1997-ci il %-lə)**

| Ölkə və regionlar | Ümumi daxili məhsul | | | |
|---|---|---|---|---|
| | cəmi | O cümlədən mənbələri üzrə | | |
| | | kənd təsər-rüfatı | sənaye | xidmət |
| Bütün dünya | 100 | 6,7 | 37 | 56,3 |
| o cümlədən ölkə və regionlar üzrə | | | | |
| ABŞ | 100 | 3 | 32 | 65 |
| Rusiya | 100 | 7 | 39 | 54 |
| Türkiyə | 100 | 17 | 28 | 55 |
| Yaponiya | 100 | 2,0 | 38 | 60 |
| Azərbaycan | 100 | 22 | 18 | 60 |
| Ermənistan | 100 | 44 | 35 | 21 |
| Gürcüstan | 100 | 35 | 35 | 30 |
| Fransa | 100 | 2 | 26 | 72 |
| Aşağı və orta gəlirli ölkələr | 100 | 16 | 36 | 44 |
| Cənubi Afrika (cənubdan Saxaraya qədər) | 100 | 25 | 36 | 39 |
| Şərqi Asiya | 100 | 19 | 45 | 36 |
| Avropa və Orta Asiya | 100 | 11 | 36 | 53 |
| Cənubi Asiya | 100 | 27 | 28 | 45 |
| Yüksək gəlirli ölkələr | 100 | 3 | 36 | 61 |

## §2. Sənayenin aparıcı rolunun mahiyyəti

Sənaye ölkə təsərrüfatının başlıca və aparıcı sahəsidir. Bu fikrə bütün kitab, monoqrafiya, dərslik və dərs vəsaitlərinin səhifələrində rast gəlmək olur. Sənayenin aparıcı sahə olması isə demək olar ki, hamı tərəfindən təsdiqlənir. Təcrübə də bunu sübut edir. Bəs sənayeni iqtisadiyyatın aparıcı sahəsi edən nədir?

İlk növbədə, bu, sənayenin buraxdığı məhsulun xarakterik xüsusiyyəti ilə bağlıdır. Sənayedə istehsal olunan məhsulun böyük bir

hissəsi sonradan əmək aləti kimi istifadə edilir. Sənaye öz məhsulları ilə iqtisadiyyatın bütün sahələrində və eyni zamanda sənayenin özündə istehsalı qabaqcıl texnika və texnologiya ilə silahlandırır. Sənayedə müxtəlif cür (tip) maşın və mexanizmlər, bina və qurğuların ayrı-ayrı elementləri istehsal edilir, neft, filiz, duz, daş kömür, təbii qazdan və s. bu kimi faydalı qazıntılar hasil edilir, yenidən işlədilir, materiallar emal edilir, istehlak malları istehsal edilir.

Sənaye məhsulu bir əmək aləti kimi ölkə iqtisadiyyatının bütün sahələrində istifadə edilir. Buna görə də kənd təsərrüfatının, rabitənin, tikintinin, nəqliyyatın, maddi-texniki təchizatın, ticarətin, tədarükün, ictimai iaşənin iqtisadi inkişafı son nəticədə sənayedən asılı olur. Sənaye iqtisadiyyatın bütün bu sahələrini keyfiyyətli, davamlı, etibarlı, uzunömürlü, münasib qiymətli avadanlıqlarla təchiz etməlidir. Sənayecə istehsal edilən maşın və mexanizmlərin məhsuldarlığı iqtisadiyyatın digər sahələrində də əmək məhsuldarlığını yüksəltmək üçün əsas amil hesab edilir.

Sənaye ölkənin və dünyanın iqtisadi potensialının güclənməsinin ilkin şərtidir. Təsadüfi deyildir ki, dünya iqtisadiyyatına aid olan çap materiallarında "inkişaf etmiş ölkələr" ifadəsi "sənaye cəhətdən inkişaf etmiş ölkələr" ifadəsi ilə əvəz olunmaqdadır. Ona görə ki, inkişaf etmiş ölkə ancaq sənaye cəhətdən inkişaf etmiş ola bilər. Sənaye güclü olarsa iqtisadi potensial da güclü olar. ABŞ, Yaponiya, Böyük Britaniya, Almaniya Federativ Respublikası, Fransa və Qərbin digər ölkələrinin iqtisadi potensialı ona görə yüksəkdir ki, bu ölkələrdə sənaye lazımi səviyyədə inkişaf etdirilmişdir.

Sənaye ölkənin sosial məsələlərini həll etmək xüsusiyyə-tinə malikdir. İlk növbədə sənaye əhalinin həyat səviyyəsinin yüksəldilməsinə səbəb olur. Sənaye iş yerləri yaradır, məşğul-luğu yaxşılaşdırır, işsizliyi azaldır.

Təxminən 30 il bundan qabaq ETT-nin nəticəsi kimi kompüter inqilabı başladı. Bunun mənfi sosial nəticəsi o idi ki, çoxlu işçi ixtisara düşdü. Belə hal hətta inkişaf etmiş ölkələrdə sosial partlayışların

meydana gəlməsinə səbəb ola bilərdi. Lakin demək olar ki, bu baş vermədi. Səbəbi yenə də sənaye idi. Sənaye yeni iş yerləri yaratmaq qabiliyyətini bir daha nümayiş etdirdi. Sənayenin aparıcı sahə kimi mahiyyətinin əsas cəhəti də elə bundadır. Əgər yada salsaq ki, bir əmək aləti olmaqla kompüter texnikası da sənayenin məhsuludur, onda sənayenin sosial-iqtisadi inkişafda aparıcı rolu aydın olar.

İstehsal etmək, sosial-iqtisadi tələbatları ödəmək bütün ölkələrin istək və arzusu olsa da buna hamı eyni dərəcədə nail ola bilmir. İlk növbədə ona görə ki, bu gün dünya bazarında hökm sürən qızğın rəqabət şəraitində potensial alıcılara ancaq keyfiyyətli və xüsusən də az əmək, enerji, material tutumlu, nisbətən az istehsal xərcləri ilə başa gələn və yüksək istehlak göstəricilərinə malik məhsul yol tapa bilir. Deməli, ölkələr sənayedən bir aparıcı sahə kimi bəhrələnmək istəyirlərsə hər hansı bir istehsal yox, ancaq **yüksək səmərə verə bilən** istehsal formalaşdırmağa nail olmalıdırlar. Məhz bu məsələnin də həlli yenə də sənayedən asılı olur. Həqiqətdə burada söhbət sənaye vasitəsilə sənaye istehsalının səmərəliliyinin yüksəldilməsindən gedir. Bu işin öhdəsindən də sənaye cəhətdən inkişaf etmiş ölkə müvəffəqiyyətlə gələ bilər. Bundan başqa, geniş nomenklatura və çeşidlər üzrə məhsul istehsal edən müəssisə və birliklər, firmalar və şirkətlər istehsalı yenidən təşkil edərkən, prinsipcə yeni məhsul istehsal edərkən çoxlu sayda texnoloji avadanlıqları yenisi ilə əvəz etməli olurlar. Bu məsələ də sənayedən və onun sahə quruluşundan asılı olur. Ən yeni maşın, mexanizm, aqreqat, EHM və s. istehsal edilir. İstehsalın texniki səviyyəsinin innovasiya proseslərinə uyğun gəlməsi üçün sənayedə buraxılan maşın və qurğular, cihaz və ləvazimatlar elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirməli və deməli, mütərəqqi olmalıdır. Bu tələbin ödənilməsi isə bilavasitə sənayenin özündən, orada gedən texniki, texnoloji, təşkilati, sosial-iqtisadi proseslərdən asılı olur. Proseslərin və dəyişikliklərin elmi əsaslar üzərində baş verdiyi dövlət son nəticədə rəqabət dözümlü sənaye məhsulu istehsal etmək imkanı əldə edir və çoxlu iqtisadi səmərə qazanır. Yeri gəlmişkən qeyd edək ki,

sənayenin ən səmərəli və onun aparıcı sahə olması, həm də bununla izah olunmalıdır ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə il ərzində yaradılan əlavə dəyərin 35-40 faizi sənayenin payına düşür.

Sənaye məhsulu daha çox elmtutumludur. Bütün ölkələrdə və xüsusən də inkişaf etmiş ölkələrdə fundamental tədqiqatlarla yanaşı tətbiqi tədqiqatlar da həyata keçirilir. Təhlil göstərir ki, fundamental tədqiqatlar ayrı-ayrı institutlar tərəfindən aparılırsa, tətbiqi araşdırmaların əsas hissəsi sənayenin payına düşür. Bu gün öz məhsulları ilə dünya bazarında liderlik edən aparıcı ölkələr sənayedə elmtutumlu məhsul istehsalını artırırlar. Geri qalmamaq üçün sənayedə elmi-tədqiqat işlərinə yönəldilən vəsait ilbəil artırılır. 1996-cı ildə ABŞ elmi-tədqiqat və layihə-təcrübə işlərinə 184,7 milyard dollar vəsait xərclənmişdir ki, bunun da əsas hissəsi (70%-i) birbaşa və ya dolayısı yolla sənayenin payına düşür. Amerika Birləşmiş Ştatları dünyada hərbi və istehsal təyinatlı superkompüterlər, aviasiya və kosmik texnika, lazer, biotexnologiya və s. bu kimi elmtutumlu sənaye məhsulları istehsalı üzrə dünyada lider mövqelərini saxlamaqdadır.

Sənaye istehsalı ilə elmin əlaqələndirilməsi, iqtisadiyyatın digər sahələri ilə elmin əlaqələndirilməsindən daha çox fayda verir. Elmlə sahibkarlıq fəaliyyətinin sənayedə üzvi surətdə birləşməsi müxtəlif formalarda həyata keçirilir. Sürətlə inkişaf edən innovasiya biznesi böyük əhəmiyyət kəsb edir. Onun mərkəzində ərazi elmi-istehsal kompleksləri durur. İnkişaf etmiş ölkələrdə belə komplekslər “Texnopark”, “texnopolis” kimi adlandırılır və onların əsas məqsədi sənayedə elm tutumlu məhsul istehsalını artırmaqdır. Texnopolislərdə prinsipcə ən yeni texnikalar və texnologiyalar yaradılır, sınaqdan çıxarılır və elmtutumlu məhsulların kiçik seriyalarla buraxılmasını təşkil edirlər. ABŞ-da 100-dən çox texnopolislər fəaiyyət göstərir. Dünya miqyasında elmtutumlu məhsulun 40%-ə qədəri, ABŞ-ın payına düşür. Elmtutumlu sənaye məhsulu iqtisadiyyatın digər sahələrinin də sürətli inkişafı üçün şərait yaradır. Bu da sənayenin iqtisadiyyatda aparıcı rolunun mahiyyətinin nədən ibarət olduğunu göstərir.

İqtisadiyyatın bütün bölmələri bu və ya digər səviyyədə inkişaf edir. Bunu dünyanın həm zəif, həm də güclü ölkələrinin uzunillik təcrübəsi göstərir. Lakin tarixin öyrənilməsi aydın gös-tərdi ki, əmək bölgüsü nəticəsində sənayenin kənd təsərrüfatından ayrılıb sərbəst sahəyə çevrilişindən sonra vəziyyət də-yişmişdir. Sənayenin inkişafı, burada istifadə edilən üsul və yanaşmalar, istifadə olunan prinsiplər, istehsalın təşkili həmişə iqtisadiyyatın digər bölmələri üçün nümunə olmuşdur. "Səna-yeləşmə", "sənaye üsulu" kimi terminlərin meydana gəlməsi və kütləviləşməsi də sənayenin qabaqcıl sahə olmasını göstərir.

Sənaye ölkə ərazisinin sosial-iqtisadi inkişafına güclü təsir göstərir. İnkişaf etmiş mahal, kiçik və ya böyük ərazi, kənd, qəsəbə, rayon o ərazilərə demək olar ki, orada bu və ya digər səviyyədə sənaye inkişaf etmiş olsun. Sənaye yerləşdiyi ərazinin təbii və insan resurslarından səmərəli istifadə edilməsi üçün obyektiv əsas yaradır, yerli xammal və materialların istehsala cəlb edilməsinə səbəb olur, yeni iş yerləri yaratmaqla əhalinin ölkə ərazisində bərabər və proporsional yerləşməsini təmin edir. Dünya miqyasında çoxlu misal göstərmək olar ki, sənayenin ərazi baxımdan düzgün yerləşdirilməməsi, bir sıra sosial-iqtisadi gərginliklərin meydana çıxmasına səbəb olmuşdur. Bizim respublikamız buna əyani sübutdur. Keçən əsrin əvvəllərindən sənayenin sürətli inkişafı (neft və qazın hesabına) baş verirdi. Lakin Rusiyanın apardığı məqsədyönlü mənfi siyasətin nəticəsində sənaye və onunla əlaqədar olan müəssisələr əsasən Bakı şəhərində yerləşdirildiyindən, respublikamızın digər rayonlarında məhsuldar qüvvələrin inkişafı çox zəif inkişaf etdirilirdi. Keçmiş SSRİ adlanan dövlət dağıldıqdan son-ra bu mənfi hal daha qabarıq şəklidə özünü göstərdi. Nəticədə iş yeri tapmayan əhali respublikanın sənayesi olmayan rayonlardan getməyə, başqa xarici ölkələrdə və Bakıda iş axtarmağa məcbur oldular. Bu gün əhalinin həddindən çox hissəsi Bakıda məskunlaşmışdır ki, bu da şəhərdə sosial gərginliyi artırmış, nəqliyyatın işi çətinləşmiş, şəhərin ekologiyası pisləşmiş, kriminal vəziyyət gərginləşmiş, işsizlərin sayı artmışdır. Bütün bunların əvəzində

respublikanın digər şəhər və rayonlarında əhali seyrəkliyi əmələ gəlmişdir. İşləməyən müəssisələrin istehsal potensialı sıradan çıxmaq üzrədir. Bu böyük itgidir. Hesablamalara görə sənayenin düzgün yerləşdirilməməsi hər il respublikamıza milyardlarla ziyan vururdu.

Sənaye ərazilərdə istehlak mallarına olan tələbatın optimal ödənilməsinə səbəb olur. Təsərrüfatların yüksək texniki səviyyədə qalması üçün şərait yaradır.

Bazar iqtisadiyyatı şəraitində ən mühüm məsələ ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdir. Bu problemin optimal həlli bilavasitə sənayedən asılı olur. İqtisadi təhlükəsizlik tələb edir ki, ölkə bacardıqca çox rəqabət dözümlü məhsul istehsal edib, daxili və xarici bazara çıxara bilsin. Sənaye inkişaf etdikcə dövlətin iqtisadi təhlükəsizliyi yüksəlir, ölkə asılı ölkədən digər ölkələri özündən asılı edən ölkəyə çevrilir. Bunun əksi də baş verir: sənaye cəhətdən geri qalan dövlətin digər ölkələrdən asılılığı artır. ABŞ, Yaponiya, Almaniya Fransa və s. bu kimi inkişaf etmiş digər ölkələrin iqtisadi təhlükəsizliklərinin yüksək olmasının bir amili də sənayedir. Onu da qeyd edək ki, söhbət, burada ümumi sənayedən getmir, sənayenin emal fazasından gedir, o sənayedən ki, harada elm, texnika və istehsal üzvi şəkildə əlaqələndirilmiş və yüksək səmərə əldə etmək üçün məhsuldar mühüt yaranmışdır.

Sənayenin aparıcı rolu onun elmi-texniki tərəqqiyə müsbət təsir göstərməsi ilə də izah edilir. Elmi-texniki, texnoloji ideyalar öz tətbiqi yerini sənayedə tapır. Sənaye elmi-texniki tərəqqinin sürətləndirilməsinə bir neçə istiqamətdə təsir göstərə bilir. Birincisi, sənaye elmi-tədqiqat və layihə-təcrübə işlərinin aktiv sifarişçisidir. İnkişaf etmiş ölkələrdə elmi-texniki yüksəliş məqsədyönlü həyata keçirilir, prosesin özü isə kom-mersiyallaşmışdır. Elmin, texnikanın, texnologiyanın inkişafı tələb və təklif iqtisadi qanununa əsasən həyata keçirilməlidir. Sadə dildə desək elmin inkişafına sifariş olmalıdır. Sifarişi isə iqtisadiyyatın ayrı-ayrı sahələri verməlidir. Təcrübə göstərir ki, sənaye burada da birinci yeri tutur. Məsələn, Amerika Birləşmiş Ştatlarında sənaye belə sifarişlərin 50%-dən çoxunu verir. Elmi-tədqiqat

və layihə-təcrübə işlərinin keyfiyyətini, vaxtında və kompleks aparılması onların lazımi səviyyədə maliyyələşdirilməsini tələb edir. İnkişaf etmiş ölkələrdə sənaye ETİ-nin maliyyələşməsində, ayrılmış vəsaitlərin mənimsənilməsində həlledici rol oynayır. Elmi-tədqiqat və layihə-təcrübə işlərinə çəkilən xərclərin maliyyələşdirilməsi üç struktur-dövlət, sənaye kompleksləri və ali məktəblər tərəfindən həyata keçirilir. Dərc olunmuş materialların təhlili göstərdi ki, məsələn, ABŞ-da sənayenin payı təxminən 70% təşkil edir. Sənaye bütün elmi-texniki işləmələrin 85%-nə qədərini öz üzərinə götürür. Sənaye tətbiqi elmi-tədqiqat işlərinin, sənaye yeniliklərinin işlənib ortaya çıxarılmasının, ideyaların yayılmasının, yeni məhsulların mənimsənilməsinin, köhnə məmulatların istehsalının dayandırılmasının əsas ağırlıq mərkəzini öz üzərinə götürür. Qalan iki struktur - dövlət və ali məktəblər də sənaye ilə birlikdə, onunla üzvi şəkildə fəaliyyət göstərirlər. Nəticədə bu üç struktur vahid innovasiya  sistemi yaradır. Bu konveyer qabaqcıl sahələri ideyalarla, yüksək ixtisaslı kadrlarla, ən yeni məhsul nümunələri ilə təmin edir. İnnovasiya konveyerlərinin əsas aparıcısı, lideri, sifarişçisi, maliyyələşdiricisi, yeniliklərin istehlakçısı isə sənaye kompleksləridir, sənaye sahibkarlarıdır.

Sənayenin aparıcı rolu ölkənin müdafiə qabiliyyətinə təsiri ilə də izah edilir. Sənaye  müasir hərbi texnikanın bütün növlərini istehsal etməyə qadir olan yeganə sahədir. İnkişaf etmiş ölkələr güclü sənayeləri vasitəsilə özlərinin yaxşı müdafiəsini təmin etməklə yanaşı digər ölkələrə də istənilən qədər hərbi texnika sata bilirlər və bu yolla da çoxlu qazanc əldə edirlər.

Müasir dünya təsərrüfat sistemi qlobal problemlərlə üzbə-üz dayanıb. Ekoloji məsələlər, Dünya okeanından istifadə olunması, urbanizasiya, əhali artımı, silahlanma və tərkisilahlanma, xəstəliklər, qlobal ərzaq problemi, qlobal beynəlxalq əməkdaşlıq, enerji problemləri və sair bu kimi qlobal problemlərin tez, optimal, səmərəli həll edilməsi də ilk növbədə səna-yedən və onun inkişaf sürətindən aslıdır. Sadaladığımız bu problemlər ilk növbədə müxtəlif və münasib

texnikanın və texnologiyanın yaradılması və tətbiqini tələb edir. Məsələn, münasib texnika olmadan Dünya okeanının kilometrlərlə ölçülən dərinliklərində yerləşən dibindən istifadə etmək mümkün deyil. Ekoloji təmiz texnologiyaların yaradılması isə ətraf mühitin qorunub saxlanması üçün lazımdır. Enerji probleminin həlli sənaye iqtisadiyyatında struktur dəyişikliklərinin həyata keçirilməsinin (az enerji tutumlu məhsulların yaradılması və istehsalının çoxaldılması yolu ilə) və daha səmərəli texnika və texnologiyaların istehsala tətbiqini tələb edir. Sənayedə yaradılan tullantısız texnologiyalar isə bir neçə - ekoloji, enerji, resurs ərzaq probleminin həllinə kömək göstərə bilir.

Beləliklə də iqtisadiyyatın bütün sahələrini qabaqcıl texnika və texnologiya ilə təmin edən, ölkənin iqtisadi və hərbi təhlükəsizliyinin başlıca amili olan, sosial-iqtisadi inkişafda həlledici rol oynayan, səmərəli təsərrüfatçılıq üçün lazımi şərait yaradan sənaye, sözün tam mənasında aparıcıdır və hər bir dövlət onun inkişafı qayğısına qalmalıdır.

## §3. Sənayenin coğrafiyası

Sənaye istehsalı ölkələr və regionlar arasında bərabər və proporsional yerləşməmişdir. 1970-ci illərin əvvəllərində Latın Amerikasında, Afrikada, Asiyada və dünyanın digər regionlarındakı zəif inkişaf etmiş ölkələr qitənin əsas hissəsini təşkil etsələr də (coğrafi baxımdan) istehsal etdikləri sənaye məhsulunun dünya sənaye istehsalında yeri 10%-i də keçmirdi. Dərc olunmuş məlumatlara görə 1975-ci ildə inkişafda olan ökələrin (Çindən, keçmiş SSRİ və Şərqi Avropa ölkələrindən başqa) sənayesi ümumdünya sənayesinin 11,7%-ini təşkil edirdi.

Sənayenin coğrafi cəhətdən bu cür qeyri-proporsional yerləşməsinin səbəblərindən biri ölkələrin inkişaf səviyyəsinin eyni olmamasıdır. Bu cəhət beynəlxalq təşkilatların da nəzər diqqətindən

qaçmamış və onlar Planet miqyasında sənaye istehsalının qeyri-bərabər yerləşməsi dərəcəsinin azaldılması qərarına gəlmişdir. Dünya miqyasında bu problemlə BMT-nin xüsusi strukturu - "Sənaye üzrə Birləşmiş Millətlər Təşkilatı" (YUNİDO) məşğul olur. Bu təşkilatın 1975-ci ildə keçirdiyi top-lantıda qəbul etdiyi deklarasiyada 2000-ci ilin axırları üçün inkişaf etmiş ölkələrin dünya sənaye məhsulunun həcmindəki xüsusi çəkisinin 25%-ə çatdırılmasını nəzərdə tutmuşdu. Dərc olunmuş məlumatlara görə 1994-cü ildə bu faiz artıq 17,8% təşkil edirdi. Deməli, təxminən 20 il ərzində inkişaf etmiş ölkələrin payı dünya sənayesinin 11,7%-dən (1975 il) 17,8%-ə (1994) qədər yüksəlmişdir. Bu proses indi də davam edir və dünya sənayesinin ağırlıq Mərkəzi Cənubi-Şərqi Asiyaya tərəf yerini dəyişməkdədir.

Bizim respublikamızın da daxil olduğu keçmiş SSRİ və habelə Şərqi Avropa dövlətlərinin vəziyyəti isə təəssüf doğurur. Bu region ölkələrinin ümumdünya sənayesindəki xüsusi çəkisi azalır, Birləşmiş Millətlər Təşkilatının Sənaye inkişafı üzrə bölməsinin məlumatlarına görə 1975-1993-cü illər ərzində planetin bu məkanında sənayenin xüsusi çəkisi 13 faiz punkta qədər aşağı düşmüş və 1990-cı illərin əvvəllərində MDB və Şərqi Avropa ölkələrinin dünya sənayesindəki xüsusi çəkisi 11,1 faiz təşkil edirdi. Müqayisə üçün qeyd edək ki, həmin dövrdə Şimali Amerikanın payı 26,5%, Yaponiyanın isə 16,4% təşkil edirdi. Göründüyü kimi MDB və Şərqi Avropa ölkələrinin (onların sayı 20-dir) ümumdünya sənaye məhsulundakı xüsusi çəkisi təkcə Yaponiyanın payından da təxminən 5 faiz punktu qədər aşağıdır. Bu payın içərisində Rusiya payının nisbətən çox olmasını nəzərə alsaq, yerdə qalan 19 ölkənin sənayesinin nə dərəcədə aşağı səviyyədə olması aydın olar. MDB və Şərqi Avropa ölkələrinin sənayesində digər mənfi meyl də müşahidə olunur: getdikcə elmtutumlu məhsul istehsalı azalır. Məsələn, Rusiyada elmtutumlu məhsulun həcmi 1994-cü ildə 10 dəfə azalmışdı.

Birləşmiş Millətlər Təşkilatının sənaye üzrə bölmələrində aparılan iş öz bəhrəsini verməkdədir: inkişafda olan ölkələrin sənayesi üstün

inkişaf edir. Hazırda pambıq parça, pal-paltar, ayaqqabı, neft məhsulları üzrə dünya sənaye istehsal güclərinin 30%-ə qədəri bu ölkələrin payına düşür. Bir sıra ölkələrdə isə daha yüksək nəticələr əldə edilir. Məsələn, Hindistanın iqtisadiyyatında sənaye cəhətdən inkişaf etmiş ölkələrdəki oxşar cəhətlər daha aydın görünməyə başlamışdır. Hazırda Hindistan təkcə pambıq parça ilə əlaqədar olan elementar sənaye məhsulunu ixrac etmir, o həm də getdikcə artan həcmdə hesablayıcı texnika və informasiya vasitələri istehsal edir. Böyük həcmli daxili bazarını nəzərə alan Hindistan Qərbin görkəmli firmaları ilə yüksək texnologiyanın ölkəyə gətirilməsi haqqında müqavilələr bağlamağa nail olmuşdur. 1970-ci ildən bu vaxta qədər Hindistan iqtisadi siyasətin liberallaşması sahəsində ardıcıl və məqsədyönlü iş aparır. Bunun nəticəsində sənayenin və xüsusən də onun aparıcı sahəsi olan maşınqayırmanın üstün inkişafını təmin etmişdir.

Sənayenin istər dünya miqyasında, istərsə də ayrı-ayrı ölkələrdə inkişafının və coğrafi cəhətdən yerləşdirilməsinin obyektiv əsası subyektiv yanaşmalardan çoxdur. Məsələ burasındadır ki, hərtərəfli inkişaf etmiş kənd təsərrüfatı da ölkənin iqtisadiyyatını tələb olunan səviyyəyə qaldıra bilmir. Doğrudur, kənd təsərrüfatının inkişafı iqtisadiyyatı yüksəltmək üçün yaxşı şərait yaradır. Lakin sonda ölkənin sosial iqtisadi məsələlərinin həlli sənayesiz mümkün olmur. Bunu nəzərə alaraq müstəqillik əldə etmiş "üçüncü" dünyanın ölkələri öz sənayelərini inkişaf etdirməyə başladılar. Bu proses müxtəlif şəkildə indi də davam edir.

Maraqlı və əhəmiyyətli məsələlərdən biri də inkişaf etmiş ölkələrdə sənayenin hansı sahələrinin inkişaf etdirilməsi məsələsidir. Sənayenin və onun ayrı-ayrı sahə və istehsallarının coğrafi cəhətdən yerləşməsi konkret ölkənin seçdiyi sənayeləşdirmə modelindən asılı olur. Dünyada gedən proseslərin təhlili göstərir ki, inkişafda olan ölkələr sənayeləşməni üç prinsip üzrəç aparmağa meyillidirlər.

Birincisi onlar ağır sənayeni üstün inkişaf etdirmək və bu əsasda ölkənin gələcək inkişafına nail olmaq prinsipi götürürlər. Əlcəzair bu

prinsipə görə özünün baza (energetika, metallurgiya, kimya) sahələrini inkişaf etdirirdi. Göründüyü kimi bu model keçmiş SSRİ-də istifadə edilən modelə oxşayır. İkinci prinsiplə sənaye idxalın əvəz edilməsi prinsipi üzrə inkişaf etdirilir. Bu prinsiplə Latın Amerikası ölkələri sənayeni inkişaf etdirməyə çalışırdılar. İdxalın strukturu dəyişdirilirdi: istehlak malları idxalı getdikcə bu cür malların istehsalında istifadə oluna bilən müxtəlif avadanlıqların idxalı ilə əvəz olunurdu. Bu cür yanaşma nəticəsində istehlak malları istehsalının coğrafyiası dəyişirdi. Üçüncü prinsip bütün vasitələrlə ixracı artırmaq prinsipi idi. Bu prinsipi seçən ölkələr indi "Yeni sənaye ölkələri" adlandırılır. Müxtəlif nomenklaturada və çeşiddə məhsul istehsal etmək və xarici bazara çıxarmaq bu ölkələrin rəhbərlərindən və ilk növbədə sahibkarlardan işə çox ciddi və məsuliyyətli yanaşmağı tələb edirdi. İxracı artırmaq və bu prosesi dönməz etmək üçün istehsalın səmərəliliyini yüksəltmək lazım idi. Müəyyən mənada onlar bunun öhdəsindən gəlirdilər ki, bu da dərin emal edilmiş məhsulların, nisbətən elmtutumlu məhsudların coğrafi yerləşməsinə müsbət təsir göstərirdi.

Sonda qeyd edək ki, hansı prinsipin seçilməsindən asılı olmayaraq inkişaf etmiş ölkələrdə aparılan sənayeləşmə dünya sənayesinin planet üzrə yerləşməsini yaxışlaşdırır. Dərc olunan rəqəmlər də bunu sübut edir. 1960-cı ildə inkişaf etməkdə olan ölkələr dünya sənaye məhsulunun cəmi 6%-ni verirdilərsə, 1975-ci ildə bu rəqəm 11.7-yə, 1994-cü ildə isə 17,8-ə çatmışdı. Hazırda da bu tendensiya davam edir və təxmini hesablaşmalar görə 2010-cu ildə inkişaf etməkdə olan ölkələrin dünya sənaye istehsalındakı xüsusi çəkisi 20% təşkil etməlidir.

## §4. Dünya sənayesinin sahə strukturu

Dünya iqtisadiyyatının aparıcı sahəsi kimi sənaye bir sıra cəhətlərdən öyrənilir. Sənayenin gücünə, şaxələnmə dərəcəsinə, orada baş verən nisbətlər dəyişikliyinə, məhsul buraxılışı müxtəlifliyinə

qiymət vermək üçün o struktur cəhətdən öyrənilir. Elmi-tədqiqat işlərində bu üsul struktur üsulu adlanır. Bu üsulun məqsədi öyrənilən obyekti tam şəkildə deyil, onun hissələri şəklində öyrənməkdir. Tam bir obyekti - bizim misalda sənayeni - struktur cəhətdən öyrənməklə biz iqtisadi araşdırmalar üçün çox mühüm olan əlavə məlumatlar əldə edirik.

Sənayenin tərkib hissələrinin ən əsası və ilk həlqəsi iş yerləridir. Məhsuldar qüvvələr inkişaf etdikcə sənaye yavaş-yavaş kənd təsərrüfatından ayrılıb sərbəst sahəyə çevrilənə qədər o özünü iş yerlərində büruzə verirdi (sənaye haqqında fikirləşmədən insan primitiv üsulla bir neçə iş yerində, məsələn, almadan şirə çəkirdi və s.). Sonradan tələbat yüksəldikcə iş yerlərinin sayı artırıldı. Eyni və ya oxşar əməliyyatları yerinə yetirən bir neçə iş yerinin fəaliyyət göstərdiyi yer istehsalın ikinci həlqəsini - müəssisə daxilində istehsal sahəsini təşkil edir. İstehsal sahəsində buraxılan məhsula olan tələbat artıqda istehsal sahələrinin sayı artır və sexlər, müəssisələr meydana gəlir ...

Lakin elmin indiki səviyyəsində biz sənayenin sahə strukturu dedikdə, onun ayrı-ayrı sahələrinin sayı, tərkibi və qəbul edilmiş göstəricilərə görə onlar arasında formalaşmış nisbətləri başa düşürük. Elmi-texniki tərəqqi sürətləndikcə, yeni məhsullar meydana gəldikcə, onların istehsalı mənimsənildikcə sənayedə sahə differensiallaşması baş verir. Differensiallaşma obyektiv və daimi bir prosesdir. Əsasını məhsuldar qüvvələrin iknişafı və ictimai əmək bölgüsünün dərinləşməsi təşkil edir.

Sənayenin sahəsi bir qayda olaraq bir neçə eyni tipli, oxşar müəssisələrdən ibarət olur. Bu müəssisələrin oxşarlığı istehsal etdikləri məhsulun iqtisadi təyinatlığında, istifadə etdikləri xammal, materiallarda, texnika və texnologiyada, fəhlə və qulluqçuların peşə tərkibində, xüsusi iş şəraitində, istehsalın təşkilində tapır. Lakin müəyyən bir vaxtda bir neçə müəssisənin norması şərti olmadan da sənayenin tərkibində digər sahələrdə istehsal edilməyən məhsul istehsal edən sahə mövcud ola bilir. Məsələn, bu gün dünya sənayesində 700-ə

qədər sahələrlə yanaşı, bir bu qədər də ayrıca növ istehsallar fəaliyyət göstərir.

Sənayenin sahə quruluşu ölkənin iqtisadi gücünü, onun potensial imkanlarını, istehsalın səmərəliliyini, elmi-texniki tərəqqinin səviyyəsini xarakterizə edə bilir. Lakin qrup şəkildə sənayenin sahə strukturu vasitəsilə aşağıdakılar haqqında məlumat almaq olar.

1.ÜDM-da sənayenin xüsusi çəkisinin artması ölkədə sənayeləşmə prosesinin dönməzliyini, iqtisadi inkişafın baş verdiyini, yeni iş yerlərinin yaradıldığını, orta sahibkarlar təbəqəsinin inkişaf etdiyini göstərir.

2.Ölkənin və dünyanın sənaye baxımından inkişaf səviyyəsini, bu səviyyəni sənayenin strukturunda əmək alətləri və digər istehsal vasitələri istehsal edən sahələrin kifayət qədər olması və bu sahələrin istehsal etdiyi məhsulların sənayenin ümumi məhsulundakı xüsusi çəkisi xarakterizə edir. Ölkədə sənayeləşmə intensiv surətdə baş verirsə bu xüsusi çəki artır. İstehsal alət və vasitələr istehsal edən maşınqayırmanın xüsusi çəkisinin inkişaf etmiş ölkələrdə daim artması buna misaldır.

3.Ölkənin iqtisadi sərbəstliyini. Sənayenin tərkibində əmək alətləri, istehsal şeyləri, istehsal edən sahələrin müvafiq emal müəssisələrin fəaliyyət göstərməsi ölkəyə imkan verir: birincisi, xalq təsərrüfatının bütün sahələrinin mütərəqqi texnika ilə təchiz etsin və belə məhsullarla dünya bazarına çıxsın; ikincisi özünün təbii sərvətlərindən səmərəli, öz xalqının mənafeyi üçün istifadə etsin.

4. Ölkənin müdafiə qabiliyyətinin vəziyyəti. Sənayenin tərkibində hərbi texnika istehsal edən sahələrin sayı, tərkibi ölkənin hərbi texnika istehsal edə bilməsi imkanını göstərir. Bundan başqa, ölkə sənayesində ağır sənayenin və xüsusən maşınqayırmanın kifayət qədər paya malik olması hərbi münaqişələr zamanı sülh məhsullarını hərbi məhsullara qısa müddətdə çevirməyə imkan verir.

5. İxrac potensialı haqqında. Sənayenin sahə strukturu inkişaf etdikcə ölkənin xarici bazara müxtəlif məhsullar çıxarmaq imkanını

artırır. İnkişaf etmiş ölkələrin dünya bazarına çox, inkişafda olan ölkələrin isə az məhsul çıxara bilmələri də bununla izah edilməlidir.

6. Elmi-texniki tərəqqinin sürətlənməsi haqqında. Sənayedə mütərəqqi sahələrin xüsusi çəkisinin artması ölkədə elmi-texniki tərəqqinin sürətləndirilməsini və elmi və texniki nailiyyətlərin istehsala intensiv tətbiq edilməsini göstərir.

7.İqtisadi inkişafın tipi haqqında. Sənayenin sahə strukturu mütərəqqi olduqca iqtisadiyyatı intensiv yolla inkişaf etdirmək üçün möhkəm əsas yaranır. Sənayedə məhsuldar, dəqiq, az enerji, material, fond tutumlu texnikanın istehsalı artdıqca maddi-enerji resurslarından, texnoloji avadanlıqlardan, əsas fondlarından və istehsal güclərindən daha səmərəli istifadə etmək üçün şərait yaranır və istehsal artmının intensiv yolla əldə edilməsinə səbəb olur.

Sənayenin sahə strukturu ölkə tələbatlarını ödəmək xassəsinə malik olmalıdır. Belə olarsa onda optimal sahə strukturundan söhbət gedə bilər. Optimal sahə strukturu sənayenin elə bir durumunu xarakterizə edir ki, sənaye istənilən vaxtda, istənilən məhsulu minimum istehsal xərcləri ilə buraxmaq xassəsinə malik olsun. Optimal sahə quruluşu əldə etmək üçün elmi-texniki nailiyyətlər istehsala gecikmədən tətbiq olunmalı, istehsalın yeniləşməsi sürətlənməli, istehsal potensialı elmi-texniki inqilaba uyğun formalaşdırılmalıdır. Optimal sahə quruluşu həm də mütərəqqi olmalıdır. Yəni sənayenin tərkibində müasir elmi-texniki tərəqqini özündə əks etdirən sahələrin xüsusi çəkisi kifayət qədər olmalıdır.

Sənayenin sahə strukturuna qoyulan tələblərdən biri də onun mütəhərrik və dinamik olmasıdır. Sənaye çevik olmalıdır. Ölkədə müxtəlif səbəblər üzündən yarana bilən tələbatı daha dolğun və öz vaxtında ödəyə bilən sənaye çevik sənaye hesablana bilər. Məsələn, 1970-ci illərdə kompüterləşmə və informatika texnikasına tələbat artanda dünyada ancaq Amerika Birləşmiş Ştatlarının sənayesi bu işin öhdəsindən daha çox gələ bildi və kompüter və onların proqram təminatı vasitələri istehsalı üzrə dünya birinciliyini qazandı. ABŞ bu

gün də kompüter, məlumat, informasiya, telemexanika, proqram təminatı vasitələri istehsalı üzrə birinciliyi əldə saxlayır və külli miqdarda qazanc əldə edir. İl ərzində ABŞ-da yaradılan ümumi daxili məhsulun 20 faizindən çoxu bu amilin hesabına əldə edilir.

Sənayenin sahə strukturunu öyrənməkdə əsas məqsədlərdən biri də ayrı-ayrı sənaye sahələrinin yerini təyin etməkdir. Məsələn, ölkə faydalı qazıntıları (qaz, neft, daş kömür, dəmir filizi və s.) çıxarırsa bu artıq sənayeni inkişaf etdirməkdir. Ölkə avtomobil istehsalını mənimsəyirsə, bu da sənayedir. Lakin birinci və ikinci hallar səmərəlilik, bacarıq, iqtisadiyyata təsir etməsi nöqteyi-nəzərincə, iş yerləri yaradılması baxımından, texniki tərəqqi cəhətdən və s. müxtəlif təsir buraxır. Qəbul edilmiş qruplaşdırmaya görə birinci halda sənaye hasilat sənayesi, ikinci halda emal sənayesi adlandırılır. Buna görə də ümumi sənaye məhsulunun həcmi nə qədər olursa-olsun bu çox da önəmli deyil, ölkə üçün daha mühüm məsələ sənayenin hasilat və emal bölmələri arasındakı nisbətidir. Təhlil gös-tərdi ki, emal sənayesi inkişaf etmiş ölkələrdə üstün xüsusi çəkiyə malik olur. Emal sənayesinin iqtisadi cəhətdən faydalı olması onun hazır məhsul buraxması və daxili və xarici bazarlarda reallaşdırılıb əlavə mənfəət əldə etməsidir.

Emal sənayesinin tərkibində iqtisadiyyatın ürəyi adlanan maşınqayırma və metalemalı sənayesi fəaliyyət göstərir. Bu sənaye sahəsi öz-özlüyündə 300 dən çox sahə və istehsallardan ibarətdir və mütərəqqi sahələr hesab olunurlar. Emal sənayesində dünya maşınqayırmasının xüsusi çəkisi 40%-i ötmüşdür (1975-ci ildə - 37%, 1995-ci ildə - 42%).

Mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq vaxtaşırı olaraq sənayenin sahə quruluşu təhlil edilməli və əməli nəticələr çıxarılmalıdır. Təhlil zamanı istifadə edilən və sənayenin sahə strukturunu bu və ya digər səviyyədə xarakterizə edən göstəricilər bunlardır: sənaye sahələrinin ümumi sayı, sahələrin tərkibi, sahələr üzrə istehsal əlaqələrini xarakterizə edən göstəricilər, sahələrin ümumi sənayedə tutduğu yer (ümumi məhsulun həcminə, işləyənlərin sayına, əsas istehsal fond-

larının orta illik dəyərinə, istehsal meydançalarının sahəsinə görə ayrı-ayrı sahələrin xüsusi çəkisi).

Sənaye sahələrinin ümumi sayı sənayenin mütərəqqi inkişaf etdiyini göstərir. Ayrı-ayrı sahələrin sayının artması yeni-yeni sahələrin meydana gəlməsini, elmi-texniki tərəqqinin sürətləndirilməsini və onun nəticələrinin istehsala tətbiq edilməsini xarakterizə edir. Lakin nəzərə almaq lazımdır ki, sənayenin sahə strukturu dinamikdir və burada yeni sahələr meydana gəldiyi kimi bir sıra sahələr sıradan çıxır ki, bu da sənaye sahələrinin ümumi sayını azalda bilər. Onu da qeyd edək ki, hər iki hal mütərəqqi hesab olunur. Hər ikisi elmi-texniki tərəqqinin nəticəsidir; elm, texnika inkişaf etdikcə yeni məhsullar meydana gəlir, yeni istehsallar yaranır, tələbata uyğun gəlməyən məhsullar sıradan çıxır və müvafiq istehsal fəaliyyətini dayandırır.

Sənaye sahələrinin tərkibi göstərir ki, ölkə hansı məhsulları istehsal etmək imkanına malikdir. Ayrı-ayrı sahələrin ümumi sənayedəki xüsusi çəkisi sahələrin tutduqları yeri göstərir. Bu xüsusi çəki ümumi məhsula görə hesablandıqda daha yaxşı məlumat əldə edilir. İşçilərin sayına görə hesablanan xüsusi çəki, müəyyən mənada dürüst məlumat vermir. Məsələ burasındadır ki, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi işçilərin sayını azaldır və əksinə, əmək məhsuldarlığı aşağı olan sənaye müəssisələrində işçilərin sayı çoxalır. Bu da məlumatın yanlış olmasına səbəb ola bilər. Sahələrin istehsal texniki səviyyəsinə qiymət vermək üçün "sənayenin əsas istehsal fondlarının orta illik dəyərində sahənin xüsusi çəkisi" göstəricisindən istifadə edilir.

Sənayenin sahə quruluşu inkişaf etmiş ölkələrdə birbaşa ETT-i ilə təyin edilir. Bu quruluşu azad bazar, vicdanlı (sağlam) rəqabət formalaşdırır. Bazar iqtisadiyyatlı iqtisadiyyat yaratmaq sahəsində zəngin təcrübəsi olan və bu sahədə böyük nəticələr əldə edən ölkələrdə "qabaqcıl" adını o firmalar, şirkətlər, kompaniyalar qazanırlar, hansılar ki, arasıkəsilmədən yeni məhsul, yeni texnika, yeni texnologiya yarada bilirlər və onların kütləvi istehsalına nail olurlar. Bu cür yanaşma

nəticəsində sənayenin sahə strukturunda mütərəqqi dəyişikliklər meydana çıxır, strukturun özü isə yüksək mütəhərrik olur. Texniki yeniliklər yaratmaq və istehsalını təşkil etmək bu gün sənayenin qarşısında duran başlıca məsələlərdəndir.

Müasir dövrdə dünya sənayesinin inkişafına, orada baş verən struktur dəyişikliklərinə qiymət verərkən "ümumi məhsulun həcmi" göstəricisindən istifadə edilməsi təcrübəsindən yavaş-yavaş "məhsulun nomenklaturası və çeşidi", "məhsulun rəqabət dözümlülüyü", "məhsulun elm tutumluluğu", "istehsalın uyuşqanlığı", "istehsalın texniki səviyyəsi", "istehsal potensialı" göstəricilərindən istifadə edilməsi təcrübəsinə keçilməsi tendensiyası müşahidə olunur. Elmi-texniki inqilabların intensivləşdiyi indiki dövrdə yenilikçilik, prinsipcə yeni məhsul buraxıb reallaşdırmaq, yeni texnologiyalar tapıb istehsala tətbiq etmək, istehsalı kompüterləşdirmək, məhsulun əmək, fond və material tutumlarını aşağı olan məhsul istehsal etmək sənayenin inkişafına qiymət verərkən daha yüksək qiymətləndirir. Bu yolla qiymətləndirmənin müsbət cəhəti ondadır ki, məsələyə belə yanaşdıqda sənayedə prinsipcə yeni-yeni istehsallar, yarımsahələr, sahələr və bir-biri ilə sıx istehsal əlaqələri olan istehsal kompleksləri meydana çıxır və sənayenin sahə quruluşunda mütərəqqi sahələrin xüsusi çəkisi təhlil edilir.

Sənaye istehsalını məhsulların iqtisadi təyinatlığı prinsipi üzrə qruplaşdırmaq sənayenin sahə strukturu ilə üst-üstə düşmür, ona görə ki, sahədə istehsal edilən məhsulun natural forması onun iqtisadi təyinatlığını təyin etmir. Buna görə də milli hesablar sistemində dünya üzrə vahid prinsiplər qəbul edilmişdir. Bu cür qruplaşdırmağın mahiyyəti ondadır ki, sənaye sahələrinin bu və digər qruplarını iriləşdirilmiş kompleks sahələrə daxil edirlər. Bu zaman "istehsal olunan məhsulun məqsədli təyinatlığının eynicinsliyi", "ilkin xammalın ümumiliyi", "istifadə edilən texnologiyanın oxşarlığı" əlamətlərindən istifadə edilir. Dünya iqtisadiyyatında ən çox istifadə edilən əlamət "istehsal olunan məhsulun məqsədli təyinatlığının eynicinliyi"dir. Bu əlamətə görə maşınqayırma, yanacaq, yeyinti, tikinti materialları

sənayeləri bir kompleks qrupa daxil edilir. “İlkin xammalın ümumiliyi” əlamətinə görə metalemalı və ağac emalı sənaye qrupu fərqləndirilir. Kimya sənayesi kompleksinə müəssisələri “istifadə edilən texnologiyanın oxşarlığı” əlamətinə görə daxil edirlər.

Emal sənayesini də iki qrupa bölmək olar. Bu asılıdır emal edilən ilkin materialın meydana gəlmə mənbəyindən. Əgər emal müəssisələri kənd təsərrüfatı mənşəli xammalı emal edirlərsə onda onlar birinci qrupa, sənaye mənşəli xammalı emal edirlərsə, ikinci qrupa daxil edilirlər. Kənd təsərrüfat xammalını emal edən sahələrə ət, süd, şəkər, şirə, pambıq-parça və s. bu kimi müəssisələr, sənaye mənşəli xammalı emal edən sahələrə isə qara və əlvan metallurgiya, neftayırma və s. müəssisələr daxil edilir.

## 4.1. Dünya sənayesinin sahə strukturuna təsir edən amillər

Dünya sənayesinin sahə strukturu ölkələrin sənayesindən asılıdır. Bəs hər bir konkret götürülmüş ölkənin sənayesi və onun sahə strukturu nədən aslıdır? Ümumiyyətlə sənayeni, onun strukturunu formalaşdıran amil və şərtlər hansılardır?

İlk mühüm amil ölkənin yeraltı və yerüstü təbii sərvtələridir. Təbii sərvətlərin, faydalı qazıntıların sayı, tərkibi və həcmi ölkədə bu və ya digər sənaye sahəsinin yaradılması üçün potensial şərait yaradır. Yəni nəzəri cəhətdən dəmir filizi olan ölkə hətta metallurgiya kompleksi yaratmaq imkanında olur... pambığı olan ölkə yüngül sənayeni inkişaf etdirmək imkanı əldə edir. Güclü axına malik çayları olan ölkə isə su elektrik stansiyaları tikə bilər və s. Təbii sərvətlər amili həmişə mövcud ola bilər və indi də mövcuddur. Bu amilin mövcudluğu insanlardan asılı deyil. Lakin bu amil nə qədər mühüm olsa da müasir tipli sənaye yaratmaq üçün həlledici deyil.

Həlledici amil rolunu elmi-texniki tərəqqi oynayır. Elmi-texniki tərəqqi sənayenin inkişafına və onun strukturunun təkmilləşməsinə güclü təsir göstərir. Bu təsir kompleks xarakter daşıyır və demək olar ki,

tükənməzdir. Elmi-texniki tərəqqi (ETT) sənayenin sahə strukturuna özünün ümumi, xüsusi və ən yeni istiqamətləri ilə təsir göstərir. ETT yeni məhsul növlərinin meydana gəlməsinə səbəb olur. Bu prosesin təsiri altında cihazqayırma sənayesi, mexanikləşdirmə və avtomatlaşdırma, elektron və radiotexnika vasitələri istehsal edən sahələr, kimya sənayesi vasitələrinin istehsalı sürətilə inkişaf etməyə başlayırlar. ETT-nin mühüm istiqaməti olan mexanikləşdirmə və avtomatlaşdırma maşınqayırmanın sürətli inkişafına səbəb olur. Elektrikləşmə maşınqayırma sənayesində generatorlar, transfarmotorlar və digər bu kimi, o dövrlər üçün yeni olan məhsulların istehsalını zəruri etdi. Məhsul istehsallarında geniş miqyasda kimyəvi materiallardan və kimyəvi texnologiyalardan istifadə edilməsi kimya sənayesinin üstün inkişaf etdirilməsi zərurətini ortaya qoyur. Bununla yanaşı olaraq kimya sənayesi üçün avadanlıqlar istehsal edən xüsusi sahələr, geniş nomenklaturada sintetik məhsullar istehsal edən üzvi sintez sahələri, mineral mənşəli xammalın zənginləşdirilməsi prosesini həyata keçirən sahələr meydana gəlir və inkişaf edir.

Elmi-texnkii tərəqqi sənayenin ağır sahələrinə müxtəlif istiqamətlərdə və səviyyədə təsir edir. Elmi- texniki tərəqqi nəticəsində dünya sənayesində baş verən struktur təkmilləşdirmələrinin ümumi meylini göstərmək olar. Bu meyl əsasən aşağıdakılardan ibarətdir.

I. Maşınqayırma sənayesi, yanacaq-enerji sahələri və kimya sənayesi digər sənaye sahələrinə nisbətən daha üstün inkişaf etdirilir.

Maşınqayırmada struktur təkmilləşdirilməsi nəticəsində aşağıdakılar baş verir:

-maşınqayırmanın özü üstün inkişaf etdiyi üçün sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi durmadan artır.

-maşınqayırmanın üstün inkişafı digər sənaye sahələrinin də (məsələn, qara və əlvan metallurgiyanın, rezin və toxuculuq sənayesinin və s.) üstün inkişafını zəruri edir.

-maşınqayırmanın sahə quruluşu dəyişir. Texniki tərəqqini sürətləndirən sahələr ümumi maşınqayırmaya nisbətən üstün inkişaf

etdirilir. Bu xüsusən maşınqayırmanın aparıcı sahəsi olan dəzgahqayırmaya daha çox aiddir.

Maşınqayırma sənayesi öz məhsulları ilə maşınqayırmanın özünü, sənayeni və bütün xalq təsərrüfatını yüksək keyfiyyətli maşın, mexanizm və aqreqatlarla təmin etməlidir. Maşınqayırmada istehsal edilən dəzgahlar onlardan istifadə edən sənaye sahələrində, kənd təsərrüfatında, nəqliyyat və tikintidə əmək məhsuldarlığını yüksəltmək, xammal və yanacağa qənaət etmək, istehsalın avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi üçün şərait yaratmalıdır.

II. Elmi-texniki tərəqqi nəticəsində ağır sənayenin mühüm sahələrindən biri olan kimya sənayesi sürətlə inikşaf edir. Bu ilk növbədə sənayenin elmi-texniki tərəqqinin mühüm istiqaməti olan kimyalaşdırmanın inkişafı ilə əlaqədar olur. Elmi-texniki tərəqqi sürətləndikcə məhsul istehsalı ənənəvi metalların kimyəvi materiallarla əvəz edilməsi prosesi güclənir. Bu da sənayenin ümumi məhsulunda kimya sənayesi məhsulunun xüsusi çəkisini artırır.

Elmi-texniki tərəqqi sürətləndikcə sistematik olaraq sintetik materiallar istehsal edən və çox baha başa gələn bir sıra təbii xammal növlərini əvəz edə bilən süni maddə, yanacaq- enerji istehsalı ilə məşğul olan sahələrin rolu artır. Sürətlə inkişaf edən sənayeni və xalq təsərrüfatının digər sahələrini yüksək keyfiyyətli yanacaq və enerji növləri ilə təmin etmək məsələsi bu sahələrin sürətlə inkişaf etdirilməsini tələb edir.

Elektroenergetikada atom elektrik stansiyalarının sayı və onların istehsal etdikləri elektrik enerjisinin xüsusi çəkisi artır. ETT nəticəsində üzvi yanacaqlı və istilik neytronları ilə işləyən elektrik stansiyalarının da sayı artır.

ETT-nin əyani nəticəsi olan proses - istehsalın elektrikləşdirilməsi prosesinin sürətlə getməsi elektrik enerjisinə olan tələbatı yüksəldir və elektroenergetikanın sürətli inkişafını tələb edir.

III. Elmi-texniki tərəqqi nəticəsində sənayenin ağır, yüngül və yeyinti sahələri arasında olan əlaqələr və qarşılıqlı əlaqələr artır. Bu ilk

növbədə öz əksini onda tapır ki, istehlak malları getdikcə daha çox sənayedə ilkin emala məruz qalmış kənd təsərrüfatı məhsullarından hazırlanır. Buna görə də kənd təsərrüfatı məhsullarını ilkin emal edən, pambıqtəmizləyən, yunyuyan, dəri-gön xammalı hazırlayan istehsallar sürətlə inkişaf edir.

IV. Elmi-texniki tərəqqinin təsiri nəticəsində yüngül sənayenin özündə də köklü dəyişikliklər baş verir. Bu dəyişikliklər ümumi şəkildə aşağıdakılarda öz əksini tapır: əyirmə və toxuma istehsallarının xüsusi çəkisi artır; məmulatların nomen-klaturası və çeşidləri sürətlə və daimi olaraq dəyişir; yüngül və yeyinti sənaye sahələri tərəfindən istifadə edilən yanacağın və enerjinin həcmi artır; qeyri-parça materialları istehsal edən sahələr əmələ gəlir və sürətlə inkişaf etdirilir; sintetik materiallardan və onların qarışığından hazırlanan məhsullar istehsal edən sahələrin xüsusi çəkisi artır. Sənaye həyata keçirilən struktur siyasəti burada güclü elmi-texniki potensialın yaradılmasına yönəldilir. Ona görə ki, elmi-texniki potensial və onun səmərəli fəaliyyəti sənayedə texniki tərəqqi üçün münasib şərait yaradır. Bu proseslər bütün dünyada gedir və kiçik və böyük dövlətləri əhatə edir.

Məsələn, respublikamızın sənayesində hər il onlarla yeni keyfiyyətli maşınlar, mexanizmlər, cihazlar, alətlər yaradılır və istehsala tətbiq edilir. Lakin bütün bunlara baxmayaraq elmi-texniki tərəqqinin müasir inkişaf sürəti bazar iqtisadiyyatının tələblərinə cavab vermir. Qarşıda duran əsas vəzifələrdən biri elmin, texnikanın və texnologiyanın mühüm istiqamətlərini tə-yin etmək və struktur siyasətində onları nəzərə almaqdır.

Belə mühüm istiqamətlərə aşağıdakılar daxildir:

-elmi-texniki potensialdan daha səmərəli istifadə etmək məsələsinin həll edilməsi;

-elmlə istehsalın əlaqələrinin möhkəmləndirilməsi;

-fərdi maşın və mexanizmlərin yaradılması və tətbiqi təcrübəsindən bir-birilə əlaqədə işləyən maşın, mexanizm, cihaz və alətlər sistemi istehsalına və istehsala tətbiqinə keçirilməsi;

-yeni məhsulların istehsalını tez və az ictimai xərclərlə təmin edən uyuşqanlı istehsallar yaradılması;

-istehsalın avtomatlaşdırılma səviyyəsinin yüksəlməsi;

-az tullantılı və tullantısız texnologiyalar işlənib hazırlanması və istehsala geniş tətbiq edilməsi;

-toz metallurgiyasının inkişaf etdirilməsi; ekoloji təmiz texnologiyaların genişləndirilməsi.

-biotexnologiyanın inkişaf etdirilməsi;

-məhsulun keyfiyyətinin yüksəldilməsində standartların rolunun artırılması;

-metalları əvəz edən yeni, daha mütərəqqi süni materiallar istehsalının artırılması, bu sahədə tədqiqat işlərinin gücləndirilməsi.

Dünya iqtisadiyyatında baş verən proseslərin təhlili gös-tərir ki, əgər sənayenin sahə strukturu optimaldırsa, onda elmi-texniki tərəqqinin sürətləndirilməsi üçün də şərait yaranır. Sənayenin mütərəqqi sahə quruluşu elmin və texnikanın tərəqqisini sürətləndirməyə imkan verir.

Məsələ burasındadır ki, müasir dövrdə elmin inkişafında sənayeləşmə gedir. Elmi-tədqiqat, layihə-konstruktor və təcrübə (eksperiment) işlərin yerinə yetirilməsi üçün yüksək dəqiqliyə malik cihazların, qurğuların, maşın və avadanlıqların olması vacibdir. Bundan başqa, mütərəqqi üsullarla yeni xammal, material, enerji, yanacaq əldə edilməsi üçün dərin vakuumlu mühitlər, dərin soyuq mühitlər, yüksək hərarət yarada bilən qurğular lazımdır. Belə mühitlərin (qurğuların) yaradılması müvafiq cihaz və aparatların olmasını tələb edir. Məsələn, ifrat təmiz material (metal) əldə etmək üçün maksimum havasız (dərin vakuum) mühitin olması vacibdir. İfrat təmiz materiallarsız isə çox dəqiq cihazlar və nəzarət-ölçü qurğuları hazırlamaq mümkün deyildir. Digər tərəfdən, dərin vakuumlu mühitin yaradılması üçün havanı təcrübə aparılan qapalı qurğudan maksimum həddə qədər sora bilən nasos qurğuları tələb olunur. Əgər sənayedə belə nasos qurğularını istehsal edə bilən sahə, sex, müəssisə, (birlik) yoxdursa, onda ifrat təmiz metal əldə etməklə məşğul olan elmi-tədqiqat institutlarının fəaliyyəti

tormozlana bilər, belə cihazların xaricdən alınması mümkün olmadıqda isə bu fəaliyyət tam dayana bilər. Buradan görünür ki, sənayenin strukturu ilk növbədə elmin tələbatlarını ödəməyə qadir olmalıdır, imkan verilməlidir ki, bütün sosial-iqtisadi tələbatlar maksimum və yüksək keyfiyyətlə ödənilsin.

Hazırda ölkələrin və regionların sosial-iqtisadi məsələlərinin həlli rəqəmli proqramla işləyən dəzgahlarla, EHM-la, emal mərkəzləri ilə və mikroproseslər texnikası ilə təchiz olunmuş uyuşqanla istehsalların tətbiqinin genişləndirilməsini tələb edir. Lakin bu məsələ iqtisadiyyatın strukturunu dəyişmədən mümkün deyildir. Tələb olunur ki, məsələn, sənayenin sahə quruluşunda maşınqayırmanın xüsusi çəkisi artırılsın. İnkişaf etmiş ölkələrin təcrübəsi də bunu sübut edir.

Elmi-texniki tərəqqinin sürətləndirilməsində, xalq təsərrüfatının yeni mütərəqqi səviyyəyə qaldırılmasında maşınqayırmanın rolu böyükdür. İctimai istehsalda inqilabi dəyişikliklər yarada bilən müasir texnika maşınqayırmada yaranır. Sənayenin inkişafı və texnika, texnologiyanın üstünlüyü cəhətdən fərqlənən ölkələrin sənayesinin strukturunda maşınqayırmanın xüsusi çəkisi bir qayda olaraq yüksək olur və təxminən 35-45 faiz təşkil edir. Yaponiyada isə bu rəqəm 47-48 faizə çatır. Müqayisə üçün göstərək ki, maşınqayırmanın xüsusi çəkisi keçmiş SSRİ-də 20 faiz, respublikamızda isə 15-16 faizdən də az təşkil edirdi. İnkişafda olan ölkələrdə isə maşınqayırmanın xüsusi çəkisi bir qayda olaraq azdır.

Sənayedə iqtisadiyyatın strukturunun yenidən qurulmasında əsas məqsəd elmi-texniki tərəqqini sürətləndirməyə imkan verən prioritet sahələrin üstün inkişafını təmin etməkdir. Bunların nəticəsində məhsulun keyfiyyəti yaxşılaşmalı, əldə edilən nəticənin hər vahidində düşən ictimai xərclər azalmalıdır. Elmi-texniki tərəqqinin qənaət rejiminə əməl edilməsinə, resurslara qənaət edilməsi siyasətinin həyata keçirilməsinə yönəltmək tələb oulnur. Bunu ölkələrin hazırki iqtisadi vəziyyəti çox ciddiliyi ilə iqtisadçıların və istehsalı təşkil edənlərin qarşısında qoyur. Bu sahədə Yaponiya böyük nailiyyətlər əldə edib.

Hazırda zəif inkişaf etmiş ölkələrdə istehsal edilən milli gəlirin hər vahidinə inkişaf etmiş kapitalist ölkələrindəkindən xeyli çox xammal, enerji və digər resurslar sərf edilir. Həyata keçirilən struktur siyasəti bu israfçılığa son qoymalıdır. Elmi-texnikii tərəqinin sürətləndirilməsinə xidmət edən struktur siyasəti elə aparılmalıdır ki, son nəticədə istehsalın enerji tutumu göstəricisi yaxşılaşsın.

Uzun illərin təcrübəsi göstərir ki, iqtisadiyyatın strukturu ilə ETT-i arasında birtərəfli əlaqə yox qarşılıqlı əlaqə mövcuddur. Yeni struktur dəyişiklikləri elmi-texniki tərəqqi üçün münasib şərait yaradırsa, elmi-texniki tərəqqinin sürətləndirilməsi də öz növbəsində iqtisadiyyatın strukturuna təsir göstərir. Bu təsir sənayedə daha əyani nəzərə çarpır. ETT sənayenin sahə quruluşuna güclü təsir göstərir: o getdikcə təkmilləşir və optimal sahə quruluşuna doğru inkişaf edir. Sənayenin sahə quruluşunun təkmilləşdirilməsi istehsalın səmərəliliyinin yüksəldilməsinin intensiv yollarından biridir. Sənayenin sahə quruluşu dəyişən xarakter daşıyır.

Elmi-texniki tərəqqi eyni zamanda sənayenin mikroquruluşunda da dəyişikliklər əmələ gətirir. Məsələn, maşınqayırma özü sənayenin aparıcı sahəsi kimi üstün inkişaf etdirilir. Lakin elmi-texniki tərəqqi maşınqayırmanın sahə quruluşuna ciddi tələblər qoyur. Maşınqayırma sənayesində cihazqayırmanı, elektrotexnika sənayesini, dəzgahqayırmanı, kosmik texnikanı daha böyük sürətlə inkişaf etdirmək lazım gəlir. Maşınqayırmanın mikro sahə quruluşunun dəyişilməsi şaxələnir, bütün yarımsahələri əhatə edir. Məsələn, dəzgahqayırma sənayesinin sahə quruluşunda dəqiq emal avadanlıqlarının, robot texnikasının, rəqəmli-proqramla idarə edilən dəzgahların xüsusi çəkisi artır. Bir qayda olaraq maşınqayırmanın bu mütərəqqi sahələrinin məhsulu daha sürətlə artır. İstər maşınqayırmanın makro və istərsə də mikro sahə quruluşunun dəyişilməsi ölkələrin həyata keçirdiyi iqtisadi siyasətin tələblərinə cavab verməli və iqtisadiyyatın intensiv yolla inkişafının həyata keçirilməsinə yönəlməlidir. Buna görə də yaxın 10-20 ildə qarşıda duran əsas məsələlərdən biri materiallara, yanacağa, elektrik

enerjisinə qənaət edən, onlardan daha səmərəli istifadə edil-məsi üçün şərait yaradan texnikanın, texnologiyaların yaradılmasından və bunların istehsalı ilə məşğul olan sənaye sahələrinin daha üstün inkişaf etdirilməsindən ibarətdir. Yaponiya bu sahədə daha mühüm məsələlərə diqqət yetirir. Onlar təbiəti qoruyan texnologiyalar yaratmağa daha çox fikir verirlər.

İnkişaf etmiş ölkələrdə sənayenin sahə quruluşunun yaxşılaşdırılması da resurs qoruyan siyasətə əsaslanır. Bunun başlıca səbəbi dünya iqtisadiyyatında baş verən xammal və enerji böhranlarıdır. Böhranlar lap yüksək səviyyədə təşkil edilmiş, yaxşıca düşünülmüş, elmtutumlu istehsallara belə ölümcül zərbələr vura bilər. İlk növbədə istehsal xərclərinin artmasına görə. Bundan başqa, xammal və materialların bahalaşması sonda avadanlıqların və tikintinin bahalaşmasına səbəb olur. Bu gün dünya miqyasında investisiya siyasəti gər-ginləşib, istehsal xərcləri artmağa meyllidir. Təkrar istehsal da bahalaşır və prosesin özü gərginləşir. Bunun aradan qaldırılması yeni texnoloji inqilabın meydana çıxmasını stimullaşdırır. İnkişaf etmiş ölkələrin hamısı resurs qoruyan texnologiyaya üstünlük verirlər və bu məsələnin həllində sənayenin sahə strukturunun aparıcı rolunu dərk edirlər. İndi hamı bu strukturun təkmilləşdirilməsi haqda fikirləşir. Təh-lil göstərdi ki, bu təkmilləşdirmə əsasən iki yolla: a) sənayenin ənənəvi aparıcı sahələrinin yenidən qurulması və modernizasiyası və b) yeni elmtutumlu sənaye sahələrində məhsul növlərinin, tiplərinin dəyişdiril-məsi, prinsipcə yeniləri ilə əvəz edilməsi yolları ilə həyata keçirilir. Lakin bu istiqamətlərin hər ikisi çoxlu vəsait tələb edir. Xərclərin azaldılması amili rolunu yenə sənaye və onun optimal sahə strukturu oynaya bilər. Birinci növbədə isə maşınqayırma və onun strukturu məqsədyönlü inkişaf etməlidir. Bunu nəzərə alan inkişaf etmiş ölkələrin hökumətləri və sahibkarları pul vəsaitlərini maşınqayırmanın aparıcı sahələrinə və yeni meydana çıxan və XXI əsrin tələblərinə uyğun gələn sahələrə yönəltməyə meyillidirlər. Bu cür yanaşmanın çox mürəkkəb olduğunu qeyd etmək lazımdır. Ən ümumi halda investisiyanın

mütərəqqi sahələrə yönəldilməsi ilə sənayenin sahə strukturunun yaxşılaşması arasında asılılıq vardır. Lokal hallar üçün qənaətbəxş sayılan bu asılıq qlobal miqyas üçün çətinlik törədə bilər. Ona görə ki, qlobal miqyasda amillər də-yişə və gözlənilməz hallar baş verə bilər. Bir də ki, ayrıca götürülmüş sahibkar və dövlət üçün maraqlı olan məsələ başqadır. Onlar maraqlanır ki, nə qədər vəsait xərcləsinlər ki, ölkə sənayesinin sahə strukturu bu gün və gələcəkdə mütərəqqi olsun.

Sənayenin sahə strukturuna istehsalın ixtisaslaşması və kooperasiyalaşması da güclü təsir göstərir. Bunun da əsasında əmək bölgüsü, dünya iqtisadiyyatı səviyyəsində isə beynəlxalq əmək bölgüsü durur (BƏB). Milli sənayelərin vahid dünya sənayesinə qovuşmasında BƏB həlledici rol oynayır. BƏB nəticəsində ölkələr hər hansı bir məhsul istehsalı üzrə ixtisaslaşa bilər. Belə olan halda onlar istehsal etdikləri konkret məhsul (əşya, onun bir hissəsi, texnoloji hədd, xidmət) üzrə beynəlxalq kooperasiya əlaqələrinə (BKƏ) girib sənayenin inkişafında iştirak edirlər. BƏB sənayenin şaxələnməsini ölkələrdə sənayenin inkişaf etdirilməsinin obyektiv əsasını təşkil edir. Dünya iqtisadiyyatı baxımından BƏB-nün əvəzolunmaz rolu ondadır ki, bu zaman geri qalmış ölkələrdə belə sənayeni inkişaf etdirmək üçün şərait yaranır. BƏB nəticəsində istehsalda iki proses baş verir, birincisi, əməyin bölünməsi, ikincisi əmə-yin birləşməsi. Bu iki prosesin dinamik birliyi imkan verir ki, vahid istehsal prosesi ayrı-ayrı sərbəst hissəvi proseslərə parçalansın və bu hissələrin istehsalı daha yaxşı (səmərəli) mühit (şərait) olan ölkədə təşkil edilsin.

Beynəlxalq ixtisaslaşma və kooperasiyalaşma nəticəsində sənayenin inkişafı üçün sanki “yeni mənbə” meydana çıxır: ayrı-ayrı ölkələrdə sənayenin inkişaf etdirilməsi üçün iqtisadi stimul yaranır. BƏB nəticəsində əldə edilən mənfəət onun iştirakçıları arasında dəyər qanununa əsasən “bölünür”. Mənfəətin meydana gəlməsi isə əmtəələrin milli və beynəlxalq dəyərləri arasındakı fərq kimi baş verir. İxtisaslaşma bir neçə formada aparılır. Sənayedə ən çox yayılmış formalara əşyalar üzrə, hissələr üzrə, qovşaqlar üzrə, ayrı-ayrı texnoloji

hədlər üzrə, yığma üzrə ixtisaslaşma formalar, daxilidr. Bu və ya digər formanın seçilməsi, tətbiqi baş firmanın iqtisadi hesablamalarına əsasən həyata keçirilir. Avtomobil sənayesində yığma sexləri, müəssisələri yaratmaq şirkət üçün daha sərfəli olur. Ona görə ki, hazır avtomobilin daşınması, onun hissələrinin daşınmasından baha başa gəlir. İxtisaslaşmanın hansı formada aparılmasından asılı olmayaraq sənayenin sahə strukturu dəyi-şir, onu daha mütərəqqi şəklə salır, optimallıq səviyyəsini yüksəldir və sonda dünya iqtisadiyyatının inkişafına müsbət təsir göstərir.

Dünya sənayesinin sahə strukturuna ölkələrin daxili bazarlarının həcmi, onların sosial-iqtisadi inkişafı, əhalinin yaşayış tərzi, maddi-rifah halının dəyişməsi, onların mədəni səviyyəsi güclü təsir göstərir. Bu amillər sənayenin əsasən yüngül və yeyinti sahələrinə çox təsir göstərir. Sənayenin sahə strukturuna beynəlxalq vəziyyət, qlobalizasiya prosesləri, istehsalın beynəlmiləlləşməsi səviyyəsi, xarici iqtisadi əlaqələrdəki inteqrasiya prosesləri, yeni sənaye ölkələrinin meydana gəlməsi və inkişaf edən ölkələrdə gedən sosial-iqtisadi proseslər və sairə bu kimi elmi-texniki tərəqqidən bilavasitə asılı olmayan amil və şərtlər də təsir göstərir. Bundan başqa, sahibkarlığın inkişafı, ölkələrin onlara verdikləri hüquqların artması da sənayenin inkişafına və onun sahə və ərazi strukturunun təkmilləşməsinə səbəb olur. Buna parlaq misal transmilli kompaniyaların fəaliyyətini göstərmək olar. Bu tip kompaniyalar çox vaxt sənaye müəssisələrini öz ölkələrindən kənarda yaratmağa meyilli olurlar və sənayenin həm sahə və həm də ərazi strukturuna təsir göstərə bilirlər.

## §5. Emal sənayesinin inkişafı

Sənaye iqtisadiyyatın aparıcı sahəsidir. Lakin sənayenin tərkib hissələri iqtisadiyyata müxtəlif cür təsir göstərirlər. İqtisadiyyata çox güclü müsbət təsir göstərən sahə emal sənayesidir. Emal məhsulları

istehsal etmək, hər il yenidən onların sadə və geniş təkrar istehsalına nail olmaq dünya təsərrüfat sisteminin ən mühüm sferalarından hesab edilir. Uzun illərin təcrübəsi göstərir ki, emal sənayesi bir çox cəhətdən ölkə iqtisadiyyatının prioritet istiqamətlərini təyin edir. O ilk növbədə sosial məsələlərin həlli üçün lazımdır. Yeni iş yerlərinin yaradılması bilavasitə emal sənayesindən, onun sahə strukturundan asılı olur. Bundan başqa, emal sənayesinin məhsulu hazır məhsullardır: avadanlıqlardır, cihazlardır, dəzgahlardır, axın xətləridir, avtomatlardır, kompüterlərdir, elektrik stansiyaları üçün avadanlıqlardır, raketlərdir, müxtəlif yeyinti məhsullarıdır, geyim-ayaqqabı məmulatlarıdır və s. Bütün bu məhsulların sənayenin hasilat sahələrinin məhsulundan (xam neftdən, daş kömürdən, qazdan, torfdan, dəmir filizindən və s.) mühüm fərqli cəhətləri vardır: onlar ilk növbədə ETT-nin daşıyıcılarıdır, son elmi və texniki tərəqqini özlərində təcəssüm etdirirlər və eyni zamanda istehsalın texniki səviyyəsini yüksəltməyə qadirdirlər.

Emal sənayesini inkişaf etdirmək, yaradılan məhsulların davamlılığını, uzunömürlülüyünü, etibarlılığını yüksəltmək, rəqabət qabiliyyətli emal məhsulları istehsal etmək güclü **bilik**, **yaradıcı əmək** və **çoxlu vəsait** tələb edir. Bu şərtləri ödəyən ölkələr emal sənayesini inkişaf etdirə bilirlər və dünya ölkələri arasında özlərinin iqtisadi gücləri ilə fərqlənirlər. Təsadüfi de-yildir ki, inkişaf etmiş ölkələrdə bir qayda olaraq emal sənayesi yüksək səviyyədə olur. Aşağıda verdiyimiz cədvəl 20-nin məlumatları da bunu bir daha sübut edir.

**Cədvəl № 20**

**ÜDM-ə görə emal sənayesinin dünya istehsalında xüsusi çəkisi (%)**

| | 1960 | 1970 | 1980 | 1990 | 1994 | 1997 | 1998 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Dünya üzrə o cümlədən: | 28,4 | 26,1 | 22,8 | 22,6 | 21,8 | 22,5 | 22,5 | 22,6 |
| Sənaye cəhətdən inkişaf etmiş ölkələr | 31.0 | 27,7 | 24,2 | 23,0 | 22,1 | 22,1 | 22,2 | 22,3 |
| İnkişaf etməkdə olan ölkələr | 15,6 | 17,8 | 17,9 | 20,2 | 19,3 | 19,2 | 19,1 | 19,2 |

Son dövrlərdə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə emal sənayesində istehsalın nisbətən aşağı düşməsi müşahidə olunur. Belə meyl heç də sənayenin bu mütərəqqi sahəsinin rolunun azalması mənasını vermir, əksinə, prosesin bütün dünya ölkələrinə yayılmasından xəbər verir. Keçən əsrin 70-ci illərindən başlayaraq dünya miqyasında belə bir istiqamət diqqəti cəlb edir: Emal sənayesinin ÜDM-dakı xüsusi çəkisi inkişaf etmiş ölkələrdə azalmağa, inkişafda olan ölkələrdə isə nisbətən çoxalmağa başlamışdır. Dünya iqtisadiyyatına aid dərc olunmuş materiallarda bu proses **desənayeləşmə** adlanır. Bu prosesin həm obyektiv və həm də subyektiv kökləri vardır.

Desənayeləşmənin subyektiv (qeyd edək ki, bunu subyektiv adlandırmaq da nisbi xarakter daşıyır) əsasını dünya miqyasında baş verən beynəlmiləlləşmə, qloballaşma, yarımsistemlər iqtisadiyyatının daha çox açıq olması və beynəlxalq ticarətin sürətlə inkişaf etməsi, biliyin bütün dünyaya yayılması təşkil edir. Dünya miqyasında baş verən elmi-texniki tərəqqi və iqtisadi inkişafın obyektiv xüsusiyyəti obyektiv amil rolunu oynayır. İnkişafda olan ölkələr başa düşməyə başlayıblar ki, təkcə xammal və materiallar ixrac etməklə sosial-iqtisadi

inkişafa nail olmaq olmaz, sənayenin bütün sahələrini, o cümlədən də ilk növbədə emal sənayesini tamamilə inkişaf etdirmək lazımdır. Bu prosesin baş verib genişlənməsinə inkişaf etmiş ölkələrin də təsiri olur: çox vaxt emal müəssisələrini "Ətraf" ölkələrdə yerləşdirmək onların özləri üçün də sərfəli olur.

İnkişaf etmiş ölkələrdə emal sənayesinin artım sürətinin nisbətən aşağı düşməsinə hazır məhsulların qiymət indeksinin xidmət sahəsindəki qiymət indeksindən aşağı olması da təsir göstərir. Bütün dünya üzrə emal sənayesinin səviyyəsi isə sahənin inkişafda olan ölkələrdə üstün inkişaf etdirilməsi yolu ilə sabitləşdirilir.

## §6. Sənayedə müəssisələrin ölçüləri

Sənayenin inkişafında burada fəaliyyət göstərən müəssisələr və onların ölçü dərəcəsi böyük rol oynayır. Yəni, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin rəhbərləri firmaların ölçülərinə biganə olmurlar. Dövlət bu prosesi ölkənin sosial-iqtisadi tələbatlarının maksimum ödənilməsi istiqamətində idarə etməyə həmişə səy göstərmişdir və nəticədə ölçülərinə görə iqtisadi inkişafın xeyrinə olan müəssisələrin meydana gəlməsinə nail olmuşlar.

Dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiyanın sənayesində iri, orta və kiçik müəssisələr fəaliyyət göstərir. Kiçik müəssisələr sayca çoxluq təşkil edirlər. Dövlət bunun üçün özünün tənzimləmə rıçaqlarından bacarıqla istifadə edir. Burada məqsəd müxtəlif olsa da əsas məsələlərdən biri monopoliya ilə mübarizə aparmaqdır. Kiçik müəssisələrə dövlət qayğı göstərir ki, onlar nəhənglərin kölgəsində əriyib yoxa çıxmasınlar. Sənayedə kiçik və orta müəssisələrin inkişaf etdirilməsinin həm də sosial mənası vardır: bu əhalinin orta təbəqəsinin meydana gəlməsinə və müvəffəqiyyətlə fəaliyyət göstərməsinə səbəb olur. Bu həm də sənaye istehsalında diversifikasiya proseslərinin tələb və təklifə uyğun baş verməsi üçün yaxşı şərait yaradır. Onu da qeyd edək ki, inkişaf etmiş ölkələrdə kiçik

müəssisələr MDB ölkələrində və bizim respublikada fəaliyyət göstərən kiçik müəssisələrdən fərqlənirlər. Onlar elm və texnikanın son nailiyyətlərini özlərində təcəssüm etdirən «vençur» (riskli) tipli müəssisələrdir və sənayenin inkişafında həlledici rol oynaya bilərlər.

Hazırda inkişaf etmiş ölkələrin sənayesində kiçik, orta və iri müəssisələr arasında müəyyən nisbətlər formalaşmışdır. Ümumi kontekstdə kiçik, orta və iri firmalar ETT-nin sürətlənməsində və sənayenin sahə strukturunun təkmilləşdirilməsində mühüm rol oynayırlar. ABŞ-da elmi-tədqiqat və layihə-təcrübə işlərinə çəkilən xərclərin 50%-dən çoxu sənaye korporasiyalarının payına düşür. Yaponiyada isə bu rəqəm 80-a çatır. Bu bir daha sənayenin ölkə iqtisadiyyatında oynadığı aparıcı rolunu sübut edir. Kiçik və orta müəssisələr ABŞ-da çoxsaylıdır. Əldə etdiyimiz məlumatlara görə hər il 600-700 min bu cür müəssisələr yaranır və təxminən 20-40 min isə rəqabətə dözməyib müflisləşir. Onların çoxu ən yeni məhsullar istehsal etmək üzrə ixtisaslaşmış olurlar və bir çox halda iri müəssisələrə nisbətən daha səmərəli fəaliyyət göstərirlər. ABŞ-ın milli elm fondunun məlumatlarına görə kiçik və orta firmalara yönəldilən bir dollar iri müəssisələrə nisbətən 2,4-4 dəfə çox yeniləşmə (innovasiya) (yeniləşməyə lisenziyalar, patentlər və s. daxildir) əldə etməyə imkan verir. Sənaye yeniləşmələrinin 50%-ə qədərini kiçik və orta (1 min nəfərə qədər işçisi olan) firmalar verir. Kiçik və orta firmalar digər ölkələrdə də səmərəli fəaliyyət göstərirlər və dünya sənayesinin optimal strukturunun formalaşmasına müsbət təsir göstərirlər.

Ümumiyyətlə götürdükdə qeyd etmək lazımdır ki, müəssisələrin ölçüləri məsələsini azad bazar münasibətləri həll etməlidir. Lakin sahibkarların orta təbəqələrinin sosial gərginliyin azalmasında oynadığı rolunu dərk edən ölkələr haqlı olaraq bu prosesi kiçik və orta müəssisələrin qoruyub saxlanması xeyrinə idarə edirlər. Uzun illərin təcrübəsi sübut edir ki, bu cür yanaşma yaxşı nəticə verir. Sənaye cəhətdən inkişaf etmiş ölkələr müəssisələrin ölçüləri arasında optimal nisbətləri saxlamaq üçün hüquqi sənədlər qəbul edib həyata keçirmək

üsullarından da istifadə edirlər. Demək olar ki, bütün inkişaf etmiş və ümumiyyətlə iqtisadiyyatı sivilizasiyalı yollarla inkişaf etdirmək istəyən ölkələrin hamısı monopoliya əleyhinə qanunlar qəbul etmişlər. Lakin bu heç də o demək deyildir ki, müəyyən bir məhsul istehsalı üzrə iri və nəhəng müəssisə yaratmaq olmaz. Əgər məsələyə diqqətlə yanaşsaq görərik ki, inkişaf etmiş ölkələrdə nəhəng şirkətlər, firmalar, müəssisələr çoxdur. Bu müəssisələr də monopoliya əleyhinə qanuna əməl edirlər və dövlətin obyektiv nəzarətində olurlar (korrupsiyaya qurşanan dövlətlərdə bu nəzarət subyektlərin marağı baxımından həll edilir və buna görə də iri müəssisənin monopol vəziyyət tutması ehtimalı çoxalır).

Azad bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrdə kiçik, orta, iri, nəhəng müəssisələrin optimal nisbətləri isə əsasən qəbul edilmiş prinsiplərə əməl olunması yolu ilə əldə edilir. Müəssisələrin ölçü strukturu bu ölkələrdə elə formalaşdırılır ki, ölkənin iqtisadi inkişaf səviyyəsi yüksəlsin, sosial gərginliklər azalsın və ya tam aradan götürülsün, istehsalın səmərəliliyi və məhsulun keyfiyyəti yüksəlsin.

## §7. İstehsalın səmərəliliyinin yüksəldilməsində kiçik müəssisələrin rolu

Tədqiqat göstərir ki, sosial-iqtisadi formasiyalardan asılı olmayaraq bütün dövrlərdə insanların və onların qabaqcıl nümayəndələrindən olan iqtisadçıların əsas məqsədi qənaətcil təsərrüfat mexanizmi yaratmaqla ölkəni, ayrı-ayrı sahələri, müəssisələri və iş yerlərini optimal idarə etmək və rezenans səmərə əldə etmək olmuşdur. Lakin bu məqsədə aparan yol həmişə hamar olmamış və bir çox hallarda isə gözlənilən nəticələr əldə edilməmişdir. Buna görə də istehsalın və ona xidmət göstərən sahələrin səmərəli fəaliyyət göstərməsi məsələsi daim mövcud olmuş və bazar iqtisadiyyatına keçidlə səciyyələnən indiki dövrdə öz aktuallığını daha da artırmışdır.

Yüksək səmərəli istehsalların formalaşdırılması kompleks şəkildə texniki, texnoloji, təşkilati, iqtisadi və sosial yönümlü tədbirlərin həyata keçirilməsini tələb edir. Lakin nəzərə almaq lazımdır ki, həyata keçirilən bu cür tədbirlər son nəticədə məhsul istehsalının intensiv yollarla əldə edilməsinə xidmət etməlidir. İstehsalın intensivləşdirilməsi yüksək olduqca o dərəcədə də istehsaln nəticəsini artırmaq üçün şərait yaranır. İntensivləşdirmə burada məqsəd yox istehsalın səmərəliliyinin yüksəldilməsi vasitəsinə çevrilir. İdarəetmə prosesləri və istehsalın intensivləşdirilməsi düşünülmüş şəkildə aparıldıqda sənaye müəssisələrinin səmərəli fəaliyyəti üçün yaxşı imkanlar yaranır və son nəticədə Ümumi Milli Məhsulun təkrar istehsalı nisbətən az material - enerji xərcləri ilə əldə edilir.

İstehsalın intensivləşdirilməsi və sənaye məhsulunun intensiv yollarla çoxaldılması məsələsi keçmiş sovetlər ölkəsində uzun illər tədqiqat obyekti olmuş və bir sıra nəzəri və praktiki əhəmiyyəti olan nəticələr çıxarılmışdır. Lakin müxtəlif obyektiv və subyektiv amillərin təsiri altında çıxarılan nəticələrin əksəriyyəti kağız üzərində qalmış və buna görə də istehsalın intensivləşdirilməsi özünün tam həllini tapmamışdır.

Bazar iqtisadiyyatına keçid dövrü olan indiki dövrdə istehsalın intensivləşdirilməsi və bu yolla onun səmərəliliyinin yüksəldilməsi daha da aktual şəkil almışdır. İlk növbədə ona görə ki, intensiv inkişaf olmadan rəqabət dözümlü məhsul istehsal etmək qeyri-mümkün olan işdir. Bunu dünya ölkələrinin təcrübəsi artıq sübut etmiş və bizim ölkəmizdə bu nəzərə alınmalıdır.

Azad bazar iqtisadiyyatı intensivləşdirməyə yanaşmağın yaradıcı olmasını və yeni üsul və vasitələrin tapılmasını tələb edir. Problem daha dərindən öyrənilməli, təhlil edilməli və onun amil və şəraitləri yenidən işlənilməlidir. Belə mühakimə yürüdülməsinin kökü ondadır ki, indiyə qədər bəzi amil və şərtlərin istehsalın intensivləşdirilməsinə təsiri lazımi səviyyədə öyrənilməmişdir. Bu qəbildən olan amillərə ölkələrdə tikilən

və yaxud da tikilməsi nəzərdə tutulan sənaye müəssisələrinin ölçüləri məsələsi ilk növbədə daxildir.

Müəssisələrin ölçüsü iqtisadçılar üçün nəzəri və təsərrüfatçılar üçün praktiki baxımdan həmişə mühüm əhəmiyyət kəsb etmişdir və azad bazar iqtisadiyyatı şəraitində isə bu problemlər daha da kəskinləşmişdir. Məsələ burasındadır ki, iqtisadi ədəbiyyatlarda və təcrübədə iri, kiçik, orta, nəhəng müəssisələr qrupları fərqləndirilsə də əsl iqtisadçıları həmişə müəssisənin optimal ölçüdə olması və optimallığa qiymət vermək üçün münasib meyarların seçilməsi, (tapılması) ətrafında tədqiqatlar aparmağ düşündürmüşdür.

Dünya təsərrüfatının aparıcı sahəsi olan sənayedə müəssisələrin optimal ölçüsü məsələsi daha aktual və eyni zamanda daha mürəkkəb məsələdir: tarixi nöqteyi-nəzərdən müəssisələrin ölçülərinin formalaşması obyektiv və subyetkiv amilərin təsiri altında baş vermişdir. Prosesin özü isə kiçik ölçülü müəssisələrdən iri müəssisələrə doğru evolyusiya etmişdir. Tədqiqat göstərdi ki, keçən əsrin axırlarına qədər müəssisələrin ölçüləri əsasən obyektiv amillərin təsiri altında baş vermişdir. Bu proses iri kartellərin, sindikatların, konsernlərin və s. bu kimi digər monopol müəssisələrin meydana gəlməsinə qədər davam etmişdir. Bu tipli iri və bəzən çox nəhəng müəssisələrin üzdə görünən üstünlüklərini nəzərə alan kapitalistlər inhisar mənfəəti almaq xatirinə bu proseslərə müdaxilə etməyə başlamışlar və o vaxtlardan başlayaraq müəssiə ölçülərinin formalaşması əsasən subyektiv amillərin təsiri ilə baş vermişdir. Subyektiv amillərin təsiri altında ən çox iri və nəhəng sənaye müəssisələri keçmiş SSRİ məkanında meydana gəlmişdi. Qeyd edək ki, o vaxtlar bu ölkədə istehsalın səmərəliliyinin, intensivliyinin aşağı olmasının səbəblərindən biri də elə bu idi.

Azad bazar iqtisadiyyatı inkişaf etdikcə, prosesin idarə edilməsi təkmilləşdikcə vəziyyət dəyişməyə başlamış və kiçik müəssisələrin mühüm üstünlüklərə malik olmasını dərk edən ölkələrdə onlara diqqət yenidən artmışdır. Dövlətlər iri nəhənglərlə paralel xırda müəssisələr üçün də şərait yaratmağa başlayırdılar və dünya bazarına rəqabət

dözümlü məhsullar çıxarılmasında və reallaşdırılmasında böyük müvəffəqiyyətlər qazanırdılar. Məhz bu dövrlərdə Yaponiya dünya bazarında bir çox müasir sənaye məhsulları üzrə birinciliyi əlinə ala bildi. Bunun əsas səbəblərindən biri ABŞ-dan fərqli olaraq Yaponiya hökumətinin kiçik müəssisələri daha çox himayə etməsi və çevik istehsal xarakteristikasına malik xırda və kiçik müəssisələr formalaşdırması idi.

Müəssisələrin ölçüsü və onların tərkibində kiçik müəssisələrin yeri, ilk növbədə, ölkə miqyasında iqtisadiyyatın idarə olunması səviyyəsindən asılı olur. Hazırkı vəziyyət kiçik müəssisələrə diqqətin artırılmasını tələb edir. Ən mühüm məsələ isə iri, orta və kiçik müəssisələrin optimal uyğunlaşdırılması və qarşıya qoyulan məqsədə çatdıra bilən müəssisələr silsiləsi yaratmaqdır.

Kiçik müəssisələrə olan münasibətin yaxşılaşması aşağıdakılarla izah oluna bilər:

1. İri müəssisələrin sərbəst bazar iqtisadiyyatı şəraitində ortaya çıxan çatışmazlıqları ilə təmərküzləşmə nəticəsində meydana çıxmış nəhəng müəssisə bir qayda olaraq böyük həcmdə məhsul istehsal etmək üçün yaradılır və onun səmərəli olması məhsulun satılması ilə şərtləşir. Məhsul satılmadıqda anbarlara yığılır və müəssisəni iflic vəziyyətə salır. Bu halın baş verməsi çox vaxt nə müəssisə rəhbərlərindən və nə də dövlətdən bilavasitə asılı olmur və azad bazar iqtisadiyyatının idarəolunmaz qanunları ilə şərtlənir.

2.Elmi-texniki inqilabların intensivləşməsi ilə müşahidə olunan elmi-texniki tərəqqinin vaxt (müddət) etibarı ilə sürətli inkişafı baş verir. Bunun nəticəsində dünya sənayesində istehsal edilən məhsulların mənəvi köhnəlmə sürəti də artır. Bu cür vəziyyətdə məhsulun yeniləşdirilməsi problemi iri müəssisələrə nisbətən kiçik müəssisələrdə daha az vaxt, daha az əsaslı vəsait qoyuluşu və material resursları sərf etməklə həll etmək mümkün olur.

3.Müasir dövrdə misli görünməmiş səviyyədə inkişaf edən texnika, texnologiya, kimyəvi, elekrokimyəvi təsir üsulları, istehsal

üsulları yaradılır. Bunların vasitəsilə məhsuldarlığı və deməli, istehsalı qısa müddətdə artırmaq olar. Bunun üçün yeni texnika istehsala tətbiq edilməlidir. Azad rəqabət şəraitində isə bu işi çox qısa müddətdə görmək zərurəti yaranır. Bu tələblərə isə kiçik müəssisələr daha çox cavab verirlər.

4. İri müəssisələri uyuşqanlılıq səviyyəsi aşağı olduğundan kiçik müəssisələrin üstün inkişafı üçün obyektiv şərait yaranır.

5. İri müəssisələr kiçik müəssisələrə nisbətən çoxlu miq-darda birdəfəlik kapital xərcləri tələb edirlər ki, bu da kapitalın özünü ödəmə müddətinin uzanmasına səbəb olur.

6.İri müəssisələr inhisarlaşma proseslərinin sürətlənməsi və rəqabətin zəifləməsi üçün şərait yaradır.

Qeyd etmək lazımdır ki, subyektiv amillərin təsiri altında forma-laşdırılan iri sənaye müssisələrinin ölkənin sosial-iqtisadi inkişafına vurduğu ziyan çoxşaxəlidir və bizim yuxarıda göstərdiyimizdən başqa digər çoxlu amil və şərtlərin təsiri altında baş verir. İqtisadçıların və iqtisadiyyatı idarə edənlərin bu cəhətdən başlıca məqsədi onları ortaya çıxarmaqdan və prosesi düzgün idarə etmək yolu ilə optimal ölçülü müəssisələrin meydana gəlməsinə nail olmaqdır.

Aparılan tədqiqat işi imkan verir ki, müasir dövrdə kiçik müəssisələrin aşağıdakı üstünlüklərini göstərək:

1.Kiçik müəssisənin tikintisi çox da böyük həcmli əsaslı vəsait qoyuluşu tələb etmir;

2.Tikinti qısa müddətdə başa gəlir, vəsaitin uzun müddətə dondurulması riski azalır;

3.Xammalın, materialın, yanacağın, hazır məhsulun daşınmasına və saxlanmasına çəkilən xərclər azalır;

4.Yerli xammal və materiallardan tam və səmərəli istifadə olunması üçün şərait yaranır. İri müəssisələr isə bu məsələnin həllinə əks-təsir göstərirlər. Belə bir xoşagəlməz halın meydana gəlməsi isə çox sadə izah olunur: kiçik və məhdud bir ərazidə yerləşən nəhəng müəssisə imkan yaratmır ki, ölkənin digər ərazisində və xüsusən də ucqar

rayonlarda mövcud olan yerli resurslardan istifadə edilsin. Əsas səbəb burada nəqliyyat xərclərinin artmasıdır. Kiçik müəssisə isə bu problemi aradan qaldırımağa imkan verir: müəssisə resurs olan rayonda tikilir.

5.Kiçik müəssisələr ölkənin məhsuldar qüvvələrinin sürətli inkişafı üçün şərait yaradır; prinsip etibarı ilə, kiçik müəssisəni ölkənin bütün rayonlarında tikmək mümkündür ki, bu da yeni iş yerləri deməkdir.

6.Ölkə ərazisində sənaye müəssisələrinin birqərar və proporsional yerləşməsi üçün şərait yaranır.

7.Rəqabət güclənir.

8.Milli sahibkarlar ordusunun formalaşması sürətlənir.

9.Elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi sürətlənir.

10.Kiçik müəssisələrdə bir qayda olaraq istehsalın çevikliliyi yüksək olur ki, bu da məhsulun qısa müddətdə yeniləşdirilməsini mümkün edir.

Qeyd etmək lazımdır ki, azad bazar iqtisadiyyatı şəraitində "kiçik müəssisə" anlayışının məzmunu dəyişmişdir. İnkişaf etmiş sənaye ölkələrinin təcrübəsi də bunu sübut edir. Bu ölkələrdə çoxlu sayda kiçik və orta ölçülü müəssisələr inşa edilir və onların qarşısında fəaliyyətdə olan nəhəng müəssisələrlə rəqabətə girmək məqsədi qoyulur. Bu ideyanın həyata keçməsi yüksək yaradıcılıq tələb edir və çox böyük risklə əlaqədardır. Elə məhz buna görə də belə müəssisələrə kiçik müəssisə yox, «riskli» müəssisələr adı verilmişdir.

Tədqiqat işi göstərdi ki, planlaşdırmada və idarəetmədə kiçik müəssisələri iki qrupa bölmək məqsədəuyğundur. Birinci qrupa tarixən meydana gəlmiş müxtəlif kiçik ölçülü emalatxana tipli müəssisələr daxildir. Belə kiçik müəssisələrdə, bir qayda olaraq, əl əməyi üstünlük təşkil edir, texniki səviyyəsi aşağı olur. Onlar kustar tipli müəssisələrdir.

İkinci qrupa daxil etdiyimiz kiçik müəssisələr son illərin məhsuludur və bir qayda olaraq, belə müəssisələr digər müəssisələrdən özlərinin yüksək texniki səviyyələri ilə, çevikliyi ilə və rəqabət dözümlü

məhsul istehsal etmələri ilə fərqlənirlər. Qeyd etdiyimiz kimi bunlar riskli müəssisələrdir və bütün inkişaf etmiş kapitalist ölkələri onların sayı ilə fəxr edirlər. Belə müəssisələr əslində elmi-texniki nailiyyətlərin istehsala tətbiqinin güzgüsünə çevrilmiş və iri, nəhəng müəssisələrlə müvəffəqiyyətlə rəqabət aparmaq qabiliyyətində olurlar.

## §8. Dünya maşınqayırma sənayesi

Maşınqayırma sənayenin əsas aparıcı sahələrindəndir. İqtisadiyyatın bütün sahələrini əmək aləti ilə təmin etdiyinə görə mütəxəssislər maşınqayırmanı sənayenin ürəyi adlandırırlar. Maşınqayırma elmtutumlu sahədir və elmi-texniki tərəqqinin bələdçisidir. O eyni zamanda elmi-texniki nailiyyətlərin sınaqdan keçirilməsi poliqonudur. Yeni texniki, texnoloji, təşkilati, estetik, erqonomik ideyalar burada yaranır, burada həyata vəsiqə alır. Əhalinin daha savadlı hissəsi burada çalışır. Maşınqayırma özü-özlüyündə 100-dən çox ayrı-ayrı istehsallar, sahələr, yarımsahələr, elmi-texniki komplekslərdən ibarətdir. Yeni iş yerlərinin yaradılmasında, yeni məhsulların bazara çıxarılmasında, ölkə iqtisadiyyatının güclənməsində, ölkənin iqtisadi müstəqilliyinin artmasında, hərbi cəhətdən güclü olmasında maşınqayırmaya alternativ sahə yoxdur. Bütün bunlarla yanaşı maşınqayırma ölkənin iqtisadi gücünün barometridir. Maşınqayırmanın səviyyəsinə görə ölkənin sosial-iqtisadi inkişafı haqqında fikir söyləmək olar: maşınqayırması yaxşı olan ölkənin inkişaf səviyyəsi də yüksək olur. Bu gün sənaye cəhətdən inkişaf etmiş ölkələrin iqtisadiyyatında aparıcı mövqe maşınqayırmaya və onunla əlaqədar olan istehsal və sosial infrastrukturlara məxsusdur. Geri qalmış ölkələr bir çox cəhətdən elə ona görə geri qalmış ölkələr adlandırılır ki, onların maşınqayırma sənayesi geri qalmışdır. İnkişaf etmiş ölkələr geri qalmış ölkənin yeraltı sərvətlərini daşıyıb aparırılar,

emal sənayesinin inkişafı haqda düşünmürlər. Belə ölkələrdə maşınqayırma bir qayda olaraq ya heç inkişaf etmir, ya da çox zəif səviyyədə olur. Bu cür hal ölkəni, əmək alətləri əldə etmək nöqteyi-nəzərincə inkişaf etmiş ölkələrdən asılı edir. Sonda bu cür asılılıq hərbi münaqişələrə də səbəb olur. İraqla Amerika arasında hərbi münaqişələrin kökündə məhz bu asılılıq və buradan irəli gələn narazılıqlar durur.

Maşınqayırma məhsulunun ticarəti də dünya ticarətində mühüm yer tutur. Dünya ixracının ümumi həcmində maşın və avadanlıqların xüsusi çəkisi 37%-ə çatır. Ümumi ixracda maşınqayıma məhsulunun xüsusi çəkisi Yaponiyada 64%, ABŞ və Almaniyada 48%, İsveçdə 44%, Kanadada 42%, təşkil edir. Maşın  və avadanlıqların dünya üzrə ticarətinin 80%-i inikşaf etmiş ölkələrin payına düşür. İnkişafda olan ölkələrin payı 10%, Rusiyanın isə dünya maşınqayırma məhsulu üzrə ixracdakı payı cəmi 1%-dən də az təşkil edir. Bu rəqəmlər bir daha sübut edir ki, maşınqayırma aparıcı sahədir, lakin hər bir istənilən ölkə onu inkişaf etdirmək iqtidarında deyil.  İnkişaf etmiş ölkələr isə bu problemin öhdəsindən uzun illərdir ki, bacarıqla gəlirlər. Bir qayda olaraq, bu ölkələrin sənayesində maşınqayırmanın xüsusi çəkisi yüksək (32-38%) olur.

Dünya maşınqayırmasının sənaye məhsulu həcmindəki xüsusi çəkisi təxminən 35% təşkil edir. Emal sənayesinin də tərkibində maşınqayırma və metal emalı üstün yer tutur. Son illər dünya emal sənayesi məhsulunun həcmində maşınqayırma və metalemalı sahəsinin xüsusi çəkisi 42-44%-ə çatmışdır.

İqtisadiyyatın bütün bölmələrində və maşınqayırmanın özündə texnoloji tərəqqi prinsipcə yeni cihaz, alət, tərtibat tələb edir. Bütün bunlar  maşınqayırmada istehsal edilir və elm-tutumlu məhsullardır. İnkişaf etmiş ölkələr elmi-tədqiqat və layihə-təcrübə işlərinə çəkilən xərclərin yarısından çoxunu maşınqayırmaya yönəldirlər. Beynəlxalq statistika maşınqayırma sənayesini beş qrupa bölür: metalyayma, qeyri-elektrik maşınqayırması, elektrik maşınqayırması, nəqliyyat

avadanlıqları və dəqiq alətlər. Maşınqayırmanın inkişafına yönəldilən vəsaitin sahələrdaxili bölüşdürülməsində bu bölmələrin inkişafına differensial yanaşılır, tələb və təklif nəzərə alınır.

Son illər elektronika və telekommunikasiya texnikasının inkişafına xüsusi fikir verilir. Elektron məhsullarının dünya ümumi daxili məhsulundakı xüsusi çəkisi getdikcə artmaqda davam edir və hazırda 5%-i ötməkdədir. Bu məhsulun üçdə birini EHM və proqram təminatı vasitələri təşkil edir. Elektron məhsulları istehsalı əsasən inkişaf etmiş ölkələrdə cəmlənmişdir. Onlar həm də bu məhsulların istehlakçılarıdır. Amerika Birləşmiş Ştatlarında hər 100 fəhlənin 60-dan çoxuna fərdi kompüter düşür. Müqayisə üçün göstərək ki, bu rəqəm Almaniyada 30, Yaponiyada isə 20-dir. Üstün sürətlə inkişaf edən digər maşınqayırma sənayelərinə avtomobilqayırma, nəqliyyat vasitələri, kənd təsərrüfatı avadanlıqları istehsalları və nəqliyyat avadanlıqları istehsalı daxildir. Maşınqayırmanın strukturu tələb və təklif, obyektiv iqtisadi qanunlara görə güclü qiymət rəqabətinə görə formalaşır.

Maşınqayırmada struktur dəyişikliklərinin mahiyyətini elmtutumlu sahələrin üstün inkişafı təşkil edir ki, bu da maşınqayırmanın zəif inkişaf etmiş, korrupsiyaya uğramış ölkələrdə inkişafını çətinləşdirir və hətta qeyri-mümkün edir. Nəticədə sosial yönümlü iqtisadi inkişaf yolu seçən ölkələr çoxlu qazanc gətirən və digər ölkələri özündən asılı vəziyyətə sala bilən maşınqayırma istehsalını öz əllərində saxlaya bilirlər.

Maşınqayırma kompleks sahədir. Onun istehsal etdiyi məhsullar müxtəlifdir. Buna görə də maşınqayırma sosial, iqtisadi, texniki, texnoloji, təşkilati, idarəetmə məsələləri həll etməklə yanaşı silah, avio və kosmik texnika, informasiya vasitələri, okean nəqliyyatı avadanlıqları istehsal etməklə hərbi-siyasi məsələləri də həll edə bilir, qlobal problemlərin həllinə güclü təsir göstərir. Bu cür və buna oxşar dünya (planet) əhəmiyyətli məsələləri həll etmək qüdrətində olan maşınqayırma məhsulunun nomenklaturası artır, assortimenti isə genişlənir. Buna görə də maşınqayırma məhsullarını şərti olaraq iki

qrupa - strateji əhəmiyyətə malik olan, ölkənin hərbi və iqtisadi təhlükəsizliyini təmin edə bilən məhsullar qrupuna (ağır maşınqayırma) və məişət texnikası (və ona oxşar) məhsullar qrupuna bölmək olar. Son illər inkişaf etmiş ölkələrdə desənayeləşmə prosesləri baş verməkdədir. Bu əsasən ikinci qrup maşınqayırma məhsulları istehsalının zəif inkişaf etmiş ölkələrdə təşkil edilməsi nəticəsində baş verir. Nəticədə maşınqayırma geri qalmış ölkələrdə nisbətən inkişaf etsə də, əsas strateji məhsulların istehsalı yenə də inkişaf etmiş ölkələrin əlində qalır.

## §9. Maşınqayırma sənayesinin coğrafiyası

Dünya iqtisadiyyatına aid ədəbiyyatlarda planetimizdə dörd əsas maşınqayırma regionu fərqləndirilir.

Birinci region - Şimali Amerikanı əhatə edir. Bu region digər regionlardan özünün aparıcı mövqe tutması ilə fərqlənir. Dünya maşınqayırmasının 30%-ə qədəri bu regionun payına düşür. Ən mütərəqqi maşınqayırma məhsullarının istehsalı (müasir kompüter texnikası, təyyarə, raket-kosmos texnikası, müxtəlif hərbi texnika və sursatlar) əsasən bu regionda istehsal edilir. Bu regionda baş mövqe ABŞ-a məxsusdur. ABŞ-ın sənayesi dünya sənayesində dayanıqlı yüksək yer tutur.

Amerika sənayesinin strukturunda aparıcı yeri maşınqayırma tutur. Maşınqayırmanın strukturu da mütərəqqidir. Elektron, elektrotexnika, avtomobil sənayeləri maşınqayırmada xüsusi yer tutur. Avio-raket-kosmik texnika istehsalı da ABŞ maşınqayırma sənayesində xüsusi yer tutur. Elektron maşınqayırmasında yüksək xüsusi çəkiyə sənaye və hərbi tə-yinatlı məmulatlar malikdir, məişət tipli əşyalar nəzərə çarpacaq dərəcədə azlıq təşkil edir. Amerika sənayesində maşınqayırmadan sonra ikinci yeri kimya sənayesi tutur. Bu sahənin müəssisələri neft və qaz çıxarılan rayonlarda yerləşdirilmişdir. Kimya sənayesinin zavodları Meksika körfəzində və ABŞ-ın şimalında daha

çoxdur. Bunun da səbəbi idxal neftin bu yerlərdən ölkəyə daxil olmasıdır. Amerika sənayesinin digər inkişaf etmiş ölkələrdən fərqli cəhəti hasilat sənayesinin yüksək inkişaf etməsidir. Amerika təbii resurslarla zəngin bir ölkədir. Burada zəngin neft, qaz, daş kömür, əlvan və qiymətli metal yataqlarıı vardır. Neft, qaz sənayesi qabaqcıl mövqelərdə da-yanır. Maşınqayırma sənayenin bütün bu sahələrini yüksək texniki-iqtisadi göstəriciləri olan avadanlıqlarla təmin edir.

Şimali Amerikanın ikinci böyük ölkəsi olan Kanada da sənaye cəhətdən yüksək səviyyədə inkişaf etmişdir. Bu ölkədə sənayenin aktiv hissəsi - emal sənayesi daha çox inkişaf edib. Bununla yanaşı bu gün Kanada nikel, uran, azbest, alüminium kimi xammal materiallarını hasil və istehsal edir və bu sahədə dünya üzrə aparıcı mövqe tutur. İstehsalın artım sürətinə görə Kanada sənayesində "xammal" resursları sənayesi - neft və qaz sənayesi qabağa gedir. Təklifin azalması və qiymətin tez-tez dəyişməsi Kanadanın xammalla əlaqədar olan ənənəvi sahələrinin müəssisələrində mənfəət normasının və kapital qoyuluşunun azalması müşahidə olunur. Eyni zamanda sənayenin aparıcı sahəsi olan maşınqayırmada yüksəliş olur: burada son zamanlar elektron, elektrotexnika kimi elmtutumlu maşınqayırma sənayesinin məhsulları nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. Ümumi maşınqayırmanın inkişafında, telekommunikasiya vasitələrinin istehsalında, kimya və avtomobil sənayesində inkişaf sürətlə gedir. Kanada sənayesinin başlıca xüsusiyyətlərindən biri də sənayenin aktivində xarici investorların payının 40%-ə çatmasıdır ki, onların da 70%-i ABŞ kompaniyalarına məxsusdur. Sənayenin digər sahələrində isə xarici kapital daha üstün yer tutur. Məsələn, kimya sənayesində fəaliyyət göstərən kompaniyaların aktivlərinin 63%-i, elektrik enerjisi sənayesində - aktivlərin 62%, avtomobil sənayesində isə bu rəqəm hətta 92% təşkil edir.

İkinci region - Qərbi, Mərkəzi və Şərqi Avropanı əhatə edir. Bu region dünya maşınqayırma məhsulunun 30%-ni verir. Bu regionda ənənəvi baza sənaye sahələrindən olan metal-lurgiya, maşınqayırma və metal emalı, kimya sənayesi yaxşı inkişaf etmişdir. Maşınqayırmanın

mikroelektronika, robototexnika, optik elektronika kimi müasir və qabaqcıl sahələrinin inkişafına görə Qərbi Avropa dünya güc mərkəzlərinin qalan ikinsindən - ABŞ-dan və Yaponiyadan geri qalır. Yüksək texnoloji məhsullar hələlik əsasən Almaniyada istehsal edilir.

Mərkəzi və Şərqi Avropa ölkələri orta səviyyədə inkişaf etmiş ölkələr qrupuna daxildirlər. İqtisadiyyatın strukturunda sənaye və aqrar sənaye mühüm yer tutur. Lakin sosialist sitseminin dağılması sənayenin bu ölkələrdə inkişafına mənfi təsir göstərdi. Son illərdə bəzi dövlətlərdə (məsələn, Polşada) iqtisadi inkişaf özünü göstərir ki, bu da sənayenin inkişafı üçün yaxşı perspektiv yaradır. Bu ölkələrin Avropa Birliyinə daxil olması prosesi başa çatdıqdan sonra sənayenin inkişafı üçün yeni imkanlar yarana bilər.

Üçüncü region - Şərqi və Cənubi Şərqi Asiyanı əhatə edir. Dünya maşınqayırma məhsulunun təxminən 25%-i bu regionun payına düşür. Region gəmiqayırma, avtomobil sənayesi, məişət elektronikası sənayesi sahəsində irəlidə gedir. Yaponiya bu regionda maşınqayırmanın inkişafını idarə edir. Elmtutumlu maşınqayırma əsasən Yaponiyada inkişaf edir. Nisbətən çox da mürəkkəb olmayan məhsulların istehsalını isə Yaponiya yeni sənaye ölkələrinə istiqamətləndirir.

Dördüncü region - Rusiya və keçmiş SSRİ-yə daxil olan respublikaların daxil olduğu regiondur. Ümumi kontekstdə bu region maşınqayırmanın demək olar ki, bütün sahələri fəaliyyət göstərən regiondur. Lakin az miqdarda elmtumlu maşınqayırma məhsulu əsasən Rusiyada istehsal edilir. İstər Rusiyada və istərsə də MDB ölkələrində mürəkkəb olmayan maşınqayırma məhsulları istehsal edilir. Ümumdünya maşınqayırma məhsulunda regionun xüsusi çəkisi 12-15%-ə çatır. Regionun maşınqayırma sənayesi əsasən Rusiyada yerləşmişdir. Bu ölkədə raket-kosmik texnika istehsalı, aviasiya, maşınqayırma və məişət elektronikası yüksək səviyyədə inkişaf etmişdir.

Gəmiqayırma sənayesi maşınqayırmanın mühüm sahəsidir. 1960-cı illərdə sənayenin bu sahəsi sürətlə inkişf etməyə başlamışdı. Səbəbi

də “ucuz” neftin dənizlə daşınmasının artması və müvafiq olaraq iri tutumlu tankerlərin istehsalının artması idi. Lakin energetik böhran başlayandan sonra yüksək tutumlu tankerlərə olan tələbat azaldı. Bu dövrlərdə gəmiqayırma sənayesi öz coğrafi mövqeyini dəyişmədi. Məhsul daha çox yeni inkişaf etmiş ölkələrdə istehsal edilirdi. Cənubi Koreya bu sahədə dünyada Yaponiyanı geridə buraxıb birinci yerə çıxdı. Gəmiqayırma Braziliyada, Argentinada, Meksikada Çilidə və Tayvanda inkişaf etməkdədir.

Dünya maşınqayırmasını üç qrupa bölmək olar: 1) ümumi maşınqayırma (dünya maşınqayırma istehsalında bu maşınqayırmanın xüsusi çəkisi 37-34% təşkil edir); 2) nəqliyyat maşınqayırması (33-35%), 3) elektrotexnika da daxil olmaqla elektronika sənayesi (30-31%). Təhlil göstərir ki, son illər bu nisbətlər dəyişilir, nəqliyyat maşınqayırmasının xüsusi çəkisi nisbətən azalır. Elektrotexnika sənayesinin inkişaf tempi isə yüksəlir. Ümumi maşınqayırma sənayesinin həcmi uzun illərdir ki, nisbi dəyişməz vəziyyətdə qalmaqda davam edir. Qeyd edək ki, ümumi maşınqayırma sənayesinin əsas məhsullarına ilk növbədə müxtəlif avadanlıqlar, dəzgahlar daxildir. Kənd təsərrüfatı üçün maşın və avadanlıqlar istehsalı və bu tipli çox da mürəkkəb olmayan maşınqayırma məhsullarının istehsalı inkişafda olan ölkələrə tərəf istiqamət götürməkdədir.

Avtomobil sənayesi 50 ilə yaxındır ki, dayanıqlı sürətlə inkişaf edir. 1950-ci ildə dünya üzrə istehsal edilən avtomobillərin sayı 10 milyon ədəd təşkil edirdisə 1990-cı illərin ortalarında bu rəqəm 50 milyon ədədə çatmışdır. Avtomobil istehsalının coğrafiyası da dəyişir. 1990-cı ildə avtomobil istehsalında dünyada birinci yerə Yaponiya çıxdı. İkinci yerdə ABŞ durdu. Son illərdə avtomobil istehsalı nəzərə çarpacaq dərəcədə yeni sənaye ölkələrində (Cənubi Koreya, Braziliya) və keçid dövrü keçirən ölkələrdə (Polşa) artmağa başlamışdır.

# IX FƏSİL. ELMİ-TEXNİKİ TƏRƏQQİ VƏ DÜNYA İQTİSADİYYATI

## §1. Elmi-texniki tərəqqinin məzmunu

İstər bütövlükdə dünya iqtisadiyyatının və istərsə də onun yarımsistemləri olan ayrı-ayrı ölkələrin intensiv inkişafında qlobal əhəmiyyətli tədbirlər işləyib hazırlamaq və istehsala tətbiq etmək mühüm rol oynamışdır. Dünya miqyasında elmi-texniki tərəqqi (ETT) sahəsində görülən işlər, aparılan tədqiqatlar bu cür tədbirlərdəndir. Əslində dünya miqyasında ölkələrin iqtisadi inkişaf cəhətdən zəif - güclü, kasıb-varlı, inkişaf etmiş, inkişaf edən kimi qruplaşdırılmasının material əsasını ETT-ni təşkil edir. Bu gün planetimizdə inkişaf elmiş ölkələrin hamısı ETT-ni sürətləndirmək yolu ilə müvəffəqiyyətlər əldə etmiş və getdikcə digər ölkələrə nisbətən üstün inkişaf etmişlər. Müasir dövrdə ETT dünya iqtisadiyyatının xarakterik xüsusiyyətlərini, ticarətin məğzini, ölkələr və regionlar arasında qarşılıqlı əlaqələrin mahiyyətini təyin edir. Ölkələrin güclü və gücsüzlüyünü də ETT ortaya çıxarır. İxrac və idxalı da o təyin edir. Elmi kəşflər və ixtiralar qlobal miqyasda istehsal elementlərində, məhsul istehsalında, əhalinin istehlakında materiallaşdıqca cəmiyyətdə köklü sosial-iqtisadi dəyişikliklər meydana gətirir, qloballaşma, intensivləşmə, sənayeləşmə, beynəlmiləlləşmə proseslərini sürətləndirir və ən başlıcası isə onları dönməz edir. Rəqabətdə qalib çıxmaq da öz əsasını buradan götürür. İnkişaf etmiş ölkələrin və ilk növbədə Yaponiyanın, ABŞ-ın, Almaniya Federativ Respublikasının və digər ölkələrin dünya bazarında əldə etdikləri müvəffəqiyyətlər də bilavasitə ETT, onun məqsədyönlü sürətləndirilməsi ilə əlaqədardır.

ETT-nin dünya iqtisadiyyatına təsirinin ilk həlqəsi lokal və qlobal miqyasda baş verən sahibkarlıq fəaliyyətidir. ETT-nin istehsala bilavasitə təsiri də sahibkarlıq fəaliyyəti çərçivəsində dünya təsərrüfat miqyasındakına nisbətən daha əyani görünür. Elə buna görə də dünya iqtisadiyyatına aid yazılarda ETT-nin həlledici roluna lazımi diqqət

yetirilmir, hesab edilir ki, bu firmaların işidir, sahibkarların fəaliyyət dairəsinə aiddir. Əslində isə dərsliklərdə və dərs vəsaitlərində çox yer verilən “dünya bazarı”, “ticarət əlaqələri”, “idxal”, “ixrac”, “beynəlxalq əlaqələr”, “Qlobal problemlər”, “qlobalizasiya” və digər bu tipli çox əhəmiyyətli və prinsipial məsələlərin hamısı ETT-yə nisbətən ikincidirlər. ETT bu proseslərin meydana gəlməsinə və sürətlənməsinə səbəb olan qlobal amildir. Bunları nəzərə alaraq ETT-nin mahiyyətinə kitabda yer ayırmağı məsləhət bildik.

Dünya miqyasında iqtisadi inkişafı və istehsalın səmərəliliyinin yüksəldilməsi məsələsinin həlli bir sıra amil və şərtlərdən asılıdır. Lakin son nəticədə səmərəli təsərrüfat fəaliyyətinə yol istehsal elementlərindən keçir. Ona görə ki, istehsal elementlərində (əmək alətində, əmək cismində və əməyin özündə) köklü mütərəqqi dəyişikliklər əldə edilmədən səmərəliliyi yüksəltmək mümkün olmür. İstehsalın texniki və texnoloji bazası daim inqilabi dəyişikliklərə məruz qalmalıdır ki, ictimai əmək məhsuldarlığı cəmiyyətin tələb etdiyi səviyyəyə qədər yüksələ bilsin. Buna görə də tarixən elmin və texnikanın tərəqqisi dünya yarımsistemləri inkişafının bütün pillələrində - istər sosial-iqtisadi və istərsə də siyasi-hərbi məsələlərin həllində başlıca rol oynamışdır.

Keçmiş dövrlərə nisbətən müasir dövrdə elmi-texniki tərəqqi ölkə və regionların inkişafına bu vaxta qədər görünməmiş güclü təsiri və istehsalın səmərəli inkişafında və intensivləşdirilməsində oynadığı həlledici rolu ilə fərqlənir.

Texniki tərəqqi mütərəqqi əmək cismi və əmək alətlərinin yaradılması ilə nəticələnir. Lakin müasir dövrdə yaradılan hər hansı bir yeni texnika mütərəqqi sayılmır. Qabaqcıl Qərb ölkələrinin və xüsusilədə elmdə öz inqilabi nailiyyətləri ilə insanları heyrətə gətirən Yaponiyanın təcrübəsi göstərir ki, indi ancaq elmtutumlu texnika mütərəqqi hesab edilə bilər. Ancaq elmtutumlu texnikanın tətbiqi istehsalda inqilabi dəyişikliklər yarada bilər və bu cür istehsallarda rəqabətə dözümlü məhsullar istehsal oluna bilər. Həm elmi, həm də

texnikanın tərərqqisi onların tədricən inkişafı ilə inqilabi inkişafının cəmi kimi baş verir. Buna görə də elmi-texniki tərəqqi anlayışının mahiyyətini açmaq üçün ilk növbədə elmin və texnikanın tərəqqisini bir qanunauyğun proses kimi dərindən mənimsəmək lazımdır.

Elm təbiətin və cəmiyyətin obyektiv qanunları haqqında insanların bilikləri məcmusudur. Bu bilikləri toplayan və sistemləşdirən insanların əməli fəaliyyəti də "elm" anlayışına daxildir. Təbiətin və cəmiyyətin obyektiv qanunları haqqında məlumatları insanlar toplayır və tədricən onları öyrənirlər və müəyyən elmi nəticələr çıxarırlar. Çıxarılan bu nəticələr obyektiv qanunlar haqqında tam və natamam biliklər əldə etməyə imkan verə bilər. Təbiətin və cəmiyyətin obyektiv qanunlarını tam mənada dərk  etmək və onlardan təcrübədə istifadə etmək çox mürəkkəb bir məsələdir.

Elm özünün tərəqqisində iki mərhələni keçir. Birinci mərhələdə elm tədricən inkişaf edir, təbiətin və cəmiyyətin bu və ya digər qanunauyğun proseslərini yavaş-yavaş öyrənir. Lakin belə tədrici (evalyusiya) inkişaf müəyyən bir dövrü əhatə edir. Sonrakı inkişaf üçün yeni əsas (baza) yaranmalıdır. Belə yeni əsas elmin inkişafının ikinci pilləsində - inqilabi pilləsində yaranır. Birinci pilləyə nisbətən ikinci inqilabi pillə qısa bir müddətdə (anda) baş verir. Bunun nəticəsində elmi biliklər daha da zənginləşir. Belə zənginləşmiş əsas üzərində elm yeni inkişaf xəttinə düşür və təzədən elmin (bu yeni əsas üzərində) tədricən (evalyusiya) inkişafı başlayır... Deməli, belə nəticə çıxarmaq olar: elmin tərəqqisi onun tədricən (evalyusiya) və inqilabi inkişafının məcmuudur. Elmin tədricən inkişaf pilləsində onun inqilabi inkişafı üçün zəmin hazırlanır.

Evalyusiya inkişafı qısa müddətdə başa çatırsa elmin tərəqqisi də bir o qədər sürətlənir. Başqa sözlə desək, baxılan dövrdə elmin tərəqqisi bu dövrdə elmdə baş verən inqilabların sayı ilə şərtləşir. Elmi kəşflərin sayı artdıqca elmin tərəqqisinin sürətlənməsi üçün şərait yaranır.

Müasir dövrün xarakterik cəhəti elmi inqilabların intensivliyindədir. Elm özünü məhsuldar qüvvə kimi göstərir və istər

dünya miqyasında və istərsə də ayrıca götürülmüş bir dövlətdə sosial-iqtisadi inkişafa güclü təsir göstərir. "İctimai inkişafın ümumi mənəvi məhsulu", "Ümumi ictimai bilik", "Ümumi intellekt" olan elm müasir dövrdə sistemləşdirilmiş biliklər toplusunun qoruyucusundan istehsalın tərəqqisinin mühüm elementinə çevrilmişdir və eyni zamanda bu tərəqqini sürətləndirmək üçün nə lazımdırsa edə bilir. Elm məhsuldar qüvvəyə çevrilmişdir. Bu çevrilmə elmin əmək cisimlərinin və əmək alətlərinin yeni növlərinin yaradılması və fəaliyyətdə olanlarının təkmilləşdirilməsinə və istehsalın texnologiyasına aktiv təsir etməsi ilə xarakterizə olunur.

Bazar iqtisadiyyatına keçid şəraitində elmi-texniki tərəqqini və xüsusən müasir dövrdə elmin başlıca xüsusiyyətlərini bilmək lazımdır. Ona görə ki, bu fərqləndirici cəhətləri bilmədən elmi bazar münasibətləri baxımından inkişaf etdirmək mümkün deyil. Bəs bu fərqləndirici cəhətlər hansılardır.

İlk növbədə göstərmək lazımdır ki, müasir dövrdə elmdə sənayeləşmə gedir. Bu o deməkdir ki, keçmiş dövrlərə nisbətən indiki zamanda elmin inkişafı çoxlu miqdarda ən yeni cihazlar, qurğular, dəzgahlar, alətlər və tərtibatlar tələb edir. Sadə hesablamalar göstərir ki, indi elmin fondtutumu səviyyəsi sənaye məhsulunun fondtutumu səviyyəsindən çox da geri qalmır. Deməli, buradan belə nəticə çıxır ki, müasir dövrdə güclü və yüksək texniki səviyyəyə malik elmi-texniki potensial olmadan elmi inkişaf etdirmək mümkün deyil.

Fərqləndirici cəhətlərdən biri də elmin kollektivləşməsi, beynəlmiləlləşməsi və qloballaşmasıdır. Bunun əsas mahiyyəti ondadır ki, elm keçmişdə olduğu kimi bir-iki dahi tərəfindən (məsələn, Arximed və Nyutonun məşhur kəşflərində olduğu kimi) yox, elmin müxtəlif sahələrinin tətbiqi ilə məşğul olan müxtəlif kollektivlər tərəfindən bütün ölkələrin iştirakı ilə inkişaf etdirilə bilər. Əyanilik üçün göstərək ki, hazırda Azərbaycan Respublikasında elmin və texnikanın inkişafı ilə məşğul olan onlarla elmi qurumlar fəaliyyət göstərir. Respublikanın elm sahəsində əldə etdiyi nailiyyətlərin səviyyəsi bütün bu qurumların

səmərli işindən asılıdır. Ən böyük elmi nailiyyət bütün elmi-tədqiqat ocaqlarının əməli işi nəticəsində əldə edilə bilər. Bu elmin kollektivləşməsinin bir tərəfidir. Onun digər tərəfi bir elmi məsələnin müxtəlif institutlar tərəfindən öyrənilməsi zərurətindən doğur. Məsələn, əldə edilmiş yeni materialların kimyəvi xassələrini Elmlər Akademiyasının Kimya İnstitutu, fiziki xassəsini Fizika İnstitutu öyrənir. Əgər Fizika İnstitutu böyük müvəffəqiyyətlə işləsə belə və məsələn, Uimya institutunun kollektivi öz işinin öhdəsindən vaxtında gələ bilməsə (yeni maddənin bütün kimyəvi xassələrini vaxtında öyrənə bilməsə), onda qarşıya qoyulan ümumi məsələ - yeni materialın əldə edilməsi, mənimsənilməsi və geniş miqyasda istehsala tətbiq edilməsi məsələsi vaxtında həll edilməz.

Göründüyü kimi, elmi nailiyyətləri istehsala gecikmədən tətbiq etmək üçün konkret elmi məsələnin həlli ilə məşğul olan bütün kollektivlərin səylə və yaradıcılıqla işləməsi vacibdir. Əks təqdirdə elmin inkişafı ləngiyə bilər. Elmin kollektivləşməsinin mahiyyəti də bundadır. Bir kollektivin (şəxsin) yaxşı işi elmin tərəqqisi üçün kifayət etmir. Keçmişdə isə bu kifayət edirdi. Məsələn, Papov radio sahəsində kəşfini özü etmişdir. İndi isə müəyyən elmi nailiyyətin əldə edilməsi üçün əksər hallarda müxtəlif ixtisasa və biliyə malik bir çox şəxslərin (kollektivlərin) iştirakı vacibdir. Proseslərin qloballaşdığı indiki dövrdə isə elmin inkişafı üçün bütün ölkələrin elmi fəaliyyətini məqsədyönlü koordinatlaşdırmaq tələb olunur.

Müasir elmin inkişafının mühüm fərqləndirici cəhətlərindən biri də onun riyaziləşməsidir. Elmin riyaziləşməsi öz əksini onda tapır ki, konkret obyektə malik natural eksperiment getdikcə daha çox varlığı ümumi şəkildə təsvir edən riyazi modellərin tədqiqi ilə əvəz edilir. Riyaziyyatsız elm lazımi səviyyədə inkişaf edə bilməz. Geniş miqyasda elektron - hesablama maşınlarının yayılması elmin riyaziləşməsi prosesini daha da sürətləndirir.

Texniki tərəqqi - əmək vasitələrinin, əmək cisminin və istehsalın texnologiyasının irəliyə doğru, arasıkəsilmədən mütərəqqi dəyişməsi, qanunauyğun obyektiv prosesdir. O istehsalın səmərəliliyinin amilidir.

Elmin inkişafı kimi, texnikanın inkişafı da iki formada - evalyusiya (tədricən inkişaf) və inqilab (keyfiyyətcə dəyişilmə, partlayış, sıçrayış) formalarında baş verir. Texnikanın tədricən inkişaf dövrü müxtəlif ola bilər. Evalyusiya dəyişmələrinin vaxt uzunluğu cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsindən və təsərrüfat mexanizminin vəziyyətindən asılıdır. Məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksək, təsərrüfat mexanizmi isə mükkəməl olarsa, onda texnikanın evalyusiya inkişaf dövrü qısala bilər. Əhatə etdiyi dövrdən asılı olmayaraq evalyusiya müddətində əmək vasitələrində tədricən təkmilləşmələr gedir: texnika daha mükəmməl olur, məhsuldarlığı artır, texniki parametrləri yaxşılaşır və s. Göstərmək lazımdır ki, elmdə olduğu kimi, texnikada da evalyusiya inkişafı inqilabi inkişafla başa çatır, lakin konkret olaraq əmək vasitəsinin tərəqqisi dayanmır: texnikada inqilab baş verdikdən sonra yeni əsas üzərində təzədən onun tədricən inkişafı başlayır və yeni inqilabi dəyişmənin əmələ gəlməsi üçün zəmin hazırlayır. Deməli, elmdə olduğu kimi texnikada da tədrici inkişaf inqilabi dəyişikliklərlə nəticələnir, sonradan tam yeni, mütərəqqi əsas üzərində yenidən tədricən inkişaf başlayır və yeni inqilabi dəyişikliklər baş verir və bu tsikl daim təkrar olunur.

Müasir dövrdə belə prosesin getməsini çoxlu misallar təsdiq edir. Məsələn, hazırda bütün sənaye sahələrində geniş tətbiq edilən elektron-hesablama maşınların (EHM) dördüncü və beşinci nəsli, onların ilk dəfə yaradılmış birinci nəslinin evalyusiya inkişafının nəticəsidir. Lakin göstərmək lazımdır ki, EHM ilk nümunələri (birinci nəsli) hesabalma texnikasında baş verən inqilabın nəticəsi idi. Lakin EHM birinci nəslinin təkmilləşdirilməsi onların ikinci nəslinin meydana çıxmasına, sonrakı təkmilləşmələr isə üçüncü, dördüncü və s. nəslinin meydana gəlməsinə səbəb olmuşdur.

Əslində EHM yeni modelləri süni intellektə malik çox “savadlı” və “ağıllı” maşınlardı. Bu EHM-də baş verən yeni inqilabi çevrilişdir. Bundan sonra, görünür EHM-nı sonrakı nəsillərin təkmilləşdirilməsindən söhbət getməlidir: yeni əsas üzərində - EHM yeni qəbiləsi əsasında yeni evalyusiya inkişafı başlanacaq və EHM texnikasından yeni inqilabi çevrilişin baş verməsinə qədər davam edəcəkdir.

Göstərdiyimiz bu misal bir daha sübut edir ki, texniki tərəqqi irəliyə doğru aramsız hərəkət edən bir prosesdir ki, onun da əsas tərkib hissələrini texnikanın tədrici (evalyusiya) inkişafı ilə inqilabi inkişafı təşkil edir. Bu prosesi tarixi nöqteyi-nəzərincə izləsək, görərik ki, cəmiyyət miqyasında texnikanın tərərqqisi tsiklik xarakter daşıyır. Bu o deməkdir ki, bəşər tarixində daim belə bir proses baş verir: evalyusiya (tədricən) dəyişikliklər inqilabi dəyişikliklərlə (çevrilişlərlə) əvəz olunur, sonra isə yenə də mütərəqqi  əsas üzərində evalyusiya dəyişiklikləri başlayır və tsikl təkrar olunur. Bu qanunauyğun, obyektiv proses cəmiyyətin tələbatlarından və bu tələbatları tam və nisbətən az ictimai xərclərlə ödəmək zərurətindən doğan və sonu olmayan bir prosesdir. Məsələnin tam aydın olması üçün texnika və texnologiyada baş verən evalyusiya və inqilabi dəyişikliklərə aid bir əyani misal da göstərək.

Məlumdur ki, maşınqayırma sənayesində istehsalın, texnologiyanın əsasını emal əməliyyatları təşkil edir. Müxtəlif mexaniki emaletmə üsulları çoxdan mənimsənilmiş və istehsala tətbiq edilmişdir. Lakin maşınqayırma məhsulunun keyfiyyətinə olan ictimai tələbatların, istehsalın səmərəliliyinin köklü surətdə yüksəldilməsi, emal üsullarının təkmilləşdirilməsini qarşıya aktual bir problem kimi daim qoymuşdur. Məlum texniki emal üsulları tədricən təkmilləşdirilmiş (texnologiyanın evalyusiya inkişafı) və öz son həddinə çatmışdır. Təcrübə göstərir ki, emal üsullarının bundan sonra evalyusiya təkmilləşmələri köklü surətdə iqtisadi nəticə vermir. Buna görə də prinsipcə yeni xüsusiyyətlərə malik emal üsulları yaranması zərurəti meydana gəldi. Fizika, kimya

elmlərində baş verən inqilabi kəşflər bu məsələni həll etmək üçün şərait yaratdı və prinsipcə yeni emal üsulları meydana gəldi. Metalların elektroqığılcım, elektroimpuls, elektrokimya, ultrasəs və s. emal üsulları belə üsullardandır. Hazırda maşınqayırma istehsalında elektrolit pardaxlama, kimyəvi frezləmə, elektroboşaltma, elektrokimyəvi, ultrasəs üsulları ilə metalların emal edilməsi xəyal deyil, adi həqiqətə çevrilmişdir. Metalların inqilabi emal üsullarına onların plazma ilə emal edilməsi üsulları da daxildir. Bu göstərdiyimiz emal üsullarının inqilabiliyi ondadır ki, onlar tam yeni elmi-texniki prinsiplərə əsaslanırlar. Deməli, mexaniki emal üsullarının kimyəvi, fiziki, elektrik emal üsullarına keçilməsi texnologiyada baş verən inqilabi dəyişikliklərdir.

Beləliklə də, elmin və texnikanın tərəqqisi evalyusiya dəyişmələri və inqilabi dəyişmələr formasında baş verir. Elmi-texniki tərəqqinin sürətləndirilməsində hər iki formanın əhəmiyyəti böyükdür. İstehsalın səmərəliliyinə təsir etməsi baxımından isə həlledici rol inqilabi dəyişmələrin payına düşür. Ona görə ki, məhz texnikada və texnologiyada inqilabi çevrilişlər ictimai əmək məhsuldarlığını köklü surətdə, cəmiyyətin tələb etdiyi səviyyədə yüksəldə bilir. Lakin elmin və texnikanın inqilabi çevrilişlərə məruz qalması və bu prosesin intensivləşdirilməsi nöqteyi-nəzərincə onların inkişafının evalyusiya forması və evalyusiya müddəti mühüm rol oynayır. Evalyusiya dövrü qısaldıqca elmdə və texnikada inqilabi çevrilişlər tez-tez baş verir. Deməli, elmin və texnikanın inqilabi çevrilişlərə məruz qalması və bu prosesin intensivləşdirilməsi nöqteyi-nəzərincə onların inkişafının evalyusiya forması və evalyusiya müddəti mühüm rol oynayır. Evalyusiya dövrü qısaldıqca elmdə və texnikada inqilabi çevrilişlər tez-tez baş verir. Deməli, elmin və texnikanın tərəqqisini sürətləndirmək üçün əsas şərt onların tədrici (evalyusiya) inkişaf müddətinin (dövrünün, vaxtının) maksimum qısaldılmasıdır.

Elmin və texnikanın tərəqqisi sonsuz bir prosesdir. Onun obyektiv əsasını insanların tələbatları və bu tələbatların sürətlə artması təşkil edir.

Məsələ burasındadır ki, hər hansı bir dövr-də cəmiyyətin öhdəsində olan istehsal vasitələri tələbatları ancaq müəyyən müddətdə ödəyə bilir. Vaxt keçdikcə fəaliyyətdə olan əmək alətləri və əmək cisimləri durmadan artan tələbatları ödəyə bilmir. Cəmiyyətin yeni üstün tələbatlarını dolğun şəkildə ödəmək üçün daha müəkəmməl, daha məhsuldar istehsal vasitələrinin yaradılması zərurəti meydana çıxır. Elə bir dövr yaranır ki, əldə olan istehsal vasitələrinin köməyi ilə cəmiyyətin bu və ya başqa məhsullara olan tələblərini ödəmək mümkün olmur. Yeni texniki vasitələrin tapılmasına, istehsal edilməsinə və sənayenin və xalq təsərrüfatının müxtəlif sahələrində tətbiq edilməsinə ehtiyac artır. Bu da texnikada inqilabi çevrilişləri zəruri edir. Bu zəruriyyət prinsipcə yeni texnikanın yaradılması nəticəsində həll edilir. Bu proses arasıkəsilmədən davam edir. Elə buna görə də bəşəriyyət tarixində çoxlu elm və texniki inqilablar baş vermişdir və bu proses indi də davam edir.

Texnika öz inkişafında çox sadə dildə desək, primitiv daş alətlərdən indi istehsala geniş tətbiq edilən və süni intellektə malik EHM-ə qədər uzun və mürəkkəb yol keçmişdir. Texnikada baş vermiş inqilablara çoxlu misallar çəkmək olar. Öz dövründə daş alətlərin meydana gəlməsi inqilab idi. Sonralar daş alətlərin başqa materiallardan (dəmirdən, poladdan, müxtəlif bərk alətlərdən və s.) hazırlanan alətlərlə əvəz edilməsi də texnikada baş verən inqilab idi. XVIII əsrin ikinci yarısında buxar mühərrikinin yaranması və istehsala tətbiq edilməsi, XIX əsrin axırı və XX əsrin əvvəllərində elektrik və daxili yanma mühərriklərinin meydana gəlməsi də texnikada baş verən inqilablardır. Müasir dövrdə texnikada baş verən inqilablar mürəkkəb və çoxşaxəli bir prosesə çevrilmişdir. Bu prosesin əsas cəhəti texnikanın kinematik quruluşunun dəyişməsi və prinsipcə yeni həlqələrinin - kibernetik proqramlaşdırılmış qurğuların, idarəedici və nəzarətedici həlqələrinin yaradılması və inkişaf etdirilməsidir. Məhz belə həlqələrin meydana gəlməsi cəmiyyətin çoxdankı arzusunu - avtomatlaşdırılmış istehsalların yaradılmasını reallaşdırmağa imkan vermişdir. Belə texniki inqilabın

nəticəsində insan hər cür yekcins, yaradıcı olmayan işləri yerinə yetirməkdən xilas olur.

İnkişaf etmiş və yeni sənaye ölkələrində əldə edilən müvəffəqiyyətlərin əsasında emal sənayesi durur. Xüsusən də maşınqayırma onlar üçün mühüm rol oynayır. Kim dünya bazarına daha çox və daha keyfiyyətli maşınqayırma məhsulu çıxara bilirsə o ölkə daha sürətlə inkişaf edir. Bazara rəqabət dözümlü maşınqayırma məhsulu çıxarmaq, reallaşdırmaq və çoxlu mənfəət əldə etmək isə ilk növbədə elmi-texnika istehsal tsiklindən baş çıxarmağı tələb edir.

Elmin və texnikanın tərəqqisi son nəticədə istehsalın tərəqisinə səbəb olmalıdır. Buna görə də "elmi-texniki tərəqqi" anlayışı ilə yanaşı "elmi-istehsal tərəqi" və "istehsalın tərəqqisi" anlayışları də fərqləndirilməlidir. Bunun böyük əhəmiyyəti vardır. Məsələ burasındadır ki, elmin və texnikanın tərəqqisi cəmiyyətə ancaq o zaman səmərə verə bilir ki, həmin vaxt əldə edilən nailiyyətlər istehsala tətbiq edilmiş olsun. Əgər elmi və texniki nailiyyətlər istehsala tətbiq edilmirsə, onda onlar nailyiyət olaraq qalırlar, səmərə isə vermirlər.

Bundan başqa, elmi və texniki nailiyyətlər istehsala vax-tından gec tətbiq edilə bilər. Bu zaman yeni texnikanın verə biləcəyi səmərə azalır. Ən böyük səmərə elmi və texniki nailiyyətləri istehsala gecikmədən tətbiq edildikdə əldə edilir. Lakin bu halda da istehsalın tərəqqisindən danışmaq olmaz. Ona görə ki, bir neçə mütərəqqi texnikanın və ya elmi nailiyyətin istehsala tətbiqi hələ orada baş verən dəyişikliklərin hansı formada - inqiabi və yaxud da tədrici (evalyusiya) formalarından getməsi haqqında heç bir rəy söyləməyə imkan vermir. Doğrudan da, əgər maşınqayırma müəssisəsində texnoloji avadanlıqlar parkı 500 müxtəlif avadanlıqlardan ibarətdirsə, onda 5-i, 10-u, 15-i mütərəqqidirsə, bu istehsalın texniki bazasında inqilabi dəyişikliklərin baş verməsi deyildir. İstehsalın tərəqqisindən, orada baş verən elmi-texniki inqilablardan o zaman söhbət gedə bilər ki, birincisi, müəssisə və birliyin sərəncamında olan texnoloji avadanlıqların heç olmazsa yarısından çoxu müasir elmi-texniki tərəqqinin nailiyyətlərinə cavab

verən mütərəqqi avdanlıqlardan ibarət olsun və ikincisi, bu müəssisədə istehsal edilən məhsulun yeniləşmə əmsalı yüksək olsun, keyfiyyəti isə ən azı dünya standartlarına cavab versin. Bu şərtlər ödənilməyən bütün hallarda istehsalın inqilabi inkişafından deyil, onun evalyusiya (tədricən) inkişafından söhbət gedə bilər.

Deməli, təcrübə üçün çox əhəmiyyətli olan məsələlərdən biri “elmi-texniki tərəqqi” anlayışı ilə “istehsalın tərəqqisi” anlayışını bir-birindən dəqiq surətdə ayırmaqdır. Əks təqdirdə istehsalın səmərliliyinə təsir edən çoxlu mənfi hallarda qarşılaşmalı oluruq. Keçmiş SSRİ sənayesinin indiki ağır vəziyyətinin səbəblərindən biri və demək olar ki, başlıcası bu olmuşdur ki, ETT ilə “istehsalın tərəqqisi” eyniləşdirilmişdir. Nəticədə ayrı-lıqda elmin və texnikanın tərəqqisi baş versə də istehsalın tərəqqisi baş verməmişdi. İstehsalın tərəqqisi üçün əsas şərt elmi-texniki nailiyyətləri kecikmədən istehsala hərtərəfli, kompleks şəkildə tətbiq etmək və bu yol ilə gedib məhsulun keyfiyyətini bazar iqtisadiyyatı tələbləri səviyyəsinə çatdırmaqdır.

Elmi-texniki tərəqqinin və istehsalın tərəqqisinin mahiyyətini açmağa onun fazalarını öyrənmək kömək edir. Elmi-texniki tərəqqi vax-ta görə baş verən bir proses kimi bir-biri ilə qarşılıqlı surətdə əlaqədar olan yeddi fazanı (sahəni) əhatə edir. Bunlara fundamental tədqiqatlar, tətbiqi tədqiqatlar, texniki işləmələr və sınaq istehsalı, yeni texnikanın ilkin mənimsənilməsi, yeni texnikanın hərtərəfli (geniş) yayılması, səmərəli istifadə edilməsi, istehsaldan çıxarılması və yenisi ilə əvəz edilməsidir. Qlobal miqyasda götürdükdə fundamental tədqiqatlarda əsas məqsəd cəmiyyətin və təbiətin obyektiv qanunları haqqında ümumelmi məlumatlar əldə etməkdir. Tətbiqi elmi-tədqiqat işlərində fundamental tədqiqatın nəticələrindən təcrübədə istifadə edilməsi yolları araşdırılır və tapılır. Tətbiqi tədqiqatların nəticələrinə əsaslanaraq texniki işləmələr fazasında prinsipcə yeni və yaxud təkmilləşdirilmiş texnikanı (məhsulu, məlumatı) yaratmaq üçün layihə, texnoloji, təşkilati-idarəetmə, təcrübi-eksperiment, yoxlama sənədləri hazırlanır. Bu fazanın mühüm və son pilləsi sınaq istehsalıdır, yəni yeni texnikanın

sınaq nümunələrinin hazırlanmasıdır ki, bunun da əsas məqsədi layihə-texnoloji işləmələrin nəticələrini real vəziyyətdə yoxlamaq, onlara lazımi düzəlişlər verməkdir. Bu mühüm fazadan sonra yeni texnikanın ilkin mənimsənilməsi fazası başlayır. Bu fazada texniki və iqtisadi mənimsənilmələr fərqləndirilir. Sonrakı fazalar yeni texnikanın məqsədyönlü miqyasında iqtisadi mənimsənilməsi və hərtərəfli yayılmasını və istehsaldan çıxarılıb yenisi ilə əvəz edilməsini əhatə edir.

Deməli, elmi-texniki tərəqqi bir proses kimi fundamental tədqiqatlardan tutmuş, yeni texnikanın ümumdövlət və ümumdünya miqyasında mənimsənilməsinə qədər olan bir dövrü (müddəti) əhatə etsə də bu prosesin ancaq beşinci fazasında istehsalda tərəqqi başlayır və yüksək iqtisadi səmərə əldə etmək üçün obyektiv imkan yaranır. Buna görə də səmərəlilik nöqteyi-nəzərincə "İstehsalın tərəqqisi" məfhumu "elmi-texniki tərəqqi" məfhumundan genişdir. Əgər elmi-texniki tərəqqi istehsalın tərəqqisinə gətirib çıxarmırsa, yəni elmi-texniki nailiyyətlər istehsal aparatında inqilabi dəyişikliklərə səbəb olmursa, dünya bazarı rəqabətinə dözümlü məhsul istehsal edilməsi ilə nəticələnmirsə, onda elmi-texniki tərəqqi prosesinin əvvəlki dörd fazalarında çəkilən xərclər lazımi səmərə vermir.

İstehsalda elmi-texniki və iqtisadi tərəqqi baş verməsini təmin etmək üçün elmi-texniki tərəqqinin göstərdiyimiz beş fazalarından başqa daha iki - altıncı və yeddinci fazalarını da göstərmək lazımdır. Elmi-texniki tərəqqinin bir proses kimi altıncı fazası ümumdövlət miqyasında mənimsənilmiş və yeni texnikanın səmərəli, vaxta və gücə görə tam istifadəsini əhatə edir. Bu fazada texnikanın bütün imkanlarından istifadə etmək və mənəvi köhnəlməsinə qədər olan dövrdə ondan daha çox səmərə əldə etmək lazımdır.

Yeddinci - sonuncu faza - yeni texnikanın fiziki və mənəvi köhnəlməsini əhatə edir. Bu dövrdə istifadə edilən texnikadan daha yüksək parametrləri ilə fərqlənən texnika meydana gəlir. Buna görə də fəaliyyətdə olan texnikanın təkmilləşdirilməsindənsə, onu daha yüksək

texniki-iqtisadi göstəricilərə malik əmək vasitəsi ilə əvəz etmək daha sərfəli olur. Beləliklə də, elmi-texniki və elmi-istehsal tsikli yeddi fazanı əhatə edir. Ancaq bu halda istehsalın tərəqqisindən söhbət gedə bilər, ancaq bu halda yüksək səmərəli xassəyə malik, uyuşqanlı istehsaldan danışmaq olur.

Həm istehsalın tərəqqisi və həm də texnikanın və elmin tərəqqisi üçün göstərdiyimiz fazalar labüddür. Lakin elmi-texniki tərəqqi üçün birinci dörd fazalar, istehsalın tərəqqisi üçün və deməli, yüksək iqtisadi və sosial səmərə əldə etmək üçün isə axırıncı üç (beşinci, altıncı və yeddinci) fazalar həlledici rol oynayırlar. Başqa sözlə desək, istehsalın tərəqqisi üçün ən vacib şərt elmi-texniki nailiyyətlər nəticəsində meydana gəlmiş yeni texnikaların ümumsənaye (ümumdövlət, ümumdünya) miqyasında iqtisadi mənimsənilməsi, tam və səmərəli istifadə edilməsi və onların vaxtında mütərəqqi texnikalarla əvəz edilməsidir. Elmi-texniki tərəqqi üçün əsas şərt isə fundamental tədqiqatların tətbiqi, tədqiqatların genişləndirilməsi və təcrübi-eksperimental işlərin gücləndirilməsidir.

## §2. Elmi-texniki tərəqqinin xüsusi istiqamətləri

Texniki tərəqqinin xüsusi istiqamətləri sənayenin ayrı-ayrı sahələrində daha çox nəzərə çarpır. Bu istiqamətlər adətən sahənin baş elmi-tədqiqat institutları, aparıcı elm xadimləri, aparıcı kompaniyaları, birlikləri tərəfindən təyin edilir və əsaslandırılır.

Elmi-texniki tərəqqinin xüsusi istiqamətləri içərisində sahə məhsulu kefiyyətinin yüksəldilməsi, assortimentinin (çeşidinin) genişləndirilməsi, məmulatların davamlılığının və etibarlığının yüksəldilməsi məsələsi böyük əhəmiyyətə malikdir. Əlbəttə, ümumi şəkildə götürdükdə məhsulun keyfiyyətinin yüksəldilməsi bütün sənaye sahələri üçün vacib hesab edilən bir məsələdir. Lakin birincisi bu məsələnin həlli yolları müxtəlif sahələrdə müxtəlifdir və ikincisi, sahə

məhsullarının keyfiyyətinin yüksəlməsi ictimai istehsalın səmərəliliyinə müxtəlif səviyyədə təsir göstərir. Buna görə də problemin - məhsulun keyfiyyətinin yüksəldilməsi – (onun rəqabət dözümlülüyünün artırılması) sənayenin müxtəlif sahələrində mövcud olduğuna baxmayaraq biz onu elmi-texniki tərəqqinin sahəvi istiqaməti hesab etməyi məqsədyönlü sayırıq.

Əsas konstruksiya materialları və xalq istehlakı malları istehsalı üçün ilkin materiallar istehsal edən sənaye sahələrində məhsulun keyfiyyətinin yüksəldilməsinin xalq təsərrüfatı üçün daha çox əhəmiyyəti vardır. Belə sahələrə qara və əlvan metallurgiya, kimya sənayesi, meşə və ağac emalı sənayesi sahələri ilk növbədə daxil edilməlidir. Məsələ burasındadır ki, elmi-texniki tərəqqinin göstərdiyimiz ümumi və müasir istiqa-mətləri ən yüksək dərəcədə inkişaf etdirilərsə belə (məsələn: əməyin elektriklə silahlanması ən yüksək səviyyəyə çatdırılsa belə) əgər metallurgiya sənayesi istehsal etdiyi məhsulun profillik səviyyəsini yüksəltməsə, çox nazik və davamlı metal təbəqələri istehsalını artırmırsa, leqirləşdirilmiş çox yüksək texniki-iqtisadi göstəricilərə malik polad istehsal etmirsə, ictimai istehsalın səmərəliliyini köklü surətdə yüksəltmək mümkün olmur. Məlumdur ki, keçmiş SSRİ polad istehsalının həcminə görə dünyada birinci yeri tuturdu. Lakin məhsul istehsalının hər vahidinə düşən metal xərcləri bu ölkədə ABŞ-da çəkilən metal xərclərindən çox idi. Metallurgiya sənayesində istehsal edilən yaymaların keyfiyyətinin pis və çeşidinin dar olması nəticəsində sənaye məhsulunun metal tutumu yüksək idi. Bir qayda olaraq metallurgiya sənayesi məhsulunun keyfiyyəti yüksələndə, çeşidi genişlənəndə maşınqayırmada emal zamanı əmələ gələn yonqarın miqdarı azalır.

Metallurgiyada məhsulun keyfiyyətini yüksəltmək üçün ilk növbədə bu məsələnin həllinə yönələn texniki tərəqqinin sahəvi istiqamətlərindən geniş istifadə edilməlidir. Belə istiqamətlərə metalla-rın termiki emalının təkmilləşdirilməsi, növlərinin, profillərinin nomenklatura və çeşidlərinin çoxaldılması, yüksək keyfiyyətli, nazik

təbəqəli metalın xüsusi çəkisinin artırılması daxildir. Texniki tərəqqinin metallurgiyaya məxsus olan bu cür istiqamətləri çoxlu miqdarda material-enerji və əmək resurslarına qənaət etməyə imkan verir.

Məhsulun keyfiyyətinin yüksəldilməsi maşınqayırmada mühüm əhəmiyyət kəsb edir. Bu həm maşınqayırmanın özü üçün və həm də bütövlükdə ictimai istehsalın səmərəliliyini yüksəltmək üçün başlıca şərtdir. Maşınqayırmanın istehsal etdiyi məhsullar sənayenin və iqtisadiyyatının bütün sahələrində əmək aləti kimi istifadə edilir. Buna görə də maşınqayırma məhsulunun davamlılığı, etibarlılığı, uzunömürlülüyü, qənaətcilliyi, məhsuldarlığı ictimai istehsalın bütün sahələrində səmərəliliyə ciddi şəkildə təsir göstərir. Buna görə də maşınqayırmada elmi-texniki tərəqqinin sahəvi istiqamətlərinə maşın və mexanizmlərin məhsuldarlığının yüksəldilməsi, etibarlılığının artırılması, avtomatlılıq səviyyəsinin yüksəldilməsi və s. bu kimi məsələlərin həllinə yönələn tədbirlər daxildir. Maşınqayırma daim öz məhsulunu yeniləşdirməli, istər özündə və istərsə də iqtisadiyyatın digər sahələrində istehsal proseslərini kompleks avtomatlaşdırmağa imkan verən, dünya standartlarına cavab verən əmək alətləri istehsal etməlidir. Maşınqayırma istehsalı uyuşqanlı olmalıdır ki, prinsipcə yeni məhsul istehsalına az vaxt sərf etməklə keçmək mümkün olsun. Deməli, uyuşqanlı avtomatlaşdırılmış sistemlərin yaradılması və istehsala tətbiqi həm maşınqayırmanın özündə və həm də digər sahələrdə elmi-texniki tərəqqinin sahəvi istiqaməti kimi özünü göstərir. Doğrudan da texniki tərəqqinin ümumi istiqamətləri olan elektrikləşdirmə, mexanikləşdirmə, avtomatlaşdırma və kimyalaşdırma yüksək səviyyədə inkişaf etdirilsə belə, əgər istehsalın uyuşqanlığı, dinamikliyi təmin edilməyibsə, rəqabətə dözümlü maşınqayırma məhsulu istehsal oluna bilməz. Bu, bir daha sübut edir ki, elmi-texniki tərəqqinin ümumi və müasir istiqamətləri ilə yanaşı konkret istehsal üçün spesifik xarakterə malik sahəvi istiqamətlərinə də diqqət artırılmalıdır.

İqtisadiyyatın konkret sahəsində istehsal edilən məhsulun və göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi böyük iqtisadi səmərə

verməklə yanaşı texniki tərəqqinin sürətləndirilməsinə də kömək edir. Məsələn, kimya sənayesində fenolun və formalinin keyfiyyətinin yüksəldilməsi fenol-formaldehid qətranın alınması əməliyyatının təxminən iki dəfə qısaldılmasına səbəb olur. Bu da öz növbəsində avtomat xətlərdən istifadə edilməsi yolu ilə məmulatın istehsal prosesini tamamilə avtomatlaşdırmağa imkan verir. Göründüyü kimi, burada elmi-texniki tərəqqinin sahəvi istiqaməti (kimya sənayesində), fenolun və formalinin keyfiyyətinin yüksəldilməsi onun ümumi istiqaməti olan avtomatlaşdırma üçün şərait yaratmış olur. Buradan belə bir mühüm nəticə çıxarmaq olar: elmi-texniki tərəqqinin sahəvi istiqamətləri onun digər istiqamətlərinə güclü təsir göstərir. Elə buna görə də elmi-texniki tərəqqinin ümumi istiqamətləri məqsədyönlü inkişaf etdirilməlidir. Başqa sözlə desək, məsələn, elektrikləşdirmə xatirinə yox, konkret sənaye sahəsinin texniki-iqtisadi probleminin elektrikləşmə həllinə, texniki tərəqqinin sahəvi istiqamətlərinin inkişafına uyğun hə-yata keçirilməlidir.

Elmi-texniki tərəqqinin ictimai istehsalın səmərəliliyini yüksəldən mühüm sahəvi istiqamətlərindən biri də istehsal proseslərinin intensivləşdirilməsidir. Məsələn, metallurgiya və kimya sənayelərində xammalın dərin saflaşdırılması, dəqiq növləşdirilməsi, xammal və materialların faydalı komponentlərinin artırılması üçün onların ilkin emal edilməsi, bu baxımdan böyük əhəmiyyət kəsb edir. Metallurgiyada oksigen və təbii qazdan, kimya sənayesində isə müxtəlif katalizatorlardan geniş istifadə edilməsi bu sahələr üçün elmi-texniki tərəqqinin sahəvi istiqaməti sayıla bilər. Bunlar texnoloji prosesi intensivləşdirirlər.

Hazırda texnoloji proseslərin intensivləşdirilməsinin maşınqayırmda böyük əhəmiyyəti vardır. Lakin təcrübə göstərir ki. planlaşdırma və idarəetmədə elmi-texniki tərəqqinin bu sahəvi istiqamətinə zəif inkişaf etmiş ölkələrdə az fikir verilir. Buna görə də istehsalın avtomatlaşdırılması, kimyalaşdırılması, elektrikləşdirilməsindən əldə edilən iqtisadi səmərə istehsal

proseslərinin müvafiq səviyyədə intensivləşdirilməməsi nəticəsində azala bilər. İnkişaf etmiş bütün ölkələrdə bu məsələyə ciddi fikir verilir. Bir sıra istehsallarda ilkin xammal və materialların digərləri ilə əvəz edilməsi texniki-tərəqqini sahəvi istiqaməti kimi çıxış edir. Bu da böyük iqtisadi səmərə verir. Məsələn, kimya sənayesinin bəzi sahələrində ilkin xammal kimi işlədilən kömürün neftlə və qazla əvəz edilməsi bir neçə texnoloji pillələri ixtisara saldığı üçün istehsalın intensivliyi artır, məhsulun maya dəyəri aşağı düşür.

Tədqiqat göstərdi ki, elmi-texniki tərəqqinin sahəvi istiqamətləri onun ümumi istiqamətləri olan avtomatlaşdırma, mexanikləşdirmə, kimyalaşdırma və elektrikləşdirmədən heç də az iqtisadi səmərə vermir. Onlar ictimai tələbatların ödənilməsində mühüm rol oynayırlar. Məsələn, sintetik spirtin, yuyucu vasitələrin və digər kimya məmulatlarının alınmasında neft və qazdan istifadə edilməsi yeyinti məhsullarından texniki məqsədlər üçün istifadə edilməsinin qarşısını alır və əhalinin yeyinti məhsullarına olan tələbatının daha dolğun ödənilməsinə şərait yaradır.

Yüngül və əlvan metallurgiyada, kimya sənayesində, istehsal aparatlarında, qurğularında, aqreqatlarında təzyiqin və hərarətin yüksəldilməsi elmi-texniki tərəqqinin sahəvi istiqamətlərindəndir. Ovuntu metallurgiyasının inkişafı və hissə, qovşaqların getdikcə daha çox hissəsinin metal ovuntulardan hazırlanması böyük iqtisadi və sosial əhəmiyyətə malikdir və maşınqayırma və metallurgiya üçün elmi-texniki tərəqqinin xüsusi istiqamətlərindəndir.

Maşınqayırmada elmi-texniki tərəqqinin mühüm xüsusi istiqaməti, metalların elektroqığılcım ilə emal edilməsi, elektrosəs və lazer şüaları ilə metalların qaynaq edilməsi kimi mütərəqqi emal üsullarının geniş tətbiq edilməsidir.

Sənayenin bir sıra istehsallarında texnoloji proseslərin arasıkəsilməməzliyinin təmin edilməsi elmi-texniki tərəqqinin sahəvi istiqaməti rolunu oynayır. Maşınqayırmada, metallur-giyada, meşə və yüngül sənayelərdə proseslərin arasıkəsilməməzliyi istehsala getdikcə

daha çox və geniş miqyasda fasiləsiz işləyən aqreqatların, kompleks texnoloji xətlərin tətbiqi nəticəsində təmin edilir ki, bu da onların məhsuldarlığının yüksəldilməsinə, məhsulun keyfiyyətinin yaxışlaşdırılmasına və ən başlıcası isə elmi-texniki tərəqqinin ümumi istiqaməti olan, avtomatlaşdırmanın inkişaf etdirilməsinə səbəb olur.

Təmiz və ifrat təmiz materialların (metalların) əldə edilməsi və istehsala tətbiqi texniki tərəqqinin sahəvi istiqamətlərindəndir. Getdikcə bu istiqamətin əhəmiyyəti artır. Məsələ burasındadır ki, təmiz və ifrat təmiz materiallar yarımkeçiricilərin, atom enerjisinin, lazer texnikasının istehsalı ilə məşğul olan yeni mühüm sahələrin inkişafını təmin edirlər. Digər tərəfdən belə materiallar ənənəvi sənaye sahələri olan metallurgiyada, maşınqayırmada, kimya və yüngül sənayedə də geniş tətbiq edilir.

Elmi-texniki tərəqqinin sahəvi istiqamətləri arasında material resurslarından tam və səmərəli istifadə edilməsi çox mühüm əhəmiyyətə malikdir. Bu istiqamət bütün sənaye sahələrində böyük əhəmiyyətə malikdir. Lakin ağac və ağac emalı sənayesində, neft və filizçıxarma sahələrində texniki tərəqqinin bu istiqamətinin daha çox əhəmiyyəti vardır. Texniki tərəqqinin sahəvi istiqaməti elə inkişaf etdirilməlidir ki, təbii resurslar yerin atında tam çıxarılsın, kompleks emal edilsin, tullantı (itkilər) olmasın.

Hər bir sənaye sahəsində elmi-texniki tərəqqinin sahəvi istiqamətlərini üzə çıxarıb onları məqsədyönlü şəkildə inkişaf etdirmək onun ümumi və ən müasir istiqamətlərinin inkişafına kömək edir və bütövlükdə elmi-texniki tərəqqinin sürətləndirilməsinə səbəb olur. Əgər elmi-texniki tərəqqinin ümumi istiqamətləri onun sahəvi istiqamətlərinin inkişafı ilə paralel aparılmırsa, onda istehsalın səmərəliliyi mümkün olan yüksək səviyyəyə çatmır. ETT-nin ümumi istiqamətlərinin inkişaf etdirilməsi nəticəsində əldə edilən səmərə, onun sahəvi istiqamətlərinin zəif inikşafının təsiri nəticəsində azalır. Məsələn, elektrikləşdirmə və mexanikləşdirmə, avtomatlaşdırma və kimyalaşdırma meşə sənayesinin və meşə emalı sənayesinin sürətlə

inkişaf etdirməyə imkan verir. Lakin ETT-nin sahəvi istiqaməti - xammalın kompleks istifadəsi məsələsi lazımi səviyyədə həll edilməzsə, emal müəssisələrində tədarük olunmuş ağacın yarısına qədəri istehsal tullantısına çevrilə bilər.

ETT-nin sahəvi istiqamətlərini nəzərə almaq müvafiq kompaniyalardan böyük səy və bacarıq tələb edir. Hansı ölkədə sahibkarlar bu cəhətləri vaxtında görə bilirlərsə, onlar da azad bazar sferasında özlərinə uyğun yer tuta bilirlər.

## §3. Elmi-texniki tərəqqi və istehsalın səmərəliliyi

Elmi-texniki tərəqqi istehsalın səmərəliliyinə güclü təsir göstərir. Ən başlıcası isə ondan ibarətdir ki, elmi-texniki tərəqqi istehsalın inetnsiv yolla inkişafını təmin edir. Bu da səmərənin daha yüksək olması üçün zəmin yaradır.

Elmi-texniki tərəqqinin istehsalın intensivləşdirilməsində və səmərəliliyinin yüksəldilməsindəki rolu çox şaxəlidir. Qeyd etmək lazımdır ki, ETT-i istehsalın səməəliliyinə özünün ümumi, xüsusi və baxılan dövr üçün ən yeni istiqamətləri üzrə təsir göstərir. Elmi-texniki tərəqqi istehsalın bütün ünsürlərinə - əmək vasitələrinə, əmək cisminə və əməyin özünə müsbət təsir göstərir, onları təkmilləşdirir və səmərəli və tam istifadə olunmaları üçün şərait yaradır. Bir qayda olaraq elmi-texniki tərəqqinin sürətləndirilməsi nəticəsində istehsal edilən məhsul vahidinin əmək, fond və material tutumları aşağı düşür, elm tutumu isə artır. Bu da istehsalın səmərəliliyinin yüksəldilməsi ilə nəticələnir.

İstehsalın səmərəliliyinə elmi-texniki tərəqqi müxtəlif istiqamətlər və formada təsir göstərir. Bu imkan verir ki, təcrübədə yaranmış konkret şəraiti nəzərə alaraq elmi-texniki tərəqqinin bu və ya digər istiqaməti və ya forması daha üstün inkişaf etdirilsin.

Dünya iqtisadiyyatı elmində elmi-texniki tərəqqinin bir neçə inkişaf forması fərqləndirilir. İstehsalın hansı elementinə daha çox təsir etməsi baxımından elmi-texniki tərəqqinin əməyə qənaət, fonda qənaət, materiala qənaət və yaxud da fond tutumlu, material tutumlu və əmək tutumlu formaları fərqləndirilir. Çox vaxt konkret istehsallarda yaranmış şəraiti nəzərə alaraq elmi-texniki tərəqqinin göstərdiyimiz formalarının əlaqələndirilməsindən əmələ gələn formalarından da istifadə edilir. Elmi-texniki tərəqqinin belə əlaqələndirilmiş formlarına əmək tutumlu - fondqoruyucu, fondtutumlu - material qoruyucu, material tutumlu - əmək qoruyucu, əmək tutumlu - fond qoruyucu və s. formaları daxildir.

Formalar üzrə elmi-texniki tərəqqinin sürətəndirilməsinin mahiyyəti istehsalın səmərəliliyinin məqsədyönlü yüksəldilməsidir. Əgər sənaye müəssisəsi işçi qüvvəsinin çox olduğu regionda yerləşirsə, müəyyən dövrdə elmi-texniki tərəqqinin əmək tutumlu formasının inkişafı məqsədəuyğun hesab olunur. Digər regionlarda deyək ki, əgər fondlara qənaət etmək daha sərfəlidirsə, onda elmi-texniki tərəqqinin əməktutumlu - fond qoruyucu forması, materiallara qənaət daha sərfəlidirsə, onun əmək tutumlu - material qoruyucu forması daha üstün inkişaf etdirilir. Əgər müəssisənin yerləşdiyi ərazidə əmək ehtiyatları çatışmırsa, onda elmi-texniki tərəqqinin əməyə qənaət formasını inkişaf etdirmək lazımdır.

Qeyd edək ki, elmi-texniki tərəqqinin bu və ya digər formasının konkret istehsal üçün seçilməsi vaxt etibarı ilə müvəqqəti xarakter daşımalıdır. Məsələn, işçi qüvvəsi artıqlığı aradan götürüldükdən sonra elmi-texniki tərəqqinin forması da dəyişilməlidir. Ümumiyyətlə götürdükdə isə elmi-texniki tərəqqinin daha çox səmərə verən istiqamət və formasına üstünlük vermək lazımdır.

Elmi-texniki tərəqqi istehsalın intensivləşdirilməsinə güclü təsir göstərir. Ümumiyyətlə götürdükdə isə elmi-texniki tərəqqi, intensivləşmə və istehsalın iqtisadi səmərəliliyi qarşılıqlı əlaqədə olurlar. Burada istehsalın səmərəliliyi elmi-texniki tərəqqinin və istehsal proseslərinin intensivləşmənin son nəticəsidir. Elmi-texniki tərəqqi bu

nəticənin əldə edilməsində hərəkətverici qüvvə, yəni amil rolunu oynayır. İntensivlşəmə isə yüksək son nəticənin əldə edilməsi üçün şərait, məhsuldar istehsal mühiti yaradır. İntensivləşmənin səviyyəsi yüksəldikcə elmi-texniki tərəqqinin inkişafı üçün, elmi-texniki tərəqqi inkişaf etdikcə intensivləşmənin yüksəlməsi üçün şərait yaranır. Bunun nəticəsində də istehsalın iqtisadi səmərəliliyi yüksəlir.

Qeyd edək ki, intesnviləşmə ilə elmi-texniki tərəqqi arasında sıx və qarşılıqlı əlaqə vardır. Lakin onları eyniləşdirmək olmaz. Çünki onların inkişaf istiqamətləri, yolları bir çox cəhətdən eyni deyildir, bir-birinin üzərinə düşmür.

Elmi-texniki tərəqqi iqtisadiyyatın bütün sahələrini əhatə edən çoxcəhətli və qanunauyğun bir prosesdir. Sənayedə bu proses öz əksini istifadə edilən maşın və mexanizmlərin, ötürücü qurğuların, alət və tərtibatların, ölçü və tənzimləyici vasitələrin hər cür mexanizmlərin sistemdə işləyən maşın mexanizmlərlə əvəz olunmasında, istehsalın robotlaşmasında, uyuşqanlı istehsalların əmələ gəlməsində və s. tapır. Texniki-tərəqqi texnikanın daim irəliyə doğru hərəkəti prosesi kimi özünün elmə məlum olan ümumi və xüsusi istiqamətləri, forma və istiqamətləri üzrə inkişaf edir. Elmi-texniki tərəqqi sürətləndikcə söz yox ki, istehsalın intensivləşməsi səviyyəsi yüksəlir. Lakin bu o demək deyildir ki, istehsalın intensivləşməsi elmi-texniki tərəqqinin inkişaf qanunları altında avtomatik, özü-özünə formalaşır. İntensivləşdirmənin ETT-nin istiqamətləri ilə üst-üstə düşən istiqamətləri ilə yanaşı təşkilati-iqtisadi və sosioloji amillərlə şərtləşən öz istiqamətləri, elmi-texniki tərəqqi nəticəsində əldə edilmiş istehsal aparatından vaxta və gücə görə tam istifadə edilməsinə və onların vaxtında təzələşdirilməsinə yönələn istiqamətlər və bunun həyata keçirilməsi üçün görülən tədbirlərlə təyin olunur. İntensivləşdirmənin, (səviyyəsinin yüksəlməsinin) öz fərdi istiqamətləri əldə olan material, əmək, enerji və resurslardan daha səmərəli, daha məqsədyönlü, daha qənaətlə istifadə edilməsinə yönəlir.

Real həyatda elmi-texniki tərəqqi öz əksini əmək alətlərində və əmək cismində baş verən dərin və çoxcəhətli dəyişikliklərdə tapır.

İstehsalın səmərəliliyini yüksəltmək üçün bu nailiyyətləri geçikmədən istehsala tətbiq etmək lazımdır. Son nəticədə işçi kollektivin sosial-iqtisadi inkişafı bu prosesin intensivliyindən bilavasitə asılı olur. Elmi-texniki tərəqqinin nailiyyətlərini istehsala daha tez tətbiq edənlər yüksək səmərəlilik əldə edirlər. Buna görə də fərdi əmək fəaliyyətinin vüsal tapdığı və ümumiyyətlə, mülkiyyətin dövlətsizləşdirildiyi indiki dövrdə elmin və texnikanın, onların əsas elmentlərinin tərəqqisinin əsas istiqamətlərini və formalarını təyin etməyin zəruriliyi artmışdır. Müəssisəni arendaya götürən və öz istehsal-təsərrüfat fəaliyyətinin son nəticələri üçün tam məsuliyyət daşıyan əməkçi kollektiv hər hansı konkret bir dövr üçün özünün texniki siyasətinin əsas cəhətlərini dərk etməlidir. Ancaq belə olan halda icarəyə götürülən müəssisə rəqabətə dözümlü məhsul istehsal etmək imkanına malik ola bilər.

İlk növbədə ETT-nin hansı istiqamətlər üzrə istehsala və yaxud da idarə edilən hər hansı bir digər obyektə təsir etdiyini araşdırmaq lazımdır. Uzun illərin təcrübəsi sübut etmişdir ki, elmi-texniki tərəqqinin istiqamətlərini üç yerə ayırmaq onun nailiyyətlərinin istehsala tətbiqini sürətləndirir.

Birinci qrupa ümumi istiqamətlər daxildir. Bu istiqamətlərə istehsalın mexanikləşdirilməsi, avtomatlaşdırılması, elektrikləşdirilməsi və kimyalaşdırılması aid edilir. Görüdüyü kimi bu istiqamətlər sənayenin bütün sahələrinə aid ola bilər. Elə buna görə də onlar texniki tərəqqinin ümumi istiqamətləri adlanır.

İkinci qrupa müəyyən dövr üçün həlledici sayılan istiqamətlər aid edilməlidir. Texniki tərəqqinin bu istiqamətləri yuxarıda göstərdiyimiz ümumi istiqamətlərlə əlaqədar olsalar da konkret bir dövr üçün prioritet istiqamət sayılır və istehsalda inqilabi dəyişikliklərə səbəb olur. Bu istiqamətlərə hazırkı dövr-də prinsipcə yeni texnikanın və texnologiyanın yaradılması və istehsala tətbiqi, istehsalın elektronlaşdırılması, kompüterləşdirilməsi, kompleks avtomatlaşdırılması, yeni materialların yaradılması və istehsala tətbiq edilməsi və s. daxildir.

Elmi-texniki tərəqqinin üçüncü istiqamətləri sahəvi xarakter daşıyır. Başqa sözlə desək, bura elə istiqamətlər daxil edilməlidir ki, onlar əsasən konkret sənaye sahəsinə aid olsun. Aydın məsələdir ki, belə istiqamətlər ayrı-ayrı sahələrdə müxtəlif göstəricilərlə xarakterizə olunurlar. Məsələn, sənayenin aparıcı sahəsi olan maşınqayırmada elmi-texniki tərəqqinin xüsusi, yəni bilavasitə ona məxsus istiqamətləri məhsulun təzələnməsinin intensivliyi, istehal edilən ümumi məhsulun həllində müasir texnika və texnologiyanın tələblərinə, dünya (beynəlxalq) standartlarına cavab verən məhsulların xüsusi çəkisinin artması, uyuşqanlı istehsallar yaratmaq üçün istehsal olunan maşın və avadanlıqlar komplekslərinin, emal mərkəzlə-rinin sayı və onların artım tempi göstəricilərin səviyyəsi ilə xarakterizə olunur.

ETT-ni sürətləndirmək, elmi nailiyyətləri gecikmədən istehsala tətbiq etmək, prinsipial yeni məhsulun kütləvi istehsalını təşkil etmək ölkələrdən çoxlu vəsait tələb edir. Artıq qeyd etdiyimiz kimi dərc olunmuş materiallara görə 1996-cı ildə elmin inkişafına ABŞ 185, Yaponiya 82, Avropa Birliyi ölkələri 76 milyard dollar vəsait xərcləmişlər. Buradan qanunauyğun bir sual meydana çıxır. Bu qədər vəsait sonralar ölkələrə hansı səmərəni verir? Bu xərclər özünü ödəyirmi? Bu suala cavab vermək üçün istehsala, ölkələrin iqtisadiyyatının strukturuna, məhsulların keyfiyyətinə diqqətlə nəzər yetirmək lazımdır. Təhlil göstərir ki, elmi-tədqiqat və layihə-təcrübə işlərinə çoxlu vəsait qoyan ölkələrdə bir qayda olaraq istehsalın texniki səviyyəsi yüksək, istehsalın özü isə çevik (yeni məhsullar istehsalına qısa müddətdə uyğunlaşa bilən) olur, iqtisadiyyatın strukturu maksimum optimal (sosial tələbatları tam və minimum ictimai zəruri xərclərlə ödəyə bilən), məhsul və xidmətlərin keyfiyyəti yüksək olur. Bu deyilənlərin Amerikanın timsalında aydın görmək olur. Texnikanın, elmin inkişafına çoxlu vəsait yönəldə bilən Amerika firmaları istehsal etdikləri məhsulların nomenklaturasını və çeşidini sürətlə dəyişməyə imkan əldə edirlər ki, bu da şirkətlərin istər daxili və istərsə də xarici bazarda möhkəm yer tutması üçün əsas şərtdir. Konkret növ məhsul

nümunəsi üçün ETT və onun sürətləndirilməsinə çəkilən xərclər firmalara iki istiqamətdə xeyir götürməyə imkan verir: birincisi bu məhsulun yeni nümunələrinin istehsalını mənimsəməklə, ikincisi istehsal edilən nümunələrin keyfiyyətini yüksəltməklə. Təhilil göstərdi ki, Amerika müəssisələri bu yolla hər il öz daxili bazarlarına ümumi kontekstdə milyonlarla yeni, modernizə olunmuş və yaxud da keyfiyyəti yaxşılaşdırılmış məhsul növləri çıxarırlar. Doğrudur, bazara çıxarılan külli miq-darda yeni və modifikasiya olunmuş məhsulların hamısı özünə şərəfli yer tuta bilmir: tələb və təklifə görə və azad rəqabət nəticəsində onların bir hissəsi istehsaldan çıxarılır. Lakin buna baxmayaraq bazarların intensiv şəkildə yeni məhsullarla zən-ginləşdirilməsi son nəticədə iqtisadiyyatın aparıcı sahəsi olan sənayedə istehsalın təzələnməsi, texnologiyanın intensivləşməsi, firma və şirkətlərin profillərinin mütərəqqi yeniləşməsi, istehsal tsiklinin qısalması baş verir. Bu yollar və üsullardan bacarıqla istifadə edən TMK- isə öz ölkələri sərhədlərindən çox-çox uzaqlarda yüksək sahibkarlıq gəlirləri əldə edə bilirlər və Amerikanın "ikinci" iqtisadiyyatını daha da gücləndirirlər.

ETT-nin sürətləndirilməsinə çəkilən xərclər yüksək səmərə verdiyinə görə, bu xərci çəkən ölkələrə rezenanas səmərə almaq imkanı yaradır. İmkan verir ki, innovasiyalar (yeniləşmə) daha qısa müddətə istehsala tətbiq edilsin və rəqabətdözümlü məhsulun kütləvi istehsalı təşkil olunsun. Belə olan halda yeniləşmənin (innovasiya) verdiyi sosial-iqtisadi səmərə ilə kütləvi istehsalın verdiyi səmərə üst-üstə düşür və rezenans səmərə əldə edilir. ETT-nin birbaşa sosial səmərəsi də olur: bunun nəticəsində yeni iş yerləri yaradılır, işlərin cazibədarlığı yüksəlir, yoruculuğu isə azalır, əmək haqqı yüksəlir.

Bütün bunları nəzərə alaraq ölkələr arasında əslində yeni rəqabət sferası meydana gəlib inkişaf etməkdədir. Buna görə də hazırkı dövrdə həm firmalar və həm də ölkələr arasında gedən əsas mübarizə elmi-texniki tərəqqi uğrunda gedən mübarizədir. Rəqabətin bu sferası getdikcə genişlənir, özünə yeni-yeni ölkələr cəlb edir. Onu da qeyd edək

ki, bu yarışda itirənlər də olur: bunlar inkişafda olan və çox zəif inkişaf səviyyəsini  saxlayan ölkələrdir. Onların ABŞ, Yaponiya, Almaniya Federativ Respublikası kimi nəhənglərlə rəqabətə girib elmi-texniki tərəqqi sahəsində qalib gəlmək üçün nə iqtisadi və nə də siyasi gücləri istənilən səviyyədə deyildir. Bu ölkələrə ilk növbədə Afrika kontingenti ölkələri, xüsusən də Mərkəzi, Qərbi və Şərqi Afrika ölkələri daxildir. Onlar indiyə qədər optimal iqtisadi inkişaf modeli tapa bilməyiblər və ixtisassız əməkdən necə gəldi istifadə etmək, dövlətin güc üsulları ilə istehsala "yuxarıdan" təzyiq etmək, əmək münasibətləri və demokratiyanı inkişaf etdirməmək, korrupsiyaya imkan yaratmaq yolunu seçməklə özlərini tamamilə inkişaf etmiş ölkələrdən asılı vəziyyətə salıblar. Onlar ETT-nin sürətləndirilməsi sahəsində passivdirlər. Dövlət başçıları bu ölkələrdə potensial imkanlarını işə sala bilən sosial-psixoloji mühüt formalaşdıra bilməmişdir.

### §4. ETT-nin idarə edilməsi sahəsində dünya təcrübəsi

İstər bütövlükdə dünya təsərrüfat sisteminin və istərsə də onun yarımsistemlərinin intensiv inkişafına elmi-texniki tərəqqi ən güclü təsiri göstərir. Lakin bu heç də avtomatik baş vermir. Dünyada toplanmış təcrübə göstərir ki, elmin və texnikanın əldə edilmiş bərabər səviyyəsində belə o ölkələr daha çox müvəffəqiyyət əldə edirlər ki, harada ETT məqsədyönlü idarə edilir.

ETT-nin idarə edilməsi səviyyəsi müxtəlifdir. Ümumi şəkildə biz elmi-texniki tərəqqini firmalar, istehsal sahələri, sexlər və iş yerləri səviyyəsində idarə edə bilərik. Bu sahibkarlara daha çox aiddir. Lakin əgər biz qlobal səviyyələrdə iqtisadiyyatın iknişafına nail olmaq istəyiriksə, onda ETT-nin dövlət, regionlar və dünya miqyasında idarə edilməsi zəruriyyətilə qarşılaşırıq. Buna görə də inkişaf etmiş ölkələrdə ETT <u>dövlət tərəfindən</u> idarə edilir.

Bir neçə dünya ölkələri ETT-nin idarə olunmasında çox sərfəli təcrübə toplamışlar. Bunların arasında Yaponiya xüsusi yer tutur. Elmi-texniki və innovasiya siyasəti Yapon dövləti tərəfindən yaradıcılıqla həyata keçirilir. Sahibkarlara dövlət təsiri buna parlaq misaldır. Hələ 40-50 il bundan qabaqlar Yaponiya hökuməti, xüsusi kompaniyalara göstərə biləcək təsir zonalarını təyin etmiş, dünyada demək olar ki, ilk dəfə bu zonalar vasitəsilə firmalarda ETT-nin sürətləndirilməsinə nail olmuşdur. Hökumət sahibkarlara "təklif", "tələb" və "mühit" zonaları vasitəsi ilə təsir göstərir. "Təklif" zonasında dövlət elmi-texniki tərəqqiyə daha çox maraq göstərən sahibkarlara maliyyə və texniki kömək təklif edir. Elmi-tədqiqat infrastrukturlarının yaradılmasına kömək göstərir. "Tələb" zonasında dövlət firma ilə elmi-tədqiqat işləri aparılması və yeni məhsulların alınması sahəsində kontraktlar bağlayır. "Mühit" sahəsində dövlət çalışır ki, sağlam vergi, patent siyasəti və digər birbaşa olmayan dövlət tənzimləmə rıçaqlarından bacarıqla istifadə etsin və bu yolla da ETT-ni sürətləndirmək üçün firmalarda maraq doğursun.

Yaponiyada dövlətin elmi-texniki və innovasiya siyasəti uzun illərdir ki, sənaye siyasətinin ayrılmaz hissəsi kimi fəaliyyət göstərir. Prioritet mövqe unikal elmi-texniki işləmələrə verilir. Unikallığın əsas kriteriyası informatika, yeni materialların yaradılması, biotexnologiya, energetika, okean resurslarının mənimsənilməsi və sair bu kimi sahələrdə texniki yeniliklər yarada bilən işləmələrdir. Yapon hökumətinin fikrincə bu cür unikal işləmələri həyata keçirmək üçün güclü stimul lazımdır ki, bunu da bazar mexanizmi sadəcə olaraq yarada bilmir. Əsas səbəb də budur ki, unikal işləmələrin tələb etdiyi vəsait və bununla əlaqədar meydana gələn riskin miqyası kompaniyaların əlində olan vəsaitdən qat-qat çox ola bilər. Vəziyyətdən çıxış yolu dövlət və onun həyata keçirdiyi iqtisadi mexanizmdir, dövlətin vəsaitidir. Dövlət əsasən perspektiv dövrlərdə reallaşa bilən fundamental tədqiqatlara çoxlu vəsait buraxır. Yapon hökuməti əsas gücünü sivil elmi-tədqiqat və layihə-təcrübə işlərinə sərf edir.

ETT-ni dövlət miqyasında idarə etmək təcrübəsi Yaponiyada hələ keçən əsrin 60-cı illərində özünün mükəmməl formasına çatmışdı. Məhz bu illərdə dövlət səviyyəsində elm-tutumlu və intensiv texnologiyalı sənaye sahələrinə dayaq olma sistemi işlənib hazırlanmışdı və müvəffəqiyyətlə həyata keçirildi. Yaponiyada ETT-nin idarə edilməsi kompaniya xarakteri daşımır. Hər gün, hər ay və hər il bu sahə dövlətin və sahibkarların diqqət mərkəzində olur. Elmi-texniki siyasət məqsədli proqramlar üzrə layihələndirilir, həyata keçirilir. 1997-ci ildə yapon hökuməti müasir ETİ-a əsaslanan uzunmüddətli (1997-2010-ci illər) iqtisadi reforma proqramı qəbul etdi. Bu proqrama görə ölkədə, sənayedə və xidmət sferasında yeni perspektiv sahələrin yaradılması nəzərdə tutulur. Belə perspektiv sahələrə informasiya texnologiyası, biotexnologiya sənayesi, aviakosmik texnologiyası və texnika, yeni enerji mənbələri və enerji texnologiyası, şəhərlərin planlaşdırılması və yenidən qurulması, ətraf mühitin qorunması kimi sahələr daxildir.

ETT-nin dövlət səviyyəsində idarə edilməsi sahəsində ABŞ-ın da diqqəti cəlb edən təcrübəsi vardır. Ümumiyyətlə götürdükdə, aparıcı kapitalist ölkələrinin hamısında ETT-də dövlət qayğısı məqsədyönlü olaraq həyata keçirilir. Bu ölkələrdə ETT-nin sistemli iqtisadi mexanizmi yaranmışdır. Bu mexanizmin mərkəzində rəqabət durur. Bazar, istehsalı və istehlakçıya xeyir gətirməyən məhsulu istehsal etməyi məsləhət görmür. Rəqabət elə formalaşdırılır ki, bazarda ETT-nin son nailiyyətlərinə daha çox uyğun gələn məhsul kütləvi formada satıla və xeyir gətirə bilir. Yeniləşməni özündə cəmləşdirən məhsula maraq artdığından ETT-nin də münasib istiqaməti inkişaf etdirilir.

ETT-nin məqsədli-proqram üsuları ilə idarə edilməsi və güclü dövlət qayğısının olması nəticəsində inkişaf etmiş sənaye ölkələrinin hamısında yenilikçi-firmalar meydana gəlib fəaliyyət göstərirlər. Bu cür firmalar əslində biliyə (yeniləşmə və ixtiralara) söykənən monopol strukturlardır. Onları digər firmalardan fərqləndirən cəhət əvvəlcə müəyyən səviyyədə riskə getmələri, sonradan biliyə yiyələnərək prinsipcə yeni məhsulun istehsalı (çox zaman kütləvi) və satışından

monopol mənfəət əldə etmələridir. Lakin bu üstünlük uzun müddət davam edə biməz. Bunu dərk edən yenilikçi firmalar məhsulun yeni modelləri üzərində intensiv iş aparırlar. Yaxşı satılan məhsulun "həyat tsikli" başa çatmamış onun bir neçə modifikasiya edilmiş yeni (perspektiv) modelləri düzəldilir. ETT isə perspektiv məhsulun keyfiyyətli istehsal edilməsi istiqamətində sürətləndirilir. Məqsədli-proqram üsulu ilə ETT-ni idarə etməyin mahiyyəti də bundadır.

Əldə edilən biliklərə sahib çıxmaq, ixtiralar, kəşflər, «Nou-hau»lar əsasında formalaşmış sahibkarlıq yeni texnika və texnologiyalar bazarının meydana gəlib fəaliyyət göstərməsinin əsas şərtidir. Kommersiya sirri də burada özünü göstərir. Bu olmasa yenilikçi firmalar yeniləşmədən istifadə etməklə çoxlu xeyir götürə bilməzlər. Lakin dövlət tərəfindən yaradılan sosial-iqtisadi və hüquqi mühit şərait yaradır ki, yenilikçi-firmalar çoxlu mənfəət əldə etsinlər. Bu da onlara elmi-tədqiqat və layihə-təcrübə işlərinə yeni-yeni milyonlar sərf etməyə imkan verir.

İnkişaf etmiş ölkələrdə ETT-nin iqtisadi mexanizminin demək olar ki, ilk pilləsini tələbat təşkil edir. Novator firmanın və yaxud da hər hansı bir «vençur» tipli müəssisənin müəyyən inkişaf pilləsində prinsipcə yeni texnikaya və texnologiyaya tələbat əmələ gəlir (meydana çıxır). Fundamental tədqiqatlar pilləsində yeni ideyalar meydana çıxır. Əslində bu pillə ilə gələcəkdə istehsalı nəzərdə tutulan yeni texnikanın layihə hazırlığı üzərində iş gedir. Keçmiş SSRİ dövlətindəki layihə hazırlığından fərqli olaraq prosesin bütün pillələrində sifarişçi və icraçı, istehsalçı və istehlakçı iştirak edir və hətta onlar gələcəkdə meydana çıxacaq texnikanın verəcəyi səmərəni də öz aralarında bölüşdürürülər. Belə ki, tətbiqi tədqiqat pilləsində yeni ideya gələcək potensial istehsalçı və istehlakçı arasında bağlanmış müqavilə formasına düşür, yəni keçmişdə deyildiyi kimi, texniki tapşırıq verilir. Sonrakı pillələr yeniliyin nümunələrinin yaradılması, sona çatdırılması, istehsala tətbiq edilməsi işlərini əhatə edir.

ETT-nin iqtisadi mexanizminin növbəti pilləsi yeniliyi istehsal edən firmadır ki, bu da yeniləşmə prosesini maddi, təşkilati baxımdan təmin edir. Onlar çoxlu pul xərcləyirlər. Məsələn, ABŞ-da elmi-tədqiqat və layihə-təcrübə işlərinin tələb etdiyi vəsaitin 50%-dən çoxu bu cür firmaların payına düşür. Yapon firmaları isə xərcin 80%-ni öz üzərlərinə götürürlər.

İnkişaf etmiş ölkələrin əksəriyyətində ETT-nin iqtisadi mexanizminin əsas pilləsini dövlət təşkil edir. Dövlətin rolu - ETT-nin stimullaşdırılmasıdır. Bunun üçün o elmi-tədqiqat və layihə təcrübə işlərinə tələb olunan xərcin müəyyən bir hissəsini öz üzərinə götürür. Dərc olunmuş məlumatlara görə dövlət ETT-nin sürətləndirilməsi üçün lazım olan vəsaitin ABŞ-da və Fransada 50%-ni, Böyük Britaniyada - 37%-ni, AFR-da 33%-ni, Yaponiyada - 19%-ni maliyyələşdirir və eyni zamanda "mühiti"də sahibkarlar üçün xeyirli şəklə salır.

İnkişaf etmiş sənaye ölkələri elə bir təsərrüfat modeli seçmişlər ki, ETT-yə ciddi yanaşmadan sosial, iqtisadi və hərbi-siyasi problemləri həll edə bilmirlər, birinciliklərini itirmək təhlükəsi ilə üzləşirlər. Buna görə də ETT-ni sürətləndirmək dövlətin bir nömrəli vəzifəsi hesab edilir. Müxtəlif ölkələrdə bu məsələ müxtəlif yanaşmalarla həyata keçirilir. Məsələn, əgər Yaponiyada bu məsələ, qeyd etdiyimiz kimi, prioritetlərin seçilməsi, elmi-texniki liderlik proqramlarının işlənib hazırlanması yolu ilə həyata keçirilsə, Qərbi Avropada hökumətlər sənayedə elmtutumlu məhsul istehsalına və innovasiyalara dayaq dururlar, ABŞ-da isə elmi-tədqiqat və layihə-təcrübə işlərini vergi yolu ilə stimullaşdırmağa üstünlük verirlər, yenilikçi firmaların maraqlarını qoruyan qanunlar işləyib hazırlayırlar və həyata keçirirlər, kiçik biznesin inkişafına diqqəti artırılar.

Dövlətin ETT-ni idarə etməsi təsvir etdiklərimiz yollarla məhdudlaşmır. Yüksək səviyyədə inkişaf etmiş xarici ölkələrdə ETT-nin iqtisadi mexanizminin siyasi mexanizmi də tam gücü ilə fəaliyyət göstərir. Bu mexanizmin tərkib hissələrinə aşkarlıq, elmi-texniki mövzuların mütəmadi olaraq müzakirəsinin bütün informasiya

vasitələrində təşkil edilməsi, televizor kanallarında xüsusi şərhçilərin saxlanılması daxildir. İdarəetmənin bütün pillələrində elm və texnikanın taleyi ilə ciddi məşğul olan strukturlar fəaliyyət göstərirlər. Məsələn, ABŞ-ın konqresində, senatın və nümayəndələr palatasının 9 komissiyası fəaliyyət göstərir. Bu komissiyalarda ETT-nin bütün aspektləri müzakirə edilir və konkret elm və texnika sahəsində ekspertlərin köməyi ilə prioritet istiqamətlər təyin edilir. Öz ölkələrinin elmi-texniki inkişafının perspektiv istiqamətlərini xırdalıqları ilə təyin edirlər. ETT-nin iqtisadi mexanizminin siyasi qollarının ən xeyirli cəhəti ondadır ki, bu qollarda yaxın və uzaq gələcək üçün oriyentirlər, istiqamətlər və kriteriyalar hazırlanır. Firmalardan tutmuş müvafiq dövlət orqanlarına qədər ETT-nin idarə olunması ilə məşğul olan şəxslər və strukturlar öz işlərində onları əsas götürülər.

ABŞ-da "Elmi-texniki və layihə-təcrübi işləmələrində milli məqsədlər" quruluşundan tez-tez istifadə edilir. ETT-nin iqtisadi mexanizminin siyasi qolunun əsas məqsədi də "milli məqsədlərin" dürüst və dəqiq seçilməsi və ölkənin iqtisadi təhlükəsizliyinin həmişə yüksək səviyyədə saxlanılmasına nail olmaqdır. ETT-i problemləri ilə ABŞ-da prezident və onun aparatı da ciddi şəkildə məşğul olur. Prezidentin elm və texnika üzrə köməkçisi, prezidentin rəhbərlik etdiyi "Elm və texnologiya üzrə milli şura" milli elmi-texniki strategiya hazırlayırlar. ABŞ-da hazırlanmış belə bir strategiya 1996-cı ildən fəaliyyət göstərir və bu strategiyanın milli məqsədlərinə "cəmiyyətin sağlamlığı və savadlılığı", "İqtisadi inkişaf və iş yerlərinin yaradılması", "Elm və texnika sahəsində dünya liderliyi", "Ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması", "İnformasiya texnolo-giyasının geniş miqyasda istifadəsi", "Milli təhlükəsizliyin möhkəmləndirilməsi", kimi qlobal problemlər daxildir. ABŞ-da mülkiyyət formasnıdan, profilindən, maliyyələşdirmə mənbələrindən asılı olmayaraq bütün firma və şirkətlər, elmi-texniki mərkəzlər, TMK-lar və s. digər elmi-texniki tərəqqinin sürətləndirilməsi ilə məşğul olan strukturlar, göstərdiyimiz

milli məqsədləri əsas götürməlidirlər, onlara istinad etməlidirlər. ETT-nin iqtisadi mexanizminin siyasi rıçaqlarının əsl mahiyyəti də bundadır.

# X FƏSİL. DÜNYA İQTİSADİYYATINDA KƏND TƏSƏRRÜFATI

## §1. Dünya təsərrüfat sistemi və aqrar bölmə

Müasir dövrdə ölkələrin iqtisadiyyatı çoxşaxəlidir. Elmi-texniki tərəqqi sürətləndikcə insanın fəaliyyət dairəsi genişlənir, əvvəllər heç ağıla gəlməyən prinsipcə yeni fəaliyyət dairələri meydana gəlir. Lakin iqtisadiyyatın elə bölmələri vardır ki, onlar əsrlər boyu mövcud olub və

indi də fəaliyyət göstərirlər. Aqrar bölməsi belə bölmələrdəndir. Min illər bundan qabaq da planetimiz olub. O vaxtlar iqtisadiyyat əsasən kənd təsərrüfatından ibarət olub. Kənd təsərrüfatı və buradan əldə edilən ərzaq, onun istehsalı, bölgüsü, mübadiləsi və istehlakı dünya təsərrüfat sisteminin fəaliyyət dairəsində həmişə aparıcı yer tutmuşdur.

Son dövrlər ölkələrin Ümumi Daxili Məhsulunda kənd təsərrüfatının xüsusi çəkisi azalmağa başlamışdır və inkişaf etmiş ölkələrdə demək olar ki, özünün minimum həddinə çatmışdır (bax cədvəl 21). Lakin buna baxmayaraq dünya miqyasında bu xüsusi çəkinin yüksək (39%-Ruanda, 30%-Pakistan, 17%-Türkiyə və və s.) olduğu ölkələr çoxdur. Onu da qeyd etmək lazımdır ki, xüsusi çəkinin aşağı düşməsi aqrar bölmənin zəifləməsini yox, kənd təsərrüfatı məhsulunun nisbi azalmasını və elmin, texnikanın, texnologiyanın sürətli inkişafı nəticəsində iqtisadiyyatın digər sahələrinin sürətli inkişafını göstərir.

Bu gün kənd təsərrüfatı sosial-iqtisadi inkişafda, iş yerlərinin yaradılmasında, ərzaq təhlükəsizliyi məsələsinin həllində, mühüm rol oynayır və bütün ölkələr aqrar sektorun inkişafı qayğısına qalırlar.

**Cədvəl 21**

**Ümumi Daxili Məhsulda kənd təsərrüfatının xüsusi çəkisi**

| **Ölkələr və ölkə qrupları** | **1980** | **1997** |
|---|---|---|
| Bütün dünya üzrə | 7.0 | 4,9 |
| O cümlədən: onlardan | | |
| Aşağı gəlirli dövlətlərdə | 35 | 31 |
| Orta gəlirli dövlətlərdə, onlardan | 15 | 12 |
| Orta gəlirdən aşağı gəliri olan ölkələr | 18 | 14 |
| Orta gəlirdən yuxarı gəliri olan ölkələr | 9 | 10 |
| Yüksək gəlirli dövlətlər | 3 | 2,6 |
| ABŞ | 3 | 2,7 |

| | | |
|---|---|---|
| Pakistan | 30 | 26 |
| Ruanda | 50 | 39 |
| Tanzaniya | 50 | 48 |
| Türkiyə | 26 | 17 |
| Uqanda | 72 | 44 |
| Rusiya | 9 | 7 |
| Fransa | 4 | 2 |
| Latın Amerikası | 10 | 10 |
| Azərbaycan | 21 | 22 |
| Ermənistan | 42 | 44 |
| Gürcüstan | 36 | 35 |

İnkişaf etmiş ölkələr iqtisadiyyatın bütün bölmələrində böyük müvəffəqiyyətlər qazanmışlar və ÜDM həcmini bu sahələrin hesabına yüksək sürətlə artıra bilmişlər. Eyni zamanda kənd təsərrüfatında da böyük müvəffəqiyyətlər əldə olunub. Məsələn, ABŞ nail ola bilmişdir ki, onun ölkəsində fəaliyyət göstərən bir fermer özündən başqa 10-larla digər kəndlini dolandıra bilən qədər kənd təsərrüfatı məhsulu istehsal edə bilsin. ABŞ və digər inkişaf etmiş ölkələrdə əksər kənd təsərrüfatı məhsulları üzrə öz daxili tələbatlarını ödəməklə yanaşı bu məhsulların ixracı ilə də məşğul olurlar. Deməli, heç cür kənd təsərrüfatının geriliyindən söhbət gedə bilməz. O ki, qaldı aqrar bölmə məhsulunun ÜDM-a görə xüsusi çəkisinin azalmasına bu heç də kənd təsərrüfatının geri qalmasını yox, ÜDM-un həcminin çoxalmasını göstərir. İnkişaf etmiş ölkələrə nə qədər lazımdırsa, o qədər də kənd təsərrüfatı məhsulu istehsal edirlər, yəni həcmi tələb və təklifə görə tənzimləyirlər.

Dünyanın əksər ölkələrində kənd təsərrüfatı insanlar üçün iş yeri, ərzaq mənbəyi kimi fəaliyyət göstərməkdə davam edir. Rəqəmlər də bunu sübut edir. Hər il orta hesabla planetimizin əhalisinin 45%-dən çoxunun həyatı bilavasitə torpaqla bağlı olur. İnsanlar kənd təsərrüfatında özlərinə iş tapırlar. İnkişaf etmiş ölkələrdə əmək qabiliyyətli əhalinin nisbətən az hissəsi (5%) kənd təsərrüfatında çalışsa

da, inkişafda olan və ən zəif inkişaf etmiş ölkələrdə kənd təsərrüfatında çalışanların xüsusi çəkisi 60 və daha çox faiz təşkil edir.

Dünya təsərrüfatı sistemində kənd təsərrüfatının həlledici rolu insanların qida məhsullarına olan tələbatlarının ödəməsindədir. Dünya statistikasının məlumatlarına görə yer kürəsində insanlar qida məhsullarına olan tələbatlarının 56%-ni taxılın, 7%-ni köklü bitkilərin, 10%-ni meyvə və tərəvəzin, 7%-ni şəkərin, 9%-ni yağ və piyin, 11%-ni isə heyvandarlıq məhsullarının hesabına ödəyirlər. Əlbəttə, bunlar iriləşdirilmiş rəqəmlərdir və müəyyən dövrlərdə qidanın tərkibi və quruluşu dəyişə bilər. Lakin bu əsas məsələ deyil. Əsas məsələ odur ki, qida məhsullarının əsas hissəsini kənd təsərrüfatı verir. Dünya üzrə ÜDM-ın tərkibində xidmət sektorunun (bölməsinin) xüsusi çəkisinin artması və artıq 55%-i ötməsi isə iqtisadiyyatın inkişafında üçüncü bölmənin rolunun yüksəlməsini yox, sadəcə olaraq elmi-texniki tərəqqinin nəticəsini göstərir. Xidmətin artması, xidmət bölməsinin inkişafı iqtisadiyyatın amili deyil, yalnız onun fəaliyyət göstərməsi şərtidir. Xidmət sahəsində çalışanlar da ilk növbədə tələbatlarını ödəməlidirlər, qida məhsulları qəbul etməlidirlər. Bu məhsulları isə kənd təsərrüfatı və sənaye verir.

Kənd təsərrüfatı sənayenin inkişafı üçün şərait yaradır - sənayenin xamal bazasını zənginləşdirir. O sənayeni pambıqla, tütün, lifli bitgilər, günəbaxan, kartof, qənd çuğunduru, dərman bitgiləri, meyvə, ağac, ət, balıq, süd, dəri, yun və quş tükü ilə təmin edir. Bu məhsulların həcmi, keyfiyyəti sənayenin inkişafı üçün mühüm şərtdir və ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır.

## §2. Kənd təsərrüfatı istehsalının strukturu

Kənd təsərrüfatında müxtəlif məhsullar istehsal edilir. Dünya iqtisadiyyatı baxımından kənd təsərrüfatı məhsullarının tərkibində bilavasitə ərzaq (qida) üçün nəzərdə tutulan məhsullarının ayrıca

öyrənilməsi məqsədəuyğundur. Bilavasitə qidalanmaya yönəldilən kənd təsərrüfatı məhsulları içərisində taxıl xüsusi yer tutur. Buna görə də onun həcmi artır. Dərc olunmuş statistik məlumatlara görə 100 il bundan əvvəl 1900-cü ildə dünyada 500 milyon ton taxıl istehsal edilmişdir. 50 il müddətində bu həcm 300 milyon ton artmış və istehsal olunmuş taxılın həcmi 800 milyon tona çatmışdır. Taxıl istehsalı yüksəlməkdə davam etmiş və 1950-1995-ci illər ərzində 1200 milyon ton artmışdır və onun ümumdünya həcmi 2000 milyon tona çatmışdır.

Dünya miqyasında istehsal olunan taxılın tərkibində buğda 28%, düyü 26%, qarğıdalı 25% təşkil edir. Qalan 20-21 faiz digər dənli bitkilərin payına düşür. Əhalini arasıkəsilmədən ərzaqla təmin etmək üçün taxıl ehtiyatı yaradılır. Taxıl üzrə illik dünya ixrac resursunun həcmi 200 milyon tona çatır ki, bunun da tərkibində buğda 90-100 mln. ton, qarğıdalı 60-70 mln. ton, düyü 15-20 milyon ton təşkil edir. Yerdə qalan 10-35 milyon ton digər dənli bitkilərin payına düşür.

Dünya miqyasında taxılın təxminən 55%-i qida məhsullarına, 45%-i isə mal-qaranı yedizdirmək üçün sərf edilir. Bu nisbət ölkənin inkişafı ilə paralel dəyişə bilər. Hazırda inkişaf etmiş ölkələrdə insanların qidalanmasına gedən taxılın xüsusi çkisi 25%, mal-qaranı yedizdirmək üçün ayrılan taxılın xüsusi çəkisi ilə 75% təşkil edir, inkişafda olan ölkələrdə isə taxılın 90%-ə qədəri qida məhsullara sərf olunur.

Kənd təsərrüfatı eyni zamanda texniki bitkilər də istehsal edir. Bu cür bitkilər bir çoxu sənayedə emal prosesi keçdikdən sonra yenə də qida məhsulu kimi istifadə olunur. Texniki bitkilərə pambıq, tütün, günəbaxan, kartof, qənd çuğunduru və s. daxildir. Göründüyü kimi, bu cür təsnifləşdirilmə nisbi xarakter daşıyır. Texniki bitkilər və ümumiyyətlə, kənd təsərrüfatı məhsulları sənayenin xammal bazasının əsas hissəsini təşkil edir. Yüngül və yeyinti sənaye sahələri isə kənd təsərrüfatı mənşəli xammal olmadan fəaliyyət göstərə bilməzlər. Buna görə kənd təsərrüfatı məhsullarının tərkibində bu və digər məhsulun

optimal xüsusi çəkisi olmalıdır. Bu iqtisadiyyatın kompleks inkişafı üçün lazımdır.

Kənd təsərrüfatı məhsullarının tərkib hissələrindən biri də heyvandarlıq və quşçuluqdur. İnkişaf etmiş ölkələrdə ət-süd məhsulları istehsalı intensiv olaraq inkişaf etdirilir. Bunun səbəbi ilk növbədə qida məhsullarına əhalinin münasibətidir. Dünya miqyasında məsələyə yanaşdıqda belə bir meylin baş verdiyini aydın görmək olur: ölkə inkişaf etdikcə əhali çörəyi az, ət-süd məhsullarını isə daha çox qəbul edir. Nəticədə ətə olan tələbat artır, dənli bitkilərə olan tələbat azalır. İnkişaf etmiş ölkələr burada çıxış yolunu əkin yerlərinin yem üçün nəzərdə tutulan məhsullara görə ixtisaslaşdırılmasında görürülər. Məsələn, ABŞ-da heyvandarlığın tələbatları üçün nəzərdə tutulan qarğıdalı və soya bitgiləri əkilən xüsusi torpaq sahələri bu cür ixtisaslaşdırılmış sahələrdir. Bu bir daha sübut edir ki, kənd təsərrüfatının rolu azalmamış, sadəcə olaraq keçən əsrin ikinci yarısında alimlərin, kənd təsərrüfatı mütəxəssisələrinin, sadə əməkçilərin birgə əməyi nəticəsində kənd təsərrüfatında yüksək əmək məhsuldarlığı əldə edilmiş və bu cür müvəffəqiyyətlər əldə etmiş yüksək dərəcədə inkişaf etmiş ölkələr torpaqdan və aqrar sahənin digər tərkib hissələrindən istifadəni elmi surətdə idarə etməyə başlamışlar. Torpaq da, meşə də, çay da, heyvandarlıq da bu ölkələrdə elmi əsaslanmış rejimlə istifadə edilir və bütün tədbirlərin kökündə insan amili durur.

Kənd təsərrüfatı məhsullarının strukturu da tələb və təklifə müvafiq formalaşdırılır və lazım gəldikdə dəyişdirilir.

## §3. Kənd təsərrüfatının inkişafına təsir edən amillər

Kənd təsərrüfatının yarımsistemlərdə və bütövlükdə dünyada inkişafına sənayedəki kimi yanaşmaq, burada da intensiv və ekstensiv inkişaf tiplərini bir-birindən ayırmaq lazımdır. İlk növbədə bu cür yanaşma kənd təsərrüfatının inkişafına təsir göstərən amilləri təyin

etmək üçün zəruridir. Digər tərəfdən heç bir inkişafın tam intensiv və yaxud da tam ekstensiv yolla baş verməsini söyləmək çətin olduğuna görə təyin edilən amilləri aşkar etmək hər iki tip inkişaf üçün labüddür.

Əgər kənd təsərrüfatının inkişafı ekstensiv yolla baş verirsə onda aqrar bölmənin inkişafında əsas amil rolunu torpaq resursları və onların kənd təsərrüfatına yararlılıq səviyyəsi oynayır. Ümumiyyətlə isə kənd təsərrüfatı məhsullarının həcmi, nomenklaturası, assortimenti ölkələrin iqtisadi inkişaf səviyyəsindən, kənd təsərrüfatına yönəldilən kapital xərclərindən, heyvandarlığın inkişafından və s. asılıdır. Lakin torpaq, meşə, su tutumları, çaylar və s. heç bir şeylə əvəz olunmayan amillərdir və həm intensiv və həm də ekstensiv inkişafın başlıca şərtləridir. Buna görə də bütün bəşəriyyəti düşündürən başlıca məsələ torpağı qorumaq olmalıdır. Hazırda dünyada yaranmış vəziyyətin öyrənilməsi göstərir ki, torpaqlara olan münasibət qənaətbəxş deyildir. Statistik məlumatlara görə əkin sahələri azalmaqda davam edir. Torpaqdan səmərəsiz istifadə edilməsi nəticəsində hər il 6 milyon hektar səhra əmələ gəlir. Deməli, get-gedə yeni torpaq sahələrinin istifadəyə verilməsi imkanı da azalır. Buna görə də əldə olan sahələri qorumaq və onlardan səmərəli və rejimlə istifadə etmək kənd təsərrüfatının inkişafında mühüm amilə çevrilmişdir.

Heyvandarlığın inkişafı da ekstensiv və intensiv tiplərlə baş verə bilər. Heyvanın diri çəkisini artırmaq yolu ilə inkişaf etdirilən heyvandarlıq intensiv inkişaf etmiş olur və əksinə, eyni və ya az fərqli çəkidə olan heyvanların sayını artırdıqda ekstensiv inkişaf əldə edilir. İnkişaf etmiş ölkələrdə heyvandarlığın yüksəldilməsi əsasən intensiv yolla baş verir. Bu ölkələrdə, məsələn, bir inəkdən alınan ət və südün miqdarı geri qalmış ölkələrdəkindən 3-4 dəfə çox ola bilir. Təhlil göstərdi ki, kənd təsərrüfatı məhsulları həcminin artırılmasında ən səmərəli yol intensiv yoldur. Bu yol aşağıdakı istiqamətlərdə həyata keçirilir.

Kənd təsərrüfatının kimyalaşdırılmasında torpağa müxtəlif mineral gübrələrin verilməsi başlıca rol yonayır. Keçən əsrin ikinci

yarısında bu sahədə çox işlər görülmüş və nəticədə kənd təsərrüfatında istehsal bir neçə dəfə artmış və əhali artımını üstələmişdi. Bu da dünya əhalisini aclıq təhlükəsindən əsasən qurtara bildi. Onu da qeyd edək ki, məhsul artımının 40%-i gübrənin hesabına baş verirdi. Gübrə verməninn özü çox sürətlə artmaqdadır. Dərc olunmuş materiallara görə 1973-cü ildə dünya üzrə hər istifadə edilən torpağın bir hektarına verilən gübrə orta hesabla 60 kq idi. 1988-ci ildə bu rəqəm 100-ə çatmışdı. Bəzi ölkələrdə torpağa verilən gübrə daha çoxdur və Almaniyada - 418 kq, Niderlandda - 773 kq. , Yaponiyada - 387 kq təşkil edir. Torpağı çox olan ölkələr ekstensiv inkişafa üstünlük verirlər. Məsələn, hər hektar əkin sahəsinə verilən gübrənin miqdarı Kanadada 12, Avstraliyada 28 kiloqramdır.

Dünya miqyasında işlədilən gübrənin 45%-ni ABŞ, 28%-ni Qərbi Avropa, 12%-ni Yaponiya işlədir. Lakin son zamanlar inkişaf etmiş ölkələrdə gübrədən istifadə olunması zəifləməyə başlamışdır. Bu ekologiyanın çirklənməsi qarşısının alınması və ət, süd, meyvə və tərəvəzin tərkibində silikatların azaldılması məqsədi ilə həyata keçirilir. Son vaxtlar dünya bazarında ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarına olan tələbat artmışdır. Gübrədən səmərəli istifadə etmək, yaxud da gübrəsiz kənd təsərrüfatı yaratmaq məsələləri ortaya çıxmışdır. Bu ideya insanların sağlamlığı üçün nə qədər vacib məsələdirsə, kənd təsərrüfatında əmək məhsuldarlığının aşağı düşməsi üçün o dərəcədə qorxuludur. Buna görə də inkişaf etmiş ölkələrdə torpağa gübrənin az vurulması üzrə tədbirlərin həyata keçirilməsinə baxmayaraq aqrar bölmədə kimyalaşma öz sürətini azaltmır. Əldə edilən nəticələr isə cüzidi. Son 5-10 ildə inkişaf etmiş ölkələrdə hər hektar torpağa vurulan gübrənin miqdarı 123 kq-dan 116-kq-a enmişdir.

Gübrədən istifadənin azaldılması çox çətin bir proses olacağını "Yaşıl inqilab" kimi tədbirlərin həyata keçirilməsini də çətinləşdirir. 1960-cı illərdə o dövr üçün müasir olan kompleks aqrotexniki üsullardan istifadə edərək kənd təsərrüfatını yenidən təşkil etmək proqramı həyata keçirildi və çox güclü nəticələr əldə edildi. Həyata

keçirilən tədbirlərin dərinliyi və miqyası o qədər böyük idi ki, tarixə o "yaşıl inqilab" adı altında düşdü. "Yaşıl inqilab" 1960-cı illər və ondan sonrakı dövr üçün kənd təsərrüfatının inkişafında başlıca amil idi. Onun üç əsas istiqaməti var idi: birincisi, yeni toxumların yaradılması, ikincisi, suvarılan torpaq sahələrinin artırılması və kənd təsərrüfatının mexanikləşdirilməsi, üçüncüsü, geniş miqyasda mineral gübrələrdən istifadə edilməsi və bitkilərin kimyəvi üsullarla qorunması "Yaşıl inqilab"ın həyata keçirilməsi nəticəsində taxıl üzrə məhsuldarlıq 2-3 dəfə çoxaldı. Çin, Hindistan, İndoneziya, Pakistan və digər ölkələr "Yaşıl inqilab" nəticəsində taxıla olan ehtiyaclarını özləri ödəməyə başladılar. Göründüyü kimi bu cür kompleks tədbirlərində əsasını geniş miqdarda gübrə işlətmək təşkil edirdi. Ekoloji təmiz məhsul isə əksinə gübrəni və digər kimyəvi üsulları rədd edir. Yaranmış paradoksluluq aydın görünür. Gələcəkdə indi geniş yayılmaqda olan "biotexnoloji inqilab" məsələləri həll etməlidir.

Kənd təsərrüfatı məhsullarının gübrəsiz yolla artırılması bitkilərin norma üzrə suvarılmasını tələb edir. Suvarılan torpaqların genişləndirilməsi yolu özü-özlüyündə aqrar bölmənin ekstensiv inkişaf yoludur. Lakin elmi əsaslarla məsələyə yanaşdıqda suvarılan torpaqlara optimal miqdarda gübrə verildikdə səmərəni yüksəltmək və kənd təsərrüfatının intensiv yolla inkişafını təmin etmək olar. Deməli, gübrə və digər kimyəvi üsulların zərərliliyindən danışmaqdansa, söhbət onlardan ağıllı, optimal, elmi əsaslarla istifadə edilməsindən getməlidir. Suvarma ilə yanaşı aparılan tədbir elmi seleksiya işləridir. Elmi seleksiyanın əsas məqsədi yeni, konkret mühitə daha davamlı və daha məhsuldar toxumların tapılıb istifadə edilməsi təşkil edir. Bu üsul kənd təsərrüfatının intensivləşdirilməsi prosesini gücləndirir. Məhsuldarlığı orta hesabla 30% yüksəltməyə imkan verir.

Bütün bunlarla yanaşı Birləşmiş Millətlər Təşkilatının müvafiq bölmələrinin təhlillərini, tövsiyələrini, proqnoz məlumatlarını nəzərə almaq lazımdır. Ərzaq və kənd təsərrüfatı təşkilatlarının (FAO) verdiyi məlumatlara görə dünya əhalisinin ərzaqla və kənd təsərrüfatı

məhsulları ilə təminatına XXI əsrdə dörd amil: təbii şəraitin pisləşməsi, su və torpağın altındakı enerji resurslarının tükənməsi, torpağın münbitliyinin azalması və iqtisadi liberallıq güclü təsir göstərə bilər.

Kənd təsərrüfatının inkişafına ən çox təsir edən amillərdən biri istehsalın sənayeləşdirilməsidir. Sənaye üsullarının tətbiqi kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəldilməsinə, xərclərin aşağı düşməsinə səbəb olur. Onu da qeyd edək ki, bu meyl irəliyə doğru davam etməkdədir. Kənd təsərrüfatında sənaye üsullarının elmi əsaslarla tətbiqi, yem bazasının yaxşılaşması, seleksiya işlərinin vaxtında həyata keçirilməsi, sənaye cəhətdən inkişaf etmiş ölkələrə imkan verir ki, onlar hər baş inəkdən il ərzində zəif inkişaf etmiş ölkələrdəkinə nisbətən 6 dəfə çox süd və 1,5 dəfə çox ət əldə etsinlər. Müqayisə üçün göstərək ki, 1996-cı ilin məlumatına görə ABŞ-da hər inəkdən 6,7 min litr süd sağıldığı halda, Çində bu rəqəm 1,6, Rusiyada 2,8, Monqolustanda 0,35 təşkil etmişdir. Bu rəqəmlər göstərir ki, inkişaf etmiş ölkələrdə heyvandarlıq əsasən intensiv yolla inkişaf etdirilir. Kənd təsərrüfatında sənaye üsullarından istifadə edilməsi hüdudsuz bir proses deyildir. Lazım olan kompleks işlər başa çatdıqdan sonra kənd təsərrüfatının sənayeləşdirilməsində əldə edilən səmərə müəyyən həddən sonra yüksəlmir. Məsələn, sözün tam mənasında kənd təsərrüfatının sənayeləşməsi ABŞ-da, Kanadada, Böyük Britaniyada hələ İkinci dünya müharibəsinə qədər başa çatmışdı. Qərbi Avropa ölkələrində və Yaponiyada bu proses 1950-ci ildə başa çatdı. Kənd təsərrüfatında mexanikləşdirmə tədbirlərinin həyata keçirilməsi burada istifadə edilən traktorların sayını milyonlara qaldırıb. Keçən əsrin 90-cı illərinin ortalarında dünya kənd təsərrüfatında işlədilən maşın və mexanizmlərin içərisində ancaq traktorların sayı 26-27 milyon ədəd təşkil edirdi. Mexanikləşdirmə dünya üzrə, demək olar ki, öz son həddinə çatmışdır. Buna görə də dünya kənd təsərrüfatında istifadə edilən traktorların ümumi sayı nisbətən stabilləşmişdir. Lakin ayrı-ayrı ölkələrdə bu heç də belə deyildir. Ümumi meyl isə belədir: inkişaf etmiş ölkələrdə istifadə

edilən texnikanın sayı ya stabilləşir, ya da nisbətən azalır, geri qalmış və keçid iqtisadiyyatlı ölkələrdə isə texnikanın sayı nisbətən artır.

Gələcəkdə kənd təsərrüfatını daha da sürətlə inkişaf etdirmək üçün inkişaf etmiş ölkələr yeni yollar axtarmaqdadırlar. Belə yollardan biri biotexnologiyaların geniş tətbiqidir. Çox yüksək səviyyədə inkişaf etmiş ölkələr artıq "biotexnoloji inqilab" pilləsindədirlər.

## §4. Kənd təsərrüfatı məhsulları istehsalının coğrafiyası

Heyvandarlıq Yaxın və Orta Şərq ölkələrində daha çox inkişaf etmişdir. Argentina və Uruqvayda da kənd təsərrüfatının bu sahəsi qabaqda gedir. Lakin inkişaf etmiş ölkələrlə müqayisədə bu ölkələrdə heyvandarlığın inkişafı əsasən ekstensiv yolla baş verir. Hər bir sakinə düşən südün miqdarına görə Yeni Zelandiya, Fransa, Belorusiya, Almaniya Federativ Respublikası kimi dövlətlər, ətin miqdarına görə isə Niderland, Avstraliya, Amerika Birləşmiş Ştatları, Argentina, Almaniya, Fransa qabaqda gedirlər. İsveçrə və Finlandiyada kənd təsərrüfatı məhsullarının ümumi həcmində heyvnadarlıq 75-80% təşkil edir. İtaliyada isə bu faiz cəmi 40%-dən bir qədər çoxdur.

Torpaq resursları çox olan ölkələrdən Avstraliyanı, Şimali Amerikanı və Yeni Zelandiyanı göstərmək olar. Ölkələrin sərəncamında nə qədər torpaq sahəsi olması haqda məlumatı "Bir nəfər işçiyə düşən torpaq" göstəricisi verir. Bu göstərici Avstraliyada 671, Şimali Amerikada 155, Yeni Zelandiyada 69, Qərbi Avropada 12 hektar təşkil edir. Bütün dünya üzrə bir nəfər kənd təsərrüfatı işçisinə düşən torpağın miqdarı cəmi 3,7 hektar, inkişaf edən ölkələrdə isə 2,2 hektar təşkil edir.

Kənd təsərrüfatı məhsulları üzrə dünya ticarəti son illərdə nisbətən azalmağa başlamışdır. Dünya ixracında ərzaq məhsullarının xüsusi çəkisi 1970-ci ildəki 13%-dən, 1996-cı ildəki 9%-ə qədər, həmin dövrdə kənd təsərrüfatı xammalının dünya ixracındakı xüsusi çəkisi isə uyğun olaraq 7%-dən 2,5%-ə qədər azalmışdır. Bu azalmaların başlıca səbəbi kənd təsərrüfatı məhsulları istehsalı coğrafiyasının dəyişməsi olmuşdur. Qərbi və Mərkəzi Avropa, Çin və Hindistanda qidalanmaya yönəldilən

kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır. Özünütəminetmə əmsalı bu ölkələrdə yüksəlmiş, idxal azalmışdır. Digər səbəb dünya ticarətində istehlak üçün hazır olan məhsulların xüsusi çəkisinin artmasıdır. Getdikcə ölkələr kənd təsərrüfatı məhsullarının xammal şəklində ixracından, onlardan hazırlanmış hazır məhsulların ixracına daha çox meyl göstərirlər.

Dənli bitkilərdən buğda istehsalı ABŞ-da, Kanadada, Fransada, Avstraliyada, Argentinada yüksək səviyyədə, Çində, Yaponiyada, Braziliyada, Misirdə aşağı səviyyədə inkişaf etmişdir. Düyü istehsalı Tailandda, ABŞ-da, Vyetnamda, Pakistanda daha çox yayılmışdır. Mal əti daha çox Avstraliyada, Braziliyada, Niderlandda, Kanadada, ABŞ-da istehsal edilir. Süd məhsulları istehsalı üzrə isə Niderland, İrlandiya, Danimarka, Fransa liderliyi əllərində saxlayırlar.

## §5. Aqrar-sənaye kompleksləri

Dünya iqtisadiyyatının əsas iki bölməsi vardır: kənd təsərrüfatı və sənaye (üçüncü bölmə - xidmət isə bu bölmə ilə paralel inkişaf edir). Bəşəriyyət tarixində birinci olaraq kənd təsərrüfatı meydana gəlmişdir (məhsuldar qüvvələrin inkişafının təsiri altında). İnsan cəmiyyətinin müəyyən inkişaf səviyyəsində sənaye kənd təsərrüfatından tədricən ayrılmış və sərbəst fəaliyyət göstərməyə başlamışdır. Birinci bölmə - kənd təsərrüfatı ilk dövrlər meydana gəldiyi vaxtlar belə onun tərkibində əvvəllər nəzərə çarpmaz dərəcədə, sonralar isə aydın görünən dərəcədə sənaye istehsalı olmuşdur. Deməli, iqtisadiyyatın bu mühüm və həlledici bölmələrinin inkişaf prosesini üç pilləyə bölə bilərik.

Birinci pillədə (çox qədimlərdə) o dövrki məhsuldar qüvvələrin səviyyəsinə uyğun olaraq kənd təsərrüfatı meydana gəlir, inkişaf edir. Onun daxilində, fərqli istehsal texnologiyalar, tələb edən emal sənayesi meydana gəlir, lakin sərbəstləşmir. Deməli, birinci pillədə kənd təsərrüfatı ilə sənaye birlikdə fəaliyyət göstərirlər. İkinci pillədə kənd

təsərrüfatının tərkibində, onun daxilində meydana gələn sənaye tədricən inkişaf edir, aqrar bölmədən ayrılır və nisbətən sərbəst fəaliyyət göstərməyə başlayır. Üçüncü pillədə yenidən "birləşmə" prosesi labüd baş verir. Kənd təsərrüfatı hərtərəfli sənayeləşdirilir. Hər iki bölmənin vəhdətliyi, birləşməsi zəruriliyi meydana çıxır. Üçüncü pillə dünya üzrə məhsuldar qüvvələrin inkişaf etmiş səviyyəsində baş verdiyi üçün məsələyə müxtəlif formada yaradıcı münasibət göstərməyə başlayırlar. Alimlər, tədqiqatçılar, dövlət xadimləri getdikcə dərk etməyə başlayırlar ki, iqtisadiyyatın bu iki bölməsi sərbəst fəaliyyət göstərərkən yüksək səmərəlilik əldə etmək məsələsinin həlli bir sıra çətinliklərlə rastlaşır. Çətinlikləri aradan qaldırmaq üçün kənd təsərrüfatı və sənaye mümkün olan sahələrdə birgə fəaliyyət göstərməlidirlər. Keçən əsrin 60-70-ci illərində bu ideya reallaşmağa başladı. İnkişaf etmiş ölkələrdə, ilk dəfə olaraq isə ABŞ-da bu sahədə əməli iş görülürdü və baş verən prosesin özü "Aqrarsənaye inteqrasiyası" adlanırdı. Aqrosənaye inteqrasiyası əslində müxtəlif sahələrə məxsus müəssisələrinin birgə fəaliyyəti demək idi. Bu cür birgə fəaliyyət göstərən müəssisələr birliyi çoxdan məlum idi. Lakin belə birliklər adətən iqtisadiyyatın bir bölməsindəki müəssisələri əhatə edirdi. Məsələn, sənayedə yaradılan sənaye istehsal və elmi-istehsal birlikləri buna misaldır. 1960-70-ci illərdə inkişaf etmiş ölkələrdə formalaşmağa başlamış birliklərin fərqləndirici cəhəti onların müxtəlif sahələrə aid müəssisələr bazasında meydana gəlməsi idi. Əslində aqrosənaye inteqrasiyası da cəmiyyətdə fəaliyyət göstərən sənaye və kənd təsərrüfatı müəssisələri arasında çoxdan yaranmış və obyektiv xarakter daşıyan əlaqələri və qarşılıqlı əlaqələri özündə əks etdirən bir proses idi.

Aqrosənaye inteqrasiyası böyük iqtsiadi səmərə verən bir prosesdir. Kənd təsərrüfatında bir sıra idarə edilməsi çətin olan təbii amilin, məhsulun həcminin, meyvə, tərəvəzin çəkisinin, növünün proqnozlaşdırması kimi amillərin mənfi təsiri aqrarsənaye inteqrasiyası nəticəsində əsasən aradan götürülür. Aqrosənaye inteqrasiya prosesləri öz növbəsində iqtisadiyyatın iki mühüm bölməsi arasında obyektiv

olaraq meydana çıxan qarşılıqlı əlaqələri daha da gücləndirir və sənayeni arasıkəsilməz tərzdə kənd təsərrüfatı xammalı ilə təmin edə bilən iqtisadi və kommersiya mexanizmi yaradır. Bu cür mexanizm rezonans səmərə əldə etməyə imkan verir.

Dünya kənd təsərrüfatında keçən əsrin 60-70-ci illərində baş verən dəyişikliklər, onun sənaye ilə qovuşması vaxt keçdikcə təkmilləşdirildi və nəticədə bu gün dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən aqrar sənaye komplekslərin (ASK) meydana gəlməsi ilə nəticələnmişdir. ASK hazırda dünya əhalisini ərzaqla təmin etmək sahəsində mühüm və əvəzolunmaz amilə çevrilmişlər. Ən ümumi halda ASK sənaye, kənd təsərrüfatı və bir sıra infrastruktur sahələri müəssisələrinin vahid sistemi deməkdir. Bu sistemin əsas məqsədi kənd təsərrüfatında məhsuldarlığı yüksəltmək, itkiləri azaltmaq, meyvə-tərəvəzi vaxtında emal etmək, keyfiyyəti saxlamaq, kənd təsərrüfatı üçün istehsal alət və vasitələri istehsal etmək, kənd təsərrüfatı məhsullarının nəql edilməsini və istehlakçılara keyfiyyətli formada çatdırılmasını, hazır məhsulun vaxtında satılmasını təşkil etməkdir.

ASK o dərəcədə inkişaf etmişdir ki, hazırda dünya sənayesinin bir sıra sahələri (kənd təsərrüfatı maşınları istehsalı, gübrə istehsalı, heyvandarlıq və yem istehsalı üçün texnika istehsalı və s.) bilavasitə kənd təsərrüfatı tələbatlarının ödənilməsi üçün fəaliyyət göstərirlər. İstehsal prosesinin bütün tərkib hissələrini özündə cəmləşdirən ASK-lər adətən aşağıdakı üç hissədən ibarət olur.

I bölmə - sənayedir. Burada fəaliyyət göstərən müəssisələrin əsas məqsədi kənd təsərrüfatı üçün lazımi texnikanı istehsal etmək və sahəyə istehsal - texniki xidmət göstərməkdir;

II bölmə - kənd təsərrüfatının özüdür. Burada hamıya yaxşı məlum olan bütün kənd təsərrüfatı işləri görülür və məhsulları istehsal olunur. Fərq ondadır ki, nə və nə qədər istehsal olunması məsələsi sənaye ilə yaranmış inteqral əlaqələri nəzərə alınaraq təyin edilir.

III bölmə - kənd təsərrüfatı xammalını və ərzağı vaxtında emal edən, nəql edən, saxlayan, reallaşdıran sahələri özündə cəmləşdirir.

Bu üç bölmənin inkişaf meyllərinin öyrənilməsi göstərir ki, ən çox inkişaf edən üçüncü bölmədir. ASK-in əsas hərəkətverici qüvvəsi ikinci bölmə olsa da birinci və üçüncü bölmələr inkişaf edib şaxələnmişlər. Bu cür inkişafın əsasında da yenə kənd təsərrüfatı və orada istehsal edilən məhsulların taleyi durur. Kənd təsərrüfatında əldə edilən məhsulların həcmini artırmaq, istehsal olunan meyvə-tərəvəzin korlanması qarşısını almaq, məhsulların emalının diversifikasiyası və istehlakçılara çatdırılması məsələlərinin həlli birinci və üçüncü bölmələrin üstün inkişafına səbəb olmuşdur. Yüksək dərəcədə inkişaf etmiş ölkələrdə bu sahədə böyük nailiyyətlər əldə edilmiş və nəticədə kənd təsərrüfatında məhsuldarlıq qat-qat yüksəlmişdir.

Amerika Birləşmiş Ştatlarının ÜDM-da kənd təsərrüfatı bölməsi payının çox az təşkil etməsi də məhz bununla əlaqədardır. 1990-cı illərin ortalarında ABŞ-da ASK-nin bölmələri arasında nisbət 3:1:6 kimi formalaşmışdı. Qeyd edək ki, bu cür nisbətin formalaşması güclü sosial səmərə də vermişdir. Bunun nəticəsində yeni iş yerləri yaranmışdır. Dərc olunmuş statistik məlumatlara görə ABŞ-da ASK-nın ikinci bölməsi ÜDM-un iki faizə qədərin verir və burada işçi qüvvəsinin 2,5%- cəmləşmişdir. Bütövlükdə ABŞ-ın ASK-i isə ÜDM—un 18%-ni verir və burada işçi qüvvəsinin 20%-i özünə iş yeri tapmışdır. Bu sosial-iqtisadi inkişaf nöqteyi-nəzərincə böyük müvəffəqiyyətdir.

ASK həm də ölkənin sosial-iqtisadi inkişafını xarakterizə edir və ilk növbədə kənd təsərrüfatı məhsullarının emal səviyyəsini və əlavə dəyər əldə edilməsini göstərir. Bu deyilənləri bizim qonşumuz Rusiya Federasiyasının timsalında aydın gös-tərmək olar. 1997-ci ilin məlumatlarına görə Rusiyada ASK-nin ÜDM - xüsusi çəkisi 6,7%, burada çalışan işçilərin sayı isə ölkənin işçi qüvvəsinin 30%-ni təşkil edirdi. Rusiyanın kənd təsərrüfatında (ASK-in ikinci bölməsində) ASK-də çalışan işçilərin yarısından çoxu məşğul idi. Bu cəhət ölkənin kənd təsərrüfatında sənayeləşmənin geri qalmasını və ən başlıcası isə yüksək əmtəəli kənd təsərrüfatının hələ də formalaşmadığını göstərir.

Bu həm də kənd təsərrüfatı məhsullarının dərin emal olunmasının mənfi iqtisadi nəticəsini göstərir.

Zəif inkişaf etmiş ölkələr ASK-nin inkişafı cəhətdən də geri qalırlar. Bu ölkələrdə kənd təsərrüfatında sənayeləşmə çox zəif gedir. Əksər inkişafda olan ölkələrdə ASK-in inkişafına transmilli korporasiyalar güclü təsir götərirlər. Onlar bir növ inteqrallaşdırıcı rol oynayırlar. Transmilli korporasiyalar öz ölkələrində əldə olunan, təcrübədən çıxmış üsul və formaları inkişaf etməkdə olan ölkələrdə də tətbiq etmək istəyirlər və ümumi şəkildə buna nail də olurlar. Onların köməyi ilə beynəlxalq aqrosənaye inteqrasiyası inkişaf edir. Müasir şəraitdə beynəlxalq aqrosənaye inteqrasiyasının əsas məqsədi dünyada yaranmış ərzaq qıtlığına son qoymaqdır. Dünyanın ərzaq təhlükəsizliyi isə bütün ölkələrdə ASK-nin sürətli inkişafını tələb edir. Bunu əldə etmək üçün inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr inkişaf etmiş ölkələrin əldə etdiyi biliklərə yi-yələnməyi öyrənməlidirlər.

# XI FƏSİL. İNSAN RESURSLARI VƏ ONLARDAN İSTİFADƏNİN YAXŞILAŞDIRILMASI YOLLARI

## §1. İnsan resursları və iqtisadi inkişaf

Dünya iqtisadiyyatının çiçəklənməsi, ictimai tələbatların normal səviyyədə ödənilməsi, qlobal problemlərin həllinin sürətləndirilməsi və

sair bu kimi məsələlərin həlli Yer kürəsində mövcud olan resurslardan səmərəli və tam istifadə olunmasını qarşıya qoyur. Dünya iqtisadiyyatı bütün mövcud resurslardan asılı olur. İnsan resursları isə özünəməxsus xüsusiyyətlərə malikdir. Digər resurslar da məhz insan resursları ilə sıx bağlı olur. İnsan amilindən səmərəli istifadə edildikdə təbiətdə mövcud olan digər resurslardan da daha səmərəli və optimal istifadə edilməsi üçün münasib şərait yaranır.

İnsan resurslarının özünəməxsus xüsusiyyətləri var. Buna görə də onları idarə etmək, cəmiyyətin çiçəklənməsi üçün onlardan bacarıqla istifadə etmək olduqca çətindir. Məsələyə yaradıcılıqla yanaşmaq, elmtutumlu tədbirlər həyata keçirmək lazımdır. Bu cür yanaşmanın öhdəsindən hər hansı bir ixtiyarı iqtisadi inkişaf modeli seçən ölkə çox çətinliklə gələ bilir və dünya təcrübəsinin göstərdiyi kimi, bəzən heç gələ də bilmir. Belə olan halda iqtisadiyyatın geriliyini əhalinin yüksək artımı ilə izah edirlər. Bu cür mühakimə yürütməyə əsas kimi dünya əhalisinin çox böyük sürətlə artmasıdır.

Dünyada insanların sayı son 50-60 ildə sürətlə artmışdır. Əhalinin ikiqat artımı indi çox qısa müddətdə 35-40 ilə baş verir (müqayisə üçün yada salaq ki, birinci ikiqat artım 1500 ilə baş vermişdi). XXI əsrin ilk ilində dünya əhalisinin sayı 6,1 milyard təşkil edib (yada salaq ki, 1900-cü ildə bu rəqəm cəmi 1,6, 1950-ci ildə 2,5-ə, 1980-cı ildə isə 4,4-ə bərabər idi).

Əhalinin bu cür artımı və onun iqtisadi inkişafa təsiri ətrafında müxtəlif fikir və mülahizələr mövcuddur. Bir qrup alim və mütəxəssislər həmişə o fikirdə olmuşlar ki, əhali artımı sosial iqtisadi inkişafa mənfi təsir edə bilər. Aclığın, yoxsulluğun səbəbini də onlar əhalinin sayı ilə əlaqələndirməyə səy göstərmişlər və bu fikri müəyyən dövrdə cəmiyyətin şüuruna yeridə bilmişlər. Bu cür fikirləşən şəxslərin nümayəndəsi 1766- 1834-cü illərdə yaşamış ingilis ruhanisi və iqtisadçısı T.Maltus idi. O özünün ilk əsərlərində əhali ilə təbii resursları bir-birinə qarşı qoyurdu. Qeyd edirdi ki, əhali artımının meyli həndəsi silsilə üzrə, ərzağın artma meyli isə hesabi silsilə üzrə baş verir. Lakin

1934-cü ildə bu günə qədər keçən müddət T.Maltusun nəzəriyyəsini təsdiq etmədi və keçən əsrin ikinci yarısında elmdə və texnikada əldə edilən nailiyyətlər və bu cür nailiyyətlərin istehsala geniş miqyasda (xüsusən də kənd təsərrüfatı istehsalında) tətbiqi imkan verdi ki, əhalinin yüksək artımı müqabilində ondan da yüksək artım sürəti ərzaq istehsalı sahəsində əldə edilsin. Məhz bu artım dünya əhalisini aclıqdan qurtara bildi.

Digər qrup alim və mütəxəssislər isə (bunlar çoxluq təşkil edirlər) əksinə əhalinin sayca çoxalmasını sosial-iqtisadi inkişafın əsas funksiyası hesab edirlər. Bu qrupun əsas nüma-yəndəsi A.Smit idi. O, hesab edirdi ki, əhali artımı iqtisadi inkişafı sürətləndirə biər. İlk növbədə ona görə ki, əhali artımı yeniliklərin istehsala tətbiqini sürətləndirir. Varlanmaq ailədə uşaqların sayının artırılmasına meyli gücləndirə bilər. Lakin digər tərəfdən məlumdur ki, əksinə inkişaf etmiş ölkələrdə ailələr kiçik olur, uşaqların sayı orta hesabla 2-3 nəfəri ötmür.

Kasıb ailələr isə əksinə çoxuşaqlılığa meyl göstərirlər və onlarda ölümün səviyyəsi də yüksək olur.Əhalinin sayca artması yaşayışı pislətmir. A.Smit göstərirdi ki, vaxt geçdikcə ərzaq mallarının qiyməti aşağı düşür. Sonralar A.Smitin müddəaları doğru çıxdı və məsələyə bu cür yanaşma daha da gücləndi. 1980-cı illərdə isə dövlət sənədlərində, elmi konfranslarda daha da möhkəmləndi. Məsələn, 1986-cı ildə ABŞ-ın Milli Elmlər Akademiyasının məruzəsində göstərilirdi ki, əhali artımının iqtisadi inkişafa təsiri kompleks xarakter daşıyır. İşsizlik, aclıq, cəhalət, kasıblıq kimi xoşagəlməz halları təkcə insan artımı yox, bir sıra digər faktorlar meydana gətirir. Əhali və resurslar mühüm dəyişən kəmiyyətdirlər və vaxt keçdikcə onların də-yişməsi, iqtisadiyyata təsir göstərməsi müxtəlif ola bilər. Əhalinin artması nəticəsində cəmiyyətin artan xərcləri, insanların əməyini düzgün təşkil etməklə kompensasiya etmək mümkündür. Yəni hər bir əmək qabiliyyətli insan üçün dövlət münasib şərait yaratmış olarsa o, heç vaxt cəmiyyətə borclu qalmaz. Hər şey insan resurslarına olan münasibətdən asılıdır. Bunu iqtisadi inkişafın insan amili adlandırmaq olar. Əgər

insana ancaq istehlakçı kimi baxılarsa onda Maltus və onun nəzəriyyəsinin yeni təmsilçiləri müəyyən dərəcədə haqlı ola bilərdilər. Lakin həqiqətdə belə deyil. İnsan həmişə yaradıcılığı sevən canlı olub və bu gün bizə məlum olan elmi-texniki möcüzələrin hamısını insan yaradıb və bundan sonra da yaradacaq. Bunun üçün yalnız bir şey tələb olunur: insanların əməyi, yaradıcı fəaliyyəti kənd, qəsəbə, rayon, şəhər, ölkə və dünya miqyasında düzgün təşkil edilməli və istiqamətləndirilməlidir. Bunun üçün ölkələrdə insana hörmət edən, onun qayğısına qalmaq naminə korrupsiyadan əl çəkən sosial yönümlü siyasət yeridən dövlətin formalaşması tələb olunur. Xalqını sevən dövlət üstəgəl müasir və demokratik ictimai istehsal və elmi-texniki tərəqqi bütün sosial-iqtisadi məsələləri optimal səviyyədə həll etmək iqtidarında ola bilər. Son 15-20 ildə dünya təcrübəsi artıq bunu sübut etmişdir. Bu gün ÜDM ilə əhali artımı arasındakı nisbət yüksək həyat tərzi və insan kapitalına investisiya qoyuluşu arasında seçim kimi çıxış edir. Dünya əhalisi sürətlə artır, lakin dünya miqyasında ərzaq məhsulları bundan da sürətlə artır. Aclıq isə insan resurslarından istifadənin əhəmiyyətini başa düşməyən, korrupsiya və rüşvətxorluğa qurşanan ölkələrdə müşahidə olunur.

Ümumiyyətlə götürdükdə dünya iqtisadiyyatı ilə məşğul olan alim və tədqiqatçıların çoxunun və ümumdünya ictimai təşkilatlarının gəldiyi qənaət bundan ibarətdir ki, əgər ölkələrdə iqtisadi və sosial dəyişikliklər vaxtında həyata keçirilərsə, əgər elmi və texniki tərəqqi təmin edilirsə, hökumətlər sosial yönümlü siyasət həyata keçirib, ölkədə korrupsiyaya qarşı mübarizə aparılırsa, əhali artımı təhlükəli bir problemə çevrilə bilməz. İnsan resurslarına yönəldilən kapital xərclərinin, digər resurslara yönəldilən kapitaldan daha səmərəli olması da dünya təcrübəsində təsdiq edilmişdir. İnkişaf etmiş ölkələrin əldə etdikləri nailiyyətlərinin çoxu, bu ölkələrdə insan resurslarına olan diqqət və hörmətlə bağlıdır. İşçi qüvvəsinin məhsuldar potensialı, işçinin psixoloji, fiziki keyfiyyətləri və səhhəti ilə yanaşı onun həyat şəraitindən asılı olan ümumi və xüsusi savadını, istehsal təcrübəsini, mədəni inkişaf

səviyyəsini də özündə cəmləşdirir. İşçi qüvvəsinin bütün bu cür və digər mühüm xüsusiyyətləri dünya təsərrüfatının yarımsistemlərində ayrı-ayrı ölkələrdə baş verən sosial, iqtisadi, mənəvi, psixoloji, siyasi proseslərdən bilavasitə asılı olur. Bütün bu xüsusiyyətlərin əsasında isə insanın əmək qabiliyyətini təyin edən fiziki keyfiyyəti durur. Bu keyfiyyətlərin meydana gəlib səmərə verməsi isə dövlətdən asılı olur. Vaxtı ilə K.Marksın "İqtisadi inkişafın hərəkətverci qüvvəsi maşın və mexanizmlər deyil, insanlardır" ideyası bu gün tamamilə özünü doğrultmuşdur. Amerika iqtisadçısı E.Denisonun hesablamalarına görə ÜDM artımının 16% işçi qüvvəsinin təhsilinin yüksəldilməsi, 34% texniki yeniliklər və "nou-hau"ların istehsala tətbiqi nəticəsində əldə edilir. (bu da insanın təhsili və bacarığı ilə əlaqədardır). Deməli, insan amili məhsul artımının 50%-ini təmin edə bilir. E.Denison göstərir ki, maşın və mexanizmlərin kənardan alınıb istehsala tətbiqi isə ÜDM artımının cəmi 12%-ni təmin edə bilir.

İnsan resurslarına yaxşı münasibət sonda daha çox adamın işlə təmin edilməsinə, onların dünyagörüşünün yaxşılaşmasına, biliyin çoxalmasına və bunların nəticəsi kimi əmək məhsuldarlığının yüksəldilməsinə, cəmiyyətin gəlirlərinin artmasına səbəb olur. Keçən əsrin 80-ci illərində aparılan hesablamalar sübut etdi ki, işçi qüvvəsinin təhsili bir il artdıqda bu ÜDM-nın 3% artmasına səbəb ola bilir. İnkişafda olan ölkələrdə isə işçi qüvvəsinin biliyi ilə ÜDM-nın artımı arasında daha sıx əlaqə müşahidə olunmuşdur. Buna görə də insan resurslarına dövlət tərəfindən olan münasibət həmişə sağlam olmalıdır.

## §2. İnsan amili və sosial-iqtisadi inkişafda onun rolu

Dünya iqtisadiyyatı ayrı-ayrı ölkələrin iqtisadiyyatından formalaşdığına görə ölkələrin iqtisadiyyatına, ayrı-ayrı regionların iqtisadiyyatına, onların daxili imkanlarına, əldə etdikləri nailiyyətlərin səbəblərinə diqqət artırılır. Təhlil göstərir ki, insan resurslarına ciddi fikir verən ölkələr, bir qayda olaraq inkişaf səviyyələrinə görə digər

ölkələrdən daha üstün olurlar. İnsan resurslarından səmərəli istifadə etmək yolu ilə öz iqtisadiyyatlarını yüksək inkişaf səviyyəsinə çatdıran ölkələr çoxdur. İlk növbədə bu ölkələr sırasına Yaponiya, Almaniya, ABŞ, Avropa ölkələri və s. daxildir.

İnsan resurslarına ciddi fikir verməyən, ona inkişafın mühüm bir amili kimi yanaşmayan ölkələr isə əksinə əsrlərlə geri qalıblar, indi də inkişaf etmiş ölkələrdən dəfələrlə geri qalmaqda davam edirlər. Belə ölkələrə ilk növbədə həddindən çox təbii resursları olan Rusiya Federasiyası, digər MDB daxil olan ölkələrin əksəriyyəti, Afrikanın, Latın Amerikasının bir sıra dövlətləri və s. daxildir.

İstehsalda insan resurslarından istifadəni ifadə etmək üçün "insan amili" məfhumundan istifadə edilir. Əslində dünya və cəmiyyət (ölkə) miqyasında isə insan resurslarından, müəssisələr miqyasında insan amilindən istifadə edilməsi bir biri ilə əlaqədar olan vahid problemdir. İnsan amili dedikdə konkret bir müəssisədə, birlikdə, şirkətdə çalışanlardan, «insan resursları» dedikdə ölkə əhalisinin tam tərkibindən səmərəli istifadə edilməsi başa düşülür.

İnsan resurslarından istifadə etməyin zəruriliyini, səmərəliliyini ilk dərk edənlər avropalılardır. İkinci dünya müharibəsindən sonra Almaniyanın əldə etdiyi müvəffəqiyyətlərin kökündə də insan və onun taleyi dururdu. İnsan amilindən istifadə edən Almaniyanın müvəffəqiyyətləri o qədər heyranedici idi ki, dünya iqtisadiyyatında onu "Alman möcüzəsi" adlandırırdılar. "Alman möcüzəsi»nin ideoloqu və həyata keçirəni Münxen Universitetinin professoru L.Herxard idi. İqtisadiyyata aid əsərlərində və praktikada o, sosial bazar iqtisadiyyatını formalaşdırmaq məsələsini irəli sürdü və hökumətdən dəstək aldı. Onun konsepsiyasının əsasında insan resursları və insan haqqında real təsəvvürlər dururdu. O, həmvətənlərini başa salırdı ki, insanın cəmiyyətdə keyfiyyətli və məhsuldar işləməsi üçün onu stimullaşdırmaq lazımdır. L.Herxarda görə insan üçün stimul rolu - onun yaxşı yaşamağa can atmasıdır. İnsan çalışır elə bir qərar qəbul etsin ki, sonra bu qərar onun özünə və ailəsinə xeyir gətirə bilsin. İnsanın əldə etdiyi

nailiyyətin səviyyəsi çıxarılan qərarların son nəticələrinin aydınlıq dərəcəsindən asılı olur. Son nəticə insana güzgüdəki kimi aydın görünən, onun həyat tərzinə müsbət təsir göstərən olduqca o daha çox müsbət nailiyyətlər əldə edir. Bunun üçün insan azad olmalıdır.

İnsan amilinin gücü bu amilin kütləviləşdiyi, bütün cəmiyyəti əhatə etdiyi zaman ağlagəlməz dərəcədə artır. Nəticədə sosial gərginlik azalır və yaxud da tam aradan qalxır. Ölkənin idarə edilməsi sadələşir, asanlaşır, idarəetmə xərcləri azalır. Bürokratik üsul və stillər iqtisadi üsul və yanaşmalarla əvəz olunur.

Bizim respublikamız keçid iqtisadiyyatlı dövlətlərdəndir. Gələcəkdə, keçid dövrü başa çatdıqdan sonra hansı nailiyyətlər əldə ediləcəyi dövlətin insan amilinə olan münasibətindən birbaşa asılı olacaqdır. Bunu nəzərə alaraq oxuculara bu haq-da bir az geniş məlumat verməyi məqsədyönlü hesab etdik.

İnsan amili... bu iqtisadiyyatı yüksəltmək, onu sağlamlaşdırmaq, sosial məsələlərin həllinə yönəltmək üçün çox böyük bir vasitədir. Bir çox sosial-iqtisadi məsələlərin həllində insan amili bəlkə də haradasa istehsala, onun səmərəliliyinə elmi-texniki tərəqqidən də güclü təsir göstərir. Axı, elmi də, texnikanı da, istehsalı da insanlar yaradırlar və idarə edirlər. Əgər son nəticədə insanlar onlardan lazımi səviyyədə faydalanmırlarsa və bu mənfi hal uzun müddət davam edirsə, insan özü texnikanın gələcək inkişafı üçün əngələ çevrilir. Belə olmaması üçün insan öz əməyinin bəhrəsini açıq-aydın görməlidir.

Bazar iqtisadiyyatının bərqərar olmasında və onunla bağlı ümidlərin həyata keçirilməsində insan amilindən bacarıqla istifadə olunmalıdır. Məhz buna görə də bu amildən istifadə edilməsi yollarını dərindən bilmək lazımdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, insan amilindən istifadə edilməsi üçün iki mühüm şərtə əməl olunmalıdır.

Birinci şərt adamın, yaxud da adi bir vətəndaşın cəmiyyətdə yaxşı yaşamasını təmin etməklə əlaqədardır və insanların özlərindən bilavasitə asılı deyildir. Bu şərtə əməl olunması dövlət başçılarından və

onların həyata keçirdikləri siyasətdən asılıdır. Birinci şərtdən asılı olaraq ikinci şərt meydana gəlir. Lakin buna baxmayaraq ikinci şərt əsasən insanların özləri ilə bağıdır. İnsan daim özü-özünü tənqid və "tərbiyə" etməyi bacarmalı, bazar qanunlarını daim öyrənməli, ən çətin vəziyyətlərdə belə özünü itirmədən çıxış yolu tapmalıdır. O bilməlidir ki, son nəticədə insanın həyatında baş verən yaxşı və pis hadisələrin bir nömrəli səbəbkarı özüdür. İstehsal etdi-yin məhsul istehlakçıları qane etmirsə, heç kəsi günahlandırmaq lazım deyil. Bu asan yoldur, çətin, lakin müvəffəqiyyət gətirən yol günahı özündə görməkdir. Məsələn, deyək ki, əgər hər hansı bir şəxs və yaxud kollektiv məhsulu istehsal etməzdən əvvəl müəyyən səviyyədə təhlil-tədqiqat işi aparsa idi, tələb və təklifi öyrənsə idi, məhsul şübhəsiz ki, alıcıların zövqünə, maddi vəziyyətlərinə uyğun istehsal edilərdi. Sahibkar böyük dünyagörüşə, zəkaya, işgüzarlığa malik bir şəxs olmalıdır. Bu cəhətlərə malik olan şəxs isə cəmiyyətdə digərlərinə nisbətən yaxşı yaşamalıdır. Deməli, bazar iqtisadiyyatı şəraitində insan amilindən istifadə edilməsi məsələsinin həlli dövlətdən və insanların özündən asılıdır. Lakin burada həlledici rol oynayan subyekt dövlətdir. Dövlət rəhbərləri insan amilindən istifadə edilməsində həlledici rol oynaya bilərlər. Bunun üçün ilk növbədə, dövlət xüsusi təsiredici mexanizm yaratmalıdır. Elə mexanizm ki, insanların sosial-psixoloji vəziyyətləri mütərəqqi dəyişsin.

İnsan amilindən istifadə edilməsindən danışarkən bir mühüm cəhəti nəzərə almaq lazımdır. Məsələ burasındadır ki, insan amilini donmuş, fəaliyyətsiz hesab etmək olmaz. O, daim fəaliyyətdədir və cəmiyyətdə gedən bütün proseslərə təsir göstərir. Bir proses kimi bu təsiretmə obyektiv xarakter daşıyır. Rəhbərlər və yaxud da hər hansı bir digər şəxsiyyət bu təsiretmənin qarşısını ala bilməz. Dövlət bu prosesi idarə etməlidir, işgüzar sahibkarlar ordusunun formalaşdırılması qayğısına qalmalıdır.

Lakin nəzərə alınmalıdır ki, insan amilinin bazar iqtisadiyyatına təsiri həm mənfi və həm də müsbət ola bilər. Bu asılıdır onun düzgün idarə olunub-olunmamasından, əgər insan amili dərindən başa düşülürsə

və təmənnasız obyektiv idarə edilirsə, onun təsiri iqtisadiyyatın sağlamlaşdırımasına yönəldilirsə, onda insan amili də cəmiyyətin tərəqqisinə müsbət təsir göstərir. Əks halda insan amili mənfi amilə çevrilir. Məsələn, işçi və ya cəmiyyətin adi üzvü öz əməyinin bəhrəsini görmürsə, o, get-gedə süstləşir və iş zamanı təşəbbüskarlıq göstərib, daha çox iş görmək əvəzinə, oturub iş vaxtının qurtarmasını gözləyir, çox zaman isə özünün bildiyi, bacardığı şəkildə ümumi işin gedişatına mane olur və nəhayət, belə şəxs səmərəli iqtisadiyyat üçün əngələ çevrilir. Təəssüflər olsun ki, biz belə adamlarla dünya və ölkələr miqyasında hər gün rastlaşırıq və belə adamlar içərimizdə hələ çoxluq təşkil edirlər.

Bərabər yaşamağa can atmaqdansa, sahibkar olmağa can atmaq lazımdır. Onda sən də yaxşı yaşayacaqsan. Təki sənin təşəbbüsün olsun və dövlət bu təşəbbüsü alqışlasın. Yenə də təkrar etməyə dəyər ki, insan amili cəmiyyətə, onun iqtisadiyyatına o zaman müsbət təsir göstərə bilər ki, birincisi, insan özü təşəbbüskar, işgüzar, yaradıcı, çalışqan, vaxtın qədrini bilən olsun, ikincisi, dövlət, onun orqanları, müəssisə və təşkilatların rəhbərləri, ailə başçıları bu cür əlamətləri olan şəxsləri qərəzsiz, yerliçilik, tanışbazlıq etmədən axtarıb tapsın, müvafiq işlərdə işləmək üçün yerləşdirsinlər, onları hər cür maddi və mənəvi cəhətdən stimullaşdırsınlar.

İndi hətta, dünya miqyasında az adam tapılar ki, Yaponiyanın əldə etdiyi sosial-iqtisadi inkişafından, onun yüksək səviyyəyə çatmasından bixəbər olsun. Bunu hamı - fəhlə və qulluqçu da, həkim də, mühəndis də, alim də, siyasətçilər də, dövlət başçıları da yaxşı bilirlər. Lakin heç də hamı bilmir ki, əldə edilən sosial-iqtisadi müvəffəqiyyətlərin başlıca səbəbi bu ölkədə insan amilindən bacarıqla və hərtərəfli istifadə edilməsidir. Bu heç də bu gün baş verməmişdir. Yaponiya hökuməti əsrlər boyudur ki, insana hörmətlə yanaşır, insan amilindən istifadə prosesini insani cəhətlərin inkişafına yönəldir. İnsanda ola bilən pis, cəmiyyətə zidd hərəkətlərin azalması qayğısına qalır.

Yaponiya haqqında ətraflı danışmaq istəmirik, ona görə ki, bu haqda çox yazılıb (təəssüf ki, yazıların əksəriyyəti rus və başqa dillərdədir). Təkrar da olsa biz yalnız bazar iqtsiadiyyatı üçün çox dəyərli olan bəzi ştrixləri göstərməyi məqsədəuyğun hesab edirik. Yaponiya hökuməti elə bir ictimai, siyasi, iqtisadi cəhətdən azad mühit yaratmağa nail olmuşdur ki, insan amili istehsalın səmərəliliyinin başlıca səbəbinə çevrilmişdir. Mütəxəssislər Yaponiyanı iri və çox mehriban, bir-birinə hər cür kömək göstərməyə hazır olan böyük bir ailəyə bənzədirlər. Burada öz üzərində gərgin işləməyi sevən, işə yaradıcı münasibət bəsləyən, təvazökar olan, elm və texnikanın son nailiyyətlərini dərindən öyrənən və istehsala onları inamla tətbiq edən hər bir kəsin həyatın ən yüksək zirvəsinə qalxa böilməsi üçün gözəl şərait yaradılmışdır. Əbəs deyil ki, Yaponiyada olan, orada işləyən, yapon adət və ənənələrini öyrənən mütəxəssislər burada hər bir şəxsin yüksəlməsi yolunu hərəkət edən eskalatora bənzədirlər. Bu bənzətmədə bir həqiqət vardır, həyat da eskalator kimi daim hərəkət edir. Onun da birinci - aşağı və sonunda ən yüksək pilləsi vardır.

Yapon yeniyetməsi, gənc mütəxəssisi dövlətin yaratdığı sağlam mühit nəticəsində dərk edir ki, yaradıcı əməklə məşğul olarsa eskalatorun (həyatın, elmin, vəzifənin...) ən yüksək pilləsinə qalxa bilər. Bunun üçün əsas şərt insanın özünün işgüzar olmasıdır.Təki bu işgüzarlıq dövləti, rayonları, müəssisələri idarə edənlərin nəzərindən qaçmasın, əksinə güclü qollarla stimullaşdırılsın.

Əməyin motivləşdirilməsi bazar iqtisadiyyatı şəraitində insan amilindən bacarıqla istifadə edilməsi üçün ən mühüm şərtdir. İstehsalın texniki, texnoloji səviyyəsi yüksəldikcə əməyin və əmək haqqının təşkilində motivləşdirmə probleminin aktuallığı yüksəlir. İnsanlar nəyə çox həvəs göstərirlərsə, dövlət onları o işə də yönəltməlidir. Nəyisə qadağan etmək, kiməsə hökm göstərmək əmək məhsuldarlığı qazanmağa heç vaxt imkan verməyib, verməyəcək də. Bunu birdəfəlik başa düşən Qərb ölkələri çoxdan insanlara azad fəaliyyət bəxş etmişlər. Lakin onlar heç bir fəaliyyətin gizli qalmasını istəmirlər. Əksinə,

mənfəət əldə etməyə imkan verən insan fəaliyyətinin bütün rəngarəngliklərinə hörmətlə yanaşırlar, bu fəaliyyətlə məşğul olan şəxsi başa düşməyə çalışırlar və başa da düşürlər.

Münasib tədbirlər həyata keçirməklə, ayrı-ayrı şəxslərin fərdi əmək fəaliyyətinin cəmiyyətə göstərə biləcək mənfi təsirini azaltmağa, sonralar isə tam aradan qaldırmağa və müsbət təsirini isə əksinə daha da gücləndirməyə nail olmaq lazımdır. Bu çox da asan iş deyil. Lakin dövlət bu məsələni həll etməyə biganəlik göstərməməlidir. Necə deyərlər, həyatda xırda şey olmur. Hər şeyə, hadisəyə, əlamətə, davranışa ciddi fikir vermək insan amilindən istifadə olunması üçün əsas şərtlərdən biridir.

İnsan amilindən dövlət bacarıqla istifadə etməlidir. Bu sahədə nəzərdə tutulan və həyata keçirilən tədbirlərin içərisində insana yaxşı işləmək bacarığı öyrətməyə yönəldilən tədbirlər mühüm əhəmiyyət kəsb edir. Yaxşı və keyfiyyətli işləmək vərdişləri... Bu vərdiş fəhlədə, nazirdə, dövlətin başçısında da olmalıdır. Ədalətli, sağlam cəmiyyətə yol, bu cəmiyyətdə ömür sürən hər bir kəsin öz işinə yaradıcı münasibət bəsləməsi və keyfiyyətli işləmək vərdişini əldə etmək yolundan keçir. Amerikada, Almaniyada, İngiltərədə və digər qabaqcıl Qərb ölkələrində bu sahədə böyük müvəffəqiyyətlər qazanılmasına baxmayaraq, istehsalı idarə edənlər bu problem üzrə işləməkdə davam edirlər. Onların hamsının fikrinə görə Amerika, ingilis, alman fəhlə və qulluqçuları keyfiyyətli işləmək bacarığın hələ də yapon fəhlə və qulluqçularına çatmamışlar.

Yaponiyanın müvəffəqiyyəti əslində yapon fəhləsinin, mühəndisinin, dövlət işçisinin keyfiyyətli işinin nəticəsidir. Sosial bazar iqtisadiyyatının formalaşmasını bunsuz əldə etmək qeyri-mümkündür. Burada dövlətin rolu böyükdür. O, birinci növbədə, özünün misalında bunu xalqa göstərməlidir. Xalq hər şeyi görür. Hər kəs dərindən bilməlidir: hansı hərəkətinə görə o, dövlətdən cəza, hansı hərəkətinə görə mükafat ala bilər. Deməli, dövlət sosial bazar iqtisadiyyatına uyğun insan tərbiyə edilməsinə daim ciddi fikir verməlidir. Axı, cəmiyyətdə

hər şeyi insanlar görürlər. Çox zaman insanlar, daha doğrusu, əllərində imkan olan bir qrup insanlar həyata keçirdikləri siyasətin cəmiyyət və hətta onların özləri üçün sonralar nə ilə nəticələnəcəyini həmin anda başa düşmürlər, dərk edə bilmirlər. Ölkəni idarə edənlər isə bunu dərhal görməlidirlər. İnsanların fəaliyyəti onlar tərəfindən idarə edilməli və son nəticədə sağlam iqtisadiyyatın bərqərar olmasına yönəldilməlidir.

Hər bir insanın arzusu yaxşı dolanmaq, xoşbəxt həyat keçirməkdir. Lakin dövlət imkan verməməlidir ki, bir şəxsin, bir kollektivin yaxşı yaşaması hesabına ölkənin iqtisadiyyatı xəstələnsin, insanlarda mənfi psixologiya formalaşsın. Hər bir kəs öz işini sevməli, onunla fəxr etməlidir, ancaq bu nə vaxt ola bilər? O zaman ki, əməkçi öz əməyinin bəhrəsini görsün. Əgər cəmiyyətin hər hansı bir üzvü varlanmağın mənbəyini gərgin əməkdə görə bilmirsə, onda sağlam psixologiyadan danışmağa dəyməz.

Asan yolla varlanmaq istəyən şəxslərin, cəmiyyət üzvlərinin sayı artdıqca, cəmiyyətin iqtisadiyyatı da getdikcə daha çox pis vəziyyətə düçar olur. Buna görə də dövlət öz-özünü iflic etməmək üçün insanlarda işgüzarlığın, keyfiyyətli və yaradıcılıqla işləmək vərdişinin daim aşılanması qeydinə qalmalıdır. İnsan amilindən istifadə olunmasına münasibət və bu məsələnin həlli yolları sahəsində inkişaf etmiş ölkələrin böyük təcrübəsi vardır. Məsələn, ABŞ-da insan amilindən istifadə edilməsinin yeni yolları araşdırılıb tapılır. Son illərdə burada əmə-yin təşkilinin və stimullaşdırılmasının, yəni nəzəri və praktiki məsələləri meydana gəlmiş və konkret istehsallarda istifadə olunmağa başlanılmışdır. Söhbət əslində insan amilindən yeni üsullarla istifadə edilməsindən gedir. Burada insan amili əməyin düzgün, konkret istehsal şəraitinə uyğun şəkildə təşkil edilməsi və stimullaşdırılması mexanizmi vasitəsilə reallaşdırılır.

Əməyin düzgün təşkili və stimullaşdırılması insan amilindən istifadə olunmasında ən mühüm yer tutur. İstehsalın texniki səviyyəsi yüksəldikcə, kompüterləşmə inkişaf etdikcə bu problemin aktuallıq dərəcəsi də artır. Eyni zamanda yüksək texniki səviyyəyə malik

istehsalın özü insan amilindən daha düzgün istifadə olunmasını tələb edir. Bazar iqtisadiyyatı şəraitində işçi funksiyasının planlaşdırılması və müxtəlif şəklə salınması variasiyası böyük əhəmiyyət kəsb edir. Əməyin funksiyasının planlaşdırılması və variasiyası işçinin ixtisas və savadı nəzərə alınmaqla həyata keçirilməlidir. Bu da əməyin dəqiq motivləşdirilməsini tələb edir.

Hər bir insanın daha məhsuldar işləməsi üçün iki mühüm şərt vacibdir. Birincisi, istehsalın texnologiyasına uyuğn olaraq işçinin əməyinə sərt şəkildə nəzarət edilməsidir. İşçi bu nəzarətin altında çalışır və əgər nəzarət zəif olarsa, onun öz funksiyasını lazımi səviyyədə yerinə yetirməməsi ehtimalı meydana gəlir. Bu ehtimalı azaltmaq üçün əməyin motviləşdirilməsindən istifadə etmək lazımdır. Onu da qeyd etmək lazımdır ki, əməyin motivləşdirilməsinin real şəkildə mənası işçinin ancaq özünəməxsus avtonomiyası (tam istehsal prosesinə nisbətən) olanda vardır. Deməli, əməyin motivləşdirilməsi üçün əsasən onun avtonomlaşdırılması qeydinə qalmaq lazımdır. Bu isə öz növbəsində istehsalın texniki səviyyəsinin yüksəldilməsini, onun kompüterləşməsini tələb edir. Yeni texnika və texnolo-giya çox hallarda işçinin istehsal avtonomiyasını yüksəldir. Onu idarə etməyə cəlb edir. O, müəssisəni öz işçi çərçivəsində idarə etməyə başlayır. Belə işçiyə heç bir bürokratik nəzarət lazım deyil. O, öz funksiyasını yaxşı bilir, öz işini özü idarə edir. Əgər lazım gələrsə istehsalın idarə olunmasında fəallıq göstərir, səmərəli istehsal mühitinin formalaşması qeydinə qalır və əgər işçilərin böyük əksəriyyəti bu cür hərəkət edirsə, onda işlək, məhsuldar və sağlam istehsal orqanizmi formalaşır və məhsuldarlıq yüksəlir.

Deməli, bazar iqtisadiyyatı əməyin motivləşdirilməsini hökmən tələb edir. Elə şərait yaradılmalıdır ki, insan özü başa düşsün ki, götürülmüş konkret bir işdə o, özünə, işlədiyi müəssisəyə, respublikasına lazımi faydanı verə bilər, ya yox. Ancaq belə olan tərzdə hazırda dövlətlərdə işə və xüsusən vəzifəyə olan münasibətimiz yaxşılaşar, biganəlikdən yaxa qurtarmaq olar. Bu biganəliyin mahiyyəti ondadır ki, hamı işləmək və xüsusən vəzifədə işləmək, çox pul

qazanmaq istəyir, öz bilik və bacarıqları haqqında isə düşünən çox azdır. Çox zaman gözüyumulu bir işin, vəzifənin dalınca qaçan cəmiyyət üzvü nəticədə həm özünə və həm də dövlətinə ziyan vurmuş olur. Dövlət bunun qarşısını almalıdır.

Hər kəsin vəzifə tutmağa can atması cəmiyyətdə yaranan sosial-psixoloji və sosial-mənəvi mühitlə bağlı olur və əməyin motivləşdirilməməsinin nəticəsidir. Bir də ona görədir ki, insanlar firavan həyata keçirməyi vəzifə tutmaqda görürlər. Çünki hamı yaxşı görür ki, qonşusu vəzifə alandan sonra varlanıb. Bazar iqtisadiyyatı şəraitində bu belə olmamalıdır. Vəzifələr xalqa keyfiyyətli xidmət göstərməyi sevən, mənəviyyatca təmiz olan şəxslərə tapşırılmalıdır. Biz demirik ki, bu şəxslər vəzifələrdə işləyib, kasıb yaşamalıdırlar. Sadəcə olaraq dövlət elə bir mühitin formalaşması qayğısına qalmalıdır ki, insanlar vəzifədən istifadə edib qanunsuz varlanmaq imkanı əldə edə bilməsinlər. Ona görə ki, vəzifəyə görə varlanmaq kütləvi şəkil alanda cəmiyyət sağalmayan xəstəliyə düçar olur. Zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatının indiki acınacaqlı vəziyyətinin səbəbi də elə budur. Sosial bazar formalaşdırmaq istəyən dövlət insanların psixologiyasına təsir etməli, onu bazar iqtisadiyyatı tələblərinə uyğun dəyişməlidir. Bunun üçün isə güclü dövlət proqramları tələb olunur.

Bazar iqtisadiyyatı şəraitində əməyin motivləşdirilməsi vasitəsilə insan resurslarından istifadəni yaxşılaşdırmaq olar. Bunu Qərb ölkələrinin təcrübəsi aydın göstərir. Məsələn, Amerikanın bir sıra iqtisadçıları, sosioloqları və psixoloqları çoxdan bu sahədə əməli iş aparırlar və onlar əməyin təşkili və stimul-laşdırılması sahəsində tam yeni, ənənəvi olmayan prinsiplərə əsaslanan konsepsiya hazırlayırlar. Hazırda Amerikanın dövri mətbuatında, dərs vəsaitlərində geniş işlədilən “Əmək fəaliyyətinin keyfiyyəti”, “Əmək məzmununun zənginləşdirilməsi”, “Əməyin humanizmləşdirilməsi”, “Zəhmətkeşlərin birgə səyi” nəzəriyyələri belə konsepsiyalardandır. Bu konsepsiyalarda qırmızı xətlə gözə çarpan cəhət prinsipcə tam yeni olan tezislərdir. Belə tezislərin mahiyyəti ondadır ki, konsepsiyanın müəlliflərinin fikrincə

burada əsas məsələ işçilərin fəallığının yüksəldilməsidir. Fəhlə, mühəndis, hüquqşünas, sex rəisi, direktor, ölkə prezidenti, istehsal və sosial cəhətdən lazımi səviyyədə aktiv olmalıdırlar, Konsepsiya müəlliflərinin fikrincə, ancaq belə olan halda cəmiyyət üzvləri öz bacarıqlarından tam istifadə etməyə can atıb gərgin və səmərəli işləyirlər.

Qeyd etmək lazımdır ki, əməyin təşkili və stimullaşdırılmasına prinsipcə yeni münasibət bəslənilməsi və buna nail olmaq üçün əmək motivlərindən istifadə edilməsi yalnız o zaman istənilən səmərəni verə bilər ki, kadrların seçilib yerləşdirilməsi obyektiv prinsiplərə görə aparılsın. Əslində əməyin motivləşdirilməsi kadrların seçilib yerləşdirilməsindən başlayır. Elə buna görə də əməyin motivləşdirilməsindən danışarkən kadrların seçilib yerləşdirilməsi motivlərindən də danışmaq lazımdır. Niyə? Ona görə ki, kadrların seçilib yerləşdirilməsi dövlət strukturunda çalışan insanların əməyinin son nəticəsidir. Əgər tornaçı müəyyən prosesi (konkret desək yonma prosesini) həyata keçirməklə işçi cizgisinə uyğun maşın hissəsini hazırlayırsa, dövlət strukturunda çalışan şəxs isə özünəməxsus proseslər həyata keçirməklə kadr seçir və yerlərdə işləməyə göndərir. Deməli, kadrların seçilməsi də, tornaçının hazırladığı maşın hissəsi də əmək proseslərinin nəticəsidir. Hər iki halda son məhsul (kadrın seçilib yerləşdirilməsi və cizgiyə uyğun maşın hissəsinin hazırlanması) keyfiyyətli olmalıdır. Məsələyə bu cür yanaşmağın cəmiyyət üçün böyük əhəmiyyəti vardır. Əgər biz tornaçının əməyinin motivləşdirilməsindən, onun əmək məhsuldarlığından, onun nizam-intizamından danışırıqsa, onda kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxsin (şəxslərin) əməyi haqqında də eyni cür danışmaq lazımdır. Kadrların seçilməsi və yerləşdirilməsi ilə məşğul olan şəxsin də əməyi motviləşdirilməli, məhsuldar və keyfiyyətli olmalıdır.

Lakin həyatda heç də belə olmur. Fəhlənin (tornaçının) əməyinə qoyulan nəzarət rəhbər işçinin əməyinə qoyulan nəzarətdən üstün olur. Məsələn, tornaçı hissəni işçi cizgisinə görə hazırlasa da, onu yığma

sexinə verməzdən qabaq həm özü və həm də sexdə fəaliyyət göstərən xüsusi işçilər - nəzarətçilər yoxlayırlar. Ancaq obyektiv yoxlamadan keçən detal və qovşaqlar yığma sexinə verilir. Bəs kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxslərin əməyinə kim nəzarət edir? O, son məhsulunu hazırlayarkən (kadrı seçərkən) hansı "cizgidən" istifadə edir və onun son məhsulunun - seçilmiş kadrın keyfiyyətini hansı nəzarətçi yoxlayır? Və ən başlıcası da budur ki, tornaçı istehsal etdiyi (yonduğu) maşın hissələrinin kəmiyyət və keyfiyyəiinə görə əmək haqqı alır. Kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxslərin aldığı əmək haqqı isə onun əməyinin son nəticəsindən eyni qayda ilə bağlı olmur. Deməli, onların əməyi də motivləşdirilmir. Bazar iqtisadiyyatı, xüsusən sosial bazar iqtisadiyyatı şəraitində isə bu cür hala yol verilməməlidir. Hansı səviyyədə vəzifə tutmasından, hansı peşədə çalışmasından asılı olmayaraq bütün adamların əmə-yinə görə yaşamasını təmin etmək üçün onların zəhmətləri motivləşdirilməlidir.

Burada həll olunması çətin görünən məsələ kadrların seçilib yerləşdirilməsi ilə məşğul olan şəxslərin əməyinə qiymət verilməsi və ona nəzarət edilməsi məsələsidir. Kadrları seçib yerləşdirən şəxslərin (idarə orqanlarının, dövlət strukturlarının) əməyinə qiymət seçilən şəxsin müəyyən dövrdə, təyin edildiyi yerdə (sahədə) əldə etdiyi sosial-iqtisadi nəticələrə görə verilməlidir. Doğrudan da məsul bir vəzifəyə təyin olunmuş şəxs əgər düzgün seçilibsə, o, təşəbbüskar, işgüzar, mənəvi cəhətdən təmiz olmalıdır. Öz vəzifəsini dərindən başa düşməlidir və məhz bu keyfiyyətlərinə görə də böyük müvəffəqiyyətlər əldə etməlidir.

Bazar iqtisadiyyatı şəraitində əməyin səmərələşdirilməsi və insan amilinin aktivləşdirilməsi müxtəlif yollarla həyata keçirilə bilər. Bu yollar inkişaf etmiş ölkələrdə çoxdan məlum olsa da inkişafda olan ölkələrdə hələ aydınlaşdırılmayıb və onlardan istifadə olunma əhəmiyyətinə fikir verilmir.

Əməyin səmərələşdirilməsi və insan amilinin aktivləşdirilməsində əsas məqsəd fərdi əməyin ictimai xarakter daşımasını istehsal

prosesində iştirak edən hər bir şəxsə başa salmaqdır. Hər bir fərdi şəxsin əməyi kollektiv əməyin səmərəlili-yinə və əksinə təsir göstərir. Əməyin motivləşdirilməsi elə həyata keçirilməlidir ki, hər bir şəxs aydın dərk etsin ki, onun gəliri, mədəni inkişafı, ümumi həyat səviyyəsinin yüksəlməsi həm özünün fərdi bacarığından və həm də işlədiyi kollektivin və yaşadığı cəmiyyətin (dövlətin) tərəqqisindən asılıdır. Deməli, bu baxımdan ölkədə yaşayan hər bir şəxs bilməlidir ki, o, üç mənbədən faydalana bilər: öz fərdi əməyindən, işlədiyi kollektivin əldə etdiyi nəticələrdən və yaşadığı ölkənin müvəffəqiyyətindən. Ancaq məsələ belə qoyulduğu halda dövlət kollektivin və fərdinin qayğısına qalmağa və əksinə, fərdilər və kollektivlər də dövətin qayğısına qalmağa səy göstərəcəklər. Bu qarşılıqlı münasibətlərin daim saxlanılması və təkmilləşdirilməsi üçün bütün qüvvələr səfərbərliyə alınmalıdır.

Aparılan tədqiqat işi göstərdi ki, zəif inkişaf etmiş ölkələrin əksəriyyətində yaranmış sosial-iqtisadi və mənəvi-psixoloji mühitdə əhalinin əksəriyyəti özünü təklənmiş hiss edir. Bir qayda olaraq bu cür mənfi hissiyyat isə onunla nəticələnir ki, adamlar ancaq özləri haqqında daha çox fikirləşməli olurlar. İşlədiyi kollektivin və yaşadığı ərazinin müvəffəqiyyətləri onu heç də maraqlandırmır. Bu cür psixologiya əməyin motivləşdirilməsi məsələsinin, fərdi və kollektiv maraqların uyğunlaşdırılması məsələsinin düzgün qoyulmaması üzündən baş verir. Ümumiyyətlə götürdükdə, zəif inkişaf edən ölkələrdə yuxarıda göstərdiyimiz insanın faydalana biləcəyi üç mənbədən ancaq biri, fərdinin öz bacarığı inkişaf etmiş ölkələrdə isə hər üç mənbə fəaliyyət göstərir.

Deməli, real bazar iqtisadiyyatını formalaşdırmaq üçün növbəti mühüm məsələ fərdilərin maddi və mənəvi maraqlandırılmasının hər üç mənbəyindən bacarıqla istifadə edilməsinə nail olmaqdır. Hər bir ölkədə elə sosial-psixoloji mühit yaradılmalıdır ki, burada hər bir fərd (və ya iqtisadi ərazi) dövlətin, dövlət isə hər bir fərdinin, (iqtisadi rayonun) qayğısını hiss edə bilsin. Dünyanın varlı ölkələri bu atributları çoxdan başa düşmüşlər. Elə onların varlı olmasının bir başlıca səbəbi də budur.

Hələ vaxtı ilə Adam Smit demişdir ki, insan normal şəkildə öz tələbatlarını ödəməli və yaşamalıdır və əgər bu ona aldığı əmək haqqı ilə müyəssər olmursa, o, başqa yollar axtarmağa məcbur olur. Ölkədə yaşayan hər bir şəxs əməyinin nəticəsini hiss etməsə, kollektivin və dövlətin müvəffəqiyyətlərindən faydalanmasa, iqtisadiyyatın sağlamlaşdırılmasından söhbət gedə bilməz. Bəs bu problemi necə həll etməli?

Son onilliklərdə bu problem inkişaf etmiş sənaye ölkələrində müvəffəqiyyətlə həll olunur. Bunun üçün müxtəlif üsullardan istfiadə edilir? İşçi kollektivlərində "keyfiyyət dərnəkləri" yaradılır, buna əsasən qrup stimullaşdırılması həyata keçirilir. Fəhlələrin müəssisədə əldə ediləcək mənfəətin formalaşmasına cəlb olunması sistemindən istifadə edilir. Fəhlələrin aksiyaları almağa cəlb olunması üsulu həyata keçirilir və s. Əldə etdiyimiz məlumatlara görə ABŞ-da kompaniyaların 63 faizində kollektiv stimullaşdırmaya əsaslanan "keyfiyyət dərnəkləri" fəaliyyət göstərir, 70 faizində fəhlələrin mənfəətdə iştirakının təmin ounması sistemindən istifadə edilir və 83 faizində isə işçilərin aksiyalara sahib olması üsülunu daha üstün sayırlar. Görünüdüyü kimi, ABŞ sahibkarları əməyin motivləşdirilməsi əsasında stimullaşdırılması məsələsini müxtəlif şəkildə həll etsə də, üsullardan həm ayrı-ayrı şəkildə və həm də bir neçə üsulun kombinasiyasından istifadə edirlər. Bundan başqa, inkişaf etmiş ölkələrdə dövlət miqyasında böyük sosial əhəmiyyətə malik proqramlar işləyib hazırlayırlar və həyata keçirirlər. "İşçi qüvvəsinin peşə cəhətdən inkişaf proqramı", "Zəhmətkeşlərin istehsalın idarə olunmasına cəlb edilməsi proqramı", "Əmək prosesinin özünün yenidən qurulmasına yönələn proqramlar", "Əməyin maddi stimullaşdırılmasının yeni, qeyri-ənənəvi üsullarının işlənib hazırlanmasına və istehsala tətbiqini nəzərdə tutan proqramlar", "İş vaxtının təşkilinin yeni formalarını sınaqdan keçirən proqramlar" və s. belə proqramlardandır.

### §3. Bazar və dövlət mexanizmlərinin uyğunlaşdırılması

İnsan resurslarından səmərəli istifadə edilməsi problemi çoxşaxəli və mürəkkəbdir. Məsələ burasındadır ki, problem təkcə insan resurslarından yaxşı istifadəni özündə cəmləşdirmir. Bura eyni zamanda bir-biri ilə sıx əlaqədə olan digər kompleks məsələlərin həlli də daxildir. Daha doğrusu, bunun üçün digər məsələlərin də həlli tələb olunur. Bunlardan ən önəmlisi bazar və dövlət mexanizmlərinin uyğunlaşdırılması və qarşılıqlı əlaqələndirilməsi məsələsidir.

Hətta inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bazar mexanizmi heç də həmişə və hər yerdə optimal nəticələr əldə etməyə şərait yarada bilmir. Elə dünya miqyasında baş verən müxtəlif böhranlar, planetə öldürücü zərbələr vura bilən qlobal problemlərin tüğyan etməsi buna əyani sübutdur. ABŞ, Yaponiya, Kanada, Almaniya və s. bu kimi dövlətlər çoxdan başa düşüblər ki, bir çox həyati problemlərin həllini ancaq bazara "tapşırmaq" olmaz, dövlətin bu məsələlərə ciddi şəkildə qarışması tələb olunur. Bu cür problemlər çoxdur. İriləşdirilmiş şəkildə onlardan bir neçəsinin üzərində dayanaq.

Birincisi. Müasir istehsalın inkişafı və optimal fəaliyyət göstərməsi rəqabəti gücləndirir. Bununla yanaşı istehsalçılar və istehlakçılar arasında sahibkarlarla fəhlələr arasında kooperasiya və əməkdaşlıq əlaqələri yaranır. Dövlət mexanizmində bu əlaqələr zamanı ortaya çıxan və yaxud da prosesin başlanması və etibarlı baş verməsi üçün tələb olunan prisipial məsələlərin həll edilməsinə təsir göstərə bilən rıçaqlar nəzərdə tutulmalıdır. Ən sadə halda hökumət bu əlaqələrdə vasitəçi rolunda çıxış etməli olur.

İkincisi. Azad bazar iqtisadiyyatı ETT üçün münasib şərait yaradır. Lakin ETT sosiali-iqtisadi səmərə verməklə yanaşı bir sıra neqativ hallar da baş verir. Sosial bərabərsizliyin artması, işsizlik normasının yüksəlməsi, əməyin gərginliyinin artması və s. belə hallardandır. Bu vəziyyətdə dövlət məsələyə müdaxilə etməli olur. İqtisadi səmərə ilə sosial ədalətsizliyi tarazlaşdırmaq da dövlətin üzərinə

düşür. Bundan başqa, gəlirlərin yenidən bölüşdürülməsi də dövlətin funksiyasıdır.

Üçüncüsü. Elm, təhsil, sağlamlıq, ətraf mühitin qorunması kimi ümumbəşəri dəyərlərin əhəmiyyəti son illərdə daha da artmışdır. Bu dəyərlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlətin proseslərə qarışması zərurətini ortaya çıxarır.

Dördüncüsü. ETT hərtərəfli və həcmli şəkildə sürətlənir. Misli görünməmiş miqyasda məhsuldar qüvvələrin mənimsənilməsi və sonradan onlardan sosial iqtisadi inkişaf naminə səmərəli istifadə edilməsi, qısamüddətli məqsədlərin uzun- müddətli məqsədlərlə uyğunlaşdırılması kimi məsələləri azad bazar həll edə bilmir, dövlətin bu məsələlərə müdaxiləsi labud lazım olur və bu cür müdaxilənin obyektiv əsası vardır. Bu deyilənlər bir daha sübut edir ki, müasir sivil dövlət bazar iqtisadiyyatının həll edə bilmədiyi problemləri həll etməlidir. Əsas məsələ təsiretmə üsullarının seçilməsidir. Burada inkişaf etmiş ölkələrin böyük təcrübəsi vardır. Keçən əsrin 60-cı illərində və 70-ci ilin əvvəllərində dövlət mexanizmi əsasən sosial məsələlərin həllinə yönəldilirdi və keçən illərə nisbətən inkişaf edən dövlətlərin sosial sferaya yönəltdikləri vəsait rekord səviyyədə çoxaldı. İnsan resursunun saxlanılmasına, inkişafına və səmərəli istifadə edilməsinə yönələn güclü xidmət bloku dövlət təsərrüfat mexanizmində fəaliyyətə başladı. Bu mexanizmin təsir etdiyi obyektlərin sırası belə idi: pensiyalar, təhsil, səhiyyə, işsizliyə görə müavinət. Nəticədə inkişaf etmiş ölkələrdə dövlətin sosial sferaya yönəltdiyi vəsaitin dəyəri ÜDM-un 20%-dən də çoxunu təşkil edir və gələcəkdə də təxminən bu səviyyədə qalması gözlənilir. Beləliklə, Qərb ölkələri sahibkarlara azadlıq, rəqabətə yaşıl yol verən sahibkarların orta təbəqəsini yarada bilən bazar mexanizmi ilə müvəffəqiyyətlə uyğunlaşan və sosial tələbatları ödəyə bilən dövlət mexanizmi yarada bilmişlər.

Lakin bu uyğunlaşma heç də düz və hamar yolla baş vermir. Məsələn, 1980-cı ilin əvvəllərində bir neçə inkişaf etmiş ölkələrdə konservatorların hakimiyyətə gəlməsi dövlət mexanizmini nisbətən

dəyişə bildi. Dəyişikliklərin əsas səbəbi kimi onlar keçən əsrin 70-ci illərinin ortalarında iqtisadi böhranları və iqtisadi inkişafın qeyri-dayanıqlı olmasını göstərirdilər. Konservativ hökumətlərin fikrincə özlərindən əvvəl formalaşmış dövlət mexanizmi sosial orientiri əsas götürərək nəticədə insan resurslarına hörmət edilməsinə nail olsa da, sonda bürokratik dövlət institutlarının çoxaldılmasına, ölkədə bürokratiyanın kök salmasına, bazarın rəqabət qabiliyyətliliyinin zəifləməsinə, dövlətin iqtisadiyyata müdaxiləsinin güclənməsinə gətirib çıxarmışdır. Buna görə də konservativ hökumətlər dövlət mexanizmi ilə bazar iqtisadiyyatı mexanizminin uyğunlaşmasında bazar mexanizminin güclənməsi tərəfə müəyyən dəyişikliklər etməli oldular. Nəticədə bir neçə sosial proqramların həyata keçirilməsi dayandırıldı. Bütövlükdə bu tədbirlər sosial xərclərin artım sürətini zəiflədə bilsələr də sosial xərclərin azalmasına səbəb olmadı. Buna görə inkişaf etmiş ölkələrdə bu gün də dövlət mexanizmi güclü sosial meylli olaraq qalır.

İnsan resurslarından istifadəni yaxşılaşdırmaq sahəsində məşğulluq və işsizlik və onların səviyyələri mühüm rol oynayır. İnsan resurslarına hörmətlə yanaşan, onların istifadəsindən əldə edilən səmərənin səviyyəsini başa düşən dövlətlər məşğulluq səviyyəsini yüksəltmək və buna müvafiq olaraq işsizliyi azaltmaq istiqamətində idarəetmənin bütün pillələrində və müxtəlif dövrlər üçün tədbirlər işləyib həyata keçirirlər. Problemin həllinə müsbət və mənfi təsir göstərən amillərə xüsusi fikir verilir. İşsizlik və məşğulluğa mənfi təsir göstərən əsas amillərə 2000-ci illərin birinci yarısında ÜDM sürətinin nisbətən aşağı olması, Şərqi Avropa və inkişafda olan ölkələrdən miqrasiya proseslərinin güclənməsi, qadınların aktivliyinin yüksəldilməsi, ekoloji xərclərin çoxalması kimi amillər daxildir. Bu prosesə əsasən müsbət təsir göstərən amillər isə demoqrafik vəziyyətin dəyişməsi, iş vaxtının getdikcə qısalması meyli kimi amillər ola bilər.

Bütün bunları qeyd etməklə yanaşı onu da göstərmək lazımdır ki, son nəticədə insan resurslarından istifadənin yaxşılaşması yenə də dövlət mexanizmi modelinin seçilməsindən asılı olacaq. Dəyişilən

mühitə uyğun dövlət mexanizmi seçilməlidir. Məsələn elə götürək çox sürətlə baş verən kompüterləşməni və geniş yayılan informasiya texnologiyasını. Bu gün dövlət mexanizmi bu prosesi nəzərə alan qollara malik olmalıdır. Ona görə ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrin hamısında yeni yaradılan iş yerlərinin xarakteri ilə işçilərin çox hissəsinin real ixtisas səviyyəsi arasında uyğunsuzluqlar meydana gəlmişdir. Bu uyğunsuzluğun nisbətən qısa müddətdə aradan qaldırılması isə dövlətin həyata keçirəcəyi təhsil, kadr hazırlanması və yenidən hazırlanması və məşğulluq siyasətindən bilavasitə asılı olacaq. Ümumiyyətlə götürdükdə insan resurslarından istifadə edilməsinə və xüsusən də məşğulluq və işsizlik problemlərinin həllinə ETT-in mənfi təsiri 2000-ci illərin birinci 5-7 ilində güclənə bilər. Məsələn, robototexnikanın kütləvi şəkildə istehsala tətbiqi daha mükəmməl kompüter ekspert sistemlərindən istifadə etməklə informatika texnologiyasından hərtərəfli istifadə edilməsi bu gün ən yeni və perspektivli sayılan istehsal sahələrində işləyənləri sıxışdırıb çıxara bilər. Bundan başqa, dövlət mexanizmi iki cəhəti də həmişə nəzərə almalı və bu istiqamətdə təkmilləşdirilməlidir. Birincisi nəzərə alınmalıdır ki, qarşıdakı 5-6 ildə elmi-texniki və sosial-iqtisadi inkişaf bir sıra resursların qıtlığı ilə qarşılaşmalı olacaq və deməli, dövlət mexanizmində qıtlığı yarada biləcək məhdudiyyətləri aradan qaldırmağa qadir təsərrüfat lingləri olmasa, inkişaf öz sürətini azalda bilər. Bundan başqa, dövlət mexanizmi yaxın 10 ildə əmək bazarında baş verə biləcək peşə və sahə struktur dəyişmələrini, maddi istehsalda işçilərə olan tələbatın azalacağını, informatika sferasında isə əksinə çoxalacağını nəzərə almalıdır.

İkincisi xidmət sahəsinə işçilər cəlb edilməsi öz intensivliyini yavaş-yavaş zəiflədir. Keçən əsrin ortalarından bu günə qədər İnkişaf etmiş ölkələrin ÜDM-da "xidmət"in xüsusi çəkisi 50%-i ötmüşdür. Xidmət sahəsi məhdudiyyətsiz inkişaf edə bilməz. Buna görə də gələcəkdə ETT və digər amillərin təsiri altında maddi istehsalda ixtisara

düşən işçiləri xidmət sahələrinə cəlb etmək prosesinin zəifləyəcəyi gözlənilir. Dövlət mexanizmi bunu nəzərə almalıdır.

Son 10-15 ildə bir çox ölkələr elmi-texniki və sosial-iqtisadi inkişafın yeni strategiyasını hazırlamışlar və bunun vasitəsilə insan resurslarından istifadə edilməsinə mane ola biləcək amillərin aktivliyini zəiflətməyə çalışırlar. Bu sahədə dünya miqyasında əldə edilmiş müsbət nəticə var. Yeni strategiyada insan və onun inkişafı haqqında qırmızı xətlə keçən ideya, əsas məqsəd həyatın keyfiyyəti və onun yüksəldilməsidir. Yaşamaq şəraitinin sağlamlaşdırılması, insanın inkişaf və iş şəraitinin yaxşılaşdırılması, ətraf mühitin təkmilləşdirilməsi, ekoloji cəhətdən təmiz məhsulların sayının və həcminin çoxaldılması, şəxsiyyətin özünün inkişafı və s. bu kimi digər məsələr, yeni strategiyada ön planda durur. Bütün ölkələr bu və ya digər səviyyədə, bu və ya digər yollarla iqtisadi inkişafa nail olmaq istəyirlər. İqtisadi inkişaf isə öz növbəsində çoxlu vəsait tələb edir. Digər tərəfdən ölkələr sosial məsələləri də yüksək səviyyədə həll etmək istəyirlər və bu yolla insan resurslarından səmərəli istifadə etməyə çalışırlar. Bu da çoxlu vəsait tələb edir. Deməli, ölkədə fəaliyyət göstərən dövlət mexanizmi bazar qanunlarına maksimum əməl etmək şərtilə vəsaitləri iqtisadi və sosial sferalar arasında optimal bölüşdürməyə qadir olmalıdır.

ETT və sosial-iqtisadi inkişafın yeni modellərində problemləri həll etmək üçün dövlətlər (xüsusən də inkişaf etmiş sənaye nəhəngləri) aşağıdakı mühüm istiqamətlər üzrə əməli tədbirləri həyata keçirməyi qarşılarına məqsəd qoymuşlar. İlk növbədə texnologiyaların təkmilləşdirilməsi nəzərdə tutulur ki, bu da tullantısız istehsalların miqyasını artırmağa, enerjiyə, materiala, yanacağa qənaət edən emal proseslərinin meydana gəlməsinə, tullantıların utilizasiyasına praktikada imkan verən yeni texnologiyaların yaradılmasına, alternativ enerji mənbələrinin yaradılması və istifadə edilməsinə səbəb olmalıdır.

Yeni ETT və inkişaf strategiyasında sosial-iqtisadi tədbirlərin məqsədi keyfiyyətli iqtisadi yüksəliş üçün, insan resurslarından məhsuldar və tam istifadəsi üçün əməyin humanistləşdirilməsi, əmək

həyatı keyfiyyətinin yaxşılaşdırılması və iş vaxtının qısaldılması üçün münasib şəraitin yaradılmasını nəzərdə tutur. ETT sürətləndikcə, istehsalın texniki səviyyəsi yüksəldikcə səmərəli mühüt, səmərəli istehsal-təsərrüfat fəaliyyəti daha çox üzvi şəkildə sosial-psixoloji amil və şərtlərdən asılı olur. Bunu nəzərə alaraq yeni strategiyada, bu vaxta qədər əksər dövlətlərdə lazımi səviyyədə nəzərə alınmayan, şəxsi və ictimai tələbatların quruluşunun dəyişdirilməsi, həddindən çox istehsaldan imtina edilməsi və əhalinin mədəni və intellektual tələbatlarının isə daha dərin ödənilməsi kimi çox mühüm aspektlər geniş yer tutur. ETT və sosial-iqtisadi inkişafın yeni strategiyası ictimai-siyasi tədbirlərin də həyata keçirilməsini nəzərdə tutur. Burada əsas məsələ kimi iqtisadi və ETT siyasətində prioritetləri (üstün tutulan məqsədləri) həyat keyfiyyətinin yaxşılaşdırılması tərəfinə (xeyrinə) dəyişdirmək əsas götürülür. İnsan resurslarından istifadənin yeni modelləri əməyin motivləşdirilməsinin yeni mexanizmlərinin meydana gəlməsini tələb edir.

# XII FƏSİL. AZƏRBAYCAN DÜNYA TƏSƏRRÜFAT SİSTEMİNDƏ

## §1. İqtisadi inkişafın ümumi mənzərəsi

**«Hər bir ölkənin, xalqın həm yaşaması, həm də dövlətinin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır.
Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz».**

**H.Ə.ƏLİYEV**

Keçmiş SSRİ dağıldıqdan sonra özünün dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək və özünün milli iqtisadiyyatını formalaşdırmaq məsələsini qarşısına qoymuşdur. Bunun üçün optimal xarici iqtisadi əlaqələr yaratmaq və praktikada onlardan səmərəli istifadə etmək, respublika iqtisadiyyatının dünya təsərrüfat sisteminə optimal şəkildə inteqrasiyasını təmin etmək tələb olunur. Müasir dövrdə ölkənin xarici ticarət əlaqələrini təyin edərkən baş verən iqtisadi, sosial və siyasi proseslər və eyni zamanda beynəlxalq əmək bölgüsünün yeni əsaslar üzərində dərinləşməsi, qloballaşma prosesinin güclənməsi, elmi-texniki tərəqqinin sürətlənməsi və s. bu kimi köklü keyfiyyət dəyişikliklərinin nəzərə alınması olduqca vacibdir. Bundan başqa, bu gün dünyada baş verən proseslər beynəlxalq iqtisadi inteqrasiyanı ölkələrin iqtisadi inkişafının zəruri şərtinə çevirmişdir. Bu inteqrasiyanın bir mühüm cəhəti də ondadır ki, dünyada iqtisadi sərhədlər öz əhəmiyyətini itirməkdədir və bütün ölkələr üçün həm məcburi həm də eyni olan və əməl olunanda hamısı üçün faydalı olan standart qanunlar fəaliyyət göstərməkdədir. Deməli, ölkə iqtisadiyyatını optimal inkişaf etdirmək üçün hökmən tələb olunan şərt - xarici və daxili amillərin dialektik vəhdətliyinin təmin edilməsi şərtidir.

Azərbaycan Respublikasının dünya iqtisadiyyatındakı müasir yerinə birmənalı qiymət vermək çətindir. Bir tərəfdən o zəngin təbii sərvətlərə (xüsusən neft ), əmək resurslarına, münasib gücə malik istehsal potensialına malikdir, əlverişli coğrafi mövqedə yerləşir, digər tərəfdən 1990-cı illərin əvvəlində keçmiş SSRİ adlanan dövlətdə və Azərbaycanın özündə baş verən sosial, iqtisadi və siyasi proseslər təzəcə müstəqilliyini bərpa etmiş respublikamız üçün bir sıra obyektiv və subyektiv əngəllər yaratmış və nəticədə onun dünya

iqtisadiyyatında tutduğu mövqe əvvəlkilərə nisbətən zəifləmişdi. Lakin görülən tədbirlər nəticəsində vəziyyət nisbətən düzəlmiş və inkişaf başlamışdır.

Azərbaycanda möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının rəhbərliyi ilə uğurla aparılan iqtisadi islahatlar artıq öz müsbət nəticəsini göstərir. Bu isə ilk növbədə ÜDM-un artması və xalqın maddi rifahının yaxşılaşmasına səbəb olmuşdur.

1995-ci ildən sonra iqtisadiyyatdakı geriliyin dayandırılması Ümumi Daxili Məhsul haqqında (ÜDM) Azərbaycan Dövlət Statistika komitəsinin məlumatlarından da aydın görünür. (bax cədvəl 22).

**Cədvəl 22**

**1990-2000-ci illərdə Azərbaycan Respublikasının ÜDM-i və onun dəyişməsi**

| İllər | Cəmi | | Bir nəfərə düşən | | ÜDM-un keçən ilə nisbəti -%-lə (müqayisəli qiymətlər-lə) |
|---|---|---|---|---|---|
| | milyard manat | mln ABŞ dollar | manatla | ABŞ dolları ilə | |
| 1990 | 1,5 | 2443,2 | 207,6 | 346,3 | 88,3 |
| 1991 | 2,7 | 703,1 | 373,6 | 98,3 | … |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1992 | 24,1 | 1309 | 3318,6 | 180,4 | … |
| 1993 | 157,1 | 1326,9 | 21302,0 | 179,9 | 76,9 |
| 1994 | 1873 | 1629,3 | 250568,4 | 217,9 | 80,3 |
| 1995 | 10669,0 | 2415,2 | 1410329,3 | 319,3 | 88,2 |
| 1996 | 13663,2 | 3180,8 | 1787651,6 | 416,2 | 101,3 |
| 1997 | 15741,4 | 3960,9 | 2045968,1 | 513,2 | 105,8 |
| 1998 | 17203 | 4446,6 | 2207506,7 | 570 | 110,0 |
| 1999 | 18875,4 | 4583,6 | 2400595,2 | 583 | 107,4 |
| 2000 | 21939,2 | 5267,8 | 2972940,2 | 664 | 109,5 |

Müqayisəli qiymətlərlə hesablandıqda da iqtisadiyyatdakı geriliyin 1995-ci ildə başa çatdığı təsdiq edilir (bax cədvəl 23). Lakin göründüyü kimi, xalq təsərrüfatının bütün sahələrində istehsal ritmi bərpa olunmamışdır. 2000-ci ildə əldə edilən Ümumi Daxili Məhsulun (ÜDM) həcmi 1989-cu ildəki ÜDM-nun 56,5%-nı təşkil etmişdir. Emal sənayesinin inkişafı da qənaətbəxş hesab edilə bilməz. Bir sıra inkişaf parametrlərinə görə Azərbaycan Respublikası inkişaf etməkdə olan ölkələr qrupuna daxil edilə bilər.

**Cədvəl 23**

**Azərbaycan Respublikasında ÜDM-in müqayisəli qiymətlərlə dinamikası (1990-2000-ci illər. 1989=100%)**

| | ÜDM-in real səviyyəsi |
|---|---|
| 1990 | 88,3 |
| 1991 | 87,7 |
| 1992 | 67,9 |
| 1993 | 52,2 |
| 1994 | 40,8 |
| 1995 | 33,7 |
| 1996 | 34,1 |
| 1997 | 41,4 |
| 1998 | 47,8 |
| 1999 | 49,1 |
| 2000 | 56,5 |

Azərbaycan Respublikasının özünəməxsus sosial-iqtisa-di inkişaf modeli vardır. Bunun başlıca səbəbi də odur ki, respublikamız uzun illər boyu keçmiş SSRİ adlanan imperi-yanın tərkibində olub və burada baş verən proseslərin təsiri altında fəaliyyət göstərib. Məlum olduğu kimi keçən əsrin 30-cu illərinin başlanğıcından 80-ci ilin lap axırlarına qədər SSRİ-də bürokratik idarəetmə sistemi hökm sürürdü və sosial-inkişaf modelinin əsasını təsərüffat fəaliyyətinin direktiv planlaşdırılması təşkil edirdi. Bu cür sistemin neqativ cizgiləri və cə-hətləri 1960-1980-cı illərdə nisbətən zəifləsə də dövlət iqtisadiyyatının böhran vəziyyətini düzəldə bilmədi. Ona görə ki, respublikamızın da daxil olduğu SSRİ iqtisadiyyatında böhran sistem şəkli almışdı. 1980-ci illlərin axırında vəziyyəti xilas etmək üçün bazar sisteminə keçid başlandı və SSRİ-nin dağılmasından sonra bu keçid Azərbaycan Respublikası iqti-sadiyyatının tranformasiya etməsində həlledici amil

rolunu oynadı. Azərbaycanda bazar iqtisadiyyatına keçid də SSRİ dağıldıqdan və müstəqilliyimiz bərpa edildikdən sonra –1992-ci ildən başladı. 1992-1995-ci illərin əsasən radikal xarakter daşıyan islahatları getdikcə bazar strukturlarının intensiv meydana gəlməsi ilə əvəz olunmağa başlandı. Dəyişikliklər birinci növbədə dövlətin iqtisadiyyatdakı rolunda baş verdi. Bu dəyişiklikləri dövlətin rolunun azaldılması kimi səciyyələndirmək olmaz. Bazar iqtisadiyyatı modeli ilə əsrlərlə fəaliyyət göstərən ölkələrdə də dövlətin rolu həmişə güclü olub. Lakin bu gücün həyata keçirilməsi üsulları başqadır. Bazar iqtisadiyyatı şəraitində dövlət öz gücünü əsasən iqtisadi və tərbiyəedici üsullarla həyata keçirir. 1992-ci ildən başlayaraq keçid dövrü adlanan dövrdə də Azərbaycan bu yolla getməyə çalışmış və müəyyən mənada ləngimələr baş versə də maliyyə sferasında sabitləşmə əldə edilmiş, özəlləşdirmənin birinci mərhələsi başa çatmış, ikinci pillə isə davam etdirilir, bazar strukturları yaradılıb, dünya təsərrüfat sisteminə inteqrasiya prosesi normal gedir.

Tədqiqat göstərdi ki, bu dövrdə makroiqtisadi göstəricilər MDB ölkələrinin hamısında aşağı düşmüşdür (əyanilik üçün 24 saylı cədvəldə 1990-2000-ci illərdə ÜDM-nun indeksi yaxın (MDB) və bir neçə uzaq xarici ölkər üzrə göstərilmişdir).

**Cədvəl 24**

**Azərbaycanda və bir neçə xarici ölkələrdə Ümumi Daxili Məhsulun indeksi (1990=100)**

| Ölkələr | Cəmi<br>---------------------------------<br>İLLƏR | | | | Adam başına<br>---------------------------------<br>İLLƏR | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1995 | 1998 | 1999 | 2000 | 1995 | 1998 | 1999 | 2000 |
| Azərbaycan | 42 | 49,2 | 52,8 | 58,7 | 39 | 45 | 51,9 | 57,2 |
| Rusiya | 62 | 58 | 59 | …. | 62 | 58 | 60,0 | … |
| Ermənistan | 53 | 62 | 64 | … | 50 | 58 | 60,0 | … |
| Belorusiya | 65 | 80 | 83 | … | 64 | 80 | 85,0 | … |
| Qazaxıstan | 61 | 62 | 63 | … | 52 | 66 | 70,0 | … |
| Qırğızıstan | 61 | 61 | 63 | … | 49 | 57 | 57,0 | … |
| Moldova | 68 | 61 | 58 | … | 58 | 60 | 57,0 | |
| Tacikistan | 58 | 52 | 53 | … | 55 | 47 | 49,0 | … |
| Özbəkistan | 81 | 91 | 95 | … | 73 | 77 | 80,0 | … |
| Ukrayna | 48 | 41 | 45 | …. | 48 | 42 | 42,0 | … |
| Türkiyə | 117 | 138 | … | …. | 107 | 122 | … | … |
| ABŞ | 111 | 127 | … | … | 105 | 114 | | |
| Fransa | 105 | 113 | | | 103 | 109 | | |
| Almaniya | 108 | 115 | … | …. | 105 | 111 | … | … |
| Yaponiya | 107 | 109 | … | …. | 106 | 107 | … | … |
| Hindistan | 129 | 154 | | …. | 117 | 135 | | |
| Çin | 176 | 227 | 230 | | 166 | 207 | 220 | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| İtaliya | 106 | 110 | ….. | | 105 | 110 | … | |

Keçid dövründə sanballı əhəmiyyətə malik olan nəticələr əldə edilmişdir. Bunlardan idarəetmənin planlı sistemindən imtina edilməsini, müəssisələrin dövlət tərəfindən sərt şaquli struktur üzrə idarə olunması sisteminin dağılmasını göstərmək olar. Bunun əvəzində hazırda müəssisələr arasında üfiqi istehsal əlaqələri meydana gəlmiş və onların dövlətlə münasibətləri əsasən iqtisadi üsullarla tənzimlənir. Qiymətlərin liberallaşdırılması münasib bazar şəraiti yaradıb. Xarici iqtisadi fəaliyyətin liberallaşdırılması sahəsində də müəyyən iş həyata keçirilib. Bunun nəticəsində daxili və xarici ticarət qiymətləri arasındakı fərq tənzimləndirilmiş və daxili bazarda mal qıtlığı aradan götürülmüşdür. İnformasiya sahəsində yaxşı nəticələr əldə edilmişdir, maliyyə sabitliyi bərqərar olmuşdur.

Özəlləşdirmə həyata keçirilir. Lakin proses başa çatmasa da ÜDM-da qeyri –dövlət strukturunun payı artır (2000 ildə –64%).

Azərbaycan Respublikasında bazarların demək olar ki, bütün növləri yaranmışdır. İndi respublikada əmtəə, xidmət, əmək, kapital, kredit, hərəkət etməyən (daşınmaz) əmlak bazarları formalaşmış və müəyyən səviyyədə fəaliyyət göstərirlər. Bank üzəridə dövlətin monopoliyası zəifləmişdir. Dünyanın qabaqcıl ölkələrində fəaliyyət göstərən bank və maliyyə sistemlərinə uyğun bank və maliyyə sistemləri yaradılır.

Ümumiyyətlə götürdükdə Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrində olduğu kimi bazar iqtisadiyyatına keçidin ilk pilləsindədir. Mütəxəssislərin, iqtisadçıların, ekspertlərin bu sahədə müxtəlif fikirləri olsa da göstərmək lazımdır ki, sosial bazar iqtisadiyyatına keçid dövrü nisbətən uzun çəkəcək. Bunun obyektiv və subyektiv səbəbləri olsa da başlıca səbəb respublikanın uzun illər ərzində keçmiş SSRİ tərkibində olması və idarəetmənin bütün pillələrində fəaliyyət göstərən yaşlı nəslin psixologiyasında keçmiş idarəetmə sisteminin kök salmasıdır.

Hazırkı dövrdə Azərbaycanın iqtisadiyyatında dövlətin rolu güclü olmaqda davam edir. Müstəqilliyimizin 10 ili ərzində belə olub və görünür qeyri-müəyyən vaxta qədər bu davam edəcək. Təcrübə göstərir ki, respublikamızın özündən asılı olmadan düşdüyü sosial-iqtisadi və siyasi mühitdə iqtisadiyyata güclü və məqsədyönlü təsir göstərə bilən dövlətin olması zəruridir. Dövlət istehsalın məqsədyönlü inkişafında, yeni iş yerlərinin yaradılmasında, sosial məsələlərin həllində, investisiyanın aparıcı sahələrə yönəldilməsində aparıcı və həlledici rol oynayır. Təcrübə də bunu sübut edir. Respublikamızda Dövlət Büdcəsi kəsirinin 1994-cü ildəki 9,4%-dən 2000-ci ildəki 1%-ə qədər azaldılmasını dövlətin iqtisadiyyatdakı rolunun nəticəsi kimi hesab etmək olar. Nəticənin hansı yollarla əldə edilməsi məsələsi ayrıca bir tədqiqat obyekti olduğuna görə kitabda nəzərdən keçirilmir. Bu gün respublikanın xalq təsərrüfatı keçid dövrünün və eyni zamanda bazar iqtisadiyyatının çoxukladlı pilləsindədir. Belə iqtisadi şəraitdə əmtəə istehsalçıları arasındakı qarşılıqlı münasibət dəyər qanunu, tələb, təklif, rəqabət üzərində – yəni yeni istehlak münasibətləri və prinsipcə yeni idarəetmə şəraitinə uyğun qurulmalıdır. Bundan sonra yaranacaq sosial iqtisadi və siyasi mühit köhnə üsuli-idarənin dəyişməsini labüd tələb edə bilər. Belə olan halda iki istiqamətdə təkmilləşmə aparılmalıdır: birincisi, dövlətin iqtisadiyyatdakı rolu optimallaşdırılmalı və ikincisi, iqtisadi və sosial inkişafın yeni, daha mütərəqqi olan sosial yönümlü yollarına üstünlük verilməlidir.

Ölkələrin iqtisadi inkişafına qiymət verərkən beynəlxalq təşkilatlar bir sıra göstəricilərdən istifadə edirlər. Dünya miqyasında iqtisadi inkişafa qiymət verərkən Beynəlxalq təşkilatlar ölkələrin istehsal etdikləri Ümumi Daxili Məhsulun əsas sahələr üzrə strukturunu öyrənirlər. Bu zaman ÜDM üç mənbə-kənd təsərrüfatı, sənaye, xidmət –üzrə təhlil edilir və müvafiq nəticələr çıxarırlar. Üç mənbə ilə təhlilin əsasında sənayeləşmə və sənayeləşmədən sonra gedən proseslərə qiymət verilməsi durur. İqtisadi ədəbiyyatlarda postsənayeləşdirmə terminindən istfadə edilir. Sənayeləşmə prosesi

başa çatan ölkələrdə inkişafı xarakterizə etmək üçün istifadə edilən bu terminin mahiyyəti ondadır ki, iqtisadiyyatda üçüncü bölmənin (xidmətin) xüsusi çəkisi artır, ikinci bölmə (sənaye) sabitləşir, birinci bölmənin (kənd təsərrüfatı) isə xüsusi çəkisi azalır. Dünya Bankının məlumatlarına görə ÜDM-un bu mənbələr üzrə strukturu aşağıdakı cədvəldə verilmişdir (bax cədvəl 25).

Məlumatlardan görünür ki, Azərbaycan Respublikasında sənayeləşmə prosesi davam edir. ÜDM-nin strukturunda kənd təsərrüfatının yüksək xüsusi çəkisi (22%) qalmaqdadır. Xidmətin xüsusi çəkisinin Yaponiya dövlətində olduğu səviyyəyə çatması isə (60%) respublikamızın iqtisadiyyatında postsənayeləşmə prosesinin getməsini yox, emal sənayesinin istənilən səviyyədən aşağı formalaşmasının nəticəsidir. Postsənayeləşdirmə prosesi gedən ölkələrin tipik nümunələri, ABŞ, Yaponiya, Fransa kimi dövlətlərdir ki, onların ÜDM tərkibində kənd təsərrüfatı cəmi 2-4% təşkil edir.

**Cədvəl 25**

**Azərbaycan Respublikasında və bir neçə xarici ölkələrdə ÜDM-nin quruluşu (%)**

| ölkələr | 1980 | | | | 1997 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | UDM | | | | UDM | | | |
| | cəmi | O cüml. mənbələr üzrə | | | cəmi | O cüml. mənbələr üzrə | | |
| | | **k/ təsərrüfatı** | **sənaye** | **xidmət** | | **K/ təsərrüfatı** | **sənaye** | **xidmət** |
| Azərbaycan | 100 | X | X | X | 100 | 22 | 18 | 60 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| müqayisə üçün | | | | | | | | |
| ABŞ | 100 | 3 | 33 | 64 | 100 | 3 | 32 | 65 |
| Rusiya | 100 | 9 | 54 | 37 | 100 | 7 | 39 | 54 |
| Türkiyə | 100 | 26 | 22 | 51 | 100 | 17 | 28 | 55 |
| Fransa | 100 | 4 | 34 | 62 | 100 | 2 | 26 | 71 |
| Yaponiya | 100 | 4 | 42 | 54 | 100 | 2 | 38 | 60 |
| Ermənistan | 100 | 18 | 58 | 25 | 100 | 44 | 35 | 20 |
| Gürcüstan | 100 | 24 | 36 | 40 | 100 | 35 | 35 | 30 |
| Dünya üzərində orta qiymət | 100 | 7 | 38 | 55 | 100 | 6,7 | 37 | 56,3 |

Postsənaye ölkələrinin xarakterik cəhətlərindən başlıcası kənd təsərrüfatının xüsusi çəkisinin azalmasıdır. Dünya üzrə bu xüsusi çəki 1980-cı ildə 7,7% təşkil etmişdir. 17 il ərzində kənd təsərrüfatının ÜDM-kı çəkisi azalmış və 6,7%-ə çatmışdır.

1999-cu ilin məlumatları göstərir ki, Azərbaycanda ÜDM-nin quruluşu nisbətən yaxşılaşır (26 saylı cədvəl).

**Cədvəl 26**

**Azərbaycan Respublikasında ÜDM quruluşunun dəyişməsi**

| **Sahələr** | **Sahənin xüsusi çəkisi** |
|---|---|

| | | 2000-ci il | 2002-ci il |
|---|---|---|---|
| 1 | Ümumi Daxili Məhsul istehsalı, o cümlədən sahələr üzrə | 100 | 100 |
| 2 | Sənaye | 32 | 35 |
| 3 | Kənd təsərrüfatı | 18,1 | 17,5 |
| 4 | Tikinti | 4,4 | 5,0 |
| 5 | Xidmət sahələri | 45,3 | 42,5 |
| 6 | Onlardan nəqliyyat və rabitə | 14,5 | 15,3 |
| 7 | Ticarət | 6,1 | 6,8 |
| 8 | Digər sahələr (tədarük, məlumat, mənzil, kommunal təsərrüfatları, səhiyyə, təhsil, elm, idarə, müdafiə, aksizlər və s.) | 24,9 | 20,4 |

Sənayenin xüsusi çəkisi 1997-ci ildəki 18 faizdən (bax cədvəl 25) 2000-ci ildəki 32,0%-ə qədər yüksəlmişdir. Bu mütərəqqi haldır. Lakin nəzərə almaq lazımdır ki, bu artım əsasən xam neftin çıxarılması hesabına baş verib.

Ölkə iqtisadiyyatının inkişafında investisiyaların rolu bö- yükdür. Müstəqillik əldə etmiş Azərbaycan Respublikası üçün isə investisiya qoyuluşu daha çox əhəmiyyətə malikdir. Təhlil göstərdi ki, iqtisadiyyata yönəldilən investisiya ilbəil artır. 1995-ci ildə iqtisadiyyata yönəldilən investisiyanın həcmi 544,0 milyon ABŞ dolları məbləğində olmuşdur. 2000-ci ildə məbləğ artıq 1 milyard 441,4 milyon dollar təşkil etmişdir. İqtisadiyya- ta həm daxili və həm də xarici mənbələrdən investisiyalar yönəldilmişdir. Xarici investisiyaların bütün mənbələr üzrə investisiya qoyuluşundakı xüsusi çəkisi 1995-ci ildə 68,9%,1996-cı ildə 66,6%,1997-ci ildə 77,1%,1998-ci ildə-76,1%,1999-cu ildə 69,4%,2000-ci ildə isə 64,3% təşkil etmişidir(bax cədvəl 27).

**Cədvəl 27**

**1995-2000-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatına yönəldilən investisiyanın məbləği (mln. ABŞ dolları)**

| İllər | Bütün mənbələr üzrə investisya qoyuluşu | | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | Xarici investisiya | | Daxili investisya | |
| | məbləği | x. çək. % | məbləği | x. çək. % | məbləği | xüs. çəkisi % |
| 1995 | 544,0 | 100 | 375,1 | 68,9 | 168,9 | 31,1 |
| 1996 | 932,5 | 100 | 621,0 | 66,6 | 311,5 | 33,4 |
| 1997 | 1694,5 | 100 | 1307,3 | 77,1 | 387,2 | 22,9 |
| 1998 | 1932,2 | 100 | 1472,0 | 76,2 | 480,2 | 23,8 |
| 1999 | 1571,0 | 100 | 1091,1 | 69,4 | 479,9 | 30,6 |
| 2000 | 1441,4 | 100 | 927,0 | 64,3 | 514,4 | 35,7 |

Müstəqillik illərində ölkədə yaranmış siyasi sabitlik ölkə iqtisadiyyatına investisiya yönəltmək istəyən ölkələrin sayının artmasına, coğrafiyasının nisbətən genişlənməsinə səbəb olmuşdur (bax cədvəl 28). 2000-ci ildə ölkə iqtisadiyyatına investisiya yönəldən ölkələr arasında Türkiyə, Rusiya, ABŞ, Böyük Britaniya, İran, Fransa, Yaponiya kimi ölkələr olmuşdur. Xarici investisiyalar maliyyə-kredit təşkilatları vasitəsilə əsasən neftçıxarma sənayesinə yönəldilmişdir. Bundan başqa, investisiya birgə müəssisələrin və xarici firmaların yaradılmasına da yönəldilmişdir.

1994-2000-ci illər ərzində ölkə ərazisində fəaliyyət gös-tərən müştərək və tam xarici investisiyalı müəssisələr tərəfindən Azərbaycan iqtisadiyyatına 1237,2 milyon ABŞ dolları məbləğində vəsait qoyulmuşdur ki, bunun da 411,9 milyon dolları sənayenin inkişafına (neft sənayesindən başqa), 344,0 milyon dolları tikintiyə, 251,1 milyon dolları ticarət və xidmət sahələrinə və 131,9 milyon dolları isə nəqliyyat və rabitənin inkişafına yönəldilmişdir. Göründüyü kimi sənayeyə yönələn kapitalın dəyəri, ümumi vəsaitin təxminən 33 %-ni təşkil edir. Bu cür yanaşma sosial-iqtisadi inkişaf baxımından

qənaətbəxş hesab oluna bilər. Bundan sonra, xarici investisiyaları sənayenin neftlə əlaqədar olmayan sahələrinə sərmayə qoymağa cəlb etmək üçün stimullaşdırıcı tədbirlər görülmüş və 2002-ci ildən başlayaraq emal sənayesinin üstün inkişafı dövlət tərəfindən nəzərdə tutulmuşdur.

**Cədvəl 28**

**Azərbaycan Respublikası iqtisadiyyatına yönəldilən xarici investisiyalar (milyon ABŞ dolları)**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Cəmi investisiya ondan: | 375,1 | 620,5 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 |
| Maliyyə (kredit neft sənayesinə) | 139,8 | 416,2 | 780,1 | 891,8 | 544,5 | 546,1 |
| Birgə müəssisələr və xarici firmalar Ondan ölkələr üzrə: | 14,9 | 102,8 | 330,9 | 460,2 | 210,4 | 118,0 |
| Türkiyə | 6,8 | 45,3 | 129,6 | 160,3 | 67,8 | 31,6 |
| ABŞ | 2,1 | 41,5 | 97,5 | 56,7 | 29,8 | 11,2 |
| İran | 0,9 | 1 | 2,6 | 40,7 | 9,2 | 2,9 |
| Almaniya | 1,2 | 4,2 | 16 | 2,1 | 6,2 | 1,7 |
| Rusiya | 0,7 | 2,3 | 5,5 | 10,3 | - | - |
| Böyük Britaniya | 0,7 | 0,2 | 47,2 | 47,4 | 48,8 | 6,8 |
| Bolqarsıtan | 0,1 | - | - | - | - | - |
| BƏƏ | 0,7 | 1,7 | 8,0 | 16,6 | 7,6 | 2,8 |
| İsveçrə | 1,2 | 3,9 | 9,5 | - | - | - |
| Macarıstın | - | 0,1 | - | - | - | - |
| İspaniya | 0,1 | 0,4 | 1,5- | - | - | - |
| İrlandiya | - | 0,5 | 2,3 | - | - | - |
| Hindistan | - | 0,2 | - | - | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fransa | - | - | - | - | 25,4 | 39,3 |
| Sinqapur | - | - | 3,4 | 7,6 | - | - |
| Yaponiya | - | - | - | - | - | 16,4 |
| Sair ölkələr | 0,4 | 0,5 | 7,5 | 118,5 | 18,5 | 5,3 |

Hər bir ölkədə olduğu kimi Azərbaycan Respublikasında da iqtisadi inkişaf çoxlu kredit tələb edir. Müstəqillik əldə edildikdən sonra iqtisadiyyata kredit qoyuluşu hər il həyata keçirilir (bax cədvəl № 29).

**Cədvəl 29**

**Azərbaycan iqtisadiyyatına kapital qoyuluşu və müddətə görə quruluşu (milyon manat)**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| İqtisadiyyata kredit qoyuluşu (cəmi) (mln. man) o cümlədən: | 1448996 | 1819715 | 2041967 | 2133604 | 2215500 | 2321800 |
| Qısamüddətli kreditlər (mln. man.) | 1264830 | 1675804 | 1901083 | 2087661 | 480500 | 1672000 |
| Yekuna görə faizlə (%) | 87,3 | 92,1 | 93,1 | 97,8 | 97,5 | 72,0 |
| Uzunmüddətli kreditlər (mln. man.) | 184166 | 143911 | 140904 | 45923 | 55000 | 649800 |
| Yekuna görə faizlə (%) | 12,7 | 7,9 | 6,9 | 2,2 | 2,5 | 28,0 |

Təhlil göstərir ki, kredit qoyuluşunun ümumi həcmi ilbəil artır. İqtisadiyyata təsir etməsi baxımından kreditin müddətinə görə strukturunun böyuk əhəmiyyəti vardır. Azərbaycan Respublikası iqtisadiyyatına qoyulan kreditlərin çox hissəsi qısamüddətli kreditlərdir. 1995-2000-ci illərdə bu sahədə müəyyən irəliləyişlər görünür. Uzunmüddətli kreditlərin xüsusi çəkisi 2 dəfədən çox artmışdır. Lakin buna baxmayaraq 2000-ci ildə qısamüddətli kreditlərin xüsusi çəkisi yüksək olaraq qalmış və 72% təşkil etmişdir. İqtisadiyyatın optimal inkişaf etdirilməsi gələcəkdə uzunmüddətli kredit qoyuluşları həcminin artırılmasını tələb edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən son-ra bazar iqtisadiyyatına keçid istiqamətində işlər bir sıra istiqamətlərdə aparılır. Əsas fikir verilən məsələlərdən biri mülkiyyətin formasının dəyişdirilməsi olmuşdur. Bu sahədə görülən işlər öz nəticəsini kəmiyyət cəhətdən vermişdir və Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə Dövlət sektorunda işləyənlərin sayı ilbəil azalır və əksinə, qeyri-dövlət bölməsində çalışanların sayı artır. 2000-ci ildə iqtisadi fəal əhalinin işləyən hissəsinin cəmi 34,5 % dövlət bölməsində çalışmışlar. Müvafiq olaraq iqtisadi fəal əhalinin işləyən hissəsinin 65,5%-i qeyri-dövlət bölməsində işləmişlər. Müqayisə üçün qeyd edək ki, 1990-cı ildə iqtisadi fəal əhalinin 70%-dən çoxu dövlət sektorunda çalışırdı (bax cədvəl 30).

**Cədvəl 30**

**İqtisadi fəal əhalinin işləyən hissəsinin bölmələr üzrə sayı və strukturu**

| | Ölçmə vahidi | 1990 | 1995 | 2000 |
|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin işləyən hissəsi | Min nəfər % | 3703,4<br>100 | 3613,0<br>100 | 3704,5<br>100 |

| | | | | |
|---|---|---|---|---|
| O cümlədən | - | - | - | - |
| Dövlət sektorunda | Min nəfər | 2618,9 | 2027,2 | 1278,2 |
| Xüsusi çəkisi | % | 70,7 | 56,1 | 34,5 |
| Qeyri–dövlət sektorunda | Min nəfər | 1084,5 | 1585,8 | 2426,3 |
| Xüsusi çəkisi | % | 29,3 | 43,9 | 65,5 |

# § 2. XARİCİ İQTİSADİ FƏALİYYƏT

## 2.1. Xarici iqtisadi əlaqələrin (XİƏ) göstəriciləri

Azərbaycan Respublikasının dünya ölkələri ilə əlaqələri ilbəil genişlənir. 2000-ci ildə ümumi şəkildə, o 123 ölkə ilə iqtisadi əlaqələr yarada bilmiş və ticarət əməliyyatlarının məbləği manatla 2 milyard 923 milyondan çox olmuşdur. Bu müddət ərzində 1752226,7 min ABŞ dolları dəyərində mal ixrac, 1170868,2 min ABŞ dolları dəyərində mal idxal olunmuşdur. İl ərzində ixrac-idxal əməliyyatlarının saldosu müsbət olmuş və 581358,5 (1752226,7-1170868,2) min ABŞ dolları təşkil etmişdir. 2000-ci ildə 131635 ədəd nəqliyyat vasitələrindən istifadə edilmiş və ümumi şəkildə 11559,4 min ton yük daşınmışdır. Bunlardan 8434,8 min tonu ixrac əməliyyatlarının 3124,6 min tonu isə idxal əməliyyatlarının payına düşmüşdür. İxracın həyata keçirilməsi 46753 nəqliyyat vasitəsi, idxalın həyata keçirilməsi isə 84882 nəqliyyat vasitəsi tələb etmişdir (cədvəl 31).

Elektrik enerjisi ilə respublikada qarşılıqlı mübadilə həyata keçirilir. 2000-ci il ərzində elektrik enerjisinin qarşılıqlı köçürülməsi Rusiya Federasiyası və Gürcüstan Respublikası ilə baş vermişdir. Bu əlaqələr də müsbət saldo ilə həyata keçirilmişdir. Bunlardan başqa, 2000-ci il ərzində respublikaya 29255,3 ton humanitar yük daxil olmuşdur ki, onun da ABŞ dolları ilə məbləği 49138,0 min təşkil etmişdir.

Xarici iqtisadi əlaqələrin həyata keçirilməsində seçilən nəqliyyat növü böyük rol oynayır.

Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətdə əsasən dəmir və avtomobil yolları nəqliyyatından istifadə edilir. 2000-ci ildə XİF-i həyata keçirmək üçün müxtəlif yükgötürmə qabiliyyətli 64581 ədəd vaqondan və 47703 ədəd avtomobil yolu nəqliyyatından istifadə edilmişdir. Xam neftin daşınmasında stasionar nəqletmə vasitəsindən – boru kəmərlərindən istifadə edilmişdir.

**Cədvəl 31**

**2000-ci ildə Azərbaycan Respublikasının XİF-nin əsas göstəriciləri**

| | **Ölçü vahidi** | **Göstəricinin məbləği** |
|---|---|---|
| Ticarət əməliyyatları aparılmış ölkələrin sayı | ölkə | 123 |
| Ticarət əməliyyatlarının həcmi | min ABŞ dol | 2923094,9 |
| O cümlədən: | | |
| İxrac | “--“ | 1752226,7 |
| İdxal | “--“ | 1170868,2 |
| İxrac-idxal əməliyyatları üzrə saldo | “--“ | +581358,5 |
| İl ərzində istifadə edilən nəqliyyat | ədəd | 131635 |

| | | |
|---|---|---|
| vasitələrinin sayı | | |
| O cümlədən: | | |
| İxracda | “--“ | 46753 |
| İdxalda | “--“ | 84882 |
| İl ərzində daşınan yüklərin həcmi | min ton | 11559,4 |
| O cümlədən: | | |
| İxracda | “--“ | 8434,8 |
| İdxalda | “--“ | 3124,6 |
| Elektrik enerjisinin ötürülməsi üzrə ticarətin həcmi | min ABŞ dol | 37590,5 |
| O cümlədən: | | |
| İxrac üzrə | “--“ | 22211,8 |
| İdxal üzrə | | 15378,7 |

2000-ci ildə Supsa boru kəməri ilə min ton, Şimal boru kəməri ilə 499,5 min ton xam neft nəql edilmişdir.

Əsasən xam neftin hesabına baş versə də Azərbaycanın xarici iqtisadi əlaqələri inkişaf edir. 2000-ci ildə 1999-cu ilə nisbətən ixrac əməliyyatlarının həcmi 848,66 milyon ABŞ dolları miqdarında, idxal əməliyyatlarının həcmi isə 160,26 milyon ABŞ dolları miqdarında artmışdır. Lakin ümumiyyətlə götürdükdə xarici iqtisadi əlaqələrdə respublikanın iqtisadi təhlükəsizliyi baxımından çatışmazlıqlar mövcuddur. Belə çatışmazlıqlardan biri idxalın strukturudur. 32 saylı cədvəlin materilları bunu bir daha sübut edir.

**Cədvəl 32**

**2000-ci ildə Azərbaycan Respublikasında idxalın strukturunda əsas yer tutan məhsulların miqdarı və dəyəri**

| № | Məhsulun adı | Ölçü vahidi | Miqdarı | Dəyəri (milyon ABŞ |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| | | | | **dol)** |
| 1. | Ət və ət məhsulları, o cüml. humanitar yardım | min ton<br>ton | 28,1<br>27,4 t | 18,29<br>0,15 |
| 2. | Buğda<br>O cümlədən hum. yardım | min ton<br>ton | 706,8<br>695,0 | 87,93<br>0,055 |
| 3. | Un<br>O cümlədən hum. yardım | min ton<br>ton | 22,95<br>11,56 | 5,06<br>2,72 |
| 4. | Şəkər<br>O cümlədən hum. yardım | min ton<br>ton | 75,83<br>1,46 | 17,51<br>0,97 |
| 5. | Yağ<br>- kərə yağı<br>- bitki və heyvan mənş. yağ.<br>O cümlədən hum. yardım | “----“<br>“----“<br>“----“<br>“----“ | 25,99<br>5,93<br>20,06<br>2,11 | 17,56<br>6,37<br>11,20<br>1,63 |
| 6. | Çay | min ton | 2,70 | 6,51 |
| 7. | Spirt | min litr | 2175,1 8 | 1,83 |
| 8. | Spirtli içkilər | min ton | 9,23 | 6,65 |
| 9. | Tütün məmulatı | milyon | 1132,2 8 | 2,65 |
| 10. | Müxtəlif minik avtomobilləri | ədəd | 9,64 | 41,5 |
| 11. | Toxum | ton | 745,2 | 1,46 |
| 12. | Gübrə | min | 40,52 | 3,85 |

| | | | | |
|---|---|---|---|---|
| | | ton | | |
| 13. | K/t maşın, ehtiyat his. | | 1,53 | 5,43 |
| 14. | Neft məhsulları | min ton | 66,44 | 16,76 |
| 15. | Elektrik enerjisi | milyon kvt/s | 1595,62 | 34,035 |

Respublikaya yaşayış üçün ən zəruri məhsulların bir hissəsi xaricdən gətirilir (bax cədvəl 32). Bu məhsullara ət və ət məhsulları, buğda, un, şəkər, yağ, çay, spirt kimi respublikada istehsal oluna bilən əmtəələr çoxluq təşkil edir. Yaxın vaxtlarda bu məhsulların yarıdan çox azaltmaq mümkündür ki, bunun nəticəsində də yeni iş yerləri yarada bilərik və iqtisadi təhlükəsizliyimizi artırmış olarıq. İxracda isə emal sənayesi məhsulları olduqca azdır (bax cədvəl 32 və cədvəl 33-ün məlumatlarına).

**Cədvəl 33**

**2000-ci ildə Azərbaycan Respublikasında ixracın strukturunda əsas yer tutan məhsulların miqdarı və dəyəri**

| № | Məhsulların adı | Ölçü vahidi | Miqdarı | Dəyəri (milyon ABŞ dol) |
|---|---|---|---|---|
| 1. | Neft (xam) | milyon ton | 5,51 | 985,45 |
| 2. | Neft emalı məhsulları | ---“--- | 2,11 | 480,04 |
| 3. | Spirtli içkilər | min ton | 14,95 | 6,08 |
| 4. | Tütün | ---“--- | 10,05 | 9,84 |
| 5. | Qara metallar | ---“--- | 152,82 | 6,06 |
| 6. | Alüminium | ---“--- | 26,84 | 16,70 |
| 7. | Çay | ---“--- | 1,23 | 2,63 |

| | | | | |
|---|---|---|---|---|
| 8. | Pambıq mahlıcı və tullantıları | ---“--- | 41,70 | 36,48 |
| 9. | Elektrik enerjisinin qarşılıqlı ötürülməsi | milyon kv/s | 1789,34 | 22,21 |

## 2.2. İxracın və idxalın əmtəə strukturu və XİƏ-in saziş növləri

İxrac edilən məhsulların strukturunda xam neftin ixracı xüsusi yer tutur (bax cədvəl 34). 2000-ci ildə ixracın ümumi həcmində xam neftin xüsusi çəkisi 56,24%, neft məhsullarının xüsusi çəkisi isə 27,40% təşkil etmişdir. Deməli, baxılan ildə ixrac əməliyyatlarından alınan vəsaitin 83,64%-i xam neft və neft məhsullarının satışından əldə edilmişdir. Müqayisə üçün qeyd edək ki, spirtli və spirtsiz içkilərin xüsusi çəkisi 0,45%, pambıq satışı 2,08%, çay isə cəmi 0,15% təşkil etmişdir.

**Cədvəl 34**

**2000-ci ildə Azərbaycan Respublikasında ixracın əmtəə strukturu**

| Əmtəələrin adı | Ümumi ixraca görə %-lə |
|---|---|
| Xam neft | 56,24 |
| Neft məhsulları | 27,40 |
| Qara metallar və onlardan hazırlanan məmulatlar | 0,45 |
| Spirtli və spirtsiz içkilər | 0,35 |
| Kimya məhsulları | 2,06 |

| | |
|---|---|
| Pambıq | 2,08 |
| Tütün | 0,67 |
| Əlvan metallar | 1,37 |
| Çay | 0,15 |
| Digər əmtəələr | 9,22 |

İdxalın strukturu cədvəl 35-də verilmişdir. Göründüyü kimi ərzaq məhsulları ilə xalq istehlakı malları ümumi idxalın 20%, qədərini təşkil edir. Bundan başqa, respublikamız çoxlu miqdarda maşın və avadanlıqları idxal edir. Bu tipli məhsulların idxaldakı xüsusi çəkisi 40%-ə çatır.

**Cədvəl 35**

**2000-ci ildə Azərbaycan Respublikasında idxalın əmtəə strukturu**

| Əmtəələrin adı | Ümumi ixraca görə %-lə |
|---|---|
| Ərzaq məhsulları | 17,77 |
| Xalq istehlakı malları | 1,70 |
| Maşın və elektrik aparatları avadanlıqları və onların ehtiyat hissələri | 30,96 |
| Nəqliyyat vasitələri və onların hissələri | 8,55 |
| Qara metallar və onlardan hazırlanan məmulatlar | 1,95 |
| Toxum | 0,12 |
| Gübrə | 0,33 |
| Digər əmtəələr | 28,53 |

Dünya iqtisadi əlaqələrində müxtəlif saziş növləri mövcuddur. İdxal-ixrac əməliyyatlarının saziş növlərinin öyrənilməsi göstərdi ki, 2000-ci ildə xarici-iqtisadi əməliyyatlarda hesablaşmalar milli valyuta ilə (sazişin növü-1), sərbəst dönərli valyuta ilə (21), dövlət krediti üzrə

(23), qapalı dövriyyəli valyuta ilə (41), barter sazişi ilə (51) həyata keçirilmişdir (bax cədvəl 36).

**Cədvəl № 36**

**2000-ci ildə AR-da idxal-ixrac əməliyyatlarının saziş növləri və onların strukturu**

| Sazişin nömrəsi | Saziş növünün adı | Strukturu (%) | |
|---|---|---|---|
| | | ixracda | İdxalda |
| 01 | Milli valyuta ilə hesablaşma | 0,39 | 0,02 |
| 21 | Sərbəst dönərli valyuta | 46,56 | 58,55 |
| 23 | Dövlət krediti üzrə | 0,00 | 4,68 |
| 41 | Qapalı dövriyyəli valyuta | 0,29 | 8,81 |
| 51 | Barter sazişi | 0,70 | 0,92 |
| 78 | Kompensasiyalı öhdəliklər hesabına | 44,34 | 0,00 |
| | Digər saziş növləri | 7,72 | 27,02 |

İxrac əməliyyatlarında kompensasiyalı öhdəliklər hesabına, sərbəst dönərli valyuta ilə hesablaşmalar əsasında malların gətirilməsinə, idxal əməliyyatlarında isə sərbəst dönərli valyutaya daha çox üstünlük verilmişdir. Neft məhsullarının ixracında sərbəst dönərli valyutaya satış 457,45 milyon dollar (ümumi məhsulun 95,30%), barter 5,9 milyon dollar (1,23%), milli valyuta ilə hesablaşma 3,57 milyon dollar (0,74%) və di-gərləri 13,05 milyon dollar (2,73%) təşkil etmişdir.

XİƏ-də barter əməliyyatlarında ixrac əməliyyatlarının həcmi idxaldan 1441,5 min ABŞ dolları qədər çox olmuşdur. MDB ölkələri üzrə ixracda barter əməliyyatları 3961,8 min ABŞ dolları (ümumi ixraca nisbətən 0,23%), idxalda isə 9300,0 min ABŞ dolları (ümumi idxala nisbətən 0,79) təşkil etmişdir. MDB-dən başqa, uzaq xarici ölkələr üzrə ixracda barter əməliyyatları 8275,5 min dollar (ümumi ixraca nisbətən 0,45%), idxalda isə 1495,8 min dollar (ümumi idxala nisbətən 0,13%) təşkil etmişdir.

## 2.3. XİƏ-in coğrafiyası

Azərbaycan Respublikasının XİƏ-nin coğrafiyası müxtəlifdir. Respublika özünün də daxil olduğu Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri ilə və uzaq xarici ölkələrlə ticarət əməliyyatları həyata keçirir. 2000-ci ildə Azərbaycandan (MDB-dən kənar ölkələrə) 1,5 milyard ABŞ dolları dəyərində əmtəə çıxarılmışdır. Eyni zamanda respublikaya bu cür ölkələrdən 792,15 milyon ABŞ dolları qədər mal gətirilmişdir. MDB-dən kənar xarici ölkələrlə ticarət əlaqələrinin saldosu müsbət 716,4 milyon manat təşkil etmişdir. Ticarət əlaqələrində xüsusi çəkisi nisbətən çox olan uzaq xarici ölkələrdən İtaliyanı (ümumi ticarət əlaqələrində xüsusi çəkisi: ixracda – 43,52%, idxalda 2,39%), Türkiyə (5,99 və 10,58), Fransa (11,71 və 1,61), İsveçrə (2,61 və 4,64), ABŞ (0,46 və 8,97), Almaniya (0,45 və 5,80), İran (0,44 və 5,04), Böyük Britaniya (1,06 və 5,03), İsrail (7,71 və 0,52) göstərmək olar (bax cədvəl 37).

**Cədvəl 37**

**Azərbaycan Respublikasının ticarət əlaqələrində xüsusi çəkisi böyük olan ölkələr (2000-ci il)**

| № | Ölkələr | Ticarət əlaqələrində xüsusi çəkisi (%) | |
|---|---|---|---|
| | | ixracda %-lə | idxalda %-lə |
| 1. | İtaliya | 43,52 | 2,39 |
| 2. | Rusiya | 5,63 | 20,04 |
| 3. | Türkiyə | 5,99 | 10,58 |
| 4. | Fransa | 11,71 | 1,61 |
| 5. | İsveçrə | 2,61 | 4,64 |
| 6. | ABŞ | 0,46 | 8,97 |

| | | | |
|---|---|---|---|
| 7. | Almaniya | 0,45 | 5,80 |
| 8. | İran | 0,44 | 5,04 |
| 9. | Böyük Britaniya | 1,06 | 5,03 |
| 10. | Qazaxıstan | 0,37 | 4,91 |
| 11. | Gürcüstan | 4,53 | 1,29 |
| 12. | İsrail | 7,71 | 0,52 |

MDB ölkələri ilə xarici ticarət əlaqələrinin həcmi 622,46 milyon ABŞ dolları məbləğində olmuşdur. Respublikanın rezident və qeyri-rezidentləri MDB ölkələrinə 243,75 milyon dollar məbləğində məhsul göndərmişlər. Bu ölkələrdən respublikamıza gətirilən əmtəələrin ümumi dəyəri isə 378,71 milyon ABŞ dolları məbləğində olmuşdur. Göründüyü kimi MDB ölkələri ilə ticarət əlaqələrinin saldosu mənfi 134,96 milyon (378,71-243,75) təşkil etmişdir.

Ticarət əlaqələrində xüsusi çəkisi nisbətən çox olan MDB ölkələrinə Rusiya (ümumi ticarət əlaqələrində xüsusi çəkisi: ixracda 5,63% və idxalda 20,04%), Qazaxıstanı (0,37 və 4,91), Gürcüstanı (4,53 və 1,29) misal göstərmək olar.

Azərbaycan Respublikasının ərazisindən tranzit formada yük daşınması üçün də istifadə edilir. Respublikamızın ərazisindən bu məqsəd üçün istifadə edən əsas ölkələrə Rusiya Federasiyası, İran, Türkiyə, Gürcüstan və s. kimi ölkələri daxildir. 2000-ci ildə tranzit rejimində Azərbaycan Respublikası ərazisindən 4961,2 min tona qədər müxtəlif xarakterli yük çıxarılmışdır. Tranzit yüklərin əsas hissəsi Gürcüstana göndərilmişdir (4426,6 min ton). Bundan başqa, tranzit rejimində Özbəkistana (100,3 min ton), Rusiya Federasiyasına (94,7 min ton), Türkiyə Respublikasına (63,0 min ton), İran İslam Respublikasına (34,3 min ton) və digər ölkələrə yüklər göndərilmişdir. Dövlət Gömrük Komitəsinin (DGK) statistika və təhsil idarəsinin məlumatlarına görə tranzit yüklərin göndərilmə coğrafiyası cədvəl 38-

də verilmişdir. Göründüyü kimi yüklərin 80%-dən çoxu Gürcüstanın payına düşür.

**Cədvəl 38**

**Tranzit rejimində AR ərazisindən çıxarılan yüklərin coğrafiyası (2000-ci il)**

| № | Ölkələr | Tranzit rejimində göndərilən yükün həcmi | |
|---|---|---|---|
| | | min tonla | ümumi həcmə görə %-lə |
| 1 | Gürcüstan | 4426,6 | 80,9 |
| 2 | Özbəkistan | 100,3 | 2,02 |
| 3 | Türkmənistan | 138,8 | 2,15 |
| 4 | Rusiya Federasiyası | 94,7 | 2,0 |
| 5 | Türkiyə Respublikası | 63,0 | 1,27 |
| 6 | İsveçrə | 66,7 | 1,28 |
| 7 | İran İslam Respublikası | 34,3 | 0,76 |

Respublikada strateji neft məhsullarının xarici ölkələrə satılması iki struktur – Dövlət Neft Şirkəti və “Azneftyağ” İstehsalat birliyi məşğul olmuşlar. İxrac edilmiş neft məhsullarının təxminən 1,02 milyon tonu (48,19%) Dövlət Neft Şirkətinin Xarici İqtisadi Əlaqələr İdarəsinin, 1,06 milyon tonu isə (50,24%) “Azneftyağ”-ın payına düşmüşdür. Ümumiyyətlə götürdükdə 2000-ci ildə xarici iqtisadi əlaqələrdə 7466 hüquqi və fiziki şəxs məşğul olmuşdur. Bunlardan 2789-u dövlət və özəl müəssisə, 4677-i isə fiziki şəxslər olmuşdur.

## 2. 4. Dünya təsərrüfat sisteminə inteqrasiya və onun gücləndirilməsi

*“Игтисади сийасят стратеэийасынын башлыъа истигамятляри сабитляшдирмя, ислащатлашдырма, игтисади артымын тямин едилмяси, дцнйа тясяррцфат системиня игтисади интеграсийасынын эцълянмяси, халгын рифащынын йцксялдилмяси вя с. ибарятдир.”*

***Щ.Я.ЯЛИЙЕВ***

Azərbaycan Respublikası dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya ola bilər. Bunun üçün respublikanın əlverişli coğrafi mövqeyi, inkişaf etmiş beynəlxalq əhəmiyyətli olan hava, su, dəmiryolu, avtomobil nəqliyyatı, neft və qaz kəmərləri vardır. Bundan başqa, Azərbaycan ənənəvi olaraq mineral-xammal ehtiyatları, məhsuldar torpaq sahələri, əlverişli təbii-iqlim şəraiti, kifayət qədər münasib işçi qüvvəsinə malikdir. İnfrastrukturanın vəziyyəti də pis deyil. Azərbaycan xarici investorları cəlb edən regiondur. Son illərdə yaranmış siyasi sabitlik isə xarici iqtisadi əlaqələrin genişlənməsi üçün daha yaxşı şərait yaratmışdır.

Azərbaycan Respublikasının dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyası üçün ilk növbədə həm sənayedə və həm də kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri həyata keçirmək lazımdır. Bu əslində günün ən aktual problemlərindəndir. Görüləcək işlər iki mərhələdə aparıla bilər. Birinci mərhələ 2005-ci ilə qədər dövrü, ikincisi isə 2005-ci ildən sonrakı dövrü əhatə etməlidir. Məsələyə bu cür

yanaşmağın əsasını AMOK-un respublikada fəaliyyəti və bu fəaliyyətin iqtisadiyyata təsir etməsi nöqteyi-nəzərincə təyin olunmuş pillələri təşkil edir. Məlum olduğu kimi AMOK-un (indiki «BP exploration LTD») fəaliyyətinin genişləndirilməsi proqramı, iqtisadiyyata üçpilləli təsiri nəzərdə tutur. Birinci təsiretmə pilləsi 1994-cü ildən 2000-ci ilə qədər dövrü əhatə edirdi ki, bu pillə artıq arxada qalıb. Bu pillədə əsas investisiya xərclərinə fikir verilib və Azəri-Çıraq-Günəşli yataqlarında neft əməliyyatları üzrə işlərə operativ rəhbərlik etmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılıb. Göstərilən neft yataqlarında əməliyyatların həyata keçirilməsinə ümumi şəkildə 1 milyard 300 milyon ABŞ dolları xərclənmişdir. Bu xərc əsasən quyuların qazılmasına, neft terminallarının tikintisinə və s. sərf edilmişdir. Birinci pillədə çıxarılacaq neftin daşınması üçün bir sıra işlər görülmüşdür. Çıraq yatağından ilkin neft şimal kəməri ilə Novorossiyski terminalına və oradan da dünya neft bazarına çatdırılmışdır. Bakı-Supsa neft kəməri tikilib istismara verilmişdir. Bu kəmərlərlə ildə 20 milyon ton neft ixrac etmək mümkündür. Beləliklə, birinci pillədə görülən işlərin həcmi və miqyası imkan verir ki, ikinci pillədə nəzərdə tutulan işlər də müvəfəqiyyətlə həyata keçirilsin. İlkin neftin daşınması ilə yanaşı bu pillədə xarici investorların qoyduqları kapitalın ödənilməsi prosesi də başlamışdır.

İkinci pillə 2000-ci ildən başlamışdır. Bu pillədə neft ixracının yüksək sürətlə artması və ölkəyə çoxlu miqdarda mənfəət gəlməsi baş verir. Əldə edilən təmiz mənfəətin 70%-dən çoxu, vergilərin və investisiya borclarının ödənilməsinə sərf edilməsi və yalnız 30%-ə qədərinin Azərbaycana verilməsi nəzərdə tutulmuşdur. Əlbəttə, neftdən əldə edilən mənfəətin bu nisbətdə bölünməsi Azərbaycanın iqtisadiyyatını tezliklə yüksəltməyə imkan yarada bilməzdi və keçən dövr bunu bir daha sübut etdi. Bu hal 2005-ci ilə qədər davam edəcək. Lakin nəzərə almaq lazımdır ki, 2000-ci ildən başlayaraq Azərbaycanın öhdəsində qalan mənfəətin məbləği 2005-ci ilə yaxınlaşdıqca ilbə-il

artacaq və respublikanın iqtisadiyyatını inkişaf etdirmək üçün yeni imkanlar yaranacaq.

Üçüncü pillə 2005-ci ildən başlanacaq. AMOKO fəaliyyətinin genişləndirilməsi proqramına görə bu pillədə neft satışından əldə edilən təmiz mənfəətin 5/6-i Azərbaycanın sərəncamında qalacaq. Bu o deməkdir ki, 2005-ci ildən başlayaraq Respublikanın neft dollarının həcmi bir neçə dəfə artacaqdır.

İnkişafın üçpilləli olması göstərir ki, Azərbaycan Respublikasının iqtisadiyyatını kompleks inkişaf etdirmək istiqamətində əməli texniki, təşkilati iqtisadi tədbirlər hazırlamaq üçün 2-3 il vaxt vardır. Görünür 2005-ci ildən sonrakı dövrdə əldə ediləcək nəticələrin xarakteri məhz bu dövrdə görüləcək işlərdən asılı olacaqdır. İlk növbədə çalışmaq lazımdır ki, dünya bazarında qeyri-neft ixracının rəqabətə dözüm- lülük qabiliyyəti artırılsın. Burada sənayenin qeyri-neft sahələrinin və kənd təsərrüfatının məqsədyönlü inkişaf etdirilməsindən və daxili və xarici bazarlarda rəqabətə tab gətirə bilən məhsullar istehsal edilməsindən söhbət gedir. Bunun baş verməsi üçün istər 2005-ci ilə qədər olan dövr və istərsə də ondan sonra neft dolları ilə bağlı resurslar səfərbər ediləcək, respublika iqtisadiyyatının inkişafı üçün münasib maliyyə şəraiti yaradılacaq və sonda bütün bunların hamısı üçüncü pilləyə yaxşı hazırlaşmaq üçün istifadə ediləcəkdir.

Onu da qeyd etmək lazımdır ki, bütün bu qeyd etdiklərimiz neftin çıxarılması və daşınması ilə əlaqədar olan siyasi məsələlərin normal həll edilməsi halında baş verə biləcək. Bununla yanaşı nəzərə almaq lazımdır ki, Xəzər dənizinin resurslarından istifadənin hüquqi əsasına aid olan beynəlxalq məsələ hələlik öz həllini tapmamışdır. Neftin daşınması problemlərinin də həmişə ortaya çıxa biləcəyini nəzərə almaq lazımdır. Əlbəttə, bu cür siyasi məsələlərin həlli ilk növbədə dünya təsərrüfat sistemində gedən proseslərdən və Azərbaycan Respublikasının həyata keçirəcəyi daxili və xarici siyasətin səmərəliliyindən asılı olacaqdır. Bundan başqa, bir məsələ də özünə ciddi diqqət tələb edir. Bu neftdən alınan gəlirin xərclənməsi ilə

əlaqədardır. Fikrimizcə, neftdən gələn gəlirin ilbəil artan məbləğinin xərclənməsi kriteriyası "maksimum iş yerləri yaratmaq" olmalıdır. İş yerləri sənayenin bütün sahələrində və respublikanın bütün kənd, rayon, qəsəbə və şəhərlərində yaradılmalıdır.

Keçmiş SSRİ dövründə Azərbaycanın iqtisadiyyatı xarici ölkələrlə nisbətən güclü bağlı idi. Xüsusən neftçıxarma avadanlıqlarının istehsalı və satışı üzrə, onlarla xarici ölkələrə mancanaq dəzgahlar, qazma qurğuları, neftçıxarma avadanlıqları, quyu qazma qurğuları üçün müxtəlif ehtiyat hissələri göndərilirdi. Bu məhsulların istehsalı ilə Azərbaycanda iri bir sənaye sahəsi – neft maşınqayırması məşğul idi. Ümumittifaq əmək bölgüsünə uyğun yaradılmış neft avadanlıqları istehsal edən bu sahənin zavodları SSRİ dağıldıqdan sonra iflic vəziyyətinə düşdülər. Xarici ölkələrin maliyyəsi əsasında bağlanılmış məlum neft kontraktları Azərbaycanda neft və qaz hasilatını artırmağı nəzərdə tutduğu üçün belə bir fikir meydana gəlmişdi ki, neft kontraktları neft maşınqayırmasındakı tənəzzülü aradan qaldıracaq. Lakin çox təəssüflər olsun ki, müxtəlif subyektiv və obyektiv səbəblər üzündən bu baş vermədi. Neftçıxarma sənayesinin neft maşınqayırma məhsullarına olan tələbatı da ixracın hesabına dolduruldu. Nəticədə öz daxili tələbatlarını və keçmiş ittifaq tələbatlarını ödədikdən son-ra belə, dünya bazarına neftçıxarma avadanlıqları və onlar üçün ehtiyat hissələri çıxaran Azərbaycan özü bu məhsulları xarici ölkələrdən almaq məcburiyyətində qaldı. Respublikanın dünya təsərrüfat sisteminə qoşulmasına mənfi təsir göstərən bu cür hallar aradan qaldırılır. Qoyulan məsələnin aktuallığı ona görə qalmaqdadır ki, neft kontraktlarının ömrü uzundur və hələ çoxlu miqdarda və müxtəlif növdə neftçıxarma avadanlıqlarına yüksək tələbat həm daxili və həm də xarici bazarlarda qalmaqdadır.

Son illərdə Respublika hökumətinin də bu sahədə müs- bət addımlarını nəzərə alsaq 2005-ci ilə qədər və ondan son- rakı dövrdə neft maşınqayırmasının inkişafı üçün yaxşı imkan-lar yarandığı haqqında fikir söyləməyə əsas yaranır. Bunun nə-ticəsində Azərbaycan

iqtisadiyyatının dünya təsərrüfat siste-minə məqsədyönlü inteqrasiya olunması prosesi güclənəcək-dir.

Keçmiş SSRİ məkanında Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyası xalq təsərrüfatının digər sahələri vasitəsi ilə də nisbətən möhkəm idi və onları yada salmağın və xarici iqtisadi əlaqələri yenidən inkişaf etdirməyin çox mühüm əhəmiyyəti vardır. Söhbət konkret olaraq sənayenin ağır sahələrinin və xüsusən də metallurgiya və kimya sənayelərinin inkişafından gedir. Azərbaycan Respublikasının metallurgiya sənayesini inkişaf etdirmək üçün böyük potensial imkanları həmişə olub və indi də var. Bu imkanlar mütəxəssis və iqtisadçılara keçən əsrin 30-cu illərindən məlum idi. Azərbaycanın məşhur mühəndisi Ç.İldırım (Azərbaycan Texniki Universitet indi onun adını daşıyır) məhz o illərdə respublikada əsasən yerli xammalla (Daşkəsən filizi) işləyə bilən çox güclü metallurgiya kompleksi yaradılmasının texniki-iqtisadi əsaslandırılmasını vermişdi. Bu imkan indi də qalmaq-dadır. 2001-ci ildə Bakıda Yaponiya iş adamları ilə birlikdə istifadəyə verilən və çox keyfiyyətli armatur istehsal edən "Bakı polad kompaniyası" deyilənləri bir daha təsdiq edir. Bu həm də Ümumdünya Bankı əməkdaşlarının guya ağır sənaye məhsullarının rəqabətə tab gətirə bilməyəcəkləri ehtimallarının düzgün olmadığını sübut edir.

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə inteqrasiyasını sənaye və kənd təsərrüfatının səmərəli olan bütün sahələrini inkişaf etdirməklə təşkil etmək olar. Bunun üçün ilk növbədə aqrar-sənaye komplekslərinin optimal tərkibini yaratmaq, kənd təsərrüfatı xammalı əsasında müxtəlif çoxişlənən məhsullar istehsal etmək lazımdır.

İqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatının özündə də həm istehsalı və həm də gəlirləri artırmaq imkanı vardır. Məsələ burasındadır ki, ümumilikdə kənd təsərrüfat istehsalı hələ də 1990-cı illərin səviyyəsinə çatmamışdır. Hər hektardan məhsul istehsalı xeyli aşağı düşmüş, bir çox məhsulların fiziki həcmi isə dəfələrlə azalmışdır.

Pambıq və üzüm istehsalı bunlara əyani misaldır. Hamıya məlumdur ki, Azərbaycanda bir milyon tona yaxın pambıq istehsal edilən il də olub, 2,0 milyon tondan da çox üzüm yığılan il də. 1990-cı ilə nisbətən indi kənd təsərrüfatında həm məhsuldarlıq və həm də istehsalın həcmi bir neçə dəfə azalmışdır. Çox da mürəkkəb olmayan hesablamalar göstərir ki, Azərbaycanda iqtisadiyyatın kənd təsərrüfatı bölməsində istehsalın yüksəldilməsi üçün böyük imkanlar mövcuddur. Bu imkanları reallaşdırmaq üçün dövlət yaradıcı iş aparmalıdır ki, kənd təsərrüfatında müvafiq iri, orta və kiçik təsərrüfatlar məhsuldar, gəlirli və mənfəətlə işləyə bilsinlər. İdarəetmə, stimullaşdırma və ən başlıcası isə marketinq fəaliyyəti gücləndirilməli, istehsal diversifikasiyalaşdırılmalıdır.

Kənd təsərrüfatında yaranmış daxili imkanları dövriyyəyə cəlb etmək üçün paralel olaraq maliyyə sahəsinə diqqət artırılmalıdır. Təhlil göstərdi ki, dövlət müstəqilliyi əldə etdikdən sonra istər sənaye və istərsə də kənd təsərrüfatı müəssisələrinin inkişafında maliyyə rıçaqlarından istifadə edilməsi istənilən nəticələrin əldə olunmasına tam səbəb olmur. Məsələn, bank kreditləri adətən qısa müddətlər üçün borc şəklində, yüksək faiz ödənişi şəklində verilir. Bankların özlərinin vəziyyəti də ürəkaçan deyil. Müştərilər öz öhdəliklərini vaxtında, tələb olunan həcmdə ödəyə bilmədikləri üçün bir çox bankların maliyyə vəziyyətləri gərgindir.

Maliyyə sistemi istər sənayedə və istərsə də kənd təsərrüfatında istehsala iki tərəfdən mənfi təsir göstərir. Birincisi, kiçik və orta sahibkarlığa əməli maliyyə dəstəyi verən bank sisteminin yaradılmaması, ikincisi, sahibkarlıq həvəsinə düşüb kredit əldə edən və əldə olunan vəsaitin təyinatına uyğun xərcləməyən subyektlərin meydana gəlməsi. Subyektiv amillər üzrə yaradılmış kiçik və orta maliyyə strukturların əsaslandırılmamış yüksək faizlərlə borc verməsi müştərilərin isə əldə etdikləri vəsaiti bəzən hara gəldi, yəni təyinatdan kənar xərcləməyi üstün tutmaları iqtisadiyyata mənfi təsir göstərir. Pul verilir, pul «xərclənir» nəticədə isə istehsal yerində sayır, bank isə müflisləşir. İstehsalı dirçəltmək, bank işini sağlamlaşdırmaq üçün hər

iki tərəfin maraqlarını uyğunlaşdırmaq lazımdır. Elə bir təsərrüfat mexanizmi yaratmaq lazımdır ki, bankların fəaliyyəti istehsalçıların fəaliyyətləri ilə və əksinə blokirovkalansın. Bank fəaliyyəti üzərində və istehsal fəaliyyəti üzərində dövlət nəzarəti gücləndirilməlidir. Üç istiqamətdə iş aparılmalıdır:

1) kiçik və orta sahibkarlığın inkişafına yönəldiləcək kapital vəsaiti yaratmaq;

2) marketinq fəaliyyətini gücləndirmək;

3) qiymət stimulu formalaşdırmaq.

Dövlət öz işini göstərilən bu üç istiqamətdə qurmağı bacarır, nəticədə istehsalda əmək məhsuldarlığı yüksələr və eyni zamanda əməli özəlləşdirmə üçün şərait yaranar. Ən başlıcası isə maraqların uyğunlaşdırılması baş verir. İstehsal iqtisadi yüksəlişin əsas mənbəyi olduğuna görə, dövlət və onun münasib strukturları öz fəaliyyətlərini onun üzərində çalışırlar. Eyni zamanda istehsalı sevən, onun inkişafını təmin edən kollektivlər, sahibkarlar dövlət qayğı və köməyindən istifadə etmək sahəsində üstünlüklərə malik olmalıdırlar.

Beynəlxalq iqtisadi əlaqələrin nəticəsi sonda öz əksini ticarətin genişlənməsində tapır. Lakin bunun üçün ilkin şərt xarici ölkələrlə müvafiq saziş və müqavilələrin bağlanmasıdır. Bunu nəzərə alaraq müstəqillik qazandıqdan sonra respublikamız onlarla xarici ölkə ilə ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş və müqavilələr bağlamışdır. Qədim "İpək yolu» haqqında razılaşmalar da Çin, Özbəkistan, Türkmənistan, Gürcüstan, Rumıniya, Almaniya ilə bağlanmış dövlətlərarası sazişlərin bağlanması nəticəsində mümkün olmuşdur. "İpək yolu"nun çox böyük beynəlxalq əhəmiyyəti var və o Azərbaycanı keçmişdə olduğu kimi beynəlxalq Avropa-Qafqaz-Asiya transmilli nəqliyyat dəhlizinin mərkəzinə çevirəcəkdir.

Xarici kompaniyaların köməyi ilə həyata keçirilən Traseka proqramı başa çatdıqdan sonra "İpək yolu" üzrə işlərin reallaşması sürətlənəcək. Bununla yanaşı, BMT-nin Baş Assambleyasının Ticarət və İnkişaf Konfransı (İMSTD) ilə əlaqələr inkişaf etdirilir və bu

təşkilatın geniş imkanlarından tranzit daşımalar sahəsində mövcud olan problemlərin həllində səmərəli istifadə olunması qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikası Beynəlxalq İctimai Təşkilatlarla əlaqələrini möhkəmləndirir. Hazırda ölkəmizin Beynəlxalq Valyuta Fondu (BVF), Ümumdünya Ticarət Təşkilatı (UTT), Dünya Bakı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), İslam İnkişaf Bankı (İİB) kimi görkəmli təşkilatlarla sıx əlaqələri yaranıb və inkişaf etməkdədir. Bundan başqa, respublikamız bir sıra beynəlxalq saziş və müqavilələrə qoşulub, MDB, İqtisadi Əməkdaşlıq Birliyi, Qaradəniz sahili ölkələr birliyi kimi iqtisadi birliklərə daxil olmuşdur. Azərbaycanın da daxil olduğu Xəzərsahili dövlətlərin birliyi, Ümumqafqaz evi, GUAM kimi yeni iqtisadi birliklər də yaradılmışdır. Ölkə iqtisadiyyatında baş verən liberallaşdırma prosesləri ilə yanaşı göstərdiyimiz beynəlxalq sazişlər, birliklər, təşkilatlar Azərbaycana xarici investisiya qoyuluşuna maraqları artırır. Hələlik böyük həcmli, xarici investisiya əsasən neftçıxarma sənayesinin inkişafına yönəldilir.

Neftçıxarma sənayesinə və onunla bağlı digər sahələrə 30 milyard ABŞ dolları həcmində investisiya qoyulması haqqında dünyanın Böyük Britaniya, ABŞ, Fransa, İtaliya, İran, Yaponiya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı, Rusiya və s. kimi aparıcı dövlətlərinin neft şirkətləri ilə kontranktlar bağlanmış və bu iş indi də davam etməkdədir. Məsələ burasındadır ki, Xəzər dənizinin Azərbaycan bölməsi, mütəxəssislərin fikrinə görə dünyanın ən perspektivli neft və qazla zəngin olan hövzələrindən biri sayılır və göstərilir ki, burada neft, qaz və kondensatın ümumi ehtiyatı 8 milyard ton şərti yanacaqdan da çoxdur.

1994-1997-ci illərdə 9 iri beynəlxalq neft kontraktları bağlanmışdır. Onlardan ən irisi “Əsrin kontraktı” adlanır. Bu kontrakt Azəri-Çıraq yataqlarının və Günəşli yatağının dərin su qatlarında yerləşən hissəsinin işlənməsi üçün yeddi xarici ölkələrin neft kompaniyalarını cəlb etməklə 1994-cü il sentyabrın 20-də bağlanmışdır. Ümumi şəkildə bu kontraktda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)

ilə yanaşı 11 xarici neft kompaniyası iştirak edir. "Məhsulun pay bölgüsü" tipli bu kontrakta görə 30 il müddətinə yataqlardan 500-600 milyon ton neft və 200 milyard kubmetrdən də çox qaz çıxarılacağı proqnozlaşdırılır (keçən 7-8 il ərzində əldə edilən nəticələr göstərir ki, proqnoz rəqəmlər əldə ediləcək). "Əsrin kontraktı" 7,5 milyard ABŞ dolları məbləğində vəsait tələb edir. Qoyulan şərtlərə görə investisiya xərcləri ilk 8-10 il ərzində ödənilməlidir. Kontraktdan əldə edilən gəlirin məbləğinin 80 milyard olacağı gözlənilir ki, onun da 50%-i respublikanın sərəncamında qalmalıdır. Biz 1994-1997-ci illərdə bağlanmış 9 iri kontraktın biri haqqında geniş məlumat veririk. Hazırda isə bağlanmış beynəlxalq neft kontraktların sayı 20-ni ötmüşdür.

Qeyd etdiyimiz kimi müqavilələr "pay bölgüsü" prinsipinə əsasən bağlanır və hər bir kompaniyanın payı ayrıca olaraq qabaqcadan təyin edilir. Əyanilik üçün cədvəl 39-da 1994-1997-ci illərdə bağlanmış bir neçə neft müqaviləsinin adı, iştirak edən ölkələrin siyahısı və "məhsulun pay bölgüsü"ündə faizlə payı göstərilmişdir.

**Cədvəl 39**

**Azərbaycan Respublikasının 1994-1997-ci illərdə bağlandığı bir neçə neft müqavilələrində xarici kompaniyalar və onların payı (%-lə)**

| Müqavilənin adı və bağlanma tarixi | Ölkələr | Kompaniyalar | Payları (%-lə) |
|---|---|---|---|
| Azəri, Çıraq, Günəşli (20.09.94) ("Əsrin müqaviləsi") | Norveç | Statol | 8,56 |
| | Səudiyyə Ərəbistanı | Delta | 1,68 |
| | ABŞ | AMOCO | 17,01 |
| | ABŞ | Unocal | 10,05 |
| | ABŞ | Exxon | 8,0 |
| | ABŞ | Pennzoil | 4,81 |

| | | | |
|---|---|---|---|
| | Böyük Britaniya<br>Böyük Britaniya<br>Türkiyə<br>Rusiya<br>Yaponiya | BP<br>Remco<br>TPAO<br>Lukoil<br>Itochu | 17,13<br>2,08<br>6,75<br>10,00<br>3,92 |
| Qarabağ (11.10.96) | İtaliya<br>Rusiya və İtaliya<br>ABŞ<br>Rusiya | Agip<br>Luk Agip<br>Pennzoil<br>Lukoil | 5,0<br>45,0<br>30,0<br>12,5 |
| Lənkəran-Dəniz<br>Talış-Dəniz<br>(01.13.97) | Fransa<br>Fransa<br>İran<br>Almaniya<br>Belçika | Elf<br>Acquitain e<br>Total<br>OIEC<br>Deminex<br>Petrofina | 20,0<br>10,0<br>10,0<br>10,0<br>5,0 |
| Yalama, Samur,<br>D-222<br>(07.04.97) | ABŞ<br>Rusiya | ARCO<br>Lukoil | 27,6<br>32,4 |
| Oğuz (08.01.97) | ABŞ | Mobil | 50,0 |
| Naxçıvan, D3<br>(08.01.97) | ABŞ | Exxon | 50,0 |
| Abşeron (08.01.97) | Fransa<br>ABŞ | Total<br>Şevron | 20,0<br>30,0 |

## 2.5. İqtisadiyyatın açıqlılıq səviyyəsi

*"Азярбайъан дювлятинин стратежи йолу йалныз демократийа, сярбяст игтисадиййат вя сащибкарлыг йолудур"*

***Щ.Я.ЯЛИЙЕВ***

Hər bir ölkənin iqtisadiyyatı açıq olmalıdır. İndi bu fikir hər yerdə səslənir və doğrudanda belədir. İqtisadiyyatı optimal inkişaf etdirmək üçün xarici əlaqələri genişləndirmək, dünya təsərrüfat sisteminə bağlanmaq lazımdır. Lakin bu məsələnin həllində hər bir ölkə öz maraqlarını nəzərə almalıdır. İlk növbədə, daxili bazarı genişləndirmək və onu vətən məhsulları ilə doldurmaq lazımdır. Bunun üçün isə istehsalın strukturu daxili tələbatın strukturuna maksimum uyğun gəlməlidir. Planlaşdırma və idarəetmədə bu məsələlərin nəzərə alınması üçün istifadə edilən göstərici "Xarici ticarət dövriyyəsinin ÜDM-da xüsusi çəkisi" göstəricisidir. Bu göstərici müəyyən dövr üçün (adətən bir il) əldə edilmiş xarici ticarət dövriyyəsini (ixrac və idxalın cəmini) həmin dövrdə istehsal edilən ÜDM-a bölməklə təyin edilir. Onun normativ qiymətini inkişaf etmiş ölkələrin əldə etdikləri nəticələri nəzərə almaqla tapmaq olar. Məsələn, dünyanın ABŞ və Yaponiya kimi iqtisadi cəhətdən qüvvətli dövlətlərində bu göstərici 15-16 faiz təşkil edir. Cədvəldə 40-da 1990-2000-ci illərdə Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsi ilə Ümumi Daxili Məhsulun həcmi arasında nisbət göstərilmişdir.

**Cədvəl 40**

**1990-2000-ci illərdə Azərbaycanda xarici ticarət dövriyyəsinin ÜDM-da xüsusi çəkisi**

| | Ölçü vahidi | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| UDM | mln ABŞ dol | 3180,8 | 3960,9 | 4446,6 | 4583,6 | 5267,8 |
| Xarici ticarət dövriyyəsi | --"-- | 1981,3 | 2183,4 | 2601,6 | 2458,6 | 3397,3 |
| XTD-nin UDM-da xüsusi çəkisi | % | 62,0 | 51,1 | 59,2 | 53,6 | 64,7 |

Göründüyü kimi Azərbaycan Respublikasının Dünya bazarından asılılığı çox yüksəkdir və 2000-ci ildə bu asılılıq 64,7% təşkil etmişdir.

Bu göstəricidən başqa dünya iqtisadiyyatında hər bir ölkə iqtisadiyyatının açıqlılıq səviyyəsinə də qiymət verilir. İqtisadiyyatın açıqlılığını xarakterizə edən göstəricilərə "UDM-da ixracın kvotası" (İxracın UDM-a nisbəti, faizlə); "Ayrı-ayrı məhsul və xidmət növləri istehsalında ixracın kvotası" (məsələn: neftin ümumi hasilatında ixrac olunan neftin xüsusi əçkisi); "İstehlakda idxalın xüsusi çəkisi" (məsələn: ölkədə il ərzində istehlak olunan buğdanın ümumi həcmində idxal olunan buğdanın xüsusi çəkisi) göstəriciləri kimi göstəricilər də aid edilir.

Azərbaycan Respublikasının ixrac kvotası cədvəl 41-də verilmişdir. Göründüyü kimi ölkəmizdə ixrac kvotası çox yüksəkdir.

Lakin 1996-cı ilə nisbətən 2000-ci ildə kvota 12,6 faiz punktu aşağı düşmüş və 2000-ci ildə 29,5% təşkil etmişdir. Müqayisə üçün göstərə bilərik ki, Rusiyada bu göstərici 10-15% təşkil edir.

**Cədvəl 41**

**1996-2000-ci illərdə Azərbaycan Respublikasında ixrac kvotasının dəyişməsi**

| | Ölçü vahidi | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| UDM | mln ABŞ dol | 3180,8 | 3960,9 | 4446,6 | 4583,6 | 5267,8 |
| İxracın məbləği | --"-- | 1337,6 | 1375,2 | 1723,9 | 1433,4 | 1539,0 |
| İxracın kvotası | % | 42,1 | 34,7 | 38,8 | 33,7 | 29,5 |

## § 3. AZƏRBAYCAN RESPUBLİKASININ SƏNAYESİ

### 3.1. Sənayenin ümumi xarakteristikası

1990-1995-ci illər Azərbaycan iqtisadiyyatında xüsusi bir dövr olub və bu dövrdə baş verən və əsasən ölkənin özündən asılı olmayan sosial-iqtisadi və siyasi hadisə və proseslər ümumi kontekstdə iqtisadiyyata güclü mənfi təsir göstəriblər. Məhz bu dövr iqtisadiyyatın dərin və uzunmüddətli tənəzzül dövrü olub. Lakin dərin və uzunmüddətli tənəzzül iqtisadiyyatın ürəyi olan sənaye istehsalında

özünü daha qabarıq şəkildə göstərmişdir. Bunun nəticəsində sənaye məhsulu istehsalı 2000-ci ildə 1990-cı illə müqayisədə 30% azalmışdır. Emal sənayesində geriləmə daha çox güclü olmuşdur ki, bu da çoxlu sayda iş yerlərinin itirilməsinə səbəb olmuşdur. Sənaye məhsulunun ümumi həcminin indeksi aşağıdakı cədvəldə göstərilmişdir (cədvəl 42)

**Cədvəl 42**

### Azərbaycan Respublikasında sənaye məhsulunun ümumi həcminin indeksi (1990-2000) (1990=100)

| İllər | Bütün sənaye | O cümlədən | | |
|---|---|---|---|---|
| | | hasilat sənayesi | emal sənayesi | elektrik enerjisi, qaz və su təchizatı |
| 1990 | 100 | 100 | 100 | 100 |
| 1991 | 91 | 97 | 90 | 99,3 |
| 1992 | 63 | 84 | 61 | 81 |
| 1993 | 51 | 78 | 49 | 77 |
| 1994 | 38 | 72 | 35 | 68 |
| 1995 | 30 | 53 | 28 | 64 |
| 1996 | 28 | 52 | 25 | 67 |
| 1997 | 28 | 52 | 25 | 63 |
| 1998 | 29 | 64 | 22 | 66 |
| 1999 | 30 | 77 | 20 | 67 |
| 2000 | 32 | 78 | 23 | 69 |

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasında 1996-97-ci illəri respublika sənayesində sabitləşmə dövrü kimi qiymətləndirmək olar. 1997-ci ildən başlayaraq bu sahədə inkişaf

istiqamətində dönüş ilk növbədə 1994-cü ildə imzalanmış "Əsrin kontraktı"nın praktiki cəhətdən reallaşması, sənayenin bir sıra sahələrinə xarici və daxili sərmayələrin yönəldilməsi, kiçik və orta müəssisələrin özəlləşdirilməsi üzrə Dövlət Proqramının həyata keçirilməsi, yeni müəssisələrin tikilməsi ilə əlaqədar idi. Həyata keçirilən tədbirlər emal səna-yesini zəif əhatə etdiyinə görə geriləmənin dayandırılması əsasən hasilat (neft və qaz hasilatı) sənayesində və elektrik ener-jisinin istehsalında özünü daha açıq göstərirdi.

Ümumi sənaye məhsulunun artmasını əhatə edən üçüncü pillə 1998-2001-ci illəri əhatə edir. Bu pillədə sənaye məhsulunun ümumi həcmi onun 1990-cı ildəki həcminin 32 faizini (2000-ci il) təşkil etmişdir. Lakin bu illərdə də emal sənayesində geriləmə davam etmişdir və 2000-ci ildəki həcminin cəmi 23%-i qədər məhsul istehsal edilmişdir.

Ümumi sənaye üzrə məhsul istehsalının artımı əsasən elektroenergetika, yanacaq, kimya və neft-kimya sənayesi müəssisələrinin hesabına əldə edilmişdir. Bununla belə ayrı-ayrı sahələrdə maşınqayırma, yüngül, yeyinti və tikinti materialların sənayesi və digər sahələrdə istehsalın aşağı düşməsi davam etməkdə qalmışdır.

Yaranmış mühütin xüsusiyyətləri sənayedə özünəməxsus yeni müəssisələrin meydana gəlməsinə səbəb olmuş və 2001-ci ilin yanvarın biri vəziyyətinə onların sayı 4835-ə çatmışdır. Bu cür müəssisələrin 90%-i "kiçik müəssisə" statusu almış və sənayenin inkişafında nəzərəçarpacaq bir rol oynaya bilməmişlər.

Sənayedə xarici və müştərək müəssisələrin sayı üç dəfədən çox artmışdır. Hazırda respublika sənayesində 37 dövləti təmsil edən 381 xarici investisiya müəssisəsi fəaliyyət gös-tərir.

Dövlət Statistika Komitəsinin məlumatlarından aşkar olur ki, 1995-ci ildən sonra Azərbaycanda həyata keçirilən və iqtisadiyyatın və xüsusən də onun aparıcı sahəsi olan sənaye istehsalının dirçəlməsinə yönələn tədbirlər öz nəticəsini verir. Bu özünü ilk növbədə sənaye məhsulunun ümumi həcminin indeksində göstərir. Cədvəl 43-ün

məlumatlarından görünür ki, 1995-ci ildən sonra sənayedə artım qeydə alınıb.

**Cədvəl 43**

**Azərbaycan Respublikasında ümumi sənaye məhsulunun 1995-2000-ci illərdə indeksi (1995-2000)**

| İllər | Bütün sənaye | O cümlədən | | |
|---|---|---|---|---|
| | | hasilat sənayesi | emal sənayesi | elektrik enerjisi, qaz və su təchizatı |
| 1995 | 100 | 100 | 100 | 100 |
| 1996 | 93 | 98 | 90 | 106 |
| 1997 | 94 | 97 | 91 | 99 |
| 1998 | 96 | 121 | 80 | 104 |
| 1999 | 99,1 | 145 | 73 | 105 |
| 2000 | 105,9 | 147 | 84 | 108 |

Beləliklə, 1995-ci illə müqayisədə sənaye istehsalının ümumi həcmində azalma, 1995-ci ilə nisbətən 1996-cı ildə 6,7%, 1997-ci ildə isə 0,9% təşkil edirdi. Sənaye məhsulunun ümumi həcminin stabilləşməsi 1999-2000-ci ildə baş verib və 2000-ci ildə məhsul istehsalı 1995-ci ilə nisbətən 5,9% artdı. Bu artım xam neft və təbii qaz hasilatı hesabına əldə edilmişdir. 1998-ci ildə bağlanmış neft kontraktları öz bəhrəsini verməyə başladı və 1995-ci ilə nisbətən xam neft və təbii qaz hasilatını 1998-ci ildə 21,1%, 1999-cu ildə 45,3% və

2000-ci ildə 47,0% artırmağa imkan verdi. Sənayenin digər sahələrində məhsul istehsalı həcminin azalması isə 2000-ci ildə də baş vermişdir. Məsələn, yerli xammal bazası, münasib istehsal potensialı, yüksək ixtisaslı kadrları olan toxuculuq məmulatları sənayesinin istehsal həcmi 2000-ci ildə 1995-ci ilə nisbətən 84,3% azalmışdır. Müqayisə olunan dövrdə məhsul istehsalının azalması geyim istehsalında 58,1%, həsir və küləşdən hazırlanan məmulatların istehsalı 66,9%, rezin və plastik kütlə məmulatlarının istehsalı – 84,4%, hesablama maşınlarının istehsalı və s. aşağı düşmüşdür.

Respublikanın sənayesində neft çıxarılması mühüm yer tutur. 1997-ci ilin noyabr ayında "Çıraq" yatağının ilk quyusundan neft fantanı vurduğu andan başlayaraq 2000-ci ilin sonuna qədər 12,2 milyon ton xam neft çıxarıldı. Ümumiyyətlə, Azərbaycanda 2000-ci ildə 14 milyon ton neft hasil edilmişdir. Proqnoz məlumatlarına görə 2002-ci ildə Azərbaycanda çıxarılan neftin ümumi həcmi 15 milyon ton təşkil etməlidir. Neft hasilatı dənizdə və quruda aparılır. Lakin quruda çıxarılan neftin həcmi sürətlə azalır. Bu azalmanın rəsmi həcmi 1990-2000-ci illərdə 1,1 milyon ton xam neftə bərabər olmuşdur. Quruda və dənizdə çıxarılan neftin həcminin dəyişilməsi 1990-2002-ci illər üzrə cədvəl 45-də verilir.

Azərbaycan Respublikasında həmişə neft hasil edilib. Lakin ayrı-ayrı dövrlərdə neftin ümumi həcmi müxtəlif olub. İkinci dünya müharibəsində (1942-ci il) hasil edilən neftin həcmi rekord səviyyəsinə çatıb və 23 milyon ton neftdən də çox təşkil edib. Sonralar qurudan çıxarılan neftin həcmi getdikcə azalmış, dənizdən çıxarılan neftin həcmi isə artmışdır. Hazırda ARDNŞ və ABƏŞ-i arasında neft hasilatı aşağıdakı nisbətdədir (bax cədvəl 44). Göründüyü kimi ABƏŞ-nin çıxardığı neftin həcmi ilbəil artır.

**Cədvəl 44**

| İllər | Neft hasilatı min ton | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | ARDNŞ | ABƏŞ | | |
| | | min ton | xüsusi çəkisi | min ton | xüsusi çəkisi |
| 2000 | 14016,8 | 9013,4 | 64,3 | 5003,4 | 35,7 |
| 2001 | 14600 | 8900 | 60,9 | 5700 | 39,1 |
| 2002 | 15000 | 8800 | 58,6 | 6200 | 41,4 |

**Cədvəl 45**

**Azərbaycan Respublikasında quruda və dənizdə neft hasilatı (1990-2002)**

| **İllər** | **Dənizdə neft hasilatı** | | **Quruda neft hasilatı** | |
|---|---|---|---|---|
| | **milyon tonla** | **respublika üzrə ümumi hasilata görə, %-lə** | **milyon tonla** | **respublika üzrə ümumi hasilata görə, %-lə** |
| 1990 | 9,9 | 79,5 | 2,6 | 20,5 |
| 1991 | 9,5 | 80,9 | 2,2 | 19,1 |
| 1992 | 9,1 | 82 | 2 | 18 |
| 1993 | 8,3 | 80,8 | 2 | 19,2 |
| 1994 | 7,8 | 81,3 | 1,8 | 18,7 |
| 1995 | 7,5 | 82,3 | 1,7 | 18,5 |
| 1996 | 7,5 | 82,7 | 1,6 | 17,6 |

| | | | | |
|---|---|---|---|---|
| 1997 | 7,5 | 82,4 | 1,6 | 17,6 |
| 1998 | 9,8 | 86,2 | 1,6 | 13,8 |
| 1999 | 12,3 | 89 | 1,5 | 11 |
| 2000 | 12,4 | 89,2 | 1,5 | 10,8 |
| 2001 (göz.) | 13,1 | 89,2 | 1,5 | 9,7 |
| 2002 (proq.) | 13,6 | 90,6 | 1,4 | 9,4 |

Neftayırma məhsullarının bir neçə dəfə artırılması üçün respublika sənayesinin böyük imkanları vardır. Əsas məsələ bu imkanlardan bacarıqla istifadə etməkdən ibarətdir. Qeyd edək ki, bütün imkanlardan yaradıcılıqla istifadə edib sənaye məhsulları istehsalını nizama salmaq sahəsində respublikamız dəyərli təcrübə əldə etmişdir. Məsələn, son illər neft-mədən avadanlıqlarının, sementin, şiferin, gil-torpağın və s. istehsalının artması müşahidə olunur. Kassa aparatları, mikrokal-kulyator, televizor, telefon aparatları, məişət elektrik cihazlarının (kofe üyüdən, ət çəkən, şirə çıxaran) istehsalları mənimsənilmişdir.

Sənaye ölkənin iqtisadi sərbəstliyinin güclənməsinə ən çox təsir edən sahədir. Ayrı-ayrı sənaye və ərzaq məhsullarını istehsal etməklə bir sıra istiqamətlərdə səmərə əldə etmək olar. Bu sahədə də müəyyən təcrübə əldə edilmişdir. Məsələn, əvvəllər xarici ölkələrdən idxal olunan bir neçə malların müəy- yən hissəsi Azərbaycanda istehsal olunur. “Teksun yağ sənaye”, “Koka Kola”, “BM-SUN”, “Azəri-Kastel”, “European-To- bako”, “Nehir”, “Simens”, “DLD”, “Bərəkət”, “Azer-Pen”, “Turk-Baycan” və digər xarici və müştərək müəssisələrin məhsulları buna misal ola bilər. Bu müəssisələrin istehsal etdikləri məh-sullar dünya standartlarına cavab verir və daxili bazarın tələ-batlarını ödəyir. Eyni zamanda belə müəssisələrdə yeni iş yer-ləri yaranmış və dövlət büdcəsinə çoxlu vəsait daxil olmuşdur.

Lakin əldə edilən bu müsbət nəticələrlə yanaşı qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası sənayesinin inkişafında çatışmaz-

lıqlar vardır. İlk növbədə sənayenin sahə strukturunu qənaətbəxş hesab etmək olmaz. Son zamanlar Azərbaycanda həyata keçirilən tədbirlərdə sənayenin neftlə əlaqədar olan və qeyri-neft sektorlarının inkişaf etdirilməsinə fikir verilir. Bunun nəticəsində iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisi nisbətən artırılır. Bu meyillə sənayenin inkişafı 2002-ci ildə də davam etdiriləcək. Görülən tədbirlər nəticəsində UDM-da iqtisadiyyatın qeyri-neft sektorunun xüsusi çəkisinin 2002-ci ildə 75,4% təşkil edəcəyi gözlənilir (cədvəl 46).

**Cədvəl 46**

**ÜDM-nun ümumi həcmində neft sektoru payının dəyişməsi**

| | **ölçü vahidi** | **2000-ci il** | **2001-ci il** | **2002-ci il proqnoz** |
|---|---|---|---|---|
| ÜDM:<br>ondan | Mlrd.man.<br>% | 23566<br>100 | 26460<br>100 | 28746<br>100 |
| Neft sektoru<br>xüsusi çəkisi | mlrd.man.<br>% | 6186<br>26,25 | 7133<br>26,96 | 7076<br>24,62 |
| Qeyri-neft sektoru xüsusi çəkisi | Mlrd.man.<br>% | 17380<br>73,75 | 19327<br>73,04 | 21670<br>75,38 |

Bütün bunlarla yanaşı ölkənin sənayesində iqtisadi baxımdan iki neqativ hal nəzərə çarpır. Birincisi, sənaye məhsulunun ümumi həcmi keçən əsrin 90-cı illərinin əvvəlində əldə edilmiş səviyyədən çox aşağıdır. İkincisi, sənayedə səmərə- liliyi xarakterizə edən göstəricilər pisləşir. 1990-2000-ci illərdə sənayedə ümumilikdə 215,9 min iş yeri itirilib. Dövlət Statistika Komitəsinin məlumatlarına görə səmərəliliyin ümumi göstərici- si olan fondveriminin səviyyəsi isə müqayisəli qiymətlərlə 1990-cı ildəki 3,07 manatdan 2000-ci ildəki 0,51 manata qədər aşağı düşmüşdür. Göründüyü kimi baxılan göstəriciyə görə səmərəlilik altı dəfədən də çox aşağı düşmüşdür (bax cədvəl 47).

**Cədvəl 47**

**Sənayenin ümumi iqtisadi göstəriciləri**

| | **Ölçü vahidi** | **1990** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** |
|---|---|---|---|---|---|---|---|---|
| Məhsulun həcmi (qüvvədə olan fakt. qiym.) | milyard man | 1220 | 8855,9 | 1196,4 | 1256,9 | 11619,7 | 12945,2 | 16681,0 |
| Müəssisələrin sayı | ədəd | 3839 | 2984 | 3601 | 4189 | 4637 | 4611 | 4835 |
| SİI-in sayı | min nəf. | 409,1 | 304,3 | 271,7 | 214,6 | 191,8 | 186,0 | 193,2 |
| ƏİF (ilin sonuna, 2000-ci ilin müqayisəli qiymətləri ilə) | milyard manat | 14348,0 | 21954,1 | 26915,7 | 26969,6 | 27293,2 | 27648,0 | 28614,9 |
| Fondverimi | manat | 3,07 | 0,83 | 0,59 | 0,52 | 0,52 | 0,51 | 0,51 |

Hər hansı bir ölkə sənayesinə qiymət verərkən adətən ümumi göstəricilərdən istifadə edilir. Bazar iqtisadiyyatı şəraitində ölkənin ayrı-ayrı iqtisadi rayonlarında sənayenin vəziyyəti ən önəmli məsələlərdəndir. İqtisadi ərazilərin sosial-iqtisadi inkişafında sənaye aparıcı rol oynayır. Buna görə də ölkə miqyasında sənayenin inkişaf etdirilməsi paralel olaraq müəssisələrin ölkə ərazisində düzgün yerləşdirilməsini nəzərə almalı və ərazi vahidlərinin sənaye cəhətdən mənimsənilməsini nəzərdə tutmalıdır. 1990-cı ildən başlayaraq regionda

baş vermiş siyasi və sosial-iqtisadi hadisələr Azərbaycan Respublikasında sənayenin inkişaf sürətinə mənfi təsir göstərdiyi kimi ayrı-ayrı ərazilərin sənayesinə də mənfi təsir göstərə bildi. Rayon və şəhərlərin iqtisadiyyatı dağılmaq həddinə çatdı. İqtisadiyyatın aparıcı sahəsi olan sənaye müəssisələri tam gücü ilə fəaliyyət göstərə bilmədilər (bax cədvəl 48).

**Cədvəl 48**

**NMR və respublika tabeli şəhərlər üzrə sənaye məhsulunun ümumi həcminin indeksi (1990 = 100 faizi)**

| Rayonlar | 1991 | 1995 | 1997 | 1999 | 2000 |
|---|---|---|---|---|---|
| NMR | 94 | 16 | 4,5 | 3,2 | 3,4 |
| Bakı | 108 | 53 | 54 | 57,4 | 61,4 |
| Gəncə | 98 | 17 | 6 | 6,4 | 13,6 |
| Sumqayıt | 100,7 | 18 | 12 | 10,4 | 10,7 |
| Mingəçevir | 114 | 41 | 3 | 37,9 | 39,7 |
| Əli Bayramlı | 88 | 63 | 63 | 55,1 | 55,1 |
| Yevlax | 90,5 | 26 | 9 | 2,3 | 3 |
| Lənkəran | 72 | 9,9 | 13,6 | 26,6 | 30,6 |
| Şəki | 105,7 | 12 | 3 | 2, | 1,4 |

Azərbaycan Respublikasının tabeliyində olan şəhərlərdə belə sənaye istehlakı dəfələrlə aşağı düşmüşdür. Tədqiqat göstərdi ki, keçən on il ərzində iqtisadi rayonların sənayesini bərpa etmək mümkün olmamışdır. 2000-ci ildə istehsal edilmiş sənaye məhsulunun ümumi həcmi 1990-cı illə müqayisədə Naxçıvan Muxtar Respublikasında cəmi 3,4%, Bakı şəhərində 61,4%, Gəncədə 13,6%, Sumqayıtda 10,7%, Mingəçevirdə 39,7%, Əli Bayramlıda 55,1%, Yevlaxda 3%, Lənkəranda 30,6%, Şəkidə 1,4% təşkil etmişdir.

Bütün ölkələrdə xarici ticarət əlaqələrinin inkişafında sənaye mühüm yer tutur. Həm daxili və həm də xarici bazarlara hazır məhsul çıxarılması bazar iqtisadiyyatında başlıca şərtdir. Əldə edilən məhsulların həcmi sənayenin bütün sahələrində azaldığına görə respublikanın xarici bazarlardan asılılığı artmışdır. Cədvəl 49-da 1990-1999-cu illərdə Azərbaycan Respublikasında yeyinti sənayesinin ən mühüm məhsul növlərinin adambaşına istehsalının dəyişməsi verilmişdir. 1990-cı ilə nisbətən 1999-cu ildə respublikada sənayedə emal edilmiş ət istehsalı 5 dəfədən çox, kolbasa məmulatı istehsalı 30 dəfədən çox, üzlü pendir – 25 dəfədən çox, bitki yağı istehsalı – 4 dəfə, meyvə və tərəvəz konservləri istehsalı 20 dəfədən çox,

**Cədvəl 49**

**Azərbaycan Respublikasında yeyinti məhsulları sənayesinin ən mühüm məhsul növlərinin adambaşına istehsalının dəyişməsi (1990-1999) (kiloqram)**

| Yeyinti məhsullarının adı | 1990 | 1999 | 1999-cu ilin 1990-cı ilə nisbəti, % |
|---|---|---|---|
| Ət (sənayedə emal edilmiş) | 8,7 | 1,7 | 19,5 |
| Kolbasa məmulatı | 2,4 | 0,08 | 3,3 |
| Üzlü pendir | 2,4 | 0,09 | 3,8 |
| Kərə yağı | 0,5 | 0,6 | 120 |
| Üzlü süd | 28,7 | 21,5 | 74,9 |
| Marqarin məhsulları | 2,7 | - | 0 |
| Bitki yağı | 5,8 | 1,5 | 25,8 |
| Konservlər (banka) | 91,1 | 4,3 | 47,2 |
| Meyvə-tərəvəz konservləri | 87,8 | 4,3 | 4,7 |

| | | | |
|---|---|---|---|
| Qənnadı məmulatları | 14,8 | 0,08 | 0,6 |
| Makaron məmulatları | 3,2 | 0,06 | 1,8 |
| Mineral sular (litr) | 11,5 | 0,2 | 1,7 |
| Spirtli içkilər (litr) | 6,8 | 4,1 | 60,3 |
| Duz (hasilat) | 13,9 | 0,4 | 2,8 |

makaron məmulatları istehsalı 50 dəfədən də çox, mineral sular buraxılışı 60 dəfə, duz istehsalı 30 dəfə aşağı düşmüşdür.

Sənayenin mühüm sahələri olan yüngül sənaye də ümumi sənayeyə nisbətən daha çox geri getmişdir. 1990-cı Azərbaycanda hər cür parçalar istehsalı 150,9 min kv.m təşkil edirdi. 1999-cu ildə isə yüngül sənayedə cəmi 0,8 min kvadratmetr bu cür parça istehsal edilmişdir. Deməli, istehsal özünün ən aşağı səviyyəsinə enmişdir və 1990-cı ilə nisbətən 150,1 min kv.metr az parça istehsal edilmişdir. Yüngül sənaye məhsullarının növləri üzrə istehsal həcminin dəyişməsi cədvəl 50-də verilmişdir. Göründüyü kimi corab, trikotaj, ayaqqabı, üst köynəklər, gödəkçələr istehsalı demək olar ki, tam dayanmış, xalça və xalçaçılıq məmulatları istehsalı isə 99 dəfə azalmışdır. 1999-cu ildə cəmi 20 min kv.metr xalça və xalçaçılıq məmulatları istehsal edilmişdir ki, bu da 1990-cı ildəki həcm-dən 2223 min kv.metr azdır.

Sənayenin ürəyi adlanan maşınqayırmada yaranmış vəziyyət heç də yüngül sənayedə bərqərar olmuş vəziyyətdən yaxşı formalaşmamışdır. 1999-cu ildə respublika üçün çox mühüm əhəmiyyət kəsb edən mancanaq dəzgahları, dərinlik nasoslarının ştanqları, uşaq velosipedləri kimi məhsulların istehsalı tam dayandırılmış, soyuducular, qaz plitələri, fəvvarə armaturları, dərinlik nasosları, kondisionerlər, yuyucu aqreqatlar kimi məhsulların istehsalı isə orta hesabla 95-98 dəfə aşağı düşmüşdür (bax cədvəl 51).

**Cədvəl 50**

## Yüngül sənaye məhsullarının növləri üzrə istehsalın də-yişməsi

| | Ölçmə vahidi | 1990 | 1995 | 1997 | 1999 |
|---|---|---|---|---|---|
| Hər cür parçalar | min kv.m. | 150,9 | 59,5 | 16,9 | 0,8 |
| O cümlədən: | | | | | |
| Pambıq parça | --“-- | 101,6 | 579 | 16,8 | 0,8 |
| Yun parça | --“-- | 10,7 | 0,6 | 0,04 | 0,06 |
| İpək parça | --“-- | 33,6 | 0,8 | 0,05 | - |
| Qeyri-toxunma mat. | --“-- | 5,1 | 0,2 | 0 | - |
| Corab məmulatları | min cüt | 37,8 | 8,3 | 3,4 | 1,0 |
| Trikotaj məmulat. | min ədəd | 36,7 | 5,8 | 1,4 | 0,5 |
| Ayaqqabı | min cüt | 15,2 | 0,8 | 0,3 | 0,05 |
| Xalça və xalçaçılıq məmulatları | min kv.m. | 2243 | 77 | 40 | 20 |
| Palto və plaş | min ədəd | 518 | 8 | 76 | - |
| Kostyumlar | --“-- | 1301 | 38 | 2 | 6,5 |
| Paltarlar | --“-- | 6363 | 110 | 50 | 9,4 |
| Şalvarlar | --“-- | 4106 | 103 | 204 | 11 |
| Gödəkçələr | --“-- | 515 | 94 | 0 | 1 |
| Üst köynəkləri | --“-- | 6096 | 324 | 1 | 1 |

**Cədvəl 51**

## Maşınqayırma məhsullarının ən mühüm növlərinin istehsalı

| Məhsullar | ölçmə vahidi | 1990 | 1995 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|
| Mancanaq dəzgahlar | min ədəd | 5,2 | 0,06 | 0,07 | 0,04 | - |
| Dərinlik ştanq nasosları | --"-- | 73 | 23,8 | 15,7 | 14,8 | 12 |
| Dərinlik nasos ştanqları | --"-- | 527 | 0,5 | 17,7 | 4,3 | - |
| Dəyişən cərəyan el.mühərrikləri | min. kvt | 4860 | 512 | 416 | 224 | 17 |
| Güc transformatorları | min. kvt | 1996 | 56 | 116,7 | 80 | 23 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fəvvarə armaturları | min dəst | 6,6 | 0,7 | 0,6 | 0,3 | 0,07 |
| Yuyucu aqreqatları | ədəd | 764 | 36 | 51 | 47 | 16 |
| Quyuların təmiri və mənimsənilməsi üçün aqreqatlar və qaldırıcılar | ədəd | 485 | 37 | 60 | 43 | 14 |
| Soyuducular və buzla-yıcılar | min ədəd | 330 | 25 | 0,1 | 3,4 | 0,6 |
| Məişət soyuducuları üçün kondisioner | min ədəd | 1000,4 | 57,8 | 5,6 | 4,1 | 0,5 |
| Kondisionerlər | min ədəd | 309 | 64 | 36,5 | 9,6 | 2,3 |
| Uşaq velosipedləri | min ədəd | 130 | 5 | 0 | 0 | 0 |
| Kassa aparatları | ədəd | - | - | 3643 | 2248 | 987 |
| Qaz piltələri | min ədəd | 45 | 4,4 | 0,4 | 0,662 | 0,86 |

Digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da ÜDM-nun tərkibində sənaye mühüm yer tutmalıdır. Məlum olduğu kimi 1991-ci ildə müstəqillik qazanmış və bazar iqtisadiyyatı istiqamətində ilk addımlarını atan respublika böyük iqtisadi və siyasi çətinliklərlə qarşılaşmış və bu da ölkənin ÜDM-nun həcminə və strukturuna öz təsirini göstərmişdir. Bazar münasibətlərinə keçid plan iqtisadiyyatı üçün nəzərdə tutulmuş idarəetmə və stimullaşdırma mexanizmlərinin saxlanılması və yaxud da pozularaq yenisinin yaradılması şəraitində baş vermiş və nəticədə 1990-cı illərin əvvəllərindən 1995-ci ilə qədər ölkə iqtisadiyyatında yaranan geriləmə prosesi ÜDM-in həcminin hər il orta hesabla 13-20 faiz azalmasına səbəb olmuşdur. 1990-1995-ci illərdə baş

verən gerilik ÜDM-nun strukturunda sənayenin xüsusi çəkisinin azalmasına səbəb olsa da görülən tədbirlər nəticəsində sonrakı illərdə vəziyyət nisbətən yaxşılaşmış və sənayedə yaranmış əlavə dəyərin Ümumi Daxili Məhsulda xüsusi çəkisi 1994-cü ilə nisbətən 11,6% artaraq 2000-ci ildə 32,0% təşkil etmişdir (2001-ci ildə bu faiz 34-ə çatacaq və proqnoz məlumatına görə 2002-ci ildə –35 təşkil edib. İqtisadiyyatın aparıcı sahəsi olan sənayenin payının ÜDM-nun həcmində artması əsasən neft sektorunun hesabına baş verir. ÜDM-in sahə strukturu və onun dəyişməsi cədvəl 52-də verilmişdir.

**Cədvəl 52**

**ÜDM-nun sahə strukturunun dəyişməsi (%-lə)**

| | **2000** | **2001** | **2002 (proqnoz)** |
|---|---|---|---|
| UDM-cəmi | 100 | 100 | 100 |
| O cümlədən: | | | |
| Sənaye | 32 | 34,2 | 35 |
| Kənd təsərrüfatı | 18,1 | 16,5 | 17,5 |
| Tikinti | 4,4 | 4,6 | 5,0 |
| Xidmət sahələri | 45,5 | 44,7 | 42,5 |
| Onlardan: | | | |
| Ticarət | 6,1 | 6,1 | 6,8 |
| Nəqliyyat və rabitə | 14,5 | 14,5 | 15,3 |
| Digər sahələr | 24,9 | 24,2 | 20,4 |

## 3.2. Ñýíàéåíèí sahə ñòðóêòóðó

Bazar iqtisadiyyatı şəraitində sənayenin intensiv inkişafına diqqət artırılmalıdır. Bu inkişaf iki mühüm istiqamətdə sənaye sahələrinin inkişaf etdirilməsi və bu sahələrin ölkə ərazisində optimal

yerləşdirilməsi istiqamətlərində həyata keçirilməlidir. Hazırda vəziyyət belədir ki, biz əsas diqqəti sənayenin sahə strukturunun inkişafına yönəltmişik və hələlik neft sektorunu inkişaf etdirməyə nail olmuşuq. Neft isə əsasən Bakı şəhərində olduğuna görə istər-istəməz sənayenin ərazi strukturu tələb olunan səviyyədən aşağı formalaşmışdır. Sənayenin ərazi cəhətdən birtərəfli yerləşdirilməsi isə çoxlu əlavə çətinliklər yaradır. İlk növbədə isə bu cür hal məhsuldar qüvvələrin inkişafına mənfi təsir göstərir. Bütün bunlar sənayenin ərazi strukturunun təkmilləşdirilməsini, ölkə iqtisadiyyatını daha da güclü etməyin ən başlıca amilinə çevirmişdir.

Sənaye ölkə iqtisadiyyatında aparıcı mövqe tutur. Burada məsələyə iki cür yanaşmaq olar: kəmiyyət və keyfiyyət baxımından. Kəmiyyət baxımından yanaşdıqda tədqiqatçını sənaye istehsalının ümumi məhsulu, onun illər üzrə həcmi, artım sürəti kimi ümumi göstəricilər maraqlandırır. Keyfiyyət baxımından məsələyə yanaşdıqda isə söhbət sənayeni xarakterizə edən keyfiyyət göstəricilərindən - istehsal olunan məhsulların nomenklatura və çeşidindən, keyfiyyətindən, rəqabət dözümlülüyündən, istehsal xərclərinin səviyyəsindən, istehsalın rentabelliyindən və s. gedir. Bunlardan başqa, sənayenin ölkə iqtisadiyyatındakı mövqeyini, ölkənin sosial-iqtisadi inkişafındakı, iqtisadi təhlükəsizliyindəki, müdafiə qabiliyyətindəki rolunu tə-yin etmək üçün sənaye struktur cəhətdən öyrənilməlidir.

Sənayenin struktur cəhətdən öyrəniməsində məqsəd çoxşaxəlidir. Burada sənayeni təşkil edən istehsallar, yarımsahələr təyin edilir, xüsusi çəkisi tapılır, istehsal olunan məhsulların ölkənin xammal bazasına uyğunluğu təyin edilir, aparıcı sahələr ortaya çıxarılır və onların inkişaf sürətləri öyrənilir. Bütün bunlarla yanaşı sənayeyə struktur cəhətdən yanaşmağın əsas məqsədi hər bir tərkib hissəsinin sosial-iqtisadi inkişafda və digər məsələlərin həllində yerini təyin etməkdir. Aydınlaşdırılır ki, sənayenin hansı sahəsi sürətlə inkişaf etdirilə bilər. Hansı sahəsinin fəaliyyəti zəifləməli və yaxud da tam dayandırılmalıdır,

perspektivdə hansı sahələrin inkişaf sürətləri azala və yaxud da çoxala bilər.

Qeyd edək ki, inkişaf etmiş ölkələr üçün hərəkətverici qüvvə rolunu bir çox cəhətdən məhz sənaye və onun mütərəqqi sahə quruluşu oynayır. Buna görə də ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya və digər inkişaf etmiş ölkələrin sənayesi mütərəqqi quruluşa malikdirlər. Sənayenin sahə strukturunun mütərəqqiliyi onun tərkibində elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirən məhsullar istehsal edə bilən sahələrin xüsusi çəkisi ilə təyin oluna bilər. Bu cür məhsullar əsas etibarilə sənayenin ürəyi adlanan maşınqayırmada istehsal edildiyinə görə bu sahə mütərəqqi sahə hesab edilir. Maşınqayırmanın ümumi sənaye məhsulundakı xüsusi çəkisi çox zaman ölkə sənayesi strukturunun mütərəqqiliyini təyin etmək üçün istifadə edilir. Məsələn, inkişaf etmiş sənaye ölkələrində maşınqayırmanın ümumi sənaye məhsulundakı xüsusi çəkisi 35-45 faiz təşkil edir.

Bundan başqa, sənayenin strukturu həm də optimal olmalıdır. Optimallığa qiymət verilməsi məsələyə yanaşmaqdan asılı olur. Əgər tədqiqatçını istehsal olunan məhsulların cari keyfiyyəti, gələcəkdə keyfiyyətin yaxşılaşdırılması imkanları, məhsulların rəqabət dözümlüyü, istehsal xərclərinin səviyyəsi və onların aşağı salınması məsələləri, rentabelliyin yüksəldilməsi və s. bu kimi mühüm keyfiyyət göstəriciləri maraqlandırırsa, onda optimal struktur sadaladığımız bu və buna oxşar digər göstəricilərin lazımi səviyyəsini təmin edə bilən struktur olmalıdır. Ümumi şəkildə sənayenin sahə strukturu keyfiyyət baxımından o vaxt optimal hesab edilə bilər ki, əgər sənaye mümkün olan qədər qısa müddətə, minimum istehsal xərcləri ilə rəqabət dözümlü istənilən məhsulu istənilən həcmdə, çeşiddə və nomenklaturada istehsal edə bilsin.

Sənayenin sahə strukturuna, onun optimallıq səviyyəsinə qiymət vermək üçün digər yanaşmalardan da istifadə oluna bilər. Məsələn, əgər tədqiqatçını ölkənin sərəncamında olan maddi-enerji resurslarından, təbii sərvətlərdən, insan resurslarından, ayrı-ayrı məhsullar üzrə əldə

olan xammal bazasından istifadə olunması səviyyəsi maraqlandırırsa onda sənayenin strukturuna bu səpgidən yanaşmaq lazımdır. Bu cür yanaşmada ölkə sənayesinin strukturu o zaman optimal hesab oluna bilər ki, ölkə sərəncamında olan resurslardan maksimum istifadə olunmasına imkan yaratsın. Burada söhbət konkret olaraq nədən gedir? Söhbət ondan gedir ki, daxili bazarı zənginləşdirmək, daxili bazarı vətən məhsulları ilə doldurmaq üçün ölkənin bütün yeraltı və yerüstü sərvətlərindən xammal kimi istifadə edib konkret məhsul istehsal etmək lazımdır. Lakin bunun üçün ilk növbədə sənayenin sahə quruluşu təkmilləşdirilməli və müvafiq istehsallar, yarımsahələr və sahələr yaradılmalıdır. Bizim respublikamız üçün bunun nə demək olduğunu çoxlu misalla göstərmək olar. Azərbaycan Respublikası həmişə özünün pambığı, üzümü, tütünü, meyvə-tərəvəzi, mineral suları, faydalı qazıntıları və s. ilə zəngin olub. Deməli, sənaye elə istiqamətdə inkişaf etdirilməlidir ki, bu xammallardan maksimum istifadə edilsin. Azərbaycanda olan xammal bazası imkan verir ki, respublikamızda güclü emal sənayesi inkişaf etdirilsin. Belə sahələrə maşınqayırma, yeyinti və yüngül sənayeləri, neft emalı sənayesi və s. daxildir.

Sənaye iqtisadiyyatının aparıcı sahəsidir və onu ölkənin bütün bölgələrində inkişaf etdirməyə səy göstərilməlidir. Yəni respublikanın sənaye müəssisələri ölkə ərazisində proporsional yerləşdirilməlidir. Bunun çox böyük sosial əhəmiyyəti vardır. İlk növbədə bu hər bir iqtisadi rayonda yerli xammal və materiallardan və insan resurslarından səmərəli istifadə olunması üçün münasib şərait yaratmış olur, əhalinin iri şəhərlərə axını azalır, nəqliyyat xərcləri azalır, insanların mədəni, intellektual və yaşayış səviyyələri yüksəlir. Deməli, əgər tədqiqatçını ölkənin bütün ərazilərinin kompleks inkişaf etdirilməsi məsələləri maraqlandırırsa onda söhbət sənayenin ərazi quruşundan getməlidir. Sənayenin ərazi quruluşu ümumi sənaye məhsulunun və yaxud da bu və ya digər sənaye sahəsi məhsulunun hansı hissəsinin (xüsusi çəkisinin) hansı iqtisadi ra-yonda istehsal olduğunu göstərir.

Cədvəl 53-də Azərbaycan Respublikasında sənayenin ümumi məhsul buraxılışı üzrə sahə strukturu verilmişdir. Göründüyü kimi iriləşdirilmiş şəkildə respublikamızda 9 sənaye sahəsi fəaliyyət göstərir. Yanacaq sənayesi 2000-ci ildə sənayenin ümumi məhsulunun 65,5 faizini istehsal etmişdir. 2001-ci ildə yanacaq sənayesinin ümumi sənaye məhsulundakı xüsusi çəki 64,9%, 2002-ci ildə isə - 58,9% səviyyəsinə çatıb. Yanacaq sənayesində neft və qaz hasilatı üstün xüsusi çəkiyə malikdir.

**Cədvəl 53**

**Azərbaycan Respublikası sənayesinin sahə quruluşu (ümumi məhsula görə faizlə)**

| | 2000 | 2001 | 2002 |
|---|---|---|---|
| Sənaye - cəmi o cümlədən | 100 | 100 | 100 |
| Elektroenergetika | 11,7 | 9,9 | 9,4 |
| Yanacaq sənayesi:<br>O cümlədən:<br>neft, qaz hasilatı sənayesi.<br>Neft emalı sənayesi.... | 65,5<br><br>47,7<br>17,8 | 64,9<br><br>52,9<br>12,0 | 58,9<br><br>47,5<br>11,4 |
| Qara və əlvan metallurgiya | 0,3 | 1,1 | 2,9 |
| Kimya və neft-kimya sənayesi | 3,2 | 3,4 | 4,3 |
| Maşınqayırma və metal emalı sənayesi | 1.8 | 2,6 | 3,4 |
| Tikinti materialları sənayesi | 0,7 | 0,8 | 1,2 |
| Yüngül sənaye | 1,1 | 1,2 | 12,6 |
| Yeyinti sənayesi | 11,0 | 12,8 | 12,6 |
| Digər sahələr | 4,7 | 3,4 | 5,4 |

Baxılan dövrdə yanacaq sənayesinin həcmində hasilat bölməsinin xüsusi çəkisi 2000-ci ildə 48,7% təşkil etmişdir. 2001-ci ildə bu xüsusi çəki artıb - 52,9%, 2002-ci ildə nisbətən stabilləşib 47,5% təşkil edib.

Xam neftin emalı məsələsi respublika üçün böyük əhəmiyyət kəsb edir. Neft emalı sahəsinin sənayenin ümumi məhsulundakı xüsusi çəkisi

2000-ci ildə 17,8 faiz olmuşdur. Bu xüsusi çəkinin 2001-ci ildə 12,0 faizə və 2002-ci ildə 11,4 faizə qədər enib.

Respublika müstəqilliyini bərpa edən ildə onun sərəncamında 20 milyon tondan çox neft emal etmək imkanında olan neftayırma müəssisələri olmuşdur. Onlar indi də fəaliyyət gös-tərirlər. Lakin ortaya çıxan çətinliklər onların istehsal gücün-dən tam istifadə edilməsinə mane olsa da hazırda benzin, ağ neft, dizel yanacağı, yanacaq mazutu və s. bu kimi neft emalı məhsullarının istehsalı artmağa başlamışdır. Azərbaycanda neftin çıxarılması bilavasitə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən (ARDNŞ) və bağlanmış xarici kontrakt-lara əsasən yaradılan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən həyata keçirilir. ARDNŞ-nin hasil etdiyi neftin çox hissəsi emal edilir. Lakin son illərdə emal edi-lən neftin həcminin azalması meyli vardır (bax cədvəl 54).

**Cədvəl 54**

**ARDNŞ-nin sərəncamında olan quyulardan neft hasilatı və onun istifadə istiqamətləri**

| **Göstəricilər** | **Ölçü vahidi** | **2000** | **2001** | **2002** |
|---|---|---|---|---|
| Neft hasilatı | min ton | 9013,4 | 8900 | 8800 |
| O cümlədən:<br>İxrac olunan | min ton | 591 | 2500 | 2500 |
| Xüsusi çəki | % | 6,65 | 28,1 | 28,4 |
| Emal olunan xüsusi çəkisi | Min ton<br>% | 8235<br>91,4 | 6400<br>71,9 | 6300<br>71,6 |

Neftin emalı ilk növbədə respublikamızın tələbatlarını ödəmək üçün çox mühüm məhsulların əldə olunmasını təmin edir. Emal sənayesi 2000-ci ildə 861,8 min ton benzin, (o cümlədən 536,9 min ton avtomobil benzini), 1948,1 mühərrik yanacağı, 175 min ton ağ neft, 25,6 min ton məişət soba yanacağı, 73,6 min ton sürtkü yağları, 11,1 min ton neft koksu, 4072,1 min ton soba mazutu və 18,3 min ton neft

vitimumu istehsal etmiş və ölkənin xarici ölkələrdən iqtisadi asılılığını azaltmışdır. Neftin emal edilməsinin iqtisadi səmərəsi çoxşaxəlidi. İlk növbədə bu iş yerlərinin istifadəsi, yenilərinin meydana gəlməsi və bu yolla da ölkədə sosial gərginliyin azalması deməkdir.

Müasir dövrün əsas xüsusiyyəti ondadır ki, Azərbaycan sənayesinin strukturu yeknəsəq xarakterlidir. İstehsal olunan ümumi məhsulun 65 faizi yanacaq sənayesinin payına düşür. Yerdə qalan bütün digər sahələrin payına isə cəmi 35% düşür. Bundan da 11,7% elektroenergetika sənayesinin, 3,2%-i kimya və neft-kimya sənayesinin, 4,7% digər sahələrin xüsusi çəkiləridir. Sənayenin aparıcı sahəsi olan maşınqayırmanın vəziyyəti çox pisdir. 1990-cı illərin əvvəlində baş vermiş sosial-iqtisadi və siyasi proseslərin ən çox təsiri də elə maşınqayırma sənayesinə olub. Yaxşı haldır ki, 2001 və 2002-ci illərdə maşınqayırmanın xüsusi çəkisi nisbətən artmışdır. Maşınqayırma və metal emalı sənayesinin xüsusi çəksi 2002-ci ildə 3,4% təşkil edir. Bəs yaxın keçmişdə necə olub? Statistika məlumatlarına görə 1985-ci ildə maşınqayırma və metal emalı sənayesinin payı sənayenin ümumi məhsulunda 16%-dən çox idi. Respublikanın əldə olan istehsal, elmi-texniki və kadr potensialı imkan verir ki, sənayenin aparıcı və mütərəqqi sahəsi olan maşınqayırma daha sürətlə inkişaf etdirilsin, ilk növbədə bu sahənin inkişaf etdirilməsi yolu ilə sənayenin sahə strukturu təkmilləşdirilsin. Bu sahədə İqtisadi İnkişaf Nazirliyində əməli iş aparılır.

Ümumiyyətlə götürdükdə Azərbaycan sənayesinin sahə strukturu ölkənin potensial imkanlarına tam uyğun gəlmir. Hələlik respublikanın yanacaq-enerji potensialından normal istifadə edilir. Burada da istehsalın genişləndirilməsi üçün daxili imkanlar mövcuddur. Məsələn, mövcud olan neftayırma za-vodlarının müasirləşdirilməsi və tam gücü ilə işə başlaması ildə 20-25 milyon ton neftin emal edilməsinə imkan verər və sənayenin sahə quruluşunda emal sənayesinin xüsusi çəkisini artırar. Azərbaycan sənayesinin sahə strukturunun yaxşılaşdırılması üzrə real yollardan biri yüngül sənayenin inkişaf etdirilməsidir. Bu sahə

ənənəvi olaraq həmişə sənayedə xüsusi yer tutub. Hələ 1985-ci ildə yüngül sənayenin ümumi sənaye məhsulunda xüsusi çəkisi 20%-dən çox idi. 2000-ci ilin statistik məlumatlarına görə isə bu sahənin xüsusi çəkisi cəmi 1,1% təşkil etmişdir. Müsbət hal kimi göstərmək olar ki, dövlətin həyata keçirdiyi texniki, təşkilati, iqtisadi və maliyyə tədbirləri nəticəsində bu sahənin getdikcə canlanması hiss olunur və 2002-ci ildə yüngül sənayenin xüsusi çəkisi 1,1%-dən 1,9% qədər artmışdır.

Sənayenin sahə strukturunda yeyinti sahəsi bütün ölkələrdə mühüm yer tutur. Bu ilk növbədə onunla izah olunur ki, ölkələr çalışırlar qida məhsullarına olan tələbatlar maksimum mümkün olan səviyyədə vətən istehsalçıları tərəfindən ödənilsin. Burada sahibkarlıq inkişaf etdirilir və onlar da daxili bazarı yeyinti məhsulları ilə doldurmağa səy göstərirlər. Azərbaycan Respublikasında yeyinti sənayesini inkişaf etdirmək üçün çox gözəl imkanlar vardır. 2000-ci ildə bu sahənin xüsusi çəkisi 11,0%, 2002-ci ildə 12,6% olub. Yada salaq ki, hələ SSRİ vaxtı, necə deyərlər, durğunluq illərində yeyinti sənayesinin ümumsənaye məhsulundakı xüsusi çəkisi 29%-a çatırdı. Yüngül və yeyinti sənayelərinin üstün inkişafı üçün Azərbaycan Respublikasında imkanlar vardır. Bunun üçün ilk növbədə məqsədyönlü özəlləşdirmə aparmaq və sahələrdə marketinq fəaliyyətini gücləndirmək lazımdır.

Sənayenin strukturu istehsal olunan məhsulların natural həcminə görə də öyrənilir. Bu cür yanaşmanın müsbət cəhətləri ondadır ki, hər bir sahənin istehsal etdiyi məhsul natural şəkildə öyrənilir və sahənin inkişafına qiymət amilinin təsiri aradan qaldırılır.

Sənayenin sahə strukturu natural məhsullar üzrə öyrənildikdə bir mühüm məsələyə də aydınlıq gətirmək üçün şərait yarana bilər. Konkret məhsulun natural şəkildə faktiki istehsal həcmi, ölkənin daxili və xarici bazarının bu məhsula olan tələbatı və bu məhsulların ölkədə istehsal edilməsi imkanları tutuşdurulduqda perspektiv dövr üçün bu və ya digər məhsul istehsalını artırmaq hesabına sənayenin sahə strukturunun təkmilləşdirilməsi istiqamətlərini təyin etmək üçün yaxşı şərait yaranar.

Əslində burada söhbət ölkənin sərəncamında olan təbii və insan resurslarından istifadə dərəcəsindən gedir. Bu cür yanaşmada sənayenin formalaşmış strukturu (natural məhsul şəklində) ilə ölkənin maddi-enerji resurslarından optimal istifadə edilməsi şəraitində formalaşa bilən perspektiv sahə strukturu müqayisə olunar və daxili imkanlar ortaya çıxar. Dərin araşdırmalar aparmadan bu gün biz deyə bilərik ki, əldə etdiyimiz struktur Azərbaycanın maddi-enerji, insan resursları, istehsal, elmi-texniki və intellektual potensialı sahələrində mövcud olan imkanları ilə uyğunlaşmır. Respublikamız xam neftin emalını, pambıqdan, tütündən, meyvə və tərəvəzdən, müalicə sularından və s. hazırlanan müxtəlif məhsullar isteh-salını, maşınqayırma, metallurgiya, şərabçılıq istehsalını bir ne-çə dəfə artırmaq imkanına malikdir. Bütün bu imkanların döv-riyyəyə salınması bir sıra təşkilati tədbirlərin işlənib həyata ke-çirilməsini qarşıya qoyur. Burada sənaye müəssisələrinin respublika ərazisində optimal yerləşdirilməsi yolu ilə sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi həlledici amil rolunu oynaya bilər.

**Cədvəl 55**

**Azərbaycan Respublikası sənayesində məşğul olanların sayına görə müəssisələrin qrupları (2000-ci il).**

| | **Cəmi müəs. sayı** | | **O cümlədən işləyənlərin sayına görə** | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | **1-50 nəfər** | | **51-199 nəfər** | | **200 nəfər və artıq** | |
| | | | **sayı** | **xüs.çək** | **sayı** | **xüs.çək.** | **sayı** | **xüs. çək.** |
| Sənaye o cümlədən: | 1559 | 100 | 1096 | 70,3 | 280 | 17,9 | 183 | 11,8 |
| Mədənçıxarma sənayesi | | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| və karxanaların işlənməsi | 101 | | 52 | 51,4 | 13 | 12,9 | 36 | 35,7 |
| Emal sənayesi | 1276 | 100 | 973 | 76,2 | 200 | 15,7 | 103 | 8,1 |
| Elektrik enerjisi, qaz və su təchizatı | 182 | 100 | 71 | 39,0 | 67 | 36,8 | 44 | 24,2 |

Azərbaycan Respublikasının sənayesində iri və nəhəng müəssisələr yoxdur. Dövlət Statistika Komitəsi müəssisələrin ölçülərini orada məşğul olan işçilərin sayına görə qruplaşdırır. Ümumi şəkildə qruplaşma bütövlükdə sənayeni və onun başlıca sahələri oan mədənçıxarma sənayesi və karxanaların işlənməsi, emal sənayesi və elektrik enerjisi, qaz və su təchizatını əhatə edir. 2000-ci ildə sənaye üzrə 1559 müəssisə qruplaşdırılmış və məlum olmuşdur ki, sənayedə işçilərin sayı 1-50 nəfər olan 1096 müəssisə fəaliyyət göstərir ki, bu da müəssisələrin 70,3%-i deməkdir. Məşğul olanların sayı 51-99 nəfər təşkil edən müəssisələrin xüsusi çəkisi 17,96 (280 müəssisə) və 200 nəfər və ondan artıq təşkil edən müəssisələrin xüsusi çəkisi isə cəmi 11,74%-dir (183 müəssisə). Emal sənayesində fəaliyyət göstərən müəssisələrin 76,3%-ində (973 müəssisə) çalışanların sayı 1-50 nəfər təşkil edir. Tədqiqat göstərdi ki, bu cür kiçik müəssisələr bazar iqtisadiyyatlı ölkələrdə yaradılmış kiçik müəssisələr effektini vermir. İnkişaf etmiş və inkişafda olan ölkələrdə kiçik müəssisələrin yaradılması məqsədləri, üsul və yanaşmaları tam başqadır, xüsusən Avropa ölkələrində, Yaponiyada, ABŞ və Kanadada kiçik müəssisələr yeni texnika və texnologiyaların son nailiyyətləri əsasında yaradılır və əsas

məqsəd də ölkədə fəaliyyət göstərən sənaye nəhəngləri ilə rəqabətə girmək, monopoliyanın yayılmasına imkan verməmək və dünya standartlarına uyğun və ondan da yuxarı səviyyədə məhsul istehsal etməkdir. Bu cür yaradılan müəssisələr çoxlu ilkin kapital tələb edir və onlar bir növ bilə-bilə güclü riskə gedirlər. Belə müəssisələr adətən «vençur» müəssisələri adlandırılır ki, bunun da Azərbaycan dilinə tərcüməsi riskli müəssisə deməkdir. Tədqiqat göstərdi ki, bu tipli kiçik müəssisə Azərbaycan Respublikası sənayesində yoxdur. Kiçik müəssisələrin əksəriyyətində 3-7 nəfər adam çalışır, onlar da tam gücü ilə işləyə bilmirlər.

## 3.3. Sənayenin ərazi strukturu

Tədqiqat göstərir ki, iqtisad elmi ölkə iqtisadiyyatının sahə problemlərinə daha çox diqqət yetirir. Burada müəyyən mənada obyektiv yanaşmanın elementləri var. İnsan cəmiyyəti yaşayıb fəaliyyət göstərməsi üçün istehsal etməli və bu yolla da öz tələbatlarını ödəməlidir. Lakin fərdi və ictimai istehsal ilk növbədə müəyyən ərazidə - kənddə, qəsəbədə, rayonda, şəhərdə və hər hansı bir digər (başqa cür adlandırılan) ərazi vahidində baş verir. Ərazi vahidi - harada ki, istehsal prosesi həyata keçirilir həmişə konkretdir, müəyyən sərhədlərə malikdir, ölkənin bir hissəsidir, orada ölkə əhalisinin müəyyən hissəsi yaşayır, inkişaf edir, ölkənin sosial-iqtisadi inkişafında, siyasi həyatında iştirak edir. Qəbul edilmiş ərazi vahidləri ölkənin iqtisadi inkişafında həlledici rol oynaya bilər. Lakin elə ərazilər də vardır ki, onlar ölkəni hərbi təcavüzdən qorumaq sahəsində daha mühüm rol oynayır. Bütün hallarda ərazi məsələləri və xüsusən də istehsalın ərazi üzrə təşkili ölkəni idarə edənlərin diqqət mərkəzində olmalıdır .

Bazar iqtisadiyyatı şəraitində ayrı-ayrı ərazilərin inkişafı və xüsusən də iqtisadiyyatın ölkə daxilində elmi əsaslar üzrə təşkili xüsusi əhəmiyyət kəsb edən sosial, iqtisadi, mənəvi-psixoloji, hərbi-siyasi

problemdir. Bu eyni zamanda asan problem də deyil. Tədqiqat göstərir ki, ölkə daxilində  məhsuldar qüvvələrin inkişaf etdirilməsi problemi ərazi üzrə idarəetmənin bütün pillələrində mühüm məsələdir. Hər hansı bir ərazi indiki şəraitdə bazar iqtisadiyyatının üstünlüklərindən istifadə etməkdə geniş və getdikcə artan daxili imkanlara malikdir. Lakin bu daxili imkanlar avtomatik olaraq özü-özünə, təkcə ərazinin öz qüvvələri vasitəsilə tam şəkildə reallaşa bilən məsələ deyildir. Bu imkanların iqtisadi dövriyyəyə keçirilməsi yüksək yaradıcılıq tələb edir. Ancaq məsələyə elmi yanaşma istənilən nəticəni verə bilər. Bu fikrin doğruluğunu dünyanın inkişaf etmiş ölkələri öz təcrübələrində əməli işlərində təsdiq etmişdilər. Bu gün dünyanın sənaye cəhətdən inkişaf etmiş ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya və digər ölkələrinin sosial-iqtisadi inkişaf sahəsində əldə etdikləri yüksək nailiyyətlər bir çox cəhətdən ölkənin iqtisadi inkişafına kompleks yanaşmaq, ərazilərin inkişafına diqqəti artırmaq və ən başlıcası isə sənaye istehsalının ərazi üzrə düzgün və optimal təşkili nəticəsində əldə edilmişdir. Bu ölkələrdə ərazi vahidlərində özünüidarə, özünütəminetmə prinsipləri istehsalın təmərküzləşməsi, ixtisaslaşdırılması, kooperasiyalaşdırılması məsələlərinin həllində ön planda durur. Ona görə ki, yalnız bu prinsiplərə əməl olunması sonda istənilən nəticəyə - ölkənin bütün ərazi vahidlərində məhsuldar qüvvələrin inkişafı üçün münasib şəraitin yaradılmasına - müəyyən mənada əldə edilməsinə gətirib çıxarır. Məhz bu prinsiplərə həyatda dönmədən əməl olunması əhalinin ölkə ərazisində qeyri-proporsional yerləşməsi prosesinin güclənməməsinə səbəb ola bilər. Əks halda iqtisadiyyata güclü mənfi təsir edə bilən mühit yaranır. Belə bir mühitin yaranması Azərbaycan Respublikasında əyani şəkildə  görünür. Sənaye potensialının əsas hissəsinin Bakı və ona yaxın ərazilərdə yerləşdirilməsi əhalinin bura axınını gücləndirir. Nəticədə həm Bakı və onun ətrafında və həm də ölkənin digər rayonlarında xroniki işsizliyin meydana gəlməsi baş vermişdir.

Sənayenin ərazi üzrə təşkilinə olan tələblərin artması bilavasitə ölkəmizdə baş verən dəyişikliklərlə əlaqədardır. Bazar iqtisadiyyatına keçid, mərkəzləşdirilmiş planlaşdırmanın zəifləməsi, sahibkarlığın inkişaf etdirilməsi, yeni-yeni bazar qanunlarının qəbul edilməsi, rəqabətin güclənməsi, obyektiv iqtisadi qanunlara maksimum əməl edilməsi zəruriliyinin güclənməsi, iqtisadiyyatın inkişaf sürətinin artırılması məsələləri ərazi vahidlərində cəmlənmiş material-enerji və insan resurslarından istifadə səviyyəsini yüksəltməyi ən aktual problem kimi qarşıya qoyur. Bütün bunlar dövlət idarəetmə orqanları və xüsusən də İqtisadi İnkişaf Nazirliyinin qarşısında çox məsul və eyni zamanda asan olmayan məsələlərin həllini qoyur. Bu məsələlərə birinci növbədə respublika sənayesinin tam və səmərəli bir orqanizm kimi inkişafını təmin edə bilən və konkret ərazi vahidinə məxsus olan təbii və iqtisadi amil və şərtləri obyektiv olaraq ortaya çıxarmaq, ərazinin sosial-iqtisadi inkişaf modelini formalaşdırmaq, yerli maddi-enerji və insan resurslarından səmərəli istifadə edilməsi ilə əlaqədar olaraq ərazi vahidlərinin inkişafını təmin edə bilən yolları ortaya çıxarmaq daxildir.

Respublika iqtisadiyyatında 1990-1995-ci illərdə baş vermiş gerilik və 1996-cı ildən sonra gerigetmə prosesinin dayandırılması nəzərə alınmalıdır. Hazırda respublika sənayesində baş verən və ilk növbədə neft hasilatının artırılması ilə əlaqədar olan müsbət dəyişikliklərin dönməzliyini təmin etmək üçün və digər tərəfdən iqtisadiyyatımızın neft hasilatının və xam neft ixrac etməkdən asılılığını azaltmaq üçün sənaye qov-şaqlarının ərazi cəhətdən təhlilini gücləndirməli, konkret ərazi vahidində mövcud sənayenin fəaliyyət səviyyəsi təyin edilmə- li, ərazilər üzrə mövcud sənaye obyektləri və işləməyən müəssisələrin sayı aydınlaşdırılmalı və onun səbəbləri ortaya çıxarılmalıdır. Ərazilərin hansı konkret məhsul istehsal etməsi sahəsində ixtisaslaşa bilməsi bu sahədə aparılan araşdırmaların əsasını təşkil etməlidir. Ərazi vahidlərində sənayenin inkişaf səviyyəsi öyrənilərkən və ayrı-ayrı sənaye istehsallarının inkişaf perspektivləri aydınlaşdırılarkən paralel olaraq aqrar sənaye komplekslərinin vəziyyəti

də öyrənilməli və münasib nəticələr çıxarılmalıdır. Məsələlərin bu istiqamətdə həll edilməsi yeni iş yerlərinin yaradılması və əldə olan iş yerlərindən daha səmərəli istifadə olunmasına səbəb olar və ərazilərin bazar iqtisadiyyatına uyğun inkişaf istiqamət götürülməsinə gətirib çıxarar.

Sənayenin ərazi üzrə təşkilinin yaxşılaşdırılması bazar iqtisadiyyatı şəraitində nə dərəcədə zəruridirsə, o dərəcədə də bunun üçün imkanlar vardır. Burada müxtəlif təbii resursların, iqtisadi şəraitin və Azərbaycan Respublikasının əlverişli coğrafi-nəqliyyat mövqeyində olmasından gedir. Bu imkanlardan və şəraitdən səmərəli istifadə edilməsi nəticəsində ərazi vahidlərinin hamısında münasib istehsallar formalaşdırmaq mümkün olar. Nəticədə ölkənin mənsub olduğu maddi-enerji təbii və insan resurslarından səmərəli istifadə olunmasının əsası qoyular. Bu cür mühakimə yürütməyin obyektiv əsası sənayenin hazırkı vəziyyətidir. Bu vəziyyətin xarakterik cəhəti odur ki, geniş imkanların olmasına baxmayaraq sənaye məhsulunun 2000-ci ildəki həcmi 1990-cı ildə istehsal etdiyimiz ümumi məhsulun həcminin haradasa 62-65 faizini təşkil edir. Bu o deməkdir ki, bu gün respublikamız 1990-cı ildəkindən 35 faiz az məhsul istehsal edir. Yada salsaq ki, istehsal edilən sənaye məhsulunun 65%-dən çoxu (2000-ci il) yanacaq sənayesinin payına düşür, onda qeyri-neft sənayesinin nə vəziyyətdə olması aydın görünər.

Sənayenin qeyri-neft sahələrinin inkişafı bazar iqtisadiyyatı yaratdığımız indiki şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişafının dönməzliyini təmin etmək üçün ən başlıca məsələdir. Tədqiqat göstərdi ki, bu məsələnin həlli, sənayenin ərazi üzrə təşkilini kökündən yaxşılaşdırmadan mümkün ola bilməz. Bakı və onun ətrafındakı yaşayış yerlərində kifayət qədər işləyən və gələcəkdə işə salınması mümkün olan işləməyən müəssisələr vardır. O da faktdır ki, elə Bakı və onun ətrafında bu gün minlərlə işsizlər ordusu vardır. Lakin bu qədər işsizin olması heç də o demək deyildir ki, Bakı və onun ətrafında sənaye müəssisələri azdır. Bunun başlıca səbəbi respublikanın rayonlarında

sənayenin çox zəif inkişaf etməsi, tikilmiş müəssisələrin isə tam gücü ilə işləməməsidir. Öz rayonlarında, qəsəbələrində iş yeri tapmayan iş axtaran məcbur olub Bakıya üz tutur. Deməli, istehsalın ərazi üzrə təkmilləşdirilməsi eyni səviyyədə Bakı və onun ətraf kənd və qəsəbələrində artıq əhalinin toplanması prosesini dayandırmaq üçün də zəruridir.

Sənayenin ərazi üzrə düzgün yerləşdirilməməsi nəticəsində ölkə iqtisadiyyatına güclü ziyan dəyir. Dəyən ziyanın xarakteri, ölçüsü, müddəti müxtəlif amil və şərtlərdən asılı olur. İqtisadiyyatı inkişaf etdirmək baxımından ölkəyə dəyən ziyan qruplaşdırılmalıdır. Ölkənin bir nöqtəsindən (rayonundan) digər nöqtəsinə insan axını öz minimal həddini aşdıqda və proses xroniki xəstəlik şəkli aldıqda iqtisadiyyata dəyən ziyanlar ayrıca qrup şəklində öyrənilməlidir. Ərazi cəhətdən sənayenin birtərəfli yerləşdirilməsi nəticəsində ölkəyə dəyən ziyanın meydana çıxması mexanizminə nəzər salaq. Bunun üçün ilk növbədə yada salaq ki, tarixi baxımdan insanın məskunlaşdığı yer (qəsəbə, kənd, rayon) müəyyən ilkin xüsusiyyətlərinə görə insanların orada toplanmasına və fəaliyyət göstərməsinə səbəb olur. İlkin şərt rolunu həmişə insanların məskunlaşacağı ərazinin təbii resursları oynayır. Təbii resurslardan istifadə edib öz tələbatlarını ödəmək arzusu ilə konkret əraziyə gəlib burada məskunlaşan ilk insanlar sonradan ərazi inkişaf etdikcə çoxalır. Ərazi əhalisinin artması digər rayonlardan bura gəlmələr hesabına da baş verir. Lakin iqtisadi baxımdan əsas məsələ bu deyil. Söhbət ərazidə məskunlaşan əhalinin iqtisadiyyatın hansı sferasında, hansı iqtisadi fəaliyyətlə məşğul olmasından getməlidir. Məsələn, şəhərlərin salınmasında ilkin şərt ərazinin təbii resurslarından səmərəli istifadə edilməsi olsa da sonradan əhalinin sayı artdıqca xidmət sahələrinin üstün inkişaf etdirilməsi zərurəti ortaya çıxır. Buna görə də hər bir ərazi vahidində fəaliyyət göstərən iqtisadiyyatı iki qrupa bölüb hər qrupu ayrıca öyrənmək lazımdır. Birinci qrupa istehsal sahələri daxildir. Burada söhbət iqtisadiyyatın elə sahələrindən gedir ki, bu sahələrdə ərazinin təbii resurslarından istifadə etməklə cəmiyyətin

tələbatlarını ödəyə bilən və yaxud da region üçün əlavə mənfəət qazanmaq məqsədilə qonşu regionlara, yaxud da lap xarici ölkələrə ixrac oluna bilən hər hansı bir məhsulun istehsalı ilə məşğul olan sahələrdən gedir. Bu sahələr elmdə ərazini formalaşdıran sahələr adlanır. Lakin ərazidə istehsal sahələrindən başqa müxtəlif məişət və xidmət sahələri və infrastruktur (nəqliyyat, təmir, təchizat və s.) sahələr də fəaliyyət göstərirlər. İnfrastruktur sahələr də iki qrupa - istehsal və sosial infrastruktur bölmələrinə ayrılır. Lakin buna baxmayaraq bunların hər ikisi regionda formalaşmış və fəaliyyət göstərən iqtisadiyyata xidmət göstərir. Bu sahələrə elmdə əraziyə xidmət göstərən sahələr deyilir.

İqtisadiyyat və onun səmərəliliyi baxımdan insanların məskunlaşdıqları ərazidə (kənd, qəsəbə, şəhər, rayon) istehsal və xidmət sahələrinin nisbəti məsələsi böyük əhəmiyyət kəsb edən məsələdir. Bu sahələr arasında nisbət optimal olmalıdır. Optimallıq isə istehsal sahələrinin mövcudluğu, onların intensiv fəaliyyət göstərməsi, rentabelli işləməsi ilə bilavasitə şərtlənməlidir. Məsələyə bu xür yanaşmağın səbəbləri vardır. İlk obyektiv səbəb ondan ibarətdir ki, əgər nə vaxtsa insanların məskunlaşdığı ərazi dövlət və yerli hakimiyyət orqanları tərəfindən elmi cəhətdən idarə olunmursa, onda ərazi vahidində məskunlaşmış əhalinin istehsal sahələrində çalışan hissəsi (xüsusi çəkisi) getdikcə azalır və əksinə, xidmət sahələrində çalışanların sayı çoxalır. Belə mənfi prosesin baş verməsinin müxtəlif səbəbləri vardır. Onların içərisində sənaye istehsalının ərazi üzrə düzgün təşkili məsələsi həlledici amil ola bilər. Belə fikir söyləməyin obyektiv əsası vardır. Məsələ burasındadır ki, ərazi vahidləri  meydana gələndə və ondan sonrakı ilk dövrlərdə onlarda formalaşn ərazіəmələgətirmə və əraziyə xidmət sferaları arasında nisbət bir qayda olaraq istehsal sferasının üstünlüyü ilə səciyyələnir. Sonradan prosesin düzgün idarə edilməməsi nəticəsində tarazlıq pozulur və səmərəlilik azalır. Bu prosesə mənfi təsir göstərən amillərdən başlıcası sənayenin ölkə ərazisində düzgün yerləşdirilməməsidir. Məsələn, fəaliyyət göstərən ərazi vahidinin

yanında və yaxud da ondan uzaqda iri bir sənaye müəssisəsi tikildikdə, konkret ərazinin özündə sənaye müəssisələri tam gücü ilə və yaxud da heç işləmədikdə, bir ərazi vahidi digərinə nisbətən sürətlə inkişaf etdikdə, urbanizasiya prosesləri gücləndikdə və qabağı alınmadıqda əhalinin bir rayondan digərinə miqrasiyası prosesi güclənir. Bir müddət keçdikdən sonra isə ölkə ərazisinin bir tərəfində iqtisadi fəaliyyət zəifləyir, digərində güclənir və yaxud da indiki dövr kimi, hər yerdə istehsal prosesi zəifləyir. Belə olan halda əhali arasında işsizlik yayılır və əhali axını nisbətən iş yeri olan ərazilərə tərəf istiqamət götürür. Bu cür hal əhalinin gəldiyi rayonlarda da vəziyyəti gərginləşdirir. Gələnlərin çoxu iş tapa bilmədiklərindən şəhərdə qeyri-istehsal sahələrində fəaliyyət göstərməyə və yaxud da xırda alverlə məşğul olmağa başlayırlar. Konkret bir şəxsin iş tapıb-tapmamasından asılı omayaraq əhalinin gəldiyi ərazi vahidində məskunlaşmaların sayı artır və həmin ərazinin istehsal və xidmət sferaları arasında nisbət əraziyə xidmət sahələrinin xeyrinə, bütövlükdə isə iqtisadiyyatın ziyanına dəyişir.

İqtisadi cəhətdən fəal əhalinin çox hissəsi Bakı və Abşeron yarımadasına cəmlənmişdir. Onların da çoxu işlə təmin edilməmişdir və hərə bir cür dolanır, xırda alverlə məşğul olurlar. Bazarlar da, küçələr də, meydançalar da, yarmarkalar da adamla doludur. Onlar bir-birilərinə xidmət göstərməklə məş-ğul olurlar. Şəhər əmələgətirən sahələrin sümük və əzələləri olan sənaye müəssisələrinin çoxu isə ya işləmir, ya da layihə güclərindən çox aşağı rejimdə fəaliyyət göstərirlər. Bakıda və onun ətrafında əhalinin sıxlığı artıb, şəhər əhalisinin sayına görə ekstensiv olaraq böyüyüb, nəqliyyat xidməti gərginləşib, avtobus marşrutlarının sayı iləbil artır və yenə də azlıq edir. İndi hər gün şəhərdaxili sərnişin daşıması prosesini digər nəqliyyat növlərindən başqa 2650 avtobusun həyata keçirməsini göstərmək kifayətdir. Müqayisə üçün qeyd edək ki, 1985-90-cı illərdə Bakıda avtobus marşrutlarının sayı iki və üç rəqəmli ədədlərlə göstərilirdi. Şəhərdə avtobus və digər minik maşınlarının artmasının səbəblərindən başlıcası respublikanın digər bölgələrində iş yerlərinin olmaması üzündən

əhalinin Bakıya kütləvi axınıdır. Belə bir şərait Bakı kimi bir şəhəri zərərlə işləmək təhlükəsi qarşısında qoyub. Təxmini hesablamalar göstərir ki, Bakıda məskunlaşmış iqtisadi fəal əhalinin çox hissəsi xidmət sahəsində fəaliyyət göstərirlər, yaxud da küçə alveri iə məşğuldurlar.

Sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi bir sıra istiqamətlərdə aparılmalıdır. Təkmilləşdirmə əhatə dairəsinə görə fərqləndirilməli və konkret məsələyə həsr edilmiş məqsədli proqramlar işlənib hazırlanmalıdır. Əhatə miqyasına görə sənayenin ərazi təşkilinin təkmilləşdirilməsi iri şəhərlər miqyasında, rayonlar miqyasında, iqtisadi zonalar miqyasında və bütövlükdə respublika miqyasında aparılmalıdır. Əhatə dairəsinə görə təkmilləşdirmədə qarşıya qoyulan məqsəd müxtəlif ola bilər. Məsələn, iri şəhərlər miqyasında təkmilləşdirmə sosial, iqtisadi və sosial-iqtisad yönlü ola bilər. Əgər sənayenin şəhər miqyasında ərazi cəhətdən təkmilləşdirilməsi sosial yönümlüdürsə onda müəssisələrin yerləşdirilməsi əhalinin sıx yaşadığı məntəqələrə yaxın yerdə, güclü ekoloji çirklənmə yaratmayan yeni, lakin çox da böyük olmayan, qabaqcıl texniki və texnoloji nailiyyətlərə əsaslanan müəssisələr yaradılmalıdır. Bu imkan verər ki, əhalinin daha çox hissəsi ictimai-zəruri əməyə cəlb olunsun. Bundan dövlət də çox fayda götürər. Büdcəyə əlavə vəsait həm müəssisələrin mənfəətindən tutulan vergilər hesabına və həm də işləyənlərin əmək haqqından tutulan gəlir vergisi hesabına çoxlu vəsait daxil olar. Müəssisələrin şəhər miqyasında düzgün yerləşdirilməsinin sosial-iqtisadi səmərəsi digər kanallar vasitəsi ilə də əmələ gələ bilər. Məsələn, yaşadığı evdən çox da uzaqda olmayan müəssisədə özünə iş tapan  sakin ilk növbədə nəqliyyat xərclərini azaltmış olur. Minlərlə sakin bu cür imkan əldə etmiş olarsa onda iqtisadi və sosial səmərə bir sakin üçün yox, bütün şəhər üçün əldə ediləcək: yaxınlıqda iş yeri tapan sakin nəqliyyatdan az istifadə etdiyi üçün sərnişin daşıyan marşrutların sayı azalaraq, xidmət sağlamlaşacaq, şəhərin ekoloji tarazlığının pozulması təhlükəsi azalacaqdır.

Lakin bütün bunlarla yanaşı sənayenin ərazi strukturunun ölkə miqyasında təkmilləşdirilməsi ən çox səmərə verə bilər. Söhbət burada respublikanın hər bir iqtisadi rayonunda daxili imkanlardan və rayonun yerli təbii sərvətlərindən maksimum istifadə edilməsini nəzərdə tutan emal müəssisələrinin yaradılmasından gedir. Məsələ belə qoyulmalıdır: rayon sakini öz rayonunda iş yeri tapmaq imkanına maksimum malik olmalıdır. Bu prosesi icra hakimiyyəti ilə birlikdə bələdiyyələr idarə etməli və bütün yollardan istifadə edib hər il dövlət büdcəsinə əlavə vəsait köçürməyə nail olmalıdırlar.

Sənayenin ərazi strukturunun təkmilləşdirilməsi ərazilərin iqtisadi sərbəstliyinin yüksəldilməsi və eyni zamanda Azərbaycan Respublikasının iqtisadi gücünün artmasında rayonların məsuliyyətinin artırılması üçün labüd şərtdir. Tədqiqat gös-tərdi ki, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla respublika tabeçiliyində olan rayonların sayı bu gün 67-dir. 2002-ci ildə bu rayonlarda mərkəzləşdirilmiş xərclərdən (büdcə xərclərindən) 813670,3 milyon manat (təxminən 165 milyon ABŞ dolları) pul ayrılması planlaşdırılıb. Bu vəsait yerli gəlir və xərcləri tənzimləmək üçün nəzərdə tutulur. Bəs bu tənzimlənmənin mahiyyəti nədər ibarətdir? Məsələ burasındadır ki, bu gün iqtisadiyyatımızın idarə edilməsinin təsərrüfat mexanizmi elə bir mühitin yaranmasına səbəb olmuşdur ki, Azərbaycan Respublikasında Dövlət Statistika Komitəsinin təyin etdiyi 67 ərazi vahidlərinin hamısı mərkəzləşdirilmiş xərclərdən daxilolmalarsız fəaliyyət göstərə bilmirlər. Azərbaycanda öz xərclərini öz gəlirləri ilə ödəyən yeganə ərazi vahidi Bakıdır. Bir neçə rəqəmə müraciət edək.

Milli Məclisin qəbul etdiyi müvafiq sənədlərə görə 2002-ci ildə Naxçıvan Muxtar Respublikasının, respublika tabeli şəhər və rayolarının yerli gəlirləri 601707,9 milyon manat, yerli xərclərin isə 1415378,2 milyon manat təşkil edəcəyi planlaşdırılır. Deməli, yerli gəlirlər yerli xərclərin cəmi 42,5 faizini ödəyir. Göründüyü kimi Azərbaycan Respublikası üzrə rayonların mərkəzdən asılılığı ümumi şəkildə 60 faiz təşkil edir. Lakin ayrı-ayrı rayonların mərkəzdən asılılıq əmsalı daha

yüksəkdir, cədvəl 56-da respublika tabeli şəhərlər və onların mərkəzdən asılılıq əmsalı göstərilmişdir.

**Cədvəl 56**

| Şəhərlər və rayonlar | Mərkəzdən asılılığı (%-lə) |
|---|---|
| Azərbaycanın bütün bölgələrinin, o cümlədən: | 57,5 |
| Naxçıvan Muxtar Respublikası | 72,4 |
| Şəhərlər: | |
| Bakı | 0 |
| Əli-Bayramlı | 64,0 |
| Yevlax | 84,2 |
| Gəncə | 51,8 |
| Lənkəran | 81,8 |
| Mingəçevir | 66,8 |
| Naftalan | 82,7 |
| Sumqayıt | 46,4 |
| Xankəndi | ? |

| | |
|---|---|
| Şəki | 83,9 |
| Rayonlardan: | |
| Abşeron | 61,4 |
| Ağdaş | 86,3 |
| Ağsu | 87,2 |
| Ağstafa | 82,0 |
| Bərdə | 80,6 |
| Balakən | 84,4 |
| Qəbələ | 83,4 |
| Qobustan | 90,7 |
| Qazax | 86,1 |
| Quba | 81,7 |
| Daşkəsən | 90,2 |
| İmişli | 83,7 |
| İsmayıllı | 83,8 |
| Yardımlı | 93,5 |
| Səlyan | 73,7 |
| Xaçmaz | 80,6 |
| Cəlilabad | 61,4 |
| Sabirabad | 85,4 |

Göründüyü kimi vəsaitlərin mərkəzləşdirilməsi səviyyəsi çox yüksəkdir. Bu da iqtisadi rayonların təşəbbüskarlığını aşağı salır, onlarda ələbaxımlılıq psixologiyası tərbiyə edir. Əslində 70 ildən də çox bir dövrdə keçmiş SSRİ deyilən bir imperiyada baş verən proses indi Azərbaycan Respublikasında baş verməkdədir. Bu prosesin mahiyyəti ondadır ki, respublikanın 67 bölgəsi il ərzində nə qazanırsa mərkəz onları öz əlində cəmləyir və sonra bir növ bərabərçilik prinsipi ilə rayonlar arasında bölüşdürür. Bunun nəticəsində rayon rəhbərlərinin öz rayonlarında iqtisadiyyatı yüksəltməkdə maraqları azalır ya da ki, heç olmur. Bazar iqtisadiyyatı şəraitində problemə bu cür yanaşmaq

yolverilməzdir. Respublika iqtisadiyyatının idarə edilməsi üzrə təsərrüfat mexanizmi elə təkmilləşdirilməlidir ki, ölkənin iqtisadi rayonları  yerli resurslardan səmərəli istifadə edilməsində maraqlı olsunlar və ərazi xərclərini maksimum səviyyədə özləri ödəyə bilsinlər.

İqtisadi rayonların mərkəzdən asılılıq  dərəcəsinin öyrənilməsi bir daha sübut etdi ki,  Azərbaycan Respublikasında sənayenin ərazi üzrə təşkili və deməli, sənaye istehsalının ərazi strukturu bazar iqtisadiyyatının ən mühüm tələblərinə cavab vermir və sənayenin ərazi baxımdan birtərəfli yerləşdirilməsi ölkə iqtisadiyyatının intensiv inkişaf etdirilməsinə mənfi təsir göstərir. Sadə hesablama göstərir ki, əgər iqtisadi rayonların mərkəzdən asılılığını bir faiz azalda bilsək bugünkü şərtlər daxilində respublika büdcəsi xərclərini bu məqsədlər üçün 8136,7 milyon manat azaltmaq olar və onu sosial inkişafa yönəltmək imkanı yaranar. Bu asılılığı 10 faiz azalda bilsək onda Dövlət büdcəsi 81367 milyon manat məbləği qədər sağlamlaşar. Tədqiqat göstərdi ki, bu problemi də bir çox cəhətdən iqtisadi rayonlarda sənayeni və xüsusə də yerli xammal və  materiallardan istifadəyə əsaslanan emal sənayesini hərtərəfli inkişaf etdirmək you ilə həll etmək olar. Onu da qeyd edək ki, bu sahədə respublikamızın özünün müsbət təcrübəsi vardır. Məsələn, sənayenin nisbətən inkişaf etdiyi rayonların mərkəzdən asılılığı müvafiq olaraq zəifləyir. Sənayenin inkişaf etdiyi Bakı şəhərinin mərkəzdən asılılığı heç yoxdur. Sənayenin nisbətən inkişaf etdiyi Sumqayıtda bu asılılığın səviyyəsi 46,4%, Gəncədə - 51,8%, Mingəçevirdə 66,8% təşkil edir. Əksinə səna-yenin çox zəif və yaxud da yox dərəcəsində inkişaf etdiyi Qəbələnin mərkəzdən asılılığı 90,7, Daşkəsənin - 90,2, Yardımlının 0 93,5, Xaçmazın - 80,6, Qazaxın - 86,7% və s. təşkil edir.

Beləliklə, respublikamıza vahid bir orqanizm kimi baxmaq tələb olunur. Bu da özü-özlüyündə ayrı-ayrı ərazi vahidlərində baş verən proseslərə üç tərəfdən yanaşmağı qarşıya qoyur. Birincisi, proseslərin obyektivliyi nəzərə alınmalıdır. İkincisi, proseslərin qarşılıqlı əlaqəli olması və onların qarşılıqlı şərtlənməsi qəbul olunmalıdır. Üçüncüsü, proseslərin tarixi inkişaf  prosesinin davamlı olması dərk edilməlidir. Bu

üç tərəfli yanaşma iqtisadi rayonların kompleks inkişafına səbəb ola bilər, rayonlarda özünütəminetmə prosesini gücləndirər və nəticədə dövlət büdcəsinə daxilolmalar çoxalar, büdcə xərcləri isə azalar. Lakin burada əsas məsələ rayon və şəhər rəhbərliklərinin ələbaxımlılıq psixologiyasını dağıtmaq olmalıdır. Rayonlarda istehsalı inkişaf etdirmək yolu ilə sənayenin ərazi strukturunun təkmilləşdirilməsi dünyada gedən qloballaşdırma və respublikamızda gedən sabitləşmə və inkişaf prosesləri ilə həmahəng baş verməlidir.

## § 4. AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI

Bir ölkə daxilində baş verən bütün sosial-iqtisadi, siyasi, sosial-psixoloji proseslərin əsasını istehsal təşkil edir. İstehsalın zirvəsində isə ərzaq məsələlərinin həlli durur. Əslində ölkənin təsərrüfat sistemi fəaliyyətinin mühüm, ayrılmaz hissəsini ərzaq, onun istehsalı, bölünməsi, mübadiləsi və istehlakı təşkil edir. Ərzaq problemi ölkə təsərrüfatı fəaliyyətinin həm subyekti və həm də obyekti olan insanların, işçi qüvvəsinin həyat fəaliyyəti ilə bilavasitə bağlı olan problemdir. Dövlət səviyyəsində problemin bu şəkildə qoyulması və həll edilməsi çox vacib məsələdir. Məsələyə bu səpgidən yanaşdıqda, dövləti idarə edənlər istər-istəməz ərzaq əldə etmək haqqında

fikirləşməli olurlar və mənbələr axtarırlar. Təcrübə göstərir ki, ərzağın əldə edilməsinin əsas mənbəyi kənd təsərrüfatıdır. Ola bilər hər hansı bir dövlət ərzağı digər dövlətlərdən idxal etsin. Lakin burada söhbət ölkə tələbatının hər hansı bir seqmentinin ödənilməsindən gedə bilər və ikincisi, digər ölkədən gətirilən ərzaq məhsullarının da əsasını o ölkələrin kənd təsərrüfatı təşkil edir. Deməli, söhbət burada beynəlxalq ixtisaslaşmadan gedə bilər ki, bunun nəticəsində də bir ölkə digər ölkəyə ərzaq məhsulu ixrac edir.

Kənd təsərrüfatı ölkə əhalisini ərzaqla təmin etməkdə, məşğulluq məsələlərini həll etməkdə, xarici iqtisadi əlaqələri və xüsusən də xarici ticarəti inkişaf etdirməkdə müstəsna rol oynayır. Əyanilik üçün cədvəl 57-nin məlumatlarını oxucunun nəzərinə çatdırırıq.

**Cədvəl 57**

**İl ərzində adambaşına qida məhsullarının istehlakı (kiloqram)**

| | **Azərbaycan** | **Qaza-xıstan** | **Rusiya** | **Yapo-niya** | **Gürcüstan** | **ABŞ** | **Almaniya** | **İtaliya** |
|---|---|---|---|---|---|---|---|---|
| | 2000 | 1998 | 1999 | 1996 | 1997 | 1997 | 1998 | 1996 |
| Ət və ət məhsulları | 22 | 45 | 41 | 45 | 18 | 114 | 88 | 80 |
| Süd və süd məhsul. | 154 | 206 | 215 | 93 | 218 | 305 | 442 | 280 |
| Yumurta | 112 | 79 | 222 | 320 | 108 | 23 | 226 | 220 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | 9 | | |
| Balıq və balıq məh. | 2,7 | 3,6 | 9,9 | 60,5 | 1,4 | 10,0 | 15,1 | 17,3 |
| Şəkər | 16,8 | 20 | 35 | 19,0 | - | 30 | 34 | 26.0 |
| Bitki yağı | 3,1 | 6,8 | 9,3 | 14,8 | 11,2 | 24,0 | 18,3 | 254 |
| Kartof | 47 | 60 | 117 | 102 | 45 | 57 | 77 | 39 |
| Çörək məmulatları | 155 | 137 | 89 | 112 | 154 | 112 | 78 | 126 |
| Meyvə və giləmeyvə | 61 | 70 | 105 | 60 | 60 | 105 | 136 | 174 |
| Tərəvəz və bostan məhsulları | 129 | 70 | 83 | 123 | 93 | 119 | 90 | 214 |

Hər bir insan ildə çoxlu miqdarda qida məhsulları qəbul etməli olur. Məlumatlardan görünür ki, 2000-ci ildə Azərbaycan Respublikasında hər bir nəfər orta hesabla 22 kq ət və ət məhsulları, 154 kq süd və süd məhsulları, 112 ədəd yumurta, 2,7 kq balıq və balıq məhsulları, 16,8 kq şəkər, 3,1 bitki yağı, 47 kq kartof, 155 kq çörək məmulatları, 61 kq meyvə və giləmeyvə, 129 kq tərəvəz və bostan bitkiləri istehlak etmişdir. İnkişaf etmiş ölkələrdə bu rəqəmlər daha çox yüksəkdir. Məsələn, ABŞ hər adambaşına 114 kq ət və ət məhsulları (Azərbaycandakından 5 dəfə çox), 305 kq süd və süd məhsulları (2 dəfədən çox), 24 kq bitki yağı (8 dəfə çox), istehlak etmişdir.

Yaponiya, Almaniya, İtaliya və s.  digər ölkələr də adambaşına qida məhsullarının istehlakı cəhətdən fərqlənirlər. Göründüyü kimi cədvəldə verilən məhsulların hamısı kənd təsərrüfatı ilə bilavasitə bağlıdır.

Digər ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında da kənd təsərrüfatının inkişaf etməsinə onun coğrafi ərazisi, quruluşu və iqlim təsir göstərir. Azərbaycanın ərazisi 86,6 min kvadratkilometrdir. Bunun 11,5 faizi meşələrin, 1,6 faizi su hövzələrinin, 50 faizi becərilən torpaqların, 36,9%-i sair torpaqların payına düşür. Becərilən torpaqların 27%-i otlaqlardır. Azərbaycan Respublikası ərazisi 400 000 kvadratkilometr olan, dünyada ən böyük göl hesab edilən Xəzər dənizinin sahilində yerləşir. Bundan başqa, ümumi sahəsi 212,8 kvadrat kilometr olan 6 iri göl və ümumi sahəsi 3389 kv.m. olan 4 böyük çay da respublika ərazisində mövcuddur. Deməli, meşəçilik və balıqçılıq təsərrüfatlarını inkişaf etdirmək üçün də Azərbaycanda yaxşı imkan vardır.

Azərbaycan Respublikasında kənd təsərrüfatındakı müasir vəziyyət ümumi şəkildə cədvəl 58-də verilmişdir.

**Cədvəl 58**

**1991-2000-ci illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının təsərrüfatların forması üzrə dəyişmə indeksi (1990 = 100 faiz)**

| İllər | Bütün təsərrüfat formaları üzrə | O cümlədən | |
|---|---|---|---|
| | | kənd təsərrüfatı müəssisələri | xüsusi (əhali) təsərrüfatları |
| 1991 | 100,3 | 95,4 | 109,4 |
| 1992 | 76,5 | 68,3 | 91,6 |
| 1993 | 64,7 | 52,0 | 88,0 |
| 1994 | 56,4 | 37,4 | 91,5 |
| 1995 | 52,5 | 32,1 | 90,1 |
| 1996 | 54,1 | 29,8 | 98,9 |
| 1997 | 50,8 | 18,1 | 111,1 |

| | | | |
|---|---|---|---|
| 1998 | 53,9 | 7,9 | 138,9 |
| 1999 | 57,7 | 3,9 | 157,2 |
| 2000 | 64,7 | 2,3 | 180,0 |

**Cədvəl 59**

**Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkilərinin ümumi yığımı (min ton)**

| Məhsullar | İ L L Ə R | | | |
|---|---|---|---|---|
| | 1990 | 1993 | 1995 | 2000 |
| Taxıl (təmizləmədən sonrakı çəkidə) | 1364,4 | 1100 | 881,5 | 1508,9 |
| Pambıq | 542,9 | 284,5 | 274,1 | 91,5 |
| Tütün | 52,9 | 44,9 | 11,7 | 17,3 |
| Kartof | 185,2 | 152,2 | 155,5 | 489,0 |
| Tərəvəz | 856,2 | 487,8 | 424,1 | 780,8 |
| Bostan məhsulları | 67,5 | 46,9 | 41,9 | 261,0 |
| Üzüm | 1196,4 | 411,3 | 308,7 | 76,9 |
| Meyvə və giləmeyvə | 367,4 | 346,4 | 324,4 | 477,0 |
| Çay yarpağı | 30,7 | 24,0 | 9,4 | 1,1 |

Taxıl istehsalı, bostan məhsulları, kartof istehsalı sahəsində 1990-cı ilin səviyyəsi əldə edildiyi halda, çox mühüm strateji əhəmiyyətə

malik pambıq istehsalı, üzüm istehsalı, çay yarpağı və tütün məhsulların istehsalları xeyli aşağı düşmüşdür.

Müstəqillik dövrünün çətinlikləri üzündən kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi bir neçə mühüm məhsullar növü üzrə xeyli aşağı düşmüşdür (bax cədvəl 60).

**Cədvəl 60**

**1990-2000-ci illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı bitkiləri üzrə məhsuldarlıq (hektardan, sentner ilə)**

| Məhsullar | İ L L Ə R | | | |
|---|---|---|---|---|
| | 1990 | 1993 | 1995 | 2000 |
| Dənli bitkilər | 24,2 | 16,8 | 15,1 | 23,8 |
| Pambıq | 20,6 | 12,7 | 13,0 | 9,1 |
| Tütün | 32,7 | 28,2 | 14,6 | 22,2 |
| Kartof | 78 | 78 | 97 | 84 |
| Tərəvəz | 200 | 158 | 157 | 133 |
| Bostan bitkiləri | 74 | 87 | 73 | 98 |
| Üzüm | 76,5 | 30,9 | 32,6 | 35,8 |
| Meyvə və giləmeyvə | 28,1 | 32,6 | 31,2 | 61,9 |
| Çay yarpağı | 39,0 | 26,6 | 10,3 | 2,0 |

Müasir dövrdə dünya miqyasında kənd təsərrüfatında böyük nailiyyətlər əldə edildiyi halda Azərbaycanda kənd təsərrüfatında əsas məhsullar üzrə məhsuldarlığın aşağı düşməsi tədqiqatçını dərindən düşündürməlidir. 1990-cı ilə nisbətən 2000-ci ildə pambıq yığımında məhsuldarlıq 2,2 dəfədən çox, tütün istehsalında 1,4 dəfə, üzüm yığımında 2,1 dəfədən çox, çay yarpağı toplamaqda 20 dəfəyə yaxın aşağı düşmüşdür. Qeyd etdiyimiz kimi bu cür vəziyyətin obyektiv səbəbləri olmuşdur. Lakin yaranmış vəziyyətdən çıxış yolları tapmaq həmişə mümkündür. Bu fikir respublikamızın öz təcrübəsi ilə də sübut olunur. Məsələn, vəziyyətin hər yerdə əsasən eyni olmasına baxmayaraq tədqiqat dövründə bir neçə kənd təsərrüfatı məhsulları üzrə məhsuldarlıq nəinki dəyişməmişdir, hətta yüksəlmişdir.

Daxili imkanlardan maksimum istifadə etməklə böyük nəticələrin əldə edilməsinin mümkünlüyü bir çox xarici dövlətlərin də təcrübəsi ilə sübut olunmuşdur. Keçən (XX) əsrin əvvəllərində inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı iqtisadiyyatın əmək tutumlu bölməsi idi. 1940-1960-cı illərdə kənd təsərrüfatı kapital tutumlu sahəyə çevrilmişdi. Hazırda isə kənd təsərrüfatı iqtisadiyyatın mühüm bölməsi kimi elmtutumlu sahəyə çevrilməkdədir. 1960-cı illərdə "Yaşıl inqilab" adı almış elmi-texniki proses nəticəsində dənli bitkilər istehsalında əmək məhsuldarlığı 2-3 dəfə yüksəldi və bir çox ölkələr və o cümlədən də Çin, Hindistan, İndoneziya, Pakistan, Tailand buğda ilə özlərini təmin etməyə nail oldular. Azərbaycan Respublikasında müasir aqrotexniki nailiyyətlərin istehsala tətbiqi sahəsində məqsədli proqramlar tərtib edib həyata keçirmək yolu ilə kənd təsərrüfatı məhsullarının həcmini bir neçə dəfə artırmaq olar.

Azərbaycan Respublikasının kənd təsərrüfatında heyvandarlıq və quşçuluq xüsusi əhəmiyyətə malikdir. 1990-2000-ci illərdə əsas heyvandarlıq məhsulları istehsalının həcmi cədvəl 61-də verilmişdir.

**Cədvəl 61**

**1990-2000- ci illərdə Azərbaycanda əsas heyvandarlıq məhsulları istehsalının dəyişməsi**

| Məhsullar | Ölçü vahidi | 1990 | 1995 | 2000 | 1990-cı ilə nisbətən 2000-ci ildə %-lə |
|---|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə) | Min ton | 175,5 | 82,0 | 108,7 | 61,9 |
| Süd | - | 970,4 | 826,5 | 1031,1 | 106,2 |
| Yumurta | Min ədəd | 985,3 | 455,8 | 542,6 | 55,0 |
| Yun (fiziki çəkidə) | Min ton | 11,2 | 9,0 | 10,9 | 97,3 |

1990-2000- ci illər ərzində kəsilmiş çəkidə ət istehsalı –45 %, yun istehsalı 2,7 % aşağı düşmüşdür. Natural ifadədə 1990-cı ilə nisbətən 2000-ci ildə ət istehsalı 66,8 min ton , o cümlədən inək və dana əti istehsalı –19,9 min ton, donuz əti –11 min ton azalmışdır.

Respublikada və onun ətrafında baş vermiş məlum hadisələr heyvandarlıq sahəsində məhsuldarlığın aşağı düşməsinə səbəb olmuşdur. Bu haqda məlumatlar cədvəl 62-də verilir.

**Cədvəl 62**

**1990-2000-ci illərdə təsərrüfatların bütün kateqoriyalarında mal-qara və quşların məhsuldarlığı**

| Adı | Ölçü vahidi | 1990 | 1995 | 1996 | 2000 |
|---|---|---|---|---|---|
| 1.İlin əvvəlinə olan hər baş | Kq | 1337 | 1073 | | 1084 |

| | | | | | |
|---|---|---|---|---|---|
| inək və camışdan süd sağımı (Azərbaycan Respublikası) | | | | | |
| Müqayisə üçün digər ölkələrdə | | | | | |
| ABŞ | Kq | | | 6700 | |
| Danimarka | Kq | | | 6300 | |
| İsveçrə | Kq | | | 6200 | |
| Yaponiya | Kq | | | 5200 | |
| Rusiya | Kq | | | 2800 | |
| Argentina | Kq | | | 2600 | |
| Çin | Kq | | | 1600 | |
| 2. Hər qoyundan orta illik yun qırxımı (AR) | Kq | 2,3 | 2,2 | 2,1 | 2,0 |
| 3. Toyuqların orta illik yumurta verimi (AR) | Ədəd | 149 | 74 | 78 | 197 |

Göründüyü kimi dünya miqyasında heyvandarlıq məhsulları sahəsində böyük nailiyyətlər əldə edilmişdir. Məsələn, Azərbaycanda hər inəkdən sağılan südün miqdarı inkişaf etmiş ölkələrdəkindən təxminən altı dəfə azdır. Bunun əsas səbəbi respublikamızın kənd təsərrüfatında sənaye üsullarının tətbiqindəki geriliklərdir. Bundan başqa, yem bazasının kifayət qədər olmaması və seçmə cinsləşdirmə prosesinin yüksək səviyyədə aparılmaması da kənd təsərrüfatı məhsullarının istehsalında məhsuldarlığı azaldır.

Azərbaycan Respublikasında kənd təsərrüfatı iqtisadiyyatın ən çox diqqət və qayğı tələb edən sahəsidir. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Müstəqillik dövründə meydana çıxan və əvvəlki paraqraflarda şərh edilmiş səbəblərdən əvvəl baş vermiş hadisələr kənd təsərrüfatına da mənfi təsir göstərir. Söhbət SSRİ dövründə Azərbaycan kənd təsərrüfatının başına gətirilən oyunlardan

gedir. Azərbaycan Respublikasını milyon tonlarla üzüm istehsalçısına, pambıq becərənə, tütün yığana, bostan bitkiləri yetişdirənə çevirməklə münbit torpaqlara çoxlu ekoloji ziyan dəyib. Bundan başqa, SSRİ dövründə kənd təsərrüfatının mexanikləşdirilməsi səviyyəsi də digər yaxın və uzaq ölkələrə nisbətən xeyli aşağı olub.

Bütün bunlarla yanaşı torpağın özəlləşdirilməsi gətirib ona çıxarmışdır ki, bu gün kənd təsərrüfatında çalışanların sayı 1170 min nəfərə çatır. Bu o deməkdir ki, Azərbaycan Respublikasında iqtisa-diyyatını maddi istehsal sahələrində çalışanların 41,6 faizi kənd təsərrüfatında cəmlənmişdir. Dövlət Statistika Komitəsinin dərc olunmuş məlumatlarına görə 2000-ci ildə Azərbaycan Respublikasının kənd təsərrüfatında fəaliyyət gös-tərən kənd təsərrüfatı müəssisələrinin sayı 2158 ədəd təşkil etmişdir. Burada da çalışanların sayı 24 min nəfər olmuşdur. Fəaliyyət göstərən 2158 kənd təsərrüfatı müəssisələrinin işi yaxşı təşkil olunmamış və nəticədə müəssisələrin 52,5 %-i zərərlə işləmişlər (bax cədvəl 63 )

**Cədvəl 63**

**Azərbaycan Respublikasının kənd təsərrüfatında fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin sayı və maliyyə nəticələri**

| | Müəssisələrin ümumi sayı | O cümlədən, zərərlə işləyənlər | Təsərrüfat-larda çalışan | Bir təsərrü-fatda çalışan işçilərin orta |
|---|---|---|---|---|

| | (ədəd) | sayı ədəd | xüsusi çəkisi %-lə | işçilərin sayı (min nəfərlə) | sayı |
|---|---|---|---|---|---|
| 1990 | 1978 | 156 | 7,9 | 563 | 284,6 |
| 1995 | 2295 | 1079 | 47,0 | 490 | 213,5 |
| 1999 | 3682 | 2583 | 70,5 | 57 | 15,4 |
| 2000 | 2158 | 1132 | 52,5 | 24 | 11,1 |

Azərbaycan Respublikasının təbii iqlimi, yerin quruluşu, göl, çay və dənizin olması imkan verir ki, çox qiymətli qida məhsulu olan balıq istehsalı yaxşı təşkil edilsin. Balıq istehsalının rekord səviyyəsi 1990-cı ildə əldə edilmiş və 41780 kq balıq ovlanmışdır. 1995-ci ilə qədər balıq ovu sürətlə aşağı düşmüş və 1995- ci ildə balıq ovu 4 dəfədən də çox azalmışdır. Başqa sözlə desək, 1990-cı ilə nisbətən 1995- ci ildə 31 min 846 kq az balıq ovlanmışdır. 1996-cı ildən başlayaraq Azərbaycan iqtisadiyyatında baş verən gerigetmə prosesinin dayandırılması bu sahəyə də öz təsirini göstərmiş və 2000- ci ildə balıq ovunun ümumi həcmi 19122 kq–a çatdırılmışdır. Bu da 1990-cı ildəki balıq ovu həcminin 45,7 %- i deməkdir.

**Cədvəl 64**

**1990-2000-ci illərdə Azərbaycan Respublikasında balıq ovu və onun həcminin dəyişilməsi**

| İllər | Cəmi (ton) | O cümlədən Azərbaycan Dövlət Konserni Sənaye Balıqçılığı üzrə | 1990-cı ilə görə faizlə |
|---|---|---|---|
| 1990 | 41784 | 41665 | 100 |
| 1993 | 22564 | 22219 | 54,0 |
| 1995 | 9938 | 9846 | 23,8 |
| 2000 | 19122 | 18982 | 45,7 |

Kənd təsərrüfatı inkişaf etdikcə mütəxəssislərin, alimlərin və ilk növbədə dövlətin ona olan münasibəti dəyişib. Əsrlər boyu kənd təsərrüfatının sənayedən ayrı inkişaf dövrü olub. Lakin XIX əsrin əvvəllərində problemlərin həllinə yaradıcı münasibət bəsləyən ölkələr görməyə başlayıblar ki, kənd təsərrüfatında sənayeləşmə aparmadan, elmi nailiyyətləri iqtisadiyyatın bu mühüm sahəsində tətbiq etmədən və ən başlıcası, sənaye ilə kənd təsərrüfatını üzvi şəkildə birləşdirməyə nail olmadan kənd təsərrüfatını istənilən səviyyədə inkişaf etdirmək mümkün deyildir. Məsələyə bu cür yanaşmağın müsbət nəticələri öz bəhrəsini keçən əsrin ikinci yarısından əyani şəkildə verməyə başladı. 1960-1990-cı illərdə daha çox inkişaf etmiş ölkələrin kənd təsərrüfatında intensivləşmə sürətlə artır və onun sənaye ilə inteqrasiyası baş verirdi. Geniş əhatə dairəsinə malik aqrar-sənaye kompleksləri meydana gəlib inkişaf edirdi. Keçmiş SSRİ tərkibində olan Azərbaycanda da bu proses müəyyən səviyyədə baş vermiş və Respublikanın aqrar-sənaye kompleksi özünün ən yüksək səviyyəsinə 1970-1980-cı illərdə çatmışdı. Bu dövrdə ümumi məcmu məhsulun 45-47 faizi aqrar-sənaye kompleksində istehsal olunurdu. Əmək qabiliyyətli əhalinin 35-40 faizi əsas istehsal fondlarında cəmlənmişdir. Azərbaycan pambıq, tütün, üzüm, şərab, meyvə-tərəvəz konservləri ixrac edən ölkəyə çevrilmişdi. Lakin SSRİ dağıldıqdan sonra aqrar-sənaye kompleksinə də güclü zərbə dəydi və yaranmış vəziyyətin

yaxşılaşdırılması prosesi dövlətimizin səyı nəticəsində ancaq 1996-cı ildən başlandı.

2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə ehtiyatlar və onlardan istifadə mənbələrinin (cədvəl 65) təhlili göstərir ki, məhsulların emal edilmədən şəxsi istehlakı üstünlük təşkil edir. Bu emal səna-yesinin zəifliyini və Azərbaycanda aqrar-sənaye kompleksinin inkişaf etmədiyini göstərir. Kənd təsərrüfatı məhsullarının 80-90 faizi birbaşa şəxsi istehlaka sərf olunur. İxraca ancaq bitki yağlarının (15,6%), balığın (7,7%), meyvə və üzümün az bir hissəsi (7,98%) sərf olunur. Bu vəziyyətin yaranması əhalini işlə təmin etməyə, ölkənin iqtisadiyyatını intensiv inkişaf etdirməyə güclü mənfi təsir göstərir. Bazar münasibətlərinə keçid isə kənd təsərrüfatında köklü dəyişikliklər edilməsini tələb edir.

**Cədvəl 65**

**2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə ehtiyatların istifadə mənbələri**

| **Məhsulların Adı** | **Ölçmə vahidi** | **Cəmi ehtiyatlar** | **O cümlədən istehlakın növləri üzrə** | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | **istehsal istehlakı** | | **ixrac** | | **şəxsi istehlak** | |
| | | | **həcmi** | **xüsusi çə-kisi** | **həcmi** | **Xüsu-si çəkisi** | **həcmi** | **xüsusi çəkisi** |
| Taxıl və taxıl məhsulları | Min ton | 2445,0 | 592,1 | 24,2 | - | - | 1255,1 | 51,3 |
| Ət və ət məhsulları | Min ton | 148,3 | 1,6 | 1,1 | - | - | 138,9 | 93,7 |
| Süd və süd məhsulları | Min ton | 1195,0 | 22 | 2,0 | - | - | 1146,2 | 95,9 |
| Yumurta | Min ton | 626,9 | 38,7 | 6,2 | - | - | 5845,5 | 93,3 |
| Balıq | Min ton | 22,0 | - | - | 1,7 | 7,7 | 20,2 | 91,8 |
| Kartof | Min ton | 770,1 | 91,6 | 11,8 | 0,5 | 0,08 | 300,9 | 39,1 |
| Tərəvəz və bostan məhsulları | Min ton | 1134,5 | 7,3 | 0,6 | 4,6 | 0,4 | 1024 | 90,3 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Şəkər | Min ton | 81,2 | - | - | - | - | 81,1 | 100 |
| Bitki yağları | Min ton | 29,4 | - | - | 4,6 | 15,6 | 19,8 | 67,4 |
| Meyvə və üzüm | Min ton | 652 | 29,8 | 4,5 | 52,1 | 7,98 | 476,3 | 73,0 |

Torpağın özəlləşdirilməsi həyata keçirilmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 35 minə yaxın fermer təsərrüfatları yaradılıb. Lakin onların işi qənaətbəxş təşkil olunmadığından istənilən nəticələr ləng əldə olunur. Aqrar-sənaye komplekslərini canlandırmaq, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, onların ərzaq məhsullarına olan tələbatlarını ödəmək, daxili bazarı vətən məhsulları ilə zənginləşdirmək, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək bir çox cəhətdən Azərbaycanda həyata keçirilən aqrar islahatların nəticələrinə diqqəti artırmaqdan asılıdır. Sadə şəkildə desək, kəndliyə torpaq vermişiksə, indi də ona torpağı becərmək və əldə etdiyi kənd təsərrüfatı məhsulunu satmaq üçün münasib şəraiti verməliyik. Doğrudur, kəndli (fermer) təsərrüfatlarının inkişaf etdirilməsi, onun hüquqi bazasının yaradılması üzrə bir neçə "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi", "Müəssisələr haqqında", "Aqrar islahatların əsasları", "Torpaq islahatı haqqında", "Torpağın icarəyə verilməsi", "Kəndli (fermer) təsərrüfatları haqqında", "Torpaq vergisi haqqında" və s. bu kimi Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Lakin yaradılan özəl strukturlar və fərdi kəndli təsərrüfatları məhsuldar fəaliyyət göstərə bilmirlər. Azərbaycan Respublikasında formalaşmış təbii-iqtisadi şəraiti nəzərə almaq yolu hansı təsərrüfat formalarının daha səmərəli olmasını aydınlaşdırmaq lazımdır. Son 4-5 ilin təcrübəsi sübut etmişdir ki, respublikamızda əmək resursları tələb edən təsərrüfatçılıq formalarının yaradılması müsbət nəticələr verə bilər. Emal müəssisələri yaratmaq yolu ilə kənd təsərrüfatı məhsullarını ixrac edilə bilən əmtəə şəklinə salmaqla xarici iqtisadi əlaqələri genişləndirmək olar.

Dünya üzrə təcrübənin öyrənilməsi göstərdi ki, heyvandarlıq bölməsində ət və ət məhsulları, süd və süd məhsulları istehsalı ilə əlaqədar olan fermer təsərrüfatları səmərəli fəaliyyət göstərə bilirlər. Heyvandarlıqda bilavasitə diri heyvan (qoyun, keçi, inək, camış, donuz və s.) yetişdirilməsi ilə məşğul olan fermerlərin də yaranması sərfəlidir. Bitkiçilikdə fermer təsərrüfatları kartof, dənli bitkilər, tütün, üzüm, meyvə-tərəvəz becərdilməsi sahəsində daha səmərəli olur. Azərbaycanın təbii şəraiti bu bitgilərin bir neçəsi üzrə ildə iki dəfə məhsul əldə etmək imkanı yaradır. Bu imkanları ortaya çıxarıb onlardan istifadə etmək üçün dövlət münasib iqtisadi mühüt yaratmaq sahəsində cürətli addımlar atmışdır. Fermer təsərrüfatlarına güzəştli kreditlərin verilməsi haqqında Respublika hökumətinin çıxartdığı qərarlar bu cəhətdən yaxşı təsir bağışlayır və yaxın 2-3 ildə öz bəhrəsini verməlidir. Lakin əsas iş vergi, güzəşt, konkret məhsul istehsalının stimullaşdırılması, faiz stavkaları, dövlət investisiyası, sağlam pul dövriyyəsi, daxili bazarın qorunması, fermerin əldə etdiyi məhsula hörmət edilməsi və onun qiyməti məsələsi, rəqabət, bazar qanunları təsirləri altında müflisləşməsinə yol verilməməsi sahələrində gərgin iş aparılmalıdır. Elə şərait yaradılmalıdır ki, fermerlər və yaxud da onların birləşmiş qrupları xarici bazarlara bilavasitə çıxa bilsinlər. Fermerləri dövlət orqanlarının təzyiqlərindən xilas etmək vaxtı çatmışdır. Elə bir təsərrüfat mexanizmi formalaşdırmaq lazımdır ki, fermer və kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti dövlətin iqtisadi fəaliyyəti ilə və əksinə uyğunlaşsın və blokirovkalaşdırılsın. Fermer üçün xeyirli olan fəaliyyət dövlət üçün də xeyirli olmalıdır. Dövlət fermerləri və kənd təsərrüfatı müəssisələrini iqtisadi rıçaqlarla idarə etməyə üstünlük verməli və onların işinə güc orqanları, nəzarət-yoxlama orqanları qarış-mamalıdır. Kənd təsərrüfatı strukturlarına təzyiq onların vergidən yayınmaq halları baş verdikdə üzürlü hesab olunmalıdır. Bu sahədə 2002-ci ilin sonunda Azərbaycan Respublikası Prezidenti möhtərəm H.Ə.Əliyevin məlum sərəncamlarının əhəmiyyəti böyükdür.

Fermer təsərrüfatları formalaşdırmaq, onlara məqsədyönlü və səmərəli təsir göstərmək yolu ilə kənd təsərrüfatı məhsulları üzrə bolluq yaratmaq təcrübəsi ABŞ-da daha qabarıq şəkildə özünü göstərmişdir. Oxucuların nəzərinə ancaq bir cəhəti çatdırmaq istəyirik: dövlətin fermerlərə subsidiya verməsi məsələsini. Fermerlərin subsidiyalaşdırılmasına ciddi fikir verən Amerika hökuməti onlara bir neçə növdə subsidiyalar təklif edir. Məsələn, kompensasiya ödəmələri məqsədli qiymətlərlə bazar qiymətləri arasında yaranmış fərqlər meydana gələndə verilir. Subsidiyanın məbləği də məhsul vahidi üçün yaranan qiymət fərqi ilə həmin vahidlə hesablanan məhsulun həcminin hasili kimi təyin olunur. Subsidiyanın digər növləri fermerlərin məhsuldar işləmələrinə xidmət göstərir. Əgər fermer əkin sahələrinin azaldılmasına yönələn təşəbbüslə çıxış edirsə və bu şəraitdə məhsulun həcminin azaldılmasına yol vermirsə və deməli, təsərrüfatın intensiv inkişafına nail olursa, dövlət ona kömək göstərir. İntensivləşdirmə tədbirlərinə tələb olunan əlavə vəsaitin hamısı və yaxud da müəyyən hissəsi dövlətin subsidiyası nəticəsində ödənilir. Əslində bu halı dövlətin intensivləşdirmənin maliyyələşdirməsi kimi qiymətləndirmək olar. Fermer su təsərrüfatı və torpaq meliorasiya işləri gördükdə də dövlət fermerə maliyyə köməyi göstərir. Bu da subsidiyanın bir növüdür. Bunlardan başqa, Amerika fermeri bilir ki, heç bir maneə olmadan təbii fəlakət baş verdikdə, özündən asılı olmayan digər amillərin təsiri altında rentabellik aşağı düşəndə və bu xarakterli hadisələr baş verdikdə o dövlətdən heç bir maneə olmadan maliyyə köməyi alacaqdır. Maliyyə köməyi isə birbaşa və güzəştli kreditlər şəkildə ola bilər. Bu cür köməklər iqtisadiyyatda gizli subsidiyalar adlanır. Bütün bu subsidiyaların sonda yeganə bir məqsədi var: dövlət əlindən gələni edir ki, fermer məhsul istehsal etməklə məşğul olsun, daxili tələbatları ödəməyə və xaricə məhsul göndərməyə qadir olsun, mənfəətlə işləsin və dövlət büdcəsinə vəsait köçürə bilsin. Təcrübədə belə hallar da olur: yaradılmış mühit fermerə imkan verir ki, o, həddindən çox məhsul istehsal edir. Bu hal da hökumətin nəzərindən qaçmır. Hər il ABŞ hökuməti fermerlərdən

məhsul almağı nəzərdə tutan proqramlar tərtib edir. Bu proqramlar üç məsələnin həll edilməsini nəzərdə tutur. Birincisi, fermer təsərrüfatlarının istehsal etdiyi artıq məhsulu onlar üçün minimum gəlir əldə etməyə imkan verən qiymətlə almağı, ikincisi, fermerin artıq qalan məhsulunu sərfəli ödəmə haqqı almaq şərti ilə dövlət anbarlarında saxlamağı və üçüncüsü, artıq məhsulun ixrac olunmasında fermerlərə kömək göstərilməsini. Dövlətin köməyi ilə tərtib edilən bu cür proqramların sosial əhəmiyyəti bütün cəmiyyət üçün daha güclü olur: əgər bazarda konkret bir məhsulun qiyməti qalxırsa dövlət özünün anbarlarında saxladığı məhsulu bazara çıxarır və qiymətlərin qalxması qarşısını alır. Bununla dövlət digər sahibkarların səmərəli işləməsi üçün əhalinin isə həyat tərzinin yaxşılaşması üçün şərait yaratmış olur. Bu cür elmi əsası olan yanaşmalardan Azərbaycan Respublikasında fermer təsərrüfatlarının inkişaf etdirilməsində geniş istifadə olunmalıdır. Lakin bu gün real vəziyyət belədir ki, Azərbaycan fermeri öz inkişafının başlanğıc mərhələsindədir. Nəticədə Respublika hökuməti əsas kənd təsərrüfatı məhsulları üzrə idxalı azalda bilmir. Cədvəl 66-da bu haqda Dövlət Statistika Komitəsinin məlumatları verilmişdir. 2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə idxalın həcmi və xüsusi çəkisi çox yüksək olmuşdur. Ümumiyyətlə götürdükdə Azərbaycan 2000-ci ildə sosial-iqtisadi tələbatlarını ödəmək üçün 33 min ton ət və ət məhsulları, 780,8 min ton taxıl və taxıl məhsulları, 144,4 min ton süd və süd məhsulları, 81,4 min ədəd yumurta, 49,4 min ton kartof, 81 min ton şəkər, 13,3 min ton tərəvəz və bostan məhsulları, 13,5 min ton bitki yağları, 11,4 min ton meyvə və üzüm idxal etmişdir. Göründüyü kimi bu məhsulların hamısı respublikanın kənd təsərrüfatında istehsal oluna bilər və müəyyən səviyyə və keyfiyyətə qədər yüksəldirilərsə hətta ixrac oluna bilər.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının kəmiyyət və keyfiyyətcə cəmiyyətin tələbatlarına uyğun yüksəldilməsi bir sıra tədbirlər işləyib həyata keçirməyi tələb edir. Belə tədbirlərin müəyyən hissəsi son 4-5 ildə artıq həyata keçirilmişdir. Biz burada aqrar

islahat sahəsində həyata keçirilən tədbirləri və ilk növbədə torpağın özəlləşdirilməsini nəzərdə tuturuq. Bazar münasibətlərinə keçid və bu əsasda iqtisadiyyatı möhkəmləndirmək isə mütəxəssislərin və ölkəni idarəedənlərin qarşısında daha ciddi məsələlər qoyur. İlk növbədə tələb olunur ki, ölkədə siyasi sabitliklə yanaşı iqtisadi və sosial sabitlik də davam etsin. Yaddan çıxarmaq olmaz ki, həm siyasi və həm də iqtisadi və sosial sabitliyin mühüm amili ölkənin aqrar bölməsidir. Buna görə də kənd təsərrüfatının inkişaf etdirilməsi müasir Azərbaycan üçün bu gün də mühüm strateji məsələ olaraq qalmaqdadır. Aparılan aqrar islahatların komplekslilik səviyyəsi yüksəldilməlidir. Dünya miqyasında bu sahədə təcrübənin öyrənilməsi təsdiq edir ki, aqrar islahatlar olduqca mürəkkəb bir prosesdir və ümumi şəkildə iqtisadiyyatın digər sahələri və dövlət strukturları ilə aqrar bölmə arasında hüquqi, iqtisadi, sosial münasibətlərin köklü surətdə və elmi əsaslar üzərində yenidən qurulmasını özündə cəmləşdirir. Həll olası məsələlərdən ən mühümü aqrar-sənaye komplekslərinin bərpa edilməsi və fəaliyyətinin yaxşılaşdırılmasıdır. Bu silsilədən olan məsələlərə özəl emal müəssisələrinin və istehsal infrastrukturunun yaradılması da daxildir.

**Cədvəl 66**

**2000-ci ildə Azərbaycan Respublikasında əsas kənd təsərrüfatı məhsulları üzrə ehtiyatlar və mənbələri**

| Məhsulun adı | Ölçmə vahidi | Ehtiyatlar (cəmi) | O cümlədən, mənbələr üzrə | | | |
|---|---|---|---|---|---|---|
| | | | idxal | | İl ərzində ölkədə istehsal olunmuşdu | ilin əvvəlinə olan qalıq |
| | | | həcmi | xüs. çəkisi | | |
| Taxıl və taxıl məhsulları | Min ton | 2445,0 | 780,8 | 31,9 | 1508,9 | 155,3 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Ət və ət məhsulları | Min ton | 148,3 | 33,0 | 22,3 | 108,7 | 6,6 |
| Süd və süd məhsulları | Min ton | 1195,0 | 144,4 | 12,1 | 1031,1 | 19,5 |
| Yumurta | Min ton | 626,9 | 81,4 | 12,9 | 542,6 | 2,7 |
| Balıq | Min ton | 22,0 | 2,8 | 12,7 | 19,1 | 0,1 |
| Kartof | Min ton | 770,1 | 49,4 | 64,1 | 469,0 | 251,7 |
| Tərəvəz və bostan məhsulları | Min ton | 1134,5 | 13,3 | 1,2 | 1041,8 | 79,4 |
| Şəkər | Min ton | 81,2 | 81,0 | 100,0 | - | 0,2 |
| Bitki yağları | Min ton | 29,4 | 13,5 | 45,9 | 11,1 | 4,8 |
| Meyvə və üzüm | Min ton | 652 | 11,4 | 1,7 | 553,9 | 87 |

## § 5. Respublika iqtisadiyyatının bəzi inkişaf prespektivləri

Azərbaycanın gələcəkdə daha sürətlə inkişaf etməsi üçün çox yaxşı imkanı vardır. İnsan və təbii resursları nisbətən yaxşı şəraitdə yerləşib. Ölkənin yaxşı savadlanmış işçi qüvvəsi formalaşır. Kənd təsərrüfatı istər istehsal və istərsə də əhalinin məşğulluq səviyyəsini yüksəltmək baxımından iqtisadiyyatın mühüm sektoru kimi qalmaqdadır. Bu sahənin daxili imkanlarından hələlik lazımi səviyyədə istifadə edilmir. Təbii şərait, tələb olunan torpaq sahələrinin olması imkan verir ki, kənd təsərrüfatı xammalı bazasında müxtəlif sənaye məhsulları istehsal edilsin və həm daxili, həm də xarici bazara çıxarılsın. Məhsulların diversifikasiyası imkanları da böyükdür.

Məsələyə yaradıcılıqla yanaşılarsa üzümdən, pomidordan, kartofdan, alma və armuddan, ətdən, süddən, qozdan-fındıqdan, texniki bitkilərdən və s. kənd təsərrüfatı məhsullarından müxtəlif orijinal məhsullar hazırlayıb daxili və dünya bazarına çıxmaq olar. Ən önəmlisi budur ki, əhali üçün yeni iş yerləri yaradılar, dövlətin büdcəsinə isə çoxlu əlavə vəsait daxil olar.

Azərbaycan Respublikasının təbii resursları və xüsusən xam neft və qaz resursları vardır. Mütəxəssislərin fikrincə, ölkədə neft və qaz ehtiyatları çoxdur və təxminən 90-100 ilə çatar. XXI əsrdə Azərbaycanın dünyada neftlə zəngin olan 15 ölkəsi sırasına daxil olacağını söyləyənlərin sayı artır. Baxmayaraq ki, 1990- cı illərdə neft hasilatı azaldı, orta və uzaq perspektivdə onun çox sürətlə artacağı, 15-20 il ərzində hasilatın 35-40 milyon ton təşkil edəcəyi gözlənilir. İqtisadi geriliyin 1996-cı ildə dayandırıldığını (əsasən neftin hesabına) nəzər salıb, Beynəlxalq Bankın hesablamalarına görə 2003- cü ildə respublikanın Ümumi Daxili Məhsulu 20 % arta bilər. Lakin istehlakın həcmi çox yavaş sürətlə artacaq. Bunun iki səbəbini göstərmək olar: investisiya normasının yüksək olmasını və alınan kreditlərə görə faizlərin ödənilməsini.

Buna baxmayaraq əhalinin hər nəfərinə düşən istehlakın miqdarının 2003-cü ildə 1996-cı ilə görə 40-45 faiz artacağı gözlənilir. Lakin tədiyə balansının yumşaldılması və büdcə məhdudiyyətlərinin azaldılması baxımından neft kontraktlarından gözlənilən xeyir özünü 2004-2005-ci illərə qədər tam göstərə bilməyəcək. Təxminən 2005- ci ildə neft hasilatı istehsalının nəzərdə tutulan sosial-iqtisadi səmərəsi hərtərəfli özünü göstərə biləcək. İqtisadiyyatın ciddi struktur dəyişikliklərə məruz qalacağı dövrdə isə Azərbaycanda resurs çatışmazlığı həmişə hiss oluna bilər. Müasir dövrdə və yaranmış sosial-iqtisadi şəraitdə ölkənin neft imkanlarını şişirtmək, onu bütün problemlərinin həlli vasitəsi kimi qiymətləndirmək iqtisadi inkişaf üçün çox qorxuludur. Dünya ölkələrinin təcrübəsi sübut etmişdir ki, nefti və ya digər təbii resursu xammal şəklində ixrac edən ölkələrin əksəriyyəti

sonda gözlənilən nəticəni əldə edə bilmirlər. Məsələ burasındadır ki, neftin ixracı nəticəsində ölkəyə daxil olan xarici valyutanın özu ciddi iqtisadi və sosial problemlərin meydana çıxması mənbəyinə çevrilə bilir. Bu o zaman baş verir ki, nə vaxt ölkə neftdən əldə etdiyi mənfəəti xaricdən alınan real resurslara çevirir. Və sonra onlardan investisiya və istehlak üçün istifadə edir. Birbaşa istehlaka gedən xaricdən gətirilmiş çox işlənən ərzaq və sənaye məhsulları aydın məsələdir ki, ən yaxşı halda cari tələbatı ödəyir və iqtisadiyyatın gələcəkdə inkişaf etdirilməsi üçün heç bir zəmin hazırlamır. İnvestisiya üçün ayrılan vəsait bundan fərqli olaraq daha səmərəli görünür. Lakin sonda bu istənilən nəticəni vermir. Ona görə ki, investisiyadan istifadə edib, istifadəyə verilən müəssisələrin məhsulları əksər halda istər daxili, istərsə də xarici bazarlardakı çox qızğın rəqabətə davam gətirə bilmirlər. Başlıca səbəb yenə də odur ki, xam neftin satışından əldə edilən vəsait hesabına daxili bazar müxtəlif çeşidli, yaxşı keyfiyyətli və hətta ucuz ərzaq və sənaye malları ilə doldurula bilər. Buna görə də çalışmaq lazımdır ki, dünyanın bir neçə xam neft ixrac edən ölkələrində baş verən xoşagəlməz hallar Azərbaycanda da baş verməsin. Bu xoşagəlməz halın mahiyyəti ondadır ki, neftdən daxil olan mənfəətin ilbəil artması ölkələrin sənaye və kənd təsərrüfatı bölmələrində istehsalın geriliyinə və ən yaxşı halda isə stoqnasiya vəziyyətinə düşməsinə gətirib çıxarır. Belə hal isə bir qayda olaraq ölkədə sosial və iqtisadi gərginliklərin meydana çıxması üçün yeni mənbə yaratmış olur. Hesab edirik ki, belə hallar Azərbaycanda baş verməyəcək. Bu sahədə elmtutumlu məqsədli proqramlar işlənib hazırlanmalıdır.

Bəs nə etmək lazımdır ki, neftdən əldə edilən mənfəət (neft dolları) hətta uzunmüddətli perspektivdə cəmiyyətə xeyir gətirsin?

Bunun üçün ilk növbədə iqtisadiyyatın qeyri-neft bölmələrində prioritet sahələr təyin edilməli və onların inkişaf etdirilməsini nəzərdə tutan məqsədli proqramlar tərtib edilməlidir. Əsas güc mərkəzi kimi fikir yüngül və yeyinti sənaye müəssisələri üçün elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirən texnika və texnologiyaların

alınmasına verilməlidir. Burada maliyyə mənbəyi kimi neftdən alınan gəlirdən istifadə edilməsi istənilən nəticələr verə bilər. Sənayenin digər sahələrini də məsələn,metallurgiyanı, maşınqayırmanı, kimya sahəsini və s. bu yolla dirçəltmək və onları yeni texnika və texnologiya ilə təsis etmək lazımdır. Yəni çalışmaq lazımdır ki, neft mənfəəti istehlak səmərəsi verən maliyyə mənbəyindən istehsal səmərəsi verən maliyyə mənbəyinə çevrilsin. Bu yolla əldə edilən istehsal sahələri cəmiyyətin üzvlərini iş yerləri ilə təmin edər, büdcəyə samballı vəsait gətirər, tikilən müəssisələr isə neft dollarından gələcək nəsillərə yadigar kimi qalar. Neftdən alınan gəlirin səmərəliliyini neft bölməsinin özündə də artırmaq olar. Bunun üçün:

Birincisi, neft emalı zavodlarından tam istifadə etmək lazımdır. Məlumdur ki, hələ keçmiş SSRİ dövründə respublikamızda 20 milyon ton neftdən də çox xam neft emal edə bilən zavodlar tikilmişdi. Bu gün onların gücündən az istifadə edilir. Bir səbəb də emal etmək üçün xam neftin olmamasıdır. Digər səbəb də var. Texnoloji avadanlıqların modernləşdirilməsi və yaxud da yeniləşməsi zərurəti ortaya çıxıb. Hər iki halda tələb olunan vəsaiti neft dolları hesabına əldə etmək olar. Məsələ bu şəkildə həll edilərsə, biz eyni zamanda xarici investorların diqqətini iqtisadiyyatın qeyri-neft və neft emalı sahələrinə cəlb etmiş olarıq. Bu yolla minlərlə iş yerləri yaranar və ölkənin iqtisadiyyatı güclənmiş olar. Həm dövlət və həm də əhali istehsaldan varlanar.

İkincisi isə respublikanın öz gücü ilə çıxardığı neftin həcmini artırmaq lazımdır.

Neft alınan gəlirdən istifadə edilməsinə yaradıcı münasibət bəslənilməsinin zəruriliyi Birləşmiş Millətlər Təşkilati və Beynəlxalq Bankın təşkil etdikləri tədqiqatların nəticələri də sübut etmişdir. 1970-1989- cu illəri əhatə edən tədqiqat işi ümumilikdə 97 ölkəni əhatə etmiş və aydın olmuşdur ki, təbii resurslar ixrac edən ölkələrin sosial-iqtisadi inkişafı, belə resursları olmayan ölkələrlə müqayisədə daha zəif olmuşdur. Xam neft ixracından əldə olunan mənfəətin xərclənməsi məsələsinin aktuallığını bir cəhət də artırır. Bu da ABŞ dolları ilə milli

valyutanın (manatın) məzənnəsidir. Məsələ burasındadır ki, xam neftin ixracının ilbəil artması ilə paralel olaraq xarici valyutanın ölkəyə axını da güclənir. Bunun nəticəsində milli valyutanın (manatın) real məzənnəsi də istər-istəməz aşağı düşür (müxtəlif illərdə söhbət ancaq aşağı düşmənin səviyyəsindən gedə bilər). Manatın real dəyişilmə məzənnəsinin aşağı olması o deməkdir ki, dolların manatla qiyməti malların ümumi qiymətinə nisbətən az qalxar, ya heç qalxmır, ya da ki, hətta aşağı düşər. Nəticədə müəyyən məbləğdə dollar əldə etmək üçün nisbətən daha az miqdarda manat tələb olunur. Düzdür, ilk baxışda bu yaxşı təsir bağışlayır. Lakin məsələyə dərindən yanaşdıqda görərik ki, bu hal milli məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabət dözümlülüyünə güclü mənfi təsir edir. Ona görə manatın məzənnəsinin süni yolla aşağı səviy-yədə saxlanılması idxal mallarının milli pulla qiymətini aşağı salacaq. İstehlakçılar da daha ucuz qiymətli əmtəələri almağa başlayacaqlar. İtirən isə ölkə sahibkarları olacaq. Xarici firmalara nisbətən çətin şəraitdə fəaliyyət göstərən yerli kiçik və orta sahibkarların vəziyyəti öz məhsullarını çətinliklə satdıqlarına (və yaxud heç sata bilmədiklərinə) görə bir az da çətinləşəcəkdir. Çünki onlar istehsal etdikləri məhsulları maya dəyərindən aşağı sata bilməzlər. Belə hal ixracın da həcmini nəzərə çarpacaq dərəcədə azalda bilər. Neft satışından əldə edilən mənfəətin xərclənməsi məsələsinə yaradıcı münasibət bəslənməsə Dünya Bankının hesablamalarına görə ümumi ixracın həcmi 2003- ci ildən sonra azala bilər. Neft dollarının xərclənməsi ilə bağlı göstərdiyimiz mənfi halların iqtisadiyyata təsirini azalmaq üçün bir səmərəli yol varsa o da pulların çox hissəsini iqtisadiyyatın perspektivli qeyri-neft və neft emalı sahələrinə yönəltmək və bu yolla da yeni və müasir iş yerləri yaratmaqdır. Süni idarəetmə yolu ilə manatın dollara nisbətən məzənnəsinin tənzimləndirilməsi isə ölkə sahibkarlarının nisbətən xeyrinə olsa da sonda əhalinin yaşayış səviyyəsinə mənfi təsir göstərir.

Gələcək dövrlərdə Azərbaycan Respublikasının sənayesi sürətlə inkişaf edə bilər. Bu nəticəni çıxarmağa ölkənin malik olduğu ilkin

şərtlər və kifayət miqdarda olan təbii resurslar imkan verir. Təbii məhdudiyyət rolunu isə ancaq suyun nisbətən az olması və quru yanacağın olmaması oynayır. Təbii şərtlərə və resurslara bir neçə aspektdə yenidən baxıla bilər. Yenidən öyrənməkdə məqsəd yaxın gələcəkdə sənayeni istehsal və ərazi cəhətdən optimal inkişaf etdirməkdir. İlk növbədə təbii resursların sənaye üçün istifadə edilməsi mümkünlüyü öyrənilməlidir. Resursların çox kompanentliliyi aşkar edilməli və onların kompleks emal edilməsi imkanları ortaya çıxarılmalıdır. Sənayenin səmərəli strukturunu formalaşdırmaq üçün vacib sayılan məsələ təbii resursların və təbii şəraitin hansı istiqamətdə dəyişəcəklərini qabaqcadan təyin etməyə çalışmaq lazımdır. Bu ilk növbədə sənayenin mütərəqqi strukturunu formalaşdırmaq üçün vacib məsələdir. Ən başlıca məsələlərdən biri sənayeni ərazi üzrə təşkil edən amil və şərtləri öyrənərkən ölkənin sərancamında olan bütün növ resursların həcminin təyin edilməsi və onlardan istifadə edilməsi imkanlarını araşdırmaqdır. Sənaye üç istiqamətdə inkişaf etdirilməlidir.

**Birinci istiqamətin** göstəricisi sənayenin ümumi məhsulunun müqayisəli qiymətlərlə həcmi ola bilər. Yəni hansı yolla olursa-olsun, sənayenin ümumi məhsulunun həcmi artırılır. **İkinci istiqamət** sənayenin sahə strukturunun təkmilləşdirilməsini nəzərdə tutur və bu sahədə həyata keçirilən tədbirlərin nəticəsinə qiymət vermək üçün sahə strukturunu xarakterizə edən sistem göstəricilərdən istifadə olunmalıdır. Sənayedə fəaliyyət göstərən sahələrin sayı, tərkibi, onların arasında formalaşmış nisbətlər, sahələrdə buraxılan məhsulların nomenklaturası, çeşidi, rəqabət xarakteristikaları və s. bu kimi göstəricilər belə göstəricilərdəndir. Sənayenin sahə strukturunun inkişaf etdirilməsi təbii resurslardan tam və səmərəli istifadə edilməsinə əsaslanmalıdır. **Üçüncü istiqamət** sənayenin ərazi üzrə strukturunun yaxşılaşdırılması olmalıdır.

Əlbəttə, üç istiqamətin üçü də bir-biri ilə qarşılıqlı bağlı olan məsələlərdir. Lakin üçüncü istiqamətin öz xüsusiyyətləri vardır və ölkənin sosial-iqtisadi tərəqqisinə təsir etməsi baxımından digər inkişaf

istiqamətlərindən fərqlənir. Sənayenin ərazi üzrə təkmilləşdirilməsi bir neçə istiqamətdə ölkə üçün səmərəli ola bilər: yeni iş yerləri yaranar, əhalinin ölkə daxili miqrasiyası zəifləyər, əhalinin yaşayış tərzi dəyişər, sosial mühit sağlamlaşar. Lakin bazar iqtisadiyyatı şəraitində əsas məsələ vətənimizdə sahibkarlar ordusunu yaratmaq olmalıdır. Bu məsələ də təbii resursdan istifadə edilməsinə əsaslanan iqtisadi siyasətin həyata keçirilməsini, ayrı-ayrı bölgələrin kompleks inkişafını tələb edir. Bunun üçün bütün resurslar ayrıca və kompleks şəkildə iqtisadi cəhətdən qiymətləndirilməlidir.

Azərbaycan Respublikasında sənayeni və xüsusən də onun neftlə əlaqədar olmayan sahələrini gələcəkdə inkişaf etdirmək üçün təbii zəminləri vardır. Bunlardan biri respublikanın münasib relyef şəraitinə mənsub olması (ərazinin 60 %-i dağlıq sahələr olsa da sənayeni inkişaf etdirmək üçün relyef şəraiti vardır) və digəri kifayət qədər yanacaq-enerji və mineral-xammal resurslarının olmasıdır.

Ümumi şəkildə geoloji cəhətdən öyrənilmiş bir sıra faydalı qazıntılar vardır. Bunlardan filiz mənşəli faydalı qazıntıları (dəmir, xrom, mis, qurğuşun, kobalt, alüminium, qızıl, gümüş və s.) qeyri-filiz faydalı qazıntıları (neft, qaz, kömür, torf, daşduz, mineral rənglər, sular, kükürd kolçedanı, əhəng, kvars qumu və s.) nadir elementləri, mineral suları (hidrokarbonlu, hidrokarbon xloridli, hidrokarbon- xlorid- sulfat) və s. göstərmək olar.

Münasib ərazinin və təbii şəraitin olması da sənayenin emal sahələrinin inkişafı üçün yaxşı imkan yaradır.

Dünyada məlum olan iqlim qurşaqlarının çoxunun Azərbaycanda olması, 800 km –dən çox bir məsafədə Xəzər dənizi ilə əhatə olunması sənayenin xammal bazasının genişləndirilməsi üçün yaxşı şərait yaradır.

Azərbaycan Respublikası ərazisinin süni balıq yetişdirilməsi üçün gözəl inkişaf perspektivləri vardır. Bunun başlıca amili havanın yüksək orta illik hərarəti və il ərzində günəşli günlərin çox olmasıdır.

Sənayedə istifadə olunması üçün Azərbaycanın kifayət qədər bitki növləri vardır. Təbii bitki resursları imkan verir ki, respublikada qida

məhsulları üzrə bolluq yaradılsın, yüngül və yeyinti sənayelərinin inkişafı üçün xammal bazası genişləndirilsin.

Azərbaycan Respublikasında sənayenin gələcək inkişafını təmin etmək üçün təbii zəminlərdən başqa, iqtisadi, elmi, texniki və texnoloji zəminlər də mövcuddur. Keçmiş SSRİ dövründə mövcud olan müəssisələrin çoxu ya heç ya da tam gücü ilə işləmir. Nisbətən köhnəlsə də Azərbaycan Respublikasında sənayeni inkişaf etdirmək üçün material-texniki baza kifayət qədər vardır. Əsas fondların dəyəri 2000-ci ildə 92,3 trilyon manat təşkil etmişdir ki, bunun da 69,7 faizi əsas istehsal fondlarının payına düşür. Sənayenin sərəncamında olan əsas fondların dəyəri isə baxılan dövr üçün 29,3 trilyon manata bərabər olub. Nəzərə alsaq ki, hazırda bu fondlardan istifadə səviyyəsi tələb olunandan çox aşağıdır, sənayeni gələcəkdə inkişaf etdirmək üçün daxili imkanların olması məlum olar.

Əldə olunan əsas istehsal fondları təbii resurslarla birlikdə sənayenin ərazi cəhətdən təşkilini yaxşılaşdırmaq üçün münasib şərait yaradır. Çatışmayan cəhət odur ki, əsas istehsal fondları Azərbaycanın iqtisadi rayonları arasında qeyri-bərabər şəkildə formalaşmışdır. Abşeron rayonunda əsas istehsal fondlarının əksər hissəsi yerləşdirilmişdir. Əli-Bayramlı–Salyan, Gəncə-Daşkəsən, Mingəçevir-Yevlax kimi sənaye qovşaqlarında əsas istehsal fondlarının çox az hissəsi (12-15%) cəmlənmişdir. Şəki-Zaqatala zonasında, Naxçıvan Muxtar Respublikasında, Lənkəran-Astara zonasında isə əsas istehsal fondları lap azdır.

Bundan başqa, nəqliyyat şəbəkəsi də Azərbaycanda sənayeni inkişaf etdirmək üçün zəmin rolunu oynayır. Demək olar ki, respublikanın bütün sənaye qovşaqlarının dəmir yollarından aralılığı 30 km–ə qədərdir. Relssiz nəqliyyatlar üçün isə bu məsafə orta hesabla 10 km təşkil edir.

Respublikada dövlət mülkiyyətinin özəlləşdirilməsi sürətlə gedir. Bu prosesin özü də sənayenin gələcək inkişafı üçün yaxşı zəmindir. Söhbət burada əsasən özəlləşdirmənin kompleks və səmərəli həyata

keçirilməsindən və bu sahədə iqtisadi rayonlara maksimum sərbəstlik verilməsindən gedə bilər.

Bazar iqtisadiyyatı şəraitində ölkənin əhalisi və onun əmək qabiliyyətliliyi sənayenin inkişafı üçün mühüm amildir. Azərbaycan Respublikasında bu cəhətdən çoxlu istifadə edilməyən daxili imkanlar vardır. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2001- ci ilin yanvar ayının 1-nə respublika əhalisinin ümumi sayı 8.081 min nəfərə bərabər olmuşdur. Müqayisə üçün göstərək ki, 2000-ci ildə isə 7.131 min nəfər təşkil edirdi. Deməli, keçən on il ərzində təbii artım bir milyona yaxın olmuşdur. Əhalinin ümumi sayında kişilərin xüsusi çəkisi 49%-ə yaxındır. Əmək ehtiyatlarının xüsusi çəkisi 2000- ci ildə 54%-dən çox təşkil etmişdir ki, bu 5,6 milyon nəfərdən də çoxdur. Bundan başqa, Azərbaycanda iki yüz mindən çox təcrübəli sənaye işçisi var. Onlar işləmirlər. Bu cür vəziyyətin əmələ gəlməsi 1990-cı illərin əvvəlində baş vermiş məlum hadisələrlə bağlıdır.

2000-ci ildə məşğul olan əhalinin ümumi sayının cəmi 7%-i sənayedə cəmlənmişdir. Bu bazar iqtisadiyyatı üçün yaxşı göstərici hesab edilə bilməz. Müqayisə üçün qeyd edək ki, elə dövr olub ki, sənayedə çalışanların xüsusi çəkisi iqtisadiyyatda çalışan fəhlə və qulluqçuların tərkibində 25% təşkil edib.

Ümumiyyətlə götürdükdə yaxın gələcəkdə Azərbaycan Respublikasında işçi qüvvəsinin təbii artımı, müxtəlif səbəblərdən indi faydalı ictimai işlə məşğul olmayan iqtisadi fəal əhalinin istehsala cəlb edilməsi, elmi-texniki tərəqqi nailiyyətlərinin istehsala tətbiq edilməsi nəticəsində xalq təsərrüfatının digər sahələrində və sənayenin özündə ixtisara düşən fəal və ixtisaslı işçilər üçün yeni iş yerlərinin yaradılması zəruriliyi, səna-yenin həm intensiv (yüksək texniki – texnoloji səviyyədə yeni istehsalların yaradılması, fəaliyyətdə olan müəssisələrin yenidən qurulub texniki silahlandırılması və avtomat müəssisələrinin yaradılması) və həm də ekstensiv (əl əməyi üstünlük təşkil edən, mexanikləşdirilmə və avtomatlaşdırma səviyyəsi nisbətən aşağı olan, hətta ilk vaxtlar yerli tələbatların ödənilməsini nəzərdə tutan və həm də

yerli resurslardan istifadəyə və əl əməyinə əsaslanan kiçik və orta müəssisələrin yaradılması və fəaliyyətdə olan müəssisələrin bu istiqamətdə profilinin dəyişdirilməsi) inkişaf etdirilməsi üçün gözəl zəmindir. Bu sahədə İqtisadi İnkişaf Nazirliyinin əsas vəzifəsi məqsədli proqramlar tərtib edib həyata keçirmək və ilk növbədə daxili imkanları səfərbər etməklə ölkədə işsizliyin azaldılmasına, işləyən müəssisələrin səmərəliliyinin yüksəldilməsinə, iqtisadi rayonların kompleks inkişaf etdirilməsinə, iqtisadiyyatın respublika ərazisində proporsional yerləşdirilməsinə və ən başlıcası isə maddi-enerji, təbii və insan resurslarından tam, səmərəli və kompleks istifadə edilməsinə nail olmaqdan ibarət olmalıdır.

Respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri formalaşdırılarkən nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatına keçid şəraitində və ondan sonra respublikanın sosial-iqtisadi inkişafında sənayenin rolu daha da artır. Lakin bu hər hansı bir artım yox, istehsalın səmərəliliyinin qat-qat yüksəlməsi ilə müşahidə olunan artım olmalıdır. Ümumi şəkildə götürdükdə istehsalın səmərəliliyinə təsir edən amil və şərtləri iki mühüm qrupa bölmək olar. Birinci qrupa sənayenin və onun sahələrinin öz xüsusiyyətindən irəli gələn amillər daxildir. İkinci qrup amillərə isə sənayenin ərazilər üzrə təşkilindən irəli gələn amillər daxildir. İstehsalın idarə olunmasında hər iki qrup amillərə ciddi fikir verilməsini bazar iqtisadiyyatının yazılmayan qanunları tələb etsə də bu gün müxtəlif səbəblər üzündən istehsalın səmərəliliyinin yüksəldilməsinin ərazi amillərindən zəif istifadə edilir. Bu da istehsalın bazar iqtisadiyyatı şəraitində tələb olunan səviyyədə yüksəldilməsinə imkan vermir.

Hazırkı dövrdə sənaye istehsalının səmərəliliyinin yüksəldilməsində ərazi amillərinə diqqətin artırılması və bu baxımdan istehsalın regionlar üzrə təşkilinin təkmilləşdirilməsi zəruriliyi aşağıdakılarla izah olunur: mülkiyyətin formasının dəyişilməsi və sahibkarlığın inkişafı; ərazilərin iqtisadi sərbəstliliyinin yüksəldilməsi zəruriliyi; ərazilərin və orada yerləşdirilən sənaye vahidlərinin ixtisaslaşma və

kooperasiyalaşma səviyyəsini maksimum mümkün olan həddə qədər yüksəltmək; ərazidə yaşayan əhalini faydalı işlə təmin etmək və elmi-texniki tərəqqi və onun nailiyyətlərinin istehsala gecikmədən tətbiq etmək yolu ilə yüksək əmək məhsuldarlığına nail olmaq zəruriliyi; regionun optimal səviyyədə kompleks inkişafını bazar iqtisadiyyatı tələblərinə uyğun təmin etmək; gündəlik tələbat malları üzrə ərazilərin özünütəminatını genişləndirmək və bu işi bazara keçidlə əlaqədar görülən tədbirlərlə yanaşı yerinə yetirmək zəruriliyi.

Bütün bunları təcrübədə həyata keçirmək üçün istehsalın ərazilərdə optimal təşkil edilməsi yolu ilə respublikanın sosial iqtisadi inkişafını sürətləndirmək proqramı işlənib hazırlanmalıdır. Proqramın bölmələri hər bir iqtisadi rayona həsr olunmalı və onların kooperasiya əlaqələri optimallaşdırılmalıdır.

Azərbaycan Respublikasında əmək resursları artıqlığı mövcud olduğuna görə sənayenin əmək tutumlu sahələrinin üstün inkişaf etdirilməsinə diqqət artırılmalıdır. Nəzərə alınmalıdır ki, qadınların arasında işsizlər daha çoxdur. Qadınların istehsala cəlb edilməsi probleminin də aktuallığı bazar iqtisadiyyatında artır. Qadınlara xoş gələn iş yerlərinin yaradılmasını nəzərdə tutan məqsədli proqramların tərtib edilib həyata keçirilməsi vaxtı çatmışdır.

Sənayenin inkişafı və xüsusən də emal müəssisələrinin kütləvi şəkildə yaradılması zəruriliyi bir mühüm cəhətdən də meydana gəlir. Bu cəhət kənd təsərrüfatı ilə əlaqədardır. Statistik məlumatlara görə iqtisadi fəal əhalinin 40%-dən çoxu kənd təsərrüfatında çalışır. Say etibarı ilə bu 1,6 milyon nəfər deməkdir. Sirr deyildir ki, bunların çoxu özəlləşdirmə nəticəsidə quru torpaq alan və onu becərməyə çətinlik çəkən rayon və kənd əhalisidir. Kənd təsərrüfatında islahatlar öz bəhrəsini hərtərəfli göstərməyə başladıqdan və özəl iri kənd təsərrüfatı müəssisələri yaradıldıqdan sonra, kənd təsərrüfatı proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, istehsalın təşkilinin yaxşılaşdırılması, idarəetmənin optimallaşdırılması nəticəsində yaxın gələcəkdə çoxlu sayda kənd təsərrüfatı işçisi ixtisara düşə bilər. Onların da işlə təmin

edilməsi ağırlığı yenə də sənayenin üzərinə düşəcək. Bu təkcə bizim respublikamızda belə deyildir. Bütün dünya ölkələri kənd təsərrüfatında işləyənlərin sayını minimuma (5-10%-ə) çatdırmış və ilk növbədə azad olan iqtisadi fəal əhalini işlə, sənayedə iş yeri yaratmaqla təmin etmişdir.

Sənayenin qeyri-neft bölməsində yüngül sənayenin inkişaf etdirilməsi imkanları daha çoxdur. Belə imkanlar həmişə olub və tarix göstərir ki, dövlət tərəfindən müəyyən qayğı gös-tərilən dövrlərdə Azərbaycanda yüngül sənaye inkişaf etdirilib. Məsələn, keçmiş SSRİ adlanan imperiya dağılmamışdan qabaq 220- dən çox yüngül sənaye müəssisəsi fəaliyyət göstərirdi və yüngül sənayenin ümumi sənaye məhsulundakı xüsusi çəkisi 20%-dən çox təşkil edirdi. Sənayedə işləyənlərin 25,2%-i burada çalışırdılar. Bu o dövrlər üçün (1985-1990-cı illər üçün) 100 mindən çox fəhlə və qulluqçu demək idi. İndi bazar iqtisadiyyatı şəraitində yüngül sənayeni o dövrlərdəkindən də səmərəli inkişaf etdirmək üçün əlverişli şərait yaranmışdır. Məsələ burasındadır ki, o vaxtlar Azərbaycanın yüngül sənayesi əsasən Moskvanın tərtib etdiyi perspektiv planlara uyğun inkişaf etdirilirdi və əsas və başlıca nöqsan o idi ki, yerli xammalın hamısı kompleks emal edilmirdi. Məsələn, pambıq əsasən mahlıc şəkilində reallaşdırılırdı. Digər kənd təsərrüfatı malları da xam material şəkilində mərəkəzə ötürülürdü. Müstəqillik əldə etdiyimiz indiki zamanda problemlərin həllinə yaradıcılıqla yanaşılarsa biz yüngül sənayeni hazır (son) məhsul istehsalı istiqamətində inkişaf etdirə bilərik.

Ümumiyyətlə gələcək dövrlərdə Azərbaycanda yüngül və yeyinti sənayelərini sürətlə inkişaf etdirmək üçün lazımi iqtisadi şərait (yanacaq-enerji bazası) müxtəlif tərkibdə, çeşiddə və həcmdə maddi baza, hazır məhsulun reallaşdırılması üçün daxili və xarici bazar münasib istehsal gücləri və ixtisaslı işçilər vardır. Yeyinti və yüngül sənayeni səmərəli inkişaf etdirmək üçün Azərbaycan ərazisində coğrafi tədqiqatları gücləndirmək, müəssisələrin məqsədyönlü yerləşdirilməsi sxemini tərtib etmək və yerli resurslardan və ilk növbədə insan

resurslarından səmərəli və tam istifadə etməklə yüngül və yeyinti sənayelərin sahə komplekslərinin ərazi cəhətdən formalaşmasını elmi cəhətdən formalaşdırmaq lazımdır. Ərazilərin öyrənilməsi yeyinti sənayesinin inkişafında mümkün daxili imkanların da ortaya çıxmasına səbəb olar. Məsələn, balıqçılığı və xüsusən də süni yetişdirmə yolu ilə balıqçılığı və münasib yeyinti sənaye sahəsini inkişaf etdirmək üçün ərazimizdə yaxşı şəraitin olması mütəxəssislər tərəfindən təsdiq edilir. Lakin buna baxmayaraq Azərbaycanda balıq sənayesi yaxşı inkişaf etməmişdir. Bunun bilavasitə nəticəsi də budur ki, il ərzində adambaşına istehlak edilən balıq məhsullarının həcminə görə Azərbaycan Respublikası dünya ölkələri arasında axırıncı yerlərdən birini tutur. Məsələn, əgər respublikamızda adambaşına istehlak edilən balıq və balıq məhsullarının miqdarı cəmi 2,7 kq. təşkil edirsə (2000-ci il) bu rəqəm Rusiyada 9,9 kq (1999), ABŞ-da 10 kq (1987), Almaniyada 15,1 (1998), İtaliyada 17,3 kq (1996) təşkil etmişdir.

Neft emalı, neftin dərin emalı sahəsində daxili imkanlar kifayət qədərdir. Azərbaycanda 22 milyon ton neft emal etmək olar. Hazırda isə 5-6 milyon ton neft emal edilir. İstehsal güclərindən istifadəni layihə səviyyəsinə qaldırmaqla neftayırma sənayesinin intensiv inkişafını təmin etmək olar.

Qeyd edək ki, sənayenin və onun digər sahə və yarımsahələrinin inkişaf etdirilməsi imkanları böyük olduğuna görə, bazar iqtisadiyyatına keçidlə əlaqədar olan bütün texniki, təşkilati, iqtisadi, sosial-psixoloji, struktur tədbirlər sənayenin hərtərəfli inkişaf etdirilməsi baxımından həyata keçirilməlidir. Məsələ brasındadır ki, sənayenin inkişafı istər-istəməz xalq təsərrüfatının digər sahələrinin və ilk növbədə kənd təsərrüfatının inkişafına da təkan vermiş olacaq. Bu cür yanaşmağın səmərəliliyi sənayecə inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi ilə çoxdan sübut edilmişdir. Sənayenin məqsədyönlü inkişafı iqtisadiyyatın digər sahələrinin məqsədyönlü inkişafını təmin etməyə imkan verir. Deməli, proseslər elmi cəhətdən idarə olunmalı və optimal

variantlar üzrə həm sənayenin və həm də bütövlükdə iqtisadiyyatın səmərəli inkişafını təmin etmək lazımdır.

## ƏDƏBİYYAT SİYAHISI


1. A.A.Əliyev, A.Ş.Şəkərəliyev. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002.
2. A.Ş.Şəkərəliyev. Keçid iqtisadiyyatı və dövlət. B., 2000
3. A.Ş.Şəkərəliyev. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. B., 1999
4. Ə.Q.Əlirzayev. Azərbaycanın iqtisadi inkişafının konsepsi-yası və proqramı. B., 1999
5. Ə.Q.Əlirzayev. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları. B., 2000
6. İ.Ş.Dadaşov. Real bazar iqtisadiyyatının atributları. B., 1996
7. İ.Ş.Dadaşov. Elmi-texniki tərəqqinin istiqamətləri və onların səmərəliliyi. B., 1992
8.İ.Ş.Dadaşov. Sənayedə özəlləşdirmə aparılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad elmləri: nəzəriyyə və praktika. B., 2002
9. Azərbaycan nefti dünya siyasətində. B., 1997
10.Azərbaycan sənayesi (statistik məcmuə). B., 2001
11. Azərbaycanın beynəlxalq çoxtərəfli qarşılıqlı əlaqələri. B., 1997
12. M.Abdullayev. Azərbaycan-Türkiyə əlaqələri. B., 1998
13. T.Əliyev və b. Azərbaycanda kiçik biznesin təşkili və idarə edilməsinin bəzi səmtləri. B., 2001
14. Доклан ООН. Человеческие развития в Азербайджане. Б., 1996
15. Z.Həsənova. Dağ-mədən sənayesi və ətraf mühit. B., 1996
16. M.Qasımov. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). B., 1997

17. Всемирный Банк. Знание на службы развития: отчет о мировом развитии. 1999
18. Домичев В.И. Международная торговля. М., 2000.
19. Всемирный Банк Азербайджан: Оценка бедности. Доклад №156001 – Аз 27 феврал 1997.
20. Экономика. Учебник. М., 1999
21. Мировая экономика. Учебник, М., 1999
22. Ломакин В.К. Мировая экономика. М., 1998
23. Кудров В.М. Мировая экономика. М., 1999
24. The world Bank Global Economic Prospects and the Developinq Countries. 2002